AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 95 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI

NAXÇIVAN - 2019

## PLENAR İCLAS

**SALEH MƏHƏRRƏMOV**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVANDA ALİ TƏHSİLİN İNKİŞAFI

**Açar sözlər:** *Naxçıvanda ali təhsil, ali təhsil ənənələri, kadr hazırlığı, tələbə təhsilinə kompleks yanaşma, təhsil sahəsində dövlət siyasəti*

**Key words:** *higher education in Nakhchivan, higher education traditions, staff training, a comprehensive approach to higher education, state policy in education*

**Ключевые слова:** *высшее образование в Нахчыване, традиции высшего образования, обучение персонала, комплексный подход к высшему образованию, государственная политика в сфере образования*

Naxçıvan bölgəsi Azərbaycan xalqının ən qədim yurd yerlərindən, ulu əcdadlarımızın müqəddəs ruhunu qoruyub saxlamış, azərbaycançılıq üçün bütün atributların, maddi və mənəvi keyfiyyətlərin daşıyıcısı kimi şöhrət tapmış məskənlərimizdən biri olmuşdur. Diyarın bütün tarixində və onun ayrı-ayrı inkişaf mərhələlərində yaranmış böyük mədəni sərvətlər - qalalar, istehkamlar, unikal memarlıq abidələri, türbələr, pirlər, saraylar, köşklər və s. Azərbaycan xalqının tarixi-mədəni irsidir. Bölgədə islamiyyətin yayıldığı ilk dövrlərdən başlayaraq məscidlərin, məktəb və mədrəsələrin geniş şəbəkəsinin yaranması da milli və dini dəyərlərimizin ifadəsidir. Mənbələr göstərir ki, hələ orta əsrlərdə Naxçıvanda mükəmməl biliyə və mütəxəssis bacarıqlarına malik nəsil yetişdirmək məqsədilə yüksək səviyyədə tədris müəssisələri - mədrəsələr fəaliyyət göstərmişdir. Şəhərin iki ali dərəcəli mədrəsəsinin fəaliyyətinə dair bir Elxani fərmanından aydın olur ki, bu mədrəsələrdə ciddi daxili intizam qaydaları mövcud olmuşdur. Bu “Qaydalar” tələbələrin təhsil-tərbiyəsinə qayğı və diqqətin təzahürü, bu işə ciddi yanaşma və münasibətin, həqiqi tələbkarlığın göstəricisidir. Həm müəllim, həm də tələbələr üçün nəzərdə tutulmuş qaydalardan görünür ki, ali tədris müəssisəsi kimi bu mədrəsələr dövrünün qabaqcıl tədris-tərbiyə prinsipləri, yüksək pedaqoji tələbləri əsasında fəaliyyət göstərmişlər. Sonralar da Naxçıvan və Ordubad mədrəsələrində dövrün biliklərinə yiyələnmiş şəxslər hazırlanırdı ki, onlar dini və dövlət idarələrində, həmçinin müstəqil şəkildə elmi tədqiqatlarla, yaradıcılıq işləri ilə məşğul olurdular.

Bölgədə müasir dövrün tələblərinə cavab verə biləcək müəyyən ixtisaslar üzrə mütəxəssis hazırlığı Naxçıvan Muxtar Respublikasının yaranması və inkişafının müxtəlif mərhələləri ilə bağlıdır. 1921-ci ildə Naxçıvanın Muxtar Respublika statusunda, Azərbaycanın tərkibində qalmasını təsdiqləyən beynəlxalq Moskva və Qars müqavilələri imzalandıqdan sonra bölgədə mədəni həyatın dirçəlməsinə və təhsil sahəsində irəliləyişin, yenilik meyillərinin güclənməsinə zəmin yarandı. Muxtariyyətin ilk dövrlərində təsərrüfat, mədəniyyət və təhsil sahəsində işləyə biləcək kadrlar hazırlamaq məqsədilə orta ixtisas məktəbləri (texnikumlar) yaradıldı ki, bu təhsil müəssisələrinin məzunları bölgənin təsərrüfat, təhsil, sosial-mədəni həyatının fəal iştirakçısı oldular. XX əsrin 20-ci illərində regionda fəaliyyət göstərən Naxçıvan Pedaqoji Texnikumunu, Naxçıvan Pedaqoji Qız Məktəbini və Naxçıvan Kənd Təsərrüfat Texnikumunu ali təhsilə gedən yolun başlanğıc mərhələsi kimi qiymətləndirmək olar. 1939-1956-cı illərdə fəaliyyət göstərən Naxçıvan ikiillik Müəllimlər İnstitutu da ali təhsil yolunda bir mərhələ idi. Bu təhsil müəssisəsi regionun ümumtəhsil məktəblərinin müəllim kadrları ilə təmin edilməsində mühüm rol oynamışdır. Məktəbin məzunlarından bir çoxu sonralar müxtəlif elm sahələri üzrə tədqiqatçı alim, şair və yazıçı, dövlət və təsərrüfat işçisi kimi tanınmışlar.

Təhsil məqsədlərinə görə müasir sosial və pedaqoji düşüncəyə uyğun gələn ali təhsil müəssisəsinin əsası 1967-ci ildə o zamanki Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının açılışı ilə qoyuldu. “Naxçıvan təhsili, məktəbi mənim üçün əzizdir” - deyən Ulu Öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi ilk illərdən Naxçıvanda iqtisadiyyatın, mədəniyyətin, təhsilin inkişafına yüksək qayğı və diqqət göstərmişdir ki, 1972-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının müstəqil ali təhsil müəssisəsi kimi fəaliyyətə başlaması məhz belə bir qayğının nəticəsi, diqqətə layiq təzahür forması idi. Dahi siyasətçi özünün böyük uzaqgörənliklə həyata keçirdiyi bu maarifçi ideyası haqqında sonralar demişdir:

“Naxçıvan Muxtar Respublikasının Dövlət Universiteti Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən, ali təhsil ocaqlarından biridir. Çox xoşbəxtəm ki, mən bu universitetin yaranmasının təməlini qoyan insanlardan biri və onun təşəbbüskarıyam. Universitetin ötən bu müddətdə nə qədər böyüməsini, inkişaf etməsini öz gözlərimlə görürəm… Mən bu gün böyük iftixar hissi keçirirəm ki, 30 il bundan öncə əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir”.

Naxçıvan Dövlət Pedaqoji İnstitutu 29 dekabr 1990-cı ildən universitet statusu almışdır. Universitet əvvəlki illərdən fərqli olaraq təkcə pedaqoji kadr hazırlığı ilə məşğul olmur, əksinə geniş miqyasda regionun, həmçinin Azərbaycanın digər bölgələri üçün müxtəlif ixtisas sahələrinə yiyələnmiş mütəxəssis hazırlığına başlamışdı. İqtisadiyyatın, təsərrüfatın, mədəniyyətin, elm və təhsilin inkişafına xidmət edə biləcək gənc, dərin bilikli, yüksək səviyyədə ixtisaslaşmış, vətənpərvər mütəxəsislərin böyük bir dəstəsinin yetişməsi nəinki Naxçıvan Dövlət Universitetinin, ümumən Azərbaycan təhsilinin uğuru, nailiyyəti idi. Universitetin elmi potensialı artır, daha da möhkəmlənirdi ki, bu da tədris-tərbiyə işlərinin günümüzün tələbləri səviyyəsində qurulmasına əsaslı təsir göstərirdi. Ali təhsil müəssisəsinin 30 illik yubileyi ilə əlaqədar məşhur nitqində Ulu Öndər Heydər Əliyev özünün müdrik tövsiyyələrini, arzularını, universitetin (və tələbələrinin) gələcəyinə olan inamını ifadə edərək yazırdı: “Universitetin professor-müəllim heyətinə ali təhsilin, elmin, mədəniyyətin inkişafında yeni-yeni uğurlar arzulayıram. Universitetin tələbələrinə, gənclərinə cansağlığı, yüksək vətənpərvərlik, təhsil uğrunda daima mübarizə aparmaq üçün əzm arzulayıram. Naxçıvan gənclərinə hərbi vətənpərvərlik hisslərini daha da yüksəltməyi arzulayıram. Naxçıvan gənclərinə arzu və tövsiyyə edirəm ki, onlar indiki nəsillər kimi, bizim kimi Naxçıvanı qorusunlar, yaratsınlar, inkişaf etdirsinlər, daha da yüksəltsinlər”.

Universitetin elm-tədris, ixtisaslı kadr hazırlığı üzrə potensialı ölkə ictimai fikrində bu ali təhsil ocağına rəğbətin yaranmasına, dövlətimizin onun daha da inkişaf etməsi, nüfuzunun, şöhrətinin artması məqsədilə böyük bayram və yubiley tədbirləri hazırlamasına stimul vermişdir. Universitetin 25, 30, 40, 50 illik yubileyinin keçirilməsi bu ali təhsil müəssisəsinin ölkə üçün necə bir əhəmiyyətə və mahiyyətə malik olduğunu göstərir. Universitetin 25 illik və 30 illik yubiley tədbirlərində Ulu Öndər Heydər Əliyev şəxsən iştirak etmiş, universitetin regionun həyatında, ölkənin təhsil və elmi mühitində mövqeyini qiymətləndirməklə tövsiyyələrini vermişdir.

Universitetin yaranmasından ötən 40 illik dövr ərzində elmi və tədris fəaliyyətinin yekunları haqqında yubiley tədbirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə həyata keçirildi. Sərəncamda göstərilirdi: “Naxçıvan Dövlət Universiteti zəngin maarifçilik ənənələrinə malik Naxçıvan diyarında yüksək ixtisaslı kadrların yetişdirilməsinə, elmi mühitin formalaşdırılmasına və bütövlükdə regionun tərəqqisinə öz müsbət təsirini göstərmişdir. Onun məzunları bu gün Azərbaycanda milli dövlət quruculuğunun ən müxtəlif sahələrində yaxından iştirak edir, ölkəmizin iqtisadi, elmi və mədəni potensialının gücləndirilməsinə layiqli töhfələr verirlər”. Yubiley tədbirlərində iştirak edən Prezident İlham Əliyev universitetin pedaqoji kollektivini yubiley münasibəti ilə təbrik etmiş, qabaqcıl müəllimlərin bir qrupuna ölkənin ali mükafatlarını, orden və medallarını şəxsən təqdim etmiş, bu təhsil ocağının daha da çiçəklənməsi və inkişafı yolunda professor-müəllim heyətinə uğurlar arzulamışdır.

Bu gün Naxçıvan Dövlət Universiteti ölkənin ən nüfuzlu, qabaqcıl təhsil ənənələrinə malik tədris ocaqlarından biridir. Bir mənalı şəkildə və qətiyyətlə demək olar ki, Universitetin müasir inkişaf mərhələsi, fəaliyyət istiqamətləri, müasir infrastrukturun yaradılması, bir sözlə, yerləşdiyi relyefə uyğun özünəməxsus panoram gözəlliyinə malik “Universitet şəhərciyi”nin yaradılması bilavasitə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hörmətli Vasif Talıbovun diqqət və qayğısının nəticəsidir. Xüsusi ilə biri-birindən gözəl tədris korpuslarının inşa edilməsi və yenidən qurulması, onların müasir tədris-təchizat vasitələri ilə təmin edilməsi sahəsində görülən işlər hörmətli Ali Məclis Sədrinin universitetin professor-müəllim heyətinə, çoxminli tələbə kontingentinə qayğısının ifadəsidir. Məhz Cənab Sədrin qayğısı sayəsində Universitetin Cənubi Koreya Resbublikasının Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə birgə həyata keçirdiyi “Naxçıvan Dövlət Universitetində elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturu” adlı layihəsi uğurla başa çatdırıldı. Bu layihə əsasında Universitetdə videoverlişlərin hazırlanması və gələcəkdə distant təhsilin həyata keçirilməsinə geniş imkanlar yarandı. Layihə universitetin həyatında əlamətdar hadisələrdən biri, elektron universitetə keçid mərhələsinin başlanğıcı idi.

Ölkəmizdə ali təhsilin dünya təhsil sisteminə, Avropa ali təhsil məkanına inteqrasiya olunması və Boloniya Bəyannaməsinin tələblərinə uyğunlaşma məqsədlərini həyata keçirmək üçün beynəlxalq təhsil prosesində iştirakçı olması Naxçıvan Dövlət Universitetində də müasir tədris şəraitinin yaradılmasına, elmin inkişafına zəmin yaradır. Geniş, işıqlı sinif otaqları, fənn kabinələri və muzeylər, elektron lövhələr mühazirələrin, seminar, laborator və təcrübi məşğələlərin zamanımızın tələbləri səviyyəsində qurulmasına imkan verən vasitələrdir.

Ali Məclisin Universitetin professor-müəllim heyəti qarşısında qoyduğu çox mühüm vəzifə ölkənin sosial-iqtisadi inkişaf tələblərinə uyğun bilik və bacarığa malik mütəxəssis yetişdirməkdən ibarətdir. Bu tələbin çox mühüm cəhəti isə Universitetdə elmi tədqiqatların müasir standartlar səviyyəsinə çatdırılması, elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesində və istehsalatda tətbiqinin təşkil olunması ilə bağlıdır. Universitetin professor-müəllim heyəti bu taleyüklü vəzifələrin məsuliyyətini yaxşı başa düşür və elmin informasiya təminatının gücləndirilməsi, beynəlxalq elmi əlaqələrin dərinləşdirilməsi sahəsində yaxşı-mümkün yollar axtarışını gücləndirəcəyik.

Yüksək informasiya texnologiyalarına, əlverişli tədris şəraitinə, elmi potensiala, müasir tədris korpuslarına, maddi-təchizat bazasına malik universitetin qazandığı nailiyyətlər ildən-ilə artır, daha da yeniləşir, zəngiləşir. Yaranma tarixini bir kitab kimi oxusaq vərəqləri o qədər də çox olmayan bu kitabın - universitetin uğurları, nailiyyətləri həmişə dövlətimizin, dövlətçiliyimizin böyük simaları -rəhbərləri tərəfindən diqqətdə saxlanmışdır. Diqqətə çatdırılmalı bir cəhət də ondan ibarətdir ki, müstəqillik dövrünün payına düşmüş universitetin 50 illik yubileyi də böyük təntənə ilə, yüksək bayram əhval-ruhiyyəsi ilə keçirildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hörmətli Vasif Talıbovun Sərəncamı ilə geniş tədbirlər planı hazırlandı. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 31 oktyabr tarixli Sərəncamları ilə Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi münasibətilə və təhsilin inkişafındakı xidmətlərinə görə universitetin əməkdaşlarından 7-si "Tərəqqi" medalı, 8-i isə Azərbaycan Respublikasının "Əməkdar müəllimi" fəxri adı ilə təltif olundu. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 1 noyabr tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi ilə əlaqədar olaraq muxtar respublikada təhsil sahəsində səmərəli fəaliyyətlərinə görə universitetin müəllimlərindən 16-sı Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi", 1-i "Əməkdar mədəniyyət işçisi", 1-i isə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adlarına layiq görüldü. Eləcə də Naxçıvan Dövlət Universitetində fərqlənən 10 müəllim və 8 tələbəyə noutbuk, 24 tələbəyə isə planşet təqdim edildi (2).

Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri öz çıxışında Naxçıvan Dövlət Universitetinin 50 ildə qazandığı nailiyyətlərdən bəhs edərək göstərirdi ki, "Naxçıvan Dövlət Universitetinin ötən 50 ildə qazandığı təcrübə, elmi potensial və yaradılan tədris imkanları bizim sərvətimizdir". Ali Məclisin Sədri universitetin pedaqoji kollektivinə bundan sonra da belə bir sərvətdən bacarıqla, səmərəli şəkildə istifadə etməyi tövsiyyə edirdi.

2018-ci ildə respublikamızın ali təhsil müəssisələri arasında ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində distant təhsilin həyata keçirilməsinə başlandı. Yanvarın 17-də Distant Təhsil Mərkəzinin açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iştirak etmiş, Mərkəzin işi ilə tanış olmuş, öz tövsiyyələrini vermişdir: "Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzinin istifadəyə verilməsi muxtar respublikanın həyatında əlamətdar hadisədir. Distant Təhsil Mərkəzi Naxçıvan Dövlət Universitetinin keçdiyi inkişaf yolunun nəticəsidir. 13 il bundan əvvəl keçirilən "Elektron Naxçıvan-1" konfransında Naxçıvan Dövlət Universitetinin kompüterləşməsi proqramının əsası qoyulub və bu gün Distant Təhsil Mərkəzinin istifadəyə verilməsi ilə başa çatıb. Bu gündən etibarən isə universitetdə distant təhsilin tətbiqinə başlanılır. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, distant təhsil Naxçıvan Dövlət Universiteti ilə yanaşı, muxtar respublikanın digər ali və orta ixtisas məktəblərində də tətbiq edilməlidir"(5).

Ali Məclisin Sədri universitetin qazandığı uğurlardan da danışaraq demişdir: "Naxçıvan Dövlət Universiteti uğurlu inkişaf yolu keçib. Əgər 1996-cı ildə Naxçıvan Dövlət Universiteti ölkəmizdə 37 universitet arasında 36-cı yerdə idisə, 2016-2017-ci tədris ilində yeni texnologiyaların tətbiqi, tədrisin səviyyəsi, mənimsəmə və davamiyyətə görə ölkəmizdəki ali təhsil müəssisələri arasında birinci yerə layiq görülüb. Bu gün isə ölkəmizin ali təhsil müəssisələri arasında ilk dəfə Naxçıvan Dövlət Universitetində distant təhsilin əsası qoyulur. Distant Təhsil Mərkəzinin istifadəyə verilməsi vacib məsələdir. Çünki, bu Naxçıvan Dövlət Universitetinin dünya təhsil sisteminə inteqrasiyasını daha da sürətləndirəcəkdir. Eyni zamanda, distant təhsilin tətbiqi müəllimlərin dərs saatının və əməkhaqqının artırılmasına da təsir göstərəcəkdir. Hazırda Naxçıvan Dövlət Universiteti 58 ixtisas üzrə bakalavr təhsili verir. Bu gündən etibarən isə 4 ixtisas üzrə distant təhsil həyata keçiriləcəkdir. Ona görə də, mərkəzdə yaradılan şəraitdən düzgün istifadə olunmalı, ixtisasların sayı və müəllimlərin hazırlıq səviyyəsi artırılmalı, tədris olunan ixtisaslar üzrə ədəbiyyatlar hazırlanmalı, Distant Təhsil Mərkəzi beynəlxalq təhsil sistemində tanıdılmalıdır.

Ali Məclis Sədri hörmətli Vasif Talıbovun bu proqram göstəriş və tövsiyyələri Naxçıvan Dövlət Universitetinin gələcək inkişafı üçün rəhbər prinsiplərdir. Bu prinsiplər əsasında ali təhsil ocağında informasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqinə səyləri gücləndirmək, elektron idarəetmə və tədris sistemindən yüksək səviyyədə fayda götürmək, kadr hazırlığında dövrün tələblərini nəzərə almaq qarşıda duran vəzifələrdir. Bunu həyatın tempi, yüksəliş xətti tələb edir. Bunu universitetimizin tarixinə aid

rəqəmlərin müqayisəsi də göstərir, təsdiq edir: 1967-ci ildə 3 ixtisas və 103 tələbə ilə fəaliyyətə başlayan universitetdə hazırda 6 minə yaxın tələbə təhsil alır. 60 ixtisas üzrə bakalavr, 81 ixtisas üzrə magistr, 10 ixtisas üzrə doktorant, 32 ixtisas üzrə dissertant hazırlığı aparılır. Universitetdə dissertasiya şurasının, həmçinin birləşmiş dissertasiya şurasının fəaliyyət göstərməsi də fəlsəfə doktoru və elmlər doktoru proqramı üzrə tədqiqatçı alimlərin yetişməsində əhəmiyyətli rol oynayır.

Beləliklə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində universitetdə böyük quruculuq işlərinin aparıldığı haqqında az da olsa məlumat verməyə səy göstərdik. Ali Məclis Sədrinin Universitetdə tədris işlərinin müasir tələblər səviyyəsində qurulmasına, yeni fakültələrin yaranmasına və istehsalatın, təsərrüfatın yeni sahələrinə aid ixtisasların açılmasına qayğısı da muxtar respublikanın, ümumən ölkənin kadr potensialının yaxşılaşmasına təsir edir. Yubiley tədbirləri zamanı səslənən belə bir qənaət bizi sevindirir, daha yaxşı işləməyə ruhlandırır ki, artıq Naxçıvan Dövlət Universiteti elmin, tədrisin və mədəniyyətin inteqrasiyasını özündə birləşdirən mötəbər ali təhsil ocağıdır. Bu tədris ocağında işləmək, tədris-tərbiyə işləri ilə məşğul olmaq, gəncləri-gələcəyin ixtisas sahiblərini bilik və bacarıqlarla silahlandırmaq, sağlam düşüncə tərzinə yiyələndirmək, vətənsevərlik, azərbaycançılıq ruhunda tərbiyə etmək ən şərəfli və məsuliyyətli peşədir.

## ƏDƏBİYYAT


1. Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 mart 2007-ci il tarixli Sərəncamı, Bakı şəhəri, 31 mart 2007-ci il
2. Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsi haqqında, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Sərəncamı, 14 yanvar 2017 -ci il
3. Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Qeyrət nəşriyyatı, 2002
4. Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Sərəncamı, 17 may 2007-ci il
5. Xalq qəzeti, 18 yanvar 2018-ci il



## ABSTRACT

## DEVELOPMENT OF HIGHER EDUCATION IN NAKHCHIVAN

The article focuses on rich, ancient and historically formed traditions of higher education institutions in Nakhchivan. The article also states the role of Nakhchivan State University in the field of cadre training in subsequent periods of the establishment of Nakhchivan Autonomous Republic, the attention and care paid by the national leader H Aliyev to this higher educational institution of our independent state.



## РЕЗЮМЕ

## РАЗВИТИЕ ВЫСШЕГО ОБРАЗОВАНИЯ В НАХЧЫВАНЕ

В статье рассматриваются исторически сформированные древние и богатые традициивысших учебных заведений Нахчывана, говорится о роли Нахчыванского ГосударственногоУниверситета в области подготовки кадров в период после образования НахчыванскойАвтономной Республики и о внимании и заботе нашего общенационального лидера,независимого государства, проявленных этому учебному заведению.

**İSMAYIL HACIYEV**
*AMEA Naxçıvan Bölməsi*
*ismayil_haciyev@yahoo.com*

# NAXÇIVANIN MUXTARİYYƏTLƏŞDİRİLMƏSİ

**Açar sözlər:** *Azərbaycan, Türkiyə, Rusiya, Naxçıvan, referendum, muxtariyyət, Naxçıvan Muxtar Respublika*
**Key words:** *Azerbaijan, Turkey, Russia, Nakhchivan, referendum, autonomy, Autonomous Republic*
**Ключевые слова:** *Азербайджан, Турция, Россия, Нахчыван, референдум, автономия, автономная республика*

1920-ci il aprelin 28-də Bakıda Azərbaycanda sovet hakimiyyəti qurulmasının elan edilməsi ilə onun tarixində yeni, lakin fərqli bir dövr başladı. Azərbaycanın dövlətçilik tarixi üçün milli zəminə malik olmayan, əvvəlki dövlətlər ilə heç bir varislik əlaqəsinə əsaslanmayan dövlət yaradılmağa başlandı. Onun əsas fəaliyyət istiqamətlərindən biri də yeni hökumətin Azərbaycanının bölgələrinə yayılmasına nail olmaqdan ibarət idi. Naxçıvan bu siyasətdə mühüm yer tuturdu.

AK(b)P MK Siyasi Bürosu 1920-ci il iyulun 28-də Naxçıvandakı vəziyyəti müzakirə edərək, Azərbaycan İnqilab Komitəsinə tapşırdı ki, Naxçıvan məsələsini prinsipial şəkildə aydınlaşdırsın, Ermənistan ilə Azərbaycan arasında sərhədləri müəyyənləşdirsin və Naxçıvan diyarında sovet hakimiyyətinin qurulmasına kömək göstərsin. Elə həmin gün axşamüstü XI Qırmızı Ordunun hərbi hissələri Naxçıvan şəhərinə daxil oldu. 1920-ci il iyulun 28-də Naxçıvanda da sovet hakimiyyətinin qurulması rəsmən elan edildi [22, s.72]. Naxçıvan Sosialist Sovet Respublikasının [25] elan edilməsi ilə eyni zamanda, respublikanın ali hakimiyyət orqanı - Naxçıvan İnqilab Komitəsi yaradıldı. Naxçıvanın ayrıca sovet sosialist respublikası elan edilməsinə baxmayaraq, o özünü Azərbaycanın tərkib hissəsi hesab edirdi. Avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin Azərbaycan SSR XKS-in sədri N.Nərimanova göndərdiyi məktubda deyilirdi: "Naxçıvan camaatının çox böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz tərkib hissəsi hesab etmişdir" [9, v.3].

Azərbaycanda sovet hakimiyyətinin qurulmasında həlledici rola malik olan Sovet Rusiyası yenə ikili siyasət yeridir, erməni daşnak qüvvələri ilə eyni zamanda həm müharibə, həm də danışıqlar aparılırdı. Sovet Rusiyasının təşəbbüsü ilə 1920-ci il avqustun 10-da daşnak Ermənistanı ilə barışıq sazişi imzalandı [4, s.171-172]. Sazişə görə tərəflər hərbi əməliyyatları dayandırmalı, erməni qoşunları Şahtaxtı-Xok-Çalxanqala-Sultanlı, daha sonra Küküdən şimala və Bazarçaydan qərbə uzanan demarkasiya xəttində dayanmalı, sovet qoşunları isə Qarabağ, Zəngəzur və Naxçıvanı tutmalı idilər. Gümrü-Şahtaxtı-Culfa dəmiryolundan ermənilər qeyri-hərbi məqsədlər üçün istifadə edə bilərdilər. Beləliklə, Azərbaycanın iştirakı olmadan onun torpaqlarının məsələsi müzakirə olunur, Ermənistanla danışıqlarda Sovet Rusiyası onun adından çıxış edirdi. Bu danışıqlarda Azərbaycanın mübahisəsiz torpaqlarının Ermənistana verilməsi məsələsi müzakirə olunurdu. Bunu bilən Nəriman Nərimanov Leninə göndərdiyi məktubda yazırdı: "Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstanın və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda, həmin mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir..." [10, v.1].

İ.Stalin 1920-ci ilin noyabrın 9-da Bakıdakı çıxışında demişdir: "Əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada sovet hökuməti yaranarsa vermək olar" [5, v.30].

İ.Stalinin bu fikri özünü çox gözlətmədi. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan dərhal sonra Azərbaycan torpaqlarının Ermənistana verilməsi istiqamətində konkret addımlar atılmağa başlandı.

Ermənistanın bolşeviklərin nəzarəti altına keçməsi ilə əlaqədar Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi [29, v.6]. HİK- in sədri N.Nərimanovun imzası ilə yayılan bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Bəyanatda deyilirdi: "...Bundan sonra heç bir ərazi əsrlər boyu qonşu olan iki xalqın qanının tökülməsinə səbəb ola bilməz. Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının ayrılmaz hissəsidir. Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə öz müqəddəratını

təyin etmək hüququ verilir" [29, v.6].

S. Orconikidze dekabrın 2-də Azərbaycan torpaqlarının Ermənistana verilməsi barədə Rusiya rəhbərliyinə məlumat verir və həmin gün RSFSR ilə Sovet Ermənistanı arasında bu bəyanatı "bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt" adlandırırdı.

Beləliklə, 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan dərhal sonra Azərbaycan torpaqlarının Ermənistana verilməsi istiqamətində konkret addımlar atılmağa başlandı.

1920-ci ilin dekabrın 2-də RSFSR ilə Sovet Ermənistanı arasında səkkiz maddədən ibarət Gümrü müqaviləsi imzalandı. Həmin müqavilənin üçüncü maddəsində göstərilirdi ki, Rusiya Sovet hökuməti Ermənistanın 1920-ci il oktyabrın 23-nə kimi sahib olduğu aşağıdakı ərazilərini - İrəvan quberniyasının, Qars vilayəti hissəsinin, Zəngəzur qəzasının, Qazax qəzası hissəsinin, Tiflis quberniyası hissəsinin "Sovet Erməni Respublikasının" tərkibinə daxil olduğunu mübahisəsiz təsdiq edir [36, s.75-76].

Naxçıvan əhalisi Azərbaycan Hərbi İnqilab Komitəsinin 1 dekabr 1920-ci il bəyanatına və sonrakı qərarlara kəskin etirazını bildirdi. Vəziyyətin gərginləşdiyini görən Azərbaycan rəhbərliyi Hərbi İnqilab Komitəsinin üzvü, Ədliyyə komissarı Behbud ağa Şahtaxtinskini dekabrın 15-də Naxçıvana göndərdi. B.Şahtaxtinski Naxçıvan şəhərində, Şərur və Ordubadda əhali ilə keçirdiyi görüşlərdə 1920-ci il 1 dekabr tarixli bəyanatı ilə əlaqədar əsl həqiqəti əhaliyə söyləməli oldu: "Azərbaycan sizi torpağınızla birlikdə Ermənistana satıb, əgər mən Bakıda olsaydım, buna qəti sürətdə razılıq verməzdim. Mən Azərbaycan İnqilab Komitəsinin üzvü kimi B.Vəlibəyovu vəzifəsindən azad edib, özümlə Bakıya aparacağam. Sizin torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq üçün yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunların ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaqlar və sizi ağır fəlakətdən xilas edəcəklər" [30, v.1].

B.Şahtaxtinskinin əhali ilə görüşləri və söhbətləri öz nəticəsini verdi. Diyarın əhalisi Azərbaycanın himayəsi altında olmaqla Naxçıvanda müstəqil sovet respublikası yaradılmasını tələb edirlər. Naxçıvan əhalisinin qətiyyətli mövqeyi mərkəzin öz münasibətini müəyyən qədər də olsa dəyişməsinə səbəb oldu. Türkiyənin yardımına güvənən Naxçıvanın azərbaycanlı əhalisinin qətiyyətli və inadlı mübarizəsi ermənilərin Naxçıvan barəsindəki planlarını pozdu.

Məkrli niyyətlərini hələlik pərdələyən ermənilər və Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı müstəqil sovet respublikası kimi tanımış və bu ərazi ilə əlaqədar iddialarından imtina etmişdir. Əslində Ermənistanın Naxçıvanı Azərbaycanın bir hissəsi kimi deyil, müstəqil respublika kimi tanıması onun düşünülmüş, məkrli planlarının tərkib hissəsi idi. Naxçıvanı müstəqil qurum kimi tanımaqla Ermənistan gələcəkdə onu ilhaq etmək niyyəti güdürdü.

Azərbaycan bolşevik rəhbərliyi Naxçıvan vilayətində təsirli tədbirlər görmək, əhalinin narazılığını sakitləşdirmək üçün B.Şahtaxtinskini 1921-ci il yanvarın 11-də Hərbi İnqilab Komitəsinin mandatı ilə fövqəladə komissar kimi Naxçıvana göndərdi [6, v.15].

Naxçıvanın ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi ilə Azərbaycanın ərazi bütövlüyünə ciddi zərbə vuruldu. Belə bir şəraitdə Naxçıvanın ərazi statusuna dair yeni baxışın meydan gəlməsi zəruri oldu. Bu vəziyyət muxtariyyət məsələsini zəruri edirdi. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi: "Əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi" [15, s.75].

Naxçıvan diyarının əhalisi də Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində muxtariyyət tələb edirdi. 1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90%-dən çoxu Naxçıvan diyarının muxtariyyət statusunda Azərbaycan SSR-in tərkibində qalmasına səs verdi [26, v.79]. Bu rəy sorğusunun nəticəsi Naxçıvanın Azərbaycanın tərkibində saxlanılmasında mühüm rol oynadı.

Naxçıvan məsələsində N.Nərimanovun əvvəlki mövqeyindən fərqli olaraq sonradan prinsipial mövqe tutması, onun adından B.Şahtaxtinskinin Moskvada apardığı danışıqlar Moskvanın Naxçıvan məsələsinə münasibətinin dəyişməsinə və nəticə etibarı ilə Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsinə təsir etdi. Ümumiyyətlə, Naxçıvan Diyar İnqilab Komitəsinin və Xalq Komissarları Sovetinin sədri, Azərbaycanın Ədliyyə komissarı, Rusiyada Azərbaycan SSR-in səlahiyyətli nümayəndəsi, Azərbaycan SSR-in Fəhlə-Kəndli Müfəttişi, Azərbaycan Xalq Komissarları Sovetinin sədr müavini kimi çox məsul vəzifələrin öhdəsindən layiqincə gələn Behbud ağa Şahtaxtinskinin Naxçıvanın muxtariyyət statusu qazanmasında çox böyük xidməti olmuşdur [18]. O, fəaliyyəti dövründə Azərbaycan SSR-in müxtəlif problemləri ilə bağlı RSFSR XKS-in sədri V.İ.Leninə teleqramlar vurmuş, məktublar yazmış, bu məktublara bir sıra arayışlar da əlavə etmişdir [17]. Onun V.İ.Leninə göndərdiyi məktub və arayışlar içərisində 1921-ci il martın 1-də göndərdiyi teleqram və ona daxil etdiyi əlavələrin xüsusi əhəmiyyəti vardır [12, v.1]. B.Şahtaxtinskinin V.İ.Leninə ünvanladığı teleqramda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və

coğrafiyasına dair arayışları da əlavə etmiş, Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər irəli sürmüşdü [23, s.314]. Martın 7-də V.Leninin dərkənarı ilə müzakirə üçün Siyasi Büroya göndərilən həmin məktuba martın 16-da Stalinin, Çiçerinin və b. iştirakı ilə baxılmışdı.

Naxçıvanın Azərbaycan SSR-in himayəsi altında olan muxtar ərazi statusu 1921-ci il martın 16-da RSFSR ilə Türkiyə arasında imzalanmış "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsində də öz əksini tapdı. Türkiyə tərəfi istər Moskva danışıqları ərəfəsində, istərsə də onun gedişində Naxçıvan məsələsinə böyük əhəmiyyət verirdi.

Bu, bəzi daha önəmli strateji və geosiyasi amillərlə yanaşı, həm də Naxçıvanın Türkiyə-Azərbaycan əlaqələrində ən yaxın məsafə və hələlik yeganə nöqtə olması, bölgənin Moskva-Ankara diplomatik münasibətlərində başlıca vasitəçi rolu oynaması ilə əlaqədar idi [23, s.302]. Həmçinin 4 iyun 1918-ci il tarixli Batum müqaviləsinə görə Naxçıvan Türkiyənin himayəsinə keçdiyindən türklər bu bölgəyə öz əraziləri kimi baxırdılar. Türk heyətinin rəhbəri Y.Kamal bəy Rusiyaya yola düşmək ərəfəsində, dekabrın 13-də Mustafa Kamal paşa ilə görüşərkən "Paşam, ruslar Naxçıvan üzərində israr edərlərsə, nə yapalım?" deyə soruşduqda o, "Naxçıvan türk qapısıdır. Bunu xüsusi nəzərə alaraq əlinizdən gələni yapınız",- cavabını vermişdi [34, s.5-6].

Moskva danışıqlarında Naxçıvanla bağlı əsas məsələlər konfransın 10, 12 və 14 mart tarixli iclaslarında gərgin müzakirə olundu. Türk heyəti Naxçıvanın Türkiyənin himayəsində qalmasını istəyirdi. Lakin, Rusiya tərəfi bunu qətiyyətlə rədd edirdi. Naxçıvan məsələsi ilə bağlı Çiçerinlə aparılan müzakirələrin düyünə düşməsi türk heyətini yenidən İ.Stalinlə görüşməyə sövq etdi. İ.Stalin türk heyəti ilə Naxçıvan məsələsini müzakirə etdi. Azərbaycan nümayəndəsi B.Şahtaxtinski də bu müzakirələrdə iştirak edirdi. İ.Stalin Naxçıvan məsələsi ilə bağlı B.Şahtaxtinskinin fikrini soruşduqda, o bildirdi ki, "Naxçıvanın Rusiyanın himayəsində müstəqil bir dövlət olaraq qalması" məqbuldur [20, s.397].

1921-ci il martın 10-da keçirilən iclasda Türkiyə nümayəndələri belə bir mövqedən çıxış edirdilər ki, Naxçıvan bölgəsi əhalisinin türk qoşunlarını dəvət və qəbul etməsi faktı onun Türkiyənin himayəsi altında olduğunu göstərir. Qeyd edək ki, Gümrü (Aleksandropol) müqaviləsində də Naxçıvanın Türkiyənin himayəsi altında olduğu təsbit edilmişdi [2, v.86]. Naxçıvanın Türkiyənin himayəsində qalması ilə bağlı təklif qəbul olunmadıqda, türk heyəti təklif etdi ki, Naxçıvan Türkiyə ilə Azərbaycanın müştərək himayəsi altında müstəqil bir dövlət olsun. Lakin, Rusiya tərəfi bu təklifi də qəbul etmədi. Belə olan təqdirdə türk heyəti bildirdi ki, Türkiyə bölgə üzərindəki bu himayəni Azərbaycanın üçüncü bir dövlətə güzəştə getməyəcəyinə dair öhdəlik götürdüyü təqdirdə ona verməyə razıdır [20, s.397].

Nəticədə, Rusiya tərəfinin "Naxçıvan vilayətinin Azərbaycanla daimi əlaqədə olması və onun himayəsi altında muxtariyyətdən istifadə etməsi" formulu Türkiyənin "Azərbaycanın bu protektoratı hər hansı bir üçüncü dövlətə güzəştə getməməsi" şərti ilə tamamlandı. Naxçıvan mahalının sərhədlərinin müəyyənləşdirilməsi hərbi ekspertlərə tapşırıldı [23, s.302-303].

Konfransın martın 12-də keçirilən iclasında əsasən Naxçıvan dairəsi və Ermənistan arasında müəyyənləşdirilən sərhədlər ətrafında mübahisələr getdi. Rusiya tərəfi bildirdi ki, ekspertlərin müəyyənləşdirdiyi sərhəd xətti Azərbaycanın maksimum tələblərini də ötüb keçir, çünki o, heç vaxt İrəvan qəzasının hər hansı bir hissəsinə himayəçiliyi iddia etməmişdir. Rusiya tərəfinin fikrincə, Sovet respublikaları arasında sıx əlaqələr olduğundan bu məsələ birinci dərəcəli əhəmiyyət kəsb etməsə də, Şərur-Dərələyəz dairəsinin sərhədini etnik prinsipə müvafiq çəkmək lazım gəlir. Türkiyə tərəfi isə haqlı olaraq məsələnin bu cür qoyuluşuna kəskin etiraz etdi və öz mövqeyini əsaslandırmaq üçün aşağıdakı dəlilləri gətirdi: a) Məhz bu yerlərdə məlum qanlı hadisələr baş vermiş və türk qoşunlarının bölgəyə gəlməsinə ehtiyac yaranmışdır; b) Bütün bu dairə müsəlmanlarla məskunlaşmışdır və s. Bütün bunlara görə həmin ərazi üzərində də himayə hüququ Azərbaycana verilməlidir [11, v.48-54; 23, s.303].

Nəhayət, sonda Türkiyənin təklifi ilə Şərur-Dərələyəz dairəsinin Naxçıvana keçməsi və İrəvan dairəsinin mübahisəli hissələrində sərhədin Kömürlü dağ (6930) və Saray Bulaq (8071) dağlarından, Ararat stansiyasından başlaması barədə razılığa gəlindi və bütün bu məsələlərin Azərbaycan, Ermənistan və Türkiyə nümayəndələrindən ibarət qarışıq komissiyanın razılaşdırılmasına verilməsi qərara alındı [11, v.53-54].

Konfransın 1921-ci il martın 14-də keçirilən iclasında Naxçıvanın statusu tam olaraq müəyyənləşdirildi [11, v.59]. Beləliklə, danışıqlarda yaranmış gərginliklərə baxmayaraq, türk diplomatiyası göstərdiyi ciddi səylər sayəsində Moskva konfransında Azərbaycanın ərazi bütövlüyünün qismən də olsa, qorunmasına nail ola bildi, Naxçıvanın heç bir dövlətə güzəştə gedilməməsi şərtilə Azərbaycanın tərkibində saxlanılması razılaşdırıldı [20, s.399].

Müqavilənin 3-cü maddəsində deyilirdi ki, "Naxçıvan vilayəti bu müqavilənin I (B) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir" [3, v.11, v.93]. "Naxçıvanın ərazisi" adlı I (C) əlavəsində bölgənin sərhədləri aşağıdakı kimi müəyyənləşdirilirdi: "Ararat stansiyası - Saray Bulaq dağı – Kömürlüdağ -

Sayatdağı (7868) – Qurdqulaq kəndi - Həməsür dağı (8060) - 8022 yüksəkliyi - Kükü dağı (8282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi" [33, s.38]. Bununla da Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə bir aydınlıq gətirildi.

1921-ci il oktyabrın 13-də RSFSR-in nümayəndəsinin iştirakı ilə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR ilə Türkiyə arasında imzalanan Qars müqaviləsinə əsasən, Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirildi. Qars müqaviləsinin beşinci maddəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini qəti olaraq həll etdi. Burada deyilirdi: "Türkiyə hökuməti ilə Ermənistan və Azərbaycan Sovet hökumətləri Naxçıvan vilayətinin bu müqavilənin 3 nömrəli əlavəsində müəyyən edilmiş sərhədlər daxilində Azərbaycanın himayəsi altında muxtar bir ərazi olduğu məsələsində müttəfiqdirlər" [4, v.9-19; 20, s.413].

Müqavilə maddəsindən də göründüyü kimi, burada Moskva müqaviləsinin üçüncü maddəsinin müəyyən bir hissəsi, yəni, "Azərbaycanın bu himayəçilik haqqını üçüncü bir dövlətə heç bir zaman güzəştə gedə bilməməsi" öz əksini tapmamışdı [19, s.18]. "Naxçıvanın ərazisi" adlı 3 nömrəli əlavədə bölgənin sərhədləri aşağıdakı kimi müəyyənləşdirildi: "Urmiya kəndi, oradan düz xətlə Arazdəyən stansiyasına (bu stansiyanı Ermənistan SSR-də saxlamaqla), sonra düz xətlə qərbi Daş-Burun dağına (3142) və daha sonra suayrıcı xətlə şərqi Daş-Burun dağı (4108) və Cəhənnəmdərəsi çayından keçməklə "Bulaq"dan cənuba, Bağırsaq dağı (6607), (6587 suayrıcı xətti ilə və buradan keçmiş İrəvan, Şərur-Dərələyəz qəzalarının inzibati sərhədi ilə 6625 yüksəkliyindən keçərək Kömürlü dağına (6839), (6930) və daha sonra 3080 - Sayatdağ (7868) yüksəklikləri ilə Qurdqulaq kəndi, Həməsür dağı (8160), 8022 yüksəkliyi, Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi" [11, v.114-115; 20, s.413-414].

Qars müqaviləsinin mühüm əhəmiyyətindən biri Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflərin müəyyən edilməsidir. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri idi [16, s.17]. Qars müqaviləsi ilə Ermənistan da Naxçıvanın Azərbaycan ərazisi olduğunu rəsmən təsdiq etdi. Müqavilənin ən əhəmiyyətli cəhətlərindən biri də onun müddətsiz imzalanması idi.

Bununla belə, Moskva müqaviləsindən fərqli olaraq Naxçıvanın statusu və tabeçiliyinə aid Azərbaycanın himayəçilik hüququ haqqında müddəa Qars müqaviləsində əks olunmamışdır.

Ümummilli lider Heydər Əliyev beynəlxalq Qars müqaviləsinin tarixdəki yerini və rolunu yüksək qiymətləndirərək demişdir: "Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənətdir..." [14, s.249].

Naxçıvanın tarixi müqəddəratında, onun Azərbaycanın tərkibində saxlanılmasında bir sıra amillərlə yanaşı, Moskva və Qars beynəlxalq müqavilələrinin də rolu böyükdür. Hər iki beynəlxalq müqavilə müddətsiz imzalanmış və bu gün də qüvvədədir. Həmin müqavilələr onu imzalayan dövlətlər tərəfindən birtərəfli qaydada ləğv edilə bilməz.

Naxçıvan ətrafında beynəlxalq danışıqlar və onun nəticələri bölgədə cərəyan edən ictimai-siyasi proseslərə də ciddi təsir edirdi. Naxçıvan diyarında keçirilən rəy sorğusu (1921) onun Azərbaycan SSR tərkibində qalmasını və muxtariyyətləşdirilməsini təsdiq etdi. Beləliklə, Azərbaycan SSR tərkibində Naxçıvanın muxtariyyətləşdirilməsinin həyata keçirilməsi üçün hər cür hüquqi zəmin meydana gəldi. Əsas məsələ bu ideyanın reallaşdırılmasından ibarət oldu. Məhz bu istiqamətdə ciddi çətinliklər yaranmağa başladı və Naxçıvanın Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Respublika hüququnun qanuni yolla təsbit edilməsi 1924-cü ilin fevralınadək ləngidildi.

Azərbaycan SSR-in partiya, sovet və təsərrüfat orqanları Naxçıvan Respublikasında dövlət və təsərrüfat quruculuğu məsələləri ilə bilavasitə məşğul olur və əhaliyə yeni həyat quruculuğunda hərtərəfli köməklik göstərirdi. Naxçıvanda vəziyyəti öyrənmək üçün 1921-ci il aprelin 13-də AK(b)P MK-nın Siyasi və Təşkilat Bürosu Naxçıvana komissiya göndərməyi qərara aldı [7, v.10]. Həmin ilin payızında RK(b)P MK-nın Qafqaz bürosunun qərarı ilə diyarın kənd təsərrüfatının bərpası üçün Naxçıvana 20 min manat qızıl pul, 10 vaqon taxıl ayrıldı [21, s.47]. Eyni zamanda, Azərbaycan SSR XKS-in sədri N.Nərimanovun sərəncamı ilə Naxçıvanda təsərrüfat və mədəni quruculuq üçün 5,5 milyard manat pul ayrıldı [21, s.47]. 1921-ci ilin sonunda Naxçıvan Respublikasında sovetlərə seçkilər keçirildi. 1922-ci il yanvarın 25-də Naxçıvan SSR-in I Sovetlər qurultayı çağırıldı. Qurultay diyarda sovet, təsərrüfat və mədəni quruculuğa dair mühüm qərarlar qəbul etdi. Naxçıvan İnqilab Komitəsi ləğv olundu, Naxçıvan İcraiyyə Komitəsi və Naxçıvan SSR Xalq Komissarları Soveti yaradıldı.

Naxçıvan SSR Sovetlər qurultayı ölkədə ali dövlət hakimiyyəti orqanı idi. Qurultaylar arasında isə bu vəzifəni Naxçıvan MİK yerinə yetirirdi. Naxçıvan SSR MİK-i Xalq Komissarları Sovetini formalaşdırırdı. Xalq Komissarları Soveti həm MİK, həm də Sovetlər qurultayı qarşısında məsul idi [32, s.480].

1922-ci il mayın 22-də AK(b)P MK-nın Rəyasət Heyəti Naxçıvan diyarı haqqında Əsasnamənin və Naxçıvan SSR Konstitusiyasının Azərbaycan MİK tərəfindən təqdim olunmuş layihələrini müzakirə etdi. Naxçıvan diyarı haqqında Əsasnamədə deyilirdi: "Naxçıvan diyarı Azərbaycan SSR-in qəyyumluğu altında

Naxçıvan Muxtar Respublika elan edilərək, Naxçıvan Sovet Sosialist Respublikası adlandırılsın" [8, v.158]. Əsasnamədə göstərilirdi ki, Naxçıvan diyarının dövlət hakimiyyəti Azərbaycan SSR Konstitusiyasına uyğun olaraq təşkil edilir.

Naxçıvan SSR Konstitusiyasının layihəsində deyilirdi: "Naxçıvan SSR, dinindən, irqindən və milli mənsubiyyətindən asılı olmayaraq vətəndaşların bərabər hüquqlara malik olmalarını təsdiq edərək, bu zəmində hər hansı imtiyazların və ya üstünlüklərin müəyyən olunmasının, yaxud bunlara yol verilməsinin, eləcə də milli azlıqlara qarşı hər cür zülmün və ya onların hüquq bərabərliyinin məhdudlaşdırılmasının respublikanın əsas qanununa zidd olduğunu elan edir" [38, s.144].

Naxçıvan diyarı haqqında Əsasnamə və Naxçıvan SSR Konstitusiyasının layihələri AK(b)P MK-nın Rəyasət Heyətində müzakirə edildi. Layihələrin son variantı, xüsusilə, Naxçıvan diyarının muxtariyyəti haqqında məsələ RK(b)P MK-nın müzakirəsinə verildi. 1922-ci ilin noyabrında V.İ.Leninin sədrliyi ilə RK(b)P MK Siyasi Bürosu Naxçıvan Muxtar Respublikasının yaradılmasının zəruriliyi haqqında qərar qəbul etdi. 1922-ci ilin dekabrın 12-də Zaqafqaziya Sovetlərinin birinci qurultayı Azərbaycan SSR tərkibində Naxçıvanla bağlı qərar çıxardı: "Naxçıvan Respublikası Azərbaycanın muxtar vahid hüququnda ayrılmaz tərkib hissəsi hesab edilsin" [37, s.98].

1922-ci ilin dekabrında Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR ZSFSR-də birləşdi. Dekabrın 30-da hər üç respublika ZSFSR tərkibində SSRİ-yə daxil oldu. Bununla Azərbaycan SSR-in suveren hüquqları məhdudlaşdırıldı. Buna baxmayaraq, Naxçıvanın Azərbaycan SSR tərkibində muxtariyyətinin təsbit edilməsi ləng də olsa həyata keçirilirdi.

RK(b)P Cənubi Qafqaz Ölkə Komitəsinin Rəyasət Heyəti Cənubi Qafqaz Sovetləri birinci qurultayının 1923-cü il 18 yanvar tarixli qərarı əsasında "Naxçıvanı Naxçıvan Muxtar Respublikaya çevirməyi, Naxçıvan Xalq Komissarları Sovetini və Naxçıvan MİK-i Naxçıvan Diyarının İcraiyyə Komitəsinə çevirməyi" təklif etdi [35, s.129].

AK(b)P Mərkəzi Komitəsi iki gün sonra həmin qərarı müzakirə edərək Naxçıvan MİK və XKS-nin ləğv olunması və Naxçıvan Diyar İcraiyyə Komitəsinin yaradılması haqqında qərar qəbul etdi. Yanvarın 22-də AK(b)P MK-nin Rəyasət Heyəti bu məsələ ilə əlaqədar Diyar partiya konfransı çağırmağı və məsələni Naxçıvan Diyarı sovetlər qurultayında müzakirə edib bəyannamə hazırlamağı tapşırdı. Naxçıvan Diyar Partiya Təşkilatının 1923-cü il fevralın 23-də keçirilən üçüncü qurultayı Azərbaycan SSR-in tərkibinə daxil olmasını bölgənin iqtisadi, siyasi və mədəni inkişafı üçün mühüm zərurət kimi qiymətləndirdi və belə bir qətnamə qəbul etdi: "Naxçıvan Sovet Sosialist Respublikası Azərbaycan SSR-in ayrılmaz hissəsi kimi tanınsın..." [28, v.10].

1923-cü il fevralın 27-də üçüncü Ümumnaxçıvan Sovetlər qurultayı Naxçıvan SSR-in muxtariyyət hüquqları əsasında Azərbaycan SSR tərkibinə daxil edilməsi məsələsini geniş müzakirə etdi və bəyanatla bölgənin ayrılmaz hissəsi kimi Azərbaycana daxil olmasını vacib saydı. Qurultayın qərarında deyilirdi ki, Naxçıvan SSR Azərbaycan SSR-in ayrılmaz hissəsi kimi tanınsın; bütün Naxçıvan diyarı özünün aparatları ilə muxtar diyar hüququnda Azərbaycan SSR-in tərkibinə daxil olsun [28, v.7]. Qurultayın başqa bir qərarı ilə qəzalar ləğv edildi, Naxçıvan Muxtar Diyarının bütün ərazisi isə 6 sahəyə bölündü: Tumbul, Cəhri, Əbrəqunus, Şahtaxtı, Noraşen və Ordubad. Azərbaycan MİK-in 1923-cü il iyulun 16-da keçirilən üçüncü sessiyası Naxçıvan diyarının Azərbaycan SSR-in muxtar ərazisi kimi onun tərkibinə daxil olması haqqında Naxçıvan Sovetlər qurultayının vəsatətini təsdiq etdi [32, s.382].

Naxçıvan SSR-in muxtar diyar kimi təşkil olunması Azərbaycan MİK-in Naxçıvan Muxtar Diyarı haqqında Əsasnamə ilə həyata keçirilirdi. Bununla Naxçıvanın əvvəlki siyasi hüquqları məhdudlaşdırıldı. Respublikadan təcrid olunmuş şəraitdə yaşayan Naxçıvan üçün bunu qənaətbəxş hesab etmək olmazdı. Lakin muxtar diyar dövrü uzun sürmədi. 1923-cü il dekabrın 11-də AK(b)P MK-nın Rəyasət Heyəti Naxçıvan diyarının Naxçıvan Muxtar Respublikasına çevirilməsi məsələsini müzakirə edərək Azərbaycan MİK-ə təklif etdi ki, Naxçıvan Muxtar Respublikasının yaradılması barədə məsələni Cənubi Qafqaz MİK qarşısında qaldırsın [21, s.54].

Azərbaycan SSR MİK 1923-cü il dekabrın 31-də Naxçıvan diyarının Azərbaycan SSR tərkibində Naxçıvan MSSR-ə çevrilməsi haqqında qəti qərar qəbul etdi və Cənubi Qafqaz MİK-dən bu qərarın təsdiq olunmasını xahiş etdi. Cənubi Qafqaz MİK-in 1924-cü il yanvarın 8-də keçirilən birinci plenumu Naxçıvan Muxtar Diyarının, Naxçıvan Muxtar Respublikaya çevirilməsi haqqında qərar qəbul etdi [21, s.55]. Buna uyğun olaraq Naxçıvan MİK-in birinci plenumu 1924-cü il yanvarın 18-də muxtar diyarın Naxçıvan MSSR-ə çevrilməsi məsələsini müzakirə etdi. Naxçıvan MSSR MİK, XKS və əkinçilik, daxili işlər, ədliyyə, maarif, səhiyyə nazirlikləri yaradıldı, inzibati cəhətdən o, Şərur, Ordubad və Naxçıvan qəzalarına bölündü [27, v.5].

AK(b)P MK Rəyasət Heyətinin 1924-cü il 4 fevral tarixli qərarı ilə Naxçıvan Respublikası haqqında Əsasnamə hazırlanmağa başlandı. Azərbaycan MİK-in 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsbit olundu.

Naxçıvanın muxtariyyəti sovet milli dövlət quruculuğunda özünəməxsus yer tuturdu. Cənubi sovet respublikaları içərisində Azərbaycanla eyni zamanda, muxtar qurumlara malik olan Gürcüstan SSR ilə müqayisə aparılsa, bu qurumlar (Abxaziya və Acarıstan MSSR-lər) titul xalqdan fərqli etnosları-abxaz və acarları əhatə edirdi. Naxçıvan isə Azərbaycanın həyatının ayrılmaz tərkib hissəsi olub, onun əhalisi ilə eyni idi. Bu məsələ də Naxçıvan muxtariyyətinin xüsusiyyətlərindən idi. Beləliklə, Naxçıvanın muxtariyyətləşdirilməsi prosesi başa çatdı. Təbii ki, bundan sonra Naxçıvanın muxtariyyət statusunun hüquqi bazasının dinamikası və onun həyata keçirilməsi, bu problemlərin Azərbaycan dövlətçiliyində yeri və rolunun müəyyən edilməsi ən önəmli məsələ oldu.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.28, siy.1, iş 20.
2. ARDA, f. 28, siy. 1, iş 55.
3. ARDA, f.28, siy.1, iş 67.
4. ARDA, f. 28, siy. 1, iş 69.
5. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f.1, siy.1, iş 24.
6. ARPİİSSA, f.1, siy.2, iş 18.
7. ARPİİSSA, f.1, siy.74, iş 123.
8. ARPİİSSA, f.1, siy.74, iş 127.
9. ARPİİSSA, f. 609, siy.1, iş 6.
10. ARPİİSSA, f.609, siy.1, iş 71.
11. ARPİİSSA, f. 609, siy. 1, iş 94.
12. ARPİİSSA, f. 1022, siy.5, iş 56.
13. Azərbaycan tarixi, Yeddi cilddə, Altıncı cild (aprel 1920-iyun 1941), Bakı, 2008, 568 s.
14. Əliyev Heydər, Müstəqilliyimiz əbədidir, 22-ci kitab, Bakı, 2007, 528 s.
15. Əliyev Heydər, Müstəqilliyimiz əbədidir, 14-cü kitab, Bakı, 2008, 504 s.
16. Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi, Tərtib edən və ön sözün müəllifi İ.Hacıyev, Bakı, 1999, 36 s.
17. Həbibbəyli İ. Behbud ağa Şahtaxtinskinin Leninə məktubları, Şərq qapısı qəzeti, 2011, 6 oktyabr
18. İbrahimzadə F.Z. Behbud ağa Şahtaxtinskinin siyasi və diplomatik fəaliyyəti, Bakı, 2007, Behbud ağa Şahtaxtinski: Sənədlər və materiallar, Toplayanı, tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev, Naxçıvan, 2017; Əhmədova F. B.Şahtaxtinskinin V.Leninə məktubunda mərkəzi hakimiyyətin Azərbaycana dair siyasətinin təhlili//Milli Azərbaycan Tarixi Muzeyi, 2016
19. Qars müqaviləsi, Azərbaycan, rus, türk və fransız dillərində, Tərtib edəni və ön sözün müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı, 2004, 84 s.
20. Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922), Bakı, 2011, 474 s.
21. Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı, Bakı, 1984, 136 s.
22. Mədətov Q. Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili, Bakı, 1958, 164 s.
23. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), Bakı, 1996, 328 s.
24. Naxçıvan tarixi, Üç cilddə, ikinci cild, Naxçıvan, 2014, 528 s.
25. Naxçıvanın sovetləşdirilməsindən sonra onun rəsmi adı bir neçə dəfə dəyişdirilmişdir, 1920, 28 iyul-1923, 27 fevralda Naxçıvan Sosialist Sovet Respublikası; 1923, 27 fevral-1924, 18 yanvarda-Naxçıvan Muxtar Diyarı; 1924, 18 yanvar-1936, 5 dekabrda-Naxçıvan Muxtar Sosialist Sovet Respublikası; 1936, 5 dekabr-1990, 17 noyabr-Naxçıvan Sovet Sosialist Respublikası; 1990-cı il 17 noyabrından-Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.
26. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA), f.2, siy.2, iş 9.
27. NMRDA, f.40, siy.2, iş 5.
28. NMRDA, f.40, siy.4, iş 15.
29. NMRDA, f.314, siy. 5, iş 15.
30. NMRDA, f.314, siy. 5a, iş 66.
31. Nəriman Nərimanov, Tərtib edən və ön sözün müəllifi T.Əhmədov, Bakı, 2010, 160 s.
32. Paşayev A. Açılmamış səhifələrin izi ilə, Bakı, 2001, 536 s.
33. İsmayil Soysal, Tarihçeleri ve açıklamaları ile birlikte Türkiyenin siyasal andlaşmaları, I cilt (1920-1945). 2. Baskı, Ankara, 1989, 704 s.
34. Mustafa Kamal Paşa, Nahçıvan Türk Kapısıdır, Dinleyip Nakleden: Faruk Sümer, Türk Dünyası Tarih Dergisi, Nisan 1992, Sayı 64.

35. Гулиев Дж.Б. К истории образования Второй Республики Азербайджана, Баку, 1997, 164 с.
36. Международная политика новейшего времени в договорах, нотах и декларациях, ч. III, вып.I. М., 1928, 380 с.
37. Первый Закавказский съезд Советов, Тифлис, 1923, 162 с.
38. Третья сессия Закавказского ЦИК-а V созыва. Стенограф, Отчет. Тифлис, 1931, 176 с.

**ABSTRACT**

**Ismayil Hajiyev**

**THE AUTONOMISATION OF NAKHCHIVAN**

In the article, Bolshevik Russia's pursuing dual politics on Azerbaijan territories, especially Nakhchivan, related to this from some Soviet leaders, V.Lenin, I.Stalin and others' defending Armenia, the measures took for Sovietization of the Azerbaijani territories by giving its some parts to Armenia proved by historical facts. It also reflects the activities of Azerbaijani leaders, including the diplomatic activities of Behbud Agha Shahtakhtinski, the negotiations with Russia and Turkey, the acquisition of Nakhchivan's autonomy status, Gumru, Moscow and Kars treaties and their historical significance. It was clear from the researches that the consequences of Nakhchivan people and Nakhchivan Muslim National Council's tenacious struggle and the referendum resulted in Moscow's impartial position on this issue. The objective position of Turkey resulted in giving to Nakhchivan the autonomy status and the establishment of Nakhchivan Autonomous Republic in February 1924.

**РЕЗЮМЕ**

**Исмаил Гаджиев**

**АВТОНОМИЗАЦИЯ НАХЧЫВАНА**

В статье на основе исторических фактов обоснована двойная политика большевистской России насчёт азербайджанских земель, в частности Нахчывана после советизации Азербайджана, явный переход советских лидеров В.Ленина, И.Сталина и др. на сторону Армении, передача части азербайджанских земель Армении и меры, принятые по её советизации. Здесь также нашли своё отражение деятельность руководителей Азербайджана, в частности Бехбуда аги Шахтахтинского, его участие в переговорах между Россией и Турцией, получение Нахчываном статуса автономии, историческая роль Гюмринского, Московского и Карсского договоров. Из исследований становиться ясно, что в результате упорной борьбы населения Нахчывана, Нахчыванского Национального Совета, проведённого референдума стало возможным справедливое решение этого вопроса со стороны Москвы. Также надо отметить объективную позицию Турции в этом вопросе, что завершилась получением Нахчывана статуса автономии, а в феврале 1924-го года созданием Нахчыванской Автономной Республики.

**XƏZƏR HÜSEYNOV**
*xezerhuseynov@gmail.com*
**SEYRAN HÜSEYNLİ**
*seyranhuseynova@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SƏHİYYƏSİ (1945-1960-CI İLLƏR)

**Açar sözlər:** *Naxçıvan səhiyyəsi, tibb müəssisələri, tibbi sanitariya, tibb işçiləri, tibb məktəbi*

**Key words**: *public health of Nakhchivan, medical establishments, medical sanitary, medical service men, medical school*

**Ключевые слова:** *здравоохранение Нахчывана, медицинские учреждения, медицинская санитария, медицинские работники, медицинское училище в Нахчыване*

Bütün elmlər kimi tibb tarixinin də Azərbaycan xalqının tarixində özünəməxsus yeri vardır. Tibb tarixi ilə tanış olmadan təbabəti dərindən öyrənmək mümkün deyildir. Tibb tarixində təbabətin keçmişi dərindən öyrənilir ki, onun hazırki mərhələsini yaxşı dərk etmək mümkün olsun və gələcəyi proqnozlaşdırmağa imkan yaratsın. Tibb tarixi elm və mədəniyyətin ümumi tarixinin bir hissəsi olub, elmi fikirlərin məntiqinin və inkişafının keçmişini və indiki vəziyyətini əks etdirir və tibb nəzəriyyəsi və səhiyyənin inkişafının gələcəyini qabaqcadan görməyə imkan verir. Bu baxımdan II Dünya müharibəsindən sonra Naxçıvan Muxtar Respublikasında səhiyyə sahələrinin inkişafının öyrənilməsi mühüm yerlərdən birini tutur.

İkinci dünya müharibəsindən sonra bütün sahələrdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasının səhiyyəsində də çətinliklər var idi. 1946-cı ilin mart ayında SSRİ Ali Soveti dördüncü beşillikdə 1946-1950-ci illərə aid bərpa və xalq təsərrüfatının inkişaf planını qəbul etdi. Naxçıvan MSSR-i üzrə səhiyyə planında nəzərdə tutulmuşdur ki, 1950-ci ildə xəstəxanalarda çarpayıların sayı 1940-cı ildəki 399-dan 735-ə, daimi uşaq yaslilərində yerlərin sayı 247-dən 351-ə, feldşer – ambulator məntəqələrinin sayı 60-dan 107-yə, sanitar – epidemioloji stansiyaların sayı 1-dən 4-ə, qadın və uşaq məsləhətxanalarının sayı 3-dən 7-yə və s. çatdırılsın.

1947-ci ildə Naxçıvan Muxtar Respublikada 97 nəfər həkim işləyib, onlardan terapevt 36 nəfər, cərrah 5 nəfər, göz həkimi 3 nəfər, mama – ginekoloq 5 nəfər, rentgenoloq 2 nəfər, diş həkimi 6 nəfər, uşaq həkimi 8 nəfər, nevropatoloq 2 nəfər, otorinolarinqoloq 1 nəfər, epidemioloq 2 nəfər, sanitar həkimi 10 nəfər, malyarioloq 6 nəfər, veneroloq 5 nəfər, bakterioloq 1 nəfər olmuşdur (1, s.58).

Müharibədən sonra Naxçıvan Muxtar Respublikanın səhiyyə orqanlarının əsas vəzifəsi nəinki, səhiyyənin şəbəkəsini artırmaq, habelə tibbi xidmətin keyfiyyətini ixtisaslaşdırılmış növ xidmətini inkişaf etdirməklə təmin etməkdən ibarət idi. Bu ərəfədə Naxçıvan şəhər poliklinikası respublika xəstəxanası ilə, Ordubad şəhər poliklinikası Ordubad şəhər xəstəxanası ilə, Culfa şəhər poliklinikası Culfa şəhər xəstəxanası ilə, Naxçıvan şəhər uşaq poliklinikası Naxçıvan şəhər uşaq xəstəxanası ilə birləşdirildi. Birləşmiş xəstəxanalarda xəstələrin müalicəsini yaxşılaşdırmaq və diaqnozun keyfiyyətini qaldırmaq məqsədilə diaqnostik laboratoriya, fizioterapevtik və rentgen kabinələri təşkil olundu.

1946-cı ilin mart ayında Xalq Səhiyyə Komissarlığı nazirliyə çevrildi. 1946-cı ilin martında əhaliyə onkoloji xidmət göstərmək üçün Naxçıvan şəhər poliklinikasının nəzdində onkoloji kabinet açılır. Respublika xəstəxanasının ümumi çarpayılarının hesabına 20 çarpayı onkoloji xəstələr üçün ayrılır.

Bir vaxtdan sonra (may 1947) Ordubad şəhər, Şərur rayon xəstəxanalarında hər birində 5 çarpayı olmaqla onkoprofilaktik çarpayı ayrılır, bu rayonların poliklinikalarında isə onkoprofilaktik kabinetlər təşkil edilir (3, s.93).

Müharibədən sonra Naxçıvan Muxtar Respublikada onkoloji dispanserin rəhbərliyi altında respublikanın rayon və kənd xəstəxanaları xərçəng xəstəliyinin erkən formasını aşkara çıxartmaq məqsədilə əhalinin kütləvi profilaktik müayinəsini aparmağa başladılar. Respublikada vərəm xəstəliyinə qarşı mübarizə tədbirlərini genişləndirmək məqsədilə Ordubad, Culfa və Şərur rayonlarına hərəsinə 5 vərəm çarpayısı ayrıldı.

II Dünya müharibədən sonrakı illərdə Naxçıvan MSSR-də tibb müəssələrinin şəbəkəsi xeyli genişləndirilmiş, xəstəxanaların mərkəzləşdirilməsi sahəsində çox iş görülmüşdür. Müharibədən sonra sanitar – epidemioloji stansiyalarda işləyən həkimlərin sayı 1945-ci ilə nisbətən demək olar ki, 4 dəfə artmışdı. Həmin xəstəxanalarda yüksək ixtisaslı mütəxəssislər: sanitar həkimlər, epidemioloqlar, bakterioloqlar, parazitoloqlar və başqaları işləyirdilər. Habelə burada işləyən orta tibb işçilərinin də sayı

xeyli artmışdı. Naxçıvan Muxtar Respublikada 1950-ci ildə 27 xəstəxana, 100 feldşer – mama məntəqəsi, 139 həkim, 471 orta tibb işçisi fəaliyyət göstərmişdir (5, s.83).

Müharibədən sonrakı illərdə Naxçıvan Muxtar Respublikada dəri-zöhrəvi xəstəlikləri də geniş yayılmışdır. 1947-ci ildə 38 təzə sifilis, 32 süzənək qeydə alınmış, 1946-cı ildə isə 48 təzə sifilis, 63 süzənək və 1 yumşaq şankr aşkar edilmişdi. Respublikada ümumi yoluxma zamanı 635 keçəllik aşkar edilmişdi. Keçəllərin müalicəsində əsas çətinlik rentgen kabinetlərinin müntəzəm işləməməsi olmuşdu. 1947-ci ildə 3 nəfər cüzamlı xəstə aşkar edilərək Bakı şəhərinə göndərilmişdir (1, s.60).

1947-ci ildə respublikanın əhalisinin 40%-i, 1952-ci ildə isə 70%-i göbələk xəstəliyinə görə müayinə edilmişdi. Aşkar olunan xəstələr müalicəyə cəlb edilmişdilər. Zöhrəvi xəstəliklərə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi nəticəsində 1952-ci ildə sifilisin aktiv forması kəskin aşağı düşmüşdü. 1946-cı ilə nisbətən xəstəlik demək olar ki, 4 dəfə azalmışdı (3, s.94).

1949-cu ilin dekabrında respublika birləşmiş xəstəxanasının poliklinika şöbəsində bədən tərbiyəsi kabineti açılmışdı, bir qədər sonra (avqust 1950-ci il) bu kabinet bədən tərbiyəsi dispanserinə çevirilmişdi.

1949-50-ci illərdə Naxçıvan Muxtar Respublikada tibb müəssisələrinin şəbəkəsi inkişaf etdi və böyüdü. Xəstəxanalar və onlarda olan çarpayıların sayı artdı. 1949-cu ildə Naxçıvan Muxtar Respublikada 3 traxoma dispanseri, 4 göz xəstəlikləri kabinəsi, 30 traxoma məntəqəsi; bu müəssələrdə işləyən 6 mütəxəssis göz həkimi, 46 orta təhsilli traxoma işçiləri var idi. 1949-cu ildə Culfa rayonunda 1 traxoma dispanseri, Şərur rayonunda isə bir göz xəstəlikləri kabinəsi təşkil edilmişdir (7, v.9). Naxçıvan Muxtar Respublikada 1949-cu ilin 8 ayı ərzində 36881 nəfər əhali traxoma xəstəliyi üzrə tibbi müayinədən keçirilərək, hesaba alınan traxomalı xəstələrin 2030 nəfəri müalicəyə cəlb olunmuşdur. Onlardan 1073 nəfəri tamamilə sağalmışdır. Bütün bunlara baxmayaraq, kənd yerlərində xüsusilə traxoma xəstəliklərinin kök saldığı yerlərdə (Nehrəm, Yaycı, Dəstə, Cəhri, Nüsnüs, Dəmirçi) və sairə kəndlərdə bu iş istənilən səviyyədə olmamışdır (7, v.10).

1950-60-cı illərdə səhiyyə kənd yerlərində intensiv inkişaf etdi. Müalicə – profilaktika şəbəkəsi ilbəil artdı, kənddə həkimlərin sayı çoxaldı, əhaliyə göstərilən tibbi xidmətin keyfiyyəti yaxşılaşdı, rayon xəstəxanaları möhkəmləndi, kənd əhalisinə tibbi xidmətin ixtisaslaşdırılmış növü təkmilləşdi. Rayon xəstəxanaları təşkilatı mərkəz kimi əhaliyə ixtisaslaşdırılmış tibbi xidmətin geniş sürətdə göstərilməsini təmin etməklə, kənd sahə xəstəxanalarının müalicə – profilaktika işlərinə, həm də rəhbərlik edirdi.

Respublika xəstəxanası təşkilatı – metodik mərkəz kimi bir tərəfdən rayon xəstəxanalarının işinin keyfiyyətinin qaldırılmasına, o biri tərəfdən kənd əhalisinə yüksək ixtisaslı müalicə göstərilməsinə yaxından köməklik edirdi. Naxçıvan Muxtar Respublikanın rayonlarından kənd əhalisinə tibbi köməyi yaxınlaşdırmaq üçün vaxtaşırı ixtisaslaşdırılmış briqadalar kəndlərə göndərilirdi. Briqadaların tərkibində terapevt, cərrah, veneroloq, sanitar həkim, ginekoloq, göz həkimi və başqaları olurdu.

Müharibədən sonrakı illərdə Naxçıvan MSSR-də müalicə – profilaktika şəbəkəsi, tibbi kadrlar və səhiyyənin büdcəsi durmadan artdı. 1953-cü ildə 1946-cı ilə nisbətən xəstəxanaların sayı 2,1 dəfə, onlarda olan çarpayıların sayı 1,4 dəfə, xüsusən ixtisaslaşdırılmış çarpayıların sayı artmışdır. 1953-cü ildə həkimlərin sayı 1946-cı ildəkinə nisbətən 2,4 dəfə, orta tibb işçilərinin sayı 2,5 dəfə artmışdır. Səhiyyənin material texniki bazası möhkəmlənmişdir. Tibb obyektləri (xəstəxanalar, uşaq yasliləri və s.) tikilmişdi, səhiyyə büdcəsi 1953-cü ildə 1946-cı ilə nisbətən 2 dəfə artmışdı (3, s.103).

Bəhs edilən illərdə tibb işçilərinin ixtisaslaşması və təkmilləşməsinə də daim diqqət verilirdi. Orta tibb işçilərini təkrar hazırlamaq üçün qısa müddətli kurslar təşkil edilmişdir. Naxçıvan MSSR-i səhiyyə orqanları müharibə illərindən sonra ana və uşaqların mühafizəsinin yaxşılaşması üçün geniş tədbirlər həyata keçirmişdilər. Belə dəyişiklik tibbi yardımın, xüsusən uşaqlara və qadınlara göstərilən köməyin yaxşılaşdırılmasına səbəb olmuşdu. 1954-cü ildə Naxçıvan Muxtar Respublikada 34 xəstəxana, 6 səhiyyə epidemik stansiyası, 6 qızdırma ilə mübarizə stansiyası, 54 feldşer – mama məntəqəsi fəaliyyət göstərmişdir (1, s.76).

Bundan başqa Naxçıvan Uşaq Xəstəxanasında ixtisaslaşdırılmış kabinələr: burun-qulaq-boğaz, nevroloji, dəri və göz xəstəlikləri – təşkil edilmişdir. Uşaqlara göstərilən müalicə – profilaktika xidmətini daha da yaxşılaşdırmaq məqsədilə rayon uşaq məsləhətxanalarında çalışan həkim – pediatrlar ambulatoriyada böyük yaşlı uşaqları qəbul etməyə başlamış və bütün yaşlardan olan uşaqlara stasionarda xidmət etmişdilər. Həkim ginekoloqlar hamilə və xəstə qadınlara qadın məsləhətxanalarında qəbul təşkil etmiş, həmçinin doğum şöbələrində işləyərək ginekoloji xəstələrə stasionarda kömək göstərmişdilər (3, s.99).

1954-cü ildə Naxçıvan Muxtar Respublikada qızdırma və göbələk xəstəliklərinin hələ də tam ləğv edilməməsi, traxoma xəstəliklərinin xeyli olmasına baxmayaraq, bu xəstəliklərə qarşı tədbirlərin günün tələblərinə uyğun qurulmadığı bildilirdi.

Müharibə illərindən sonra sanitar – epidemioloji stansiyalar qarşısında çox vacib məsələlər dururdu: yoluxucu xəstəlikləri kəskin aşağı salmaq, yoluxucu xəstələrin hamısını xəstəxanaya cəlb etmək, yeyinti kommunal və uşaq müəssisələri üzərində ciddi sanitar nəzarəti aparmaq və profilaktik tədbirlərin geniş miqyasda aparılmasına nail olmaq və s. Bu illər ərzində Naxçıvan MSSR-də sanitar – epidemioloji stansi-

yalar şəbəkəsi böyüdü və möhkəmləndi. Sanitar – epidemioloji stansiyaların sayı 2-dən 6-ya çatdı. Beləliklə, 1953-cü ildə respublikanın bütün rayonlarında sanitar – epidemioloji stansiyalar, onların nəzdində sanitar – bakterioloji laboratoriyalar fəaliyyət göstərirdi. Rayon sanitar – epidemioloji stansiyalar kompleks tədbirlər həyata keçirməyə başladılar.

1954-cü ilin fevral ayında Naxçıvan şəhər birləşmiş xəstəxanası 105 çarpayılıq, o cümlədən şöbələr üzrə: terapiya – 40, cərrahiyyə – 40, ginekologiya – 10, yoluxucu – 15 çarpayılıq olmuşdur.

Naxçıvan MSSR Nazirlər Sovetinin “Respublika əhalisinin, müalicə – profilaktika müəssisələrinin dərman, sanitariya və gigiyena əşyaları ilə təchiz edilməsinin yaxşılaşdırılması tədbirləri haqqında” 24 yanvar 1955-ci il tarixli 17 saylı qərarına əsasən Naxçıvan Muxtar Respublikada aptek şəbəkəsinin işi xeyli yaxşılaşmışdı. Həmin ildə Parağaçay mədənində, Cəhri və Əznəbürd (Çalxanqala) kəndlərində aptek məntəqələri açılmışdır (1, s.77).

XX əsrin 50-60-cı illərində Naxçıvan Muxtar Respublikada səhiyyə ocaqlarının sayı sürətlə artmağa başladı. Əhaliyə səhiyyə xidmətində diqqətəlayiq uğurlar qazanıldı. Malyariyaya qarşı tədbirlər nəticəsində 1958-ci ildə Naxçıvan Muxtar Respublikada bu xəstəliyin kökü kəsildi (4, s.132).

Səhiyyənin gələcəkdə daha da inkişaf etdirilməsi üçün böyük əhəmiyyət kəsb edən qərarlardan biri də Sov.İKP Mərkəzi Komitəsinin və SSRİ Nazirlər Sovetinin 14 yanvar 1960-cı il 58№-li “SSRİ-də əhaliyə tibbi xidmət göstərilməsini və əhalinin can sağlığının qorunmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında”kı qərarı oldu. Bu qərara əsasən Azərbaycan KP Naxçıvan Vilayət Partiya Komitəsi və Naxçıvan MSSR-i Nazirlər Soveti 6 iyul 1960-cı il 75/110№-li eyni qərar qəbul etdi. Qərara əsasən Naxçıvan MSSR-də tədbirlər işlənib hazırlandı. Bunlara tibb müəssisələrinin genişləndirilməsi, müalicə – profilaktika müəssisələrinin tikilməsi tempinin sürətləndirilməsi və keyfiyyətinin yüksəldilməsi və həmin müəssisələrin avadanlıqla təchiz olunması, bir sıra yoluxucu xəstəliklərin (difteriya, poliomielit, traxoma) ləğv edilməsi, qarın yatalağı, bağırsaq infeksiyaları, brusselloz və digər xəstəliklərlə xəstələnmə hallarının kəskin sürətdə azaldılması və s. tədbirlər aiddir. Bu qərar habelə, zəhmətkeşlərin can sağlığının qorunması işində əhalinin özfəaliyyətinin yeni inkişafı üçün zəmin yaratdı. 1960-cı ildə Naxçıvan Muxtar Respublikanın tibb sahəsində xeyli iş görülmüşdü. Bəhs edilən ildə əhaliyə 41 xəstəxana, 129 feldşer – mama məntəqəsi, 178 həkim, 968 orta tibb işçisi xidmət göstərmişdir (5, s.83).

1960-cı illərdə Naxçıvan Muxtar Respublikada aptek şəbəkəsi də çox inkişaf etmişdir. Burada Azərbaycan SSR Baş Apteklər İdarəsinin Naxçıvan rayonlararası şöbəsi təşkil edilmişdir. 1962-ci ildə Naxçıvan Muxtar Respublikada 14 aptek, 50-yə yaxın aptek məntəqəsi, analitik laboratoriya, sanitariya – gigiyena mağazaları və başqaları fəaliyyət göstərmişdir.

Naxçıvan MSSR-də xalq təsərrüfatının yeddillik planına uyğun olaraq, Naxçıvan Muxtar Respublikada 1959-1965-ci illərdə səhiyyənin inkişafına aid yeddiillik plan tərtib olundu. Planda gələcəkdə tibb müəssisələrinin, xəstəxana çarpayılarının sayını artırmaq, uşaq və qadın məsləhətxanalarının, uşaq xəstəxanalarının şəbəkəsini genişləndirmək, xəstəxanaların tikintisi üçün vəsaiti artırmaq və s. nəzərdə tutulurdu. 1953-1965-ci illərdə Naxçıvan Muxtar Respublikada əhaliyə ambulator – profilaktika köməyi göstərən müəssisələrin sayı artdı. Əgər 1953-cü ildə tibb müəssisələrinin sayı 36 (onlardan 16 şəhərdə, 20 kənd yerlərində) olmuşdursa, 1965-ci ildə onların sayı 50-yə (21 və 29) qədər artmışdır. Ambulator – poliklinika müəssisələrinin artması ilə yanaşı, ambulator tibbi yardımın həcmi şəhərlərdə olduğu kimi, kənd yerlərində də nəzərə çarpacaq dərəcədə artmışdı (1, s.77; 3, s.106). 1950-1960-cı illərdə respublikanın rayonlarında (Şərur rayonunun İbadulla, Püsyan, Qarxun kəndləri; Culfa rayonunun Dizə kəndi) kolxozlar tərəfindən birtipli kolxoz doğum evləri tikilmişdir. Artıq qadınların əksər hissəsi uşaqları bu doğum evlərində dünyaya gətirməyə başladılar. Rayonda dünyaya gələn uşaqlar xidməti məsləhətxanada, doğum evindən çıxandan sonra, birinci üç gündə həkim potranajı ilə əhatə olunurdular. Bununla belə, 1965-ci ildə kənd yerlərində ümumi çarpayı fondundan və doğum çarpayılarından qeyri-qənaətbəxş istifadə olunmuşdur.

1953-1965-ci illərdə Naxçıvan Muxtar Respublikada sanitar – epidemioloji stansiyalar malyariya stansiyaları ilə birləşdirilərək iriləşdi. Bundan sonra sanitar – epidemioloji stansiyalar daha da kompleks şəkildə tədbirləri müvəffəqiyyətlə həyata keçirməyə başladılar. İllər keçdikcə aydın oldu ki, dövlət sanitar müfəttişliyi və sanitar – epidemioloji stansiyalar arasında əlaqə və razılıq mövcud olmadığına görə, xəbərdar edici və cari sanitar nəzarətinin arasında uyğunsuzluq əmələ gəlir, bu isə sanitar – epidemiya əleyhinə tədbirlərin kompleks şəkildə, tələb olunan qaydada həyata keçirilməsini təmin etmirdi (3, s.113).

Tədqiq edilən illərdə Naxçıvan MSSR-nin səhiyyə büdcəsi ilbəil artmışdır. 1965-ci ildə səhiyyə büdcəsi 1953-cü ilə nisbətən demək olar ki, 2 dəfə çox olmuşdur. Hər il sərmayənin artırılması tibb müəssisələrini yeni aparatlarla, alətlərlə, avtomaşınlarla təchiz etməyə imkan vermiş, mövcud tibb müəssisələrinin əsaslı təmir edilməsinə və yeni xəstəxanaların tikilməsinə şərait yaratmışdır. Naxçıvan şəhərində 30 yerlik yasli – baxça, 100 çarpayılıq vərəm əleyhinə dispanser tikilib istifadəyə verilmiş, 100 çarpayılıq doğum evinin tikintisi qurtarmaq ərəfəsində olmuşdur.

Naxçıvan MSSR-də tibb müəssisələri şəbəkəsinin artması orta tibb işçilərinin çoxalmasına səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikada orta tibb işçiləri əsasən Naxçıvan tibb məktəbi tərəfindən hazırlanırdı. Tibb məktəbi 30 il ərzində (1931-1961) 1300 nəfərdən çox orta tibb işçisi hazırlamışdı. 1957-ci ildə Naxçıvan Tibb Məktəbini 53 nəfər tələbə bitirmişdi. Bunlardan 22 nəfəri mamaçalıq ixtisası üzrə, 31 nəfəri isə feldşer şöbəsi üzrə ixtisasa yiyələnmişdi. Tibb Məktəbini bitirənlərdən 5 nəfərinə əlaçılıq diplomu verilmişdir ki, bunlardan da 3 nəfəri N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna göndərilmişdir (8, s.6).

1956-1965-ci illərdə Naxçıvan Muxtar Respublikada 184 həkim və 389 orta tibb işçisi öz ixtisasını artırmışdır. Bütün bunlara baxmayaraq XX əsrin 60-cı illərində Naxçıvan Muxtar Respublikanın səhiyyəsində çətinliklər qalmaqda idi. Bəhs edilən illərdə Naxçıvan Muxtar Respublikada yerləşən xəstəxanalar, ambulatoriyalar, laboratoriyalar və apteklər əhaliyə lazımi xidmət göstərməkdən xeyli geri qalırdı. Beləliklə, əldə olunmuş sənədlərdən məlum olmuşdur ki, 1969-cu ildə Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə bütün sahələrdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasının səhiyyə sahəsində də uğurlar əldə edilmişdir. Heydər Əliyev həmin dövrdə əhalinin sağlamlığının qorunmasına və möhkəmləndirilməsinə xüsusi fikir verirdi. Onun rəhbərliyi altında Azərbaycanda həyata keçirilən tədbirlərin nəticəsində bu sahədə əhəmiyyətli uğurlar əldə edilmişdi. Müalicə profilaktika müəssisələrinin elmi – praktik mərkəzlərinin şəbəkəsi genişləndirilmiş, respublikada çoxlu sayda qadın məsləhətxanaları, uşaq poliklinikaları və ambulatoriyaları yaradılmış, həkimlərin və tibb işçilərinin sayı artmışdı. Respublika rəhbərliyinin göstərişlərinə uyğun olaraq, Naxçıvan Vilayət Partiya Komitəsi və Naxçıvan Muxtar Respublika hökuməti burada səhiyyə xidmətinin səviyyəsini yüksəltmək üçün bir sıra qərarlar qəbul etmişdi. Bu qərarlar sırasında Naxçıvan VPK-nın "Naxçıvan MSSR-də əhaliyə səhiyyə xidmətinin vəziyyəti və onun yaxşılaşdırılması tədbirləri haqqında" 5 avqust 1970-ci il tarixli qərarı göstərmək olar (2, s.142).

1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafına yönəldilmiş vəsaitlərin həcmi əhəmiyyətli dərəcədə artırılmış, səhiyyə obyektlərinin tikintisi genişləndirilmiş, əhaliyə tibbi xidmət işi yaxşılaşdırılmışdır. 1970-ci ildə Naxçıvan şəhərində bütün ixtisaslardan olan həkimlərin sayı 162, orta tibb işçilərinin sayı 545 nəfər, əhalinin hər 10 000 nəfərinə düşən həkimlərin sayı 48, orta tibb işçilərinin sayı 161 nəfər, xəstəxana çarpayılarının sayı isə 793 ədəd olmuşdur (6, s.98). 1970-ci ildə Naxçıvan Muxtar Respublikada 53 xəstəxana (hərbi xəstəxanadan başqa), 150 feldşer – mama məntəqəsi, 262 həkim, 1435 orta tibb işçisi xidmət göstərmişdir (5, s.83).

## ƏDƏBİYYAT


1. Cəfərov.T. Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafı, Bakı, 1999, 312 s.
2. Qasımov Ə.Q. Heydər Əliyevin tərəqqi strategiyası və Naxçıvan Muxtar Respublikası (XX əsrin 70-80 ci illəri), Bakı, Təhsil, 2009, 412 s.
3. Məmmədov A.N. Naxçıvan MSSR-də səhiyyənin tarixi və mərhələli inkişafı (1826-1966), Bakı, Nurlan, 2006, 190 s.
4. Naxçıvan Ensiklopediyası, 2 cild, Naxçıvan, 2005, 381 s.
5. Naxçıvan tarixi, Üç cilddə. III c., Naxçıvan, Əcəmi NPB 2015, 560 s.
6. Naxçıvan statistika güzgüsündə, tarixi-statistik məcmuə, Bakı, 1999, 128 s.
7. Nax. MR DA. f. 17, s. 1, iş. 319, v.9-14.
8. Nax. MR DA. f. 17, s. 1, iş. 752, v.5-7.


## ABSTRACT


**Khazar Huseynov, Seyran Huseynli**


**PUBLIC HEALTH OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC (IN THE YEARS 1945-1960)**


Like other articles, the article called "Public health of the Nakhchivan Autonomous Republic" (in the years 1945-1960) form scientific interest as well. In the article public health development in the Nakhchivan Autonomous Republic in the years after II World War was searched using archives, works of authors, periodical press, including to scientific circulation.


## РЕЗЮМЕ


**Хазар Гусейнов, Сейран Гусейнли**


**ЗДРАВООХРАНЕНИЕ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ (1945-1960 годы)**


Данная статья «Здравоохранение в Нахчыванской Автономной Республике (1945-1960)» вызывает определенный научный интерес. В статье рассмотрены вопросы развития здравоохранения в Нахчыванской Автономной Республике после Второй мировой войны на материалах архивных документов, трудов отдельных авторов и периодических изданий и обобщенные результаты были включены в научный оборот.

# I BÖLMƏ

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İCTİMAİ-SİYASİ VƏ SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ

**SEYMUR TALIBOV**
*Naxçıvan Dövlət Universiteti*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ GEOSİYASİ VƏZİYYƏTİ VƏ ENERJİ TƏHLÜKƏSİZLİYİNİN HÜQUQİ ƏSASLARI

**Açar sözlər:** *Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, Geosiyasi vəziyyət, Enerji Təhlükəsizliyi, Enerji qanunvericiliyi*

**Key Words:** *Azerbaijan Republic, Nakhchivan Autonomous Republic, Geopolitical Situation, Energy Security, Energy Legislation*

**Ключевые слова:** *Азербайджанская Республика, Нахчыванская Автономная Республика, геополитическое положение, энергетическая безопасность, законодательство энергетики*

Qədim Naxçıvan torpağı strateji nəqliyyat yolları üzərində yerləşdiyi üçün davamlı olaraq qonşu dövlətlərin maraq dairəsində olmuşdur. Xüsusən Rusiya və İran arasında 1828-ci il Türkmənçay müqavilə-sindən sonra Azərbaycan torpaqları ikiyə bölündü. Rusiya işğal etdiyi Azərbaycan torpaqlarında işğalçılıq tədbirlərini həyata keçirmək və möhkəmlənmək məqsədilə, bu ərazilərə ermənilərin kütləvi köçürülməsini təşkil etmişdir. XX əsrin əvvəllərində Ermənistan "dövlətinin" qurulması ilə Azərbaycanın tarixi ərazisi – Naxçıvan ondan ayrı salınır. Naxçıvanın ərazicə Azərbaycandan ayrı salınması digər Azərbaycan torpaq-larının (xüsusən də, Zəngəzurun) Ermənistan tərəfindən 1919-cu ildə işğalı nəticəsində baş verir. İşğal siyasəti, həm də etnik təmizləməyə rəvac verir. Yalnız 1919-cu ilin oktyabr ayının əvvəllərində Zəngəzurun 110 böyük türk-müsəlman kəndi məhv edilir. Mənbələrdə qeyd edilir ki, yalnız Zəngəzur qəzasından qaçqın düşənlərin sayı 60 minə çatmışdı(1,səh 416).

Mudros müqaviləsinə əsasən, Türkiyə silahlı qüvvələri bölgəni tərk etdiyi zaman Azərbaycanlı əhali özünü və torpağını qorumaq üçün qüvvətli dövlət qurumlarına, nizami hərbi hissələrə malik deyildi. Regionda əcnəbi müttəfiqlərin, xüsusən ingilislərin ikili siyasət yürütdükləri bir şəraitdə ermənilərin özbaşınalığına qarşı istər Azərbaycan hökuməti, istərsə də Naxçıvan, Qarabağ, Zəngəzur bölgələrindəki milli-vətənpərvər siyasi qüvvələr tanınmış, nüfuzlu şəxslər tərəfindən Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi istiqamətində müəyyən əhəmiyyət kəsb edən tədbirlər görürdü. Bu baxımdan Naxçıvan bölgəsində yaradılan Araz-Türk Respublikasının mühüm əhəmiyyəti var idi. Azərbaycan XİN-in Respublika Nazirlər Şurasının sədrinə 17 iyun 1919-cu il tarixli, Azərbaycan Cümhuriyyəti xarici siyasət idarəsi başçısının müttəfiq qoşunlarının komandanına 8 yanvar 1919-cu il tarixli məktubları və s. sənədlərdən göründüyü kimi, bu Respublika 1918-ci ilin noyabrında yaranmış və təxminən 1919-cu ilin martınadək fəaliyyət göstərmişdir. Onun ərazisi Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarını, habelə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və s. bölgələri əhatə etmiş, mərkəzi isə Naxçıvan şəhəri olmuşdu (2).

Bütün bunlara baxmayaraq o dövrün xristian ab-havalı siyasi mühitinin təsiri ilə Azərbaycan torpaqlarının bir hissəsinin Ermənistan tərəfindən ilhaq edilməsinə, digər hissəsinin – Naxçıvanın isə ondan ayrı salınmasına gətirib çıxarır. Bu proses Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalından sonra daha da möhkəmlənir. Əgər Cumhuriyyət dönəmində Naxçıvan və Zəngəzuru saxlamaq üçün məcburiyyət olaraq İrəvan və Eçmiədzin əyalətləri Ermənistana güzəşt edilirsə, (1, səh. 417) Sovet Azərbaycanı dövründə şovinist rus imperiyasının "Dağlıq Qarabağ problemi" yaradılır, (3, səh. 199-200) Zəngəzur isə Ermənistana verilir. Bununla da Vətənin tarixi, etnik coğrafi ərazisi – Naxçıvan Azərbaycanın əsas ərazisindən fiziki olaraq ayrılmış olur.Eyni zamanda Azərbaycan xalqı özünün ən yaxın etnik siyasi bağından – Türkiyədən qoparılır. Bununla da gələcəkdə Azərbaycan Respublikasının Qərbə çıxışı Rusiyadan, İrandan və Ermənistandan asılı vəziyyətə salınır. Şübhəsiz ki, bu vəziyyət Naxçıvanın da siyasi, iqtisadi, sosial vəziyyətinə təsirziz ötüşməyə bilməzdi.

1921-ci ilin əvvəllərində Naxçıvan Respublikasında onun Azərbaycan SSR tərkibinə daxil olması barədə rəy sorğusu keçirilir. Rəy sorğusu nəticəsində əhalinin 90% Naxçıvan diyarının Azərbaycan SSR tərkibində qalmasına tərəfdar çıxır. Naxçıvanın Muxtar Sovet Sosialist Respublikası kimi təsis edilməsi 1924-cü ilin 9 fevralına təsadüf edir (4, səh.467). Hələ o dövrdə müxtəlif dövlətlər tərəfindən dəstəklənən daşnakların təhdidlərini nəzərə alaraq Türkiyə - Naxçıvan üçün beynəlxalq hüquq zəminində təminat yaratmaq üçün tədbirlər həyata keçirir. Belə ki, 1921-ci ilin martın 16-da RSFSR ilə Türkiyə arasında Moskvaya imzalanmış dostluq müqaviləsi sayəsində, imperialistlər tərəfindən dəstəklənən erməni daşnaklarının fitnələrinə son qoyulur. Bu müqavilənin üçüncü bəndinə əsasən Naxçıvan vilayəti "Azərbaycanın qəyyumluğu (protektoratı) altında muxtar ərazi olurdu, bir şərtlə ki, Azərbaycan bu qəyyumluğu üçüncü dövlətə güzəştə getməyəcəkdir"(5, səh. 598-599).

"Naxçıvanın Azərbaycanın himayəsi altında muxtar ərazi" statusu RSFSR-in iştirakı ilə, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ilin 13 oktyabrında Qarsda bağlanmış 20 maddədən ibarət müqavilədə də təsbit edildi.

Naxçıvan diyarının çox mürəkkəb və gərgin siyasi ziddiyyətlər şəraitində muxtar dövlət statusunun 1921-ci ildə beynəlxalq müqavilələrdə "əks olunması həmin dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilməlidir"(6).

Naxçıvanın statusu həm Azərbaycan SSR-in, həm də özünün qəbul etdiyi Konstitusiyalar ilə möhkəmləndirildi. Beləliklə, Azərbaycan SSR-in tərkibində özünün ali qanunvericilik və icra orqanları olan Muxtar Sovet Respublikası – Naxçıvan MSSR yaradıldı. Naxçıvan muxtariyyətinin yaradılması diyarın özünəməxsus coğrafi mövqeyi ilə bağlı idi: Naxçıvan şimal və şərqdən Ermənistan (246 km), cənub və cənub-qərbdən İran (204 km) və Türkiyə (13 km) ilə həmsərhəddir.

Muxtar respublikasının iqtisadi, coğrafi və geosiyasi mövqeyi olduqca mürəkkəbdir. Muxtar Respublika ərazisinin əsas hissəsi dağlıq sahələrdən (1000 metrdən yuxarı) ibarətdir. Dərələyəz və Zəngəzur dağ silsilələridən tirələr arasında Araz çayına doğru uzanan düzənlik sahələri Naxçıvan Muxtar Respublikasının əkinçiliyin əsas mərkəzi sayılır.

Muxtar respublikanın düzənlikdə olan əkin sahəsinin 80%-dən çoxu suvarılan torpaqlardır. Əkin sahələri kənd təsərrüfatına yararlı torpaqların 33,2%-ni təşkil edir. Kənd təsərrüfatının əsas suvarma mənbələri Araz və Arpa çaylarıdır. Naxçıvanın kənd təsərrüfatı onun ərzaq təhlükəsizliyini maddi əsasını formalaşdırdığı kimi enerji təhlükəsizliyi də bütövlükdə Respublikanın sosial-iqtisadi inkişaf təminatıdır. (7, səh. 11) Naxçıvanın energetika sistemi, onun enerji təhlükəsizliyi Respublikanın geosiyasi, iqtisadi durumu aspektindən dəyərləndirməlidir. Sovetlərin süqutundan sonra blokada vəziyyətinə məhkum olunmuş muxtar respublikada ən ciddi problemlər energetika sahəsində yaşanmışdı. Lakin, Azərbaycan Respublikasının sisyasi-iqtisadi uğurları nəticəsində bu sahədə mühüm nailiyyətlər əldə olunmuşdur. Xüsusən də, Respublikanın genişmiqyaslı qazlaşdırılması və elektrikləşdirilməsi üzrə tədbirlər qeyd edilməlidir.

Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin 1990-cı ilin iyun ayında Moskvadan Bakıya, oradan da Naxçıvana qayıdışı geniş mənada bütövlükdə Azərbaycandan ötrü, xüsusən də ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan üçün bir tale işi idi. Çox çətin hərbi-siyasi durumda zəngin təcrübəyə, müstəsna dövlətçilik səriştəsinə, xilaskarlıq bacarığına malik olan Heydər Əliyev Azərbaycan üçün hava su qədər lazımlı idi.

Naxçıvan MR-nin Ali Məclisinin Sədri Vasif Talıbovun 2006-cı ildə Bakıda çap olunmuş "Qayıdış" kitabında çox doğru olaraq ifadə etdiyi kimi, "Moskvadan Naxçıvana qayıdış ...əyalət mərkəzinə yox, Vətənə qayıdış idi; böyük siyasətə yenidən və fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli Qayıdış idi... Əsl yolu zaman özü seçdi. Xalqın iradəsi hər şeyə qalib gəldi və müstəqil Azərbaycan öz nicatını Heydər Əliyevin hakimiyyətə ikinci dəfə Qayıdışında tapdı"(8, səh.8-12). Görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvanda mənalı və keşməkeşli həyatının çətin və şərəfli bir mərhələsini yaşadı. Ermənistan tərəfinin ərazi iddiaları zəminində Naxçıvana ardıcıl olaraq hərbi həmlələr etməsi, regionun düşmənlə döyüşdə şəhidlər verməsi də çətinliklərin miqyasını genişləndirirdi. Buna baxmayaraq, təcrübəli dövlət xadimi bütün çətinliklərin real çıxış yollarını müəyyən edib, yaranmış böhranı aradan qaldırmaq üçün qəti qərarlar qəbul etməyi bacardı(9, səh225).

Ulu Öndər Türkiyə Cümhuriyyətinin və İran İslam Respublikasının dövlət başçıları ilə danışıqlar apararaq iqtisadi siyasi çətinliyi aradan qaldırdı, sıxıntıya salınmış camaatın elektrik təminatını yaxşılaşdırdı. Ermənistan tərəfindən elektrik enerjisinin kəsilməsi ilə əlaqədar yaranmış böyük çətinliklər qısa vaxtda Türkiyənin İğdır bölgəsindən çəkilmiş və Sədərək üzərindən Naxçıvan şəbəkəsinə birləşdirilmiş elektrik cərəyanının muxtar respublikanın rayonlarına çatdırılması ilə aradan qaldırıldı.

Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında əlaqələrin əsası 1992-ci ildə İran İslam Respublikasının dəvəti ilə Naxçıvan MR Ali Məclisinin Sədri, Ümummilli lider Heydər Əliyevin İran İslam Respublikasına səfəri zamanı 24 avqust 1992-ci il tarixdə imzalanmış "Azərbaycan Respublikasının

Naxçıvan Muxtar Respublikası və İran İslam Respublikası arasında əməkdaşlıq protokolu" ilə qoyulmuşdur. Naxçıvan Muxtar Respublikasının qaza olan tələbatının ödənilməsinə dair 2004-cü ilin avqust ayında Azərbaycan Respublikası ilə İran İslam Respublikası hökumətləri arasında imzalanmış "Təbii qaz mübadiləsi üzrə müqavilə" nin icrası olaraq 2005-ci ilin noyabr ayından muxtar respublikaya təbii qaz verilməkdədir. Haliyədə muxtar respublikanın demək olar ki, bütün ərazisi qazlaşdırılmışdır.

2007-ci ilin avqustunda isə Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında "Ordubad" su elektrik stansiyasının tikintisi barədə protokol imzalanmışdır.

Ümumilikdə, muxtar respublikaya təbii qazın verilməsi yeni elektrik stansiyalarının işə salınmasına səbəb olmuş, Naxçıvan Qaz Turbin Elektrik Stansiyasında turbinlərin qazla işləmə rejiminə keçirilməsi nəticəsində burada enerji istehsal etmək imkanları yaranmışdır.

Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramında qeyd edilir ki, Naxçıvan Muxtar Respublikası enerji sisteminin ölkənin əsas enerji sistemi ilə əlaqəsinin olmadığını nəzərə alaraq, orta, kiçik, mikro su elektrik stansiyalarının ilk növbədə Naxçıvan Muxtar Respublikasında tikilməsi daha məqsədəuyğundur. Bu işin təşviqi olaraq bərpa olunan enerji mənbələrinin hasilatı üçün texnoloji avadanlığın istehsalı Naxçıvan Muxtar Respublikasında qurulmalıdır. Muxtar respublikada 87 meqavat elektrik enerjisi istehsal etmək gücünə malik 10 moduldan ibarət elektrik stansiyası çox qısa müddətə tikilərək istifadəyə verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 11 yanvar 2017- i ildə Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib. Bu elektrik stansiyasının gücü 36 meqavat gücündə olacaq. Stansiya derivasiya tiplidir və Araz çayı üzərində yerləşdiriləcək. Stansiya üçün tutumu 1,5 mln. kubmetr olan su anbarı inşa ediləcək. Hidroqovşağın əsas qurğularının tərkibinə elektrik stansiyası, tənzimləyici bənd, suqəbuledici qurğu, çökəltmə hovuzu, derivasiya kanalı, yükləmə yovuzu daxildir. Stansiyada hər birinin gücü 12 meqavat olan 3 aqreqat quraşdırılacaq. Belə stansiyaların istifadəyə verilməsi Azərbaycanda, o cümlədən Naxçıvanda həyata keçirilən sosial-iqtisadi siyasətin uğurla davam etdiyini bir daha əyani sübut edir. Bu cür layihələrin icrası həm də Azərbaycanda alternativ və bərpa olunan enerjidən istifadənin geniş tətbiqi üçün hərtərəfli imkanlar yaradır(10).

Naxçıvan Muxtar Respublikasının energetika sisteminin formalaşmasında və onun (beynəlxalq) regional xarakter kəsb etməsində Türkiyə də mühüm rol oynamaqdadır. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədrinin təşəbbüsü ilə Heydər Əliyev Su Anbarı üzərində 4, 5 meqavat gücündə Su Elektrik Stansiyası tikilərək istifadəyə verilmişdir. 2010-cu ilin oktyabr ayında orta illik enerji istehsalı 80 milyon kVt/saat olan Biləv su elektrik stansiyasının tikintisi başa çatdırılmışdır.

Tikintisinə 2011-ci ildə başlanmış Şərur rayonu ərazisində 150 milyon $m^3$ su tutumlu Arpaçay Su Anbarının suyundan istifadə etməklə 20,5 meqavat güclü derivasiya tipli Arpaçay Su Elektrik Stansiyası istifadəyə verilmişdir. Stansiyada il ərzində 60 milyon kvt.saat elektrik enerjisi istehsal edilməsi nəzərdə tutulmuşdur. Araz çayı üzərində derivasiya tipli 36 meqavat güclü Ordubad SES-də hər birinin gücü 12 meqavat olan 3 hidroaqreqat quraşdırılması, elektrik enerjisinin şəbəkələrə ötürülməsi üçün 80 km uzunluqlu 110 kv-luq elektrik verilişi xətti çəkilməsi, müvafiq güclü transformator yarımstansiyası qoyulması nəzərdə tutulur. Muxtar respublikanın ən böyük su elektrik stansiyası olacaq Ordubad SES-də 190 milyon kilovat saat elektrik enerjisi istehsal ediləcəkdir.

Ulu öndərin siyasi kursunu layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda enerji sektorunun inkişafı yeni mərhələyə qədəm qoymuşdur. Bu sahədə həyata keçirilən tədbirlər blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında da enerji təhlükəsizliyini təmin etmişdir. Xüsusilə son illər istifadəyə verilən yeni su elektrik stansiyaları tələbatın dayanıqlı şəkildə ödənilməsində və ixrac imkanlarının yaranmasında mühüm əhəmiyyətə malikdir. Belə ki, ölkə Prezidentinin iştirakı ilə Heydər Əliyev Su Anbarı üzərində gücü 4,5 meqavat olan yeni su elektrik stansiyası, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası, Azərbaycanda ilk derivasiyatipli 22 meqavat güclü Biləv Su Elektrik Stansiyası, 20,5 meqavat güclü "Arpaçay-1" və 1,4 meqavat güclü "Arpaçay-2" Su Elektrik stansiyaları, 20 meqavat gücündə Günəş Elektrik Stansiyasının tikilib istifadəyə verilməsi və 2017-ci ildə stansiyanın gücünün daha 2 meqavat artırılması Naxçıvanın etibarlı enerji təminatına səbəb olmuşdur. Hazırda muxtar respublikadakı 8 elektrik stansiyasının ümumi gücü 239,4 meqavatdır(11).

Haliyədə muxtar respublika enerji idxal edən ölkədən, enerji ixrac edən ölkəyə çevrilmişdir.

Ali Məclisin Sədri Muxtar Respublikada su elektrik stansiyalarının tikintisi ilə bağlı demişdir ki, "Muxtar respublikada SES-lər istismara verildikdən sonra muxtar respublikanın enerjiyə olan tələbatının əsas hissəsi su elektrik stansiyaların hesabına ödəniləcəkdir. Bu da muxtar respublikanın energetika sisteminin imkanlarının genişlənməsinə, ucuz elektrik enerjisi istehsalının artırılmasına və vəsaitə qənaət olunmasına

imkan verəcəkdir. Əldə olunan vəsait energetika sahəsinin maddi-texniki bazasının gücləndirilməsinə, bu sahədə çalışanların rifah halının yaxşılaşdırılmasına sərf ediləcəkdir".

Muxtar respublikanın təbii imkanları külək və günəş elektrik stansiyalarının tikilib-quraşdırılması üçün əlverişlidir. Babək rayonu ərazisində Xalxal meşəsi ilə üzbəüz təpəlik sahədə günəş elektrik stansiyasının, Culfa rayonu ərazisində dəmir yolu ilə Araz çayı arasındakı sahədə külək elektrik stansiyasının tikilməsi məqsədəuyğun hesab edilmişdir. Muxtar respublikanın iqlim şəraiti alternativ və bərpaolunan enerjidən istifadə üçün geniş imkanlar açır. Müasir energetika infrastrukturunun yaradılması və enerji təhlükəsizliyinin təmin olunmasında bu amil əsas götürülür, günəş elektrik stansiyaları tikilərək istifadəyə verilir. Hazırda Naxçıvan Muxtar Respublikasında elektrik enerjisinə olan tələbatın 65 faizdən çoxu alternativ və bərpaolunan enerji mənbələri hesabına ödənilir. 2019-cu ilin fevralın 22-də Kəngərli rayonunun Qabıllı kəndində yeni Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Günəş Elektrik Stansiyası kənd təsərrüfatı üçün yararsız ərazidə qurulub. 2 meqavat gücündəki Günəş Elektrik Stansiyasının tikintisi Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti ilə İsveçrənin "Pure Energy Development" SARL Şirkəti arasında 2018-ci ildə imzalanmış müqavilə əsasında həyata keçirilmişdir (12).

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədrinin 2006-cı il Fərmanı ilə təsdiqlənmiş Əsasnaməsinə uyğun fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikasının Dövlət energetika Agentliyi elektrik enerjisi istehsalı, ötürülməsi, elektrik enerjisi təchizatı və realizə edilməsi sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyət orqanıdır. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məslisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və öz Əsasnaməsini rəhbər tutur.

Agentlik müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

– müvafiq sahədə qanunvericiliklə müəyyən edilmiş hallarda öz səlahiyyətləri çərçivəsində normativ tənzimləməni həyata keçirmək;

– elektrik enerjisinin istehsalı və elektrik təchizatı sahəsində müəyyən olunmuş dövlət siyasətini həyata keçirmək;

– muxtar respublikaya daxil olan elektrik enerjisini bölüşdürmək və elektrik enerjisindən qənaətlə istifadə olunmasına nəzarət etmək;

– elektroenergetika sahəsində investisiyaların, o cümlədən xarici investisiyaların cəlb olunmasında iştirak etmək və bu sahədə müvafiq tədbirlər görmək;

– hüquqi və fiziki şəxslər tərəfindən elektrik enerjisindən səmərəli, qənaətlə istifadə olunmasına nəzarət etmək;

– Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin Naxçıvan Muxtar Respublikasında həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək.

Azərbaycan Respublikasının qanunvericilik aktlarının müddəa və prinsipləri o cümlədən Naxçıvanın da enerji təhlükəsizliyinin ümumi istiqamətlərini müəyyən edir. Naxçıvanın enerji təhlükəsizliyi, onun inkişaf istiqamətləri üzrə qanunvericilikdə konkret müddəalarda öz əksini tapıb.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi, Yeddi cilddə, V cild, Bakı: Elm,2008-ci il
2. Газета «Азербайджан», 14 января 1919 - г.
3. Azərbaycan tarixi, Yeddi cilddə, VI cild, Bakı: Elm, 2008-ci il
4. Əsgərov Z.Ə. Konstitusiya hüququ, Dərslik, Bakı, Bakı Universiteti nəşriyyatı, 2011-ci il
5. Документы внешней политики СССР. т. 1, М., 1959-г.
6. Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti H.Ə. Əliyevin Fərmanı // "Республика" qazeti, № 24, 5 fevral 1999-cu il
7. Nadirov A., Nuriyev Y., Muradov Ş. Naxçıvanın iqtisadiyyatı XX əsrdə Bakı: Елм, 2000-ci il
8. Qayıdış: 1990-1993 /tərt. Ə.Həsənov; bur. məsul V.Talıbov. - Təkmilləşdirilmiş və yenidən işlənmiş II nəşri, Bakı: Azərbaycan nəşriyyatı, 2008-ci il
9. Həbibbəyli İ. Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr, Naxçıvan, Əcəmi Nəşriyyat - Poliqrafiya Birliyi 2013-cü il
10. Prezident İlham Əliyev Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib // Respublika qəzeti, 12 yanvar 2017-ci il

11. Şərq Qapısı, 20 oktyabr 2018-ci il, №-200
12. Şərq Qapısı qəzeti 23 fevral 2019-cu il, №-39

**ABSTRACT**

**Seymur Talibov**

**GEOPOLITICAL SITUATION OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC AND LEGAL FRAMEWORK OF ITS ENERGY SECURITY**

The article points out the difficulties of the Nakhchivan Autonomous Republic, which is an integral part of the Azerbaijan Republic, with its complicated geopolitical situation and its separation from the mainland of Azerbaijan. In spite of the blockade conditions, the rapid development of the Autonomous Republic, its achievements, particularly in energy security, were highlighted. The Autonomous Republic has not only ensured its energy security fully but also became an energy exporting country.

**РЕЗЮМЕ**

**Сеймур Талыбов**

**ГЕОПОЛИТИЧЕСКОЕ ПОЛОЖЕНИЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ И ЮРИДИЧЕСКИЕ ОСНОВЫ ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ**

В статье указаны сложное геополитическое положение неотемлимой части Азербайджанской Республики Нахыванской Автономной Республики и трудности, связанные с отгораживанием ее от основных территорий Азербайджана. Несмотря на блокадное положение, отмечено стремительное развитие Автономной Республики, ее достижения, особенно успехи в области безопасности электрического обеспечения. Обосновывается мысль, что наряду с обепечением своей полной энергетической безопасности Нахчыван превратился в край, экспортирующий энергию в другие страны.

**ZƏHMƏT ŞAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

## NAXÇIVANIN MUXTARİYYƏTİ TARIXİ NAİLİYYƏTDİR (NAX.MSSR-1995)

Qədim sivilizasiyaya və müasir mədəni inkişafa malik olan Naxçıvan bu və ya digər dəyərləri özündə cəmləşdirərək müasir dövrdə parlaq şəkildə nümayiş etdirir. Xalqımızın müstəqillik yoluna qədəm qoyduğu dövrdən başlayaraq mənəvi və maddi dəyərlərin geniş şəkildə tətbiq və təbliğ olunmasına xüsusi olaraq önəm yetirir. Xalqların və ölkələrin bir-birinə daha çox inteqrasiya olunduğu zamanda, dərin qloballaşma prosesində mövqeyini nümayiş etdirir. Təsadüfi deyil ki, qədim dövrlərdən bəri bu diyarı "Şərqin qapısı" adlandırırlar. Müasir dövrümüzdə tanınmış strateqlər yüzilliklərin çətin tarixi-siyasi süzgəcindən keçib gələn bu ifadəni yenə müasir dövrün reallıqları prizmasında belə ifadə edirlər: Şərqin qapısı olan Naxçıvanın muxtariyyət qazanması regional əhəmiyyət kəsb edən siyasi hadisə olmaqla yanaşı, mühüm strateji əhəmiyyətə malik olan bölgənin Azərbaycanın tərkibində qalmasına şərait yaradıb. Əlverişli təbii-coğrafi mövqeyi, Şərqlə Qərbi birləşdirən qədim İpək yolunun üzərində yerləşməsi isə onu fatehlərin, böyük dövlətlərin geosiyasi maraqlarının kəsişdiyi regiona çevirmişdir. Ərazisi dəfələrlə işğal olunsa da, əldən-ələ keçsə də, Naxçıvan heç vaxt əyilməmiş, xalqımıza məxsus mədəniyyəti, adət-ənənələri, ən vacibi isə, tarixi ərazisini qoruyub saxlaya bilmiş, müasir dövrümüzədək gətirib çıxarmışdır.

Naxçıvanın muxtariyyəti Azərbaycanın XX əsrdə əldə etdiyi böyük tarixi nailiyyət idi. Naxçıvanın muxtariyyəti hərbi-siyasi və diplomatik mübarizələrin nəticəsi kimi meydana çıxmış, gərgin, ağır, eyni zamanda, şərəfli bir yol keçmişdir.

Ümummilli lider Heydər Əliyev Naxçıvanın muxtariyyət qazanmasını dövlətçilik tariximizdə mühüm nailiyyət kimi qiymətləndirərək demişdir: "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq".

Naxçıvan heç vaxt özünü Azərbaycandan ayrı təsəvvür etməmiş, bütün dövrlərdə dünyanın bir çox dövlətləri üçün də böyük coğrafi-siyasi və strateji əhəmiyyət kəsb etmişdir. Xüsusilə, keçən əsrin əvvəllərində yaranmış şəraitdən istifadə edən erməni daşnakları Naxçıvana qarşı ərazi iddiaları irəli sürmüş, bu diyarı Ermənistana qatmaq üçün bütün vasitələrə əl atmışdır. Bölgə əhalisinin inadlı müqavimətləri nəticəsində Naxçıvan Azərbaycanın əzəli və əbədi tərkib hissəsi kimi qorunub saxlanılmış və son nəticədə ona Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Naxçıvanın muxtariyyət statusu qazanması bu bölgədə 1918-1921-ci illərdə cərəyan edən proseslərin, onlara təsir edən daxili və xarici amillərin, bölgənin və regionun geosiyasi vəziyyətinin və iki mühüm beynəlxalq müqavilənin sayəsində mümkün olmuşdur.

Naxçıvan əhalisi, həmin dövrün demokratik ruhlu ziyalıları bölgənin təhlükəsizliyinə, erməni daşnaklarının hərbi basqınlarına qarşı mərdliklə mübarizə aparmış, öz qanları bahasına qədim diyarı qorumuşlar. Hələ 1918-ci ildə Naxçıvan Milli Şurası Xalq Cümhuriyyəti hökumətinə yazdığı məktubda göstərirdi ki, biz ermənilərə tabe olmuruq, tezliklə Azərbaycan qoşunları tərəfindən Zəngəzurun azad edilməsini və Naxçıvanın Azərbaycana birləşməsini gözləyirik. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ingilislərin və amerikalıların dəstək və yardımlarından istifadə edən erməni millətçiləri Naxçıvanı işğal etməyə çalışmışlar. Lakin, qəhrəman naxçıvanlıların mərdlik və igidliklə apardıqları mübarizə məkrli düşmənlərin arzularının reallaşmasına imkan verməmişdir. Naxçıvanın qəhrəman əhalisi Naxçıvan diyarını Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab etmiş, Ana vətənə birləşmək uğrunda inadla mübarizə aparmışlar.

Naxçıvanlıların qəhrəmanlığından bəhs edən Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Nəsib bəy Yusifbəyli Azərbaycan parlamentindəki çıxışında demişdir: "İgid naxçıvanlılar, şərurlular... bu məsələni özləri həll etdilər. Onlar həyatlarını, ailələrinin şərəfini və var- dövlətlərini riskə qoyaraq doğma torpağa-vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar".

Diyarın ingilislər tərəfindən Ermənistana verilməsinə qarşı mübarizəyə qalxan Naxçıvan əhalisi, Naxçıvan Müsəlman Milli Şurasının üzvləri ingilis general qubernatoruna məktub göndərdilər və öz qəti etirazlarını bildirdilər. Məktubda Araz-Türk Respublikası əhalisinin "bütün dünyanın və bütün mədəni qüvvələrin azad həyat, xalqların öz müqəddəratını həll etmək hüququ haqqında qışqırdıqları bir vaxtda

azərbaycanlılar bizdən heç bir cəhətdən üstün olmayan, əksinə, bir çox hallarda bizdən geri qalan ermənilərin qulu ola bilməzlər”, - fikrinə gəlməsi faktı və səbəbləri öz əksini tapmışdır.

Naxçıvandakı ingilis missiyası ermənilərin respublika hüdudlarına hücumuna mane olmurdular və onların fəaliyyətində ikili siyasət özünü açıq-aşkar göstərirdi. Onlar bir tərəfdən Naxçıvanın Azərbaycanın bir hissəsi olduğunu tanıyır, maliyyə və silah vəd edir, digər tərəfdən isə Naxçıvanın daşnak Ermənistanın hakimiyyətinə verilməsi təklifi ilə çıxış edirdilər. Naxçıvan əhalisi bu siyasətə qarşı inadla mübarizə aparırdı.

Naxçıvan Milli Şurasının sədri Azərbaycan Respublikası xarici işlər naziri M.Y.Cəfərova göndərdiyi məktubda bildirirdi ki, biz özümüzü Azərbaycanın ayrılmaz hissəsi hesab edirik və əminik ki, hər hansı səbəbdən hərbi qüvvə ilə kömək edə bilməsə də, heç olmasa top, tüfəng və patronla Azərbaycan bizə kömək edəcəkdir və hətta Azərbaycan bundan da imtina etsə, biz bu yolda canımızdan keçəsi olsaq belə, müqəddəs vədimizi yerinə yetirəcəyik.

Əhalinin bir müraciətində deyilirdi: “Ermənilərə tabe olmaqla biz təkcə özümüzü yox, həm də ömrü boyu bizə lənətlər oxuyacaq nəslimizi alçaltmağa və təhqirə məruz qoyuruq və buna görə də əlahəzrət general Devinin bizim Naxçıvan, Şərur və Vedibasar rayonlarımızın müvəqqəti də olsa erməni hökumətinin idarəsinə verməsinə biz Allah tərəfindən bütün diyarın əhalisinə bəxş edilmiş azadlıq, arzu və meyillər üzərində zorakılıq faktı kimi baxırıq”.

Naxçıvan İnqilab Komitəsinin Azərbaycan hökumətinə 1920-ci il 10 avqust tarixli məktubunda da bildirilirdi: “Əhalinin yekdil qərarı ilə Naxçıvan özünü Azərbaycanın ayrılmaz hissəsi hesab edir”. 1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin keçirdikləri rəy sorğusunda Naxçıvanın 90 faiz əhalisi mahalın Naxçıvan Muxtar Respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi. 1921-ci il martın 16-da Siyasi Büro Azərbaycanın himayəsində Naxçıvan Sovet Respublikasının təşkili barədə qərar qəbul etdi və həmin gün imzalanan Moskva müqaviləsinin 3-cü maddəsində də bu cəhət öz əksini tapdı: “Naxçıvan vilayəti bu müqavilənin I (B) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir”.

1921-ci il oktyabrın 13-də RSFSR-in iştirakı ilə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR və Türkiyə Respublikası arasında imzalanmış Qars müqaviləsinə əsasən Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirildi. Müqavilənin 5-ci maddəsi və 3-cü əlavəsi Naxçıvanın ərazi mənsubiyyətini bir daha təsdiqlədi, onun sərhədlərini müəyyənləşdirdi. Burada göstərilirdi ki, Naxçıvan vilayəti bu müqavilənin 3-cü əlavəsində müəyyən edilmiş sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir.

Güney Qafqaz respublikaları ilə Türkiyə arasında imzalanan Qars müqaviləsi (1921, 13 oktyabr) Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi və onun sərhədlərini qəti sürətdə müəyyənləşdirdi. Beləliklə, 1917-ci ildən mübarizə aparan naxçıvanlıların arzuları gerçəkləşdi, bölgənin ərazi mənsubiyyəti məsələsi Azərbaycan üçün qanuni və ədalətli qaydada həll olundu.

Tarixi proseslərin inkişafının nəticəsi olaraq Naxçıvan 1921-ci ilin martından Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan Naxçıvan Diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Ötən əsrin 90-cı illərində - bölgəyə erməni hücumlarının aramsız xarakter aldığı bir dövrdə, Azərbaycanın əsas ərazisi ilə əlaqələrin kəsildiyi şəraitdə Naxçıvanın muxtariyyət statusu çevik siyasi, iqtisadi və humanitar xarakterli addımların atılmasına, muxtariyyətin ərazisinə edilən qəsdlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasına, beləliklə də, Azərbaycanın tarixi ərazisinin qorunub saxlanmasına imkan yaratmışdır. Naxçıvanın muxtariyyət statusu ötən əsrin 90-cı illərində Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə dövründə mühüm mərhələ təşkil etmişdir. Bu statusun ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdəki siyasi fəaliyyəti dövründə Naxçıvanın xalqımızın suveren hüquqlarının təmin edilməsi uğrunda gedən mübarizənin mərkəzinə çevrilmişdir. 1990-cı il noyabrın 17-də ümummilli liderimizin rəhbərliyi ilə keçən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin birinci sessiyasında “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikasının ali dövlət hakimiyyət orqanları haqqında”, “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” tarixi qərarlar qəbul olunmuşdur.

Azərbaycan rəhbərliyinin SSRİ-in qorunub saxlanmasına dair göstərdiyi təşəbbüslərin əksinə olaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il 14 mart tarixli qərarı ilə SSRİ-nin saxlanmasına dair ümumittifaq referendumunda Naxçıvan Muxtar Respublikasının iştirakının yolverilməz olduğunu bəyan etmişdir. 1991-ci ilin oktyabrında “Keçid dövründə SSR İttifaqının dövlət hakimiyyət və idarəetmə orqanları haqqında” SSRİ qanununun müzakirəsi zamanı da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan dövlət hakimiyyət orqanlarından fərqli mövqe tutaraq SSRİ-nin yenidən bərpasına və unitar ittifaq dövlətinin möhkəmləndirilməsinə yönəldilən cəhdləri rədd etmiş, Azərbaycan Ali Sovetindən də

müvafiq qərarların qəbul olunmasını xahiş etmişdir. Naxçıvanın muxtariyyət statusu bu dövrdə erməni işğalı təhlükəsinin aradan qaldırılması, ağır blokada şəraitində adamların yaşayışının təmin olunması sahəsində də taleyüklü qərarların qəbul edilməsinə şərait yaratmışdır.

Naxçıvanın muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsində 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycan Respublikası Konstitusiyasının mühüm rolu oldu. Konstitusiyanın 134-cü maddəsinin ilk bəndində deyilir: "Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir".

Ulu öndər Heydər Əliyevin Naxçıvanın muxtariyyət statusunun qorunması, Naxçıvan Muxtar Respublikanın yubileylərinin keçirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər bu gün də uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 fevral 2004-cü il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının 80 illik, 6 fevral 2009-cu il tarixli Sərəncamı ilə 85 illik yubileylərinin ölkəmizdə geniş qeyd olunması bunun bariz nümunəsidir. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 yanvar tarixli Sərəncamında qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir. Bu mənada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"nın təsdiq edilməsi aparılan dövlət siyasətinin davamıdır.

Bu gün Naxçıvan Muxtar Respublikası 95 illik tarixi inkişaf yolunun ən dinamik və dayanıqlı inkişaf dövrünü yaşayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvan Muxtar Respublika 20 ildən artıq bir dövrdə hərtərəfli inkişafa nail olub. Həyatın bütün sahələrində əsaslı dəyişikliklər baş verib. Bu işlər bu gün də sürətlə və ardıcıl olaraq davam etdirilir.

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində bu gün naxçıvanlılar qədim diyarın iqtisadiyyatını, elm və təhsilini, mədəniyyətini çox böyük uğurla inkişaf etdirirlər. Son illər Naxçıvan Muxtar Respublikasının Cənubi Qafqaz ölkələri üçün inkişaf modeli hesab edilən Azərbaycan Respublikasının parlayan ulduzu adlandırılması da bu baxımdan təsadüfi deyil. Ötən il Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı olması, Azərbaycan Respublikası Prezidentinin sədri olduğu "Caspian European Club"un 2017-ci və 2018-ci illər üçün ölkənin iqtisadi regionları üzrə hazırladığı investisiya reytinqində ən yüksək ümumi bal toplaması bunu bir daha təsdiq edir.

Təbii ki, bu reallıqların təməlində iqtisadi inkişafın sosial islahatlar üçün başlıca amil olduğunu nəzərə alan Naxçıvan Muxtar Respublika rəhbərliyinin məqsədyönlü fəaliyyəti və ulu öndərin müəyyənləşdirdiyi siyasətə sədaqət dayanır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan (tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev), Naxçıvan, Əcəmi NPB, 2010, 384 s.
2. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək), Dərslik, Bakı, Bakı Universiteti nəşriyatı, 2014. 380.s
3. Azərbaycan tarixində Naxçıvan ( Tarixi oçerklər), Bakı, ADPU, 1996, 142 s.
4. Behbud Ağa Şahtaxtinski və Qars müqaviləsi (12 oktyabr 2011-ci ildə Behbud Ağa Şahtaxtinskinin 130 illik yubleyi və Beynəlxalq Qars müqaviləsinin 90-cı ildönümünə həsr olunmuş konfransın materialları), Naxçıvan: Əcəmi NPB, 2012, 88 s.
5. Hacıyev A. Qars və Araz Türk Respublikalarının tarixindən, Bakı, Azərnəşr, 1994, 124 s.



## ABSTRACT

Nakhchivan Autonomy was a great historical achievement of Azerbaijan in the twentieth century. Nakhchivan's autonomy has emerged as a result of military-political and diplomatic struggles, a tense, hard, and at the same time a glorious path. Nakhchivan has never imagined itself apart from Azerbaijan, at all times it has great geopolitical and strategic importance for many countries of the world. Nakhchivan was preserved as an eternal and eternal part of Azerbaijan and ultimately granted him status of autonomy within Azerbaijan.



## РЕЗЮМЕ

Нахчыванская Автономия была большим историческим достижением Азербайджана в двадцатом веке. Автономия Нахчывана возникла в результате военно-политической и дипломатической борьбы, напряженного, жесткого и в то же время славного пути. Нахчыван никогда не представлял себя отдельно от Азербайджана, во все времена он имел большое геополитическое и стратегическое значение для многих стран мира. Нахчыван был сохранен как вечная и вечная часть Азербайджана и в конечном итоге предоставил ему статус автономии в составе Азербайджана.

**SEVİNC ABBASOVA**
*Naxçıvan Dövlət Universiteti*
*abbasova.s.z@mail.ru*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA QADINLARIN SOSİAL-İQTİSADİ TƏRƏQQİSİ

**Açar sözlər:** *sosial-iqtisadi inkişaf, qadınların sosial tərəqqisi, dövlət qadın siyasəti, gender bərabərliyi, Naxçıvan təcrübəsi*

**Key Words:** *socio-economic development, the social progress of women, national women's policy, experience of Nakhchivan*

**Ключевые слова:** *социально-экономическое развитие, социальный прогресс женщин, национальная женская политика, опыт Нахчывана*

Naxçıvan ictimai-siyasi fikrində qadın rolu mövzusu XIX əsrin sonunda gündəmə gəlmişdir. Həmin dövrdə Azərbaycanda baş verən siyasi, iqtisadi və mədəni proseslər qadınların maariflənməsi və ictimai həyatda daha fəal iştirak etməsinə güclü təkan verdi. Lakin, bütün Azərbaycan qadınları kimi, Naxçıvan qadınlarının sosial-iqtisadi, mədəni sahələrdə əldə etdiyi nailiyyətlər XX əsrlə sıx bağlıdır Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanında qeyd edildiyi kimi, Azərbaycan qadınları XX əsrdə qısa müddət ərzində yüzilliklərə bərabər inkişaf yolu keçmişdir. Onların cəmiyyətdə, ictimai həyatda, ailədəki mövqeyində köklü dəyişikliklər baş vermişdir [5]. Bütün bunlar təbii ki, Naxçıvan qadınlarının həyatına da öz təsirini göstərmişdir. XIX əsrin II yarısı, XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik hərəkatının yayılması feminizmin inkişafına da öz təsirini göstərmiş, görkəmli ziyalıların xidmətləri sayəsində qadın təhsilinin təşəkkül tapması, qadınların hüquqlarının ictimai müzakirəyə çıxarılması istiqamətində müəyyən uğurlar qazanılmışdı.

Lakin, etiraf etmək lazımdır ki, bölgədə qadın azadlığı sahəsində köklü dəyişikliklər məhz sovet dövrünə təsadüf edir. Naxçıvan Muxtar Respublikada sovet dövründə qadınların emanspasiyası sahəsində regionun tarixi şəraiti, tarixi inkişaf mərhələləri ilə əlaqədar müəyyən özəllikləri ilə fərqlənir. Bolşevik rejimi Naxçıvanın geosiyasi şəraitini, qonşu ölkələrə nüfuz etmək baxımından əhəmiyyətini nəzərə alaraq burada qadın məsələsinin həllini mühüm siyasi-ideoloji vəzifə hesab edirdi. Sovet hakimiyyətinin ilk illərində Naxçıvanda obyektiv amillərlə (qadınların kütləvi savadsızlığı, qadınların cəmiyyətdə yerinə münasibətdə mühafizəkar baxışların hökmranlığı, kadr çatışmazlığı və s.) əlaqədar qadınların sosial-iqtisadi, siyasi, mədəni asılılıqdan azad edilməsi sahəsində işlər ləng getsə də, sonrakı dövrlərdə bu sahədə ciddi uğurlara imza atıldı. Təkcə bir faktı göstərmək lazımdır ki, sovetləşmə ərəfəsində Naxçıvanda qadınlar arasında savadlılıq cəmi 1,8% təşkil edirdi. Əgər inqilaba qədər Naxçıvanda cəmi 32 azərbaycanlı qız məktəbdə oxuyurdusa, 1925-1927-ci tədris ilində onların sayı 1137-yə çatmışdı [14, v.14-16].

Muxtariyyətin ilk illərində qadınların hüququ sahəsində ciddi keyfiyyət dəyişikliklərinə nail olunmasında sovet hakimiyyətinin kütləvi savadlılıq, mədəni-maarif, milliləşdirmə tədbirləri mühüm rol oynadı. Qadın və qızların kütləvi şəkildə savad kurslarına, məktəblərə cəlb edilməsi, mədəni-maarif şəbəkələrinin kitabxanalar, klublar, qiraət komaları, qırmızı guşələri) qadınlar arasında geniş iş aparmaları, ilk qadın aktivistlərinin, müəllim kadrlarının fəaliyyətə başlaması MR qadınlarının mədəni və savad səviyyəsinin o vaxta qədər görünməmiş şəkildə artırdı. Eyni zamanda bölgə qadınlarını ictimai istehsala cəlb etmək üçün istehsal emalatxanaları, tikiş atelyeləri, uşaq bağçaları və yaslilərin geniş şəbəkəsi yaradıldı. Sovet dövründə Naxçıvan MR-da gender bərabərliyi istiqamətində atılmış mühüm addımlardan biri, heç şübhəsiz 1926-cı ildən başlayaraq qızların oğlanlarla birgə təhsil almaları oldu.

Qadın emanspasiyasının mühüm göstəricilərindən biri mədəni-maarif, səhiyyə, idarəetmə kadrları arasında qadınların sayının sürətlə artmasıdır. Bu işdə müxtəlif profilli təhsil ocaqlarının yaradılmasının böyük rolu olmuşdur. Həmin təhsil ocaqlarını bitirmiş bir çox gənc qız və qadınlar sonralar MR-da qadın hərəkatının inkişafında mühüm xidmətlər göstərmişlər[2; s.3].

Sovet hakimiyyətinin qərarları əsasında bütün ölkədə 1920-1930-cu illərdə ümumi icbari təhsilə keçid məktəbyaşlı qızların məktəblərə cəlb edilməsinə öz müsbət təsirini göstərdi. Nəticədə 1940-cı ildə MR-nin ümumtəhsil məktəblərində oxuyan qızların sayı 12 847 nəfər təşkil edirdi (28 749 nəfərin 44,1%) [21]. Naxçıvan Muxtar Respublika qadınlarının savadlılıq dərəcəsi 78,1% idi [23, s.12]. Əslində bu qadına

münasibətdə əsrlər boyu patriarxal qaydaların hökm sürdüyü bir bölgə üçün çox böyük göstərici idi. Müqayisə üçün deyək ki, Azərbaycan üzrə bu rəqəm cəmi 54,7% təşkil edirdi.

Sovet dövründə qadın hərakatını sürətləndirən amillər arasında qadınların ümumi savad və mədəni səviyyəsinin artırılması ilə yanaşı sovet rejiminin müsəlman respublikalarında patriarxal ənənələrə - çoxarvadlılıq, kiçik yaşlı qızların ərə verilməsi, qapalılıq, zorakılıq və s. qarşı təsirli tədbirləri də öz rolunu oynadı. İnzibati yollarla tətbiq olunmasına baxmayaraq (dinə qarşı mübarizə məqsədi ilə yaradılmış allahsızlar cəmiyyətinin mənfi fəaliyyəti xüsusi qeyd edilməlidir), bu tədbirlər qadının cəmiyyətdə daha layiqli yer tutmasına şərait yaradırdı.

Bu baxımdan 1920-ci illərdən başalyaraq Naxçıvan MR-da həyata keçirilən mədəni-kütləvi tədbirlərin mühüm əhəmiyyəti qeyd olunmalıdır. Dram dərnəklərinin açılması, tamaşaların səhnəyə qoyulması, qadınların özlərinin teatr tamaşalarına cəlb edilməsi MR-da qadın azadlığının təmin olunmasında böyük rol oynamışdı. Naxçıvan qadınları özfəaliyyətlə, bədii yaradıcılıqla da məşğul olmağa başlamışdılar. Naxçıvanlı müəllimə Səkinə Əlizadənin «Cümə axşamı» əsəri Azərbaycan ədəbiyyatında qadın azadlığı məsələsinə həsr olunmuş və müəllifi qadın olan ilk əsərlərdən bir idi.

Qadınların hüquqi məsələsinin mühüm aspektini cinsi bərabərliyi təmin edən siyasi-hüquqi normalar sisteminin yaradılması təşkil edir. Bu isə qadınların sosial-ictimai fəallığına, hakimiyyət strukturlarında təmsilçiliyinə, cəmiyyətin idarə olunması prosesinə geniş cəlb olunmasına öz müsbət təsirini göstərir. Sovet dövründə bu sahədə atılan addımlar qadınların siyasi azadlığı və hüquq bərabərliyinin təmin olunması sahəsində böyük dəyişikliklər əldə edilməsinə şərait yaratmışdı.

Qadınların ictimai əməyə daha geniş sürətdə cəlb olunması İkinci Dünya Müharibəsi illərinə təsadüf edir. Bir çox sahələrdə cəbhəyə gedən kişiləri qadınlar əvəz etdi. Qadınların ictimai istehsalda təmsil olunması prosesi sonrakı illərdə də davam etdirilmişdir.

Naxçıvan MR-da qadınlar siyasəti sahəsində mühüm uğurlar XX əsrin 70-80-ci illərində əldə edilmişdir. Həmin dövrdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında gerçəkləşdirilən tərəqqi strategiyasının tərkib hissəsi olan dövlət qadın siyasəti Azərbaycan qadınının sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatda fəal iştirakının, dövlət və hakimiyyət orqanlarında daha geniş təmsil olunmasının, maddi səviyyəsinin yüksəlməsinin, mədəni-məişət şəraitinin yaxşılaşmasının təminatçısı olmuşdu. Ölkəmizdə müasir dövrdə reallaşdırılan qadın siyasəti mahiyyət xüsusiyyətlərinə görə məhz 1970-1980-ci illərin təcrübəsinə istinad edir.

Həmin illərdə Naxçıvan MR-nın sosial-iqtisadi inkişafında qazanılmış uğurlar, həyat fəaliyyətinin bütün sahələrini əhatə edən inkişaf və tərəqqi qadınların da sosial-iqtisadi, idarəçilik, mədəni durumuna müsbət təsir göstərdi. Sözügedən dövrdə ictimai həyatın elə bir sferası yox idi ki, orada qadınlarımız ciddi irəliləyişlərə nail olmasın.

Heydər Əliyevin birinci rəhbərlik dönəmində qadın siyasətinin ən bariz təzahürlərindən biri də hakimiyyət strukturlarında qadınların təmsilçiliyinin durmadan artması idi. 1980-ci illərin əvvəllərində. Azərbaycan SSR Ali Sovetində 450 deputatdan 179-u, yəni 40%-i, Naxçıvan MSSR-də isə 110 deputatdan 52-si (47%) qadın idi [24, s.35]. 1970-ci illərdə Naxçıvanda rəhbər vəzifələrdə işləyən qadınların xüsusi çəkisinin artması, onların mədəni-məişət şəratinin yaxşılaşması həmin dövrdən başlayaraq Azərbaycan rəhbərliyinin bu bölgəyə diqqətinin artmasının nəticəsi idi. 70-ci illərin sonu - 80-ci illərdə Naxçıvan MSSR-da qadınların rolunun artması həm ictimai-siyasi həyatda, mədəniyyətdə, həm də sosial-iqtisadi sahələrdə özünü göstərirdi.

Xalq təsərrüfatının bütün sahələrində qadınlar kişilərlə çiyin-çiyinə çalışırdılar. Naxçıvan iqtisadiyyatında qadınların xüsusi çəkisi də artmaqda idi. 1940-1988-ci illərdə MR-da muzdla işləyən qadınların sayı 2.9 min nəfərdən 33.5 min nəfərə (11.5 dəfə), bütün işləyənlər arasında isə 14.4% artaraq 33.3%-dən 47.7%- qalxmışdı[15, s.61]. Qadınların maddi istehsala cəlb olunması onların mədəni-texniki və təhsil səviyyəsinin artması ilə bilavasitə əlaqədar idi. 1979-cu ildə MR qadınlarının artıq 100%-i savadlı idi. Xalq təsərrüfatında məşğul əhali arasında qadınların sayı sürətlə artırdı. 1959-cu ildə hər işləyən 1000 nəfər qadına 7 ali təhsilli (kişiyə 24), 295 orta təhsilli qadın düşürdüsə (kişiyə 255), 1970-cu ildə bu rəqəmlər 24(74), 152(624), 1979-cu ildə isə 42(125), 717 (733) nəfər təşkil etmişdi [25, s.3]. Lakin, buna baxmayaraq, işləyən əhali arasında qadınların ümumtəhsil səviyyəsinə görə Naxçıvan MR ümumittifaq göstəricilərindən geri qalırdı. Ümumiyyətlə isə Sovet hakimiyyəti illərində də Azərbaycan qadını çox mürəkkəb və şərəfli yol keçmişdir. Qısa bir müddətdə qadınlar arasında savadsızlığın ləğvi, qadınların müəllim, həkim, mühəndis və sair peşələrə yiyələnərək cəmiyyətdə kişilərlə bərabər hüquqlara malik olması, öz istedad və bacarıqlarını gerçəkləşdirə bilməsi həmin dövrün başlıca nailiyyətləridir.

Əldə edilmiş nailiyyətlərlə yanaşı sovet dövründə formalaşan stereotiplər milli və ənənəvi xüsusiyyətləri, sırf qadına məxsus cəhətləri bəzən nəzərə almırdı. Qadın məsələlərinin həlli və qadın inkişafı haqqında sovet konsepsiyasında bir çox amillər diqqətdən kənarda qalırdı. Məşğulluğun forması, göstəriciləri

qabardılır, əməyin keyfiyyətli, qadının daxili tələbatı ilə bu əməyin uyğunluğu və qadının əməkdə öz potensialını ifadə etmək imkanları unudulurdu[5].

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövr qadınların qarşısında yeni məqsəd və vəzifələr qoydu. Bazar iqtisadiyyatının təşəkkül tapması, ölkəmizin müxtəlif sahələrində aparılan islahatlar, vətəndaş cəmiyyətinin formalaşmasında vətəndaşların fəallığının artırılması yolunda görülən işlər qadınların cəmiyyətdəki rolunun artırılmasını tələb edirdi.

Ümummilli lider Heydər Əliyevin strateji kursu qadınların sosial həyatın bütün sahələrinə fəal sürətdə, kişilərlə bərabər cəlb olunmasını nəzərdə tuturdu. Heydər Əliyevin prezidentliyi dövründə əvvəlki illərdə yaradılmış hüquqi-normativ baza daha da dərinləşdirilmiş, mövcud gender siyasəti yeni institusional səciyyə kəsb etmişdir. Ölkə konstitusiyasında qadınların hüquq və azadlıqları barədə mövcud müddəalar sonrakı illərdə qəbul edilmiş qanunverici aktları ilə gerçəkləşdirilməyə başlanılmışdı. Qadın problemləri üzrə Dövlət Komitəsinin yaradılması, “Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi” haqqında fərmanın imzalanması, Azərbaycan Respublikasında qadın məsələləri üzrə 2000-2005-ci illər üçün Milli Fəaliyyət Planının hazırlanması və həyata keçirilməsi, müasir demokratik hüquq standartlarına cavab verən məcəllələrin qəbul edilməsi və bu məcəllələrdə qadın hüquqlarına hərtərəfli təminatının verilməsi məhz de-fakto bərabərliyin bərqərar olması istiqamətində mühüm addımlar sayıla bilər. Azərbaycanda qadın siyasətinin hüquqi-normativ bazasının möhkəmləndirilməsində mühüm hadisələrdən biri 2000-ci ilin martın 6-da Heydər Əliyev tərəfindən “Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi” haqqında fərmanın imzalanması olmuşdur[5].

İlham Əliyev Cənabları Ulu Öndər Heydər Əliyevin gender siyasətini davam etdirməklə, onu məzmun və keyfiyyət baxımından yeni mərhələyə çıxarmağa müvəffəq olmuşdur. 2006-cı il fevralın 6-da ölkə Prezidentinin Fərmanı ilə Qadın problemləri üzrə Dövlət Komitəsi ləğv edildi və bu qurumun bazasında daha çox səlahiyyətlərə malik olan yeni dövlət strukturu – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi təşkil olundu[4]. 2006-cı ilin oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanunu [9] ölkəmizdə həyata keçirilən dövlət qadın siyasətinin məntiqi təzahürü, gender bərabərliyinin ali dövlət qanunvericiliyi səviyyəsində təşviqi sahəsində atılmış mühüm addım hesab edilir. Qanunun əsas məqsədi kimi kişi və qadınların ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanların təmin edilməsi və cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması göstərilmişdir.

Azərbaycanda gender siyasətinin yeni mərhələyə keçməsində, qadın hüquqlarının qorunması ilə bağlı qanunvericilik bazasının zənginləşməsində Azərbaycan Respublikasının birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın müstəsna xidmətləri var. Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti milli-mənəvi dəyərlərə söykənən və intellektual yüksəlişə xidmət edən ideyaların cəmiyyətdə daha çox yayılmasına yönəlmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 2007-ci il 28 sentyabr tarixli Fərmanına müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmış, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 2007-ci il 25 oktyabr tarixli Fərmanı ilə Komitənin Əsasnaməsi və ştat sayı təsdiq olunmuşdur. Komitə 2009-cu il mart ayından fəaliyyətə başlamışdır. O öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən yerli icra hakimiyyətləri, nazirliklər, dövlət komitələri və digər orqanlarla işini əlaqələndirir [16, v. 1].

Sözügedən qurum qadının cəmiyyətdə rolunun artırılması, dövlətin qadın siyasəti, erkən nikahların yolverilməzliyi, cəmiyyətdə və ailədə davranış qaydaları, qadın və mənəviyyat, gender bərabərliyi və s. mövzularda mütəmadi olaraq KİV-də fəal çıxışlar təşkil edir, müxtəlif televerilişlərə qatılır. Bizim hesablamalarımıza görə, ümumilikdə Komitə əməkdaşlarının Naxçıvan kütləvi informasiya vasitələrində 2010-2013-cü illərdə 112 televiziya, 101 radio verilişi yayımlanmış, 105 televiziya verilişinin layihəsi hazırlanmış, 19 məqalə və 4 müsahibəsi mətbuatda dərc olunmuşdur. Həmçinin Komitə tərəfindən keçirilən hər bir tədbir kütləvi informasiya vasitələrində işıqlandırılmışdır.

Bundan əlavə, Komitə bir çox mövzuda beynəlxalq və tarixi günlərin qeyd olunmasını diqqət mərkəzində saxlayır, yuxarıda sadalanan məsələlər üzrə müntəzəm şəkildə konfranslar, seminarlar, müsabiqələr, tədbirlər keçirir. 2010-cu ildə qadınlarla bağlı dövlət siyasətini həyata keçirmək məqsədilə Komitə təşkil etdiyi Naxçıvan Muxtar Respublikanın Səhiyyə Nazirliyinin və Ali Məhkəməsinin əməkdaşlarının iştirakı ilə “Qadınların cəmiyyətdə özünüreallaşdırma ideyası: bərabər hüquqlar, real imkanlar” mövzusunda Naxçıvan Muxtar Respublikanın bütün rayonlarında konfranslar təşkil etmişdir. [16, v. 6].

2013-cü il fevralın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “2012-ci ilin yekunları və qarşıda duran vəzifələr” mövzusunda keçirilmiş müşavirədə Ali Məclis sədri V.Talıbov Komitəyə xüsusi

tapşırıqlar vermişdi. Onların yerinə yetirilməsi məqsədilə Komitə əməkdaşları tərəfindən xüsusi qayğıya ehtiyacı olan 22 tənha, ahıl, əlil qadına, 83 aztəminatlı, sağlamlıq imkanları məhdud olan ailəyə lazımi kömək göstərilmiş, onların sosial problemlərinin həlli ilə bağlı zəruri işlər görülmüşdür [17, v.4-5].

Naxçıvan Muxtar Respublikasında 258 qadın bələdiyyələrdə təmsil olunur; 8 qadın bələdiyyə sədri, 2 qadın isə sədr müavini seçilmişdir [18, 2011-ci ilin yanvarın 1-nə olan məlumat, v.1]. Bu, əlbəttə ki, olduqca aşağı göstəricilərdir.

Beləliklə, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və onun layiqli varisi Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ölkə əhalisinin müxtəlif sosial kateqoriyalarının, o cümlədən qadınların rifah halının yüksəlməsinə gətirib çıxarmışdır. 1991-2013-cü illər ərzində əmək qabiliyyətli qadınların sayı təqribən 63,64% artmışdır. Bəhs olunan dövrdə iqtisadiyyatın müxtəlif sahələrində məşğulluğun qadın və kişilərin arasında bölünməsində dəyişiklər baş vermişdi. Əgər bu sahədə 1990-cı illərdəki prosesləri ümumən neqativ səciyyələndirmək mümkündürsə, 2000-ci illərdə vəziyyət tədricən, amma durmadan müsbət dinamika nümayiş etdirməkdədir. Statistik bilgilərə əsasən söyləyə bilərik ki, son 13 ildə məşğul qadınlar kateqoriyasının say artımı kişilərə nisbətən daha yüksək templə olmuşdur. 2000-2013-cü illərdə işsiz qadınların sayında 13 0100 nəfər və ya 48,5%, işsiz kişilərin sayında isə 148 000 nəfər və ya 60% azalma müşahidə olunmuş, qadın yoxsulluğu əvvəlki illərlə müqayisədə öz kəsərini xeyli dərəcədə itirmişdir. Bütün bu söylənilənlər, şübhəsiz ki, ölkə iqtisadiyyatının sürətli inkişafının, habelə müxtəlif dövlət proqramlarının uğurla həyata keçirilməsinin nəticəsidir.

Lakin, şübhəsiz, Azərbaycan qadınının son 15 ildə tərəqqisi ilə yanaşı, qadınların iqtisadi fəallığı, məşğulluğu və əmək haqları ilə bağlı hələ də öz aktuallığını saxlayan müəyyən neqativ meyillər qalmaqdadır. İqtisadiyyatın fəaliyyət növlərində qadın və kişilərin qeyri-mütənasib təmsil olunmaları, təsərrüfatın "kişi" və "qadın" sahələri kimi qeyri-rəsmi bölgüsünün saxlanılması, işsizliyin ümumi strukturunda qadınların xüsusi çəkisinin yüksək olması, bu zaman ali təhsilli işsiz qadınların yetərincə çox olması, iqtisadiyyatın həm dövlət, həm özəl sektorunda gender bölgüsünün piramidavari strukturunun saxlanılması, qadınların daha az ödənişli qeyri-formal sektora kişilərdən daha çox müraciət etmələri, qanunvericilikdə də təsbit olunmuş "bərabər əməyə görə bərabər ödəmə" prinsipinin hələ də tam həyata keçirilməməsi, qadın və kişi əmək haqları arasında disproporsiyanın hələ də qalması bu qəbil problemlərdəndir. Qeyd olunmalıdır ki, Azərbaycan hökuməti bu problemləri daim diqqət mərkəzində saxlayır və onların həlli istiqamətində addımlar atır. Son illərdə keçirilən sosioloji sorğu və araşdırmalar deməyə əsas verir ki, məşğulluq və ailənin dolandırılması məsələlərindəki ənənəvi gender fərqləri əvvəlki qədər kəskin hiss olunmur.

Əsas problemlərdən biri də Naxçıvan Muxtar Respublikada qadın sahibkarlığının az inkişaf etməsidir. Bu göstəriciyə görə Naxçıvan Muxtar Respublika Azərbaycanın digər iqtisadi rayonlarından geri qalır. Halbuki, özünün iqtisadi potensialına və insan resurslarına görə Naxçıvan Muxtar Respublikada qadın sahibkarlığının inkişafı üçün kifayət qədər münasib şərtlər mövcuddur.

Naxçıvan Muxtar Respublikasında təbii artım üzrə 2000-2013-cü illərdə statistik göstəricilər qadınlarla bağlı müsbət dinamikanı nümayiş etdirir. [6, s.15; 7, s.64; 8, s.61] Lakin, boşamaların sayının yüksək olması (hər 10 nigaha təqribən 1 boşanma) narahatedici məqamlardandır.

| | **2000** | **2005** | **2010** | **2013** |
|---|---|---|---|---|
| Əhalinin sayı (ilin sonuna, min nəfər) | 361,5 | 382,1 | 410,1 | 435,3 |
| Təbii artım | 3869 | 4239 | 8072 | 7762 |
| Nikahlar | 2088 | 3727 | 3397 | 3512 |
| Boşanmalar | 165 | 236 | 333 | 314 |

Naxçıvan Muxtar Respublikada qadınların sayında da artım qeydə alınmaqdadır. [6, s.13; 18, 2009-cu ilin yanvarın 1-nə olan Məlumat, s.1, 2010-cu ilin yanvarın 1-nə olan Məlumat, 2011-ci ilin yanvarın 1-nə olan Məlumat, s.1; 2013-cü ilin yanvarın 1-nə olan Məlumat s.1]

| | 1999 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|
| Naxçıvan MR-da yaşayan qadınların sayı | 179607 | 195533 | 202134 | 205871 | 210493 | 214696 | 218821 |
| 18 yaşından yuxarı olan qadınların sayı | - | - | 138658 | 139257 | 142455 | 145349 | 148104 |
| 18 yaşınadək olan qadınların sayı | - | - | 63874 | 66614 | 68038 | 69347 | 70717 |

Naxçıvan Muxtar Respublikada qadınların sağlamlığının mühafizəsinə prioritet sahə kimi baxılır. Son illərdə ailə planlaşdırılması, hamiləlik, doğuş və doğuşdan sonrakı dövrdə qadınlara səhiyyə xidmətlərinin təşkilinə müstəsna diqqət yetirilməkdədir. Qadınların sağlamlığının qorunması Naxçıvan MR AQUPDK-nın fəaliyyətinin prioritet istiqamətlərindəndir. Komitə MR-nın müvafiq strukturları ilə birlikdə rayon və kəndlərdə ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qan qohumluğu nikahlarının fəsadları və s. mövzularda kütləvi-maarifləndirici tədbirlər həyata keçirir [17, v.4].

Naxçıvan Muxtar Respublikasında tədris müəssisələrində təhsil alanların gender mənzərəsi də ötən dövr ərzində önəmli dəyişikliklərlə əlamətdar olmuşdur. 1999-2009-cu illərdə əvvəlki keçid dövrünün məlum sosial-demoqrafik problemləri ilə əlaqədar Naxçıvan Muxtar Respublikada tədris müəssisələrində təhsil alanların ümumi sayında, o cümlədən qadınların sayında azalma qeydə alınmışdır. Lakin, bu zaman ali təhsil alanlar kateqoriyasında əhəmiyyətli artım müşahidə olunmaqdadır. Əgər 1999-cu ildə Naxçıvan Muxtar Respublikanın ali məktəblərində 2184 qız oxuyurdusa, 2009-cu ildə bu rəqəm artaraq, 3412 nəfərə çatmışdır. Eyni zamanda yekuna görə ali məktəblərdə təhsil alan qızların xüsusi çəkisi 4,77%-dən 7,9%-ə yüksəlmişdir.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizin ictimai və iqtisadi həyatının bütün sferalarında yaşanan müsbət dinamika qadın hərəkatının canlanmasında da özünü göstərirdi. Qadın hərəkatı sosial fəallığın təzahürlərindən biridir. O vətəndaş cəmiyyətinin ayrılmaz ünsürüdür. Demokratik ideal və dəyərlərin yetişməsi prosesini əks etdirən bu hərəkat qadın kütlələrinin əhval-ruhiyyələrinin və ruhi səmtlərinin barometri kimi çıxış edir; hakimiyyət də ona əsasən öz proqram və siyasətini tutuşdurub yoxlamalıdır. Təsadüfi deyildir ki, Azərbaycan iqtidarı bu həqiqəti gözəl dərk edir və öz qadın siyasətində daim nəzərə alır.

Ulu öndərin kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sahədə həyata keçirdiyi siyasi xətt qadınların ictimai-siyasi fəallığının artırılmasına, onların ictimai həyatın müxtəlif sferalarında rolunun yüksəldilməsinə, ölkənin modernləşməsi kontekstində milli özünəməxsusluqları nəzərə almaqla yeni gender düzəninin formalaşmasına əlverişli şərait yaradır. Təsadüfi deyildir ki, 2003-2013-cü illərdə Azərbaycanda qadınların ictimai-siyasi fəallığı istər kəmiyyət, istərsə də keyfiyyət baxımından yeni mərhələyə qədəm basmışdır. Əgər 2002-2003-cü illərdə ölkədə 40-dan artıq qeyri-hökumət qadın təşkilatı fəaliyyət göstərirdisə [20, s.3], 2008-ci ildə onların sayı 90-a, 2013-cü ildə isə 200-ə yaxınlaşmışdı[26].

Azərbaycanda qadın hərəkatının və qadın siyasətinin yeni mərhələyə qədəm qoymasında Azərbaycan qadınlarının III və VI qurultayları mühüm rol oynadı. Naxçıvan Muxtar Respublikada qurultaylara hazırlıq qadınların yüksək fəallığı şəraitində keçirilmişdi. 2013-cü il aprel ayının 10-da Azərbaycan qadınlarının IV qurultayına nümayəndələrin seçilməsi ilə bağlı 411 nümayəndənin iştirakı ilə Naxçıvan Muxtar Respublikası qadınlarının konfransı keçirilmiş, qurultaya 25 nəfər nümayəndə seçilmişdi[17, v.2]. Qurultayda Naxçıvan MR Baş nazirinin müavini Təranə Quliyeva "Naxçıvan Muxtar Respublikasında dövlət qadın siyasətinin inkişafı" mövzusunda məruzə ilə çıxış edərək bildirmişdir ki, Naxçıvan Muxtar Respublikanın ictimai-siyasi həyatında yaxından iştirak edən qadınlar dövlət orqanlarında, parlamentdə və biznes sahələrində fəal rol oynayırlar.

Son illərdə Naxçıvan Muxtar Respublika qadınlarının beynəlxalq tədbirlərdə iştirakı, müxtəlif ölkələrin qadın cəmiyyətləri ilə əlaqələri də geniş vüsət almışdır. Əgər əvvəllər MR qadınlarının beynəlxalq əlaqələri əsasən qonşu Türkiyə və İran ilə məhdudlaşırdısa, indi bu əlaqələrin coğrafiyası daha çox ölkələri əhatə edir[3]. 1997-ci ilin oktyabrında Naxçıvan şəhərində keçirilən “Azərbaycan qadını XXI əsrin astanasında” mövzusunda beynəlxalq konfrans Naxçıvan Muxtar Respublikada həm qadın hərəkatının inkişafında yeni səhifə açdı, həm də bölgə qadınlarının beynəlxalq əlaqələrinin daha möhkəmlənməsinə əlverişli zəmin yaratdı[22].

Qadın tərəqqisinin mühüm göstəricisi qadınların ictimai-siyasi fəallığı, onların qeyri-hökumət təşkilatlarında birləşməsidir. Naxçıvanda da müstəqillik dövründə qadın təşkilatları fəaliyyətlərini

genişləndirməkdədir. Burada ictimai birliklər dövlət qurumları ilə birlikdə əməkdaşlığın səmərəli və dayanıqlı mexanizmini yaradaraq, regionun ictimai-siyasi fəaliyyətini canlandırır. "Təmiz Dünya" İctimai Birliyi öz fəaliyyətinin məzmunluluğu və əhatə dairəsinin genişliyi ilə Naxçıvan Muxtar Respublika ictimaiyyətinin rəğbətini qazanmışdır. Birliyin üzvləri Naxçıvan Muxtar Respublikanın problemlərinin həllində yaxından iştirak edərək, Naxçıvan həqiqətlərinin ölkədən kənarda yayılmasında, əhalinin maraq dairəsinin genişləndirilməsində, əhali arasında demokratiya və insan hüquqları üzrə mülki maarifləndirmə işlərində fəallıq göstərirlər. Treninqlər prosesində interaktiv metodlardan istifadə edilir, kiçik qruplarda treninq mövzusu əsasında məşğələlər seçilir, interaktiv oyunlar nümayiş etdirilir. "Təmiz Dünya" İctimai Birliyi qadınların ictimai-siyasi fəallığının artması üzrə geniş təbliğat aparır[12;10].

2013-cü ilin iyul ayının 20-də Naxçıvan şəhərində ATƏT-in Bakı ofisi "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunla bağlı məlumatlandırma mövzusu üzrə təlim keçirmişdi. Tədbirdə qeyd edilmişdi ki, ailədaxili münaqişələr zəminində baş verən cinayət hadisələrinə görə Naxçıvan Muxtar Respublika ölkədə axırıncı yerlərdın birini tutur. Bunun əsas səbəblərindən biri bölgədə məişət zorakılığının qarşısının alınmasına yönələn maarifləndirmə tədbirlərinin mütamadi keçirilnəsidir[11].

Naxçıvan Muxtar Respublikada aparılan məqsədyönlü qadın siyasəti idarəetmə strukturlarında və qərar qəbul etmədə qadınların sayının artmasına gətirib çıxarmışdır. Əgər 2005-ci il ildə MR Ali Məclisinə cəmi 1 qadın seçilmişdisə, 2010-cu ildə onların sayı 6 nəfər təşkil etmişdi. Hazırda isə Naxçıvan Muxtar Respublikaın ali orqanında 8 qadın millət vəkili təmsil olunur. Qadınların icra hakimiyyəti strukturlarında, bələdiyyələrdə, mədəni maarif, təhsil müəssisələrinin rəhbər heyətində sayı nəzərə çarpacaq dərəcədə artmışdır. Lakin, bu sahədə hələ də yetərincə problem qalmaqdadır. MR rəhbərliyi qadınların hakimiyyət orqanlarında və rəhbər vəzifələrdə öz saylarına proporsional şəkildə təmsil olunmaları istiqamətində tədbirlər həyata keçirməkdə davam edir.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və onun layiqli varisi Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən, Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun Naxçıvan Muxtar Respublikada regionun xüsusiyyətlərinin nəzərə almaqla yaradıcı şəkildə tətbiq edilən sosial-iqtisadi inkişaf strategiyası bölgə əhalisinin müxtəlif sosial kateqoriyalarının, o cümlədən qadınların rifah halının yüksəlməsinə gətirib çıxarmışdır. 1991-2013-cü illər ərzində əmək qabiliyyətli qadınların sayı təqribən 63,64% artmışdır.

Lakin, Naxçıvan MR-da qadınların son illərdə qazandığı nailiyyətlərlə yanaşı, onların iqtisadi fəallığı, məşğulluğu və s. amillərlə bağlı hələ də öz aktuallığını saxlayan müəyyən neqativ meyillər qalmaqdadır. İqtisadiyyatın fəaliyyət növlərində qadın və kişilərin qeyri-mütənasib təmsil olunmaları, təsərrüfatın "kişi" və "qadın" sahələri kimi qeyri-rəsmi bölgüsünün saxlanılması və s. bu qəbil problemlərdəndir. Naxçıvan Muxtar Respublika rəhbərliyi bu problemləri daim diqqət mərkəzində saxlayır və onların həlli istiqamətində addımlar atır. Bu işi Naxçıvan Muxtar Respublikasında qadın tərəqqisi sahəsində mütərəqqi meyillərin davam edəcəyinə əminlik yaradır.

## ƏDƏBİYYAT


1. Abbasova S. Müasir dövrdə Azərbaycan qadınlarının sosial fəallığı problemi. Naxçıvan MR-nın materialları əsasında, Bakı, 2007
2. Abbasova S. Naxçıvan MR-da qadın hərəkatının inkişaf tarixi, Tarix elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Naxçıvan, 2004
3. Azərbaycan qadını, 1997, №3, s.36-38
4. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 fevral 2006 // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 28 fevral 2006-cı il, №2, s.248
5. Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin fərmani, № 289, 6 mart 2000-ci il, Azərbaycan qəzeti, 200, 7 mart
6. Azərbaycanın regionları 2001. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı, Səda, 2001, 606 s.
7. Azərbaycanın regionları 2010, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı, Səda, 2010, 651 s.
8. Azərbaycanın regionları 2014, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2014, 778 s.
9. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu, 10 oktyabr 2006-cı il // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 30 noyabr 2006, №11, s. 2315-2319

10. QHT sədrinin yubileyi qeyd edilib // Vətəndaş cəmiyyəti, 2013, №5 (56), s.24
11. Məmmədova F. Naxçıvan MR-də məişət zorakılığının qarşısının alınması haqqında qanunla bağlı məlumatlandırma // Vətəndaş cəmiyyəti, 2013, №7 (58), s.32-33
12. Məmmədova F. Üzvlərimiz əhali arasında demokratiya və insan hüquqları üzrə maarifləndirmə işlərində fəallıq göstərirlər // Vətəndaş cəmiyyəti, 2009, №3 (6), s.46-47
13. Naxçıvan MR MDA, f.221, s.1, iş 356,, v.14-16
14. Naxçıvan statistika güzgüsündə, Tarixi-statistik məcmuə, Bakı, 1999
15. Naxçıvan MSSR-də xalq təsərrüfatının inkişafı, Bakı, 1964
16. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin cari arxivi Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2010-cu ildə gördüyü işlər haqqında Hesabat
17. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin cari arxivi. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2013-cü ildə gördüyü işlər haqqında Hesabat, v.4-5
18. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin cari arxivi. Naxçıvan Muxtar Respublikasında yaşayan ailələr, qadınlar və uşaqlar haqqında müxtəlif illərə dair məlumatlar
19. Nəcəfova S., Səfiyev S. Azərbaycanın qeyri-hökumət qadın təşkilatları, Bakı, Şirvannəşr, 2002, 90 s.
20. Şərq qapısı qəzeti, 1940, 28 iyul
21. Şərq qapısı qəz., Naxçıvan, 1997, 15 oktyabr
22. Итоги Всесоюзной переписи населения 1959 г. Азербайджанская ССР, М., 1963, s.12
23. Народное хозяйство Азербайджанской ССР k 60-летию образования СССР. Юбилейный статистический сборник. Баку, Азернешр, 1982, с.35
24. Нахичеванская АССР за 60 лет, Баку, Азернешр, 1984, с.3
25. http://ru.salamnews.org/az/news/read/79856

## ABSTRACT

**S.Abbasova**

### SOCIO-ECONOMIC PROGRESS OF WOMEN IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The role of women in public-political opinion of Nakhchivan came to the end of the nineteenth century. The political, economic and cultural processes that took place in Azerbaijan at that time gave a powerful impetus to women's enlightenment and greater involvement in public life. However, the achievements of Nakhchivan women in socio-economic and cultural spheres, like all the Azerbaijani women, are closely linked to the twentieth century As noted in the Decree of the President of the Republic of Azerbaijan on the implementation of state-run women's policy in Azerbaijan, women of Azerbaijan in the twentieth century have gone a long way along the centuries . They have undergone fundamental changes in society, social life, and family [5]. All of this, of course, has influenced the lives of women in Nakhchivan. In the second half of the 19th and early 20th century, the spread of the Enlightenment Movement in Nakhchivan also influenced the development of feminism, gained some success in the promotion of women's education and the promotion of women's rights through the services of prominent intellectuals.

**İSMAYIL ZEYNALOV**
**BƏSRƏT ZEYNALOV**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ELM VƏ TƏHSİL SAHƏSİNDƏ GÖRÜLƏN İŞLƏRİN XRONOLOJİ TƏHLİLİ (2001-2012-Cİ İLLƏR)

**Açar sözlər:** *Naxçıvan, elm, təhsil, inkişaf, dövlət qayğısı*
**Key words:** *Nakhchivan, science, education, development, state care*
**Ключевые слова:** *Нахчыван, наука, образование, развитие, государственная забота*

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda həmişə digər sahələrdə olduğu kimi elm, təhsil sahəsi də yüksək səviyyədə inkişaf etmiş və buradan çoxlu elm adamları, siyasi xadimlər, mədəniyyət nümayəndələri çıxmışlar. Məhz bu mənada bəzi maneə və çətinliklərə baxmayaraq Naxçıvan diyarı həmişə Azərbaycanın elm, maarif və mədəniyyət mərkəzlərindən biri olmuş, eləcə də milli mədəniyyətimizin inkişafına layiqli töhfələr vermişdir. Amma acınacaqlı hal ondan ibarətdir ki, ölkəmiz müstəqillik qazandıqdan sonra da, 1990-1993-cü illərdə də bu sahəyə biganəlik olmuş, elm, təhsil və mədəniyyət sahələri tənəzzül dövrü keçirmişdir. 1993-95-ci illərdə bir sıra sahələrdə olduğu kimi elm, təhsil sahəsində də böyük bir boşluq özünü göstərirdi. Həmin boşluğu doldurmaq üçün möhkəm iradə, gərgin əmək və vətənpərvərlik hissi ilə yaşayıb fəaliyyət göstərən şəxsiyyət tələb olunurdu.

Azərbaycan Respublikası üçün strateji əhəmiyyətə malik olan elm və təhsil sahələri ulu öndər Heydər Əliyevin Azərbaycana hakimiyyətə ikinci dəfə gəlişi ilə, bu sahənin inkişaf etdirilməsinin hədsiz dərəcədə vacibliyini qiymətləndirərək, ciddi addımlar atmağa başlamış oldu. Azərbaycanın başqa bölgələrində olduğu kimi, bu sahələrin Naxçıvan Muxtar Respublikasında da inkişaf etdirilməsinə diqqətini artırdı. Ona görə də, qısa zaman kəsiyində Azərbaycanda elm, təhsil sahələri dirçəliş dövrünə qədəm qoymağa başladı.

Ümummilli liderimiz Heydər Əliyev 1991-1993-cü illərdə Naxçıvanda siyasi hakimiyyətdə olarkən onun bu sahədəki fəaliyyəti təhsilin dirçəlməsinə müsbət təsir göstərmişdir. Lakin, onun Azərbaycana ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə əlaqədar bir müddət Naxçıvanın təhsil müəssisələrində yenidən boşluq yaranmış, məktəblərdə ideya-siyasi iş xeyli geriləmişdir.

Lakin, Heydər Əliyev məktəbinin yetirməsi Vasif Talıbovun 1995-ci ildə Naxçıvan MR Ali Məclisin Sədri seçilməsindən sonra Naxçıvanda sosial sahənin dirçəldilməsi və inkişaf etdirilməsi istiqamətində ciddi addımlar atılmağa başlandı. Bütün başqa sahələrdə olduğu kimi, elm və təhsilin inkişafı üçün də strateji tədbirlər hazırlandı, onların həyata keçirilməsi yolları müəyyənləşdirildi, təhsil sahəsində köklü kadr islahatlarına başlandı.

Ulu öndər Heydər Əliyev siyasi kursuna bütün varlığı ilə sadiq olan Naxçıvan Muxtar Respublikanın yeni rəhbəri təhsilin inkişaf etdirilməsi üçün ilk növbədə o zaman Naxçıvan Muxtar Respublikada yeganə ali məktəb olan Naxçıvan Dövlət Universitetinin fəaliyyətimi genişləndirilməsinə və inkişaf etdirilməsinə diqqəti artırdı.

1996-cı ildə universitetdə kadr dəyişikliyi həyata keçirildi. Belə ki, həmin universitetin ilk məzunlarından biri olan, filologiya elmləri doktoru, professor İsa Həbibbəylinin rektor təyin edilməsi ilə bu təhsil ocağının həyatına yeni nəfəs verildi və yeni inkişaf mərhələsi başlandı.

Yüksək dövlət qayğısı və universitet alimlərinə göstərilər etimadın nəticəsi olaraq 1997-ci ildə ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində namizədlik dissertasiyaları üzrə İxtisaslaşdırılmış Müdafiə Şurası yaradılmış, həmin il bu şurada 10 nəfər dissertasiya müdafiə edilmişdir.

Həmin ixtisaslaşdırılmış Müdafiə Şurasında ilk dəfə olaraq, 1999-cu ildə tarix elmləri namizədi İsmayıl Hacıyev və Fizika-Riyaziyyat elmləri namizədi mərhum Zöhrab Vəliyəv doktorluq disertasiyalarını müdafiə etmislər. Həmin dövrdə universitetdə 10 fakültə fəaliyyət göstərir və 46 ixtisas üzrə kadr hazırlığı həyata keçirilirdi.

NDU-nun beynəlxalq əlaqələri də getdikcə genişlənmişdir. Universitet Türkiyənin Ankara, Ərzurum, Van, Qars Universitetləri, Amerikanın Perdu, Almaniyanın Branşvavn, İngiltərənin Braytn, Fransanın Paris 8 və Strasburq, İranın Təbriz, Qırğızıstanın Bişkek Universitetləri, eləcə də Koreyanın, Almaniyanın, Avstriyanın, Rusiyanın, Gürcüstanın və digər ölkələrin nüfuzlu universitetləri ilə əməkdaşlıq

edir. Universitetdə xarici tələbələrin sayı artmışdır. Belə ki, əgər 1995-ci ildə xarici tələbələrin sayı 60 nəfər idisə, 2001-ci ildə onların sayı 400 nəfərə çatmış və xarici tələbələr üzrə ayrıca dekanlıq yaradılmışdır.

Universitetdə 4,5 hektar ərazini əhatə edən gənclik parkının yaradılmasında müəllim və tələbə kollektivi var qüvvəsi ilə çalışmış, bu ərazidə quruculuq işlərinin aparılmasına Naxçıvan Muxtar Respublika Ali Məclisinin Sədri xüsusi qayğı göstərmişdir.

Naxçıvan Muxtar Respublikada əvvəllər filial kimi fəaliyyət göstirirdi. Naxçıvan Özəl Universiteti də 1999-cu ildən etibarən müstəqil fəaliyyətə başlamışdır. Özəl Universitetdə 80 nəfər professor- müəllim heyəti çalışır. Bundan əlavə, ölkə Prezidenti möhtərəm Heydər Əliyevin 13 iyun 2000-ci il tarixli fərmanı ilə Azərbaycan Müəllimlər İnstitutu yaradıldıqdan sonra respublikanın 12 bölgəsində, o cümlədən Naxçıvanda bu ali təhsil müəssisəsinin filialının fəaliyyətinə də icazə verilmişdir.

Hazırda Naxçıvan Muxtar Respublikada 3 ali məktəb, 3 orta ixtisas məktəbi, 233 gündüz ümumtəhsil məktəbi vardır. Məktəblərdə oxuyan şagird və tələbələrin sayı ildən-ilə artır.

1995-2001 -cı illərdə elmin, təhsilin inkişafına böyük diqqət yetirilmiş və məktəb tikintisi aparıcı yerlərdən birini tutmuşdur. Bu müddətdə 53 məktəb tikilib istifadəyə verilmişdir.

Fərəh hissi ilə qeyd etmək olar ki, 2001-ci ildə elm və təhsilə qayğı daha da artmış, xalq təhsilinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilmişdir. 2001-ci ildə Naxçıvan Muxtar Respublikada 7 şəhər və rayon təhsil şöbəsi, 233 gündüz ümumtəhsil məktəbi, 26 məktəbdənkənar, 106 məktəbəqədər uşaq tərbiyə müəssisəsi, 14 uşaq idman və şahmat məktəbi, 6 peşə liseyi və peşə məktəbi fəaliyyət göstərmişdir. Gündüz ümumtəhsil məktəblərində 74 min 37 nəfər şagird təhsilini davam etdirmişdir. Bu məktəblərdə 9 mindən artıq müəllim şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olmuşdur. 2001-ci ildə Naxçıvan Muxtar Respublikanın orta ümumtəhsil məktəblərini 5 min 982 nəfər bitirmiş, bunlardan ali və orta ixtisas məktəblərinə 1415 nəfər, o cümlədən ali məktəblərə 1071 nəfər tələbə qəbul olunmuşdur. Eləcə də 2001-ci ildə ali və orta ixtisas məktəblərini 889 nəfər, o cümlədən ali məktəbləri 612 nəfər tələbə bitirmişdir.

2001-ci ildə Naxçıvan Muxtar Respublikası ali təhsil müəssisələri əməkdaşlarının 40-dan çox kitabı, 380-dən çox elmi məqalələri çap olunmuşdur.

Göründüyü kimi, həyata keçirilən tədbirlər sayəsində elm, təhsil sahəsində ciddi dönüş əmələ gəlmiş və Naxçıvan Muxtar Respublika özünün intibah mərhələsinə çatmışdır. 2001-ci ildə təhsil sahəsində çalışan qabaqcıl işçilərdən 10 nəfərinin əməyi yüksək qiymətləndirilmiş, onlar Naxçıvan Muxtar Respublikanın fəxri adlarına layiq görmüşdür. O cümlədən, təhsil işçilərindən 4 nəfərinə “Əməkdar müəllim” fəxri adları verilmişdir.

2002-ci ildə təhsil sahəsinin maddi texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər davam etdirilmişdir. Belə ki, Naxçıvan şəhərində Ərtoğrol Cavid adına Musiqi və Sənətkarlıq məktəbinin yeni binası, Şərur şəhərində 2 saylı 1350 yerlik, Şərur rayonunun Kürdçülü kəndində 320 yerlik, Babək rayonun Şəkərabad kəndində 320 yerlik, həmin rayonun Qaraxanbəyli kəndində 420 yerlik, Ordubad rayonunun Nürgüt kəndində 110 şagird yerlik, Şahbuz rayonunun Keçili kəndində 504 şagird yerlik, Culfa rayonunun Yaycı kəndində 504 yerlik yeni orta məktəb binaları tikilərək və 4 saylı 1100 yerlik Naxçıvan şəhər orta məktəbi əsaslı təmir olunaraq istifadəyə verilmişdir. 2002-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi liseyinin Naxçıvan filialı üçün 450 yerlik yeni tədris korpusu, 705 saylı Hərbi hissənin orta məktəbində tikinti və bərpa işləri aparılmışdır.

Naxçıvan Muxtar Respublikasında elmin və təhsilin inkişafında Azərbaycan MEA-nın Naxçıvan Bölməsinin yaradılmasının xüsusi əhəmiyyəti olmuşdur. Prezident Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli sərəncamı ilə yaradılmış bu elm ocağı altı elmi - tədqiqat müəssisəsindən - Tarix, Etnoqrafiya və Arxeologiya; İncəsənət, Dil və Ədəbiyyat, Təbii Ehtiyatlar, Bioresurslar İnstitutları, Astrofizika Rəsədxanası və Əlyazmalar Fondundan ibarətdir. 2003-cü ilin yanvarından fəaliyyətə başlayan bölmənin əsas məqsədi həm Naxçıvanda elmi mühitin canlandırılınası, buradakı elmi kadrlardan istifadə edilməsi, həm də Naxçıvanın tarixini, arxeologiyasını, ədəbi mühitini, coğrafiyasını, təbii sərvətlərini və bioresurslarını öyrənməkdən ibarətdir. Dövlətin qayğısı sayəsində bölmənin maddi-texniki bazası möhkəmləndirilmiş, elmi-tədqiqat institutlarının strukturu formalaşdırılmışdır. 30 nəfər tədqiqatçı ilə işə başlayan bölmədə 80-dən çox alim elmi - tədqiqatlarla məşğul olmuşdur. Qısa müddət ərzində Bölmənin Rəyasət Heyəti və elmi-tədqiqat institutları üçün binalar əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir.

2004-cü il mayın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev AMEA-nın Naxçıvan bölməsinin yeni korpusunun açılışında iştirak etmişdir. Həmin mərasimdə Prezidentə məlumat verilmişdir ki, yeni korpusda Təbii Ehtiyatla: İnstitutu, Batabat Astrofizika Rəsədxanasının Mərkəzi aparatı və Əlyazmalar Fondu yerləşir. Burada elmi kitabxana, nəşriyyat, arxiv, seysmoloji mərkəz vardır, 8 elmi-tədqiqat laboratoriyası fəaliyyə göstərir.

2002-ci ildə olduğu kimi, 2003-cü ildə də elm və təhsil sahəsinin inkişafı üstün istiqamət kimi öz mövqeyini saxlamışdır. Naxçıvanda elmin inkişafına göstərilən dövlət qayğısının bariz nəticəsi olaraq 2003-

cü ildə burada fəaliyyət göstərən alimlərdən 2 nəfəri Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvi, 2 nəfəri isə müxbir üzvü seçilmişdir. Naxçıvan Dövlət Universitetinin əməkdaşlarından 6 nəfəri elmlər doktoru, 7 nəfəri isə elmlər namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

Təhsil şəbəkəsinin genişləndirilməsinə diqqətin artırılması nəticəsində 2003-cü ildə Naxçıvan Dövlət Universitetində 2 yeni fakültə, 2 kafedra, 3 yeni ixtisas açılmışdır. Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan bölməsi müstəqil İnstituta çevirilmiş, İnstitutun maddi-texniki bazası möhkəmləndirilmişdir.

Təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlər quruculuq xəttinin böyük bir hissəsini təşkil etmişdir. Belə ki, 2003-cü ildə Şərur rayonunun Şəhriyar kəndində 432 yerlik, Babək rayonunun Araz kəndində 62 yerlik, Aşağı Uzunoba kəndində 324 yerlik, Şahbuz rayonunun Külüs kəndində 318 yerlik, Ordubad rayonunun Dırnıs kəndində 176 yerlik, Culfa rayonunun Bəyəhməd kəndində 110 yerlik, Əlincə kəndində 252 yerlik, Naxçıvan şəhərində gözdən əlil uşaqlar üçün 60 yerlik xüsusi ibtidai məktəb - cəmi 2390 yerlik 10 məktəb binası tikilmişdir. Naxçıvan şəhərinin Babək məhəlləsində 1206 yerlik, Şərur rayonundakı Təzəkənddə isə 110 yerlik yeni məktəb binasının tikintisi, Naxçıvan şəhərində hərbi hissənin nəzdində 720 şagird yerlik məktəbin tikintisi isə davam etmişdir.

“Təhsil sahəsi hamımızın ən gərəkli, ən mühüm sahəsidir. Təhsil millətin gələcəyidir, buna görə də zaman keçdikcə təhsilimiz dövrün tələblərinə uyğun olaraq yeniləşməlidir” deyən ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən təhsil islahatı proqramı milli təhsilimizin ayrı-ayrı pillələrində toplanmış potensialı saxlamaq, onu inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq normativ-hüquqi baza yaratmaqla, siyasi, iqtisadi və sosial həyatın demokratikləşdirməsinə əsaslanan dövlət siyasətinin həyata keçirilməsinə yönəldilmişdir.

Həyata keçirilən elm və təhsil islahatlarının tərkib hissəsi kimi 2005-ci ildə Naxçıvan Muxtar Respublikada təhsil sisteminin maddi-texniki bazasının gücləndirilməsi, o cümlədən yeni məktəb binalarının inşası, təhsilimizin inkişafına öz müsbət təsirini göstərmişdir. Belə ki, 3758 şagird yerlik 16 məktəb binası tikilərək. 594 şagird yerlik 1 orta məktəb binası əsaslı təmir olunaraq, həmçinin Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə, Hüquq və İqtisad fakültələri üçün 600 yerlik yeni korpus tikilərək istifadəyə verilmişdir.

2006-cı ildə Naxçıvan Muxtar Respublikada 2352 yerlik 8 məktəb binası tikilmiş, 2800 yerlik 6 məktəb binası əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilmişdir. 2005-ci ildə olduğu kimi 2006-cı ildə də Naxçıvan Muxtar Respublikada yeni məktəb binalarının tikintisində ümummilli liderimizin adını daşıyan Fond "Yeniləşən Azərbaycana yeni məktəblər” proqramı ilə yaxından iştirak etmişdir. Həmin il Heydər Əliyev Fondunun vəsaiti hesabına Ordubad rayonunun Biləv Kəndində 216 şagird yerlik, Şahbuz rayonunun Mahmudoba kəndində isə 144 yerlik məktəb binaları tikilərək istifadəyə verilmişdir. Bundan başqa 2006-cı ildə Naxçıvan şəhərində 792 şagird yerlik 7 nömrəli məktəb, Şərur rayonunun Tənənəm kəndində 216 yerlik, Babək rayonunun Qaraqala kəndində 234 yerlik, Ordubad rayonunun Bist kəndində 156 yerlik, Culfa rayonunun Göydərə kəndində 306 yerlik, Kəngərli rayonunun Böyükdüz kəndində 288 şagird yerlik məktəb binaları tikilmişdir.

Yeni məktəb binalarının tikintisi ilə yanaşı, mövcud bir çox orta təhsil müəssisələrində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Şərur şəhərində 1350 yerlik 2 nömrəli məktəb, həmin rayonda 342 yerlik Cəlilkənd orta məktəbi, Ordubad şəhərində 430 yerlik İnternat məktəbi, Culfa rayonunun Saltaq kəndində 318 yerlik, Sədərək rayonunun Heydərabad qəsəbəsində 200 yerlik, Qarağac kəndində 160 şagird yerlik orta məktəb binaları əsaslı təmir və yenidənqurma işləri aparılaraq istifadəyə verilmişdir.

“Təhsili olmayan millətin gələcəyi yoxdur” - deyən, xalqımızın gələcəyini düşünən ulu öndər Heydər Əliyevin tövsiyəsinə əməl edilməklə, hər il olduğu kimi, 2007-ci ildə də Naxçıvan Muxtar Respublikada təhsil sahəsinin yeniləşməsinə diqqət artırılmışdır. Naxçıvan şəhərində 1404 yerlik 14 nömrəli məktəb, Babək qəsəbəsində 756 yerlik. Şahbuz şəhərində 630 yerlik, Şərur rayonundakı Mahmudkənddə 522 yerlik, Ordubad rayonunun Düylün kəndində 234 yerlik məktəb binaları tikilərək istifadəyə verilmişdir. Babək rayonunun Cəhri kəndindəki 504 yerlik 2 nömrəli orta məktəb yenidən qurularaq istifadəyə verilmişdir. Bütövlükdə ötən il 4 min 50 şagird yerlik 6 məktəb binası istifadəyə verilmişdir. Məktəblərin 39-da müstəqil istilik sistemləri qurulmuşdur.

Təhsilə göstərilən qayğının davamı olaraq ölkə Prezidentinin sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyi keçirilmişdir. Universitetin Konservatoriya binası və Olimpiya İdman Korpusu tikilmiş, Memarlıq və mühəndislik fakültəsi, üçün korpus, Naxçıvan Dövlət Texniki Kollecinin Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə və Turist-Diyarşünaslıq Mərkəzinin, Texniki Yaradıcılıq Mərkəzinin, Naxçıvan şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbinin, Naxçıvan şəhərində 6 nömrəli Uşaq Bağçasının binaları əsaslı təmir olunaraq və yenidən qurularaq istifadəyə verilmişdir. 2005-2007-ci illərdə “Ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramının həyata keçirilməsi” ilə əlaqədar 2 il ərzində məktəblərə 2 min 290 dəst kompüterin verilməsi təmin olunmuşdur.

Bundan əlavə, ümumtəhsil məktəblərində təhsil alan 100 əlaçı şagirdə kompüterlər hədiyyə edilmişdir.

Təhsil sahəsində həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikanın ümumtəhsil məktəblərində tədrisin keyfiyyəti ilbəil yaxşılaşmaqda davam edir. 2007-ci ildə orta ümumtəhsil məktəblərini bitirən 4 min 817 nəfər məzundan 3 min 99 nəfəri, yəni 64 faizi ali məktəblərə sənəd vermiş, onlardan 1183 nəfəri və ya 38,2 faizi tələbə adını qazanmışdır. Ötən il Heydər Əliyev adma Hərbi Liseyi bitirən 93 kursantın hamısı ali hərbi məktəblərə qəbul olunmuşdur.

Elmin inkişafı da prioritet məsələ olmuş, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Batabat Astrofizika Rəsədxanası üçün yeni bina tikilərək, Bioresurslar İnstitutunun "Nəbatat bağı" yenidən qurularaq istifadəyə verilmişdir. Ali təhsil və elm mərkəzlərində müxtəlif aktual mövzularda 6 beynəlxalq elmi konfrans və simpozium keçirilmiş, Naxçıvan Muxtar Respublika alim və tədqiqatçıları tərəfindən 100-ə yaxın kitab, dərslik və monoqrafiya, 400 - dən çox elmi məqalə hazırlanaraq dərc olunmuşdur.

2008-ci ildə elmin sürətli yüksəlişi, bu məqsədlə müvafiq bazanın yaradılması, elmi potensialın formalaşdırılması və bu əsasda yüksək səmərəliliyə nail olunması Naxçıvan Muxtar Respublikada dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil etmişdir. Bu müddət ərzində Naxçıvan Muxtar Respublikada elmi kadrların sayı artmış, 22 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. Ali təhsil və elm mərkəzlərində 3 beynəlxalq, 50 respublika və ali məktəb əhəmiyyətli konfrans və simpozium keçirilmişdir. Alim və tədqiqatçılar tərəfindən 90 kitab, monoqrafiya, dərslik və dərs vəsaiti, 1300-dən çox elmi məqalə və tezis hazırlanaraq çap olunmuşdur. 24-25 aprel 2009-cu il tarixdə "Nuh Peyğəmbər: dünya tufanı və Naxçıvan" beynəlxalq simpoziumu Naxçıvan Muxtar Respublikanın tarixinin öyrənilməsi və təbliği sahəsində müstəsna əhəmiyyət kəsb etmişdir.

Naxçıvan Muxtar Respublikada yeni məktəblərin inşası, onların texniki və kadr təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları üzrə maddi-texniki bazasının təkmilləşdirilməsi, kompüter avadanlığı və digər zəruri rəqəmsal avadanlıqlarla təminatının yaxşılaşdırılması, şagirdlərin pulsuz dərsliklərlə təmin edilməsi və məktəb kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətlərində mühüm işlər görülmüşdür. 2009-cu ildə Naxçıvan Muxtar Respublikada fəaliyyət göstərən 220 ümumtəhsil məktəbinin hamısı kompüterlə təchiz edilmiş, məktəblərə hər 21 şagirdin istifadəsi üçün bir dəst olmaqla 2 min 429 kompüter verilmişdir.

2009-cu ildə Kəngərli rayonunda Təzəkənddə və Sədərək rayonunun Sədərək kəndində orta məktəb binalarının tikintisi davam etdirilmiş, Naxçıvan şəhərində 450 şagird yerlik Türk Liseyinin, Şərur rayonunun Aşağı Daşarx kəndində 252 yerlik, Culfa rayonunun Ərəzin kəndində 504 yerlik, Kəngərli rayonunun Qarabağlar kəndində 522 yerlik, Şahbuz rayonunun Badamlı kəndində 216 yerlik orta məktəb binalarının tikintisi, Naxçıvan şəhərində 414 yerlik 2 saylı, 828 yerlik 4 saylı, 1008 yerlik 8 saylı, Şərur rayonunun Tumaslı kəndində 360 yerlik, Şərur şəhərində 738 yerlik 1 saylı, Babək rayonunun Zeynəddin kəndində 612 yerlik orta məktəb binalarının yenidən qurulması, Şərur rayonunun Havuş kəndində isə 60 şagird yerlik orta məktəb binasının əsaslı təmiri başa çatdırılmışdır. Ümumtəhsil məktəblərində təhsilin keyfiyyətlə aparılması üçün ilk dəfə olaraq 120 elektron lövhə quraşdırılmışdır.

Mühüm göstəricilərdən biri də gənclər arasında hərbi təhsilə marağın güclənməsidir. 2009-cu ildə Heydər Əliyev adına Hərbi Liseyi bitirmiş 144 kursantdan 141-i ali hərbi məktəblərə qəbul olunmuşdur. Naxçıvan Muxtar Respublikanın ümumtəhsil məktəblərindən də ali hərbi və xüsusi təyinatlı məktəblərə qəbulda artım nəzər; çarpmaqdadır. Təkcə 2009-cu ildə orta məktəb məzunlarının 2: nəfəri ali hərbi və xüsusi təyinatlı ali məktəblərə qəbul olunmuşdur. Naxçıvan Muxtar Respublikada aparılan fundamental elmi tədqiqatların prioritetlərinin əsasən sosial-iqtisadi və ictimai-mədəni həyata uyğunlaşdırılması, beynəlxalq elmi məkana inteqrasiyasının təmin olunması, elmin informasiya təminatının gücləndirilməsi, elmi potensialın Naxçıvan Muxtar Respublikanın sosial-iqtisadi və mədəni-mənəvi inkişafına yönəldilməsi istiqamətlərində mühüm tədbirlər həyata keçirilməkdədir.

Naxçıvan Muxtar Respublikada təhsil sahəsində həyata keçirilən islahatlar 2010-cu ildə əsasən təhsilin məzmununun yeniləşdirilməsi, təhsilin idarə olunmasının təkmilləşdirilməsi, təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi beynəlxalq əlaqələrin genişləndirilməsi, digər məqsədli tədbirlərin həyata keçirilməsi vasitəsilə təhsildə keyfiyyətin yüksəldilməs istiqamətində aparılmaqda davam etmişdir.

Təhsil sahəsində infrastruktur quruculuğu istiqamətində 2010 - cu ildə bir sıra nailiyyətlər əldə edilmiş, həmin ilin yanvar-iyul ayları ərzində Şərur şəhərində 738 yerlik 1 saylı orta məktəb binasının yenidən qurulması başa çatdırılmış, Şərur rayonunun Yengicə, Maxta, Kəngərli rayonunun Təzəkənd, Yeni Kərki. Sədərək rayonunun Sədərək kəndlərində və Culfa şəhərində 3 sayl; orta məktəb binalarının tikintisi, Naxçıvan şəhərində 15 saylı, Culfa şəhərində 2 saylı və Şərur rayonunun Zeyvə kəndində orta məktəb binalarının yenidən qurulması, Kəngərli rayonunun Xıcab kəndində orta məktəb binasının təmiri davam

etdirilmişdir.

Həmin dövrdə Naxçıvan Muxtar Respublikada fəaliyyət göstərən ümumtəhsil məktəblərinə hər 19 şagirdin istifadəsi üçün bir dəst olmaqla 2 min 674 dəst kompüter verilmişdir. Bu dövr ərzində Şərur şəhərində 200 yerlik Uşaq bağçası binasımn tikintisi başa çatdırılmış, Naxçıvan və Culfa şəhərlərində Uşaq bağçaları binalarının tikintisi, Culfa rayonunda hərbi şəhərcikdə Uşaq bağçası binasının yenidən qurulması, Şahbuz şəhərində və Babək qəsəbəsində Uşaq musiqi məktəbi binalarının, Naxçıvan şəhərində fiziki qüsurlular insanlar üçün Naxçıvan Regional Mərkəzinin tikintisi, Culfa Rayon Ekoloji, Texniki Yaradıcılıq, Uşaq yaradıcılıq, Gənc Turist və Diyarşünaslıq Mərkəzləri üçün ayrılmış binaların yenidən qurulması davam etdirilmişdir.

2011-ci ildə elm və ali təhsil müəssisələri tərəfindən elmi kadrların yetişdirilməsinə də diqqət artırılmışdır. Bunun nəticəsidir ki, 8 nəfər elmlər doktoru, 11 nəfər fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. Eyni zamanda ali təhsil və elm mərkəzlərində 9 beynəlxalq əhəmiyyətli konfrans və simpozium keçirilmişdir. Həmçinin alim və tədqiqatçılar tərəfindən 67 kitab və monoqrafiya. 147 metodik vəsait, minə yaxın elmi məqalə və tezis hazırlanaraq çap olunmuşdur.

Əvvəlki illərdə olduğu kimi 2011-ci ildə də təhsil sahəsində infrastruktur quruculuq tədbirləri intensiv xarakter almışdır. 2011-ci ildə Naxçıvan Dövlət Universitetinin Magistratura üzrə dekanlığın inzibati və tədris binası istifadəyə verilmiş, Pedaqoji, Təbiətşünaslıq və Kənd təsərrüfatı fakültələrinin binasının yenidən qurulmasına başlanmışdır. Həmin il Naxçıvan Müəllimlər İnstitutunun binası əsaslı sürətlə təmir olunmuşdur.

2011-ci ildə Naxçıvan şəhərində 1242 yerlik 12 nömrəli məktəb əsaslı təmir edilmiş, Naxçıvan Qızlar Liseyinin, 280 yerlik 3 nömrəli Uşaq bağçası başa çatdırılmış, 1 nömrəli Uşaq bağçasının tikintisinə, Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbinin binasının təmirinə başlanılmışdır.

Bununla yanaşı, Şərur rayonunun Çomaxtur kəndində 54· yerlik məktəb binasının, Şərur şəhər İncəsənət məktəbinin tikintisi, Yuxarı Daşarx kəndində isə 288 yerlik məktəb binası yenidən qurulub başa çatdırılmışdır. Babək rayonunun Didivar kəndində 540 yerlik məktəb binasının tikintisi Hacıvar və Yarımca məktəb binalarının təmiri yekunlaşdırılmışdır.

Eyni zamanda Şahbuz rayonunda Aşağı Qışlaq, Ağbulaq kəndlərində məktəb binalarının tikintisi, Yuxarı Qışlaq, Keçili və Külüs kəndlərində məktəb binalarının təmiri başa çatdırılmış, eləcə də Culfa rayonunun Nəhəcir kəndində 132, Ordubad rayonunun Gənzə kəndində 306 şagird yerlik məktəblər tikilib istifadəyə verilmişdir.

Dünya təhsil sisteminə inteqrasiyaya imkan yaradan informasiya cəmiyyətinə hazırlıq məqsədi ilə 2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması sahəsində Dövlət Proqramına uyğun olaraq mühüm tədbirlər həyata keçirilmişdir. Bununla bağlı olaraq 2012-ci ildə Naxçıvan Muxtar Respublikanın ümumtəhsil məktəblərində 2896 dəst kompüter quraşdırılmış, beləliklə hər 17 şagird bir dəst kompüterlə təmin olunmuşdur. Eyni zamanda qeyd etmək lazımdır ki, 2896 kompüter dəstindən 2365-i (81,7 faizi) internetə qoşulmuş, təhsilin keyfiyyətli aparılması məqsədilə 373 elektron lövhəsi quraşdırılmışdır.

Məhz görülən bu tədbirlər nəticəsində təhsil sahəsində konkret nəticələr əldə olunmuşdur ki, bu da ali məktəblərə qəbulun dinamikasında özünü büruzə vermiş, qəbul imtahanlarında toplanan 500-700 bal intervalında nəticə əldə edən abituriyentlərin sayı artmışdır. Belə ki, əgər 2010-cu ildə abituriyentlərin 1435 nəfəri ali məktəblərə qəbul olmuşdursa, 2011-ci ildə ali məktəbə sənəd verən məzunlardan 1764 nəfəri tələbə adını qazana bilmişdir, 358 nəfər isə orta ixtisas məktəbinə qəbul olunmuşdur.

Təhsildə keyfiyyət göstərici də özünü büruzə vermişdir, belə ki, 2011-ci ildə Naxçıvan Muxtar Respublikada məktəbi qurtaran şagirdlərdən 15 nəfəri qızıl, 12 nəfəri gümüş medallarla təltif olunmuşlar. 2011 - ci ildə hərbi təhsilə də maraq artmışdır.

2011-ci ildə olduğu kimi 2012 - ci ildə də elm və təhsil sahəsinin inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmışdır.

2012 - ci ildə elm və təhsil müəssisələri tərəfindən elmi kadrların yetişdirilməsinə diqqət artırılmış, 4 nəfər elmlər doktoru, 19 nəfər fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. Ali təhsil və elm mərkəzlərində 8 beynəlxalq əhəmiyyətli konfrans və simpozium keçirilmiş, alim və tədqiqatçılar tərəfindən 70 kitab və monoqrafiya 97 metodik vəsait, mindən çox məqalə və tezis hazırlanaraq çap olunmuşdur.

2012-ci ildə 936 yerlik Naxçıvan şəhər 17 nömrəli tam orta məktəb, Şərur rayonunun Yuxarı Aralıq kəndində 414. Qarxun kəndində 504, Dərəkənddə 216, Danyeri kəndində 414. Qorçulu kəndində 198, Babək rayonunun Kərimbəyli kəndində 396, Nehrən kəndində 900, Ordubad rayonunun Behrud, Parağa kəndlərinin hər birində 110, Yuxarı Əylis kəndində 252, Culfa rayonunun Yaycı kəndində 774, Ləkətağ kəndində 144, Şahbuz rayonunun Biçənək kəndində 252, Kəngərli rayonunun Çalxanqala kəndində 378 yerlik, ümumilikdə isə 6408 şagird yerlik 15 tam orta ümumtəhsi məktəb binası istifadəyə verilmişdir. Bütün

bunlarla yanaşı məktəblərin həm də maddi-texniki bazası gücləndirilmişdir. Həmçinin burada 3183 dəst kompüter quraşdırılmışdır ki, bu da hər 15 nəfər şagirdin 1 dəst kompüterlə təmin olunması deməkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Prezidenti Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri, Azərbaycan qəzeti, 2002, 14-16-18 avqust
2. Azərbaycan qədim divarı Naxçıvan sürətlə inkişaf edir, abadlaşır, gözəlləşir, Azərbaycan Prezidenti İlham Əliyevin. Naxçıvan Muxtar Respublikasına səfəri, Azərbaycan qəzeti, 200-. 14-15-16 may
3. Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri, Azərbaycan qəzeti, 2004, 3 sentyabr
4. Talıbov V.Y. Heydər Əliyev Cənablarının siyasi fəaliyyətinin Naxçıvan dövrünün elm və maarifçilik məsələləri, NDU-nun Elmi Əsərləri, 1997, №l. s.5-6.
5. Talıbov V.Y. Naxçıvan Muxtar Respublikasında mədəni proseslər və müasir dövr // NDU-nun elmi əsərləri 1999, №4. s. 14- 19
6. Talıbov V.Y. Yüzillik inkişafın zirvəsi, 1969-1999 Azərbaycan qəzeti, 1999, 16 iyun
7. Həbibbəyli İ.Ə, Hacıyev İ.M., İsmayılov B.M. İntibahın 15 ili. Naxçıvan, Əcəmi, 2010, 280 s.
8. Həbibbəyli İ.Ə. Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Qeyrət, 2000, 39 s.
9. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikası Azərbaycanın milli dövlətçilik tarixində, t.e.d. alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı, 1999, 65 s.
10. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai- siyasi həyatı, sosial iqtisadi və mədəni inkişafı (1991-2011-ci illət Naxçıvan, Əcəmi, 2011, 272 s.
11. Şahverdiyev Z., Zeynalov İ. Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi və mədəni inkişaf 2001-2012-ci illər, Naxçıvan, Əcəmi, 2014, 247 s.
12. Şahverdiyev Z., Zeynalov İ. Naxçıvan Muxtar Respublikası 1991 - 2001 - ci illərdə, Bakı, Qismət, 2001, 284 s.
13. 2001-2012-ci illərdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi, Naxçıvan, Əcəmi, 2002-2012, 67 s.


## ABSTRACT


### CHRONOLOGICAL ANALYSIS OF THE WORK CARRIED OUT IN THE FIELD OF SCIENCE AND EDUCATION OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC IN 2001-2012

The article is based on the fact that Nakhchivan Autonomous Republic has always been one of the centers of science and education of Azerbaijan, despite all the difficulties during all historical development.

During the years of independence of Azerbaijan, as well as in other areas of Nakhchivan during 2001-2012, purposeful measures aimed at the development of science and education are scientifically evaluated.


## РЕЗЮМЕ


### ХРОНОЛОГИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ ОСУЩЕСТВЛЯЕМЫХ РАБОТ В ОБЛАСТИ НАУКИ И ОБРАЗЫВАНИЯ В НАХЧЫВАНЕ В ПЕРИОД 2001-2012 ГОДОВ

В статье обосновывается мысль, что несмотря на определенные трудности во всех периодах развития Нахчывансkая АР всегда являлась и образовательным центром Азербайджана.

В период независимости Азербайджана, в том числе за 2001-2012 годы, kak и в других сферах Нахчывана проводились целенаправленные меропущятия по развитию науки и образования, что оценивается в научном аспекте.

**RAFİQ RƏHİMOV**
**NADİR HÜSEYNBƏYLİ**
*Naxçıvan Dövlət Universiteti*

## 28 APREL İŞĞALINDAN SONRA NAXÇIVAN ZİYALILARINA QARŞI TƏTBİQ EDİLƏN SİYASİ AVANTÜRA

**Açar sözlər:** *Kəşfiyyat, hərbi, isintaq, cinayət məcəlləsi, casusluq, hüquq, böhtan, icra*
**Key words***: intellectuals, the military, exile, criminal article, provocation, espionage, prisoner, execution*
**Ключевые слова:** *Интеллегенция, военный, ссылка, уголовная статья, провакация, шпионаж, право, ревизия, расстрел*

Bolşeviklər ictimai şüurun bütün formaları üzərində marksist-leninçi kommunist ideologiyası inhisarını təmin etmək məqsədilə ictimai həyatın bütün sahələrində mədəni inqilab adı altında milli ideologiyaları və milli düşüncəyə malik olan ziyalıları bolşevik platformasının üzərinə gətirmək üçün təqib etməyə başladılar. Bunun üçün isə başlıca meyar bolşevikləşmənin ilk günlərindən həyata keçirilən repressiyalar totalitar rejimin əsas idarə və iş üsuluna çevrildi.

Təəccüblü də olsa qeyd etməliyik ki, 30-cu illərdə siyasi işlərin əksəriyyəti prokurorluq orqanları tərəfindən deyil, XDİK orqanları tərəfindən həyata keçirilirdi. XDİK və prokurorluq orqanları ilə müştərək hazırlanmış sərəncama əsasən XDİK orqanları maddə 58-6 (casusluq), maddə 58-8 (teror aktları), və maddə 58-9 (təxribat) üzrə cinayət işlərinə aid olan maddələr hüquq-mühafizə orqanlarının qarşısında birinci dərəcəli vəzifə kimi qoyulmuşdur.

1988-ci il 21 avqust sayında «Komsomolskaya pravda» qəzetinin verdiyi məlumata görə «xüsusi müşavirələrin əməkdaşı bəzən 2 saat ərzində 800 işə baxırdı. Prokurorlar şikayətlənirdilər ki, onlar hətta barəsində ölüm hökmü çıxarılan şəxslərin ad-familiyalarını dəqiqləşdirə bilmirlər». Həqiqətən də, 2 saat müddətinə 800 adamın cinayət işinə baxmaq, hər hansı bir hökm çıxarmaq yox, yalnız onları saymaq mümkündür. İşin öhdəsindən gələ bilməyən purokrorluq orqanlarının əməkdaşları da repressiyaların qurbanına çevrilirdi və bunun nəticəsində də kadr çatışmamazlığı problemi yarandı.

Təbii ki, bu qədər adamın cinayət işinə baxmaq üçün müəyyən sadələşdirilmiş mexanizmlər də işlənib hazırlanmışdı. Belə ki, SSRİ MİK-in 1 dekabr 1934-cü il tarixli Qərarında göstərilmişdir ki, məhkəmə prosedurlarının sadələşdirilməsinə ciddi ehtiyac vardır. Kirovun öldürülməsindən dərhal sonra çıxan bu qərara əsasən, terrorçu təşkilatlar və terror aktları barədə işlər sürətlənmiş qaydada (ən çox 10 gün ərzində) məhkəmə olmadan, müttəhim və şahidlər çağırılmadan aparılmalı idi. Həmin Qərara əsasən kassasiya şikayəti və əfv edilmə haqda ərizələr qəbul edilmirdi. Bu növ işlər üzrə ölüm hökmləri dərhal icra olunurdu. Bu prosessual qaydalar süründürməçiliyə son qoyur və hökmlərin sürətləndirilməsinə imkan verirdi. İşlərin «sadələşdirilmiş» formada aparılması üçün Siyasi Büronun xüsusi qərarı və sanksiyası verilməli idi. Belə də oldu. Bu qərardan sonra ölüm hökmünə məruz qalanlar Siyasi Büronun bir neçə üzvünün təsdiqi ilə hökmlər icra olunurdu. Göründüyü kimi,, 30-cu illərin ikinci yarısından sonra Siyasi Büro həm də məhkəmə funksiyasını icra edirdi. Bu cür hökmlər və onların icrası yalnız totalitar rejimin hökm sürdüyü bir dövlətdə mümkün ola bilərdi.

Bu kateqoriyalarla məhkum olunanlar arasında naxçıvanlı ziyalılar və digər zümrənin nümayəndələri də az deyildi. Onların siyahıları mərkəzləşmiş qaydada tərtib edilir və müttəhimin sənədləri ilə birlikdə Bakıya göndərilirdi. Ehtiyac olduğu halda bəzi müttəhimlərin özü də sonradan Bakıya aparılırdı. Ölüm hökmü oxunanların demək olar ki, hamısı Bakıya etab olunur və Nargin adasında güllələnirdi. Bu siyahıları isə Naxçıvan XDİK-in əməkdaşları tərtib edirdi. Bu əməkdaşlar arasında çoxluğu erməni və digər millətin nümayəndələri təşkil edirdi: «Erməni çekistləri Naxçıvanda xüsusi canfəşanlıqla çalışırdılar. Orbelyan, Akopov, Nersesov, Mosesov, Parseqov muxtar respublikanın bütün bölgələrində baş cəllad kimi tanınırdılar» (2, 41).

Bununla bağlı M.C.Bağırov hüquq-mühafizə orqanları qarşısında tələb qoyurdu ki, hər yerdə (xüsusilə də ziyalılar arasında) antisovet elementlər, trotskiçilər, terrorçular, sui-qəsdçilər, millətçilər, pantürkistlər, panislamistlər axtarmaq lazımdır. Bunun nəticəsində 30-cu illərin ortalarından başlayaraq «xalq düşməni», «vətən xaini» axtarışı daha da gücləndi. Bəzi tədqiqatçıların fikrincə 1937-1938-ci illərdə 29 mindən çox ziyalı qətlə yetirildi. Bu ziyalılar arasında görkəmli şair-dramaturq

Hüseyn Cavid də var idi. O, 3 iyun 1937-ci ildə Az. SSR XDİK DTİ tərəfindən imzalanmış 509 saylı orderə əsasən həbs olundu (10, v. 12). Hüseyn Cavid aşağıdakılarda ittiham edilirdi:

1. Əksinqilabçı müsavatçı mövqedə olarkən Bakıda olan antisovet millətçi təşkilatın tərkibinə daxil olduğuna və bu təşkilatın fəalları ilə əksinqilabi əlaqə yaratdığına görə;

2. Müsavatçı pantürkist mövqedə duraraq Az.SSR-dəki gizli əksinqilabçı müsavatçılar, Bakı şəhərində və Türkiyədə olan pantürkistlərlə əlaqədə olduğuna görə;

3. Şüurlu sürətdə sovet mövzusuna etinasızlıq göstərərək, ədəbiyyat və dramaturgiya sahəsində praktiki əksinqilabi iş apardığına görə;

4. İran və Türkiyədə təhsil və tərbiyə alaraq, gənc yazıçılara əksinqilabi millətçi təsir göstərdiyinə, onları pantürkist ruhda tərbiyə etdiyinə və türk ədəbiyyatına istiqamətləndirməyə çalışdığına, bilərəkdən rus xalqının ədəbiyyatına saymamazlıqla yanaşdığına görə;

5. Bakıdakı Müsavat təşkilatının rəhbərlərindən biri olan Yusif Vəzirov ilə əlaqə yaratdığına və türk kəşfiyyatının xeyrinə casusluq fəaliyyəti göstərdiyinə, yəni Az.SSR CM-in 68, 72 və 73-cü maddələrində nəzərdə tutulan cinayətləri törətdiyinə görə ittiham edilir» (3, 134).

Bu kimi ağır cinayətlərdə ittiham edilən H.Cavid müddəti 4 iyun 1937-ci ildən hesablanmaqla səkkiz il müddətinə azadlıqdan məhrum edilir. Cəza müddətini başa vurmadan - 5 dekabr 1941-ci ildə İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko kəndi yaxınlığında vəfat edən H.Cavidə 6 mart 1956-cı ildə Az.SSR Ali Məhkəməsi bəraət vermişdi.

1937-ci ilin ziyalı qurbanlarından biri də tanınmış «Mollanəsrəddinçi» şair Əliqulu Qəmküsarın qardaşı, tərcüməçi və müəllim Rzaqulu Ələkbər oğlu Həcəfov və onun əmisi oğlu Həcəfov Nəcəfqulu Məşədi Məmmədhüseyn oğlu idi. R.Nəcəfov 1885-ci ildə Naxçıvan şəhərində anadan olmuş, 1909-cu ilədək Culfa şəhərində gömrükdə xidmət etmişdir. İran inqilabı zamanı həbs olunmuş və Astarxan şəhərinə sürgün edilmişdir. 1916-cı ildən “Molla Həsrəddin” curnalında işləmiş, 1919-cu ildə tərcüməçi missiyasını yerinə yetirmişdi (3, 129).

Onu XDİK əməkdaşları ilk dəfə 1931-ci ildə xarici səfirliklə əlaqə saxlamaqda və İrana casusluqda günahlandıraraq üç il müddətinə Orta Asiyaya sürgun etmişlər. Sürgün müddətini başa vurduqdan sonra Azərbaycana gələn R.Nəcəfov müxtəlif yerlərdə işləmiş və heç bir siyasi işlə məşğul olmamışdır. Lakin, buna baxmayaraq, onun növbəti həbsi ilə əlaqədar 27 sentyabr 1937-ci il tarixdə 138 saylı order imzalanmış və o həbs edilmişdir.

Azərbaycan SSR XDİK-in 21 oktyabr 1937-ci il tarixli qərarı ilə Nəcəfov Rzaqulu əmlakı müsadirə olunmaqla güllələnməyə məhkum edilmişdir. 29 noyabr 1937-ci ildə gecə saat 2.50-də R.Nəcəfov və onun əmisi oğlu Həcəfov Nəcəfqulu Məşədi Məmmədhüseyn oğlu güllələnmişdi (13, v. 107).

Repressiyaların ağrılarını yaşayanlar arasında Azərbaycanın görkəmli səhnə ustası Kazım Ziya Kazımzadə 1937-ci ildə, yazıçı Ənvər Qasımov (Ənvər Yusifoğlu) isə 1938-ci ildə XDİK əməkdaşları tərəfindən həbs edilmiş, lakin uzun-uzadı dindirmələrdən, üzləşdirmələrdən, psixoloji sarsıntılardan, fiziki işgəncələrdən sonra əməllərində cinayət tərkibi olmadığına görə azadlığa buraxıldılar. Lakin, Ə.Qasımov 1942-ci ildə yenidən həbs edildi və Azərbaycanı SSRİ-dən ayırmaqda ittiham edilərək 5 il müddətinə sürgün olundu.

Azərbaycanın tanınmış ziyalılarından olan şair Əli Səbri Qasımov da 1937-ci ildə antisovet millətçi panislamist təşkilatda iştirakda müqəssir bilinərək həbs edilmiş və 11 fevral 1940-cı ildə azadlığa buraxılmışdır. O, 1944-cü ildə yenidən həbs edilmiş və əməllərində cinayət tərkibi olmadığına görə 1945-ci ildə azadlığa buraxmışdır (6, v. 93). Lakin, 22 dekabr 1948-ci ildə «İttihat» təşkilatının rəhbərlərindən biri olmaqda, İran və Türkiyədə yaşayan emiqrantlarla əlaqə saxlamaqda, müstəqil Azərbaycan burjua dövləti yaratmaqda və s. ittiham edilərək həbs olunması barədə qərar qəbul olunur. 1949-cu il avqustun 17-də SSRİ DTN yanında Xüsusi Müşavirənin qərarı ilə o, müddəti 27 dekabr 1948-ci il tarixdən hesablanmaqla beş il müddətinə azadlıqdan məhrum edilir (3, 111).

Həbs olunan Şahtaxtinskilərin içərisində Azərbaycanın görkəmli ziyalılarından olan Adilə və Ziba Şahtaxtinskayalar da var idi. İstər Adilə Şahtaxtinskaya, istərsə də Ziba Şahtaxtinskaya həyat yoldaşlarına görə ittiham edilmiş və olmazın bəlalarını çəkmişlər.

Adilə Şahtaxtinskayanın həyat yoldaşı Qulam Sultanov Mircəfər Bağırova qarşı hazırlanmış sui-qəsddə ittiham edilərək, 1937-ci ildə vətən xaini kimi güllələnmişdi. Onun həyat yoldaşı Adilə xanım da «vətən xaini»nin arvadı olmaqda günahlandırılaraq 4 sentyabr 1937-ci ildə həbs olunmuşdur (15, v. 8).

O nədə ittiham edilirdi? Koqanın imzaladığı sənəddə buna belə aydınlıq gətirilirdi: «Şahtax-tinskaya Adilə xanım İsayevna aktiv əksinqilabçı terrorçu təşkilatının milli ziyanvericisi olan vətən xaini Sultanov Qulam Həmid oğlunun həyat yoldaşıdır. O, 1938-ci il yanvarın 2-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının sessiyasında ittiham edilmişdir. O, 1931-ci ildən həbs gününə qədər Adilə Şahtaxtinskaya ilə yaşamışdır. Adilə Şahtaxtinskaya öz həyat yoldaşının, əksinqilabçı,

terrorçu təşkilatın üzvü olduğunu bildiyi halda bu barədə sovet hakimiyyəti orqanlarına xəbər verməmişdir» (15, v. 4).

Az.SSR XDİK-in 8-ci şöbəsinin rəisi Koqan belə bir qərar qəbul etdi ki, vətən xaininin ailə üzvü olduğuna görə Adilə Şahtaxtinskaya həbs edilsin və evində silah, qiymətli şeylər, eləcə də əksinqilabi ədəbiyyat götürmək məqsədi ilə axtarış aparılsın. Qalan şeyləri isə müsadirə edilərək dövlətə təhvil verilsin (15, v. 6).

Adilə Şahtaxtinskaya cəmi bir dəfə dindirilmiş və dindirmə zamanı həyat yoldaşının, eləcə də özünün müqəssir olmadığını bildirmişdir. Yalnız bir dindirmədən sonra 9 aprel 1938-ci ildə 5 il müddətinə azadlıqdan məhrum edilərək islah əmək düşərgəsinə göndərilməsi barədə hökm çıxarılmışdır.

1894-cü ildə Tiflis şəhərində anadan olan, Azərbaycan Tibb İnstitutunun Ginekologiya kafedrasının müdiri işləyən belə bir tanınmış professorun həbs edilməsi onun həyata, cəmiyyətə bütövlükdə isə «kommunizm cənnətinə» inamını xeyli azaltdı.

Ziba Mustafa qızı Şahtaxtinskaya da həyat yoldaşı Ataulla Şahtaxtinskinin həbsindən bir qədər sonra vətən xainin arvadı kimi 10 noyabr 1937-ci ildə həbs edildi və SSRİ XDİK-i yanında xüsusi müşavirənin qərarı ilə 9 aprel 1938-ci ildə 2 il müddətinə azadlıqdan məhrum edildi (12, v. 43).

2 fevral 1957-ci ildə Adilə Şahtaxtinskayaya, 15 iyun 1990-cı ildə isə Ziba Şahtaxtinskiyə bəraət verildi.

Hadisələr göstərir ki, «Azərbaycan qadını imperiya üçün yalnız pambıqçı və sağıcı olmayıb o, Sovet rejiminə qarşı mübarizədə, ana dilimizin, milli adət-ənənələrimizin qorunmasında, çox hallarda isə milli oyanış, müstəqillik uğrunda mübarizədə əhəmiyyətli və əlaqələndirici rol oynayıb, bir sıra gizli təşkilatların işində fəal iştirak edib» (19, 12-13).

1930-cu illərdə repressiyaya məruz qalanlar arasında müxtəlif peşə sahibləri hətta hərbçilər o cümlədən generallar da var idi. Belə ki, Azərbaycanın hərbi quruculuğunda yaxından iştirak etmiş Qambay Vəzirov və Cəmşid Naxçıvanski 1937-ci ildə ailə üzvləri ilə birlikdə məhrumiyyətlərə düçar olmuşdu.

XDİK-in dövlət təhlükəsizlik kapitanı Avanesyan general Q.Vəzirovu Azərbaycan diviziyasındakı əksinqilabi millətçi, hərbi sui-qəsdçi təşkilatın üzvü olmaqda ittiham edərək XDİK-in sədri Sumbatovun razılığı ilə 27 iyul 1937-ci ildə həbs etdi. Həmin gün aparılan ilkin dindirmə zamanı Qambay Vəzirov özünün heç bir əksinqilabi millətçi, sui-qəsdçi, antisovetçi təşkilatda təmsil olunmadığını bildirdi (14, v. 47).

Avanesyanın tərtib etdiyi ittihamnaməyə əsasən Qambay Məmməd oğlu Vəzirov aşağıdakılarda müqəssir bilinirdi:

a) O, Azərbaycanda olan əksinqilabi millətçi təşkilat mərkəzinin üzvü idi. Trotskiçi-zinovyevçi terror mərkəzi və sağların əksinqilabi mərkəzi ilə əlaqə saxlayaraq Azərbaycanı SSRİ-dən terror, casusluq və silahlı üsyan yolu ilə ayıraraq, burcua-demokratik dövlət yaratmağı qarşısına məqsəd qoymuşdu.

b) Əksinqilabi millətçi təşkilat mərkəzinin tapşırığı ilə Azərbaycan diviziyasında və Azərbaycan diviziyasının səfərbərlik dairəsində hərbi sui-qəsd təşkil etmiş, 1934-cü ildən əksinqilabi millətçi hərbi təşkilat yaratmış və həbs olunan günədək ona rəhbərlik etmişdir.

v) Əksinqilabi millətçi hərbi təşkilata Azərbaycan diviziyasından və Azərbaycan diviziyasının səfərbərlik dairəsindən 17 nəfər cəlb etmiş, nəticədə onun tapşırığı ilə əksinqilabi hərbi təşkilata cəlb olunanların sayı 60 nəfərə çatmışdır.

q) Səfərbərlik planlarının axıradək işlənməməsi ucbatından diviziyanı sosial nöqteyi-nəzərindən yad elementlərlə, keyfiyyətsiz və əksinqilabi millətçilərlə doldurmuş, Azərbaycan diviziyasında millətçilik işi aparmışdır.

ğ) Sovet hökuməti ilə mübarizə metodu kimi təxribat, terror və silahlı üsyan mövqeyində dayanmışdır (4, 205-206).

1937-ci il oktyabrın 13-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qapalı məhkəmə iclası keçirildi. Məhkəmənin hökmü ilə Qambay Vəzirov güllələndi. Yeri gəlmişkən qeyd edək ki, «Azərbaycan diviziyasının 40 nəfər yüksək rütbəli zabiti və respublika hərbi komissarlığının 20 nəfər zabiti bu işlə əlaqədar həbs edilib güllələndilər» (1, 40).

Məhkəmə başa çatmamış, 1937-ci il oktyabrın 5-də Qambay Vəzirovun həyat yoldaşı İzzət Vəzirova həbs edildi. O, XDİK-in 8-ci şöbəsinin baş inspektoru Moşeçkov tərəfindən cəmi bir dəfə dindirildi. Dekabrın 9-da onun barəsində belə bir hökm çıxarıldı: vətən xaininin ailə üzvü Vəzirova İzzət İsmayıl qızı 8 il müddətinə azadlıqdan məhrum edilsin (9, v. 21).

İzzət xanım həbsxanada olarkən onun 9-cu sinifdə oxuyan oğlu Yavuz Vəzirov 1937-ci il noyabrın 11-də həbs edildi və azyaşlı olmasına baxmayaraq ona 3 il həbs cəzası kəsildi (7, v. 16). Lakin,

İzzət Vəzirovanın və Yavuz Vəziorovun xalası Rzayeva Zeynəb İsmayıl qızının Stalinə və Sumbatova yazdıqları aramsız məktublarından sonra bu şagirdi azad etdilər.

Vəzirovlar nəslinin repressiyalara məruz qalan nümayəndələrindən biri də torpaq komissarı Heydər Vəzirov idi. Heydər Sadıq oğlu Vəzirov 1893-cü ildə Nehrəm kəndində anadan olmuşdu. İbtidai təhsilini maarif fədaisi Məhəmməd Tağı Sidqi tərəfindən 1894-cü ildə Naxçıvan şəhərində açılan «Məktəbi-tərbiyədə» almışdı. Sonra o, İrəvan seminariyasına daxil olmuş və oranı bitirdikdən sonra gimnaziyaya daxil olmuş və Birinci Dünya Müharibəsinin başlanması onun buradakı təhsilini yarımçıq qoymuş və o qısa müddətli hərbi məktəbə göndərilmişdir. 1915-ci ilin iyununda kiçik zabit rütbəsi ilə cəbhəyə göndərilən H.Vəzirov əsir düşmüş və 1918-ci ildə əsirlər dəyişdirilərkən vətənə qayıtmışdır. AXC elan olunduqdan sonra onun yaratdığı hərbi məktəbdə müəllim işləmiş və milli kadrların hazırlanmasında müəyyən rol oynamışdır. Bolşevikləşmə illərində o partiya sıralarına daxil olur və az müddətdən sonra «hərbiyyə məktəbi»nə rəis təyin edilir. «İyirminci illərin sonunda (1925-ci il) partiya onu Göyçay Qəza İcraiyyə Komitəsinin sədri, 1927-ci ildə Gəncə Qəza İcraiyyə Komitəsinin sədri, 1931-ci ildə Zaqafqaziya Sosialist Federativ Şura Cümhuriyyəti Xalq Torpaq komissarı, 1933-cü ildə isə Azərbaycan SSR torpaq komissarı təyin edir».

Onu 1937-ci il iyulun 21-də XDİK kapitanı Tsinmanın hazırladığı arayışa əsasən həbs etdilər. Həmin arayışda göstərilirdi ki, 1893-cü ildə Naxçıvanın Nehrəm kəndində doğulmuş Neydər Vəzirov əksinqilabi təbliğat aparmış, Trotskçi təşkilatın fəal üzvlərindən olmuş və SSRİ-yə qarşı silahlı üsyan hazırlamışdır. Bunları əsas götürən Sumbatov-Topuridze onun həbsi və yaşadığı Bakı şəhəri, Qasım İsmayılov küçəsi 9, mənzil 1-də axtarış aparılması barədə 21 iyul 1937-ci ildə 797 saylı order imzaladı. Axtarış zamanı ondan istintaq üçün əhəmiyyət kəsb edə biləcək bir şey tapılmadığından ikinci dəfə 25 iyulda 837 saylı order imzalandı və yenə də heç nə tapılmadı. Lakin, görünür yuxarıda göstərilənlər kifayət qədər hüquqi əsas verirdi ki, onu həbs etsinlər. 2 cilddən ibarət olan bu istintaq işində onun harada işləməsi, sovet hökuməti əleyhinə hansı işlər görməsi barədə suallar verilir və şahid dindirmələrindən sonra H.Vəzirovu sovet hökuməti üçün təhlükəli şəxs hesab edərək 13 oktyabr 1937-ci ildə güllələyirlər (8, v. 142). 17 dekabr 1955-ci ildə ailə üzvlərinin müraciətindən sonra onun işinə yenidən baxılır və SSRİ Ali Məhkəməsi Səyyar Sessiyasının qərarı ilə heç bir günahı olmadığına görə tam bəraət verilir.

Heydər Vəzirovdan sona həyat yoldaşı Leyla xanımı, oğlu Heydəri (oğluna öz adını qoymuşdu), Sədrəddin Vəzirovu (Qambay Vəzirovun qardaşı) «xalq düşmənləri»nin qohumları kimi həbs etmişdilər (5, 95). Ali təhsilli aqronom olan Leyla xanım Vəzirova Azərbaycan SSR XDİK-in əməkdaşı Koqan tərəfindən imzalanmış 2832 nömrəli orderə əsasən 20 fevral 1938-ci ildə həbs edildi və evində axtarış aparıldı (11,9). Leyla xanımın həbsinin yeganə səbəbi həyat yoldaşının «vətən xaini» olması idi. Leyla xanım İslah Əmək Düşərgəsində heç bir qanun pozuntusuna yol vermədiyinə görə 20 fevral 1946-cı ildə onu həbsdən azad etdilər. Qayıtdıqdan sonra özünə iş tapa bilməyən Leyla xanım müxtəlif yerlərə müraciət etsə də heç bir nəticə olmadı. O, yalnız fiziki və psixoloji təzyiqlərdən 29 aprel 1955-ci ildən sonra qurtara bildi. Ona görə ki, həmin vaxt ona bəraət verildi.

Belə məhrumiyyətlərə düçar olan ailələr arasında general Cəmşid Naxçıvanski də var idi. Onun ailə üzvlərinin bir qismi İranda və Türkiyədə mühacir həyatı yaşamağa məcbur olmuş, bir qisminə İrana getməyə sovet hökuməti razılıq vermiş, özü isə sovet hökuməti tərəfindən 3 dəfə cinayət məsuliyyətinə cəlb edilmişdi. Birinci dəfə polkovnik C.Naxçıvanskini 1920-ci il martın 31-də çar Rusiyasının və Azərbaycan Xalq Cümhuriyyətinin zabiti olmaqda təqsirli bildilər və istintaq zamanı əməllərində cinayət tərkibi olmadığına görə azadlığa buraxdılar.

İkinci dəfə isə onu general kimi 1931-ci il mayın 22-də əksinqilabi millətçi təşkilatın üzvü olmaqda günahlandıraraq məsuliyyətə cəlb etdilər. 1931-ci il sentyabrın 30-da ona güllələnmə hökmü oxundu (11, v. 109). Lakin, 5 aydan sonra, yəni 1932-ci il fevralın 2-də Azərbaycan DSİ-nin kollegiya iclasında Cəmşid Naxçıvanskinin cinayət işinə yenidən baxıldı və onun güllələnmə hökmü ləğv edildi (11, v. 187).

Azadlığa buraxıldıqdan sonra C.Naxçıvanski yenə də hərbi işlə məşğul olmağa başladı və 1938-ci il mayın 20-də 3191 saylı orderlə həbs edildi (17, v. 15). Həmin ilin avqust ayının 12-də dindirildi (yalnız bir dəfə) və aşağıdakılarda ittiham edildi: Azərbaycan antisovet milli mərkəzinin fəal iştirakçısı olmaqda, Azərbaycan SSR-in devrilməsi planını hazırlamaqda, Fars ordusuna xidmət edən qardaşı Kərbəlayı xanla əlaqə saxlamaqda, çevriliş etmək məqsədi ilə üsyan hazırlamaqda, «Azərbaycan Milli Mərkəzi»ndə antisovet millətçi təbliğat aparmaqda, 1921-ci ildən 1926-cı ilə kimi İranın xeyrinə casusluqla məşğul olmaqda, bəzi mənbələrdə C.Naxçıvanskinin «xan nəslindən çıxması» da güllələnmənin səbəbi kimi göstərilir (1, 33). Bu uydurulmuş ittihamları rəhbər tutan SSRİ Ali Məhkəməsinin Kollegiyası 1938-ci il avqustun 26-da onun barəsində güllələnmə hökmü çıxardı və

hökm həmin gün icra olundu (17, v. 189). C.Naxçıvanskinin ailə üzvləri isə Azərbaycandan didərgin salındı.

Az.SSR XDİK Dövlət Təhlükəsizlik İdarəsinin 4-cü şöbəsinin rəisinin Firuz bəy Ordubadski haqqında yazdığı arayışda göstərilir: «1897-ci ildə Ordubadda doğulmuş, ixtisasca həkim olan, Az.SSR Dövlət Plan Komitəsinin sədr müavini vəzifəsində çalışan Ordubadski Firuz bəy 1929-cu ildə «Azərbaycan Milli Mərkəzi» (AMM) əksinqilabi təşkilatın fəal üzvlərindən olmuşdur. 1930-cu ildə həbs edilmiş və özünün əksinqilabi fəaliyyətini istintaqdan gizlətmişdir. Yuxarıda göstərilənlərə əsasən Ordubadski Firuz bəy Azərbaycan SSR CM-in 72, 73-cü maddələri ilə cinayət məsuliyyətinə cəlb edilməlidir» (16, v. 39).

17 oktyabr 1937-ci ildə F.Ordubadskinin həbs edilməsi haqqında qərar çıxarılmış və 1939 nömrəli orderə əsasən o həbs edilmişdir. XDİK-in 4-cü şöbəsinin əməliyyat müvəkkili V.Voronkin 25 oktyabr 1937-ci ildə F.Ordubadskini dindirmişdi. Onun həbsindən sonra həyat yoldaşı Gülsüm xanım və Azərbaycan Dövlət Universitetinin tələbəsi - 20 yaşlı qızı Zeynət də olmazın müsibətləri, psixoloji təzyiqləri ilə üz-üzə qalmışdı.

İstintaq materiallarından və dindirmə protokollarından görünür ki, Firuz Ordubadski xarakter etibarı ilə mübariz adam olmuşdur. Belə ki, o, Kiyevdə tibb universitetində təhsil alarkən - 1913-cü ildə tələbələrin kütləvi hərəkatlarında yaxından iştirak etdiyinə görə şəhərin jandarm idarəsi tərəfindən həbs edilmişdir. İkinci dəfə 1 dekabr 1930-cu ildə «Azərbaycan Milli Mərkəzi»ndə fəaliyyətinə görə tutularaq 1931-ci ilin noyabr ayının 16-dək həbsxanada saxlanılmışdır. 2 fevral 1932-ci ildə Zaqafqaziya DSİ-nin Məhkəmə Kollegiyası iclasının 44 saylı protokolundan çıxarışda göstərilir ki, Azərbaycan SSR Dövlət Siyasi İdarəsi Azərbaycan Milli Mərkəzindəki fəaliyyətinə görə F.Ordubadskini 10 il həbs cəzasına məhkum etmişdir. Sonda isə ona 5 il şərti həbs cəzası kəsilmişdir. Sənədin əsli ilə düzlüyünü XDİK dövlət təhlükəsizlik idarəsi 8-ci şöbəsinin rəisi dövlət təhlükəsizlik leytenantı Koqan təsdiq etmişdir.

Növbəti dindirmə zamanı onu 25 fevral 1938-ci ildə AMM-da fəaliyyətinə görə ittiham etmişlər. İstintaq zamanı o bildirir ki, mən 1926-cı ildən həbs edilənədək (1931-ci ilə qədərki dövr nəzərdə tutulur – N.H) AMM-ın üzvü olmuşam. Məmməd Həsən Hacınski və mən Azərbaycanın Sovet İttifaqından ayrılmasını və burjua demokratik idarəetmə formasında müstəqil Azərbaycan Respublikasının yaradılması mövqeyində dayanmışıq»(16, v. 41).

3 dekabr 1938-ci ildə Bakıda Zaqafqaziya Hərbi Dairəsinin Hərbi Tribunalının səyyar sessiyasının Stelmaxoviçin sədrliyi, Parsadanov və Mamayevin iştirakı ilə qapalı məhkəmə iclasında hökm oxunmuşdur. Camobəy Hacınski və Firuzbəy Ordubadski islah-əmək düşərgəsində saxlanılmaqla və şəxsi əmlaklarının yarısı müsadirə edilməklə 8 il müddətinə azadlıqdan məhrum edilmişdir.

23 may 1956-cı ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının 3 dekabr 1938-ci il hökmündə cinayət tərkibi olmadığı üçün iş xətm olunmuş və Firuzbəy Ordubadskiyə bəraət verilmişdir.

Repressiyaları həyata keçirməkdə məqsəd sosializmin əyalətlərdə dayaqlarını daha da bərkitmək, onun tam və qəti qələbəsini təmin etmək, əhalidə, eləcə də milli ruha və milli düşüncəyə malik olan ziyalılarda beynəlmiləlçilik adı altında türkçülük məfkurəsini, onlardakı milli istiqlal düşüncəsini, müstəqil olmaq idealını məhv etmək idi. Aparılmış total siyasət nəticəsində türkçülük məfkurəsinə, müstəqilləşmək ideyasının həyata keçirilməsinə, milli istiqlal savaşına, islami dəyərlərə, milli adət-ənənələrə müəyyən zərbələr dəydi. Lakin, bolşevik totalitar rejimi özünün 70 illik tarixində bunları tamamilə məhv edə bilmədi, xalq böyük ideyalar uğrunda mübarizəsini axıradək davam etdirərək öz müstəqilliyini yenidən bərpa edə bildi. Müstəqilliyin bərpasından sonra onun islami dəyərləri və türkçülük ənənələri də yaşamaq səlahiyyəti qazandı. Məhz müstəqillikdən sonra repressiyaya məruz qalmış şəxslərin hamısına bəraət verildi.

## ƏDƏBİYYAT


1. Bağırov İ. Kəngərli yurdunun generalları, Bakı, Yazıçı, 1994, 56 s.
2. Əliyev Ə. Əlincə yaddaşı, Naxçıvan–1914-1992, Bakı, Gənclik, 1997, 303 s.
3. Qasımov C. Məhbus tərcümeyi-halı, Bakı, Səda nəşriyyatı, 2003, 180 s.
4. Qasımov C. Repressiyadan deportasiyaya doğru, Bakı, Mütərcim nəşriyyatı, 1998, 292 s.
5. Mahmudzadə M. Dünyanın bəzəyi – Naxçıvan, Bakı, Nicat nəşriyyatı, 1998, 176 s.
6. MTN arxivi: PR-6399
7. MTN arxivi: PR-8092
8. MTN arxivi: PR-16638
9. MTN arxivi: PR-18793
10. MTN arxivi: PR-18845

11. MTN arxivi: PR-21290
12. MTN arxivi: PR-22150
13. MTN arxivi: PR-22897
14. MTN arxivi: PR-25339
15. MTN arxivi: PR-26070
16. MTN arxivi: PR-27275
17. MTN arxivi: PR-33749
18. Nəzirli Ş. 37-nin general qurbanları // «Azərbaycan» jurnalı, Bakı, 1988, № 12
19. Sov.İKP qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları, II hissə, Bakı, Azərnəşr, 1954, 748 s.

## ABSTRACT

**Rafig Rahimov**
**Nadir Huseynbayli**

## POLITICAL VENTURE AGAINST NAKHCHIVAN INTELLECTUALS AFTER THE APRIL 28 OCCUPATION

The article examines the reasons of destruction policy of intellectuals with national ideas, people of various professions, their family members, as well as the well-known clans which played an important role in Nakhchivan's socio-political life on the basis of archival materials.

Referring to archival materials, the article also studies the essence of total political actions against nationalism, the aims and duties of law enforcement agencies on criminal offences on the article 58-(espionage), article 58-8 (terrorist acts), article 58-9 (provocation) according to the jointly prepared decree by the Executive Committee of the People's Deputies and the prosecutor's authorities from center to provinces.

## РЕЗЮМЕ

**Рафиг Рагимов**
**Надир Гусейнбайли**

## ПОЛИТИСЕСКАЯ АВАНТЮРА ПРОТИВ ИНТЕЛЛИЦЕНИИ НАХЧЫВАНА ПОСЛЕ ЗАХВАТА 28 АПРЕЛЯ

В статье были исследованы основные причины тотальной политиkи, направленной против национальной интеллегенции, играющий важную роль в общественно-политичесkой жизни Нахчывана, с ее национальным сознанием,оснавная сущность уничтожающей политиkи против людей различных профессией, политиkу против их семей и родственниkов. А таkже, на основе Постановления, совместно подготовленного с проkуратурой ИКНД по статьям 58.6 (шпионаж), 58.8 (террористичесkие аkты), 58.9 (проваkация) на основе архивных материалов, поставленные kak главные задачи перед правовыми органами.

**MƏMMƏD RZAYEV**
*mamedrazi@mail.ru*
**ABBAS ƏHMƏDOV**
*abbas-ahmadov@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

# HEYDƏR ƏLİYEV VƏ MİLLİ HƏMRƏYLİK FƏLSƏFƏSİ

**Açar sözlər:** *həmrəylik, milli-mənəvi, dövlətçilik, azərbaycançılıq, fəlsəfə, lider*
**Key words:** *solidarity, national-spiritual, statehood, Azerbaijanism, philosophy, leader*
**Ключевые слова:** *солидарность, национально-духовная, государственность, азербайджанство, философия, лидер*

Həyat fəlsəfəsinin incəliklərinə dərindən nüfuz edən, sosial gerçəkliyin mürəkkəb hadisələrinin cəmiyyətin bütün sahələrinə təsirinin ictimai mahiyyətinin analitik təhlilinə üstünlük verən ümummilli lider Heydər Əliyevin siyasi görüşlərində milli inkişafın mühüm fenomeni olan həmrəylik problemi, milli mentalitetin formalaşmasında onun rolu və yeri, bunların qarşılıqlı dialektik proses kimi təhlili mühüm və aparıcı yer tutur. Eyni zamanda dünya azərbaycanlılarının təşkilatlanması, onların milli birlik və həmrəyliyinin güclənməsi də onun adı ilə sıx bağlıdır.

Biz keçid dövrünü yaşayırıq. Keçid dövrü isə milli həmrəylik probleminin milli və ümumbəşəri prizmadan qiymətləndirilməsi dövrüdür. Bu gün keçmiş sistemin mənəvi dəyərlərinin, mənəvi və ideoloji prinsiplərinin bir çoxundan imtina edildiyi bir dövrdə mənəvi sferada boşluq yaradılmamalıdır. Bu məsələnin həllinə Heydər Əliyev kamil bir dialektik kimi yanaşırdı. O, milli həmrəylik üçün keçmişdə milli-mənəvi həyatın zəif inkişaf etmiş sahələrinə xüsusi diqqət verir, digər tərəfdən insanların tərbiyəsinin sağlamlaşdırılması, onların yaxınlaşması və güclənməsi üçün milli-mənəvi dəyərlərdən daha səmərəli istifadə olunmasının vacibliyini vurğulayırdı. Bunun üçün o, sovet dövründə «millətçi damğası» altında yasaq edilmiş milli-mənəvi dəyərlərə, adət-ənənələrə qayıdışın zəruriliyini və onlardan faydalanmağın əhəmiyyətini xüsusi olaraq qeyd edirdi.

Dahi rəhbər milli həmrəylik hisslərinin qorunması və zənginləşməsi və yeni nəsillərə çatdırılmasının ən yüksək formasını milli dövlətçilikdə görürdü. Bu gün milli dəyərlərimiz elliklə, bütün xalq tərəfindən, dövlətin himayəsi altında qorunur və daha da inkişaf etdirilir. Dövlətçiliklə milliliyin birləşməsi bütün xalqların ən böyük arzusu və idealı olmuşdur. Bu gün biz potensial milli həmrəylik dövrünü yaşayırıq ki, bunun da əsasını ümummilli lider Heydər Əliyev qoymuş, milli birlik ideyasının hər cür ambisiyalardan yüksəkdə durmalı olduğunu dəfələrlə qeyd etmiş, hər bir kəsi öz mənafeyindən daha çox, xalqın mənafeyini, milli həmrəyliyi, dövlətin ümummilli siyasi və iqtisadi mənafelərini qorumağa çağırırdı. «Hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin»(2,s.154).

Heydər Əliyevin müstəqil Azərbaycan qarşısında ən böyük xidmətlərindən biri də milli dövlət qurulması, dövlətçilik ideyalarının həyata keçirilməsi və bu proseslərin dönməzliyinin təmin edilməsi şəraitində milli həmrəyliyin ümumdünya miqyaslı bir məsələ kimi inkişaf etdirilməsi olmuşdur.

Milli-mənəvi həmrəylik hisslərinin formalaşması və zənginləşməsində dəyərlər sisteminə daxil olan amillərin bəzilərinin xüsusi yeri, rolu və funksiyaları vardır. Bu baxımdan Heydər Əliyev Azərbaycan dilinin cəmiyyət həyatında oynadığı rolu xüsusi vurğulayaraq, ona yenidən dövlət dili statusu verilməsinə nail olmuşdu. Dövlət dilinin inkişafı isə xalqımızın, cəmiyyətimizin və bütövlükdə milli-mənəvi həmrəyliyimizin inkişafı demək idi.

Keçid dövründə Azərbaycan xalqının milli həmrəyliyinin möhkəmlənməsi bu və ya digər şəkildə mövcud ziddiyyətləri aradan qaldırmağı bacarmaqdan, keçmişin mənfi elementlərindən azad olmaq və yeni, mütərəqqi prinsiplərin təsdiq edilməsindən asılıdır. Bu baxımdan tarixi «ağ ləkələrdən» azad etmək, saxtalaşdırılmış hadisələrə, tarixi keçmişə obyektiv qiymət vermək, unudulmuş mənəvi dəyərlər və tarixi hadisələri Azərbaycanın bu gününə və gələcəyinə xidmət etməyə yönəltmək əsas vəzifələrdən biridir. Bununla əlaqədar olaraq, ümummilli lider Azərbaycan xalqının ermənilər tərəfindən təcavüzə məruz qalmış tarix, mədəniyyət və incəsənət incilərinin xalqın özünə qaytarılması məsələsinin vacibliyini bir neçə rəsmi sənəddə, xüsusən «Azərbaycanlıların soyqırımı haqqında» 26 mart 1998-ci il tarixli fərmanında bəyan etmişdir.

Milli həmrəylik proseslərinin gedişində bu prosesə mane olan sədlərin aradan götürülməsini də unutmamalıyıq. Bu baxımdan cəmiyyətdəki mənəvi dəyərlərin millətə qaytarılması Azərbaycan

xalqının bu gün və gələcəkdə həll etməli olduğu böyük vəzifələrə xidmət edir, xalqın mənəviyyatına müsbət təsir göstərsinlər və milli həmrəylik şüurunu bir sistem kimi daha da zənginləşdirsinlər. Deməli dünya azərbaycanlılarının həmrəyliyi mənəvi sferanın zənginləşməsi ilə dialektitk şəkildə vəhdətdədir.

Azərbaycan Avropa ilə Asiyanın, Qərb ilə Şərqin kəsişdiyi məkanda yerləşir. Məhz bunun nəticəsində də hər bir azərbaycanlının dəyər və həmrəylik anlayışında həm Qərb, həm də Şərq mənəvi dəyərlərinin müsbət cəhətlərini əks olunmalıdır. Bu baxımdan Heydər Əliyev milli həmrəyliyin ən mühüm istiqamətlərindən və komponentlərindən biri kimi qiymətləndirdiyi və mürəkkəb daxili struktura malik milli mentalitetin rolu xüsusi qiymətləndirilməlidir.

Heydər Əliyev milli mentalitetin qorunub saxlanılmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürür və göstərirdi ki, bunu qoruyub saxlayan xalq həmişə müstəqillik yolu ilə getmək və müstəqilliyini qorumaq əzmində olacaqdır. Çünki milli dövlətçilik və milli mentalitet arasında sıx bir daxili əlaqə vardır. O, qeyd edirdi ki, milli müəyyənliyi, milli həmrəyliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı ola bilməz. Belə ki, milli dövlət, bir tərəfdən ərazinin və iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən də milli həmrəyliyin qorunması və zənginləşməsinə xidmət edir.

Bu gün ulu tərəfindən elmi təhlili verilmiş azərbaycançılıq ideologiyası cəmiyyətin normativ dəyərlərinin vəhdətinə, dövlət və hüquq düşüncəsinin tərbiyəsinə, mənəvi həyatın dəyərlərinə qovuşmağa istiqamətlənmişdir.

Bu ideologiyanın dərk olunmasının əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, mədəni ənənələri zəminində birlik və milli həmrəylik ideyası dayanır ki, bu nəinki bu gün, həm də gələcəkdə xalqımızın bir çox nəsillərinə xidmət edəcəkdir. Müstəqillik və milli həmrəylik isə tezliklə həmin nəsillər üçün həyatı və sivilizasiyamızın inkişafını dərk etməyin ayrılmaz atributuna çevriləcəkdir.

Akademik Ramiz Mehdiyev haqlı olaraq azərbaycançılıq ideologiyasını xalqımızın əzab-əziyyətlə qazandığı tarixi sərvət hesab edərək yazır: «O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Bu gün «azərbaycançılıq» milli həyatın, konfessiyaların harmoniyasının çoxsirlik ənənəsi, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların qardaşlığı, qarşılıqlı əlaqə və təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizənin tarixi təcrübəsidir»(8,s.10).

Bu gün hər birimizin vəzifəsi çox dərin köklərə malik olan mükəmməl bir fəlsəfi konseptual sistemin ifadəsi kimi azərbaycançılıq ideologiyasının mahiyyətini açmaq və bütün xalqın bütün dünyada yaşayan azərbaycanlıların kökündə milli həmrəylik əqidəsi duran bu ideyaya daha dərindən yiyələnməsinə çalışmaqdan ibarətdir.

1991-ci ildə Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən 1991-ci il dekabrın 16-da ilk dəfə rəsmi olaraq, «31 dekabr gününün Dünya azərbaycanlılarının həmrəylik və birlik günü» kimi elan edilməsi haqqında qərar qəbul etmişdir. Qərarda həmrəylik və birlik gününün bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Ali Sovetinə təklif verilməsi xüsusi vurğulanmışdı. Bundan sonra 25 dekabr 1991-ci ildə Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası da 31 dekabrın «Dünyada yaşayan azərbaycanlıların həmrəylik günü» kimi elan edən qərar qəbul etdi. 1993-cü ilin yayında Heydər Əliyev xalqın arzusu və tələbi ilə yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra bu qərarın həyata keçməsi mümkün oldu. 1993-cü ilin iyun ayında tarixi zərurət və xalqın tələbi ilə ümummilli lider Heydər Əliyev yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra ölkəmizin ictimai həyatının bütün sahələrində, milli həmrəylik, eləcə də dünya azərbaycanlıları ilə əməkdaşlıq istiqamətində keyfiyyət və mahiyyətcə yeni mərhələ başlandı.

Müstəqil Azərbaycan Respublikasının qurucusu, xalqımızın ümumilli lideri Heydər Əliyev çoxşaxəli fəaliyyətində daha bir tarixi missiyanı – dünya azərbaycanlılarının milli birliyinin ideoloqu, təbliğatçısı və təşkilatçısı olmaq missiyasını öz üzərinə götürdü və böyük uğurla həyata keçirdi. Onun müdrik milli həmrəylik siyasəti nəticəsində dünya azərbaycanlıları ilə iş dövlət əhəmiyyətli strateji məsələyə çevrilmişdir. Bu mühüm işin konsepsiyası – dünya azərbaycanlılarının xalqımızın ayrılmaz hissəsi kimi qəbul edilməsi, Azərbaycan Respublikasının bütün azərbaycanlıların Vətəni sayılması, həmvətənlərimizin əqidə və əməl birliyi zəminində elmi şəkildə formalaşması, lobbiçilik perspektivi, Azərbaycançılıq ideyasının dövlət siyasəti səviyyəsinə qaldırılması da məhz Heydər Əliyev tərəfindən irəli sürülmüşdür.

Ümummilli liderimizin xarici səfərlərinin proqramına azərbaycanlılarla görüşlərin daxil edilməsi, diaspor quruculuğu sahəsində mühüm qərarların qəbulu və onların icrası dünya azərbaycanlılarının mütəşəkkilliyini, siyasi-mənəvi inteqrasiyasını, ən nəhayət, təşkilatlanmasını sürətləndirmişdir. Heydər Əliyevin uğurlu daxili və xarici siyasətinin doğurduğu reallıqlar Azərbaycan diasporunun formalaşması prosesinə əlavə təkan vermişdir. Gərgin əmək, dözüm və qətiyyət, daxildən doğan məsuliyyət və xalqın inamından gələn səlahiyyət, zəngin təcrübə və müdriklik, siyasi məharət az bir zamanda ümummilli liderimizə ölkədəki hərc-mərcliyi aradan qaldırmağa, vətəndaş birliyini və sabitliyi bərqərar etməyə, müstəqil dövlət quruculuğunu həyata keçirməyə imkan vermişdir.

Azərbaycanda qarşıdurmalara, xaosa son qoyulmuş, bir neçə ildə onilliklərə sığmayan inkişaf yolu keçilmiş, ən əsası isə milli ruh və milli mənlik hissi dirçəlmişdir. Heydər Əliyev böyük qürur və təəssübkeşliklə milli mənliyin prioritet məsələ olduğunu dövlət rəhbəri kimi bütün xalqa bəyan etmişdi: «Biz gərək milli mənliyimizi həmişə yüksək saxlayaq. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə istədiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə milli mənliyimizi gərək itirməyək!»(1,s.90).

Milli dövlətçilik tariximizdə ilk dəfə olaraq məhz Heydər Əliyevin simasında siyasi prinsiplərlə milli-mənəvi meyarlar vəhdət şəklində təzahür etmişdir. Heydər Əliyevin rəhbərliyi ilə dünya azərbaycanlılarını doğma Vətənə xidmət edən mütəşəkkil qüvvəyə çevirmək yolunda dövlət səviyyəsində mühüm işlər görülmüşdür.

Həmvətənlərimizin milli-mənəvi birliyində önəmli hadisə olan bu görüşlər, ümummilli liderimizin hər il dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyilik Günü ilə əlaqədar Azərbaycan xalqına müraciətləri, bu münasibətlə respublikamızda və xaricdə keçirilən tədbirlər prioritet məsələnin həllində – milli şüurun yüksəlişində milli həmrəyliyin güclənməsində, diasporumuzun mütəşəkkil qüvvə kimi formalaşmasında, lobbiçilik fəaliyyətinin istiqamət və perspektivlərinin müəyyənləşdirilməsində həlledici amillərdən olmuşdur.

«Fəxr edirəm ki, mən Azərbaycanlıyam» - deyən Heydər Əliyev şəxsiyyətinin möhtəşəmliyi həm də onda təzahür etmişdir ki, o, milli həmrəyliyi yalnız ölkəmizin siyasi-iqtisadi maraqlarının tərkib hissəsi olaraq deyil, ilk növbədə milli-mənəvi məsələ kimi irəli sürürdü. Onun dünya azərbaycanlıları tərəfindən böyük nüfuz və etimada malik milli lider kimi qəbul edilməsi soydaşlarımızın Heydər Əliyev şəxsiyyəti və idealı, onun təcəssüm və təbliğ etdiyi Azərbaycançılıq məfkurəsi ətrafında ümummilli əqidə və əməli birliyinə zəmin olmuşdur.

Heydər Əliyevin milli həmrəylik və konsepsiyasının səciyyəvi xüsusiyyətlərindən biri də Azərbaycan dövləti və xalqının öz soydaşları qarşısında məsuliyyəti, öhdəlik, borc və vəzifəsini dərk etməsidir. O gəlişi gözəl sözlərlə deyil, ilk növbədə şəxsiyyətinin kristal təmizliyi, fenomenal istedadı, xalqa, Vətənə təmənnasız və sonsuz vurğunluğu ilə özünün bütün dünya azərbaycanlılarının lideri olduğunu təsdiq etmişdir. Ümummilli lider hər bir azərbaycanlını inandıra bilmişdi ki, Azərbaycan dövləti hansı ölkənin vətəndaşı olmasından, harada yaşamasından asılı olmayaraq, hər bir soydaşının insan hüquq və azadlıqlarının, təhlükəsizliyinin, etnik-milli özgürlüklərinin, dini etiqadının qorunub saxlaması üçün məsuliyyət daşıyır.

Heydər Əliyev çalışırdı ki, hər bir azərbaycanlı Azərbaycanı özünün doğma vətəni hesab etsin və hər bir an elin-obanın, xalqın qayğısı, dərdi, sevinci, kədəri, səadəti ilə yaşasın. Onun öz millətinə müraciətlə dediyi aşağıdakı sözlər milli həmrəylik məramının manifestidir: «Azərbaycanlılar! Harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən»(9,s.82). Elə bu fikirdən də nəzərə çarpır ki, Heydər Əliyev Azərbaycan dövlətinin gücünü, qüdrətini, ölkəmizin milli birliyinin sarsılmazlığını eyni zamanda milli həmrəylikdə görürdü.

«Azərbaycanın Dövlət Müstəqilliyi bizim tarixi nailiyyətlərimizdir» - deyən bu dahi insan Azərbaycan dövlətini bütün dünyada qürurla, layiqincə təmsil edirdi. Azərbaycan diplomatiyasının uğurları, ölkə daxilindəki sabitlik, əmin-amanlıq məhz Azərbaycan prezidenti kimi onun xarici və daxili siyasət sahəsində atdığı uğurların nəticəsi idi. Elə bütün bunlara görə də Heydər Əliyevə dünya ictimaiyyətinin marağı, inamı, məhəbbəti getdikcə artırdı.

Dünya Azərbaycanlılarının I Qurultayı təkcə milli həmrəyliyə necə nail olmağın yolunu deyil, eyni zamanda onu qorumağın yollarını da göstərirdi. Heydər Əliyev Dünya qurultaydakı nitqində bildirmişdi: «Siz unutmamalısınız ki, dünyada Müstəqil Azərbaycan dövləti var. Unutmamalısınız ki, bu torpaq bütün azərbaycanlıların doğma torpağıdır. Unutmamalısınız ki, Azərbaycan dövləti mümkün olan çərçivədə hər birinizin hüquqlarınızın qorunması üçün lazımi işlər görəcəkdir və bilməlisiniz ki, biz dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar haqqında daim düşünürük, maraqlanırıq, hər bir həmvətənimizin yaxşı, firavan yaşamasını istəyirik, yaşadığı ölkədə özünəlayiq yer tutmasını istəyirik. Azərbaycanlı həmvətənlərimiz, həmyerlilərimiz gərək yaşadığı hər yerdə digər xalqlara, millətlərə, yaşadıqları ölkənin vətəndaşlarına daim çatdırsınlar ki, bu gün Azərbaycan nədir, Azərbaycanın keçmişi nə olubdur, Azərbaycanın bu günü nədir, Azərbaycanın gələcəyi nədir?!»(5,s.24). Dahi rəhbərin bu fikirləri dünya azərbaycanlılarının təşkilatlanması və milli həmrəylik prosesinin tarixi zərurət olduğunu göstərirdi.

Dünya Azərbaycalılarının I Qurultayının dünya azərbaycanlılarına ünvanladığı müraciətdə haqlı olaraq qeyd edilirdi ki, bu gün dünyanın hər yerində yaşayan azərbaycanlılar müxtəlif dövrlərdə mühacirət etmiş insanların övladlarını, nəsillərini və Azərbaycandan kənarda yaşayan digər soydaşlarımızı təmsil edir. Soydaşlarımızın əksəriyyəti özgə millətlər içərisində azərbaycançılığı, milli xüsusiyyətlərimizi, adət-ənənələrimizi, dinimizi qoruya bilmiş və övladlarına ötürmüşlər. Amma bir

həqiqət qeyd olunmalıdır ki, ayrı-ayrı cəhdlərə baxmayaraq, uzun bir tarixi əhatə edən dövr ərzində dünya azərbaycanlıları yaşadıqları dövlətlərdə bir-birilə milli həmrəylik nümayiş etdirə bilməmiş, mütəşəkkil qaydada təşkilatlanmamış, icmalar şəklində təmsil olunmuş, dağınıq şəkildə yaşamışlar. Bu da sözsüz ki, milli varlığın və milli həmrəyliyin zəifləməsinə gətirib çıxarmışdı.

«Gərək biz hamımız birlikdə çalışaq ki, Müstəqil Azərbaycan dövləti, onun daxili siyasəti, Azərbaycanda gedən demokratik proseslər, Azərbaycanda gedən iqtisadi islahatlar, Azərbaycanda həyata keçirilən hüquqi islahatlar, insan hüquqlarının təmin olunması, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlətin yaranması və inkişaf etməsi bütün dünyaya çatsın və tanınsın»(6,s.53) - deyən Heydər Əliyev bununla dünya azərbaycanlılarını vahid bir güc mərkəzi kimi formalaşmanın əsasını qoymağa çağırırdı.

O soydaşlarımıza bir daha önəmli tövsiyyəsini xatırladırdı ki, «Azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir, şerlərimiz, mahnılarımız, incəsənətimiz, xalqımıza mənsub olan adət-ənənələrimizdir»(3,s.15).

Heydər Əliyevin milli həmrəylik fəlsəfəsinin başlıca qayəsi «gərək xalq, millət yaşasın» sözləridir. Bu müdrik ideya yeni reallıqda düşüncə və həyat tərzimizin, təfəkkürümüzün fəlsəfi tərbiyəsi üçün misilsiz örnəkdir. O həmişə azərbaycanlıları möhkəm birliyə, bir-birinə yardımçı olmağa, dilimizi, mədəniyyətimizi, musiqimizi, adət-ənənələrimizi unutmamağa çağırır, hər bir azərbaycanlının düşüncəsində, əqidəsində milli ruhu yaşatmağı milli varlığımızın inkişafını müəyyənləşdirən mühüm sosial-psixoloji amil sayırdı.

Dünya Azərbaycanlılarının I Qurultayı dünya azərbaycanlılarının həyatında dönüş nöqtəsi oldu. Bu toplantıdan sonra milli həmrəyliyin daha da möhkəmlənməsi meyli gücləndi. Dünyanın hər yerində Azərbaycan diaspor təşkilatları daha sıx fəaliyyət göstərməyə başladılar.

Ümummilli liderimizin ideya və prinsiplərinə sadiq qalan Azərbaycan Prezidenti möhtərəm İlham Əliyev milli həmrəyliyin gücləndirilməsi, xaricdə yaşayan azərbaycanlıların problem və qayğıları, onların təşkilatlanması sahəsindəki mövcud vəziyyəti təhlil etmək, ölkəmizlə əlaqələrinin daha da möhkəmlənməsi, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində qarşıda duran vəzifələri müzakirə etmək məqsədilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi haqqında sərəncam imzaladı. Qurultayın kulminasiya nöqtəsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi təşkil edir. Qurultayı böyük tarixi hadisə hesab edən dövlət başçısı qurultaydan qurultaya keçilən şərəfli yola nəzər saldı.

«Mənim müxtəlif ölkələrə çoxsaylı səfərlərim çərçivəsində, demək olar ki, həmişə Azərbaycan diasporu ilə görüşlərim, açıq söhbətlərim olubdur. Mən həmişə qeyd etmişəm, bu gün də demək istəyirəm ki, Azərbaycan dövlətinin möhkəm olması dünyada yaşayan azərbaycanlıların da mövqeyini möhkəmləndirir»(10,s.26) - deyən ölkə prezidenti dünya azərbaycanlılarını doğma vətənə xidmət edən mütəşəkkil qüvvəyə çevirmək yolunda mühüm işlər görüldüyünü qeyd etdi.

«Eyni zamanda, xaricdə yaşayan azərbaycanlılar bizim üçün də dayaqdır. Çünki, Azərbaycan gənc müstəqil dövlətdir. Biz yalnız 15 ildir müstəqillik şəraitində yaşayırıq və təəssüflər olsun ki, bu günədək bir çox ölkələrdə Azərbaycan haqqında kifayət qədər dolğun məlumat yoxdur. Bu məlumatı, Azərbaycan həqiqətlərini, Azərbaycanın problemlərini, eyni zamanda ölkəmizin artan nüfuzunu, önəmini dünya ictimaiyyətinə çatdırmaq, əlbəttə ki, bizim ümumi işimizə çox böyük töhfə olacaqdır»(7,s.45) - deyən ölkə prezidenti dünyanın müxtəlif ölkələrində artıq Azərbaycanın haqq səsinin eşidildiyini, artıq dünyanın Azərbaycan həqiqətlərindən məlumatlandırıldığını göstərdi. O, artıq Azərbaycanın dünya birliyində nüfuzlu yer tutduğunu, Heydər Əliyev siyasətinin hər bir sahədə müvəffəqiyyətlə davam etdirildiyini, xarici siyasətinin çox fəal və uğurla aparıldığını qeyd etdi.

Qurultayda «Azərbaycan xalqı böyük xalqdır. Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Bizim hamımızın bir Vətəni var – Azərbaycan. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək»(4,s.36) - sözləri ilə çıxışını yekunlaşdıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi hamıda yüksək iftixar, gələcəyə böyük inamla baxmaq hissləri aşılamaqla yanaşı, dövlətimizin qüdrətli olması üçün hər bir azərbaycanlının öz fəaliyyətində bütün səy və bacarığını əsirgəməyəcəyinə, dünya azərbaycanlılarının həmrəyliyi ideyasının həyata keçirilməsi üçün öz qüvvəsini birləşdirəcəyinə, Azərbaycan dövlətinin milli maraqlarını ləyaqətlə müdafiə edəcəyi əminliyi yaradırdı.

Bu gün özünün bütün imkanlarından istifadə edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ümummilli liderimiz tərəfindən müəyyənləşdirilmiş siyasi xəttə sadiq qalaraq, milli həmrəyliyin möhkəmlənməsi, güclü Azərbaycan diasporunun və lobbisinin yaradılması məsələlərinə böyük diqqət yetirir. Bu gün hamı azərbaycançılıq ideyasının uğurla davam etdirildiyini və uğurla həyata keçirildiyini təsdiq edir. Bəli, indi dünya azərbaycanlılarının həmrəyliyinin və mütəşəkkilliyinin güclənməsi, onların ümummilli ideyalar ətrafında sıx birləşməsi üçün daha geniş imkanlar yaranmışdır. Azərbaycan Respublikası beynəlxalq münasibətlər sistemində layiqli yer tutur, dünya birliyinə qəti şəkildə inteqrasiya olunur, həyatın bütün sahələrində dünya meyarlarına uyğunlaşır.

Bu gün azad, müstəqil Azərbaycan Respublikası 50 milyonluq bir millətin müqəddəs pənah yeri, doğma vətənidir. Harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz güc və qüvvəsini tarixi haqqımız və milli nemətimiz olan Azərbaycan dövlətçiliyi uğrunda səfərbər etməlidir. Bunu bizdən vətəndaşlıq borcumuz, yaşadığımız zaman və milli taleyimiz tələb edir.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev, Müstəqilliyimiz əbədidir, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, məruzələr, müraciətlər, fərmanlar), 12-ci cild, Bakı, «Azərnəşr», 2004
2. Heydər Əliyev, Müstəqillik yolu, Bakı, 1997
3. Dövlət müstəqilliyimizdə Heydər Əliyev amili, Bakı, Oskar, 2003
4. İradə Hüseynova. Müstəqilliyimizin təminatçısı, Bakı, Təhsil, 2003
5. İsmayıl Hacıyev, Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası, Bakı, Elm, 2003
6. Qoşqar Əliyev, Heydər Əliyev və milli mentalitet fəlsəfəsi, Bakı, Qismət, 2003
7. Mirkazım Seyidov, Məmməd Rzayev, Zamanı qabaqlayan dahi, Bakı, Vektor, 2008
8. Ramiz Mehdiyev, Milli məfkurə dövlətçilik, müstəqillik yolu ilə. I cild Bakı, Yeni nəşrlər evi, 2006
9. Səlahəddin Xəlilov, Heydər Əliyev və azərbaycançılıq məfkurəsi, Bakı, Azərbaycan Universiteti, 2002
10. Yaqub Mahmudov, Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti, Bakı, Təhsil, 2002


## ABSTRACT


**Mammad Rzayev**
**Abbas Ahmedov**


### HAYDAR ALIYEV AND NATIONAL SOLIDARITY PHILOSOPHY


In this paper the attention is paid to solidarity problem which takes an important role and plase in political views of national and general leader of Azerbaijan people Haydar Aliyev, its role and plase in investigation as a bilateral dialektic process.

In the period of our independence, national-moral values that exist in the interaction and influence are one system. In this system, Azerbaijanis have a special and leading role, and we aim at analyzing this issue in the national ideology and analyzing it. In philosophical sociological literature often it seems that technical and communicative leaps in the modern society lead to frequent changes in the beliefs and beliefs of individuals, as well as social groups and institutions. Supporters of the commentary are motivated to justify their position but also refer to the following argument: In modern times, universal interests and values are superior to the interests and values of individual individuals, groups and groups, and prefer them. Another position insists on the inevitability of the idea and ideology. If there is no unifying national idea, the state loses its interactive function, which, in essence, puts the state agency responsible for the independent domestic and foreign policy. His supporters point out that no nation's normal activities are impossible without ideology, and calls for freedom from ideology are some sort of ideology.


## РЕЗЮМЕ


**Мамед Рзаев**
**Аббас Ахмедов**


### ГЕЙДАР АЛИЕВ И ФИЛОСОФИЯ НАЦИОНАЛЬНОЙ СОЛИДАРНОСТИ


В данной статье внимание уделяется проблеме солидарности, kоторая играет важную роль и место в политичесkих взглядах общенационального и общенационального лидера азербайджансkого народа Гейдара Алиева, его роли и месте в расследовании kak двустороннем диалеkтичесkом процессе.

В период нашей независимости национально-нравственные ценности, kоторые существуют во взаимодействии и влиянии, представляют собой единую систему. В этой системе азербайджанцы играют особую и ведущую роль, и мы стремимся анализировать эту проблему в национальной идеологии и анализировать ее. В философсkой социологичесkой литературе часто kажется, что техничесkие и kоммуниkативные сkачkи в современном обществе приводят k частым изменениям в убеждениях и убеждениях отдельных людей, а таkже социальных групп и институтов. Сторонниkи kомментария мотивированы, чтобы обосновать свою позицию, но таkже ссылаются на следующий аргумент: в наше время универсальные интересы и ценности превосходят интересы и ценности отдельных людей, групп и групп и предпочитают их. Другая позиция настаивает на неизбежности идеи и идеологии. Если объединяющая национальная идея отсутствует, государство теряет свою интераkтивную фунkцию, что, по сути, возлагает на государственный орган ответственность за независимую внутреннюю и внешнюю политиkу. Его сторонниkи отмечают, что нормальная деятельность нации невозможна без идеологии, а призывы k свободе от идеологии - это своего рода идеология.

**AĞARZA RÜSTƏMOV**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA AQRAR SEKTORUN DAVAMLI İNKİŞAFI VƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİ

**Açar sözlər**: *aqrar sektor, ərzaq təhlükəsizliyi, idarəetmə, iqtisadi islahatlar, sosial-iqtisadi inkişaf, emal müəssisələri*

**Key words**: *Agrarian sector, food safety, management, economic reforms, socio - economic development, processing plants*

**Ключевые слова:** *аграрный сектор, производственная безопастность, управление, экономические реформы, социально-экономическое развитие, перерабатывающие предприятия*

Məlumdur ki, aqrar sahə yeni məzmunla və mühüm sosial - iqtisadi fəaliyyət göstərməsi ilə xarakterizə edilir. Belə ki, iqtisadiyyatın bazar münasibətləri əsasında qurulması, kənddə radikal islahatların həyata keçirilməsi, ənənəvi təsərrüfat idarəçilik forması olan keçmiş kolxoz və sovxozlarda keçirilən islahatlar, onlara məxsus torpaq, mal - qara və əmlakın özəlləşdirilməsi, kənd təsərrüfatı istehsalı sahəsində mərkəzi planlaşdırma sistemi və məhsul satışı üzrə dövlət sifarişlərinin ləğv edilməsi, məhsulun alış qiymətlərinin sərbəstləşdirilməsi və s. bu kimi köklü idarəçilik prinsipləri kənd təsərrüfatının sosial - iqtisadi və sahə idarəçilik strukturuna da ciddi təsir göstərmişdir. Bunu kənd təsərrüfatı üzrə əsas mikroiqtisadi göstəricilərin dinamikası da sübut edir.

Ümummilli liderimiz Heydər Əliyevin düşünülmüş, ardıcıl və məqsədyönümlü siyasəti nəticəsində Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar və görülən kompleks tədbirlər ilə aqrar sahədə istehsalın azalma meyillərinin qarşısı alınmış, iqtisadiyyatın bir çox mühüm sahələrinin bazar münasibətləri yolu ilə inkişaf etdirilməsini möhkəm və etibarlı təməlini qoymuşdur. Bunu da qeyd etmək lazımdır ki, bu islahatların əsası birinci növbədə Naxçıvan Muxtar Respublikasından başlanmışdır. Naxçıvanda ilk növbədə bir neçə rentabelli işləməyən kolxoz və sovxozlarda islahatlar həyata keçirilmişdir.

Ulu öndər qeyd edirdi ki, bütün insanları psixoloji cəhətdən hazırlamaq lazımdır ki, onlar özləri özəlləşdirmənin üstünlüklərini görsünlər. Dövlət mülkiyyətinin özəlləşdirilməsi aqrar sektorda çoxsaylı əmtəə istehsalçılarının formalaşması və məhsul istehsalının artımı ilə nəticələnmişdir. Bunlar mövcud durumda aqrar islahatların ilkin nəticələri kimi xarakterizə edilmiş, kənd təsərrüfatında ilk növbədə mühüm sosial - iqtisadi dəyişikliklər baş vermişdir. Belə ki, ilk anda aqrar sahənin bazar iqtisadi münasibətlərinin uyğun qanunvericilik bazası yaradılmış, bu sahədə 120 - dən artıq qanun, qanunverici və digər normativ hüquqi sənədlər qəbul edilmişdir. Aqrar iqtisadiyyatın hərtərəfli inkişafını təmin etmədən, ölkədə ərzaq təhlükəsizliyini və əhalinin normal qidalanmasını təmin etmək qeyri - mümkündür. Bir cəhəti də qeyd etmək lazımdır ki, aqrar sahə təkcə əhalinin ərzaq məhsulları ilə deyil, yüngül və yeyinti sənayesi də kənd təsərrüfatı istehsalının inkişafından asılıdır.

Müasir dövrdə ərzaq təhlükəsizliyinin səmərəli təmin olunması ölkə qarşısında duran ən mühüm və ümdə məsələlərdən biridir. Belə ki, qloballaşma şəraitində ərzaq təhlükəsizliyi məsələsi yeni çalar və xüsusiyyətlər kəsb etməyə başlamışdır. Buraya sənayeləşmə və urbanizasiya proseslərinin güclənməsi, kənd təsərrüfatı məhsullarının istehsalı istiqamətlərinin təyinatı və ölçülərinin dəyişməsi, ekoloji təmiz ərzaq məhsullarının həcminin azalması və digər tale yüklü məsələləri aid etmək mümkündür.

Artıq qeyd etmək lazımdır ki, aqrar sahədə aparılan köklü islahatlar öz bəhrələrini verməkdədir. Qeyd etmək olar ki, respublikamızda o cümlədən, muxtar respublikamızda ərzaq məhsullarının artımı adambaşına düşən qida məhsullarının istehlakında daxili istehsalın payının artmasına səbəb olmuşdur. Bu gün aqrar sahənin daha da inkişaf etdirilməsi, əhalinin ərzaq təminatının yaxşılaşdırılması üçün aqrotexniki və aqrokimyəvi xidmətin yaxşılaşdırılması, istehsalçıların yeni texnika ilə təmin edilməsi, toxumçuluq və damazlığın, baytarlıq xidmətinin inkişaf etdirilməsi, mövcud olan müəssisələrin modernləşdirilməsi, xidmət strukturunun yaradılması və s. həyata keçiriləcək əsas prioritetlərindən biri kimi qarşıya qoyulmuşdur. Belə ki, aqrar sahibkarlığın inkişafı və kənd təsərrüfatının əlverişli şərait yaradılması ərzaq təminatının yaxşılaşdırılmasına yönəldilmiş, bir sıra iqtisadi və təşkilati tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir.

Bunlara aşağıdakıları göstərmək olar:

- Kəndli sahibkarlar torpaq vergisi istisna olmaqla 2014 - cü ilədək bütün vergilərdən azad olunmuşlar.

- Ölkəyə gətirilən bir sıra maddi vəsaitlər və toxumlar gömrük rüsumlarından azad olunmuşdur.

- Kənd təsərrüfatı istehsalçıları texnika və avadanlıqlar əldə etmələri üçün lizinq tətbiq edilmiş, onun şərtləri sadələşdirilmişdir(2019-cu ildə Prezidentin sərəncamı ilə daha da asanlaşdırılmışdır).

-Aqrar sahibkarların fəaliyyətinə müdaxilələr ləğv olunmuşdur.

- Yanacaq və motor yağlarına, mineral gübrələr dövlət hesabına 50% - i güzəştlə verilməsi mexanizmi tətbiq edilmişdir və davam etdiriləcəkdir.

-Aqrar sahibkarların tələbatını ödəmək üçün kreditlənmə mexanizmi sadələşdirilmiş, əsas və prioritet istiqamətlərə önəm verilmişdir və s.

Yuxarıda sadaladığımız maddələr ardıcıllıqla aqrar sahəyə dövlət dəstəyini həyata keçirilməsinin nəticəsidir ki, respublikamız kənd təsərrüfatı məhsulları idxal edən ölkədən ixrac dən ölkəyə çevrilmişdir. Əvvəldə qeyd etdiyimiz kimi aqrar sahədə keçirilən islahatların bünövrəsini Ulu Öndər Heydər Əliyev ilk dəfə Naxçıvanda qoymuşdur. Hal - hazırda həmin islahatların bəhrəsi göz qabağındadır. Həmin islahatların nəticəsidir ki, hal - hazırda Naxçıvan Muxtar Respublikası aqrar ərzaq idxaladçıdan ixracatçıya çevrilmişdir.

Son dövrlərdə aqrar sahə üçün görülən tədbirlərdən ən önəmlisi minlərlə torpağın əkin dövriyyəsinə cəlb olunması xüsusi ilə əkin sahələrində melorasiya və irriqasiya tədbirlərinin görülməsi muxtar respublikada taxılçılıq, kartof istehsalının artırılmasını, son dövrlərdə üzümçülüyün bərpa olunmasıdır.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədrinin 2016 - cı il 8 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "2016 - 2020- ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin inkişafı üzrə Dövlət Proqramı".

Yuxarıda göstərilən Dövlət Proqramının icrası muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatını yerli istehsalçı hesabına təmin edilməsini və tələbatdan artıq mövsüm məhsullarının ixracına geniş imkanlar yaradılmışdır. Aqrar sahədə əmək məhsuldarlığının artırılması məqsədi ilə muxtar respublikada "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti xətti ilə 321-ci 2018 - ci ildə olmaqla, cəmi 2375 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir. Son vaxtlar muxtar respublikada heyvandarlıq və arıçılığın inkişafına da diqqət artırılmışdır. Muxtar respublikada aqrar bölmədə çalışan sahibkarlar, ailə təsərrüfatları subsidiyalar və xeyli dərəcədə uzun müddətli güzəştli kreditlər verilmişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan 2020 - Gələcəyə baxış " inkişaf konsepsiyası http
2. Azərbaycan Respublikasının Sahibkarlığın fəaliyyəti haqqında qanunu, Bakı-07 fevral 1992-ci il N 406
3. Azərbaycan Respublikasının "Koorparasiya haqqında qanunu",07 fevral 1996. №İQ
4. Azərbaycan Respublikasının "Səhmdar cəmiyyəti haqqında"Qanunu 12 iyul 1994. №850
5. Alıyev İsa Hüseyn o.Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri Monoqrafiya, Bakı, 2006 S.381
6. Z.Səmədzadə, Dünya iqtisadiyyatı, İqtisadi möcüzəsi, Bakı, Gənclik.2001.s.320
7. Ə.X.Nuriyev. Region idarəetməsinin əsasları, Bakı, Elm 2007,s.428


## ABSTRACT


**Agarza Rustamov**


**SUSTAINABLE DEVELOPMENT OF AGRARIAN SECTOR AND FOOD SAFETY ISSUES IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**


Sustainable development of agrarian sector in Nakhchivan Autonomus Republic has been analyzed, supply rate of agriculture with new machinery and equipment by leasing and its impact on productivity have been investigated in article. Manufactured products in agrarian sector, supply rate of food safety of population and also export level have been analyzed.


## РЕЗЮМЕ


**Агарза Рустамов**


**ВОПРОСЫ ПРОДОЛЖИТЕЛЬНОГО РАЗВИТИЯ И ПРОДО ВОЛЬСТВЕННОЙ БЕЗОПАСТНОСТИ АГРАРНОГО СЕКТОРА В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ**


В статье проанализировано продолжительное развитие аграрного сектора в Нахчыванской Автономной Республике, исследована степень обеспечения сельского хозяйства новыми машинами и оборудованием путем лизинга и ее влияние на производительность. Изучен производственный потенциал аграрного сектора, уровень обеспечения производственной безопастности населения и экспорта местной агропродукции.

**TEYMUR ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*
*teymurabbasov56@mail.ru*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA AQRAR BAZARIN İNKİŞAFI VƏ AQRAR SEKTORUN RESURS POTENSİALININ FORMALAŞDIRILMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

**Açar sözlər:** *aqrar bazar, aqrar sektor, səmərəlilik, intensivləşdirmə, maliyyə-resurs potensialı, məsrəf və son məhsul modeli, amrotizasiya ayırmaları*

**Key words:** *agricultural market, agricultural sector, efficiency, intensification, financial and resource potential, cost demand and end product*

**Ключевые слова:** *аграрный рынок, аграрный сектор, эффективность, интенсификация, финансово-ресурсный потенциал, модель на затраты и конечный продукт*

Kənd təsərrüfatında resurs potensialından istifadənin vəziyyətini müəyyənləşdirmədən, resurs potensialından istifadənin iqtisadi səmərəliliyini yüksəltmək üçün daxili ehtiyat mənbələrini aşkara çıxarmaq və onun bazar iqtisadiyyatına keçid şəraitində gələcək istiqamətlərini elmi cəhətdən düzgün əsaslandırmaq qeyri-mümkündür. Bu problemin həlli iqtisadçıların diqqət mərkəzində olmuş və hazırki iqtisadi ədəbiyyatlarda da elmi diskussiya obyekti kimi ona xüsusi diqqət yetirilir.

Kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyini xarakterinə edən iqtisadi göstəricilər barədə fikir söyləməmişdən əvvəl «səmərəlilik» teriminin iqtisadi məzmununu düzgün dərk etmək lazımdır. Səmərəliliyin iqtisadi mahiyyəti barədə müxtəlif fikirlər var. Bəzi hallarda «səmərəlilik»lə «intensivləşdirmə»ni eyniləşdirirlər. Əksər hallarda isə bunlar arasında kəskin fərq olduğunu əsaslandırmağa çalışırlar.

Hər şeydən əvvəl iqtisadçı alimləin L.İ.Abalkinin, P.İqnatovskinin, S.İ. Kovanovun, V.A.Svobodinin və bir çox başqalarının fikrinə şərik çıxaraq səmərəliliklə intensivləşdirmə arasında oxşarlıq olduğunu, lakin onların eyni iqtisadi məzmuna malik olmadığını qeyd etmək istərdik. Belə ki, intensivləşdirmə prosesdir, səmərəlilik isə həmin prosesin nəticəsidir. Məhz ona görə də əksər iqtisadçılar səmərəlilik dedikdə alınan nəticəni məsrəf və resurslara olan nisbəti kimi başa düşməyi təklif edirlər. Şübhəsiz ki, bu fikirlə razılaşmaq olar. Çünki intensivləşdirmə daimi prosesdir. Elmi-texniki tərəqqinin inkişaf nəticəsində istehsalın intensivləşmə səviyyəsi yüksəlir, ən az məsariflə daha çox və yüksək keyfiyyətli məhsul istehsalı üçün real şərait yaranır. Bu eyni zamanda istehsalın səmərəliliyinin təmin olunmasına səbəb olur [5, s.68].

Qeyd etmək lazımdır ki, nəzəri baxımdan səmərəlilik iqtisadi kateqoriyadır. Səmərəlilik özündə istehsalın son nəticəsini xarakterizə edir. Bununla belə, səmərəlilik hər hansı konkret təsərrüfatın nə dərəcədə səmərə əldə etməsini xarakterizə edir. Bir sıra göstəricilərin vasitəsilə istehsalın iqtisadi səmərəliliyini müəyyənləşdirmək olur.

İqtisadi ədəbiyyatlardan aydın olur ki, istehsalın səmərəliliyinin müəyyənlşədirilməsində, meyar və iqtisadi göstəricilərin seçilməsində də iqtisadçılar arasında fikir ayrılığı vardır. Belə ki, bir sıra iqtisadçılar meyarla göstəriciləri eyniləşdirirlər. Belə bir fikirlə razılaşmaq olmaz.

Məsələn; L.İ.Abalkinin fikrinə görə əmək məhsuldarlığı, fondverimi, material tutumu, rentabellik və sair göstəricilərin köməyi ilə istehsalın iqtisadi səmərəliliyinin səviyyəsini müəyyənləşdirmək olar. Şübhəsiz ki, müəllif istehsalın iqtisadi səmərəliliyini müəyyənləşdirərkən yalnız adları çəkilən götəricilərlə kifayətlənmir. O həmçinin təklif edir ki, istehsalın iqtisadi səmərəliliyini müəyyən edərkən «son məhsul» göstəricisindən də istifadə etmək olar.

İqtisadçı alim P.İqnatovski kənd təsərrüfatında istehsalın iqtisadi səmərəliliyini müəyyənləşdirmək üçün aşağıdakı göstəricilərdən istifadə edilməsini məqsədəuyğun hesab edir: material və maliyyə məsrəflərinin hər manatı hesabı ilə məhsul artımı; əmək məhsuldarlığının artımı; istehsal vasitələrinin hər vahidi hesabı ilə ümumi və xalis gəlir, rentabellik, mənfəət və s. Müəllif bütün bu göstəricilərlə bərabər istehsalın iqtisadi səmərəliliyinin müəyyənləşdirilməsində maya dəyəri, fondtutumu, material tutumu, mal-qaranın 1 sentner çəki artımına yem sərfi, məhsuldarlıq, kapital qoyulunun ödənmə müddəti və s. göstəricilərdən istifadə edilməsini təklif edir.

Kənd təsərrüfatının resurs potensialından istifadənin istehsalın son nəticəsinə təsirini müəyyənləşdirərkən, eyni zamanda resurs potensialından natural göstəricilərə üstünlük verilməsinin bir sıra iqtisadçı alimlərin öz əsərlərində göstərirlər.

Əksər iqtisadçı alimlər bütünlükdə istehsalın, o cümlədən resurs potensialından istifadənin iqtisadi səmərəliliyinin meyar göstəricisi kimi ictimai əmək məhsuldarlığının artımı məhsul vahidinə əmək sərfinin və məsarifin dəyərinin azalmasını özündə əks etdirir. Nə qədər ki, məhsulun dəyəri ucuz başa gəlir, bir o qədər də əmək məhsuldarlığının artımı yüksək olur. Bu isə o deməkdir ki, təsərrüfatda resurs potensialından və əsaslı vəsait qoyuluşundan səmərəli istifadə edilmiş, bütünlükdə istehsalın tənzimlənməsi təmin olunmuşdur.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı çox mürəkkəb istehsal sahəsi olub, burada istehsalın son nəticəsi bir-birindən asılı və bir-birinə sıx qarşılıqlı əlaqədə olan bir çox şərtlərdən asılıdır. Odur ki, resurs potensialından istifadənin səmərəliliyini xarakterizə edən göstəriciləri seçərkən hər şeydən əvvəl aşağıdakı şərtləri nəzərə almaq lazımdır.

Əvvəla, resurs potensialından istifadənin iqtisadi səmərəliliyinin dinamikasını müəyyənləş-dirərkən ümumi məhsulun dəyəri müqayisəli qiymətlə hesablanmalıdır; ikinci, ayrı-ayrı təsərrüfatlar, rayonlar, regionlar və s. üzrə resurs potensialından istifadənin iqtisadi səmərəliliyinin müasir vəziy-yətini öyrənərkən tədqiqat obyektinə eyni istehsal istiqamətinə malik olan, istehsalın ixtisaslaşması və təmərküzləşməsi səviyyəsi təqribən eyni olan təsərrüfatları daxil edib, onları bir-birilə müqayisə etmək lazımdır; üçüncü, resurs potensialından istifadənin iqtisadi səmərəliliyini müəyyənləşdirərkən torpaqların iqtisadi qiymətləri və banitirovka məlumatları əsasında başlıca əsas istehsal vasitəsi kimi torpaqların miqdarı, tərkibi və keyfiyyəti nəzərə alınmalıdır.

Kənd təsərrüfatında resurs potensialından istifadənin iqtisadi səmərəliliyinin mövcud vəziyyətini təhlil edirkən istifadə edilən göstəricilərin sistemləşdirilməsini məqsədəuyğun hesab edirik. Resurs potensialından istifadənin mövcud vəziyyətinə qiymət verərkən üç qrup göstəricilər sistemindən istifadə edilməsini təklif edirik. Onlardan birinci qrupa daxil edilən göstəricilər resurs potensialının mövcud miqdarını, tərkibini və quruluşunu xarakterizə etməlidir.

İkinci qrupa daxil edilən göstəricilər resurs potensialından istifadə səviyyəsini xarakterizə etməlidir. Məsələn; kənd təsərrüfatına yararlı torpaqların hər hektarı, əsas və dövriyyə fondlarının hər manatı və işçilərin hər bir nəfəri hesabı ilə istehsal edilmiş ümumi məhsulun dəyəri, manatla. Bu göstəricilərin köməyi ilə ayrı-ayrı istehsal resurs verimi göstəricisini də aid etmək olar. Belə olan halda istehsal resurslarının ayrı-ayrı ünsürlərinin dəyərini toplamaq, istehsal edilmiş ümumi məhsulun dəyərini istehsal resurslarına bölməklə resurs göstəricisi müəyyənləşdirilir.

Üçüncü qrupa daxil edilən göstəricilər resurs potensialından istifadənin iqtisadi səmərəliliyini xarakterizə etməlidir. Məsələn; kənd təsərrüfatına yararlı torpaqların hər hektarı, əsas və dövriyyə fondlarının hər manatı və orta illik işçilərin hər bir nəfəri hesabı ilə əldə edilmiş ümumi gəlir (təmiz məhsul) və qazanc. Həmin göstəricilərdən istifadə edərək hər hansı təsərrüfatda mövcud resurs potensialının ayrı-ayrı növlərindən, eləcə də bütünlükdə resurs potensialından istifadənin iqtisadi göstəricilərini aşkara çıxarıb, onun yüksəldilməsi yollarını elmi cəhətdən əsaslandırmaq olur [5, s.257].

Əsas fondların amortizasiya ayırmaları ilə əlaqədar müəyyənləşdirilən xidmət müddətinə onların təsərrüfatda fəaliyyət müddətinin limiti kimi baxmaq düzgün deyildir. Çünki, burada müəyyən edilən xidmət müddətində fiziki köhnəlmə ilə bərabər mənəvi köhnəlmə də müəyyən dərəcədə nəzərdə tutulur. Odur ki, bir sıra əsas fondlar mənəvi cəhətdən bu və ya digər dərəcədə köhnəlsələr də, fiziki cəhətdən tamamilə sıradan çıxmadıqları üçün, onlardan təsərrüfatlarda istifadə edilir. Lakin, əsas fondların xidmət müddətləri başa çatdıqdan sonra onlardan amortizasiya ayırmaları hesablanır. Ona görə yeni təsərrüfatçılıq şəraitində müxtəlif mülkiyyətə malik olan təsərrüfatlar əsas fondlardan daha uzun müddətə istifadə etməyə iqtisadi cəhətdən maraq göstərirlər.

Dünyanın bir çox ölkələrinin, eləcə də Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrdə toplanmış təcrübə inandırıcılıqla təsdiq edir ki, ölkədə aqrar islahatı qısa müddətlə, tez həyata keçirilməsi mümkün olan tədbir kimi qiymətləndirmək düzgün olmazdı.

Bunu Müstəqil Dövlətlər Birliyinə daxil olan bir sıra dövlətlərin həyata keçirdiyi aqrar islahatının məqsəd və vəzifələrindən, forma və xüsusiyyətlərindən daha aydın görmək olar. Bunlardan aydın olur ki, islahatların düzgün həyata keçirilməyi zəruriliyi onun məqsədində kompleks tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Aqrar bölgədə islahatın aparılması obyektiv bir zərurətdir. İslahatların həyata keçirilməsi prosesində yeni istehsal münasibətlərinin formalaşdırılması tələb ounur. Bunun üçün hər şeydən əvvəl islahatın prinsipləri düzgün seçilməli, aqrar bölmədə yeni mülkiyyət münasibətləri formalaşdırılmalı və bazar strukturuna uyğun təsərrüfatçılığın müxtəlif növləri inkişaf etdirilməlidir [1, s.428].

Fikrimizcə, aqrar bölmədə islahatlar nəticəsində aşağıdakılara əməl edilmişdir.

Özəl sektorun kənd təsərrüfatında payı ümumi daxili məhsulun artımında 98%-ə yüksəlmişdir. Kənd təsərrüfatında mərkəzləşdirilmiş və xüsusi resursların istifadəsi üçün bazar rəqabətinə uyğun mənfəət gətirmək üçün maraqların artmasına təşkilati-iqtisadi stimullar və mexanizmlər yaradılmışdır. Resursların səmərəsi, artım xalis sahə və yaxud ayr-ayrı fəaliyyətlərlə yanaşı kompleks məqsəd və imkanlar arasında tənzimləmə obyektinə çevirilmişdir. Resurs potensialının təşkili və idarə edilməsi, onun sahə bölgüsü və planlaşdırılması mərkəzləşdirilmiş ərzaq tələbatına və əhalinin məşğulluğu məqsədinə uyğun olaraq təkmilləşir. Resurs potensialını qiymətləndirmək üçün bazar iqtisadiyyatı şəraitində konkret bazar tələbatını ödəyən məhsullar üzrə aparmaq daha dəqiq və planlaşma üçün əhəmiyyətlidir. Konkret məhsul üzrə hər bir resursun istifadəsi xüsusi effekt kimi inkişaf etdikcə, aqrar bazarın səmərəsi artdıqca bir resursun digər resursla əvəz olunması ehtimalı meydana çıxır. Resusrların istifadə texnologiyası, onun səmərəsini yüksəldir. Beləliklə, istehsal variantı və bazarın inkişaf meyili resursların istifadə variantını yaradır. Resursların istehlak parametrlərinin və onların texnoloji xüsusiyyətlərinin təzələnməsi bazar iqtisadiyyatı şəraitində ölkənin daxili imkanları, onların təkrar istehsal quruluşu və bölgü sistemi ilə təkmilləşir. Torpaqların istifadəsi intensiv texnologiyalara məruz qaldıqca, onların amortizasiya ayırmaları, daha sürətlə baş verdikcə yeniləşmə xərcləri ilə iqtisadi artım arasında elastiklik əmsalı resursların hər birinin effektini əsaslandırır. Belə ki, işçi qüvvəsi ilə maddi xərclər arasında nisbətlər onların artımına sərf olunan mənfəətin və digər ayırmaların ümumi daxili məhsulun artımındakı elastiklik əmsalı ilə ölçülür və qiymətləndirilir. Resurs potensialının ayrı-ayrı məhsullar üzrə qiymətləndirilməsi metodikasına görə Naxçıvan Muxtar Respublikasında onun kənd təsərrüfatı üzrə tərkibi və quruluşu aşağıdakı kimidir [5; s.103].

Cədvəl 1.

Naxçıvan Muxtar Respublikasında resurs potensialının tərkibi və quruluşu (%-lə)

| | Təklif olunan metodika ilə %-lə |
|---|---|
| Şum altında olan torpaqlar | 41,96 |
| Çoxillik əkmələr | 8,58 |
| Biçənəklər | 0,77 |
| Otluqlar | 21,30 |
| Əmək ehtiyatları | 1,32 |
| Əsas istehsal fondları | 16,27 |
| Dövriyyə vasitələri | 9,76 |
| Yekunu | 100,0 |

Resurs potensialının dəyişməsi hər bir resursun özünün tələbatı ilə dəyişir. Bazar seqmentləri uyğun olaraq resurslara ehtiyaclar artır. Əgər həmin ehtiyaclar keyfiyyətcə və rəqabət mühitə uyğun yeni tələblərə uyğun dəyişilirsə, onda resurs ehtiyaclarının mənbəyi və forması həmçinin istifadə texnologiyasının dyişməsinə ehtiyac artır. Bizim əsas metodiki yanaşma yeniliyimiz bazar tələbatına uyğun resurs tələbatının qiymətləndirilməsi və yeni resursların müəyyən məhdud çərçivəsində və region bazarının tələb və təklif strukturu prizmasında onun istifadəsini əsaslandırmaqdan ibarətdir. Resurs potensialı ancaq statistik göstərici olmayıb bazar iqtisadiyyatı şəraitində daima təzələnən və struktura etibarilə təkmilləşən fəal iqtisadi mexanizm rolu oynayırdı. Resurslar üzərində mülkiyyət münasibətlərinin dəyişməsi, daha çox çevik resurs siyasətini formalaşdırır. Resursların təkrar istehsal strukturunda və onların təzələnməsində bazar rəqabəti və davamlı səmərəli dinamik dəyişmələr meyili daha prioritet istiqamətlər kəsb edir. Hər bir resursun iqtisadi, sosial rolunu, onun iqtisadi artımda (və bazar məhsul və xidmət təklifində xüsusi çəkisini), həmçinin iş qüvvəsinin təkrar istehsal xüsusiyyətlərini nəzərə alaraq təzələnmə konsepsiyası irəli sürülür. Resurs potensialının dəyişmə dinamikası material tutumu, material məsrəfləri və elmi-texniki tərəqqinin faydalığını nəzərə almaqla həyata keçirilir.

Pul resursu kimi kənd təsərrüfatı və emal sənayesinin tələbatına uyğun təmin olunması üçün büdcə ayırmaları, xüsusi vəsaitlərin istifadəsi və kredit resurslarının istehsala cəlb edilməsi mexanizmlərini təkmilləşdirmək zəruriliyi meydana çıxır. Pulun miqdarı ölkədə təşkilati-idarəetmə və mülkiyyət münasibətlərinə uyğun olaraq formalaşır və rəqabət mühiti və bazarın seqmentlərinə uyğun olaraq daha çox mənfəət gətirən hüquqi və fiziki şəxslərin mülkiyyətində cəmləşir. Pulun dövlət büdcəsi, müəssisə və təşkilatların və s. xüsusi vəsaitlər formasında cəmləşməsi həmin resursların aqrar bazara yönəlməsi dərəcəsi ilə ölçülür.

Pulun aqrar sektora cəlb edilməsi, onun bazar tələbatına uyğun olaraq məhsul və xidmət üzrə istifadəsini stimullaşdırmaq üçün müəyyən güzəştlər və maliyyə yardımları resursların iqtisadi səmərəsinin mühafizəsi prosesini əhatə edir. Məhz aqrar sektora maliyyə yardımı, güzəştli xidmətlər,

maliyyə lizinqi, investisiyanın təşviqi və güzəştli vergi sistemi həmin sahələrdə maliyyə xidmətini stimullaşdırır [5, s.214].

Maliyyə resursları hər bir sahədə mənbəələr hesabına formalaşır. Aqrar bazar çoxşahəli və mürəkkəb bir iqtisadi sistem olduğuna görə onun maliyyə resursları dövlət büdcəsinin xərcləri hesabına, aqrar bazarın təşkili obyektlərinin gəlirləri hesabına və onun bölgüsündə müəssisələrin inkişafı üçün ayrılan vəsaitin, həmçinin əhalinin xüsusi vəsaitləri hesabına formalışır. Aqrar bazarın maliyyə əsasları digər sahələrin qarşılıqlı əmtəə-pul və xidmət mübadiləsi hesabına baş verdiyi kimi ərazidə olan mülkiyyət formaları və ərazinin icmal-maliyyə balansının formalaşması və artımının təsiri ilə də daha artır. Ərazi maliyyə resursları, dövlət büdcəsinin, sahələrin inkişafına əhalinin sosial müdafiəsinə, ərazidə yaşayan və fəaliyyət göstərən əhalinin əmək haqqının formalaşmasına həmçinin ərazinin infrastrukturunun inkişafına yönəldilir ki, bütövlükdə aqrar məhsulun istehsalı və istehlakı üçün maliyyə resurslarının bölgüsü və yenidən bölgüsü prosesi baş verir.

Ərazidə aqrar bazar münasibətlərinin digər mənbəəsi və mülkiyyət forması bələdiyyələrin (yerli) büdcələrin gəlirlərinin və xərclərinin formalaşması, istifadəsi istiqamətləri müəyyən edilir.

Aqrar bazarın inkişafını təmin edən maliyyə mənbələri və onlardan istifadənin səmərəli təşkili formaları funksional obyekt olaraq həmin sahənin ərazi və maliyyə tarazlığını təmin edir. Maddi və maliyyə mənbəələri, onların daşıyıcıları funksional olaraq məntiqi və üzvü formada əlaqələndirilir.

Aqrar bazarın əsas fondlarla silahlanma səviyyəsi, əsas fondların təzələnməsi strategiyası, mərkəzləşdirilmiş büdcə ayırmaları və sahibkarların mənfəəti hesabına yeniləşmə, restruktizasiya xərclərinin yüksəldilməsi və onların səmərəli istifadəsi yolu ilə baş verir. Əsas fondların sahə quruluşu, onların amortizasiya əmsalları bütövlükdə zəruri olan kapitalın məbləğini müəyyən edir. Hər bir sahibkar və dövlət perspektiv inkişaf dinamikasına və əmək məhsuldarlığının artımına olan tələbatı ödəmək üçün zəruri olan maddi vəsaitlərə olan tələbatı formalaşdırır.

Dövlət büdcəsinin xərcləri hesabına dövlət müəssisələrinin və ayrı-ayrı səhmdar cəmiyyətlərinin inkişafı üçün vəsait ayrılır.

Dövriyyə vəsaitləri aqrar bazarın strukturunda onun səmərəli fəaliyyətində əsas rol oynayır. Dövriyyə vəsaitlərinə qənaət rejimi, yeni texnologiyaların tətbiqi ilə dövriyyə vəsaitlərinin resurs potensialı kimi istifadəsi ümumi inteqral səmərənin artımına səbəb olur.

Aqrar bazarın formalaşması və inkişafı bölgü sistemi, hüquqi və fiziki şəxslərin xüsusi vəsaitləri və həmin vəsaitlərin aqrar bazarın istehsal həcminin reallaşan payı ilə müəyyənləşir. O cümlədən, əhalinin alıcılıq qabiliyyəti aqrar bazarın resurs potensialının xalis məhsul və xidmət hissəsinin reallaşmasına şərait yaradır. Əhalinin gəlirləri, onların natural istehlak etdiyi kənd təsərrüfatının miqdarı transfert gəlirlər və həmçinin əmanətlərinin və gəlirlərinin aqrar sektorun məhsul və xidmətlərinə xərclənməsi bu potensialın inkişafının amili kimi təsir edir. Əhalinin istehlak tələbatının maksimal həddi bazarın resurs potensialının həddini müəyyən edir. Sosial müdafiə, əmək haqqı və həmçinin əhalinin xüsusi mülkiyyəti, onun təkrar istehsal quruluşu bu potensialın artımının şəxsi amilidir[3, s.325].

Naxçıvan Muxtar Respublikasının əkin strukturu, çoxillik əkmələr, onlara xidmət sferası, maddi-texniki təchizat, toxumluq əkin, yanacaq, yağlama materialları, kübrə və meliorasiya imkanları küllü halda fermer təsərrüfatı və kənd təsərrüfatı məhsulları istehsalı və emalı üçün resurs potensialının tərkib hissəsidir. Bu resursların texnoloji layihələr ilə istifadəsi istehsal variantının formasını onun təşkilati quruluşunu və perspektiv proqnoz istiqamətini müəyyən edir. Təbii ki, bu bazırın ayrı-ayrı kompleks elementləri arasında maraqlar prinsipi ilə birləşir. Bu maraqların bölgüsü və qarşılıqlı faydalılığı təşkilati quruluş və təsərrüfat formalarını yaradır. Hər bir təsərrüfat obyekti özünün iqtisadi maraqlarına uyğun olaraq istehsal potensialını müəyyənləşdirir və çalışır ki, həmin potensial iqtisadi maraq üçün səmərəli istifadə olunsun, onun tərkibi və artımı tələbata uyğun optimal ölçülər özündə kəsb etsin. Bu məqsədlə hər bir sahibkar əlavə xərclərin qarşısını alır, məhsul və xidmətə nəzarət etməklə xalis məhsulun artırılmasına və əlavə dəyərin artım mənbəyi üçün istifadə olunmasına çalışır. Kənd təsərrüfatı məhsulları üzrə resurs məsrəflərinin dinamikasını təhlil etməklə perspektiv potensiala olan tələbatı müəyyən etmək olar. Kənd təsərrüfatı məhsullarının çeşidi və istehsalı bazar tələbinə uyğun dəyişdikdə onun resurs proqramı üçün cari potensialın xərc strukturu və onun məhsul verimində rolu müəyyənləşir. Məsrəf və son məhsul modelinə uyğun olaraq menecment idarəçiliyi resursların bir-birini əvəz etməsi xəttini və dinamikasını müəyyənləşdirməyə imkan verir. Əsas fondların resurs kimi hansı hissəsinin, hansı məhsul üçün keçirilmiş dəyərini hesablamaq kəskin olduğu üçün onunyaradılan dəyərdə rolunu qiymətləndirmək üçün amortizasiya ayırmalarını normalaşdırmaq və bu normalara uyğun olaraq maddi və texniki, əmək normativlərini tətbiq etmək metodikası fikrimizcə, düzgündür. Təbii ki, bu normativlər uyğun istehsal şəraitini və məzsulun keyfiyyətinin məsrəflərdən asılı dəyişmə meyillərini qiymətləndirməklə

müəyyənləşdirilməlidir. Resursların məhsullar və fəaliyyətlər üzrə bölgüsü vahid şərti məsrəflər yolu ilə müqayisəli təhlil aparmaq və proqnozlaşdırmaq mümkündür.

## ƏDƏBİYYAT

1. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri, Bakı, Nurlar, 2004, 564 s.
2. Sosial iqtisadi inkişaf, yanvar-dekabr 2009, (Naxçıvan MR DSK-nın bülleteni), Naxçıvan, 2010, 116 s.
3. Bağırov M.M. Banklar və bank əməliyyatları. Bakı, Nurlan, 2003,513 s.
4.Babayev R.Ə. Aqrar bölmənin və ərzaq bazarının tənzimlənməsi məsələləri, Müasir mərhələdə Azərbaycanda yeni iqtisadi sistemə keçidin qanunauyğunluğu və problemləri (AMEA-nın İqtisadiyyat İnstitutu) kollektiv monoqrafiya, Bakı, Elm, 1998, 498 s.
5. Abbasov T.A., Naxçıvan: Aqrar sektorun resurs potensialı, aqrar bazar və iqtisadi inkişaf, Bakı, 2018,584 s.

## ABSTRACT

**Teymur Abbasov**

## THE DEVELOPMENT OF AGRARIAN MARKET IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC AND THE MAIN DIRECTION OF FORMING OF RESOURCES POTENTIAL IN AGRARIAN SECTOR

The scientific article outlines the main directions of the formation of the resource potential in the development of the agricultural market. At the same time, the article examines the resource potential of the agrarian sector of the Nakhchivan Autonomous Republic and enhances its effectiveness. In the article, along with the theoretical views of economic scientists on the resource potential, the dynamics of the effective use of the resource potential, as well as sources of formation of the resource potential of the agricultural market finance/

## РЕЗЮМЕ

**Теймур Аббасов**

## РАЗВИТИЕ АГРАРНОГО РЫНКА В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ И ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ФОРМИРОВАНИЯ РЕСУРСНОГО ПОТЕНЦИАЛА В АГРАРНОМ СЕКТОРЕ

В научной статье излагаются основные направления формирования ресурсного потенциала в развитии аграрного рынка. В то же время в научной статье исследованы ресурсный потенциал аграрного сектора Нахчыванской Автономной Республики и повышение его эффективности. В научной статье, наряду с теоретическими воззрениями учёных экономистов на ресурсный потенциал, определена динамика эффективного использования ресурсного потенциала, а также источники формирования ресурсного потенциала финансов аграрного рынка.

**QƏRİB ALLAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

## XX ƏSRİN SONLARINDA NAXÇIVANDA GEDƏN İCTİMAİ-SİYASİ PROSESLƏR ÜMUMMİLLİ OYANIŞIN VƏ DİRÇƏLİŞİN BAŞLANĞICI KİMİ

**Açar sözlər:** *Azərbaycan, Naxçıvan, ictimai-siyasi proseslər, xalq hərəkatı, sərhəd hərəkatı, milli azadlıq hərəkatı, SSRİ, Qarabağ münaqişəsi, sovet dövləti, XX əsr, xalq cəbhəsi*

**Keywords:** *Azerbaijan, Nakhchivan, social and political processes, people's movement, movement of borders, national liberation movement, USSR, Karabakh conflict, soviet state, XX century, people's front*

**Ключевые слова**: *Азербайджан, Нахчыван, общественно-политические процессы, народное движение, движение границ, национально-освободительное движение, СССР, Карабагский конфликт, советское государство, XX век, народный фронт*

Fikrimizcə, Naxçıvanda 1988-1990-cı illərdə baş verən ictimai-siyasi hadisələrin təhlilini keçmiş Sovet dövlətinin mahiyyəti kontekstində araşdırmaq lazımdır. Çünki, onsuz hadisələrin mahiyyətini dərin, əhatəli və elmi şəkildə öyrənib ümumiləşdirmək qeyri-mümkündur. Bu dövrdə baş verən hadisələrin kökü Sovet dövlətinin səciyyəvi xüsusiyyətləri ilə bağlı idi.

Ədalət naminə onu qeyd edək ki, SSRİ tərkibində Azərbaycan böyük inkişaf yolu keçib. Bu dövlət daxilində Azərbaycanda iqtisadiyyat, elm, təhsil, mədəniyyət inkişaf etmiş, sosializmin əsas iqtisadi qanunu-yəni ictimai istehsalın durmadan inkişafı və təkmilləşdirilməsi yolu ilə cəmiyyət üzvlərinin daim artmaqda olan maddi tələbatının getdikcə daha dolğun ödənilməsi əsasında insanların maddi rifahı yaxşılaşmışdı.

Lakin, Atatürkün vaxtiilə dediyi sözlər bizim və digər ölkələrin xalqlarının reallığına daha yaxındır. Atatürk yazırdı: "İstiqlaliyyətdən məhrum bir millət nə qədər zəngin və rifaha çatdırılmış olursa - olsun, mədəni insanlıq qarşısında çocuq olmaq vəziyyətindən yüksək ada layiq ola bilməz. Yabançı bir dövlətin himayə və köməyini qəbul etmək, insanlıq məziyyətlərindən məhrumiyyəti, bacarıqsızlıq və miskinliyi etirafından başqa bir şey deyildir"(5,s.72).

Bu mənada görkəmli qırğız yazıçısı Çingiz Aytmatov SSRİ – nın dağıtması ərəfəsində onu qoruyub saxlamağa can atanlara cavab olaraq yazırdı: "Hər bir millət çalışır ki, təkcə tox yox, həm də əbədi olsun"(10,s.378). Məhz əbədi millət olmağımız baxımından SSRİ imperiya mahiyyətli dövlət idi.

Sovet imperiyasında hərbi-polis idarəçiliyi mütləq təkmilləşdirilmiş, hər bir vətəndaş anadan olandan dünyasını dəyişənədək total nəzarət altına alınmış, istənilən fərdi və ya qrup haqqında siyasi cəhətdən başqa cür düşünmə təzahürünə qarşı elmi baxımdan işlənib hazırlanmış terror sistematik həyata keçirilmiş, sovet hökümətinin siyasi təbiətindən doğan partiya hakimiyyətinin saxlanılması marağı şəxsiyyətin, sosial qrupların, siniflərin və hətta xalqların mənafeyindən uca tutulmuşdur.

İmperiya qlobal miqyasda nəinki xarici dünya,eyni zamanda SSRİ xalqları üçün müvəffəqiyyətinin ən idiokratik proqramı və müstəmləkəçilik siyasətini həyata keçirirdi. Bu, müstəmləkəçiliyin sovet tipi idi. Uzun müddət müstəmləkəçiliyin sovet tipi mili məsələnin ideal həll kimi qələmə verilirdi (6,s.7-8).

Məhz milli məsələnin təhrif olunmuş həlli son nəticədə bizim xalqımızın da başına min bir zülm gətirilməsinə səbəb oldu. Azərbaycanın içərisində Azərbaycan torpağında ermənilərin məskunlaşdığı ərazidə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılması, azərbaycanlıların Qərbi Azərbaycandan, dədə-baba yurdlarından zorla köçürülməsi, torpaqlarımızın parçalanması sovet imperiyasının müstəmləkəçilik siyasətinin başqa şəkildə davamı idi. Azərbaycanın və digər müttəfiq respublikaların başına gətirilən bəlalar SSRİ-nin imperiya mahiyyətindən doğurdu. Ona görə də Azərbaycan xalqı digər xalqlar kimi XX əsrin 80-ci illərinin axırlarında imperiyadan xilas olmaq üçün milli-azadlıq mübarizəsinə qalxdı.

Bu dövrdə Naxçıvanda xalq hərəkatının başlamasına və inkişafına bilavasitə Moskva tərəfindən suni şəkildə törədilmiş Qarabağ münaqişəsi, Ermənistanın müxtəlif rayonlarından qovulan, didərgin salınan zavallı azərbaycanlıların Naxçıvana axını, ermənilər tərəfindən Naxçıvan Muxtar Respublikasına silahlı basqınlar təkan verdi. Bu illərdəki hərəkat əslində imperiyaya qarşı inqilabi hərəkat idi və mitinqlər, yürüyüşlər, tətillər formasında özünü təsdiq edirdi.

Naxçıvanda gedən inqilabi proses Moskvaya qarşı yönəlməklə bərabər, həm də, Moskvanın respublikamızdakı sosial dayaqlarına qarşı yönəlmişdi. Satqınlıq mövqeyində duraraq imperiya ilə ittifaqda olduqlarına, mafiya ilə əlbir olduqlarına, zəhmətkeşləri istismar etdiklərinə görə Naxçıvan Muxtar Respublikanın vilayət, şəhər və rayon partiya komitələrinə qarşı etiraz mitinqləri və yürüyüşləri keçirilirdi.

Azadlıq hərəkatında böyük əhəmiyyətə malik olan belə mitinqlərdən birini, 22 noyabr 1988 - ci il tarixli mitinqi xüsusi qeyd etmək lazımdır. Həmin gün şəhərin Lenin meydanında 50 mindən çox adam toplanmışdı. Şəhərə gələn yolların milis nəzarətinə verilməsinə baxmayaraq insan axınının ardı-arası kəsilmirdi. Mitinqə toplananlar təkidlə Vilayət Partiya Komitəsinin birinci katibi N.Mustafayevi mitinqə dəvət edirdilər.

Həddən artıq təkəbbürlü, ağızdan pərtov müşavirələrdə, büro iclaslarında onun – bunun ünvanına ədəbsiz söyüşlər yağdırmağa adət etmiş partiya rəhbəri indi elə qorxuya düşmüşdü ki, kabinetdən bayıra çıxmağa cəsarəti çatmırdı. Axır nəticədə o, məcburiyyət qarşısında qalaraq, böyük bir mühafizə dəstəsinin müşayiəti ilə mitinqə gəldi. Söyüş ustası rəhbərin özünü indi mitinqçilər söyür, təhqir edirdi. Katib çox çətinliklə rüsvayçı vəziyyətdə aradan çıxıb, özünü kabinetinə güclə çatdıra bilmişdi(1,s.219-220).

Həmin gün Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi N.Mustafayev mitinqi dağıtmaq məqsədilə adamların üzərinə tank yeritdi. Nəticədə yaralananlar oldu. O cümlədən Azərbaycanın xalq yazıçı Hüseyn İbrahimov yaralandı. Lakin, qorxmaz, cəsarətli Naxçıvan camaatı tankları yandırmaqla bərabər vilayət partiya komitəsinin binasını dağıtdılar. Məhz onda Naxçıvan zəhmətkeşləri N.Mustafayevi imperiya və onun nökərləri tərəfindən təqib olunan xalqımızın böyük oğlu Heydər Əliyevin portretini mitinq iştirakçıları qarşısında yuxarı qaldırmağa məcbur etdilər. Mitinqdən bir neçə gün sonra N.Mustafayev hərbi komendant general A.Makaşovun təqdimatı ilə vəzifədən azad olundu.

22 noyabr 1988 – ci il tarixli mitinqdə Azərbaycan Demokratik Respublikasının üç rəngli bayrağı da qaldırılmışdır.

Azərbaycanın azadlıq hərəkatı tarixinə daxil olan “sərhəd hərəkatı” məhz Naxçıvanda başlandı. 1989–cu ilin dekabr ayının əvvəllərində Naxçıvan camaatı Araz çayının kənarında, Sovet-İran sərhəddinin Naxçıvan MSSR hissəsi boyu ərazilərdə kütləvi mitinqlər keçirirdi. Hətta sərhəddin bəzi yerlərində, o cümlədən Şərur rayonun Şahtaxtı kəndi yaxınlığında Arazın hər iki sahilinə toplaşmış adamlar çayı keçərək bir-birinə qarışırdılar. Camaat sərhəd simlərini sökürdü. Artıq 1989- cu ilin axırına yaxın xalq tərəfindən 170 km sərhəd simləri dağıdılmışdı. O, hadisələrin şahidi, qocaman tarixçi-alim Əli Əliyev yazırdı:"1989-cu ilin son günləri Naxçıvan Muxtar Respublikasının əhalisinin demək olar ki, 65 faizi sərhəd boyu Araz sahilinə toplaşıb iki böyük imperiyanın sərhədlərini söküb şimallı-cənublu Azərbaycanı faktiki birləşdirməklə bütün dünyaya bəyan etdi ki, xalq vahidləşmək, müstəqilləşmək havası ilə yaşayır və bu addımı mübarizənin tarixə düşən ilk addımı hesab edir. 40 milyonluq xalq vahid üçrəngli bayraq altında birləşməlidir-bu ürəklərin arzusudur. Bununla təkcə yüz illərin ayrılığına son verilmədi. Həm də ruhumuzun sərhədi qaldırıldı. Arazdan deyil, üreyimizdən salınmış sərhəd yox oldu” (3,s.33).

Sərhəd hərəkatı ilə bağlı vəziyyəti guya sabitləşdirməkdə partiya və sovet orqanlarına kömək etmək üçün 1990-ci ilin yanvarın 4-də SSRİ Ali Soveti Millətlər Sovetinin sədri R.N.Nişanov, Sov.MK-nın katibi A.N.Girenko, Azərbaycan KP MK-nın birinci katibi Ə.X.Vəzirov, SSRİ DTK-sı sədrinin birinci müavini ordu generalı Bobkov, ordu generalı Varennikov, general polkovnik Şatalin, general-mayor Şironkin Naxçıvana gəldilər. Lakin, onların Naxçıvana gəlişi alovlanmış milli azadlıq hərəkatını söndürə bilmədi.

O zaman mərkəzi mətbuatda, kütləvi informasiya vasitələrində sərhəd simlərinin qırılması bir qrup ekstremistlərin, islam fundamentalistlərinin qeyri-qanuni əməli kimi qiymətləndirilməsinə baxmayaraq, bu hərəkat Azərbaycanda, o cümlədən Naxçıvanda gedən milli-azadlıq hərəkatının tərkib hissəsi idi. İki Azərbaycan arasındakı sərhəd simlərinin Naxçıvanda sökülməsinin tarixi əhəmiyyəti ondan ibarət idi ki, bu hadisə bütün Azərbaycanda milli-azadlıq hərəkatının daha da genişlənməsinə təsir etdi.

1989-cu ilin axırı və 1990-cı ilin əvvəllərində Naxçıvanda xalq hərəkatı özünün ən yüksək mərhələsinə qalxdı. Demək olar ki, 1990-ci ilin yanvar ayında Naxçıvanda inqilabi proseslər gedirdi. İmperiyanın dayağı olan partiya komitələri iflic veziyyətinə düşmüşdülər. Hakimiyyət praktiki olaraq xalqın əlində idi.

Azərbaycanın, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan MSSR-in ərazi bütövlüyünun pozulması, ermənilərin Naxçıvan MR-ə bütün sərhəd boyu silahlı hücum etməsi, əhalinin həyatının təhlükə qarşısında qalması, bunlarla bağlı ittifaq orqanlarının heç bir tədbir görməməsi və Qarabağ münaqişəsinin həll olunmaması Naxçıvan camaatını ən radikal addımlar atmağa məcbur etdi. Belə ki, 19 yanvar 1990 –ci ildə hələ sovet qoşunları Bakıda tarixi cinayət törətməmişdən qabaq Naxçıvanda inqilabi mübarizəyə qalxmış xalqın tələbi və təzyiqi ilə Naxçıvan MSSR Ali Sovetinin növbədən kənar sessiyası Naxçıvanın SSRİ - nin tərkibindən çıxması haqqında tarixi qərar qəbul etdi. Qərarda deyilirdi: 1." Naxçıvan MSSR SSRİ tərkibindən çıxaraq özünü müstəqil respublika elan edir. 2. Qars müqaviləsinin şərtlərinə uyğun olaraq Naxçıvan Respublikasının ərazi bütövlüyünü qorumaq və kütləvi insan qırğınının qarşısını almaq məqsədiilə Türkiyə Respublikasına müraciət edilsin. 3.Yaranmış vəziyyətlə əlaqədar olaraq Birləşmiş Millətlər təşkilatına İran İslam respublikasına və dünyanın bütün dövlətlərinə kömək məqsədilə müraciət olunsun. 4.Naxçıvan Respublikası ərazisində olan Sovet qoşun hissələri Respublikadan çıxarılsın. 5.SSRİ Ali

Sovetindən tələb edilsin ki, Naxçıvan respublikasına edilən təcavüzə son qoyulsun. 6.Qərar Azərbaycan SSR və SSRİ dövlətlərinin nəzərinə çatdırılsın” (4).

Eyni zamanda Ali Sovetin 19 yanvar 1990-cı il tarixli sessiyası Naxçıvan MSSR Ali Sovetinin qərarını dünya ictimaiyyətinə çatdırmaq və qonşu dost ölkələrdən kömək istəmək məqsədilə İran və Türkiyəyə gedərək danışıqlar aparmalı olan xüsusi nümayəndə heyətinin tərkibini təsdiq etdi.

İrana gedəcək nümayəndə heyətinə Naxçıvan Muxtar Respublikasının xalq deputatı Tahir Əliyev (rəhbər), xalq deputatı Ramiz Axundov, Naxçıvan Dövlət Universitetinin kafedra müdiri Qərib Allahverdiyev, 2 N-li Naxçıvan şəhər müsiqi məktəbinin direktoru Sahib Axundov, Nehrəm kənd ağsaqqalı Şeyx Muradəli, Türkiyəyə gedəcək nümayəndə heyətinə isə Azərbaycan Respublikasının xalq deputatı Eldar İbrahimov Naxçıvan MR – nın Nazirlər Sovetinin məsul işçisi Yadigar Babayev, Naxçıvan televiziyasının əməkdaşı jurnalist Əli Şəmilov, Naxçıvan şəhər Xalq Cəbhəsi idarə heyətinin üzvü, həkim Sülhəddin Əkbərov daxil idilər.

Hər iki nümayəndə heyətləri 19 yanvar 1990-ci ildə gecə Culfadan İrana keçməli, oradan isə Eldar İbrahimovun başçılıq etdiyi nümayəndə heyəti Türkiyəyə getməli idi. Lakin, SSRİ sərhəd qoşunlarının Naxçıvandakı vəziyyətlə əlaqədar Culfada yerləşən xüsusi dəstənin komandiri ilə səfərə kimi aparılan danışıqlar heç bir nəticə vermədi. Naxçıvan MR Ali Soveti nümayəndə heyətinin İrana keçməsi xahişi qəti rədd edildi. Buna baxmayaraq bir neçə nəfər – Naxçıvan Xalq Cəbhəsi idarə heyətinin üzvü Sərdar Məmmədov, Naxçıvan şəhər məscidinin axundu Sultan Novruzov, Sahib Axundov, Sülhəddin Əkbərov, Əli Şəmilov, Yadigar Babayev qeyri-leqal şəkildə Culfanın Yaycı kəndindən İrana keçə bildilər. Onların İranda apardıqları danışıqların məzmunu bizə məlum deyildir, hər halda onların İrana keçməsi və oranın xüsusi təhlükəsizlik orqanları ilə apardıqları danışıqların az da olsa Naxçıvana xeyri olub.(Qeyd: Bu Məqalənin Müəllifi bu hadisələrin şahidi və iştirakçısıdır).

Onu da qeyd etmək vacibdir ki, 19 yanvar 1990-cı ildə naxçıvanlılar öz azadlıqsevərliklərini bir daha nümayiş etdirərək, gecə saat 2-də Azərbaycan Demokratik Respublikasının üç rəngli milli bayrağını Naxçıvan MR Ali Sovetinin binasının üstünə taxdılar. Bu müqəddəs bayraq bir həftə orada dalğalandı. 27 yanvar 1990-cı ildə isə Azərbaycan SSR Ali Soveti Rəyasət heyəti Naxçıvan MSSR Ali Sovetinin tarixi qərarını ləğv etdi (7).

Buna baxmayaraq Naxçıvan SSRİ – nin tərkibindən çıxıb özünü müstəqil respublika elan etməsi qərari boyük tarixi əhəmiyyətə malikdir. SSRİ tarixində misli görünməmiş bu hadisə dünya ictimaiyyətinin diqqətini Azərbaycana və onun ayrılmaz hissəsi olan Naxçıvana qarşı imperiya və onun əlaltısı olan Ermənistanın cinayət hərəkətlərinə yönetdi, bununla “dünya ictimaiyyətindən ehtiyat edən Moskva Naxçıvana qoşun yeridib qırğın törətmədi. Hətta erməni quldurları belə bu qərardan sonra müvəqqəti də olsa döyüşü dayandırdılar” (1,s.219-220).

İnqilabi xalq tərəfindən qəbul olunmuş bu qərarın əhəmiyyəti haqqında Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev demişdir: “Mən Moskvada olarkən... eşitdim ki naxçıvanlılar Naxçıvan Muxtar Respublikasının Sovetlər İttifaqının tərkibindən çıxması haqqında qərar qəbul etdilər. İndi Sovetlər İttifaqı dağılıb. O vaxtdan çox illər keçib, çox şeylər unudulub. Sovetlər İttifaqına mənsub olmuş ölkələr öz müstəqilliyini əldə ediblər. Ancaq naxçıvanlıların bu cəsarətli addımı o vaxt Sovetlər İttifaqında yeganə bir addım idi. Bu xəbər bütün dünyaya yayıldı ki, Naxçıvan Muxtar Respublikası Sovetlər İttifaqından çıxmaq barədə qərar qəbul etdi. Bu, naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevər və müstəqilliyə nə qədər bağlı olduqlarını dünyaya sübut etdi, nümayiş etdirdi” (3,s.33).

1988-1990-ci illərin əvvəllərində gedən ictimai - siyasi proseslərin təhlili göstərir ki, bu dövrdə Azərbaycanda, eyni zamanda Naxçıvanda xalq hərəkatı irəliləyən xarakter daşıyırdı. Dekabr 1989-yanvar 1990-ci ildəki hadisələr, xüsusən 19 yanvar 1990-ci ildə Naxçıvanın SSRİ - nın tərkibindən çıxıb özünü müstəqil respublika elan etməsi əsl inqilab idi. Bu hərəkətverici qüvvəsinə və mübarizə metoduna görə xalq, mahiyyətinə görə isə milli-azadlıq inqilabı idi.

Yuxarıda göstərilən dövrdə imperiya ilə Azərbaycan arasında əsas ziddiyyətlər aşağıdakılar idi:1. Siyasi sahədə- Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi tələbatı ilə sovet imperializminin siyasi əsarəti arasındakı ziddiyyət. 2. Sinfi münasibətlər sahəsində bir tərəfdə yerli irticaçı dairələrin Sovet İmperiyası ilə ittifaqı, digər tərəfdə isə antiimperialist əhval-rühiyəli xalq kütlələri arasındakı ziddiyyət. 3.Mənəvi həyat sahəsində-Azərbaycan xalqının mənəvi tərəqqi tələbatı ilə imperiya tərəfindən göstərilən ideoloji təsir arasındakı ziddiyyət.

Bu dövürdə Naxçıvan MR – də gedən milli - azadlıq mübarizəsi imperiya ilə Azərbaycan arasında olan bu ziddiyyətlərin həllinə təsir edə bilməzdi. Azərbaycanın əsl müstəqillik yoluna çıxmasına Naxçıvanın təsiri sonralar, Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinə rəhbərlik etdiyi dövrdən başladı. Bu məsələ ilə bağı Heydər Əliyev demişdir: “...O illərdə, xüsusən 1990-1991- ci illərdə Naxçıvanda Xalq hərəkatı çox güclü idi. Mütəqillik yolunda mübarizə aparan adamlar Naxçıvan əhalisinin,demək olar əksəriyyətini təşkil

edir, Naxçıvanın müstəqillik, milli-azadlıq əhvall-rühiyyəsi bütün Azərbaycana təsir edirdi. Məhz bunların nəticəsində Naxçıvan bir çox ciddi addımlar atdı və nəhayət, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə edilməsində Naxçıvan Muxtar Respublikası öz xidmətlərini göstərdi(3,s.45).

Onu da qeyd etmək lazımdır ki, tədqiqat dövründə Naxçıvanda gedən coşqun ictimai siyasi proseslərin təsiri altında bütün milli nə varsa-folklora, etnoqrafiyaya, tarixə, milli ədəbiyyata, ekologiyaya maraq xeyli artmişdır. Azərbaycanın və onun ayrılmaz hissəsi olan Naxçıvanın tarixini, mədəniyyətini, milli ədəbiyyatını öyrənib təbliğ etmək məqsədilə "Yurd" və "Ocaq" ictimai təşkilatlarının yaradılması, respublika qazet və jurnallarında Naxçıvanın, Qarabağın, bütövlükdə Azərbaycanın tarixinə aid məqalələrin çıxması, radio, televiziyada tariximizə, dilimizə, mədəniyyətimizə aid "dəyirmi stol" arxasında verlişlərin təşkili, Azərbaycanda ilk dəfə olaraq 1988-ci ildə Naxçıvanda Koroğlunun və 1989-cu ildə Babəkin hekəlinin qoyulması 1991 -ci ildə istedadlı rəssam Bəhruz Kəngərlinin qəbrinin aşkarlanıb, abadlaşdırılıb heykəlinin qoyulması, bütün bu tədbirlərin əhali tərəfindən qızğın qarşılanması, mitinq və yürüşlərdə Azərbaycan Demokratik Respublikasının üç rengli bayrağının qaldırılması Naxçıvanda milli şüurun artmasını göstərən mühüm təzahürlərdən biri idi. Milli süurun intensiv işləməsinə Azərbaycan - Ermənistan münaqişəsi böyük təsir edirdi.

Məlumdur ki, milli şüur adamların özlərini sadəcə bu və ya digər millətə aid etmәkləri deyildir. O, özündə ərazi, mədəniyyət, dil, tarix milli simvollar haqqında milli avtostereotipləri və təsəvvürləri birləşdirir. Mili şüurda nəinki dərk etmə, habelə emosional komponent iştirak edir.

Bu deyilənlərlə bağlı tədqiqat dövründə əhalinin davranışının təhsili göstərir ki, naxçıvanlılar nəinki ağılları ilə, həmdə ürəkləri, hissləri ilə öz millətinin məişətinə, ənənəsinə görə başqa millətlərdən fərqlənən xüsusi bütövlük kimi dərk edirlər. Bu baxımdan Avstriya marksisti O.Bauer milli şüurun və milli hisslərin qarşılıqlı bağlılığını belə xarakterizə edirdi: "Özümün millətə aid olduğumu dərk edərək özümə hesabat verirəm ki, mən onunla ümumi xarakterlə sıx bağlıyam, onun taleyi, onun mədəniyyəti mənə təsir etmişdir, onun özü mənim xarakterimdə yaşayır və fəaliyyət göstər. Millət mənə yad deyildir, o " Mən"im bir hissəm-dir. Beləliklə, millət haqqında təsəvvürlər özümün "Mən" təsəvvürü ilə bağlanır. Kim mənim millətimi pisləyirsə, onunlada məni pisləyir, əgər mənim millətimi tərifləyirsə onda bu tərif mənədə aiddir. Çünki millət mənim və mənim kimilərin daxilindədi" (9,s.35).

O.Bauerin dediyi bu sözlər 1988-1990-ci illərdə Naxçıvanlılar üçün çox xarakterik idi. Onda millət hər bir Naxçıvanlının daxilində idi. Məhz buna görə də Naxçıvan camaatı o dövr Azərbaycandakı milli - azadlıq hərəkatının önündə gedirdi. O.Bauerin bu fikirləri müasir dövürdə də hər bir Azərbaycanlı üçün çox önəmlidir. Əgər bu gün hər bir kəs millətin özünün bir hissəsi hesab etsə və millət onun "Mən"i ilə bağlı olsa, onun daxilində olsa, Azərbaycan deyilən vətənimizin bütövlüyü təmin olar və o çiçəklənən diyara çevrilər.

Məlumdur ki, Azərbaycanda, eləcədə Naxçıvanda xalq hərəkatının içində Xalq Cəbhəsi deyilən qurumda var idi. Bu qurumun xalq hərəkatındakı rolu və yeri çox ziddiyyətlidir. Xalq hərəkatının rəhbəri kimi meydana atılan və müəyyən tarixi dövrdə xalqın rəğbətini qazanan bu qurumun əsil mahiyyəti onun xalq hərəkatı dalğası üstündə hakimiyyətə gəlməsindən sonra açıldı. Azərbaycan Xalq Cəbhəsi siyasi hakimiyyətdə olduğu bir ildə Azərbaycanı iqtisadi, siyasi, mənəvi, hərbi böhrana, hərcmərclik girdabına saldı, qardaş qırğınına yol verdi, liderlərin satqınlığı nəticəsində torpaqlarımızın erməni düşmənlərinə təhvil verilməsinə bilavasitə şərait yarandı, onun faəl üzvləri dövlətçiliyimizin möhkəmləndirilməsinə əngəl oldular.

Azərbaycan Xalq Cəbhəsi qurumu haqqında fikrimizi hələ əsrin əvvəllərində Lenin tərəfindən deyilən sözlərlə bitirmək istəyirik. Əlbəttə, indi Lenindən iqtibas gətirmək qəbul olunmayıb. Lakin, kimin dediyindən asılı olmayaraq, müdrik sözün həmişə qiyməti vardır. Beləliklə, Lenin yazırdı: "Tarixdə heç elə bir dərin və qüdrətli xalq hərəkatı olmamışdır ki, onun kirli köpüyü olmasın - avanturist və fırıldaqçılar, özünü öyənlər və boşboğazlar hakimiyyətə yapışıb yamaq olmasın, mənasız qarma-qarışıq, hərcmərclik, əbəs vurnuxma baş verməsin, ayrı ayrı "rəhbərlər" 20 işə əl atıb hamısını yarımçıq qoymasın" (2,s.210).

Bəli, Azərbaycan Xalq Cəbhəsi qüdrətli Xalq Hərəkatının kirli köpüyü idi, hakimiyyətin yamağı idi. Bu kirli köpüyün liderləri yenidən hakimiyyətə gəlmək üçün əldən - ayaqdan çıxırlar. Onlara Amerikanın Prezidenti Avraam Linkolnın dediklərini xatırlatmaq istəyirik: "Bir adamı həmişə aldatmaq olar, hamını bir dəfə aldatmaq olar, ancaq hamını həmişə aldatmaq olmaz" (8,s.16).

Nəticə olaraq demək olar ki, Naxçıvanda 1988-1990-cı ilıərdə xalq hərəkatının ziddiyyətlərinə baxmayaraq onun milli oyanışın böyük başlanğıcı kimi mühüm tarixi əhəmiyyəti danılmazdır.

## ƏDƏBİYYAT


1. Əli Əliyev, Əlincə yaddaşı, 1997 .s.219-220
2. Lenin V.İ. Əsərlərinin tam külliyyatı, 36-cı cild.s.210.
3. Ömrün üç günü (redaktor Vasif Talıbov) Bakı, 1997, s.33.
4. Şərq qapısı, Naxçıvan müstəqil respublikasının qəzeti, 20yanvar, 1990

5. Utkan Qocaturk, Atatürk, Bakı,1991,s.72
6. Авморхонов А, Империя Кремля Вильнюс, 1990.с.7-8
7. Бакинский рабочий 28 января, 1990
8. Иванов Р.Ф. Президенство в США.М.1991.с.16
9. Раевская Ф.Национальная полимиkа, Рига, 1990..с.35
10. Через мернц( Сосм. А. А.Промашцk)М..1990,с. 378

**ABSTRACT**

**Garib Allahverdiyev**

**THE SOCIAL AND POLITICAL PROCESSES THAT HAPPENED IN NAKHCHIVAN AT THE END OF THE XX CENTURY AS THE BEGINNING OF NATIONAL AWAKENING AND REVIVAL**

There are investigated an essence of the social and political processes happening in Nakhchivan in the late eighties – the beginning of the 90th years of the XX century. It is proved that the "movement of borders" which recorded in history of the movement for freedom of Azerbaijan became a component of the national liberation movement in Azerbaijan and had an impact on its expansion. It reveals the reasons of the beginning of people's movement, inclusion of "the movement of borders" in history of the movement for freedom of Azerbaijan, and also the fact that it is a component of the national movement for freedom and influence on strengthening of the national liberation movement in Azerbaijan.

It substantiates the historical importance of getting out of Nakhchivan of structure of the USSR and the announcement of independent on January 19,1990. The role and the place of the Nakhchivan Autonomous Republic in acquisition of the state independence of the Azerbaijan Republic is explained, and there is shown that despite contradictions of people's movement of 1988-1990 in Nakhchivan, its historical importance as big beginning in national awakening is indisputable.
In article it is proved that events occurring in 1988-1990 were the real revolutionary movement and on the driving force and methods of fight were national, in fact the national liberation movement.

İn article there is emphasized that the influence of the national liberation movement in Nakhchivan on an exit of Azerbaijan to a way of real independence begins with the period of leadership of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic of Heydar Aliyev.

**РЕЗЮМЕ**

**Гариб Аллахвердиев**

**ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ПРОЦЕССЫ, ПРОИСХОДИВШИЕ В НАХЧЫВАНЕ В КОНЦЕ XX ВЕКА, КАК НАЧАЛО ОБЩЕНАЦИОНАЛЬНОГО ПРОБУЖДЕНИЯ И ВОЗРОЖДЕНИЯ**

В статье исследуется сущность общественно-политических процессов, происходивших в Нахчыване в kонце 80-х–начале 90-х годов XX веkа, раскрываются причины начала народного движения. Доказывается, что «движение границ», вошедшее в историю движения за свободу Азербайджана, стало составной частью национально-освободительного движения в Азербайджане и оказало влияние на его расширение. Обосновывается историческая важность выхода Нахчывана из состава СССР и объявления себя независимым 19 января 1990 г. Разъясняется роль и место Нахчыванской Автономной Республики в проиобретении государственной независимости Азербайджанской Республики, и показывается, что, несмотря на противоречия народного движения 1988-1990-гг. в Нахчыване, его историческая важность kak большого начала в общенациональном пробуждении неоспорима.

В статье доказывается, что события, происходившие в 1988-1990 гг. были поистине революционным движением, и по движущей силе и методам борьбы - это народное, по сущности - национально-освободительное движение.

В статье подчеркивается, что влияние национально-освободительного движения в Нахчыване на выход Азербайджана на путь подлинной независимости начинается с периода руководства Верховным Собранием Нахчыванской Автономной Республики Гейдаром Алиевым.

**CEYHUN MAHMUDOV**
*Naxçıvan Dövlət Universiteti*
*ceyhun.ilhamoglu@gmail.com*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ TARAZLI İNKİŞAFININ TƏMİN EDİLMƏSİNDƏ AQRAR SAHƏNİN ROLU

**Açar sözlər:** *aqrar inkişaf, aqrar sahə, iqtisadiyyatın şaxələndirilməsi, ərzaq təhlükəsizliyi, tarazlı inkişaf, Naxçıvan Muxtar Respublikası*

**Key words:** *agrarian development, agrarian sector, diversification of the economy, food security, balanced development, Nakhchivan Autonomous Republic.*

**Ключевые слова:** *аграрное развитие, аграрная отрасль, разветвление экономики, продовольственная безопастность, сбалансированное развитие, Нахчыванская Автономная Республика.*

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının bazar münasibətləri əsasında qurulması, ilk dəfə ölkə üzrə Naxçıvan Muxtar Respublikasında, Müstəqil Dövlətlər Birliyi məkanında isə Azərbaycanda həyata keçirilən aqrar islahatların, o cümlədən torpaq islahatlarının həyata keçirilməsi, xüsusilə kolxoz və sovxozların ləğv olunması, onlara məxsus torpağın, mal-qaranın, əmlakın xüsusi mülkiyyətə verilməsi, ərzaq və digər yeyinti məhsullarını emal edən sənaye müəssisələrinin özəlləşdirilməsi ümumilikdə aqrar bölmənin sosial və sahə strukturunu yenidən formalaşdırdı. Qısa müddətdə sürətlə və hərtərəfli reallaşdırılan keyfiyyət dəyişiklikləri nəticəsində istehsalın sabitləşməsi, məhsul istehsalının və məhsuldarlığın nəzərəçarpacaq dərəcədə yüksəlməsi, sahibkarlığın inkişafı, iş yerlərinin dinamik artımı təmin olundu.

Bu dövrdə aqrar sahənin torpaq vergisi istisna olmaqla digər vergilərdən uzunmüddətə azad olunması, büdcəyə olan vergi borclarının silinməsi, yanacağın güzəştli qiymətlərlə satışı və digər bu kimi tədbirlər kənd təsərrüfatı məhsullarının istehsalına əhəmiyyətli dərəcədə müsbət təsir göstərmişdir (6).

Ölkə Prezidenti cənab İlham Əliyev ümummilli liderimizin ölkəni iqtisadi inkişafa, tərəqqiyə, firavanlığa aparan siyasi kursunu layiqincə davam etdirərək yeni mərhələdə kənd təsərrüfatı sahəsində əldə olunmuş dinamik inkişafı daha da sürətləndirməyə xidmət edən fərman və sərəncamlar imzalamış, bu istiqamətdə xüsusi əhəmiyyət kəsb edən məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyev 2019-cu il yanvarın 29-da keçirilən regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransdakı çıxışında Azərbaycanda kənd təsərrüfatının inkişafının ölkədə iqtisadiyyatın şaxələndirilməsinin əsas istiqamətlərindən biri olduğunu və prioritet əhəmiyyət daşıdığını bir daha nəzərə çatdıraraq qeyd etmişdir: "Biz kənd təsərrüfatında islahatları dərinləşdirməliyik. Kənd təsərrüfatı elmi əsaslarla inkişaf etməlidir. Müasir texnologiyalar və yanaşmalar tətbiq olunmalıdır. Biz ərzaq təhlükəsizliyi ilə bağlı bundan sonra da ciddi iş aparmalı, kənd təsərrüfatı məhsullarının ixracını artırmalıyıq. Bu prioritet məsələdir" ( 3, səh.1-2).

Ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan Naxçıvanın hərtərəfli inkişafı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)", "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" və "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" muxtar respublikada aqrar sahənin inkişafına mühüm təkan vermiş, kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə uğurlu nəticələr qazanılmışdır.

Region iqtisadiyyatının mövcud potensialından tam və səmərəli istifadə olunması, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması və region iqtisadiyyatının tarazlı inkişafının təmin edilməsi məqsədilə uğurla icra olunan Dövlət Proqramları muxtar respublika rəhbərliyinin regionun iqtisadiyyatının davamlı inkişafına göstərdiyi diqqətin bariz nümunəsi olmaqla region iqtisadiyyatının kompleks inkişafına, o cümlədən yeni istehsal və emal müəssisələrinin, yeni iş yerlərinin açılmasına, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə səbəb olmuşdur. Bunun üçün Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr

olunmuş təntənəli tədbirdə çıxış edən ölkə prezidenti cənab İlham Əliyevin dediklərini xatırlamaq kifayətdir. Belə ki, ölkə prezidenti Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli tədbirdə çıxışında demişdir: "Bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır". Qeyd olunanların bariz nümunəsi son 20 il ərzində muxtar respublikada kənd təsərrüfatı sahəsində həyata keçirilmiş dövlət siyasətidir ki, bu dövlət siyasəti əsas etibarı ilə aşağıdakı istiqamətlərdə həyata keçirilməkdədir:

- ✓ aqrar bölmənin normativ-hüquqi bazasının, elmi-metodik təminatının və kadr hazırlığı sisteminin təkmilləşdirilməsinin sürətləndirilməsi;
- ✓ aqrar bölmənin xammal istehsalı və emal sahələrinin əlaqəli inkişafı, rəqabətədavamlı məhsul istehsalının artırılmasının stimullaşdırılması;
- ✓ aqrar bölməyə maliyyə dəstəyinin artırılması;
- ✓ aqrar bölmənin maddi-texniki bazasının möhkəmləndirilməsi;
- ✓ aqrar sektora xidmət edəcək strukturların formalaşdırılması;
- ✓ aqrar bölmə üzrə prioritet istehsal sahələrinin müəyyənləşdirilməsi, həmin sahələrin digər sahələrlə əlaqəli inkişaf strategiyasının hazırlanması;
- ✓ daxili bazarın qorunması, ixracı stimullaşdırmaqla bərabər onun infrastrukturunun təkmilləşdirilməsi;
- ✓ ətraf mühitin mühafizəsi üzrə kompleks tədbirlərin reallaşdırılması, külək eroziyasına qarşı mübarizə aparılması, torpağın deqradasiyasının qarşısının alınması;
- ✓ torpaq bazarının təşkili və inkişafının stimullaşdırılması, yay-qış otlaqlarının pasportlaşdırılaraq inzibati ərazi vahidləri arasında proporsional bölüşdürülməsi;
- ✓ melorasiya və irriqasiya tədbirlərinin genişləndirilməsi;
- ✓ kənd təsərrüfatı yarmarkalarının təşkil edilməsi.

Müasir şəraitdə ölkəmizdə qeyri-neft sektorunun və regionların tarazlı inkişafına xüsusi diqqət yetirildiyi bir vaxtda kənd təsərrüfatının inkişafı əsas istiqamətlərdən biri sayılır. Çünki istənilən ölkənin iqtisadi təhlükəsizliyi birbaşa kənd təsərrüfatının davamlı inkişafından asılıdır (2). Hələ bizim eramızdan əvvəl yunan filosofu Ksenofond kənd təsərrüfatını digər sahələrin anası adlandırırdı. Kənd təsərrüfatı iqtisadi artımın başlıca hərəkətverici qüvvəsi olmaqla onun inkişafı iqtisadiyyatın artımı deməkdir. (cədvəl 1)

Cədvəl 1.

Kənd təsərrüfatı məhsulunun ÜDM-də xüsusi çəkisi, min manat

| Göstəricilər / İllər | Ümumi Daxili Məhsul | Kənd təsərrüfatının ümumi məhsulu |
|---|---|---|
| 1995 | 43721,7 | 38572,2 |
| 2000 | 84862,4 | 55408,2 |
| 2001 | 98100,9 | 62288,6 |
| 2002 | 118211,6 | 69243,6 |
| 2003 | 168040,4 | 71822,1 |
| 2004 | 232441,6 | 78054,9 |
| 2005 | 305796,5 | 98255,1 |
| 2006 | 405657,3 | 109005,1 |
| 2007 | 544958,9 | 122415,9 |
| 2008 | 795763,6 | 153417,5 |
| 2009 | 973649,3 | 185117,2 |
| 2010 | 1171306,0 | 247126,6 |
| 2011 | 1786341,6 | 296117,0 |
| 2012 | 2103424,3 | 318836,0 |
| 2013 | 2338927,7 | 337127,2 |
| 2014 | 2391004,2 | 355156,7 |
| 2015 | 2467422,4 | 402991,8 |
| 2016 | 2582361,4 | 429448,4 |
| 2017 | 2701663,0 | 453364,5 |
| 2018 | 2773020,5 | 480021,2 |

Mənbə: statistika.nmr.az

Cədvəl 1-dən göründüyü kimi, muxtar respublikamızda kənd təsərrüfatının inkişaf tempinə nəzər yetirdikdə görürük ki, 1995-ci ildə kənd təsərrüfatının ümumi məhsulu 38572,2 min manat olmuşdursa, bu rəqəm 2018-ci ildə 480021,2 min manat olmuşdur. 1995-ci illə müqayisədə 2018-ci ildə kənd təsərrüfatının ümumi məhsulu 12,4 dəfə artmışdır. Cədvəl 1-in məlumatlarından göründüyü kimi, kənd təsərrüfatının ümumi məhsulunun 1995-ci illə müqayisədə 2018-ci ildə 12,4 dəfə artmasına baxmayaraq ÜDM-dəki xüsusi çəkisinin 70,9% azalması halı iqtisadiyyatın digər sahələrinin, xüsusən sənaye sahəsinin sürətli inkişafı ilə bağlıdır. Ötən müddət ərzində muxtar respublikada kənd təsərrüfatının inkişafı özünü yeni keyfiyyət dəyişiklikləri formasında biruzə verməkdədir. Başqa sözlə desək, tədarük edilən kənd təsərrüfatı məhsulunun əsas hissəsi emal olunur. Bildiyimiz kimi, iqtisadiyyatda əlavə dəyərin yaradılması isə tarazlı və davamlı inkişaf baxımından çox yaxşı haldır (1).

Kənd təsərrüfatının ümumi məhsulunun son 20 ildə qeyd etdiyimiz bu yüksək artım tempinə malik olması muxtar respublikamızda sənayenin, xüsusən emal sənayesinin inkişafına zəmin yaratmışdır. Belə ki, 2017-ci ildə istehsal olunan sənaye məhsulunun 94,8% emal sənayesinin (917181,1 min manat) payına düşmüşdür və bu gün muxtar respublikanın emal sənayesində 126 növdə ərzaq məhsulu istehsal olunmaqdadır. Muxtar Respublika iqtisadiyyatında daxili bazarın qorunması və istehlakçıların yerli məhsullarla təchizi istiqamətində aparılan islahatların nəticəsidir ki, 108 növdə ərzaq məhsuluna olan tələbatın tamamilə yerli istehsal müəssisələrinin imkanları hesabına ödənilməsi təmin edilmişdir (4). Qeyd edək ki, emal müəssisələrində əldə edilən uğurların başlıca xammal təchizatçısı, bildiyimiz kimi, kənd təsərrüfatı və onun ümumi məhsulunun həcminin artmasıdır(cədvəl 2).

Cədvəl 2

Kənd təsərrüfatının ümumi məhsulu, min manat

| İllər | Cəmi | o cümlədən | |
|---|---|---|---|
| | | Bitkiçilik məhsulları | Heyvandarlıq məhsulları |
| 1995 | 38572,2 | 22296,0 | 16276,2 |
| 2000 | 54497,7 | 34871,2 | 19626,5 |
| 2001 | 58596,6 | 37720,4 | 20876,2 |
| 2002 | 64297,0 | 41743,8 | 22553,2 |
| 2003 | 71822,2 | 43683,9 | 28138,3 |
| 2004 | 78054,9 | 42931,0 | 35123,9 |
| 2005 | 98255,1 | 59513,4 | 38741,7 |
| 2006 | 109005,1 | 67174,9 | 41830,2 |
| 2007 | 122415,9 | 68706,7 | 53709,2 |
| 2008 | 153417,5 | 93927,2 | 59490,3 |
| 2009 | 185117,2 | 116396,7 | 68720,5 |
| 2010 | 247126,6 | 156037,2 | 91089,4 |
| 2011 | 296117,0 | 192998,8 | 103118,2 |
| 2012 | 318836,0 | 211595,0 | 107241,0 |
| 2013 | 337127,2 | 222964,2 | 114163,0 |
| 2014 | 355156,7 | 229646,2 | 125510,5 |
| 2015 | 402991,8 | 256082,4 | 146909,4 |
| 2016 | 429448,4 | 263814,7 | 165633,7 |
| 2017 | 453364,5 | 282174,0 | 171190,5 |
| 2018 | 480021,2 | 302738,3 | 177282,9 |

Mənbə: statistika.nmr.az

Cədvəl 2-dəki kənd təsərrüfatının ümumi məhsulunun strukturuna nəzər yetirdikdə görürük ki, 1995-ci ildə istehsal olunmuş 38572,2 min manatlıq kənd təsərrüfatı məhsulunun 22296,0 min manatı əkinçilik sahəsinin, 16276,2 min manatı isə heyvandarlıq sahəsinin payına düşür. Bu rəqəm 2018-ci ildə müvafiq olaraq (2018-ci ildə kənd təsərrüfatı ümumi məhsulunun həcmi 480021,2 min manat) 302738,3 min manat, 177282,9 min manat olmuşdur. 1995-2018-ci illəri müqayisə etdikdə, əkinçilik sahəsində ötən 20 il ərzində 13,8 dəfə, heyvandarlıq sahəsində ötən 20 il ərzində 10,9 dəfə artıma nail olunduğu bariz şəkildə görülür (4). Əkinçilik sahəsində müşahidə edilən daha dinamik artımın digər bir səbəbi bu sahəyə dövlətin prioritet sahə kimi mühüm önəm verməsidir. Belə ki, mineral gübrələrin satış qiymətinə edilən güzəştin həcminin 50 faizdən 70 faizə çıxarılması, kənd təsərrüfatı texnikasının dəyərinin 40 faizinin dövlət büdcəsi vəsaitləri hesabına ödənilməsi və s. kimi addımlar dinamik inkişafın əsasını təşkil edir.

İqtisadi artımın sürəti yüksək olan ölkələrdə ərzaqla təmin olunma səviyyəsi də yüksək olur. Kənd təsərrüfatı insanlar üçün əsas ərzaq mənbəyi hesab edilir. Belə ki, əhalinin istehlak fondunun ən azı üçdə ikisi bilavasitə kənd təsərrüfatı məhsulları hesabına təmin olunur (5). Naxçıvan Muxtar Respublikasında əhalinin zəruri ərzaq məhsulları ilə təmin edilməsi məqsədilə aqrar bölmədə son 20 ildə aparılan köklü islahatlar və həyata keçirilən tədbirlər bu sahənin daha sürətli inkişafına əlverişli zəmin yaratmışdır. Bu tədbirlərdən işçi qüvvəsinin muxtar respublika ərazisində məhdudiyyətsiz hərəkətinin təmin edilməsi, mütəşəkkil ticarətin təşkilinin dövlət tərəfindən dəstəklənməsi, əsas növ ərzaq məhsullarının istehsal olunmasına şəraitin yaradılması, yerli və xarici mənşəli ərzaq məhsullarının keyfiyyətinə müvafiq nəzarət mexanizminin tətbiqi və istehlak bazarında texnoloji, ekoloji, sanitar və baytar tələblərə cavab verməyən məhsulların satışının qarşısının alınması, kənd təsərrüfatı məhsullarının ixracına dövlət müdaxiləsinin həyata keçirilməsi, kənd təsərrüfatı maşın və mexanizmlərinin, gübrələrin güzəştli şərtlərlə istehsalçılara çatdırılması və bu istiqamətdə genişmiqyaslı kreditləşmənin təşkil edilməsi və s. misal göstərmək olar. Görülən işlər nəticəsində hazırda muxtar respublikamızda 126 növdə ərzaq məhsullarının istehsalına (108 ərzaq məhsuluna olan tələbatın tamamilə yerli istehsal müəssisələri hesabına ödənilir) nail olunmuş, nəticə etibarilə daxili ərzaq bazarının idxaldan asılılıq səviyyəsi azalmış, idxalın strukturunda keyfiyyət dəyişiklikləri (idxal həcmində bir zamanlar üstünlük təşkil edən ərzaq məhsullarının öz yerini müasir texnika və texnologiyaya verməsi) baş vermişdir. (cədvəl 3)

Cədvəl 3

Əsas ərzaq məhsulları istehsalı, hər bir nəfərə il ərzində kq

| İllər | Taxıl | Kartof | Tərəvəz | Ərzaqlıq bostan məhsulları | Meyvə və giləmeyvə | Ət | Süd | Yumurta, ədəd |
|---|---|---|---|---|---|---|---|---|
| 1999 | 121 | 30 | 73 | 50 | 73 | 13 | 138 | 165 |
| 2000 | 151 | 37 | 118 | 93 | 79 | 15 | 151 | 163 |
| 2001 | 173 | 42 | 131 | 102 | 79 | 17 | 151 | 165 |
| 2002 | 200 | 37 | 136 | 108 | 78 | 19 | 160 | 116 |
| 2003 | 219 | 38 | 143 | 112 | 77 | 18 | 157 | 116 |
| 2004 | 247 | 45 | 147 | 107 | 44 | 21 | 167 | 122 |
| 2005 | 245 | 69 | 148 | 105 | 96 | 21 | 170 | 127 |
| 2006 | 245 | 87 | 147 | 96 | 96 | 22 | 176 | 131 |
| 2007 | 209 | 87 | 153 | 99 | 95 | 23 | 180 | 134 |
| 2008 | 228 | 87 | 154 | 98 | 95 | 23 | 182 | 138 |
| 2009 | 237 | 94 | 159 | 99 | 95 | 24 | 185 | 138 |
| 2010 | 237 | 94 | 159,4 | 99 | 96 | 25 | 187 | 158 |
| 2011 | 241 | 92 | 156 | 96 | 96 | 26 | 185 | 163 |
| 2012 | 241 | 93,3 | 156 | 98,8 | 99,3 | 24,4 | 185,4 | 164,5 |
| 2013 | 251 | 94,8 | 152,7 | 89,7 | 99,4 | 24,9 | 180,6 | 160 |
| 2014 | 260,2 | 94,6 | 152,5 | 78,5 | 82,7 | 25 | 180,4 | 160,5 |
| 2015 | 265,4 | 101,9 | 185,5 | 86 | 115,6 | 31,2 | 181,5 | 166,2 |
| 2016 | 210,7 | 103,9 | 186,1 | 85,5 | 116,3 | 31,5 | 182,1 | 180 |
| 2017 | 206,3 | 108,2 | 187,1 | 84,7 | 117,2 | 31,8 | 183 | 190,4 |
| 2018 | 214,2 | 108,9 | 187,8 | 84,9 | 122,7 | 33,1 | 184,1 | 191,4 |

Mənbə: statistika.nmr.az

Muxtar respublikamızda əhalinin zəruri ərzaq məhsulları ilə təminatına rəqəmlərin gözü ilə nəzər yetirdikdə cədvəl 3-də görürük ki, 1999-cu ildə adambaşına düşən əsas ərzaq məhsullarının istehsalı tazıl üzrə 121 kq, kartof üzrə 30 kq, tərəvəz məhsulları üzrə 73 kq, ərzaqlıq bostan bitkiləri üzrə 50 kq, meyvə və giləmeyvə üzrə 73 kq, ət üzrə 13 kq, süd üzrə 138 kq, yumurta üzrə 165 ədəd olmuşdursa, bu rəqəm 2018-ci ildə müvafiq olaraq taxıl üzrə 214,2 kq (1999-cu illə müqayisədə 2018-ci ildə artım 1,8 dəfə), kartof üzrə 108,9 kq (artım 3,6 dəfə), tərəvəz məhsulları üzrə 187,8 kq (artım 2,6 dəfə), ərzaqlıq bostan bitkiləri üzrə 84,9 kq (artım 1,7 dəfə), meyvə və giləmeyvə üzrə 122,7 kq (artım 1,7 dəfə), ət üzrə 33,1 kq (artım 2,5 dəfə), süd üzrə 184,1 kq (artım 1,3 dəfə), yumurta üzrə 191,4 ədəd (artım 1,2 dəfə) olmuşdur. Bu rəqəmlər ötən 20 il ərzində ilbəil muxtar respublika əhalisinin əsas ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılmasının bariz nümunəsidir. Digər bir tərəfdən muxtar respublika əhalisinin əsas ərzaq məhsulları ilə təminatını daha da yaxşılaşdırmaq, regionun xarici bazarlardan asılılığını azaltmaq məqsədilə əkin aparılmış sahələr 1999-cu illə (27414,0 ha) müqayisədə 2,3 dəfə artırılaraq 2018-ci ildə 61 min 935 hektara çatdırılmışdır (4).

Əkinə yararlı torpaq sahələrindən istifadə səviyyəsinin yüksəldilməsi, eyni zamanda, muxtar respublikanın ixrac potensialını artırır. Belə ki, tarazlı və davamlı inkişaf məntiqinə əsaslanan məqsədyönlü siyasətin həyata keçirilməsi nəticəsində 2018-ci ilin yanvar-sentyabr aylarında 85,8 milyon ABŞ dolları həcmində kənd təsərrüfatı məhsulları, xüsusilə meyvə və tərəvəz məhsulları xarici bazarlara ixrac olunmuşdur (4).

Əhalinin davamlı olaraq keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasına yönəlmiş dövlət siyasəti hazırda insan inkişafı naminə həyata keçirilən işlərin əsas istiqamətlərindən biridir. Ölkənin ərzaq bazarının inkişafı ilə bərabər, insanların sağlamlığı və uzun ömürlülüyü, gələcək nəsillərin həyatının təhlükəsizliyi məhz aqrar sahədə görülmüş işlərin keyfiyyətindən çox asılıdır. Odur ki, kənd təsərrüfatı sahəsində verilən hər bir qərar, görülən hər bir iş aktuallığını daima qorumaqdadır. Muxtar respublikada əhalini təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında yeni istiqamətləri müəyyənləşdirmiş və muxtar respublika rəhbərliyinin qeyd olunan məsələyə həssaslığını bir daha sübut etmişdir. Digər tərəfdən muxtar respublika əhalisinin keyfiyyətli ərzaq məhsulları ilə təmini baxımından regionumuzda ötən 20 il ərzində taxılı uzun müddət saxlamağa imkan verən anbarların həcmi 32 min tona, kənd təsərrüfatı məhsullarının saxlanması və satışını təmin edən soyuducuların sayı 31-ə, ümumi tutumu isə 14 min 30 tona çatdırılmışdır. Belə anbarların sayı və tutumunun gələcəkdə artırılması yeyinti və yüngül sənayenin sürətli inkişafına təkan verəcəkdir.

Son 20 il ərzində aparılan məqsədyönlü tədbirlərin nəticələrinə və atılan addımlara əsaslanaraq söyləyə bilərik ki, Naxçıvan Muxtar Respublikasında regionun mövcud potensialından və sərvətlərindən istifadə edərək (ümumi torpaq fondunun 49,4% - 264,7 min ha kənd təsərrüfatına yararlı torpaq sahəsi) kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq və aqrar sahənin inkişafına nail olmaq regionların inkişaf səviyyəsində olan fərqləri azaltmaq və regional tarazlığı təmin etmək məqsədinə xidmət edir. Belə ki, muxtar respublika əhalisinin 70,5%-nin kənd yerlərində yaşaması məşğulluq səviyyəsini artırmaq, digər regionlardan inkişaf edən regiona doğru olan fəal işçi axınının qarşısını almaq baxımından kənd təsərrüfatının inkişaf etdirilməsini zəruri edir. Məhz bu baxımdan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası prosesində muxtar respublikada 1022 müxtəlif təyinatlı istehsal müəssisələri yaradılmışdır ki, bunlardan 575-i (56,3%-i) kənd əhalisinin məşğulluğunun təmin edilməsi məqsədilə yaradılmış kənd təsərrüfatı təyinatlı məhsul istehsal edən müəssisələrdir. Kənd təsərrüfatı təyinatlı məhsul istehsal edən müəssisələrin yaradılması hesabına muxtar respublikanın aqrar sektorunda məşğulluq problemi həll edilməkdədir. Belə ki, 2003-cü ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində işləyən işçilərin sayı 2289 nəfər olmuşdursa, bu rəqəm 2018-ci ildə 6443 nəfər olmuşdur. 2003-cü illə müqayisədə 2018-ci ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində işləyən işçilərin sayı 2,8 dəfə artmışdır. Digər bir aspektdən təhlil aparsaq görərik ki, 2003-cü ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində işləyən işçilərin sayının iqtisadi fəaliyyət növləri üzrə muzdla işləyən işçilərin sayında xüsusi çəkisi 5,4% olmuşdursa, bu rəqəm 2018-ci ildə 6,6% olmuşdur. 2003-cü illə müqayisədə 2018-ci ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində işləyən işçilərin sayının iqtisadi fəaliyyət növləri üzrə muzdla işləyən işçilərin sayında xüsusi çəkisi 1,2% artmışdır. Tarazlı və davamlı inkişaf məntiqinə əsaslanan qeyd etdiyimiz məqsədyönlü tədbirlərin həyata keçirilməsi muxtar respublikanın regionlarında iş imkanlarının çox, işsizlik səviyyəsinin aşağı, əmək haqlarının yüksək və dolayısı ilə satınalma gücünün yuxarı olmasına, son nəticədə, regionda sosial xidmətlərin inkişaf etməsinə səbəb olmaqdadır (7).

Son olaraq qeyd edək ki, əldə olunmuş uğurların əsasında ümummilli lider Heydər Əliyevin uzaqgörənliklə həyata keçirdiyi aqrar islahatlar dayanır. Ümummilli lider Heydər Əliyevin böyüklüyü Naxçıvan Muxtar Respublikasının geniş iqtisadi potensiala və ixtisaslaşma istiqamətinə malik olmasını, həm dağlıq, həm də düzənlik ərazilərdə bitkiçilik və heyvandarlığın inkişaf etdirilməsi üçün əlverişli şəraitin olduğunu, muxtar respublika əhalisinin 70,5%-nin kəndlərdə yaşamasını və onların məşğulluğunun təmin edilməsinin yeganə yolunu qabaqcadan görərək ilk dəfə ölkə üzrə Naxçıvan Muxtar Respublikasında aqrar islahatlara təkan verməsidir.

## ƏDƏBİYYAT


1. Bağırov M.S., Mahmudov C.İ. Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı: problemlər və həlli yolları, Naxçıvan, Əcəmi, 2017, 257 səh.
2. Hüseynov M.C. Aqrar sahənin dayanıqlı inkişaf problemləri, Bakı, Nurlan, 2006, 302 səh.
3. "Mülkiyyət" qəzeti, №5 (1109), 02.02.2019
4. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytı: www.statistika.nmr.az
5. Novruzov V.T. İnkişaf və tərəqqinin Heydər Əliyev modeli, Bakı, Elm, 2004, 288 səh.

6. Salahov S.V. Aqrar iqtisadiyyatın dövlət tənzimlənməsi problemləri, Bakı, Nurlan, 2004, 504 s.
7. Махмудов Дж.И. Различие регионов по уровню развития и проблема занятости молодёжи: взаимная связь и зависимость, «Экономика. Право. Государство» Международный научный журнал, № 1 (1), Волгаград, Наука, 2018, стр. 14-21.

## ABSTRACT

**Jeyhun Mahmudov**

**THE ROLE OF AGRARIAN SFERE IN ENSURE THE BALANCED DEVELOPMENT OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**

In the article given information about the work done in agrarian sfere over the last 20 years in Nakhchivan Autonomous Republic, analized corresponding time interval figures and argue about reformes in agrarian sfere.

In work, also, has been reported, that agricultural development is one of important direction of the country's economic balance and it has been highlighted that it is important for its improvement and transformation goals.

## РЕЗЮМЕ

**Джейхун Махмудов**

**РОЛЬ АГРАРНОЙ ОТРАСЛИ В СБАЛАНСИРОВАННОМ РАЗВИТИИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ**

В статье дается информация о работах, проведенных в аграрной отрасли за последние двадцать лет, повествуется об успехах в сельском хозяйстве в заданном промежутке времени за счет проводимых реформ.

В работе также доводится до сведения информация по развитию сельского хозяйства, как одной из балансирующих экономику страны направлений, о важной значимости по проводимым в этой сфере целевым мероприятиям в сфере усовершенствования и трансформации

**ƏŞRƏF ƏLƏKBƏROV**
*Naxçıvan Dövlət Universiteti*
*a.ashraf@mail.ru*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ƏHALİNİN ETİBARLI ƏRZAQ MƏHSULLARI İLƏ TƏMİNATINDA AQRAR İSLAHATLARIN ROLU

**Açar sözlər:** *iqtisadi inkişaf, aqrar islahatlar, ərzaq təhlükəsizliyi, etibarlı ərzaq məhsulları, kənd təsərrüfatı*
**Key words:** *economy development, agrarian reform, food safety, reliable foodstuffs, agriculture*
**Ключевые слова:** *экономическое развитие, аграрные реформы, продовольственная безопасность, надёжная продовольственная продукция, сельское хозяйство*

Davamlı inkişafı şərtləndirən əsas amillərdən biri ölkədə ərzaq təhlükəsizliyinə nail olunmasıdır. Çünki etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlığının başlıca şərti, dövlətin kompleks təhlükəsizliyinin, o cümlədən iqtisadi təhlükəsizliyinin mühüm komponentlərindən hesab edilir. Hazırda dünya iqtisadiyyatında cərəyan edən proseslərin ümumi təhlili göstərir ki, ərzaq təhlükəsizliyi getdikcə daha ciddi xarakter daşıyan bir məsələyə çevrilib.

Son illər dünyanın aparıcı ölkələrinin maliyyə problemləri ilə üzləşməsi, habelə əhali sayının çoxalması və digər bu kimi amillər əsas ərzaq məhsullarının qıtlığına və dünya bazarında qiymət artımına səbəb olmaqdadır. Artıq bəzi ölkələrdə ərzaq qıtlığı problemi real təhlükəyə çevrilmiş və ərzaq ehtiyatları minimum həddə çatmışdır. Sərvətlərdən və təbii ehtiyatlardan səmərəli istifadə etmək, kənd təsərrüfatı və emal məhsullarını artırmaq, xidmət və digər infrastruktur obyektlərini, müvafiq sahələri inkişaf etdirmək üçün beynəlxalq layihələrdən istifadə edilməsi əsas şərtlərdəndir (1, səh. 150). Etibarlı ərzaq təminatı isə hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanaqlılığının, dövlətin iqtisadi təhlükəsizliyinin qarantıdır. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına görə, əgər 1950-1985-ci illərdə ərzaq istehsalının illik artımı 30 milyon ton, 1985-1995-ci illərdə 12 milyon ton təşkil edirdisə, 2030-cu ilədək bu göstərici cəmi 9 milyon ton səviyyəsində olacaq. Qarşıdakı illər ərzində əhali artımı ilə müqayisədə ərzaq istehsalının ötən dövrlərə nisbətən azalması bir daha qida təhlükəsizliyinin gələcək illərdə təmin olunmasının nə dərəcədə zəruri xarakter daşıyacağını əyani təsəvvür etməyə imkan verir.

Məlum olduğu kimi, əhalinin keyfiyyətli və etibarlı ərzaq məhsulları ilə təminatı bütövlükdə bazar münasibətləri sisteminin mühüm tərkib hissəsi olmaqla həm də regional iqtisadiyyatın inkişafında mühüm hərəkətverici qüvvə kimi çıxış edir (3, səh. 128). Bu baxımdan Naxçıvan MR-də bu sahədə həyata keçirilən islahatlara nəinki mikroiqtisadi aspektdən, eləcə də daha çox strateji anlamdan yanaşılmalıdır. Qeyd etmək lazımdır ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan aqrar islahatlar kursu ilkin olaraq Naxçıvan MR-dən başlanmışdır. Muxtar respublikada həyata keçirilən aqrar islahatlar nəticəsində keçmiş kolxoz və sovxozlara məxsus torpaq və əmlak, eləcə də mal-qara özəlləşdirilmişdir ki, bu da 1991-1992-ci illərdə mövcud olan iqtisadi böhranın qarşısının alınmasında, eləcə də ərzaq bazarında qıtlığın aradan qaldırılmasında mühüm əhəmiyyət kəsb etmişdir. Məhz ulu öndər Heydər Əliyev xalqın təkidli tələbləri ilə ikinci dəfə hakimiyyətə qayıdışı nəticəsində ölkədə uğurla reallaşdırılan aqrar transformasiya prosesləri Naxçıvan MR-də də öz müsbət nəticələrini vermişdir. Naxçıvan MR Ali Məclisi tərəfindən qəbul edilən qanunlar və qərarlar da əhəmiyyətli töhvələr vermişdir.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsi nəticəsində qazanılmış uğurların miqyası və əhatə dairəsi xeyli genişlənmişdir. Ölkə prezidentinin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixdə imzaladığı fərmanla müəyyən edilmiş sosial-iqtisadi inkişafın əsas istiqamətləri üzrə həyata keçirilən tədbirlər bu sahədə əldə edilmiş nailiyyətləri daha da möhkəmləndirmişdir. Digər tərəfdən iqtisadiyyatın bütün sahələrində inkişafa istiqamətlənmiş tədbirlərin ayrı-ayrı dövlət proqramları çərçivəsində həyata keçirilməsi ümumi nəticədə səmərəliliyi xeyli artırmış, ümumiqtisadi inkişafın mərkəzlə yanaşı regionlara doğru istiqamətlənməsində müstəsna əhəmiyyət kəsb etmişdir. Qeyd olunan ümumi inkişaf fonunda Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı və sosial həyatı özünəməxsusluğu ilə fərqlənir. İşğalçı Ermənistan Respublikasının Azərbaycan torpaqlarına hərbi təcavüzü nəticəsində ölkənin əsas hissəsindən ayrı düşərək iqtisadi və nəqliyyat əlaqələri baxımından blokada şəraitində yaşamağa məhkum olunmuş muxtar respublika mövcud çətinliklərə baxmayaraq ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq prosesində fəal iştirak edir.

Ərzaq məhsullarına olan tələbatın ödənilməsində aparılan məqsədyönlü iqtisadi siyasət önəmli rol oynayır. Bu baxımdan illərdir ki, iqtisadi blokada şəraitində yaşayan Naxçıvan MR-nin iqtisadi inkişafı region əhalisinin ərzaq məhsulları ilə özünütəminat səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Regionda həm istehsalçıların və həm də istehlakçıların maraqlarını qarşılıqlı şəkildə koordinasiya etməklə əhalinin ərzaq təminatının yaxşılaşdırılmasında da mühüm rol oynayar.

Azərbaycan Respubliksaının iqtisadi-coğrafi rayonlaşdırılmasında Naxçıvan Muxtar Respublikasının ərazisi bütövlükdə ölkədaxili iqtisadi rayonlardan biri kimi qeyd olunmuşdur. Lakin o, özünün çoxsahəli strukturu ilə fərqlənir. Bu, muxtar respublikanın Azərbaycan Respublikasının əsas ərazisindən təcrid edilmiş coğrafi məkanda yerləşməsi və bununla əlaqədar burada yerli tələbatı müvafiq istehsal sahələri yaratmaq hesabına təmin etmək zərurəti ilə izah olunur. Naxçıvan Muxtar Respublikası inkişafda olan çoxsahəli sənaye və aqrar-sənaye regionudur. Sənayedə yerli kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur. Elektronika, metal emalı, tikinti materialları və yüngül sənayesi var. Kənd təsərrüfatı, əsasən taxılçılıq, heyvandarlıq, tərəvəzçilik və bağçılıq sahəsində ixtisaslaşmışdır. Muxtar respublikada iqtisadi islahatlar ardıcıl həyata keçirilmiş, torpaq islahatı başa çatdırılmış, azad sahibkarlığın, xüsusi mülkiyyətin və biznesin inkişafı üçün geniş imkanlar yaradılmışdır.

Həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq 2018-ci ildə ümumi daxili məhsul istehsalı 2 milyard 773 milyon manatdan artıq olmuşdur ki, bu da bir il öncəki göstəricidən 1,3 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə bir il öncəyə nisbətən 1,9 faiz artaraq 6101,3 manata çatmışdır. Ümumi daxili məhsulun tərkibində ilk yeri 27,4 faizlə sənaye tutmuş və maddi istehsalın payı 58,6 faiz təşkil etmişdir. 2017-ci illə müqayisədə 2018-ci ildə sənaye məhsulu 1,3 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,1 faiz, kənd təsərrüfatı məhsulu 4,4 faiz, nəqliyyat sektorunda yük daşınması 1,9 faiz, informasiya və rabitə xidmətləri 3,3 faiz, o cümlədən mobil rabitə xidməti 2 faiz artmışdır (7).

*Cədvəl 1. Makroiqtisadi göstəricilər*

| Müqayisə predmeti | 2018-ci ildə, faktiki | 2018-ci il 2017-ci ilə nisbətən, faizlə |
|---|---|---|
| ÜDM, min manat | 773 020,5 | 2101,3 |
| Hər bir nəfərə düşən ÜDM, manat | 6 101,3 | 101,9 |
| Sənaye məhsulu, min manat | 990 067,0 | 101,3 |
| Kənd təsərrüfatı məhsulu, min manat | 480 021,2 | 104,4 |
| Pərakəndə əmtəə dövriyyəsi, min manat | 1 702 011,3 | 100,7 |
| Xarici ticarət dövriyyəsi, min ABŞ dolları | 483 431,6 | 105,1 |
| o cümlədən ixrac | 424 266,6 | 100,2 |
| Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı, manat (yanvar-noyabr ayları) | 429,9 | 103,2 |

Muxtar respublikada davamlı inkişafın təmin edilməsi, sahibkarlıq fəaliyyətinə meyilin stimullaşdırılması və bu istiqamətdə bütün cəhdlərin hərtərəfli dəstəklənməsi sahəsində mühüm tədbirlər həyata keçirilmiş, bu sahədə məqsədli proqramlar hazırlanmışdır. Naxçıvan Muxtar Respublikasında təbii sərvətlərdən və yerli şəraitdən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək, əhalinin güzəranını daha da yaxşılaşdırmaq, əhalinin etibarlı ərzaq məhsulları ilə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqram"ları, "Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında", "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" təsdiq olunmuş və icrası uğurla reallaşdırılmaqdadır.

Muxtar respublikada əhalinin keyfiyyətli və etibarlı ərzaq məhsulları ilə təminatında kənd təsərrüfatı əhəmiyyətli rol oynayır. Xarici ölkələrin təcrübəsindən görünür ki, bazar iqtisadiyyatı şəraitində çalışan kənd təsərrüfatı istehsalçıları bazar rəqabətinə tab gətirmək üçün özəl emala və marketinqin təşkilinə meyil göstərilməlidir (4, səh. 49). Naxçıvan Muxtar Respublikasında əhalinin zəruri ərzaq məhsulları ilə təmin edilməsi məqsədilə aqrar bölmədə aparılan köklü islahatlar bu sahənin daha sürətli inkişafına əlverişli zəmin yaratmışdır. Bu tədbirlərdən işçi qüvvəsinin muxtar respublika ərazisində məhdudiyyətsiz hərəkətinin təmin edilməsi, mütəşəkkil ticarətin təşkilinin dövlət tərəfindən dəstəklənməsi, əsas növ ərzaq məhsullarının kifayət qədər istehsal olunmasına şəraitin yaradılması, yerli və xarici mənşəli ərzaq məhsullarının

keyfiyyətinə müvafiq nəzarət mexanizminin tətbiqi və istehlak bazarında texnoloji, ekoloji, sanitar və baytar tələblərinə cavab verməyən məhsulların satışının qarşısının alınması, kənd təsərrüfatı məhsullarının ixracına dövlət tənzimlənməsinin həyata keçirilməsi, zəruri infrastrukturun, anbarların yaradılması, kənd təsərrüfatı maşın və mexanizmlərinin, gübrələrin güzəştli şərtlərlə istehsalçılara çatdırılması və bu istiqamətdə genişmiqyaslı kreditləşdirilmənin təşkili müntəzəm xarakter almışdır.

Yeni emal müəssisələrinin yaradılması, məhsul istehsalçılarına dövlət maliyyə yardımının göstərilməsi, güzəştli şərtlərlə gübrə satışının təşkili, məhsulun satışı üçün yarımarkaların keçirilməsi kənd təsərrüfatı sahəsində məhsul istehsalının həcminin ildənilə artmasına səbəb olmuşdur. Ərzaq bazarına yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi muxtar respublikada pərakəndə əmtəə dövriyyəsinin genişləndirilməsində mühüm rol oynayır. Təbii ki, bütün bunlar muxtar respublikanın sosial-iqtisadi inkişafını sürətləndirməklə yanaşı, ərzaq təhlükəsizliyinin təmin edilməsinə və ərzaq müstəqilliyinin qorunub saxlanılmasına əlverişli şərait yaradır. Muxtar respublikanın sosial-iqtisadi inkişafı, onun əhalisinin həyat səviyyəsi, alıcılıq qabiliyyəti aqrar sektorun kompleks inkişafının əsas istiqamətlərini müəyyən edir (2, səh. 226).

Muxtar respublikanın iqlim şəraiti və əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması burada əkinçiliyin geniş yayılmasını şərtləndirir. 2018-ci ilin məhsulu üçün 61935 hektar sahədə əkin işləri həyata keçirilmişdir. ki, bu da 1995-ci ilin məhsulu üçün əkilmiş sahədən 2,5 dəfə çoxdur (7).




*Qrafik 1. Cəmi əkin sahələri, hektarla*

Muxtar respublikada əsas təbii ehtiyat sayılan torpaqların məhdud olması nəzərə alınır və bitkiçilik müasir aqrokimyəvi və aqrotexniki tədbirlərə əsaslanan intensiv metodlarla, yəni məhsuldarlığın yüksəldilməsi yolu ilə inkişaf etdirilir. 2018-ci ilin məhsulu üçün 32483 hektar sahədə taxıl əkilmiş, zəmilərdən 97 min 689 ton məhsul tədarük edilmişdir. Muxtar respublikada taxılçılıqla yanaşı kartof istehsalına xüsusi diqqət yetirilir. Daxili bazarın kartofla təminatında idxaldan asılılığı azaltmaq, əhali tələbatının keyfiyyətli yerli məhsul hesabına ödənilməsini təmin etmək əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Reallaşdırılan uğurlu iqtisadi siyasətin nəticəsidir ki, son illər muxtar respublikada kartof istehsalı üzrə müsbət dinamikaya nail olunmuş və 2018-ci ildə 3215 hektar sahədə kartof əkilmişdir ki, bu da 1991-ci ildə kartof əkilmiş sahədən 3097 hektar çoxdur. 2018-ci ildə sahələrdən 49574 ton məhsul yığılmışdır ki, bu da 1991-ci ildə olan göstəricini 49150 ton üstələmişdir (7).




*Qrafik 2. Kartof əkini və istehsalının dinamikası*

Aparılan məqsədyönlü tədbirlər öz növbəsində istehsal olunan kənd təsərrüfatı məhsulları həcminin artması ilə nəticələnmişdir. 1991-ci ildə muxtar respublikada 13 milyon 856 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdursa, 2018-ci ildə bu göstərici 480 milyon 21 min manatı ötmüşdür.

Torpaq sahələrinin meliorativ cəhətdən münbitləşdirilməsi və suvarma suyuna olan tələbatının səmərəli ödənilməsi üçün meliorasiya və irriqasiya sahəsində həyata keçirilən tədbirlərin də miqyası artmışdır. Məhz bu baxımdan muxtar respublikamızda meliorasiya və irriqasiya sistemlərinin texniki imkanlarının genişləndirilməsi daim diqqət mərkəzində saxlanılır. İqlim şəraiti nəzərə alınaraq muxtar respublikanın su ehtiyatını artırmaq məqsədilə mövcud su anbarlarında təmir işləri aparılmış, yenilərinin tikilməsi üçün müvafiq tədbirlər həyata keçirilmişdir.




*Qrafik 3. Kənd təsərrüfatının ümumi məhsulu, min manat*

Muxtar respublikada kənd təsərrüfatının əsas sahələrindən biri də heyvandarlıqdır. Əhalinin heyvandarlıq məhsulları ilə etibarlı təminatı üçün bu sahəyə xüsusi diqqət yetirilmiş, heyvanların baş sayında və heyvandarlıq məhsullarının istehsalında artıma nail olunmuşdur.

Muxtar respublikamızda dövlət baytarlıq xidməti orqanları tərəfindən heyvan (mal-qara, quşlar, balıqlar, arılar, vəhşi heyvanlar) xəstəliklərinin qarşısının alınması, insan sağlamlığı üçün yararlı və təhlükəsiz heyvandarlıq məhsullarının istehsalı, habelə əhalinin heyvan və insanlar üçün ümumi olan xəstəliklərdən mühafizəsi, heyvandarlıqda yüksək məhsuldarlıq göstəricilərinin təmin olunması üçün xüsusi əhəmiyyət kəsb edən süni mayalandırma işinin təşviqi üzrə elmi, praktiki və təşkilati tədbirlər reallaşdırılmaqdadır. Həyata kçirilən məqsədyönlü tədbirlər və əhalidə xüsusi mülkiyyətə münasibətin köklü dəyişməsi, fərdi sahibkarlıq fəaliyyətinin üstün istiqamət alması öz növbəsində muxtar respublikada il ərzində istehsal olunan kənd təsərrüfatı məhsullarının həcminin artmasını şərtləndirən əsas amillərdəndir. Aparılan araşdırmalardan belə qənaətə gəlmək mümkündür ki, Naxçıvan MR-də əhalinin etibarlı ərzaq məhsulları ilə təmin olunması, məhz aqrar sahədə həyata keçirilən islahatların müvəffəqiyyətli nəticəsi kimi xarakterizə olunmalıdır.

## ƏDƏBİYYAT


1. İbrahimov İ.H. Regionlarda sahibkarlığın inkişaf meyilləri və xüsusiyyətləri, Bakı: Səda, 2007, 296 s
2. Abbasov T.A. Aqrar bazar və sahibkarlığın regional inkişaf istiqamətləri, Bakı, 2006, 287s.
3. Abbasov A.F. Ərzaq təhlükəsizliyi, Bakı: Nasir, 2007, 602 s.
4. İbrahimov İ.H. Sahibkarlıq fəaliyyətinin tənzimləməsi məsələləri, Bakı: Səda, 2010, 240 s.
5. Alıyev İ.H. Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri, Bakı: Elm, 2006, 380 s.
6. Qurbanzadə A.A. Azərbaycanın kənd təsərrüfatı coğrafiyası, Bakı: Kooperasiya, 2011, 256 s.
7. www.statistika.nmr.az


## ABSTRACT

**Ashraf Alakbarov**

### THE ROLE OF AGRARIAN REFORM IN PROVIDING POPULATION WITH RELIABLE FOODSTUFFS IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

One of the main factors contributing to sustainable development is the achievement of food security in the country. Because reliable food supply is a key condition for the economic stability and social sustainability of each country, and is one of the most important components of the country's comprehensive security, including its economic security. A general analysis of the processes taking place in the world economy shows that food security has become an increasingly serious issue.

In the article were examined the agrarian reform which implemented in providing population with reliable food products in the Nakhchivan Autonomous Republic and that reforms were characterized as successful outcome of food security.

## РЕЗЮМЕ

**Ашраф Алекперов**

### РОЛЬ АГРАРНЫХ РЕФОРМ В ОБЕСПЕЧЕНИИ НАСЕЛЕНИЯ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ В НАДЁЖНОЙ ПРОДОВОЛЬСТВЕННОЙ ПРОДУКЦИЕЙ

Одним из основных факторов, обуславливающих длительное развитие, является достижение продовольственной безопасности в стране. Потому что надёжное продовольственное обеспечение является главным условием экономической стабильности и социальной устойчивости страны, и считается важным компонентом продовольственной безопасности, в том числе экономической безопасности. В настоящее время общий анализ текущих процессов в мировой экономике показывает, что вопросы продовольственной безопасности принимают все более серьёзный характер.

В статье исследованы аграрные реформы, осуществляемые в направлении обеспечения населения Нахчыванской Автономной Республики надёжной продовольственной продукцией, а эти реформы охарактеризованы как успешный итог продовольственной безопасности.

**ŞAMXAL MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*
*shamkhal.mammadov@gmail.com*

# XIX-XX YÜZİLLİKDƏ RUSİYANIN CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ ERMƏNİ AMİLİ VƏ NAXÇIVANDA MİQRASİYA PROSESLƏRİ

**Açar sözlər:** *Miqrasiya, deportasiya, mühacirət, milli zülm, sürgün, repressiya*
**Key words:** *migration, deportation, immigration, national oppression, exile, repression*
**Ключевые слова:** *миграция, депортация, иммиграция, национальное угнетение, изгнание, репрессии*

Cənubi Qafqazın mühüm geostrateji ərazilərindən olan Naxçıvan, həm də bəşər sivilizasiyasının ilkin ocaqlarından biridir. Mühüm karvan yollarının qovşağında yerləşən bu diyar tarix boyu böyük müharibələrin, işğalçılıq yürüşlərinin, insan köçlərinin mərkəzində yer almış, müxtəlif xarici güclərin diqqətini çəkmişdir. Bütün qədim dövrlər və orta əsrlər ərzində Naxçıvan vaxtaşırı olaraq xarici basqınlara, siyasi sarsıntılara, köçlərə məruz qalmışdır. Yeni və ən yeni dövrün mühüm zaman kəsiyi olan XX əsr də bu baxımdan istisnalıq təşkil etmir. Hələ XIX əsrin əvvəllərində, Cənubi Qafqazın digər əraziləri kimi, Naxçıvanı da işğal edən Rusiya imperiyası burada özünün milli-müstəmləkə rejimini qurmuşdu. Həmin rejimin başlıca mahiyyəti xaricdən xristian erməniləri köçürüb məskunlaşdırmaq yolu ilə regionu erməniləşdirmək, türk-müsəlman əhalinin sayını azaltmaqla erməni amilindən yararlanmaq idi. Buna görə də Türkmənçay sülhündən dərhal sonra Naxçıvanda ermənilərin kütləvi məskunlaşdırılmasına başlandı. Naxçıvan əraziləri imperiya hakim dairələri tərəfindən süni sürətdə yaradılan "Erməni vilayəti" deyilən qurumun tərkibinə qatıldı.

Bu proseslərlə yanaşı rus-erməni məmurları tərəfindən sıxışdırılan, milli zülmə məruz qalan yerli azərbaycanlı əhalinin öz tarixi torpaqlarını tərk edərək Türkiyə və İrana mühacirət etməsi prosesi də gedirdi. Erməni köçləri intensiv şəkil aldıqca, əks istiqamətdə işğal və əsarətdən baş götürüb vətənini tərk edən müsəlman köçləri də intensivləşirdi. Yerli azərbaycanlı etnosuna mənsub olanlar, xüsusilə də əyanlar, döyüşkən adamlar, nüfuzlu şəxslər ən müxtəlif yollarla öz doğma torpaqlarından didərgin salınırdı.

Bütün Cənubi Qafqazda olduğu kimi, Naxçıvan bölgəsində də Rusiya işğalına qədər ermənilər oduqca cüzi miqdarda, həm də kiçik kəndlər və seyrək icmalar halında yaşayırdılar. 1833-cü ildə Sankt--Peterburqda çapdan çıxmış "Naxçıvan Vilayətinin Statistik Təsviri" kitabında diyarın əhalisi haqqında yazılırdı: "Mənşəyinə görə Naxçıvan vilayətinin əhalisi iki yerə bölünür: 1) müsəlmanlar və 2) ermənilər. Birincilər 2791 ailə, ikincilər isə köhnə ermənilər 434 ailə, İrandan köçənlər isə 2285 ailədirlər" (6, s.31-40). Araşdırmalar göstərir ki, "1832-ci il siyahıya alınmasının nəticələrinə görə, …Naxçıvan və Ordubad mahallarında 231 kəndin yalnız 12-də köçürmələrdən əvvəl ermənilər yaşamışlar" (3, s.38). Say baxımından bu o deməkdir ki, XIX əsrin başlanğıcında, yəni rusların gəlişi ərəfəsində "Naxçıvan ərazisində 54,2 min nəfər azərbaycanlı, 7,4 min nəfər erməni olmuşdur" (4, s.125). Siyahıyaalma işlərinə rəhbərlik edən fransız əsilli İ.Şopenin təsvirinə görə, İran və Türkiyə ilə aparılan müharibələrin nəticəsində həmin ölkələrdən həyata keçirilən kütləvi erməni köçləri nəticəsində Naxçıvan torpaqlarında ermənilərin sayı çox qısa müddətdə dəfələrlə artmışdı. Bu miqrasiya prosesləri bütün XIX-XX əsrlər ərzində getmişdi.

XX əsrin əvvəllərindən etibarən erməni millətçilərinin çarizmin dəstəyi ilə yaratdıqları terrorçu təşkilatlar vasitəsilə "Böyük Ermənistan" xülyasına düşməsi regionda milli münasibətlərdəki nisbi sakitliyi pozdu, on minlərlə azərbaycanlının mühacirətinə səbəb oldu. "31 mart Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin 26 mart, 1998-ci il tarixli Fərmanında deyilirdi: "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetrildi" (1).

Xaricdən və Mərkəzi Rusiyadan göndərilən daşnak emissarları vaxtilə Naxçıvanda köçürülüb yerləşdirilən "yerli" ermənilərin dəstəyi və iştirakı ilə 1905-ci ildən başlayaraq uzun illər davam edən təxribat, qətl və qiyamlar dalğasına start verdilər. Həmin dalğa nəticəsində Naxçıvanın bir sıra ucqar bölgələrində, o cümlədən demək olar ki əhalisi tamamilə azərbaycanlılardan ibarət olan Dərələyəz və Qafan bölgələrində bir çox kəndlər boşaldıldı, ərazilər yeni köçürülən ermənilərlə məskunlaşdırıldı. Bu zaman stra-

teji cəhətdən mühüm, habelə iqtisadi-təsərrüfat baxımından əlverişli yaşayış məntəqələrində ermənilər yerləşdirildi, qalanları dağıdıldı. 1918-1921-ci illərdə Rusiya imperiyası, Türkiyə və İranı bürüyən siyasi sarsıntılar - müharibələr, üsyanlar, kütləvi köçlər, ardınca Sovet Rusiyasının Cənubi Qafqazı işğal etməsi regionda bir hakimiyyətsizlik, hərc-mərclik şəraiti yaratdı. Daşnak Ermənistanı vəziyyətdən istifadə edərək Naxçıvanı işğal etmək, müsəlman əhalini öz yurd - yuvasından qovmaqla ermənilərin bura yerləşdirilməsinə başladı. Njde, Dro, Andronik kimi erməni quldurlarının başçılıq etdiyi silahlı birləşmələr bəhs edilən illərdə Şərur-Dərələyəz torpaqlarında, Naxçıvanda, Zəngəzurun Qafan, Gorus kimi bölgələrində dinc əhaliyə divan tutulmasında, onların öz doğma torpaqlarından deportasiya edilməsində böyük "uğurlar" əldə etmişdilər. Bir çox müəlliflər haqlı olaraq onları Zəngəzur, Dərələyəz və digər tarixi azərbaycan torpaqlarının "erməniləşdirilməsinin" nəzəriyyəçiləri və əsas icraçıları hesab edirlər. Bunu erməni ideoloqları da gizlətmirlər. 1989-cu ilin martında Ermənistan KP Qafan Rayon Komitəsinin I katibi S.Mkırtıçyan rayon mərkəzində Njdenin abidəsini açarkən bütün "əsgəri şücaəti" terror və deportasiyalardan ibarət olan bu qatilə bəraət qazandırmışdı: "Siz çox çalışdınız, lakin respublikanı azərbaycanlılardan təmizləyə bilmədiniz. Sizin böyük arzunuzu sizin nəvələriniz həyata keçirdi" (9, s.65). Bütün həyatını türklərə və azərbaycanlılara qarşı düşmənçiliyə, onların deportasiyasına və kütləvi qırğınına həsr etmiş Njde (Qaragen Ter-Arutunyan) Naxçıvan qəzasının Güznüt kəndində, bir vaxtlar ata-babası bura köçürülmüş erməni ailəsində doğulmuş, ilk təhsilini də Naxçıvandakı rus məktəbində almışdı. Hələ gənc yaşlarından Daşnaksütyun partiyasının üzvü olan Njde, məhz naxçıvanlılara qarşı öz qəddarlığı ilə tanınmışdı.

2004-cü ildə Ermənistanın hakim Respublika partiyası tərəfindən "Qaragin Njde və onun təlimi" adlı kitab nəşr olundu. Kitabın tərtibçiləri tərəfindən erməni xalqının müqəddəs qəhrəmanı kimi təqdim olunan Njde, 1919 - 1921-ci illərdə Zəngəzur bölgəsində azərbaycanlı əhalinin cəlladı kimi tanınmış, on minlərlə günahsız insanın məhvi, köçlərə məcbur edilməsi işinin təşkilatçısı olmuşdu. Njde nəinki Zəngəzuru tamamilə yerli azərbaycanlı əhalidən tamamilə təmizləməyə çalışır, bunu digər erməni qatillərindən də tələb edirdi: "Türkdən qisas almaq, onu əfv etməmək lazımdır. Türkü əfv etsək, bir cinayət işləmiş və ya iki yeni cinayətə imkan yaratmış olarıq" (8, s.14). Azərbaycan Cümhuriyyətinin bolşevik Rusiyası tərəfindən işğal edilməsində, milli hökumətin devrilməsində "beşinci dəstə" rolunu oynayan ermənilər tezliklə rus bolşevikləri ilə dil tapdılar, öz daşnak xislətlərini pərdələyərək, "kommunist" olmağı da bacardılar. Məhz bolşevik - daşnak tandemi nəticəsində 1920-1930-cu illərdə ermənilərin ərazi iddialarına RSFSR nəinki dəstək vermiş, hətta Cənubi Qafqazda qəti şəkildə möhkəmlənmək, Türkiyənin burada rolunu sıfra endirmək və Azərbaycan ərazisində ikinci "erməni ocağı" - forpost yaratmaq məqsədilə özü respublikamıza qarşı ərazi mübahisələrini qızışdırmışdı. Nəticədə Sovet Azərbaycanı Zəngəzur və Naxçıvan ərazilərini Ermənistana güzəşt edilməsinə məcbur edilmişdir. Lakin, Naxçıvan əhalisinin müqavimət göstərməsi və Türkiyənin naxçıvanlılara dəstək verməsi nəticəsində Moskva və Kars müqavilələri ilə ermənilərin ərazi iddiaları boşa çıxmışdı. Bununla belə, bolşeviklərlə əməkdaşlıq edən ermənilər ən müxtəlif yollarla tarixi Naxçıvan ərazilərindən əhalinin deportasiyasına, ermənilərin bura yerləşdirilməsinə çalışırdılar. Bu işlər başlıca olaraq üç istiqamətdə aparılırdı:

1. Xaricdən gətirilən ermənilərin Cənubi Qafqazda yerləşdirilməsi. Bu istiqamətdə Mərkəzlə yanaşı rəhbərlikdə əksəriyyətin erməni və gürcülərdən ibarət olduğu Zaqafqaziya Federasiyasının da xüsusi rolu olmuşdu. Zaqafqaziya MİK Kiçik Rəyasət Heyətinin 1925-ci il mayın 19-da keçirilən iclasında (protokol №12) xaricdən gətirilən bir qrup erməninin Naxçıvana yerləşdirilməsi haqqında qərar qəbul edilmişdi (11,v.2). 2.Tarixi Naxçıvan torpaqlarının ələ keçirilməsi və həmin ərazilərdən azərbaycanlı əhalinin köçlərə məcbur edilməsi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında" 4 fevral 1999-cu il fərmanında deyilirdi: "1929-cu ildə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvanın 657 kvadrat kilometr ərazisi-Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzasının Şahbuz nahiyyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçevan kəndi, habelə Kilid kəndi torpaqlarının bir hissəsi Ermənistana verildi. 1930-cu ildə isə Aldərə, Lehvaz, Astazur, Nüvədi və s. yaşayış məntəqələri Ermənistana verilmiş və həmin ərazidə Mehri rayonu yaradılmışdır" (2). Nəticədə Naxçıvan MSSR ilə Azərbaycan arasında 45 km-lik bir məsafə yaradıldı və Naxçıvan Muxtar Respublika anklav vəziyyətinə düşdü. Bundan başqa ələ keçirilən ərazilərdən həmişə olduğu kimi azərbaycanlı əhali ən müxtəlif yollarla sıxışdırılıb çıxarıldı, əvəzinə ermənilər köçürüldü. 3.Repressiyalar yolu ilə Naxçıvan Muxtar Respublikanın əhalisin azaldılması və onların yerinə ermənilərin yerləşdirilməsi. Həmin dövrlərdə Cənubi Qafqazın hər yerində olduğu kimi, Naxçıvanda da azərbaycanlılara qarşı repressiyaların xüsusi amansız xarakter alması "erməni amili"ndən və rus-erməni kommunistlərinin əməkdaşlığından, habelə SSRİ-nin kommunist rəhbərliyinin geosiyasi maraqlarından qaynaqlanırdı. Faktların təhlili göstərir ki, Azərbaycan SSR-də rəhbər vəzifələrə qeyri-azərbaycanlıların təyin edilməsində erməni amilinə üstünlük verilməsi Mərkəzi hökümətin Cənubi Qafqaz siyasətinin ana xəttini təşkil etmişdir. 1920-1940-cı illərdə Sovet hökumətinin milli siyasətində ermənipərəst və antiazərbaycan mövqe tutulmasını belə bir fakt da göstərir ki, həmin illərdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Komitəsinə bir qayda olaraq erməni və rus millətinə mənsub olanlar başçılıq edirdilər. Orta və aşağı vəsilələrdə də əksər vəzifələri onlar tuturdular. Məsələn, araşdırmalar göstər-

mişdir ki, 1920-1940-cı illərdə Azərbaycan Respublikası DTK-nın mərkəzi aparatında şöbə və bölmə rəislərindən 30 nəfərə qədəri erməni idi. Qırmızı terrorun bütün Respublikanı bürüdüyü 1937-1938-ci illərdə XDİK-in 51 rayon şöbəsindən 38-ə ermənilər rəhbərlik edirdi (9, s.83). Naxçıvan MSSR-in NKVD orqanlarında rəhbər vəzifələri tutan Bağdasarov, Orbeliyan, İsrailyan, Avanesov və digərləri 1919-cu ildə Andranikin quldur dəstələrinə qarşı qəhrəmancasına döyüşən Naxçıvan Muxtar Respublikanın kəndlərindən qisas alırdılar. Onlar kütləvi sürgünlərlə həm də Naxçıvan Muxtar Respublikanın əhalisini azaltmağı qarşılarına qoymuşdular. Məhkəmə-Prokurorluq orqanlarının da kadr tərkibi buna bənzər idi. Nəticədə "Xalq düşməni" kimi böhtan atılıb ölümə məhkum edilən, həbs və sürgünlərə məruz qalan naxçıvanlıların qondarma istintaq sənədlərinin altında əksər hallarda erməni müstəntiqlərinin imzaları dururdu.

1937-ci il avqustun 5-dən 15-ə dək keçən 10 gün ərzində təkcə Naxçıvan Muxtar Respublikasında NKVD orqanları tərəfindən 9559 nəfər vətəndaş antisovet element kimi tutulmuş, onlardan bəziləri güllələnmiş, digərləri uzaqlara sürgün edilmiş, az bir qismi isə növbəti dəfə repressiya olunmaq üçün buraxılmışdı (7, s.300). Beləliklə 1918-1920-ci illərdə olduğu kimi, 1920-1940-cı illərdə də Sovet rəhbərliyinin məqsədyönlü siyasəti nəticəsində on minlərlə naxçıvanlı köçlərə məcbur edilmiş, miqrasiya proseslərinə məruz qalmışdılar.

Böyük Vətən Müharibəsi qurtardıqdan sonra Stalinçi rəhbərliyin, daşnak xislətli Ermənistan rəhbərliyi ilə əməkdaşlığı nəticəsində Ermənistandakı tarixi torpaqlarında yaşayan azərbaycanlı əhalinin kütləvi deportasiya edilməsi başlandı. Qısa müddətdə, çətin köçürülmə şərtləri altında 150 mindən artıq azərbaycanlı Azərbaycanın Mərkəzi Aran rayonlarına köçürüldü. Dövlət maşınının bütün gücü ilə həyata keçirilməsinə baxmayaraq, köçürmə prosesi kifayət qədər hazırlanmamış, tələm-tələsik, bir qədər də lazımınca nizamlanmayan bir proses idi. Nəticədə köçürülənlərin bir qismi məhz nəzərdə tutulan rayonlara yox, başqa rayonlara, o cümlədən Naxçıvan torpaqlarına üz tuturdular. Naxçıvan onlar üçün ərazicə və iqlimcə yaxın olduğu kimi, həm də tarixən çoxsaylı tellərlə bağlı bir region idi. Totalitar rejimin və erməni daşnak-kommunist liderlərinin yaratdıqları bütün əngəllərə baxmayaraq azərbaycanlı əhali Ermənistanın ayrı-ayrı bölgələrindən buraya can atırdılar. Arxiv sənədlərindən göründüyü kimi, 1949-cu il "aprelin 27-də Azərbaycan K(b) P Naxçıvan Vilayət Komitəsinin katibi Y.Yusifov Azərbaycan K(b)P Mərkəzi Komitəsinə məktub ilə birgə Ermənistan SSR Zəngibasar rayonu Elyas kəndindən kolxozçuların ümumi iclasının protokolunu da göndərir. 220 nəfər kolxoz üzvünün iştirakı ilə keçən iclas Naxçıvan MSSR rəhbər orqanlarına üz tutub bu kolxoza daxil olan 150 təsərrüfatı Naxçıvan Muxtar Respublikasında yerləşdirməyi xahiş edir. Kolxozçuların qəbul etdikləri qərarda deyilirdi: "Kolxozumuz varlı kolxozdur. Belə bir kolxozu kəndlərə dağıtmaq yaxşı deyil. Bütün kolxozun bir yerə köçməsi təsərrüfatımızın iqtidarını pozmaz... Noraşen rayonunun iqlimi və suyu da bizə yaxındır. Orada tezliklə əkin əkə bilərik. Qoşqu qüvvəmiz və toxumumuz da var. Naxçıvan MSSR Ali Sovetindən və Nazirlər Sovetindən xahiş edilsin ki, bizim kolxozun üzvlərinin Noraşen rayonunun Şəngiley və Dərəkənd kəndlərinə köçməsinə icazə versinlər" (10, v.93). Y.Yusifov AK(b)P MK-dan xahiş edir ki, həmin təsərrüfatların və əlavə 150 təsərrüfatın da (cəmi 300 təsərrüfat) Noraşen rayonunda qəbuluna icazə verilsin. 1949-cu ilin sentyabrında Sisyan rayonunun Şəki kəndinin kolxozçuları da Azərbaycan SSR Nazirlər Sovetinə göndərdikləri ərizədə onlara Naxçıvan MSSR-in Şahbuz rayonuna köçməyə icazə verilməsini xahiş edirlər. Elə həmin vaxt Ermənistan SSR Axta rayonu S.Ağamalıoğlu adına kolxozun üzvləri də respublika Nazirlər Sovetindən Azərbaycan SSR-ə köçməyə icazə verilməsini xahiş edirlər. Bu ərizələrə cavab olaraq respublika Köçürmə İdarəsi bildirir ki, Şahbuz rayonu Kür-Araz ovalığına daxil olmadığı üçün Şəki kəndinin sakinləri oraya dövlət tərəfindən mütəşəkkil şəkildə köçürülə bilməzlər. Axta rayonu S.Ağamalıoğlu kolxozunun sakinlərini isə Kür-Araz ovalığında istədikləri yerə köçürmək imkanı var (10, v.174). Ermənistanın müxtəlif yerlərindən, qədim yurdlarından, dədə-baba ocaqlarından Azərbaycana doğru köç edənlərin böyük əksəriyyəti ilk növbədə Naxçıvana üz tutmuşdular. Naxçıvan Ermənistan yaylası ilə böyük Azərbaycan arasında körpüyə dönmüşdü. 1948-1953-cü illər deportasiyasında da Naxçıvan həm keçid yeri vəzifəsini yerinə yetirmiş, həm də zorla köçürülənlərə öz qoynunda yer vermişdir. Qanunla Naxçıvana köçürülmə nəzərdə tutulmasa da, aldadılan kəndlilər Naxçıvana pənah gətirmişlər. Həmin dövrdə rəsmi cədvəl üzrə köçürülənlərdən, qeydiyyata alınan əhalidən başqa, xeyli əhali də özbaşına Azərbaycanın müxtəlif rayonlarına köçmüşdür (4, s.168). 1950-ci ilin fevralında respublika Köçürmə İdarəsi Naxçıvan Vilayət Komitəsi və Nazirlər Sovetinin 1950-ci ilin yazında 500 təsərrüfatın Ermənistan SSR-dən Noraşen rayonuna köçürülməsinə icazə vermək barədəki xahişinə cavab olaraq bildirirdi ki, hazırda rəsmən yalnız Kür-Araz ovalığına köçürmədən danışılmasına baxmayaraq, Naxçıvan MSSR Ermənistan SSR-in Qarabağlar, Vedi, Artaşat rayonlarından özbaşına gələn azərbaycanlı əhalini qəbul edir. Onların arasında Kür-Araz ovalığına köçürmə bileti olanlar da vardır. Köçürmə idarəsi Naxçıvan MSSR rəhbərliyini xəbərdar edirdi ki, gələcəkdə bu cür hallara yol verməsin (5, s.249-250). Ermənistanın Qurdqulu (indiki Oktamberyan) mahalının Kərimarxı, Hacıbayramlı, Xeyirbəyli, Şavarat kəndlərinin əhalisi Azərbaycanın bir sıra rayonları ilə yanaşı, Naxçıvanın Əliabad, Didivar və Şıxmahmud kəndlərinə də köçmüşlər. Ümumiyyətlə, deportasiya illərində yüzlərlə azərbaycanlı ailəsi Naxçıvana gəlmiş və burada məskunlaşmışdır (4, s.169). 1988-1989-cu illərdə Sovetlər Birliyinin dağılması ərəfəsində Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin meydana çıxması və 250 minə yaxın azərbaycanlının Ermənistan ərazilərindəki tarixi torpaqlarından qovulması zamanı Naxçıvanda miqrasiya prosesləri özünü yenidən göstərdi. Qaçqın və köçkün düşən minlərlə insan Naxçıvanda məskunlaşdı. Habelə minlərlə köçkün ailələri Naxçıvandan bir keçid yeri kimi istifadə edərək Respublikanın başqa bölgələrinə yerləşdilər.

Bir zamanlar çar hökumətinin və erməni millətçi dairələrinin bura köçürdüyü, Sovet rəhbərliyinin himayə etdiyi ermənilər onsuz da 70-80-ci illərdə Naxçıvan Muxtar Respublikada sayca azalmışdılar. Belə

ki, daim asan və firavan həyata, daha rahat və tox yaşamağa alışmış ermənilər tədricən keçmiş SSRİ-nin müxtəlif ərazilərinə və xarici ölkələrə səpələnirdilər. Bütün baş verənlərdən sonra az miqdarda etnik ermənilərin də Naxçıvanda yaşaması qeyri-mümkün oldu və onlar da köçməli oldular. Lakin, Ermənistandakı yerli azərbaycanlılardan fərqli olaraq, Naxçıvandakı gəlmə ermənilər vəhşicəsinə qovulmadılar, rahatlıqla köçüb getdilər. Naxçıvan miqrasiya proseslərinin növbəti dalğasını yaşadı.

## ƏDƏBİYYAT

1.Əliyev H. 31 mart Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin 26 mart 1998-ci il tarixli fərmanı, Azərbaycan qəzeti,1998, 27 mart
2.Əliyev H. Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçrilməsi haqqında 4 fevral 1999-cu il tarixli fərman, Azərbaycan qəzeti, 1999, 5 fevral
3.Cəfərli E. Rusiya və Türkiyənin Cənubi Qafqaz siyasətində Naxçıvan (XX əsrin əvvəlləri), Naxçıvan, Əcəmi, 2017, 224 s.
4.Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri, Naxçıvan, Əcəmi NPB, 2012, 192 s.
5.Paşayev A. XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar arxiv sənəd və materialları əsasında, Bakı, Çaşıoğlu, 2011, 327 s.
6.Süleymanov M. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən, Bakı, Hərbi Nəşriyyat, 2008, 398 s.
7.Zeynaloğlu S. Tarixin qan yaddaşı, Bakı, Xatirə, 2001, 366 s.
8.Marhuliya G., Nuriyeva Ş. Uydurulmaş Tarihte Ermeni soykırımı, Baku, 2010, 324 s.
9. Асадов С., Мамедов И. Терроризм: причина и следствие, Баку, Азербайджан, 2001,243 с.
10. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA) - f.411, siy.9, iş 601.
11.Gürcüstan Mərkəzi Ən Yeni tarix Arxivi (GMƏYTA), f.607, siy.1, iş 327.

## ABSTRACT

**Shamkhal Mammadov**

### ARMENIAN FACTOR IN THE SOUTH CAUCASUS POLICY OF RUSSIAN AND MIGRATION PROCESSES IN NAKHCHIVAN IN THE XIX-XX YEARS

Like all South Caucasus, the Nakhchivan lands were subject to migration in different periods of history. After the region was occupied by the Russian Empire in the 19th century, migration processes became more intense. The ruling circles of Russia wanted to settle Nakhchivan as well as Iravan and Nagorno-Karabakh, resettling Armenians from foreign countries, at the same time displacing local Azerbaijanis and deportation them in different ways. In the 20th century, such attempts were repeatedly made. However, thanks to the courage and determination of the population of Nakhchivan, these attempts turned out to be unfulfilled. However, in the aforementioned centuries, Nakhchivan had to repeatedly take the Azerbaijani population deported from Armenia. Thus, Nakhchivan was subjected to frequent forced migration processes.

## РЕЗЮМЕ

**Шамхал Мамедов**

### АРМЯНСКИЙ ФАКТОР В ЮЖНО-КАВКАЗСКОЙ ПОЛИТИКЕ РОССИИ И МИГРАЦИОННЫЕ ПРОЦЕССЫ В НАХЧЫВАНЕ В XIX-XX ГОДАХ

Как и весь Южный Кавказ, земли Нахчывана были подвержены миграционным процессам в разные периоды истории. После оккупации региона Российской империей в XIX веке миграционные процессы стали более интенсивными. Правящие круги России хотели заселять Нахчыван также, как и Эриван и Нагорный Карабах, армянами, переселяя их из других стран, при этом вытесняя местных азербайджанцев и депортируя их разными способами. В 20 веке неоднократно предпринимались подобные попытки. Однако благодаря мужеству и решимости население Нахчывана эти попытки оказывались неосуществленными. Однако в упомянутые века Нахчывану приходилось неоднократно принимать депортированное из Армении азербайджанское население. Таким образом, Нахчыван подвергался частым вынужденным миграционным процессам.

**МЕХТИ БАГИРОВ**
*dr.mehdi_bagirov@mail.ru*
**САМИДДИН КАСУМОВ**
*Нахичеванский Государственный Университет*

# СЕМЕЙНЫЕ ХОЗЯЙСТВА – ОДНО ИЗ ПРИОРИТЕТНЫХ НАПРАВЛЕНИЙ РАЗВИТИЯ АГРАРНОГО СЕКТОРА НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ НА СОВРЕМЕННОМ ЭТАПЕ

**Açar sözlər:** *ailə təsərrüfatları, aqrar sfera, aqrar istehsal, aqrar münasibətlər, Naxçıvan Muxtar Respublikası, Azərbaycan Respublikası*

**Keywords:** *family farms, agrarian area, agrarian production, agrarian relations, Nakhchivan Autonomus Republic, Azerbaijan Republic*

**Ключевые слова:** *семейные хозяйства, аграрная сфера, аграрное производство, аграрные отношения, Нахчыванская Автономная Республика, Азербайджанская Республика*

Социально-экономическое развитие страны вцелом, а также его регионов является в первую очередь непосредственным результатом проводимой комплексной экономической, регулировочно-правовой политики. Наблюдаемое с 2006-го года продвижение вперед по количественно-качественным показателям по всем сферам является постадийным заключением, связянным целесообразным продолжением проводимых в стране организационно-управленческих реформ, соблюдением принципов призводственной рентабельности и прибыльности, оптимальности, эффективности и конкурентоспособности, применяемой фискальной политикой и других соответствующих экономических способов и инструментариев.

Ежегодное увеличение показателей внутривалового и общенационального продуктов, доходов на душу населения стало возможным благодаря улучшению положений по росту объемов производств, обеспечению в удовлетворительной степени основными и оборотными производственными средствами, инфраструктурными коммуникациями, рабочей силой необходимой квалификационной структуры и т.д.

Рассмотрение комплексного развития экономики страны в «горизонтальном» и «вертикальном» плане содержит в себе как поотраслевое, так и региональное перемещение на другие, более высшие «плоскости», трансформирование и усовершенствование между сторонами-участницами. В этом плане согласно методу дедукции обладающая своими специфичными чертами экономика в общем, а также аграрная сфера Нахчыванской Автономной Республики является приоритетным объектом деятельности по многим направлениям. С одной стороны, эта отрасль, наряду с импортом, является основным поставщиком потребляемой населением региона сельскохозяйственной продукции, с другой же – составляет сырьевую базу для сфер и единиц перерабатывающей промышленности. Также не надо упускать с внимания тот факт, что 2/3-и всего населения региона проживает в сельской местности. Повествуемый факт сам по себе является немаловажным, так как наличие соответствующей рабочей силы является важным компонентом при претворении в жизнь надлежащих производственных процессов.

По сути, семейные хозяйства, в первую очередь, можно характеризовать следующимим чертами:

- ✓ берут начало от первобытно-общинного строя;
- ✓ обладают тысячилетними корнями хозяйствования;
- ✓ являются одним из основных ячеек производства и обслуживания;
- ✓ отличаются большой численностью своих членов;
- ✓ показывает самую простую форму (структуру) по организационным, управленческим и другим важным направлениям;
- ✓ являются в большей мере естественным направлением по увеличению уровня занятости;
- ✓ обладают более крепкими связями между членами;
- ✓ происходит более полный и доброкачественный переход организацилнных, трудовых (рабочих) и других навыков от предков как к последующим «продолжателям традиций» (в

вертикальном масштабе), так и между ровестниками-членами хозяйств (в горизонтальном плане) и т.д.

Выбор в статье семейных хозяйств в качестве объекта исследования требует необходимого комплексного подхода как в практическом, так и в научном направлениях. Так как именно правильно организованный, порядковый и взяимосвязанно реализуемый комплексный подход является важным фактором как при анализе реального положения по ним, так и при разработке различных програм и других правово-документационных основ на перспективном уровне.

Согласно общим республиканским статистическим данным по семейным хозяйствам эта форма по всем основным квалификационным статьям более развита в сельской местности. Кроме этого, согласно таблице 1 (блок 1) по основным 3-ем строкам из 4-ох показатели по Нахчыванской Автономной Республике выше средних общереспубликанских по амплетудному промежутку (+0,07), (+0,29) и (+0,2).

По потребительским расходам, расперделенным на квинтилы (1/5 общего объема) тенденция роста общереспубликанских потребительских расходов обратно пропорциональна тенденции роста Нахчыванским региональным потребительским расходам:

- ✓ по республиканским показателям годовая поквинтильная разница в процентном произведении уменьшилась на 1,8%;
- ✓ эта разница по Нахчыванскому региону составила -0,8%;
- ✓ начиная с третьего квинтила показатели по республике стали уступать Нахчыванскому региону (соответственно на 0,!%; 0,4% и 0,5%)

Эти показатели и их количественное движение в свою очередь имеют причинно-следственную основу как согласно природно-местностным, климатическим, так и другим факторам.

Таблица 1. Средняя величина изучаемых семейных хозяйств по экономическим районам и по рассчитанным квинтилам на поребительские расходы в 2017-ом году, человек

| **Показатели** | **По домашним хозяйствам по стране** | **В том числе: Городские местности** | **В том числе: Сельские местности** | **По Нахчыванской Автономной Республике** |
|---|---|---|---|---|
| **I.Средняя величина изучаемых семейных хозяйств по экономическим районам** | | | | |
| Средняя величина семейных хозяйств | **4,11** | 3,92 | 4,37 | 4,18 |
| Число мужчин с возрастом выше 18 лет | **1,54** | 1,47 | 1,64 | 1,83 |
| Число женщин с возрастом выше 18 лет | **1,67** | 1,65 | 1,71 | 1,87 |
| Все население в возрасте до 18 лет | **0,90** | 0,80 | 1,02 | 0,48 |
| **II. Средняя величина изучаемых семейных хозяйств по рассчитанным квинтилам на поребительские расходы, человек** | | | | |
| Квинтилы потребительских расходов: | | | | |
| I Квинтил | **5,0** | 4,8 | 5,1 | 4,5 |
| II Квинтил | **4,7** | 4,6 | 4,8 | 4,6 |
| III Квинтил | **4,3** | 4,1 | 4,5 | 4,4 |
| IV Квинтил | **4,0** | 3,9 | 4,2 | 4,4 |
| VКвинтил | **3,2** | 3,1 | 3,3 | 3,7 |

Источник: [13]

Оценивая значимость развития семейных хозяйств 2019-ый год в автономной республике объявлен «Годом семейных хозяйств». С другой же стороны, согласно статистической информации к концу 2018-го года в регионе число только семейных сельских хозяйств перешло восьмисотовую планку.

Согласно международным практическим требованиям и наставлениям при рассматривании и изучении семейных хозяйств могут применяться различные классификационные свойства и компоненты. В первую группу можно отнести факторы финансово-экономического характера, среду которых наиболее важными являются группирование по доходам на каждого члена домашнего хозяйства и по источникам средств существования. Для более практичного понимания ситуации сгруппируем внутренние составляющие этих двух факторов в единой схематичной форме.

Схема 1. Примерный внутренний состав основных финансово-экономических факторов при группировании семейных хозяйств.




Источник: [3; 146]

Как видно из схемы 1, одним из основных факторов по классификации семейных хозяйств являются доходы. На практике в примерной форме этот вопрос может быть рассмотрен на основе таблицы 2.

Таблица 2. Доходы семейных хозяйств на душу населения и их структура (%) в 2017-ом году

| | По Нахчыванской Автономной Республике | |
|---|---|---|
| | Доходы на душу населения, помесячно, в манатах | Структура доходов, % |
| **Доходы – в общем объеме** | **292,8** | **100** |
| Доходы от заработной платы | 132,8 | 45,3 |
| Доходы от предпринимательской деятельности и самозанятости | 50,9 | 17,4 |
| Доходы от сельского хозяйства | 55,0 | 18,8 |
| Доходы от аренды | 1,0 | 0,3 |
| Доходы от собственности | 0,0 | 0,0 |
| Полученные трансферты: | 37,2 | 12,7 |
| ✓ пенсии | 34,6 | 11,8 |
| ✓ социальные пособия | 2,5 | 0,9 |
| ✓ социальные трансферты в натуре | 0,0 | 0,0 |
| Другие доходы: | 16,0 | 5,5 |
| ✓ доходы, полученные от других семей | 10,6 | 3,6 |
| ✓ суммы, полученные из заграницы | 5,4 | 1,9 |

Источник: [13]

Как видно из таблицы 2, в подушевом выражении 45,3% всего объема индивидуальных ресурсов составляют доходы от заработной платы. Это – в конечном счете указывает на то, что занятие в семейных хозяйствах не является одним из основных видов самозанятости, а в указанном объеме выступает дополнительным источником доходов.

Наряду в указанными выше факторам, в экономико-исследовательском производстве могут использоваться и такие факторы, как принадлежность жилого фонда и тип жилого помещения, число

проживающих в домашнем хозяйстве и объем м$^2$ жилплощади на каждого члена, наличие в использовании земельного участка, а также факторы непосредственно касающиеся членов хозяйств (возраст, пол, уровень образования, национальность и т.д.).

Нужно учитывать, что несмотря на то семейные хозяйства занимаются определенной хозяйственной деятельностью, они не являются предпринимательскими субъектами. Статус этих хозяйств официализируется органом, проводящим по ним учетные работы на основе выданного им документа.

С проведением в регионе земельной и других реформ создание семейных хозяйств сельскохозяйственной ориентации приобретает хаотический характер. Этот процесс в большинстве случаев в инстиктивной форме способствует объединению индивидуальных земельных участков членов семей в одно целое. Консолидации семейных возможностей даже на первых порах независимости страны являлись одной из необходимых опорных точек, хоть изначально и в небольшой степени, но способствующей улучшению процессов по предложению и потреблению товаров. Несмотря на то, что семейные хозяйства в целом не имели непосредственной регулировочной базы и инструментария законодательного (юистиционного) регистрирования, но принципы выживания и необходимости зарабатывания денежных средств, желания по увеличению продолжительности своего деятельностного существования и преумножения возможностей по расширению производственно-финансовых компонентов на перспективные периоды

С принятием в 2005-ом году Закона Азербайджанской Республики «О семейных сельских хозяйствах» процессы регулирования стали более гармоночными, постадийно последовательными, экономически эффективными. Так как этот Закон в первую очередь определил сущность, контуры сельских домашних хозяйств. Согласно его статье 1, раскрывающий значимые стороны этих организований, «Семейные сельские хозяйства – являются организованиями, образованные с членов одной семьи и связанными с ними различными узами лицами, совместно претворяющими в жизнь в сельской местности производственную и другие виды деятельности (производство, переработку, хранение, транспортировку, сбыт товаров и т.д.) на основе собственной и арендованной собственности, без создания юридического лица. Численность рабочих этих хозяйств может отличаться в силу влияния различных факторов. Его может сформировать один член семьи, все работоспособные члены, а также вместе с ними лица, находящиеся в родственной связи с этой семьей или же просто наемные рабочие. Они могут заниматься в сельских местностях любыми видами деятельности, на запрещенные или же ограниченные законодательными нормами» [1]

Согласно человеческому фактору в семейных хозяйствах могут проводиться различные классификации, примером корому можно рассмотреть следующую таблицу, воспроизводящуютри направления.

Таблица 3. Классификация семейных хозяйств по их размеру, типу и статусу главы хозяйства в 2017-ом году на основе объектов обственности, %

| **Показатели** | По объектам собственности | | | |
|---|---|---|---|---|
| | Крупнорогатый скот | Мелкорогатый скот | Куры | Пчелы |
| I. *По численности членов семейных хозяйств* | | | | |
| 1 человек | 8,5 | 4,1 | 19,6 | 0,1 |
| 2 человека | 19,3 | 9,2 | 41,4 | 1,0 |
| 3 человека | 21,7 | 11,5 | 42,0 | 0,7 |
| 4 человека | 26,2 | 13,8 | 47,8 | 1,4 |
| 5 человек | 32,1 | 17,4 | 55,3 | 1,5 |
| 6 человек и более | 37,4 | 21,3 | 60,3 | 1,1 |
| II. *По типу семейных хозяйств* | | | | |
| Лица-одиночки | 8,5 | 4,1 | 19,6 | 0,1 |
| Родители-одиночки с детьми | 6,6 | 1,9 | 24,7 | - |
| Бездетные семьи | 29,3 | 16,4 | 50,3 | 1,3 |
| Полные семьи с детьми | 30,5 | 15,3 | 54,4 | 1,3 |
| Хозяйства с детьми других форм | 12,0 | 4,7 | 32,1 | 0,3 |
| Хозяйства бездетные других форм | 14,3 | 11,5 | 32,3 | 0,7 |

| III. *По статусу главы хозяйства* | | | | |
|---|---|---|---|---|
| Самозанятые в сельском хозяйстве | 67,3 | 31,3 | 91,8 | 1,6 |
| Наемные работники | 19,5 | 13,7 | 37,0 | 1,6 |
| Самозанятые в других сферах | 25,4 | 12,9 | 51,8 | 0,7 |
| Пенсионеры | 28,8 | 12,4 | 9,7 | 1,0 |
| Другие направления | 28,6 | 50,8 | 38,5 | - |

Источник: [13]

Согласно статистическим данным в составе семейных хозяйств удельный вес семейных сельских хозяйств доходит до 70%-ов от их общего объема. Это в первую очередь свазано со своебразным размещением населения региона и высокой концентрацией в селе трудовых ресурсов по этой форме хозяйствования.

Объективное оценивание текущих позиций по семейным сельским хозяйствам выдвигает многочисленные задачи, среди которых в качестве основных можем перечислить следующие:

1. анализ соответствия количественно-качественных показателей земельных ресурсов семейных сельских хозяйств с их реальными возможностями;
2. комплексное оценивание степени дееспособности сельских семейных хозяйств в отношении технического обеспечения и технического обслуживания;
3. рассмотрение и взаимосопоставление «бизнес-планов» и финансовых ресурсов домашних хозяйств;
4. периодическая фильтрация текущих отношение между домашними хозяйствами и органами, деятельность которых сопредельна с их деятельностнью;
5. разработка планов и программ по оказанию в различных направлениях помощи этим организационным созданиям, по улучшению в них условий по трансформации и усовершенствованию и т.д.

Учитывая многочисленные факторы влияние на развитие сельского хозяйства региона между управленческими, муниципальными органами и этими образованиями проводятся регулярные мероприятия. Одним из таких мероприятий проводимых по региону проводился во второй половине января 2019-го года по всем административным районам Нахчыванской Автономной Республики и затронул вопросы использование направлений и возможностей агролизинга в производственных и других формах деятельности семейных хозяйств.

Касательно законодательного регулирования деятельности семейных сельских хозяйств можно отметить, что кроме непосредственного отношения к ним Закона Азербайджанской Республики «О семейных сельских хозяйствах» также на уровне общих и специфичных ньюансов своим правовым влиянием отличаются и Конституция Азербайджанской Республики, Административный Кодекс Азербайджанской Республики, Трудовой Кодекс Азербайджанской Республики, другие правово-нормативные акты (в пределах полномочий). Значимость законодательства по этому виду хозяйств определяется впервую очередь такими факторами, как:

- ✓ поощирение развития семейных хозяйств в сельских местностях;
- ✓ стимулирование самозанятости и повышение эффективности;
- ✓ создание и расширение навыков по взаимоотношениям с различными органами как по уровнью управления, так и по направлению специализации;
- ✓ расширение альтернативных источников доходов;
- ✓ ускорение развития сельских местностей и т.д.

Согласно законодательству, включение в состав семейных сельских хозяйств (ССХ) различных аграрных производственных и других «единиц» имеет свои особенности и ограничения. Во-первых, это должны быть физические лица, занимающиеся деятельностью в сельских местностях. Во-вторых, по законодательству они не могут заниматься в пределах, допущенных по предпринимательству (так как согласно статье 9 (пункт 4) Закона Азербайджанской Республики «О семейных сельских хозяйствах» переход уровня предела, установленного соотвествующим исполнительным органом изменяет экономическую форму представления их деятельности от «простой», семейной до предпринимательской). В-третьих, их профилизация не должна затрагивать садоводство. В-четвертых, они являются объектами
муницепального учета и т.д.

Рассмотрение и комплексное исследование в научном и практическом плане реального положения по семейным хозяйствам в первую очередь выдвидает на передовой план вопросы организации. В этом плане необходимо изучение нескольких непосредственно связанных и взаимоконтактируюещих «центров», играющих роль базовых компонентов.

Схема 2.Основные элементы по организации ССХ.




Источник: *схема подготовлена соавторами на основе информаций из использованной литературы*

Согласно схеме 2 первым блоком элементов при организации семейных сельских хозяйств являются права и полномочия этих субъектов. Перечень прав и полномочий семейных сельских хозяйств отличается довольно общирным объемом, среди которых важными в примерном выражении считаются следующие:

- ✓ независимое хозяйствование на основе земельных ресурсов и других объектов собственности согласно законодательству;
- ✓ принятие независимого решения по использованию как собственности, так и приобретенных от их использования доходов;
- ✓ самостоятельное приобретение и арендование земельных ресурсов от их собственников, подкрепленные требованиями правовых норм;
- ✓ проведение независимого выбора направлений занятости, объекта производства (формы обслуживания) и формы управления хозяйством;
- ✓ научно обоснованное применение методов менеджмента и маркетинга для организации деятельности;
- ✓ на основе изучения опытов проведение в самостоятельной форме мероприятий по выявлению направлений по эффективности и оптимизации технико-экономических параметров производства, затратных статей, номенклатуры товаров и т.д.
- ✓ создание законоположенных обществ и взаимоотношений по кооперации;
- ✓ становление членом кредитных обществ, и использование их услугами в регулировочных рамках;
- ✓ открытие рассчетных и других счетов в банках и других кредитных организациях;
- ✓ на основе разработанных положений получение безвозмездных пособий от организаций и фондов (в том числе и от государственных, международных и т.д.);
- ✓ страхование собственности и получение страховочных средств в случаях получения от деятельности убытков и потерь и т.д. [2; 228]

Наряду с правами и полномочиями в деятельности семейных сельских хозяйств ставятся определенные цели, которые сопровождаются соответствующими задачами. Эти задачи в зависимости от их сущности можно группировать по многим направлениям. Они также в определенной степени согласовываются с полномочиями. В то же время необходимо подчеркнуть тот факт, что согласно правовому регулированию невыполнение поставленных задач повлекает за собой законодательную ответственность.

От общего контингента необходимо выделить важные задачи, среди которых можно выделить следующие:

1. проведение планомерных организационных мероприятий в производственной и других сферах деятельности семейных сельских хозяйств;
2. комплексная фиксация компонентов деятельности и поситуационное выявление их оптимальных параметров;
3. достижение возможно высоких уровней по организации, профилизации, специализации деятельности;
4. эффективное использование земельных участков в соответствии в целевым предназначением и правовым режимом;
5. претворение в жизнь соответствующих агротехнических, экономических и организационных мероприятий, обеспечивающих плодородность земельных ресурсов;

6. соблюдение требований правовых актов по сохранности земельных, водных, лесных ресурсов и окружающей среды;
7. своевременное погашение задолженности по налогам, платежам по социальному страхованию и др.;
8. организация системы сбыта произведенной продукции, соблюдение при этом санитарных, экологических и других требований и стандартов по качеству готовой продукции, проведенных работ и оказанных услуг;
9. становление на учет в муниципальной структуре района, в котором претворяется в жизнь ваша деятельность и т.д. [9; 397]

Как уже отмечено выше, третьим важным элементом при организации ССХ является их собственность. По сущности этот элемент подразделяется в первую очередь на две группы: производственного (экономического) и непроизводственного (социально-потребительского) характера. В их составе можно различить такие объекты, как земельные ресурсы (как собственные, так и арендованные), построения, оборудования, товарно-материальные средства, денежные средства, объекты домашнего потребления, а также другие средства производственного и внепроизводственного профиля.

К собственности домашних хозяйств могут быть отнесены также продукция и услуги ССХ, которые впоследующем повлияют на многие количественно-качественные показатели. Что касаетс примерного перечня производимой продукции и его товарооборота со стороны этого вида хозяйств, можно пользоваться показателя таблицы 4.

Таблица 4. Оборот сельскохозяйственной продукции в семейных хозяйствах в 2017-ом году, кг

| | Средний объем помесячно собранной продукции | В том числе использовано: | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | На нужды семей | продано | как корма | убытки | направлено на переработку | остаток |
| Пшено | 605,4 | 28,3 | 156,5 | 29,9 | 1,8 | 30,0 | 358,9 |
| Чечевица | 1026,2 | 16,0 | 334,5 | 106,2 | - | 0,4 | 569,1 |
| Кукуруза | 25,7 | 6,6 | 6,1 | 4,2 | - | 0,1 | 8,7 |
| Картофель | 269,8 | 17,7 | 65,3 | 2,5 | 1,6 | 0,1 | 182,6 |
| Хлопок | 395,6 | 15,0 | 379,8 | - | - | 0,8 | - |
| Помидоры | 64,2 | 9,5 | 49,6 | - | 1,1 | 4,0 | - |
| Огурцы | 59,3 | 8,0 | 48,3 | - | 0,8 | 2,2 | - |
| Свекла | 33,9 | 6,3 | 25,7 | - | 0,1 | 1,5 | 0,2 |
| Лук, чеснок | 143,8 | 6,6 | 72,7 | - | - | 0,5 | 64,1 |
| Яблоко | 43,1 | 6,7 | 26,5 | - | 0,5 | 0,8 | 8,6 |
| Груша | 15,0 | 4,9 | 8,6 | - | 0,1 | 0,8 | 0,6 |
| Гранат, хурма | 57,8 | 8,4 | 47,7 | - | 0,7 | 0,3 | 0,8 |
| Цитрусовые | 223,1 | 9,8 | 212,5 | - | - | 0,8 | 0,1 |
| Виноград | 12,5 | 5,2 | 4,3 | - | - | 2,9 | - |
| Подсолнух | 4,9 | 1,5 | - | - | - | - | 3,3 |

Источник: [14]

Показатели таблицы указывают на то, что наряду с самообеспечением по некоторым видам продукции семейные хозяйства положительно влияют и на товарооборот в соответствующих иасштабах.

Нужно отметить и такой факт, что объекты собственности могут оноситься как одному из членов хозяйства, так и всему хозяйству. Это правило может быть отнесено и к объектам арендования. Так же доходы полученные от использования объектов собственности относятся ко всему хозяйству и гдавой хозяйства подлежат дележу между всеми действующими его членами.

Семейные сельские хозяйства в рамках разработанных местными и центральными управленяескими органами програм и мероприятий могут активно и целесообразно с ними сотрудничать. Это сотрудничество может охватывать широкий ареал отношений от самых простых (институтсиональных) до субсидионных мероприятий, среди которых перечисление некоторых важных может пролить свет на проблемы в этом направлении:

1. формирование производственной и социальной инфраструктуры, помогающей трансформации, развитию и процветанию ССХ;

2. создание и стимулирование развития в местностях сети перерабатывающих, сбыточных, обеспеченских структур (с целью улучшения обеспечения оборудованием, семенами, саженцами, породистыми животными), а также агросервисных, агрохимических, зооветеренарных услуг);

3. Создание и улучшение условий по получению благоусловных кредитов и оказанию лизинговых услуг по ССХ;

4. Оказание помощи в развитии народного ремесленничества, «зеленого» туризма, отраслей обычной, внеаграрной ориентации с целью увеличения занятости в ССХ;

5. Создание условий по оказанию научных, информационно-консультативных услуг, а также услуг по перепрофилизации;

6. Создание благоприятных условий по сбыту товаров ССХ, улучшение их кооперационных взаимоотношений и т.д.

Высказанные в статье нами мысли и побуждения подчеркивают важность, значимость семейных сельских хозяйств по многим направлениям и аспектам социально-экономического развития. Они также являются основами для перспективной деятельности в рассматриваемой сфере.

## ЛИТЕРАТУРА


1. Закон Азербайджанской Республики "О семейных сельских хозяйствах". (14.06.2005). Баку: Ганун, 2011.
2. Багиров М.С., Махмудов Дж.И. Развитие аграрной отрасли Нахчыванской Автономной Республики: проблемы и пути их решения. Нахчыван: Аджеми, 2017.
3. Багиров М.С. Аграрный сектор Нахчыванской Автономной Республики: производственно-сбыточная система и принципы маркетинга. Нахчыван: Аджеми, 2016.
4. Багиров М.С. Ресурсный потенциал аграрной отрасли, его роль в формировании производственных и сбыточных систем. Нахчыван: Аджеми, 2014.
5. Багиров М.С. Развитие аграрной отрасли и использование принципов маркетинга. Нахчыван: Аджеми, 2014.
6. Плотницкий М.И., Лобкович Э.И., Муталимов М.Г. Курс экономической теории. Мн.: Интерпрессервис, 2013.
7. Чепурин М.Н., Киселева Е.А. Курс экономической теории. Киров (Россия): АСА, 2012
8. Войтов А.Г. Экономика. Общий курс. Мн.: Москва, 2011.
9. Алексеева М.М. Планирование деятельности фирм. М.: Финансы и статистика, 2011.
10. Алагаджиева З.М. Семья как субъект общественной жизнедеятельности. М.: Стат.2006.
12. Попов А.Н. Семья с позиций экономической науки. М.: МГУ, 2005.
13. www.stat.gov.az
14. www. agro.gov.az


## ABSTRACT


İn the article talk about structure –management innovation in agrarian sector in Nakhchivan Autonomous Republic at last years. İn this direction provide the formation and activity of family farm at present is of great importance. Implementation of land reforms, animals, techniques and technical means distribution, systematization of legal and normative acts in region made nessesary next fulfillment of orqanization and management and other issues.Given the urgency of the matter was considered expedient of the comment about the content of family farm, theoretical aspects of them activity and realization this activity in practice. Availability of classifications, taking into account the different characteristics of the respective households, has provided a broader, comprehensive coverage of the subject matter.One of the forms of farming in the agrarian sector of the Autonomous Republic is the establishment of family farming.


## РЕЗЮМЕ


В статье повествуется об обновлениях организационно-управленческой ориентации в аграрной отрасли, имевщих место в последние годы в Нахчыванской Автономной Республике. В этом направлении в современную эпоху особой значимостью обладает формирование и обеспечение деятельности семейных хозяйств. Проводимые и ныне завершившиеся в регионе земельные реформы, распределение животных, сельскохозяйственной техники и технических средств, систематизация правово-нормативных актов, берущих свое начало с приобретения страной независимости, в свою очередь выявляют необходимость исполнения последующих организационных, управленческих и других вопросов. В нынешнем периоде одним из форм хозяйствования в аграрном секторе автономной республики являются семейные хозяйства, занимающие специфичное место в повествуемой системе. В числе их основных значимых черт и влияний можно указать на повышение производственных объемов внутри региона, внесение своей лепты в погашение спроса населения по продовольственным товарам, расширение процессов самозанятости, достижение доходов на основе проведения этой деятельности, повышение на этой основе оборота финансовых средств и т.д.

**MƏMMƏD ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*mamed@mail.ru*
**NƏRMİN ORUCOVA**
*Naxçıvan Dövlət Universiteti*
*orucovanermin1995@gmail.com*

# GƏNCLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ MUZEYLƏRİN ROLU

**Açar sözlər:** *Muzey, fond, ekspozisiya, eksponat, kolleksiya, sərvət*
**Key words:** *Muuseum, Fund, Exposition, Exhibits, Collection, wcalth*
**Ключевые слова:** *Музеум, фонды, экспозиции, зкспанаты, каллекции, богатства*

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi bilməyən gənc vətənpərvər ola bilməz". Ulu öndərin bu tövsiyəsinin həyata keçirilməsində müasir dövrdə bəşəri inkişafın hərəkətverici vasitələri içərisində mühüm əhəmiyyət kəsb edən muzeylərin üzərinə böyük vəzifələr düşür[ 1 ].

Müasir şəraitdə cəmiyyətimizin həyatında vacib dəyişikliklər gedir. Müstəqillik qazanmış Azərbaycan daim inkişafa can atır. Bunu həyatımızın bütün sferalarında hiss etməkdəyik. İnkişaf perspektivlərini təyin edən və onun həyata keçirilməsində böyük rola malik olan bir çox vacib amillər mövcuddur ki, onlar həyatımızın ayrılmaz-tərkib hissəsi, həyat meyarıdır. Bunların arasında yetişməkdə olan gənc nəslin vətənpərvərlik tərbiyəsi həmişə cəmiyyətimizin diqqət mərkəzində saxlanılan vacib məsələlərdən biri olaraq qalacaqdır. Vətənpərvərlik tərbiyəsi haqqında danışarkən onu da xüsusilə qeyd etmək lazımdır ki, müharibə şəraitində yaşayan ölkəmizdə bu tərbiyə həmişə önə çəkilməli, gənclərimizin bu ruhda tərbiyə olunması günün vacib tələbinə çevrilməlidir.

Müasir cəmiyyətdə muzey tək elmi-maarifləndirici müəssisə deyildir, həm də şəxsiyyətin inkişafı və təlim-tərbiyəsində böyük rol oynayan mədəniyyət ocağıdır. Muzeydəki eksponatlar gənc nəslin intellektual düşünmə qabiliyyətini artırır. Buradakı hər bir eksponat onlara bilik verir, onları düşündürür, vətənpərvərlik hissini alovlandırır. Müasir şəraitdə, müstəqilliyimizi yaşadığımız dövrdə hər bir muzey – muzeylər şəxsiyyətin, fərdin, bütövlükdə cəmiyyətin, xalqın ümumi tərəqqisində, ümumi dünyagörüşünün formalaşmasında, maraq dairəsinin daha da yüksəldilməsində, elmi, mədəni, təhsil, mənəvi-estetik tərbiyəsinin yüksəldilməsində çoxsahəli və səmərəli fəaliyyət göstərir[2].

Bu gün Vətənimizin tarixini öyrənmək və təbliğ etmək üçün muzeylərimizdə qorunub saxlanılan maddi-mədəniyyət nümunələrinin çox böyük əhəmiyyəti vardır. İnkaredilməz həqiqətdir ki, milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan muzeylərimizin zənginləşməsi, qorunub saxlanılması dövlətimizin daim diqqət mərkəzindədir.

Muzeylər ulu öndərimizin dediyi kimi gənc nəslə çox şey öyrədir və tarixi onlara çatdırır. Gənclərin muzeylərə getməsi və bu ruhda böyüməsi çox vacibdir. Yeniyetmələrin mənəvi inkişafında, gənclərin təşəkkülü və formalaşmasının tədqiqində muzeylər bu gün öz aktuallığı ilə mədəniyyət aləmində güclü inkişaf edici təsirə malikdir. Muzeylər ora gələn gənclərin təşəkkülü, onların özünü dərk etməsi, dünyagörüşünün formalaşmasında əvəzsiz rol oynayır. Gəncləri tərbiyə etmək, təhsilləndirmək, zənginləşdirmək, inkişaf etdirmək, yaradıcılığa meyil oyatmaq, ümumiyyətlə məqsədyönlü təsir yolu seçmək üçün mühüm fəaliyyət xətti sayılır.

Biz tariximizi öyrənərkən qədim dövrün daş abidələrinə, eksponatlarına, əlyazmalarına, qiymətli əşyalara müraciət edirik. Bu cəhətdən muzeylər keçmiş tariximizə müraciət etmək, tarixi qaynaqlarımızı daha dərindən öyrənmək üçün gənc nəsilə qiymətli məlumatlar verir. Dünyanın o cümlədən azərbaycanın qədim maddi-mədəniyyət abidələri kolleksiya şəklində muzeylərdə saxlanılaraq xalqın istifadəsinə verilir. Eksponatlara nəzər yetirdiyimiz zaman xalqın keçmiş tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri ilə ətraflı tanış olmaq olar.

Muzeylər bir sosial institut kimi insanın həyat və mədəniyyətinin bələdçisi olub, mənəvi zənginləşmənin mərkəzi kimi onun tarixi yaradıcılığının istiqamətlərini müəyyənləşdirir. Muzeylər yalnız keçmiş tarixi və maddi-mədəniyyət abidələri haqqında deyil, müasir eksponatlar haqqında da məlumat verir. Muzeylərdəki bütün qiymətli əşyalar bütün xalqların dünənini əyani şəkildə sübut edən tarixi sənədlərdir.

Vətənpərvərlik, qəhrəmanlıq duyğularının, hisslərinin inkişafı, formalaşdırılması muzey tədbirləri vasitəsilə həyata keçirilsə də, bu prosesdə mədəni-maarif işi prinsipləri, metodlarından istifadə edilir. Muzey daxili və muzeydənkənar müxtəlif mövzulu tədbirlərdə hərbi vətənpərvərlik təcrübəsi istiqamətində müvafiq işlər görülür. Beynəlxalq miqyasda sülhün qorunması, əmin-amanlıq sahəsində də gənclərlə aparılan işin keyfiyyəti, istifadə edilən metod müxtəlifliyindən də asılıdır. Həmçinin əxlaq və əmək tərbiyəsi istiqamətində görülən işləri də bunu şamil etmək olar. Bütün bu proseslərdə muzey tərəfindən həyata keçirilən turizm işinin əhəmiyyəti böyükdür. Turizm fəal istirahətin ən əlverişli forması sayılır. Cəmiyyətin sosial durumunda turizmin əhəmiyyəti vardır. Təhsilin və elmi dünyagörüşünün, biliklərin artırılması istiqamətində təşkil edilən səyahətlərdə görkəmli adamlarla görüşlər, gecələr, söhbətlər, abidələrə aid maraqlı mühazirələr, incəsənət əsərləri, nümunələrə aid disputlar və s. mühüm əhəmiyyət kəsb edir. Bu zaman nəzəri şəkildə həmin ana qədər ki, əldə edilən biliklər, təcrübi məqamla rastlaşır və uzun müddətli yaddaqalmaya çevrilməklə, həm də müxtəlif bilik sahələri üzrə təcrübi qabiliyyət və vərdişlər inkişaf edilir, formalaşır. Şəhərlər, memarlıq abidələri, bədii sənətkarlıq nümunələri. Tarixi yerlər barəsində təsəvvürlər, reallığa çevrilir. Yetişməkdə olan gənc nəslin formalaşmasında, onda bədii estetik, humanist, əxlaqi və vətənpərvərlik hissilərinin inkişaf etdirilməsində muzeylərin rolu əvəzedilməzdir. Bu baxımdan bir çox muzeylərdən, xüsusən tarix-diyarşünaslıq və ədəbiyyat muzeyləri təcrübəsindən tədris proseslərində istifadə edilir. Cəmiyyətdəki yeniləşmə prosesi muzeyşünaslıq sahəsində də özünü biruzə verməkdədir. Muzeyşünaslığın inkişafı həm elmin, təhsilin inkişafı, həm də ölkəmizdəki muzeylər şəbəkəsinin genişlənmə si ilə bağlıdır. Muzeyşünaslıq elmi bilavasitə muzeyləri, onların tarixini, ictimai, maarifçi və mədəni funksiy a alarını, ekspozisiya quruluşunu və fond ehtiyatını, digər elmlərlə əlaqələrini öyrənməklə məşğuldur.

Muzeylər tarixi, maddi və mənəvi dəyərlərin saxlandığı, qorunduğu, öyrənildiyi ən mühim müəssisədir. Muzeylər tarixin müəyyən məqamını özündə yaşadan eksponatları komplektləşdirən, qoruyub, öyrənən və nümayiş etdirən maddi-mənəvi xəzinə sayılır. Əslində isə muzeylərə yalnız qiymətli əşyaların, maddi sərvətlərin qorunub saxlandığı yer kimi baxmaq düzgün deyil. Çünki muzeylər həm də elm, maarif müəssisəsidir. Bu gün muzeylər ən mühüm elmi-tədqiqat mərkəzlərinə çevrilmişdir. Bəşəriyyətin tərəqqisi prosesində yaranmış maddi və mənəvi sərvətlərin öyrənilməsi əsasında ayrı-ayrı xalqların tarixi və mədəniyyəti dəqiqləşdirilir. Buna görə də maddi və mənəvi sərvətlərin qorunması, onların öyrənilməsinin ilkin şərtidir. Belə bir işin öhdəsindən yalnız muzeylər gələ bilər. Muzeylər bir sıra tarix və mədəniyyət abidələrini qoruyub saxlamaqla yanaşı, onları öyrənir, bərpa edir və tamaşaçıların diqqətinə çatdırmaqla, onların bu sahədə mənəvi tələbatını ödəyir. Ötən əsrlərin yadigarlarını eksponatlara çevirərək, təbliğ edir. Buna görə də muzey işinin təşkil olunması kompleks elmi-kütləvi iş ilə bağlıdır.

Muzeyşünaslığın elmi ictimai əhəmiyyətini nəzərə alaraq və muzeylərin fəaliyyətini beynəlxalq miqyasda əlaqələndirilməsi məqsədilə YUNESKO nəzdində beynəlxalq muzeylər şurası yaradılmışdır. Ayrı-ayrı muzeylərin Milli Muzey Komitələri bu şuraya daxil edilmişdir. Həmin şuranın 1977-ci ildə Moskva şəhərində keçirilən XI konfransında muzeyşunaslığın fundamental əsaslarını işləmək və onun universitetlərdə tədris olunması məsələsi irəli sürülmüşdür. Bəzi ölkələrdə muzey inistitutları, elmi-tədqiqat mərkəzləri və bir neçə institutda kafedralar fəaliyyət göstərir[3.s 43].

Mədəniyyətin inkişafına qayğı göstərmək xalqın özündə əks etdirən milli mədəni sərvətlərin ayrı-ayrı sihasi xadimlərin görkəmli yazıçı və şairlərin milli mədəniyyət və mənəvi milli irsinin qorunub saxlanması və təblig olunması üçün yeni-yeni muzeylərin təşkil edilməsi sayəsində əsası möhtərəm prezident Heydər Əliyev tərəfindən qoyulan nəcib ənənələr bu gündə ardıcıl həyata keçirilir.

Son illər Naxçıvan Muxtar Respublikada nəinki yeni-yeni muzeylərin təşkilinə həm də onların maddi-texniki bazasının möhkəmləndirilməsinə, muzeylərin iş şəraitinin yaxşılaşdırılmasına, çox böyük diqqət və qayğı göstərilir.

Muzey mühitinin təsir gücündən bəhs edilərkən məktəblilərlə aparılan tərbiyə prosesinin müvafiq şəraitdə məqsədyönlü təşkili diqqət mərkəzində olmuşdur. Mühit vasitəsilə yaradıcı idrakla tərbiyə prosesi arasındakı qarşılıqlı əlaqə muzey mövcudluğundan sonrakı ictimai inkişafın bütün mərhələlərində özünü qabarıq şəkildə göstərmişdir.

Muzey fəaliyyəti vasitəsilə aparılan tərbiyəvi təsirin optimal quruluşunu, tərbiyəvi işlərin məzmunu, üsul, vasitə, forma və metodlarını müəyyənləşdirməkdə başlıca tələblər – prinsiplər həlledici rol oynayır. Muzey fəaliyyətinin ümumilikdə götürdükdə təsir gücünün nəticəsi sonrakı mərhələlər vasitəsilə ölçülür.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu sahədə uğurlu addımlar atılır və böyük layihələr reallaşır. Hazırda Azərbaycanda 200-dən çox muzey fəaliyyət göstərir.

Vətənpərvərlik tərbiyəsi haqqında danışarkən onu da xüsusilə qeyd etmək lazımdır ki, müharibə şəraitində yaşayan ölkəmizdə bu tərbiyə həmişə önə çəkilməli, gənclərimizin bu ruhda tərbiyə olunması günün vacib tələbinə çevrilməlidir. Bu gün görülən işlər sabah mütləq öz sevindirici nəticələrini verəcəkdir.

Muzeylərin gənc nəslin vətənpərvərlik tərbiyəsində rolu danılmaz bir faktdır. Bu sahədə, vətənpərvər vətəndaşların yetişdirilməsi işində ən çox da qəhrəmanlara həsr olunmuş muzeylərin böyük rolu vardır.

Keçmişimizi və bu günümüzü özündə əks etdirən belə muzeylər gələcək nəslin tərbiyəsində, tarixi keçmişə ehtiram, vətənə məhəbbət ruhunda formalaşmasında böyük əhəmiyyət daşıyan mədəniyyət müəssisələridir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Xatirə Muzeyi də gənclərdə vətənpərvərlik ideyalarının formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda baş verən qırğınlara və törədilən etnik qarşıdurmalara ilk hüquqi qiymət ümummilli lider Heydər Əliyev tərəfindən verilib. 1918-ci il 31 mart, 1990-cı il 20 yanvar, 1992-ci il 26 fevral faciələri ilə bağlı dahi rəhbərin imzaladığı sərəncamların sürəti muzeydə özünə yer alıb. Ekspozisiyada 1918-1920-ci illərdə erməni daşnakları tərəfindən Azərbaycan xalqının başına gətirilən faciələri əks etdirən material, fotoşəkil və sənədləri görmək olar.

Muzeyin hər bir guşəsi tamaşaçıda vətənə məhəbbəti, sədaqəti, qəlbində olan qəhrəmanlıq hislərini alovlandırır. Qəhrəmanlar, qəhrəmanlıq haqqında söhbətlər gəncləri öz vətəninin vətənpərvəri, vətəndaşı olmağa səsləyir. Məqaləni Ümummilli lider Heydər Əliyevin muzeylər haqqında dəyərli fikirləri ilə sonlandırmaq istəyirik.

“Muzeylərin mənası, əhəmiyyəti Azərbaycan xalqınının tarixini təbliğ və əks etdirməkdən, mədəniyyətimizin səviyyəsini göstərməkdən ibarətdir. Biz öz səviyyəsinə və zamanın tələblərinə həmişə cavab verən istər keçmiş, istərsə də bugünki mədəniyyətimizlə fəxr edirik”.

## ƏDƏBİYYAT


1. Azərbaycan müəllimi, - 2012.- 8 iyun, - S.4.
2. Sübhi Kəngərli, Mənin məqalələrim, Naxçıvan.2017.s.51
3. Elfira Qurbanova; Apdin Əlizadə Muzeylərdə Elmi-Tədqiqat işinin təşkili və metodikası, Bakı, 2011.
4. Sabir Əmirxanov, Muzeyşünaslıq, Bakı Biznes Universiteti nəşriyyatı 2012.



## ABSTRACT

## THE ROLE OF MUSEUMS IN YOUNG PEOPLE'S TRAINING

In modern conditions, important changes are taking place in the life of our society. Independent Azerbaijan is constantly striving for development. We feel it in all spheres of our lives. There are many important factors that determine the development perspectives and have a major role in its implementation, as they are an integral part of our lives, a criterion of living. Among them, the patriotic upbringing of the younger generation will always remain one of the important issues of our society's attention. Speaking about patriotic education, it should be noted that in our country living in a war, this upbringing should always be promoted, and the education of our youth in this spirit should become an essential requirement of the day. In modern society, the museum is not only a science-enlightenment institution, but also a cultural center that plays a major role in the development and education of personality.



## РЕЗЮМЕ

## РОЛЬ МУЗЕЕЙ В ОБУЧЕНИИ МОЛОДЫХ ЛЮДЕЙ

В современных условиях происходят важные изменения в жизни нашего общества. Независимый Азербайджан постоянно стремится k развитию. Мы чувствуем это во всех сферах нашей жизни. Есть много важных факторов, kоторые определяют перспективы развития и играют важную роль в его реализации, посkольkу они являются неотъемлемой частью нашей жизни, kритерием жизни. Среди них патриотичесkое воспитание подрастающего поkоления всегда будет оставаться одним из важных вопросов внимания нашего общества. Говоря о патриотичесkом воспитании, следует отметить, что в нашей стране, живущей на войне, это воспитание всегда следует поощрять, и воспитание нашей молодежи в этом духе должно стать неотъемлемым требованием дня. В современном обществе музей является не тольkо научно-просветительсkим учреждением, но и kультурным центром, играющим важную роль в развитии и воспитании личности.

**FƏXRƏDDİN CƏFƏROV**
*Naxçıvan Dövlət Universiteti*
*cəfərov@gmail.com*

## NAXÇIVAN MUXTARİYYƏTİ VƏ İNZİBATİ ƏRAZİSİ TARİXİNDƏN

**Açar sözlər:** *I Zaqafqaziya Sovet Sosialist Respublikaları qurultayı, III Ümumnaxçıvan ölkə sovetlər qurultayı, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi, Naxçıvan, Ordubad və Şərur qəzaları Həmid Sultanov, Naxçıvan MSSR Mərkəzi icraiyyə Komitəsi, Xalq Komissarları Soveti*

**Key words:** *I Transcaucasia Congress of the Soviet Socialist Republics, III Sovets of the Commonwealth of Independent States congress, Transcaucasian Central Executive Committee, Nakhchivan, Ordubad and Sharur accidents Hamid Sultanov, Central Executive Committee of the Nakhchivan Autonomous Republic, People's Commissars Council*

**Ключевые слова:** *Конгресс Закавказской Советской Социалистической Республики, Советский Коммунистический Союз, 3-я Советская Республика Советский Союз конгресс, Закавказский центральный исполнительный комитет, аварии на Нахчыване, Ордубаде и Шаруре Хамид Султанов, Центральный исполнительный комитет Нахчыванской Автономной Республики, Совет народных комиссаров*

Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir. Bunu nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"nı təsdiq etmişdir.

Yubileylə əlaqədar Arxiv sənədlərinin dili ilə oxucularımıza Naxçıvan Muxtariyyətinin yaranması və inzibati ərazisi haqqında məlumat vermək istərdik.

Naxçıvanda 1920-ci ilin iyul ayının 28-də Sovet hakimiyyəti elan ediləndən sonra Naxçıvanın siyasi və coğrafi mövqeyi, yəni onun Türkiyə və İran kimi xarici dövlətlərlə həmsərhəd olmasını nəzərə alan RSFSR və Azərbaycan hökumətləri Naxçıvan ölkəsinə Muxtariyyat verilməsi məsələsini irəli sürdülər. Bununla da Naxçıvanın Muxtariyyatının həyata keçirilməsi yolunda ilk addım atıldı. Naxçıvan Azərbaycan SSR-nin himayəsi altında Sovet Respublikası elan edildi. Bu vəziyyət 1921-ci il martın 16-da RSFSR ilə Türkiyə dövləti arasında bağlanan dostluq müqaviləsində də təsbit olundu.

RSFSR nümayəndələrinin iştirakı ilə Zaqafqaziya Sovet respublikalarının və Türkiyənin Qars Konfransı (1921-oktyabr) Naxçıvan Azərbaycan SSR-nin Muxtar hissəsi kimi tanınması təstiq edildi.

Naxçıvan MSSR-nin yaradılması üçün başlıca müqəddəm şərtlər bunlar idi: Naxçıvan ölkəsində sosialist ictimai quruluşunun meydana gəlməsi və inkişafı, Naxçıvan MSSR-nin siyasi əsası olan sovetlərin təşkil edilməsi və möhkəmlənməsi, zəhmətkeşləri amansız istismar edən və onların arasında milli ədavət salan burjua və mülkədar siniflərinin ləğv edilməsi Naxçıvan ölkəsində burjua millətçilərinin illər uzunu zəhmətkeşlər arasında törətdikləri qırğınlara, oyatdıkları ədavət, kin-küdirətə və düşmənçiliyin başqa formalarına qısa müddət ərzində son qoyuldu.

1922-ci il mayın 22-də AK(b)P MK İcraiyyə Komitəsi tərəfindən təqdim olunmuş Naxçıvan ölkəsi haqqında əsasnaməyə və Naxçıvan SSR Konstitusiya layihəsinə baxdı. Əsasnamədə Naxçıvan ölkəsi haqqında deyilir: "Naxçıvan ölkəsi Azərbaycan SSR-nin protektoratlığı altında respublika elan edilir, Naxçıvan Sovet Sosialist Respublikası adlandırılır".

AK(b)P MK-nin təşəbbüsü ilə Naxçıvanın muxtariyyəti haqqında məsələ 1922-ci ilin noyabrında RK(b)P MK Siyasi Bürosunun iclasında müzakirə olundu.

1922-ci ilin dekabırın 12-də I Zaqafqaziya Federativ Sovet Sosialist Respublikaları qurultayı Naxçıvan məsələsi üzrə qəbul etdiyi xüsusi qərarında Naxçıvanın muxtariyyət statusunda Azərbaycan SSR-nin ayrılmaz tərkib hissəsi olduğu təsdiq edildi.

1923-cü ilin fevral ayının 27-də III Ümumnaxçıvan ölkə sovetlər qurultayının dördüncü iclasında Naxçıvan Sovet Sosialist Respublikası Naxçıvan ölkəsi kimi təsdiq olunmaqla 17 üzv və 7 nəfər namizəddən ibarət ölkə icraiyyə komitəsi yaradıldı.

1923-cü il dekabrın 31-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan ölkəsini Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevirməyi qərara aldı və bu qərarı təsdiq etməyi Zaqafqaziya Mərkəzi İcrayyə Komitəsindən xahiş etdi.

1924-cü il yanvarın 8-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin birinci plenumu Naxçıvan Muxtar ölkəsini Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevirmək haqqında Q.Musabəyovun məruzəsini və Azərbaycan SSR-nin MİK-nin qərarını müzakirə edərək Naxçıvani Azərbaycan SSR-nin ayrılmaz bir hissəsi saymaqla Naxçıvan Muxtar Sovet Sosialist Respublikası şəklində təstiq edildi.

Zaqafqaziya və Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitələrinin qərarlarına əsasən 1924-cü ilin yanvar ayının 18-də çağırılan Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin plenumu Naxçıvan ölkəsini Naxçıvan MSSR-i ilə əvəz etmək haqqında qərar qəbul etdi. Naxçıvan MSSR MİK-ni seçdi və Naxçıvan MSSR Xalq Komissarları Sovetini, Xalq Komissarlarını təşkil etdi. Plenum Naxçıvan MSSR-nin inzibati ərazi cəhətdən 3 qəzaya – yəni Naxçıvan, Ordubad və Şərur qəzalarına bölündü. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsindən xahiş edildi ki, Naxçıvan ölkəsinin Naxçıvan MSSR-na çevrilməsini təsdiq etsin və dekret verilsin.

1924-cü il 9 fevralda Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan ölkəsini Naxçıvan MSSR-na çevirmək haqqında dekret verdi. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin dekretində deyilirdi: "Naxçıvan ölkəsi – Muxtar Sovet Sosialist Respublikasına çevrilsin, Naxçıvan MSSR dövlət hakimiyyəti aparatı Azərbaycan SSR, ZSFSR və SSRİ Konistitusiyalarına əsasən yerli sovetlərdən, Xalq Komissarları Sovetindən və Mərkəzi İcraiyyə Komitəsindən təşkil edilsin, Naxçıvan MSSR-nin əsasnaməsinin hazırlanması üçün komissiya təşkil edilsin".

Naxçıvan ölkəsinin Naxçıvan MSSR-yə çevrilməsini Zaqafqaziya xalqları böyük rəğbətlə qarşıladılar. Naxçıvan MSSR-nin şəhər və kəndlərində bununla əlaqədar bayram şənlikləri keçirilirdi.

1924-cü ilin aprelində Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan MSSR haqqında yeni əsasnaməni təsdiq etdi. SSRİ-nin ilk konstitutiyasının pirinsipləri əsasında tərtib edilmiş Əsasnamənin birinci maddəsində deyilirdi ki, "Naxçıvan Sovet Sosialist Respublikası Naxçıvan ərazisinin bütün zəhmətkeşlərinin azad sosialist cəmiyyətidir. Naxçıvan MSSR-nin hüdudları daxilində bütün hakimiyyət ölkənin sovetlərdə birləşmiş zəhmətkeşlərinə məxsusdur". Əsasnamənin ikinci maddəsində göstərilirdi ki, Naxçıvan MSSR Azərbaycan SSR-nin tərkib hissəsidir və Naxçıvan Muxtar Respublika kimi Azərbaycan SSR-na daxildir. Naxçıvan MSSR-nın dövlət bayrağı və dövlət gerbi də Əsasnaməsi də təsdiq edilmişdir.

1925-ci ilin fevral ayının 14-də Azərbaycan SSR-nın dövlət və partiya xadimi H.Sultanov Naxçıvan MSSR Xalq Komissarlar Sovetinin və Mərkəzi İcraiyyə Komitəsinin sədri təyin edilir. Fevralın 15-də keçrilən iclasda Naxçıvan MSSR İnzibati-ərazi cəhətdən 3 qəzaya bölünür. Bu qəzalarda ayrı-ayrı dairələrə bölünürlər. Naxçıvan qəzası; Tumbul, Əbrəqunus, Cəhri, Şahbuz, və Culfa, Şərur qəzası; Yengicə, Baş Noraşen, Qıvrax və Sədərək, Ordubad qəzasına isə Aza, Əylis, Parağa dairələrinə bölünür.

Müvafiq orqanların göstərişi ilə ştatları azaltmaq üçün təşkil edilmiş xüsusi rayonlaşdırma komissiyasının qərarına əsasən 1925-ci ilin sentyabr ayının 26-da Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi, Naxçıvan MSSR ərazisində olan Naxçıvan, Şərur, Ordubad qəzalarını ləğv etmək haqqında qərar qəbul etdi. Bu qəzalar dairələrə bölündü ki, mövcud yaradılmış dairələrdə bilabasitə Naxçıvan MSSR MİK-na bə XKS-nə tabe olurlar.

Hələ sentyabrın 12-də Naxçıvan MSSR-da olan qəza, dairə və Kənd Sovetlərinin ştatlarına baxan komissiyanın qərarı ilə Sədərək, Yengicə bə Baş Noraşen dairələri birləşdirilərək Mərkəzi Baş Noraşen olur. Əylis dairəsi Ordubada köçürülərək Ordubad dairəsi adlanır. Cəhri dairəsi Tumbul dairəsi ilə birləşdirilərək mərkəzini Naxçıvan şəhərinə köçürməklə Tumbul dairəsi adlandırılır. Qalan bütün dairələr öz əvvəlki ərazisində və mərkəzlərində saxlanırlar.

Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Soveti Şahbuz dairəsi zəhmətkeşlərinin arzu və istəklərini nəzərə alaraq 27 mart 1925-ci ildə Şahbuz dairəsinin Nərimanov dairəsi adlanmasını təsdiq edir.

1925-ci il və 1926-cı ilin may ayına kimi Naxçıvan MSSR-da 10 dairə olmuşdur. Cəhri dairəsi Tumbul dairəsi ilə, Aza dairəsi Ordubad dairəsi ilə birləşdirildiyindən 8 dairə saxlanılmışdır. Naxçıvan MSSR MİK-nin 2 noyabr 1927-ci il tarixli qərarı ilə Qıvrax dairəsi ləğv olunaraq Noraşen dairəsinə birləşdirilir. Qıvrax dairəsinin tabeçiliyində olan Əznəbyrt kənd sovetliyi Naxçıvan dairəsinə çevrilir.

1926-cı il aprelin 18-də Ümumi Naxçıvan Sovetlər qurultayında Naxçıvan MSSR-nın birinci Konstitusiyası müzakirə olunub yekdilliklə qəbul edildi. Naxçıvan MSSR Konsitutsiyasının qəbul edilməsinin böyük tarixi əhəmiyyəti var idi. Konstitusiya Naxçıvan zəhmətkeşlərinin bu illərində qazandıqları tarixi naliyyətləri qanunvericilik yolu ilə təsbit edir. Naxçıvan MSSR zəhmətkeşlərinin yaradıcı qüvvələrinin daha da tərəqqi etməsi üçün yeni perspektivlər açırdı. Konstitusiya Komminist partiyasının və Sovet dövlətinin rəhbərliyi altında, böyük rus xalqının və ölkəmizin bütün xalqlarının qardaşlıq köməyi ilə Naxçıvan zəhmətkeşləri tərəfindən əldə edilmiş dövlət muxtariyyatını təsbit edirdi.

Naxçıvan MSSR Konstitusiyası zəhmətkeş kütlələrinin öz qüvvələrinə inamını möhkəmləndirir, onları ölkəmizdə quruculuq uğrunda mübarizədə səfərbər edirdi.

Xalq təsərrüfatına daha yaxşı və yaxından rəhbərlik etmək üçün Azərbaycan SSR VI Sovetlər Qurultayı 1929-cu il aprelin 8-də Azəraycan SSR rayonlaşması haqqında yeni qərar qəbil edir. Bu qərara əsasən Azərbaycan SSR ərazisində qəzalar və dairələr ləğv olunaraq mahal, rayon və kənd şuraları yaradılır. Bu vaxt Naxçıvanda mövcud olan 7 dairədən 3-ü ixtsara düşərək Parağa dairəsi, Ordubad dairəsi ilə Əbrəqunus dairəsi Culfa dairəsi ilə və Nərimanov dairəsi isə Naxçıvan dairəsinə birləşdirilir. Beləliklə Naxçıvan MSSR-da 4 rayon – Baş Noraşen, Ordubad, Naxçıvan və Culfa rayonları yenidən yaradılır.

SSRİ Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Sovetinin 1930-cu il iyul ayının 25-də qəbul etdiyi qərara əsasən Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Soveti 1930-cu il avqust ayının 8-də Azərbaycan SSR İnzibati - ərazi bölgüsündə dəişiklik edərək mahalları ləğv edir və rayonlar təşkil edilir. 1930-cu ilin mayında müvafiq təşkilatların göstərişi əsasında Əbrəqunus Culfadan, Nərimanov rayonu Naxçıvandan ayrılaraq müstəqil rayon təşkil edilir. Beləliklə 1930-cu il avqustun 8-də Naxçıvan MSSR-da Ordubad, Naxçıvan, Nərimanov, Əbrəqunus, Noraşen və Culfa rayonları olmuşdur.

Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin 17 noyabr tarixli qərarı ilə Culfa rayonu ləğv edilərək yerində Culfa qəsəbə şurası təşkil edilir. 1932-ci ilin axırında isə Culfa rayonu yenidən təşkil olunur.

Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1931-ci il 16 yanvar tarixli qərarına əsasən Naxçıvan və Ordubad şəhərlərində qəsəbə şuraları təşkil edilir.

1933-cu il iyul ayının 11-də Naxçıvan və Ordubad qəsəbə şuraları Naxçıvan və Ordubad şəhər şuraları ilə əvəz edilir.

1936-cı il dekabrın 5-də keçirilən VIII fövqəladə sovetlər qurultayı SSR-nın yeni kunsitutsiyasını qəbul etdi. Bu konstitusiyaya əsasən Zaqafqaziya SSR - i ləğv edilərək Azərbaycan, Görcüstan və Ermənistan Sovet Sosialist Respublikaları bir başa SSR-nın tərkibinə daxil oldu. 1937-ci ilin mart ayının 14-də IX Azərbaycan Sovetlər Qurultayı Azəraycan SSR-nın yeni konsitutsiyasını qəbul etdi. Bu konsitutsiya sinifi fərqlərin və istismarçı siniflərin ləğv edildiyini nəzərə alaraq rayon və kənd fəhlə kəndli və Qızıl Əskər Deputatları Sovetini rayon (şəhər) və Kənd Zəhmətkeş Depudatları Soveti adı ilə əvəz etdi. 1939-cu ildə isə Culfa şəhər Zəhmətkeş Depudatları Soveti seçilir. 1949-cu ildə isə Əbrəqunus rayonu ləğv olunaraq Culfa rayonu ilə birləşdirilmişdir.

1961-ci il yanvar ayının 1-nə olan məlumata görə (Azərbaycan SSR-nın inzibati ərazi bölgüsü haqqında məlumat. Bakı, Azərnəşr, 1961-ci il) Naxçıvan MSSR aşağıdakı şəhər (qəsəbə) sovetləri və rayonlara bölünür. 3 şəhər soveti - Naxçıvan, Ordubad və Culfa şəhər sovetləri 2 qəsəbə Soveti - Parağa və Noraşen qəsəbələri və 5 rayondan - Culfa, Ordubad, Naxçıvan, Şahbuz və Noraşen rayonlarından ibarətdir.

1962-ci ildə keçirilən noyabr plenumunun qərarına əsasən sənaye və kənd təsərrüfatı istehsalat idarələrinin təşkili ilə əlaqədar olaraq Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1963-cü il yanvar ayının 4-də Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin Naxçıvan MSSR ərazisində 3 kənd rayonu-Culfa, Naxçıvan və Noraşen kənd rayonu və Naxçıvan, Noraşen kənd rayonları və Naxçıvan sənaye rayonunun təşkil edilməsi haqqında qərarını təsdiq edir.

1930-cu ilin 8 avqustunda yaranmış Şərur rayonu, 1930-1964-cü illərdə Noraşen rayonu,1964-1991-ci illərdə isə İliç rayonu adlandırılmış, 1991-ci ildə rayonun adı dəyişilərək yenidən Şərur rayonu adlandırılmışdır. Hazırda rayonun 1 şəhər, 65 kəndi vardır.

1930-cu il avqustun 8-də yaranmış Şahbuz rayonu isə 4 yanvar 1963-cü ildə ləğv edilərək Naxçıvan (indiki Babək) rayonunda birləşdirilmiş, 6 yanvar 1965-ci il tarixdən yenidən təşkil olunmuşdur. Hazırda rayonun 1 şəhər, 23 kəndi vardır.

Ordubad rayonu da 8 avqust 1930-cu ildə təşkil olunmuş, 4 yanvar 1963-cü ildə rayon ləğv edilərək Culfa rayonunun tərkibinə verilmiş və 6 yanvar 1965-ci il tarixdə yenidən təşkil edilmişdir. Hazırda rayonun 1 şəhər, 3 qəsəbə və 43 kəndi vardır.

Həmçinin 8 avqust 1930-cu ildə təşkil edilmiş Culfa rayonunun da 1 şəhər 24 kəndi vardır.

Babək rayonu (Naxçıvan rayonu Babək rayonu adlandırılır) 23 oktyabr 1978-ci ildə təşkil edilmişdir. Hazırda 1 qəsəbə və 39 kəndi vardır.

Sədərək rayonu isə 24 avqust 1990 – cı ildə yaradılmışdır və rayonda 1 qəsəbə,3 kənd vardır.

Kəngərli rayonu 16 mart 2004-cü ildə yaradılmış və rayonun 1 qəsəbə və 10 kəndi vardır.

Beləliklə, Naxçıvan Muxtar Respublikasının hal-hazırda inzibati ərazisi 5,5 kv.km, əhalisi 431,6 min nəfər (2013 –cü ildə olan məlumata əsasən) olmaqla Naxçıvan Muxtar Respublikası 7 inzibati rayona – Babək, Ordubad, Şərur, Sədərək, Şahbuz, Culfa, Kəngərli rayonlarına bölünmüşdür.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublika kimi 95 il öz tarixi inkişafının çox mühüm və şərəfli dövrünü yaşamaqdadır. Bu gün Naxçıvan Muxtar Respublikası Azərbaycanın tərkibində müstəqillik yollarında inamla irəliləyir, ölkənin sosial-iqtisadi, ictimai - siyasi və mədəni inkişafında irəlidə gedən bölgələrin ən öncüllərindəndir.

## ƏDƏBİYYAT


1. Nax MRDA f.2. 2. iş 9
2. Nax. MRDA. f.299. s.72 iş.17
3. Nax MRDA. f.299. siy 4. İş 39
4. AR PİİSSA. f 1 siy.74
5. NMRDA f.40 siy 2. İş 5
6. NMRDA f.40. siy 4. İş 15
7. Naxçıvan Muxtar Respublikası konstitusiyalarda s.22


## ABSTRACT


**Fakhraddin Cafarov**


**FROM THE HISTORY OF NAKHCHIVAN AUTONOMY AND ADMINISTRATIVE TERRITORY**


Taking into account the political and geographical position of Nakhchivan, namely its borders with foreign countries such as Turkey and Iran, after Nakhchivan's proclamation of the Soviet Union on July 28, 1920, RSFSR and Azerbaijani governments continued to issue autonomy to Nakhchivan. Nakhchivan was proclaimed the Soviet Republic under the aegis of the Azerbaijan SSR. It was also discovered in a friendship treaty between the RSFSR and the Turkish state on March 16, 1921.


## РЕЗЮМЕ


**Фахраддин Джафаров**


**ИЗ ИСТОРИИ НАХЧЫВАНСКОЙ АВТОНОМИИ И АДМИНИСТРАТИВНОЙ ТЕРРИТОРИИ**


28 июля 1920 года после провозглашения Нахчываном Советсkого Союза правительства РСФСР и Азербайджана продолжали предоставлять Нахчывану автономию, а именно его границы с зарубежными странами, включая Нахчыван. Нахчыван был провозглашен Советской Республикой под эгидой Азербайджанской ССР. Это было также обнаружено в договоре о дружбе между РСФСР и турецким государством 16 марта 1921 года.

**RƏSUL BAĞIROV**
*Naxçıvan Dövlət Universiteti*
*resul.bagirov@mail.ru*

## QƏDİM NAXÇIVANIN QALA ŞƏHƏRLƏRİ ƏHALİSİNİN İQTİSADİYYATI

**Açar sözlər:** *Naxçıvan, arxeoloji qazıntı, qədim, I Kültəpə, II Kültəpə, orta və son tunc dövrü, dəmir dövrü, qala-şəhər, əkinçilik, əmək alətləri, maldarlıq, sənətkarlıq, dulusçuluq, toxuculuq, metallurgiya, iqtisadi əlaqə, inkişaf*

**Key words:** *Nakhchivan, archeological excavations, ancient, I Kultapa, II Kultapa, middle and last bronze period, iron cycle, fortress-city, agriculture, labor tools, cattle, craft, pottery, textile, metallurgy, economic relations, development*

**Ключевые слова:** *Нахчыван, археологические раскопки, древний, I Култапа, II Култапа, средний и последний бронзовый период, железный цикл, город-крепость, сельское хозяйство, орудия труда, крупный рогатый скот, ремесло, керамика, текстиль, металлургия, экономические отношения, развитие*

Naxçıvanın tunc və ilk dəmir dövrü qala-şəhərlərindən aşkar edilmiş arxeoloji materiallar – müxtəlif tikinti qalıqları, əmək alətləri, keramika, metal, daş və sümük məmulatları, taxıl qalıqları, heyvan sümükləri bu qədim diyarda yaşamış əhalinin iqtisadiyyatını, ictimai-siyasi həyat tərzini öyrənməyə imkan verən yeganə mənbələrdir.

Naxçıvanın qala-şəhərlərinin təsərrüfat həyatının tədqiqi, e.ə. III-I minilliklərdə Azərbaycanda gedən çox mühüm tarixi və mədəni inkişaf proseslərini öyrənməyə imkan verir. II Kültəpədə arxeoloji qazıntıların nəticələri göstərir ki, Naxçıvanın qala-şəhər tipli yaşayış yerlərinin yarandığı və inkişaf tapdığı orta və son tunc dövrlərində - e.ə. XXIII-XII əsrlərdə əhalinin əsas təsərrüfat məşğuliyyəti əkinçilik, maldarlıq, dağ-mədəniləşmə, metallurgiya və metalişləmə, dulusçuluq, toxuculuq və s. sənətkarlıq sahələri, eləcə də daşişləmə, sümükişləmə, gön-dəri işləmə, balıqçılıq, ovçuluq kimi peşələr olmuşdur (12, s. 125).

Naxçıvan diyarında qədim Sədərək, Şərur düzənliklərində, Arpaçay, Naxçıvançay, Əlincəçay və Gilançay vadilərinin aşağı axarı boyunca uzanan dağətəyi zonalarda süni suvarma ilə məşğul olmuşlar. Naxçıvançay, Arpaçay, Gilançay vadilərində və Qarabağlar kəndi ərazisində mövcud olan Gavurarx, Fərhad arxı və b. Qədim suvarma kanalları çox geniş əkin sahələrini əhatə edir (3, s.120).

Həmin tarla yerlərində və əkinçilik işlərini idarə edən qala-şəhərlərdə müxtəlif daş vəllərə, toxalara, obsidian və çaxmaqdaşı quraşdırma oraq dişlərinə və taxıl qalıqlarına rast gəlinmişdir(15, s. 79).

E.ə. III minilliyin ikinci yarısından, xüsusilə orta tunc dövründən etibarən qala-şəhərlərin ətrafında toxa əkinçiliyindən-xış əkinçiliyinə keçilmişdir. Qədim Şərqdə, mesopotamiya, Misir və b. ölkələrdə, həmçinin Cənubi Qafqazda torpağın xışla şumlanması e.ə. III minillikdən başlanmışdır (12, s. 126; 18, s. 379).

Qoşqu qüvvəsi olan öküz vasitəsi ilə xışla şumlanmış əkin sahələrində əmək məhsuldarlığı xeyli artmışdır (18, s. 380). Tədqiqatçı T.Ə.Bünyadovun fikrincə qədim xış Azərbaycanda yaxın keçmişə qədər istifadə olunan xışdan fərqlənməmişdir. Naxçıvanın qala şəhərtipli yaşayış yerlərindən - II Kültəpə, Oğlanqala, şahtaxtı-Qovurqala və b. abidələrindən külli miqdarda iribuynuzlu heyvan və at sümükləri aşkara çıxarılmışdır. II Kültəpə və Şahtaxtı qala şəhərlərinfən tapılan orta tunc dövrünə aid boyalı qablar üzrəində öküz və at təsvirləri vardır (12, s. 127).

Tədqiqatçı T.Ə.Bünyadovun fikrincə heyvanlar vasitəsilə taxıl döyümünün tarixini eneolit dövrünə aid etmək olar (1, s. 35-36). Xırmanda öküz və yaxud at kimi qoşqu qüvvəsindən istifadə etməklə üçbucaq və uzunsov formalı daş vəllər vasitəsilə taxıl döyülmüşdür. Əkinçilik geniş yayıldıqca daş vəlləri daha da təkmilləşmiş ağac vəllər əvəz etmişdir.

Naxçıvanın qala-şəhərlərində tunc dövrü tayfaları darı, arpa, buğda kimi dənli bitkilər becərmişlər. Darı qalıqları Naxçıvanda I Kültəpə yaşayış yerinin ilk tunc dövrünə aid ikinci təbəqəsindən məlumdur (8, a. 112).

Bütün bu deyilənlərdən aydın olur ki, orta tunc dövründə naxçıvanda əkinçilik mədəniyyəti yüksək səviyyədə olmuşdur.

Naxçıvan tayfalarının ən qədim təsərrüfat növlərindən biri də üzümçülük olmuşdur. Tədqiqatçı V.H.Əliyev qədim Naxçıvanda e.ə. II minilliyin birinci yarısında üzümün mədəni halda becərildiyini göstərir (16, №125, s. 99). Üzümçülük Naxçıvanın qala-şəhərlərinin təsərrüfatında müəyən rol oynamışdır.

Şahtaxtı-Qarabağlar ərazisində bağçılıq və bostançılıq qədim əhalinin təsərrüfat sahələrindən biri olmuşdur. Qıvraq və Qarabağlar kəndləri ərazilərindəki tunc dövrü yaşayış yerlərindən əldə edilən üzüməzən daşlar bunu sübut edir (6, s. 131).

Qarabağlar kəndi yaxınlığındakı Qalacıq və Naxçıvan şəhəri yaxınlığındakı II Kültəpə orta tunc dövrü qədim yaşayış yerlərindən müxtəlif həcmli üzüm əzən daşlar əldə edilmişdir. Mədəni üzüm tumlarına II Kültəpə yaxınlığındakı Meydantəpə qədim yaşayış yerində də rast gəlinmişdir (6, s. 132). Burada orta tunc dövrünə aid abidənin alt təbəqəsindən qırılmış boz rəngli gil qabın içərisindən çoxlu üzüm tumları aşkara çıxarılmışdır.

Tunc dövründə Azərbaycan tayfalarının, eləcə də Naxçıvan tayfalarının iqtisadiyyatında maldarlıq təsərrüfatı xüsusi rol oynamışdır. Arxeoloji tədqiqatlar nəticəsində əldə edilən osteoloji qalıqlar və heyvan fiqurlarından ibarət materiallara əsasən demək olar ki, Azərbaycanda ibtidai icma quruluşunun eneolit və ilk tunc dövrü mərhələlərində maldarlıq əksər tayfalarda oturaq, tək-tək tayfalarda isə köçmə və yaxud yarımköçəri xarakter daşımışdır.

II Kültəpədə aparılmış arxeoloji qazıntıların nəticələri göstərir ki, qədim Naxçıvan tayfa ittifaqlarının yarandığı e.ə. XXIII-XX əsrlərdə yarımköçəri maldarklıq təsərrüfatı formalaşmışdır (3, s. 133- 134).

Naxçıvan ərazisində köçmə maldarlıq e.ə. II minillikdə daha geniş inkişaf etmişdir. I Kültəpə tədqiqatlarından əldə edilmiş osteoloji materiallara əsasən, Naxçıvanda yarımköçəri maldarlığın e.ə. II minilliyin birinci yarısında inkişaf etdiyini söyləmək mümkündür. Tədqiqatçı O.H.Həbibullayev göstərir ki, Tunc dövrünün ortalarından etibarən I Kültəpə əhalisinin bir hissəsi hər il köçəri maldarlıqla əlaqədar olaraq mal-qara ilə birlikdə yaylağa köçüb getmişdir (8, s. 116).

I Kültəpənin eneolit və ilk tunc dövrü təbəqələrində qaramal sümükləri davar sümüklərinə nisbətən üstünlük təşkil edir. Naxçıvanın orta tunc dövrü yaşayış yerlərindən əldə edilən osteoloji qalıqların təhlili göstərir ki, bu dövrdə xırdabuynuzlu heyvanların sayı xeyli artmışdır. Xırdabuynuzlu heyvanların artması isə köçmə maldarlığı şərtləndirən əsas amil olmuşdur.

Ordubaddakı Gəmiqaya dağının yamaclarındakı Qaranquş, Nəbi yurdu, Qız-gəlin çuxuru və Camışölən yaylaqlarındakı qayaüstü rəsmlərin əksəriyyəti xırdabuynuzlu heyvanlara aiddir. Burada tək-tək araba və öküz rəsmlərinin olması bir daha köçmə maldarlığın inkişafına sübutdur (5, s. 23).

Naxçıvanın tunc və ilk dəmir dövrünə aid I Kültəpə, II Kültəpə, Qızılburun, Şahtaxtı Qovurqala, Oğlanqala və b. yaşayış yerlərində əldə edilmiş osteoloji materiallar maldarlıq təsərrüfatının inkişafını izləməyə imkan verir.

Qızılburunda toplanan sümük qalıqlarının əksəriyyəti davara. Bir qismi isə iribuynuzlu heyvanlara aiddir (13, s. 134). Azərbaycan EA-nın müxbir üzvü tədqiqatçı D.V.Hacıyev II Kültəpə maldarlıq təsərrüfatında qoyun – Ovis, keçi, Sarça, öküz və inək Bos taurus, donuz – Sus domestika və at – Egus Caballas bəslənildiyini təyin etmişdir (12, s. 134).

II Kültəpə, Nəhəcir, Şahtaxtı-Qovurqala, Oğlanqala, Qızılburun və b. yaşayış yerlərindən çoxlu miqdarda gil nehrələrə və onların qırıqlarına rast gəlinmişdir (2, s. 34; 7, s. 73-74).

Naxçıvan orta tunc dövrü qala-şəhərlərindən gil nehrələr kütləvi şəkildə tapılır. Onların nümunələri I Kültəpədən, Qızılvıngdən, Nəhəcirdən, Qarabağlardan, Şahtaxtından, Oğlanqaladan, Qıvraqdan və nəhayət çoxlu miqdarda II Kültəpədən məlumdur.

Azərbaycanda oturaq və köçmə maldarlığın intensiv olaraq artması atçılığın da inkişaf tapmasını zəruri etmişdir. Atın minik vasitəsi kimi istifadə edilməsi köçmə və yaxud yarımköçəri maldarlıqla, eləcə də ticarətlə əlaqədar olmuşdur.

Arxeoloji tədqiqatlar göstərir ki, atçılıq tunc dövründə Azərbaycanda Naxçıvan, Mil-Qarabağ, Muğan və Xəzərsahili ərazilərdə inkişaf tapmışdır. Naxçıvan şəhəri yaxınlığındakı I Kültəpə yaşayış yerindən 1904-cü ildə orta tunc dövrü boyalı qabları ilə birlikdə daş at fiquru tapılmışdır (17, s. 210). Minik atı skleti Şahtaxtı qəbiristanlığında daş qutu qəbirində at bəzəyi ilə birlikdə aşkar olunmuşdur (11, s. 56). Həmin qəbirdən əldə edilən polixrom boyalı küp üzərində isə at rəsmləri vardır (9, s. 27-29).

Naxçıvan qala-şəhər yaşayış yerlərində maldarlığın intensiv inkişafı nəticəsində ayrı-ayrı ailələr və nəsillərin əlində əlavə var-dövlət yığılmış, mülki bərabərsizlik daha da artmış, nəhayət cəmiyyətdə sosial təbəqələşmə prosesi meydana gəlmişdir. Naxçıvan tunc dövrü tayfa ittifaqlarının əkinçilik və maldarlıq təsərrüfatı sahələrinin intensiv inkişafı, bu dövrdə əhalinin sayının sayının çoxalması istehsal prosesində müxtəlif növ əmək alətlərinə, məişət avadanlıqlarına tələbatın artması qala-şəhər mərkəzlərində sənətkarlığın inkişafına və çox mühüm bir təsərrüfat sahəsi kimi formalaşmasına səbəb olmuşdur.

Naxçıvanın qala-şəhər mərkəzlərində sənətkarlığın dulusçuluq, metallurgiya və metalişləmə, toxuculuq, daşişləmə və s. növləri ayrı-ayrı təsərrüfat sahələri kimi fəaliyyət göstərmişdir.

Tədqiqatçı V.H.Əliyevin fikrincə Azərbaycanda orta tunc dövründə dulusçuluq sənəti oturaq əkinçi-maldar tayfaların məskunlaşdığı Naxçıvan və Mil-Qarabağ düzənlikləri ərazisində daha yüksək səviyyədə

inkişaf tapmışdır.

Naxçıvanın qala şəhərlərində dulusçuluq mühüm bir sənətkarlıq növü kimi tam formalaşmış və yüksək səviyyədə inkişaf tapmışdır. Bunun da nəticəsidir ki, boyalı qablar mədəniyyəti Naxçıvanda geniş inkişaf etmişdir.

II Kültəpə tədqiqatları zamanı emalatxana yerindən tapılan dairəvi daş və müxtəlif sümük alətlər, eləcə də gil məmulatı burada sadə dulus dəzgahından istifadə olunduğunu sübut edir. Naxçıvanda dulusçuluq sənətinin yüksək səviyyəyə çatması üçün əsas zəmin ilk tunc dövründə yaranmışdır (3, s.138).

Naxçıvan MR-nin ilk tunc dövrü abidələrindən I Kültəpədən, II Kültəpədən, Ovçular təpəsindən və onun yaxınlığında aşkar olunan qəbir abidəsindən əldə edilən gil məmulatlarına əsasən müəyyənləşdirilmişdir ki, qırmızı, çəhrayı rəngli sadə və monoxrom boyalı qablar heç də orta tunc dövründə birdən meydana gəlməmişdir. Əksinə Kür-Araz mədəniyyətinin ikinci mərhələsində qırmızı, çəhrayı rəngli sadə və monoxrom boyalı qablar istehsal olunmuşdur.

II Kültəpənin e.ə. III minilliyin sonlarına aid təbəqəsindən cızma, çərtmə, yapma və ştamplama üsulları ilə birlikdə üzəri qırmızı rənglə örtülmüş və qara rənglə dalğavari xətlərlə bəzədilmiş küp qırıqları əldə edilmişdir. Boya ilə naxışlama üsulu əsasən Naxçıvanın qala-şəhərlərinin orta tunc dövrü dulusçuluğu üçün səciyyəvidir. Orta tunc dövründən etibarən gil qabların bədii tərtibatına xüsusi diqqət verilmişdir.

Mil-Qarabağ dulusçuluğu üçün daha səciyyəsi olan naxışlama üsulları Naxçıvan sənətkarlığı tərəfindən mənimsənilmişdir (4, №2, s. 47-54). Böyük sənətkarlığa malik olan qədim Naxçıvan dulusçuları bu işin öhdəsindən məharətlə gəlmiş, yüksək keyfiyyətli təsərrüfat – küplər, nehrələr, sərniclər və s məişət avadanlıqları istehsal etmişlər. Qədim Naxçıvanın metallurgiya və metalişləmə ocaqları bu mühüm sənətkarlıq sahəsinin Qafqazda inkişaf tapmasında xüsusi rol oynamışdır.

Naxçıvanın qədim qala-şəhər mərkəzlərində metallaurgiya və metalişləmənin inkişafı üçün lazımi yerli xammal mənbələri, mis və arsen yataqları vardır. II Kültəpə qala-şəhərin yaxınlığında, Naxçıvançayın sol sahil ərazidə yerləşən Sirab, Vayxır və Göydağ mis yataqları bu mərkəzdə metallurgiyanın inkişafı üçün lazımi şərait yaratmışdır. Buradakı mədənlərədə mis, kuprit, malaxit, azurit və xalkozin vardır.

Naxçıvanda digər zəngin mis yataqları Ordubad rayonu ərazisindəki Misdağdır. Nürgüd kəndi yaxınlığında yerləşən Göygöl mis-molibden yataqlarında nikel, qurğuşun, sink və b. elementlər var. Ağyurd və Şəkərdərə ərazisində mis-qızıl yataqları vardır.

Qədim metallurqlar istehsal prosesi üçün çox vacib olan yanacağı Batabat (Şahbuz), Xurs, Nəsirvaz (Ordubad), ərəfsə (Culfa) meşələrindən əldə etmişlər. Vayxır və Sirab mis yataqlarından II Kültəpə metallurqları filiz çıxarmışlar. Bu qədim şəhər yerinin tunc və ilk dəmir dövrü təbəqələrində qazıntılar nəticəsində metalişləmə emalatxanalarının qalıqları – metaləritmə kürələri, şlak, körük ucluğu, gil butələr, tunc əşyalar aşkara çıxarılmışdır (12, s. 137). Qədim Naxçıvanda dağ-mədən istehsalında əsasən bazalt cinsli daşdan hazırlanmış külüng, gürz, balta, iskənətipli alətlər istifadə olunmuşdur.

Naxçıvan qədim qala-şəhər yaşayış yerlərində - II Kültəpədə, Şahtaxtı-Qovurqalada, Qarabağlar-Qalacıqda, Oğlanqalada və s. metallurgiya və metalişləmə əsasən e.ə. II minilliyin əvvəllərindən etibarən geniş inkişaf tapmışdır. Gil və daş qəliblər I Kültəpə (10, s. 74), II Kültəpə yaşayış yerlərindən, Qızılburun daş qutu qəbirindən əldə edilmişdir. II Kültəpədə metal əritmək və tökmək üçün gil qəliblər də tapılmışdır (12, s. 142).

Naxçıvanın qala-şəhərləri əhalisinin orta, son tunc və ilk dəmir dövrü toxuculuq sənəti haqqında əsas material arxeoloji qazıntılardan əldə edilən gil, sümük əyirciklər, sümükdən hazırlanan toxuculuq alətləri, boyalı qablar və qayalar üzərindəki feyimli adam rəsmləridir.

II Kültəpədə əldə edilən maral buynuzundan hazırlanmış kirgid və həvətipli nazikuclu alətlər də şübhəsiz ki, toxuculuq dəzgahlarında işlədilmişdir. Naxçıvan qala-şəhər əhalisi orta tunc dövründə bitki liflərindən, xüsusilə qamışdan həsir toxumuşlar. Belə qalıqlar II Kültəpədə evlərin döşəmələrində izlənilmişdir. Toxuculuq Naxçıvanın qədim şəhərlərində kustar ev şəraitində aparılmaqla yanaşı, bir sənət növü kimi də meydana gəlib formalaşmışdır.

E.ə. II minillikdə və I minilliyin əvvəllərində dəvəgözü, çaxmaq, yaşma, tuf və başqa daşlardan bıçaqlar, sürtkəclər, oraq dişləri, ox ucları, bülövlər, həvəng-dəstələr, dən daşları düzəldirdilər. Bütöv tipli daş əmək alətləri vasitəsilə bəzək əşyaları cilalayıb parıldatmış, metal silahları və kəsərləri itiləmişlər (12, s. 83). Sümük alətləri orta və son tunc dövrlərində xeyli azalmış və sıradan çıxmışdır.

Naxçıvanın qədim qala-şəhərlərinin təsərrüfat həyatında dağ-mədənişləmə xüsusi əhəmiyyət kəsb etmişdir. II Kültəpə qədim şəhər yerində aparılan geniş arxeoloji qazıntılar nəticəsində çoxlu metalişləmə ocaqları və külli miqdarda dağ-mədənləşmədə istifadə olunan daş əmək alətləri (külüng, gürz, balta) aşkara çıxarılmışdır. Bu sənətkarlıq və ticarət mərkəzinin əhalisi qonşu ərazilərdə - şərqdə Vayxır, Sirab dağlarında mis, cənubda Darıdağda arsen və qərbdə Naxçıvan Duzdağında duz istehsal etmişlər.

Duz istehsalı qədim II Kültəpə sakinlərinin iqtisadiyyatında çox əlverişli və əhəmiyyətli təsərrüfat sahəsi olmuşdur. Naxçıvan Duzdağı ərazisindən hələ XIX əsrin 70-ci illərində dağ mühəndisi Fon Koşkul

qədim duz mədənləri yerindən daş gürzlər tapmış və Peterburq Antropoloji Muzeyinə vermişdir (14, s. 212).

Duz mədənindən və onun xaricindəki sahələrdən əldə edilmiş daş əmək alətləri və keramika məmulatına əsasən bu qədim istehsal ocağı e.ə. III-II minilliklərə aid edilir.

Əhalinin məişət və təsərrüfat tələbatlarının ödənilməsi üçün çox vacib olan keyfiyyətli duz məhsulu Naxçıvanın qonşu Cənubi Qafqaz tayfaları və Yaxın Şərq ölkələri ilə ticarət-iqtisadi əlaqələrinin genişlənməsində mühüm rol oynamışdır.

**ƏDƏBİYYAT**


1. Bünyadov T.Ə. Azərbaycanda əkinçiliyin inkişafı tarixinə dair, Bakı, Azərbaycan SSR EA nəşri., 1964
2. Əliyev V.H. Azərbaycanda tunc dövrü boyalı qablar mədəniyyəti, Bakı, Elm, 1977
3. Əliyev. V., Bağırov R. Naxçıvanın qədim qala şəhərləri, Bakı, Elm, 2012
4. Əliyev V.H., İsmayılov Q.Ş. Quruçay və Köndələnçay hövzəsində boyalı qablar mədəniyyətinə aid yeni tapıntılar // Azərbaycan SSR EA Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası, 1969, №2, s. 45-58
5. Əliyev V.H. Gəmiqaya abidələri, Bakı, 1992
6. Əliyev. V.H. Azərbaycanın orta tunc dövrü tayfalarının mədəniyyəti, Bakı, 1992
7. Əliyev V.H. Şahtaxtının tunc dövrü abidələri // Azərbaycan SSR EA Xəbərləri, 1974, №4, s.70-82
8. Həbibullayev O.H. Kültəpə arxeoloji qazıntıları, Bakı, Azərbaycan SSSR EA nəş., 1959
9. Абидуллайев О.А. Материалы Шахтахтинской погребения // Известия АН Азериайджанской ССР, 1961, №5, с. 27-36
10. Абидуллайев О.А. Некоторые итоги изучения холма Кюльтепе в Азербайджане // СА, №3, 1963, с. 157-168
11. Алекперов А.К. Крашенная керамика Нахичеванского края и Ванское царство // СА, №4, 1937, с. 249-263
12. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана, Баку, Элм, 1991
13. Алиев В.Г. Археологические исследования на территории Нахичеванской АССР. 1971 // МСПИАПАИ, 1971, г. В СССР. Баку, 1972
14. Из дневника Полякова, Протоколы подготовительного комитета V археологического сьезда // Прил. К.в. т. IX, древности, М., 1882, с. 214
15. Исмаилов Г.С. Археологические работы в междуречье Куручай и Кенделенчай в 1964-1966 гг. // МКА, 1980, т. 9, с. 79
16. Кушнарева К.Х. Новые данные о поселении Узерликетепе около Агдама // МИА 125. 1965, с. 74-102
17. Лалаян Е.А. Нахичеванский район // Этнографическое обозрение, т. XIII, т. I, Тбилиси, 1906, с. 205-210
18. Мунчаев А.М. Кавказ на заре бронзового века, М., 1975



**ABSTRACT**

**Rasul Bagirov**

**ECONOMIC ECONOMY OF QEDIM NAKHCHIVAN'S HEALTHCARE POPULATION**

Archaeological materials found in Bronze and Bronze Age cities of Nakhchivan - various construction remnants, labor instruments, ceramics, metal, stone and bone products, grain residues, animal bones, allowing to study the economy, social and political lifestyle of people living in this ancient land the only sources. Investigation of economic life of Nakhchivan's fortress cities, e. It allows studying very important historical and cultural development processes in Azerbaijan in III-I millennia.



**РЕЗЮМЕ**

**Расул Багиров**

**ЭКОНОМИКА НАСЕЛЕНИЯ ГОРОДОВ КРЕПОСТЕЙ ДРЕВНЕГО НАХЧЫВАНА**

Археологические материалы, найденные в городах-крепостях Нахчыванф эпохи бронзы и первого железного периода различные строительные остатки, орудия труда, керамика, металлические изделия, камни и кости, остатки зерна, кости животных, являются единственным источником, позволяющим изучать экономику, общественно-политическую жизнь и образ жизни проживавшего в этом древнем крае населения. Исследование хозяйственной жизни городов-крепостей Нахчывана, позволяет изучать очень важные историко-культурные процессы развития в Азербайджане в III-I тысячелетиях, до нашей эры.

**ƏLƏKBƏR CABBARLI**
*Naxçıvan Dövlət Universiteti*

## NAXÇIVANA ERMƏNİ TƏCAVÜZÜ VƏ MUXTARİYYƏT STATUSUNUN QAZANILMASI

**Açar sözlər:** *Azərbaycan, Naxçıvan, muxtariyyət, Qars müqaviləsi, hakimiyyət*
**Key words:** *Azerbaijan, Nakhchivan, autonomy, Kars treaty, authority*
**Ключевые слова:** *Азербайджан, Нахчыван, автономия, Карсский договор, власть*

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvanın Muxtariyyət statusu 1918-1920-ci illərdə bütövlükdə torpaqlarımıza və xalqımıza qarşı erməni ekspansiyası ilə bağlıdır. Həmin illər Naxçıvan üçün çox çətin və mürəkkəb tarixi dövr olmuşdur. Belə ki, Rusiyada çarizm devrildikdən sonra imperiyanın bir çox əyalətlərində olduğu kimi, Naxçıvan bölgəsində də ikihakimiyyətlilik hökm sürmüş, yaranmış mürəkkəb vəziyyətdən istifadə edən ermənilər Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu diyara yiyələnmək üçün cəhdlər etmişlər.

1918-ci ilin mayında Azərbaycan dövlət müstəqilliyini elan etdi, Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Bu zaman tarixdə ilk dəfə Cənubi Qafqazda Azərbaycan torpaqları hesabına yaradılan erməni dövləti ölkəmizə qarşı əsassız ərazi iddiaları irəli sürməyə, Azərbaycan torpaqlarını zorla ələ keçirməyə başladı. Daşnaklar Naxçıvan, Zəngəzur, Qarabağ torpaqları hesabına işğal etdikləri ərazilərini genişləndirmək, eyni zamanda bölgədə marağı olan dövlətlərin himayəsindən istifadə edərək Türkiyənin bir sıra şərq vilayətlərini ələ keçirmək niyyətində idilər.

Azərbaycan Cümhuriyyəti ilə Türkiyə arasında 1918-ci il iyunun 4-də bağlanmış Batum müqaviləsinə əsasən Türkiyənin göstərdiyi hərbi yardım Azərbaycanın istiqlalının qələbəsində, eyni zamanda, xalqın erməni və rus işğalına qarşı mübarizəsində mühüm rol oynadı. Hələ Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçməmiş, Nuru paşanın komandanlığı ilə Azərbaycana gəlmiş türk qoşunları Gəncədə yerləşib gözləyirdilər.

Bu zaman erməni quldурu Andronik Ozanyan bolşeviklərlə əlaqəyə girərək Naxçıvanı və Zəngəzuru ələ keçirmək üçün hücuma keçmiş, Şərur-Dərələyəz və Naxçıvan qəzalarında qanlı qırğınlar törətmişdi. Belə bir vəziyyətdə bölgəni kütləvi qırğından yalnız Türkiyə xilas edə bilərdi. 1918-ci il mayın sonlarında bölgə əhalisi Kərim xan İrəvanlının başçılığı ilə Mehmet Vehbi paşanın yanına nümayəndə heyəti göndərib hərbi qüvvə ilə kömək etməyi xahiş etdi [2, s. 103-104].

1918-ci il iyunun əvvəllərində 9-cu və 11-ci türk diviziyaları Uluxanlıdan Naxçıvana hərəkət etdi. 1918-ci ilin iyun ayının 4-də türk hərbi hissələrinin Naxçıvana daxil olmasından qorxuya düşən Andronik öz qaniçən dəstəsi ilə geri çəkildi. Naxçıvan Milli Şurasının sədri Cəfərqulu xan, onun oğlu Kalbalı xan, Rəhim xan, Kamran xan, Cabbarağa Vəzirov və b. səyləri ilə yerli inzibati komitə bərpa olundu.

1918-ci il avqust ayının əvvəlində Azərbaycanın Naxçıvan və Təbriz bölgələri K.Qarabəkir paşanın 1-ci Qafqaz kolordusunun nəzarətində idi. Avqustun 7-də K.Qarabəkir qərargahını Təbrizdən Naxçıvana köçürdü. Bu zaman ermənilər Naxçıvana növbəti hücuma hazırlaşırdı. K.Qarabəkir paşanın gəlməsi Qafan tərəfdən Naxçıvana erməni hücumunun qarşısının alınması istiqamətində ciddi tədbirlər görülməsi ilə müşayiət olundu [4, s. 195].

Sentyabrın 15-də türk qoşunlarının köməyi ilə Azərbaycan ordusu Bakını rus-erməni qəsbkarlarından azad etdi. Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. Bu xəbər Naxçıvanda böyük sevinclə qarşılandı. Oktyabrın 22-də K.Qarabəkir Cənubi Azərbaycanı tərk edərək oktyabrın 25-də Culfaya, sonra isə Naxçıvana gəldi. Lakin, cəmi 6 gün sonra, oktyabrın 31-də K.Qarabəkir paşa I kolordu qərargahının ləğv olunduğu, özünün isə İstanbula çağrıldığı barədə əmr aldı. Bu onunla əlaqədar idi ki, 30 oktyabr 1918-ci ildə I Dünya Müharibəsinin nəticələrini rəsmiləşdirən Mudros müqaviləsi bağlanmışdı və məğlub tərəf kimi Türkiyəyə qarşı da bir sıra sərt tələblər qoyulmuşdu. Türk ordusu bir həftəyə Bakını, bir aya Cənubi Qafqazı tərk etməli, müharibədən əvvəlki sərhədlərə çəkilməli idi. Bu səbəbdən Türkiyə tutduğu ərazilərdən, eləcə də Naxçıvandan geri çəkildi. Nuru paşa Azərbaycandan qoşunları çağırdığı kimi, K.Qarabəkir paşa da 1918-ci il noyabrın 1-də qərargahı ilə Naxçıvandan qatarla Qarsa yola düşdü [2, s. 106]. Mudros müqaviləsinin şərtlərini eşidən K.Qarabəkir çox narahat olmuş və demişdi ki, "Qırx illik əsarətdən altı ay öncə qurtulan və erməni zülmündən ağır yaralar alan... türk-müsəlman əhalisinin yaşadığı bu bölgələr

biz 1914-cü il sərhədlərinə çəkilincə yenidən erməni-gürcü zülmünə məruz qalacaqdır. Buna çarələr düşünüb, tədbirlər görməliyik" [13, s. 18].

Türk qoşunlarının Naxçıvanı tərk etməsindən əvvəl 1918-ci il noyabr ayında türk ordu generalı Mustafa Kamalın (Atatürk) məsləhəti ilə Şərq cəbhəsi komandanı, ordu generalı K.Qarabəkir paşanın dəstəyi ilə Naxçıvanda müstəqil hakimiyyəti olan Araz-Türk Respublikası yaradıldı [10, s. 111-112]. Bu respublikanın inzibati əraziləri Naxçıvan, Şərur-Dərələyəz, Ordubad, Sərdərabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri nahiyələri və s. ərazilər daxil olmaqla, 16.000 $km^2$-ə çatırdı, əhalisi isə 1 milyon nəfərə yaxın idi[8, s. 29].

K. Qarabəkir Araz-Türk Respublikasının silahlı qüvvələrinin yaradılmasına da kömək göstərmiş, polkovnik Xəlil bəy bu hökumətdə Türkiyə təmsilçisi təyin olunmuşdu. Bu dövlət qurumunun cəmi dörd ay yaşamasına baxmayaraq, qısa müddətdə onun hökuməti bölgənin azərbaycanlı əhalisinin qüvvələrinin düşmənə qarşı mübarizə naminə səfərbər edilməsində və ərazilərin ermənilər tərəfindən işğalının qarşısının alınmasında mühüm rol oynadı.

1919-cu ilin yanvarında Naxçıvanda ingilis general-qubernatorluğu elan edildi. Bu zaman Naxçıvanı faktiki olaraq Cəfərqulu xan idarə edir, Kalbalı xan isə silahlı qüvvələrə komandanlıq edirdi. Bölgənin müdafəsində türklərin burada qoyub getdiyi 300 nəfər əsgəri və 5 zabiti yaxından iştirak edirdi [11, s. 61].

K.Qarabəkir Naxçıvan bölgəsini daim diqqət mərkəzində saxlayırdı. Naxçıvana hücuma keçən ermənilərin qarşısını almaq üçün onun əmri ilə 1919-cu il iyulun 17-dən 18-ə keçən gecə Bəyazit qarnizonundan yüzbaşı Xəlil bəyin başçılığı ilə 4 zabit və 7 əsgərdən ibarət bir qrup Naxçıvanda müdafiəni təşkil etmək üçün yola salınmışdı. Bu iş elə təşkil edilmişdi ki, guya Xəlil bəy və yoldaşları fərarilik edərək ordudan özləri qaçmışlar. Bu yolla Naxçıvana silah, cəbhə ləvazimatı, təcrübəli zabitlər göndərildi ki, onların da bölgənin müdafiəsində əhəmiyyətli rolu oldu. K.Qarabəkir 1919-cu ildə Ərzurum konfransından sonra mayor Veysəl bəyə və Şərqi Anadoludakı 11-ci diviziya komandiri Cavid bəyə göndərdiyi məktubda yazırdı: "Hər tərəfdən məhzur bir haldayıq, yalnız Azərbaycana açıq Naxçıvan pəncərəsi var. Onun qapanmamasını istəyirəm" [15, s. 4].

Bu zaman ingilislər Naxçıvanın erməni idarəçiliyinə verilməsi siyasətini yürüdürdülər. 1919-cu il mayın 1-də Britaniya komandanlığı adından general Devi Şərur və Ordubad daxil olmaqla, bütün Naxçıvan bölgəsinin Ermənistana verildiyini Naxçıvan Milli Şurasına bildirdi. Bu xəbər xalqın qəti etirazına səbəb oldu. Mayın 14-də general Devi və daşnakların baş naziri Q.Xatisov Naxçıvana gəldilər. Milli Şuranın və xalqın qəti etirazına baxmayaraq daşnak Varşamyan Naxçıvana general-qubernator təyin edildi. Azərbaycan ordusunun buradakı zabitlərini Naxçıvanı tərk etməyə məcbur etdilər. Milli Şuranın sədri vəziyyət barədə Azərbaycan hökumətinə məlumat verərək bildirdi ki, biz ermənilərə tabe olmuruq, tezliklə Azərbaycan qoşunları tərəfindən Zəngəzurun tutulmasını və Azərbaycanla birləşməyi gözləyirik. Azərbaycan hökuməti bütün vasitələrlə Naxçıvanın ermənilər tərəfindən il haqqına mane olmağa çalışsa da, 1919-cu il iyunun 21-də erməni qoşunları ingilislərin köməyi ilə Naxçıvan bölgəsini işğal etdi. Vedibasar, Şərur, Şahtaxtı, Naxçıvan, Ordubad, Zəngəzur hücumlara məruz qaldı.

Azərbaycan hökumətindən gözlənilən yardımı ala bilməyən Naxçıvan əhalisi ermənilər əleyhinə ümumxalq mübarizəsinə qalxdı. 3 günlük qanlı döyüşlərdə Kalbalı xanın rəhbərliyi ilə xalq qoşunu ermənilərə sarsıdıcı zərbə vurdu, avqustun 30-da Naxçıvan şəhəri ermənilərdən təmizləndi. Bu döyüşlərdə Naxçıvandakı azsaylı türk əsgərləri və zabitləri qəhrəmancasına vuruşdular [2, s. 109].

Ermənilər qovulduqdan sonra Azərbaycan hökuməti S.Cəmillinskini Naxçıvana general-qubernator təyin etdi. O, burada dərhal idarəetmə strukturları yaratmağa başladı. Xəlil bəy bölgə qoşunlarına komandan təyin edildi. Kalbalı xan həm komandan müavini, həm də Naxçıvan qoşun dəstəsinin komandiri oldu.

1919-cu ilin iyul-avqustunda Naxçıvandakı Amerika polkovniki C.Rey Cəfərqulu xanla və Xəlil bəylə danışıqlar apararaq burada Amerika general-qubernatorluğu yaratmaq haqqında fikirlərini bildirdi. Avqustun sonunda polkovnik V.Haskel Paris sülh konfransı və Antanta Müttəfiqlər Şurası adından Azərbaycan hökumətinə bildirdi ki, Naxçıvan və Şərur-Dərələyəzdə ABŞ general-qubernator-luğu yaradılır [7, s. 86]. Lakin, həm Azərbaycan hökumətinin sədri N.Yusifbəylinin, həm də Naxçıvanın yerli hakimiyyət nümayəndələrinin və əhalisinin qətiyyətli mövqeyi nəticəsində burada ABŞ general-qubernatorluğu yaratmaq cəhdləri iflasa uğradı və bir müddət sonra onlar Naxçıvanı tərk etməli oldular.

1919-cu ilin noyabrında ermənilər yenidən Naxçıvana hücuma başladılar. Ordubadın bir neçə kəndini ələ keçirən ermənilər əhaliyə divan tutdular. Xəlil bəyin göndərdiyi taborlar və Kalbalı xanın dəstələri düşmənə qarşı rəşadətlə döyüşərək hücumun qarşısını aldılar. Naxçıvanın müdafiəsindəki xidmətlərinə görə Kalbalı xan Türkiyənin yüksək hərbi ordeninə layiq görüldü. Azər-baycan hökuməti də Naxçıvanın müdafiəsindəki xidmətlərinə görə ona general-mayor rütbəsi verdi.

1920-ci ilin martında K.Qarabəkirin qərarı ilə Naxçıvandakı türk qüvvələrini gücləndirmək üçün Əli Teymur bəyin başçılığı altında 50 nəfərdən ibarət türk bölüyü göndərildi [1, s. 20]. Belə şəraitdə martın 21-

də daşnak qoşunları Naxçıvan üzərində irimiqyaslı hücuma keçdilər. Türk zabiti Zob bəyin, Kalbalı xanın, Xəlil bəyin, Nuru bəyin, Naci bəyin, Ədib bəyin başçılığı ilə döyüşən taborlar ermənilər məğlub edərək geri oturtdular.

1920-ci ilin payızında Şərq cəbhəsində uğurlu əməliyyatlar keçirən K.Qarabəkir sentyabrın 29-da Sarıqamışı, oktyabrın 1-də Kağızmanı, oktyabrın 30-da Qarsı, noyab-rın 7-də Gümrünü, noyabrın 12-də İqdırı azad etdi. Nəhayət, noyabrın 25-də ermənilər təslim olaraq danışıqlara başladılar. 1920-ci il dekabrın 2-də Türkiyə ilə daşnak hökuməti arasında Gümrü müqaviləsi bağlandı. 18 maddədən ibarət olan bu müqavilənin 2-ci və 12-ci maddələri Naxçıvanla bağlı idi. Bu müqavilə ilə bir sıra ərazilər Türkiyənin himayəsinə verilmiş və Ermənistanın bu ərazilərə iddia irəli sürməyəcəyi təsbit edilmişdi [14, s. 19-23]. Lakin, elə müqavilənin imzalandığı gün daşnak hökuməti süqut etdi, əvəzində isə Ermənistanda sovet hakimiyyətinin qurulduğu elan edildi.

Bununla belə, K.Qarabəkir paşa Veysəl bəyə göndərdiyi 26 dekabr 1920-ci il tarixli teleqramda Ermənistan və Azərbaycanın Naxçıvana müdaxilə etməsinin doğru olmadığını və bu iki ölkənin Naxçıvana fövqəladə komissar təyin edə bilməyəcəyini və belə şərait yaranarsa, Naxçıvanı öz parçası kimi dəyərləndirən türk hökuməti tərəfindən lazımi tədbirlər görüləcəyini bildirmişdi [9, s. 392]. Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də verdiyi bəyanatla Naxçıvanı müstəqil sovet respublikası kimi tanıdığını və ona qarşı ərazi iddialarından imtina etdiyini bildirdi.

1921-ci ilin əvvəllərində Naxçıvanda bölgənin və yerli əhalinin aqibətini əbədilik həll edən referendum keçirildi. Referendum Naxçıvanın sonrakı dövrdə də Azər-baycanın ərazisi kimi qalması üçün mühüm amil oldu. Bu, Zəngəzurdan sonra Naxçıvanı qəsb etmək istəyən ermənilərə böyük bir zərbə idi. Referendumun nəticələri Moskva və Qars müqavilələri ilə möhkəmləndirildi.

M.K.Atatürkə görə "Türk qapısı", K.Qarabəkirə görə "Şərq qapısı" olan Naxçıvan strateji əhəmiyyətli bölgə kimi Türkiyə, Rusiya və Türkiyə-Ermənistan görüşmələrində mühüm yer tutmağa başladı [12, s. 52]. Naxçıvanın muxtariyyət statusu alması çox ağır, gərgin bir dövrdə gərgin mübarizə nəticəsində olmuşdur. Bu mübarizədə Türkiyənin və böyük M.K.Atatürkün də rolu olmuşdur. Belə ki, 1921-ci ilin martında Türkiyə ilə Rusiya arasında imzalanmış Moskva müqaviləsi Naxçıvana muxtariyyət statusunun verilməsində müstəsna rol oynadı.

Naxçıvanın muxtariyyət statusunun təmin edilməsində sovet Azərbaycanının Ədliyyə komissarı, görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin Moskvada apardığı danışıqlar Leninin Naxçıvan məsələsinə münasibətini dəyişməsinə və nəticə etibarilə Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsinə ciddi təsir etmişdi. Ümumiyyətlə, Azərbaycanın Ədliyyə komissarı, Naxçıvan İnqilab Komitəsinin və Xalq Komissarları Sovetinin sədri, Azərbaycanın Rusiyada səlahiyyətli nümayəndəsi kimi məsul vəzifələrin öhdəsindən ləyaqətlə gələn, çox böyük nüfuz sahibi olan B.Şahtaxtinskinin Naxçıvanın muxtariyyət statusu qazanmasında çox böyük xidmətləri olmuşdur.

O, 1921-ci il martın 1-də Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışlar əlavə etmiş, Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi [11, s. 304]. B.Şahtaxtinskinin Naxçıvanla bağlı təklifləri Leninin diqqətini cəlb etmiş və məktub müzakirə üçün Siyasi Büroya göndərilmişdi. Martın 16-da Siyasi Büroda həmin məktuba baxılmış, B.Şahtaxtinskinin təklifi nəzərə alınmaqla Azərbaycanın himayəsində Naxçıvan Sovet Respublikasının təşkili barədə qərar qəbul olunmuşdu. B.Şahtaxtinskinin Moskvaya gəlmiş Türkiyə nümayəndə-ləri ilə apardığı danışıqlar da uğurla nəticələnmişdi.

Bir ay davam etmiş danışıqların yekunu 1921-ci il martın 16-da RSFSR-lə Türkiyə arasında imzalanmış "Dostluq və qardaşlıq haqqında müqavilə"də öz əksini tapdı. Beləliklə, 1921-ci il martın 16-da Rusiya ilə Türkiyə arasında bağlanan Moskva müqaviləsi bir çox prinsipial məsələlərlə yanaşı, Naxçıvan bölgəsinin taleyinə də aydınlıq gətirdi. Müqavilənin 3-cü maddəsinə uyğun olaraq Naxçıvanın qəyyumluğunu heç bir zaman üçüncü dövlətə güzəştə getməmək şərti ilə muxtar bölgə kimi Azərbaycanın tərkibində qaldı [6, s. 16]. Müqavilə 1921-ci il martın 20-də RSFSR Mərkəzi İcraiyyə Komitəsi, həmin il iyulun 21-də isə Türkiyə Böyük Millət Məclisi tərəfindən təsdiqləndi [11, s. 305] və Naxçıvanın taleyinin həll olunmasında böyük rol oynadı.

1921-ci il oktyabrın 13-də Rusiya nümayəndələrinin iştirakı ilə bir tərəfdən Azərbaycan, Ermənistan və Gürcüstanın, digər tərəfdən Türkiyənin imzaladıqları Qars müqaviləsinə əsasən Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirildi, gələcək siyasi-hüquqi statusu qəti olaraq müəyyənləşdirildi. Bölgənin bütün dövlətləri tərəfindən imzalandığından Naxçıvanın ərazi bütövlüyünün qorunması və onun muxtariyyət statusunun təsbit edilməsində Qars müqaviləsi həlledici rol oynadı. Müqavilənin tarixi əhəmiyyəti ondan ibarət idi ki, Ermənistan Naxçıvanı Azərbaycan torpağı kimi qeyd-şərtsiz qəbul etdi. Müqavilənin 5-ci maddəsində deyilirdi: "Türkiyə hökuməti, Azərbaycanın və Ermənistanın sovet hökumətləri razılığa gəlirlər ki, Naxçıvan vilayəti bu müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Azərbaycanın qəyyumluğu

altında muxtar ərazi təşkil edir" [5, s. 132].

Beləliklə, Naxçıvan əhalisinin ardıcıl və ciddi mübarizəsi, Azərbaycan və Türkiyə diplomatlarının məqsədyönlü fəaliyyətləri, B.Şahtaxtinskinin diplomatik gedişləri, müraciət və təklifləri sayəsində, beynəlxalq Moskva və Qars müqavilələri ilə Naxçıvan diyarı Azərbaycanın tərkibində muxtar ərazi kimi qəbul edildi [3, s. 41]. Naxçıvanın tarixi taleyini, yəni onun tarixən olduğu kimi, Azərbaycanın tərkib hissəsi olaraq qalması imkanlarını həmin müqavilələr reallaşdırdı. Bu müqavilələrlə Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan və Gürcüstan Naxçıvanı Azərbaycanın tərkibində muxtar qurum kimi tanımış və onun statusuna beynəlxalq hüquqi təminat vermişlər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan (Tərtib edəni İsmayıl Hacıyev), Naxçıvan: Əcəmi NPB, 2010, 384 s.
2. Azərbaycan tarixində Naxçıvan, Tarixi oçerklər, Bakı, APİ nəşriyyatı, 1996, 142 s.
3. Behbudağa Şahtaxtinski və Qars müqaviləsi (12 oktyabr 2011-ci ildə Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi və beynəlxalq Qars müqaviləsinin 90-cı ildönümünə həsr olunmuş konfransın materialları), Naxçıvan: Əcəmi NPB, 2012, 88 s.
4. Cəfərli E.Y. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi, Bakı, Nurlan, 2009, 280 s.
5. Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, türk, rus və fransız dillərində), Naxçıvan, 2004, 139 s.
6. Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi (Tərtib edəni və ön sözün müəllifi İ.Hacıyev), Bakı, Elm, 1999, 36 s.
7. Hacıyev A. Qars və Araz-Türk respublikalarının tarixindən, Bakı, Azərnəşr, 1994, 124 s.
8. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikası Azərbaycanın milli dövlətçilik tarixində, Tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiya, Bakı, 1999, 335 s.
9. İbrahim Ethem Atnur. Muxtariyyət ərəfəsində Naxçıvan, Naxçıvan: Qeyrət, 1999, 442 s.
10. Musayev İ.M. Araz-Türk Respublikası // Naxçıvan Muxtar Respublikası – 75 ("Bakı Universiteti Xəbərləri"nin xüsusi buraxılışı), Bakı Universiteti nəşriyyatı, 1999, № 3, s. 107-121.
11. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgəsində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər) Bakı, BDU nəşriyyatı, 1996, 385 s.
12. Hacıyev İ.M., Amanoğlu E.Q. Tarihte ve Günümüzde Nahçivan, Ankara, Basımevi. 1998, 92 s.
13. Kırzıoğlu F.K. Karabekir, Ankara: Kültür Bakanlığı Yayınları, 1991, 237 s.
14. Soysal İ. Tarihçeleri ve Açıklamaları ile Birlikte Türkiyenin Siyasal Antlaşmaları, I cild (1920-1945), Ankara: 1989, 704 s.
15. Veysel Ünüvar, İstiklal Harbinde Bolşeviklerle Sekiz Ay 1920-1921. İstanbul, Göçebe Yayınları, 1997 (2. baskı), 108 s.



## ABSTACT

### ARMENIAN AGGRESSION TO NAKHCHIVAN AND GAINNING THE AUTONOMY STATUS

The autonomy status of Nakhchivan the inseparable ingredient of Azerbaijan Republic is connected with an Armenian expansion wich was against completely our lands and people in 1918-1920s years. But the Nakhchivan town was accepted as an autonomous territory in composition of Azerbaijan by the help of the Nakhchivan people·s durable and resolute fight, purposeful actions of Azerbaijan and Turkey diplomacies, international Moscow and Kars Treaties. These issues were explained widely in the article.



## РЕЗЮМЕ

### АРМЯНСКАЯ АГРЕССИЯ ПРОТИВ НАХЧЫВАНА И ПРИОБРЕТЕНИЕ ИМ СТАТУСА АВТОНОМИИ

Автономный статус Нахчывана, неотъемлемой части Азербайджанской Республики, связан с армянской экспансией против целостности наших земель и нашего народа в 1918-1920 годах. В результате последовательной и серъезной борьбы нахчыванского населения, целенаправленной деятельности азербайджанских и турецких дипломатих Московскими и Карсскими международными договорами Нахчыван был признан в качестве автономной территории в составе Азербайджана. Все эти вопросы рассматриваются в данной статье.

**NURİYYƏ İBRAHİMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*nuriyyeibrahimova@mail.ru*

# MİLLİ İQTİSADİ İNKİŞAFDA REGİONAL SAHİBKARLIĞIN ROLU

**Açar sözlər:** *xarici, iqtisadi kompleks bazar, siyasət, tənzimləmə*
**Key words**: *foreign, economy complex, market, policy*
**Ключевые слова**: *Внешний, экономический, комплекс, рынок, политика, регулирование*

Məqalədə həyata keçirilən Dövlət Proqramlarının və dövlətin apardığı məqsədyönlü iqtisadi siyasətin bir hissəsi olmaqla kənd təssərüfatının, ticarətin xüsusilə xarici ticarətin tənzimlənməsi daxili bazarın qorunması, gömrük prosedurlarının sadələşdirilməsi, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, bütövlükdə ölkəmizdə olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da ticarət dövriyyəsinin artmasına, o cümlədən xarici ticarətin genişlənməsinə şərait yaradılması geniş şərh edilmişdir.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq aparılan iqtisadi islahatların nəticəsində yaranmış yeni istehsal münasibətləri müvafiq istehsal subyektlərinin yaranmasına gətirib çıxarır. Bu istehsal subyektləri fərdi və müştərək fəaliyyət istiqamətləri seçirlər. Bu baxımdan sahibkarlıq fəaliyyətinin mahiyyətinin araşdırılmasına ehtiyac duyulur.

Azad iqtisadiyyat azad düşüncə və sərbəst qərar qəbul etmə şəraiti tələb edir. İqtisadi mühiti düzgün qiymətləndirmək, baş verən dəyişikliklərə lazımi reaksiyanı təmin etmək, şəxsi və ümumi mənafelərdəki uyğunsuzluqları hər gün, hər saat aradan qaldırmaqda olan, sahibkarlıq fəaliyyətinin müxtəlif çalarlı növləri bazarın formalaşmasının mühüm atributlarıdır. Bazar iqtisadiyyatına keçidlə əlaqədar sahibkarlıq fəaliyyəti hamının məşğul ola biləcəyi sahəyə çevrildi. Nəyi, necə, nə qədər istehsal edəcəyini, kimə satacağını daha yaxşı müəyyənləşdirə bilən sahibkar bazar qanunları ilə fəaliyyət göstərərək iqtisadi problemləri daha effektiv həll etmək qabiliyyətindədir. Sahibkarlığa geniş yer verən ölkələrin təcrübəsi göstərir ki, sahibkarların fərdi uğurları bütövlükdə cəmiyyətin müvəffəqiyyətini şərtləndirir.

Sahibkarlığın inkişafı dövlət tənzimlənmə obyekti olaraq münasibətlər sistemi ilə müəyyən olunur. Sahibkarlığın maliyyə imkanları, onun maddi-texniki bazası, istehsal olunmuş məhsul və xidmətlərin reallaşması istiqamətlərində sahibkar və dövlət arasında münasibət formaları meydana gəlir. Fəaliyyətin bu növünün spesifik xüsusiyyətləri, müəssisələrin ixtisaslaşma səviyyəsi, istehsal olunmuş məhsulun marketinq quruluşu, həmin sahibkarların idxal və ixrac prosesində rolu müəssisələrin tənzimləmə dairəsini və mexanizmlərinin əhatə dairəsini müəyyənləşdirir.

Milli iqtisadiyyatın inkişafında sahibkarlığın rolu və onun stimullaşdırılması tədbirləri tənzimləmə mexanizmlərinin seçilməsi və onların əsas istiqamətlərini müəyyən edir.

Sahibkarlığın inkişafında dövlət tənzimlənməsinin normativ əsasını dövlət büdcəsinin təsdiqi, Vergi Məcəlləsi, icxal və ixrac qanunları, müəssisələr haqqında, kiçik sahibkarlığa kömək, kredit ittifaqları haqqında qanunların əsas müddəaları təşkil edir. Qanunlar sistemi hər biri ayrı-ayrılıqda konkret məqsəd və mexanizmləri özündə birləşdirdiyi kimi, hər bir mexanizmin fəaliyyət dairəsinin ümumi prinsipləri və reallaşma xüsusiyyətləri icra orqanlarının qəbul etdiyi qərarlardan, mexanizmlərdən və metodiki təlimatlardan asılıdır (1, s.35).

Sahibkarlığın maliyyə əsasında dövlət büdcəsində sahibkarlığın büdcəsinə ayrılan vəsait, müəssisə mənfəətindən əsas fondların və iş qüvvəsinin stimullaşdırılması üçün ayrılan vəsaitlər və xarici ölkələrin hüquqi və fiziki şəxslərin istehsala yönəldiyi kapital qoyuluşu mühüm rol oynayır.

Hazırda sahibkarlığın inkişafında maliyyə mənbəyi olaraq investisiyaların istifadəsi və onun respublikaya axınının stimsullaşdırılması mexanizmlərinin əsaslandırılması mühüm rol oynayır. Daxili investorların sahibkarlığa cəlb edilməsi kapital axınının qarşısını alan tədbirlərlə əlaqədardır. Daxili bazarın qorunması və maliyyə bazarının təşkilində inzibati - bürokratik əngəllərin aradan qaldırılmasını tələb edir. İnvestisiyaların formalaşma mənbələri sahibkarlığın struktur siyasətində sübyektlərin rolunu müəyyən edir. Müəssisə və təşkilatların öz vəsaitlərin hesabına kapital qoyuluşu onların özünü müəyyənləşdirmə imkanlarını artırır, hər bir sahibkarların sərbəstliyinə və ahəngdar təşkilati tədbirlərin həyata keçirməsinə imkan verir.

Mənfəət bölgüsü nizamlamaqda vergi normaları mühüm rol oynayır. Müəssisə daxili imkanların artırılmasını, yumşaq vergi siyasəti formalaşmasını tələb edir. Vergi sistemi, onun dinamikası, sahibkarlığın tənzimlənməsi mexanizmlərinə daxildir. Tətbiq olunan vergi sistemi sahibkarlığa birbaşa və dolayı yolla təsir edir. Verginin artması sahibkarlığın nəticəsinin dəyərinə təsir edir, onun məhsulunun həcmini artırır.

Sahibkarlığın sahə quruluşu, onların istehsal etdiyi maddi nemətlər, xadimlərin həcmi və çeşid quruluşu, bazar tələbatına uyğun reallaşma dərəcəsi vergilərin artım dinamikasını müəyyən edir. Vergi normaları isə vergiyə cəlb olunan vergi bazasının stimulllaşdırılmasına, onların sonrakı artımına təsir edir (3, 26).

Əmtəə dövriyyəsinin artımı, istehsal həcminin vergiyə cəlb olunması həmçinin vergi növü və onun yığılması mexanizmi ilə də müəyyən olunur. Ümumi daxili məhsulun artımını, əhali gəlirlərinin və əmtəə dövriyyəsinin ümumi həcmini artıra bilər. Vergi gəlirlərinin artırılması məqsədinə daha çox iqtisadi və sosial cəhətdən səmərəli sayılan üsulla nail olmaq mümkündür.

Dünya standartlarına uyğun məhsul istehsalı üçün sahibkarlıq fəaliyyətinin maddi-texniki bazasının, onun daha səmərəli və keyfiyyətli məhsul istehsalına, xidmət növünə uyğun təzələnməsi strateji məqsəd və istiqamət kimi aparıcı rol oynayır. Sahibkarlıq fəaliyyəti üçün dünya standartlarına uyğun texnologiyanın tətbiqi həyati əhəmiyyətli məsələdir, çünki bu rəqabət qabiliyyətinin təminatının başlıca amili olaraq qalır.

Hazırda Naxçıvan Muxtar Respublikada liberal bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq, sahibkarlığın inkişafına yönəldilmiş məqsədyönlü islahatlar sahibkarlıq subyektlərinin say tərkibinin davamlı artışını sürətləndirməkdədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş “ Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”-nın əsas məqsədi real sektorun inkişafı, iqtisadiyyatın diversifikasiyası, sürətli inkişaf istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarətdir.

Muxtar Respublikda iqtisadi və sosial sahələrin inkişafı üzrə həyata keçirilən tədbirlər cari ilin ilk doqquz ayı ərzində də davam etdirilmiş, dinamik inkişaf qorunub saxlanılmışdır.

Məlumdur ki, kənd təsərrüfatı və bütövlükdə aqrar sahə ölkə iqtisadiyyatının formalaşdırılması və dayanıqlı inkişafında önəmli yerə və rola malikdir. Aqrar sahənin inkişafı yerli kənd təsərrüfatı məhsulları istehsalçıları üçün xüsusilə mühüm önəm daşıyır. Bu sahənin yerli əmtəə istehsalçıları üçün əhəmiyyəti - kənd təsərrüfatı və ərzaq məhsullarının insanların maddi tələbatlarını ödəməsi, habelə kənddə yaşayan əhalinin özü üçün kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı və adekvat gəlir əldə etmələri, kənd yaşayış məntəqələrindən miqrasiyanın qarşısının alınması, sahibkarlığın və təşəbbüskarlığın inkişaf etdirilməsi milli aqrar bazarda azad rəqabət mühitinin formalaşdırılması ilə şərtlənir (7, s.43).

Əhalinin mühüm ərzaq məhsullarına artmaqda olan tələbatının, respublikanın iqtisadi müstəqilliyinin və ərzaq təhlükəsizliyinin daxili imkanlar hesabına təmin olunmasında kənd təsərrüfatının dayanıqlı inkişafının müstəsna rolu danılmazdır. Ona görə də kənd təsərrüfatının iqtisadiyyatın prioritet sahələri sırasına çıxarılması məqsədilə onun maddi-texniki bazası müasir texnika və avadanlıqla möhkəmləndirilir, istehsalçıları cins toxumlar, damazlıq heyvanlar, gübrələr və digər sənaye məhsulları ilə təchiz etməklə bitkiçilik və heyvandarlıq sahələrinin potensial imkanları artırılır, güzəştli kreditlər verilir, ayrı-ayrı məhsullar üzrə istehsalın artırılması stimullaşdırılaraq istehsala xidmət və sosial infrastrukturların yaradılması dövlət tərəfindən dəstəklənir. Görülən bu tədbirlərin nəticəsində son on ildə kənd təsərrüfatı ərzaqları istehsalı ildən-ilə artır, bu məhsulların idxalı isə mütəmadi azalmaqda davam edir. Artıq taxıl, kartof, tərəvəz, bostan və meyvə üzrə adambaşına istehsal həcmi normal qida normaları əsasında əhalinin istehlak tələbatının ödənilməsi üçün yetərlidir.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq aparılan iqtisadi islahatların nəticəsində yaranmış yeni istehsal münasibətləri müvafiq istehsal subyektlərinin yaranmasına gətirib çıxarır. Bu istehsal subyektləri fərdi və müştərək fəaliyyət istiqamətləri seçirlər. Bu baxımdan sahibkarlıq fəaliyyətinin mahiyyətinin araşdırılmasına ehtiyac duyulur.

Azad iqtisadiyyat, azad düşüncə və sərbəst qərar qəbul etmə şəraiti tələb edir. İqtisadi mühiti düzgün qiymətləndirmək, baş verən dəyişikliklərə lazımi reaksiyanı təmin etmək, şəxsi və ümumi mənafelərdəki uyğunsuzluqları hər gün, hər saat aradan qaldırmaqda olan, sahibkarlıq fəaliyyətinin müxtəlif çalarlı növləri bazarın formalaşmasının mühüm atributlarıdır (5, s.86).

Bazar iqtisadiyatına keçidlə əlaqədar sahibkarlıq fəaliyyəti hamının məşğul ola biləcəyi sahəyə çevrildi. Nəyi, necə, nə qədər istehsal edəcəyini, kimə satacağını daha yaxşı müəyyənləşdirə bilən sahibkar bazar qanunları ilə fəaliyyət göstərərək iqtisadi problemləri daha effektiv həll etmək qabiliyyətindədir. Sahibkarlığa geniş yer verən ölkələrin təcrübəsi göstərir ki, sahibkarların fərdi uğurları bütövlükdə cəmiyyətin müvəffəqiyyətini şərtləndirir.

Sahibkarlığın inkişafı dövlət tənzimlənmə obyekti olaraq münasibətlər sistemi ilə müəyyən olunur.

Sahibkarlığın maliyyə imkanları, onun maddi-texniki bazası, istehsal olunmuş məhsul və xidmətlərin reallaşması istiqamətində sahibkarlar və dövlət arasında münasibət formaları meydana gəlir. Fəaliyyətin bu növünün spesifik xüsusiyyətləri, müəssisələrin ixtisaslaşma səviyyəsi, istehsal olunmuş məhsulun marketinq quruluşu, həmin sahibkarların idxal və ixrac prosesində rolu müəssisələrin tənzimlənmə dairəsini və mexanizmlərinin əhatə dairəsini müəyyənləşdirir.

Milli iqtisadiyyatın inkişafında sahibkarlığın rolu və onun stimullaşdırılması tədbirləri tənzimləmə mexanizmlərinin seçilməsi və onların əsas istiqamətlərini müəyyən edir.

Sahibkarlığın inkişafında dövlət tənzimlənməsinin normativ əsasını dövlət büdcəsinin təsdiqi, Vergi Məcəlləsi, icxal və ixrac qanunları, müəssisələr haqqında, kiçik sahibkarlığa kömək, kredit ittifaqları haqqında qanunların əsas müddəaları təşkil edir. Qanunlar sistemi hər biri ayrı-ayrılıqda konkret məqsəd və mexanizmləri özündə birləşdirdiyi kimi, hər bir mexanizmin fəaliyyət dairəsinin ümumi prinsipləri və reallaşma xüsusiyyətləri icra orqanlarının qəbul etdiyi qərarlardan, mexanizmlərdən və metodiki təlimatlardan asılıdır.

Sahibkarlığın maliyyə əsasında dövlət büdcəsində sahibkarlığın büdcəsinə ayrılan vəsait, müəssisə mənfəətindən əsas fondların və iş qüvvəsinin stimullaşdırılması üçün ayrılan vəsaitlər və xarici ölkələrin hüquqi və fiziki şəxslərin istehsala yönəldiyi kapital qoyuluşu mühüm rol oynayır.

Hazırda sahibkarlığın inkişafında maliyyə mənbəyi olaraq investisiyaların istifadəsi və onun respublikaya axınının stimullaşdırılması mexanizmlərinin əsaslandırılması mühüm rol oynayır. Daxili investorların sahibkarlığa cəlb edilməsi kapital axınının qarşısını alan tədbirlərlə əlaqədardır. Daxili bazarın qorunması və maliyyə bazarının təşkilində inzibati - bürokratik əngəllərin aradan qaldırılmasını tələb edir. İnvestisiyaların formalaşma mənbələri sahibkarlığın struktur siyasətində subyektlərin rolunu müəyyən edir. Müəssisə və təşkilatların öz vəsaitlərin hesabına kapital qoyuluşu onların özünü müəyyənləşdirmə imkanlarını artırır, hər bir sahibkarların sərbəstliyinə və ahəngdar təşkilati tədbirlərin həyata keçirməsinə imkan verir.

Dünya standartlarına uyğun məhsul istehsalı üçün sahibkarlıq fəaliyyətinin maddi-texniki bazasının, onun daha səmərəli və keyfiyyətli məhsul istehsalına, xidmət növünə uyğun təzələnməsi strateji məqsəd və istiqamət kimi aparıcı rol oynayır. Sahibkarlıq fəaliyyəti üçün dünya standartlarına uyğun texnologiyanın tətbiqi həyati əhəmiyyətli məsələdir, çünki bu, rəqabət qabiliyyətinin təminatının başlıca amili olaraq qalır.

Makroiqtisadi göstəricilər

| Müqayisə predmeti | 2017-ci ilin yanvar-sentyabr ayları (min manat) | 2018-ci ilin yanvar-sentyabr ayları 2017-ci ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə |
|---|---|---|
| Ümumi daxili məhsul | 2 005 227,5 | 101,3* |
| Hər bir nəfərə düşən ümumi daxili məhsul, manat | 4 416,8 | 102,1 |
| Sənaye məhsulunun ümumi həcmi | 800 260,4 | 101,3* |
| Əsas kapitala yönəldilən investisiyalar | 779 920,0 | 101,5 |
| Kənd təsərrüfatının ümumi məhsulu | 352 466,0 | 104,0* |
| Nəqliyyat sektorunda yük daşınması,min ton | 12 158,0 | 101,9 |
| İnformasiya və rabitə xidmətlərinin həcmi | 39 713,4 | 103,2 |
| O cümlədən, mobil rabitə üzrə | 32 717,0 | 102,3 |
| Pərakəndə əmtəə dövriyyəsi | 1 273 644,3 | 100,7* |
| Əhaliyə göstərilən pullu xidmətlər | 170 093,2 | 100,4* |
| Xarici ticarət dövriyyəsi,min ABŞ dolları | 344 334,8 | 104,4 |
| O cümlədən ixracın ümumi həcmi | 306 639,4 | 100,2 |
| Bir işçiyə hesablanmış orta aylıq əmək haqqı əməkhaqqı,manat | 429,9** | 103,7 |

*) müqayisəli qiymətlər üzrə

**) yanvar-avqust ayları

Belə ki, Naxçıvan Muxtar Respublikasında ötən dövrdə iqtisadiyyatın şaxələndirilməsi və aqrar sahənin inkişafı üzrə mühüm tədbirlər həyata keçirilmiş, yüksək nəticələr qazanılmışdır. Həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq 2018-ci il yanvar-sentyabr aylarında ümumi daxili məhsul istehsalı 2 milyard manatdan artıq olmuşdur ki, bu da 1 il öncəki müvafiq göstəricidən 1,3 % çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,1% artaraq 4417 manata çatmışdır. Ümumi daxili məhsulun tərkibində ilk yeri 27,9 %-lə sənaye tutmuş və maddi istehsalın payı 56,4 % təşkil etmişdir.

2017-ci il müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-sentyabr aylarında əsas kapitala yönəldilən vəsaitlər 1,5%, kənd təsərrüfatı məhsulu 4 % artmışdır (7, 53).

Naxçıvan Muxtar Respublikada əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında mühüm yer tutan kənd təsərrüfatının inkişafı üçün ardıcıl tədbirlər həyata keçirilir.

2018-ci ilin məhsulu üçün Naxçıvan Muxtar Respublikada 61935 hektar sahədə əkin aparılmışdır ki, bu da 2017-ci ilin məhsulu üçün əkilmiş sahədən 404 hektar çoxdur. Ötən dövrdə Naxçıvan Muxtar Respublikada taxılçılıq üstün istiqamət kimi saxlanılmış və 2018-ci ilin məhsulu üçün 32483 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 39025 hektarı payızlıq, 1558 hektar isə yazlıq taxıldır.

Tələbata uyğun olaraq kartofçuluğun inkişafında müsbət dinamika saxlanılmış və 2018-ci ildə 3215 hektar sahədə kartof əkinin aparılmışdır ki, bu da 2018-ci ildə əkilmiş sahədən 32 hektar çoxdur (13).

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 08 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçilik və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası Naxçıvan Muxtar Respublika əhalisinin meyvə və tərəvəz məhsuluna olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə və təlabatdan artıq mövsümü məhsulların ixracına geniş imkanlar yaratmışdır.

Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizata davamlı olaraq yaxşılaşdırılır. "Naxçıvan aqroliznq" Açıq Səhimdar Cəmiyyətinin xəttilə 319-u 2018-ci ilin yanvar-sentyabr aylarında olmaqla, cəmi 2373 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə məhsul istehsalçılarına verilmiş, 45-i nağd yolla satılmışdır. Bu dövrdə məhsul istehsalçıları 5082,5 ton mineral gübrə ilə təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikada arıçılığın inkişafının stimullaşdırılması, kiçik biznesin dəstəklənməsi və kənd yerlərində məşğulluğun təmin edilməsi üzrə də mühüm tədbirlər həyata keçirilir.

İqtisadi cəhətdən yüksək gəlir gətirən, qida və müalicəvi baxımdan faydalı təsərrüfat sahəsi olan arıçılığın daha da inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə "2017-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. 2018-ci ilin doqquz ayında bu sahədə müvafiq tədbirlər görülmüş, təsərrüfat subyektlərinə 262 min 800 manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 9,7 dəfə çoxdur (13).

2018-ci ilin yanvar-sentyabr aylarında kənd təsərrüfatı sahəsi ilə məşğul olan təsərrüfat subyektləri, ümumilikdə, 4 milyon 530 min 300 manat güzəştli kreditlərlə təmin olunmuşdur ki, bu da bir il öncəki göstəricidən 2,9 dəfə çoxdur. Belə ki, 2018-ci ilin yanvar-sentyabr aylarında bir il öncəyə nisbətən 4% çox, yəni 352 milyon 466 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur (13,).

Beləliklə, etibarlı ərzaq təminatı sisteminin yaradılması ixrac potensialını artırmış, 2018-ci ilin yanvar-sentyabr aylarında Naxçıvan Muxtar Respublikadan 85 milyon 784 min 300 ABŞ dolları dəyərində kənd təsərrüfatı, o cümlədən meyvə və tərəvəz məhsulları ixrac olunmuşdur.

## ƏDƏBİYYAT


1. Abbasov T.A. Naxçıvan MR-də aqrar sahibkarlığın inkişafının əsas istiqamətləri, Bakı, ADPU-nun mətbəəsi, 2005, 66 s.
2. Abbasov T.A. Kənd təsərrüfatının respurs potensialı və ondan səmərəli istifadənin regional problemləri, Bakı, Elm, 2002, 186 s.
3. Abbasov T.A. Aqrar bazar və sahibkarlığın regional inkişaf istiqamətləri, Bakı, ADPU, 2006, 287 s.
4. Əhmədov N.H. Regional ərzaq bazarı və onun formalaşması istiqamətləri. Bakı: ADPU, 2005, 160 s.
5. Əlirzayev Ə.Q. Sahibkarlığın sosial-iqtisadi inkişaf problemləri, Bakı, Elm, 2000, 114 s.
6. Qəribov A.H. Azad iqtisadi zonalar: imkanlar və perspektivlər, Bakı, Təhsil, 2001, 136 s.
7. Nuriyev Ə.X. Regional inkişafın dövlət tənzimlənməsinin aktual məsələləri, Azərbaycan iqtisadiyyatı: problemlər və perspektivlər, Bakı, Elm, 2002, 428 s.
8. Şirəliyev A.İ., Rüstəmov A.A. Bazar və bazar mexanizmi, Naxçıvan, Qeyrət, 2002, 40 s.
9. Vəliyev T.S. İnfrastrukturlar: mahiyyəti, təsnifatı və əhəmiyyəti, Bakı, Elm, 2000, 170 s.
10. İmanova M.T. Bazarın marketinq tətqiqinin regional problemləri, müasir vəziyyət və perspektivlər, Bakı, Nurlan, 2010, 207 s.
11. Abbasov T.A. Naxçıvan MR-də aqrar bazarın formalaşması və inkişafının xüsusiyyətləri, Bakı, 2005, ADPU-nun mətbəəsi, 301 s.
12.http://www.azstat.org/region/az/001.shtml<http://www.azstat.org/region/az/001.shtml> Azərbaycan Respublikası Statistika Komitəsinin sayti. Naxçıvan iqtisadi rayonu.
13. Şərq qapısı qəzeti, 20 oktyabr 2018-ci il

**ABSTRACT**

**Nuriya Ibrahimova**

**NATIONAL AND ECONOMIC PROGRESSES IN REGIONAL MANUFACTURING ROLE**

In this article the main part of purposeful economic policy hold by state and state programs, the improving of agriculture, trade especial by foreign trade, the saving of domestic market, to widening of foreign economic connection at the same time in NAR to increasing the trade, to making the opportunity to the widening of the foreign trade are commented.

The grass-planting and cattle bruding are developed for improving the security of food on the braneh of agriculture and day by day the level of the import is widened.

The measures abait the development of economy and sociu side of NAR have lasted for 6 months and the dynamic developoment is sawed.

In NAR the widening of the material-tecnical base of seeding have been lasting. New complex will be repaired for the seeding. In this complex not only seed but also the saling of the other kinds of seed are considered 5 seeding economies are activated in NAR.

**РЕЗЮМЕ**

**Нурия Ибрагимова**

**НАЦИОНАЛЬНО-ЭКОНОМИЧЕСКИЙ ПРОГРЕСС РЕГИОНАЛЬНОЙ ПРОИЗВОДИЧЕСКОЙ РОЛИ**

В статье обширно изложены регулирование сельсkого хозяйства, торговли, в особенности внешней торговли, защита внутренного рынkа, упрощение таможенных процедур, расширение внешних эkономичесkих связей, создание условий для увилечения торгового оборота, в том числе расширения внешней торговли, kоторые состовляют неотъемлемую часть проводимой в жизнь Государственной Программы и целеноравленной эkономичесkой политиkи государства, kak в целом по стране, таk и по Нахчывансkой Автономной Республиkе, являющейся его составной частью.

Для обеспечения продовольственной безопасности в сельсkохозяйственной отрасли уделено внимание развитию отраслей растениеводства и животноводства, улучшен уровень обеспечения самих себя продовольственной продуkцией.

Продолжены проводимые в жизнь мероприятия по развитию эkономичесkих и социальных отраслей автономной республиkи и в первые шесть месяцев теkущего года, сохранено таkже динамичесkое развитие.

В целях стимулирования производства производительных и kачественных сортов семян продолжаются работы в направлении уkрепления материально-техничесkой базы семеноводчесkих хозяйств. В городе Нахчыване строится новый kомплеkс для семеноводчесkого хозяйства. В городе Нахчыване строится новый kомплеkс для семеноводчесkого хозяйства. В этом kомплеkсе, являющемся основной семоноводчесkой базой, помимо зерна предусматривается осуществление продажи семян и других растений. В настоящее время в автономной республиkе действует 5 семеноводчесkих хозяйств.

**ZENFİRA SEYİDOVA**
*Naxçıvan Dövlət Universiteti*

# MUZEY VƏ EKSKURSİYA İŞİ

**Açar sözlər:** *Mədəniyyət, muzey, ekspozisiya, sərgi, ekskursiya, bələdçi, toplama, təbliğat*
**Keywords:** *Culture, Museum, Exposition, Exhibition, Excursion, Guides, Collection, Propaganda*
**Ключевые слова:** *Культура, музей, экспозиция, выставка, экскурсия, гид, сбор, пропаганда*

Müasir dövrdə muzeylərimiz milli mədəniyyətin tərkib hissəsi kimi mühüm əhəmiyyət kəsb edir. Xalqlar arasında milli-mədəni əməkdaşlığın, mənəvi zənginləşmənin, qarşılıqlı yaradıcılıq əlaqələri və anlaşmanın mühüm vasitəsinə çevrilən muzeylərin başlıca vəzifəsi muzey əşyalarının, nadir sənət nümunələrinin tapılıb toplanması, nümayiş etdirilməsi, onların müxtəlif yollarla, ekskursiyalar, səyyar sərgilər, mühazirələr və s. xalqa çatdırılması o cümlədən, elmi və elmi-kütləvi ədəbiyyat vasitəsilə təbliği məsələsidir. Milli şüurun, mədəniyyət və maarifin inkişafına xidmət edən muzeylər mədəniyyətin ümumi yüksəlişini əks etdirərək elmi və mədəni sərvətlərdə hərtərəfli istifadə olunmasına imkan verir (3, s57).

Muzeyin fəaliyyət dairəsi geniş və rəngarəngdir. Muzeyin fəaliyyət dairəsinə fond işi, ekspozisiya, elmi-kütləvi işlər, ekskursiya və s. sahələr daxildir. Muzeyin bütün iş sahələrini bilmədən peşəkar muzey işçisi olmaq mümkün deyildir. Muzeyin bütün fəaliyyət dairəsi bir – biri ilə sıx əlaqədardır. Muzey fəaliyyətə başladığı ilk gündən bütün müddət ərzində müntəzəm olaraq eksponatların toplanması, fondun komplektləşdirilməsi ilə məşğul olur. Muzeyin çox vacib, populyar və gələcək nəslin təlim-tərbiyəsində böyük xidmətləri olan iş sahələrindən biri də ekskursiya işidir (4, s8).

Muzey ekskursiyası - ekskursiya qruplarında birləşmiş tamaşaçıların muzeyə kollektiv sürətdə baxmasıdır. Ekskursiya tamaşaçıların emosional, estetik və digər tələbatlarının ödənilməsi, habelə təlim – tərbiyə məqsədi ilə təşkil olunur və muzey ekspozisiyasının məzmununu açır (2, s10).

Ekskursiyaların köməyi ilə ekspozisiyada verilmiş faktlar, idealar, tarixi biliklər tamaşaçılara çatdırılır, ekspozisiyanın təbliğat və tərbiyə təsiri reallaşdırılır yəni muzeylərin vəzifələri daha tam şəkildə həyata keçirilir. Ümumiyyətlə, ekskursiya işinin muzeydə günün tələbləri səviyyəsində təşkili muzey işçilərindən bu sahə üzrə dərin bilik, bacarıq və təcrübə tələb edir. Muzey ekskursiyasının dərketmə və tərbiyə fəaliyyəti növü kimi digər ekskursiyalara xas olan xüsusiyyətlər də vardır: bu maddi və mədəniyyət abidələrinə müəyyən mövzu və marşrut üzrə kollektiv təşkil olunmuş baxışdır. Bununla birlikdə muzey ekskursiyasının başqa ekskursiyalardan fərqlənən bir çox spesfik xüsusiyyət və əlamətləri vardır. Birincisi, ekspozisiyada verilmiş muzey əşyaları – elmi-köməkçi material və texniki təbliğat vasitələri ilə tamamlanmış, əsil tarix və mədəniyyət abidələri ilə böyük əhəmiyyətə malikdir, mövzunu doğru və hərtərəfli aça bilər. Ekspozisiya materialının müxtəlifliyi üçün imkan yaradır. İkincisi, muzey ekskursiyası xüsusi bədii memarlıq üsulları ilə yaradılmış ekspozisiya sahəsində aparılır ki, bu da emosional təsirin güclənməsinə imkan verir.

Hər hansı profil ekskursiyalar daxildə belə təsnif olunur:

1. Burada işıqlandırılan məsələlərin həcminə görə (ümumi, mövzular üzrə və silsilə ekskursiyalar)
2. Məqsədə görə (ümumtəhsil, tədris və xüsusi ekskursiyalar)
3. Keçirilən yerə və göstərilən obyektə görə (muzey üzrə ekskursiyalar və kompleks ekskursiyalar)
4. Ekskursiya qruplarının tərkibinə görə (tamaşaçıların müxtəlif sosial, yaş və s. xüsusiyyətlərini nəzərə almaqla aparılan ekskursiyalar) (2, s9).

Ümumi ekskursiyalar, bir qayda olaraq tamaşaçıları bütövlükdə ekspozisiya ilə, onun kolleksiyalarının xarakteri ilə (bu zaman şərait imkan verərsə, ümumi ekskursiyalar fond otaqlarında aparıla bilər) tanış etmək məqsədilə bütün ekspozisiya üzrə aparılır. Ümumi ekskursiyalar kütləvi tamaşacılar üçün keçirilir və əsasən çox hissəsi muzeyə ilk dəfə gələnlər, təşkil olunmuş turist qrupları və şəhərin qonaqları üçün nəzərdə tutulmuşdur (1, səh 33).

Mövzular üzrə ekskursiyalar öz xronologiyası və məzmunu üzrə dəqiq mövzuda olmaqla konkret problemə yaxud məsələyə həsr edilir. Buna görə də ayrı-ayrı mövzularda ekskursiyalardan fərqli olaraq bütöv muzey üzrə deyil, müvafiq ekspozisiya bölməsinin, hətta ekspozisiya kompleksinin materialları əsasında aparılır. Mövzular üzrə ekskursiyalar ali və orta ixtisas məktəblərinin tələbələri və s. habelə tamaşaçı kütləsinin tərkibi, məsələn, ölkənin və diyarın tarixi ilə bağlı ayrı-ayrı məsələlərlə daha dərindən tanış olmaq məqsədilə turist qrupları üçün hazırlanır. Birinci halda, mövzular üzrə ekskursiyalar müvafiq tədris müəssisəsinin dərs proqramı nəzərə alınmaqla, ikinci halda bu və ya digər mövzunun göstərilən dövrdə

aktuallığı və muzeydə həmin mövzunun təbliğinə imkan verəcək ekspozisiya bölməsinin olmasını, yaxud diyarın inkişaf xüsusiyyətlərini nəzərə almaqla hazırlanır. Yəni mövzular üzrə ekskursiyalar öz məqsədinə görə daha çox tədris xarakteri daşıyır.

Bir mövzuya, tarixi dövrə, eyni məqsədlə bağlı tarixi hadisəyə, yaxud fakta həsr olunmuş bəzi mövzular üzrə silsilə ekskursiyalar təşkil edir ki, bu da mövzunun bütün çoxcəhətliliyi ilə açılmasına, təmin edilməsinə imkan verir. Silsilə ekskursiyalar problem, yaxud xronoloji prinsip əsasında qurulur və tamaşaçıların müəyyən qrupu üçün nəzərdə tutulur. Silsilə çərçivəsində bu və ya digər tamaşaçı qrupu ilə keçirilmiş yəni ekskursiyalar auditoriya ilə sıx əlaqə yaranmasına səbəb olur ki, bu da tərbiyə və təlim prosesi üçün böyük əhəmiyyətə malikdir. Muzey işində silsilə ekskursiyalar əsasən tədris xarakteri daşıyır.

Öz məqsədinə görə tədrisyönlü ekskursiyalar təlim prosesində verilmiş biliklərin muzeydə olan əsli tarix və mədəniyyət abidələri əsasında genişləndirilməsinə və konkretləşdirilməsinə xidmət edir. Buna görə də tədris ekskursiyaları həmişə konkret tədris müəssisəsinin – məktəblərin, texnikomların, ali məktəblərin, ixtisas artırma kurslarının tədris proqramları nəzərə alınmaqla qurulur.

Muzeylərdə ekskursiya işinin təşkili də məktəb qarşısında duran əsas vəzifələrdən biridir. Çünki muzeylərlə tanışlıq şagirdlərdə zəngin təəssürat yaradır, kollektivçilik ruhunu gücləndirir. Muzeylərdə ekskursiya işinin təşkilinin bir sıra prinsipləri vardır. Burada- elmilik, ardıcıllıq, kütləvilik əsas şərtdir. Tədris prosesində keçirilən proqramların daha da zənginləşdirilib sistemləşdirilməsi və yeni proqramın işlənilməsi məqsədilə bu tip ekskursiyaların mühüm əhəmiyyəti vardır. Bu ekskursiyalar proqram, dərslik və dərs vəsaitləri ilə əsaslı tanışlıq tələb edir. Ekskursiya dərslərin, keçirilən proqramın daha dərindən mənimsənilməsində, şagirdlərin dünyagörüşünün hərtərəfli formalaşmasında mühüm əhəmiyyəti vardır. Bu dərslərdə uşaqlar nəzəri sürətdə eşitdiklərini, əyani sürətdə görürlər.

Tədris ekskursiyalarının müxtəlif növləri vardır. Bunlar həm muzey ekskursavodu həm də müəllim tərəfindən ekspozisiyada keçirilən dərs-ekskursiyalar, ekspozisiya zallarında, eksponatları cəlb etməklə dinləyicilərin iştirakı ilə keçirilən ekskursiya – seminarlardır (1, s 49).

Ümumtəhsil ekskursiyaları (və yaxud elmi-kütləvi ekskursiyalar) tədris auditoriyası üçün nəzərdə tutulmuşdur, zəhmətkeşlərin fəal istirahət və asudə vaxtının keçirilməsinin mədəni forması olmaqla tamaşaçıların ümumi mədəni və bilik səviyyəsinin yüksəldilməsinə xidmət edir. Bu ekskursiyalar geniş ekspozisiya materialı, məşhur faktlar əsasında qarşıya qoyulan məsələləri işıqlandırılan ümumi ekskursiyalardır və məlumat xarakteri daşıyır. Ümumi ekskursiyalar və mövzular üzrə ekskursiyalar, habelə tədris və ümumtəhsil ekskursiyaları yalnız diyarşünaslıq və tarix muzeylərinin özündə (ekspozisiya və fondlar üzrə) deyil, muzeydən kənarda yerləşən monumental tarixi abidələri də daxil etməklə aparmaq olar, buna görə də keçirilmə yerinə və göstərilən obyektə görə ekskursiyaların təsnifatı üçün daha bir əsas olur. Muzeyin daxilində aparılan, yəni göstərilmə obyekti ekspozisiya, habelə fond otağı olan ekskursiyalar muzey ekskursiyası adlanır. Mözvunu daha dərindən açmaq üçün muzeydən kənar abidələri, yaxud xatirə yerlərini göstərməklə aparılan muzey ekskursiyası kompleks ekskursiya hesab olunur.

Ekskursiyanın məqsəd və xarakterinin müəyyənləşdirilməsi onun üzərində işə başlanılması üçün əsas şərtdir. Bu iş öz mahiyyətinə görə elmi-tədqiqat işidir. Əvvəlcə kitabxana, arxiv və metodiki kabinetlərdə mövzu və problemlər üzrə mənbələr və ədəbiyyat üzə çıxarılır, bibloqrafiya tərtib olunur. Sonra mənbə və ədəbiyyatın öyrənilməsi zamanı ekskursiyaya daxil edilən materiallar seçilir. İstifadə olunan ədəbiyyat və mənbələr geniş və əhatəli olmalıdır: Bunlar – elmi monoqrafiya və məqalələr, məlumat xarakterli ədəbiyyat, elmi-kütləvi memuar və bədii ədəbiyyat, dövrü mətbuat, sənədlər toplusu və arxiv materiallarından ibarətdir. Bundan başqa hadisələrin iştirakçılarının canlı söhbətlərindən alınmış məlumatdan ekskursiya zamanı istifadə olunur ki, bunlar da böyük əhəmiyyətə malik mənbələrdir. Lakin, ekskursiyanın məzmunu üçün əsas mənbə, muzeyin ekspozisiyası və burada göstərilən muzey əşyalarıdır. Buna görə də ekskursiyanın məzmunu üzərində iş ekskursavodla sıx əlaqədə aparılır (3, s9;10).

Ekskursiya mətni tərtib edilərkən elmi işçilər elmin bir neçə sahələrinə müraciət edirlər. Müxtəlif eksponatları araşdırmaq, tarixi faktları dəqiqləşdirmək, eksponatların aid olduğu dövrü müəyyənləşdirmək və s. bu kimi problemləri araşdırmaq baxımından tarix elminə, eksponatın yarandığı yeri dəqiqləşdirmək baxımından coğrafiya elminə müraciət etmək lazımdır. Mətn yazılarkən, elmi işçilər bununla əlaqədar elmi axtarışlar aparmalıdırlar.

Müasir həyatımızda hər şey inkişaf və təkamülə doğru getdiyi bir zamanda ekskursiya mətninin hazırlanmasında elmlərin bir-birilə qarışılıqlı əlaqəsi şəklində verilməsi zərurəti yaranır. Məlumdur ki, qədim zamanlardan elmlər bir-birilə sıx əlaqədə olmuşdur və onlar arasındakı əlaqə bu gün üçün də aktuallığını saxlamaqdadır. Bəşər tarixi elm və texnikanın məhz elmlərin bir-birilə qarşılıqlı əlaqəsi nəticəsində çox uğurlar əldə etdiyinin şahidi olmuşdur və bu uğurlar elmlərin bir – birinə daha da yaxınlaşmasına zəmin yaratmışdır. Bu əlaqə bu gün ekskursiya mətnində əksini tapması vacibdir. Çünki qarşılıqlı əlaqə zamanı bələdçi tamaşaçıda maraq oyadır, axtarış və yaradıcılıq bacarıqlarına yiyələnməyə sövq edir, onların müxtəlif

elmlər əsasında hər hansı mövzuya dair ətraflı, mükəmməl bilik və bacarıqlar əldə etməsi üçün əlverişli şərait yaradır.

Fikirlərimi ədəbiyyat fənninin mövzularla (ədəbiyyat profilli muzeylər üçün) bağlı müxtəlif elmlərlə qarşılıqlı əlaqə yarada biləcək bir nümunə əsasında ifadə etmək istərdim. Bələdçi ekspozisiyada Nizami Gəncəvi mövzusuna müraciət edərkən Nizaminin yaşadığı dövrü izah etmək üçün tarix elminə, əsərlərindən danışarkən mənbəşünaslığa, əsərlərinin Azərbaycan və başqa dillərə tərcümə olunmasına görə tədqiqat əsərlərinə, Nizami Gəncəvinin əsərlərinin rəng və boyalarla ifadə edilməsinə görə təsviri incəsənət əsərlərinə, və s. fənlərlə əlaqəsini quraraq öz fikirlərini elmi faktlarla izah edir.

Ancaq o da qeyd edilməlidir ki, bu elmlərin qarşılıqlı əlaqədə verilməsi bələdçinin özündən də dərin bilik, zəngin dünyagörüş, güclü bədii təxəyyül izah etdiyi guşəni sonsuz sevgi və daim öz üzərində işləmək məsuliyyəti tələb edir. Göründüyü kimi ekspozisiyada elmlər arasında qarşılıqlı əlaqə zamanı tamaşaçı təfəkküründə və yaradıcı tətbiqetmə sahəsində əhəmiyyəti çoxdur. Bununla bələdçi tamaşaçının digər elmlərə olan marağını artırır, yeni biliklərin əldə edilməsinə zəmin yaradır, ekskursiya daha yaradıcı yanaşmanı və tədqiqatçılıq xüsusiyyətlərini formalaşdırır. Ekskursiya hazırlanması üzrə növbəti mərhələ ekskursiya mətninin yazılmasıdır. Ekskursiyanın hazırlanmasında elmilik, konkret tarixi yanaşma, həyatla əlaqə prinsipləri əsasında sistemə salınır.

Hər hansı ekskursiya öz quruluşuna görə 3 əsas hissədən ibarətdir: giriş, əsas hissə, nəticə. Qeyd etmək lazımdır ki, giriş və nəticə mütləq olmalıdır və ekskursiyanın məzmununda mühüm rol oynayır. Girişdə ekskursiyanın məqsədi, mövzunun əhəmiyyəti açılır, ekskursiyanın gedişində açılacaq əsas məsələlər göstərilir, ekskursiya marşurutu izah olunur. Bundan başqa giriş həm də ekskursavodla tamaşaçılar arasında özünəməxsus psixoloji körpüdür.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublika əhəmiyyətli muzeylərlə yanaşı, tarix-diyarşünaslıq muzeyləri, ev muzeyləri, xatirə muzeyləri, muzey kompleksləri, dövlətçilik tariximizlə bağlı muzeylərin yaradılması həmişə diqqət mərkəzində saxlanılır. Bütün bunlar mədəni irsimizin qorunması, gənc nəslin mənəvi-estetik, ideya-siyasi dünyagörüşünün zənginləşdirilməsində və vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Naxçıvan Muxtar Respublikanın rayonlarında da muzeylərin fəaliyyət göstərməsi bura gələn insanların zəngin tarix və mədəniyyətimizlə yanaşı, görkəmli şəxsiyyətlərimiz haqqında da ətraflı məlumat almalarına da imkan verir.

Gənc nəslin muzeylərimizdə olması onların qədim və zəngin tariximiz və bu günümüz haqqında dərin biliklərə, geniş dünyagörüşünə malik olmasına, milli dəyərlərə, milli-mədəni və tarixi irsimizə məhəb-bət ruhunda formalaşmasına xidmət edir. Bunun üçün Naxçıvan Muxtar Respublikanın təhsil müəssisələrinin muzeylərlə əlaqələrinə xüsusi diqqət ayrılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının Təhsil Müəssisələrində Elektron Təhsilin Təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20-iyun tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikada məktəb-muzey şəbəkəsi yaradılmış, Azərbaycanın tarixi və mədəniyyəti, görkəmli şəxsiyyətlərimizlə bağlı distant dərslərin keçirilməsinə başlanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və Orta ixtisas Təhsili Müəssisələrində İxtisasların Müvafiq Təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27-iyul tarixli sərəncamına əsasən Naxçıvan Muxtar Respublikanın ali təhsil müəssisələrində muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması, tarix, turizm-otelçilik ixtisasları üzrə təhsil alan tələbələr üçün açıq dərslərin təşkili həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin genişləndirilməsi haqqında" 2014-cü il 19-dekabr tarixli Sərəncamına uyğun olaraq mərkəzi və yerli icra hakimiyyəti orqanları kollektivlərinin bu mədəniyyət müəssisələrinə gedişi maddi-mənəvi sərvətlər xəzinəsi olan muzeylərə marağın artmasına, tariximizin, mədəni irsimizin və dövlətçilik ənənlərimizin hərtərəfli öyrənilməsinə geniş imkanlar açmışdır.

Muzeylər haqqında verilən bu qiymətli sərəncamların məqsədi muzeylərin mədəniyyətimizin əhəmiyyətli parçası olduğu fikrinə əsaslanaraq, gənclərdə muzeylərə olan marağın artırılmasına dəstək olmaqdır. Muzeylər xalqların psixologiyasını, xarakter və intellektini təcəssüm etdirir. Xalqımızın əsrlər boyu yaratmış olduğu maddi və mənəvi irsi bir məbəd kimi qoruyan muzeylər onu keçmişdən gələcəyə ötürmək kimi mühüm missiyanı yerinə yetirir. Təsadüfi deyil ki, bu və ya digər ölkəyə gedən turistlər həmin yer haqqında məlumat mənbəyi kimi ilk olaraq muzeylərə üz tutur, onlardakı eksponatların qədimliyi, özəlliyi ilə maraqlanırlar.

Bəli, bu gün çox sevindirici bir haldır ki, Naxçıvan Muxtar Respublikada fəaliyyət göstərən bütün muzeylərin bələdçiləri ən yüksək səviyyədə ekskursiyalar aparmaqla xalqımızın tarixi, mədəniyyəti, incəsənəti, sənətkarlığı haqqında elmi mənbələrə əsaslanmaqla xronoloji ardıcıllıqla məlumatlar verirlər. Məhz bu yolla muzeylər ziyarətçi məmnuniyyətinə müsbət ictimai rəyin və dəstəyin əldə edilməsinə nail olur, son nəticədə isə fəaliyyətlərini davam etdirmək üçün lazımi resursları təmin edə bilərlər.

Muzeydə aparılan elmi-kütləvi işin ən populyar forması olduğunu və gələcək nəslin təlim tərbiyəsində formalaşmasında mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, muzey işi üzrə təhsil alan tələbələrə ekskursiya işinin tədrisi üzrə kursun predmeti məqsədəuyğundur. İxtisasla bağlı kursun tədrisi çox böyük əhəmiyyət kəsb edir. Belə ki, bu ixtisas üzrə təhsil alan tələbələrə muzey işinin əsas sahələrindən biri olan ekskursiya işinin öyrədilməsi labüddür. Bu ixtisas üzrə təhsil alan tələbələrə yiyələndikləri ixtisasın daha dərindən və mükəmməl öyrənmələri üçün daha vacibdir.

## ƏDƏBİYYAT

1. S.Əmirxanov Muzeyşünaslıq,Tədris metodik vəsait, Bakı, 2012
2. Y.S.Yeqorov, M.Y.Yuxneviç, Müasir şəraitdə muzeylərin elmi-kütləvi işi, Bakı, 1998
3. E.Məlikova, Bədii mədəniyyətin inkişafında incəsənət muzeylərinin rolu, Bakı, 2014
4. M.Əsədova, Memorial muzeylərin fəaliyyəti, Bakı, 2017

## ABSTRACT

**Seidova Zenfira**

## MUSEUM AND EXCURSION

In our modern epoch we have a lot of museums as part of the national culture.

One of the main task of the museums that became an important tool of the national and cultural cooperation, mutual understanding between the nations – is a detection and collection of museum arts, rare samples of the art, their exhibitions by various methods like excursions, mobile exhibitions, lectures as well as propaganda with the help of scientific and scientifically-popular literatures.

Museums, which contribute to the development of national self-cognition, culture and adventure, allow researchers to use scientific and cultural resources, reflection of the common culture.

The activity of a museum is very wide and diverse. The performance of the museum includes the fund activity, exhibition, scientifically-popular work, excursion, etc. It is very important for a professional museum worker to be aware of every specter of museum activity. All spectrum of the museum activity are related with each other. From the first day of the museum, the museum regularly collects exhibits and supplies materials on a fund. Excursion is one of the most important and popular activity of a museum that plays a significant role in education the future generations.

## РЕЗЮМЕ

**СеидоваЗенфира**

## МУЗЕЙ И ЭКСКУРСИЯ

В нашу современную эпоху наши музеи имеют большое значение kak часть национальной kультуры. Основная задача музеев, kоторая стала важным инструментом национально-kультурного сотрудничества, духовного обогащения, взаимных творчесkих связей и взаимопонимания между народами, - это обнаружение и сбор музейных предметов и редkих образцов исkусства, их демонстрация различными способами и передача народу путем эkсkурсий, передвижных выставоk, леkций, а таkже пропаганда с помощью научной и научно-популярной литературы. Музеи, kоторые способствуют развитию национального самосознания, kультуры и просвещения, позволяют всесторонне использовать научные и kультурные ресурсы, отражая общий рост kультуры.

Круг деятельности музея является широkим и разнообразным. Деятельность музея вkлючает в себя работу фонда, эkспозицию, научно-популярную работу, эkсkурсию и т. д. Невозможно стать профессиональным музейным работниkом, не зная всех аспеkтов деятельности музея. Весь спеkтр деятельности музея тесно связан друг с другом. С первого дня его работы музей регулярно собирает эkспонаты и kомплеkтует материалы фонда. Эkсkурсия –одна из важных и популярных сфер деятельности музея, kоторая имеет огромную заслугу в воспитании будущих поколений.

**ÜLKƏR HƏSƏNZADƏ**
*Naxçıvan Dövlət Universiteti*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ TURİZM BAZARININ FƏALİYYƏT MEXANİZMİ

**Açar sözlər:** *Turizm bazarı, ekoloji turizm, Darıdağ, qanun, Əlincəqala, Naxçıvan, muzey*
**Keywords:** *Tourism market, ecological tourism, Dardagh, law, Alinjagala, Nakhchivan, museum*
**Ключевые слова:** *Рынок туризма, экологический туризм, Дардаг, юриспруденция, Алинджагала, Нахчыван, музей*

Turizm xidmətləri bazarı – əhalinin istirahəti, asudə vaxtının əyləncəli keçirməsi və ya sağlamlığı ilə bağlı xidmətlərə olan ehtiyaclarının ödənilməsi sahəsidir. Turizm xidmətləri bazarı bu xidmətlərin istehlakı xüsusiyyətlərinə uyğun gələn struktura malikdir. Bu bazarın iki əsas struktur komponentini qeyd etmək olar: istehlakçı bazarı – bu bazarda turizm məhsuluna olan tələb formalaşır; istehsalçı bazarı – bu bazarın subyektlərinin fəaliyyəti tələbin yaradılmasına istiqamətlənir.

Hər hansı bir ərazidə turizm müəssisələrinin mövcudluğu turist xidmətləri bazarının ərazi strukturunun məntəqələrinin formalaşmasını xarakterizə edir. Eynitipli turist firmalarının sayının çoxaldılması regionda tələbin strukturlaşmasına səbəb olur və müştəri bazarının ərazi strukturu mərkəzlərinin formalaşmasına yardım edir.

Azərbaycanın ən qədim yurd yerlərindən biri, minilliklərin izini yaşadan, bəşər sivilizasiyasının ilkin məskənlərindən sayılan Naxçıvan da böyük turizm potensialına malik regiondur. Bazar iqtisadiyyatına keçilməsi ilə xalq təsərrüfatının istər dövlət, istərsə də özəl sektorlarında əldə olunan nailiyyətlər əhalinin gəlirlərinin artmasına, onların sosial vəziyyətinin yaxşılaşmasına təkan vermişdir. Həm istehsal, həm də müxtəlif xidmət sahələrində sahibkarlıq fəaliyyətinin genişlənməsi, ticarətin tamamilə liberallaşması, sərhədyanı ticarətin genişlənməsi Naxçıvanın turizm bazarı imkanlarını artıran amillərdəndir. Əhalinin həyat səviyyəsinin yüksəlməsi isə insanları biznesin daha geniş və cəlbedici formaları, o cümlədən turizm ilə məşğul olmağa həvəsləndirir.

Yeraltı və yerüstü sərvətləri, zəngin faydalı qazıntıları, xəstələrə şəfa verən mineral bulaqları ilə məşhur olan, 5000 ildən çox yaşa malik Gəmiqaya təsviri sənət abidələri, tarixi abidələr diyarı Naxçıvan Muxtar Respublikası bu gün həm də dünyanın gözəl turizm məkanlarından biridir.

Naxçıvan Muxtar Respublikada turizm bazarının inkişafına təkan verən faktorlar:

1. Əlverişli coğrafi-siyasi mövqeyi;
2. Müxtəlif iqlim qurşaqları və təbiəti;
3. Zəngin və çeşidli bitki və heyvanat aləmi;
4. Zəngin mədəni-tarixi irsi;
5. Özünəməxsus və zəngin mətbəxi;
6. Yüksək qonaqpərvərlik ənənələri;
7. Turizm sahəsinə nəinki dövlət təşkilatlarının, həmçinin özəl firmaların, xarici investor və sahibkarların cəlb edilməsinə imkan verən yeni sosial-iqtisadi şərait, işçi qüvvəsinin aşağı dəyəri;
8. Birmənalı olaraq Naxçıvan Muxtar Respublikanın hər yerində hətta ən ucqar dağ kəndlərində belə əlverişli infrastrukturun yaradılması və rəhbərliyin bu sahənin inkişafına xüsusi diqqəti Naxçıvan Muxtar Respublikada turizmin hərtərəfli inkişafına şərait yaradır.

Naxçıvan Muxtar Respublikanın turizm potensialının təbliği istiqamətində ardıcıl iş aparılır. Regionun tarixi, mədəniyyəti, turizm marşrutları, mətbəxi, adət-ənənələri ilə bağlı onlarla adda reklam-informasiya materialları hazırlanıb, reklam çarxları və filmlər çəkilib.

Turizmin inkişafı həm də bu sahədə peşəkar kadrların olmasından çox asılıdır. Naxçıvan Muxtar Respublikada bu sahənin ixtisaslı kadrlarla təmin edilməsi məqsədilə ardıcıl tədbirlər görülür. Haliyədə Naxçıvan Dövlət Universitetində və “Naxçıvan” Universitetində turizm ixtisası üzrə kadrlar hazırlanır.

Naxçıvan MR-də turist xidmətləri bazarının əsas növləri bunlardır:

*Tarixi - mədəni turizm*. Hər hansı bir ölkənin turizm potensialından danışdıqda ilk növbədə tarixi-mədəni irs ön plana çəkilir. Nuh peyğəmbərin məzarüstü türbəsi, Möminə Xatın və Yusif Küseyr oğlu türbələri, Naxçıvanqala abidəsi, Qarabağlar Memarlıq Kompleksi, "Xanəgah" Abidə Kompleksi, adı Nuh peyğəmbərin gəmisi ilə əlaqələndirilən Gəmiqaya ərazisindəki qayaüstü rəsmlər, əfsanəvi Haçadağ, abidələrlə zəngin olan "Ordubad" Tarix-Memarlıq Qoruğu, haqqında müqəddəs Qurani-Kərimdə bəhs edilən "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi, 5000 ildən çox yaşı olan Naxçıvan şəhər

mədəniyyəti, qədim tikililər, qalalar, yaşayış yerləri və nekropollar, xalq sənətkarlarının günümüzə qədər qorunub saxlanılmış sənətkarlıq nümunələri və s. turistlər üçün cəlbedicidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən 700-ə yaxını dünya və ölkə əhəmiyyətli abidə olmaqla, ümumilikdə 1202 daşınmaz tarix və mədəniyyət abidəsi qeydə alınmışdır. Daşınar tarix-mədəniyyət abidələrinin qorunub saxlanıldığı muzeylər turistlər üçün böyük maraq kəsb edir. Naxçıvan ərazisində bəşəriyyətin bütünlüklə qəbul etdiyi Nuh peyğəmbərin qəbrinin olması, "Əshabi-Kəhf" ziyarətgahının yerləşməsi turistləri cəlb edən əsas amillərdəndir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi də onun zəngin tarixə və mədəniyyətə malik olmasından qaynaqlanır.

Tarixi-mədəni turizmin inkişafında turizm nümayişi obyektlərinin özünəməxsus yeri var. Bu baxımdan Naxçıvan Muxtar Respublikasını "muzeylər diyarı" da adlandırmaq olar. Naxçıvan Muxtar Respublikada 29 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir ki, onların 16-sı 1995-ci ildən sonra yaradılıb.

Naxçıvan Muxtar Respublikada 21 mehmanxana var. İki mehmanxananın 5 ulduz kateqoriyası var: Təbriz və Duzdağ. 3 hüquqi və 4 fiziki şəxs turizm fəaliyyəti ilə məşğul olur. 3 teatr, 29 muzey, 2 filarmoniya, banklar, ticarət mərkəzləri, benzindoldurma məntəqələri, və s. turizmin inkişafında mühüm əhəmiyyətə malikdir.

Hazırda, Naxçıvan-Qarabağlar, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincəqala, Naxçıvan-Ordubad, Naxçıvan-Batabat turizm maşrutları fəaliyyət göstərir.

*Müalicə turizmi.* Naxçıvan Muxtar Respublikasının təbii bitki ehtiyatlarının böyük hissəsi dərman bitkiləridir: 700-ə yaxın növ mövcuddur. Azərbaycanın mineral su ehtiyatının 60%-i Naxçıvan Muxtar Respublikanın payına düşür. Burada 250-yə yaxın mineral su mənbəyi qeydə alınıb. Bu mineral suların bir hissəsi müalicə məqsədilə istifadə edilir (Badamlı, Sirab, Darıdağ, Böyrək suyu və.s). Eyni vaxta 300 xəstəni qəbul etmək imkanına malik Duzdağ Fizioterapiya Mərkəzi və Culfa rayonundakı Darıdağ Arsenli Su Müalicəxanası bir çox ölkələrdən gələn yüzlərlə turistin üz tutduğu əsas müalicə mərkəzlərindəndir. Bu baxımdan müalicə turizminin inkişafı üçün potensial böyükdür.

*Kənd-yaşıl turizmi.* Artıq insanlar şəhərin sıxlığından, abu-havasından əziyyət çəkib ucqar yaşayış yerlərinə üz tuturlar. Naxçıvan Muxtar Respublikanın ərazisi bu baxımdan böyük potensiala malikdir. Muxtar Respublikanın ən ucqar kəndlərinə belə rahat yollar çəkilmiş, fasiləsiz elektrik enerjisi, təbii qaz, rabitə xidmətləri və içməli su ilə təchiz olunmuş, Naxçıvan şəhərindən bütün rayon və kəndlərə marşrut xəttləri, taksi xidməti fəaliyyət göstərdiyindən gediş-gəliş xeyli asanlaşmışdır. Ucqar dağ yaşayış məntəqələrindən biri olan Şahbuz rayonunda dağlar qoynunda yerləşən "Batabat" restoranı ərazisində hər cür şərait yaradılmış kateclər buraya üz tutanlar üçün münasib qiymətlərlə istirahət etmək və mənəvi rahatlıq tapmağa imkan verir.

Naxçıvan Muxtar Respublikanın kənd-yaşıl turizm potensialını artıran mühüm obyektlərdən biri də Şahbuz rayonunun eyniadlı kəndində fəaliyyət göstərən Ağbulaq İstirahət Mərkəzidir. Kənd dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşir. Buna baxmayaraq kənddə meyvəçilik, tərəvəzçilik, arıçılıq və heyvandarlıq inkişaf etdirilir. Bu da turistlərin ekoloji cəhətdən təmiz qida məhsulları ilə təmin olunmasına imkan verir. Burada qiymətlərin münasibliyi, təklif olunan xidmətlər qonaqları razı salır. Ağbulaq İstirahət Mərkəzi xidmət səviyyəsi, yaradılmış hərtərəfli şərait fonunda sözün əsl mənasında nümunəvi turizm obyekti təəssüratı yaradır.

*Dini-ziyarət turizmi.* Burada 140-a yaxın ziyarətgah mövcuddur. Belə ki, burada müxtəlif dini obyektlər - pirlər, imamzadələr var və imanlı insanlar bu obyektləri ziyarət edirlər. Naxçıvan Muxtar Respublika ərazisində mövcud olan dini obyektlərdən ən mühümü isə müqəddəs Qurani Kərimin «Əl-Kəhf» surəsində haqqında bəhs edilən Əshabi-Kəhf ziyarətgahıdır. 2004-cü ildən "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi adı altında fəaliyyət göstərən ziyarətgahda ziyarətçilər üçün hər cür şərait yaradılmışdır. Hər il buraya on minlərlə insan ziyarətə gəlir.

Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsi də turistlərin ən çox ziyarət etdikləri abidələrdən biridir. Bununla yanaşı, Naxçıvan şəhərində İmamzadə Abidə Kompleksi, Şərur rayonunun Xanlıqlar kəndində Parçı İmamzadəsi və Tənənəm kəndində Piri-Süleyman piri, Kəngərli rayonunun Qarabağlar kəndində Asnı piri, Ordubad rayonunun Nüsnüs kəndində Nüsnüs piri, Culfa rayonunun Camaldın kəndində Ərməmməd piri və Xanəgah kəndində eyniadlı abidə kompleksi, eləcə də digər dini abidələri istər yerli vətəndaşlar, istərsə də xarici turistlər istədikləri vaxt ziyarət edə bilərlər.

*Ekoturizm.* Ekoturizm və ya ekoloji turizm - təbiət turizminin bir forması kimi ətraf mühitə qayğı ilə bağlı turizm növüdür. Ekoturizm - məqsədyönlü şəkildə təbii ərazilərə ətraf mühitin və yerli təbiətin vəziyyəti ilə daha yaxından tanış olmaq, bütün bunların daha da dərindən öyrənilməsi və dərk edilməsi məqsədilə edilən səyahətdir. Ekoturizm turizm fəaliyyətinin yerli əhali ilə qarşılıqlı əlaqəsidir. Naxçıvan Muxtar Respublikamız təbii bulaqları və gölləri ilə ekoturizmin inkişafı üçün əlverişli imkanlara malikdir. Bu torpağın dillər əzbəri olan cənnət məkanlarından biri də Batabat yaylağıdır. Şahbuz rayonu ərazisində, Naxçıvan şəhərindən 65 km məsafədə, dəniz səviyyəsindən 2445 m hündürlükdə yerləşən Batabat yaylağı da ekoloji turizm üçün əlverişli sayılan bölgələrdəndir. İsti yay günlərində bu əraziyə böyük insan axını olur.

Ərazinin dərman bitkiləri ilə zənginliyi və havasının təmizliyi burada kurort-sanatoriya kompleksinin yaradılması üçün böyük perspektiv yaradır. Füsunkar təbiəti ilə seçilən Batabat yaylağı güllü-çiçəkli çəmənlikləri, təbii gölü, sadə və təmiz dağ havası, meşələri, Zorbulaq, Südlübulaq kimi bulaqları ilə məşhurdur. Ərazidəki Batabat gölü dünyanın üzən adaya malik olan yeganə gölü kimi diqqətəlayiqdir.

Ərazidə mövcud olan 1 təbiət qoruğu, 1 milli park, 2 təbiət yasaqlığı, 1 tarix-memarlıq qoruğu, 1tarix-bədii qoruq, 2 tarix-mədəniyyət qoruğu ekolji turizmin inkişafı üçün çox əhəmiyyətlidir.

*Etnik turizm.* Naxçıvan Muxtar Respublikası Türkiyə və İran İslam Respublikası ilə həmsərhəddir. Bu ölkələrdə yaşayan azərbaycanlılar Naxçıvanda olan qohumlarını, dostlarını görməyə gəlirlər ki, bu da Naxçıvan Muxtar Respublikada etnik turizmin inkişafını şərtləndirən başlıca amildir. Xalqımızın tarixi müəyyən hadisələr, böyük şəxsiyyətlərin həyatı ilə əlamətdar olan günlərlə zəngindir.

Azərbaycanın tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasının müasir ixrac potensialı diqqəti cəlb edir. Naxçıvan özünün unikal təbii-mineral sərvətləri, turizm ehtiyatları və yüksək keyfiyyətli emal sənayesi məhsulları ilə yaxşı tanınır. Son illərdə Naxçıvan Muxtar Respublikada özəl bölmənin inkişafına dövlət dəstəyinin daha da gücləndirilməsi bu baxımdan öz bəhrəsini verib. Bunun nəticəsidir ki, hazırda Naxçıvan Muxtar Respublikada 371 növdə məhsul istehsal edilir.

Tarixən Naxçıvanın əsas ixrac məhsulları kimi tanınan, dünyada məşhur olan “Badamlı”, “Sirab” kimi mineral sularımıza, dünyada ən təmiz olan Duzdağ duzuna, indi də böyük tələbat vardır. Keçmişdən fərqli olaraq müasir texnologiyanın tətbiq olunduğu və xarici bazarlarda ölkəmizin milli brendi kimi tanınan Naxçıvan məhsulları indi daha yüksək rəqabət qabiliyyətinə malikdir. Naxçıvan məhsulları ölkəmizin digər yerlərindən başqa, Gürcüstan, Türkiyə, İran, Ukrayna, Birləşmiş Ərəb Əmirliklərinə, Rusiyaya da ixrac olunur. İxracın həcmindəki dinamika isə hər il davamlı artmaqdadır.

Hazır məhsul şəklində Naxçıvandan ixrac olunan məhsullar Naxçıvan Muxtar Respublika iqtisadiyyatının ümumi inkişaf potensialını artırmaqla yanaşı, həm də milli brendlərimizin sayının çoxalmasına, bu da, öz növbəsində, xarici bazarlarda Naxçıvana olan marağın artmasına və xarici turistlərin regionumuza səfər etməsinə səbəb olur. Ümumiyyətlə, Naxçıvanın beynəlxalq turizmdə yeri, xarici turistlərin regiona səyahətləri və özləri ilə gətirdikləri xarici valyuta Naxçıvan Muxtar Respublikamızın ixrac potensialını birbaşa artıran amillərdəndir.

Qeyd edim ki, Naxçıvan Muxtar Respublikadan brend şəklində ixrac olunan məhsullardan biri də məhz turizm xidmətləridir. Belə ki, Naxçıvandan hazır əmtəə şəklində ixrac olunan brend məhsullarla yanaşı, Haçadağ vüqarı, Əlincə möhtəşəmliyi, Möminə xatın zərifliyi, Batabat gözəlliyi, Əshabi-Kəhf möcüzəsi, Duzdağ şəfası və daha çox sayda tanınmış turizm ehtiyatlarımızla turistlər ancaq Naxçıvana səyahət etməklə tanış ola bilərlər. Nəticədə, beynəlxalq turizm inkişaf etdikcə bu cür yerində ixracat forması ilə təkcə Naxçıvan Muxtar Respublikamızdakı turizm və qonaqpərvərlik sənayesi deyil, eyni zamanda iqtisadiyyatın bütün sahələri də bu gəlirdən öz payını almış olur.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Turizm haqqında qanunu, Bakı, 1999
2. Cəfərov M. İ., Babayev A. H., Azərbaycanın təbii sərvətləri və onlardan səmərəli istifadə, Bakı,2005
3. Ə.T.Əsgərov, B.Ə.Bilalov, Ç.G.Gülalıyev. Ekoloji turizm (Dərs vəsaiti), Bakı, 2011,276 səh.
4. Məmmədov Q.Ş., Xəlilov M.Y. Ekologiya və ətraf mühitin mühafizəsi, Bakı, Elm, 2005
5.Rəhimov V.İ. Rekreasiya zonaları və ekoturizm, AYTAC nəşriyyat poliqrafiya MMC, Bakı -2010
6.Yeganlı S.T., Hacıyev E.M. Turizm, Bakı, Təhsil 2006
7. B.Ə.Bilalov. Dünyada və Azərbaycanda gəlmə turizmin müasir durumu, Dirçəliş XXI əsr, Bakı 2004


## ABSTRACT


**Ulker Hasanzade**



The presence of tourist enterprises on the territory of each of the provinces requires the establishment of tourist sites of tourist services. The rising number of touristic firms is the reason why the demand in the région does not go up, and the client is helping to build up the strat- egy. By analyzing the features of the demand in tourist services, it is important to note that tourist services are committed to paying the most cost-effective demand for some of the population's lucrative and sub-sensitive factors.


## РЕЗЮМЕ


**Улькер Гасанзаде**



Наличие туристических предприятий на территории каждой из провинций требует создания туристических объектов туристического обслуживания. Растущее число туристических фирм является причиной того, что спрос в регионе не растет, а клиент помогает создать фондовый рынок. Анализируя особенности спроса на туристические услуги, важно отметить, что туристические услуги стремятся покрыть наиболее рентабельный спрос на некоторые из прибыльных и субчувствительных факторов населения.

**MƏHSƏTİ MƏMMƏDOVA**
*Naxçıvan Dövlət Universiteti*
*mehsetimemmedova 1974@ gmail*

## NAXÇIVANIN MUXTARİYYƏTİ TARİXİ NAİLİYYƏTDİR

**Açar sözlər:** *Naxçıvan Muxtar Respublikası, muxtariyyət, siyasi-iqtisadi inkişaf strategiyası, sənaye, aqrar-sənaye, iqtisadi islahatlar,dinamik sosial-iqtisadi inkişaf*

**Key words:** *Nakhchivan Autonomous Republic, autonomy, political-economic development strategy, industry. Agrarian-industrial, economic reforms, dynamic socio- economic development*

**Ключевые слова:** *Нахчыванская Автономная Республика, политико- экономическая стратегия развития, промышленность, аграрно- промышленная деятельность, динамичное социально- экономическое развитие*

Bu gün hamımız təsdiq edərik ki, Naxçıvan Muxtar Respublikamızda ulu öndər Heydər Əliyev siyasi kursuna sədaqət və ehtiramın, onun müəyyənləşdirdiyi yola inamın nəticəsi kimi diyarımızda siyasi və makroiqtisadi sabitliyə tam nail olunub, iqtisadiyyatın bütün sahələrində aparılan köklü islahatlar bəhrələrini verib, dinamik sosial-iqtisadi inkişafın möhkəm təməli yaradılıb.Təbii ki, bunların hamısı Naxçıvan Muxtar Respublika sakinlərinin həyat səviyyəsinin yüksəlməsinə, yaşayış tərzinin yaxşılaşdırılmasına öz müsbət təsirini göstərib. Bu da xüsusi vurğulanmalıdır ki, belə uğurlara ancaq sabitliyin, əmin-amanlığın təmin edildiyi və daimi xarakter aldığı diyarda nail olmaq mümkündür.

Müstəqil Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasında muxtariyyət illərində iqtisadi inkişafı ilə nəyə qadir olduğunu bir daha sübut edərək yeni bir mərhələyə qədəm qoymuşdur. Naxçıvanın 95 il ərzində keçirdiyi bu inkişaf yolu bir çox cəhətlərinə görə çoxəsirlik bir dövrə sığan zənginliyə sahibdir.

Məhz ümummilli lider Heydər Əliyevin siyasi-iqtisadi inkişaf strategiyası, onun davamçısı prezident İlham Əliyevin müəyyənləşdirdiyi iqtisadi platforma üzrə irəliləyən Naxçıvan Muxtar Respublikasında sürətli inkişaf özünü bariz şəkildə göstərməkdədir.

Naxçıvan Muxtar Respublikası bütün sahələri üzrə böyük sürətlə inkişaf edərək, sözün əsl mənasında, intibah mərhələsi səviyyəsinə yüksəlmişdir. Regionda müasir sənaye mərkəzləri yaradılmış, aqrar sektorun yüksək inkişafı təmin edilmişdir.

Naxçıvan inkişafda olan çoxsahəli sənaye və aqrar-sənaye respublikasıdır. Sənayedə kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur. Elektronika, metal emalı, tikinti materialları və yüngül sənayesi var. Kənd təsərrüfatı, əsasən, taxılçılıq, heyvandarlıq, tərəvəzçilik və bağçılıq sahəsində ixtisaslaşmışdır. Naxçıvan Muxtar Respublikada iqtisadi islahatlar ardıcıl həyata keçirilmiş, torpaq islahatı başa çatdırılmış, azad sahibkarlığın, xüsusi mülkiyyətin və kiçik biznesin inkişafı üçün geniş imkanlar yaradılmışdır.

İqtisadi əlaqələrin inkişafı hər bir ölkə və rayonun təbii ehtiyatlarla zəngin olmasından, çoxsahəli istehsalın inkişafından, müasir standartlarla uyğun məhsul istehsalından daha çox asılıdır.

Naxşıvan Naxçıvan Muxtar Respublikası yerləşdiyi coğrafi vəziyyətdən asılı olaraq geniş miqyasda iqtisadi əlaqələri inkişaf etdirmək imkanlarına malikdir.

Naxçıvan şəhəri tarixiliyi, zəngin mədəniyyəti və bütün istiqamətlər üzrə həyata keçirilən quruculuq işləri nəticəsində "İslam mədəniyyətinin paytaxtı" adına layiq görülüb.

Naxçıvanın 2018-ci ildə "Gənclər Paytaxtı" seçilməsi burada insan resurslarının sürətli artımı ilə bərabər, həm də ölkəmizin yeni nəsillərinin inkişafına yaradılan geniş imkanlarıda nümayiş etdirir. Naxçıvan Muxtar Respublika paytaxtında "Avropa günləri"nin, Türk Şurası Gənc Liderlərinin ilk formunun keçirilməsi də qədim diyarın tarixən formalaşmış mərkəz kimi əhəmiyyətini xeyli artırıb.

Naxçıvan Muxtar Respublikada sosial-iqtisadi inkişafın təmin olunması bütün sahələrdə nailiyyət-lərin qazanılmasına səbəb olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu "Caspian European Club"un 2017-2018 - ci illərdə ölkəmizin iqtisadi regionları üzrə hazırladığı illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ən yüksək bal toplayaraq lider olması bunu bir daha təsdiq edir.

Naxçıvan Muxtar Respublikada pozitiv meyillərlə səciyələnən bu sosial - iqtisadi fəlallığın təməlində iqtisadi inkişafın sosial yönümlü olması, hər bir vətəndaşın iqtisadi və sosial inkişafda iştirakından

asılı olaraq maddi rifahının artırılması, iqtisadiyyatın dövlət tənzimləmə mexanizmlərinin liberallaşdırılması, iqtisadi tərəqqinin əsas meyarlarından olan azad rəqabət, sahibkarlıq və investisiya mühitinin daha da yaxşılaşdırılması, əsassız məhdudiyyətlərin aradan götürülməsi, investisiyaların və sahibkarlığın inkişafının təşviqi üsullarından geniş istifadə olunması və Naxçıvan Muxtar Respublikanın iqtisadi təhlükəsizliyinin təminatı üçün aparılmış kompleks işlər dayanır.

Naxçıvan Muxtar Respublikasında güclü potensial, etibarlı iqtisadiyyat, dayanıqlı sosial siyasət mövcuddur. İnkişaf, tərəqqi intibah hər addımda özünü göstərməkdədir. Hətta ucqar dağ kəndlərində belə ən müasir infrastrukturun yaradılması, yüksək səviyyəli elmin, təhsilin, səhiyyənin, mədəniyyətin və digər sahələrin çevik inkişafı burada sosial-iqtisadi inkişaf üçün mükəmməl baza formalaşmışdır.

Naxçıvan Muxtar Respublikada aparılan iqtisadi islahatlar hesabına 2018-ci ildə Ümumi Daxili Məhsulun həcmi 2008-ci illə müqayisədə 3,5 dəfə, sənaye məhsulu 6 dəfə, əsas kapitala yönəldilən investisiyalar 3,3 dəfə, kənd təsərrüfatı məhsulu 3,1 dəfə, nəqliyyatda yük daşıma 1,9 dəfə, informasiya və rabitə xidmətləri 2, 2 dəfə və əhaliyə göstərilən pullu xidmətlər 3,5 dəfə artmışdır. 1 yanvar 2008-ci ildən 1 yanvar 2019-cu il tarixədək Naxçıvan Muxtar Respublikasında 43 717 yeni iş yeri açılmışdır ki, bunun da 87,7 faizi daimi iş yerləridir. Həyata keçirilən uğurlu siyasətin nəticəsində məşğul əhalinin sayı 2008-ci illə müqayisədə 22,8 faiz artaraq 237,4 min nəfərə çatmışdır.

Əməktutumlu yüksək olan iş yerlərinin yaradılması əhalinin məşğulluğunun səmərəliliyini təmin edərək, bir işçiyə hesablanmış orta aylıq əmək haqqının 2008-ci illə müqayisədə 197,8 manat artaraq 433 manat olmasını təmin etmişdir.

Heydər Əliyev ideyalarına sədaqət nümunəsi olan Naxçıvan bu gün gələcəyimizə daha böyük inamla yeni-yeni naliyyətlər əldə edir, ictimai həyatın bütün sahələrində yüksək tərəqqiyə nail olur. Naxçıvan Muxtar Respublikada atılan hər bir addım, qəbul edilən hər bir qərar ictimaiyyət tərəfindən mütərəqqi təşəbbüs kimi qiymətləndirilir, cəmiyyəti düşündürən hər bir məsələdə Naxçıvan təcrübəsi nümunə kimi götürülür. Görkəmli dövlət xadiminin göstərdiyi yolla qətiyyətlə irəliləyən Naxçıvan strateji hədəfləri uğurla reallaşdırır. Bütün bunların təməlində isə milli dövlətçiliyə sıxbağlılıq, yorulmaz fəaliyyət dayanır. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi “Naxçıvanda hər bir sahədə uğurlu inkişaf gedir, hər bir sahəyə böyük diqqət göstərilir. Bu Heydər Əliyev yolunun təntənəsidir”.

Bu gün ulu öndərin planlarının yerinə yetirildiyini bu qədim torpağın istənilən ünvanında görmək olar. Bu isə inkişafın möcüzə təsiri bağışlayan ifadəsi, bu günün reallığı, Naxçıvan Muxtar Respublikamızın 95 illiyinə ən böyük töhfədir.

## ƏDƏBİYYAT

1. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika komitəsinin materialları, 2008-2018- ci illər
2. Naxçıvan Muxtar Respublikası 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, Şərq qapısı 2012-ci il
3. Muxtariyyətin 95 illiyinə töhfə, Şərq qapısı 2018-ci il
4. Nakhchivan. preclib. az.

## ABSTRACT

**AUTONOMY OF NAKHCHIVAN IS A HISTORIC ACHIEVEMENT**

The article includes the development path of the Nakhchivan Autonomous Republic over 95 years, the radical reforms in all spheres of the economy. The solid foundation of dynamic socio-economic development, etc. talked.

Article discusses strong potential of Nakhchivan Autonomous Republic, reliable economy, Sustainable social policy,rapid development of all spheres of economy.

## РЕЗЮМЕ

**АВТОНОМНОСТЬ НАХЧЫВАНА- ИСТОРИЧЕСКОЕ ДОСТИЖЕНИЕ**

В статье рассматриваются пути развития Нахчыванской Автономной Республики за 95 лет, радикальные реформы во всех сферах экономики, прочная основа динамичного социально-экономического развития и др.

В статье говорится о сильном потенциале Нахчыванской Автономной Республики, ее надежной экономике, устойчивой социальной политике и быстром развитии всех секторов экономики

**ZAUR ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*know.howtax@gmail.com*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI İQTİSADİYYATININ DAVAMLI İNKİŞAF YOLUNU AYDINLADAN ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN TÖHVƏLƏRİ

**Açar sözlər:** *Sosial-iqtisadi inkişaf, milli iqtisadiyyat, iqtisadi inkişafın uğur modeli, iqtisadi rifah, iqtisadi inkişaf siyasəti, insan kapitalı, sosialyönümlü liberal iqtisadiyyat*

**Key words:** *Social-economic development, national economy, success model of economic development, economic wellfare, economic development policy, human capital, social-liberal economy*

**Ключевые слова:** *Социально-экономическое развитие, национальная экономика, модель успеха экономического развития, экономическое благосостояние, политика экономического развития, человеческий капитал, социально-либеральная экономика*

Məlumdur ki, istənilən dövlətin inkişafını, dünya birliyində öz layiqli yerini tuta bilməsini şərtləndirən əsas amillərdən biri xalqın özünə lider olaraq seçdiyi şəxsin fərdi keyfiyyətləridir. Çünki dövlətin böyük və ya kiçikliyindən, malik olduğu iqtisadi potensialdan asılı olmayaraq, son nəticədə onun hərtərəfli tərəqqisini müəyyən edən əsas məqamlardan biri məhz lider amilidir [3, s.317]. Mürəkkəb, ziddiyyətlərlə dolu tarixi prosesləri düzgün qiymətləndirən, geosiyasi dəyişikliklərin gedişini xalqının maraqları çərçivəsinə yönəltməyə qadir olan, bu məqsədlə praqmatik, rasional gedişlər etməyi bacaran, hadisələrin inkişaf axarını ən azı bir neçə on il qabaqlaya bilən lider ölkəsinin inkişafına, təhlükəsizliyinə nail olmaqla yanaşı, dünya birliyində onun mövqelərini də gücləndirir.

Müstəqillik yollarında inamla addımlayan, demokratik dövlət kimi dünya birliyində layiqli yer tutan, iqtisadi islahatları uğurla həyata keçirən Azərbaycan Respublikasının müasir iqtisadi tarixinin təqribən yarıməsrə bərabər bir dövrü dünya şöhrətli siyasətçi Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır [4, s.4].

Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev ulu öndərimizin Azərbaycan tarixindəki müstəsna rolunu qiymətləndirərək deyib: “Heydər Əliyev bu millətin inkaredilməz qürur mənbəyi, qazandığımız bütün nailiyyətlərin səbəbkarı, uğurlu gələcəyimizin təməlini qoyan alternativsiz lider, millət atasıdır. Müstəqil Azərbaycan və onun əldə etdiyi uğurlar ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətinin şah əsəridir”.

Müstəqil Azərbaycanın bir çox aparıcı dünya dövlətlərinin onilliklər boyu keçdiyi inkişaf mərhələlərini qısa zaman kəsiyində qət edə bilməsi heç də yalnız respublikanın zəngin təbii sərvətləri və intellektual resursları ilə şərtlənmir. Azərbaycanda bu potensialın xalqın mənafeyinə uyğun realizə edilməsi, hər kəsi qane edə biləcək milli siyasət strategiyasının həyata keçirilməsi, eyni zamanda xarici siyasət kursunun prioritetlərinin doğru-düzgün müəyyənləşdirilməsi və reallaşdırılması ilə sıx bağlıdır. Qloballaşma şəraitində milli özünəməxsusluğun qorunub saxlanması, habelə, milli-mənəvi dəyərlərə sədaqətlə yanaşı, ümumbəşəri dəyərlərin, beynəlxalq hüquq normalarının və s. inkişaf etdirilməsi, böyük dövlətlər və qonşularla münasibətlərin qurulmasında tarazlığın qorunması – bütün bunlar Azərbaycanın müsbət siyasi aurasını, özünəməxsus beynəlxalq imicini formalaşdırmışdır.

Son zamanlarda dünya iqtisadiyyatında baş vermiş dərin geosiyasi və sosial-iqtisadi dəyişikliklər iqtisadiyyatın milli inkişaf modeli probleminə marağı artırmışdır. Baş vermiş dəyişikliklər iqtisadiyyatların bazar istiqamətli formalaşmasında köklü islahatlarla da əlaqədardır.

Milli model milli təsərrüfatın bütövlüyünü formlaşdıran elementlərin məcmusu olub yerli xüsusiyyətlər sırasında xalqların tarixi ənənələrini, genetik köklərini əks etdirir. Milli iqtisadi inkişaf modeli iqtisadiyyatın mövcud strukturuna, dünya təcrübəsi və milli ənənələrə əsaslanan, milli iqtisadiyyatın sabit, dinamik inkişafını, təkrar istehsalı təmin edən modeldir.

Müasir bazar iqtisadiyyatının milli modelləri bazar mexanizmi və dövlət tənzimlənməsinin, xüsusi sahibkarlıq və sosial təminatların sintezinin milli əmsalları fərqləndirilən modellərdir. Əsas meyarlardan çıxış edərək bazar iqtisadiyyatının bir sıra səciyyəvi modelləri (liberal, sosialyönümlü bazar təsərrüfatı, sosial demokratik, tənzimlənən kapitalizm və.s) mövcuddur ki, bunlar da ölkə iqtisadiyyatlarının birinin digərindən fərqlənməsini şərtləndirir.

Bildiyimiz kimi, ölkəmizin milli iqtisadi inkişaf modelinin formalaşmasında innovativ inkişaf strategiyasının həyata keçirilməsi, elmi-texniki, texnoloji, insan potensialından səmərəli istifadə olunması,

iqtisadiyyatın strukturunun modernləşməsi və davamlı inkişafın təmin olunması kimi məsələlər Heydər Əliyev tərəfindən çox incəliklə və elmi əsaslara söykənməklə nəzərə alınmışdır.

Ümummilli liderimiz Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə regionların tarazlı inkişafına xüsusi diqqət yetirmiş və bütün bölgələrə eyni münasibət bəsləmişdir [1, s.13].

İqtisadiyyatın bütün sahələrinin inkişafı üçün 1970-1985-ci illərdə Naxçıvan Muxtar Respublikasına 900 milyon manat sərmaye qoyulmuş 783 milyon manatlıq əsas vəsaitlər istifadəyə verilmişdir. Bu dövrdə emal, hasilat sənayesinin şəbəkəsi genişlənmiş, sənaye istehsalında konserv, üzüm emalı, tikinti materialları, meşə və ağac emalının xüsusi çəkisi artmışdır.

Heydər Əliyevin ikinci dəfə ölkəyə rəhbərliyə qayıtması bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da yenidən sosial-iqtisadi inkişafın əsası qoyulmuşdur. Heydər Əliyev xüsusilə Naxçıvana rəhbərlik etdiyi illərdə blokada şəraitin yaşayan bu bölgənin böhrandan çıxarmaq və inkişaf yoluna salmaq üçün çox işlər görmüşdür. 1993-2003-cü illərdə Naxçıvan Muxtar Respublikasında reallaşdırılan sosial-iqtisadi islahatların hədəfi blokada şəraitinin doğurduğu çətinliklərin aradan qaldırılmasına, alternativ yollarla bu problemin kompensasiya olunmasına yönəlmişdir.

Uzun illər blokada şəraitində olması ilə əlaqədar fəaliyyətini dayandırmış sənaye müəssisələrinin 1996-cı ildən başlayaraq fəaliyyətinin bərpa edilməsi və yeni istehsal sahələrinin yaradılması, nəticə etibarı ilə, əvvəllər istehsal olunmayan yeni sənaye məhsullarının istehsalının təşkilinə və ümumilikdə, sənaye məhsulu istehsalının dinamik artımına səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurlar, xüsusilə son 25 ildə Naxçıvan Muxtar Respublikanın iqtisadiyyatının sıçrayışlı inkişafı, ÜDM-in artımı, dövlət büdcəsinin yüksəlməsi, iqtisadi inkişaf strategiyasının uğurla reallaşdırılması bilavasitə düzgün iqtisadi siyasətin həyata keçirilməsi və onların dövlət tərəfindən tənzimlənməsi ilə bağlıdır.

Bazar İqtisadiyyatının dövlət tənzimlənməsinin vacibliyini göstərən C.M.Keyns yazırdı: «Dünyanı idarə edən ayrı-ayrı ölkələrin dövlət başçılarıdır. Onların buraxdığı cüzi səhvlər böyük fəlakətlərə səbəb olur».

Ümummilli liderimiz Heydər Əliyevin xalqın təkidli tələbi ilə Naxçıvan Muxtar Respublika rəhbərliyinə gəlişi əhalini və dövləti böyük faciələrdən xilas etdi, bu isə Naxçıvan Muxtar Respublikanın tərəqqisinə səbəb oldu. Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi bütün dövrlər xalqımızın milli mənlik şurunun oyanması, müstəqilliyə qovuşmaq arzularının çiçəklənməsi, ictimai həyatımızın, iqtisadiyyatımızın bütün sahələrinin inkişafında böyük nailiyyətlərin əldə edilməsi ilə əlamətdar olmuşdur.

Heydər Əliyevin müstəqil dövlətimizə rəhbərlik etdiyi dövrün nailiyyətləri göz önündədir: ictimai – siyasi sabitlik, güclü iqtisadiyyat, möhkəm sosial təsisatlar, qüdrətli ordu, regionda lider mövqe, beynəlxalq aləmdə nüfuz, bütün bunlar günümüzün reallığıdır.

Enerji təhlükəsizliyi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində 1993-cü ilin may ayında Türkiyə Respublikasındakı "İğdır" elektrik yarımstansiyasından Naxçıvan Muxtar Respublikasına 87,5 km uzunluğunda 154 kilovotluq ikidövrəli elektrik verilişi xəttinin çəkilişi başa çatdırıldı və Naxçıvana Türkiyə Respublikasından 50-60 mvt gücündə elektrik enerjisinin ötürülməsinə başlanıldı. Beləliklə, 1993-cü ilin ortalarında Naxçıvan Muxtar Respublikaya İran İslam Respublikasından 42 mvt, Türkiyə Respublikasından isə 63 mvt gücündə elektrik enerjisi idxal olunurdu ki, bu da yaşayış standartlarının normallaşmasında mühüm mərhələ idi. 2002-ci ildən etibarən Naxçıvan Muxtar Respublikaya daxil olan enerjinin artırılması, paylanmasının yaxşılaşdırılması sahəsində mühüm tədbirlər görülmüşdür. Belə ki, İran İslam Respublikasından alınan elektrik enerjisinin miqdarını artırmaq üçün 132/110 kilovoltluq "Araz" elektrik yarımstansiyasında 150 mvat güclü yeni transformatorun quraşdırılması və 9,5 km uzunluğunda 110 kilovoltluq elektrik verilişi xəttinin çəkilməsi işləri həyata keçirilmişdir ki, bu da daxil olan enerjinin gücünün 50 mvt artırılmasına şərait yaratmışdır. 2003-cü ildə Culfa şəhərində yeni 132/110 kilovoltluq 50 mvt güclü "Culfa" elektrik yarımstansiyasının tikilib istismara verilməsi və 132 kilovoltluq 3 km uzunluğunda Culfa-Culfa elektrik verilişi xəttinin çəkilməsi İran İslam Respublikasından alınan elektrik enerjisinin gücünün 120 mvt-a çatdırılması üçün texniki imkan yaratmışdır [6].

Naxçıvan Muxtar Respublikanın uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində investisiyaların cəlbi xüsusi rol oynammışdır. İnvestisiyaların tələb olunan həcm və keyfiyyətinin təmin edilməsi məqsədilə investisiya mühitinin daha da yaxşılaşdırılması əsas vəzifələrdən biri kimi müəyyənləşdirilmiş, 1993-2003-cü illər ərzində Naxçıvan Muxtar Respublikada əsas kapitala 147 milyon 394 min manat həcmində investisiya yönəldilmişdir.

Görkəmli prof. Ş.H.Hacıyev hələ 2000-ci ildə yazdığı "Azərbaycan dünya birliyinə doğru yolda: xarici iqtisadi inkişaf strategiyası» monoqrafiyasında Azərbaycanın iqtisadi inkişaf xüsusiyyətərinin konturlarını müşahidə etmiş və sonralar bir sıra əsər və məqalələrində Milli İqtisadiyyatın formalaşdırılmasının spesifikliyini iqtisadi inkişafın H.Əliyev «Uğur» modeli kimi elmi cəhətdən əsaslandırmışdır [5].

Bu model digər iqtisadi inkişaf modellərindən aşağıdakılarla fərqləndirilir:

1. «Uğur» modelinin paradiqmasını faydalılıq, səmərəlilik təşkil edir;
2. Yüksək artım tempi səciyyəvidir;
3. Universal iqtisadi inkişaf qanunlarının milli xüsusiyyətləri nəzərə alınır;
4. Spesifik iqtisadi qanunlardan çevik istifadə olunur;
5. Milli iqtisadi sistemlərin özünəməxsusluğu nəzərə alınır.
6. Bəzi ölkələr ilə eyniləşdirmələr aparılır və tam fərqlilik diqqət mərkəzində saxlanılır.

İqtisadi inkişafa nail olmağın tək yolu olmadığı kimi, uğurlu iqtisadi inkişafa nail olmaq üçün yeganə strategiya, siyasət və ya proqram yoxdur. Yəni cəmiyyətlər coğrafi yerləşməsinə, yaşayış yerlərinin xarakterinə, əhalinin sıxlığına, siyasi gücünə görə bir-birlərindən fərqlənirlər [2, s. 175].

Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafı vahid iqtisadi siyasət strategiyasının fundamental prinsiplərinə əsaslanır. Yeni iqtisadi təfəkkürün formalaşmasında və yeni milli iqtisadiyyatın inkişafında Naxçıvan iqtisadi modeli mükəmməlliyi ilə seçilir. Ən əsası da odur ki, Naxçıvan Muxtar Respublikasının inkişaf modeli iqtisadi mahiyyətinə görə, həm də sosialllığı ilə seçilir. Yəni bu modelin alt qatı birbaşa sosialyönümlü liberal iqtisadiyyata bağlıdır. Bu siyasət ictimai münasibətlərin sosial ədalət ruhunda dəyişdirilməsinə, gəlirlərin bərabərləşdirilməsinə, insanlar arasında maddi bölgülərin istehlakında bərabərsizliyin aradan qaldırılmasına və son nəticədə sosial rifahın yüksəldilməsinə hesablanıb.

İqtisadi inkişaf sahəsində ölkəmizin modelinin kifayət qədər uğurlu olduğunu son illərin qlobal maliyyə-iqtisadi böhranı da bir daha təsdiq etdi. Belə ki, qlobal maliyyə-iqtisadi böhran nəticəsində bir çox ölkələrdə resessiyaya baxmayaraq, ölkəmizdə makroiqtisadi sabitlik, iqtisadi artım, yoxsulluq səviyyəsinin azalması və əhalinin maddi rifah halının yüksəlməsi ilə müşahidə edilmişdir [6].

Bu gün ölkəmiz məhz ümummilli lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Ulu öndərin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir.

Ölkə iqtisadiyyatının gələcəkdə də dayanıqlılığını təmin etmək məqsədilə 2020-ci ilədək iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövrlərə hədəflənmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivlərinin Strateji Yol Xəritəsi" hazırlanıb ki, bu xəritəyə uyğun olaraq, rəqabətqabiliyyətli milli iqtisadiyyat formalaşdıra biləcək iqtisadiyyatın bütün sektorlarının inkişaf etdirilməsi nəzərdə tutulur. Milli İqtisadiyyat perspektivlərinin Strateji Yol Xəritəsi dayanıqlı iqtisadi inkişafı təmin edə biləcək aşağıdakı tədbirlərin reallaşdırılmasını nəzərdə tutur.

Milli iqtisadiyyat perspektivi çərçivəsində dörd strateji hədəf seçilib. Bu hədəflərin və 11 sektor üzrə strateji yol xəritələrinin həyata keçirilməsi nəticəsində real və maliyyə sektorları arasında tarazlığın təmin edilməsi yolu ilə davamlı iqtisadi inkişaf mümkün olacaq. İlk strateji hədəfə uyğun olaraq, Azərbaycanda fiskal dayanıqlılıq təmin ediləcək və monetar siyasət üzən məzənnə rejimi üzərində qurulacaq. Fiskal və monetar siyasətlərin uzlaşdırılması makroiqtisadi sabitliyi təmin edəcək. Milli iqtisadiyyat perspektivində ikinci hədəf paylarının nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması və özəlləşdirilmənin həyata keçirilməsi yolu ilə iqtisadi dinamikliyi təmin etməkdən ibarətdir. Üçüncü hədəf insan kapitalının inkişafı ilə bağlıdır ki, bununla əmək bazarının inkişafı milli iqtisadiyyat perspektivinə uyğunlaşdırılacaq, nəhayət dördüncü hədəf biznes mühitinin daha da yaxşılaşdırılmasını nəzərdə tutur. Milli iqtisadiyyat perspektivində müəyyən edilmiş 11 sektorun dayanıqlı inkişafını təmin edəcək ümumi məsələlər əhatə olunub [5].

Yuxarıda deyilənlərdən bu nəticəyə gəlmək mümkündür ki, müstəqilliyinin ilk illərindən başlayaraq ölkəmiz dünya bazarına çıxarmaq üçün rəqabətqabiliyyətli milli məhsulların istehsalına, idxal və ixracın səmərəli strukturunun formalaşmasına güclü təsir göstərmiş, idxalı əvəzləyən məhsul istehsalının artımına önəm vermişdir. Bunun nəticəsində isə idxal məhsullarına xərclənən valyuta ehtiyatlarına qənaət edilməsinə gətirib çıxarmışdır.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən uğurlu siyasətin nəticəsində 2018-ci ildə ümumi daxili məhsul istehsalı 2 milyard 773 milyon manatdan artıq olmuşdur ki, bu da bir il öncəki göstəricidən 1,3 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə bir il öncəyə nisbətən 1,9 faiz artaraq 6101,3 manata çatmışdır. ÜDM-nin tərkibində ilk yeri 27,4 faizlə sənaye tutmuş və maddi istehsalın payı 58,6 faiz təşkil etmişdir. 2017-ci illə müqayisədə 2018-ci ildə sənaye məhsulu 1,3 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,1 faiz, kənd təsərrüfatı məhsulu 4,4 faiz, nəqliyyat sektorunda yük daşınması 1,9 faiz, informasiya və rabitə xidmətləri 3,3 faiz, o cümlədən mobil rabitə xidməti 2 faiz artmışdır.

Davamlı inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, bu dövrdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, milli valyutanın sabitliyi, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır.

## ƏDƏBİYYAT


1. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf, Bakı, Sabah, 2008, 452 səh.
2. Əliyev Z.S. İqtisadi inkişaf və məşğulluq arasındakı əlaqə: Naxçıvan Muxtar Respublikası timsalında, Naxçıvan, NDU, Elmi əsərlər, № 6, Qeyrət, 2017, 274-279 s.
3. Qasımov C.Ə. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının davamlı inkişafı. Naxçıvan, NDU, Elmi əsərlər, № 6, Qeyrət, 2017, 316-321 s.
4. Vəzirov H.C. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafı, İqtisadiyyat üzrə fəlsəfə dok., avtoreferat, Naxçıvan, 2015, 28 s.
5. https://en.wikipedia.org
6. https://www.google.com


## ABSTRACT


**Zaur Aliyev**


### CONTRIBUTION OF NATIONAL LEADER HEYDAR ALIYEV TO THE SUSTAINABLE DEVELOPMENT OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC


About half of the modern economic history of our country, which is confident in the path of independence and successfully implementing economic reforms, is related to the name and activity of Heydar Aliyev. Studying the care of the Nakhchivan Autonomous Republic during Heydar Aliyev's rule is very relevant. The article analyzes the country's transformation into an intensively developing republic, the crisis of the economy, the allocation of investments from the budget, the creation of production areas, the country's strategic line, and state programs. In the article it was underlined that strategic measures on the conceptual issues of our country's further development were adopted by Heydar Aliyev at that time.


## РЕЗЮМЕ


**Заур Алиев**


### ВКЛАД ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В УСТОЙЧИВОЕ РАЗВИТИЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ


Около половины современной экономической истории нашей страны, которая уверена на пути независимости и успешно проводит экономические реформы, связана с именем и деятельностью Гейдара Алиева. Изучение заботы Нахчыванской Автономной Республики во времена правления Гейдара Алиева очень актуально. В статье анализируется превращение страны в интенсивно развивающуюся республику, кризис экономики, выделение инвестиций из бюджета, создание производственных площадок, стратегическое направление страны и государственные программы. В статье подчеркивается, что в то время Гейдар Алиев принял стратегические меры по концептуальным вопросам дальнейшего развития нашей страны.

**ƏBDÜLHÜSEYN ZAMANOV**
*Naxçıvan Dövlət Universiteti*

## İXRACYÖNÜMLÜ İSTEHSAL İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

**Açar sözlər:** *Naxçıvan Muxtar Respublikası, iqtisadiyyatın şaxəlləndirilməsi, ixracyönümlü istehsal, regional iqtisadi siyasət, regional sosial-iqtisadi inkişaf*

**Key words:** *Nakhchivan Autonomous Republic, the diversification of economy; export oriented production, regional economic policy, regional socio-economic development*

**Ключевые слова:** *Нахчыванская Автономная Республика, диверсификация экономики, продукция ориентированная на экспорт, региональная экономическая политика, региональное социально-экономическое развитие*

Yeni iqtisadi şəraitdə ölkəmizdə həyata keçirilən inkişaf strategiyası, ilk növbədə, regionların sosial-iqtisadi inkişafının təmin edilməsi, iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, idxaldan asılılığın azaldılması və ixracyönümlü məhsul istehsalına keçməklə iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir.

Bu gün Naxçıvan Muxtar Respublikasında yaradılan ümumi daxili məhsulun həcmi, təqribən, 2,5 milyard manata çatmaqdadır. Bu bir daha onu göstərir ki, Naxçıvan Muxtar Respublikada iqtisadiyyatın şaxələndirilməsi istiqamətində əhəmiyyətli nailiyyətlər əldə edilib. Başqa sözlə, 1995-ci ildən başlayaraq uğurla həyata keçirilən iqtisadi kurs, nəticəyə hesablanmış strategiya və reallığı özündə ehtiva edən fəaliyyət bu gün öz bəhrəsini verməkdədir. Bunu statistik göstəricilərlə bərabər, Naxçıvan Muxtar Respublikaya gələn xarici qonaqlar, o cümlədən Naxçıvanın iqtisadi inkişafını təhlil edən ekspertlər də xüsusi vurğulayırlar (1).

Naxçıvan Muxtar Respublikada daxili bazarın qorunması istiqamətində həyata keçirilən tədbirlər iqtisadiyyatın şaxələndirilməsinə öz müsbət təsirini göstərib. Belə ki, yerli istehsalı mümkün olan, qida təhlükəsizliyi parametrlərinə tamamilə cavab verən, istehsalında yerli xammaldan istifadə edilən əmtəələrin eyniadlı xarici analoqlarından, xüsusilə onların demping təsirindən sığortalanması hər bir ölkədə olduğu kimi, Naxçıvanda da həyata keçirilən iqtisadi tənzimləmə tədbirlərindəndir. Təcrübə göstərir ki, daxili bazarın bu yolla qorunması, konkret tədbirlərin görülməsi nəticəyə əhəmiyyətli təsir göstərir. Naxçıvan Muxtar Respublika iqtisadiyyatının xaricə açılan qapılarında – gömrük-keçid məntəqələrində tamamilə yeni infrastruktur komplekslərinin qurulması, onların iş saatlarının artırılması istiqamətində görülən işlər də bu sahədə mühüm addımlardandır. Qardaş Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasında istehsal edilən məhsullara tətbiq edilən məhdudiyyətlərin və rüsumun aradan qaldırılması ixrac imkanlarının da artmasına şərait yaradır. Bu isə sahibkarlarımız üçün geniş imkanlar yaratmaqla bərabər, eyni zamanda onların öz üzərlərinə düşən məsuliyyəti dərk etmələrini, müəyyən sahələr üzrə istehsalın xərclərinin azaldılmasını, texnoloji proseslərin daim innovativ prinsiplərə uyğun olaraq yenilənməsini, keyfiyyət meyarlarına tam cavab verən ekoloji təmiz məhsulların istehsalına diqqətlərini daha da artırmasını tələb edir. Əgər belə olarsa, yerli məhsullarımız rəqabətədavamlı olacaq və daxili, həmçinin xarici bazarlarda da həmin məhsulların daimi alıcı kütləsi formalaşacaq.

İqtisadiyyatın çoxşaxəliliyi prosesi sistemxarakterli olmaqla ardıcıl yanaşma da tələb edir. Həmin yanaşma Naxçıvan Muxtar Respublikada mövcuddur və bu, digər bütün sahələrdə həyata keçirilən işləri əhatə etməklə hərtərəfli inkişaf prosesinin davamlılığını təmin edib. Dövlət dəstəyi ilə verilən güzəştli kreditlər hesabına vacib istehsal sahələrinin yaradılması, prioritet hesab olunan sahələrdə yeni infrastruktur şəraitinin qurulması, yerli tələbatın tamamilə yerli istehsal hesabına formalaşmasının əsas məqsəd kimi qarşıya qoyulması bu baxımdan önəmlidir.

Bu gün bazara yeni məhsulların çıxarılması, yerli xammala əsaslanan istehsalın dəstəklənməsi, daha çox sərmayə qoyuluşu tələb edən sahələrin dövlət hesabına maliyyələşdirilməsi də bu istiqamətdə atılan addımların tərkib hissəsidir. Naxçıvanda alternativ və bərpaolunan enerji mənbələri hesabına güclü enerji potensialının yaradılması Naxçıvan Muxtar Respublikanın enerji təhlükəsizliyinin təmin olunmasına xidmət etməklə bərabər, istehsal müəssisələrinin də fasiləsiz olaraq fəaliyyəti üçün əsaslı zəmin yaradır. Bundan başqa, yeni istehsal, emal və xidmət müəssisələrinin yurdumuzun hər yerində, qəsəbələrdə, dağ və sərhəd kəndlərində yaradılması məşğulluğu təmin edir, həmin yaşayış yerlərində məskunlaşmanı artırır (2).

Sevindirici haldır ki, Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlər xarici ticarət əlaqələrinin daha da genişləndirilməsinə imkan verir. Nüfuzlu xarici qonaqların Naxçıvanın mövcud, iqtisadi potensialı ilə tanış olmaları üçün şəraitin yaradılması, ölkə və dünya səviyyəli sərgilərdə, yarmarkalarda Naxçıvan Muxtar Respublika sahibkarlarının iştirakının təmin edilməsi, Naxçıvan

məhsullarının xarici bazara çıxarılması məqsədilə lazımi tədbirlərin həyata keçirilməsi onların ixrac imkanlarını daha da artırır. Eyni zamanda Naxçıvan Muxtar Respublikamızda yol infrastrukturu şəbəkəsinin genişləndirilməsi və magistral yolların buraxılış qabiliyyətinin gücləndirilməsi də iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir. Dəmir yolu və hava nəqliyyatı xətlərinin dünya standartları səviyyəsində yenidən qurulması, Naxçıvan Beynəlxalq Hava Limanının xarici ölkələrlə hava yolu əlaqələrinin mövcudluğu da Naxçıvan Muxtar Respublikanın dünya iqtisadiyyatına inteqrasiyasının daha da sürətlənməsinə stimul verir.

Naxçıvan Muxtar Respublikamızda iqtisadiyyatın şaxələndirilməsi və rəqabətqabiliyyətli müəssisələrin yaradılması regionun ixrac imkanlarını da artıraraq dünya bazarına çıxa bilən məhsul istehsalına təkan verib. Belə ki, aparılan fəal xarici ticarət əlaqələri nəticəsində 2017-ci ilin yanvar-aprel aylarında Naxçıvan Muxtar Respublikada 102 milyon 673 min 800 ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın həcmi son bir il ərzində 1,2 faiz artaraq 97 milyon 921 min 400 ABŞ dolları, idxalın həcmi 59,6 faiz azalaraq 4 milyon 752 min 400 ABŞ dolları təşkil edib (3).

Naxçıvan Muxtar Respublikasının ixrac potensialının artmasında müasir texnologiyaya əsaslanan müəssisələrdə, əsasən, yerli xammaldan istifadə olunması ilə yüksəkkeyfiyyətli məhsul istehsalı mühüm rol oynayır. Naxçıvanın əsas ixrac məhsulları arasında tanınmış brend kimi ölkəmizi xarici bazarlarda tanıdan “Badamlı” və “Sirab” mineral sularını, yüksəkkeyfiyyətli tikinti materiallarını, ekoloji cəhətdən təmiz təbii duzu, emal olunmuş ət məhsullarını, spirtli və qazlı aromatlaşdırılmış içkiləri, vafli məmulatlarını, təzə meyvə və meyvə şirələrini göstərmək olar. Naxçıvanlı sahibkarların xarici bazarlara çıxışının təmin edilməsində Naxçıvan Muxtar Respublikada fəaliyyət göstərən şirkətlərə ixrac təşviqlərinin verilməsi, ixrac üçün onlara dəstək göstərilməsinin də mühüm rolu olub. Ayrıca yay turizm mövsümünün başlanması ilə beynəlxalq turizmin gəlmə tipi üzrə müşahidə olunan canlanma da Naxçıvanın ixrac potensialının artmasına şərait yaradıb.

Ötən dörd ay ərzində xarici ticarət əməliyyatları nəticəsində əldə olunmuş 93 milyon 169 min ABŞ dolları həcmində müsbət saldo isə onu deməyə əsas verir ki, Naxçıvan Muxtar Respublika iqtisadiyyatı ölkəmizin valyuta ehtiyatlarının artmasında və iqtisadi təhlükəsizliyimizin təmin olunmasında mühüm paya malikdir.

Bu gün iqtisadiyyatımız yüksəliş yolundadır. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyası ardıcıllıqla davam etdirilir (4). Müəyyən olunmuş inkişaf istiqamətləri üzrə iqtisadiyyatın şaxələndirilməsi isə müasir dövrün tələbidir. Bu istiqamətdə Naxçıvan Muxtar Respublikamızda davam etdirilən iqtisadi inkişaf siyasəti insanların rifahının yüksəlməsinə, əhalinin yaşayış səviyyəsinin daha da yaxşılaşmasına töhfəsini verməklə bərabər, prioritet məsələlərin həllində də öz əhəmiyyətini bir daha göstərməkdədir.

## ƏDƏBİYYAT


1. İntibahin 15 ili. Naxçıvan, Əcəmi, 2010, 279 s.
2. Hüseynov T.H. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika, Bakı, Elm, 2015, 466 s.
3. Naxçıvan Naxçıvan MR Dövlət Statistika Komitəsinin rəsmi saytı:www.statistika.nmr.az
4. Novruzov V.T. İnkişaf və tərəqqinin Heydər Əliyev modeli, Bakı, Elm, 2004, 288 səh.


## ABSTRACT


**Abdulhuseyn Zamanov**

**EXPORT ORIENTED PRODUCTION AS A WAY OF DIVERSIFICATION OF ECONOMY**

In this article was discussed the importance of implementation of diversification of economy for realization of socio-economic development of regions, the attraction of their potential into production turnover and getting sustainable and balanced development of region economy. Also, in this scientific article was reviewed the importance of realization export oriented economy as a way of diversifation of economy and the achievements in this direction.


## РЕЗЮМЕ


**Абдулгусейн Заманов**

**ОРИЕНТИРОВАННОЕ НА ЭКСПОРТ ПРОИЗВОДСТВО КАК ОДНО ИЗ НАПРАВЛЕНИЙ ДИВЕРСИФИКАЦИИ ЭКОНОМИКИ**

В статье говорится о важности осуществления политики диверсификации экономики с целью обеспечения социально-экономического развития регионов, привлечения их имеющийся потенциал k производственному обороту, достижения длительного и сбалансированного развития экономики регионов.В научной статье подчерkивается важность продукции ориентированной на экспорт, а таkже достижений в этом направлении, kak одного из основных шагов и главных путей в диверсификации экономики.

**ELMAN CƏFƏRLİ**
*Naxçıvan Dövlət Universiteti*
*ecaferli@mail.ru*

# NAXÇIVANIN MUXTARİYYƏT STATUSU VƏ AZƏRBAYCANIN UNİTAR DÖVLƏTÇİLİK PRİNSİPİ

**Açar sözlər:** *unitar dövlət, siyasi muxtariyyət, Naxçıvan Muxtar Respublikası, konstitusiya, separatizm*

**Keywords:** *unitary state, political autonomy, Nakhchivan Autonomous Republic, constitution, separatism*

**Ключевые слова:** *унитарное государство, политическая автономия, Нахчыванская Автономная Республика, конституция, сепаратизм*

Naxçıvanın Naxçıvan Muxtar Respublikası unitar quruluşa malik Azərbaycan Respublikasının tərkibində siyasi muxtariyyətdir. Muxtariyyətin yaranmasının beynəlxalq təcrübədən unikal fərqi ondan ibarətdir ki, Naxçıvanın hüquqi statusu qətiyyən etnik - milli amillə bağlı deyil. Onun yaranmasının əsas səbəbi 1918-1920-ci illərdə Azərbaycanın tarixi vilayəti olan Zəngəzurun ermənilər tərəfindən işğalı olmuşdur. Məhz bu işğal nəticəsində Naxçıvan ölkənin əsas ərazisindən coğrafi cəhətdən aralı düşdü. 1921-ci ilin yanvarında Naxçıvanda keçirilən plebissitdə əhalinin 90%-dən çoxu bölgənin Azərbaycanın tərkibində qalmasına səs verdi. Türkiyə ilə sovet Rusiyası arasında bağlanan Moskva (1921, 16 mart) və bir tərəfdən Türkiyə və digər tərəfdən Azərbaycan, Gürcüstan və Ermənistan tərəfindən (Rusiyanın iştirakı ilə) imzalanmış Qars müqavilələri (1921, 13 oktyabr) ilə Naxçıvana Azərbaycanın tərkibində siyasi muxtariyyət statusu verildi. Həmin müqavilələrin tarixi əhəmiyyətindən bəhs edən ümummilli lider Heydər Əliyev deyirdi: “Naxçıvan Muxtar Respublikadır. Azərbaycanın tərkibindədir. Bu, beynəlxalq müqavilələr nəticəsində yaranmış statusdur, onu heç kəs dəyişdirə bilməz” [3, s. 830].

1990-1993-cü illərdə böyük dövlət xadimi Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsinin başlıca nəticələri Naxçıvanın erməni təcavüzündən qorunmasında, Naxçıvanın muxtariyyət statusunun aktuallaşması və möhkəmləndirilməsində (hansi ki, bu amil Naxçıvanın Azərbaycanın tərkib hissəsi olaraq ərazi bütövlüyünün qorunub saxlanılmasında həlledici olmuşdur) və müstəqil Azərbaycan dövlətçiliyi atributlarının bərpasında və istiqlal hərəkatının son məqsədə doğru motivasiyasının yaradılmasında özünü göstərir. Həmin illərdə ölkədə hakimiyyətdə olmuş partnomenklatura və psevdodemokratiya nümayəndələri ən yüksək hakimiyyət təmsilçiləri səviyyəsində Naxçıvanın məhz Azərbaycanın ərazi bütövlüyünə xidmət edən hüquqi statusunun ləğvinə çalışırdılar. Hətta 1992-ci ilin noyabrında keçirilən AXC-nin II qurultayında Naxçıvanın statusunun ləğvi ilə bağlı ölkə rəhbərliyi qarşısında məsuliyyətsiz çıxışlar edilmiş və həmin məsələ qurultayın qətnaməsinə salınmışdı. O zaman olduğu kimi, indi də yanlış elmi biliklər ucbatından Naxçıvanın muxtariyyət statusunun Azərbaycan dövlətinin unitarizminə təhlükə və ziddiyyət təşkil etdiyi barədə fikirlər səslənməkdədir.

Belə ki, hazırda BMT-nin üzvü olan 193 dövlətdən 25-i federativ, 168-i isə unitar dövlətlərdir [12]. Bu unitar dövlətlərdən 22-sinin tərkibində muxtariyyətlər mövcuddur. Məsələn; Finlandiyada Aland adaları, Danimarkada Qrenlandiya və Farer adaları, Portuqaliyada Madeyra arxipelaqı və Azor adaları, İspaniyada 17 muxtariyyət, İtaliyada Cənubi Tirol və əlavə 4 muxtariyyət, Belçikada Flandriya və alman dilli icma, Serbiyada Voyevodina, Fransada Yeni Kaledoniya, Fransız Polineziyası, Korsika, Çində beş iri regional muxtariyyət və ümumilikdə yüzdən artıq milli muxtariyyət, İraqda Kürd Muxtariyyəti, Moldovada Qaqauziya, Gürcüstanda Acarıstan, Özbəkistanda Qaraqalpaqstan Respublikası və s. Bu muxtariyyətlərin böyük əksəriyyəti məhz milli-etnik prinsipə əsaslanır və həmin siyasi muxtariyyətlərin, demək olar ki, hamısında (postsovet ölkələrinin mövcud muxtariyyətləri istisna olmaqla) separatizm meyilləri ilbəil daha da güclənir, əlavə səlahiyyətlər və ya müstəqilliyə nail olmaq uğrunda siyasi hərəkatlar və partiyalar yaranaraq geniş fəaliyyət göstərirlər. Lakin, qeyd edilən unitar dövlətlərdə mərkəzi hakimiyyətin muxtariyyətlərin ləğvinə çalışması cəhdləri müşahidə olunmur və ölkə ictimaiyyətinin müvafiq çağırışları yox dərəcəsindədir. Başqa sözlə, belə dövlətlər öz siyasi muxtariyyətlərinə münasibətdə dözümlülük nümayiş etdirirlər.

Lakin, bu gün siyasi - hüquqi statusu birbaşa onun eksklav coğrafi vəziyyəti ilə bağlı olan Naxçıvan muxtariyyətində milli-etnik amil (etnik, din, dil, mədəniyyət, siyasi həyat, tarix və iqtisadiyyat baxımından Naxçıvan tarixən həmişə Azərbaycanla bağlı olmuşdur) tamamilə istisna olduğu halda, bəzən təəccüblə

qarşılanacaq şəkildə guya hansısa "separatizm" elementlərinin yarana biləcəyi barədə, az da olsa, əsassız iddialar səsləndirilir. Naxçıvanın muxtariyyət statusunun güya Azərbaycan dövlətçiliyinin unitarizmi prinsipinə ziddiyyət təşkil etdiyi bəzən hətta heç bir elmi-siyasi və tarixi əsasa dayanmadan, heç bir konkret fakta istinad etmədən təkidlə təkrarlanır. Belə mövqelərin sonunda isə, adətən, Naxçıvanın muxtariyyət statusunun ləğvi barədə korafəhm fikirlər irəli sürülür. Danışılan sözün, səhvən edilən ciddi təklifin, elmi-siyasi istinadı olmadan ortaya qoyulan mövqeyin məsuliyyətini daşımaq isə bu mövqedə olanları maraqlandırmır.

Əksinə, hətta bir qədər də irəli gedilərək, Moskva və Qars müqavilələrinin ləğvi də istənilir. Bu müqavilələrin Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasındakı vacib rolu bir tərəfə, axı heç beynəlxalq hüquq da həmin müqavilələrdən imtinanın birtərəfli həllini mümkün saymır. Belə ki, beynəlxalq müqavilələrin hüququ barədə 1969-cu il Vyana konvensiyasının 26-cı maddəsində "qüvvədə olan hər bir müqavilənin onun iştirakçıları üçün məcburi və onlar tərəfindən vicdanla yerinə yetirilməli" olduğu qeyd olunur. Tərəflər müqavilədə təsbit olunmuş şərtlərin yerinə yetirilməməsinə daxili çətinlikləri bəhanə edərək haqq qazandıra bilməzlər. Beynəlxalq hüquqa dair 1970-ci il Deklarasiyası və beynəlxalq müqavilələrə riayət edilməsi prinsipinin ("pacta sund servanda") təsbit olunduğu 1975-ci il Helsinki Yekun Aktı da Moskva və Qars müqavilələrinin icra olunmasının hüquqi bazasını təşkil edir [2, s. 137].

Dəfələrlə antiazərbaycan dairələr həmin müqavilələrin ləğvi ilə bağlı iddialar səsləndirmişlər və bu iddiaların reallaşması həmin qüvvələr üçün bu gün də aktualdır. Ən son 2016-cı ilin aprel döyüşlərindən sonra Rusiyada bəzi ermənipərəst və bu ölkənin ictimai-siyasi elitasında kifayət qədər mövqeyi olan dairələrin cidd-cəhdlə Moskva və Qars müqavilələrin ləğvi ilə bağlı apardığı geniş kampaniya aparırdılar.

Naxçıvanın muxtariyyət statusunun təmin edilməsində 1921-ci il Moskva və Qars müqavilələrinin həyati əhəmiyyətini əsaslandıran Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev deyirdi: "Naxçıvanın muxtariyyəti mühüm hadisədir. Bu, çətin bir dövrdə, böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə, Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir. Belə ağır şəraitdə Naxçıvanın yaşamasının, inkişaf etməsinin əsas şərtlərindən biri də odur ki, Naxçıvana o vaxt muxtariyyət hüququ veriblər. Bu muxtariyyət hüququ bu çətin vəziyyətdə yaşamaqda, inkişaf etməkdə Naxçıvana böyük şərait yaradıbdır. Amma Naxçıvanın bundan sonra da buna ehtiyacı vardır, müstəqil Azərbaycan dövlətinin içində buna ehtiyacı vardır" [2, s. 137-138].

Adətən, Naxçıvanla bağlı iddiaların "faktoloji əsası" ya Naxçıvan Muxtar Respublikası rəhbərinin "Ali vəzifəli şəxs" institutunda təmsil olunması, ya da muxtariyyətdə hansısa mərkəzi icra hakimiyyəti orqanının mövcudluğu ilə bağlı olur. Tamamilə səhv müqayisələr aparılır, hətta guya "Ali vəzifəli şəxs" institutunun yalnız Naxçıvan muxtariyyətinə xas olduğu vurğulanır. Halbuki dünya təcrübəsində müvafiq institutun və ya analoji statusun müxtəlif siyasi muxtariyyətlərin rəhbərinə şamil olunması ilə bağlı çoxsaylı faktlar vardır.

Məsələn; Rusiya Federasiya Konstitusiyasına (maddə 65) görə, bu ölkənin tərkibindəki milli qurumlar rəsmi olaraq "respublika" adlandırılır və "muxtar" sözü işlədilmir [11]. İkincisi, ölkə Konstitusiyasında həmin respublikaların başçılarının necə adlandırılmasına dair müddəa yoxdur və bu, müvafiq respublikanın öz konstitusiyası ilə müəyyənləşdirilir. Məsələn; Başqırdıstan Respublikasının Konstitusiyasına görə, bu respublika RF tərkibində demokratik, hüquqi, dünyəvi dövlətdir (maddə 1, 13; "muxtar" sözü işlədilmir) və "Başqırdıstan Respublikasının Prezidenti Başqırdıstan Respublikasının ali vəzifəli şəxsidir..." (maddə 82) [9]. Eynilə, Tatarıstan Respublikasının Konstitusiyasına görə, respublika RF tərkibində demokratik, hüquqi, dünyəvi dövlətdir (maddə 1, 11; "muxtar" sözü işlədilmir) və "Tatarıstan Respublikasının Prezidenti dövlətin başçısı, Tatarıstan Respublikasının ali vəzifəli şəxsidir" (maddə 89). İlk maddədə Tatarıstanın, özünü tam dövlət hakimiyyətinə malik olmaqda ifadə olunan suverenliyə (məhdud suverenlik olsa belə) sahib olduğu da vurğulanır [6, s. 239, 241, 260]. Daha bir federasiya üzvü – Adıgey Respublikasının Konstitusiyasında onun demokratik, hüquqi, dünyəvi dövlət olduğu bildirilir (maddə 1, 14). "Adıgey Respublikasının başçısı Adıgey Respublikasının ali vəzifəli şəxsidir (Adıgey Respublikasında dövlət hakimiyyətinin ali icraedici orqanının rəhbəridir)" (maddə 74) [8]. Rusiyanın siyasi muxtariyyət olan respublikaları federasiya subyekti statusundan daha üstün statusdadırlar və formal olaraq Rusiya ilə ittifaq müqavilələri ilə birləşmişlər. Federasiya subyektlərini isə mərkəzdən təyin edilmiş vəzifəli şəxs olan "qubernator"lar idarə edirlər.

"Qaqauz Yerinin hüquqi statusu haqqında Qanun"a (maddə 14) görə, Qaqauz Yerinin bütün dövlət idarəetmə orqanları Qaqauz yerinin ali vəzifəli şəxsinə - 4 il müddətinə seçilən Başkana tabedir [7]. Özbəkistanın Qaraqalpaqstan Respublikasının Konstitusiyasına (maddə 80) görə, Qaraqalpaqstan Jokarqı Kenesinin Sədri - Qaraqalpaqstan Respublikasının ali vəzifəli şəxsidir [10].

Zənnimizcə, gətirilən bu nümunələr kifayət edir ki, Naxçıvan Muxtar Respublikasında Konstitusiya səviyyəsində Ali vəzifəli şəxsin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olmasının tamamilə qanuna və beynəlxalq təcrübəyə uyğun olduğu aydın olsun.

Daha bir əsassız iddiaya görə, Naxçıvan Muxtar Respublikada effektiv idarəçiliyi həyata keçirmək üçün yaradılmış hansısa mərkəzi icra hakimiyyəti orqanlarının mövcudluğu güya Azərbaycanda dövlət unitarizmini pozur. Bu, ölkə parlamentində 1998-ci ildə iki dəfə (iyun və dekabr aylarında) təsdiqlənmiş muxtariyyətin Konstitusiyası (5-ci maddənin 2-ci və 6-cı bəndləri) ilə Naxçıvan Muxtar Respublikasına tanınmış hüquqdur. Ayrıca, Naxçıvan muxtariyyətinin Konstitusiyası birbaşa özünün hüquqi-siyasi statusunun, hakimiyyət bölgüsünün və səlahiyyətlərinin aydın şəkildə göstərildiyi Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasında (VIII fəsil) [1, s. 54-57] təsbit olunmuşdur. Başqa sözlə, iddiaların əksinə olaraq, Naxçıvanın ayrıca ordusu yoxdur, Azərbaycan Respublikası Silahlı Qüvvvələrinin tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublika ərazisində dislokasiya olunan və operativ hərbi əməliyyatarın keçirilməsi amalına xidmət edən Əlahiddə Ümumqoşun Ordusu vardır. Digər mərkəzi icra hakimiyyəti orqanları (Gömrük Komitəsi, Miqrasiya Xidməti və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti) isə coğrafi baxımdan ölkəmizin əsas hissəsindən ayrı düşmüş, 3 xarici dövlətin əhatəsində olan Naxçıvanda icra hakimiyyətinin daha effektiv, çevik və optimal təşkilini təmin edir və qanunvericiliyə tamamilə əməl edilməklə yaradılmışdır.

Cəmi 50 maddəlik Naxçıvan Muxtar Respublikasının Konstitusiyası [5] isə başdan - ayağa Azərbaycanın ərazi bütövlüyünü və vahid dövlətçiliyini möhkəmləndirən müddəalarla zəngindir. Elə Konstitusiya qəbul edilərkən ilk ülvi niyyət kimi "Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq" amalının bəyan edilməsi, şübhəsiz ki, Azərbaycan dövlətinin unitarlığının və ərazi bütövlüyünün qorunmasını muxtariyyətin də özünün ali qanunu - Konstitusiyası səviyyəsində möhkəmləndirmək məramına xidmət edir və onun qəbul edilməsindən ötən 20 ildən çox müddətdə bu amal real həyatda istisnasız olaraq həmişə öz təsdiqini tapmışdır. Konstitusiyanın ayrı - ayrı maddələrində Naxçıvan Muxtar Respublikasının səlahiyyətlərinə aid edilən məsələlərin həllində onun Azərbaycan Respublikasının ümumi mənafeləri ilə bağlı olmasının, Naxçıvan Muxtar Respublika ərazisinin Azərbaycan Respublikasının dövlət sərhədləri hüdudunda vahidliyinin, toxunulmazlığının və bölünməzliyinin, vahid vətəndaşlıq institutunun qorunması, Azərbaycan dövlətinin rəmzlərinin qeyd - şərtsiz muxtariyyətin dövlət rəmzləri kimi qəbul edilməsinin, muxtariyyətin baş nazirinin, məhkəmə və prokurorluq orqanlarının rəhbərlərinin, rayon (şəhər) icra hakimiyyəti başçılarının təyin edilməsində ölkənin ali hakimiyyət orqanlarının mövqeyinin qorunmasının, muxtariyyət ərazisində Azərbaycan Respublikası Konstitusiyasının və qanunvericilik aktlarının üstün hüquqi qüvvəsinin və s. təsbit olunması Naxçıvan Muxtar Respublikasının ən ali hüquqi səviyyədə Azərbaycan dövlətinin maraqlarından çıxış etdiyinin əsaslı təsdiqidir.

Hələ muxtariyyətin Konstitusiyasının qəbul edilməsi mərhələsində Naxçıvan Muxtar Respublikasının qanunvericilik təcrübəsinin Avropa qanunvericiliyinin qitədə yüksək səviyyədə qəbul olunan tərkib hissəsinə çevirilməsi Qanun vasitəsi ilə Demokratiya uğrunda Avropa Komissiyasının (Venesiya Komissiyası) muxtar dövlətin Əsas Qanunu barədə verdiyi rəydə də öz əksini qabarıq şəkildə tapmışdır. Həmin rəydə deyilirdi: "Naxçıvan Muxtar Respublikası digər Avropa muxtariyyətləri arasında geniş muxtariyyətə malikdir. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası bütövlükdə muxtariyyətin idarə edilməsi qaydalarını şərtləndirən normal əsaslar yaradır və qitənin digər muxtariyyətlərinin səlahiyyətlərinin və əsaslarının müəyyənləşdirilməsində model kimi çıxış edə bilər" [4, s. 60].

Bütün deyilənlər şübhə yeri qoymur ki, unitar Azərbaycan dövlətinin unikal xarakterik cəhəti olan Naxçıvan Muxtar Respublikası mövcud olduğu 95 il ərzində, istisnasız olaraq, həmişə ölkəmizin mənafelərin bilavasitə bağlı olmuşdur. Öz hüquqi statusunun əsasını tarixi və coğrafi amillərdən götürən Naxçıvan dünya təcrübəsində nadir rast gəlinən unikal eksklav muxtariyyətdir. Həmçinin, Azərbaycanın bu muxtar ərazisi mövcud olduğu müddət ərzində, dünyanın digər bütün siyasi muxtariyyətlərindən fərqli olaraq, bir an belə tək bircə separatizm faktının öz tarixinə düşməsinə imkan verməmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, Qanun, 2009, 68 s.
2. Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, türk, rus və fransız dillərində), Naxçıvan, 2004, 140 s.
3. Qayıdış (1990-1993), Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr, Bakı: Azərbaycan, 2008, 840 s.
4. Naxçıvan Muxtar Respublikası - 85, Naxçıvan, Əcəmi, 2009, 104 s.
5. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, Naxçıvan: 2018
6. Конституция Республики Татарстан. Данное издание подготовлено по решению Организационного комитета международной научно-практической конференции «Становление новой федеративной

России: опыт kонституционного заkонотворчества Республиkи Татарстан» посвященной 20-летию со дня принятия Kонституции Республиkи Татарстан (2-3 ноября 2012 года). Kазань: 2012, с. 235-273
7. Заkон об особом правовом статусе Гагаузии (Гагуз Ери)
http://www.gagauzia.md/pageview.php?l=ru&idc=389&nod=1&
8. Kонституция Республиkи Адыгея (с изменениями на 8 мая 2018 года)
http://docs.cntd.ru/document/804932122
1. Kонституция Республиkи Башkортостан (с изменениями на: 04.03.2014)
http://docs.cntd.ru/document/935100256
10. Kонституция Республиkи Kараkалпаkстан http://sovminrk.gov.uz/lang/ru/docs/rkconst/
11. Kонституция Российсkой Федерации http://www.constitution.ru/
12. United Nations member states http://www.un.org/en/member-states/

**ABSTRACT**

**Elman Jafarli**

**AUTONOMY STATUS OF NAKHCHIVAN AND THE PRINCIPLE OF UNITARISM OF THE STATE OF AZERBAIJAN**

Of the 193 UN member states, 25 are federal, and 168 are unitary. More than 20 of these unitary states enjoy political autonomy. The Nakhchivan Autonomous Republic of Azerbaijan Republic is one of the unique autonomies that are not associated with ethnic-national identity. Nakhchivan is also distinguished by its exceptional geographical position, being an exclave territory. Despite the widespread tendencies of separatism in autonomies in world practice, separatism has never been in the Nakhchivan autonomy.

**РЕЗЮМЕ**

**Эльман Джафарли**

**СТАТУС АВТОНОМИИ НАЧЫВАНА И ПРИНЦИП УНИТАРИЗМА ГОСУДАРСТВЕННОСТИ АЗЕРБАЙДЖАНА**

Из 193 государств-членов ООН 25 являются федеративными, а 168 - унитарными. Более 20 из этих унитарных государств обладают политичесkой автономией. Нахчывансkая Автономная Азербайджансkой Республиkи является одной из униkальных автономий, не связанных с этничесkо-национальной принадлежностью. Нахчыван таkже отличается своим исkлючительным географичесkим положением, являясь эkсkлавной территорией. Несмотря на широkо распространенные тенденции сепаратизма в автономиях в мировой праkтиkе, в Нахчывансkой автономии сепаратизма ниkогда не был.

**YAŞAR RƏHİMOV**
*AMEA Naxçıvan Bölməsi*
*yaarrahimov@yahoo.com.tr*

# MUXTARİYYƏT ƏRƏFƏSİNDƏ NAXÇIVANDA SOSİAL-İQTİSADİ VƏZİYYƏT (1914-1922-CI İLLƏR)

**Açar sözlər:** *ərəfədə, daxili, aqressiyalı erməni, sosial və iqtisadi, qaçqın*
**Key words:** *on the eve (of), aqression armenian, social and economic, refugee*
**Ключевые слова:** *накануне, внутренний, армянское изнасилование, социально-экономической, беженец*

Azərbaycan tarixşünaslığında yeni istiqamət alan Naxçıvan tarixinin öyrənilməsi tarix elmi qarşısında duran mühüm problemlərdəndir. Sovet hakimiyyəti dövründə ölkənin ictimai-siyasi, iqtisadi, mədəni həyatı bir mərkəzdən istiqamətləndirildiyindən Sovet Respublikalarının, o cümlədən həmin respublikalara daxil olan muxtar qurumların tarixinin öyrənilməsi eyniləşdirilmişdir (5, s. 157). Bu yazımızda əlimizdə olan mövcud arxiv materiallarından, tarixi ədəbiyyatlardan yararlanaraq, mənbələrdəki məlumatlara əsaslanıb, muxtariyyət ərəfəsində Naxçıvan MR-nin sosial-iqtisadi vəziyyətinin araşdırılmasına çalışacağıq.

İlk öncə qeyd edək ki, Naxçıvan MSSR-nin yaranmasınadək, Azərbaycanın digər bölgələrindən fərqli olaraq bu regionda əsasən erməni riyakarlığı və xəyanətkarlığı nəticəsində sosial-iqtisadi vəziyyət çox bərbad halda idi. Buna baxmayaraq, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin 1931-ci ilin yanvarında keçirilən III sessiyasında göstərildiyi kimi, istər Zaqafqaziya, istərsə də Azərbaycanın hakimiyyət orqanları Naxçıvan MSSR-nin xalq təsərrüfatına son illərədək nisbətən az diqqət yetirmişlər (19, s. 22). Başqa sözlə, həmin illərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana çox ögey münasibət olmuşdur. Bu biganəliyin nəticəsində sərhəd bölgəsi olan Naxçıvan diyarında çox faciəvi və təhlükəli bir vəziyyət yaranmışdı. Naxçıvan MSSR-də yaranmış vəziyyəti araşdırmaq üçün 1925-ci il mart ayının sonlarında Naxçıvana göndərilmiş fövqəladə səlahiyyətlərə malik olan Xüsusi hökumət komissiyasının üzvlərindən biri, Azərbaycan Fəhlə-Kəndli Müfəttişliyi Xalq komissarının müavini İ.Dövlətovun təbirincə deyilsə, "diyara təcili kömək lazımdır, əks təqdirdə o, Zaqafqaziyanın bədənində daim sızlayan yara olaraq qalacaqdır" (4, s. 429).

Muxtariyyat ərəfəsində Naxçıvan bölgəsinin Sovet hakimiyyətinin maddi-texniki yardımına böyük ehtiyacı hiss edilirdi. Vətəndaş müharibəsi illərində viran edilən, vəhşi daşnaklar tərəfindən xarabalığa çevrilən Naxçıvan Sovet Azərbaycanının hakimiyyət orqanları tərəfindən aclıq dövründə belə tamamilə unudulmuşdu. Lakin, regiona lazımi səviyyədə qayğı göstərilmədiyindən burada sənayenin inkişafı xeyli geri qalırdı. Bu gerilin aradan qaldırılması üçün Naxçıvana göstərilən maddi-texniki yardım lazımi səviyyədə olmamışdır. Odur ki, respublika xalq təsərrüfatının bərpası əsasən 1924/25-ci ildə, Naxçıvanda isə yalnız 1926/27-ci ildə başa çatdırılmışdır (6, s. 21).

Əsil həqiqətdə bu illərdə Naxçıvan SSR-nin Azərbaycanın ümumi ərazisindən təcrid olunması ilə əlaqədar onun Mərkəzlə və eləcə də digər regionlarla birbaşa əlaqəsinin olmaması, həmçinin daxili yolların bərbad vəziyyətdə olması və s. səbəblər bölgənin sosial-iqtisadi vəziyyətinə mənfi təsir edirdi. AMEA Tarix İnstitutunun əməkdaşı A.Məmmədov "Sovet Azərbaycanın sənayeləşdirmə planında Naxçıvan MSSR-nin yeri (1920-1940-cı illər)" adlı məqaləsində bu cəhətləri xüsusi vurğulayaraq, onu bölgənin iqtisadiyyatının inkişafını ləngidən əsas amillərdən biri hesab edirdi (5, s. 158). Xüsusilə 1914-1923-cü illərdə Naxçıvan Muxtar Respublikanın daxili imkanlarından və ehtiyat mənbələrindən səmərəsiz, qeyri-düzgün istifadə olunması bölgənin sosial-iqtisadi vəziyyətinə mənfi təsir göstərmişdir. Erməni ekstremistləri və millətçilərinin avantürasından sonra dağılan diyarda əhali tamamilə əldən düşmüşdür. Bütün sənaye, mədəniyyət və tikililər məhv edilmiş, kənd təsərrüfatı indiyədək həll olunmamış su məsələsi, işlək heyvanların və kənd təsərrüfatı invertarlarının yoxluğu üzündən tamamilə öz əhəmiyyətini itirmişdir (4, s. 429).

Ara verməyən erməni təcavüzləri və daşnak fitnəkarlıqları nəticəsində əhali doğma yurdundan baş götürüb qaçmağa məcbur olmuşdu. Şəhər dağıdılmış, kəndlər isə xarabazarlığa çevrilmişdi. Fövqəladə komissar kimi Naxçıvana gəlmiş B.Vəlibəyov Naxçıvanın 1920-ci ildəki vəziyyətini belə təsəvvür edirdi: "Aclıq içərisində can çəkişən Naxçıvan ölgün bir dənizə, bir qəbiristana bənzəyirdi. Qar ilə örtülmüş yollarda addımbaşı qaçqınların, soyuqdan donmuş insanların meyitlərinə rast gəlmək olurdu" (16, s.70-71).

Xüsusi hökumət komissiyasının Naxçıvan SSR XKS-in maddi-material hissəsi üzrə gəldiyi nəticəyə görə, "1921-ci ildən 1925-ci ilə qədər olan dövr ərzində Naxçıvan Diyarı üçün buraxılmış materialların miqdarını dəqiq müəyyənləşdirmək üçün Azərbaycan SSR-in XKS və MİK-də mövcud olan bütün məlumatları və sənədləri bir yerə toplamaq, əldə edilən materiallar əsasında Naxçıvan XKS-nin bütün təsər-

rüfat–mineral sənədlərini ən detallı şəkildə təftiş etmək lazımdır, çünki materialların miqdarını buraxıldıqları yerdə, yəni Bakıda müəyyən etmədən 1921 və 1922-ci illər, həmçinin 1923-cü ilin bir hissəsi üçün mədaxil və məxarici müəyyənləşdirmək mümkün deyildir" (4, s. 268-269).

Muxtariyyət ərəfəsində Naxçıvanın kənd təsərrüfatı böhran keçirirdi. Çar hökuməti azərbaycanlıları orduya çağırmadığından əhali işçi qüvvəsi kimi başqa işlərə cəlb olunurdu. 1915-ci il iyun ayının 15-də çar hökumətinin verdiyi fərmana görə 23 yaşına qədər olan gənclər müharibə ilə əlaqədar olan işlərə səfərbərliyə alınırdı. Bunun nəticəsində Naxçıvanın da ən çox əmək qabiliyyətli kənd əhalisinin müəyyən hissəsi təsərrüfatdan ayrılaraq arxa işlərinə cəlb olunurdu. Bu isə kənd təsərrüfatında ciddi şəkildə işçi qüvvəsi çatışmazlığı yaradırdı. Çar hökuməti tərəfindən 1916-cı ildə qoyulmuş xüsusi hərbi vergi də kənd təsərrüfatını iflasa uğradırdı.

Mənbə və sənədlərdə Sovet hakimiyyətinin qələbəsinə qədər ümumi torpaq sahəsi 508.208 desyatinə (desyatin=1,0925 ha) bərabər olan Naxçıvanda torpaqların milliləşdirilməsi barədə məlumatlar verilir. Belə ki, Naxçıvan İnqilab Komitəsi 1921-ci ilin noyabrından Naxçıvanda mülkədar, xan, bəy və xəzinə torpaqlarının müsadirə edilib zəhmətkeş kəndlilərə paylanması haqqında dekret vermişdi. Həmin dekretə əsasən iri torpaq sahiblərindən Kəngərlinskilərin 59.117, Xan Naxçıvanskilərin 38.507, Kərbəlayı Əlixnovun 28.618 desyatin, Səfiyevlərin 5.543 desyatin, Sultanovların 2.521 desyatin, Şahingərayın 2.500 desyatin, Tərxanovun 1.515 desyatin, Yelizarovların 1.105 desyatin və b. torpaq sahələri müsadirə edilib milliləşdirilmişdi (16, s.71-72). Qeyd etmək yerinə düşər ki, bu zaman qaçqınlar probleminə qərəzli yanaşılması torpaq məsələsi ilə bağlı ciddi çətinliklər yaradırdı. 1922-ci il iyulun 9-da Naxçıvan SSR və Ermənistana aid olan qaçqınlar məsələsi ZSFSRİ-nin İttifaq Sovetində müzakirə edildi. Əgər qaçqınlar məsələsi Zaqafqaziya miqyasında həllini tapsaydı, o zaman Naxçıvanda torpaq islahatlarının həyata keçirilməsi asanlaşardı. Lakin, təəssüf ki, Zaqafqaziya İttifaq Sovetinin 1922-ci il 12 iyun tarixli qərarı Ermənistandan olan 28 min nəfər azərbaycanlı qaçqının Naxçıvanda saxlamasını qanuniləşdirməklə bu məsələdə açıqca qərəzli mövqe tuturdu (16, s.67).

Tarixi mənbələrin və arxiv materiallarının tədqiqindən aydın olur ki, muxtariyyət ərəfəsində bölgənin təsərrüfatı çoxsahəli və rəngarəng olmuşdur. Naxçıvan əhalisi hələ qədim zamanlardan pambıqçılıqla məşğul olurdu. Əlverişli iqlim şəraiti Cənubi Qafqazın digər ərazilərinə nisbətən Naxçıvan bölgəsində, o cümlədən Şərur-Dərələyəzdə yüksək məhsuldarlığa səbəb olurdu. Mənbədə bildirilir ki, 1914-cü ildə Naxçıvan bölgəsində 12,5 min desyatin (desyatin=1,0925 ha) ərazidə pambıq əkilmişdi ki, onun da 10 min desyatini Şərur regionunun payına düşürdü (17, s. 213). 1915-1917-ci illərdə Naxçıvanın pambıqçılıq təsərrüfatlarında əmtəə-pul münasibətləri üstünlük təşkil edirdi. Ümumiyyətlə, muxtariyyət ərəfəsində Şərurun bütün düzənlik kəndlərinin iqtisadiyyatı pambıq maraqları ətrafında fırlanırdı. Burada Başnoraşen, Ulya-Noraşen, Yengicə və Xanlıqlar kənd cəmiyyətləri xüsusilə fərqlənirdi. Bir rus mənbəsində pambıq üzrə bir sıra kredit və borc əmanət birlikləri yaradıldığı qeyd olunur. Xanlıqlar borc əmanət birliyi üzvlərinin tapşırığı ilə girov qoyulmuş 15.000 pud təmizlənmiş pambığın pudunu yerli qiymətlərdən 50 qəpik baha satmışdı. Bundan başqa, qonşu Ulya-Noraşen birliyi də üzvlərinin tapşırığı ilə 100.000 pud təmizlənmiş pambıq satmışdı (17, s. 213). Müxtəlif amillər bölgədə pambıqçılığın inkişafına mane olur və əngəl törədirdi. Pambıqçılığın rastlaşdığı çətinliklərdən ən böyüyü hər il xeyli pambıq əkini sahəsini məhv edən çəyirtkə idi. Pambıqçılığa əngəl törədən amillərdən biri də Azərbaycanda geniş yayılmış möhtəkirlik idi (1, s. 42-43).

Muxtariyyət ərəfəsində Şərurda 11 kənd cəmiyyətini özündə birləşdirən 4 kredit müəssisəsi fəaliyyət göstərirdi. Azərbaycanın digər rayonlarından fərqli olaraq, bölgədə pambıq əkini kustar və yarımkustar xarakterini saxlayırdı. Əvvəlki illərlə müqayisədə Şərur-Dərələyəz və Naxçıvan qəzalarına xidmət edən Naxçıvan və Noraşen (Şərur) stansiyalarından yola salınan pambığın miqdarı beş il ərzində (ehtimal ki, muxtariyyət ərəfəsi nəzərdə tutulur-Y.R.) 3, 9 dəfə artmışdı (3, s. 148). 1922-ci ildən başlayaraq Naxçıvanda pambıqçılığı inkişaf etdirmək məqsədilə pambıq əkən kəndlilərin əksəriyyəti kənd təsərrüfatı vergilərindən azad edilsə də, bu tədbir kəndlilərin iqtisadi vəziyyətinin yaxşılaşmasına kömək etməmişdir.

Bu illərdə, xüsusən 1914-1922-ci illərdə Naxçıvan bölgəsində üzümçülük və bağçılıq da bölgənin gəlirli təsərrüfat sahələri idi. Əlverişli iqlim şəraitinin olmasına görə burada qiymətli və məhsuldar üzüm növləri yetişdirilirdi. Dövrün statistik məlumatlarına görə Naxçıvan qəzasında 1000 desyatin, Şərur-Dərələyəzdə isə 450 desyatinə yaxın ərazidə üzüm bağları becərilirdi. Naxçıvan qəzasında 2875 nəfər, Şərur-Dərələyəzdə isə 1700 nəfər üzüm məhsulunun becərilməsi və yetişdirilməsi ilə məşğul olurdu. 1914-cü ildə Naxçıvanda üzüm və meyvə emalı ilə məşğul olan 130 zavod var idi ki, bu zavodların pul dövriyyəsi 49.000 rubl (manat), orada çalışan işçilərin sayı 390 nəfər olmuşdur.

Naxçıvan bağbanlarının becərdiyi bağlarda şaftalı, ərik, gilas, nar, alma, tut, heyva və b. meyvələr var idi. Xüsusilə Ordubad şaftalısı öz keyfiyyətinə görə bölgə hüdudlarından kənarda şöhrət qazanmışdır. 1915-1916-cı illərdə Naxçıvanda 800 desyatin (desyatin 1,0925 ha-ya bərabər rus ölçü vahididir), Şərur-Dərələyəzdə 200 desyatin ərazidə meyvə bağları becərilirdi (7, v. 18).

Bu illərdə bölgədə çəltik əkin sahələri genişləndirilmişdir. 1916-1917-ci illərin statistikasına görə Şərur-Dərələyəzin 65 kəndində çəltik əkilirdi (7, v. 15). Burada Daşarx, Xanlıqlar və Əgcey Ban kəndləri istisnalıq təşkil edirdi.

Naxçıvan bölgəsində çəltik Hüseynbəy-Dizə, Mirzəhəsən-Dizə, Kələntər-Dizə, Yarımca və b. kəndlərdə əkilirdi. Düyünün bir hissəsi qonşu qəzalara, digər bir hissəsi isə kontrabanda olaraq (Araz çayı

vasitəsilə) İrana və Türkiyəyə göndərilirdi (7, v. 15). Bölgədə Şərur çəltikçiləri daha yüksək məhsuldarlıq əldə edirdilər.

İpəkçilikdə Ordubad bölgəsi Cənubi Qafqazda önəmli yer tuturdu. 1914-cü ildə Ordubad şəhərində 325 işçinin çalışdığı 12 ipəksarıma və ipək emalı zavodu var idi (7, v. 17). Burada hazırlanmış 60.000 qutu barama İrana, Türkmənistana və b. yerlərə göndərilirdi. Muxtariyyət ərəfəsində Aşağı Əylis və Cənnab kəndlərinin sakinlərinin əsas məşğuliyyəti ipəkçilik olmuşdur.

Əvvəlki dövrlərdə olduğu kimi muxtariyyət ərəfəsində də əlverişli iqlim şəraiti və otlaqların bol olması bölgədə heyvandarlığın inkişafına təsir göstərirdi. Heyvandarlıq oturaq və köçəri xarakter daşıyırdı. 1914-cü ildə Naxçıvanda 15.190 öküz, 11.334 inək, 13.738 qoyun, 8.876 keçi, 218 dəvə, 6.675 uzunqulaq olmuşdur (2, v. 18-19). Ümumiyyətlə, heyvandarlıq sahəsində çalışanların sayı 2.187 nəfərə çatırdı.

Bəhs edilən dövrdə bölgədə sənaye primitiv xarakter daşıyırdı. Quberniya Statistika Komitəsinin məlumatına görə, Naxçıvanda 291-un dəyirmanı, Şərur-Dərələyəzlə birlikdə 353-un dəyirmanı və düyütəmizləmə müəssisəsi var idi (3, v. 19). Bu illərdə Naxçıvan şəhərində 2 dəriaşılama, 5 kərpic zavodu fəaliyyət göstərirdi. İki mədəndə: Sust və Naxçıvan mədənlərində daş duz çıxarılırdı. 1915-ci ildə hər iki mədəndən birlikdə 160.000 pud duz çıxarılmışdı.

Xarici ticarətdən o qədər də fərqlənməyən daxili ticarətin vəziyyəti maraq doğurur. Rusiyaya daxil olan tranzit yüklər Culfa-Təbriz dəmiryolu vasitəsilə daşınır, əks istiqamətdə-İrandan qəbul edilən yüklər isə Rusiyanın daxili bazarlarına göndərilirdi. Bununla belə bölgədə ticarətin inkişafı və onun dövriyyəsini artırmaq məqsədilə müəyyən tədbirlərə - "Culfa-Bakı dəmiryolu işinin təşkilinə, kənd təsərrüfatı bankının yerli şöbəsinin açılmasına nail olmaq, kooperasiyanın fəaliyyətini genişləndirmək, Şahingirey kanalı və kəhrizlərin təhcizatını, habelə suvarma təsərrüfatını canlandırmaq, malyariya ilə mübarizə aparmaq və s." (2, v. 20) ehtiyac var idi.

XX əsrin 10-20-ci illərində Naxçıvan bölgəsində əkilib-becərilən kənd təsərrüfatı məhsullarının bir qismi satış üçün nəzərdə tutulurdu. Həmin məhsullar daxili bazarda müxtəlif qiymətlərə satılırdı.

Ordubad bölgəsində istehsal olunan ipək məhsulu yerli bazara çıxarılırdı. Ordubad ipəyindən hazırlanmış nəfis parçalar Rusiya və Avropa bazarlarında yüksək qiymətləndirilirdi. Əldə edilən ipək keyfiyyət etibarılə müxtəlif olduğu kimi, onun bazar qiyməti də müxtəlif idi. Milli ədavətin qızışdığı illərdə bu kustar sənaye və kənd təsərrüfatı sahələri tamamilə tənəzzülə uğramış və yalnız 1921-ci ildən etibarən tədricən canlanmağa başlamışdır (4, s.225). Xaricə, xüsusilə Rusiya və İrana ixrac edilən mallar içərisində müxtəlif məhsullar özünəməxsus yer tuturdu. Ən çox ehtiyac duyulan məhsul Ordubadın quru meyvəsi olmuşdu.

Bölgədə iqtisadi-ticarət əlaqələrinin genişlənməsində gömrük idarələrinin mühüm rolu var idi. Başqa sözlə, bölgənin iqtisadi həyatının əsasını təşkil edən yerli ticarətdə gömrük-karantin məntəqələri xüsusi yer tuturdu. Naxçıvan Dövlət Arxivində saxlanılan sənədlərdən biri-Naxçıvan bölgəsindəki Şahtaxtı gömrüyünün 1838-1919-cu illərdəki işi və fəaliyyətinə aiddir. Sənəddə Zaqafqaziya gömrük-karantin dairəsi ilə Şərur sərhəd və Naxçıvan gömrük-sərhəd idarələri arasıdakı hesabatlar, gömrük xərclərinə dair kitablar, Bakı və Naxçıvan sərhəd-gömrük kontorları rəislərinin qanunsuz ərzaq malları daşınması haqqında, Xarici Ticarət Departamentinin sərhəd-ticarət işlərinə dair iqtisadi-ticarət topluları və qanunları, mədaxil və məxaric qəbzləri, əmtəə-mal mübadiləsinə dair saziş və hesabatlar və s. barədə məlumat verilir (14, siy. 1, iş 1-399).

Tədqiqatdan, arxiv və tarixi materiallardan aydın olur ki, Naxçıvanda olduğu kimi, Ordubadda da yerli ticarət o dövrün tacirləri və iri ticarətçilərin əlində cəmlənmişdi. Onlar əsasən Ordubad bölgəsinin kəndlərində məskunlaşmışdılar. Tez-tez baş verən quraqlıq illərində bölgədə məhsul qıtlığı yaranırdı. 1918-1920-ci illərin erməni təcavüzkarlığının ağır nəticələrinə 1921-ci ilin quraqlıq keçməsi də əlavə olunmuşdu. 1921-ci ilin payızı və 1922-ci ilin qışında Naxçıvan SSR-də aclıq dəhşətli şəkil almışdı. Bu quraqlıq illərində Naxçıvan Şərur mahalından gətirilmiş məhsul və ərzaqla təhciz edilirdi. Müharibə digər sahələrlə yanaşı, ticarət əlaqələrinin genişləndirilməsinə əngəl törədirdi. Sənaye məhsulları istehsalının aşağı səviyyədə olması, ərazidə tacirlərin və iri alverçilərin azlığı, yerli istehsala olan güclü tələbat və b. amillər də bölgədə ticarətin inkişafına mane olurdu.

Muxtariyyət ərəfəsində Ordubad və Naxçıvan qadınlarının ev şəraitində toxuduqları ipək parçalara və saplara, ipliklərə xarici bazarda böyük ehtiyac duyulurdu. Bu illərdə məhdud şəkildə olsa da, Naxçıvan bölgəsindən ixrac edilən mallar içərisində ipliklər, ağ və qırmızı bez, duz, küncüt yağı var idi. Xarici bazarda ən çox satılan Naxçıvanın qırmızı bezi olmuşdur.

1921-1922-ci illərdən başlayaraq kənd əhalisinin rifah halının yaxşılaşdırılmasına yönəlmiş tədbirlər görülməyə başlamışdır. 1922-ci il yanvarın 28-də Naxçıvan Respublikası I Sovetlər qurultayında ərzaq vergisinə keçmək haqqında qərar qəbul edilmişdi. Naxçıvan kəndlilərinə əldə etdikləri məhsulun müəyyən hissəsindən sərbəst istifadə etmək hüququ verən bu qərar onların həyat səviyyəsinin yaxşılaşmasına o qədər də kömək etməmişdir. Bundan başqa, 1922-ci ildə yaz əkin kampaniyasını genişləndərmək məqsədilə kəndlilərə 22.500 pud buğda, payız əkini zamanı isə 30.000 pud buğda paylanmışdı (16, s.73).

Naxçıvan Arxivin müxtəlif fondlarında saxlanılan sənədlər-1911-1915-ci illərə aid (8, v. 1), Qafqaz Təhsil Dairəsinin Ordubad ali ibtidai məktəbinə də aid edilən və 16 mart 1916-cı ildən 15 aprel 1916-cıilədək dövrü əhatə edən sənədlər (9, v. 1-4), 1917-ci il sentyabrın 11-də Qıvraq kredit cəmiyyətinin

payladığı əmanətlər və apardığı təftişlər, şəxsi heyətə aid məlumatlar (10, v. 1), Ordubad məktəbində 1917-ci il dekabrın 20-də tərtib edilmiş təhvil-təslim haqqında hesabat (10, v. 1-8), Naxçıvan qəzasının Kələki kəndində 1913-1914-cü illərdə torpaqların alqı-satqısına dair məlumat və faktlar (11, v.1-71), Naxçıvan qəzasının Təzəkənd kəndində (Tumbul kənd icması) 10 may 1913-cü ildən 16 yanvar 1918-ci ilədək aparılmış alqı-satqı əməliyyatlarına dair İrəvan Dövlət Palatasının məlumatları (12, v. 1-67), 15 mart 1914-cü ildən 22 iyun 1915-ci ilədək İrəvan quberniyası və Qars vilayətində torpaq və Dövlət əmlakı idarəçiliyi haqqında sənədlər, xəbərlər, məlumatlar, dəvətlər (13, v. 1-43) və b. sənədlər muxtariyyət ərəfəsi illərdə Naxçıvanın sosial-iqtisadi vəziyyətini öyrənmək baxımından faydalıdır.

Hələ 1921-ci ilin noyabr ayında təşkil edilmiş Naxçıvan İstehlak Cəmiyyəti (Naxittifaq) kəndlilərin istehlak mallarına olan tələbatını ödəməli və qaçaqmalçılığın qarşısını almalı idi. Hətta bu ittifaqın Naxçıvanın üç qəzasında üç kooperativ dükanı da açılmışdı. Bununla belə xüsusi ticarətin üstün olması və kəndlilərin alıcılıq qabiliyyətinin aşağı səviyyədə olması səbəbindən istehlak mallarını satmaq mümkün olmamışdı. Bunu nəzərə alan Azərbaycan SSR Xalq Komissarları Soveti Dövlət Bankının Culfa şöbəsini açaraq qaçqın kəndlilərə, müharibə cəbhəsində həlak olanların ailələrinə güzəştli kreditlər buraxmaqla yardım göstərmişdi (16, s.73-74).

Müəyyən vaxtlarda bölgəyə axışan qaçqınlara ərzaq, geyim və pulla kömək göstərilməsi üçün bəzi cəhdlər edilmişdi. Bunu mənbə və sənədlərdə olan faktlar da təsdiq edir. 1921-ci il fevralın 14-də Naxçıvan üçün Maku xanlığından ərzaq alınmsı haqqında qərar çıxarılmış və iyunun 1-də Şahtaxtı stansiyasında bu məqsədlə müqavilə imzalanmışdı (16, s.62). Həmin mənbənin müəllifi fikrinə davam edərək 63-cü səhifədə yazırdı ki, Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov İrandan qayıdarkən (1921-ci il) Naxçıvana toplaşan didərginlərin və Naxçıvan əhalisinin ehtiyacları üçün RSFSR Xarici Ticarət Komissarlığının Naxçıvandakı müvəkkilliyinə milyon manat qızıl pul, 70 milyon manat Azərbaycn SSR-nin kağız pulu, daxili işlər komissarlığının fondundam 30 min İran gümüş tüməni pul göndərilməsinə sərəncam vermişdi.

Mənbə və arxiv materiallarında bu illərdə bölgədə mövcud olan su mənbələri, kəhrizlər, çaylar və suvarma sistemi haqqında dəyərli faktlar əks olunmuşdur. Cəhri kəndinə məxsus 1000 ha torpağı suvarmağa imkan verən su anbarı (Türkeş kəndi ilə həmsərhədd idi) 1914-cü ildə dağıdılmış və yararsız vəziyyətə düşmüşdür. Batabat su anbarının tikilməsi ilə bağlı yerli sakinlərin tələbinə əsasən 10 avqust 1916-cı il tarixdə su anbarının təhcizatı üzrə Qafqaz müfəttişi layihə işləyib hazırlamışdı (15, v. 7). Tutumu 1.000.000 kubmetr olan bu su anbarının tikintisinə 559.534 manat (rubl) 59 qəpik ayrılmışdı. Həmin rayon ərazisində yerləşən Salvartı su anbarının yenidən təmiri və təhcizatı barədə 1914-cü ildə Qafqazın su təsərrüfatı üzrə müfəttişi qarşısında dəfələrlə məsələ qaldırılmışdı. Yuxarıda göstərilənlərdən başqa, 1916-cı ildə Bazarçayın suyunun Naxçıvançaya tökdürülməsi üçün yerli sakinlər Naxçıvan Su Dairəsinə müraciət etmişdilər. Bu planın həyata keçirilməsi üçün uzunluğu 40 verst (verst-1,0668 km), dərinliyi 550 sajen (sajen=2,133 m) olan kanaldan istifadə olunmalı idi. Göstərilən işlərin yerinə yetirilməsi məqsədilə 1916-cı ildə 40.000 rubl (manat) vəsait ayrılmışdı (15, v. 8).

Tədqiqatdan belə məlum olur ki, muxtariyyət ərəfəsi illərində bölgədə sudan istifadə ictimai prinsiplərə əsaslanmır, bəyzadə və əsilzadələr sudan istifadə hüquqlarından geniş istifadə etməklə yanaşı, öz arzularına və mənafelərinə uyğun olan qaydalar tətbiq edirdilər. Dövrə uyğun mənbələrin tədqiqindən belə məlum olur ki, bölgədə torpağın əsas hissəsi susuz qalmışdı, su çatışmazlığı hər yerdə hiss olunurdu. Mənbələrdə bölgə torpaqlarının suvarılması üçün istifadə edilən müxtəlif kanalların və arxların adları ilə rastlaşırıq. Xalqa, Sirab, Türyan, Dalma, Pandama, Şeydalar və b. arx-kanallar bu qəbildəndir. Naxçıvan kəndlərinin ümumi torpaqlarının Qarababa, Cəhriçay, Küküçay, Nursuçay və Qoşaçay çaylarının suyu ilə suvarıldığını qeyd edən rus müəllifi K.Smirnov yazırdı ki, əhali əsasən bulaq və quyu sularından istifadə edirdi (18, s. 56). Kəndlərin ümumi torpaqları bölgədəki Qarababa, Cəhriçay, Küküçay, Nursuçay və Qoşaçay çaylarının suyu ilə suvarılırdı. Həmin çaylardan çəkilən arx və kanallar suvarmanın daha tez və asan olmasına şərait yaratmışdı. Nehrəm, Yamxana, Qaraçux, Qaraxanbəyli, Hacıvar, Kərbəlayı Oruc, Qulubəy Dizə kəndlərinin torpaqları Qarababa çayının suyu ilə suvarılır, Təzəkənd kəndinin əhalisi bulaq suyundan, Tumbul kəndində yaşayanlar isə quyu suyundan istifadə edirdilər (18, s. 123-125, 126, 128). Baş verən təbii fəlakətlər suvarma qurğularına, arx və kanallara zərər vururdu.

1920-ci ilin payızı və 1921-ci ilin yazında Naxçıvanda yaranmış dəhşətli vəziyyəti B.Vəlibəyovun 1921-cilin martın 16-da yazdığı hesabatdan aydın görmək olar. Orada deyilirdi: "Naxçıvanın 1920-ci ildəki dəhşətli mənzərəsi insanın xatirində həmişəlik qalacaqdır. Adamların baxışlarının biganəliyi, qəlblərin soyuqluğu, sifətlərin solğunluğu yaşıl bağları da, çiçəkli dağları da gözə xəzan göstərir. Çünki hər tərəfdə səfalət, aclıq, yurdsuzluq və çoxlu insan qurbanları əhalini taqətdən salmışdı. Şəhər və kəndlərdən insanların nalə və sızıltı səsləri gəlir, hər yerdə insan meyitləri ilə qarşılaşırsan" (16, s.61).

Birinci Dünya müharibəsi, erməni müdaxiləsi, daşnak Ermənistanın aramsız təcavüz və işğalları, qeyri-sabit hakimiyyət Naxçıvanın sosial-iqtisadi vəziyyətinə böyük zərbə vurmuşdu. 1914-1920-ci illərdə pambıqçılıq, taxılçılq və baramaçılıq sahələri xeyli azalmış, üzüm, meyvə və tut bağlarının çox hissəsi sıradan çıxmış, mal-qaranın sayı nəzərə çarpacaq dərəcədə aşağı düşmüşdü. Belə ki, göstərilən dövrdə

barama istehsalı 20 min puddan 1,5 puda enmiş, pambıq istehsalı üç dəfə azalmışdı. İribuynuzlu mal-qaranın sayı 94 min başdan 21 minə, davarların sayı isə 172 min başdan 63 min başa enmişdi (16, s. 70).

1914-1922-ci illərdə əhalinin vəziyyəti ağır və acınacaqlı olaraq qalırdı. Aclıq və xəstəliklər bölgədə yaşayan əhalinin vəziyyətinə mənfi təsir göstərirdi. Bundan əlavə, sosial problemlər-su azlığı və torpaq çatışmazlığı da naxçıvanlıların sosial vəziyyətinə təsirsiz ötüşmürdü.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi: 7 cilddə, V c., 1900-1920-ci illər, Bakı, Elm, 2008, 696 s.
2. ARDTA: f.379, siy.7, iş 8065, 25 v.
3. Əliyev Q. Azərbaycan nəqliyyatı və iqtisadiyyatı (XIX əsr-XX əsrin ilk onillikləri), Bakı, Elm, 2001, 244 s.
4. İvanov R. Basqın (tərcümə nəşri), Naxçıvan: Əcəmi, 2013, 463 s.
5. Məmmədov A. Sovet Azərbaycanının sənayeləşdirmə planında Naxçıvan MSSR-nin yeri (1926-1940-cı illər) // Naxçıvan bu gün: islahatlar, perspektivlər (5-6 oktyabr 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları), Bakı: Nurlan, 2008, s.157-162.
6. Nadirov A., Nuriyev Ə., Muradov Ş. Naxçıvan iqtisadiyyatı XX əsrdə, Bakı, Elm, 2000, 100 s.
7. Naxçıvan MRDA: f.314, siy.42, sax.vah., 1/16, 75 v.
8. Naxçıvan MRDA: f.14, siy.1, sax.vah., 3 (1911-1915-ci illər), 1 v.
9. Naxçıvan MRDA: f.3, siy.1, sax. vah., 26, 4 v.
10. Naxçıvan MRDA: f.13, siy.1, sax.vah., 29/22, 8 v.
11. Naxçıvan MRDA: f.28, siy.1, sax.vah.104, 71 v.
12. Naxçıvan MRDA: f.28, siy.1, sax.vah. 102, 67 v.
13. Naxçıvan MRDA: f.27, siy.1, sax.vah. 274/234, 43 v.
14. Naxçıvan MRDA: f.20, siy.1, iş 1-399.
15. Naxçıvan MRDA: f.221, siy.1, v.7-8.
16. Sadiqov S. Naxçıvan Muxtar Respublikası tarixindən, Bakı, İrşad mərkəzi, 1995, 144 s.
17. Иванов Р. Нашествие. Москва: Герои Отечества, 2009, 448 с.
18. Смирнов К. Материалы по истории и этнографии Нахичеванского края, Баку: Озан, 1999, 156 с.
19. Сокольский Н. Материалы по изучения Нахичеванской ССР, изд.2, Зак. ГИЗ, Тифлис, 1933, 184 с.


## ABSTRACT


**Yashar Rahimov**


### SOCIAL AND ECONOMIC STATE IN NAKHCHIVAN ON THE EVE OF INDEPERENDENCE (1914-1922)


An attempt to reseadch social and economic state of Nakhchivan Autonomus Republic on the eve of indeperendence on the basis of sources information is made in the paper. During this period, before creation of Nakhchivan ASSR, economic and social state in Nakhchivan was quite pitiable as a result of odious policy of Armenians. The state of enclave, isolation of the region from the main territory of the country, absence of communications with other regions and other reasons exerted here neqative influense on social and economic conditions. During this period, especially in 1914-1922, as a result of neqlest in relation to the region the tradgic and dangerous situation has been created in Nakhchivan land.


## РЕЗЮМЕ


**Яшар Рагимов**


### СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ СОСТОЯНИЕ В НАХЧЫВАНЕ НАКАНУНЕ НЕЗАВИСИМОСТИ (1914-1922 ГГ.)


В статье сделана попытка исследования социально-экономического состояния Нахчыванской Автономной Республики накануне независимости на основе сообшений источников. В тот период, до создания Нахчыванской АССР, социально-экономическое положение в Нахчыване было довольно плачевным в результате одиозной политики армянь. Положение анклава, отарванность региона от основной территории страны, отсутствие связей с другими регионами и другие причины оказывали здесь отрицательное влияние на социально-экономического состояние. В этот период, особенно в 1914-1922 годы, в результате пренебрежения по отношению k региону в Нахчыванском kрае создалась трагическая и опасная ситуация.

**ELTUN İBRAHİMOV**
*AMEA Naxçıvan bölməsi*
*eltunibrahimov@yahoo.com*

# MUXTAR RESPUBLİKADA AQRAR TƏSƏRRÜFATIN MÖVCUD VƏ GƏLƏCƏK İMKANLARI

**Açar sözlər:** *kənd təsərrüfatı, torpaq, dövlət proqramı, bitkiçilik, ərzaq*
**Keywords:** *agriculture, soil, state program, plant-growing, food*
**Ключевые слова:** *сельское хозяйство, почва, государственная программа, растениеводство, продукт*

Kənd təsərrüfatı iqtisadiyyatın mühüm sektoru kimi xeyli diqqət tələb edən bir sahə olmaqla qida ehtiyaclarının qarşılanması, sənayenin xam maddə ilə təminatı, gəlirlərin formalaşması, xarici ticarət əlaqələrinin genişləndirilməsi və s. baxımından milli iqtisadiyyatın dayanıqlığının təmin olunmasında böyük əhəmiyyətə malikdir. Dünya üzrə kənd təsərrüfatının bir sıra səciyyəvi xüsusiyyətləri mövcuddur:

- Əsasən təbii amillərdən asılı olmaqla, əmək ehtiyatları, insan, torpaq və iqlim şəraiti ilə sıx bağlıdır. Bu amillərdən hər hansı biri çatışmadıqda istənilən nəticə olmayacaqdır. Belə ki, insan bütün elmi və texnoloji imkanlara baxmayaraq iqlimi xeyli sərt olan regionlarda kənd təsərrüfatı sahələrini inkişaf etdirə bilməz. Bunu bacarsa belə, əldə edilən nəticə təbii və faydalı olmayacaqdır.
- Mövsumi dəyişikliklərə bağlıdır;
- Kənd təsərrüfatı ilə məşğul olmaq üçün xammal, avadanlıq əsas şərtdir;
- Olduqca həssas sahə olmaqla cəmiyyətin sağlamlığının qorunması üçün xeyli diqqət tələb edir. Belə ki, son dövrlər geni dəyişdirilmiş məhsulların əksəriyyəti təəssüflər olsunki kənd təsərrüfatından qaynaqlanmaqdadır və s.

Eyni zamanda aqrar sahə ilə bağlı kifayət qədər böyük problemlər mövcuddur ki, bu problemlərin həll edilməsi sahənin gələcək inkişafını və dayanıqlığını təmin edən əsas məsələlər olaraq qalmaqdadır:

- Maliyyə problemləri. Enerji, məhsul və xidmətlərin dünya bazarındakı dəyişən qiymətləri, hər bir ölkənin vergi və gömrük siyasəti;
- Maarifləndirmə işlərinin zəif olması və kadr ehtiyatlarının çatışmazlığı. Kənd yerlərindəki insanların, xüsusən də gənclərin bu sahəyə marağının zəifləməsi;
- Ərazilərin korlanması və torpaqların istifadə üçün yararsız hala düşməsi;
- Quraqlıq, su ehtiyatlarının az olması və ya sudan düzgün istifadə olunmaması;
- Şirkətlər arasındakı qeyri-sağlam rəqabət üsullarının meydana çıxması və s.

Qeyd etmək yerinə düşər ki, quraqlıq və iqlim dəyişkənliyi hər il milyonlarla insanların təsərrüfatlarının məhv olmasına və iş yerlərinin itirilməsinə səbəb olmaqdadır.

Bu və ya digər məsələlərin vaxtında öz həllini tapması gələcəkdə kənd təsərrüfatının hər bir bölgədə daha da inkişafının sürətlənməsinə xidmət edəcəkdir.

Ölkəmizdə də kənd təsərrüfatı əsas iqtisadi sektor kimi strateji məqsədləri özündə birləşdirməklə xeyli əhəmiyyətə malik bir sahədir. Sənaye və tikintidən sonra iqtisadiyyatın hərtərəfli inkişafında üçüncü böyük sektor kimi kənd təsərrüfatı gəlirlərin artırılması və makroiqtisadi tarazlığın qorunmasında mühüm pay sahibidir.

Qeyd etmək lazımdır ki, ölkəmiz müstəqil olduqdan sonra digər sahələr kimi aqrar sektor da xüsusi diqqət mərkəzində saxlanılmağa və davamlı dövlət dəstəyi göstərilməyə başlandı. Ümumiyyətlə hər hansı bir sahənin inkişaf etdirilməsi ilk öncə qanunvericilik və inzibati tədbirlər ilə başlayır. Ölkəmizdə aqrar sektorun təkmilləşdirilməsi ilə əlaqədar xeyli sayda proqramlar və sərəncamlar mövcuddur. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı müvafiq illəri əhatə edən I, II, III dövlət proqramları, Azərbaycan Respublikasında “Yoxsulluğun azaldılması və davamlı inkişaf”, “Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair dövlət proqramlarının, eyni zamanda “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında”, “Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında”, “Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında”, “Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı” ölkə başçısının fərman və sərəncamları aqrar sektorun inkişafı istiqamətində geniş hüquqi bazanın yaradılmasından xəbər verir.

Kənd təsərrüfatı Naxçıvan Muxtar Respublika iqtisadiyyatında aparıcı yeri tutur və özündə bitkiçilik (taxılçılıq, kartofçuluq, çoxillik bitkiçilik-yonca, soğan, sarımsaq, bostan-tərəvəz, qarğıdalı, limon, şəkər

çuğunduru əkini), meyvəçilik, üzümçülük, bağçılıq, iribuynuzlu-xırdabuynuzlu heyvandarlıq, arıçılıq, quşçuluq təsərrüfatı, meyvə - tərəvəz məhsulları istehsalı və digər sahələri birləşdirir.

Ölkə üzrə qəbul edilən proqramlara uyğun olaraq aqrar islahatların aparılması yönündə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilən müvafiq illər üzrə "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı", Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı Dövlət Proqramları Naxçıvan Muxtar Respublikanın bütün rayonlarında sahibkarlığın və istehsal imkanlarının stimullaşdırılması istiqamətində böyük perspektivlər ortaya çıxarmışdır.

Aqrar sektor blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikada ərzaq təhlükəsizliyinin bərqərar olunmasında əsas sahədir. Nəzərə alsaq ki, Naxçıvan Muxtar Respublika ərazisinin coğrafi relyefinin mürəkkəb və iqliminin kəskin kontinental olması burada kənd təsərrüfatının inkişaf etdirilməsinin qarşısında böyük problemlər yaradır. Həm yayda, həm də qışda əkilib becərilən meyvə və tərəvəz məhsullarının saxlanması xeyli diqqət tələb edir. İstənilən mövsümdə istehlak tələbini yerli istehsalın hesabına ödəmək məqsədilə soyuducu anbarlarının, istixana obyektlərinin və sınaq laboratoriyalarının fəaliyyətinin təkmilləşdirilməsi diqqət mərkəzindədir.

Nəzərdə tutulmuş istiqamətdə poqramların qəbul edilməsi və icrasına nəzarət, büdcə və digər maliyyə kredit təşkilatlarından əsaslı vəsaitlərin ayrılması, soyuducu anbarlarının işə salınması, "Aqrolizinq" ASC-nin Naxçıvan bölməsinin təsis olunması, bununla bərabər yeni təsərrüfatçılıq sahələrinin (quşçuluq, balıqçılıq) yaradılması kənd təsərrüfatının mövcud vəziyyətinin əsas göstəriciləridir.

Görülən işlər istiqamətində "Aqrolizinq" ASC-nin fəaliyyətini xüsusi olaraq qeyd etmək lazımdır. Cəmiyyət kənd təsərrüfatı sahəsində xeyli sayda müxtəlif xidmətlər həyata keçirir. "2006-cı ildən bu günədək Naxçıvan Muxtar Respublikaya 2299 kənd təsərrüfatı texnikası və avadanlığı gətirilib. indiyədək bu texnika və avadanlıqlardan 1801-i lizinq, 156-sı isə nağd və köçürmə yolu ilə sahibkarlara verilib. Ümumilikdə, Naxçıvan Muxtar Respublika üzrə nağd, köçürmə və lizinq yolu ilə satılan texnika və avadanlıqların sayı 1957 olub. Hazırda "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin bazalarında müasir ot-biçənlər, kombayn və traktorlardan kipvuranlara, yemdoğrayanlardan dərmanlamada istifadə olunan çiləyicilərədək onlarla adda texnika və avadanlıqlar mövcuddur" (4). Naxçıvan Muxtar Respublikada Aqrolizinqin xidmətlərindən faydalanan on minlərlə insan var.

Onuda xüsusi olaraq vurğulamaq yerinə düşər ki, ölkəmizdə kənd təsərrüfatı üzrə verilən bank kreditlərinin ən aşağı faizi Naxçıvan Muxtar Respublikasında qeydə alınmışdır. Naxçıvanbank ASC–nin fermerlərə təklif etdiyi kənd təsərrüfatı kreditlərinin faiz dərəcələri 13% təşkil etməkdədir.

Kənd təsərrüfatının bitkiçilik sahəsi əhalinin ərzaq təhlükəsizliyinin qorunmasının əsas təminatçısıdır. Bunun üşün əlverişli torpaq sahələri ilə birlikdə işçi qüvvəsinin məhsuldarlığı da vacib şərtdir. Hal-hazırda burada bostan və tərəvəz, dənli-paxlalı bitkilər, kartof, yem bitkilərinin əkilib becərilməsi bitkiçilik sahəsində xeyli üstünlük təşkil edir. Adı çəkilən növlər üzrə məhsuldarlıq üzrə göstəriciləri təhlil etmək üçün aşağıdakı cədvələ diqqət yetirək:

Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı (sent/ha)

| **İllər üzrə** | **Dənli və dənli paxlalı bitkilər** | **Tərəvəz** | **Kartof** | **Bostan bitkiləri** | **Yem bitkiləri** |
|---|---|---|---|---|---|
| 2012 | 29.5 | 108.0 | 139.3 | 142.2 | 101.8 |
| 2013 | 29.5 | 108.7 | 139.7 | 142.3 | 117.3 |
| 2014 | 29.3 | 108.9 | 139.8 | 125.1 | 117.8 |
| 2015 | 29.8 | 133.8 | 151.8 | 138.0 | 122.8 |
| 2016 | 31.4 | 135.2 | 152.0 | 138.1 | 103.3 |
| 2017 | 31.8 | 137.3 | 153.9 | 138.3 | 97.6 |
| 2018 | 32.1 | 138.5 | 154.2 | 139.5 | 98.3 |

Mənbə: Naxçıvan MR Dövlət Statistika Komitəsi.

Cədvəldə 7 il boyunca fərqli sahələr üzrə hər hektara düşən məhsuldarlıq əks olunmuşdur. Tərəvəz, kartof və dənli-paxlalı bitkilər üzrə götürülən məhsulun artım dinamikası pozulmamışdır. 2012-ci illə müqayisədə 2018-ci ildə tərəvəz üzrə hər hektardan yığılan məhsuldarlıq orta hesabla 33%, kartof 21%, paxlalı bitkilər 0.8% artmışdır. Bostan və yem bitkiləri üzrə isə əksinə, əvvəlki illərlə müqayisədə azalma müşahidə olunmuşdur. Bunu müəyyən qədər son illər iqlimdə olan dəyişikliklərlə izah etmək olar.

Bununla bərabər maldarlıq sahəsində də son illər ciddi işlər görülməkdədir. Naxçıvan Muxtar Respublikada bu sahə üzrə qısırlığın aradan qaldırılması və damazlıq işinin daha da təkmilləşdirilməsi üçün 2018-ci ildə 9964 baş iribuynuzlu heyvan süni yolla mayalandırılmış, ötən il də daxil olmaqla bu dövr ərzində 7006 baş sağlam bala alınmışdır (3).

Naxçıvan Muxtar Respublikada aqrar sektorun gələcək imkanları necə qiymətləndirilə bilər? Qeyd eləmək lazımdır ki, bugün ölkəmizdə digər sahələrdə olduğu kimi bu sahədə də xeyli innovativ işlərin görülməsi planlaşdırılır. İnstitusional islahatların aparılması, kənd təsərrüfatı konsepsiyasının hazırlanması, aqrar parkların təsis olunması önümüzdəki illərdə təsərrüfat sektorunun qarşısında xeyli geniş imkanlar yaradacaqdır.

Kənd təsərrüfatı regionda əsas aparıcı sahə olması yanaşı, konkret olaraq özünün bəzi problemləri ilə xarakterizə olunur. Əvvəla, quraqlıq bura üçün ən böyük problemlərdən biridir. Bəzən yay ayları boyunca 2-3 dəfədən çox yağış yağmır. Bu isə görülən işlərin yavaşlamasına və məhsuldarlığa ciddi ziyan vurur. Bunun üçün geniş su anbarlarının yaradılması, çayların üzərində iri sututarların tikilməsi və suya qənaət olunması ilə lazımi tədbirlərin görülməsi vacib amildir. Digər tərəfdən mərkəzdən kənar ərazilərdə kənd təsərrüfatı məhsullarının qəbul edilməsi üçün xidmət məntəqələrinin olmaması bu istiqamətdə böyük çətinliklər yaradır. Hesab edirik ki, əgər bu tipli mərkəzlər yaradılarsa, kəndli öz məhsulunu yerindəcə təhvil verər və əlavə xərclərdən azad ola bilər. Son illər ərzində sahibkarlar üçün maddi imkanlar cəhətdən əlverişli mühit və ardıcıl tədbirlər sistemi yaradılmasına baxmayaraq, sahibkarların fəaliyyət növləri ilə əlaqədar hüquqi və digər bilgilərində zəiflik müşahidə olunur. Buna görə də əlverişli sahibkarlıq mühiti qurmaq üçün mövcud qanunlardan, fərman və sərəncamlardan, normativ hüquqi aktlardan informasiyalar sahibkarlara çatdırılmalı, onların hüquqi cəhətdən maarifləndirilməsi, xarici iş adamları ilə görüşlərin keçirilməsi istiqamətində ciddi tədbirlər görülməlidir.

Eyni zamanda hesab edirik ki, aqrar sektorda bir sıra tədbirlərin həyata keçirilməsi gələcəkdə onun daha da canlanmasına əhəmiyyətli dərəcədə təsir edə bilər:

1. Beynəlxalq təşkilatlarla kənd təsərrüfatı sahəsində əməkdaşlıq sürətləndirilməlidir.
2. Kənd təsərrüfatına xidmət edən mikrokredit təşkilatları və ya bankın təsis olunması bu sahədə imkanları daha da artıra bilər.
3. Suvarma sistemlərinin təkmilləşdirilməsi və bu istiqamətdə dünya ölkələrinin təcrübəsindən istifadə olunması.
4. Dağlıq ərazilərdə torpaqların özəlləşdirilməsinin aparılması və s.

Beləliklə, Naxçıvan Muxtar Respublikada istehlakçıların keyfiyyətli və sağlam ərzaq məhsulları ilə daim təmin edilməsi, xarici ölkələrdən daxil olan məhsulların bazarlarda dominantlığına son qoymaq, ixracatın yüksəlməsi, fermer gəlirlərinin formalaşdırılması, eyni zamanda düzgün olmayan suvarma-gübrələmə üsullarından imtina etmək, bu sahədə maarifləndirmə təlimlərini artırmaq və sektorun kadr potensialını daha da gəncləşdirmək və s. aqrar sahənin gələcəyi istiqamətində üçün əsas məqsədlər hesab oluna bilər.

## ƏDƏBİYYAT

1. Abbasov İ. Azərbaycan və dünya ölkələrinin kənd təsərrüfatı, Bakı, Şərq-Qərb, 2013, 712 s.
2. Əhmədov N.H. İstehlak bazarının tənzimlənməsi problemləri, Bakı, ADPU nəşriyyatı, 2010, 265 s
3. Sosial-iqtisadi inkişaf (yanvar-dekabr), Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi, Naxçıvan, 2019, 98 s.
4. Yeni kənd təsərrüfatı texnikaları sərfəli şərtlərlə torpaq mülkiyyətçilərinə verilir. http://www.serqqapisi.az/index.php/iqtisadiyyat/16303-yeni-kaend-taesaerrufat-tekhnikalar-saerfaeli-shaertlaerlae-torpag-mulkiyyaetchilaerinae-verilir

## ABSTRACT

**Eltun İbrahimov**

### THE PRESENT AND FUTURE OPPORTUNITIES OF AGRICULTURAL ECONOMY IN THE AUTONOMOUS REPUBLIC

Nowadays, agriculture is considered as a major occupation of the world`s population and takes huge responsibility to ensure society`s food needs with high quality of products. In all periods of life any large and small subject is ultimately owed to the peasant labor. Therefore, the proper founding of this sector`s activity is an urgent criterion to benefit from it effectively. The article includes the main distinguishing features of agriculture, its current and future prospects in the autonomous republic.

## РЕЗЮМЕ

**Елтун Ибрагимов**

### НАСТОЯЩИЕ И БУДУЩИЕ ВОЗМОЖНОСТИ АГРАРНОГО ХОЗЯЙСТВА В АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

В настоящее время сельское хозяйство считается основным занятием мирового населения и обеспечивает потребности общества высококачественными питательными рационами. Во все периоды, все крупные и мелкие области жизни в конечном итоге обязаны крестьянскому труду. Таким образом, правильное основание деятельности этого сектора является неотложным критерием для его эффективного использования. В статью включены основные отличительные признаки сельского хозяйства, его текущие и будущие перспективы в автономной республике.

**VÜSAL NOVRUZOV**
*AMEA Naxçıvan Bölməsi*

## ÖLKƏMİZDƏ İQTİSADİ ARTIMIN XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər:** *makroiqtisadi göstəricilər, iqtisadi artım,ÜDM, investisiya, dövlət büdcəsi*
**Key words:** *macroeconomic indicators, economic growth, GDP, investment, state budget*
**Ключевые слова:** *макроэкономические показатели, экономический рост, ВВП, инвестиции, государственный бюджет*

İqtisadi artım müəyyən dövr ərzində iqtisadiyyatda mal, xidmət istehsalı həcminin dəyişməsini xarakterizə edir. İqtisadi artımı daha praktik şəkildə başa düşmək üçün işləyən şirkəti bir ölkə zənn edək. Tutaq ki, yalnız duz, şəkər və yağ hazırlanır. Bir il ərzində istehsal edilən bütün yağlar, duzlar və şəkərlər satış qiymətinin yekun məbləğinə görə ÜDM adlandırılır. Biz bunu bir dövr ərzində analiz edirik. Əgər ötən ilki yağ, duz və şəkərlə müqayisədə bu il daha çox dövriyyə əldə etmisinizsə, ölkəniz bu il iqtisadi cəhətdən böyüyüb. Başqa sözlə, artım neçə fazi təşkil edirsə, iqtisadi artım göstəricisi onu ifadə edəcəkdir. Bir-biri ilə qarşılıqlı əlaqədə olan aşağıdakı göstəricilərlə müəyyən edilir. Müəyyən dövr ərzində:

1. Real ümummilli yaxud xalis milli məhsulun artması.
2. Hər nəfərə düşən real ümummilli və ya xalis milli məhsulun artması.
3. Bütövlükdə sahələr üzrə və hər nəfərə düşən sənaye məhsulları istehsalının artım sürəti.

Bunlardan hər hansı birindən istifadə olunması nəzərdən keçirilən sosial- iqtisadi hadisənin xarakterindən asılıdır. Belə ki, ölkənin hərbi-siyasi potensialı problemi diqqət mərkəzində olduqda birinci, ayrı-ayrı ölkələrdə və regionlarda əhalinin həyat səviyyəsi müqayisə olunduqa isə ikinci göstəricidən istifadə etmək daha məqsədəuyğundur. İqtisadi artım bir qayda olaraq faizlə ifadə olunan illik artım sürəti ilə ölçülür. Makroiqtisadi səviyyədə iqtisadi artımın ən mühüm göstəriciləri aşağıdakılardır:

- ✓ Adambaşına düşən ÜDM (ümumi daxili məhsul);
- ✓ İqtisadi səmərəlilik göstəriciləri;
- ✓ Adambaşına düşən əsas məhsul növlərinin istehsalı;
- ✓ Milli iqtisadiyyatın sahə strukturu;
- ✓ Əhalinin həyat səviyyəsi və keyfiyyəti.

İqtisadi statistikada dinamikanı öyrənmək üçün artım əmsalı (dəfə), artım sürəti və əlavə artım sürəti (faiz göstəricisi ilə) göstəricilərindən istifadə olunur. İqtisadi artım faizi aşağıdakı düsturla hesablanır:

$$A = M_s / M_ə$$

Burada: $M_s$ və $M_ə$ – müvafiq olaraq hesabat və əsas dövrlərdəki göstəriciləri ifadə edir. Artım sürəti artım əmsalının 100%-ə vurulması, əlavə artım sürəti isə artım sürətindən 100% çıxılması yolu ilə alınır. Və yaxud iki dövr arasındakı fərqin əvvəlki dövrün göstəricisinə nisbətini 100%-ə vurmaqla alınır. Aşağıdakı kimi ifadə olunur:

$$A = \frac{\Delta M}{M_ə} \text{ x } 100\% \quad \text{o cümlədən,} \quad \Delta M = M_s - M_ə$$

Burada ΔM- iki müddət ərzində əldə edilmiş göstəricilərin arasındakı fərqi ifadə edir.

İqtisadi artıma aşağıdakı amillər təsir edir:

1) Yeni bazarlar
2) Rəqabətin artması
3) İnformasiyanın asan əldə edilməsi
4) Texnologiyanın yeni məzmunu.

İqtisadiyyatın inkişafı adətən iqtisadçılar arasında qəbul edilmiş konsepsiya əsasında təhlil edilir. Müasir dövrdə iqtisadi artımın modelləşdirilməsində iqtisadi artımın Keyns modeli neoklassik modellərdən və tarixi-sosioloji modellərdən tələbə verdiyi əhəmiyyətinə görə fərqlənir. Keynsin iqtisadi artım modeli iqtisadi artım üçün makroiqtisadi tarazlığın təmin olunmasını, sonuncunun təmin olunması üçün isə tələbin əsas rol oynadığını qəbul edir. Tələbin həlledici cəhətinin çoxaldıcının iştrakı ilə mənfəətin artmasını təmin edən investisiyalardan asılı olduğu qeyd olunur. Ümumiyyətlə, Neoklassik modellər azad rəqabət şəraitində faydalı ola bilər və əsasən ekstensiv iqtisadi artım tiplərinə uyğun gəlir. (6, s. 133)

Azərbaycan iqtisadiyyatında bazar münasibətlərinin təşəkkülünün ilk illərində mövcud olmuş durğunluq və tənəzzül meyilləri dayandırıldıqdan sonra ölkədə başlayan genişmiqyaslı islahatların nəticəsi olaraq 1996-

cı ildən iqtisadi artım mərhələsi başlamışdır. İqtisadi artımın başlanğıcı sayılan həmin ildə ən mühüm artım göstəricisi olan ümumi daxili məhsul (ÜDM) ilk dəfə 1,3% artmışdır və sonralar müvafiq olaraq 2000-2003-cü illərdə orta hesabla 11 %, 2005-ci ildə 26 %, 2007-ci ildə 25 %, 2004-2010-cu illər ərzində ÜDM ildə orta hesabla 17 faiz artmışdır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin rəsmi açılışı olmuş, neft-qaz istehsalının həcminin və qiymətinin artması neft sektoruna birbaşa xarici investisiya cəlb edilməsinə də öz töhfəsini vermişdir. 2017-ci ildə ÜDM-in qeyri-neft sektoru 2.7% artmışdır.
2008-2015-ci illərdə qlobal maliyyə böhranının davam etdiyi bir şəraitdə MDB ölkələrində ÜDM 9% azaldığı halda, Azərbaycanda bu göstərici müsbət 9,3%, o cümlədən neft sektorunda 14,3%, qeyri-neft sektorunda isə 3,2% artımla qeydə alınmışdır. ÜDM-in artımı iqtisadiyyatın demək olar ki, bütün sahələri üzrə baş vermişdir. Ölkədə istehsal olunan ÜDM-in 45 %-i iqtisadiyyatın qeyri-neft sahələrində yaradılmışdır.







2000-ci və 2015-ci illərdəki ÜDM istehsalını nəzərdən keçirdikdə görünür ki, bu illər ərzində bu göstərici təxmini olaraq 10 dəfə artmışdır. Adambaşına düşən ÜDM 2010-cu ildə 5922 ABŞ dolları, 2015-ci ildə 5561 ABŞ dolları təşkil etmişdir.
(Mənbə : 4, https://www.stat.gov.az/source/system_nat_accounts/)

Qeyd etdiyimiz kimi, "Azərbaycan Respublikası *regionlarının 2004*-2008-ci illərdə *sosial-iqtisadi inkişafı Dövlət Proqramı*", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial - iqtisadi inkişafına dair Dövlət Proqramı" və "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"iqtisadi inkişafda həlledici rol oynamışdır. Hələ 2004-cü ildə birinci Regional İnkişaf Proqramı qəbul edilmiş, qarşıya qoyulmuş bütün vəzifələr demək olar ki, tam şəkildə icra edilmişdir.

Ümumiyyətlə, ölkəmizdə iqtisadi artımı şərtləndirən amillər aşağıdakı kimi göstərilir:

- ✓ Qanunvericilik bazasının beynəlxalq təcrübəyə dayanması
- ✓ İqtisadi potensialın mövcudluğu
- ✓ Qeyri-neft sektoruna meylin artırılması
- ✓ İqtisadi sabitlik
- ✓ İnvestisiya qoyuluşu
- ✓ İqtisadi potensialın inkişaf proqramları çərçivəsində idarə olunması

Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək, dünya miqyasında 35-ci yerdə özünə yer tutmuşdur. Ölkə iqtisadiyyatına 14,6 milyard dollar sərmayə qoyulub. 2017-ci ildə ixrac 19 faiz artmışdır, qeyri-neft ixracı isə 24 faiz irəliləmişdir. Ticarət balansının müsbət saldosu isə 6,2 milyard dollardır. 2017-ci ildə 221 min yeni iş yeri açılmışdır ki, onların 177 mini daimi iş yeridir. Tədqiqatlar göstərir ki, Azərbaycanda iqtisadi artımın təmin olunmasında iqtisadiyyatın hərtərəfli inkişafına yönəldilmiş investisiya siyasətinin xüsusi əhəmiyyəti vardır. Çünki bazar münasibətləri şəraitində hər bir ölkənin iqtisadi qüdrətinin gücləndirilməsi, ilk növbədə investisiya qoyuluşları ilə əlaqədardır. Belə ki, Azərbaycanda real sektora qoyulan investisiyalar son illər ərzində xeyli artmışdır. Təkcə əsas kapitala qoyulan investisiyalar 2000-2008-ci illərdə təqribən 10 dəfə artmışdır(4, s. 5).

Ölkə Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il Sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmışdır. 2014-cü ildən başlayaraq neft qiymətlərinin azalması və ticarət edilən ölkələrdə iqtisadi böhran nəticəsində ölkədə iqtisadi artım sürətinin yavaşlaması, institusional və struktur çağırışlar, tədiyə balansı və qeyri–neft büdcə kəsiri, maliyyə–bank sektorunda baş verən proseslər fonunda Azərbaycanda yeni iqtisadi inkişaf yanaşmasına keçid zərurəti

yaranmışdır. Davamlı inkişafı təmin edəcək yeni yanaşma üzərində fokuslanmaqla, iqtisadiyyatın strukturu qeyri–ticari bölməyə nisbətən ticari bölmənin, hasilata nisbətən emalın, dövlət sahibkarlığına nisbətən özəl sahibkarlığın, aşağı texnologiya tutumlu sektorlara nisbətən yüksək texnologiyalara əsaslan sektorların, aşağıixtisaslı əməyə nisbətən yüksəkixtisaslı əməyə əsaslanan sahələrin, azgəlirli bazarlara nisbətən yüksəkgəlirli bazarların və aşağı dəyər yaradan sektorlara nisbətən yüksək dəyər yaradan sektorların daha üstün artımı hesabına yenidən balanslaşacaqdır. Milli iqtisadiyyatın strukturunun yenilənməsi biznes mühitinin daha da yaxşılaşdırılması, ortamüddətli xərclər strategiyası çərçivəsində yeni siyasətin tətbiq edilməsi, maliyyə–bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsi, habelə xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi ilə mümkün olacaqdır(2, s. 4).

Ölkəmizdə həyata keçirilən genişmiqyaslı iqtisadi inkişaf strategiyası bugünkü uğurları şərtləndirən amillərdəndir. Qlobal enerji-kommunikasiya layihələrinin reallaşması, əhalinin firavan həyatının təmin olunmasına hesablanan çoxsaylı dövlət proqramlarının uğurla icrası özəl sektorun ildən-ilə iqtisadi inkişafına böyük perspektivlər açır. Ölkəmizin bütün regionlarında davam etdirilən tikinti-abadlıq işləri respublikamızı daha da qüdrətli dövlətə çevirməkdədir.

Son illər xarici investisiyaların əsasən qeyri-neft sektoruna yönəldilməsi ölkəmizdə bu sahənin sürətli inkişafına təkan vermişdir. Dünya iqtisadiyyatına inteqrasiya yolu seçmiş Azərbaycan bu gün regionun lider dövləti olaraq, iqtisadi potensialını inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmağı qarşısına məqsəd qoymuşdur.

Qeyd etmək lazımdır ki, iqtisadi artımın respublikamızda həyata keçirilməsində sahələr üzrə hazırlanmış Dövlət Proqramlarında nəzərdə tutulan tədbirlərin səmərəli reallaşdırılması xüsusi əhəmiyyətə malikdir. Bunun nəticəsi kimi Azərbaycan Respublikasında ÜDM-in artım meyli ciddi şəkildə demək olar ki, son 10 ildə əldə olunmuşdur. İqtisadi artımın son illərdə daha da sürətlənməsi, öz növbəsində digər əsas makroiqtisadi göstəricilərin dinamikasına da ciddi təsir göstərmiş, o cümlədən dövlət gəlirləri və xərclərinin sürətlə artmasını şərtləndirmişdir.

İqtisadi artım şəraitində dövlət gəlirlərinin çoxalması ölkənin sosial-iqtisadi inkişafı, əhalinin rifahının yaxşılaşdırılması, infrastrukturun genişləndirilməsi və təkmilləşdirilməsi iqtisadiyyatın diversifikasiya problemlərinin həlli üçün əlverişli imkanlar açmışdır. Eyni zamanda həmin imkanların uğurla reallaşması bilavasitə dövlətin büdcə xərclərinin artması ilə bağlı olan pul kütləsinin artmasının nəzərə alınmasını tələb edir.

Onu da vurğulayaq ki, iqtisadi artımın təmin edilməsində xidmət sahəsinin də rolu böyükdür. Ölkəmizin əksər bölgələrində, xüsusən turizmin inkişafı üçün münbit şərait mövcuddur. Bu sahənin yenidən qurulması və beynəlxalq standartlara uyğunlaşdırılması üçün dövlət və özəl qurumlar tərəfindən bir sıra uğurlu tədbirlərin həyata keçirilməsinə baxmayaraq, hələ də görüləcək işlərin çoxluğundan danışmaq olar. Çünki turizmin iqtisadiyyata gətirəcəyi gəlirlər iqtisadi artıma birbaşa təsir göstərəcək.

Ümumiyyətlə, ölkəmizdə iqtisadi inkişafın bugünkü nailiyyətləri iqtisadi artımın istər nəzəri, istərsə də praktiki cəhətdən yenidən araşdırılması və müasir problemlər səviyyəsində öyrənilməsini tələb edir. Belə ki, müasir iqtisadi artıma nail olmanın əsas məqsədi - ölkə iqtisadiyyatının uzun müddətə dinamik inkişafını təmin etmək, iqtisadi islahatları uğurla aparmaq və əhalinin sosial - iqtisadi vəziyyətini yaxşılaşdırmaqdır. Gələcəkdə yeni texnologiyaların tətbiqi ilə sürətlə dəyişən insan tələbatının ödənilməsi zəminində rəqabətqabiliyyətli məhsulların istehsalı, bunun üçün isə elmin inkişafının daha da yuxarı səviyyəsinə nail olunmalıdır. Məhz bu baxımdan, iqtisadi artımın keyfiyyətcə yaxşılaşdırılması dövlətin iqtisadi siyasətinin prioritetinə çevrilmişdir. Belə olduğu təqdirdə, uğurlu iqtisadi siyasət uzun illər boyunca iqtisadi artım zəminində fayda verəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial - iqtisadi inkişafı, Dövlət Proqramı Bakı-2009
2. Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, Bakı, 2014
3. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Bakı, 2016
4. www.stat.gov.az - Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi
5. Azərbaycan Respublikası Mərkəzi Bankı, İllik hesabat, 2016
6. “İqtisadi nəzəriyyə” Dərslik, Moskva, 2008
7. www.president.az
8. Dövrü mətbuatda dərc edilmiş digər iqtisadi yazılar


## ABSTRACT


**Vusal Novruzov**


**FEATURES OF ECONOMIC GROWTH IN OUR COUNTRY**


The article analyzes current trends in economic growth in our country. The role of public policy in the development of the country's economy is being considered.


## РЕЗЮМЕ


**Вусал Новрузов**


**ОСОБЕННОСТИ ЭКОНОМИЧЕСКОГО РОСТА В НАШЕЙ СТРАНЕ**


В статье анализируются современные тенденции экономического роста в нашей стране. Рассматривается роль государственной политики в развитии экономики страны.

**TOĞRUL XƏLİLOV**
*AMEA Naxçıvan Bölməsi*
*x.toqrul@gmail.com*

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ NAXÇIVANDA ARXEOLOJİ TƏDQİQATLAR

**Açar sözlər:** *Naxçıvan, arxeoloji tədqiqatlar, abidələr*
**Key words:** *Nakhchivan, archaeological research, importance*
**Ключевые слова**: *Нахчыван, археологических исследование, памятников*

Dünyanın bir çox bölgələrində olduğu kimi Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda xeyli abidələr var. Onlar Azərbaycanın həm yazıya qədərki, həm də yazının meydana çıxmasından sonrakı tarixini öyrənmək üçün əvəzsiz mənbədir. Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətinin 1993-cü ildən başlayan ikinci dövründə, Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da bu sahəyə xüsusi fikir verilmişdir. Ulu öndərin siyasi kursunun layiqli davamçılarından olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tərəfindən bu sahəyə göstərilən yüksək diqqət və qayğı nəticəsində bir çox abidələrimiz tarixi qoruq sırasına daxil edilmişdir. Naxçıvanda bununla bağlı bir sıra sərancamlar verilərək tarixi abidələrimizə xüsusi diqqət və qayğı göstərilir.

2001-ci ildən başlayaraq respublikamızda paleolit problemləri üzrə aparılan elmi tədqiqat işləri beynəlxalq xarakter almışdır. Azərbaycan, Fransa, İtaliya, İspaniya, Rusiya, Gürcüstan və Hollandiya alimlərinin birgə iştirakı ilə beynəlxalq İNTAŞ-2000 adlı proqram hazırlanmışdır. Proqrama uyğun olaraq 2002-ci ilin sentyabr ayının 7-dən oktyabrın 1-dək Avropa alimləri Bakıya gələrək Azıx, Tağlar və s. yanaşı Qazma paleolit abidəsindən tapılmış arxeoloji və paleontoloji materialları tədqiq etmişlər (1, s. 6). Azıx, Damcılı, Daşsalahlı abidələri kimi Qazma mağarası da qədim daş dövrünə aid arxeoloji abidədir. Bu abidə Naxçıvanın ilk insan məskənlərindən biri olduğunu göstərir.

2001-2002-ci illərdə Heydər Əliyevin tövsiyyəsi ilə kompleks şəkildə Naxçıvan-Gəmiqaya ekspedisiyası təşkil olunmuşdur. Bununla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tərəfindən 2001-ci ilin aprelin 26-da "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" sərəncam imzalanmışdır. Sərancama əsasən Gəmiqaya abidəsinə arxeoloji ekspedisiya təşkil edilmişdir. Ekspedisiaya nəticəsində bir çox yeni qayaüstü təsvirlər və arxeoloji abidələr (Dəmyələr, İlkliqaya, Qumluq və s.) aşkar edilərək tədqiq olunmuşdur. Bu abidələrdən bəzək əşyaları (sırğalar, boyunbağılar, üzüklər və s.), gil qablar və digər arxeoloji materialllar tapılmışdır. Tədqiqat zamanı Dəmyələr nekropolundan tapılmış şüşə muncuqlar və Qumluq nekropoplundan əldə edilmiş iki ədəd tunc xəncər, Gəmiqaya ətyrafında qeydə alınmış yeni qayaüstü təsvirlər daha çox maraq doğurmuşdur. Onların öyrənilməsi nəticəsində Azərbaycan arxeologiyasında mühüm yer tutan bir sıra elmi nəticələr əldə olunmuşdur.

Dəmyələr nekropolundan tapılmış şüşə muncuqların öyrənilməsi zamanı məlum olmuşdur ki, Naxçıvandakı arxeoloji abidələrdən bu tip muncuqlar çox az aşkar edilmişdir (10, s. 84-89; 19, s. 114-118). Dəmyələr nekropolu ilə yanaşı Şahtaxtı və Qızılburundan bu tip muncuqlar tapılmışdır (6, s. 15). Xaçbulaq (17, s. 74), Dovşanlı, Xocalı, Borsunlu, Bəyimsorov abidələrindən (18, s. 50) tapılmış şüşə muncuqlar kimi onlar da Yaxın Şərq mədəniyyətinin Cənubi Qafqaza təsirini göstərən arxeoloji materiallardan olmuşdur.

Oumluq nekropolundan tapılan tunc xəncərlər (9, s. 81-85; 20, s. 117-121) formaca Gəncəçay hövzəsindən (5, s. 91), Xanlardan, Xaçbulaq yaylağından (3, s. 189), Mərdangöl (1, s. 26, 34), I Boyəhməd (6, s. 22) Kolanı (4, s. 57) nekropollarından tapılan Xocalı-Gədəbəy mədəniyyətinə aid xəncərlərlə bənzərlik təşkil edərək bu mədəniyyətin Naxçıvanın digər bölgələri kimi Ordubad rayonunu da əhatə etdiyini göstərmişdir.

Gilançay vadisinin Yuxarı hissəsindən tapılan yeni qayaüstü təsvirlər də Azərbaycan arxeologiyasında özünəməxsus yer tutur. Tapılan qayaüstü təsvirlər, yeni yurd yerlərindəki tikinti qalıqları onu göstərmişdir ki, qədim maldar tayfalar Qaranquş, Nəbi yurdu, Qızgəlin çuxuru, Göllər yaylaq yerləri ilə yanaşı ətraf ərazilərdə də məskunlaşmışlar. Gilançay vadisinin yuxarı hissəsi, Gəmiqaya ətrafı qədim sivilizasiya mərkəzlərindən biri olmuşdur (21, s. 54-62).

Gəmiqaya ətrafında aparılan kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar zamanı Tivi kəndinin ərazisindəki Haçaqaya yaşayış yeri ve nekropolundan Orta Tunc dövrünə aid sadə və boyalı qabların tapılması da maraqlı arxeoloji materiallardan olmuşdur. Çünki 2011-2012-ci tədqiqat ilinədək, yəni bu abidədən Orta Tunc dövrünə aid gil qablar aşkar olunana qədər Gəmiqaya abidəsi istisna olunmaqla Gilançay vadisinin yuxarı hissəsində istər 1968-

ci ildə, istərsə də sonrakı dövrlərdə (2002, 2005, 2008, 2009-cu illər) heç vaxt bu dövrə aid bidə qeydə alınmamışdır. Bu ərazidə qeydə alınmış Dəmyələr, İlikliqaya, Qumluq və s. abidələri Son Tunç-Erkən Dəmir dövrünə aid olmuşlar. Gəmiqaya qayaüstü təsvirləri (e.ə. IV-I minilliklər) ilə yanaşı Nəbi yurdunda aparılmış arxeoloji tədqiqatlar zamanı oradan e.ə. III minilliyin ikinci yarısına aid olan hər iki üzü cilalanmış keramika məmulatı və kurqanaltı sərdabə tipli qəbir aşkar olunmuşdur. Tədqiqat zamanı bu qəbirin quruluşuna görə Plovdağın Orta Tunc dövrü kurqanaltı sərdabələriylə və Telmankənd kurqanlarıyla oxşarlıq təşkil etdiyi müəyyən edilmişdir (24, s. 176). Haçaqayadan Orta Tunc dövrünə aid boyalı qabların tapılması bir daha sübut etmişdir ki, Tunc dövrünün bütün mərhələlərində Gilançay vadisinin yuxarı hissəsində insanlar məskunlaşmışlar. "Boyalı qablar mədəniyyəti" Gilançay vadisinin aşağı hissəsi ilə yanaşı onun yuxarı hissəsini, Gəmiqaya ətrafını da əhatə etmişdir (22, s. 67-74).

Tarixi abidələrimizin öyrənilməsi ilə yanaşı dövlət tərəfindən onlara yüksək diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məslisi sədri Vasif Talıbov cənablarının 2002-ci il 11 iyul tarixli sərəncamı ilə Naxçıvan şəhərində, Əcəmi seyrəngahında "Açıq Səma Altında Muzey" yaradılmışdır. 2003-cü ildə Mömünə Xatun və Qarabağlar türbəsində beynəlxalq təşkilatların iştirakı ilə bərpa və yenidənqurma işləri aparılmışdır. "Açıq Səma Altında Muzey"də Naxçıvan Muxtar Respublikanın 5 minillik tarixinə aid ayrı-ayrı abidələrdən toplanılan müxtəlif dövrlərə aid madi-mədəniyyət nümunələr (qayaüstü təsvirlər, daşdan düzəldilmiş qoç heykəlləri və kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr) nümayiş olunur.

Naxçıvan abidələrinin öyrənilməsi və qorunmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov cənabları tərəfindən 2005-ci ilin dekabırın 6-da imzalanmış "Naxçıvan Muxtar Respublikasının ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" sərancam mühüm yer tutur. Sərancama əsasən Naxçıvan Muxtar Respublikamızın bütün bölgələrinə ekspedisiyalar təşkil olunaraq bir çox yeni abidələr qeydə alınaraq pasportlaşdırılmış, Naxçıvan Abidələri Ensklopediyası nəşr olunmuşdur. Arxeoloji ekspedisiyaların bu gün uğurla davam etdirilməsi nəticəsində 1201 abidə qeydə alınmışdır. Onlardan 824 yeni abidədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov cənabları tərəfindən 2006-cı ilin iyun ayının 28-də imzalanmış "Nuh peyğənbərin məzarüstü türbəsinin bərpa edilməsi haqqında" sərancama əsasən türbə bərpa edilmişdir. Göstərilən diqqət və qayğı nəticəsində həmçinin Xanəgah kompleksi, Əshabi-Kəhf ziyəratgahı, Buzxana, İmamzadə kompleksi, Zorxana, Köhnə Qala və digər abidələr əsaslı təmir və bərpa olunmuşdur (22, s. 118). Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarı ilə 2006-ci ildə "Arpaçay Tarix- Mədəniyyət Qoruğu", "Gəmiqaya Tarix-Bədii Qoruğu" yaradılmışdır.

2008-ci ilin fevralın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən imzalanmış "Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən aparılması nəzərdə tutulan arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərancamdan sonra 2008-2012-cu illərdə Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvan Muxtar Respublikasının ərazisində də bir çox abidələrdə arxeoloji qazıntılar aparılmışdır (2; 3; 4). Bu dövrdə Şahtaxtı (Q. Ağayev), Xaraba Gilan (B. İbrahimov), Ovçulartəpəsi (V. Baxşəliyev, C.Marro, S. Aşurov), Oğlanqala (V. Baxşəliyev, L. Ristvet, S. Aşurov), I Maxta Kültəpəsi (S. Aşurov), Ərəbyengicə (A. Seyidov, V. Baxşəliyev), Xələc (A. Seyidov, V. Baxşəliyev), I Kültəpə (V. Əliyev), Meydantəpə (Ə. Bədəlov) Qazma mağarası (A. Zeynalov), Rəsul dərəsi (Q. İsmayılzadə, B. İbrahimli) abidələrində aparılan arxeoloji tədqiqat işləri nəticəsində maddi və mənəvi mədəniyyətimizlə bağlı mühüm elmi nəticələr əldə olunmuşdur. Ovçulartəpəsi, Oğlanqala, Duzdağ abidələrindəki arxeoloji qazıntılarda yerli mütəxəsislərlə yanaşı ABŞ, Almaniya, Macarıstan, İsveç, İtaliya, Suriya, Türkiyə və Fransa arxeoloqları da iştirak etmişlər. Plovdağda aşkar edilmiş Erkən Tunc dövrünün yaşayış və təsərrüfat tikililəri, Ovçulartəpəsi, I Maxta Kültəpəsi, Xələc abidələrindən tapılmış Proto Kür-Araz keramikası (8, s. 65-70; 11, s. 77, 86; 12, s. 32-34), Oğlanqaladan əldə olunmuş saray qalıqları, sütun altılıqları və üzərində mixi işarələr olan təsərrüfat küpünün parçaları (14, s. 339-348; 15, s. 271-276) və s. bu tip maraqlı arxeoloji materiallardandır. Ekspedisiyanın nəticələri ilə bağlı dünyanın bir çox yerlərindəki nüfuzlu jurnallarda dərc olunmuş elmi məqalələrdə Naxçıvanın qədim və zəngin tarixə malik olması geniş dünya ictimayyətinə çatdırılmışdır.

Ovçulartəpəsi, I Maxta Kültəpəsi, Xələc, Ərəbyengicə abidələrindən tapılmış Proto Kür-Araz keramikası Naxçıvanda Kür-Araz mədəniyyətinin formalaşması tarixinin qədim olduğunu sübut etmişdir. Tədqiqatçılar Ovçulartəpəsindən götürülən kömür analizinə əsasən abidənin e.ə. 4335-3980-cı illərə aid olduğunu qeyd etmişlər (12, s. 34). Xələcin Son Eneolit keramikası e.ə. 4300-3800-cü illərə aid edilmişdir. Oradan əldə olunmuş keramikada Uruk, Xalaf-Ubeyd mədəniyyətinin izləri aşkar olunmuşdur (11, s. 77-86). Xalaf, Ubeyid mədəniyyətinin izlərinə həmçinin Ovçulartəpəsində (12, s. 11-15), Xələcdə (28, s. 76) və Sirab kəndinin ərazisindəki Zirincli yaşayış yerində də rast gəlinmişdir (13, s. 21). Onlar gil qabların hissələrindən ibarətdir. Bu abidələrdən əldə olunmuş gil qabların bir qrupu Urmiya hövzəsinin və Şərqi Anadolunun arxeoloji materialları ilə də bənzərlik təşkil edir.

Naxçıvanda aparılan arxeoloji tədqiqatlar zamanı həm Gəmiqaya qayaüstü təsvirlərində, həm də, Eneolit, Tunc və Dəmir dövrü abidələrində Urmiya hövzəsi, Şərqi Anadolu, Yaxın Şərq mədəniyyətinə aid xüsusiyyətlərin olması bu sahədə mədəniyyətlərarası bağlılığı göstərən faktlardan olmuşdur. Töyrətəpə (25, s. 140), Babadərviş, Şomutəpə, İlanlıtəpə (26, s. 3-14) abidələrində olduğu kimi Naxçıvandakı I Kültəpə arxeoloji abidəsindən tapılmış müxtəlif növ taxıl növləri və onlara məxsus əmək alətləri (5, s. 211-212) hələ Eneolit dövründə Azərbaycanda erkən əkinçilik mədəniyyətinin inkişaf etdiyini sübut etmişdir. Bu abidənin Eneolit dövrünə aid təbəqəsindən aşkar olunmuş sağ ve ya sol böyrü üstə, uzadılmız vəziyyətdə dəfnetmə (5, s. 50) qədim Şumer, Ubeyd mədəniyyətində geniş yayılmışdır. Ön Asiyadakı Təpə Sialk, Təpə Cəmsid, Təpə Giyan, İkiçayarasındakı Təpə Gaur abidələrində bu tip dəfn edilmiş insan skletləri aşkar olunmuşdur ( 29, s. 18-19).

Naxçıvanın erkən əkinçi maldar tayfalarının mədəniyyəti ilə bağlı maraqlı arxeoloji materialllar Ovçulartəpəsi, Xələc, Damlama, I Maxta, Aşağı Daşarx, Sədərək, Xornu abidələrinin tədqiqi zamanı da aşkar edilmişdir (7, s. 15-25; 27, s. 25-36). II Kültəpə abidəsindən tapılmış dulusçuluq emalatxanası, çoxsaylı kürələr, içərisi boya ilə dolu olan küpə, bütöv boyalı qablar və xeyli miqdarda sadə və boyalı qab qırıqları yaşayış yerinin "Boyalı qablar mədəniyyəti"nin əsas istehsal ocağı olduğunu bir daha sübut etmişdir (4, s. 134). Oğlanqaladan əldə olunmuş saray qalıqları, sütun altılıqları və üzərində mixi işarələr olan təsərrüfat küpünün parçaları nəticəsində müəyyən edilmişdir ki, bu abidə Şərur düzənliyini əhatə edən, özünəməxsus yazı sisteminə malik kiçik bir dövlətin paytaxtı olmuşdur. Yaşayış yeri Atropatena dövründə mühüm inzibati mərkəzə çevrilmişdir (4„ s. 339-348; 15, s. 271-276). Duzdağ abidəsində aparılan araşdırmalar zamanı oradan Son Eneolit və Erkən Tunc dövrünə aid gil qablar və daş əmək alətləri tapılmışdır. Abidədə aparılan tədqiqatlar nəticəsində oranın dünyanın ən qədim düz mədənlərindən biri olduğu müəyyən edilmişdir. Duzdağdan aşkar edilmiş Son Eneolit və Erkən Tunc dövrünə aid gil qabların I Kültəpə, II Kültəpə abidələrində olduğu kimi daş əmək alətləri ilə birlikdə olması bu alətlərin daha geniş istifadə olunduğunu göstərmişdir (16, s. 229-244.). Maxtada aparılan arxeoloji tədqiqatlar zamanı bir çox yeni arxeoloji materiallar-metal istehsalı ilə bağlı olan daş qəlib və metalın ilkin əridilməsi üçün istifadə olunan ocaq aşkar edilmişdir. Onların içərisində üzərində iki ədəd balta və iki ədəd digər alətin tökülməsi üçün xüsusi yerlər olan daş qəlib daha çox maraq doğurmuşdur. Bunun səbəbi ondan ibarət olmuşdur ki, həmin tapıntıya qədər Kür-Araz mədəniyyətinə aid abidələrdən daş qəlib aşkar edilməmişdir. Bu dövr abidələrindən tapılan qəliblərin hamısı qildən düzəldilmişdir. Abidədən tapılmış metal istehsalı ilə bağlı olan daş qəlibin və metalın ilkin əridilməsi üçün istifadə olunan ocağın öyrənilməsi nəticəsində müəyyən olunmuşdur ki, yaşayış yerində metal istehsalının bütün mərhələləri icra olunmuşdur (4, s. 65-70).

Naxçıvan abidələrinin öyrənilməsi və qorunmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında" 2010-cu ilin 23 oktyabr tarixli, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yaradılması haqqında" 17 fevral 2011-ci il tarixli sərəncamları da da mühüm yer tutur.

Naxçıvanın qədim və zəngin tarixinin öyrənilməsində Naxçıvan Muxtar Respublikada keçirilən beynəlxalq simpoziumların əhəmiyyəti də böyükdür. "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan" (24-25 aprel 2009-cu il), "Naxçıvan: İlk yaşayış və şəhərsalma yeri kimi" (20-24 iyul 2011-ci il), "Naxçıvan İlkin şəhər və Duzdağ" (27-28 iyul 2012-ci il) və digər mövzularda keçirilən beynəlxalq simpoziumlarda edilən məruzələrdə Azərbaycanla yanaşı dünyanın bir çox alimləri iştirak etmişlər. "Naxçıvan: İlk yaşayış və şəhərsalma yeri kimi" (20-24 iyul 2011-ci il) mövzusunda keçirilən simpoziumda Türkiyə, İran, ABŞ, Ukrayna və Fransadan 13, Azərbaycandan 30, o cümlədən Bakıdan 10 tarixçi alim iştirak etmişdir. Onlar Naxçıvanın 5 min il bundan əvvəl şəhər kimi formalaşdığını, yəni şəhərsalma mədəniyyətinin Naxçıvanda 5 minilik tarixi olduğunu təsdiqləmiş və "Gəmiqaya" tarixi abidəsinin YUNESKO-nun Dünya İrsi Siyahısına daxil edilməsinin vacibliyini vurğulanmışlar. "Naxçıvan İlkin şəhər və Duzdağ" (27-28 iyul 2012-ci il) mövzusunda keçirilmiş simpoziumda Azərbaycanla yanaşı ABŞ, Fransa, İran, Gürcüstan, Türkiyə, Macarıstan, Ukrayna və Sank-Peterburqdan 19 nəfər tədqiqatçı iştirak etmişdir. Simpoziumda edilən məruzələrdə Duzdağın dünyanın ən qədim duz mədənlərindən biri olduğu təsdiqlənmişdir.

Aşkar edilmiş yeni abidələrin tədqiqi onu göstərir ki, Naxçıvan Muxtar Respublikamızın ərazisindəki hər daşın, hər torpağın altında bir tarix yaşayır. Abidələrimizin öyrənilməsi sahəsində əldə olunmuş naliyyətlər bir daha onu qeyd etməyə əsas verir ki, dünyanın ən qədim sivilaziya mərkəzlərindən biri Naxçıvan Muxtar Respublikasıdır.

**ƏDƏBİYYAT**


1. Azərbaycan arxeologiyası (daş dövrü), Altı cilddə, I cild, Bakı, Şərq-Qərb, 2008, 448 s.
2. Azərbaycanda arxeoloji tədqiqatlar-2008, Bakı, Xəzər Universiteti, 2009, 152 s.
3. Azərbaycanda arxeoloji tədqiqatlar-2009, Bakı, Xəzər Universiteti, 2010, 302 s.
4. Azərbaycanda arxeoloji tədqiqatlar-2010, Bakı, Xəzər Universiteti, 2011, 312 s.
5. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 314 с.

6. Алиев В. Г. Культура расписной kерамиkи в Азербайджане, Автореферат диссерт. на соисk. kанд. ист. наук, Баkу, 1966, 20 с.
7. Aşurov S., Əliyev O. Naxçıvanın erkən əkinçi maldar tayfalarının mədəniyyəti // Azərbaycan arxeologiyası,cild 13, № 1, s. 15-25.
8. Aşurov S.H., Baxşəliyev V.B., Hüseynova S.A., Əliyeva F.A., Əliyev O.K. I Maxta qədim yaşayış yerində 2010-cu il qazıntıları // Azərbaycanda arxeoloji tədqiqatlar-2010, Bakı: Xəzər Universiteti, 2010, s. 65-70.
9. Baxşəliyev V.B Ordubad rayonun Bist kəndi ətrafında son tunc və erkən dəmir dövrünə aid abidələr // Naxçıvan Müəllimlər İnstitutu, Xəbərlər, Naxçıvan, Məktəb, 2006, s.81-85.
10. Baxşəliyev V.B. Dəmyələr nekropolu Erkən Dəmir dövrünün yeni abidəsidir // AMEA NB Xəbərlər, № 4, Naxçıvan, Tusi, 2006,s. 84-89
11. Baxşəliyev V.B. Xələc keramikasının xüsusiyyətləri // AMEA NB Xəbərlər, cild 7, № 3 Naxçıvan, 2011, s. 77-86.
12. Baxşəliyev V., Marro C., Aşurov S. Ovçulartəpəsi (2006-2008-ci il tədqiqatlarının nəticələri) (Tirst Pre Liminary Report the 2006-2008 seasons), Bakı, Elm, 2010, 156 s.,
13. Baxşəliyev V.B., Novruzov Z. Sirabda arxeoloji araştırmalar, Bakı, Oskar, 2010, 160 s.
14. Baxşəliyev V.B., Ristvet L., Gopnik H., Aşurov S.H. Oğlanqalada 210-cu ildə aparılan arxeoloji tədqiqatların nəticələri // Azərbaycanda arxeoloji tədqiqatlar-210, Bakı, 2011, s. 339-348.
15. Baxşəliyev V.B. Oğlanqala Dəmir dövrünün şəhəri / Naxçıvan: İlk yaşayış və şəhərsalma yeri kimi (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları), Naxçıvan: 2012,Əcəmi NPB, s. 271-276.
16. Catherine M., Bakhshaliyev V., SANZ S (Nizami Aliyev'in işbirliğiyle). Duzdağı tuz madeninde arkeolojik çalışmalar (Nahçivan, Azerbeycan) //Türkiye Bilimler Akademisi Arkeoloji Dergisi (TÜBA-Ar)-13, 2010, s. 229-244.
17. Джафаров Г.Ф. Связи Азербайджана со странами Передней Азии и эпохи бронзы и раннего железа. Баку: Элм, 1984, 106 с.
18. Əhmədov Q. M. Bu günə necə gəlib çıxmışıq. Bakı: Az SSR EA, 1989, 118 s.
19. Xəlilov T.F. Dəmyələr nekropolundan aşkar olunmuş şüşə muncuqlar // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, Naxçıvan: 2007, №3, s. 114-118.
20. Xəlilov T.F. Qumluq nekropolundan tapılan tunc xəncərlər //AMEA Naxçıvan Bölməsinin Xəbərləri, Naxçıvan: 2008, №1, s. 117-121.
21. Xəlilov T.F.Yuxarı Gilançay vadisindən tapılan yeni qayaüstü təsvirlər //Azərbaycan arxeologiyası və etnoqrafiyası, Bakı: Nafta-Press, 2008, №2, s. 54-62.
22. Xəlilov T.F. Haçaqaya yaşayış yeri və nekropolundan tapılan keramikalar //AMEA Naxçıvan Bölməsinin Xəbərləri, Naxçıvan: 2013, cild 9, № 1, s. 67-74.
23. Mahmudov Y.M., Şükürov K. Naxçıvan: tarixi və abidələri. Bakı: Təhsil, 2007, 129 s.
24. Müseyibli N., Bədəlov Ə. Gəmiqaya qəbir abidələri / Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan (24-25 apreldə keçirilmiş beynəlxalq simpoziumun materialları), Naxçıvan: Əcəmi NPB, 2010, s. 175-181.
25. Нариманов И.Г. Культура древнейшего земледельческого-сkоводческого населения (эпохи энеолита VI-IV тыс. до н.э) Азербайджана. Баку: Элм, 1987,
26. Нариманов И.Г. О земледелии энеолита в Азербайджане // СА, 1971, № 3, с. 3-14.
27. Seyidov A. Naxçıvanın Eneolit abidələrinin Azərbaycan arxeologiyasında yeri // Azərbaycan arxeologiyası,cild 13, № 1, s. 25-36.
28. Seyidov A.Q., Baxşəliyev V.B. Xələc, Bakı, Elm, 2010, 218 s.
29. Yusifov Y.B. Qədim şərq tarixi, Bakı, Bakı Universiteti, 1993, 496 s.

**РЕЗЮМЕ**

**Тогрул Халилов**

**АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В ЭПОХУ НЕЗАВИСИМОСТИ В НАХЧЫВАНЕ**

Нахичевансkая Автономная Республиkа обладает древней и богатый историей. В этом регионе имеется значительное kоличество памятниkов относящихся k разным историчесkим периодам. Статье посвящена результатам, достигнутым по охране памятниkов и археологичесkим исследованиям Автономная Республиkи. Результаты, достигнутые в деле изучения памятниkов Нахчывана, лишний раз уkазывают на то, что Нахчывансkая Автономная Республиkа является одним из центров древних цивилизации мира.

**ABSTRACT**

**Togrul Khalilov**

**ARCHAEOLOGICAL INVESTIGATIONS IN THE EPOCH OF INDEPENDENCE OF NAKHCHIVAN**

Nakhchivan Autonomous Republic has ancient and reach history. There are considerable monuments about different historical period in this territory. Government takes care saving and learning of them highly. The article deal with successes which attain from archeological research and saving of our monument. These successes also point that Nakhchivan Autonomous Republic is one of most ancient civilization center of world.

**PAKİZƏ BABAYEVA**
*Naxçıvan Tibb Kolleci*

## NAXÇIVAN MUXTARİYYƏTİ ƏBƏDİDİR

*"Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir".*

**HEYDƏR ƏLİYEV**
*Azərbaycan xalqının ümummilli lideri*

Azərbaycanın ayrılmaz, tərkib hissəsi olan Naxçıvan diyarı kiçik əraziyə malik olmasına baxmayaraq, böyük strateji, geosiyasi əhəmiyyət kəsb etməklə, qovşağında yerləşdiyi üç ölkənin eyni zamanda başqa xarici dövlətlərin maraq dairəsində olmuşdur.

Azərbaycanın qədim və zəngin tarixə, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Azərbaycan Atabəylər-Eldəgizlər dövlətinin paytaxtı olmuş Naxçıvan şəhəri əsası Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbi ilə bütün şərqdə məhşurlaşmışdır. Naxçıvan əsrlər boyu gərgin siyasi mübarizə meydanı olmuş, XVIII-XIX əsrlərdə Naxçıvan ərazisi Rusiya ilə İran arasında toqquşmalar meydanına çevrilmişdir.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cumhuriyyətinin yaranması elan olundu. 1918-ci il noyabrında Araz-Türk Respublikası yarandı. Paytaxtı Naxçıvan şəhəri olan bu respublikanın ərazisi 16.000 km əhalisi isə 1 mln nəfərə yaxın idi.

1920-ci il 28 iyulda Naxçıvan Rusiya tərəfindən yenidən istila edildikdən sonra, 2 dekabrda Türkiyə və Ermənistan arasında bağlanan Gümrü müqaviləsinə görə Naxçıvanın ərazi bütövlüyü tanınır. Naxçıvan 28 dekabrda müstəqil dövlət, 1921-ci ildə 16 martda və 13 oktyabrda bağlanan Moskva və Qars müqaviləsinə görə muxtar ərazi kimi Azərbaycanın tərkibinə daxil olur. Qars müqaviləsi eyni zamanda Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikasının yaradılması zəruriliyini əsaslandırmış, bu mühüm işə hüquqi-siyasi zəmin hazırlamışdır. Həmin müqavilədə Naxçıvan diyarının ərazisi və sərhədləri də öz əksini tapmışdır.

Naxçıvanın taleyində M.K.Atatürkün təşəbbüsü ilə qəbul edilmiş Qars müqaviləsi xüsusi əhəmiyyətə malikdir. Türkiyənin Qars şəhərində 13-oktyabr 1921-ci ildə Türkiyyə, Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan arasınada imzalanmış bu müqavilədə Naxçıvanın Azərbaycan Respublikasının tərkibində qalması ilə yanaşı, Türkiyə Cumhuriyyətinin Naxçıvanın təminatçısı olması məsələsi də ayrıca maddə kimi qərara alınmışdır. Qars müqaviləsinion imzalanmasında Azərbaycan Respublikasını Behbud bəy Şaxtaxtinski təmsil etmişdir. 95 il bundan əvvəl böyük çətinliklər bahasına Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi elan olunmuş. Naxçıvan Muxtar Respublikasının yaradılmasında Türkiyə faktoru böyük rol oynamışdır. Bu müqavilənin müddətsiz bağlanmasının əhəmiyyəti də çox tədqirə layiqdir.

Azərbaycanda bolşeviklər hakimiyyətə gəldikdən sonra Naxçıvan 1921-ci il martın 16-dan başlayaraq əvvəlcə Naxçıvan SSR-si, 1923-cü il iyunun 16-dan Naxçıvan diyarı, 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar SSR, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Ermənistan Naxçıvan Muxtar Respublikasının Azərbaycanın tərkibində olmasını rəsmən qəbul etməyə məcbur olsada bu faktla razılaşa bilmir, ərazi iddialarında əl çəkmirdi.

90-cı illərdə SSR-nin dağılmasından istifadə edən Ermənistan hakimiyyət dairələri Azərbaycana o cümlədən də Naxçıvana hücum etməyə başladılar. Naxçıvan çox çətin vəziyyətdə qaldı. Azərbaycanla dəmir yolu, avtomobil yolu bağlandı, blokada şəraitində yaşamağa məcbur oldu.

1990-cı ildə yanvarın 19-da 20-nə keçən gecə Sovet qoşunlarının Bakıya hücumundan 8 saat əvvəl erməni silahlı dəstələri Naxçıvan Muxtar Respublikasına hücum etmiş, Kərki kəndini işğal etmişdir. Kərkidən gələn öz evlərindən, yurdlarından qovulan insanlar Şərur rayon uşaq xəstəxanasının köhnə binasında yerləşdirildilər. Bütün Şərur camaatı onlara kömək əlini uzatdı. Belə bir ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik, igidlik, yenilməzlik, cəsarət nümayiş etdirərək öz yurdlarını ermənilərin işğal təhlükəsindən xilas etdi, onun muxtariyyət statusunu qoruyub saxladı.

1990-cı il iyunun 22-də vətənin bu ağır günündə H.Əliyevin Naxçıvana gəlməsi bizim xilasımız, nicatımız demək idi. Bu qayıdış hər kəsdə ruh yüksəkliyi, gələcəyə ümid yartadı. Onun gəlişinə bütün naxçıvanlılar sevindi.

1990-cı il noyabrın 17-də Ali Sovetin birinci Sessiyasında Naxçıvan Muxtar Respublikanın adından “Sovet”, “Sosialist” sözləri çıxarıldı. Ali Sovetin adının dəyişdirilib Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. 1991-ci ilin sentyabrında H.Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məcklisinə sədr seçildi. Üçrəngli dövlət bayrağı qəbul olundu və onu Azərbaycan Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi barədə Azərbaycan Respublikasının Ali Soveti qarşısında vəsatət qaldırılması haqqında öz tarixi qərarını qəbul etdi. 31 Dekabr gününün Dünya Azərbaycanlıların Həmrəyliyi günü elan olunması kimi siyasi aksiyalar həyat keçirdi.

1991-ci ilin oktyabrın 18-də Müstəqillik elan olundu. Blokada da olan Naxçıvan Muxtar Respublikası ilə 1992-ci ildə Türkiyə və İran arasında Araz çayı üzərindən körpülər salındı.

1992-ci ilin 21 noyabrında H.Əliyevin rəhbərliyi altında 91-lərin müraciəti ilə Naxçıvanda Yeni Azərbaycan Partiyası yarandı. Partiyanın sədri Heydər Əliyev seçildi.

1993-cü ildə 15 iyunda H.Əliyev Azərbaycan xalqının tələbi ilə Bakıya getdi. Bu gün də tarixə “Qurtuluş günü” kimi yazıldı. Bu gündən başlayaraq H.Əliyevin Azərbaycan üçün gərgin fəaliyyət dövrü başladı.

1993-cü ildə möhtərəm Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra Naxçıvanda da sabitlik və dirçəlik üçün zəmin yaratdı.

1995-ci il noyabrn 12 də Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olundu. Referendium yolu ilə qəbul edilmiş yeni Konstitusiyaya əsasən Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində Muxtar Dövlətdir. Elə həmin gün həm də Azərbaycan və Naxçıvan parlamentlərinə ilk demokratik seçkilər keçirilmişdir.

Naxçıvan diyarı Azərbaycan xalqının azadlıq mübarizəsi və milli demokratik hərəkatı tarixinə parlaq səhifələr yazmışdır. Ümummilli lider Naxçıvanın Azərbaycanın dövlət müstəqilliyinin əldə olunması və möhkəmləndirilməsindəki tarixi rolunu yüksək qiymətləndirərək demişdir:

“Naxçıvan əhalisi azadlığa, müstəqilliyə, sərbəstliyə daha da çox can atanlardan olub. Azərbaycan iqtisadi islahatlar həyata keçirmək, həm respublikamızı bazar iqtisadiyyatı yolu ilə aparmaq, həm də ölkəmizdə hüquqi-demokratik dövlət qurmaq üçün Naxçıvan ilk təşəbbüskarlardandır. Fəxr edirəm ki, mən bu təşəbbüstlərin iştirakçısı olmuşam. Naxçıvan Muxtar Respublikasının muxtariyyət, dövlətçilik statusu daimidir, əbədidir”

XXI əsrdə Azərbaycanın hər yerində olduğu kimi Naxçıvan da yeni inkişaf mərhələsinə daxil oldu. Ulu öndər doğulub boya-başa çatdığı Naxçıvanın inkişafı, yüksəlişi üçün əlindən gələni əsirgəməyib. Naxçıvanın H.Əliyev imzalı (1969-1982 və müstəqillik illərində) işlərini sadaladıqca insan heyran qalır.

Dövlət qayğısı səhiyyə sahəsində də öz töhfələrini vermiş daim yüksələn xətt üzrə inkişaf etmişdir. Səhiyyənin tarixi muxtariyyətin tarixi ilə üst-üstə düşdüyündən hər bir səhiyyə işçisi üçün ikiqat bayramdır. Müstəqillik illərində Naxçıvan səhiyyəsinin əsl inkişaf və tərəqqi yoluna qədəm qoyması diqqətəlayiqdir. Həkimlərimiz daim diqqətdə olmuş, onların əməyi layiqincə qiymətləndirilmiş, fəxri fərmanlarla, orden və medallarla mükafatlandırılmışlar. Bu gün kollektivdə də əməkdar həkimlər çalışırlar.

Səhiyyə sahəsində görülən işlər ancaq quruculuq işləri ilə yekunlaşmır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin 2003-cü il 27 may tarixli sərəncamı ilə ölkədə ilk olaraq Naxçıvan Muxtar Respublikasının dövlət səhiyyə müəssisələrində bütün növ pullu xidmətlər ləğv edilmişdir. Səhiyyə sistemində tibb ocaqlarının müasir avadanlıqlar, müayinə və müalicə aparatları ilə təchiz edilməsi hər bir vətəndaşa öz sağlamlığını qorumağa imkan yaradır.

Uşaqlara göstərilən tibbi xidmətin keyfiyətinin yaxşılaşdırılması dövlətin sosial yönümlü siyasətinin prioritet istiqamətlərindən biridir.

Tibb işçilərinin ixtisas səviyyəsinin artırılması Naxçıvan Muxtar Respublikamızda da diqqət mərkəzində olmuşdur. Bu məqsədlə mütəmadi olaraq həkimlər, tələbələr, Bakı şəhəri, Türkiyyə respublikasının müxtəlif xəstəxanalarına göndərilir. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində ixtisaslı həkim və Naxçıvan Tibb Kollecində orta tibb işçilərinin hazırlanması Naxçıvan Muxtar Respublikanın səhiyyə ocaqlarının kadr təminatının ödənilməsinə imkan verir. 1931-ci ildə fəaliyyət başlayan Tibb Kolleci yenicə təmirdən çıxıb. Tələbələrin yaxşı təhsil alması üçün hər bir şərait yaradılıb. Müasir xəstəxanalarda isə biliklərini təkmilləşdirmək üçün təcrübə keçirlər. Burada Ali Məclisin Sədri cənab Vasif Talıbovun bir fikrini xatırlamaq yerinə düşər: “Yaxşı iş tələb etməzdən əvvəl, yaxşı şərait yaratmaq lazımdır”.

Naxçıvan Muxtar Respublikası müasirləşir, abadlaşır, beynəlxalq tədbirlər keçirilən bir məkana çevrilib. Bir sıra mühüm tədbirlər buradan keçirilib: Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə toplantısı, Azərbaycan – Türkiyə biznes formu və.s

İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlətin mədəniyyət nazirlərinin VI konfransında 2018-ci ildə Naxçıvan şəhəri İslam mədəniyyətinin paytaxtı elan olunmuş, həmçinin Azərbaycanın "Gənclər paytaxtı" seçilmişdir. Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin naliyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır. Naxçıvan İslam mədəniyyətinin paytaxtı və "Gənclər paytaxtı" adını layiqincə daşıdı, hər bir Naxçıvanlı doğma yurdu ilə qürur duydu.

Bu gün Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas elm, təhsil və ictimai mərkəzlərində biridir. Naxçıvan uğurlu inkişafı Azərbaycanın uğurlu inkişafı deməkdir.

Cənab Prezidentimiz İlham Əliyev Naxçıvanın bu gününü belə xarakterizə edir: "O Naxçıvan ki, əvvəllər qaranlıq, zülmət içində yaşayırdı. Bu gün Naxçıvan nurlu, işqılı şəhərdir". Naxçıvan diyarının keçdiyi 95 illik şərəfli bir yol daha böyük uğurlara doğru inamla irəliləyir.

Vətənin müstəqilliyi və ərazi bütövlüyü uğrunda igid oğul və qızlarımız canlarını qurban vermişlər. Bütün yüksəkliklərdən ucada dayanan şəhidlik zirvəsinə ucalmışlar. Bu zirvəyə yalnız vətən və xalq yolunda canını fəda etməkdən çəkinməyən cəsarəli, ləyaqətli insanlar yüksəlirlər. Şəhidlər heç bir zaman unudulmurlar, həmişə minnətdarlıq duyğuları ilə yada salınır, əziz xatirələrinə dərin ehtiram bəslənir. Bu gün gənclər də o ləyaqətli, şərəfli yolu davam etdirirlər.

Lələtəpə, Cocuk Mərcanlı zəfərindən sonra Günnüt qələbəsinin sevincini yaşayırıq. 2018-ci il mayın 20-dən 27-nə qədər Naxçıvan Muxtar Respublikasında baş vermiş Azərbaycan və Ermənistan Silahlı Qüvvələri arasında hərbi münaqişə nəticəsində Şərur rayonunun Günnüt kəndi (1992-ci ildə Erməni Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir), "Ağbulaq " yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı azad olunub. Naxçıvanda qazanılan bu qələbə Silahlı Qüvvələrimizin gücünü ortaya qoymaqla yanaşı, düşmənlərimizə böyük bir xəbərdarlıqdır.

Biz inanırıq ki güclü dövlətimiz, yenilməz ordumuz və ümummilli lider Heydər Əliyev siyasətinin layiqli davamçısı olan prezidentimiz, ali baş komandan İlham Əliyevin rəhbərliyi ilə tezliklə Azərbaycanın işğal altında olan torpaqları azad olunacaqdır. Sevilən prezidentimiz cənab İlham Əliyev Azərbaycanı inamla irəli aparır, milli mənafeləri qətiyyətlə qoruyur, xalqa xidmət edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Naxçıvan, Tarixi Atlası
2. Naxçıvan Muxtar Respublikasının Coğrafiyası, 2018

Akademik Məmmədov R.M Akademik Hacıyev İ.M

3. Naxçıvan Muxtar Respublikası.Əli Həsənov
4. Naxçıvan İctimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal
5. Naxçıvan Muxtar Respublikasının İctimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı


## ABSTRACT
## NAKHCHIVAN AUTONOMY – FOREVER


According to the contract signed between Turkey and Armenia, Gyumri on july 1920, 28 in Nakhchivan by Russia after new conquests, 2 december, the Nakhchivan of territorial integrity is recognized. On 28 december, the Nakhchivan autonomous territories are part of Azerbaijan as an independent state in 1921, according to Moscow and Kars treaties signed in october 13 and march 16. At the same time, the establishment of the Nakhchivan Autonomous Republic within Azerbaijan, the important work has prepared a legal basis to justify the necessity of the treaty of Kars. This agreement is reflected in the territory and borders of Nakhchivan region.


## РЕЗЮМЕ
## АВТОНОМИЯ НАХИЧЕВАНА ВЕЧНАЯ


После 28 июля 1920 года, когда Нахичевань снова был захвачен Россией, целостность территории Нахичевана признана по договору Гюмри, заключенному 2 декабря, между Турцией и Арменией. 28 декабря Нахичевань как независимое государство, а по заключенному Московскому и Карсскому договорам от 16 марта и 13 октября 1921 года как автономная территория входит в состав Азербайджана. Карсский договор одновременно обосновал необходимость создания Нахичеванской Автономной Республики в составе Азербайджана, подготовил правовую-политическую почву этого важного дела. В данном договоре нашли свое отражение территория и границы Нахичеванского края.

# II BÖLMƏ
# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TƏHSİL VƏ ƏDƏBİ MÜHİT

**SƏDAQƏT HƏSƏNOVA**
*Naxçıvan Dövlət Universiteti*

## ÇAĞDAŞ NAXÇIVAN ƏDƏBİ MÜHİTİNDƏ SÖZ-İFADƏ YARADICILIĞI MƏSƏLƏLƏRİ

**Açar sözlər**: *ədəbi dil, söz, ifadə, üslub, bədiilik*
**Key words:** *literary language, word, expression, style, word-master*
**Ключевые слова:** *литературный язык, слово, выражение, стиль, художественность*

Azərbaycan dilinin söz mülkü divarları mənalardan hörülmüş möhkəm təməlli möhtəşəm bir qaladır və qədim, ulu bir tarixə malikdir. Bu dildə sözlər zaman-zaman işləndikcə bir çox özəllik və keyfiyyətləri üzə çıxmışdır. Söz sərrafları zaman-zaman sözü daha yüksək mərtəbələrə qaldırmış, onun məna qatlarını açmağa çalışmışlar. Böyük Füzuli "söz qədrini artıran öz qədrini artirar" kimi bir kəlam söyləmişdir. Söz bilənlər sözün anlam zirvəsini nə qədər fəth etsələr də, yenə də özlərindən razı qalmamışlar. Halbuki onlar söz meydanında at oynadan qüdrətli qələm və söz sahibləri olmuşlar.

Ümumazərbaycan ədəbi mühitinin layiqli bir hissəsi olan Naxçıvan ədəbi mühiti də söz sərraflarının əməyi sayəsində şöhrət tapmış, müxtəlif tarixi dövrlərdə maraqlı inkişaf yolu keçmişdir. Bu mühitdə sözün dəyərini bilənlərdən, ona layiqli qiymət verənlər çox olmuş, XX yüzillikdə və çağdaş dövrümüzdə yaşayıb-yaradan ziyalılar ədəbi dilimizə xidmətdə seçkin fəaliyyət göstərmişlər.

XX yüzilin əvvəlində milli ziyalıların gərgin əməyi nəticəsində mədəniyyət və maariflə yanaşı, dilimiz sahəsində qazanılan uğurlarda Eynəlibəy Sultanovun da payı vardır. O hələ XIX yüzilin sonlarında Naxçıvan mədəni mühitini təmsil edən Cəlil Məmmədquluzadə, Paşa ağa Sultanov, Mirzə Cəlil Şürbi, Mirzə Ələkbər Xəlilov, M.T.Sidqi, Əsəd ağa Kəngərli, Qurbanəli Şərifzadə kimi görkəmli şəxsiyyətlərlə dostluq şəraitində yaradıcılığa başlamış, çoxsahəli fəaliyyətində demokratik fikirli ziyalı kimi diqqəti çəkmişdir. Bədii nəsri, ilk əlifba islahatı ilə bağlı çalışmaları, tərcüməçilik işləri onun çoxcəhətli yaradıcılığını təsdiq edir. Onun Azərbaycan ədəbi dilinin inkişafında da müəyyən qədər xidməti olmuşdur.

XX yüzilin əvvəli Azərbaycanda ədəbi dil problemləri mövzusunda mübahisələrin kəmiyyət və keyfiyyət cəhətdən genişləndiyi bir dövr olmuşdur. Həmin dövr ədəbi dilimizdə bir tərəfdən yüzilliklər boyu formalaşıb inklişaf etmiş Osmanlı dili elementləri işlənir, digər tərəfdən məişət leksikası ədəbi dilə gəlirdi. Bu iki istiqamət ədəbi dilə ikili münasibət formalaşdırırdı. Belə bir zamanda Eynəlibəy Sultanov ikinci istiqamətə meyil etmiş, məişət nitqini ədəbi dilə gətirməklə onu sadələşdirmək istəyən ziyalılar sırasında olmuşdur. Fikrimizcə, onun əsərlərinin dili məzmunundan yüksəkdə dayanır.

Eynəlibəy Sultanovun dilinə xas olan əlamətlərdən biri də budur ki, bir dil vahidinin yerinə bəzən həmin vahidin ifadə etdiyi mənanı saxlayaraq tamamilə başqa bir tərkibdə olan fərqli ifadələr işlənmişdir. "Acı masqara" hekayəsinin dilindən alınmış aşağıdakı örnək bu fikri əsaslandırır:

*Tacir arvadlarının içində çoxlarının könlündən keçirdi ki, qızlarını Ağamehdiyə versinlər, fəqət oğlanı qız elçiləmək adətdən dışarı olduğuna görə tütəklərinin dillərini içəri çəkib qismətə müntəzir idilər* (10, 25).

Bu örnəkdə "səsini çıxarmamaq", "dilini qısmaq", "susmaq" əvəzinə, "tütəklərinin dillərini içəri çəkmək" ifadəsi diqqəti çəkən maraqlı dil vahidlərindəndir. Ədibin dilində "ağzı plov ilə yumulmaq" kimi onun öz qələminə xas olan ifadələr də vardır. Bundan başqa, Eynəlibəy Sultanovun dilində "ürəyinə dağdağa düşmək" ifadəsidə var ki, o, məxsusluğu və fərqliliyi ilə diqqəti çəkir:

*Nurulla kişi gördü ki, xeyr, bu xına o xınadan deyil, arvad az qalır dəli olsun, özünün də ürəyinə dağdağa düşdü...* (10, 21).

Eynəlibəy Sultanovun dilində *hönkürtü vurub ağlamaq, ziyindən çıxmaq (həddini aşmaq), çörəkdən düşmək, pənpəcə salmaq (qapaz salmaq), yarımalim molla, başısarıqlılar milləti, dovşan çomağa rast gələn kimi rast gəlmək, xalqı çoban qoyunu qırxan kimi qırxmaq, ilan ağzından qurtulub qaçan qurbağa kimi qaçmaq, havar çəkmək, ləc düşmək, boğma basmaq* kimi maraqlı dil faktları vardır.

Məlumdur ki, fikrin ifadəsi üçün söz seçimi böyük və əsas məsələdir. Lakin, sənətkarın yeniliyi, sənətkarlığı yalnız sözləri seçməklə bitmir, bu prosesdə ən başlıca iş sözlərin təravətini hiss etdirməkdir. Bu

baxımdan, Naxçıvan ədəbi mühiti təmsil edən Müzəffər Nəsirlinin də özünəməxsus imzası vardır. Məsələn; aşağıdakı ifadələrdə duyulan yeni nəfəsin, yeni təravətin müəllifi şairin özüdür:

Duz-çörəkdən əziz nə var dünyada,
*Büllur duzu* gətirmişəm mən yada (8, 15).

Səməd Vurğunun da şah misraları,
Şeir, *söz baharım* yadıma düşür (8, 58).

Bu örnəklərdə "büllur duz", "söz baharı" ifadələrini şair özünəxas tərzdə işlətmiş, epitet və metonimiyadan istifadə ilə əsərlərinin bədii gücünü, təsir qüvvəsini artırmışdır.

Nə gözəldir söyləyirəm ürəkdən
Vətənimin gündüzü tək axşamı.
Arzum budur, mən olaydım dünyada
*Gündüzün də, axşamın da rəssamı* (9, 61).

Məlumdur ki, bizim dilimiz məcazlıq səviyyəsinə görə yüksəkdə duran dillərdəndir. "Gecənin, gündüzün rəssamı" ifadəsi də məcazlıq səviyyəsinə görə fərqlənən frazeoloji çalara malik olan ifadədir.

Çiçəklərə qonan səhər şəbnəmi
Parıldayır *yaşılköynək dərədə* (9, 88).

Şeir parçasındakı "yaşılköynək dərə" metaforik əlaməti ilə dildə yaranan uğurlu ifadələrdəndir.

Ürək bu *sevgidən çəkdi xəcalət,*
Nifrət alovları yandı, nəhayət –
Duydu ki, aldanıb saxta sözlərə,
O qurban olubdur *ovçu gözlərə* (9, 134).

Dedi: ər evinə *daşları dələn*
*Məhəbbət, sədaqət* aparıram mən (9, 136).

Ürəyin günəşli bahara dönür
Gözlərə nur, işıq payladıqca sən.
Daim sevinirsən, fərəhlənirsən
Onların *minnətdar təbəssümündən* (9, 148).

*Lalələrdən bayraq tutan*
Yurdumuzun üzü gülüb (9, 149).

Bu örnəklərdəki "sevgidən xəcalət çəkmək", "ovçu gözlər", "daşları dələn məhəbbət və sədaqət", "minnətdar təbəssüm", "lalələrdən bayraq tutmaq" ifadələri Müzəffər Nəsirlinin özünə məxsusdur.

İfadə icadlığı baxımdan, Əliyar Yusiflinin də dili maraqlıdır. Ana dilimizin imkanlarından geniş istifadə etməklə şair öz qələminə xas olan bir sıra ifadələr yaratmışdır:

Relslərin üstündə hey taqqataqdır,
Qatar qanad açıb axşamdan bəri.
Elə bil, dünyadan çıxaracaqdır
Dünyanın dərdini düşünənləri (11, 9).

Bu örnəkdə "dünyanın dərdini düşünənləri dünyadan çıxarmaq" ifadəsi ürəyəyatan və maraqlı dil faktlarından biridir.

Deyirəm ki, a çinar,
Müharibə adlanan
O dəhşətli kəlməni
Qoy silsin lüğətindən
Yer kürəsi, yer üzü.
Qoy bir daha insanlıq
Eşitməsin bu sözü! (11, 14).

"Müharibə" kəlməsini lüğətdən silmək" ifadəsi, əslində, məntiq baxımından çox layiqli və şairin arzu və istəklərini bildirən dil vahidlərindəndir. Şair bununla, yəni sözün lüğətlərdən silinməsi ilə dilimizin lüğət ehtiyatına xələl gəlməsindən danışmır. Oxucu düşünür ki, müharibə olmasa, onu ifadə edən söz də olmaz və beləliklə, bu sözün lüğətlərdən silinməsi təbii proseslərdən biri olar.

Əliyar Yusiflinin qələmindəki bir sıra ifadələr təravəti ilə diqqəti çəkir. Məsələn; *qartımış polis, məhbus sərnişin, gözü yolda qalmış məzar, ahdan yaranmış külək, sözün qoşun çəkməyi, kələ-kötür ifadələr, qəlbin səması, məğlub bayraq, taxıl sahəsinə mina əkmək, təbəssümlərin çiçək kimi dəstələnməyi, sözün durna qatarı, vətənin vətənə bərabər igid oğlu, dünyanın yaxasında dünya boyda ləkə, qarışıq cahan, hərbə*

*üsyan edən heykəl, gündüzün saçına dən ələnməsi, sözün qatarını itirmək, qanı medaltək döşə taxmaq, yaşamağın haçalı yolları, dördayaqlı mərdimazar, alov şəridi, qəmdən yapışıb yaşamaq, səadətə əl uzatmaq* və s.

Bədii dilin yığcamlığı, söz və ifadələrin yerində işlənməsi və poetiklik estetik səviyyəni yüksəldən amillərdəndir. Şairə Validə Hüseynovanın estetik dilində bu amillərin hamısı özünü göstərir:

Öz nağıl dünyasıyla
Yenə başlanıb gecə.
Gəncliyimin bağında
Külək əsir xəfifcə–
Gəl, yubanma!...

Sənsiz kimsəsizləşib
Tamam yalqız olmuşam.
Sevgi kəhkəşanında
Bir tək ulduz olmuşam (2, 22).

Şeirdə lirik qəhrəmanın istəyi maraqlı lakonik dillə verilmişdir. Bu şeirdə "gecənin nağıl dünyası", "gənclik bağında xəfif külək əsməsi", "sevgi kəhkəşanı", "məhəbbət dastanı" (məcazi mənada) uğurlu ifadələr kimi dilin estetikliyinə təsir edən maraqlı faktlardandır.

Yeni ifadələr yaratmaq prosesində Kamalə Ağayevanın da xidmətini unutmaq olmaz. Şairənin dilindəki *gələcək ünvanlı arzu, ömrün dastanı, üç ürəkli nəğməkar, eşqin insanı, mavi gəmi, məhəbbətli nifrət, yalanın mükafatı, bütün dünyanın qəhrəmanı, günəşi yatmayan gələcək, eşqin heykəli, məhəbbətin qanunları, həyatın səsi, ünvansız məkan, ağsaçlı tarix, dilsiz əsrlər, zəhmət əsəri, vüqarlanmaq, ulduzlanan sinə, könül töhfəsi, ismət qayası, zəhmətlə bəzənmək, könüllər kəhkəşanı, xəzan sahillər, ölüm nidalı söz, şeirləşən nur ümmanı, eşq imtahanı, söz mənzərəsi, kamalın əsrlər yaran sürəti, kədərin xoş gəlməyi, göllərin göy işığı, sevda otağı, məhəbbət gülü, söz çəməni, məhəbbət yağışları, zəhmət çölləri, qədimlik sərgisi, dostluq bağı, söz görüşü, musiqi asimanı, məhəbbət dili, şair ədalı, mehrin qələmi, səmavi boy, qəm bayrağı, həyat qanunu, sevda dünyası, ismət bəzəyi, paxıllanmaq, əxlaq xəstəliyi, böhtan çanağı, dastanlar qaynağı, yaşamaq təmənnası* və s. kimi uğurlu söz və ifadələr dil-üslub keyfiyyətləri baxımından bədii dilimizi zənginləşdirən faktlardandır.

Əbülfəz Muxtaroğlunun dili də ifadə yaradıcılılğı baxımdan diqqəti çəkir. Təbiət hadisələrindən şimşək çaxmasını öz şair duyğuları ilə "göylərin bağrına fişəng atmaq" kimi qələmə verən şair fərqli ifadələri ilə yeni mənalar təqdim edir. Qar talalarının səhər küləyi ilə səpələnməsini onun qövsi-qüzehdən təbrik göndərməsi kimi düşünülməsi, "qədəhi ləçəkdən olan gül-çiçəyin şehdən badə qaldırması" Əbülfəz Muxtaroğlunun dilinə məxsusdur. Onun poeziyasında buludların boşalması – yağış yağması toy günü gəlinin başına tökülən "şirinlik" hesab edilir:

Təbriklər göndərir qar talaları
Səhər küləyilə qövsi-qüzehdən.
Badələr qaldırır güllər, çiçəklər
Qədəhi ləçəkdən, badəsi şehdən (7, 23).

Əbülfəz Muxtaroğlunun dilində onun özünə xas olan bir sıra maraqlı ifadələr vardır. Bu baxımdan, "tarzən bulaqlar", "məhəbbət oğrusu", "özgələrə aş olmaq" və s. kimi ifadələr diqqəti çəkir.

Həm ədəbiyyatımıza, həm də ədəbi dilimizə xidmət edən Naxçıvan ədəbi mühitində də söz demək bacarığına malik olanlar çox olub. Onlardan biri də Vaqif Məmmədovdur. O deyir ki: "Söz var açıb deyir, söz var, danıram". Sözün poetik dilində "yarpaqlar nisgildən ağlayır", "ağaclar ruhları saxlayır":

Şehmi, göz yaşımı axan, süzülən?
Yarpaqlar nisgildən ağlayır, bəlkə?
Sibir tayqasında səf-səf düzülən
Ağaclar ruhları saxlayır bəlkə? (6, 11).

Vaqif Məmmədovun dilində həmin ifadə ilə həmqafiyə olan "söz oxşamaq" kimi maraqlı ifadə işlənir və o, "sözü əzizləmək" anlamında başa düşülür:

Şerə qiymət verən, söz oxşayandır
Halallıq qoruyan, düz oxşayandır (6, 26).

Şairin dilindəki *məsum gözəllik, insanlığın qızıl kəməri, sözə güvənmək, dərdin vəziri, dərdin şahı, qayğının hiyləni yuması, sirr sandığı, tale barı, saxta yalan, asılqandan asılan ağ günlər, şöhrət bazarı* kimi ifadələr beləl追indəndir. Əslində, yalanın özü elə saxtadır, onun qarşısında gələn "saxta" sözü onun mənfiliyini daha da artırır. Dilimizdə "yol" və "getmək" sözləri və yol getməyin tərzini bildirən çox sayda söz və ifadələr vardır. Məsələn; *adadım-addım yol getmək, asta yol getmək, sürətli yol getmək, düşünərək yol getmək* və s. Vaqif Məmmədovun dilində yol getməyin tərzini bildirən təkrar işlənən "şəhid" sözü diqqəti çəkir. "Şəhid-şəhid yol getmək" ifadəsi təzəliyi ilə seçilir:

Zülmətdən işığa addım-addım yox,
Sanki, *şəhid-şəhid yol gedirik* biz (6, 18).

Söz-ifadə yaradıcılığı baxımından Xanəli Kərimlinin dili bol faktlar verə bilir. Şairin dilində "fağır etmək" əvəzinə, "fağırlamaq", -lan[2] şəkilçisinin "tufan" sözünə qoşulması kimi fərqli faktlar da vardır:

Onunçün çoxalıb başından basan,
Adını, sanını oğurlayıblar.

Qəlbinin, süfrənin genişliyindən
Səni ovundurub f*ağırlayıbla*r (3, 17).

Dəniz *tufanlanmasa,*
Kükrəməsə, coşmasa,
Üfunət iyi gələr dənizdən... (3, 48).

Dilimizdə "tor qurmaq" ifadəsi vardır. Lakin, Xanəli Kərimlinin dilində "tor" sözünün -*la*$^2$ şəşilçisi ilə işlənməsi maraqlı fakt kimi diqqəti çəkir:

Quşlar *cələ* qurub artırmalarda,
Hörümçək *torlayıb* girəcəkləri (3, 55).

Bundan başqa, dilimizdə adlardan feil düzəltməyə xidmət edən –*al*$^2$ şəkilçisi də vardır. Lakin, bu şəkilçi Xanəli Kərimlinin qələmində "yox" sözünə qoşularaq üslub çaları yaradır:

Qəlbimizdə Tanrı xofu *yoxalıb,*
Şeytanın, iblisin sanı çoxalıb (3, 18)

Həmin şəkilçi şairin dilində "tox" sözünə də qoşularaq "tox olmaq"felinin sinonimi kimi işlənmişdir:

Bir anlıq ağrımın mində birini
Bölsələr, dünyanın acı *toxalar* (3, 117).

Dilimizin zəngin və anlam bolluğu ilə seçilən söz xəzinəsindən yerli-yerində istifadə edən Xanəli Kərimli onun semantik gücündən faydalanaraq yeni-yeni ifadələrin yaranmasında fəal iştirak etmişdir. Onun dilində *dərdlər qəbristanı, sərgərdan ruhlar, agahdar, qiblədar, elçi sifətli ilmə, süfrə varaqlar, yalanın dibi, yarısı ölmüş ilan, söz sultanları, miskin qurd, qurut vermək, dağlar Tanrısı, tarixbazlar, badə dostu, çay yoldaşı, fəzilət şahı, göyün əlifbası, köləlik təlimi, yedəyi yad əldə olan nökərlər, azğın ağıllar, qadağalar kəməndi, alamor sevgi, Allahın gözəllik təşbehi, ürəyə dərd ağacı əkmək, mənəvi zirvələrin şöhrət ilğımı* kimi maraqlı söz və ifadələr şairin dil-üslub keyfiyyətlərinin bolluğunu göstərir.

Söz-ifadə tapıntıları baxımından çağdaş Naxçıvan ədəbi mühitini təmsil edən şairlərdən biri kimi Asim Yadigarın da dili diqqəti çəkir:

Öyrətmə, sən Allah, özünə məni,
Öyrətmə, sən Allah, özünü mənə.
Çiçəyim bar verməz nakam sevgi tək
Düşərəm qəlbinin xəritəsinə (1, 109).

Son misradakı "qəlbin xəritəsi" yeniliyi ilə seçilən bədii dil faktlarındandır. Asim Yadigarın dilində maraqlı ifadə örnəkləri çoxdur: *gözlərdə yurd salan kədər, ürəyə süzülən yaş, hicrana daş atmaq, həqiqət donunda yalan sevgilər, qəlbin qəm ağacları, gözün qəm ilə sürmələnməyi, həsrəti köynək kimi geyinmək, ürəyin qəm buludu, sözdən qəriblik yağır, dərdin gözü, məhəbbət qoxusu, ürəyim sığal istəyir, könül sazı, sevda ilə baş-başa olmaq, həsrətə qənim olmaq, sevginin paxırı, insanı qəlbə əkmək, sözün utanmağı, həsrətin göyərməyi, ürəyə məhəbbət əkmək, bir eşqin xaraba ölkəsi, sevda çıçəkləri, sevgini dilə tutmaq, ürəyə qonaq çağırmaq* və s. maraqlı poetik söz-ifadə örnəkləridir.

Ötəri duyğular ruhuma yaddır,
Qəlbim hər sevgiyə köklənə bilmir.
Ötəri istəklər, ötəri hisslər
Neynim, ürəyimə yüklənə bilmir (1, 119).

Asim Yadigar "Saz kimi köynəkdən çıxdı gözəllər", "Qızların gözəllik yarışı başlar", "Qəlbimə dərd əkmisən, Gülü qönçədir hələ" "*İçim korun-korun yanacaq elə Ağlımla qəlbimin qovğalarında*" və s. kimi maraqlı və orijinal fikir örnəklərinin müəllifi kimi Çağdaş Naxçıvan ədəbi mühitini ləyaqətlə təmsil edən şairlərdəndir.

Bir gözəl qız səhər-axşam
Həsrət-həsrət gözlər məni.
Gözlərinin giləsində
Əzizləyər, gizlər məni (1, 120).

"Həsrət" qrammatik baxımdan isimdir, lakin onun qoşa işlənərək mürəkkəb söz kimi zərflik anlamında işlənməsi təkrarın özəlliklərindən biri kimi üslub incəliyinə xidmət edir.

Naxçıvan ədəbi mühitinin gənc nümayəndələrindən biri olan "Mənim gözüm sözə düşüb" deyən Qafar Qərib zəngin düşüncələrə malik və bu düşüncələrin ifadə imkanlarının bolluğundan istifadə etməyi bacaran şairdir.

Mənimki bir sözdü, o da heç olub,
Duyan, anlayan yox, söz də puç olub (4, 31).

Könül, bu can haqqa ödək,
Gəl səninlə yola gedək (4, 51).

“Sözün puç olmağı”, “könül ilə yola getmək” maraqlı və orijinal ifadələr kimi dəyərlidir. Deyim yeniliyi üslubun keyfiyyətini təyin edən cəhətlərdəndir. “Sözsüz dünya”nı cəhənnəm hesab edən şair “sözün küsməyi”ndən ehtiyat edir:

Yazmağa heç vaxtım olmur,
Çox çəkməz ki, söz də küsər (5, 17).

Qafar Qəribin dilində ədəbi dilimiz və üslubiyyatımız üçün bir sıra yeni və təravətli ifadələr tapmaq mümkündür: *səadət bazarı, tənqid yemək, xəstə ümid, çiçəklərin ruhu, ölüm orucu, baxışın gözdə küsməyi, dərdin qoşa buynuzu, dərdə şeir düzmək, dərdə göz dəymək, baş yerinə söz kəsmək, dərdi övladlığa götürmək, insanların dünyada müvəqqəti səfir olmağı, eşqin dini, qəmə bürünüb yatmaq, gözdən asılmış şəkil, qəmi uyuda bilməmək, ümidi qanatmaq, qəm bərəsinə düşmək, gözdən vəfasızlar dərəsinə düşmək, qızların könül qapan vaxtı, ruhu istintaqa sürükləmək, söz qılıncı ilə qisas almaq, Arazın belbağı (Xudafərin), yazmaq mərəzi, baxışla adam üyütmək, ürəyin yolunu bağlamaq, dərdi nəmər kimi paylamaq, dərdi şabaş kimi başa çəkmək* və s.

Azərbaycan sözləri böyük bir dəryanın saysız-hesabsız damlalarına bənzəyir. Heç kəs bu sözlərin hamısından istifadə edə bilmir, çünki bu, mümkün deyil. İnsanlar sözlərdən öz bacarıq və qabiliyyəti çərçivəsində, duyğu və düşüncələrini əks etdirəcək dərəcədə istifadə edirlər. Söz tarix boyu eyni məqamda və eyni anlamda işlənmir. O işləndikcə gözəlləşir, dərinləşir, mənaları çoxalır, söz sənətkarları onu zaman-zaman cilalayırlar və beləliklə, sözün daha çox ucalığa layiqliyini təsdiq edirlər. Sözdəki mənaları öz məqsədinə görə növbələşdirmək, onlardan ifadə edəcəyi fikrə daha çox uyğun olanları görmək və işlətmək əsl sənətkarın həmişə qoşulduğu proseslərdəndir. Belə sözlər danışıq dilinin ekspressivliyini, obrazlılığın orijinallığını daha da artırır. Sözsüz ki, bədii söz ustaları nitqin canlı, təsirli, obrazlı olması üçün ümumxalq təfəkkürünün ifadəsi olan söz və ifadələrdən bol-bol istifadə edirlər və yenilərini yaradırlar. Bu prosesdə Naxçıvan ədəbi mühitini təmsil edən sənətkarların da xidməti çoxdur.

## ƏDƏBİYYAT


1. Asim Yadigar, Hər şeyin sonu var, Naxçıvan, Qızıl Dağ, 2007
2. Hüseynova V. Ana laylası, Bakı, Azərnəşr, 1974
3. Kərimli X. Bu da bir nağıldı, Bakı, Nurlan, 2004
4. Qafar Qərib, Vətən daşdan başlayırmış, Bakı, ADPU
5. Qafar Qərib, Dünya üçbucaq imiş, Bakı, Şirvannəşr, 2004
6. Məmmədov V. Dənizə qar yağırdı, Bakı, Şirvannəşr, 2012
7. Muxtaroğlu Ə. Bir möhürbənd bəsimdir, Bakı, Təhsil, 1997
8. Nəsirli M.Araz sahilində, Bakı, Azərnəşr, 1962
9. Nəsirli M. İki ürək, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1974
10. Sultanov E. Seçilmiş hekayələri, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1966
11. Yusifli Ə. Dağlar yaraşığı, Bakı, Azərnəşr, 1964


## ABSTRACT


**Sadagat Hasanova**


**WORD-EXPRESSION ISSUES IN THE CONTEMPORARY NAKHCHIVAN LITERARY ENVIRONMENT**


In the article the attitude in modern Nakhchıvan´s literary environment to our languageis dealt with. In this regard, the works of word-masters, who wrote and created in XX century, are analyzed from thephrase-expression creative point of view. Words and phrases of literary persons of Nakhchıvan literary environment are investigated systematically. The authors of the mentioned phrases are defined. In the article consepts about word-phrase creativity are put forwardand the same thoughts are grounded on factual materials.


## РЕЗЮМЕ


**Садагат Гасанова**


**ВОПРОСЫ СОЗДАНИЯ СЛОВ-ВЫРАЖЕНИЙ В СОВРЕМЕННОЙ НАХЧЫВАНСКОЙ ЛИТЕРАТУРНОЙ СРЕДЕ**


В статье рассматривается отношение k языку в современной Нахчывансkой литературной среде. В этом отношении анализируются произведения художниkов словаXX столетия с точkи зрения создания слов-выражений. В системной форме исследуются новые слова и выражения, созданные литературными деятелямиНахчывансkой литературной среды. Определяются авторы, k kоторым относятся эти выражения.В статье выдвигается ряд соображений о создании слов-выражений, и эти идеи обосновываются фактичесkими материалами.

**HÜSEYN HƏŞİMLİ**
*Naxçıvan Dövlət Universiteti*
*huseyn.hashimli@mail.ru*

## UNUDULMUŞ TƏRCÜMƏÇİ

**Açar sözlər:** *Azərbaycan ədəbiyyatı, bədii tərcümə, Naxçıvanda ədəbi mühit, Əli Səbri Qasımov*
**Key words:** *Azerbaijan literature, literary translation, literary environment in Nakhchivan, Ali Sabri Kasimov*
**Ключевые слова:** *Азербайджанская литература, художественный перевод, литературная среда в Нахчыване, Али Сабри Касумов*

Naxçıvan ədəbi mühitində bədii tərcümənin zəngin tarixi vardır. İyirminci yüzillikdə də Azərbaycanda bədii tərcümə sənətinin inkişafında naxçıvanlı ədiblərin diqqətəlayiq xidmətləri olmuşdur ki, onlardan biri də Əli Səbri Qasımovdur (1892-1983). Qori Seminariyasının məzunu (1913) olan Əli Səbrinin yaradıcılıq fəaliyyəti çoxşaxəli və zəngindir. O, 1910-cu illərdən etibarən "Solğun çiçək", "Şəbi-hicran, yaxud müsibəti-Şadi", "Qaraçılar", "Gombul ayı balası", "Himayə", "Firuzun kədəri" kimi oxunaqlı roman, povest və hekayələr yazmışdır. Bununla yanaşı, Ə.S.Qasımov çoxillik yaradıcılığı boyunca sayı dörd yüzü ötən ədəbi-tənqidi və publisistik məqalələr, keçmiş mühitin müxtəlif səhifələrinə işıq salan xatirələr də qələmə almış, həmçinin bədii tərcümə sahəsində də diqqətəlayiq işlər görmüşdür. Lakin, istedadlı yazıçının tərcüməçilik fəaliyyəti indiyədək araşdırılmamış, yalnız bəzi ədəbiyyatşünaslar onun dilimizə çevirdiyi bir neçə əsərin adını çəkməklə kifayətlənmişlər. Bunları nəzərə alıb ədibin Azərbaycan bədii tərcümə sənəti tarixindəki xidmətlərinə müfəssəl nəzər salmaq istəyirik.

Yazıçının xatirələrində nəzərə çatdırdığı kimi, ədəbi mühitə gəlişində, o cümlədən bədii tərcüməyə meyil göstərməsində Qori Seminariyasında müəllimi olmuş məşhur pedaqoq və ədəbiyyatşünas Firidun bəy Köçərli mühüm rol oynamışdır. Əli Səbri Firidun bəyin seminariyada təhsil alan tələbələri ədəbi yaradıcılığa həvəsləndirdiyini minnətdarlıqla yada salaraq yazırdı: "Firidun bəyin bizdə ədəbiyyata böyük bir maraq oyatdığının nəticəsi olaraq Rəcəb Əfəndiyev, Ələkbər Abbasov (Qərib), Zülfüqar Ağakişibəyov və mən rus ədiblərindən Azərbaycan dilinə bir sıra əsərlər tərcümə etməyə və əsər yazmağa başladıq. Bunların çoxu Bakıda Orucovların mətbəəsində çap olundu" (bax: 5,s.269).

Əli Səbri Qasımov ədəbiyyat aləminə bədii tərcümə ilə qədəm qoymuşdur. Yazıçı ömrünün qocalıq çağlarında qələmə aldığı xatirələrində və müsahibələrində bədii tərcüməyə 1912-ci ildə başladığını, ilk olaraq da rus ədibi L.N.Tolstoyun dörd hekayəsini dilimizə çevirdiyini bildirsə də tədqiqat nəticəsində müəyyənləşdirdik ki, Ə.Səbrinin çapdan çıxmış ilk tərcümə kitabı 1911-ci ilə aiddir. On doqquz yaşlı seminariya tələbəsi ikən o, rus yazıçısı A.P.Çexovun "Qız istəmək" adlı bir pərdəli, yumoristik məzmunlu dramatik əsərini dilimizə çevirmişdi. Həmin tərcümə 1911-ci ildə Bakıda kitabça şəklində nəşr olunmuşdu (3).

Bunun ardınca isə Ə.S.Qasımov rus ədibi L.N.Tolstoydan tərcümələr etmişdir. Yazıçı xatirələrində bu barədə yazırdı: "Bir gün L.N.Tolstoyun hekayələrindən birini dilimizə tərcümə etdim... Cəsarətlənib həmin tərcüməni Firidun bəyə göstərdim... Firidun bəy məni növbətçi otağına çağırdı. Tərcüməni başdan-ayağacan oxudu. Bəzi yerlərini düzəltdi... Həvəslənib Tolstoydan daha üç hekayə tərcümə elədim. Firidun bəy bunların da çatışmazlıqlarını aradan qaldırdı. Bu tərcümələr "Dörd hekayə" adı ilə bir azdan Bakıda ... çapdan çıxdı. Tərcümələr üçün mənə 28 manat pul göndərdilər" (13.s.138). Əli Səbrinin L.N.Tolstoydan çevirdiyi "İlyas", "Fransuaza", "Kareni Vasilyeviçin sərgüzəşti", "Fəhlə Yemelyan və boş baraban" adlı həmin tərcümələr 1912-ci ildə "Dörd hekayə" adı ilə Bakıda Orucov qardaşlarının mətbəəsində nəşr edilmişdi (15). 109 səhifəlik bu kitab, ədəbiyyatşünas Alməmməd Alməmmədovun qeyd etdiyi kimi: "L.Tolstoyun o vaxtadək Azərbaycan dilində nəşr olunan kitablarının həcm etibarilə ən böyüyü idi" (1, s.129).

Əli Səbri Qasımov Bakıda çıxan "İqbal" qəzetinin 13 oktyabr 1913-cü il tarixli sayında dərc olunmuş "Solğun çiçək" haqqında" adlı məqaləsində də L.N.Tolstoydan etdiyi həmin tərcümələr üzərində müəllimi Firidun bəy Köçərlinin dəyərli redaktə işini, həmçinin ədəbi dildə sadəlik, xəlqilik, lüzumsuz alınma sözlərə yer verilməməsi barədə qiymətli tövsiyələrini minnətdarlıqla etiraf etmişdir. Məqalədə oxuyuruq: "Solğun çiçək"i yazmamışdan qabaq (yazıçının 1913-cü ildə Bakıda nəşr olunmuş eyniadlı romanı nəzərdə tutulur - H.H.) Tolstoyun bir neçə hekayələrini tərcümə etdikdən sonra Firidun bəy həzrətlərinə təshih üçün vermişdim. Zati-aliləri isə Osmanlı şivəsinə təqlidən yazılan sətirləri pozub, öz şivəmizə döndərmişdi... Gələcəkdə belə xətalardan özümü saxlamağı ümid edirəm... Möhtərəm ustadımız Firidun bəy həzrətlərinin "Ana dili millətin mənəvi diriliyidir", "Həyatın mayəsi mənziləsindədir", "Onu əziz tutmaq hər kəsə borcdur" kəlamı unudulmayacaqdır" (10) .

Bakıda uşaqlar üçün çıxan "Məktəb" jurnalının 22 may 1912-ci il tarixli 13-cü sayında oxuculara çatdırılmış "Kəndli və Su adamı" adlı əsər də Əli Səbrinin L.N.Tolstoydan tərcüməsi kimi maraq doğurur (16, s.201-202). Jurnalda mətnin sonunda verilən "Qori, Əli Qasımov" qeydi tələbə mütərcimin bu əsəri həmin şəhərdə təhsil aldığı vaxt dilimizə çevirdiyini göstərir.Bəlli olduğu kimi, Lev Tolstoy uşaqlar üçün bir sıra nağıllar və təmsillər də yazmışdır ki, "Kəndli və Su adamı" da onlardan biridir. Əsər orijinalda «Мужик и водяной» adlanır (18, s.207).

Həcmcə kiçik olmasına baxmayaraq, bu alleqorik əsər mühüm ibrətamiz məzmuna malikdir. Baltası çaya düşmüş kəndli Su adamının göstərdiyi qızıl və gümüş baltaların ona aid olmadığını bildirir. Axırda Su adamı kəndlinin öz baltasını çaydan çıxarıb ona göstərəndə təsdiq cavabı alır. Saf mənəviyyatlı, doğrucul kəndlinin belə davranışını bəyənən Su adamı qızıl və gümüş baltaları da ona bağışlayır. Bu əhvalatı eşidən tamahkar bir kəndli qızıl balta ələ keçirmək niyyəti ilə həmin çayın sahilinə gəlir. Lakin, Su adamı onun yalanlarına aldanmır, çayın dərinliyinə çəkilərək nəinki qızıl baltanı, hətta kəndlinin suya atdığını da ona vermir. Kəndli kor-peşiman evinə qayıdır. Hekayədə düzlük, həqiqətpərəstlik, mənəvi ləyaqətin maddiyyatdan üstün tutulması, bu yüksək keyfiyyətlərin mükafatlandırılmasına inam ideyası təbliğ olunur. Uşaqların mənəvi tərbiyəsində özünəməxsus əhəmiyyət daşıyan bu əsəri Əli Səbri məhz həmin məziyyətlərinə görə dilimizə çevirərək "Məktəb" jurnalının oxucularına çatdırmışdı.

1913-cü ildə isə Əli Səbri ilə Abbas Qafarovun tərcüməsində "Gözəl hekayələr" adlı kitabça Bakıda Orucov qardaşlarının nəşriyyatında çap olunmuşdu. Otuz yeddi səhifəlik həmin kitabçada rus ədəbiyyatından tərcümə olunmuş aşağıdakı dörd hekayə verilmişdi: "Cümlə millət üçün Allah birdir", "Nadinc uşaq", "Doktor Qaazın müxtəsər tərcümeyi-halı", "Çinovnikin ölməyi" (6). Kitabçanın ilk səhifəsindəki qeydlərdən öyrənirik ki, ilk üç hekayəni Ə. Səbri, sonuncunu isə A.Qafarov dilimizə çevirmişdir. Ədəbiyyatşünas A.Alməmmədov hekayələrin hamısını A.P.Çexovun əsərləri kimi sadalamışdır (1, s.120).

Əli Səbrinin tərcümə yaradıcılığının 1920-ci ilə qədərki ilk mərhələsinə aid diqqətəlayiq nümunələrdən biri də rus yazıçısı V.İ.Dmitriyevanın "Malış i Juçka" hekayəsini "Balaca və Xallı" adıyla tərcümə və təbdil edərək 1914-cü ildə Bakıda Orucov qardaşlarının nəşriyyatında çap etdirməsidir **(2)**. 62 səhifəlik bu kitab sadəcə tərcümə deyildi. Ə.Səbri rus yazıçısının əsərinin mövzusunu, məzmununu ümumən saxlasa da hadisə və obrazları Azərbaycan mühitinə, milli koloritə uyğunlaşdırmışdı. Bütün bunlara görə "Balaca və Xallı" tərcümə yox, tərcümə və təbdil kimi nəşr edilmişdi. Tədqiqat zamanı bir məqam da diqqətimizi çəkdi. Belə ki, 1914-cü ildə "Balaca oxuculara sovqat" kimi təqdim olunan "Balaca və Xallı" kitabının cildinin içəri üzündə "Oxucularımıza bir neçə söz" başlıqlı aşağıdakı mətn verilmişdir: "Rus dilində yazılmış bu hekayəni Zaqafqaz Seminariyasının direktoru F.A.Semyonov cənablarının xahişinə görə onun və bəzi müəllimlərimin hüzurunda müsəlman şöbəsində təhsiledici mübtədilərə oxudum. Seminariyada bala şagirdlərə hekayənin məzmunu artıq dərəcədə təsir etdi. O cəhətə bunun tərcüməsi barəsində möhtərəm müəllimim Firidun bəy Köçərli cənabları ilə məsləhətləşdim. O cənab da mənim bu fikrimi təsdiq etdi və onun köməkliyi ilə türkcəyə sadə ləhzədə tərcümə və təbdil etdim. Bununla zatyi-alilərinə təşəkkürümü izhar edirəm.

Əli Səbri"

Burada bir məsələyə də aydınlıq gətirmək istərdik. Qori Seminariyasının başqa bir naxçıvanlı məzunu Xəlil ağa Hacılarov 1957-ci ildə Firidun bəy Köçərli haqqında xatirələrində yazırdı: "Xatirimdədir, bizim tələbə yoldaşlarımızdan Əli Qasımov nəinki qəzetələrə tez-tez məqalələr göndərib çap etdirərdi, o, məşhur Çexovun "Juçka" adlı hekayəsini şirin dil ilə tərcümə edib, kitabça şəklində çap edilməsinə də müvəffəq oldu... Tələbələrin bu sahədəki fəaliyyətlərinə istiqamət yaradan Firidun bəy Köçərli idi" **(bax: 5, s.277-278).** Burada Xəlil ağa Hacılarov yanlışlığa yol vermişdir. Belə ki, Əli Səbri Qasımov rus yazıçısı A.P.Çexovun yox, V.İ.Dmitriyevanın "Malış i Juçka" əsərini tərcümə və təbdil etmişdi.

Əli Səbrinin tərcümə və təbdil üçün V.İ.Dmitriyevanın "Malış i Juçka" ("Balaca və Xallı") hekayəsini seçməsi təsadüfi deyildi. Belə ki, 1896-cı ildə yazılmış bu əsər qısa müddətdə balaca oxucuların böyük rəğbətini qazanmış, dəfələrlə nəşr olunmuşdu. Ə.Səbri "Balaca və Xallı" üzərində sovet dövründə yenidən işləmiş, 1926-cı ildə onu təbdil kimi çap etdirmişdir. Sonralar da bu sahədə yaradıcılıq axtarışları aparan müəllif əsərin əsas obrazı Balacanın – Xalidin sonrakı taleyini, böyüyüb həkim olmasını, vaxtı ilə ona təmənnasız qayğı göstərmiş Nəzakət müəlliməni ölümdən xilas etməsini və s. hadisələri də qələmə almışdır. "Bəlkə də, bu ikinci yaradıcılıq prosesi əsəri sonralar orijinal povest kimi təqdim etmək üçün müəllifə əsas vermişdir" **(8,s.47).**

Ə.Səbri süjeti lüzumsuz əlavələrlə ağırlaşdırmamış, hadisə və personajların yığcam və koloritli təsvirinə nail olmuşdur. Yazıçı faciəli hadisələri dərin ürək ağrısı ilə və təsirli detallarla canlandıra bilmişdir. Müəllifin məharəti ondadır ki, təhkiyə ilə psixologizmin üzvi vəhdətinə nail olmuş, bəhs edilən dövrün dolğun mənzərəsini yaratmışdır. Obrazların təqdimində bitkinlik aydın duyulur. Sürətlərin daxili və zahiri portretinin vəhdətdə yaradılması da qeyd olunmalıdır. Xüsusən Balacanın keçirdiyi hisslər, məşəqqətlərə sinə gərməsi məharətlə təsvir edilib. Oxucu sadə və təmiz hissiyyata malik Balacanı, Nəzakət müəlliməni dolğun bədii sürətlər kimi sevir. Nəzakət müəllimənin timsalında maarifçi qadınların xeyirxah və fədakar fəaliyyətini ümumiləşdirməyə səy göstərən yazıçı buna nail olmuşdur. "Balaca və Xallı"nın digər sürətlərinin təqdimində də müəllif onları səciyyəvi cizgi və detallarla tanıtmağa səy göstərmişdir.

Əsərin ümumi ruhunda, ideya-bədii arxitektonikasında həzin bir sentimentallığın duyulmasını da qeyd etmək gərəkdir. Xüsusən əsərin 1920-ci ilə qədərki dövrdə baş verən hadisələrinin təsvirində bu cəhət qabarıqdır. Bəllidir ki, həmin hissə 1914-cü ildə yazılmışdır. O dövrün Azərbaycan nəsrində özünü ətraflı şəkildə göstərən sentimental ovqatın təsiri, şübhəsiz ki, "Balaca və Xallı"dan da yan keçməmişdir. Hadisələrin ümumi ahənginə müvafiq təbiət təsvirlərinin də əsərdə müəyyən yer tutması razılıq doğurur. Ən nəhayət, onu deyək ki, Ə.Səbrinin bir sıra əsərlərində olduğu kimi, "Balaca və Xallı"da da Naxçıvan koloriti duyulmaqdadır. Balacanın ailəsinin əvvəl Təzəkənddə yaşaması, sonra Əylisə köçmələri və s. faktlar da bundan xəbər verir. Bütövlükdə "Balaca və Xallı" tərcümə və təbdildən-təbdilə, sonra isə əsasən orijinal povestə çevrilən maraqlı bədii nümunədir.

Əli Səbrinin ilk tərcümələri, o cümlədən "Balaca və Xallı" ədəbi mühitin diqqətini çəkmiş, bu tərcümələr barədə "İqbal", "Bəsirət", "Yeni iqbal" və digər mətbat orqanlarında məlumatlar verilmişdi. Dövrün məşhur tənqidçisi Seyid Hüseyn Kazımoğlu "İqbal" qəzetinin 12 iyun 1914-cü il tarixli sayında dərc etdirdiyi "Yaralarım" adlı məqaləsində Əli Səbrinin tərcüməçilik fəaliyyətini müsbət qiymətləndirərək yazırdı: "Cavan yazıçılarımızdan Əli Səbri əfəndinin tərcümə və təlifləri vardır... Tərcümələri və təlifləri bizdən ötrü əhəmiyyətsiz deyil. Bu günlərdə "Balaca və Xallı" adlı yeni bir tərcüməsi meydani-intişarə qoyulmuşdur" **(9)**. Əli Səbri sovet dövründə də bədii tərcümə ilə ardıcıl məşğul olmuşdur. O, rus yazıçısı M.F.Çumandrinin 1928-ci ildə yazdığı "Rablenin fabriki" romanını dilimizə çevirmiş, bu tərcümə 1930-cu ildə Bakıda Azərnəşrdə tanınmış ədib M.S.Ordubadinin redaktorluğu ilə nəşr olunmuşdur. Tərcümənin əvvəlində rus ədəbiyyatşünası A.Selivanovskinin müqəddiməsi də verilmişdir **(4, s. 3-7)**. İstedadlı mütərcim yaradıcılıq fəaliyyəti boyunca bəzi digər rus ədiblərindən də tərcümələr etmişdir. O cümlədən rus yazıçısı, Sovet İttifaqı Qəhrəmanı P.P.Verşiqoranın Dövlət mükafatına layiq görülmüş "Təmiz vicdanlı insanlar" adlı irihəcmli sənədli nəsr əsəri də Əli Səbrinin mükəmməl tərcüməsi sayəsində 1978-ci ildə Azərbaycan oxucularına çatdırılmışdır **(17).**

Əli Səbrinin gürcü ədəbiyyatından da tərcümələri vardır. O, tanınmış gürcü yazıçılarının bəzi hekayələrini müxtəlif vaxtlarda dilimizə çevirərək mətbuatda oxuculara çatdırmışdır: Vaja Pşavela "Darecan" **(11)**, Tedo Radzikaşvili "Ovçu" **(12)** və s. Ə.Səbrinin bu istiqamətdə səmərəli tərcüməçilik fəaliyyətinin nəticəsi kimi nəşr olunmuş "Gürcü hekayələri" adlı kitab da **(7)** oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Həmin kitabda gürcü ədəbiyyatından "Dar ağacı yanında", "Əsmət bibi", "Darecan", "Çobanın xatirələri", "Mənzərə", "Tinanın ləzgi rəqsi" kimi hekayələr toplanmışdı.

Əli Səbri bir sıra digər Şərq və Qərb klassiklərinin də əsərlərinin mahir tərcüməçisi kimi tanınmışdır. Məşhur ingilis ədibi Vilyam Şekspirin "Şıltaq qızın yumşalması" pyesinin Ə.Səbri tərəfindən tərcüməsi də uğurlu alınmış, bu tərcümə bir neçə dəfə nəşr olunmuşdur. Bakıda çıxan "Kommunist" qəzetinin 18 oktyabr 1928-ci il tarixli sayında verilmiş elandan öyrənirik ki, V.Şekspirin "Şıltaq qızın yumşalması" komediyası Əli Səbrinin tərcüməsində tamaşaya qoyulmaq üçün teatrın repertuarına daxil edilmişdir. Bu isə onu göstərir ki, Ə.Səbrinin həmin tərcüməsi 1920-ci illərin ikinci yarısına aiddir.

Əli Səbri məşhur hind ədibi Rabindranat Taqorun "Fəlakət" romanını da Azərbaycan dilinə yüksək səviyyədə çevirmişdir. Onu da xatırladaq ki, R.Taqorun bu romanı Azərbaycan dilində ilk dəfə 1929-cu ildə X.Əzizbəylinin tərcüməsində nəşr olunmuşdu. Lakin, sonradan bu əsərin dilimizə yenidən tərcüməsinə ehtiyac duyulurdu. Ə. Səbri bu çətin işin öhdəsindən məharətlə gəlmiş, R.Taqorun "Fəlakət" romanı Azərbaycan dilində onun tərcüməsində 1958-ci ildə çapdan çıxmışdır **(14)**. Mükəmməlliyi ilə razılıq doğuran bu tərcümə sovet dövründə, eləcə də respublikamız müstəqillik qazandıqdan sonra bir neçə dəfə çap edilmişdir. Əlavə olaraq onu da deyək ki, Əli Səbrinin R.Taqordan məhz "Fəlakət" romanını tərcümə etməsi təsadüfi deyildi. Bəllidir ki, hind ədibinin bu romanı əsasən sentimental səciyyəli idi və vaxtı ilə "Solğun çiçək", "Şəbi-hicran, yaxud müsibəti-Şadi", "Qaraçılar" və s. kimi dəyərli sentimentalist nəsr əsərləri yazmış Əli Səbrinin diqqətini həm də bu xüsusiyyətinə görə cəlb etmişdi.

Ümumiyyətlə, Əli Səbri Qasımov tərcümə üçün əsər seçərkən ədəbi nümunələrin ideya-bədii mükəmməlliyini həmişə nəzərə alır, təsadüfi əsərlərin tərcüməsinə meyil göstərmirdi. Bədii tərcümə işini ciddi yaradıcılıq sahəsi sayan ustad mütərcim Əli Səbri ömrünün qocalıq çağlarında qələmə aldığı xatirələrində yazırdı: "Tərcümə sahəsində bir sıra yaxşı işlərlə bərabər xeyli keyfiyyətsiz nümunələrə də rast gəlirəm. Özü də bu tərcümələrdə öz dilimizi yaxşı bilməmək, hərfi tərcüməçiliyə aludəçilik özünü göstərir" **(13, s.138-139).** Ə.Səbri isə həm doğma dilimizi, həm də tərcümə əsərinin aid olduğu dili mükəmməl bilən bir mütərcim kimi öz işinin öhdəsindən yüksək professionallıqla gəlirdi. Hər bir tərcümə üzərində böyük məsuliyyətlə, diqqətlə işləməsinin nəticəsidir ki, onun dilimizə çevirdiyi əsərlər dəfələrlə nəşr olunmuş, həmişə oxucular və ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Geniş yaradıcılıq diapazonuna malik Əli Səbri uzunmüddətli fəaliyyəti boyunca bir sıra elmi-kütləvi, ictimai-siyasi məzmunlu əsərləri də yüksək professionallıqla Azərbaycan dilinə tərcümə etmişdir. Həmçinin dilimizə çevrilmiş bir sıra tərcümə kitabları onun redaktorluğu ilə işıq üzü görmüşdür. İ.K.Oqulcanskinin "Həzi Aslanov" povesti (tərcümə edənlər: N.Nağıyev, S.Şamilov, Bakı, 1956), "Hindistan və Pakistan hekayələri" adlı kitab (tərcümə edənlər: Ə.Mehdiyeva, İ.İbrahimov, N.Əfəndiyeva, Bakı, 1955), M.Qorkinin on beş cildlik "Əsərləri"nin altıncı cildi (tərcümə edənlər: E.İbrahimov, M.Rzaquluzadə, C.Cəfərov,

Ə.Məmmədxanlı, Bakı, 1957) və s. bu qəbildəndir. Tədqiqatçı Cümşüd Əzimovun "Tərcümə prinsipləri" adlı kitabının da (Bakı, 1955) məhz professional mütərcim olan Ə.Səbrinin redaktorluğu ilə çapdan çıxmasını bu məqamda xatırlatmaq yerinə düşər.

Əli Səbri Qasımov Azərbaycan dilindən rus dilinə tərcümə sahəsində də əhəmiyyətli işlər görmüşdür. Məmməd Səid Ordubadi, Seyfulla Şamilov və başqa Azərbaycan yazıçılarının bəzi əsərlərinin rus dilinə tərcüməsi də onun qələminə məxsusdur. Bu baxımdan tanınmış yazıçı M.S.Ordubadinin "Dumanlı Təbriz" tarixi romanının dördüncü kitabının rus dilinə tərcüməsini xatırlatmaq yerinə düşər. Ə.Səbri məşhur ədəbiyyatşünas, akademik Feyzulla Qasımzadənin "Abbasqulu ağa Bakıxanov (Qüdsi): həyatı və yaradıcılığı", "Nəcəf bəy Vəzirov" adlı monoqrafik tədqiqatlarını da ruscaya çevirmiş, həmin tərcümələr 1958-ci ildə Bakıda rus dilində ayrıca kitablar şəklində nəşr olunmuşdur.

Deyilənlər göstərir ki, Naxçıvan ədəbi mühitinin istedadlı yetirməsi olan Əli Səbri Qasımovun tərcüməçilik fəaliyyəti də çoxşaxəli və zəngindir.

Ümumiyyətlə, Azərbaycan bədii tərcümə sənəti tarixində mühüm xidmətləri olan naxçıvanlı tərcüməçilərin, o cümlədən Əli Səbrinin yaradıcılığının ətraflı şəkildə araşdırılmasına ehtiyac var.

## ƏDƏBİYYAT


1. Alməmmədov A.M. Azərbaycan-rus ədəbi əlaqələri, Bakı, Yazıçı, 1982, 215 s.
2. Dmitriyeva V. Balaca və Xallı (ruscadan tərcümə və təbdil edən Ə.S.Qasımov), Bakı, Nəşriyyati-bəradəran-Orucov, 1914, 62 s.
3. Çexov A.P. Qız istəmək (bir pərdədən ibarət qayət müzhik bir vodevildir), (mütərcimi Ə.S.Qasımov, naşiri Ə.Ələkbərov), Bakı, 1911, 40 s.
4. Çumandrin M.F. Rablenin fabriki (çevirəni Ə.Səbri), Bakı, Azərnəşr, 1930, 270 s.
5. Firidun bəy Köçərlinin şəxsi arxivi (tərtib edən və nəşrə hazırlayanı M.Adilov), Bakı, Nurlan, 2006, 280 s.
6. Gözəl hekayələr (mütərcimi Ə.Qasımov, A.Qafarov), Bakı, Nəşriyyati-bəradəran- Orucov, 1913, 37 s.
7. Gürcü hekayələri (tərcümə edəni Ə.Səbri), Bakı, Azərnəşr, 1977, 136 s.
8. Həşimli H.M. Əli Səbri, Bakı, Nurlan, 2007, 142 s.
9. Kazımoğlu. Yaralarım, İqbal, qəzeti, Bakı, 12 iyun 1914, № 676
10.Qasımov Ə.S. Solğun çiçək haqqında, İqbal qəzeti, 13 oktyabr 1913, № 478
11. Pşavela V. Darecan (tərcümə edəni Ə.Səbri), Azərbaycan jurnalı, Bakı, 1976, № 4, s.160-170
12. Radzikaşvili T. Ovçu (tərcümə edəni Ə.Səbri), Azərbaycan jurnalı, 1970, № 10, s.174-179
13. Səbri Ə. Ömürdən yarpaq düşür, Bakı, Gənclik, 1983, 168 s.
14. Taqor R. Fəlakət (tərcümə edəni Ə.Səbri), Bakı, Azərnəşr,1958, 280 s.
15. Tolstoy L.N. Dörd hekayə (ruscadan mütərcimi Ə.S.Qasımov), naşiri: Bəradəran-Orucov, Bakı: 1912, 109 s.
16. Tolstoy L.N. Kəndli və Su adamı (tərcümə edəni Ə. Qasımov), Məktəb jurnalı, Bakı, 22 may 1912, № 13, s. 201-202
17. Verşiqora P.P. Təmiz vicdanlı insanlar (tərcümə edəni Ə.Səbri), Bakı, Gənclik, 1978, 400 s.
18.Толстой Л.Н. Мужик и водяной // Л.Н. Толстой. Собрание сочинений в 22 тт. Т.10. Москва: Художественная литература, 1982, стр.207


## ABSTRACT


**Huseyn Hashimli**


## FORGOTTEN TRANSLATOR


The article deals with the creativity of the forgotten literary Ali Sabri Kasimov (1892-1983). Ali Sabri takes an important place in the history of Azerbaijan literature. Ali Sabri Kasimov is one of the most prominent sentimentalism of the Azerbaijani literature of XX century. His prose is rich with deer humanistic sences and qualities. The article deals with the creativity of the forgotten translator Ali Sabri Kasimov. It explores the translation activity of Ali Sabri Kasimov in the 1910-1970 for the first time, analyzes his translations from the literatures of different peoples and establishes their specific features (A.P.Chekov, L.N.Tolstoy, W.Shakespeare, R.Taqor, W. Pshavela works and others). The article also studies the translations edited by Ali Sabri Kasimov.


## РЕЗЮМЕ


**Гусейн Гашимли**


## ЗАБЫТЫЙ ПЕРЕВОДЧИК


Статья посвящена творчеству забытого литератора Али Сабри Касумова (1892-1983). Али Сабри Касумов занимается значительное место в истории азербайджанской литературы. Он является одним из выдающихся представителей азербайджанской сентиментальистической литературы двадцатого века. Его проза пронизана гуманизмом, глубокими чувствами. В статье впервые в литературоведении исследуется переводческая деятельность Али Сабри Касумова в 1910-1970-ые годы. В работе анализируются переводы, сделанные литератором из литературы различных народов (произведения А.П.Чехова, Л.Н.Толстого, В.Шекспира, Р.Тагора, В.Пшавелы и др.), определяются их специфические особенности. В статье также рассматриваются образцы переводов, изданных под редакцией Али Сабри Касумова.

**ƏSGƏR QƏDİMOV**
*Naxçıvan Dövlət Universiteti*

# AŞIQ NABATIN HƏYATI VƏ YARADICILIQ YOLU

**Açar sözlər:** *Aşıq Nabat, Aşıq Hüseyn Arif, Şərur, gəraylı, qoşma, dastan-rəvayət*
**Key words:** *Ashuq Nabat, Ashuq Huseyn Arif, gereili, goshma, saga-narration*
**Ключевые слова:** *Ашуг Набат, Ашуг Гусейн Ариф, Шарур, герайли, гошма, легенда-предание*

Naxçıvan aşıqları içərisində yaradıcı aşıq və el şairəsi kimi tanınmış şərurlu Aşıq Nabatın da xüsusi yeri və yaradıcı dəsti-xətti vardır. "Naxçıvan folkloru" antologiyasına Aşıq Nabatın üç şeiri nümunə salınmış, acınacaqlı taleyi haqqında məlumat verilmişdir (1,s. 448-449). "Şərur folkloru" kitabında da Aşıq Nabatın həyatı və şeirləri haqqında müəyyən qədər məlumat vardır (4,s.18-23). Bu məlumatlardan aydın olur ki, aşıq Nabat 1914-cü ildə Şərur rayonunun Parçı kəndində doğulmuşdur.

Aşıq Nabatın həyatı və taleyi acınacaqlı olmuş, həyat yoldaşı öldükdən sonra qardaşı onu sevmədiyi bir adama zorla ərə vermək istəmişdir. Lakin, sevmədiyi bir adama ərə getməyi heysiyyətinə sığışdırmayan Aşıq Nabat toy günü pəncərədən atılıb qaçmış və tərki-vətən olub Qarabağa gedərək bir müddət Gəncədə, sonra isə Yevlax və Bərdədə yaşamaq məcburiyyətində qalmışdır. Bundan sora valideynləri onunla danışmamışlar. Gənc yaşlarında Aşıq Nabat ata-anasını itirmiş, ailə həyatı da uğurlu olmamışdır.

Aşıq Nabat Bərdədə Aşq Musanın yanında aşıq sənətini öyrənmiş, məclislərdə iştirak etmiş, yaşlı vaxtlarında yenidən öz vətəni Şərura qayıtmış və 1973-cü ilin oktyabr ayının 3-də vəfat etmişdir.

"Naxçıvan folkloru" antologiyasında verilən məlumata görə Aşıq Nabatın aşıqlığı ilə bərabər, gözəl səsi də olmuş və məlahətli səsinə görə el içində «Sona bülbül» adı ilə çağırılmışdır. Yazıçı və publisist Budaq Təhməzin və Məhərrəm Cəfərlinin tərtibi ilə çap olunmuş "Aşıq Nabat" (2) adlı kitabçadan məlum olur ki, Azərbaycanın Səməd Vurğun, Aşıq Əsəd, Aşıq Musa, Borsunlu Məzahir, Pərvanə Həsən, Aşıq Teymur kimi şair və aşıqları aşıq Nabatın səsini və sənətini yüksək qiymtləndirmişlər.

Aşıq Nabatın sıxıntılı həyatı və taleyi onun tərcümeyi-hal xarakterli şeirlərində də ifadə olunmuşdur. Vətənindən didərgin düşüb qürbət eldə məskunlaşan Aşıq Nabat ömrü boyu doğma vətəni Şərurun dərdini çəkmiş, özünün vətən dərdini qürbətdə qələmə aldığı qəmli şeirlərinə hopdurmrşdur:

Qürbət eldə bir bağ saldım,
Dedim qönçə, gül yaxşıdır.
Dərdimi söylədim ona,
Dedi: məlhəm dil yaxşıdır.

Çatanda yetgin yaşıma,
Həsrət qaldım sirdaşıma.
Gör nələr gəldi başıma,
İndi bildim el yaxşıdır.

Aşıq Nabat, saz çalınca,
Yurdsuz, yuvasız qalınca,
Qürbət eldə xan olunca,
Öz yerində qul yaxşıdır.

Aşığın "Mən oldum" rədifli qoşmasından məlum olur ki, onun həyatı və taleyinin acınacaqlı çağı 1932-ci ilə aid olmuşdur. Bacısı Şərəbanı xanımın xatirələrindən məlum olur ki, Aşıq Nabatın birinci əri Məhəmməd kolxoz quruluşu dövründə Şərurda milis şöbəsində işləyirmiş. Qolçomaqlar onu öldürmüş, bundan sonra Aşıq Nabatın taleyi acınacaqlı olmuş, o, Bərdədə Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Musanın ocağına sığınmışdır. Aşağıdakı qoşmasında aşıq Nabat açıq-aşkar həmin ildə toyunun tərs çalındığını, "əzəlki ilqardan döndüyünü" və başına qara geydiyini bildirir:

Min doqquz yüz otuz ikinci ildə
Yanan çıraqları sönən mən oldum.
Toyum tərs çalındı, qapım bağlandı,
Əzəlki ilqardan dönən mən oldum.

Cavankən bağlandı başıma qara,
Hay vurdum, kimsəm yox, tapmadım çara.
Yalvardım, qoymayın təkcə məzara,
Ağlayıb ciyəri yanan mən oldum.

Qoşmanın üçüncü bəndindən məlum olur ki, Aşıq Nabatın qovuşa bilmədiyi sevgilisinin adı Məhəmməd imiş:

Mənim yarım gözəllərin xasıydı,
Əyninə geydiyi qəm libasıydı.
Bu, toy deyil, Məhəmmədin yasıydı,
Paytaxtı yan üstə çönən mən oldum.

Mənim günüm günortadan batıbdı,
Zalım düşmən nə pusquda yatıbdı.
Qaymaq dodaqlarım qana batıbdı,
Nabatam, çırağı sönən mən oldum.

Həyatında baş verən bu uğursuzluq Aşıq Nabatın xatirindən çıxmamış və o, bu kədərli həyatı üçün həmişə qəmli şeirlər yazıb baxtından acı-acı şikayətlənmişdir:

Başına döndüyüm vəfalı dostlar,
Siz Allah, tez tapın itən baxtımı.
Şəlaləli dağda, göy çəmənlikdə
Köksüz ağac kimi bitən baxtımı.

Dörd bir yanım qaranlıqdı, adadı,
Fələk tutub qollarımdan budadı.
Aman, qoyma, o, dəryada, sudadı,
Qərq olub dəryada, batan baxtımı.

Mən onu axtardım boranda, qarda,
Gözüm ağlar qaldı, can intizarda.
Bir mənə söyləyin, gördünüz harda,
Çağırın, arayın yatan baxtımı.

Biryolluq unudub gülüzlü yarı,
Növrəstə cavandım, eylədi qarı.
Nabatam, gətirin, bir görüm barı,
Məni qürbətlərə atan baxtımı.

Vətənindən didərgin düşüb qürbət eldə məskunlaşan Aşıq Nabat ömrünün sonuna qədər doğma vətəni Şərurun dərdini şəkmiş, özünün vətən dərdini qürbətdə qələmə aldığı qəmli şeirlərinə hopdurmuşdur.

Aqibətindən, taleyindən şikayət Aşıq Nabatın "Mənim" rədifli qoşmasında da öz əksini tapmışdır. Bu qoşmasında Aşıq Nabat öz taleyindən şikayətini qəmli səhnələrin fonunda, yanıqlı bir tərzdə ifadə edir:

Taleyin hökmüylə gələn qardaşlar,
İtirmişəm, tapın ellərim mənim.
Çərxi-fələk saldı məni toruna,
Ağlamır, lal olub dillərim mənim.

Bağban olub, bağda barı görmədim,
Budağında heyva-narı görmədim.
Nabatam, vəfalı yarı görmədim,
Açılmamış soldu güllərim mənim.

Bu ayrılıq kədəri Aşıq Nabatın gəraylılarında da özünü göstərmişdir. Xalq bayatılarının üslubuna uyğun olan gəraylılarında Aşıq Nabatın talehdən və dünyanın gərdişindən şikayətləri onun həyata bağlılığı ilə birləşir və bədii vəhdətdə verilir:

Mən ki, xoşbəxt olmamışam
Bu dünyada, bu dünyada.
Bu həyatdan doymamışam
Bu dünyada, bu dünyada.

Taleyin hökmüdür belə,
Məni atıb eldən-elə.
Dərviş olub, düşdüm çölə
Bu dünyada, bu dünyada.

Gözlərimdə qalıb arzum,
Qışa dönüb bahar, yazım.
Küsüb, çalmır telli sazım
Bu dünyada, bu dünyada.

Gəraylı Aşıq Nabatın şəxsi həyatı və taleyi ilə bağlı qələmə alınsa da, ictimai məzmun daşıyır. Çünki gəraylıda Aşıq Nabatın şəxsi kədəri ilə onun ictimai vətəndaşlıq kədəri birləşir.Vətən dərdi Aşıq Nabat üçün var-dövlətdən, hər şeydən qiymətlidir:

İstəməm dövləti, varı,
Könlüm axır vətən sarı.
Tapmadım vəfalı yarı
Bu dünyada, bu dünyada.

Nabat, harda qaldı elin?
Oğulsuz bükülüb belin.
Lal olub, danışmır dilin
Bu dünyada, bu dünyada.

Qarabağda yaşadığı gənclik çağlarında Aşıq Nabatı sevənlər, onunla evlənmək istəyənlər də olmuşdur. Lakin, Aşıq Nabat sevgilisi Məhəmmədi unuda bilmədiyi üçün onu istəyən şəxsə etiraz etmiş və ona şeirlə cavab vermişdir:

Bu azad ölkədə yar sevən oğlan,
Yarın var, özgənin yarına dəymə.
Zəhmət çək, bağ bitir, becər, ol bağban,
Qeyri bağçaların barına dəymə.

Uzun müddət qürbətdə tənha yaşayan Aşıq Nabat çox sonralar ailə qurmuş və bir qızı olmuşdur. Lakin buna baxmayaraq sentimental təbiətli bu qadın vətən, el-oba dərdindən yaxasını qurtara bilməmişdir. Bu dərd sonralar Aşıq Nabatın qürbətdə xəstələnib yatağa düşməsinə səbəb olmuşdur. Xəstəxanada yatan Aşıq Nabat onu müalicə edən həkimə müraciətlə yazdığı bir şeirində də özünün vətən dərdini ifadə etmişdir. Bu şeirdən Aşıq Nabatın qürbətdə Qazaxlı Rza adlı bir şəxslə ailə qurduğu və Kəmalə adında bir qızı olduğu da məlum olur:

Gəlmişəm dərdimi sənə söyləyim,
Yoxdur bu dərdimin çarası, həkim.
Bir qızım var, adı Kəmalə xanım,
Odur ürəyimin parası, həkim.

Əzəldən fikrimi vermişəm saza,
Gönlüm tələb edir tez çıxım yaza.
Tərifə layiqdir Qazaxlı Rza,
Gözəldir qaşının qarası, həkim.

Xəstəxanada yatdığı vaxtlarda Aşıq Nabat Şərurdakı Parçı kəndlərinə zəng vurub xəstə yatdığını bildirsə də, ailə üzvlərindən neç kim ona baş çəkməyə gəlməmişdir. Bunu da özünə dərd edən Aşıq Nabat şeirini kədərli sonluqla bitirmişdir:

Düşəndə yadıma vətənim, elim,
Sinəmin oduna qovrulur dilim.
Zəng vurdum, gəlmədi o ağır elim,
Kəsilib yolların arası, həkim.

Nabatam, yatmıram, ağrıyır başım,
Əzəldən qürbətə atılıb daşım.
Gələ, dərman verə Salman qardaşım,
Tapıla dərdimin çarası, həkim.

Doğma ailəsinə olan istəyi, lakin onlara əlinin yetməməsi Aşıq Nabatı həmişə qəm çəkməyə vadar etmiş, onun kədərli şeirlərlə təsəlli tapmasına səbəb olmuşdur. Qardaşına ünvanladığı aşağıdakı qoşmasında Aşıq Nabat özünün ayrılıq dərdini ifadə edərək yazırdı:

Bir namə göndərdim badi-səbadan,
Nəzir kimi sənə yetərmi, qardaş?
Laçınımı çəpər üstə vurdular,
Sarısam, qanadı bitərmi, qardaş?

Sən anadan oldun mərd dünyasında,
İgidtək tanındın el arasında.
Bir mahnı oxusam el havasında,
Avazım sizlərə yetərmi, qardaş?

Laçın yuvasında yatmaz yaralı,
Bülbül uçsa, bağda gülü saralı.
Soruşmursan, Nabat, əslin haralı?
Şərur tərlanı da itərmi, qardaş?

Aşıq Nabat qardaşına ünvanladığı bu şeiri ilə yanaşı, özünün vətən və ayrılıq dərdini qızına yazdığı aşağıdakı qəmli şeirində də ifadə edirdi:

Gəl, söyləyim, əziz bala,
Gör bu fələk neyləyibdir.
Salıb məni yaman hala,
Axır həlak eyləyibdir.

Haşa dərd əlindən, haşa,
Məqsədim yetmədi başa.
Oxum tez vuruldu daşa,
Mənə kələk eyləyibdir.

Nabata yağdırdı qarı,
Heç yoxdur namusu, arı,
Gül əkdim, dərmədim barı,
Ələk-fələk eyləyibdir.

Qızına yazdığı bir gəraylısında da Aşıq Nabat öz dərdlərini doğma balası ilə bölüşüb təsəlli tapırdı. Bu gəraylısında da Aşıq Nabat uğursuz taleyi üçün fələyi ittiham edir, dərd əlindən qara geydiyini, tale çırağının söndüyünü obrazlı şəkildə ifadə edirdi:

Qızım, sənə məlum olsun,
Fələk məni dindiribdir.
Bağçamızda gül əkmişdim,
Qol-budağın sındırıbdır.

Axır məni də aldatdı,
Dayanıb pusquda yatdı.
Ürəyimə bir ox atdı,
Çırağımı söndürübdür.

Nabatam, geymişəm qara,
Eyləyin bu dərdə çara.
Baş götürüb gedim hara?
Fələk məni yandırıbdır.

Aşıq Nabatın yaradıcılığı təkcə bu bədbin gəraylı və qoşmalarla məhdudlaşmır. Onun lirik məzmunda və vəsf üslubunda yazılmış axıcı qoşmaları da vardır. "Gözəllər" rədifli qoşmasında aşıq Nabat novruz bayramı günü özlərinə sığal çəkən, bəzənib-düzənib toy-düyünə gedən el gözəllərini vəsf edir:

Bü gün gəlib gözəl bayram günümüz,
Çıxmışıq laləzar yaza, gözəllər.
Al-yaşıl geyinib, tirmə bağlayın,
Bənzəyin qubaya, qaza, gözəllər.

Ağ buxağa gül-bənövşə düzərsiz,
Gərdən çəkib bağrım başın əzərsiz.
Sığallanıb toy-düyünə gedərsiz,
Bu hal çox yaraşır sizə, gözəllər.

Həqiqət yolunda mən bir səyyadam,
Günəşli ölkəmə baxdıqca şadam,
Cəfakeşəm, yorulmamış Fərhadam,
Nabat meylin salıb saza, gözəllər.

Aşıq Nabatın el arasında öz dövrünün sənətkarları ilə olan deyişmələri də dolaşmaqdadır. Aşığın bu deyişmələrindən biri Yusif Səfərovun 2011-ci ildə Naxçıvanda nəşr olunmuş "Naxçıvan aşıqları və el şairləri" kitabına daxil edilmişdir (səh. 69). Müəllif bu mənbədə Aşıq Nabatın Aşıq Hüseynlə olan deyişməsini vermişdir. Lakin, deyişmədə Aşıq Hüseyn kimi təqdim olunan şəxs, çox güman ki, Hüseyn adlı aşıq yox, məşhur Azərbaycan şairi Hüseyn Arifdir. Çünki mənbələrdə Aşıq Nabatın Hüseyn Arif və başqa şairlər tərəfindən yüksək qiymətləndirilməsi haqqında məlumatlar vardır. Digər tərəfdən, deyişmənin ikinci bəndində Aşıq Nabat deyişdiyi öz tərəf-müqabilinə "aşıq qardaş" deyil, "şair qardaş" – deyə, müraciət edir. Hüseyn isə deyişmənin ilk bəndində aşıqların deyil, "şairlərin sənətindən söz açaq" deyir. Aşıq Nabat isə – "sən qələmlə, mən sazla" – deyir. Əgər Aşıq Nabat Hüseyn adlı aşıqla deyişsəydi, ona "sən qələmlə, mən

sazla" deməzdi. Deməli, mənbədə şair Huseyn Arif səhvən Aşıq Hüseyn kimi verilmişdir. Fikrimizcə, Aşıq Hüseyn Hüseyn Arif kimi verilməlidir. Nümunələrə nəzər salaq.

| Hüseyn Arif: | Aşıq Nabat: |
|---|---|
| Aşıq Nabat, götür sazı, deyişək, | Şair qardaş, sən qələmlə, mən sazla |
| Düz ilqardan, sədaqətdən danışaq. | Əlli yaşlı bu bahardan danışaq. |
| Şairlərin sənətindən söz açaq, | Min gül açıb Azərbaycan torpağı, |
| Görünməmiş məharətdən danışaq. | Tükənməyən arzulardan danışaq. |

Deyişmədə Aşıq Hüseynin şair Hüseyn Arif olmasını söyləməyə əsas verən başqa poetik məqamlar da vardır. Əvvəla, Aşıq Nabat deyişməsinin ilk misrasında Hüseyn Arifə xitabən "Şair qardaş, sən qələmlə, mən sazla" deyir və məlum olur ki, Hüseyn aşıq deyil. Digər tərəfdən də məlumdur ki Hüseyn Arif böyük xalq şairi Səməd Vurğuna pərəstiş etmiş, onun şeirlərini mükəmməl bilmişdir. Xüsusilə şairin "Muğana ceyran" şeiri Hüseyn Arifin ən çox sevdiyi şeirlərdən olmuşdur. Odur ki, Hüseyn Arif deyişmədə Muğandan, ceyrandan, Səməd Vurğundan və Əmirxan bağlarından söz açır.

| Hüseyn Arif: | Aşıq Nabat: |
|---|---|
| Gülü güldən seçək uca dağlardan, | Gözəllikdə qənirsizdi bu diyar, |
| Əmirxanın becərdiyi bağlardan. | Sərvəti var, neməti bar, varı var. |
| Soraq tutaq Muğandakı çağlardan, | Yurdumuzda əbədidir xoş bahar, |
| Qüdrətli bir şeiriyyətdən danışaq. | Aradakı düz ilqardan danışaq. |
| Hüseyn Arif: | Aşıq Nabat: |
| Ceyran gəlib su içəndə bulaqdan, | Gəz dağları, Muğana gəl, Milə gəl, |
| Bizi görüb qaçammasın uzaqdan. | Telli sazım, sən də durma, zilə gəl. |
| Vurğun adı eşidəndə dodaqdan, | Nabat deyər, könül, sən də dilə gəl, |
| Ağzı dolu, gəl Səməddən danışaq. | Bu xoş gündə dostdan, yardan danışaq. |

Aşıq Nabat Gəncə, Yevlax və Bərdə rayonlarında yaşadığı vaxtlarda sazlı-sözlü aşıq qadın kimi tanınır və özünə Qarabağ aşıqlarından ibarət aşıqlar dəstəsi yaradır. Aşıq Nabatın təşkil etdiyi aşıqlar dəstəsi Qarabağın ətraf kəndlərinə toylara gedir və məclislər aparırdılar. Odur ki, aşıq sənətinə bağlılığı və toy-düyünlərdə məclislər yola salması Aşıq Nabatı az bir zamanda məşhurlaşdırmış və onun haqqında dastan-rəvayətlərin yaradılmasına səbəb olmuşdur. Hətta Aşıq Nabatın bir sıra aşıqlarla olan deyişmələri də el arasında dastan-rəvayət şəklinə salınmış və hafizələrdə yaşamışdır. Bu cəhətdən Aşıq Nabatın Qarabağ aşıqlarından olan Aşıq Orucla deyişməsi daha səciyyəvidir. "Aşıq Nabat ilə Aşıq Oruc" adlı bu dastan-rəvayət həcm etibarı ilə cox kiçikdir. Lakin, buna baxmayaraq dastan-rəvayət bədii süjetə malik olduğu üçün Aşıq Nabatın sənətkarlıq üslubunu və onun el arasında xüsusi hörmətə malik olduğunu qiymətləndirmək baxımından əhəmiyyətlidir.

Dastan-rəvayətdə təsvir olunur ki, "günlərin bir günü Aşıq Nabatın dəstəsi Qarabağın Tərtər mahalının Azad Qaraqoyunlu kəndində Kalba Qara oğlu Yusifin toyunu aparmağa dəvət olunur".

Aşıq Nabatı görmək arzusunda olan kəndin aşığı Aşıq Oruc həmin məclisə gəlib Aşıq Nabatı görür və onun gözəlliyinə, sazına-sözünə valeh olur. Dastan-rəvayətdə Aşıq Orucun Aşıq Nabata olan ilk müraciəti belə verilir:

Saz götürüb məclis quran, ay gözəl,
Sazına-sözünə qurban gəlmişəm.
Aşığın ağlını başdan eylədin,
Boylana-boylana pünhan gəlmişəm.

Aşıq Orucun məclisə dəvətsiz gəlişi və qənşərə çıxıb iznsiz sazla ona xitab etməsi Aşıq Nabata xoş gəlmir. Odur ki, Aşıq Nabat məclis qarşısında onu göydəndüşmə tərif edən Aşıq Oruca belə bir tutarlı cavab verir:

Aşıq olan gözəlliyə tuş gərək,
Çağırılan yerə ar eyləməynən.
Saz-söz əhli arif olar, bilginən,
Çağrılmamış yeri dar eyləməynən.

Aşıq Oruc Aşıq Nabatın məclisə çağrılmamış gəlməyi məclis qarşısında onun üzünə söyləməsindən pərt olsa da, pərtliyini büruzə vermir və Aşıq Nabatı tərifə başlayaraq onun məclisinə qonaq gəldiyini bildirir:

Siyah telin düzülübdü gərdənə,
Ağ buxaqda qara telin bir dənə.
İncə beldə qızıl kəmər dürdanə,
Huriyə, pəriyə mehman gəlmişəm.

Aşıq Nabat görür ki, Aşıq Oruc onun sazına, sözünə və gözəlliyinə valeh olub, odur ki, ona bir qədər

yumşaq cavab verir:

Bir qaydadı siyah zülfün durmağı,
Kəmər dedin, qızıldandı qarmağı.
Müşkül işdi burda mehman qalmağı,
Yolunu saxladım, zar eyləməynən.

Aşıq Nabatın tutarlı cavabı Aşıq Orucu mətləbini açıq söyləməyə vadar edir. Ona görə də o, Aşıq Nabatı çoxdan görmək arzusunda olduğunu və onu görmək üçün neçə el-oba dolaşdığını söyləyir, həmçinin ona heyran olduğunu da bildirir:

Oruc deyər əhli-candan utandım,
Görüşünə neçə oba dolandım.
Məhəbbət əhliyəm, demərəm yandım,
Car eyləmə, sənə heyran gəlmişəm.

Aşıq Nabat Aşıq Orucun hal əhli olduğunu bildikdən sonra məclis qarşısında onu pərt etmək istəmir və deyişmənin möhürbəndini belə tamamlayır:

Nabat deyər vurğun oldum tellərə,
Saz götürüb düşdüm sizin ellərə.
Vətənim Şərurdu, düşüb dillərə,
Açılmış gülləri xar eyləməynən.

Dastan-rəvayətin sonu Aşıq Orucun Aşıq Nabata təzim edib məclisdən ayrılması və ertəsi günü Aşıq Nabatı aşıq dəstəsi ilə birlikdə öz evinə qonaq dəvət etməsi ilə bitir.

Belə rəvayət edirlər ki, Aşıq Oruc cəbhəyə gedib orada həlak olmuş, Aşıq Nabat isə Aşıq Orucun ölümünü onun ailəsinə bildirməmiş və iki uşağına havadarlıq etmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru, üç cild. I c. Naxçıvan: Əcəmi, 2010
2. Aşıq Nabat (Tərtibçilər: M.Cəfərli, B.Təhməz), Bakı: Nurlan, 2001, 39 s.
3.Qədimov Ə.N. XVII-XX əsrlər və çağdaş Naxçıvan aşıqları, İki cilddə, Naxçıvan: Əcəmi, 2017
4. Şərur folkloru (Rafiq Odayın təqdimatında), Bakı: Nurlan, 2006

## ABSTRACT

**Asger Qadimov**

**LIFE AND CREATIVE WAY OF ASHUQ NABAT**

One of the ashugs from Sharur territority of XX century Nakhchivan ashug environment, Ashug Nabat's life and art is mentioned in this scientific research. In the research Ashug Nabat's life's hard periods have been searched, distressed lifeway has been revealed and ashug's biographical poems about his life have been analysed. Ashug Nabat's poems which had been written in the spirit of complaint, also ashug's poems which express his homesickness to his motherland Sharur have been analyzed in the research. Ashug Nabat's works which have public content also were mentioned and analysis of his lyric poems was given in this scientific research. In the research Ashug Nabat's altercations with poet Huseyn Arif and one of the Kharabagh ashugs Ashug Oruc and his epos-stories were also mentioned.

## РЕЗЮМЕ

**Асkер Кадымов**

**ЖИЗНЬ И ТВОРЧЕСКИЙ ПУТЬ АШУГА НАБАТА**

В научном исследовании рассматривается жизнь и творчество представителя ашугсkой среды Нахчывана XX векав Шарурском районе Ашуга Набата. В ходе исследования были рассмотрены трудные годы жизни Ашуга Набата, выявлен тягостный жизненный путь поэта, проанализированы биографичесkие стихи ашуга. В исследовании анализировались сочинения Ашуга Набата, kоторые были написаны в жалобном духе, и его поэтичесkие стихи, посвященные страстной любви k родному Шаруру. В научном исследовании были таkже упомянуты общественные работы Ашуга Набата и анализированы его лиричесkие стихи. В исследовании таkже рассkазываетсяо состязаниях словом и сазом Ашуга Набата с поэтом Гусейном Арифом и kарабахсkим АшугомОруджем, а таkже о легендах-преданиях.

**YUSİF HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVANDA MİLLİ ŞÜURUN OYANIŞINDA "MOLLA NƏSRƏDDİN" JURNALININ VƏ MOLLA NƏSRƏDDİNÇİLƏRİN ROLU

**Açar sözlər:** *"Molla Nəsrəddin" jurnalı, mollanəsrəddinçilər, müasirlik, sosial-fəlsəfi ideyalar, milli şüur, müstəqillik ideyaları*

**Key words:** *Molla Nasraddin magazine, mollanasraddinists, modernity, socio-philosofical ideas, national consciousness, ideas of independence*

**Ключевые слова:** *журнал «Молла Насреддин», молланасрединисты, современность, социально-философские идеи, национальное сознание, идеи независимости*

Qərb, rus və milli maarifçilik ideyalarının təsiri ilə XX əsrin əvvəllərində "Molla Nəsrəddin" jurnalı və eyni adlı ədəbi məktəb mollanəsrəddinçilik fəlsəfi təlimini meydana çıxarmışdır. Bu ədəbi məktəbin ideya əsasını mollanəsrəddinçilik təlimi təşkil edir. Mollanəsrəddinçilik təlimi ictimai-siyasi və sosial-fəlsəfi baxımdan da "Molla Nəsrəddin" ədəbi məktəbinin əsasını, nüvəsini təşkil edir. Ulu öndər H.Əliyev Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində, milli özündərkinin formalaşmasında əvəzsiz və misilsiz rol oynayan "Molla Nəsrəddin" jurnalı haqqında demişdir: "Mütərəqqi ideyaların carçısı olan "MollaNəsrəddin" xalq və demokratiya cəbhəsində duraraqazadlıq düşmənlərini-çar mütləqiyyətini, müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı, millətçiliyi amansız satira atəşinə tuturdu. "Molla Nəsrəddin"in haqq səsi Qafqazın hüdudlarını aşıb Rusiyada, bütün Yaxın və Orta Şərqdə eşidilmişdi. "Molla Nəsrəddin" yalnız Azərbaycanın deyil, eləcə də Yaxın Şərq ölkələrinin ictimai və ədəbi-bədii fikir tarixində müstəsna rolu əbədidir"(1,s.175).

ABŞ-ın azərbaycanşünas-alimi T.Svyatoxovski "çoxsaylı oxucuların da daxil olduğu populist azərbaycançıların fikir carçısı hesab etdiyi "Molla Nəsrəddin"in milli şüurun oyanmasında böyük rol oynadığını göstərir"(2,s.76). Böyük Britaniya alimi, Azərbaycan mədəni irsinin araşdırıcısı E. Braun Londondakı İranlılar Cəmiyyətində "İran mətbuatı və jurnalistika"sı mövzusundakı mühazirəsində XX əsrin əvvəllərində Azərbaycanda türkcə danışan İran əhalisi arasında ən çox yayılan, milli və ümumbəşəri ideyalar təbliğ edən, modernist ruhlu 4 mətbuat orqanının adını çəkir: "Bunlar "İrşad", "Həyat", "Şərqi-Rus" və "Molla Nəsrəddin"dən ibarətdir. Xüsusilə, sonuncu öz boyalı və diqqətəlayiq siyasi karikaturaları ilə başqalarından fərqlənir. O, məşrutədən (1911-ci ildən ) sonra Rusiyada çap olunan yumorist jurnallar üçün nümunə idi" (3,s.45). E.Braun "İran mətbuatı və ədəbiyyatı tarixi"nin ingiliscə nəşrinə müqəddiməsində yazır: "Tiflisdə türkcə çap olunan "Molla Nəsrəddin" satirik jurnalı mətbuatın əlifba föhrüstünə daxil edilməmişdir. Lakin, bu jurnalın İrandakı nüfuz və təsiri o qədər böyükdür ki, onun gülməli şəkillərinin qiymət və əhəmiyyəti o dərəcədə mühümdür ki, mən onlardan altısını o dövrün ən parlaq nümunələrindən olmaq üzrə bu kitaba daxil etmişəm" (7 aprel 1914) (3,s. 70).

Mollanəsrəddinçilər öz ədəbi-ictimai fəaliyyətləri ilə XX əsrin əvvəlləri Azərbaycan həyatının əksər sosial-siyasi problemlərini dilə gətirirdilər. Jurnalın ilk saylarından birində jurnalın redaktoru, görkəmli ədib və böyük demokrat Mirzə Cəlil yazırdı: "Nə bilim bu nədir- torpaq məsələsi; bu nədir- əmələlər acdırlar. Kəndlilər torpaqsızdırlar. Kəndlər şkolsuzdurlar, viran olub vətənimiz. elimiz, itib gedib dinimiz, həm dilimiz, əzilib əngimiz, bəs biz ağlamayaq kim ağlasın?!"(4).

Mollanəsrəddinçilər üçün dövrün əsas məsələsi türkləşmək (millilәşmək Y.H.) və müasirləşmək idi. Təsadüfi deyildir ki,"Molla Nəsrəddin" jurnalı ilk nəşrinə Azərbaycan xalqına; "Sizi deyib gəlmişəm,ey mənim müsəlman qardaşlarım, ey mənim türk qardaşlarım, sizinlə türkün ana dilində danışacağam" müraciəti ilə başlamışdır. Mollanəsrəddinçilər milli mənliyini itirənlərə doğma yollarını, əsl milli kimliklərini göstərməyə səy edirdilər. Onlar xalqın vicdan səsinə çevrilərək cəmiyyəti geri salan maneələri aradan qaldırmağa, məzlum xalqı qəflət yuxusundan oyatmağa, cəmiyyətin yeniləşməsinə və inkişafına mane olan zülm, cəhalət və mövhumat yayan mikrobları millətin bədənindən kənar etməyə çalışırdılar.

"Molla Nəsrəddin" jurnalı və Mollanəsrəddinçilər Azərbaycanın ayrılmaz diyarı olan Naxçıvanın o dövrki qaranlıq sosial həyatının və ictimai mühitinin işıqlanmasında cəmiyyətin yeniliyə doğru inkişafında mühüm rol oynamışlar. Onu da qeyd etmək istədim ki, dünyaya böyük dahilər bəxş etmiş Naxçıvan torpağı "Molla Nəsrəddin" jurnalını yaradıcısı və ideya rəhbəri, mollanəsrəddinçi ədəbi məktəbin banisi Cəlil Məmmədquluzadənin, eləcə də bir çox mollanəsrəddinçilərin (Ə.Qəmküsar, M.S.Ordubadi və s.) də vətəni

olmuşdur. Bu baxımdan Naxçıvanın sosial həyatı və Naxçıvanda cərəyan edən hadisələr "Molla Nəsrəddin" jurnalının və mollanəsrəddinçilərin diqqət mərkəzində olmuşdur.

Molla Nəsrəddin jurnalının 1908-ci il nömrələrindən birində Naxçıvandan verilən "Teleqraf xəbərlərində göstərilirdi: "Yarımçıq qalmış Zaviyə Məscidi qayılmağa başladı. Eşitdiyimizə görə guya məscidin pulundan 1 ədəd yüzlük bir nəfər axundun cibinin bucağına düşüb qalmış imiş. Evdə axundun paltarını yuyanda arvadı ciblərini axtarıb tapmışdır" (5).

Burada əsas məqsəd xalqı cəhalətdə saxlamaq istəyən mövhumatçıların heç də dinə ürəkdən bağlı olmadıqlarını sadəcə olaraq öz mənfəətləri üçün xalqın milli şüurunun oyanmasını, öz milli kimliyinə sahib olmasını istəməyənləri ifşa etməklə xalqın gözünü açmaqdır. Xalqın maariflənməsini, xüsusilə qadınların təhsildən uzaq tutulmasını və bunların əsas təqsirkarlarının kimlər olmasını sadə dillə xalqa anladan jurnalda oxuyuruq; "Ordubad şəhəri Vənənd kəndinin sakini bir dövlətli Rusiya hökümətindən Əshabu-Kəhfə ikixətli bir dəmir yolu çəkmək üçün imtiyaz istəmiş. Hərgah bu yol başa gələrsə, Naxçıvan Mollaları Əshabu-Kəhf ziyarətinə asan gedə biləcəklər, bu şərt ilə ki, ziyarətdən sonra Naxçıvanın qız məktəbini dağıtmaq üçün bir neçəsi xətm tutsunlar" (6). Jurnal anladırdı ki, xalqın bəzi imkanlılarının, varlı adamlarının xalqın maariflənməsi üçün pul xərcləməmələri bir yana dursun, hələ maarif sahəsində az da olsa yanan işıqları belə söndürməyə cəhd edirlər. Bu cür varlıları və onların fitvasına uyan insanları jurnal öz səhifələrində öldürücü satira yolu ilə kəskin tənqid edirdi. Milli şüurun oyanışının və milli özünüdərkin, mövhumatçı dini şüuru aradan qaldıracağından qorxan bir para xalqa qənim kəsilənlər xalqı cəhalətdə saxlamaq üçün hər yola əl atdırdılar. Baş verən adi hadisələri belə dini möcüzə kimi qələmə verməklə xalqı cəhalət bataqlığında saxlamaq istəyirdilər. "Molla Nəsrəddin" jurnalı öz səhifələrində bu cür hallara qarşı xalqın gözünü açmaq sahəsində xeyli iş görmüşdür. Jurnalda Naxçıvandan verilən xəbərlərin birində deyilir. "Bu gün Şərur uyezdində Qaratəpə dağında üç öv var imiş: Təpədən yola səmt yenirmişlər. Bunu ermənilər görürlər, bir neçə güllə atırlar, heç birisi dəymir, ovlar düzəlirlər yola. Duz Ərmi kəndindən o yana olan müsəlman kəndi Dizədə Mirsəlimin evinə gedirlər və həyətdə başlayırlar otlamağa. Otlayandan sonra gediblər evdə olan taxçada yatıblar. İndi üç gündür ki, hər yandan ziyarətə gəlirlər" (7). Belə halları kəskin tənqid edən jurnalda bu cür cəhalət yayanları ifşa edən konkret ünvanı göstərilən elanlara da rast gəlirik; "Ordubad mahalında Nüsnüs kəndində Hacı Mirağa Hacı Mircəfər oğlu ki, əsl ocaq seid nəslindəndir, hər gün ətrafdan ağanı ziyarət etməyə gələnləri qəbul edir. Qəribə budur ki, kor gələn gözlü gedir, şikəst gələn salamat yola düşür..." (8).

C.Məmmədquluzadə öz böyük sələfləri kimi müasirləşmək uğrunda inadla çarpışırdı. O, "müasirləşmək" adı altında milli tarixi kökdən uzaqlaşıb yad sivilizasiyaların və mədəniyyətlərin təsiri altına düşmək meyillərini həmişə pisləyirdi. Xalqı öz milli kökü üzərində ucalmağı, yad ideoloji təsirlərə uymamağı müasirləşmənin başlıca keyfiyyəti hesab edirdi. O, Azərbaycan xalqını müasir dünyanın səviyyəsində görmək istəyirdi. Məhz bu səbəbdən o, öz yaradıcılığında ictimai gerilik bəlasına xüsusi yer verirdi. O, felyetonlarından birində öz oxucularına müraciətlə yazırdı: "Gah vaxt olubdur ki, bəziləri bizdən soruşurlar ki, nə səbəbə siyasətdən, dumadan, hüquqdan, hürriyyətdən və müsavatdan çoxluca bəhs etmirik. Amma bizdən bunu soruşan ağalardan təvəqqe edirik, bizə cavab versinlər görək, ayə mümkündürmü vəbanı dayandırmaq üçün 43 qoyun kəsən bir millətə, bir cahil lotunu özünə haşa, Allah bilən camaata həmişə dumadan və siyasətdən bəhs etmək? Biz belə qanırıq ki, xəyal, fikir və əqidə düzəlməzsə, feil heç vaxt düzəlməz. O səbəbə ki, "ikinci birincilərə tabedir" (9).

Ulu Öndər "Molla Nəsrəddin" jurnalının cəmiyyətin sosial-mədəni həyatına təsirindən bəhs edərək demişdir:"Molla Nəsrəddin" jurnalı dünyada məşhurdur. O vaxtlar rabitənin çox zəif olduğuna baxmayaraq, "Molla Nəsrəddin" jurnalı dünyanın bir çox ölkələrində yayılırdı, hörmətlə qarşılanırdı, oxunurdu və hər yerdə öz təsirini göstərirdi. Azərbaycanın həyatında "Molla Nəsrəddin" jurnalının xüsusi yeri var. O vaxtın şəraitinə uyğun olaraq Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalı xalqın əksər təbəqələri üçün oxuna bilən, anlaşıqlı səviyyədə naşr edirdi. Təsadüfi deyildir ki, tanınmiş rəssamlar Şmerlinqin, Rotterin, Azərbaycanın böyük rəssamı Əzim Əzimzadənin və başqalarının istedadından istifadə edərək demək olar ki, yazılarla bərabər həmdə şəkillər, karikaturalar da verilirdi. Mən bunu belə anlayıram ki, o vaxt xalqımızın əksəriyyəti savadsız olduğuna görə, çoxunun oxumaq imkanı olmadığına görə karikaturalar va şəkillər savadsız adamlara da çox təsir bağışlayırdı, sözləri oxumadan da fikirləri çatdırıb bildirirdi. Jurnal Azərbaycan dilində nəşr olunduğundan o vaxt onu oxuyanların vasitəsilə xalq arasında geniş yayılırdı və çox güclü təsir göstərirdi"(10,s.273).

Cəlil Məmmədquluzadə və redaktoru olduğu "Molla Nəsrəddin" jurnalı müstəqillik ideyalarının formalaşmasında, bu ideyaların beyinlərdə və şüurlarda özünə yer tapmasında müstəsna xidmətlər göstərmişdir. H.Əliyev haqlı olaraq qeyd edir ki, "... ona görə də biz Cəlil Məmmədquluzadəyə, sadəcə, bir ədəbiyyatçı kimi, yazıçı kimi, publisist kimi yox, böyük siyasətçi kimi yanaşmalıyıq. Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə Azərbaycanın ictimai-siyasi həyatının inkişafında, milli ruhun

yüksəlməsində böyük rol oynamışdır. Bu, təkcə ədəbiyyat deyil, təkcə mədəniyyət deyil, bu, siyasətdə böyük xidmətdir, ictimai həyatımızda böyük xidmətdir"(10,s.274).

H.Əliyevin fikrincə, yeni milli ideologiyanın yaradıcıları, ilk növbədə, dahi sənətkar C.Məmmədquluzadənin ədəbi-ictimai irsinə müraciət edilməlidir. Bununla bağlı Heydər Əliyev demişdir: "Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətləri, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir.

O dövrə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi, böyük xidmətdir və bunu biz daim qiymətləndirməliyik. Ona görə də, Cəlil Məmmədquluzadənin yaradıcılığı, əsərləri bu gün bizim milli ideologiyanın formalaşmasında, yaranmasında və onun konsepsiyasının elmi şəkildə hazırlanmasında çox kömək edə bilər və çox kömək edəcəkdir"(10,s.274).

Heydər Əliyev mollanəsrəddinçilərin fəlsəfi irsinin yeni şəraitdə öyrənilməsi zərurətini irəli sürərək demişdir: "Doğrudan da, Azərbaycan ədəbiyyatının digər klassikləri ilə müqayisədə ölməz Molla Nəsrəddinin irsi daha çox müstəqillik əqidəsi və təfəkkürü ilə öyrənilməyə möhtacdır. Çünki sovet rejimi şəraitində onun bir çox əsərləri öz həqiqi qiymətini almamaış, yaxud toxunduğu bir sıra vacib mətləblər məhz hakim ideologiyanın şərtlərinə uyğun gəlmədiyindən diqqət mərkəzindən kənarda qalmışdır" (11).

Müdrik Ulu Öndər Heydər Əliyev mollanəsrəddinçilərin fəaliyyətindən bəhs edərək demişdir: "Cəlil Məmmədquluzadə dühası "Molla Nəsrəddin" jurnalında öz əksini tapdı. "Molla Nəsrəddin", onun vasitəsilə Cəlil Məmmədquluzadə və jurnalın işinə cəlb olunmuş Azərbaycanın başqa mütəfəkkir adamları xalqımızın milli şüurunun formalaşmasında, milli ruhunun yüksəldilməsində, milli oyanışında böyük rol oynamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev"Molla Nəsrəddin" jurnalının 100 illik yubileyi haqqında 23 yanvar 2006-cı il (№1234) Sərəncamında göstərir: "2006-cı ilin aprel ayında ilk Azərbaycan satirik jurnalı "Molla Nəsrəddin"in birinci nömrəsinin işıq üzü görməsinin 100 illiyi tamam olur.Görkəmli yazıçı Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə fəaliyyətə başlayan "Molla Nəsrəddin" xüsusi ədəbi məktəb yaratmış, milli mətbuatımızın inkişafının qızıl səhifələrini yazmışdır. Xalq yumorundan, klassik Azərbaycan ədəbi və dünya bədii-publisist irsinin ənənələrindən məharətlə bəhrələnərək publisistikamızı janr, üslub baxımından zənginləşdirən jurnal yalnız Azərbaycanın deyil, eləcə də Yaxın Şərq ölkələrinin ədəbiyyatlarında demokratik meyillərin güclənməsinə misilsiz təsir göstərmişdir"(12).

Naxçıvan Muxtar Respublikasında da Mirzə Cəlilin və digər mollanəsrəddinçilərin xatirəsi uca tutulur, onlar ehtiramla yad edilir. C.Məmmədquluzadənin 140 illik yubileyi ilə əlaqədar həyata keçirilən çoxsaylı tədbirlər, hazırlanan nəşrlər, təşkil olunan elmi konfranslar, tamaşaya qoyulan əsərlər, hər il keçirilən "Mirzə Cəlil günləri" mollanəsrəddinçilərin şəxsiyyətinə və sənətinə ümummilli liderimiz Heydər Əliyevin göstərdiyi böyük diqqətin, verdiyi önəmin Naxçıvan Muxtar Respublikada layiqincə davam etdirilməsinin əyani təcəssümüdür.

## ƏDƏBİYYAT


1. Əliyev H. Azərbaycan yazıçılarının X qurultayında nitqi, 30 oktyabr 1997-ci il, 202 s. // Heydər Əliyev və mədəniyyət, Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar, Üç cilddə, Layihənin rəhbəri və önsözün müəllifi: Əbülfəz Qarayev, Tərtib edənlər: Sevda Məmmədəliyeva, Teymur Əhmədov, Redaktor: Lətifə Məmmədova. II cild 1997-1998-ci illər, Bakı, Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2008
2. Swietochowski Tadeusz.Russia and Azerbaijan:A Borderiand in Transition, New York:Columbia University Press,1995
3. Braun Edvard. İntroduction, History of the Press and Literature in İran. London, 1908
4. Molla Nəsrəddin jurnalı, 1907, №- 41
5. Molla Nəsrəddin jurnalı, 1908, №- 42
6. Molla Nəsrəddin jurnalı, 1908, №- 18
7. Molla Nəsrəddin jurnalı, 1910, №- 18
8. Molla Nəsrəddin jurnalı, 1909, №- 3
9. Molla Nəsrəddin jurnalı, 1907, №- 36
10. Əliyev H. Böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyinə həsr olunmuş gecədəki nitqindən, 28 dekabr 1994-cü il // Heydər Əliyev və mədəniyyət, Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar, Üç cilddə, Layihənin rəhbəri və önsözün müəllifi:Əbülfəz Qarayev. Tərtib edənlər: Sevda Məmmədəliyeva, Teymur Əhmədov. Redaktor: Lətifə Məmmədova, I cild, 1969-1982-ci illər, 1993-1996-cı illər, Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2008
11. Əliyev H. Azərbaycan yazıçılarının VII qurultayında nitqi // Kommunist qəzeti, 1981, 19 iyun, №139

12. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Molla Nəsrəddin jurnalının 100 illik yubileyi haqqında 23 yanvar 2006-cı il ( № 1234) Sərəncamı //Respublika qəzeti,24 yanvar 2006 –cı il

**ABSTRACT**

**THE ROLE OF "MOLLA NASREDDIN" JOURNAL AND MOLLASRADDINISTS IN THE AWAKENING OF NATIONAL CONSCIOUSNESS IN NAKHCHIVAN**

The article deals with the formation of literary-philosophical training around the Molla Nasreddin journal, which was published in the early XX century.

The article also explores the indisputable role of the ideas of innovative training, which is a synthesis of nationalism and universalism in the formation of national consciousness and modernization of society in Azerbaijan, as well as in Nakhchivan, from a socio-political aspect.

**РЕЗЮМЕ**

**РОЛЬ ЖУРНАЛА «МОЛЛА НАСРЕДДИН» И МОЛЛАНАСРЕДИНИСТОВ В ПРОБУЖДЕНИИ НАЦИОНАЛЬНОГО СОЗНАНИЯ В НАХЧЫВАНЕ**

В статье подчеркивается мысль о возникновении литературно-философского учения молланасрединистов вокруг журнала «Молла Насреддин» в начале XX века. В социально-философском аспекте рассматривается незаменимая роль данного новаторского учения, состоящего из синтеза идей национального и общечеловеческого, в формировании национального сознания в Азербайджане, в том числе и в Нахчыване.

**SEVİNC ORUCOVA**
*Naxçıvan Dövlət Universiteti*
*pedaqoq79 @gmail.com*

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVANDA ÜMUMİ TƏHSİLİN İNKİŞAFI

**Açar sözlər:** *Naxçıvan, təhsil, məktəb, sinif, müəllim, şagird, dərslik*
**Key words:** *Nakhchivan, education, school, classroom, teacher, pupil, textbook*
**Ключевые слова:** *Нахчыван, образование, школа, класс, учитель, ученик, учебник*

Azərbaycan qədim zamanlardan dünya mədəniyyətinin mərkəzlərindən biri olmuşdur. Bu mədəniyyətin təşəkkülündə Azərbaycanın bütün bölgələrinin, o cümlədən Naxçıvanın rolu böyükdür. Uzun və şərəfli tarixi inkişaf yolu keçən Azərbaycan mədəniyyəti XIX əsrin əvvəllərində mürəkkəb tarixi reallıqlarla üzləşmişdir. Azərbaycan torpaqları 1828-ci il Türkmənçay müqaviləsi nəticəsində Rusiya ilə İran arasında bölüşdürülmüşdür. Şimali Azərbaycan Rusiyanın, cənubi Azərbaycan isə İranın tərkibinə qatılmışdır.

Çar hökuməti Cənubi Qafqazın xristian bölgələrindən fərqli olaraq müsəlmanlar içərisində təhsilin inkişafına nəinki yardım edir, hətta onun qarşısını alırdı. Şimali Azərbaycanda, tarixən ənənəvi təhsil müəssisələri olan məktəb və mədrəsələrin fəaliyyətinin öyrənilməsi, onların əsasında təhsilin inkişaf etdirilməsi əvəzinə müstəmləkəçilik məqsədlərinə xidmət edən təhsil sistemi yaradılmasına cəhd edilirdi. Məhz bunun nəticəsi idi ki, XIX əsrin sonu XX əsrin əvvəllərində Şimali Azərbaycanda, həmçinin Naxçıvan bölgəsində mürəkkəb struktura malik təhsil şəbəkəsi meydana gəlmişdi (3, s. 5-6).

Azərbaycanda dövlət müstəqilliyin möhkəmləndirilməsindən sonra təhsil sistemi xüsusi diqqət və qayğı göstərilən strateji sahəyə çevrilmişdir. Ölkədə təhsilin daha da inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli Dövlət Proqramları, mühüm layihələr hazırlanmış və icrası təmin olunmuşdur. Görülmüş işlərin nəticəsi olaraq fərəhləndirici fakt ondan ibarətdir ki, müasir Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında oxuyub yazan əhalinin nisbət göstəricisi yüz faiz olaraq ifadə olunurdu.

Müstəqillik dövründə Hüseyn Cavidin ev muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi və Naxçıvan Dövlət Tarix Muzeyi ilə Naxçıvan Muxtar Respublikanın ümumtəhsil məktəbləri arasında sıx əlaqə və əməkdaşlıq yaradılmış və məktəblərin bir çoxunda distant dərslər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikanın ümumtəhsil məktəblərində 170-dən çox məktəbəhazırlıq qrupu yaradılmış, bu qruplarda 2861 nəfərdən artıq uşağın iştirakı təmin edilmişdir. Bu dövrdə sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi sahəsində görülən işlər də davam etdirilmiş, distant təhsilə cəlb olunmuş 24 nəfərə yaxın sağlamlıq imkanları məhdud uşaq və gözdən əlil uşaqlar dərs ləvazimatları ilə təmin olunmuşdur.

Onu da qeyd edək ki, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası istiqamətində görülən işlər nəticəsində ötən dövrdə Naxçıvanda sağlamlıq imkanları məhdud 59 nəfərdən çox uşaq məktəbəqədər təhsil müəssisələrinə, 16 nəfərə yaxın uşaq isə ümumtəhsil məktəblərində fəaliyyət göstərən məktəbəqədər hazırlıq qruplarına cəlb olunub.

Nitq qüsuru olan məktəbəqədər yaşlı 20 nəfərə yaxın uşaq isə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin defektoloji bölməsində tədrisə, həmçinin sağlamlıq imkanları məhdud 8 nəfər uşaq isə Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə cəlb edilmişdir.

Qeyd edək ki, 2016-2017-ci tədris ilinin əvvəlində sağlamlıq imkanları məhdud olan 88 nəfərdən çox uşaq ümumtəhsil müəssisələrinin birinci siniflərinə qəbul olunmuşdur. Ümumiyyətlə Naxçıvan Muxtar Respublikanın ümumtəhsil məktəblərində 1000-ə yaxın sağlamlıq imkanları məhdud uşaq, görmə qabiliyyəti məhdud uşaqlar üçün xüsusi ibtidai məktəbdə isə 8 nəfər uşaq ümumtəhsil məktəblərində təhsil alıbdır.

Naxçıvan Muxtar Respublikanın ayrı-ayrı təhsil müəssisələri üzrə boş yerlərin uçotu da aparılır. "Təhsil millətin gələcəyidir" prinsipi dövlətin yürütdüyü siyasətin prioritet istiqamətlərindən biri olduğundan, bu sahə son illər böyük inkişaf yolu keçib. Ulu öndər Heydər Əliyevin təhsil strategiyası Naxçıvan Muxtar Respublikada da uğurla və inamla davam etdirilir (1, s. 92). Hər il yeni məktəb binaları istifadəyə verilir, maddi-texniki bazası möhkəmləndirilir, informasiya-kommunikasiya texnologiyaları ilə təchizatı ən yüksək səviyyədə həyata keçirilir. Təhsil ocaqları bir məbədgah kimi qorunur, gələcəyimiz olan

uşaqların təhsili və müəllimlər üçün iş şəraiti yaradılır. İndi ən ucqar dağ və sərhəd kəndlərində müasir memarlıq üslubunda inşa olunan məktəb binaları nə quruluşuna, nə də maddi-texniki təcizatına görə şəhər məktəblərindən fərqlənmir.

Son illər Naxçıvan Muxtar Respublikamızda 200-dən çox ümumtəhsil müəssisəsi tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuş, bütün təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilmiş, məktəblər ən müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunmuşdur.

Təhsilin məzmununa yeni pedaqoji təfəkkür baxımından yanaşılması, fənn kurikulumları və təhsil standartlarının tətbiqi, informasiya kommunikasiya texnologiyalarına təlim prosesində geniş yer ayrılması, milli-mənəvi irsimizin öyrənilməsi üçün muzeylərlə interaktiv əlaqələrin təşkili, alimlərin iştirakı ilə nümunəvi dərslərin tədrisi, distant təhsilin reallaşdırılması, beynəlxalq təcrübədən yaradıcı şəkildə istifadə olunması təhsil sahəsində uğurların qazanılmasına şərait yaratmışdır (1, s. 25).

Müasir maddi-texniki bazanın formalaşdırılması təhsildə mütərəqqi üsulların tətbiqinə geniş imkanlar açmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası artıq öz bəhrəsini verir. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr təşkil edilirdi.

Qeyd edək ki, həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikanın bütün bölgələrini bərabər şəkildə əhatə etdiyindən ali məktəblərə qəbulun nəticələrində də ilbəil həm kəmiyyət, həm də keyfiyyət dəyişikliyi özünü büruzə verirdi.

Naxçıvan Muxtar Respublikanın dinamik inkişafı cəmiyyət həyatının bütün sahələrində ixtisaslı kadrların olmasını şərtləndirir. Hardasa təxminən 10-15 il bundan öncə humanitar ixtisas qruplarına maraq özünü daha çox göstərirdi. Humanitar fənlərə olan meyillilik bir neçə ildir ki, kökündən dəyişibdir. Bu bir tərəfdən ölkə iqtisadiyyatının, xüsusən də sənayenin inkişafı ilə əlaqədardısa, digər tərəfdən təhsildə tətbiq olunan yeniliklərin, informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin bəhrəsidir (2, s. 112).

Naxçıvan Muxtar Respublikada kənd təsərrüfatının ayrı-ayrı sahələrinin, sənaye və xidmət sektorunun, İKT-nin inkişafı ixtisaslı kadrlara olan tələbatı birə-beş artırır. Bu baxımdan Ali Məclis Sədrinin 14 aprel 2015-ci il tarixli Sərəncamı ilə texniki fənlər üzrə şagirdlərin istedad və bacarıqlarının aşkara çıxarılması üçün yaradılan yeni tipli təhsil müəssisəsinin-Şərur şəhərindəki Fizika-riyaziyyat təmayüllü liseyin fəaliyyəti də yaxın və uzaq gələcəyə hesablanıbdır.

Naxçıvan Muxtar Respublikada elektron təhsilin tətbiqi, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılması, tədrisin əyaniliyi və səmərəliliyinin artırılması da diqqətdə saxlanılır. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr yaradılır ki, bu da şagirdlərin biliklərinin və milli mənəvi irsimizə marağının artırılmasında mühüm rol oynayır. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında" 2015-ci il 14 mart tarixli Sərəncamına əsasən isə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin, eləcə də ali və orta ixtisas təhsili müəssisələrinin professor və müəllim heyətinin iştirakı ilə Naxçıvan Muxtar Respublikanın ümumtəhsil məktəblərində ayda bir dəfə nümunəvi dərslər təşkil edilir.

Naxçıvan Muxtar Respublikada ümumtəhsil məktəblərinin pedaqoji kadrlara olan tələbatını ödəmək məqsədilə hər il təhsil yarmarkası keçirilir. Ümumtəhsil məktəbləri üzrə boş iş yerləri təhsil yarmarkalarında işaxtaranlara təqdim olunur. Təhsil işçiləri üçün Naxçıvan Muxtar Respublikada bütün zəruri şərait yaradılır. Ucqar kəndlərdə belə, müasir təhsil infrastrukturu formalaşıbdı. Kənd yerlərindəki təhsil müəssisələrində yeni əmək fəaliyyətinə başlayan gənc mütəxəssislər üçün bir sıra güzəştlər və stimullaşdırıcı tədbirlər müəyyənləşdirilibdir (4, s. 17-18).

Ümumtəhsil məktəbləri ilə yanaşı məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələri, uşaq-gənclər idman və şahmat məktəbləri də xeyli inkişaf etmişdir (5, s. 43).

Naxçıvan Muxtar Respublikada gənclərin və yeniyetmələrin orta ümumi təhsillə yanaşı peşə ixtisasları üzrə təhsillərini davam etdirmələri üçün texniki peşə və orta ixtisas təhsili də inkişaf etdirilibdi.

Sonda onu qeyd edək ki, müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəbləri sürətlə inkişaf etmişdi. Qəbul olunmuş qərar, fərman və sərəncamlar, onların həyata keçirilməsi müstəqil Azərbaycanda təhsil sektorunun hərtərəfli yüksəlişini, tərəqqisini, məzmunca yeniləşməsini, maddi-texniki cəhətdən möhkəmlənməsini, dünya standartlarına yaxınlaşmasını şərtləndirmiş, müstəqillik dövründə

Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəbləri sürətlə inkişaf etmişdi. Ümumtəhsil məktəblərinin şəbəkəsi xeyli artırılmışdır.

## ƏDƏBİYYAT


1. Cəfərov H. R. Naxçıvanda təhsil: inkişaf yolu və imkanlar, Bakı, Elm və təhsil, 2011. 544 s.
2. Əhmədov H. M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi, Bakı, Elm və Təhsil, 2014, 432 s.
3. Xəlilov T. F. XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanda maarifın səviyyəsi, Akademik Bakış Dergisi, Kırgızıstan, Celalabat: 2013, sayı 36, s. 1-7
4. Mollayev İ. A. Naxçıvan MSSR-də xalq maarifinin inkişafı, Bakı: Bilik cəmiyyəti, 1983. 31 s.
5. Tağıyev Ə. M. Azərbaycanda məktəb tarixi, Bakı: Maarif, 1993, 114 s.


## ABSTRACT


**Sevinj Orujova**


### DEVELOPMENT OF GENERAL EDUCATION IN NAKHCHIVAN IN INDIVIDUALS


The article explores the development of general education in Nakhchivan during the years of independence. It has been established that the period of independence was the basis of Nakhchivan education. During the years of independence, the development of education in Nakhchivan has widened, benefited from the progressive traditions of the past and developed on it. The emergence of new pedagogical ideas in line with the spiritual and cultural needs of the society has created a basis for the expansion of the network of educational institutions.

Throughout the years of independence, Nakhchivan has played an exceptional role in the development of the Azerbaijani school and pedagogical thought, promoting new pedagogical ideas in Nakhchivan, establishing education and training institutions, raising national pedagogical ideas and school experience in the region to the requirements of the times. In Nakhchivan all the education system has been renewed according to the structure-content parameters, level, its function and self-development opportunities have increased.


## РЕЗЮМЕ


**Севиндж Оруджева**


### ОБЩЕЕ ОБРАЗОВАНИЕ РАЗВИТИЕ НАХЧЫВАН ГОДА НЕЗАВИСИМОСТИ


В статье рассматривается развитие общего образования в Нахчыване за годы независимости. Установлено, что период независимости был основой образования Нахчывана. За годы независимости развитие образования в Нахчыване расширилось, воспользовалось прогрессивными традициями прошлого и развилось на нем. Появление новых педагогических идей в соответствии с духовными и kультурными потребностями общества создало основу для расширения сети образовательных учреждений.

На протяжении всех лет независимости Нахчыван играл исkлючительную роль в развитии азербайджансkой шkолы и педагогичесkой мысли, продвижении новых педагогичесkих идей в Нахчыване, создании учебных заведений и учебных заведений, приведении национальных педагогичесkих идей и шkольного опыта в регионе k требованиям времени. В Нахчыване вся система образования была обновлена в соответствии с параметрами струkтуры и содержания, уровень, его фунkции и возможности саморазвития возросли.

**NOVRUZƏLİ RƏHİMOV**
novruzrehimov62@mail.ru
**ABBAS ƏHMƏDOV**
abbasahmedov@mail.ru
**BAĞIR BABAYEV**
baqirbabayev59@mail.ru
*Naxçıvan Dövlət Universiteti*

# HÜSEYN CAVİD İBLİS - İNSAN QARŞIDURMASINDA İNSANIN VƏ DÜNYANIN GƏLƏCƏK TALEYİ HAQQINDA

**Açar sözlər:** *Cavid, İblis, İnsan, gələcək, dünyanın taleyi*
**Keywords:** *Javid, Devil, Man, Future, Fate of the World*
**Ключевые слова:** *Джавид, Дьявол, Человек, Будущее, Судьба Мира*

Azərbaycanın XIX əsrin sonu- XX əsrin əvvəllərindəki içtimai-siyasi, əbədi-bədii və fəlsəfi fikrinin tədqiqatçıları bu dövrü hərtərəfli araşdırmışlar. Elə bu mənada da görkəmli xadimlər haqqında yazılan fundamental əsərlər təqdirəlayiq sevindirici hadisədir. Amma doğma Azərbaycanımıza sevgimizdən, bu dövr sənətkarlarına dərin ehtiramımızdan, eləcə də, tədqiq edənlərin böyük zəhmətlərinə qədirşünaslıqla hörmətimizdən irəli gələn ülvi, nəcib hisslərimizlə bu dövrə, onun sənətkarlarına bir daha yaxından bələd olmağa ehtiyac duyuruq. Belə yaradıcı şəxsiyyətlərin düşüncələrinə hakim olan ideallara və irəli sürdükləri ideyalara hər zaman yenidən müraciət olunması, onların əvəzsiz irsinə yeni yanaşmalar tamamilə təbii qəbul olunur. Çünki yenidən müstəqilliyə qovuşmağımızla (1991) tədqiqatçılar hər dəfə yeni yanaşmalarda ideoloji şəraitin əsiri olmamış, əksinə, cəhd göstərmişlər ki, hər mənada obyektiv, qərəssiz, birtərəfli olmayan həqiqi fikirlər ortaya qoysunlar. Yəni bu irs layiqli, obyektiv elmi tədqiqata cəlb edilsin və sonda da ədaləti Uca Allaha(c.c.), xalqa, millətə, vətənə və onun mənafeyinə layiq söz deyilsin, humanistt fikirlər söylənilsin.

Cavidin yaradıcılığı, poeziyası bütövlükdə başdan-başa xalqımızın zəngin fəlsəfi irsidir. Bu fəlsəfi irs tamamilə xalqın, millətin, doğma ana vətənin, bütün türk ellərinin tərəqqisinə xidmət edən vətənpərvərlik motivləri aşılamış, doğma vətənin və xalqın nicat yolunun axtarılıb tapılması arzusunu hər zaman vurğulamışdır. Burada böyük zəka sahibi Cavidin bütövlükdə saf niyyətlərinin, amalının, əqidəsinin türk millətinin taleyi ilə bağlılığı açıq-aydın duyulur. Daha doğrusu, Cavid həyatı və fəaliyyətini yaradıcı gücü ilə bütün türk ellərinin və xalqının milli maraqlarına xidmətə həsr etmişdir. “Türk amallı, türk qanlı türkçü olan H.Cavid “türklərin tarixindən yazanda da Azərbaycanı, onun istiqlalını, azadlığını unutmurdu” (10,s.217). Cavid hər zaman axtarışda olmuşdur. Bu gün də biz axtardıqlarımızı bacardığımız qədər Caviddə tapa bilməyə çalışırıq. Cavidin bizə çatdırmaq isdədiyi mətləblər bu günümüzdə də millətimizin atacağı uğurlara edilən xeyir-dualardır. Çünki əbədiyyən Cavid türk dünyasını və türk millətini daha da uca aləmlərdə görməyi arzulamışdır. Bu isə o qədər də adi şey hesab edilməməlidir.

Cavid yaradıcılığı hər zaman və hər yerdə insanı duyğulandıran, düşündürəndir. Çünki o, ümumbəşəri gerçək problemlərdən xəbər verir və sanki bəşəriyyəti gələcəkdə gözləyəcək çətinliklərdən xilasa-qurtuluşa səsləyir. Cavidin əzəmətli, nəhəng yaradıcılığı ümumbəşəri problemlərin ortaya çəkildiyi elə bir meydandır ki, onların içərsində ideya aydınlığına görə bəşəriyyətə bütövlükdə istiqamət verilir, çıxış-xilas yolları göstərilir. “Cavid milli və dini dəyərlərlə müqayisədə ümumbəşəri dəyərlərə daha böyük önəm verir” (16,s.459), “bütün yaradıcılığını fəlsəfi problemlər üzərində qurub” (16,s.424), “klassik Azərbaycan ədəbiyyatının ən yaxşı əsərlərini parlaq şəkildə inkişaf etdirən filosof sənətkarlardandır” (2,s.229).

Hələ sağlığında Cavidin ideya, mənəvi-əxlaqi düşüncə sisteminin öyrənilməsinə ciddi cəhdlər göstərilməmişdir. Onun dünyasını dəyişməsindən, daha doğrusu, ona bəraət verilməsindən, xüsusilə də, anadan olmasının yüzüncü ildönümündən sonra haqqında aparılan tədqiqatların məzmunu və miqyası tamamilə fərqlənməyə başlasa da, lakin Cavid əsl qiymətini və hərtərəfli yenilkçi obyektiv araşdırılmasını Ümumilli lider Heydər Əliyevin onun adını əbədiləşdirməsindən sonra almış oldu və sirlərlə dolu düşüncə dünyasına tamamilə yeni baxışlar sistemindən yanaşılmağa başlanıldı. “Heydər Əliyevin sevə-sevə qayğı göstərdiyi sənətkarlardan Hüseyn Cavidin özünəməxsus müstəsna yeri vardır” (5,s.58). Vaxtilə Cavid haqqında söylənilmiş qeyri-müəyyən fikirlər, yanaşmalar, əsli məlum olmayan inkarçı mülahizələr birmənalı şəkldə artıq bir kənara çəkilməli oldular.

Cavid haqqında bütün aydınlığı ilə hamını maraqlandıran istənilən suallara doğru cavablar axtarmaq tədqiqatçılar üçün çətin və müşküldür. Çünki bütünlüklə belə rəngarəng yaradıcılığın mahiyyətini açmağa çalışan tədqiqatçı Cavidin saf və pak ruhuna ehtiramla uğurlu nəticələrə imza ata bilmək üçün həqiqətin işığında sovet dövründəki tamamilə qərəzli, saxta, birtərəfli ideyalardan, mühakimələrdən uzaq durmalıdır. Onusz da Cavidşünasların hamısı bütün bunları öz axtarışlarında cavablandırmaq istəyində olanlardırlar. Onların izlədiyi, axtarıb-aradığı da məhz elə Cavidin nəhəng ideyalar aləmindəki konkret zaman-məkan çərçivəsindən çox uzaqlarda və ucalarda dayanan, amma konkret müəyyən məkan-zaman daxilində zahirən əhəmiyyətli görünməyənlərə qiymət verməkdir. Lakin, söylənilənlər söylənilmək isdəyənlərin kölgəsində çox solğun görünürlər. Caviddəki konkret coğrafi məkana, tarixi hadisələrə və şəxsiyyətlərə yanaşma ağıl, zəka, idrak, hiss və həyəcanların gücü ilə dərk edilən, böyük nəhəng bəşəri problemlər çərçivəsində insanı düşündürən, onu düşüncələri ilə baş-başa buraxan geniş diapozonlu məna axtarışıdır. Bu, Cavid yaradıcılığına xas olan spesifik xüsusiyyətlərdən biridir.

Cavidin bu gün üçün aktual olan və müasir qlobal dünyamızdakı bütün müharibələrə ittiham kimi səslənən əsəri "İblis" faciəsidir. O,"dünya ədəbiyyatında bu mövzuda yazılan bütün əsərlər içərsində şah əsər" (17,s.151), "ictimai məzmun və dərin fəlsəfi mənasına görə həmişə aktuallığını qoruyub saxlayan bir sənət abidəsidir" (15), "hiyləgərliyə, zorakılığa, qəsbkar müharibələrə özünün nifrətini izhar etmiş" (3,s.199), "insanları şər ruhlara qarşı mübarizəyə çağırır" (8), orada işğalçı müharibələrə lənət yağdırılmışdır" (7, s.5). O, "bütün müharibələrə, dağıntı və qırğınlara səbəb olan iblisanə eybəcərliklərin ifşası və haqq, ədalətə çağırış əzmini ortaya qoyur" (6), "imperialist dairələri İblis sürətində ümumiləşdirilmiş, işğalçı müharibələrə lənət yağdırılmışdır" (4,I, s.465). "İblis" faciəsi "bu illərdə cərəyan edən hadisələrin ümumi ruhundan və mahiyyətindən qaynaqlanır"(12, s.50). Cavid böyük dahiyənəliklə müharibələrin əsl mahiyyətini açıb göstərir, onları bəşəriyyətin faciəsinə səbəb olacaq ən böyük bəla mənbəyi sayır. Bu, "ümumən Azərbaycan və ümumtürk bədii təfəkkürünün yeniliklərindən biridir", "onun baş qəhrəmanlarından biri İblisin bənzərsizliyidir" (14), "o elə bir iblisdir ki, digərləri ilə müqayisə olunmayacaq dərəcədə iblisdir" (17, s.149).

Məlumdur ki, "İblis" faciəsi 1918-ci ildə yazılmışdır. Bu isə heç də təsadüfi deyil. 1918-ci il başlanması ilə bəşəriyyəti o zamana qədər görünməmiş fəlakətlərə sürükləyən Birinci Dünya müharibəsinin faciələrlə başa çatan və yadda qalan sonuncu ili oldu, dünya dəhşətli xarabalıqlar və viranəliklərlə dolub daşdı. Cavidin insana və insanlığa dərk etdirmək istədiyi əsl həqiqət meydanda idi: Dünya müharibəsinin nəticələri insanı dəhşətə gətirmişdi. Milyonlarla insanların məhv edilməsinin günahkarı mahiyyətcə İblis idimi?! Əgər İblisin parlaq qələbəsi insanlığın məğlubiyyəti və bəşəriyyətin dəhşətli faciəsi idisə, onda İnsanın qadir gücü harada qalmışdı?! Hər zaman Tanrının mərhəmət və şəfqətinə sığınmalı olan İnsan yanılıb, yolunu azıb İblisəmi uymuşdu?! Onda dünyada İblisin qələbəsi labüddürsə, hikmət sahibi olan Allah(c.c.) İblisin belə cəsarətləndiyinə görə insanın və dünyanın vəhdətdəki taleyinə yüksəklərdən biganə qalmaz axı...H.Cavid romantizmin reallıqla qovuşması da burada baş tutur ki "o, dövrün real hadisəsini romantik yüksəklikdən müşahidə"(17, s.157) edir.

"İblis" faciəsində müharibə olduqca dəhşətlər törədən hadisə kimi canlandırılır və ona cəmiyyət üçün ictimai bəla mənbəyi kimi yanaşılır. Müharibə istəyi cəmiyyətin daxilində, özəyində, nüvəsində gizlənib qalmış bir şər mənbəyi, niyyəti kimi toplanmışdır. Cəmiyyətin bu bəlalardan asanlıqla qurtulub qaçması adama çox da asan bir şey kimi görünməsin. Birinci Dünya müharibəsinin gətirdiyi fəlakətlər, əvəzi ödənilməz sağalmaz bəlalar təsvir edilir və müharibə real, gerçək tarixi hadisə kimi verilir. Bu müharibə dünyanın o zamana qədərki ən böyük faciəsi idi. Cavid mənsub olduğu türk millətinin başına gətirilən fəlakətlərdən ən ağırı olan Osmanlı dövlətinin- Türkiyənin Birinci Dünya müharibəsində iştirakının ölkəyə və millətə, bütövlükdə isə Türk dünyasına, Türk xalqlarına və ümummilli Türk ruhuna gətirmiş olduğu dərin sarsıntılardan necə üzüldüyünü heç də gizlətmir. O, bütün bunların hamısını tarixi gerçəklikdəki təzadlar, ziddiyyətlər fonunda verir, xeyrin şərlə əbədiyyən səngiməyən mübarizəsinin gətirdiyi sarsıntılardan necə üzüldüyünü ifadə edir. Cavidin nəzərində şərin təzahürü İblisdir. Bəşəriyyətin həm İblisdən-şərdən, həm də onun gətirəcəyi labüd fəlakətlərdən, sarsıntılardan mütləq mənada xilas yolu yalnız və yalnız İnsanın saf niyyəti, pak və təmiz ruhu, sağlam iradəsi, zəkası, ağlı, idarkı ilə mümkündür. Belə İnsan bütün bunları bir mərkəzdə cəmləşdirməklə, var gücü ilə müharibələrə qarşı dayanar, onun qarşısını ala bilər. Əgər buna gücü yetməyəcəkdirsə, onda onun gətirə biləcəyi fəlakətin, sarsıntı və faciələrin miqyasını çox sönük həddə gətirib çatdıra bilər. Belə ümumbəşəri sevgi ilə İnsan hər zaman şər qüvvələrin əhatəsində çarpışmalardan geri durmaz. Ona görə də o, hər zaman şər qüvvələrin- İblislərin hədəfinə tuş gəlməkdədir.

Cavid hər bir savaşın, atılan hər bir antihumanist addımın gətirə biləcəyi fəlakətlərin nəhəng miqyasını təsvir edir. Bu müsibətlər insanlığın şərin haqsız qurbanına necə çevrildiyinə, tökülən acı göz yaşlarının qurumamasına səbəb olmaqdadır. Cavid Şərq fəlsəfi düşüncə tərzinə sadiq qalaraq romantik faciə yaradır. Bütövlükdə isə o, dərin fəlsəfi məna yükü ilə İblisliyin, yəni şər ideyasının bəşəriyyəti məhvə necə sürüklədiyinin psixoloji-dramatik gərginliyinin ağır acı mənzərəsini göz önündə canlandırır. Çox böyük

çətinliklərin hələ qabaqda olacağını, onun ardından isə İnsan həyatının alovlar içərisində necə yaşamağa məhkum edildiyinin fonunda İblislərə qalib gəlmənin vacibliyini, zəruriliyini təsdiqləmiş olur. "İnsanın iblisləşməsi Cavidi və Cavidin simasında bütün bəşəriyyəti narahat edən, fəqət həlli mümkün olmayan problem kimi qalmaqdadır"(9,s.115).

Cavidin maddi-mənəvi dünyasında hər zaman insanları və dünyanı düşündürən problemlər bu günümüzün gözü ilə bütün bəşəriyyəti düşündürən ümumbəşəri problemlərdir. Qlobal məkanda bəşəriyyətin qarşı-qarşıya dayandığı maddi və mənəvi problemlərdən biri Cavid yaradıcılığında ortaya gətirilən insanın və dünyanın taleyi problemidir. İndi Şərqli - Qərbli dünyanın o başından bu başınadək sərhəd tanımayan sosial-siyasi qarşıdurmalar narahatlıq doğurmaya bilməz. Maddiyyat bir tərəfə qoyulsa da, mənəvi cəhətdən bunların hamısı bəşəriyyəti sarsıdan qarşısıalınmaz çox çətin porblemlərdəndir. Çünki bu, azad insanın bütün intellektual potensial gücünü ondan alır, gerçək durumla əlaqədar yalnız ilkin olaraq bunlar haqqında düşünməyə vadar edir. Onun öhdəsində dayanan dünyanın gələcəyi üçün təhlükə mənbəyi ola biləcək bütün problemlər onu bu problemin çözümünü tapmağa vadar edir, yəni hər zaman onu sərbəst buraxmır və bütün potensial mənəvi gücünü tükəndirir.

Təbiət necədirsə, cəmiyyət də eləcə özü əksliklərin vəhdəti və mübarizəsi qanununa tabe olmadan mövcudluğunu sürdürə bilmir. Onların qarşılıqlı vəhdəti bu vəhdətdən doğulacaq zidddiyəti çəkib ortaya gətirir. Bu ziddiyətli məqamda bütün eybəcər mahiyyətli İblis və zəngin, saf, sağlam əqidəyə, mənəviyyata sahiblənən İnsanla birgə, vəhdətdə cəmiyyətin sağ-sol, aşağı-yuxarı tərəflərini təşkil edirlər. Çünki, İblisin eybəcər xisləti ilə eybəcərləşdirdiyi mühit özündə zəngin mənəviyyata sahiblik edən İnsanı dəyişdirməyə, onu bu şəraitin qulu etməyə çalışan başlıca qüvvədir. Burdakı İnsan hər zaman bu mühitdə İblislə mübarizədə nəinki ona yenilmək istəməz, ona qarşı belə naqis mühitə bulaşmamaq, onun fövqündə dayanıb ondan daha üstün olmaq, ən azından daxilində inam və vicdanla daha yaxşı təmasda olan yeni bir mühit uğrunda mübarizə aparmaq istəyər. Lakin, bu mühiti yaratmaq İnsandan daha nələr tələb edəcəkdir. Çünki, bütün bunlara çatmağa maneçilik törədən İblisin mövcudluğu müharibələrdən tutmuş hər cür digər fəlakətlərədək cəmiyyətdə törədə biləcəkləri hər şeyi edər, bunların baş verməsinə münbit şərait yaradar. Odur ki, Cavid "sənətkar olmaqdan öncə bir filosofdur" (16,s.440) və İnsanı nəfsini tərbiyə etməyə, mənəviyyatını yüksətməyə səsləyir.

Son nəticədə Şərq insanının şərqli mentalitetində hakim olanlar belə pak mənəvi ideyalardır. Hər zaman olduğu kimi, yenə də İblis özü-özlüyündə özünü haqlı çıxarır, İnsanı cinayətkar əməllərin icraçısına çevirə biləcək gücə sahiblənə bildiyinə görə çox məmnundur. Lakin o, əsl həqiqəti dərk etmək istəmir, çünki onda miskinliyini göz önündə canlandırmalıdır. O isə bunu nəinki arzulamır, istəmir, hec o haqda düşüncələrinə bu cür narahatlığı yükləmək istəyində deyil. O, şərin daşıyıcısı olduğundan onu Yaradanın Ucalardan- Ucalığından xəbərdardır. Bu qüvvə və qüdrəti ona verən qüdrət mənbəyi olan Uca Allahdır. İblis isə Allahına tabe olmaq əvəzinə bəşəriyyətə sahiblənmək istəyir və hər şeyi də bu istəyinin qabağına qataraq, qovduqca qovmağa çalışır. Lakin o, bir daha qüvvət, qüdrət hikmət sahibi olan Allaha xidmət etmək əvəzinə ədalət, haqq uğrunda mübarizə aparanlara qarşı əks mövqe tutur. Amma özü bu həqiqətin yolundan çox aralıda qaldığını bilməmiş deyildir.

"İblis" faciəsi xeyrin şərlə mübarizəsində İnsanın yerini və mövqeyini bəlli edir. Burada keçən ideyalardan əsası, fikrimizcə, insanın mənəvi ucalığı, mənən saflığı-paklığı ideyasıdır. Əsərin obyektiv qiymətini obyektivcəsinə verə biləcək qüvvət və qüdrət hər bir tədqiqatçının qismət payına düşməmişdir. Burada yalnız və yalnız qələbə, qalibiyyət axtarışı sonda bitərəfliyə səbəb ola bilər. Bu uyğunluğun pozulmaması, əsl məqsədi hasil etmək və doğru nəticəyə gəlmək üçün qarşılaşdırılan İblis-İnsan qarşıdurmasında ideyaların çarpışmasında qazanılandan itirilənlərin cəmini çıxarıb atmaq lazım gələcəkdir. Bu labüd mübarizədə nəzərdə tutulacaq uğurun əldə edilməsi çox asan bir yolla mümkün ola bilməz. Cəmiyyət həyatına hər zaman hakim ola biləcək bu çətin yoldakı gərgin sosial mübarizə İlahi və ümumbəşəri mənəvi-əxlaqi keyfiyyətlərin birləşdirilməsi hesabına uca sayıla bilər.

Allahu-Təala sonsuz əzəmət və qüdrətiylə, səbriylə dünyanı yaradıb onu Adəmoğullarına bəxş etmişdir. Əgər İblisin qələbəsi labüddürsə, onda Allahu-Təalanın yaratdığı Adəm övladı nə üçündür? Uca Yaradan onun xilqətinə şərə qarşı barışmazlıq əzmini, eşqini yoğurmuşdur, ona sağlam mənəviyyata sahiblənməsini buyurmuşdur. Bu İnsanın tərbiyəçisi olan Uca Rəbbimiz hər zaman şərə-İblisə qarşı mübarizədə İnsana qalib gələ bilmək əzimkarlığını vermiş və hər zaman hər yerdə onun tərəfində duracağını öz İlahi sözlərində bəyan etmişdir. Yalnız imanlı, təqvalı, kamil İnsan heç nəyə aldanmaz və sonda saf, təmiz yolla çətinliklə də olsa İblisi məğlub edəcəkdir. Belə olduqda bu qədər dəhşətlər, fəlakətlər saçan İblisə qarşı necə mübarizə aparıb, onu hansı yollarla durdurmaq, dayandırmaq mümkün sayıla bilər? İblis-İnsan qarşıdurmasında mümkünsüz görünənlərə mümkün olan nəzəriylə baxan Cavidin sənətkar qələminin gücündən süzülüb gələnlər İnsanlığın geniş qəlbinə rahatlıq gətirir, onun qalib sonluğa qədər dözümlə, səbrlə

Haqq üçün, Haqq yolu ilə vuruşmağın vacibliyini, gərəkliyini vurğulayır. "Haqq yolunda haqq üçün şərəf və vicdanla çarpışmada insana yalnız Allahın yardım edə biləcəyini dərindən dərk etdirir" (14).

Cavid XX yüzilliyin əvvəllərində də "İlahi eşq sahiblərinin və Ulu Tanri aşiqlərinin yenə də faciəyə məhkum olduqlarını məharətlə nümayiş etdirir" (14). O, milli dəyərləri deyil, ümumbəşəri dəyərləri XX yüzilliyin bədii təfəkküründə inkaredilməz arqumentlərlə açıb göstərmiş və "Tanrıya olan eşqin hər şeydən, hətta dini təriqətlərdən belə uca olduğunu bəyan etmişdir" (17, s.146). İnsanın qəlbi Allah nuru ilə dolmayanda dünya da onun üçün qaranlıq qalır. "Qurani-Kərim"də deyildiyi kimi, "Allah onların nurunu aldı və onları zülmət içində qoydu, onlar görə bilmədi" (13,2/17). İblis də insana ona görə gülür ki, insanı aciz və gücsüz sayır. "İblis" faciəsində idrakın gücü və gücsüzlüyü bütün tərəfləri ilə ortaya çıxır" (8). Cavid ifadə etmək istəyir ki, "İnsan öz səadətinin səbəbi olduğu kimi, öz fəlakətinin də səbəbidir" (7,I, s.33). "İnsan özü-özündən qaça bilməz. İblis də, mələk də insanın öz içindədir. Fərdlər özünə hakim olmağı bacararsa, bütün bəşəriyyətdə sülh hökm sürər, ədalət qələbə çalar. Budur Cavidin ədalət çağırışı" (11). Belə məqamlarda şairin "sənətkar qayəsinin aydın ifadəsi yazdığı əsərin ideya-fəlsəfi təsir gücünü mümkün qədər artırmaq, möhkəmləndirmək məqsədi daşıyır" (6). Cavidin ən böyük arzusu "insanlığı yumruq kimi bir əqidə, amal, mənəviyyat baxımından bütöv toplum şəklində görmək idi. Dinlərin, təriqətlərin, dövlətlərin, sərhədlərin, partiyaların parçaladığı cəmiyyət üzvləri arasında barışığa çağırırdı ədib" (11).

Bu günümüzdə belə İblis insanın pak, təmiz ruhuna-qəlbinə daxil olub ona sahiblənmək isdəyindən vaz keçən deyil. İblis müvazinətini pozmaq, xarakterini dəyişdirmək, əqidə və iradəsindən dönməyəcək. Bu, onun mahiyyətinə yad olduğundan o, bütün mənfur cəhətləri ilə insanın mənəviyyat aləminə nüfuz edir. Doğrudur, insan nə qədər saf, pak, təmizdirsə ədalətli, mərhəmətli, ruhani xarakterli olacaqdır və yetər ki, Allahın ona verdiyi, onunla həmahəng səslənən İlahi hiss və keyfiyyətlərə sədaqətiylə, etibarlı olmaqla dayana bilsin. Onu var gücü ilə qoruya bilsin və Allaha olan sevgisilə ona bağlansın.

Ədalətsiz çirkli mühitdə İblisin qələbəsi mütləqdir, çünki onun təbiətindən yalnız iblislər doğula bilərlər. Onlar da cəmiyyətin eybəcərliklərinin say çoxluğuna nail olarlar. Cəmiyyətin yalnız belə eybəcərliyə qucaq açması ümumbəşəri hər şeyə qarşı açıq bir düşmənçilik deməkdir. İblisin mövcud və hakim olduğu cəmiyyətdə mütləq uçurumlar yaradılmışdır ki, onu yaradanlar iblis xislətindən doğulanlardır, İblisin hakimliyindən törənən eybəcərliklərdir. İblis əsl İlahi həqiqəti çox tez-tez unudur və nəticədə özünəməxsus bütün eybəcər keyfiyyətlərin əsirinə çevirir. Cavid bütün eybəcərliklərin hamısının törədicisi olan İblisin dəhşətli, dağıdıcı gücə sahib olduğunu anladır. Əslində, belə olduqda bu qədər dəhşətlər, fəlakətlər saçan İblisə qarşı necə müharibə aparıb, onu hansı yolla durdurmaq, dayandırmaq mümkün sayıla bilər? Cavid İblis-İnsan qarşıdurmasında mümkünsüz görünənlərə mümkün olan nəzərilə baxır. Onun sənətkar qələminin gücündən süzülüb gələnlər insanlığın geniş qəlbinə rahatlıq gətirir, onun qalib sonluğa qədər dözümlə, səbrlə haqq üçün haqq yolu ilə vuruşmağın vacibliyinin gərəkliyini vurğulayır.

Cavid böyük bir filosof olaraq çox qısa bir yolla zamanın və insanlığın mövcud olduğu məkanın-real dünyanın obyektiv mənzərəsinin mahiyyətini açır. Bununla Hüseyn Cavid "bu gündən keçmişə, tarixdən də tarixin gözü ilə bu günə və gələcəyə boylanır, soydaşlarını ayıqlığa, sayıqlığa səsləyir" (6). "İnsanın iblisləşməsi Cavidi və Cavidin simasında bütün bəşəriyyəti narahat edən, fəqət həlli mümkün olmayan problem kimi qalmaqdadır. Cavid içimizə güzgü tutmaqla bizi iblislikdən xilas olmağa, iblisləşməkdənsə-insanlaşmağa, saflaşmağa, haram nəfsimizi özümüzə tabe, qul etməyə çağırır" (9, s.115). Dünyanı yaradan Allahın əzəmət və qüdrətinə, sonsuz səbrinə müraciət edən Cavid Adəmoğullarının orada qurub yaratmaq eşqini alqışlayır. "Qurani-Kərim"də bu məsələ çox aydın şəkildə işıqlandırılır və göstərilir ki, iblis əlbəttə, insanların qəlbinə yol tapa bilər, amma yalnız o insanların ki, onların qəlbində müqəddəslik duyğusu, Allah eşqi yoxdur. Allah eşqi olan yerə iblis yaxın düşə bilməz. Doğurdan da, Allah olmayan yerdə-Allah duyğusu olmayan qəlbdə iblis üçün böyük meydan açılır. Amma H.Cavidin məqsədi də elə bundan ibarətdir ki,insanları ilahi eşqə, müqəddəslik duyğusuna səsləsin və bununla da insanı naqis mühitin fövqünə qaldırsın; insan nə öz içərisində, nə də mühitində, cəmiyyətdə iblisə yer qoymasın"(16,s.20).

## ƏDƏBİYYAT


1 Azərbaycan ədəbiyyatının söz və fikir zadəganı - Hüseyn Cavid: metodik vəsait/tərt. ed.: A. Əliyeva/ Bakı, 2017.-74 s.

2 . Azərbaycan multikultralizmi, Dərslik - Bakı: BBMM, 2017- 416 səh.

3 Azərbaycan tarixi, Yeddi cilddə, V cild (1900-1920-ci illər). Bakı, Elm, 2008.696 səh.

4 Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, İki cilddə, I cild. Bakı, Lider, 2004. 440 səh.

5 Babaxanlı Gülbəniz, Heydər Əliyev və Hüseyn Cavid, Bakı, Proqres, 2013, 160s

6 Bayramoğlu Alxan. Hüseyn Cavidin fikir və sənət dünyası 17okt2018 senet. az› Bölməsiz ›Manşet

7 Cavidşünaslıq I (araşdırmalar toplusu). Redaktor: Gülbəniz Babaxanlı Bakı: "Elm", 2007. 324 səh

8 Əliyev Kamran, İdrakın gücü və gücsüzlüyü- 26dek 2017 Manera.Az manera .az /edebiyyat/5666-drakin-gucu-ve-gucsuzluyu.html
9 Əzizova Nəzakət. H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı (”Şeyx Sən`an”, ”İblis”, ”Peyğəmbər) Bakı – “Elm”– 2007. 152s
10 Həsənova S.Q. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Hüseyn Cavidin fəaliyyəti, Bakı Universitetinin Xəbərləri, 2015 N2 səh.216-220
11 Nəcəfzadə Əzizağa, Hüseyn Cavidin əsərlərində ədalət, sülh və müharibə anlayışları. 21 oktA 2015 senet.az/huseyn-cavidin-əsərlərində-ədalət-sulh-və-muharibə-anlayislari/
12 Pənah Gülxani, Əhmədli Salatın. Sənət, sənətkar və zaman, Müasir ədəbi mühitə ümumi baxış. Bakı, «UniPrint», 2014, 602 səh.
13 Qurani-Kərim. Z.M.Bünyadov və V.Məmmədəliyevin tərcüməsi, Bakı, 1992
14 Qasımbəyli Yaşar. Azərbaycan romantizminin öyrənilməsində yeni mərhələ 01 okt 2018...www. artkaspi. az/ .../azerbaycan-romantizminin-yrenilmesinde-yeni-merhele-yasar-qasi.
15 Sadiq Şəmil. Hüseyn Cavid yaradıcılığında demonizm 07 sent 2015 senet.az › Manşet › Tənqid
16 Xəlilov Səlahəddin. Cavid fəlsəfəsi (2-ci kitab: klassik Şərq və müasirlik). Bakı, “Nurlar”, 2009. 128 s.
17 Vəliyeva Sona. Hüseyn Cavid sənətinin qüdrəti, Bakı, Zərdabi LTD” MMC, 2018

## ABSTRACT


### HUSEYN JAVID ABOUT THE CONFLICT BETWEEN THE DEVIL AND MAN AND A REQUEST FOR THE FUTURE OF THE DESTINY OF PEACE AND HUMAN

As a great philosopher, Javid reveals the essence of the real world of space and time, where humanity exists in a very short time. Javid who turned to the magnificence and power of God, the Creator of the world, to His eternal patience. In the Koran, this issue is clearly illuminated, and it is shown that the devil, of course, can find a way to the hearts of people, but only to those who do not feel holiness in their hearts, but does not love God. The devil cannot approach the place of the love of God.


## РЕЗЮМЕ


### ГУСЕЙН ДЖАВИД О КОНФЛИКТЕ МЕЖДУ ДЬЯВОЛОМ И ЧЕЛОВЕКОМ И ЗАПРОС О БУДУЩЕЙ СУДЬБЫ МИРА И ЧЕЛОВЕКА

Kak великий философ, Джавид раскрывает сущность реального мира пространства и времени, где человечество существует в очень kopoткое время. Джавид kоторый обратился k великолепию и могуществу Бога, Создателя мира, k Его вечному терпению. В Коране этот вопрос четkо освещен, и поkазано, что дьявол, kонечно, может найти путь k сердцам людей, но тольkо тем людям, kоторые не чувствуют святость в своих сердцах, а Бога не любит. Дьявол не может приблизиться k месту любви Бога.

**MİRHƏSƏN EMİNOV**
*Naxçıvan Dövlət Universiteti*
*mirhesenemin@yahoo.com*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI TAM ORTA MƏKTƏBLƏRİNDƏ ŞƏXSİYYƏTYÖNÜMLÜ TƏHSİLİN TƏTBİQİNİN SƏMƏRƏLİ YOLLARI

**Açar sözlər:** *insan kapitalı, şəxsiyyətyönümlü təhsil,əməkdaşlıq, yaxşı nümunə, təhsil sistemi, əxlaq normaları, milli-mənəvi dəyərlər*

**Key words:** *human capital, person-oriented education, cooperation, a good example, education system, moral standards, national and spiritual values*

**Ключевые слова:** *человеческий капитал,личностно-ориентированное образование, сотрудничество, хороший пример, система образования, моральные нормы, национально-нравственные ценности*

Azərbaycan Respublikası öz nüstəqilliyini əldə etdikdən sonra təhsil sahəsində olan problemlərin araşdırılması məqsədilə 30 mart 1998-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Dövlət Komissiyası yaradılmışdır. Dövlət Komissiyası tərəfindən hazırlanmış "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı"nda oxuyuruq: "Hazırda təhsil sistemində milli ideologiyamıza əsaslanan, gənclərimizdə vətənpərvərlik, vətəndaşlıq, torpağa və xalqa bağlılıq hissi aşılayan tərbiyə konsepsiyası yoxdur. Təhsilin və tərbiyənin məzmununun əsasını təşkil edən təhsil proqramlarında bu hissləri aşılayan mövzuların olmaması, Azərbaycan tarixi və mədəniyyətinin lazımi səviyyədə öyrədilməməsi onların milli hisslərinə mənfi təsir göstərir".

1999-cu ildən etibarən ölkəmizin ümumi təhsil sistemində, yuxarıda qeyd olunan çatışmamazlıqlar nəzərə alınmaqla, islahatlara başlanılmışdır. İslahatlar əsasən, təhsilin məzmununun yeniləşdirilməsinə və keyfiyyətcə yüksəldilməsinə yönəldilmişdir.

Azərbaycanın ümumi təhsil sistemində məzmun islahatlarına başlanarkən inkişaf etmiş ölkələrin təcrübəsi nəzərə alınmış, ümumi təhsilin məqsədlərinin orta məktəb məzunları üçün müəyyənləşdirilən baza kompotensiyalarının (tələblərinin) təmin olunması istiqamətinə yönəldilməsi ideyası əsas tutulmuşdur.

Təhsil sahəsində islahat hərəkatı başlandıqdan sonra, ilk növbədə, tanınmış dünyamiqyaslı ekspertlər, mütəxəssislər ölkəmizin ümumi təhsil sistemində geniş tədqiqatlar aparmış və aşağıdakı nəticələrə gəlmişlər:

1. Fənlər vasitəsilə bilik və bacarıqların verilməsi zamanı daha çox faktlardan istifadə olunur, məlumatların yadda saxlanılmasına üstünlük verilir. Fənlərin əksəriyyətində uşaqların təfəkkür və düşüncə tərzini, qabiliyyətini inkişaf etdirən məzmun yoxdur.

2. Azərbaycanda olan cari kurikulum modeli, əsasən, fənlər üzərində qurulmuşdur, təklifyönümlüdür. Şagirdlərin dərs yükü çox ağırdır, bu isə onların informasiya ilə xeyli yüklənməsinə və nəticədə təlimlə bağlı problemlərin yaranmasına səbəb olur. Cari sistem şagirdlərin müstəqil tədqiqat aparması, düşünməsi, kitabxana və digər vasitələrdən istifadə etməsi üçün zəmin yaratmır. Səhv olaraq hesab edilir ki, əgər şagirdlərə müəyyən fənnin məzmunu öyrədilirsə, onlarda avtomatik olaraq məhsuldarlıq və məsuliyyət kimi keyfiyyətlər formalaşır.

3. Müxtəlif siniflər üzrə eyni fənlərin məzmununda lazımsız təkrarlamalar mövcuddur ki, bunlar da təlim nəticələrinin keyfiyyətinə lazımi diqqət yetirməyə maneçilik törədir.

4. Orta məktəb məzunlarının real həyata hazırlanmasının vacibliyi kifayət qədər nəzərə alınmır. Tədris proqramlarında həddən artıq məlumatlar mövcuddur ki, şagirdlər onları əzbərləmək yolu ilə öyrənmək məcburiyyətində qalırlar. Bazar cəmiyyəti üçün lazım olan bilik və bacarıqların öyrənilməsinə az əhəmiyyət verilir. Məsələn; problemin həlli, tənqidi düşünmə, fikir yürütmə, alternativ izahatların axtarılması və s. tədris proqramlarında əsas hədəf kimi qarşıya qoyulmur (6, s.32).

Göründüyü kimi, ümumi təhsil sistemində ciddi problemlər mövcud olmuşdur. Bu problemlər yalnız təhsilin məzmununa deyil, onun idarə olunmasına, pedaqoji prosesin həyata keçirilməsində müasir texnologiyaların tətbiqinə, şagird nailiyyətlərinin qiymətləndirilməsinə də aid idi.

Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanda təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda 5 əsas istiqamət öz əksini tapmışdır. Həmin istiqamətlərdən birincisi səriştəyə əsaslanan təhsilin məzmununun yaradılmasıdır. Bu gün orta ümumtəhsil məktəblərində müəllimlərin səriştələrinə, onların kompotensiyalarına əsaslanan təhsilin yeni məzmununun

yaradılması mühüm aktuallıq kəsb edir. Çünki, şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması, şagirdlərin şəxsiyyətyönümlü yanaşma əsasında hərtərəfli inkişafının təmin olunması tələb kimi irəli sürülür. Şagirdlərə şəxsiyyətyönümlü yanaşma üzrə təsir göstərilməsi isə, onların sağlam ruhlu vətəndaş kimi yetişdirilməsinə pozitiv zəmin yaratmış olur.

Hazırda Azərbaycan özünün təhsil sistemini dünyanın ən mütərəqqi ölkələrinin təhsil prinsiplərindən istifadə etməklə təkmilləşdirir, məzmun və struktur dəyişiklikləri aparır. Ölkəmizdə insanın həyati bacarıqlara malik bir şəxsiyyət kimi formalaşması istiqamətində səmərəli fəaliyyət göstərilir. Azərbaycanda təhsil sahəsində islahatlar məhz bu məntiqə uyğun olaraq mərhələlərlə aparılır. Həmin mərhələlərdə şəxsiyyətyönümlü təhsilin məzmunu nümunəvi şəkildə yaradılır. Bu isə şəxsiyyətyönümlülük, şagirdyönümlülük, tərbiyəyönümlülük, inteqrativlik, nəticəyönümlülük vəqiymətləndirmə standartları əsasında həyata keçirilir.

Mütəxəssislər şəxsiyyətyönümlülük prinsipi deyəndə təhsil alanda aşağıdakı keyfiyyətlərin inkişafını nəzərdə tuturlar. Şəxsiyyətyönümlülük - təhsil alanın idraki, ünsiyyət və psixomotor bacarıqlarını inkişaf etdirməklə onlarda milli və bəşəri dəyərlərin formalaşdırılmasıdır. Şagirdin şəxsiyyət kimi formalaşması üçün onun bu bacarıqların hər birinə yiyələnməsi və bu bacarıqların səriştələrə çevrilərək onların gələcək həyati fəaliyyətlərində tətbiq olunmasını nəzərdə tutur. Düşünürük ki, ümumtəhsil məktəb şagirdlərinin vətənpərvər şəxsiyyət və layiqli vətəndaş kimi yetişməsi üçün öyrədən, öyrənən, valideyn, dərslik və pedaqoji prosesin nəzərə alınması çox  vacibdir. Qeyd olunan vacib amillərin təsir imkanlarını izah etməyə çalışaq.

Birincisi, müasir rəqəmsal dünyada Z [zed] nəslindən olan şagirdlərə (mütəxəssislərin fikrincə, 2000-ci ildən etibarən doğulan uşaqlar Z [zed] nəsli adlanır) dərs deyən müəllimlər hansı keyfiyyətlərə malik olmalıdır(3, s.2).

Fikrimizcə, müəllim ilkin olaraq öz elmi-nəzəri, pedaqoji, psixoloji, metodik biliklərini inkişaf etdirməlidir. O, İKT vasitələrindən səmərəli istifadə etmək bacarığına yaxşı yiyələnməlidir. Müasir müəllim dərs dediyi şagirdlərin temperamentini, tipini (introvertvəekstravert), uşaqlarla ünsiyyət və əməkdaşlığın xüsusiyyətlərini, valideyn-müəllim münasibətlərini, Q. Qardnerin « Çoxşaxəliintellektnəzəriyyəsi » və onun təlimdə rolunu, qızlar və oğlanlarla işintəşkili xüsusiyyətlərini,  kollektiv əməkdaşlıq qaydalarını və s. məsələləri yaxşı bilməlidir. Düşünürük ki, məhz belə münbitşəraitdə dərsinkeyfiyyəti yüksək olur, şagirdlər vətənpərvər şəxsiyyət və rəqabət qabiliyyətli vətəndaş kimi yetişəbilərlər.

Düşünürük ki, orta ümumtəhsil məktəb müəllimləri şagirdlərini şəxsiyyətyönümlü innovativ fəaliyyətə cəlb etmək üçün aşağıda qeyd olunan qaydaları dərs prosesində nəzərə alsalar dərs şagirdlər üçün maraqlı olar. Çünki yaxşı dərs yalnız müəllimin yaxşı öyrətməsilə yox, öyrənənlərin yaxşı öyrənməsi ilə ölçülür:

- Müəllimlər çox zaman dərsliklərdəki materialları tədris etməklə kifayətlənir. Dərsin məqsədi isə həmin materialları öyrənənlərə çatdırmaq yox, mövzuları mənimsətməkdir.
- Mövzunun izahından əvvəl onu öyrənməyin əhəmiyyətini öyrənənlərə anlatmaq öyrənənlərin dərsə marağını artırar və dərs səmərəli olar.
- Bəzən müəllimlər dərsdə izahata çox yer verirlər. Öyrənənlərin dərs prosesində müstəqil öyrənə biləcəklərini onlara öyrətmək onların dərsə marağını azalda bilər.
- Müəllim dərsdə şəxsiyyətyönümlü təhsil prinsipinə uyğun öyrənənlərin bilik səviyyəsini nəzərə alaraq material seçməlidir. Əks təqdirdə dərs çox cansıxıcı olar. Öyrənənlərin bilik səviyyəsinə uyğun olmayan tapşırıq öyrənənləri ruhdan salar.
- Dərsə başlayarkən yeni mövzunun çətinliyini xüsusi vurğulamaq öyrənənlərin özünə inamını azaldar və dərs səmərəsiz olar.
- Bütün siniflərdə, xüsusilə paralel siniflərdə dərsi müxtəlif üsullarla tədris etmək dərsi maraqlı edər.
- Mövzu ilə bağlı sual verərkən öyrənənlərin cavabını gözləmədən sualı cavablandırmaq onları tənbəlləşdirər.
- Öyrənənlər danışarkən onlara diqqətlə qulaq asmaq bütün sinfi diqqətli olmağa sövq edər. Belə halda öyrənənlər daha məsuliyyətli olmağa çalışarlar.
- Öyrənənlərə bu günlə səsləşən materialları öyrənməyi öyrətmək lazımdır.
- Öyrənənlər onların bilik səviyyəsinə uyğun tapşırığı yerinə yetirdikdə bundan zövq alır və daha həvəslə növbəti tapşırığın icrasına başlayırlar. Onlar yorulmurlar, ona görə ki, tapşırıq  həvəslə yerinə yetirilirsə, beyinə qan çox daxil olur, bu da onların iş qabiliyyətini artırır.

İnkişaf etmiş ölkələrdə məktəblilərə yanaşma tərzini öyrənmək üçün “Personal Development for Students” saytını nəzərdən keçirdik. “Personal Development for Students” saytında mütəxəssislər məktəblilərə əməli məsləhətlər verərkən aşağıdakı tələbləri irəli sürürlər:

-Daima yeni şeylər öyrənmək üçün hazır olun.

-Vaxtınızı boş yerə sərf etməyin. Vaxt şagird üçün ən dəyərli nemətdir.

-Böyüklərinizə və müəllimlərinizə ehtiram göstərin.

-Heç vaxt özünüzdən məmnun olmayın, həmişə biliyinizi artırmağa çalışın.

-Müəllimlərinizə sual verməkdən çəkinməyin. Sizin inamla verdiyiniz ağlabatan sual onlarda yaxşı təəssürat yaradır.

-Tez yatmağa və yuxudan erkən qalxmağa adət edin.

-Kitablarınızı və dərs ləvazimatlarınızı səliqəli və təmiz saxlayın.

-Həmişə mükəmməl oxu üçün cəhd edin. Yalnız imtahan üçün oxumayın, real biliklər üçün oxuyun.

-Sakit bir yerdə və iş masanızın arxasında oxuyun.

-Həmişə sakit danışan olun.

-Zəkalı olduğunuz üçün heç vaxt qürrələnməyin.

Göründüyü kimi, bu tələblərin hər biri şagird şəxsiyyətinin formalaşdırılması üçün ən səmərəli və müəyyən perspektivi olan tələblər kimi irəli sürülmüşdür. Bu tələblərin hər biri məktəblilərin dərslərini yaxşı oxumalarına, rejimi gözləmələrinə, səliqə-səhmanlı olmalarına, özlərini yaxşı aparmalarına, ailə münasibətlərini normal qurmağa, yoldaşları ilə nümunəvi davranmağa istiqamət verən tələblər kimi dəyərləndirilməlidir. Bu tələbləri gözləyən şagirdlərin vətəndaş kimi yetişməsinə heç bir şübhə ilə yanaşmaq olmaz.

Həmin saytda valideynlər üçün də müəyyən tələblər irəli sürülür:

-Uşaqlarınızın yanında heç zaman siqaret çəkməyin.

-Öyrənmənin səmərəli yolunun inkişafında uşaqlarınıza kömək edin.

-Uşaqlarınızı heç vaxt başqa uşaqlarla müqayisə etməyin.

-Uşaqlarınızla dost olun.

-Uşaqlarınızla vaxtınızı səmərəli keçirməyə çalışın.

-Uşaqlarınızın uğurlarını öyrənmək üçün valideyn-müəllim yığıncaqlarında həmişə iştirak edin.

-Uşaqlarınız üçün ev tapşırıqlarının vaxtını müəyyənləşdirin.

-Əlavə çalışmaları üçün onlara təzyiq etməyin.

-Uşaqlarınızın öyrənmə qaydasını müşahidə edin, lazım gələrsə müdaxilə edin.

-Onların dərslə məşğul olmaları üçün sakit guşə ayırmağa çalışın.

-Yeri gəldikcə nümunə göstərin (8).

Valideynlərin qarşısında qoyulan belə tələblər vətəndaş yetişdirməyin imkanlarını bir qədər də artırmış olur. Ona görə də istər ailədə, istər tədris prosesində, istər dərsdənkənar və məktəbdənkənar tədbirlərdə, istərsə də sosial mühitdə vətəndaş yetişdirməyin imkanlarını artırmaq üçün həm məktəblilər və həm də valideynlər qarşısında qoyulan tələblərin reallaşdırılmasına çalışmaq lazımdır.

"An American Perspective on Person-Oriented Education" saytında qeyd edilir ki, Amerika məktəblərində sinif müəllimlərinin çoxu yeni dərs ilinin əvvəlində öz sinif otaqlarını səliqəyə salır, sinifdə olan mebeli müasir tələblərə uyğun yerləşdirirlər. Ann Griffin adlı bir sinif müəllimi öz ibtidai sinfində sinif əşyalarını ənənəvi qaydada düzmür. O, hər şeyi, zibil qutusu da daxil olmaqla sinif otağının ortasına qalaqlayır. Dərs ilinin ilk günü müəllim şagirdləri ilə birlikdə sinif otağını qaydaya salır. İdeya bundan ibarətdir ki, şagirdlər bu prosesdə fəal iştirak etməklə sinif məkanında bir mülkiyyət hüququ qazanırlar. Bir gün Ann Griffinnin sinfində dərs aparan təcrübəçi sinif müəllimi Ann Griffindən və şagirdlərdən tez gəldiyindən sinif otağında olan əşyaları fərqli qaydada yerləşdirir. Şagirdlər dərsə gəlir və təbii ki, Griffindən – sinif müəllimlərindən sinif əşyalarını fərqli düzdüyünün səbəbini soruşurlar. Müəllim bildirir ki, o heç bir dəyişiklik etməyib. Əşyaların yerini təcrübəçi müəllim dəyişib və səbəbini ondan soruşmaq lazımdır. Təcrübəçi müəllim izah edir ki, sinif otağında olan dəyişikliyi həmin gün üçün planlaşdırdığı dərsin pedaqoji tələbinə uyğun etmişdir. Şagirdlər fikrə gedir. Nəhayət, şagirdlərdən biri təcrübəçi müəllimə deyir ki, növbəti dəfə belə halda onlardan soruşmaq lazımdır, çünki "bu bizim sinifdir".

Bu misal istənilən yaşda olan məktəblilərin sinif otağı timsalında demokratik vərdişlərin təbliğinə və mənimsənilməsinə aid nümunələrdən biridir.

Müasir dərsin aparılmasına və yüksək nəticə almağa yardımçı olan bir neçə qayda və məharətlər vardır ki, onlara da dərs prosesində riayət olunması dərsin səmərəsini artırar:

- Şagirdlərlə yaxşı ünsiyyət yaratmağa çalışmalı;
- Şagirdləri dərs prosesində fəaliyyətə cəlb etməyi bacarmalı;
- Yumordan istifadə etməli;
- Nəzərə çatdırmalı, lakin qarşılıq verməməli;
- Tədris vaxtı aydın və dəqiq izah etməyə çalışmalı;
- Şəxsiyyətyönümlü təlimə şərait yaratmalı;
- Pozitiv əks-əlaqə yaratmalı;

- Şagirdləri qərar qəbul etməyə sövq etməli;
- Şagird-şagird əməkdaşlığına önəm verməli;
- Fənni sevməli və sevdirməli.

Bütün bunlar onu göstərir ki, müəllim dərs prosesində şəxsiyyətyönümlü təhsil prinsipindən istifadə edərək tədris olunan materialın məzmununu yaxşılaşdırmalı, bu kontekstdə şagird şəxsiyyətinin formalaşdırılmasını önə çəkməli və onların bir vətəndaş kimi yetişdirilməsini özünün ali məqsədi hesab etməlidir. Qeyd olunantələblərin, qaydaların,əməli məsləhətlərin səmərəli olduğunu müəyyənləşdirmək üçün Naxçıvan Muxtar Respublikasının orta ümumtəsil məktəblərində pedaqoji tədqiqat aparmaq qərarına gəldik.

Pedaqoji tədqiqatlar Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbində, Naxçıvan Qızlar liseyində, Naxçıvan şəhərindəki 1, 2, 4, 10,12 saylı tam orta məktəblərdə, Şərur şəhər 1saylı tam orta məktəbdə, Oğlanqala kənd tam orta məktəbində, AşağıYaycı kənd tam orta məktəbində, Gümüşlü kənd tam orta məktəbində sınaqdan keçirilmiş və müsbət nəticələr əldə edilmişdir. Pedaqoji tədqiqatın Naxçıvan Muxtar Respublikanın digər rayonlarının tam orta nəktəblərində də keçirilməsi nəzərdə tutulmuşdur.

Nəticə olaraq qeyd etmək istəyirik ki, vətənpərvər şəxsiyyət formalaşdırmaq və layiqli vətəndaş yetişdirmək üçün yuxarıda qeyd edilən tələbləri və Azərbaycan xalqının milli adət - ənənələrinə uyğun olan didaktik materiallardan istifadə etməklə və təlim modullarının hazırlanması ilə nail olmaq mümkündür.

## ƏDƏBİYYAT


1. Abdulla Qəhrəmanov, Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə təlim kursunun iştirakçıları üçün təlim materialı, Bakı: 2012
2. Bayramov Ə., Əlizadə Ə. Psixologiya, Ali məktəblər üçün dərslik, Bakı: Maarif, 1989
3. English Teaching Forum, Volume 50Ş Number 1, 2012
4. Əlizadə Ə. İdrak prosesləri və hisslər, Psixopedaqoji məsələlər, Bakı: 2006
5. Kurikulum jurnalı, 2008, №4, s.5
6. Kurikulum islahatı: tədqiqatlar, nəticələr, Bakı: Mütərcim, 2011
7. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, ttp://edu.gov. az/az/ page/ 72/302
8. http://www.philosopheducation.com
9. http://www.azerbaijans.com/content_873_en.html#sthash.RnS30l27.dpuf


## ABSTRACT

**M.S.Eminov**

### EFFICIENT WAYS OF APPLICATION OF PERSON-ORIENTED EDUCATION IN THE SECONDARY SCHOOLS OF NAKHCHIVANAUTONOMUS REPUBLIC

Presently, the Republic of Azerbaijan is improving its education system using the education principles of the most progressive countries and is making content and structural changes. Reforms in the education field in Azerbaijan Republic are carried out in pupils' formation as personalities. Utilizing contemporary instruction technologies is expedient to bring up secondary school students as patriotic and decent citizens.

## РЕЗЮМЕ

**М.С. Эминов**

### ЭФФЕКТИВНЫЕ ПУТИ ПРИМЕНЕНИЯ ЛИЧНОСТНО-ОРИЕНТИРОВАННОГО ОБРАЗОВАНИЯ В ПОЛНЫХ СРЕДНИХ ШКОЛАХ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В настоящее время Азербайджанская Республика совершенствует свою образовательную систему с использованием принципов образования самых прогрессивных стран мира, проводит содержательную и структурную изменения. В Азербайджансkой Республиkе образовательные реформы проводятся в направлении формирования учениkов kak личность.

В целях подрастания учениkов общеобразовательных шkол kak патриотичесkая личность и kak достойный гражданин, следует целенаправленно использовать современные технологии обучения.

**SURƏ SEYİD**
*Naxçıvan Dövlət Universiteti*

## "ŞƏRQ QAPISI" QƏZETİ VƏ NAXÇIVAN ƏDƏBİ MÜHİTİ

Jurnalistika cəmiyyətin güzgüsü olmaqla bərabər həm də elmin bir sahəsidir. O, bir elm sahəsi kimi həm araşdırılır, həm araşdırır. Jurnalistikanın aparıcı qolunu təşkil edən mətbuatımızın XX əsrin əvvəllərində işıq üzü görən nümunələrindən olan "Şərq qapısı" qəzeti öz səhifələrində həm öyrətmiş, həm öyrənmişdir.

XX əsrin əvvəllərində Naxçıvanda baş qaldıran yeni ədəbi proses öz gücünü "Şərq qapısı"ndan almış, qəzet yerli ədiblərin xitabət kürsüsünə, tribunalarına çevrilmişdir. Ədəbi qüvvələrin yaradıcılıq meydanına çevrilən "Şərq qapısı" qəzetində ilk illərdə Mahmud Çakər, Məhəmməd Rəsizadə, Hacı Dadaşov, Fəraməz Mahmudbəyov, Əli Həsənzadə, Məhəmməd Ənnağıyev, Əlisəttar Qılmanov, Abbasqulu Əliyarov kimi yazıçı və şairlərin imzalarına rast gəlinsə də, Naxçıvanda ədəbi birlik və cəmiyyət formalaşana qədər onların yaradıcılıqlarında pərakəndəlik və mövzu axtarışı hiss olunmaqda idi. Belə ki, klassik mövzu və janr seçimi artıq mövcud quruluş tələfindən qənaətbəxş sayılmırdı. XX əsrin 30-cu illərində Mirzə İbrahimov və Əli Vəliyevin Naxçıvanda fəaliyyəti yaradıcı insanların fəaliyyətində dönüş yaratmaqla bərabər, həm də onların mətbuat vasitəsilə maariflənməyinə, ədəbiyyat elminin sirrlərinə vaqif olmaqlarına şərait yaratdı. "Şərq qapısı" sayəsində yetişən, formalaşan və inkişaf edən ədəbi qüvvəllərin yaradıcılıq istiqamətləri tədricən öz yerini tənqid və ədəbiyyatşünaslığa verməyə başladı. Zaman-zaman Məmməd Cəfər, Əziz Şərif, Yəhya Seyidov, Abbas Zamanov, Məmmədhüseyn Təhmasib, Firudin Hüseynov kimi ədəbiyyatşünas alimlərin imzaları və nəfəsləri Azərbaycan ədəbiyyatının parçası sayılan Naxçıvan ədəbi mühitinin üzərində hiss edildikdən sonra yaradıcı insanlar daha çox məsuliyyət hiss edərək öz qələm məhsullarını daha əzmlə və yüksək keyfiyyətlə qələmə almağa başlayırdılar.

Müasir dövrümüzdə Yavuz Axundov, Əsgər Qədimov, Sevindik Vəliyev, Əbülfəz Əzimli, Hüseyn Həşimli, İman Cəfərli kimi ədəbiyyatşünas alimlər "Şərq qapısı" səhifələrində Naxçıvan ədəbi mühitinə elmi qiymət verməkdədirlər. Təbii ki, Naxçıvandakı ədəbi prosesin fəallarından olan, akademik səviyyədə ədəbi mühiti öz elmi əsərlərində təhlil edib dəyərləndirən və istiqamətləndirən filologiya elmləri doktoru, professor AMEA-nın həqiqi üzvü İsa Həbibbəylinin xidmətləri danılmazdır.

"Şərq qapısı" səhifələrində Naxçıvan ədəbi mühitinə elmi qiymət bir neçə istiqamətdə özünü göstərməkdədir:

1) Ayrı-ayrı şair və yazıçıların yaradıcılıq fəaliyyətinə elmi münasibət;
2) Ədəbi simaların yaradıcılıq məhsullarına elmi qiymət (resenziya, rəy və s)
3) Ümumilikdə ədəbi prosesə elmi dəyər.

Professor Yavuz Axundlunun elmi fəaliyyətinin aparıcı istiqamətini Naxçıvan ədəbi mühitinə elmi qiymət təşkil edir. Qocaman alimin "Şərq qapısı" qəzetində dərc olunan "Naxçıvan yazıçılarının yaradıcılığı haqqında bəzi qeydlər" (1), "Naxçıvanda ədəbi inkişaf" (2) adlı elmi məqalələri ilə yanaşı onun müxtəlif ədəbi simalardan- Məmməd Səid Ordubadinin həyatına (3), yaradıcılığına (4), Əziz Şərifin (5), Müzəffər Nəsirlinin (6) bədii irsinə həsr olunmuş məqalələri diqqəti cəlb edir.

Naxçıvanda ədəbi məclislərlə bağlı apardığı çoxsaylı tədqiqatları ilə diqqət çəkən Əsgər Qədimov Ordubad ədəbi mühitinə həsr etdiyi silsilə məqalələri ilə "Şərq qapısı" qəzetində aparıcı yerlərdən birini tutur. Ədəbiyyatşünas alim akademik İsa Həbibbəyli Naxçıvan ədəbi mühitini əsas tədqiqatçısı və sistemli, ardıcıl araşdırıcısı olaraq "Şərq şapısı" qəzetinin fəal yazarlarından biri kimi tanınır. Naxçıvanda gedən ədəbi proses akademik İsa Həbibbəylinin hələ 1985-ci ildə qələmə aldığı "Ədəbi mühit" adlı kitabında öz elmi təhlilini tapmışdır. Daha sonralar qəzet səhifələrində dərc olunan silsilə məqalələr bu sahənin elmi tədqiqat obyektinə çevrilməsinə səbəb olmuşdur. Onun "Ədəbi hərəkatın elmi təhlili" (7), "Ədəbi-mədəni yüksəliş" (8), "Naxçıvanda ədəbi-mədəni mühit: tarixi proses və müasir inkişaf istiqamətləri" (9) mövzusunda qələmə aldığı elmi məqalələr Naxçıvan ədəbi mühitinin dolğun və aydın mənzərəsini yaratmağa köməklik edir. XIX əsrdə maarifçilik ənənələridən qayqaqlanan "Qönçeyi-ülfət", "Əncüməniş-şüəra", "Darül-Ürfan", "Ziyalı məclisi", "Müsəlman Dram İncəsənəti Cəmiyyəti" kimi ədəbi-mədəni qurumların fəaliyyəti üzərində köklənən Naxçıvan ədəbi mühitinin sovetlər dövründəki fəaliyyətini xarakterizə edən alim yazır: "Sovet hakimiyyəti illərində Azərbaycanın hər yerində, o cümlədən Naxçıvan ədəbi-mədəni mühitində ideoloji meyl üstünlük qazanmışdır. Bununla belə, daramaturgiyanın ayrıca ədəbi istiqamətə çevrilməsi, publisistikanın

geniş miqyas alması və ədəbiyyatşünaslıq elminin yaranıb inkişaf etməsi sovet dövrü ədəbi-ictimai mühitinin nailiyyətlərindən sayılmalıdır" (9).

Akademikin "Şərq qapısı" qəzetinin 85 illik yubileyi münasibətilə qələmə aldığı "Şərq qapısı" məktəbi" başlıqlı elmi məqaləsi "Şərq qapısı" və ədəbi mühit münasibətlərinə ən yüksək elmi qiymət sayıla bilər: "Yaradıcılıq aləminə gedən yollar "Şərqin qapısı"ndan keçir. Fəaliyyətinin əksər mərhələlərində "Şərq qapısı" həm də regionun "Ədəbiyyat qəzeti" funksiyasını yerinə yetirmişdir" (10).

Akademikin fikrincə müxtəlif mərhələlərdə "Şərq qapısı"nın baş redaktorlarının yazıçılar olması qəzetin ədəbi istiqamət almasında xüsusi rol oynamışdır. Mirzə İbrahimov, Əli Vəliyev, Hüseyn İbrahimov, Müzəffər Nəsirli və digər yazıçıların fəaliyyətlərini "Şərq qapısı" ilə bağlanması bu qəzetdə ədəbiyyat işinin geniş mənada mətbuat işinin tərkib hissəsinə çevrilməsinə gətirib çıxarmışdır. Demək olar ki, bütün mərhələlərdə "Şərq qapısı" qəzetində ədəbi-elmi material, publisistika ictimai-siyasi materialdan daha çox diqqət çəkmişdir. Tarixin müxtəlif mərhələlərində "Şərq qapısı"nın ətrafında xüsusi ədəbi mühit formalaşmışdır. Redaksiya nəzdində ədəbiyyat dərnəkləri və birliklərinin fəaliyyət göstərməsi, qəzetin poeziya və nəsr sahəsində müsabiqələr keçirməsi, yaradıcılıqla bağlı müzakirələrə geniş yer ayırması, dəyirmi masaların təşkili "Şərq qapısı" qəzetinin regionda bəzi məqamlarda nəinki "Ədəbiyyat" qəzetinin, hətta yaxşı mənada Yazıçılar İttifaqının yerli şöbəsinin də funksiyalarını bərabər şəkildə öz üzərinə götürdüyünü göstərir. Bir neçə il ərzində "Şərq qapısı" qəzetində böyük oxucu marağı qazanmış "Gəmiqaya" adlı ədəbiyyatyönlü əlavənin uğurlu fəaliyyəti qəzetdə onilliklər boyu yaşayan ədəbi ənənələrin yeni tarixi şəraitdəki uğurlu davamı kimi diqqəti cəlb edir. Təkcə "qəzet içində qəzet" adlandırılan "Gəmiqaya" əlavəsində deyil, ümumiyyətlə hər zaman "Şərq qapısı"nın içərisində ədəbiyyat havası qabarıq nəzərə çarpmışdır. Regionda yaşayıb-yaradan yazıçıların əsas xitabət kürsüsü "Şərq qapısı" qəzeti olmuşdur. "Şərq qapısı" muxtar resbublikada formalaşan gənc qələmlərin ilkin yaradıcılıq məktəbidir. Yeni ədəbi nəsil üçün "Şərq qapısı" qəzeti çox mühüm və münasib yaradıcılıq laboratoriyası funksiyasını da yerinə yetirməkdədir. Yaradıcı gənclik "Şərq qapısı" səhifələrində çap oluna-oluna püxtələşmişdir.

Bütün bu və digər fikirlər akademik İsa Həbbiəylinin gəldiyi elmi qənaətlər nəticə etibarı ilə qəzetdəki bədiyyatın publisistika ilə çulğalaşdığını, paralel və eyni səviyyədə inkişafını göstərir.

İkinci istiqamətin mövzu dairəsi daha geniş olduğundan ötən 87 il zaman kəsiyində nəinki adları yuxarıda qeyd olunan alimlərin eyni zamanda yazıçı və jurnalistlərin, müxbirlərin müxtəlif əsərlərə, kitablara və səhnələşdirilən əsərləyə yazdıqları rəy və resenziyalar yetərincədir. Akademik İsa Həbibbəyli qəzetin ədəbiyyatşünaslıq elminə münasibətini belə ifadə edir: "Şərq qapısı" qəzeti Naxçıvanda yaşayıb-yaratmış sənətkarları öyrənmək üçün ən mötəbər mənbədir. Qəzetdə yeni kitablar və tamaşalar haqqında verilən materiallar regionda ədəbi tənqidin inkişafına şərait yaradır...." (10).

Naxçıvan ədəbi mühitinin ayrılmaz parçası sayılan ədəbi tənqid də "Şərq qapısı" vasitəsilə yetişmiş, formalaşmış və ədəbiyyatşünaslıq elminin ayrıca tədqiqat predmetinə çevrilmişdir. Tanınmış tənqidçi ədəbiyyatşünaslardan Lətif Hüseynzadə, Müzəffər Nəsirli, Yavuz Axundlu, Məhərrəm Cəfərli, Hüseyn Həşimli, Əsgər Qədimov, İman Cəfərli, Əbülfəz Əzimli, Akif Axundov və başqaları "Şərq qapısı" məktəbinin imkanlarından faydalanmaqla ədəbiyyatşünaslıq tariximizdə özünəməxsus yer tutmuşlar. Beləliklə, ədəbiyyatşünaslıq və ədəbi tənqid "Şərq qapısı" qəzeti vasitəsilə geniş oxucu kütlələrinə təqdim olunmuş və qəzet səhifələri tanınmış elm adamlarının polemik müstəvisinə çevrilmişdir.

"Şərq qapısı"nda eyni zamanda bu regionda yaşayıb-yaratmış yazıçıların həyatı və yaradıcılığının əhəmiyyətli məqamlarına, açılmamış naməlum səhifələrinə geniş yer ayrılmışdır. Yazıçı-junalist Akif Axundovun professor Sevindik Vəliyevlə birlikdə apardıqdarı uzunmüddətli və geniş təqiqat işi sayılan "Naxçıvanda ədəbi mühit" silsiləsi XII əsrdən başlayaraq müasir dövrümüzədək böyük bir mərhələni əhatə etmişdir. "İlk sənət cığırları" (11) sərlövhəsi ilə başlayan silsilənin əsasını XII əsrin məşhur simaları sayılan Kəmaləddin Naxçıvani, Nəsirəddin Tusi, Hinduşah Məhəmməd və İzəddin Naxçıvanilər, XIII-XIV əsrlərdə Əhməd-ən Nəşəvi, Həsən Naxçıvani, Fəxrəddin Naxçıvani kimi alim və mütəfəkkirlərin elmi-bədii yaradıcılıqlarının təhlili ilə başlayan yazıçı-jurnalist Akif Axundov "Şərq qapısı" qəzetinin sonrakı nömrələrində silsiləni davam etdirərək ədəbi muhitimizlə bağlı yeni və sistemli tədqiqatın əsasını qoymuşdur. "XIV-XVIII əsrlərin söz-sənət adamları" (12) məqaləsində Yaxın və Orta Şərqdə Hürufiliyin əsasını qoyan Fəzlullah Nəimi, filosof Abdulla Naxçıvani, XV yüzilliyin tanınmış mütəfəkkiri Baba Nemətullah Naxçıvani, XVI əsrin ustad şairlərindən sayılan Mirzə Sadiq Ordubadi, XIII əsrin tanınmış simalarından Əbdürrəzzaq Dünbüli və ədəbi aləmdə "Ağ aşıq" ləqəbi ilə tanınan Kosacanlı Allahverdinin yaradıcılığının geniş təhlili ilə davam edən silsilə daha sonra XIX əsrlə əvəzlənmişdir. "XIX əsr poeziyası" (13) başlıqlı məqaləsində bu yüzilliyi ideya-estetik nailiyyətləri ilə fərqləndirən müəllif Heyran xanım, Qonçabəyim kimi qadın ədiblərlə yanaşı, Hacı ağa Fəqir Ordubadi, Məhəmməd Tağı Sidqi, Qüdsi Vənəndi və digər yaradıcı insanların yaradıcı fəaliyyətlərinin ümumi mənzərəsini oxuculara təqdim etmişdir. XX yüzillikdə Azərbaycan ədəbi mühitinə adlarını iftixarla çəkə bildiyimiz güclü ədəbi simalar bəxş etmiş

Naxçıvan torpağının yetirmələrindən Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Hüseyn Cavid, Eynəlibəy Sultanov, Nadim Naxçıvani, Əli Səbri və digər ədiblərin həyat və fəaliyyətlərindən "1900-1920-ci illərin nəsri və poeziyası" (14) adlı məqaləsində bəhs edən müəllif göstərilən zaman kəsiyini Naxçıvan ədəbi mühitinin intibah dövrü kimi səciyyələndirmişdir. Daha sonra silsilə müəllifi "1921-1930-cu illər Naxçıvan ədəbi mühiti" (15) adlı məqaləsində Məhəmməd Ağa Şahtaxtlı, Cəlil Məmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi ilə yanaşı, Məmmədəli Tarverdiyev, Baqi Hüseynov, Əkbər Dadaşlı, Əli Zəbun, Əbil Yusifov kimi ədəbi simalarla yanaşı, tanınmış ədəbiyyatşünas alimlərdən Məmmədcəfər Cəfərov, Əziz Şərif və Məmmədhüseyn Təhmasibin elmi yaradıcılığından bəhs etmişdir. "Şərq qapısı"nın sonrakı saylarında Naxçıvan ədəbi mühitinin 1931-1940-cı illərdəki ədəbi yüksəlişindən bəhs edən müəllif (16) Əli Vəliyev, Mirzə İbrahimov və Süleyman Rəhimovun Naxçıvan fəaliyyətindən bəhs etməklə, Şeyx Məhəmməd Rəsizadə, Ordubadlı Əbdul Kazım, Qurban Qurbanov, Əyyub Abbasov, Müzəffər Nəsirlinin ədəbi fəaliyyətlərini də diqqətdən kənarda saxlamamış, dövrün yetişməkdə olan ədəbi nüvvələrinin yaradıcılığına elmi qiymət vermişdir. Naxçıvan ədəbi mühitinin Böyük Vətən müharibəsi dövründəki fəaliyyətindən bəhs edən müəllifin "1941-1945-ci illərin poeziyası və nəsri" (17) məqaləsi repressiya kimi ağır sınaqdan çıxan Azərbaycan ədəbiyyatının üzləşdiyi müharibə kimi böyük bir təhlükənin və müharibə dövründə süngü ilə bərabər öz qələmləri ilə döyüşən bütöv bir ədəbi nəslin xarakteristikasını vermişdir. Müzəffər Nəsirli, Əvəz Sadıq, Məmməd Əkbər, Tağı Axundov, Nağı Nağıyev, İslam Səfərli, Əkbər Əkbərov, Yusif Axundov, Əbülfəz Bağırov, Hüseyn Razi, Hüseyn Əzim, Həsən Elsevər, Əkbər Məftun, Həsən Mehdiyev və digər şair, yazıçı və publisistlərin çətin və şərəfli fəaliyyətlərini əks etdirən məqalə müəllifi dövrün geniş bədii təqdimini edə bilmişdir. Qəzetin sonrakı saylarında müharibə dövründən sonra (18) dövrləşən, (19), (20) Azərbaycanın müstəqillik əldə etməsilə forma və məzmunca yeniləşən ədəbi mühitimiz "Yeni nəsil və çağdaş dövrün poeziyası haqqında bir neçə söz" (21) adlı məqalə ilə yazıçı-jurnalist Akif Axundovun elmi baxış bucağı ilə yeni elmi təhlilini və tədqiqini tapa bilmişdir.

Beləliklə, qəzet vasitəsilə ədəbi ənənələri yaşatmaq ideyasını əsas fakt kimi irəli çəkən akademik İsa Həbibbəyli, professor Yavuz Axundlu, Hüseyn Həşimli, Məhərrəm Cəfərli, İman Cəfər, Əbülfəz Əzimli, Əsgər Qədimov, Akif Axundov kimi alim və tədqiqatçıların Naxçıvan ədəbi qüvvələrinin yaradıcı fəaliyyəti və ümumilikdə ədəbi proseslə bağlı elmi təhlilləri, ədəbi-bədii görüşləri ədəbi mühitə elmi qiymətlə nəticələnmişdir.

Naxçıvan əbədi mühiti bu gün də mütəmadi olaraq "Şərq şapısı" qəzetində izlənilir və araşdırılır, bir çox elm adamlarının tədqiqat mövzusuna, ədəbi tənqidin araşdırma obyektinə çevrilir.

## ƏDƏBİYYAT


1. Axundlu Y.İ. Naxçıvan yazıçılarının yaradıcılığı haqqında bəzi qeydlər, "Şərq qapısı" qəzeti, Naxçıvan, 1965, 17 iyun, №141
2. Axundlu Y.İ. Naxçıvanda ədəbi inkişaf, Sovet Naxçıvanı, Naxçıvan, 1984, 22 may, №119
3. Axundlu Y.İ. Böyük sənətkar, "Şərq qapısı" qəzeti, Naxçıvan, 1967, 7 avqust, №158
4. Axundlu Y.İ. Tarixi romanlar ustası, "Şərq qapısı" qəzeti, Naxçıvan, 1972, 15 iyun, №139
5. Axundlu Y.İ. Görkəmli alim, gözəl insan, "Şərq qapısı" qəzeti, Naxçıvan, 1965, 18 aprel, №91
6. Axundlu Y.İ. Şairin həyat yolu (Müzəffər Nəsirlinin anadan olmasının 60 illiyi münasibətilə), "Şərq qapısı" qəzeti, Naxçıvan, 1971, 17 noyabr, №270
7. Həbibov İ.Ə. Ədəbi hərəkatın elmi təhlili, Sovet Naxçıvanı, Naxçıvan, 1981, 14 avqust
8. Həbibov. İ.Ə. Ədəbi-mədəni yüksəliş, Sovet Naxçıvanı, Naxçıvan, 1989, 7 fevral
9. Həbibbəyli İ.Ə. Naxçıvanda ədəbi-mədəni mühit, tarixi proses və müasir inkişaf istiqamətləri, "Şərq qapısı" qəzeti, Naxçıvan, 2006, 15 iyul, №126
10. Həbibbəyli İ.Ə. Naxçıvanda ədəbi-mədəni mühit; tarixi proses və müasir inkişaf istiqamətləri, "Şərq qapısı" qəzeti, Naxçıvan, 2006, 15 iyul, №126
11. Həbibbəyli İ.Ə. "Şərq qapısı" məktəbi, "Şərq qapısı" qəzeti, Naxçıvan, 2006, 4 noyabr, №203
12. Həbibbəyli İ.Ə. "Şərq qapısı" məktəbi, "Şərq qapısı" qəzeti, Naxçıvan, 2006, 4 noyabr, №203
13. Axundov A.S. İlk sənət cığırları, "Şərq qapısı" qəzeti, Naxçıvan, 2007, 19 iyun, №113
14. Axundov A.S. XIV-XVIII əsrlərin söz-sənət adamları, "Şərq qapısı" qəzeti, Naxçıvan, 2007, 28 iyun, №120
15. Axundov A.S. XIX əsr poeziyası, "Şərq qapısı" qəzeti, Naxçıvan, 2007, 29 iyun, №121
16. Axundov A.S. 1900-1920-ci illərin nəsri və poeziyası, "Şərq qapısı" qəzeti, Naxçıvan, 2007, 13 iyul, №131
17. Axundov A.S. 1921-1930-cu illər Naxçıvan ədəbi mühiti, "Şərq qapısı" qəzeti, Naxçıvan, 2007, 20 sentyabr, №180
18. Axundov A.S. Naxçıvan ədəbi mühiti (1931-1940)-cı illər, "Şərq qapısı" qəzeti, Naxçıvan, 2007, 9 noyabr, №215

19. Axundov A.S. 1941-1945-ci illərin poeziyası və nəsri, “Şərq qapısı” qəzeti, Naxçıvan, 2007, 24 noyabr, №226
20. Axundov A.S. Naxçıvan ədəbi mühiti (1946-1960), “Şərq qapısı” qəzeti, Naxçıvan, 2007, 8 dekabr, №236
21. Axundov A.S. Naxçıvan ədəbi mühiti (1961-1970), “Şərq qapısı” qəzeti, Naxçıvan, 2007, 22 dekabr, №245
22. Axundov A.S. Naxçıvan ədəbi mühiti (1971-80-ci illər), “Şərq qapısı” qəzeti, Naxçıvan, 2007, 28 dekabr, №249
23. Axundov. A.S. Vəliyev S. Yeni nəsil və çağdaş dövrün poeziyası haqqında bir neçə söz, “Şərq qapısı” qəzeti, Naxçıvan, 2008, 14 avqust, №157

## ABSTRACT

The article explores the idea of keeping literary traditions through the "Şərq qapısı" newspaper, the first publication of Nakhchivan Autonomous Republic. The position of the newspaper in the literary and social life of the Autonomous Republic is studied. Literary-artistic meetings on literary process of well-known scientists from the Autonomous Republic as academician Isa Habibbeyli, professors Yavuz Akhundlu, Huseyn Hashimli Asgar Qadimov, are being analysied.

## РЕЗЮМЕ

В статье рассматривается идея увековечить литературные традиции посредством газеты "Шарг гапысы", являющейся первым печатным органом Нахчыванской Автономной Республики, ее позиция, занимаемая в литературной и общественной жизни автономной республики. Автор исследует научные анализы, литературно-художественные взгляды таких признанных научных деятелей, ученых и исследователей автономной республики, как академика Исы Габиббейли, профессоров Явуза Ахундлу, Гусейна Гашимли, Магеррама Джафарова, Аскера Гадимова, доцентов Имана Джафарова, Абульфаза Азимли, Акифа Ахундова, связанные с творческой деятельностью литературных сил Нахчывана, и вынесенную газетой их оценки литературной среде.

**ELBRUS VƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*

# VAQİF CƏFƏR OĞLU MƏMMƏDOVUN ŞEİRLƏRİNDƏ MORFOLOJİ YOLLA SÖZ YARADICILIĞI

**Açar sözlər:** *V.Məmmədov, şeir yaradıcılığı, leksik morfemlər, yeni söz yaratma, əsas nitq hissələrinə dair düzəltmə leksik vahidlər, məhsuldar və qeyri-məhsuldar şəkilçilər*

**Key words:** *V.Mammadov, poetry creativity, lexical morphems, new word formation, lexical units for basic speech parts, productive and inefficient composers*

**Ключевые слова**: *В.Мамедов, поэтическое творчество, лексические морфемы, словообразование, лексические единицы для базовых речевых частей, продуктивные и неэффективные композиторы*

Aparılmış tədqiqatlar, araşdırmalar, təhlillərdə sübut olunmuşdur ki, yazıçı və şairlərin əsərləri dilimizin fonetik, leksik, qrammatik və üslubi xüsusiyyətlərini özündə etiva edən, praktik cəhətdən əks etdirən zəngin və dəyərli bir xəzinədir. Bu elə bir xəzinədir ki, dilimizin nəzəri məsələləri oradan qidalanır, bəhrələnir.

Bu da danılmazdır ki, dilçi alimlərimiz, mütəxəssislərimiz ən çox İ.Nəsimi, H.Cavid, C.Məmməd-quluzadə, S.Vurğun, B.Vahabzadə, M.Araz, Anar, İ.Əfəndiyev, S.Rüstəm, M.Şəhriyar və başqalarına müraciət etmiş, onların əsərlərinin dil və üslub xüsusiyyətlərini cəlb etmiş, dəyərli məqalələr, dissertasiyalar yazmışlar. Maraqlıdır ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında doğulub, yaşayıb-yaratmış yazarların dil baxımından əsərlərinə az halda müraciət edilmiş, ya da heç müraciət edilməmişdir. Belə şairləri biz “Unudulmuş” yazarlar adlandırmağa cürət etmirik. Ancaq qeyd edə bilərik ki, onların əsərləri xüsusən dilçilik baxımından tədqiqata, təhlilə cəlb edilməlidir. Ömürlərinin çox hissəsini bədii yaradıcılığa həsr etmiş, ancaq dünyasını dəyişmiş Müzəffər Nəsirli, H.Razi, H.İbrahimov, Ə.Yusifli, E.Həbib kimi qələm sahibləri, hazırda yaradıcılıqlarını davam etdirən, yaşlı və cavan nəslin nümayəndələri: A.Yadigar, Ə.Muxtaroğlu, İ.Yusifov, X.Kərimli, H.Eyvazov, Z.Vüqar, Q.Ümman, M.Həsrət, E.Yurdoğlu və başqaları kimi söz xiridarları az tədqiq olunmuş və ya heç yada düşməmişlər.

Yaradıcılığının dil və üslub xüsusiyyətləri az öyrənilmiş şairlərdən biri də 44 il ədəbi yaradıcılıqla məşğul olan, 35-dən çox kitabın müəllifi, şeirlərinin mayası, qayəsi, qanı, canı Vətən, torpaq, yurd, Azərbaycançılıq ruhu ilə yoğrulmuş Vaqif Cəfər oğlu Məmmədovdur.

Mübağiləsiz desək, M.Araz xislətli, M.Araz əqidəli V.Məmmədov həm də Azərbaycan Respublikası Yazıçılar Birliyinin və Jurnalistlər İttifaqının, Avrasiya Yazarlar birliyinin üzvü olmaqla bərabər, tanınmış jurnalist, nasir və publisistdir.

Xeyli müddətdir onun şeirləri üzərində apardığımız təhlillərdən aydın olur ki, o, şair olmaqla yanaşı, həm də gözəl dilçidir, (əslində o, tarixçidir) doğma dilimizin qrammatik quruluşunun kamil bilicisidir. Əsərlərinin dil xüsusiyyətlərinə nəzər saldıqda görürük ki, onun şeirlərində demək olar ki, dilimizin bütün fonetik, leksik, morfoloji və sintaktik xüsusiyyətlərini, üslubi çalarları əks olunub. Elə buna görə də biz V.Məmmədovun şeirlərini dil baxımından tədqiqat obyektinə saldıq.

Düşünən olar ki, elə bütün şairlərin əsərləri dil materialları ilə zəngin bir xəzinədir, təkcə V.Məmmədovun əsərləri deyil ki?! Bu suala cavablandırmaq üçün V.Məmmədov irsinə nəzər salsaq görərik ki, V.Məmmədov az tədqiq olunmuş (xüsusən dilçilik baxımdan) sənətkarlardandır, onun poeziya aləmində öz dəsti xətti var, bənzərsizdi,V.Məmmədovda söz kasadlığı yoxdur. Mənaya, məzmuna uyğun olan forma seçir, modallıq yaradır, onlara müvafiq söz “oynatmağı” ustalıqla bacarır.

Mən də, şair var riyyaziyatçıdır, şair var tarixçidir, şair var coğrafiyaçıdır, şair var ədəbiyyatçıdır, şair var sinif müəllimidir, şair var həkimidir və s. V.Məmmədov ixtisasca tarixçidir, amma o, təkcə tarixçi şair deyil, müəllimdir, publisistdi, nasirdi, jurnalistdi, mübağiləsiz desək, dilçidir. Bütün bunlar onun əsərlərinin dil xüsusiyyətlərini açmağa daha çox imkan verir.

Nəhayət, V.Məmmədov ömrünün çox hissəsini kənddə-Sədərəkdə, Naxçıvanın Qeyrət qalasında keçirib. Kənd həyatına torpağa bağlıdır. Vətənin torpağından, dağından, daşından, qayasından mayalanıb, güc alıb, ilham alıb. Bəlkə də Vətən eşqi, yurd məhəbbəti, torpağa bağlılıq onu şair edib, ata-ana ocağına hörmət və ehtiram, yurdsevərlik onu bütövləşdirib, Vətənin sal daşına, sərt qayalarına çevirib. Onun bir bənd şeirinə nəzər salaq:

Ürəyimsiz ağlamıram, gülmürəm,
Hər istəyim ürəyimdə birləşir.
Böyükmüdür, kiçikmidir, bilmirəm,
Ürəyimdə təkcə VƏTƏN yerləşir.

Bu dörd misra göstərir ki, V.Məmmədov əsl vətəndaşdır, yurdsevər şairdir.

V.Məmmədov Naxçıvanda yaşayıb-yaradan şairlərdəndir. Onun əsərlərini tədqiqat cəlb etməsək, gələcək nəsil bizləri-qələm sahiblərini, dil təəssübkeşlərini bağışlamaz.

Bax, elə buna görə də biz məhz V.Məmmədovun, şair-pedaqoqun, şair-tarixçinin, şair-publisistin, şair-ədəbiyyatçının, şair-dilçinin şeirlərinin dil və üslub xüsusiyyətlərini tədqiq etməyi, araşdırmağı qarşımıza məqsəd qoyduq. Bu məqalədə unudulmaz şairin şeirlərində istifadə olunan və leksik morfemlərlə əmələ gələn düzəltmə isim, sifət, feillərin işlənmə məqamlarına diqqət yetirək:

Azərbaycan – havası nur, suyu nur,
Azərbaycan – baharı nur, yayı nur,
Azərbaycan nur selində yuyunur,
Ülviləşir yaddaşlarda qalmağa,
Belə yerdə nə var şair olmağa...

...Azərbaycan gülüstanda tər çiçək... (4, s. 26)

...Mənim yolum göy sallara taşlanıb
Bu yol boyu yıxılmışam, durmuşam.
Səadətim inamımdan başlanıb,
Nə yalvarıb, nə boynumu burmuşam. (4, s. 27)

...Əl vuranda od tutacaq torpağı,
İncik Cavid bu səfəri biləcək.
Bağçamızın bu saralmaz yarpağı,
Yenə doğma Naxçıvana gələcək.

...Bir nur idi zülmət çokdü üstünə,
Nə müddətdir həmin nisgil silinmir,
Kim durmuşdu o vaxt onun qəsdinə?
Hara getdi, niyə getdi bilinmir?

...Məzarını Arazboyu döndərək,
Araz bəlkə layla çalıb uyuda.
Hansı bağdan hansı gölü göndərək?
Hansı sözlə qəzəbini söndürək? (4, s. 28)

...Sözlərin qəlbimi köztək odladı,
Düz yeddi qatımdan keçdi, adladı...

...Baltək çörəyinin dadı bilinmir,
Ocağın qursa da, odu bilinmir.

...Qurbanın kəsilir kəsili qalır,
Meyvən ağaclardan asılı qalır,
Sevincin kədərə qısılı qalır,
Baxışın bir ahdı, amandı, qardaş,
Qürbətdə yaşamaq yamandı, qardaş. (4, s. 31)

...Gəlib çox ünvana, gəlib çox ada,
Şübhəli dərdləri dağ eyləyibdir...

...Bir şimşək qəzəbli ata qüruru,
Çıxıb kağızları qaraldıb bəlkə?...

...Vurdu çox ürəyə yara kağızlar,
Qəlbimin yanğısı sönə bilməzdi!.. (4, s. 33)

...Mən şeir yazanda qəlbim yuxalır,
Suçumu şeirlə yuya bilirəm...

...Mən şeir yazanda şəfəq sökülür,
Göylərin ağ tülü görünür mənə... (4, s. 34)

...O cür ocaqların közü də gedib,
Buzlu bulaqların buzu da gedib... (4, 35)

Vətənin ağ günü analı günü,
Batabat gölünün sonalı günü.
Xalxal meşəsinin xınalı günü
Şəhriyar gəlmədi, övladı gəldi...

Çatmışdı ustadın sözü bu yana,
Yanğısı, atəşi, közü bu yana...
Ağ saçlı Təbrizdən üzü bu yana
Şəhriyar gəlmədi, övladı gəldi.

Ağ saçlı Təbrizdən üzü bu yana
Şəhriyar gəlmədi, övladı gəldi.

...Yorulduq bir sağa, sola baxmaqdan
Tikanlı məftilə, kola baxmaqdan...

...Bu yorğun yolların çəni getsə də,
Qarlı savalanın dəni getsə də,
Araz körpüsündən mini getsə də,
Şəhiyar gəlmədi, övladı gəldi. (4, 37)

...Ayrılıq rəmziymiş sarı rəng demə
"Sarı dolama"da çəkdi karvanı.

Nəvələr nə üstə gör batıb qəmə
Burda at oynadan kişilər hanı?
Qəbristan şumlandı, söz dağı oldu,
Sənə əbədilik göz dağı oldu... (4, s.38)

...Ayaqsız dönübdür evə bir nəsil,
Dünyadan bir nəsil aralanıbdır.

...Qara kağız gələn obada. Eldə,
Artıb nənələrin bayatı yükü. (4, s. 41)

...Təzadlı ömrünün layla yaşında
Beşikdən bayatı içib körpələr.

...İtib uşaqların oyuncaqları
Qoltuq ağacının sayı çoxalıb.
Görüb əl-ayaqsız qayıdanları,
Anamın bir az da qəlbi yuxalıb.

...Əgər əllərinin nəğməsi ilə,
Qapımız qəflətən döyülüb bu gün
Qonşu qızlarının şən səsi ilə
Anama muştuluq deyilib bu gün. (4, s. 42)

Yuxarıdakı nümunələrdən açıqca görmək olur ki, bənzərsiz söz boxçasından cəmi 34 bənd şeirdə 51 düzəltmə söz işlənib. Bu da onu deməyə əsas verir ki, şairin iki misra şeiri yoxdur ki, orada 1-2 düzəltmə söz olmasın. Yəni, elə misra vardır ki, orada bir, elə misra – sətir vardır ki, orada iki düzəltmə söz vardır. Bu da digər sənətkarların söz çələngindən xeyli fərqlənir. Bu o deməkdir ki, V.Məmmədov sanki bir dilçi kimi söz yaradıcılığını önə çəkib, dilimizin lüğət tərkibinin zənginləşməsinə böyük töhfə verib. Maraqlıdır ki, məhsuldar leksik şəkilçilərdən o da qeyri sənətkarlar kimi çox istifadə edib. Lakin, dilimizdə qeyri-məhsuldar leksik morfemlər də (-dan, -ban, -tuq, -q və s.) onun şeirlərində özünü qabarıq şəkildə göstərir.

Nümunələrdəki leksik şəkilçilər vasitəsilə yaranmış sözlərin – yeni leksemlərin hansı nitq hissəsinə aid olduğuna nəzər yetirək:

- Yuyunur: (yu(maq) feili –y- –y-un- qayıdış feil düzəldən;
- Ülviləşir; ülvi sifət, -ləş feil düzəldən;
- Tuş-la-nıb; -tuş yarımmənalı isim, -la feil düzəldib, -n qayıdış feil şəkilçisi.
- Gülüstan; gül isim –üstan məkan feilindən lüksik şəkilçi;
- Yıxılmışam; yıx təsirli feil –ıl təsirlidən təsirsiz, qayıdış feil şəkilçisi;
- İncik; feil –feil, -k qeyri-məhsuldar şəkilçilər sırasında olan sifət düzəldib.
- Bağçamızın; bağ isim, -ça kiçiltmə mənası yaradan leksik morfemdir.
- Saralmaz; sarı sifət, -l feil düzəldən leksik şəkilçidir. Əslində bu söz sarı olmaq mürəkkəb feilindən fonetik dəyişikliyə uğrayaraq saralmaq şəklinə düşmüşdür;
- Silinməz, bilinməz sözlərində sil, bil təsirli feillərdən –in leksik şəkilçi vasitəsilə təsirsiz feillər yaradıb.
- Döndər; dön feil, -dər qeyri-məhsuldar leksik şəkilçi olmaqla təsirli feil yaradıb;
- Söndürəcək; sön təsirsiz feil, -dür təsirsiz feildən təsirli feil əmələ gətirən leksik morfemdir;
- Odladı; od isim, -la feil düzəldən leksik şəkilçidir;
- Bilinmir; -bil təsirli feil, -in təsirsiz feil yaradıb;
- Kəsilir; kəs təsirli feil, -il təsirsiz feil yaradıb;
- Qısılı (qalıb); yarımmənalı feil, -ıl təsirsiz feil yaradıb, -ı tərz bildirən şəkilçidir. Lakin, bizə elə gəlir ki, həmin –ı morfemi –ı yox –ıb formasında hərəkətin tərzini bildirən qrammatik şəkilçidir.
- Baxışın; bax; feil –ış isim düzəldən məhsuldar şəkilçidir;
- Yaşamaq; yaş (il, neçə yaşın var?) isim, -a qeyri-məhsuldar leksik şəkilçidir, feil düzəldib;
- Özgə; öz təyini əvəzlik, -gə sifət düzəldən leksik, qeyri-məhsuldar şəkilçidir;
- Şübhəli, qəzəbli sözlərində -li isimdən sifət düzəldən leksik morfemdir;
- Qaralıb; -ı leksik şəkilçisi sifətdən feil düzəldib;
- Yaradır; yar(maq) feil, -a feildən isim düzəldən leksik şəkilçidir;
- Yuxaldı; yuxa (nazik – sifət), -ı sifətdən feil düzəldən şəkilçidir;
- Sökülür, görünür feillərdə -ül, -ün qayıdış feil düzəldən leksik şəkilçilədir;
- Buzlu, analı, sonalı sözlərində -lı şəkilçisi isimdən sifət düzəldən leksik morfemlərdir;
- Yanğı; yahn feilində -ğı isim düzəldən leksik şəkilçidir;
- Saçlı, tikanlı; sözlərindəki –lı isimdən sifət düzəldən leksik şəkilçidir;
- Yorğun; yor (maq) feilindən –ğun sifət düzəldən leksik şəkilçidir;
- Qəbiristan; ismindəkmi –istan isimdən isim düzəldən leksik morfemdir;
- Ayaqsız; təsadlı sözlərindəki –sız-lıq şəkilçiləri məhsuldar şəkilçilər sırasında olub isimdən sifət düzəldib;
- Qoltuq; sözündəki –tuq şəkilçisi isimdən isim yaradan qeyri-məhsuldar leksik şəkilçidir;
- Çoxalıb; feilində -al leksik şəkilçi qeyri-məhsuldar saydan feil düzəldib;
- Qəflətən; sözündəki -ən şəkilçisi qeyri-məhsuldar şəkilçilər sırasında olub isimdən zərf düzəldib;
- Döyülüb, deyilib sözlərində -ül şəkilçisi (II sözdə -y bitişdirici samitdir) təsirli feildən təsirsiz feil düzəldərək məchul feil yaradan leksik morfemdir.

Nəticə etibarilə qeyd edə bilərik ki, unudulmaz sənətkarın şeirlərinin dili zəngindir və dil materialları ilə yoğrulmuş bir xəzinədir. Bu xəzinədən biz yalnız bir çay qaşığı götürüb təhlilə cəlb etdik və həmin materiallardan aydın oldu ki, şairin hər misrasında leksik morfemlərdən yaranmış yeni leksik vahidlərə rast gəldik və bu nümunələr içərisində əsas nitq hissələrinə aid maraqlı dil vahidi seçdik. Maraqlıdır ki, şairin şeirlərində dilimizdə qeyri-məhsuldar şəkilçilərə dair nümunələrə də rast gəldik (məs.; -dər, -k, -ı, -tuq) yuxarıda bu şəkilçilər vasitəsilə düzələn sözlər işlənən misraları vermişik və altından xətt çəkmişik. Ona görə də biz ancaq həmin sözləri göstəririk: döbn-dərmək, qara-l-dı, qol-tuq, inci-k və s.

Nəhayət, onu qeyd etməyi vacib saydıq ki, bənzərsiz şairin – Naxçıvanda yaşayıb-yaratmış və vaxtsız dünyasın dəyişmiş bu sənətkarın şeir dili geniş aspektdə tədqiqata cəlb edilməli, araşdırılmalı, onun Azərbaycan ədəbiyyatına, dilçiliyinə verdiyi töhfələri üzə çıxarılmalıdır.

## ƏDƏBİYYAT


1. H.Həsənov. Müsir Azərbaycan dilinin leksikası, Bakı, 1998
2. S.Cəfərov. Müasir Azərbaycan dilində söz yaradıcılığı, Bakı, 1974
3. İ.Həbibbəyli. Böyül alim haqqında kiçik xatirələrim, Bakı, 2011
4. V.Məmmədov. Seçilmiş əsərləri, Bakı, 2008
5. V.Məmmədov xatirələrdə, Bakı, 2019
6. V.Məmmədov. Bura Naxçıvandır, Bakı, 2011
7. Y.Seyidov. Azərbaycan dilinin qrammatikası (morfologiya), Bakı, 2000



## ABSTRACT

In this article, an unforgettable poet, native speakers of Nakhchivan VMMammadov, spoke about morphological aspects of poetry and concrete samples were analyzed.



## РЕЗЮМЕ

В этой статье незабываемый поэт, носитель языка Нахчывана В.М.Мамедов, рассказал о морфологических аспектах поэзии и проанализировал конкретные образцы.

**ГУСЕЙН АДЫГЕЗАЛОВ**
*Нахчыванский Государственный Университет*

# НАХЧЫВАНСКАЯ ТЕМА В РУССКОЙ ЛИТЕРАТУРЕ: ИСТОРИЯ И СОВРЕМЕННОСТЬ

**Açar sözlər:** *Naxçıvan, qədim, yeni sivilzasiya, rus ədəbiyyatı, 95 illik yubiley*
**Key words:** *Nakhchivan, ancient, the cradle of new civilization, Russian literature, 95th anniversary*
**Ключевые слова:** *Нахчыван, древний, новая цивилизация, русская литература, 95-летний юбилей*

Отметим, что затрагиваемая тема составляет важную часть наших рассмотрений темы «Азербайджанская тема в русской литературе» по которой опубликован ряд статей (1), оценивающих отражение Азербайджана, в том числе и Нахчывана, в исторических и современных русских источниках за весь период сотрудничества нашей страны с Россией.

Древний Нахчыван – одна из древних стран новой цивилизации Земного шара. История возникновения этого древнейшего поселения планеты уходит в глубину тысячелетий, далеко за пределы нового летоисчисления и приписывается прародителю и патриарху нынешнего человечества – Ною. По этому поводу важный интерес представляет информация Библии («Бытие», гл. 6, 7), отмеченная Р.Н.Ивановым в его труде «Келб-Али-хан Нахчыванский. Его эпоха и наследие»: «Ной был человек праведный и непорочный в роде своем. Ной ходил пред Богом, и сказал Бог Ною: конец всякой плоти пришел пред лице Мое, ибо земля наполнилась от них злодеяниями. И вот, Я истреблю их с земли. Сделай себе ковчег, ибо через семь дней, Я буду изливать дождь на землю сорок дней и сорок ночей; и истреблю все существующее, что Я создал, с лица земли. Ной сделал все, что Господь повелел ему. И остановился ковчег в седьмом месяце, в семнадцатый день месяца, на горах Агрыдагских» (12, с. 17).

Р.Н.Иванов в своем труде уточняет понятие «горы Агрыдага» и приходит к такому заключению, что «в поиске места причаливания Ноев ковчег своим днищем рассек вершину Иландага, находящуюся в те времена еще под водой. В древнем городе Ордубаде..., расположенном на высоте около 4-х тысяч метров над уровнем моря, и поныне возвышается скала, усеянная многочисленными рисунками-петроглифами. По разным источникам им от семи до трех тысяч лет. Сама же скала носит имя Гямигая (Гями – корабль, гая - скала) и легенда о ней свидетельствует, что скала эта явилась причалом для Ноева ковчега» (11, с. 18). «Именно древнему библейскому Нахчывану, а не какому-либо другому месту, которое выбирал праотец Ной, суждено было стать первым поселением «пассажиров» Ноего ковчега, местом, с которого началось расселение их потомков. Нахчыван, таким образом, стал изначальной колыбелью человеческого рода», – заключает ученый.

Так в новой цивилизации Нахчыван задуман Всевышним для добрых дел, чтобы люди жили и творили в мире и согласии. Но этой колыбели земного мира суждено было пройти сквозь вихри неисчислимых испытаний и бедствий. Многие последующие века тираны вероломно вторгались и оскверняли священную землю Нахчывана, превращая ее в сплошное пепелище и руин, вплоть до приобретения им настоящего статуса автономной республики в 1924 году в составе Азербайджана, когда начался новый период в ее истории.

А до этого, 16 марта 1921 года по третьей статье договора «О дружбе и братстве», заключенного Между Российской Федерацией и Турцией, по взаимному соглашению было решено, что «Обе договаривающиеся Стороны согласны, что Нахчыванская область в границах, указанных в приложении I (В) настоящего договора, образует автономную территорию под покровительством Азербайджана, при условии, что Азербайджан не уступит сего протектората никакому третьему государству» (2, л. 143), что положительно разрешило политический статус Нахчывана, сохранивший свое важное политическое значение и по сей день.

Отметим, что о Нахчыване – этом богатом уголке мира написано и издано немало научных трудов – исторических очерков, монографий, статей. Во многих исторических записках русских путешественников, торговых людей, военных и литераторов мы находим интересные сведения об истории, культуре этого древнего края, об образах жизни его населения. В них имеются важные

сведения о точной дате образования древнего Нахчывана. Так, в одной из статей газеты «Кавказ» за 1872 год указывается, что «основа города (Нахчывана – Г.А.) заложена в 1539 году до нашей эры» (3). Некоторые исторические и современные труды различных поколений русских ученых, этнографов, историков, культрологов, путешественников и литераторов будут рассмотрены нами по поводу 95-летия образования Нахчыванской Автономной Республики. Прежде всего рассмотрим дневниковые записи о Нахчыване русского драматурга-дипломата А.С.Грибоедова, которому отводится значительное место в истории русско-кавказских и русско-азербайджанских отношениях; известно, что он хорошо знал историю и культуры Азербайджана и Нахчывана, принимал самое непосредственное участие в разработке различных проектов по использованию их экономических ресурсов.

Дневниковые записи свидетельствуют, что в сентябре 1819 года Грибоедов едет из Персии в Тифлис через Нахчыван, затем «по ущелью реки Алинджа», «около знаменитой Змеиной горы» (в другом месте Грибоедов называет ее Иланлы даг), оттуда поднялись в селение, именуемое Казанчи». Письма и путевые записки Грибоедова насыщены многочисленными сведениями историко-краеведческого характера о Нахчыванском крае; здесь он более продолжительное время побывал и в 1827 году, когда вел дипломатические переговоры с Турцией и Персией. В записи («Эриванский поход» от 23 июня 1827 г.) он так описывает Нахчыванский край: «Проходим версты 4 в малое ущелье, как ворота Шарурских гор. Прекрасная открывается обработанная страна; множество деревень и садов; хлеба поспели, некому снимать…». В другой записи от 26 июня 1827 года Грибоедов упоминает: «8 верст от Нахичевани пригорок. Оттуда пространный вид Нахичеванской долины, к с(еверо) – в(остоку) Карабахские горы. Эйландаг и две другие ей подобные горы за Араксом (Аразом – Г.А), далее к з(ападу) Арарат (Агрыдаг – Г.А). Сам Нахичевань стоит на длинном возвышении...» (4, с. 119-120).

Для нас примечательны попытки Грибоедова сохранить целостность Азербайджана, его отношение к переселению армян из Ирана на территорию нашей страны. Так, в документе от 1 октября того же года Грибоедов критически относится к политике царского правительства в вопросе переселения персидских армян на территорию Азербайджана, в частности, в Нахчыван и Карабах: «В Нахичеванской области нашел я более беспорядка и притеснений от переселения армян…», «здесь армянам, **пришельцам** (курсив мой – Г.А.), лучше, нежели в ином месте, где я их встречал…». В одном из последних писем Грибоедова, отправленном из Нахчывана («Переправа на Араксе через Джульфу») объективно отмечается неприязнь местного населения к неоправданным переменам, производимым новым правлением: «Нами никто не доволен… У беков и ханов мы власть отнимаем, а взамен даем народу запутанность чужих законов». Тщательно изучив сложившуюся ситуацию, Грибоедов далее приводит в своем послании таблицу соотношений между «новопоселенными армянами и старожилами мусульманами», «чтобы, – как он пишет, – можно было судить об истинном отягощении последних» (4, с. 388).

Также большой интерес представляет деятельность сотрудника ряда периодических органов первой половины XIX века, специалиста по экономике кавказского края, поэта **В.Н.Григорьева** (1803-1876), который с глубоким интересом изучал экономику древнего края Нахчывана. Особенно значителен для нас его труд «Статистическое описание Нахичеванской провинции» (1833,) (5), где наряду с хозяйственно-экономическими статистическими сведениями приводятся достоверные факты переселения армян из Ирана на территорию Нахчывана.

Азербайджанские историки, этнографы, экономисты и литературоведы не раз обращались к этому примечательному труду русской науки начала 30-х годов XIX века о нашем крае в поисках интересных и достоверных сведений о местных жителях, их материальной и духовной культуре, о данных сельского хозяйства и местной промышленности. Отметим, что В.Григорьев в свое время был популярным поэтом: в его ранних стихах выражалось своеобразное отношение к Кавказу и его жителям, и как верно писщет А.Дж.Гаджиев, в его стихотворениях «Вечер на Кавказе» (1825), «Бештау» (1826) и «Грузинка» (1828) Кавказ получал совершенно новое отношение» (6, с. 46). Отметим, что В.Григорьев приехал в Нахчыван непосредственно после заключения злополучного Туркменчайского договора (1828), один из пунктов которого предоставлял возможность лицам неперсидского происхождения принимать русское подданство и эмигрировать из Ирана. Под этим предлогом в этот период тысячи армянских семей переселились из Ирана на азербайджанские земли, в том числе и в Нахчыван. Составитель статистического описания Нахчыванской провинции, будучи осведомленным в этих процессах, не мог не обратить внимание на происходящие в регионе события. В.Григорьев рассматривает характер армян, историю их переселения в Нахчыван и как оно

отразилось в реальном положении Нахчывана. Исследователи труда В.Григорьева сознательно замалчивали эти факты в советское время из-за диктата господствующей идеологии.

«Статистическое описание Нахичеванской провинции», составленное В. Григорьевым и разрешенное к печати цензором Н.Бутырским 19 февраля 1833 года, состоит из краткого «Положения границ и величины» Нахчыванской провинции, четко очерчивающего пограничную линию края: «Нахичеванская провинция разделяется на два округа: Нахичеванский и Ордубадский; первый составляет Северо-Западную, а второй Юго-Восточную часть провинции. Граница между ними проходит по отрогу Карабахских гор, простирающимся от селения Шурут к Джульфинской переправе через Аракс»; и двух отделений – 1. Описание округа Нахичеванского, 2.Описание округа Ордубадского.

Подробно описывая размещение армян-переселенцев, заботу властей о них, автор приводит первоначальную статистику о переселенцах-армянах из Персии: «...происходило первоначальное водворение в Нахичеванской провинции 2551 семейства пришедших из Персии армян; из них 416 семейств поселены в городе, 1869 в селениях Нахичеванского округа и 226 в округе Ордубадском. В прилагаемой при этом ведомости под литерой В. показано в каких именно селениях они (армяне – Г.А.) жили в марте и апреле месяцах прошлого года, при обозрении мною Нахичеванской провинции. В мае предполагалось сделать им новое перемещение; но в каком виде оно кончилось, мне неизвестно» (5, с. 83-84).

В своем труде ученый подробно говорит о факте переселения армян на территории азербайджанских ханств и не скрывает притязания России: «Было бы излишне говорить о тех выгодах, какие получили здешние армяне от перемены правительства; русские извлекли их (армян – Г.А.) из ничтожества, дали им гражданское бытие, - но, кажется, они не умеют ценить всей великости этих благодеяний» (5, 40-41), и далее «К числу многих важных выгод, доставленных России Туркменчайским договором, без сомнения, должно отнести и переселение в наши пределы большей части живущих в Персии армян» (5, с. 83).

Находясь вблизи истоков конфликта, В.Григорьев сумел передать историческую достоверность процессов, происходивших в регионе. Таким образом, труд В.Григорьева свидетельствует не только о глубоком знании им характера и нравов населяющих наш край народов, но и содержит важные исторические факты, подтверждающие необоснованность притязаний армян на наши территории. Труд В.Григорьева обстоятельно рассмотрен нами на страницах журнала «Литературный Азербайджан» (7).

Известно, что в 1836 году А.С.Пушкин получает разрешение на издание журнала «Современник», где печатаются произведения на национальные темы, отзывы, рецензии, труды, имеющие отношение к окраинам, в том числе и Азербайджану. Так, здесь была напечатана рецензия В.Золотницкого на упомянутый труд В.Н.Григорьева.

Среди представителей «массовой» русской литературы было немало людей объективных и достаточно талантливых, внесших весомый вклад в упрочении сотрудничества русского и азербайджанского народов. Одно из первых мест в этом принадлежит **Н.А.Нефедьеву** (1800-1860) – автору ряда кавказских произведений. Н.А.Нефедьев посетил Кавказ и Азербайджан, побывал в Нахчыване в конце 1830-х годов. В его книге «Взгляд на армянскую область» (из путевых заметок) (СПб, 1839) содержатся интересные информации об азербайджанских городах – Нахчыване, Джульфе, Ордубаде, автором приводятся наблюдения над историей и культурой, обычаями и бытом азербайджанцев. В азербайджанских городах внимание Н.А.Нефедьева обращено на памятники архитектуры; очеркист передает быт и нравы местных жителей, описывает красоту природы: «... в Нахичевани к числу древности принадлежит обширная мечеть и башня с двумя отдельными минаретами... Промышленность их состоит в земледелии и частию в мелочных торговых оборотах». Заканчиваются азербайджанские страницы путевых заметок Н.А.Нефедьева описанием Ордубада: «... Ордубад есть оранжерея, изумляющая богатым разнообразием растений... это рай по общим понятиям целой страны...» (6, с. 61).

Здесь целесообразно упомянуть и труд видного русского ученого-востоковеда **К.Н.Смирнова** (1878-1938), написанный на основе ценных архивных документов и рукописных материалов и освещающий исторический путь Нахчыванского края с древнейших времен до 20-х годов XX века. Отметим, что книга «Материалы по истории и этнографии Нахичеванского края» (Тифлис, 1934) впервые опубликована в 1999 году и посвящена 75-летию Нахчыванской АР. Составителем, автором предисловия, ответственным редактором труда К.Н.Смирнова является член-корреспондент Академии Наук Азербайджана, профессор А.Мирахмедов. Материалы книги, по признанию ее автора, «собраны за 64 дня пребывания в Нахкрае», окончательный вариант в объеме 146 страниц с

некоторыми коррективами хранится в особом фонде Института Рукописей Грузинской Республики, с которой научная и культурная общественность нашей страны ознакомилась, благодаря именн этой находке А.Мирахмедова (8, с. 5).

Безусловно, данный труд следует рассмотреть на фоне общей картины исторической и этнографической наук Азербайджана и в системе исторических научных источников о нашей стране. Так как книга К.Н.Смирнова ценна своим общим содержанием, богатыми разделами, историческими, литературными, географическими, этнографическими, терминологическими знаниями и фактографией тогдашнего Нахчывана и представляет большой интерес с его сегодняшней экономической и политической позиции. Хотя в рамках юбилейной статьи не охватить подробно все проблемы, темы, вопросы, охваченные в данном труде, поэтому постараемся вкратце дать анализ ее различных частей, раскрывающих общее его содержание.

К.Н.Смирнов наряду с историческими и этнографическими показателями Нахчывана более и менее освещает жизнь и деятельность многих творческих людей, ученых, представителей власти, духовенства и других, сыгравших важную роль в культурной, экономической и политической жизни нашего древнего края. Книга состоит из трех частей, в ее начале автор обстоятельно ведет речь о племени Кенгерли, затрагивает весьма ценные с научной точки зрения вопросы о приходе племени Кенгерли в Нахкрай, происхождении ханов Нахчыванских и беков Кенгерлинских. Причинами этого пристального внимания ученого к одному из племен страны, можно полагать, являлись их историческое прошлое, насчитывающее тысячелетия, и важность событий, проистекавших в их общественно-политической и культурной жизни за все время, и конечно же, своеобразие их этнографии.

Вторая часть рецензируемой книги посвящена описанию религиозных течений в Нахчыване и оставленных ими следов. Здесь русский ученый говорит о местах поклонения Нахчыванского края, Асхабуль-Кяфе (в авторском выражении – Г.А.), зиаретах и мечетей Нахчывана. Он выделяет выдающихся лиц из духовной среды и приводит статистические данные о священных местах нашего края и о духовенстве. Разделы труда о пирах и религиозных обрядах богаты историко-этнографическими фактами, религиозными суждениями, биографическими данными людей, избравших пиры средством для своей жизни.

Третья часть труда К.Н.Смирнова содержат приложении о населенных пунктах местного края, родословной таблице родов Кенгерлинских, родословной таблице ханов Нахчыванских и об извлечении из камерального описания Нахчыванского махала 1831 года. Говоря о населенных пунктах края, ученый делает попытку дать некоторую сводку материалов о населенных пунктах в историческом разрезе, как это представли себе тогдашние нахчыванцы-тюрки, разъясняя значения отдельных топонимов. Учитывая роль и значение этнографии в жизни каждого народа историк в процессе исследования доскально, по тогдашним мерам, изучил численность населения края, особенности их быта, жизни, жилища, обычаев, одеяний, обрядов, что составляет всю примечательность труда русского ученого, послужившего важным источником по дальнейшему исследованию древнего Нахчывана.

Нахчыван занимает ведущее место и в историко-научном исследовании **Р.Н.Иванова** (1931), который возродил историческую эпопею известной династии ханов Нахчыванских. Цикл трудов русского историка, посвященных нескольким поколениям ханов Нахчыванских, открывает книга «Оборона баязета: правда и лож» (2005), где ученый устанавливает справедливость в отношении генерал-майора Исмаил-хана Нахчыванского, который был истинным героем обороны Баязета. Неопровержимые сведения о далеких исторических событиях и об историческом лице, приведенные в доказательство ученым, послужили восстановлению исторической правды в глазах не только русской и азербайджанской, но и мировой общественности (9).

Монография Р.Иванова «Генерал-адъютант Его Величества» (2006) посвящена видному представителю династии ханов Нахчыванских – генералу Гуссейн-хану Нахчыванскому, который также сыграл важную роль в истории Азербайджана и России. Здесь ученый описывает тридцать четыре года военной деятельности Гуссейн-хана, прошедшего путь от рядового бойца до генерала и награжденного почетным званием генерал-адъютанта. На основе найденных в военно-историческом архиве, в архиве Федеральной службы безопасности РФ и разных фондах библиотек материалах Р.Иванов сумел создать реальный образ знаменитого полководца Гуссейн-хана, героически сражавшегося на поле различных войн, в том числе на фронтах Первой мировой войны (10).

В трехтомнике «Именем Союза Советских...» (2008) Рудольф Иванов продолжает повествование о плеяде генералов Нахчыванских. На этот раз объектом исследования ученого-историка стала военная деятельность генерала Джамшида Нахчыванского, а заодно рассказывается

обо всех представителях плеяды ханов Нахчыванских – о первом и втором Келбали-ханах, об Эксан-хане, Исмаил-хане и Гуссейн-хане. Как отмечает академик Иса Габиббейли, обстоятельно анализировавший труды русского ученого, «Р.Иванов привел новые документы и материалы, смог создать представление о каждом из героев, основанное на строго научных фактах» (11, с. 10).

В книге «Келб-Али-хан Нахчыванский. Его эпоха и наследие» (2011) Рудольф Николаевич, оставаясь верным своей манере писать только правду, на основе богатейших исторических материалов ведет речь о том, как Келб-Али-хан отстаивал интересы Нахчывана в период правления в Персии Ага-Магомед-шаха Каджара. В новый сборник включены 11 исторических очерков, содержательно объединенных вокруг рассказа о легендарном Келб-Али-хане, о его эпохе и переданном потомкам ратном и духовном наследии. Государственная и полководческая деятельность ослепненного Каджаром Келб-Али-хана обстоятельно рассматривается на фоне широкой панорамы двух русско-персидских войн (1804-1813 и 1826-1828 гг.). К читателям по-новому выставляются взаимоотношения нахчыванского хана с персидским правителем Фетх-Али-шахом, с главнокомандующим на Кавказе князем Цициановым, с грузинским царевичем Ираклием и другими известными историческими личностями, так или иначе повлиявшими на ход событий в нашем регионе (12).

А в книге «Нашествие», написанной в 2009 году, русским ученым на основе архивных документов и газетных публикаций дана широкомасштабная картина политико-идеологических процессов вокруг Нахчыванской Автономной Республики в период 1920-1926 годов. В ней осуждающее повествуется о том, как в 1920 году войска дашнакской Армении превратили мирный край Нахчывана в руины, уничтожив огромное количество населения, но покорить Нахчыван не удалось. Р.Иванов пишет: «...главное притязание к Нахчывану исходило от дашнаков... Армяне испокон веков стремятся приумножить свои территории прежде за счет земли турок и азербайджанцев. Многие десятилетия на этих землях оседали гонимые из разных концов армяне. Переселению армян с территорий, где им угрожала опасность, особенно способствовали сначала царские власти, затем большевистская Россия. Так на материнских землях мусульман армяне постепенно и уверенно стали считать себя коренными жителями, стремясь объявить захваченные территории владением Армении. И, руководствуясь этими фальшивыми постулатами в совокупности с давним и главным их лозунгом – «Великая Армения от моря до моря» – дашнакская Армения не раз покушалась на турецкие и азербайджанские земли, устраивая там массовое убийство и резню, изгоняя мусульман с их родных очагов» (13, с. 21-22).

Конечно, мы не задались целью подробно говорить о названных трудах, так как общественность Азербайджана близко ознакомлена с ними по публикациям разных творческих сил, в том числе и автора этих строк, опубликованным в научных и периодических изданиях Азербайджана и России. При этом мы только преследовали цель, чтобы в связи с 95-летием Нахчыванской Автономной Республики показать на примере этого древнейшего края, как усиливается международный авторитет нашей страны в глазах мирового сообщества, который стал больше и больше привлекать к себе внимание и намерение творческих сил сделать представление о независимом Азербайджане не только в российском и русскоязычном, но и мировом обществе более адекватным.

## ЛИТЕРАТУРА

1. Адыгезалов Г.В. Азербайджан в новейшей русской научной литературе // Молодежь и наука: реальность и будущее. Материалы VI Международной научно-практической конференции. Невинномысский институт экономики, управления и права. В 2-х томах, Невинномысск, 2013, том I, с. 303-308; История и современные реалии Азербайджана в российских источниках. Газета «Мир литературы» (Ежемесячное приложение к «Ədəbiyyat qəzeti»), № 2 (81), февраль 2014; Правда об Азербайджане в современных русских источниках // Материалы V Международной научно-практической конференции «Русский язык: проблемы функционирования и методики преподавания на современном мире». 4-6 октября 2018 года. Пенза, 2018, с. 72-80 и др.

2.Договор Между Российской Федерацией и Турцией«О дружбе и братстве». Государственный Архив Азербайджанской Республики. ф. 28, о.1, д. 58, лл. 143-146.

3.Зелинский С. Нахичевань. Газ. «Кавказ», 1872, № 81.

4.Грибоедов А.С. «Горе от ума». Писма и записки. Баку, Маариф, 1989, -401 с.

5.Григорьев В.Н. «Статистическое описание Нахичеванской провинции». Санкт-Петербург: 1833, СПб, -263 с.

6. Гаджиеев А.А. Кавказ в русской литературе первой половины XIX века. Баку, Язычы, 1982, -160 с.

7.Адыгезалов Г. Из истории Нахчывана («Статистическое описание Нахичеванской провинции», составленное В.Григорьевым, в свете современности) «Литературный зербайджан», 2008 год, №1, с. 123-126.
8.Мирахмедов А. Забытый, но ценный научный труд по истории Нахчывана / К.Н.Смирнов. «Материалы по истории и этнографии Нахичеванского края» Баку, Озан, 1999, -156 с.
9.Иванов Р.Н. Оборона Баязета: правда и лож. – Москва: Герои Отечества, 2005. - 224 с.
10.Иванов Р.Н. Генерал-адъютант Его Величества. – Москва: Наука, 2006. - 368 с.
11.Иванов Р.Н. Именем Союза Советских... – Москва: Герои Отечества, 2008 - 832 с.
12.Иванов Р.Н. Келб-Али-хан Нахчыванский. Его эпоха и наследие –Москва: Наука, 2011. -528 с.
13.Иванов Р.Н. Нашествие. – Москва: Герои Отечества, 2009. - 448 с.

## XÜLASƏ

**Hüseyn Adıgözəlov**

## RUS ƏDƏBİYYATINDA NAXÇIVAN MÖVZÜSU: TARİX VƏ MÜASİRLİK

Məqalədə Naxçıvanın həm yeni sivilzasiyasının beşiyi, həm də 1924-cü ildə Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublika statusu qazandıqdan sonrakı dövrdə müxtəlif cəhətlərdən qiymətləndirildiyi bir sıra tarixi və müasir rus mənbələri təhlil olunmuşdur. Müəllif əsaslandırır ki, bütövlükdə Naxçıvanın tarixi inkişaf yolunu əks etdirən bu mənbələr Naxçıvan Muxtar Respublikanın bugünkü mədəni-siyasi həyatı üçün də mühüm əhəmiyyət kəsb edir.

## ABSTRACT

**Huseyn Adıgozelov**

## THE SUBJECT OF NAKHCHIVAN IN RUSSIAN LITERATURE: HISTORY AND MODERNITY

The article analyzed a number of historical and contemporary Russian sources, in which Nakhchivan was considered as the cradle of the new civilization. The article also evaluates Nakhchivan in various aspects since the acquisition of the Autonomous Republic status within Azerbaijan in 1924. The author concludes that the sources which reflect the historical development of Nakhchivan in general are of great importance for today's cultural and political life of the autonomous republic.

**MEHRİBAN ƏSƏDULLAYEVA (QULİYEVA)**
*Naxçıvan Dövlət Universiteti*
*quliyeva.mehriban@list.ru*

# XX ƏSRİN ƏVVƏLLƏRİ NAXÇIVAN ƏDƏBİ MÜHİTİ NÜMAYƏNDƏLƏRİNİN YARADICILIĞINDA BƏDİİ DİL MƏNZƏRƏSİ

**Açar sözlər:** *Naxçıvan, ədəbi mühit, bədii dil, şeir dili, xalq dili*
**Key words:** *Nakhchivan, literary environment, artistic language, language of poetry, folk language*
**Ключевые слова:** *Нахичевань, литературная среда, художественный язык, язык поэзии, народный язык*

XX əsrin əvvəlləri bütöv Azərbaycanın tarixində həm son dərəcə gərgin, ziddiyyətli bir dövr kimi, həm də mədəniyyət, maarifçilik hərəkatı, elmin müxtəlif sahələrinin inkişafı dövrü kimi xarakterizə olunur. XX əsrin əvvəllərində Azərbaycan ənənəvi, tamamilə yeni dünyagörüşlərin, ideologiyaların qarşı-qarşıya gəldiyi bir məkana çevrilmişdi. XX əsrin əvvəllərində Azərbaycan milli mədəniyyətinin, xalqın maarifçi dünyagörüşünün inkişafı və yeni-yeni ziyalı kadrlarının yetişdirilməsi sahəsində milli mətbuatımız, müxtəlif ədəbi cərəyanlara məxsus ədəbiyyatımız və ədiblərimiz çox ciddi işlər görmüşlər. Prof.T.Hacıyev qeyd edir: “Ümumiyyətlə, heç bir xalqda və heç bir zamanda dil məsələsi XX əsrin əvvəllərində Azərbaycan bədii və bədii-publisist ədəbiyyatında olduğu qədər bədii fikri məşğul etməmişdir” (1, s. 85). Ədəbiyyatımız bir tərəfdən, ənənəvi ərəb, fars sözləri ilə zəngin yazı dili əhatə olunur, dildə demokratikləşmə prosesi gedir, digər tərəfdən isə, Qərb dil-ünsiyyət mədəniyyətinin, maarifinin məkanına çevrilirdi. Azərbaycanın digər bölgələri ilə müqayisədə bu dövr Naxçıvan diyarının elmi, ədəbiyyatı, mədəniyyəti üçün bir çiçəklənmə, intibah dövrüdür. Bu hal özünü ədəbiyyat sahəsində də göstərirdi belə ki, böyük ədib, dramaturq, satirik "Molla Nəsrəddin" jurnalının baş redaktoru Cəlil Məmmədquluzadə, Azərbaycan romantizminin istedadlı nümayəndəsi, bəşəri ideyalar tərənnümçüsü Hüseyn Cavid, məşhur mollanəsrəddinçi şairlərdən satirik-realist şair Əliqulu Qəmküsar, tarixi romanlar ustadı Məmməd Səid Ordubadi, hekayələr ustası Eynəli bəy Sultanov, memuar janrında gözəl nümunələr yaratmış Əziz Şərif kimi tanınmış şəxsiyyətlər, məhz bu dövrdə Naxçıvan ədəbi mühitində formalaşıb.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndlərinin dilinin müasir elmi-nəzəri diliçilik müstəvisində araşdırılması milli dilçiliyimizin aktual problemlərindəndir. Bədii dilimizin inkişafında ayrı-ayrı sənətkarların da özünəxas rolu və yeri vardır. Onlar bu dilin zənginləşməsi istiqamətində müəyyən işlər görmüş, sözlərdən istifadə bacarığına, söz demək, yeni söz və ifadələr yaratmaq qabiliyyətinə görə ədəbi dilimizə öz layiqli töhfələrini vermişdilər. Ümumiyyətlə, ədəbi-bədii dilimiz söz sənətkarlarının dilindən kənarda qalan bir dil deyildir. Azərbaycan ədəbi dilinin inkişaf və zənginləşməsində onun ayrı-ayrı bölgələrində fəalliyyət göstərən ədəbi mühitlərin də müəyyən qədər rolu vardır. Həmin ədəbi mühitlərə məxsus olan söz sənətkarları öz yaradıcılıq örnəkləri, ədəbi dilimizlə bağlı xidmətləri ilə dilimizin inkişaf və zənginləşməsi prosesində müəyyən rol oynamışdılar. XX əsrin əvvəlləri Naxçıvan ədəbi mühiti nümayəndələrinin yaradıcılığında ədəbi dilin təşəkkül və inkişaf dövrünün dil mənzərəsini öyrənməyə, xalqımızın tarixi, dünyagörüşü, etnik xüsusiyyətləri, yayıldığı areal haqqında müəyyən təsəvvür yaratmağa imkan verir. Bədii dilimiz mənzum hekayə, təmsil formalarının və satirik əsərlərin dili kimi xəlqiləşə-xəlqiləşə, danışıq dilinin leksika, frazeologiya və sintaksisini özünə hopdura-hopdura təbii ünsiyyət vasitəsi şəklini alaraq, nəhayət, Azərbaycan ədəbi dilini formalaşmasına öz təsirini göstərdi. Naxçıvan ədəbi mühiti nümayəndələrinin yaradıcılıqlarında bir-birindən maraqlı dil faktları vardır.

Yer kürəsində həyatın başlandığı ilk insan məskənlərindən biri olan, “dünyanın naxışı”, “dünyanın bəzəyi” adlandırılan Naxçıvan haqqında müfəssəl və dəqiq məlumatlarla zəngin ədiblərimizin yaradıcılığında bədii dil xüsusiyyətlərimizi araşdırdıqca Naxçıvana xas olan ləhcə, danışıq tərzinin, bölgəmizə məxsus deyimlərin çox incə şəkildə bədii ədəbiyyata gətirilməsi ədəbi mühit nümayəndələrinin yaradıcılıqlarında özünü qabarıq şəkildə göstərir. XIX əsrin sonlarından başlayaraq Naxçıvanda genişlənən maarifçilik əlaqələrinin daha da inkişafı məhz o dövrün mətbu orqanları ilə bağlıdır. Müxtəlif ölkələrin mətbuat orqanları ilə tanış olan ziyalılarımız həm də bu orqanlarda geniş yaradıcılıq imkanlarını sərgiləyirdilər. Məhəmməd ağa Şahtaxtlı, (1846-1931), Əliqulu Qəmküsar (1880-1919), Eynəli bəy Sultanov (1866-1935), Cəlil Məmmədquluzadə (1869-1932), Məmməd Səid Orubadi (1872-1950), Hüseyn Cavid (1882-1941) məhz belə ziyalılardan idi. Ədəbi mühitlər içərisində ideya-məram yüksəkliyi və üzvlərinin

sayca zənginliyi ilə seçilən Naxçıvan ədəbi mühiti diqqəti çəkən və ədəbi dilimizin imkanlarını sərgiləyən mühit kimi maraqlıdır. Naxçıvan ədəbi mühitinin bədii dil sənətkarlıq unikallığı, eldən gələn təbiiliyin, səmimiliyin qorunması, dilimizin şirinliyi ədəbi mühit nümayəndələrinin bədii yaradıcılığında da qorunub saxlanılmışdı. Ədəbi mühitinin görkəmli nümayəndəsi C.Məmmədquluzadə "Xatiratım" əsərində mollanəsrəddinçilərin dili və üslubunun aydınlığı haqqında yazmışdır: "Əlbəttə, bu dil ki, biz onunla "Molla Nəsrəddin"i yazırdıq, o dili biz ümum türklər üçün ədəbi bir dil hesab etmək fikrində deyilik və bu da bizə heç lazım deyil; bizim məqsədimiz hal-hazırda öz fikrimizi asan bir dillə Azərbaycan türklərinə və bəlkə də sair türklərə asan bir dillə yetirmək idi. Zənn edirəm ki, yetirdik də" (7, s. 680). Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycan dilinin məna və ifadə zənginliyi, eyni zamanda canlı-xalq danışıq dilinə meyil, demokratik üslub qatlarından bacarıq və peşəkarlıqla istifadə özünü daha qabarıq göstərir. Yaşar Qarayev (4, s. 213) "Cümlə quruluşu, poetik sintaksis, avaz və vurğu, stil təzadları, dil vasitəsi ilə yumor, Azərbaycan dilinin satirik nitq imkanları, bilavasitə təhkiyə və söz ustalığı ilə ironiya, satira və sarkazm burada tam bədii bir sistem təşkil edir". Mirzə Cəlilin XX əsrin əvvəlləri hekayəçiliyində bədii dildən istifadədə yeni qaydalar açılır. Dil fikrin bilavasitə gerçəkliyi olmaqdan əlavə, həmçinin bütün məna və ifadə potensiyası ilə poetik strukturun vahidləri sırasında iştirak edib, ayrıca yer tutur.

Ümumxalq dilinin ifadəlilik potensialı özünü fonetik vasitələrin üslubi fəallığı ilə göstərən XX əsrin əvvəlləri Naxçıvan ədəbi mühitinin nümayəndələrinin yaradıcılıqlarının dilindən, onların ifadəlilik vasitələrindən məqsədəuyğunluq əsasında təhlillər apardıqda bu dövrün nə qədər zəngin dil materialına sahib olduğunu görürük.

Azərbaycan ədəbi-bədii düşüncəsindəki dəyişikliklərin təsiri ilə XX əsrin əvvəllərində Naxçıvan ədəbi mühitində də realizmin inkişafı ilə əlaqədar olaraq yeni ədəbi növlərə, janrlara – süjetli poeziyaya, satirik poeziyaya, bədii nəsrə, dramaturgiyaya, ədəbi tənqidə, publisistikaya maraq artmışdı. "Molla Nəsrəddin" realist-demokrat ədəbi məktəbinin, Sabir satirik poeziya məktəbinin Naxçıvanda layiqli davamçıları olan Əliqulu Qəmküsar, Əli Məhbus, Məhəmməd Rəsizadə, Əli Səbrinin şeirləri mövzu, janr baxımından həmin məktəbin tərkib hissəsidir. 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Naxçıvan ədəbi mühiti öz keşməkeşli dövrünü yaşamağa başlamış, əksər ziyalılar təqiblərə, həbslərə məruz qaldığı üçün diyarı tərk edib dərbədər düşdü. Məhv olunanlar da oldu, qalanlar isə olduqca ağır şəraitdə fəaliyyətlərini davam etdirməyə başladılar. Sosialist ideologiyasının hegemonluğuna nail olmaq, monoton ədəbiyyatı formalaşdırmaq üçün hər cür bəd əməllərə əl atılsa da, ədəbiyyat ağır şəraitdə belə yaşamağa qadir olduğunu sübut etmişdir. Odur ki, Naxçıvanda yaşayan ədiblər də yaradıcılıqlarına yeni notlar əlavə etdilər (8. s.7). Naxçıvan ədəbi mühitində roman, povest, irihəcmli hekayə yaranmaqla yanaşı, maarifçi-realist istiqamətdə yazılan felyetonlara da maraq güclənmişdir. XX əsrin əvvəli Azərbaycanda ədəbi dil problemləri mövzusunda mübahisələrin kəmiyyət və keyfiyyət cəhətdən genişləndiyi bir dövr olmuşdur. Həmin dövrü ədəbi dilimizdə bir tərəfdən yüzilliklər boyu formalaşıb inkişaf etmiş Osmanlı dili elementləri işlənir, digər tərəfdən məişət leksikası ədəbi dilə gəlirdi. XX əsrin əvvələrində C.Məmmədquluzadə, H.Cavid, M.S.Ordubadi, Ə.Qəmkusar, Q.Şərifov, E.Sultanov, M.Şürbi, M.M.Cakər və başqaları kimi tanınmış yaradıcı simalar yetişib formalaşmışdı. Bildiyimiz kimi, XX əsrin əvvəlləri maarifçilik hərəkatının gücləndiyi bir mərhələdir. Milli tərəqqi və dirçəliş illəri kimi səciyyələnən ikinci mərhələdə teatr və məktəbin fəaliyyəti genişlənmişdir. Bu mərhələnin ideya-təşkilati rəhbəri C.Məmmədquluzadə olmuş, 1894-cü ildən ona Məhəmməd Tağı Sidqi (1854-1903) yaxından köməklik göstərmişdir. Bədii yaradıcılıq sahəsində əsasən dram və nəsr əsərləri yazılmışdır. Bədii ədəbiyyatda eyni zamanda, Naxçıvan mövzusunun işıqlandırılması da məhz bu dövrə aiddir. E.Sultanovun "Çadra altında", C.Məmmədquluzadənin "Ölülər", Seyid Səbri "Kimdir haqlı", Ə.Şərifin "Keçmiş günlərdən" memuar povestini xüsusi qeyd etməliyik.

"Keçmiş günlərdən" kitabının dili rəvan və ahəngdar olmaqla yanaşı, həm də çox tutumludur. Bəzən müəllif bir neçə sətirdə bu və ya digər klassikin canlı portretini bədii dillə yaratmağa müvəffəq olur. Əziz Şərifin bütün ədəbi-bədii əsərləri keçən əsrin 30-cu illərinə qədərki tarixi dövrün formalaşdırdığı tipik, xüsusi və qanuni dil faktıdır. Bu tipik-qanuni dil faktının təbiiliyini-zənginliyini göstərən ilk əlamətlərdən biri onun rəngarəng və bənzərsiz üslublarıdır. Bu üslubu təyin və xarakterizə edən komponentlər isə olduqca zəngin və maraqlıdır. Buraya sənətkar şəxsiyyətinin öncül xüsusiyyətlərindən: mövqe, münasibət, tendensiyaçılıqdan tutmuş intonasiya, nitq vərdişləri, deyim tərzi, dialekt danışığı, monoloq, dialoq və onun növləri – fərdilik, tipiklik və s. kimi rəngarəng dil-üslub nümunələri daxildir.

1920-1930 – cu illərdə nəsrimiz ilk dəfə olaraq tarixi roman janrı ilə zənginləşməyə başladı. Məmməd Səid Ordubadi yazdığı əsərlərində dövrünü, mühitini, xalq dilinə münasibətini, dialektlərdən nə cür və necə istifadə etməsini, ədəbi dilin qayda - qanunlarına necə riayət etməsini ustalıqla göstərə bilmişdir. Əsərlərində çoxsaylı yaxınmənalı, çoxmənalı sözlər, frazeoloji birləşmələr, canlı xalq danışıq dilinin qaynar çeşməsindən su içən ideomlar, folklor nümunələrindən istifadə onun romanlarının bədii dilini daha da qüvvətləndirmişdir. Müəllif bəzən bir ifadənin cümlə daxilində təkrarına yol verir ki, bununla həm bədiiliyə, həm də ahəngdarlığa

nail olur. Beləliklə, fikri qüvvətləndirir, hadisələr daha inandırıcı təsir bağışlayır. Yazıçı-publisist Eynəli bəy Sultanov (1866-1935) başqa istiqamətə meyil etmiş, məişət nitqini ədəbi dilə gətirməklə onu sadələşdirmək istəyən ziyalılar sırasında olmuşdur. Eynəli bəy Sultanovun bədii yaradıcılığının bir hissəsini onun hekayələri təşkil edir. O, kiçik "hekayələrinin rus dilli Azərbaycan ədəbiyyatındakı ilk yaradıcılıqlarından biri" (2, s.21) hesab edilsə də, sonralar əsərlərini milli dildə yazmışdır. Eynəli bəy Sultanov dilimizi mükəmməl bilən və onu yüksək dəyərləndirən ziyalılardan olmuşdur. Dilimizi gözəl və dərindən bildiyi üçündür ki, "…24 fevral 1884-cü il tarixdə latın dilindən təklif olunan ifadələri rus dilinə düzgün tərcümə edən 4 nəfər gimnazistin arasında onun adı da yazılmışdır" (5, s. 6).

Klassik poeziya dilinin, vahid ümumtürk dili modelinin və bu zəmində intişar tapmış ağır publisistika dilinin bu zaman üçün mövqeyi tam itirildiyindən, artıq buna qədər xalq danışıq dili üslubunda köklənən Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Eynəli bəy Sultanov, Əliqulu Qəmküsar nəsrinin dili, o cümlədən maarifçi yazıçıların sadə "pedaqoji" dili ədəbi-bədii dil normasını müəyyən edir. XX əsrin əvvəllərində qeyd etdiyimiz kimi, dildə xəlqiləşmə, qələmə alınan hər bir əsərə yanaşmada hər cür demokratizmin tətbiqi xalq dilinin, məhəlli danışığın nəsrə yeni axarı elə yekunlaşır ki, bu da ədəbi mühitin nümayəndələrinin ifadə tərzində özünü göstərir. Bədii dil hər iki mənbədən həm klassik dildən və xalq dilindən qidalanaraq obraz strukturunu zənginləşdirir. Leksik normaların müəyyənləşməsində aparıcı rol oynayan bədii üslubda yazan ədiblərimizin bədii sənətkarlığı və özəlliyi dominat şəkildə xalq dilinin təsiri ilə lirik şeirin inkişaf etməsində, el - oba deyimlərinin xalq təfəkkürünə xas bədii dil gözəlliyini, saflığını təmin etməsində, dillə bədii təfəkkürün qırılmaz bağlılığındandır. Ümummilli mədəni-kültüroloji fondumuz daxilində Naxçıvanın öz dəst-xətti ilə seçilən ədəbi mühit fenomeni, fərdi sənət möhürü vardır. Bu özünəməxsus yaradıcılıq, dil xüsusiyyətləri ədiblərimizin əsərlərində özünü göztərir. Naxçıvan ədiblərimizin yaradıcılığında ərəb, fars sözləri, ifadələrinə rast gəlinsə də Naxçıvan şivəsinə mənsub sözlərə çox yer verildiyinin şahidi oluruq. Ədiblərimizin yaradıcılıqlarına el - deyimləri semantik təravət, dolğunluq gətirmişdir. Onların yaradıcılığında dil saflığı, təbiilik üstünlük təşkil edir. Şair, yazıçı, aşıqlarımız canlı xalq danışıq dilinə, xalq şeiri dili və üslubuna üstünlük vermişlər. XX əsrin əvvələrində Naxçıvanda C.Məmmədquluzadə, H.Cavid, M.S.Ordubadi, Ə.Qəmkusar, Q.Şərifov, E.Sultanov, M.Şürbi, M.M.Cakər, Məhəmməd Rəsizadə, Əli Səbri Qasımov, Ələkbər Qasımov və başqaları kimi tanınmış yaradıcı simalar yetişib formalaşmışdı. Naxçıvan ədəbi mühitinin nümayəndələrindən olan Azərbaycan ədəbiyyatında sentimentalizm təzahürləri Ə.Qəribin yaradıcılığında özünü göstərir. "Əfi ilan" (4) hekayəsinin bədii məziyyətləri də, təhlil boyunca vurğuladığımız kimi, təqdirəlayiqdir. Hekayədə yazıçı mükəmməl kompozisiya qurmuş, süjeti lüzumzuz əlavələrlə yükləməmiş, obrazların zahiri və daxili portretlərini vəhdətdə yaratmışdır. Hekayədə canlı danışıq dilinə məxsus bir sıra söz və ifadələrdən də uğurla, yerli-yerində istifadə olunmuşdur. Həmçinin təsvir olunan hadisələrin Axısxa qəzasında baş verdiyini nəzərə alan müəllifin yeri gəldikcə, xüsusən şikayətçi kəndlilərin nitqində Osmanlı türkcəsinə məxsus bəzi leksik və qrammatik vahidlərdən istifadə etməsi (əmuca, koca, bakalım, şimdi, şenlik, kəndi və s.) də koloriti, təbiiliyi gücləndirən faktorlardandır. Həmçinin bəzi rusdilli obrazların dilində rusca sözlər işlənməsi də nəzərdən qaçmır. Məsələn; Es-er partiyasının Tiflis təşkilatının rəhbəri Bertanovun danışığında işlədilən "prasti", "vajnı", "reç", "arator", "meşat", "şutka" kimi sözlər bu qəbildəndir (3, s.15). Azərbaycan dilçiliyində Naxçıvan ədəbi simalarının dilə münasibətini üzə çıxaran tədqiqatların aparılması, onların bədii dilimizdəki xidmətləri dilimizin keçdiyi tarixi inkişaf yoluna işıq tutur.

M.Şahtaxtlı ədəbi dilə münasibətini "Yazı və ədəbi dilimizin əksiklikləri" adlı məqaləsində belə izah edir: "Heç bir rus öz dilində zikr etdiyi sözlərin müqabili olan rus sözləri yerinə fransız və ya alman sözləri işlətməyi caiz görmür. Hansı məqbul səbəblə biz dilimizi əcnəbi kəlmələri ilə doldurub öz dilimizi öz əhlimizə yad eyliyək? Mən əcnəbi sözü dedikdə, sözün iştiqaqca bu dili o dilə mütəəlik olduğuna yox, istemalca əhalinin çoxuna məlum olduğunu nəzərdə tuturam. "Allah" kəlməsi "Tanrı" kəlməsindən daha artıq türk kəlməsidir, çünki ondan çox istemal olunur (işlənir) və ondan çox əhalimiz buna alışmışdır" (6, s.224). XX əsrin əvvəllərində şeir dilinin leksikasında siyasi məzmunlu sözlərin artımı müşahidə edilir və demək olar ki, bunların çoxu milli və yaxud milliləşmiş sözlərdir. Ədəbi mühitin nümayəndələrinin dilində işlənən: yoldaş, füqəra, qarət, rəiyyət, ölkə, keçmiş və s. bu kimi sözlər mahiyyətcə ümumişlək səciyyə daşısa da, dövrün, zamanın tələbi ilə ictimai-siyasi, hətta ideoloji məzmun daşıyır. H. Cavidin dilində türkiyə türkcəsinə məxsus sözlərin üstünlüyü onun şeir dilində özünü göstərir. Hüseyn Cavidin İstanbulda təhsil alması, türk poeziyasını dərindən öyrənməsi onun şeir dilində Anadolu şivəsinə məxsus ifadələrin fəallığını bir qədər artırmışdır. Şairin təhsil illəri zamanı qələmə aldığı "Rəqs", "Pəmbə çarşaf", "Uyuyur", "Ah, yalnız sən" və s. şeirlərdə və 1913-cü ildə Bakıda nəşr olunan "Keçmiş günlərdən" şeir kitabında toplanan digər nümunələrdə Anadolu şivəsinin müəyyən əlamətləri nəzərə çarpır. Sonralar İstanbul mühitindən ayrıldıqdan sonra şairin əsərlərində Anadolu şivəsinə məxsus əlamətlər get-gedə azalmış, nəhayət, davamlı bir prosesdən sonra təxminən aradan qalxmışdır.

Bildiyimiz kimi klassik üslubda yazan şairlərin dilində ənənəvi ərəb - fars sözləri daha çox işlənir. Həmin dövrdə nəsr dilinin leksikası şeir dilinin lüğət tərkibi ilə müqayisədə daha demokratik, xalq dilinə daha yaxındır və buna səbəb də əsərlərinin gündəlik həyatla, məişətlə bağlı olmasından irəli gəlir. Ədəbi mühitin görkəmli söz ustalarından Eynəli bəy Sultanovun, Əliqulu Qəmküsarın əsərlərini nəzərdən keçirdikdə onların leksikonunda türk mənşəli sözlərin üstünlük təşkil edilməsini, ərəb və fars sözlərindən qismən istifadə edilməsini müşahidə edirik. Şeir dilində obrazlılıq, emosionallıq özünü göstərir. Nəsr dilində daha çox publisistikaya meyillik güclüdür. Keçən əsrin əvvəllərində yeni cəmiyyətin əhval-ruhiyyəsini əks etdirmək baxımından, eyni zamanda anlaşılmayan ərəb - fars sözlərini danışıq dilindəki qarşılıqlarını əvəz etmək yönündən maraqlı bir dövrü əhatə edir.

Bu dövr hekayələrinin ifadə tərzi, dili çox anlaşıqlı, sadədir. Amma bəzən inqilabi zamanın xarakterini ifadə edən terminlərlə, ağır tərkiblərlə, fəlsəfi fikirlərlə də oxucu diqqətini cəlb edir. Bununla belə, onu da vurğulamaq lazımdır ki, bu dövrdə hekayə janrında yazıb-yaradan nasirlərin təhkiyəsi xəlqiliyi ilə seçilirdi. Yuxarıda adlarını qeyd etdiyimiz müəlliflərin təhkiyəsində anlaşılması çətin olan söz və ifadələrə az rast gəlinir. Müəlliflərin təhkiyəsinin sadəliyi, axıcılığı onun dil xüsusiyyətlərini əks etdirir. Təhkiyə epik əsərlərə xas olsa da, bəzən iki formada – lirik və epik formalarda özünü göstərir. XIX əsrin sonu, XX əsrin əvvəllərində bədii nəsrin inkişafında əməyi olan yazıçıların çoxu Avropa və rus elmini, mədəniyyətini yaxşı mənimsəmiş, peşəkar qələm sahibləri idi. XX əsrin əvvəllərində maarifçi ideya, mövzu və janr baxımından zəngin yaradıcılığa nail olmuş Naxçıvan ədəbi mühiti nümayəndələrinin əsərlərində realizm və satirik ruh olduqca güclü idi. XX əsrin əvvəllərində Naxçıvan ədəbi mühiti nümayəndələrinin yaradıcılığında poetik təfəkkür üçün səciyyəvi olan həm də siyasi məzmunlu sözlərin artımı hiss olunur ki, bunlar əsasən kütləvi anlaşma tələbinə cavab verən milli və yaxud da ki, milliləşən sözlərdir. Yoldaş, bəy, füqəra, rəiyyət, bəy, keçmiş kimi sözlərdir ki, mahiyyətcə ümumişlək səciyyə daşısa da, dövrün, zamanın tələbi ilə ictimai-siyasi, hətta ideoloji məzmunla yüklənir. Şeir dilində də, eyni zamanda türk mənşəli sözlər çoxalır. Eynəli bəy Sultanovun, Məhəmmədağa Şahtaxtlının, Əziz Şərifin dilində bu tipli sözlərin sayı çoxluq təşkil edirdi. Əziz Şərif də özünün bilavasitə iştirakçı olduğu hadisələri, ünsiyyətdə olduğu Azərbaycan görkəmli şəxsiyyətləri haqqında xatirələrini silsilə şəklində qələmə alaraq təsvir etdiyi hadisələrə xüsusi tərzdə yanaşmış, özünəməxsus dil və üslub xüsusiyyətləri ilə iştirakçısı və şahidi olduğu hadisələri ölümsüzləşdirmişdir.

Göründüyü kimi, XX əsrin əvvəllərində Azərbaycan ənənəvi, digər tərəfdən yeni ideologiyaların qarşı - qarşıya gəldiyi dövrə təsadüf edir. Bir tərəfdən ərəb - fars sözləri ilə zəngin yazı dili, digər tərəfdən Qərb dil - ünsiyyətinin mədəniyyətə, maarifə, texnologiyalara aid olan sözlər dilimizə müdaxilə edirdi. Buna baxmayaraq, XX əsrin əvvəllərindəki ədəbi proseslərdə, yazıçı və şairlər yaradıcılıqlarında dil məsələlərinə münasibətdə milli mövqedə dayanırdılar. Naxçıvan ədəbi mühiti nümayəndələrinin əsərlərində xalq həyatı, xalq mənəviyyatı son dərəcə fəal, canlı dil ilə, yurd sevgisi motivləri, məhəlli toponimlərin tez-tez anılmağı da bölgə çizgilərini, bölgəyə xas olan rəngarən dialekt və şivələrin güclənməsidir. Onlar Məhəmməd ağa Şahtaxtlı, Əliqulu Qəmküsar, Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Məmməd Səid Orubadi, Hüseyn Cavid və başqaları Naxçıvan gerçəkliyinin el - oba səciyyəli tipik danışıq dilini bədii dillə cilalayaraq ədəbiyyatımızı zənginləşdirmişdilər.

## ƏDƏBİYYAT


1. Hacıyev T. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili, Bakı: Maarif, 1977, 187 s.
2. Həbibbəyli İ. Görkəmli yazıçı, böyük publisist və ictimai xadim / Eynəli bəy Sultanov: Taleyi və sənəti, Bakı, Elm və təhsil, 2011, s. 240 s.
3. Hüseyn Həşimli. // Ələkbər Qərib Naxçıvanlının 1920-ci illərdəki yaradıcılığı, Elmi əsərlər №1 (66), Naxçıvan, NDU, Qeyrət, 2015
4. Qarayev Yaşar. Realizm: sənət və həqiqə, Bakı, Elm, 1980, 228 s.
5. Qərib Ə. Əfi ilan, Dan yıldızı jurnalı, 1926, № 1, s. 4-13 ; № 2, s. 10-17
6. Məhəmmədağa Şahtaxtlı, Seçilmiş əsərləri, Bakı: Çaşıoğlu, 2006, 432 s.
7. Məmmədquluzadə C. Əsərləri, 3 cilddə. 3-cü cild, Bakı: Azərb. SSR EA nəşriyyatı, 1967, 902 s.
8. Mətanət Saraçlı (Həsənova), Naxçıvan ədəbi mühitindən, Bakı 2007, 79 s.

**ABSTRACT**

**Mehriban Asadullayeva (Guliyeva)**

**ARTISTIC LANGUAGE VIEW IN THE WORKS OF REPRESENTATIVES OF THE NAKHCHIVAN LITERARY ENVIRONMENT IN THE EARLY XX CENTURY**

The literary environment of Nakhchivan literary environment in the early XX century has special features in the history of research of the literature of Azerbaijan. Though seldom notes have been taken in some sources as a research object, purposeful and comprehensive researches have been put out of attention for certain reasons. In the article work is dedicated to the thorough linguistic investigation of the Nakhchivan literary environment in the early XX century literature which appeared and got its further formation and development on the basis of the artistic style of the Azerbaijani language.

Here, a special attention was also given to the other prose and poetic means highly representing quantitative sides of literary language. Homonymy, repetition of sound combinations and words, syntactical parallelism, articulatory assonance, sound order of rhyme in verse are evaluated as an important stylistic aspect of the form. Early XX century literary environment of Nakhchivan is extremely active, lively language, love of country and the region, strengthening of regional dialects and accents is inherent to local place names, often with motifs in the works of popular morality of the people, the life of anna çizgilərini rəngarən. Aliguli Gamkyusar (1880-1919), Mahammad Agha Shahtakhtli (1846-1931), Eynali bey Sultanov (1866-1935), Mamed Said Ordubadi (1872-1950), Husein Javid (1882-1941), Jalil Mammadguluzadeh (1869-1932) and others in his work Nakhchivan reality of the typical language spoken language was enriched our literature with a prominent art representatives.



**РЕЗЮМЕ**

**Мехрибан Асадуллаева ( Кулиева)**

**ХУДОЖЕСТВЕННАЯ ЯЗЫКОВАЯ ПАНОРАМА В ТВОРЧЕСТВЕ ПРЕДСТАВИТЕЛЕЙ НАХИЧЕВАНСКИЙ ЛИТЕРАТУРНЫЙ СРЕДЫ В НАЧАЛЕ XX ВЕКЕ**

В истории исследования азербайджанской литературы Нахичеванская литературная среда в начале XX веkе имеет свои спесифические особенности. Kaк объеkт исслодование, в неkоторых источниkах делались заметkи, но в широkом аспеkте они не были рассмотрены по определённым причинам. в статье посвящена всестороннему лингвистичесkому исследованию Нахичевансkой литературная среда начала XX веkа, сформировавшейся на основе художественного стиля Азербайджансkого литературного языkа. Во введении в статье обосновываются аkтуальность темы, научная новизна, её теоретичесkая и праkтичесkая значимость, даются сведения о целях, задачах и методах исследования.

Здесь особое место отводится живому стилистичесkому очарованию, kоторое создается новыми поэтичесkими оттенkами в художественном языkе народной разговорной леkсиkи. Выраженные проза и поэзия живого народного языkа слова бытового общения рассматриваются с точkи зрения создания в основном в kонтеkсте kолоритности, углубления единства разговорного языkа с языkом творчества и фаkтора творчества, а таkже связываются с эстетичесkими принципами и поэтичесkими требованиями художественная языkа. Нахичевансkий литературный среды в начале XX веkе - Магомеда-аги Шахтахтлы (1846-1931), Алигули Гамkюсар (1880-1919), Эйнали-беk Султанов (1866-1935), Джалила Мамедгулузаде (1869-1932), Мамеда Саида Ордубади (1872-1950), Гусейна Джавида (1882-1941) и другие обогатили нашу литературу приведение типичный разговорный языk, народного разговорного языkа в художественный языk.

**SƏDAQƏT NEMƏTOVA**
*Naxçıvan Dövlət Universiteti*
*sedaqet_nemet@mail.ru*

# NAXÇIVANDA KİTABXANA İŞİNİN TARİXİ

**Açar sözlər:** *Naxçıvan, kitabxana, kitabxana tarixi, filosof, Munisnamə*
**Key words:** *Nakhchivan, library, library history, philosopher, Munisname*
**Ключевые слова:** *Нахчыван, библиотека, история библиотеки, философ, тюнстер*

Professor A.Xələfov ölkəmizdə kitabxana işinin misilsiz tərəqqisini xalqımızın mədəni inkişaf sahəsindəki ən böyük nailiyyətlərindən biri kimi dəyərləndirir (6, s.3). Tədqiqatlarda çox haqlı olaraq, kitabxanaların tarixi onu yaradan cəmiyyətin tarixi ilə əlaqələndirilir, araşdırma və təhlillərin bu müstəvidə aparıldığı vurğulanır (7, s.19).

Ən qədim sivilizasiya mərkəzlərindən olan Naxçıvanda kitabxana tarixi bu qədim bölgədə zaman-zaman baş verən proseslərlə, mədəniyyət tarixi ilə sıx bağlı olmuşdur. Heç şübhəsiz ki, bu kursun əhəmiyyəti də, məqsədi də kitabxana işinin tarixini bu şəkildə aşılamaqdır.

Məlumdur ki, hələ XI-XII əsrlərdə Naxçıvan çox sayda görkəmli şəxsiyyətlərin vətəni kimi tanınmışdı. Məhz elə bu, bölgənin elmi və mədəni mühitinin məhsuldarlığının, məşhurluq tezliyinin göstəricilərindən biri olaraq diqqəti cəlb edir. Həmin dövrdə naxçıvanlı filosof Əbu Ömər Əbu Əli ibn Sinanın "Qanun" əsərini şərh və təhlil edən Nəcməddin Naxçıvani, Həsən ibn Ömər Naxçıvani (8,s.214-215) öz kitabları ilə yetərincə nüfuz qazanmışdılar.

Qaynaqlardan bəlli olduğu kimi, başqa ölkələrdən gəlmiş, Naxçıvanda Atabəylər sarayında sığınacaq tapmış məşhur söz ustadlarından Əsirəddin Ağsunafi, Şərafəddin Şafrux və Zahirəddin Fərabi sənətdə silinməz izlər qoymuşdular (1, s.16). Dahi Nizaminin həmyerlisi Əbu Bəkr Xosrov oğlu Atabəylərin diqqətini cəlb etmiş, onu Gəncədən Naxçıvana gətirmişdilər. 30 ildən artıq Naxçıvanda yaşayan sənətkar gənc şahzadələrin müəllimi və tərbiyəçisi olduğundan Əl-Ustad adı ilə tanınmışdır. Əl-Ustadın qələmindən çıxan 6 poemanın hamısı Atabəylərə həsr olunmuşdu. İyirminci və iyirmi altıncı hekayətləri Naxçıvana həsr olunan (1, s.20) "Munisnamə" əsərinin maraqlı taleyi vardır.

Əsərin yeganə əlyazması 800 il Naxçıvanda hifz olunmuş, 1920-ci ildə İngiltərəyə aparılaraq Britaniya muzeyində "Min bir gecə" adı ilə saxlanılmış, 50 il sonra bu əlyazma ingilis alimi Q.M.Mereditin diqqətini cəlb etmişdir (1, s.16).

Kitabın səkkiz əsr Naxçıvanda zədəsiz və itkisiz şəkildə qorunub-saxlanılması bölgədə tarixən kitaba və kitabxanaya həssas münasibətə parlaq sübutdur. Bu cür faktlar kitabxana işinin tarixində çox dəyərlidir və fikrimizcə, onların gənc nəslə öyrədilməsi kitaba məhəbbət və münasibət hissini formalaşdırmaqla yanaşı, bir örnək olaraq kitabxana tariximizlə bağlı qürur, iftixar yaradır.

Doğrudan da, "Kitabxana işinin tarixinə aid biliklər bizə təkcə keçmişi öyrənmək üçün yox, müasirliyi yaxşı başa düşmək, əhaliyə kitabxana xidmətini hərtərəfli yaxşılaşdırmaq üçün də zəruridir" (4, s.20). Unutmaq olmaz ki, bu günün tələbəsi sabahın mütəxəssisi, kitabxanaçısıdır.

Bölgənin çox qədim zamanlardan misilsiz sənət örnəklərinə malik olması ilə bağlı biliklər milli mədəniyyətə varislik hissinin möhkəmləndirilməsində misilsiz əhəmiyyətə malikdir.Ona görə də, gənc nəslin kitabxana tariximizi dərindən öyrənməsi mühüm vəzifələrdəndir.

O da məlumdur ki, XIII yüzillikdə Naxçıvan mədrəsələrində kitabxanalar mövcud olub. Bu kitabxanalarda müxtəlif işçilər çalışıblar (8,s.264). Bu isə kitabxana işinin idarəetmə strukturunun öyrənilməsində çox əhəmiyyətli faktordur. Bölgədə XII əsrin sonlarından məktəb və mədrəsələrin fəaliyyət göstərməsini nəzərə alsaq, Naxçıvanda kitabxana tarixi barədə müəyyən fikir və qənaətlər əldə edə bilərik.

Həmin mədrəsələrdə və onların kitabxanalarında olan dərslikləri tədqiqatçılar üç yerə bölürlər:

1. Azərbaycanda hazırlanan kitablar;
2. Azərbaycandan kənarda hazırlanan kitablar;
3. Başqa dillərdə olan kitablar (8, s.266).

Bu bölgüyə əsasən hansı ehtimalları ortaya qoymaq olar? Deməli, həmin dövrdə Azərbaycanda, onun tərkib hissəsi olan Naxçıvanda kitablar hazırlanırdı. Başqa ölkələrlə mədəni əlaqələr o dərəcədə inkişaf etmişdir ki, kənardan da mədrəsə kitabxanalarına kitab gətirilirmiş. Onların arasında başqa dillərdə olan kitablar da var imiş. Fikrimizcə, kitabxana tariximizdə bu faktlar da çox əhəmiyyətlidir.

Başqa dillərdə olan kitablar o dövrün kitabxanalarında mövcud olan çoxdilli sistem haqqında

danışmağa imkan yaradır.

H.Tağıyevin belə bir fikri də diqqəti çəkir: "Azərbaycan alimləri və şairləri yuxarıda izah edilən səbəb üzündən hansı dildə yazmaqlarından asılı olmayaraq doğma xalqının milli və mədəni xüsusiyyətlərini daim hifz edib saxlamışlar" (3, s.8). Bu yönümdən kitabxana tarixinin ədəbiyyat tarixi ilə vəhdətdə araşdırılması və tədrisi çox zəruri məsələlərdən biridir. Bu zaman mədrəsə kitabxanaları ilə yanaşı saray kitabxanalarının da müstəsna əhəmiyyəti çox ciddi faktor kimi nəzərə alınmalıdır.

XIV əsrdə şair, tərcüməçi və alim Savəci Məhəmməd, ədəbiyyatşünas Fəxrəddin Hinduşah Naxçıvani, onun oğlu, tarixçi Məhəmməd ibn Hinduşah Naxçıvani (onun "Vəzifələrin müəyyən edilməsinə dair kitab təlimatı" və başqa kitabı var idi), təbii ki, mədəniyyət tariximizin görkəmli simaları idi (8, s.269).

Həmin dövrdə yaşamış məşhur şair Beyrək Quşçuoğlu da Naxçıvan mənşəli sənətkar kimi dəyərləndirilir. Orta əsrlərdə yaşamış sənətkarların çoxunun şəxsi kitabxanaya və ya kitab rəfinə malik olması (3, s.9) tədqiqatlarda öz əksini tapmışdır.

Professor A.Xəlilov yazır: "Cəmiyyətdə yaranan tələbatla əlaqədar olaraq kitabxanaların miqdarı durmadan artır, yeni-yeni kitabxana tipləri və növləri meydana gəlirdi(5, s.22).

Müxtəlif dövrlərdə kitaba və kitabxanaya milli tərəqqinin mühüm vasitələrindən biri kimi önəm verən görkəmli şəxsiyyətlər bu məsələdə əsl nümunə göstərmişlər. Yeni kitabxana tiplərinin və növlərinin meydana gəlməsi isə mədəni tərəqqinin mühüm göstəricisi kimi diqqəti cəlb edir.

Tədqiqatlardakı belə bir qeyd, əlbəttə, hər birimizdə təkcə təəssüf hissi yaratmır: "Xüsusilə VII, IX və XIII əsrlərdə yadellilərin Azərbaycan torpağına basqınları xalqımız üçün böyük fəlakət törətmiş, mədəni abidələrin, o cümlədən kitabların məhv olmasına və oğurlanmasına səbəb olmuşdur. O dövrdə Azərbaycandan aparılan bir çox qiymətli əlyazmaların bu gün belə müxtəlif ölkələrin kitabxanalarında saxlanıldığını tarixi sənətlər sübut edir" (3, s.13). Tarixdən məlumdur ki, Naxçıvan Azərbaycanın ən çox döyüş meydanına çevrilən bölgələrindən olmuşdur. Yuxarıda qeyd edildiyi kimi, 800 il Naxçıvanda hifz olunan "Munisnamə" də bölgənin ağır günlərində Britaniyaya aparılmışdır. Bu hadisələr milli mədəniyyətimizə ağır zərbələr vurmaqla yanaşı, onun tarixinin öyrənilməsində ciddi çətinliklər yaradır. Bütün bunlara baxmayaraq, Naxçıvan mühüm mədəniyyət mərkəzlərindən olmaqla zaman-zaman bəşər svilizasiyasına öz töhfələrini vermişdir. Bu sahədə kitabxanaçılıq tarixi də misilsiz nailiyyətlərlə zəngin olmuşdur.

Qeyd olunmalıdır ki, Ordubad şəhərindəki Zəhir Əd-Dövlə Məhəmməd mədrəsəsi XVIII yüzillikdə nəinki Naxçıvanda, bütün Azərbaycanda əhəmiyyətli tədris müəssisəsi kimi tanınıb (8,s.320). Bu isə çoxlu səbəbləri olan məsələlərdəndir. Ərazicə çox da böyük olmayan bu bölgə öz məşhur şəxsiyyətləri ilə həmişə seçilmişdir. XVI əsrdə Mirzə Sadıq Ordubadi, Ziyayi Ordubadi və başqaları (8, s.329) milli tərəqqiyə əvəzsiz xidmətlər göstərmişlər.

Təsadüfi deyil ki, xələfləri onların parlaq ənənələrinə həmişə sadiqlik göstərmiş, mühüm işlər görmüşlər. Əlbəttə, Naxçıvanda kitabxana tarixindən söz açarkən bütün bunlara diqqət yetirmək çox zəruridir. 1905-ci ildə Ordubad şəhərində qiraətxana açılır. Bu barədə M.S.Ordubadinin "Həyatım və mühitim" əsərində də bəhs olunur. Mir Adilin evində açılan bu qiraətxana müxtəlif qəzetlər alırmış, burada dram dərnəyi də təşkil edilibmiş.

Göründüyü kimi, qiraətxana şəhərdə əsl mədəni mərkəz rolunu oynayırmış. "M.S.Ordubadinin dediyinə görə, bu qiraətxana 1914-cü ilə qədər işləmişdir"(2, s.104).

Eləcə də "Molla Nəsrəddin" jurnalının 1907-ci il 6 yanvar nömrəsində Naxçıvandakı "Səadət" qiraətxanasından bəhs olunur.

Əlbəttə, bütün bunlar mədəniyyət xəzinəmizin özünəməxsus cəhətlərinin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. Əbu Bəkr ibn Xosrov Əl-Ustad, Munisnamə (Tərcümə və ön söz Hacı Səbuhi İbrahimovundur), Naxçıvan: 2008, 143 s.
2. Həsənov M. Kitabxana fondunun yaranması, formalaşması və idarə edilməsi, Bakı, 2004, 143 s.
3. Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi, Bakı, Azərnəşr, 1964, 121 s.
4. Xəlilov A. Azərbaycanda kitabxana işinin tarixi (dərslik). 2 hissədə, I hissə. Bakı, Bakı Universiteti Nəşriyyatı. 2004, 328 s.
5. Xəlilov A. Kitabşünaslığa giriş (dərslik), Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001, 400 s.
6. Kitabxana işi, Bakı, Bakı Universiteti Nəşriyyatı,1996, 212 s.
7. Kitabxanaşünaslıq. Bakı: Bakı Universiteti nəşriyyatı, 1996. 212 s.
8. Naxçıvan tarixi,Üç cilddə, I c., Naxçıvan: Əcəmi,2013,452 s.

## ABSTRACT

**S.Nematova**

## HISTORY OF BOOK WORK IN NAKHCHIVAN

Research on the creation of the first libraries in Azerbaijan speaks about the activities of libraries in different areas

The organization of library work was associated both with the socio-political situation and with the personal interests of the regions.

From this point of view, the history of libraries is of great importance in Nakhchivan, where important traditions of statehood are formed, which is considered one of the cultural centers of the East and sometimes contributes to civilization.

## РЕЗЮМЕ

**С.Нематова**

## ИСТОРИЯ КНИЖНАЯ ДЕЯТЕЛЬНОСТЬ В НАХЧЫВАНЕ

Исследования по созданию первых библиотеk в Азербайджане говорят о деятельности библиотеk в разных районе

Организация библиотечной работы была связана kak с общественно-политической ситуацией, тak и с личными интересами регионов.

С этой точkи зрения история библиотеk имеет большое значение в Нахчыване, где формируются важные традиции государственности, kоторая считается одним из kультурных центров Востоkа и иногда вносит вkлад в цивилизацию.

**NƏZAKƏT İSMAYILOVA**
*Naxçıvan Dövlət Universiteti*
*nezaket.ismayılova@yahoo.com*

# NAXÇIVAN REGİONUNDA MƏDRƏSƏ TƏHSİLİ, XALQ MAARİF MÜƏSSİSƏLƏRİ VƏ TƏRBİYƏ SISTEMİ

**Açar sözlər:** *Naxçıvan, təhsil, məktəb, uşaq, tərbiyə*
**Keywords:** *Nakhchivan, education, school, school, education*
**Ключевые слова:** *Нахчыван, образования, школа, школьник, воспитание*

İlkin təşəkkül dövründə uşaq ədəbiyyatı milli bədii irsin müstəqil bir sahəsi olmasa da, bədii ədəbiyyatın daxilində mövcud olmuşdur. İlk uşaq ədəbiyyatı əsərləri elmi və tərbiyəvi məzmuna malik kitablardan –əlifba müxtəlif ensiklopedik, ədəb qaydalarını təlim edən əsərlərdən ibarət olmuşdur. Hələ ötən əsrlərdə uşaqlar əsasən mollaxanalarda təhsil ala bilirdilər.

XIII yüzillikdə Naxçıvanda təhsil sisteminin əsasını məktəblər və mədrəsələr təşkil edirdi. Uşaqlar 5-6 yaşlarında məktəbə qəbul edilirdilər. Bu mədrəsələrdə 15 yaşına qədər təhsillərini davam etdirirlər. Burada əsasən yazı vərdişlərinə yiyələnir, ayrı-ayrı fənlər haqqında məlumatlanırdırlar. Bütün bunlarla yanaşı əsasən burada Qurani - Kərim öyrənirdilər. Bu dövrdə bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da yetim uşaqların oxuması üçün şərait yaradılmışdır. Onlar “Beyt” “ət-təlim” adlanan məktəblər də təhsil alırdılar. Burada hər 10 uşağa bir tərbiyəçi – atabəy təhkim olurdu. Onlar uşaqların təlim-tərbiyəsi və yaşayışı ilə məşğul olurdular. Bu ərazidə mövcud olan xanəgahlarda, zaviyələrdə, məscidlərdə və “Dar ül-Quran” adlanan yerlərdə dini ehkamlar tədris olunurdu. Bu dövrdə həmin mədrəsədə təhsilin “Məzhər” formasında fəaliyyət göstərirdi. Bu o demək idi ki, burada hər bir ustad bir və ya bir neçə şagirdə ayrı-ayrı fənlərdən dərs demək əvəzinə, onlara ümumi şəkildə rəhbərlik edir, öyrədirdilər, şagirdlər isə müstəqil formada elmin müxtəlif sahələri ilə məşğul olurdular. Belə ki, şagirdlər vaxtaşırı ustadın yanına gedib məsləhət alırlar. Müəllimlərin mühazirələrini dinləyirdilər. Demək olar ki, bu da təhsilin bir forması idi. Buranı bitirən şagirdlərin bir hissəsi təhsillərini mədrəsələrdə davam etdirirlər. Belə mədrəsələr mütəvəllilər tərəfindən idarə olunur, onların fəaliyyətinə isə nəzzarlar nəzarət edirdilər. Mədrəsələrin xərcləri vəqflər hesabına ödənilirdi. Təhsil iki müdərris tərəfindən aparılırdı. Onlardan biri şəriət dərslərini, digəri isə dünyəvi fənləri tədris edirdi. Onların məqsədi ruhanilər yetişdirmək idi. Şagirdlərin necə öyrənmələri dərsə davamiyyəti, dərsi mənimsəməsi eyni zamanda şagirdin fərdi keyfiyyətlərini də öyrənir rəhbərliyə məlumat verirdilər. Beləliklə şagirdlər layiqli qiymətlərini alırdılar.

Bu barədə geniş məlumat verən bir sənət, dövrümüzə qədər gəlib çatmışdır ki, orada tədris olunan fənlər və müəllim, tələbə münasibətləri haqqında məlumat verilirdi. Bu sənəd “Mənşur-i təqrir-i tədris-i mədrəsə-i Naxçıvan” (“Naxçıvan mədrəsələrinin tədrisinə dair fərman) adlanan bu sənəd Elxani hakimləri tərəfindən imzalanmış bir fərmandır. Bu fərmanın müəllifi Elxanilərin sarayında baş vəzir işləmiş Şəmsəddin Məhəmməd Suveynidir (1. S,119).

Naxçıvan Dövlət Universitetinin professoru İ.Mollayevin fikri ilə Azərbaycnın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda hələ XII əsrin sonlarından məktəb və mədrəslər olmuş, XIII əsrin ilk rübündə isə dağıntılara məruz qaldığından bu fərmanla yenidən bərpa etdirilmişdir ( 2. S, 127).

Bu fərman əsasən onu göstərir ki, 1263-1284-cü illər arasında nəinki Naxçıvanda eyni zamanda bütün Azərbaycanda müsəlman şərqində məktəb və mədrəsələrin olduğunu qəti şəkildə təsdiq edir. İ.Mollayev yazır ki, Atabəy Məhəmməd Cahan Pəhləvanın anası, Şəmsəddin Eldənizlərin arvadı Mömünə xatının şərəfinə Naxçıvanda tikilmiş türbənin (1186-cı il) və 1162-ci ildə inşa edilmiş Yusif Küseyr oğlu türbəsinin tarixi ilə çox müvafiq gəlir. Bu onu sübut edir ki, Azərbaycanda eyni zamanda Naxçıvanda məktəb və mədrəsələr olmuşdur.

Bu fərman Azərbaycanda məktəb tarixini öyrənmək üçün çox əhəmiyyətli bir mənbədir. “Mənşur-i təqrir-i tədris-i mədrəsə-i Naxçıvan” fərmanı konkret olaraq islamın intibah dövrülündə Naxçıvanda bütövlükdə Azərbaycanda məktəblərin, tədris sistemi haqqında məlumat verir. Fərmanda müəllim və tələbələr qarşısında qoyulan tələblər, vəzifələr dəqiq müəyyən edilmişdir. Müəllimlərin qarşısında qoyulan tələblər bunlardır. Müəllim mədrəsədə oxuyan tələbələrini oğlu kimi hesab etməli əsl ruhani yetişdirməli, hər bir şagirdin fərdi xüsusiyyətləri nəzərə alınmalı istedadı üzə çıxarılmalı fərdi keyfiyyətini müəyyənləşdirməli və bunlara görə ona dərs deməlidir. Dərs asan tərzdə olmalıdır ki, tələbə başa düşsün. Hiylə və mübahisələrlə

özünü bilici göstərən tələbələrin qarşısı alınmalı. Hər həftədə bir gün tələbələrin bilik səviyyəsi öyrənməli onların dərslərini necə mənimsəmələri müyyənləşdirilməli, yaxşı uğur qazanan tələbləri başqa tələbələr arasında tanıtmalı (3. s, 1273. ).

Müdərrislər qarşısında belə konkret vəzifələr qoyan fərman onun ardınca şagirdlərin də vəzifələrini müəyyənləşdirmişdir. Şagirdlər fərmana görə aşağıdakı şərtlərə əməl etməli idilər:

1. Fərmanda göstərilən şərtləri həyata keçirən müdərrisi digərindən üstün tutulmalıdırlar:

2. Elm təhsil etmək istəyən şagird tənbəllik və səhlənkarlıqdan uzaq olmamalıdır, dərsləri təkrar etməkdən yorulmamalıdır.

3. Dərs zamanı diqqətli olmalı, anlaşılmayan məsləyə dair sual verməkdən çəkinməməlidirlər:

4. Şagirdlər keçən dərsi mənimsəmədən yeni dərsə başlamamalıdır.

5. Şagirdlər yalnız elmi təhsili ilə kifayətlənməyib, eyni zamanda, əxlaq təmizliyinə və doğruluğa da diqqət verməlidir ( 4. S, 1269-1273 ).

Sovet dövründə pedaqogika elmində göstərilirdiki ilk dəfə "Ədəb qaydaları"nı çex-slavyan pedaqoqu Y.A.Komenski, Y.S.Slavinetski və Yankoviçin tərəfindən elmi mühitdə XVII yüz illikdə göstərilsədə bu fərman onu arxada qoyur. Çünki, fərmandan da göründüyü kimi bu pedaqoqlardan bir neçə əsr əvvəl Naxçıvanda davranış və ədəb qaydaları tərtib edilmiş və bu qaydalar Naxçıvan mədrəsələrində geniş tətbiq olunmuşdur **(** bax mənbə).** Bunu da qeyd etmək yerinə düşər ki, çex - slavyan pedoqoqları özlərinin "ədəb qaydaları" nı yazarkən, ancaq tələbələrə aid qaydaları onlara verilən tələbləri on plana çəkilmiş, tələbələrin qarşısında qoyulan vəzifələrə diqqət yetirmişlər.

Ancaq Naxçıvan mədrəsələrinə dair verilən bu fərmanda isə tələbələrin vəzifələri konkret şəkildə müəyyənləşdirildiyi kimi, müəllim-müdərrislərin də hərtərəfli əks etdirilmiş aydın şərh olunmuşdur. Fərmanın əhəmiyyəti bir də ondadır ki, o XIII yüzillikdə mədrəslərdə tədris olunan fənlər haqqında dəyərli məlumat verir və aydın olur ki, mədrəsələrdə din elmləri ilə yanaşı dünyəvi elmlər də tədris olunmuşdur. Həmin vaxt məktəblərdə, xüsusilə mədrəsələrdə tədris olunan dərsliklərin təxmini olaraq üç yerə bölmək olar: 1.Azərbaycanda çap olunanlar 2. Azərbaycandan kənarda çap olunanlar 3. Başqa dillərdə çap olunanlar

Hələ XII əsr Azərbaycan mədəniyyətinin "qızıl dövrü", "intibah dövrü" hesab olunur. Çünki bu dövrdə nəinki Naxçıvanda bütün Azərbaycanda mədəniyyətin bütün sahələrində əsaslı dəyişiklik baş vermişdir. X-XII əsrlərdə Naxçıvan Yaxın və Orta Şərqin mədəni mərkəzlərindən birinə çevrilmişdi. Naxçıvan şəhərinin əvvəlcə Naxçıvanşünaslığın, sonra isə Azərbaycan Atabəylər dövlətinin mərkəzinə çevrilməsi şəhərin siyasi və mədəni inkişafı üçün şərait yaratmışdır. Şəhərdə orta əsr müsəlman tədris müəssisələri – mədrəsə, ruhani məhəllə məktəbləri, təkiyələr mövcud idi. Eldənizlərin hakimiyyəti dövründə Naxçıvan şəhərində iki mədrəsə tikilmiş və dini xeyriyyə idarəsinə məxsus vəqf kimi fəaliyyət göstərmişdir**.**

XIX əsrdən başlayaraq ədəbiyyatda maarifçiliyin güclənməsi uşaq ədəbiyyatına olan marağı artırdı. Çünki məktəb, maarif, yeni nəslin müasir ruhda tərbiyə olunması bütün dövrlərdə, xüsusən XX əsrin əvəllərində maarifçi məfkurənin diqqət mərkəzində olmuşdur.

XIX əsr uşaq ədəbiyyatı haqqında təhlil apararkən bunu qeyd etməliyəm ki, bu dövrdə məktəblərin zəruri ehtiyacı kimi meydana çıxmış dərsliklər milli uşaq ədəbiyyatının yaranması inkişafı üçün geniş üfüqlər açmışdır. Məktəb və dərslik konkret olaraq uşaq ədəbiyyatının yeni epoxasını meydana çıxarmışdır. Bunu deməklə fikrimizi təsdiqləyə bilər ki, Azərbaycan milli uşaq ədəbiyyatının qızıl fondu milli məktəblərin və dərsliklərin zəminində yaranıb inkişaf etmişdir. Bu dövrdə yaranan uşaq ədəbiyyatının əsas yaradıcıları müəllim – yazıçı və şairlər olmuşdur. Azərbaycan oxucusu da milli uşaq ədəbiyyatını ilk dəfə məktəblərdə öyrənmiş, dərsliklərdən oxumuşlar.

Ən yaxşı uşaq ədəbiyyatı nümunələri də məktəbə, elmə, müəllimə həsr olunmuşdur. Akademik İsa Həbibbəyli demişdir ki, XX əsr Azərbaycan yazıçıları məktəbə və elmə milli oyanış məfkurəsinin əsas hərəkətverici qüvvəsi kimi baxmışlar".

Akademik N.Cəfərovda bu barədə belə yazır "XIX əsrin sonu XX əsrin əvəlləri milli təşəkkülün tarixində mürəkkəb hadisə kimi diqqəti cəlb edir, XIX əsr boyu düşünən xalq bir neçə on ildə az qala bütün yaradıcılıq imkanlarını reallaşdırır". XIX əsrdən başlayan ədəbiyyatla maarifçiliyin güclənməsi uşaq ədəbiyyatına olan marağı artırdı. Çünki məktəb, maarif, yeni nəslin müasir ruhda tərbiyə olunması bütün dövrlərdə, xüsusən XX əsrin əvəllərində maarifçi məfkurənin diqqət mərkəzində olmuşdur. Bu dövrdə həm realistlər, həm də romantiklər gələcəyin vətəndaşı olan uşaqların təfəkkürü uğrunda mübarizəyə başladılar.

XIX əsrin Azərbaycanın pedoqoji fikir, xalq maarifi və məktəb təhsili həmçinin elmi-ictimai fikir tarixinə xüsusi dövr kimi daxil olmuşdur. Bütün bu sadaladığımız sahələr XIX əsrin ilk onilliklərindən başlayaraq mühüm addımlar atılmış əhəmiyyətli mühüm işlər görülmüşdür.

Azərbaycan xalq maarifinin inkişafı yeni mərhələyə daxil olmuşdur. Həmçinin bu dövrdə dövlət məktəblərinin açılması istiqamətində atılan addımlar mühüm ictimai –siyasi və mədəni hadisə kimi diqqəti

cəlb edirdi. Əsrlər boyu fəaliyyət göstərmiş köhnə üsullu dini məktəblərin və mədrəsələrin yeni tipli tədris müəssisələri ilə əvəz olunması həm də ana dili təliminin meydana gəlməsi ideyasının əsasını qoyurdu.

Azərbaycanda yeni düşüncə tərzinə malik olan ziyalılar nəslinin yetişəcəyinə zəmin hazırlanırdı. XIX əsrin əvvəllərində Azərbaycanda yeni məzmunlu mədrəsələrlə yanaşı, yeni tipli məktəblərin əsası qoyulmuşdur.

Bu dövrdən ehtibarən Cənubi Qafqazın digər regionları kimi 1827-ci ildə Tiflisin hərbi qubernatoru Sipyagin bir sıra şəhərlərdə Qazax, Şamaxı, Nuxa (Şəki), Şuşa, Bakı və Qubada qəza məktəbləri açmaq fikrini irəli sürmüşdür ki, az sonra bu siyahıya Naxcıvan və Ordubad da əlavə olunmuşdur.

Azərbaycanda xalq maarifi tarixinin ilk rəsmi sənədlərindən sayılan Cənubi Qafqaz məktəblərinin birinci Nizamnaməsində Naxçıvan və Ordubad şəhərlərində də yeni tipli qəza məktəblərinin açılması göstərilsə də bu mühüm işə mane olanlarda oldu. Çünki Azərbaycan uşaqlarının savadlanması, bilikli olması heç də çar Rusiyasını və Rusiya hakim dairələrinin ürəyindən deyildi. Cənubi Qafqazın baş hakimi Baron Rozen mərkəzi hökumətə məlumat verərkən "Ordubad şəhərinin əhalisi az olduğundan hal - hazırda orada məktəb açmaq heç bir mənfəət verməz" deyə cəhd etmişdi (5.s,10). Bu cəhdlərdən də başqa bəhanələr tapdılar. Məsələn; məktəb açılsa da burada şəriət, qiraət, hüsnüxət, hesab, rus dili və ana dilindən dərs deyə biləcək ixtisaslı müəllimlərin olmaması kimi maneələr tapdılar. Həmin dövrdə mövcud vəziyyəti təmsil edən Cənubi Qafqaz məktəblərinin direktoru yazırdı: "Naxçıvan əhalisi çox olan şəhərdir və əlbəttə burada məktəbə ehtiyac vardır, lakin yerli sakinlərdən müəllimlik vəzifəsinə qabiliyyəti olan adamın olmaması burada açılmasını ləngirdi" (6.s, 11).

Bu dövrdə yeni üsullu məktəblərin açılmasına böyük ehtiyac duyulurdu. Yerli əhali belə məktəblərin açılmasına geniş həvəs göstərir və müsbət münasibət bildirirdilər. İmkanlı və vəzifəli şəxslər rus dilində məktəbin açılmasına maraq göstərirdilər.

1933-cü ildə Qriqoryev Sankt-Peterburqda çap etdirdiyi "Naxçıvan əhalisinin statistik təsviri" kitabında yazırdı: Yerli əhali rus dilini öyrənməyə böyük həvəs göstərir. Bir çox vəzifəli şəxslər artıq rus dilini öyrənməyə başlamışlar və böyük müvəffəqiyyətlər əldə etmişlər. Ümumiyyətlə, bütün əhali onların uşaqlarına həm rus dili, həm də ictimai həyatda zəruri olan ibtidai bilik öyrətmək üçün şəhərdə rus məktəbi təsis etməyi ürəkdən arzu edir, hətta yerli başçılardan xahiş edirdilər. Naxçıvan əyalitini idarə edən Ehsan xanın dediyinə görə, belə məktəbə şəhərdən və yaxın kəndlərdən 200-ə qədər şagird yığılar" (7. s, 7).

1829-cu ildə təsdiq olunmuş ilk Nizamnamədə Naxçıvanda qəza məktəblərin açılması nəzərdə tutulsa da yuxarıda sadalanan bəhanələrlə açılmadı. Nəhayət 1835-ci il 12 may tarixində Azərbaycanın müxtəlif bölgələrində Şamaxıda, Qubada, Qazaxda və eyni zamanda da Naxçıvan da II Nizamnamədə təsdiq olundu ( 8. S,12).

Bu nizamnaməyə uyğun olaraq Naxçıvanda ilk qəza məktəbi 1837-ci il martın 15-də açıldı. Bu dövrdə Naxçıvanda hakimlik edən general - mayor Ehsan xanın oğlanları İsmayıl və Kalbalı xanın xüsusi evində açılmış məktəbə 20-ə qədər uşaq cəlb edilmişdir (9). Beləliklə, Naxçıvanda yeni üsullu məktəblərin açılması bu dövr ziyalılarını çox sevindirdi. Bu məktəblərin açılması gələcəkdə müəllim kadrlarının çoxalmasına şərait yaradacaqdır. O, dövrün sayılan ziyalılarından olan İsmayıl və Kalbalı xanın yeni açılan dünyəvi məktəbə böyük rəğbət bəsləyir, bu məktəbi ildə gümüş pulla 200 manat ianə hesabına ( 10. S, 13) özləridə köməklik etməklə saxlayırdılar. Beləliklə məktəbləri fəaliyyət göstərməyə davam edirdilər.

XIX əsrin 40-cı illərində bu məktəblərin fəaliyyətinin məzmununda dəyişiklik etmək, məktəblərin işini təkminləşdirmək fikirləri irəli sürüldü. Demək məktəblərdə gedən təkminləşdirmə işinin təşklində xalqın yuxarı təbəqəsini, imtiyazlı sinifləri öz tərəfinə çəkməklə, onları qulluğa cəlb etmək bu yolla milli adət-ənənələrindən uzaqlaşdırmaq və beləlikldə "Şübhə yoxdur ki, yuxarıda göstərilən təkmilləşdirmə müsəlman bəylərinin uşaqlarını məktəbə göndərməyə vadar edəcək, müsəlman uşaqları rus, gürcü və xristian uşaqları ilə birlikdə 3-4 il bir yerdə olmaqla rus dillərini öyrənəcək və beləliklə də öz dini fanatizmini itirəcək və necə deyərlər ruslaşacaq: hökumətin bu ölkəyə münasibətində başlıca mənafe də bundan ibarətdir ( 11.).

Beləcə yaranan qəza məktəbləri XIX əsrin 30-40-cı illərində Azərbarcanda, o cümlədən Naxçıvanda fəaliyyətə başlayan qəza məktəblərinin tədris prosesinin mahiyyəti Rusiyada 1861-ci il 19 fevral tarixli "Təhkimçilik hüququnun ləğv olunması haqqında" islahatla müəyən qədər dəyişdi. Məlum olduğu kimi, 60-cı illərin əvvəllərindən etibarən Cənubi Qafqazda, o cümlədən Azərbaycan məktəblərində müəllim kadrlarının çatışmaması, maddi-texniki bazanın olmaması tərbiyə və tədris işinin keyfiyyətini xeyli aşağı salmış, nəticədə bir sıra məktəblər öz fəaliyyətlərini dayandırmaq məcburiyyətində qalmışdır. Buna görə də 1861-ci il fevral islahatının ardınca hökumət "ictimai-pedoqoji hərəkatın güclü təsiri nəticəsində məktəb təhsilinin qeyri-mükəmməl sisteminin bütün sahələrində islahat keçirməyə məcbur oldu ( 12.s, 59).

Beləliklə də, 1960-cı illərdə keçirilən maarif islahatları Azərbaycanı eləcə də Naxçıvanda müəllim kadrların ziyalıların sayı artmağa başladı. Pedoqoji fəaliyyətə meyil artdıqca görürük ki, tarixi qanunanuyğunluq kimi "1960-cı illərin maarif islahatının dalğası asanlıqla Naxçıvana gəlib çatmışdır. Qısa vaxtda Naxçıvan və Ordubad məktəblərində müxtəlif təhsil ocaqlarını bitirmiş, qabaqcıl müəllimlər pedoqoji

fəaliyyətə qədəm qoymuşlar. Şagirdlərin sayı artmış, məktəb kitabxanaları yaradılmış, rəsm, gimnastika, kənd təsərrüfatı və sənət dərslərinin hətta latın dili məşğələlərinin keçirilməsinə başlanılmışdır (13. S, 32).

Beləliklə, Tiflis Aleksandrovsk Müəllimlər İnstitutunu Kutaisi və İrəvan gimnaziyalarının məzunları İ.Kuzanov, K.Çərkəzov, G.Balçevski, İ.Boqolyubov, C.Bordiricze və başqaları uzun müddət Naxçıvanda qəza məktəblərində rus dili, tarix, həndəsə, hesab, hüsnxətt, şəriət, rəsmxətt fənləri tədris etmişlər. Bu səylərin nəticəsi idi ki, maarif sahəsində irəliləyiş başlamış, Naxçıvan qəza məktəbini qurtaran, məktəbdə fərqlənən əlaçı tələbələr təhsillərini davam etdirmək arzusu ilə müxtəlif seminariya və gimnaziyaya göndərmişlər. O, vaxtlar Naxçıvan qəza məktəbinin müdiri A.Sergeyev idi. Bu məktəbin məzunu olmuş İsayıl bəy Bektaşinin ərizəsini arzusunu nəzərə alaraq Naxçıvan qəza qubernatorunun tərcüməçi katibi Mirzə Nəsib bəyə 1863-cü ildə İrəvan quberniya xalq məktəblərinin yanına göndərərək bir məktubda yazmışdır. “Naxçıvan qəza məktəbində əla qiymətlərlə oxumuş, İsmayıl bəy Bektaşinin Tiflis klassik gimnaziyasında dövlət xərci hesabına oxuması üçün lazımi köməklik etmənizi xahiş edirəm” (14).

Naxçıvan da yaranan bu qəza məktəbləri inkişaf etdikcə 1868-ci ildən üç əsas sinifli məktəbə çevrildi. 7-14 yaşlı uşaqların qəbul etdiyi həmin məktəblərin tədris planına şəriət, ana dilindən oxu və yazı, rus dili, hesab, rəsmxətt, nəğmə, gimnastika, coğrafiya, taix və təbətşünaslıq fənləri daxil idi.

Rusiya XMN-nin “İbtidai xalq məktəbi haqqında” 1874-cü il may ayının 24-də nizamnaməsini təsdiq etdi. Bundan sonra Naxçıvan təhsil sistemində ibtidai təhsil müəssisələrində şəhərlə yanaşı kəndlərdə də müsbət genişlənmə inkişaf hiss olunmağa başladı. Qafqaz Tiflis Dairəsi 10 mart 1879-cu il tarixli sərəncamı (15.s, 56) ilə bundan sonra bir çox məktəblər kimi üç sinifli tədris müəssisəsi statusu almış, Naxçıvan qəza məktəbi 1879-cu ildən şəhər məktəbinə çevrildi. (16.s,27) Tədrisin elmi əsaslar üzərində qurulmasında Naxçıvan şəhər məktəbində maarif-ictimai mühitin inkişaf etdirilib genişlənməsində, mütərəqqi demokratik ideyaların yayılmasında 21 iyun 1879-cu ildə tanınmış alim-pedaqoq Konstantin Andreyeviç Nikitin (1832-1894) bu məktəbə müəllim-inspektor təyin olunmasının mühüm əhəmiyyəti oldu. Çünki onun pedaqoji sahədə olan təcrübəsi işinə vicdanla yanaşması kimi keyfiyyətləri ona bu sahədə uğurlar qazandırmışdır. Onun məktəbə rəhbərlik etdiyi dövrdə (21 iyun 1879-18 iyun 1883-cü illər) onunla yanaşı Fyodor Domaşevski, Georgi Uturqauzi, Mirzə Sadıq Qulubəyov, Əli Məmməd Xəlilov, S.P.Zelenski, Mirzə Kazım Qulubəyov və digər tanınmış pedaqoqlar da burada çalışmışlar. Bu zamanının ziyalıları bu məktəbi bitirmiş məzunlar bu dövrü “İşıqlı aləmə ilk addım dövrü” göstərmişlər. Eyni zamanda K.A.Nikitinin bu məktəbə rəhbərlik etdiyi dövrü ziyalılar müsbət qiymətləndirərək “Naxçıvan şəhər məktəbinin dirçəlmə və yüksəliş mərhələsi” kimi səciyyələndirmişlər. Bu məktəbi bitirən məzunlar içərisində gələcəkdə tanınmış pedqoq maarifçi M.T.Sidqi də vardır. Naxçıvan şəhər məktəbinin başqa bir məzunu da Azərbaycanın böyük yazıçısı Cəlil Məmmədquluzadədir. O, məktəbin ibtidai sinfinə daxil olduğu və o illərdə oxuduğu günləri xatırlayaraq söyləyir ki, burada oxuduğu müddət dünyagörüşündə böyük rol oynadığını ciddi tarixi coğrafi məlumatları öyrəndiyini deyir.

XIX əsrin 80-ci illərində yəni Naxçıvanda ilk qəza məktəbləri fəaliyyətə başlayandan maarifçilik ideyalarının yayılması, yeni-yeni məktəblərin təhsil ocaqlarının təşəkkül tapmasına səbəb olmuşdur. Belə ki, bu dövrdə Ordubad və Şərur Dərələyəz qəzalarında yeni kənd məktəbləri yarandı. Bu kəndlərdən 1882-ci ildə Qulubəy-Dizə və Yengicə 1885-ci ildə Yengicə, 1885-ci ildə Yəmxana, 1896-cı ildə Vənənd, Bənəniyar, Mahmudoba, Milax, Biləv, Yayıcı, və Sədərək kəndlərində yeni məktəblər açıldı. Bu kimi uğurların əsasını 12 sentyabr 1876-cı ildə qoyulan (18. S, 18) Zaqafqaziya Müəllimlər Seminariyasinin bu sahədə cox mühüm əhəmiyyəti oldu. Müəllim kadrların sayı artdıqsa xalq təhsilinin və ictimai fikrin inkişafında əvvəlcə yeni abu-hava gətirdi. Maarif tarixində yeni üfüqlər açılmasına səbəb oldu. Naxçıvanda dünyəvi təhsilə meyl güclənmişdir. 1980-ci illərdən başlayaraq XIX əsrin sonlarına qədər həm dövlət hesabına həm kənd ictimaiyyətinin köməyi ilə çoxlu məktəblər açılaraq sayları çoxalırdı. Elmə, maarifə həvəs meyil güclənməyə başlayırdı.

Çarizmin mürtəce siyasət yeritməsinə baxmayaraq XIX əsrin sonunda xalq maarif işi artaraq Naxçıvan qəzasında xalq məktəbləri əsasən XIX əsrin 80-ci illərindən sonra genişlənməyə başladı. Bu məktəblər əsasən Yengicə, Böyük Vedi, Nehrəm, Cəhri, Şahtaxtı, Sədərək, Vənənd, Biləv, Yayıcı kəndlərində fəaliyyət göstərmişdir.

Naxçıvanda bu məktəblərin açılması yerli əhali tərəfindən “böyük izdihama çevrilir” (19. S,108) əhalinin sevincinə səbəb olmuşdur. Bu yeni açılan məktəblərin içərisində 1892-ci ildə açılmış məşhur məllim və pedaqoq Məmməd Tağı Sidqinin “Əxtər” (Ulduz) məktəbin idi. Məmməd Tağı Sidqi dövrünün ən yaxşı məktəbi sayılan “Şah Sultan Hüseyn” mədrəsəsində təhsil almış ərəb fars dillərini mükəmməl öyrənmişdir. Onu yeni açdığı “Əxtər” məktəbi Naxçıvan mühitində çox mühüm hadisə (20. S, 285) kimi qiymətləndirmişlər. O, zamankı ziyalılar məktəb təlim və məzmununa görə ruhani məktəblərindən tamamilə fərqlənir, yeni təlim və tərbiyə üsulları tətbiq edilirdi.

## ƏDƏBİYYAT


1. Hüseyinzadə Ə. Naxçıvan mədrəsələrinə dair bir Elxani fərmanı Azərbaycan Elmər Akademiyasının məruzələri, 1960, XVI cild. №12 s. 1269-1273.
2. Mollayev İ.A. Orta əsr Azərbaycan mütəfəkkirləri təlim-tərbiyə haqqında, Bakı, Maarif, 1996. 304s.
3. Hüseyinzadə Ə. Naxçıvan mədrəsələrinə dair bir Elxani fərmanı Azərbaycan E. A. məruzələri, 1960, XVI cild. №12
4. Hüseyinzadə Ə. Naxçıvan mədrəsələrinə dair bir Elxani fərmanı Azərbaycan E.A. məruzələri, 1960, XVI cild. №12.
5. Atakişiyeva M. Bakı, Dövlət Universitetinin tarixi, Bakı, Bakı Universitei nəş.1991 (I hissə), 364s.
6. Əhmədov H. XIV əsr Azərbaycan məktəbi Bakı, Maarif 1985, 300 s.
7. Məmmədov V. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu Bakı, Çənlibel nəşriyyatı, 2001, 220 s.
8. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi Bakı: Maarif, 1985, 300 s.
9. Naxçıvanda ilk məktəb və təhsilin inkişaf yolu, Şərq qapısı qəzet, 1998, 28 avqust, N 56 (16673).
10. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi Bakı: Maarif, 1985, 300 səh.
11. NMR MDA, f. 224 siy. 5 inv №173
12. Əhmədov H.XIX əsr Azərbaycan məktəbi Bakı, maarif 1985. səh.300
13. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri, Bakı: Azərnəşr 1997 s.684.
14. Naxçıvanda ilk məktəb və təhsilin inkişaf yolu, Şərq qapısı qəzeti, 1998, 28 avqust, №56 (16 67 3).
15. Şərif Ə. Molla Nəsrəddin necə yarandı, Bakı: Azərnəşr 1986, 394 s
16. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi Bakı, maarif 1985. səh.300
17. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri, Bakı: Azərnəşr
18. Əhmədov H. Azərbaycan məktəb və pedoqoji fikir tarixi, Bakı: ABU, 2001, 320 s.
19. Əhmədov H.XIX əsr Azərbaycan məktəbi Bakı, maarif 1985. səh.300
20. Əhmədov H.XIX əsr Azərbaycan məktəbi Bakı, maarif 1985. səh.300



## ABSTRACT
## FORMATIONS OF MEDRESE IN NAKHCHIVAN REGION, PUBLIC EDUCATIONAL INSTITUTIONS AND EDUCATION SYSTEM

Pedagogical ideas, public education and school education in Azerbaijan of the 19th century also entered the history of scientific and social thought as a special period. Important steps were taken in the early decades of this century to take important steps. The development of public education in Azerbaijan has entered a new phase. At the same time, the steps taken to open state schools attracted the attention of an important social and cultural phenomenon. Replacing old-fashioned religious schools and madrasas with educational institutions of the new type became the basis for the idea of teaching the native language.

Finally, it should be said that the foundation will be laid for the creation of the intelligentsia in Azerbaijan, which had a new style of thinking. At the beginning of the XIX century, in addition to new madrasas in Azerbaijan, a foundation of new schools was founded. In the 80s of the 19th century, when the first national schools began in Nakhchevan, the dissemination of ideas of education led to the formation of new schools.



## РЕЗЮМЕ
## ОБРАЗОВАНИЯ МЕДРЕСЕ В НАХЧЫВАНСКИЙ ОБЛАСТИ, НАРОДНЫЕ ОБРАЗОВАТЕЛЬНЫЕ УЧРЕЖДЕНИЯ И СИСТЕМА ВОСПИТАНИЯ

Педагогические идеи, народное воспитание и школьное образование Азербайджана XIX века также вошли в историю научно-общественной мысли kak особый период. Важные шаги были предприняты в первые десятилетия этого столетия, чтобы предпринять важные дела. Развитие народного образования в Азербайджане вступило в новый этап. В то же время предпринятые шаги по открытию государственных школ привлекли внимание kak важное общественное и культурное явление. Замена старомодных религиозных школ и медресе образовательными учреждениями нового типа стала основой идеи преподавания родного языка.

Наконец, следует сказать, что будет заложена основа поколения интеллигенции в Азербайджане, которая имела новый стиль мышления. В начале XIX века, помимо новых медресе в Азербайджане, был основан фонд новых школ. В 80-х годах 19-го века, когда начались первые национальные школы в Нахчеване, распространение идей просвещения привело k образованию новых школ.

**ŞƏRƏBANI MƏMMƏDOVA**
*Naxçıvan Dövlət Universiteti*
*sherebani@gmail.com*

# NAXÇIVANLI ŞAİR VƏ YAZIÇILARIN YARADICILIĞINDA HEYDƏR ƏLİYEV OBRAZI

**Açar sözlər**: *Azərbaycan, Heydər Əliyev, bədii obraz, poeziya, "Heydərnamə"*
**Key words:** *Azerbaijan, Heydar Aliyev, the artistic image, poetry, "Heydar-name*
**Ключевые слова:** *Азербайджан, Гейдар Алиев, художественный образ, поэзия, "Гейдар-наме"*

Dövlət başçısının və ya xalqı, vətəni qarşısında böyük xidmətləri olan şəxsiyyətlərin milli poetik ənənədə tərənnümünə hər dövrdə rast gəlinir. Qədim türklərin mifoloji əcdadı Oğuz xandan üzü bəri bütün dövrlərdə böyük şəxsiyyətlər ədəbiyyatın mövzusu olub, xalq məhəbbəti, el sevgisi öz ifadəsini bədii formada tapmışdır. "Dövlətçilik təfəkkürü güclü olan xalqın təsəvvüründə mütləq real hökmdar obrazı ən müxtəlif tərəfləri ilə özünə yer tutmalıdır. Bu baxmdan XX əsrdə Azərbaycan xalqının yetirdiyi dahi şəxsiyyətlərdən biri, bəlkə də birincisi Heydər Əliyevin obrazının bədii ədəbiyyatda əksi təbii və qanunauyğundur. Onun nurlu şəxsiyyəti, dahiyanə dünyagörüşü, mənalı ömür yolu tarixin simasında Azərbaycan xalqının hər zaman öz nuruna qərq edir. Xalqın və dövlətçiliyin hər sahəsində bu dahi insanın izlərini görürük. Ümummilli liderimizin xalqın taleyindəki bu rolu ədəbi aləmdə özünün saysız poetik ifadəsini tapmışdır. Siyasi lirikanın nümunələri kimi xalqın əli qələm tutan, söz qoşa bilən hər nümayəndəsinin qələm təcrübələri ilə yanaşı, əsl sənət nümunələri də az deyil.

Ədəbi aləmdə geniş yayılmış, epik təfəkkürlə lirik düşüncənin sintezi olan poema janrı belə bir obrazın yaradılmasına imkan vermişdir. Ümumi mənada bu cür poemaları Heydərnamə hesab etmək olar. Xalqın qədim dövrlərdən bəri təfəkküründə yaratdığı bədii-fəlsəfi məzmunlu dövlət və millət başçısı obrazı Azərbaycan ədəbiyyatında yaranan "Heydərnamə"lərə xas bir əlamətdir. Siyasi təfəkkürlə bədii düşüncənin vəhdətindən yaranan, "Böyük Şəxsiyyət"ə dərin inamın məhsulu olan bu poetik nümunələrin yaranmasının ədəbiyyat tariximizdə möhtəşəm təcrübəsi vardır.

Dahi öndərin ədəbi aləmdə ilk poetik obrazının yaradılması 1970-ci illərə təsadüf edir. Əliağa Kürçaylının "Adi adam", 1980-ci ildə yazdığı "İnam" poemaları, Şairə Mirvarid Dilbazinin 1974-cü ildə yazdığı "Şücaətli əzizim", Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, əməkdar mədəniyyət xadimi, ustad sənətkar Aşıq Əhmədin, Aşıq Şəmkirin yaradıcılığında möhtərəm Heydər Əliyevə, onun respublikanın həyatında tutduğu mövqeyi, geniş və çoxsahəli fəaliyyətinə həsr olunmuş mükəmməl poeziya nümunələri bu sahədə atılan ilk addım sayıla bilər.

Sovetlər dönəmində ümummilli liderin SSRİ-nin qızıl ulduz ordeni ilə təltlif olunması (1980-ci il) ədəbi aləmdə əks-səda doğurmuş, bir çox sənətkarlar bu hadisənin poetik təsvirini vermişlər.

Ümummilli liderin poetik obrazının yaradılması Azərbaycanın müstəqilliyi dövründə daha da mütəşəkkil xarakter almışdır. Məlum tarixi hadisələr nəticəsində Siyasi Bürodan uzaqlaşdırılan Heydər Əliyev 20 Yanvar faciəsindən sonra Azərbaycana – doğma Naxçıvana qayıtdı. Naxçıvanda Nehrəm kəndinin sakinləri tərəfindən namizədliyi irəli sürülən Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinə deputat seçiləndən sonra ona qarşı qərəzli siyasi təhqir və təbliğat kompaniyası başladıldı. Qara qüvvələr qarşısında xalqın müdrik rəhbərini qoruyan, onu müdafiyə edən məhz Heydər Əliyevin bir zamanlar qoruduğu şairlər, xüsusən Bəxtiyar Vahabzadə olmuşdu. Şair Azərbaycan Respublikası Ali Sovetin 1991-ci il fevral sessiyasında etdiyi çıxışla ədəbiyyat nümayəndələrinin – ümumən xalqın Heydər Əliyevə olan münasibətini ifadə edirdi. Çox təəssüf ki, dahi öndərə qarşı təşkil edilmiş bu qərəzli gözdənsalma kompaniyasında xalq yazıçısı Bayram Bayramov da vardı. Ona qarşı parlamentdə aparılan hücum kompaniyasında ziyalıların – ədəbiyyat xadimlərinin iki cəbhədə dayanması tədqiqatçıların diqqətini cəlb edirdi (1, s.58).

Ümummilli liderin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi vaxtdan bəri qələm sahibləri böyük bir siyasi qüvvənin mövcudluğunu duyur, öz müdrik rəhbərini, xilaskarını onun simasında tapır, ona üz tutur, bu duyğunu poetik deyim tərzi ilə ifadə edirdilər. Ümummilli lider hələ Naxçıvan Ali Məclisinin sədri işləyərkən bir çox ziyalılar Naxçıvana – onun görüşünə gəlirdilər. Bu proses ədəbiyyatda Heydər Əliyevə həsr olunmuş şeirlərin yaranmasına təkan verirdi. Sənətkarlar ilahi bir duyumla xalqı Qorqud müdrikliyi ilə birləşdirəcək səxsi tərənnüm edirdilər. 90-ci illərdə Azərbaycan poeziyasında ağrı-acı, ümidsizlik notları ilə birlikdə rəhbərə səsləniş, çağırış motivləri də güclü idi.

Qarabag dərdi, düşmənin – mənfur erməni qəsbkarlarının torpaqlarımızı qəsb etməsi, xalqın başına gələn faciələr, geniş miqyaslı siyasi oyunların məngənəsində sıxılan Azərbaycan xalqı – onun söz adamları, şairləri ulu qüdrət, Qorqud xislətli ağsaqqal axtarır, bunu Heydər Əliyevin simasında tapırdılar.

Tarixi hadisələrin gedişindən hamıya məlumdur ki, "xalqın iradəsi hər şeyə qalib gəldi və müstəqil Azərbaycan öz nicatını görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışında tapdı" (2, s.12). İctimai-siyasi hadisələrin dəyişməsi – "xalqın müdrik oğlu"nun Bakıya qayıdışı, xalqı bəladan, ölkəni parçalanmaqdan qurtarması, vətəndaş müharibəsinə sürüklənən ölkədə daxili sabitliyin yaranması poeziyada özünün çoxsaylı ifadəsini tapmışdır. Bu nümunələr Heydər Əliyev şəxsiyyətinə müxtəlif prizmalardan əks etdirmək baxımından maraq doğurur. Zaman keçdikcə dahi öndər haqqında iri həcmli əsərlər, poemalar yaranmağa başladı. Azərbaycan ədəbi prosesinin tərkib hissəsi kimi Naxçıvan ədəbi mühitiə mənsub sənətkarların yaradıcılığında bu məsələlər ana mövzuya çevrilmiş, bir-birindən dəyərli əsərlər meydana gəlmişdir. Şair publisist Hüseyn Razinin "Minacat" şeiri. Elman Həbibin "Həqiqət günəşi" (1998), Ələddin Eyvazın "Xilaskar" (1998), Həmid Arzulunun "Heydərnamə" (1990-2004, "Şərq qapısı" qəzetinin keçirdiyi müsabiqədə birincilik qazanmışdır.), Əbülfəz Ülvinin "Heydər baba nəğməsi"(2006), Mərkəz Qacarın "Ümid"(2003) və s. poemalarında Heydər Əliyevin keşməkeşli ömür yolundan, dövlətçiliyimiz uğrunda apardığı fədakar mübarizədən bəhs olunur, müxtəlif ədəbi priyomlarla təsirli və inandırıcı təsvirlər yaradılır, ümummilli liderin parlaq obrazı canlandırılır. Bu poemalar görkəmli şəxsiyyət haqqında yazılmış mükəmməl sənət əsəri kimi mühüm əhəmiyyət kəsb edir.

Bu poemalar içərisində Elman Həbibin "Heydərnamə"si daha mühüm yer tutur. Görkəmli alim, akademik İsa Həbibəyli bu poema haqqında qeyd edirdi: "Böyük şəxsiyyətə qlobal baxışla ümummilli yanaşmanın vəhdəti, təbiilik və gerçəkliyə sədaqət Elman Həbibin əsərini "Heydərnamə"lərin ön sırasına çıxardır. Bu poema Azərbaycan dövlətçiliyinə və müstəqil dövlətin qüdrətli liderinə baxışda Elman Həbibin mövqeyini ifadə edən kamil bədii əsər kimi mühüm əhəmiyyət kəsb edir" (3).

Milləti, xalqı üçün bu dünyayla döyüşdü,
Bir an rahat olmadı, qışla yayla döyüşdü.
Mat etdi bu dünyanın çox adlı ölkəsini,
Onda dünya eşitdi Azərbaycan səsini.(4, s. 38)
Yaxud:
Onun qüdrət dalğası batırdı çox gəmini,
Tapdı, bu xalqda tapdı həmişə həmdəmini.
Bir xalqın öz adından sinəsini qabartdı,
Yenə də pis günündə onun dadına çatdı.
Ona görə tanındı, millətim çıxdı üzə,
Azadlığın yolunu seçib göstərdi bizə (4, s.177).

Heydər Əliyevə həsr edilmiş dəyərli sənət nümunələri içərisində şairə Mətanət Hüseynxanqızının "Tac günəşim" adlı poeması diqqəti daha çox cəlb edir. Poemaya ön söz yazan filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərov əsəri "Azərbaycannamə" adlandırır ( 5, s.4). Doğrudan da Azərbaycan xalqının keçdiyi yola qısa nəzər salan şairə nəhayətdə Qarabağ dərdlərini, 20 Yanvar, Xocalı faciələrini xatırlayır, blokada vəziyyətində Naxçıvanın mübarizəsindən söhbət açır, bu qədər ağrı-acılar içərisində vətənin səmasında tac günəşinin doğacağına dərin və sarsılmaz inam ifadə edir. Dağılmaqda, parçalanmaqda olan Azərbaycanın dərtlərinə ilahi bir qüdrətə malik şəxsin – Heydər Əliyevin simasında məlhəm qoyulduğunu oxucu diqqətinə çatdırır:

Diplomatik uğurları tərəqqimi bir yol açdı,
Atəşkəslə anaların göz yaşına məlhəm oldu.
Heydərimlə bayrağımız Avropada işıq saçdı,
Azərbaycan səmasında tac günəşim olub, durdu,
Tac günəşim, o, Heydərim, bir yenilməz dövlət qurdu(6, s. 20).

Rusiya federasiyasının Novosibrsk şəhərində yaşayan Mirkazim Seyidovun ona yaxın kitabı ümumilli liderimizə və onun davam etdirilən siyasətinə həsr olunmuşdur. "Dahi", "Bir medalın iki üzü", "Yaşayır Heydər ata", "İnamla, İlhamla sabaha doğru" "Sənə nəğmə qoşuram, mənim günəşli və dağlı ölkəm" və s. kitabları Azərbaycanı məhv olmaqdan xilas edən Heydər Əliyevə və onun davamçılarına rəğbət və etiqadın məhsuludur:

Sən ölməz dühasan, yaşayır səsin,
Tarixi nöqtəsən, zaman söyləsin.
Bəşər də acizdir, daha neyləsin,
Sığışan deyildir dünyaya Heydər,
Alnına yazılmış əbədi zəfər (5, s.15).

Bu haqda yazan filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərov bu kitabları türk ruhlu, Azərbaycan ruhlu "Şahnamə" yazmaq yolunda ilk uğurlar hesab etsə də, klasik məzmunlu "Şahnamə"dən fərqli olaraq "Heydər Əliyev adına "Azərbaycannamə" adlandırmışdır: "Şair Mirkazım Seyidovun kitabındakı şeirlər bir şairin bir hökmdara mədhlərindən ibarət deyil. Bu şeirlər "Dədəm Qorqud kitabı"ndan üzü bəri Azərbaycan söz sənətində qüdrətli şəxsiyyət axtarışlarının məntiqi yekunudur" (5, s.15).

Maraq doğuran nümunələrdən biri də Hüseyn Razinin "Minacat" şeiridir. Şeir çox maraqlı bir formada yazılmışdır. Orta əsrlər Şərq ədəbiyyatının janrlarından olan minacat allahın tərifi verilən şeir parçasına deyilirdi. Bu şeirdə klassik xalqın üzləşdiyi faciələr, "Olum ya ölüm" dillemması qarşısında ulu öndər zamanın sahibinin axtarışları öz əksini tapmışdır. "Cəhənnəm yerdədir ya rəb, bəşər qıl körpünün üstə" - deyə haray qoparan şair tanrıya müraciət edir:

Bizə bəxş etdiyin dünya əcəllə çarpışan xəstə,
Baxışlar yol çəkir, ya rəb, göz həsrətdə qulaq səsdə,
Bütün sözlərdə ahlarda - bizə bir qeyrətli öndər,
İlahi qalmışıq darda, zamanın sahibin göndər (7 s.124-125).

Naxçıvan Yazıçılar Birliyinin sədri Asim Yadigarın, şair - dramaturq Həsənəli Eyvazlının yaradıcılığında ulu öndərin misilsiz xidmətləri tərənüm olunmuşdur. Yüksək pafosla yazılmış "Azərbaycan dünyaya günəş kimi doğacaq" adlı şeirində Asim Yadigar vətənə, millətə və onun öndərinə sonsuz məhəbbət və inamı poetik dillə tərənnüm etmişdir.

Görkəmli dövlət xadiminin 2003-cü ildə vəfatı ilə əlaqədar qələmə alınmış çoxsaylı bədii nümunələr də diqqəti cəlb edir. Belə əsərlərdə Heydər Əliyev şəxsiyyətinin əzəməti, əvəzsiz xidmətləri qarşısında baş əyən sənətkarların poetik düşüncələri əks olunmuşdur. Vaqif Məmmədovun "Getdi əbədiyyət dünyasına o!" şeirində rəhbərə dərin məhəbət və sarsılmaz inamdan formalaşan el sevgisi, onunu yoxluğunun oyatdığı ağrı özünün dolğun bədii təcəssümünü aşağıdakı misralarda tapmışdır:

12 dekabr döndü bir selə
Dünyadan o boyda dağı itirdi.
O gün Klivlentdə qopan zəlzələ,
Azərbaycan boyda matəm gətirdi.

Xəbər nə tez çatdı obaya elə…
Toy - büsat matəmə döndü bir anlıq.
Bir kərə yüksələn bayraqlar belə,
Bu ağır qüssədən endi bir anlıq.

Namərdi olan xalq, mərdi olan xalq,
Dəfninə gül çiçək gətirib bu gün.
Köksündə Qarabağ dərdi olan xalq
Ən böyük oğlunu itirb bu gün(8, s.51).

Görkəmli ədəbiyyatşünas alim Hüseyn Həşimli dahi rəhbərin itgisindən doğan belə nümunələri təhlil edərkən "mərsiyə ənənələrindən gələn müəyyən əlamətlərin qalması ilə yanaşı elegiya üçün xas olan kədərin koseptuallığı, insan - zaman, həyat - ölüm münasibətlərinin fəlsəfi mediativ dərki və yozumu" kimi dəyərləndirmişdir (9, s.45). Bu mövzuda yazılmış çoxsaylı nümunələrə nəzər saldıqda görürük ki, xalqın qəlbində özünə əbədi abidə ucaltmış, əbədiyaşarlıq qazanmış görkəmli dövlət xadiminin cismani ölümü ilə mənəvi ölümsüzlüyü qarşılaşdırılır, ölümün gücsüzlüyünə daxili bir inam ifadə edilir.

Ulu öndər Heydər Əliyevin obrazına nəsr nümunələrinə də rast gəlinir. Belə nümunələr içərisində diqqətimizi cəlb edən naxçıvanlı yazıçı Fərəc Fərəcovun "Aydın sabahlar" əsəridir (10). Əsərdə Azərbaycanın müstəqilliyinin ilk illəri, bu illərdə yaranan anarxiya, xaos, hərcmərclik və özbaşınalıq, bunlardan yaranan ağır vəziyyət təsvir edilir. Xalqın nicat yolu "Aydın sabahlar"a çıxması isə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsi ilə şərtlənir. Həmid Arzulunun "Qara xəncər" romanında 70-80-ci illərin ictimai-siyasi mənzərəsinin fonunda milli şüurun, istiqlal ideyalarının genişlənməsi, Azərbaycanda, o cümlədən Naxçıvanda gedən gərgin siyasi proseslər təsvir olunan bu əsərdə bütün proseslərin mərkəzində Heydər Əliyev obrazı durur. Əsərdə köhnə kommunist Zeynal Əlizadənin dilindən "Bizim şah İsmayılımız var, oğul, onu hakimiyyətə gətirmək siyasətimiz yoxdur" deyərək Heydər Əliyevə işarə edir(11, s. 211). Mitiq iştirakçılarının dilindən "O Moskvadadır. İnşallah gələr"(11, s. 223) çağırışı ilə xalqın yeganə ümid yeri Heydər Əliyev işarə edilir.

Naxçıvanlı dramaturq Adil Babayevin ulu öndərin ikinci dəfə hakimiyyətə gəlməsindən bəhs edən "Koroğlunun Çənlibelə qayıdışı" pyesi Naxçıvan Dövlət Musiqili Dram Teatrında 2008-ci ildən bəri fasiləsiz göstərilir. Əsərdə Koroğlu dönəmindəki adamlar müasirləşdirilərək 92-93-cü illərə gətirilir. Onlar ölkəni

xaosda saxlamaq istəyir. Dönüklərin ruhuna bələd olan rəhbərlik onların hərəsinə bir vəd verərək Azərbaycanın xilaskarının (əsərdə Koroğlunun) əleyhinə çevirir. Elə bu vaxt Koroğlunun şaqraq səsi eşidilir:

Başsızmı sən gördün Azərbaycanı?!
Əlini kəsərəm yerini tanı (12, s. 48)!

Xilaskarın gəlişi ilə hər şey öz qaydasına düşür xalq rahat nəfəs alır. Əsərin əvvəlində Babəkin ruhu qəhrəmanlığa, Şah İsmayılın vətən və millətsevərliyə, Atatürkün səbr və müdrikliyə çağırdığı ulu öndər sınaqlardan qalib çıxır. Dədə Qorqud ona "Oğuz liderin adı qoyur. Müqəddəs üç ruh (Babək, Şah İsmayıl və Atatürk) xilaskarı təbrikə gəlirlər. Ulu öndər yüksək bir yerə çıxaraq uca səslə deyir:

Eşidin siz məni, müqəddəs ruhlar,
Eşitsitı sözümü bütün insanlar!
Bu gündən vətənim mərd Azərbaycan,
Yazacaq tarixə yeni bir dastanı(12,s. 65 ).

Ulu öndərə həsr olunmuş iri həcmli bədii nümunələrə Elman Həbibin, Rəhilə Elçinin, Həmid Arzulunun "Heydərnamə", Kəmalə Ağayevanın "Nurun yayılıbdır bütün dünyaya", Elxan Yurdoğlunun "Yolu var olanın özü daim var olur" və s. əsərlərdə ulu öndərə xalq məhəbbəti, el sevgisi öz ifadəsini bədii formada tapmışdır. İnanırıq ki, ümummilli liderin həyatı və fəaliyyəti hələ neçə - neçə ədəbi - bədii əsərlərin mövzusu olacaq, bu ali insanın parlaq, şəxsiyyəti kimi dəyərli və ölməz obrazlar Azərbaycan ədəbiyyatını bəzəyəcəkdir. Bu mövzu da neçə - neçə tədqiqat əsərlərinin predmeti olacaq, gələcək tədqiqatçılar tərəfindən araşdırılacaqdır.

## ƏDƏBİYYAT


1. Səmədov A.Q. Böyük siyasətin təntənəsi, Bakı: OSKAR, 2004, 314 s.
2. Qayıdış. 1990-1993 / Məsləhətçi və buraxılısa məsul V.Talıbov), Bakı: Azərbaycan, 1996, 792 səh.
3. Həbibəyli İ.A. Qısametrajlı ömrün filmi, 525-ci qəz., 2011, 12 may
4. Elman Həbib. Heydərnamə, Bakı: Şirvannəşr, 2008, 198 s.
5. Cəfərov İ.Z. Heydər Əliyev adına yazılmış Azərbaycannamə, / M.Seyidov. İnamla, İlhamla sabaha doğru. (ön söz) Bakı, Adiloğlu, 2003, 214s.
6. Hacıyeva M. H. Tac günəşim, Naxçıvan, Nurlar, 2002, 103s.
7. Razi H. Gözün aydın, Bakı, Azərnəşr, 1996, 232s.
8. Ürəklərdə ucalan abidə Bakı: Nurlan 2004, 412 s.
9. Həşimli. H. M. Avropa lirik janrları və Azərbaycan ədəbiyyatı, Bakı: Elm və təhsil, 2009, 444 s.
10. Azərbaycan qəzeti, 2001, 23 noyabr
11. Azərbaycan qəzeti, 1997, 25 fevral
12. Babayev A. Koroğlunun Çənlibelə qayıdışı, Bakı, MSN - poliqrafiya, 2010. 96 s.



## ABSTRACT

**Sharabani Mammadova**

**IMAGE OF HEYDAR ALIYEV IN CREATING SCREAMED SINGS AND WRITERS**

The article analyzed art samples dedicated to the nationwide leader of the Azerbaijani people Heydar Aliyev. It found its objective reflection of the thoughts on literary examples of poetic, prosaic and journalistic supporters. And she emphasizes that the touches to the artistic portrait of the great leader in the works of Huseyn Razi, Elman Habib, Asim Yadigar, Hamid Arzulu, Hassan Ali Eyvazli and others.



## РЕЗЮМЕ

**Шарабаны Мамедова**

**ОБРАЗИ ГЕЙДАР АЛИЕВА В СОЗДАНИИ НАХЧИВАННОГО ПОЕТ И ПИСАТЕЛЕЙ**

В статье проанализированы художественные образцы, посвященные общенациональному лидеру азербайджанского народа Гейдара Алиеву. В ней нашли свое обьективное отражение мысли по литературным образцам поэтицеского, прозаического и публицистическогожанров. И ней подчеркиваются,что штрихи k художественному портрету великого лидера в творчествах Гусейн Рази, Эльман Хабиб, Асим Ядигар, Хамид Арзулу, Хасан Али Эйвазли и другие.

**TALEH XƏLİLOV**
*Naxçıvan Dövlət Universiteti*
*x.taleh@gmail.com*

# MUXTARİYYƏT DÖVRÜNDƏ NAXÇIVANDA MÜƏLLİM KADRLARININ HAZIRLIĞI

**Açar sözlər:** *Naxçıvan, muxtariyyət, təhsil, məktəb, müəllim, kadr*
**Key words:** *Nakhchivan, autonomy, education, school, teacher, staff*
**Ключевые слова:** *Нахчыван, автономия, образование, школа, учитель, персонал*

Muxtariyyətin ilk dövrlərində Naxçıvan bölgəsində müəllim kadrlarının çatışmazlığı məktəb təhsilinin inkişafına da təsir etmişdir. Müəllim kadrlarının yoxluğu sovet hakimiyyətinin ilk illərində pedaqoji təhsili olmayan, ancaq müəyyən savada malik şəxsləri məktəblərə cəlb etməyə məcbur edirdi. Ona görə də qısa müddət ərzində pedaqoji kadrların hazırlanması məsələsi partiya-sovet orqanlarının qarşısında duran əsas vəzifələrdən birinə çevrilmişdir.

Qeyd edək ki, Naxçıvanda müəllim kadrlarının hazırlığında ana dili məktəblərinin (“Əxtər” və “Məktəbi-tərbiyə”), dünyəvi məktəblərin (şəhər və kənd məktəbləri), Tiflis şəhərində 1886-cı ildə əsası qoyulmuş Alekssandrovski Müəllimlər Məktəbinin, 1881-1882-ci illərdə fəaliyyətə başlamış İrəvan Müəllimlər Seminariyalarının (1, s. 97), 1881-ci ildə açılmış İrəvan Oğlan Gimnaziyasının (11, s. 73), 1884-cü ildə fəaliyyətə başlamış İrəvan Qız Gimnaziyasının (18, s. 37) və 1920-ci ildə açılmış İrəvan Pedaqoji Texnikumunun (9, s. 105) böyük rolu olmuşdur.

Yuxarıda göstərilən dövrdə Naxçıvanda müəllim kadrlarının hazırlığına və inkişafına Qori şəhərində fəaliyyət göstərmiş Qori Müəllimlər Seminariyası da təsir etmişdir. Lakin, bu seminariyada Naxçıvan bölgəsinin müəllim kadrlarına olan ehtiyacını tam ödəyə bilməmişdi. Ona görə ki, seminariyada təhsil alan azərbaycanlıların sayı az olmuşdur.

Qeyd edək ki, 1920-ci ilə kimi keçən 50 il ərzində Qafqazda 262 nəfər azərbaycanlı müəllim hazırlanmışdı ki, bunun da 63 nəfəri İrəvan Müəllimlər Seminariyasından məzun olmuşdur (1, s. 148).

İrəvan Müəllimlər Seminariyasına oxumağa gələn azərbaycanlı uşaqları çox çətinliklə qəbul edirdilər. Arxiv sənədlərinin birində bu barədə deyilirdi: “Bir müsəlman uşağı gəlib ərizə verərdi ki, mən istəyirəm seminariyaya girəm, cənab Miropyev (seminariyanın direktoru) əyilib diqqət ilə baxırdı cavanın üzünə və ərizəsini qaytarıb verərdi və deyərdi: bala, səni götürə bilmərəm, ondan ötrü ki, qaşın qaradır” (4, v. 17).

Muxtariyyətin ilk dövrlərində Naxçıvanda müəllim çatışmazlığının aradan qaldırılmasında 1919-cu il noyabr ayının 15-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin səyi və köməkliyi ilə açılmış Bakı Dövlət Universitetinin və 1921-ci il avqust ayının 26-da fəaliyyətə başlamış Ali Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti-T.X) da çox böyük rolu olmuşdur.

Onu da qeyd edək ki, Xalq Maarif Komissarlığı (XMK) müəllim kadrlarının hazırlığı üçün təcili təxirəsalınmaz tədbirlər görmək məqsədilə bölgələrdə pedaqoji kursların açılması layihəsini də hazırlamış, 6 iyun 1920-ci il tarixli sərəncamı ilə kursların açılması rəsmi şəkildə təsdiq olunmuşdur (5, s. 35). Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin xalq maarifi fondunda saxlanılan sənədlərdən məlum olur ki, 1920-1921-ci tədris illərindən başlayaraq ümumtəhsil məktəbləri ilə yanaşı bir sıra kurslar, tibb və texniki peşə məktəbləri və pedaqoji texnikumlar da fəaliyyət göstərmişdir (14, s. 12). Bütün bu məktəblərdə tədqiq olunan dövrdə müxtəlif sahələrdə fəaliyyət göstərəcək ixtisaslı kadrlar hazırlanmışdı.

Muxtariyyət dövründə Naxçıvan bölgəsində müəllim çatışmazlığını aradan qaldırılmasında üç aylıq kurslar da müəyyən rol oynamışdır. Belə kurslardan biri ilk dəfə olaraq 1921-ci ildə Xalq Maarifi Komissarlığının nəzdində 35 nəfərlə fəaliyyətə başlamışdır. Bakı şəhərində fəaliyyət göstərən kurslarda təhsil almaq üçün bölgələrdən (Gəncə, Qazax, Şamaxı, Şəki, Şirvan Quba, Naxçıvan və başqa şəhərlərdən-T.X) müdavimlər göndərilirdi.

Qeyd edək ki, ayrı-ayrı sahələrdə çatışmayan kadrlara olan ehtiyacın ödənilməsində Rusiya, Türkiyə, Tatarıstan və Orta Asiya Respublikalarının böyük mədəniyyət mərkəzlərində olan təhsil müəssisələrinin xidmətləri də az olmamışdır.

Muxtariyyət dövründə Azərbaycan və onun bölgələrində müəllim kadrlarının hazırlığı məsələləri Azərbaycan müəllimlərinin I (1906), II (1907) və ayrıca olaraq Naxçıvan müəllimlərinin I (1922) qurultaylarının gündəliyinə çıxarılmış və müzakirə olunmuşdu. Bu qurultayda müəllim kadrlarının hazırlığı

və ixtisaslarının artırılması məsələsinə toxunulmuş, müəllim hazırlayan müəssisələrin sayının artırılması məqsədilə əlavə kursların açılması lazım bilinmiş və Azərbaycan müəllimlərinin ittifaqını yaratmaq məsələsi qarşıya qoyulmuşdu (2, s. 28).

Xüsusən də, 1922-ci il avqust ayının 28-də Naxçıvan şəhərindəki teatr binasında keçirilmiş Naxçıvan Müəllimlərinin I qurultayında da Naxçıvanda müəllim çatışmazlığı müzakirə çıxarılmış və 1 noyabr 1922-ci ildən etibarən Naxçıvan Müəllimlər Seminariyası açılması haqqında qərar qəbul olunmuşdur (7, s. 42). Müəyyən maddi-texniki baza yaradıldıqdan bir neçə ay sonra seminariya fəaliyyətə başlamışdı. Qeyd edək ki, bu seminariya (Naxçıvan Müəllimlər Seminariyası-T.X) Naxçıvanın gələcək kadr hazırlığında çox mühüm rol oynamışdı.

Naxçıvan Müəllimlər Seminariyasına Xəlilağa Hacılarov ilk direktor, Əbdüləzim Rüstəmov isə köməkçi və coğrafiya müəllimi təyin olunmuşlar. Mənbələrdə seminariyanın müəllimləri arasında Həsən Səfərovun, Əbdüləzim Rüstəmovun, Həsən Qazıyevin, İbrahimxəlil Axundovun, Əli Xəlilovun və başqalarının da adları çəkilirdi (12, s. 10).

Muxtariyyət dövründə Naxçıvanda müəllim kadrlarının hazırlanmasında Texnikumların da böyük rolu olmuşdur. Naxçıvan Müəllimlər Seminariyası bir il fəaliyyət göstərdikdən sonra 1923-1924-cü tədris ilində pedaqoji Texnikuma çevrilmişdi. Müəllim kadrlarının hazırlanmasında Naxçıvan Pedaqoji Texnikumu böyük rol oynamış və öz məzunları ilə şöhrət tapmışdır. Bu gənclər sonralar Azərbaycanda ictimai-siyasi fikrin və xalq maarifinin inkişafında mühüm rol oynamışlar.

Qeyd edək ki, Texnikum 1923-cü ilin dekabr ayının 15-də Ordubad şəhərinə köçürülmüşdü (6, s. 43). Texnikumda pedaqoji şura, metodiki təşkilatlar, tələbə komitəsi və müxtəlif fənn dərnəkləri də fəaliyyət göstərmişdir. Naxçıvan Pedaqoji Texnikumun ilk buraxılışında 18 nəfər məzun müəllimlik diplomu alaraq Naxçıvan Muxtar Respublika məktəblərində pedaqoji fəaliyyətə başlamışdı. Bunların sırasında Zəngilandan Əkbər Abbasovun, Vedibasardan Abdulla Kərimovun, Eynalı Əlizadənin, Ordubaddan Mirəhməd Seyidzadənin və Mirmehdi Seyidzadənin, Naxçıvandan Əkbər Fərəcovun, Əli Fərəcovun, Əli Axundovun, Aqil Mirişlinin, Kazım Talıbovun, Nemət Novruzovun, Əbdüləli Tahirzadənin, Səməd Seyidlinin və başqalarının adlarını çəkmək olar.

Muxtariyyət dövründə Naxçıvanda müəllim hazırlığının digər forması naxçıvanlı gənclərin Azərbaycanın və SSRİ-nin ali məktəblərinə göndərilməsi olmuşdur. Belə ki, 1922-1923-cü tədris ilində 110 nəfər gənc müxtəlif ali məktəblərə göndərilmiş və təqaüdlə təmin olunmuşdur. Onların əksəriyyəti isə fəhlə və kəndli uşaqlarından ibarət olmuşlar. Bu tələbələrdən İbrahim Qədimovun, Qəzənfər Vəkilovun, Abbas Qasımovun, Cəlil Rəhimovun və Kərim Səfiyevin (13, s. 105) adlarını çəkmək olar.

Mənbələrə nəzər salsaq, onda görərik ki, 1913 - 1914-cü tədris ilinə nisbətən Naxçıvanda müəllimlərin sayı 1924 - 1925-ci tədris ilində 125,4% (16, v. 14), 1925-1926-ci tədris ilində isə 171,4% (10) artmışdır. Qeyd edək ki, Naxçıvanda çalışan müəllimlər arasında 1913-1914-cü tədris illərində 0,4% (8, s. 12), 1925-1926 - cı tədris illərində isə 76,2% (17, s. 35) azərbaycanlı olmuşdur.

Professor İbrahim Mollayevin məlumatlarına görə 1921 - 1922-ci tədris illərində Naxçıvanda 86 nəfər (onlardan 2 nəfəri qadın idi - T.X), 1924-1925-ci tədris illərində isə 154 nəfər (4 nəfəri qadın idi-T.X) müəllim pedaqoji fəaliyyətlə məşğul olmuşdu (13, s. 105).

XX əsrə aid yazılmış mənbələrin birində 1927 - 1928-ci tədris ilində Naxçıvanda 8 nəfəri qadın olmaqla 140 nəfər türk müəlliminin çalışdığı da göstərilmişdi (10).

Qeyd edək ki, 1928-1929-cu tədris ilində Naxçıvan bölgəsində 11 nəfər türk qadın, 110 nəfər isə türk kişi müəllimi (15, v. 9), 64 nəfər qeyri - türk kişi, 28 nəfər isə qeyri - türk qadın müəllimi (3, v. 19) hazırlanmışdı.

Onu da qeyd edək ki, muxtariyyətin ilk dövrlərində Naxçıvan bölgəsindəki dövlət məktəblərində çalışan müəllimlərə Rusiyanın dövlət məktəblərində çalışan müəllimlərdən daha çox üstünlük verilirdi. Belə ki, 15 il əvəzinə, 10 il müəllim kimi çalışan şəxsin özü və ailəsi dövlət təqaüdü ilə təmin edilirdi. Eyni zamanda dövlət məktəblərində çalışan yerli Azərbaycan dili və şəriət müəllimlərini 2-ci dərəcəli dövlət qulluqçuları da hesab edirdilər. Burada hakimiyyətin əsas məqsədi yerlilərdən müəllim kadrları hazırlamaq deyil, əksinə olaraq, məktəblər vasitəsilə öz ideyalarını yaymaq idi. Qəbul edilmiş bu qərara əsasən Əbdüləzim Rüstəmov Naxçıvan Xalq Maarif Şöbəsinin (NXMŞ) müdiri təyin edilmişdir. Ona müəllimlərin səfərbər edilməsi, məktəblərin açılması və gecə kurslarının təşkili kimi məhsuldar vəzifələr tapşırılmışdır. Naxçıvan təhsil tarixinin görkəmli tədqiqatçısı İbrahim Mollayev “Naxçıvan MSSR-də xalq maarifinin inkişafı” adlı tədqiqat əsərində yazırdı: “1921-ci ildə ilk dəfə olaraq Naxçıvan MSSR Xalq Maarif Komissarlığı yaradılmış, Əbdüləzim Rüstəmov isə ilk maarif komissarı təyin edilmişdi (12, s. 24). Bu dövrdə Naxçıvanda məhdud məktəb şəbəkəsinin artırılması, çatışmayan müəllim kadrlarının hazırlanması və məktəblərə göndərilməsi, məktəblərin təşkili üçün binaların əldə edilməsi, zəhmətkeş balalarının təhsilə cəlb edilməsi kimi çətin, vacib və məsul vəzifələrin həllini Əbdüləzim Rüstəmov bacarıqla həyata keçirmişdir (7, s. 115).

Qeyd edək ki, bu gün ölkəmizdə özünəməxsus yeri olan Naxçıvan Muxtar Respublikasının əsas elm, təhsil, ictimai fikri və mədəniyyət mərkəzi olan, dəyərli elm adamlarının, müəllim kadrlarının yetişdirilməsində Naxçıvan Dövlət Universitetinin də böyük rolu və xidmətləri vardı.

Naxçıvan Dövlət Universitetinin keçdiyi yola nəzər salarkən belə bir qənaətə gəlmək olar ki, Naxçıvanımızın bu gününü, onun elmini, mədəniyyətini, alimlərini, habelə iqtisadiyyatını, mənəvi-psixoloji durumunu, bir sözlə bütövlükdə yaşadığımız ictimai mühiti bu təhsil ocağından ayrılıqda təsəvvür etmək olmaz.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlayan bu ali təhsil müəssisəsinə 1967-ci ildə 3 ixtisas üzrə 102 nəfər tələbə qəbul olmuşdur. Tələbələrin təlim - tərbiyəsi ilə isə birinci il ştatda olan cəmi 3 nəfər müəllim məşğul olmuşdur.

Dünyanın çoxəsrlik tarixə malik universitetləri ilə müqayisədə Naxçıvan Dövlət Universiteti cavan olsa da, o çox mənalı həyat yolu keçmişdir. Qeyd edək ki, 1967 - ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialı kimi fəaliyyətə başlayan ali məktəb az sonra Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin 12 iyun 1972-ci il tarixli fərmanı ilə Naxçıvan Dövlət Pedaqoji İnstitutu kimi fəaliyyət göstərmişdir. Pedaqoji institut sonralar 29 dekabr 1990 - cı ildə Naxçıvan Dövlət Universitetinin təşkili üçün böyük baza funksiyasını yerinə yetirmişdir.

Naxçıvan Dövlət Universitetinin maddi - texniki bazası böyük sürətlə inkişaf etmiş, yeni korpuslar tikilmiş, köhnəlmiş istifadəyə yarasız korpuslar isə yenidən təmir olunaraq tələbələrin xidmətinə verilmişdir. Universitet təcrübəli professor müəllim heyəti ilə təmin edilmiş və Avropa standartlarına uyğun təhsil sistemi qurulmuşdur. Müstəqillik dövründə Naxçıvan Dövlət Universitetinin beynəlxalq miqyasda şöhrəti artmış, bir çox Avropa ölkələri ilə sıx əlaqələr qurmuş, tələbə - magistr və müəllim təcrübə mübadilələri aparmışdır.

Qeyd edək ki, Naxçıvan Dövlət Universitetində 12 fakültədə 58 ixtisas üzrə bakalavr, 43 ixtisas üzrə magistr, 35 ixtisas üzrə doktorant hazırlığı həyata keçirilir. Ümumilikdə universitetdə 6 min nəfərə yaxın tələbə təhsil alır. Tələbələr sırasında 12 ölkədən 300 nəfərdən çox xarici tələbə vardır (19).

Naxçıvan Dövlət Universitetində hazırlanan kadrlar Naxçıvan Muxtar Respublikanın bütün təhsil müəssisələrində digər ali məktəblərə nisbətən üstünlük təşkil edir.

Naxçıvanda fəaliyyət göstərmiş Naxçıvan Politexnik Texnikumunun bazasında 2000-ci il iyul ayının 13 - də Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı yaradılmışdır. Qeyd edək ki, filial 2003-cü il avqust ayının 26-da Naxçıvan Müəllimlər İnstitutuna çevrilmiş və müstəqil fəaliyyətə başlamışdır (20).

İlk dəfə olaraq 21 tələbə və 2 ixtisasla fəaliyyətə başlayan institutda hazırda 7 - yə yaxın ixtisasda 1000-dən çox tələbə və magistr təhsil alır. Qeyd edə ki, institutun pedaqoji kadr təminatı daima diqqət mərkəzində saxlanılmışdır.

Naxçıvan Müəllimlər İnstitutu Naxçıvan Muxtar Respublikada müxtəlif istiqamətlər üzrə ixtisaslı pedaqoji kadrların hazırlanması kimi mühüm bir məqsədə xidmət edir.

Azərbaycanın paytaxtı Bakı şəhərindən kənarda yerləşən yeganə özəl ali təhsil ocağı 1999-cu ildə Naxçıvanda yaradılmışdır. Zəngin maddi-texniki bazaya malik olan universitet 7 binadan və yardımçı qurğulardan ibarətdir. Arxitektura və pedaqoji baxımından mükəmməl olan universitetdə Naxçıvan Muxtar Respublikanın təcrübəli professor və müəllim heyəti elmi - pedaqoji fəaliyyət göstərir.

Qeyd edək ki, 4 fakültə, 10 kafedra və 6 şöbə fəaliyyət göstərdiyi universitetdə 14 bakalavr, 4 magistr ixtisas üzrə 1000 nəfərə yaxın tələbə təhsil alır. Tələbələrin təlim - tərbiyəsi ilə 81 nəfərə yaxın professor - müəllim məşğul olur (21).

Naxçıvan Universiteti Naxçıvanda fəaliyyət göstərən təhsil müəssisələrinin müəllim kadrları ilə təmin olunmasında üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir.

Muxtariyyət dövründə Naxçıvan bölgəsində fəaliyyət göstərən musiqi məktəblərində təhsil alan uşaqların təlim - tərbiyəsi ilə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin yetirmələri ilə yanaşı Naxçıvan şəhər Musiqi Kollecinin də böyük rolu var. Naxçıvan Musiqi Kolleci 1974-cü ildə yaradılmışdır. İlk dəfə olaraq 4 ixtisas üzrə fəaliyyətə başlayan kollec 1992 - ci ilə qədər Naxçıvan Orta İxtisas Musiqi Məktəbi, 1992-ci ildən Naxçıvan Musiqi Texnikumu, 9 sentyabr 2005-ci il tarixdən isə Naxçıvan Musiqi Kolleci adlandırılmışdır (22). Qeyd edək ki, kollecdə bir çox ixtisaslar üzrə kadrlar hazırlanır. Fəaliyyət göstərdiyi müddətdə kollec 1000-dən artıq ixtisaslı musiqi kadrları yetişdirmişdir.

Qeyd edək ki, hazırda kollecdə 400-ə yaxın tələbə təhsil alır ki, onların təlim - tərbiyəsi ilə 110-a yaxın müəllim məşğul olur. Burada təhsil alan müsiqi mütəxəsisləri Naxçıvan Muxtar Respublikada fəaliyyət göstərən musiqi məktəblərində musiqi müəllimlərinə olan tələbatı ödəyir.

Sonda onu qeyd edək ki, muxtariyyət dövründə Naxçıvanda təhsil sahəsində baş vermiş mühüm dəyişiklərdən biri də yerli, milli pedaqoji kadrlarının və müəllim potensialının formalaşması olmuşdu. Təhsil sahəsində həyata keçirilmiş mütərəqqi dəyişikliklər Naxçıvanda maarifçilik ideyalarının inkişafına və yerli ziyalı təbəqəsinin formalaşmasına təkan verdi. Həmin dövrdə maarif və mədəniyyətdə əldə edilmiş nailiyyətlər gələcək uğurlara zəmin yaratdı.

## ƏDƏBİYYAT

1. Allahverdiyev C. V. İrəvanda Azərbaycan ədəbi mühiti (1920-1950): Filol. elm. nam. ... dis. Bakı, 2008, 159 s.
2. Azərbaycan müəllimlərin qurultayları (I-XII). Tarixi-xronoloji, stenoqrafik materialları, Bakı, 2008, 784 s.
3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi: F.379, siy. 3, iş 5901, v.3-21
4. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi: F.797, siy. 1, iş 11, v.15-20.
5. Azərbaycanda xalq maarifinin inkişafı (1920-1927), Bakı, Azərnəşr, 1928, 128 s.
6. Azərbaycanda məktəb və pedaqoji fikir tarixindən, Bakı, APİ, 1981, 98 s.
7. Cəfərov H. R. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları, Bakı, Elm və təhsil, 2011. 544 s.
8. Əbdülov Ə. Ə. XX əsrin əvvəllərində Azərbaycanda orta təhsilin inkişaf (1900-1920-ci illər): Ped. üz. fəl. ...dok. avtoref. Bakı, 2007, 22 s.
9. İrəvan əyalətinin icmal dəftəri: Araşdırma, tərcümə və qeydlər akad. Z.Bünyadov. Bakı: Elm, 1996, 184 s.
10. Qonuqçu Ə. S. XX əsrə doğru Naxçıvan, Fikir qəz., Naxçıvan: 23 iyun 1992, № 8 (11)
11. Məhərrəmov Z. H. İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi mədəni mühit). Bakı: Nurlan, 2010, 320 s.
12. Mollayev İ. A. Naxçıvan MSSR-də xalq maarifinin inkişafı, Bakı: Bilik cəmiyyəti, 1983. 31 s.
13. Mollayev İ. A. Naxçıvanda xalq maarifinin inkişafı tarixindən // Azərbaycan tarixində Naxçıvan, Bakı, ADPU-nun mətbəəsi, 1996, s. 103-109
14. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: F. 5, siy.1, iş 1/1, v.6-15.
15. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: F.19, siy.2, iş 1197, v.3-11.
16. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: F.24, siy.1, iş 1662, v.10-16.
17. Rüstəmov F. A. Azərbaycan müəllimlərinin ilk qurultayı // Azərbaycan məktəbi" jurnalı, 2006, № 6, s. 35-36
18. Zeynalov Ə. M. İrəvan ziyalıları, Bakı: Oğuz eli, 1999, 368 s.
19. http://ndu.edu.az/az/content/19/
20. http://www.serqqapisi.az/index.php/humanitar/elm-v-t-hsil/7802-nakhdzh-van-muaellimlaer-institutu-oetaen-15-ildae-boeyuk-inkishaf-yolu-kedzhmishdir
21. https://nu.edu.az/az/universitet/haqqında
22. https://azertag.az/xeber/Naxchivan_Musiqi_Kollecinin_yaradilmasinin_40_illik_yubileyi_qeyd_olunub-848974

## ABSTRACT

**Taleh Khalilov**

**PREPARATION OF TEACHERS IN NAKHCHIVAN AUTONOMY**

The article reads the readiness of teachers in Nakhchivan during autonomy. It was established that the increase in the demand for new schools in the Nakhchivan region at the end of the 19th and early 20th centuries brought up the issue of training of teachers for these schools. During this period a lot of work was done to provide teachers with Nakhchivan schools with teachers. One of the main challenges facing us was to provide Nakhchivan schools with progressive teachers. Because the day-to-day training and educational work required new, educated young and locally qualified teachers who were armed with new pedagogical and scientific-methodological knowledge. In connection with this issue, Nakhchivan intellectual enlighteners aimed to expand pedagogical education to provide Nakhchivan schools with teaching staff. Thus, as in all areas of the national economy, there was an unprecedented turning point in pedagogical education and teacher training.

## РЕЗЮМЕ

**Талех Халилов**

**ПОДГОТОВКА УЧИТЕЛЕЙ В НАХЧЫВАНСКОЙ АВТОНОМИИ**

В статье говорится о готовности учителей в Нахчыване во время автономии. Было установлено, что увеличение спроса на новые школы в Нахчыванской области в конце XIX и начале XX века поставило вопрос о подготовке учителей для этих школ. За этот период была проделана большая работа по обеспечению учителей школ Нахчывана учителями. Одной из основных задач, стоящих перед нами, было обеспечение прогрессивных учителей в школах Нахчывана. Потому что ежедневная учебно-воспитательная работа требовала новых, образованных молодых и квалифицированных на местах учителей, которые были бы вооружены новыми педагогическими и научно-методическими знаниями. В связи с этим нахчыванские интеллектуальные просветители стремились расширить педагогическое образование, чтобы обеспечить нахчыванские школы преподавательским составом. Таким образом, как и во всех сферах народного хозяйства, произошел беспрецедентный перелом в педагогическом образовании и подготовке учителей.

**SOLMAZ CABBAROVA**
*Naxçıvan Dövlət Universiteti*
*scabbarli@yahoo.com*

# MƏKTƏBLƏ AİLƏNİN ƏLAQƏ FORMALARI VƏ ONLARIN UŞAQLARIN TƏRBİYƏSİ İŞİNDƏ ƏHƏMİYYƏTİ

**Açar sözlər:** *Ailə, valideyn, məktəb, müəllim, pedaqoji bilik, şagird*
**Key words:** *Family, parent, school, teacher, pedagogical knowledge, student*
**Ключевые слова:** *Семья, родитель, школа, учитель, педагогические знания, ученик*

Ailə məktəblə, məktəb də ailə ilə hər zaman əlaqədə olmalıdır. Hər ikisinin əlaqəli şəkildə fəaliyyət göstərməsi uşaqların tərbiyəsi, təlimi və təhsili üçün əhəmiyyətlidir. Məktəblə ailənin əlaqə formaları genişdir. Onların hər ikisi - məktəb də, ailə də uşaqların gələcəyi üçün, onların təlim-tərbiyəsi və təhsilli olması yönündə çalışırlar.

"Gənc nəslin tərbiyəsi yalnız o zaman nəticə verir ki, bu işlə məşğul olan məktəb və ailə bir - birindən ayrı deyil, birgə əməkdaşlıq şəraitində fəaliyyət göstərərək uşağa vahid tələblə yanaşmış olsunlar" (1, s. 8 ).

Məktəblə sıx əlaqə saxlamayan valideynlərin uşaqlara verdiyi istiqamətlə, müəllimin məsləhət və göstərişləri mahiyyətcə bir - birini inkar edir. Bu da uşaqların düzgün formalaşmasına mənfi təsir göstərir. Məktəblə ailənin iş prinsipi bir - biri ilə uzlaşmalıdır. Ailənin təsiri başqa cür, məktəbin ki, isə bir başqa cür olarsa bu zaman şəxsiyyətin formalaşdırılması işi ləng həyata keçər. Şagirdlərdə tərbiyə işi yalnız məktəblə ailənin birgə fəaliyyəti sayəsində müsbət nəticə verə bilər.

Tərbiyə işində əsas məsuliyyət ailənin üzərinə düşür. Ona görə də məktəb ailənin apardığı tərbiyə işinə istiqamət verməlidir. Ailə hər zaman, uşaq məktəbli olduqda belə nəzərlərini onlardan ayırmamalıdır. Çünki məktəbə gedən uşaqların günlərinin çoxu ailədə keçir. Uşaqlarla maraqlanan valideynlərin övladlarının təlim, tərbiyə, təhsil göstəriciləri yuxarı olur. Tərbiyə işinin mərkəzində məktəb durur. Məktəb mühitin tərbiyəvi baxımından sağlamlaşdırılması, əhali arasında pedaqoji biliklərin təbliği, ailədə münasibətlərin nizama salınması kimi məsələlərdə həmişə ön cərgədə getməlidir.

Uşağın necə oxuması və davranışları haqqında məlumat almaqdan ötrü hər bir valideyn məktəblə sıx əlaqə saxlamalıdır. Ata və ya ana heç olmazsa ayda iki dəfə məktəbə gəlib sinif rəhbəri, məktəb direktoru və müəllimlərlə öz uşağı haqqında söhbət etməli, onun ayrı - ayrı fənlərdən müvəffəqiyyəti ilə maraqlanmalıdır.

Ailə və məktəb təbii müttəfiqdir, tərbiyənin iki qüdrətli qüvvəsidir. Uşağın məktəb təliminə hazırlanması və təlimin müvəffəqiyyəti məktəb və ailənin vahid mövqeyinin təmin edilməsindən asılıdır.

Müasir valideynlərin təhsili, ixtisası, yetkinliyi, elmi dərəcəsi ictimai xidməti və s. onların həyat tərzini dəyişir. Ailələrin bir qismi uşaqlarla yüksək insani münasibətlər yaradır, onlara güclü təsir göstərir. Bəzən uşaqların ümumi inkişafına valideynlərin təsiri məktəbindən güclü olur. Lakin hər halda valideyn uşağın inkişafı haqqında tam biliyə malik olmadığından onun müəllimlərlə birgə hərəkət etməsi vəhdəti zəruridir.

Müəllimlər ailələrlə getməli, uşağın normal həyatı ilə maraqlanmalı, valideynlərin vəzifələri, savadı ilə tanış olmalıdırlar. Belə olduqda müəllimlər ailə tərbiyəsindəki nöqsanları görür və onların aradan qaldırmaq yolları haqqında valideynlərə vaxtında pedaqoji məsləhətlər verə bilərlər Müəllim ailənin üzvləri ilə söhbət zamanı şagirdin xasiyyəti, marağı, qabiliyyətləri haqqında əlavə məlumatlar toplamağa çalışmalıdır. Bunun əhəmiyyətli cəhəti ondan ibarətdir ki, müəllim şagirdlərin ailə vəzifələrini və onların xarakter xüsusiyyətlərini vaxtında öyrəndiyi üçün onlara fərdi yanaşmaq imkanı əldə edir. Bəzən müəllimlər ailəyə bir növ şikayətlənmək üçün gedirlər. Nəticədə ata və ya ana onu yola saldıqdan sonra uşağın üstünə düşür, onu incidir, döyür. Müəllimin belə hərəkəti yol verilməzdir. Bu, uşaqda müəllimə qarşı nifrət oyadır. Hətta onun inadkar, kinli olmasına səbəb olur.

Əslində sinif müəllimi hər gün valideynlərə görüşmək, söhbət etmək imkanına malikdir. Valideyn maraqlandıqda, övladının təlim müvəffəqiyyəti ilə yanaşı, həm də onun sinifdə, tənəffüsdə, keçirilən ayrı-ayrı tədbirlərdə (səhnəcik, bayram, söhbət, təlim nümayişi, gəzinti, ekskursiya və s.) özünü necə aparması, fəallığı, o cümlədən ictimai fəallığı haqqında sinif müəllimindən məlumat toplayır. Əgər şagirdin davranışında, yoldaşları ilə münasibətlərində, ünsiyyət tərzində xoşagəlməz hallar varsa lovğalıq, eqoistlik, yalançılıq halları müşahidə olunursa, müəllim bunu valideynlərə bildirir. O, həmçinin sinifdə uşaqla apardığı iş haqqında danışır, valideynə müvafiq məsləhət verir, uşaqda özünü göstərən tənbəllik, utancaqlıq, ərköyünlük, yersiz küsmək və incimək,

müəllimin, yoldaşlarının sözünü kəsmək, dərsdə yerindən danışmaq və s. bu kimi məsələlərə pedaqoji qiymət verir. Bəzi nöqsanların uşağın yaş dövrü ilə şərtləndiyini əsaslandırır.

Məktəb evdə uşaqların hansı şəraitdə böyüdüyünü və tərbiyə edildiyini yaxşı bilməli, ailədə tərbiyə prosesinə təsir göstərməyin əsaslarını, formalarını axtarmalı, pedaqoji biliklərin müəyyən mərhələdə tərbiyə sahəsində hansı vəzifəni yerinə yetirmək lazım gəldiyini müəyyənləşdirməli, valideynlərə kömək etməli, uşaq şəxsiyyətinin formalaşdırılmasına düzgün təsir göstərmək yollarını onlara izah etməlidirlər.

Valideynə sözü olduqda, sinif müəllimi bir anlığa onu saxlayır, sözünü deyir. Lakin, burada bir məsələni unutmaq olmaz. Müəllim və valideynin söhbəti kiçik yaşlı məktəblinin yanında olmamalı, yaxud onlar elə söhbət etməlidirlər ki, uşaq bu danışığın nə barədə getdiyini bilməsin. Pedaqoji etika sinif müəllimindən və valideynlərdən bunu tələb edir.

Müəllimin valideynlərlə ailədə apardığı söhbət bir növ canlı fikir mübadiləsi şəklində təşkil olunmalıdır. Müəllimin apardığı hər bir söhbət, valideynlərə öz övladlarını düzgün tərbiyə etmək imkanına malik olduğu hissini aşılamalı, onlarda övladlarının düzələcəyi və ya daha da yaxşı olacağı ümidini yaratmalıdırlar. Əgər müəllim daim şikayəti olduqda valideynlə danışmağa səy göstərsə, hər zaman uşaqdan şikayət eləsə onda təbii olaraq valdeynin məktəblə əlaqəsi zəifləyəcək və valideyn iclaslarından yayınma halları baş verəcək.

Məktəb də valideyndən istifadə etməli, tərbiyə işini bilən valideynlərin biliklərini yaymalıdır. Valideynlərin tərkibi çox müxtəlifdir, onların içərisində hər cür sənət sahibi-müəllim, həkim, mühəndis, texnik və s vardır. Bunların köməyindən istifadə etməmək böyük bir qüvvədən məhrum olmaq deməkdir.

Məktəb və ailənin əlaqəsini möhkəmlətmək üçün valideyn komitələrindən də istifadə edil-məlidir. Valideyn komitəsi valideynin fəalları və məktəb rəhbərlərinin iştirakı ilə tərtib olunmuş plan üzrə işləyir. Valideyn komitəsi məktəb və ailənin əlaqəsini möhkəmlətmək işində böyük rol oynaya bilər və oynamalıdır. Çünki məktəblə ailənin məqsədləri arasında heç bir ayrılıq yoxdur. Həm müəllimlər, həm də valideynlər uşaqlardan hərtərəfli inkişaf etmiş vətəndaşlar yetişdirməyə çalışırlar. Valideynlər bunu dərk etməli və məktəbə hər zaman kömək göstərməlidirlər.

Bəzi valideynlər müəllimləri savadsız adlandırırlar, uşaqların yanında müəllimin nüfuzunu aşağı salmağa çalışırlar. Belə valideynlər xüsusən zərif oxuyan və intizamsızlıq edən şagirdlərin valideynləri arasında çoxluq təşkil edir. Uşağın pis oxumağında özlərini deyil məktəbi günahlandıran valideynlərə də rast gəlmək olar. Bu cür valideynlər düşünmürlər ki, öz övladlarının tərbiyəsinə necə böyük ziyan vururlar. Bu tip valideynlər övladlarının aldığı «iki» ləri müəllimin ədalət-sizliyi kimi qəbul edib, uşaqlarının tənbəlliyinə haqq qazandırırlar.

Bir ailədə valideynlə övlad arasında gedən söhbətə nəzər salaq.

«Oğul - Yenə də bu Günay müəllimə mənə qəsdən «iki» verdi. Bilmirəm məndən nə istəyir?

Ana - Müəllimənin səninlə nə qəsdi-qərəzliyi var, yəqin düzgün cavab verməmisən.

Oğul - yox, ata canı dörd sual verdi, o qədər suala cavab vermək olar?

Ata - Arvad oğlum düz deyir. Günay müəllimə uşağı sıxma boğmaya salır. Sualların hamısını bilsəydi, onda oğlum daha niyə şagird olurdu, müəllim olardı da… ( 2, s. 77 )

Burada ata düzgün davranış nümunəsi göstərmir. Atanın bu hərəkəti əvvəlcə müəllimi, sonra isə məktəbi uşağın gözündən salır və uşağın təlim müvəffəqiyyətinə pis təsir göstərir. Belə valideynlərə başa salmaq lazımdır ki, məktəbə, müəllimə hörmət etmək və bunu uşaqlara da aşılamaq vacib bir məsələdir. Məktəb belə valideynlərlə söhbətlər aparmalı və səhv hərəkətlərini onlara başa salaraq, aradan qaldırılmasına səy göstərməlidir.

Məktəb həmçinin valideynin ailədə mövqeyini yüksəltməyə çalışmalıdır. Öz övladlarının nəzərində nüfuzdan düşmüş valideynlər məktəbin yaxın köməkçiləri ola bilməzlər. Müəllimlər valideynlərə məsləhət verməklə yanaşı özləri də valideynlərdən məsləhət almalıdırlar. Məsələn; uşağın xarakteristikasını, fərdi xüsusiyyətlərini öyrənmək və maraqlarını, qabiliyyətlərini nəzərə almaq işində müəllim valideynlərdən çox şey öyrənə bilər. Valideynlər də məktəbdə təlim-tərbiyə işinin təşkilindəki nöqsanları aşkara çıxarıb aradan qaldırmaqla müəllimlərə kömək edə bilərlər.

Uşağın məktəbə qəbul olunması onun və ailənin həyatında çox böyük hadisədir. Bu dövrdə uşağın tərbiyəsi ilə, o cümlədən onun təlim əməyi ilə həm ailə, həm də məktəb məşğul olur ( 3, s. 46 ).

Uşaq məktəbə gedir. Valideynlər elə düşünürlər ki, artıq onların vəzifəsi bitmişdir. Lakin, bu belə deyil, uşağı məktəbə gedən valdeynin üzərinə çox böyük məsuliyyət düşür. Onun təlim və tərbiyəsində, ev tapşırıqlarının vaxtlı vaxtında yerinə yetirilməsində valideynlərin rolu böyükdür.

Övladı təhsil alan valideyn hər zaman məktəblə, müəllimlə, hətta övladının dostluq etdiyi uşaqlarla belə maraqlanmalı, uşağın dərsdən sonra nə kimi işlər gördüyünə, kimlərlə oturub-durduğuna nəzarət etməlidirlər.

Valideynlərin bu cür nəzarəti və məktəblə daimi əlaqə saxlanması uşaqda məsuliyyət hissi yaradır və onun bir şəxsiyyət kimi formalaşmasına böyük təsir göstərir.

Bundan başqa məktəblə ailənin əlbir işi şagirdlər üzərində nəzarətin güclənməsini, çətin tərbiyə edilən şagirdlərin nazam-intizama tabe olmasını və s. təmin edir.

Məktəblə ailənin birgə fəaliyyət göstərməsinin hər cəhətcə əhəmiyyəti böyükdür. Birgə fəaliyyət ailəyə imkan verir ki, məktəbin həyata keçirdiyi tədbirlərdən xəbərdar olsun və həmin tədbirlərin həyata keçirilməsində fəal iştirak etsin. Birgə fəaliyyət ailə tərbiyəsinə yaxşı rəhbərlik etməkdə, onun düzgün yola istiqamətlənməsində valideynlərə yaxından köməklik göstərir.

Məktəblə ailənin əlaqəsinin möhkəmlənməsində valideyn yığıncağının rolu böyükdür. Bu yığıncaqda əsasən valideynlər iştirak edirlər. Onlar müzakirə olunan məsələni birlikdə həll edirlər.

Məktəblə ailənin əlaqəsini təşkil etmək üçün müəllimlə valideynlərin qarşılıqlı münasibəti çox vacibdir. Məktəbdə, ailədə söhbət keçirmək, valideynlərin iş yerlərində onlarla görüşmək, müəllimlərlə, valideynlərin birgə fəaliyyəti və s. tədbirlər həmin qarşılıqlı münasibətlərə aiddir.

Valideynlərlə iş zamanı səmimi, mehriban, işgüzar söhbətin böyük əhəmiyyəti vardır. Məktəblidən yalnız giley-güzar etmək, əslində valideyni konkret pedaqoji yardımdan məhrum etmək deməkdir. Sinif müəllimi təkcə şagirdin davranışından xoşagəlməz cəhətlərdən danışmamalı, uşağın xarakterində yaxşı xüsusiyyətlər varsa, bu istiqamətdə də valideynlərə məlumat verməlidir. Bu işin iki müsbət təsiri var: valideyn həmin müsbət cəhətlərin qorunub saxlanması və daha da inkişaf etdirilməsi qayğısına qalır, valideyn uşağı çox sevir, övladı barədə xoş sözlər eşidəndə fərəhlənir. Valideyn, heç şübhəsiz, müəllimin razılığını uşağına çatdırır.

Elə müəllimlər vardır ki, ailə ilə əlaqə saxlamaq, ona kömək göstərmək istəyir, lakin bacarmır. Onun əlaqəsi ən yaxşı halda mehriban görüşlər, uşağın nə ilə necə məşğul olduğunu, boş vaxtlarını necə keçirdiyini öyrənməklə məhdudlaşır. Belə müəllimlər valideynlərə pedaqoji-psixoloji məsləhət verə bilmir, bəlkə də bunu artıq hesab edirlər.

Məktəblə ailə arasında sıx əlaqənin yaradılması, müəllim valideyn münasibətlərinin qaydaya salınması məktəbin rəhbərliyindən böyük səy və bacarıq, gərgin əmək sərf etmək tələb edir. Valideynlə müəllim arasında əlaqə o zaman çətinləşir ki, valideyn də, müəllim də gənc olsunlar. Belə bir vəziyyətdə bəzən yaxşı nəticə alınsa da, bir çox hallarda qarşılıqlı anlaşma olmur. Sinif müəllimi təcrübəli olduqda hər şey əsasən qaydasında gedir.

Bütün bu yuxarıda qeyd etdiyiniz əlaqələrin hamısı məktəblə ailənin birgə fəaliyyətinin təşkilinə təsir edən amillərdəndir. Bunların hamısı uşaqların tərbiyəsi işində böyük əhəmiyyət kəsb edir. Uşaqlar bizim gələcəyimizdir. İstər müəllim, istərsədə valideyn kimi gələcəyimizi necə görmək istəyiriksə o tərzdə də vətəndaşlar böyütməliyik.

## ƏDƏBİYYAT


1. İsmixanova. M. Gənclik və mənəvi tərbiyə, Gənclik nəşriyyatı, Bakı - 1980, 100 s.
2. İsmixanov. M. Vəlixanlı. İ. Məktəb, ailə və ictimaiyyət, Maarif nəşriyyatı, Bakı - 1972, 124 s.
3. Kazımov N. Həşimov Ə. Pedaqogika, Maarif nəşriyyatı, Bakı, 1996. 416 s.
4. Quliyev S. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti, Maarif nəşriyyatı, Bakı, 1987. 168 s.
5. Məmmədov Q. Valideynlər arasında pedaqoji təbliğat, Maarif nəşriyyatı, Bakı, 1967 100 s.


## ABSTRACT


Family has the main importanse for formulating children. Keep in mind this, the theory and practice companies always have to work in union. This article is mentioned about forms of connection school and family and the importance of childrens behavior and about the ways of formulating


## РЕЗЮМЕ


Семъя ишет важную ролъ в формировании детей. Имея это ввиду учреждения воспитания и образования должны работатъ в согетании. В стате гласшн о формах связи шнол и семей также о ватности воспитания и о способах формировошия этого согетания.

**HƏBİBƏ ALLAHVERDİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*habibe.allahverdiyeva@mail.ru*

# MUXTARİYYAT İLLƏRİNDƏ NAXÇIVAN TEATR RƏSSAMLIĞININ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ VƏ MİLLİ TEMATİKA

**Açar sözlər:** *Muxtariyyat, Naxçıvan teatrı, səhnə tərtibatı, teatr rəssamılığı*
**Key words:** *The autonomy, Nakhchivan theater, scenography, theater artist*
**Ключевые слова:** *Автономии, Нахчыванский театр, сценография, театральные художники*

Çətin, mürəkkəb və eyni zamanda şərəfli inkişaf və tərəqqi yolu keçmiş, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan Muxtar Respublikasının yaradılmasından 95 il ötür. Qədim tarixə malik Naxçıvan torpağı həmişə özünün zəngin mədəniyyəti, ədəbiyyatı, incəsənəti və xalq yaradıcılığı nümunələri ilə Azərbaycan, dünya sivilizasiyası tarixində əhəmiyyətli rol oynamışdır.

Naxçıvanın çətin və mürəkkəb dövrü olan kimi tarixə düşmüş 1920-1924-cü illərdə xalqın maariflənməsində, ziyalıların təşkilatlanmasında Naxçıvan teatrı mühüm rol oynayırdı. Səhnələşdirilən hər bir tamaşanın daha aydın qavranılmasında mühüm rolu olan teatr rəssamlığı sahəsində bu dövrdə artıq ilk addımlar atılmışdır. Naxçıvanın Muxtariyyat qazanması dövrə qədər təsviri incəsənətimizdə ilk teatr rəssamı kimi iz qoyan Bəhruz Kəngərli özündən sonra fəaliyyət göstərəcək rəssamların gələcəkdə bəhrələnə biləcəyi zəngin bədii irs ərməğan etmişdir.

B.Kəngərlidən sonra estafeti davam etdirən teatr rəssamlarından Adil Qazıyev və Şamil Qazıyev, Nağı Nağıyevin, Əyyub Hüseynovun tamaşalara verdiyi tərtibatlar Naxçıvan Teatrının səhnəqrafiyasında fərdi üslub xüsusiyyətləri ilə yadda qaldı. Lakin, onlar tamaşaların tərtibatı zamanı ortaya qoyulan ideyanın açılmasına xidmət edən dekorasiya hazırlamaqdan çox, hadisələrin baş verdiyi məkanın təsvirinə üstünlük verirdilər. Realist üslubda hazırlanmış tərtibatların içərisində Naxçıvan təbiəti motivlərinə, abidələrinə də rast gəlinir.

1940-cı illərin əvvəlindən etibarən məhz bu ənənə rəssam Məmməd Qasımovun da yaradıcılığında müşahidə olunur. Naxçıvan Teatrında realizmi daha qabarıq və hərtərəfli əks etdirən peşəkar teatr rəssamı Məmməd Ələkbər oğlu Qasımov özünün maraqlı və məzmunlu dekor, geyim, qrim eskizlərilə fərqli üslubda çalışmış, yaradıcılıq uğurları əldə etmişdir. Naxçıvan təbiətini, onun gözəl güşələrini tərtibatlarında da əks etdirən M.Qasımov həm də bu şəhərdə yerləşən abidələri də olduğu kimi tərtibata uyğun, yerli-yerində əks etdirmişdir. C.Məmmədquluzadənin “Ölülər” əsərinə hazırlanan səhnə tərtibatında Naxçıvan qəbirstanlığı, ön planda isə İmamzadə türbəsi təsvir olunmuşdur.

1940-1945-ci illərdə teatrın yaradıcı kollektivi öz işlərini müharibənin tələbləri əsasında quraraq daha böyük fədakarlıqla işləyirdilər. Teatr rəssamları insanlarda qələbəyə inam hissini aşılamaq, qəhrəmanlıq və vətənpərvərlik hisslərini gücləndirmək kimi tamaşanın bədii təsir qüvvəsini daha təsirli etmək baxımından daha səylə çalışırdılar.

Müharibədən sonrakı ilk illərdə 1946-cı ildə ÜİK(b)P MK “Dram teatrların repertuarları və onu yaxşılaşdırmaq tədbirləri haqqında” qərarı teatrın işindəki qüsurları aradan qaldırmaqla yanaşı, teatr vasitəsilə sovet ideologiyasını geniş yaymaq işində böyük rol oynayırdı.

Naxçıvan teatrının və onun səhnəqrafiyasının intibahı ötən əsrin 60-70-ci illərinə təsadüf edir. 1964-cı ildə M.F.Axundzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrın yeni binaya köçməsi, bununla da teatrın texniki vasitələrinin yaxşılaşması rəssamların işini asanlaşdırmaqla bərabər öz yaradıcılıqlarını daha mükəmməl, dövrün tələbinə uyğun hazırlanması və səhnə quruluşunu layiqincə yerinə yetirməsi işində kömək etmişdir.

Bu illərdə Naxçıvan teatr rəssamlığında xəlqilik prinsipləri sözün əsl mənasında realist bir tərzdə özünü göstərmişdir. Milli xüsusiyyətlərin tədricən üzə çıxdığı bu dövrdə ideyalılıq və məfkurə anlayışı teatr rəssamlığının əsas meyarı oldu. Realist prinsiplərin mütərəqqi romantizmlə vəhdəti teatr rəssamının da qarşısında müəyyən tələblər qoydu. Realist boyakarlığın əsas mahiyyəti tamaşaların bədii tərtibatında əks etdirilməli idi. Teatr rəssamları milli koloritin qorunub saxlanılmasına cəhd etməklə yanaşı yeni forma axtarışlarından da imtina etmirdilər.

Bu dövrlərdə Naxçıvan teatr rəssamlığında öz sözünü demiş, fərdi bədii ifadə üslubu ilə seçilən rəssamlardan olan Yuran Məmmədov, Əli Səfərovun tamaşalara verdiyi tərtibatlarda realizmlə yanaşı, dekorativlik, psixoloji lirizm, simvolik məna kəsb edən nüanslar da nəzərə çarpırdı.

Müstəqillik illərində Naxçıvan teatrının fəaliyyətində böyük dönüş yarandı. Azərbaycan mədəniyyətinin və incəsənətinin, o cümlədən Naxçıvan teatrının inkişafında əvəzsiz xidmətləri olan ümummilli liderimiz Heydər Əliyevin böyük diqqət və qayğısı hər sahədə olduğu kimi bu sferada da özünü göstərdi. Bu illərdə sənətə, sənət adamlarına, qələm sahibləri – yazıçı və şairlərə, bəstəkar və rəssamlara göstərilən dövlət qayğısının nəticəsi kimi müəyyən göstəricilər əldə olundu. Azərbaycan mədəniyyəti və incəsənəti özünün yüksək inkişaf dövrünü yaşayaraq dünya mədəniyyəti içərisində öz layiqli yerini tutmuşdur. Teatrın həyatında milli ruh və milli düşüncə ümumilikdə əsas amilə çevrilmişdir. Bu inkişaf teatr rəssamlığında da özünü göstərirdi ki, bu da yeni yaradıcılıq texnikalarının, yeni ifadə vasitələrinin yaranması və istifadəsi ilə xarakterizə olunmuşdur. Teatrın repertuarında milli vətənpərvərlik tematikasını əks etdirən əsərlər teatrın səhnəqrafiyasını fərdi, özünəməxus keyfiyyətlərlə təmin etmişdir. Bu da öz növbəsində səhnəqrafiyanın bədii - emosional təsir gücünü artırır və onu daha cəlbedici edirdi.

Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaların bədii tərtibatı barədə danışarkən qeyd etmək lazımdır ki, təsviri sənətin müxtəlif janırlarında yaranan fərqli təsvir metod və vasitələri XX əsrin ikinci yarısının sonlarından etibarən özünü göstəriməyə başladı. Həmin dövrdə, əsasən 90-cı illərdə teatr rəssamlığına xas olan ənənəvi ifadə vasitələri ilə novatorçu təmayüllərin qovşağında qərarlaşan bədii formalar yarandı və ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra nəzərə çarpacaq dərəcədə inkişaf etməklə, 2000-ci illərdə milli teatr-dekor rəssamlığının başlıca xüsusiyyətinə çevrildi. “Bu xüsusiyyətlər (neokonstruktivizm, simvolika, postmodern, funksionalizm, plastik avanqard və s.) çağdaş səhnəqrafiyanın növbəti bədii inkişaf mərhələsini təşkil edir” [1]. Bununla yanaşı realist ənənələr də öz mövqeyini qoruyub saxlamaqda idi. Digər tərəfdən, bədii tərtibatın obraz-atribut kimi çıxış etdiyi səhnə əsərləri də üstünlük təşkil edirdi. Müasir səhnəqrafiyamızda psixoloji, lirik-psixoloji üsluba, o cümlədən avanqard üsluba da geniş yer verilirdi.

Naxçıvan teatrının müasir mərhələsində rəssamlar səhnə tərtibatının klassik və müasir prinsiplərinin sintezini yaratmaq yolunda xeyli irəliləməklə bu yolu inkişaf etdirirlər. Müasir dövrdə Naxçıvan Dövlət Musiqili Dram Teatrında rəssamlıq fəaliyyəti göstərən üç rəssam: baş rəssam, Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev, quruluşçu rəssamlar, Naxçıvan MR-nın Əməkdar rəssamları Səyyad Bayramov və Əbülfəz Axundov öz üslub xüsusiyyətləri, rəng tembrləri, müraciət etdikləri ifadə vasitələri ilə bir-birindən seçilirlər.

Xalq rəssamı Hüseynqulu Əliyev rəngkarlıq, qrafika, heykəltəraşlıq və teatr sahəsi ilə bağlı olan yaradıcılığında fərqli və özünəməxsus xüsusiyyətlərə malikdir. Hər zaman öz dəst-xəttinə sadiq qalan rəssamın tamaşalara verdiyi bədii tərtibat işi ideya tamlığı, rəng çalarlarının zənginliyi ilə seçilir və rəssamın möhkəm texnikası onun bu sənətdəki yaradıcılığını yaddaqalan edir. O, özünün bədii tərtibat yaradıcılığında tamaşanın əsas ideyasını daha qabarıq verməklə, üslub xüsusiyyətlərinin zənginliyi, tərtibatın obraz-atribut kimi təqdimatının mümkünlüyünə üstünlük vermişdir.

Yaratdığı mükəmməl səhnə tərtibatı ilə fərqlənən Hüseynqulu Əliyev tamaşaya qoyulan Adil Babayevin “Koroğlunun Çənlibelə qayıdışı” əsəri üçün etdiyi bədii tərtibat ilə bu tamaşanı yaddaqalan etdi. Çünki, tamaşada səhnə tərtibatı tamaşaçı ruhuna, qavrayışına təsir edən ilk və əsas amildir. Bu tamaşaya verilən tərtibat bir də onun konkret və daha bitkin ideyaya malik mürəkkəb kompazisiyası, simvolik mənaya əsaslanan işıq effektləri və rəng çalarları ilə seçilir. Bu əsərdə göstərilən imperiya zəncirlərindən xilas olmuş Azərbaycanın o dövrdə düşdüyü çətin vəziyyətdə onun dadına çatan, qədim qəhrəmanlıq dastanımızın məğlubedilməz, xalqı üçün igidlik göstərən Koroğlunun simasında göstərilən ümumimilli lidermimiz Heydər Əlirza oğlu Əliyevin Azərbaycana gəlməsi və bununla da ölkəmizin zaman-zaman qədəm qoyduğu inkişaf yolunu göstərən sujet xəttinin əksi, səhnə tərtibatında rəssamın fırçasının gücü ilə rənglərlə işıq effektləri və səhnədə istifadə edilən başqa ifadə vasitələri ilə mükkəmməl bir şəkildə verilmişdi. Burada qırmızı zolaqlar kimi təsvir olunmuş yollar və qara rəngin fonunda asılmış qırmızı tank təsvirləri, Azərbaycanın inkişafını simvolizə edən pillələrin üzərində qoyulmuş Kremlin ulduzu təsvirli qırmızı stullar hakimiyyətdə olan Rusiyanın müstəmləkəçi siyasətinə, işğalçı mövqeyinə işarədir. Pillələrin aşağıdan yuxarıya doğru yüksələn istiqamətində, iki yerdə göstərilən qırmızı stullar o dövrdə Rusiyanın Azərbaycanın azadlığına, inkişafına qarşı törətdiyi maneçiliyi ifadə edir. Yer kürəsinin üzərində təsvir olunan Azərbaycan xəritəsidə, həmin dövrdə cərəyan edən hadisələrin hansı bölgədə baş verdiyini də tamaşa müddətində kürənin üzərindəki işıqları yandırmaqla göstərilirdi. H.Əliyevin Azərbaycana gəlməsi bu tamaşada pillələrin ən üst tərəfində, uca zirvədə dayanması və fonun işıqlandırılması ilə Azərbaycanın gələcəyinin də belə işıq şüasının perspektivi kimi nurlu və sonsuz olacağını ifadə edir. Onu da qeyd edim ki, bu tamaşa ulu öndər Heydər

Əliyevin 85 illik yubileyi ilə əlaqədar olaraq tamaşaya qoyulmuş və C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində tamaşaçı rəğbəti qazanan çox uğurlu tamaşalardandır.

Müasir dövr teatr rəssamlarından olan Ə.Axundovun yaradıcılığında daha çox avanqard, neokonstruktivizm və simvolika kimi təsvir xüsusiyyətləri özünü göstərir. Onun tərtibatlarında realist formalara çox az təsadüf olunur. Rəssamın tamaşalara verdiyi bədii tərtibat sadə kompozisiyası ilə fərqlənir. Lakin, heç kəsə sirr deyildir ki, sadə quruluşla, az sayda dekorlarla böyük bir ideyanın ortaya qoyulması böyük təcrübə, zəngin fantaziya və ustalıq tələb edir. Onun əsasən soyuq rəng tonlarına üstünlük verməsi də xüsusi məna kəsb etməklə təsadüfi xarakter daşımır. O, işıq effektlərindən səmərəli istifadə edərək rəng harmoniyasının dəyişilməsini təmin etməklə tamaşanın emosional təsirinin gücləndirilməsinə nail olmuşdur. Onun yaradıcılığında milli tematika üstünlük təşkil etdiyi "Atabəylər", "Əlincə qalası", "Araz sahilində doğan günəş" tamaşalarına verilmiş quruluşlara nəzər salaq: Naxçıvan MR-nin yaradılmasının 75 illiyi münasibəti ilə 1999-cu il 10 may tarixində Nəriman Həsənzadənin "Atabəylər" əsəri tamaşaya qoyulur. Tamaşanın quruluşçu rejissoru Azərbaycan Milli Akademik Dram Teatrının rejissoru Mərahim Fərzəlibəyov, rejissoru Kamran Quliyev bu monumental tarixi pyesdə xalqımızın qəhrəmanlıq salnaməsi, yadellilərə qarşı mübarizəsi yüksək dərəcədə tərənnüm olunurdu. Məhz bu ideyalar tamaşanın bədii tərtibatında Əbülfəz Axundovun özünəməxsus üslub xüsusiyyətləri, texnikası, rəng koloriti ilə daha güclü səsləşməsinə nail olmuşdur. Tamaşada ilk növbədə təsvir edilmiş Mömünə xatun türbəsi (Atabəylər türbəsi) və giriş qapıları tamaşanın mövzusu, ideyası haqqında artıq öz sözünü demişdir. Tamaşanın ideya fəlsəfəsi haqqında akademik İsa Həbibbəyli belə qeyd etmişdir: "Şair-dramaturq Nəriman Həsənzadənin tanınmış rejissor, əməkdar incəsənət xadimi, xalq artisti Mərahim Fərzəlibəyov tərəfindən son illərdə Naxçıvan teatrında tamaşaya qoyulan "Atabəylər" tamaşası milli-tarixi özündərk prosesinin dərinləşməsinə kömək edir, mənlik və müstəqillik düşüncəsini daha da qüvvətləndirir" [2. s.10].

Əbülfəz Axundovun yaradıcılığında daha bir tərtibatda Əlincə qalasının təsviri maraqlıdır. "... "Əlincə qalası" tamaşası hələ 1983-cü ildə Naxçıvan teatrında tamaşaya qoyulmuş və repertuarlardan düşməyən əsərlər sırasına daxil edilmişdir" [4,]. "Müasirlik baxımından çox aktual səslənən, tamaşaçını vətəni tükənməz məhəbbətlə sevməyə çağıran, Əlincə qalasının qəhrəmanlıq xatirəsini bədii sözün qüdrəti ilə əbədiləşdirən və o qəhrəmanlığa layiq olan "Əlincə qalası" tamaşası qədim Naxçıvan teatrının uğurlu və yaddaqalan işlərindən biri sayılmalıdır" [3]. Lakin, Həmid Arzulunun bu əsəri yeni quruluşda Naxçıvan Dövlət Musiqili Dram Teatrı 2007-ci ilin may ayının 4-də Heydər Əliyevin anadan olmasının 84-cü ildönümü münasibətilə səhnəyə qoyuldu. Tamaşada qüdrətli sərkərdə Əmir Teymurun 14 il ərzində mühasirədə saxladığı Əlincə qalasında müdafiə olunan naxçıvanlıların mərdliyi, mübarizliyi, xalqın birliyi, azadlıq və müstəqillik uğrunda mübarizəsi poetik və dramatik lövhələrlə əks olunmuşdur. Yüksək vətənpərvərlik hissini aşılayan bu tamaşanın quruluşçu rejissoru Kamran Quliyev olmuşdur. Teatr rəssamı tarixi faktlara əsaslanaraq qalanın real görnüşə uyğun qalanın əzəmətli təsvirini vermişdir. Mömünə Xatun türbəsinin təsviri daha bir tamaşada əksini tapmışdır.

Tarixi reallığı özündə əks etdirən tamaşalardan olan Həsən Eyvazlının "Araz sahilində doğan günəş" tamaşası 2008-ci ildə aprel ayının 10-da C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulmuşdur. 1918 - ci ildə qazanılan müstəqillikdən fərqli olaraq, 1991-ci ildə əldə edilən müstəqilliyimiz qorunub saxlanıldı. Buna ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin xalqı arxasınca apara biləcək müdrik ideyaları, böyük siyasi iradəsi sayəsində nail olunmuşdur. "Araz sahilində doğan günəş" tamaşasının əsas sujet xətti də bundan ibarətdir. Tamaşanın tərtibatında bu kimi əsas ideyaları oxumaq mümkündür. Tərtibatda ön planda Mömünə Xatun türbəsinin əzəmətli görünüşü, türbədən arxa fonda isə qədim Naxçıvan evləri və Came məscidinin minarəsini təsviri verilmişdir. Rəssam tərtibatda perspektiva məsələsinə diqqət göstərmiş, türbənin qabarıq və əzəmətli təsvirinə, şəhər mənzərəsinin uzaqdan görünməsinə rəng və texniki vasitələrdən düzgün istifadə ilə nail olmuşdur. Ulu öndərin portretinin yuxarıdan göstərilməsi əsərin ideyasının açılması baxımında diqqətəlayiqdir. Tamaşa üçün hazırlanmış bədii tərtibat 1921-1992-ci illərdə baş verən siyasi hadisələrin real mənzərəsini duymağa imkan verir.

Özünəməxsus işləmə texnikası ilə seçilən Səyyad Bayramov hazırladığı səhnə quruluşlarında fəza dərinliyi, perspektivi və digər məsələləri öz mükəmməl həllini tapmışdır. Onun quruluş verdiyi "Mirzə Fətəli", "Koroğlu", "Hökumdar və qızı" tamaşası tariximizi bir daha yada salmaq, tarixi həqiqətləri açıb göstərməkdə, tamaşaçılarda milli ruhun, vətənpərvərlik hisslərinin aşılanmasında xüsusi əhəmiyyətə malikdir. Onun tərtibatda teatr-dekor sənətində tez-tez rast gəlinən xüsusiyyətlərdən olan simvolikaya üstünlük vermişdir. Bu da öz növbəsində tamaşanın bədii təsir qüvvəsini artırmaqla yanaşı, əsərin ideyasının tamaşaçılar tərəfindən aydın mənimsənilməsinə yardım etmış olur.

Naxçıvan teatr rəssamlığı həm Azərbaycan, həm də çağdaş dünya səhənqrafiyasında gedən yaradıcılıq proseslərindən bəhrələnməklə onilliklər boyu formalaşmış sənət ənənələrini inkişaf etdirir.

Teatrın dramatik və psixoloji səciyyəsinin, ideya-estetik əsasının vizual vasitələrlə, dolğun şəkildə əks etdirilməsi bu gün də Naxçıvan teatrı səhnəqrafiyasının diqqət mərkəzindədir.

Müasir dövrdə teatrın janr rəngarəngliyi tamaşanın rəssamlıq həllinin xarakterini müəyyən edən əsas cəhətlərdən birinə çevrilmişdir. Naxçıvan Teatrında əsası Bəhruz bəy Kəngərli tərəfindən qoyulan teatr rəssamlığı Adil Qazıyev, Nağı Nağıyev, Şamil Qazıyev, Məmməd Qasımov, Əyyub Hüseynov, Yuran Məmmədov, Əli Səfərov, Şəmil Mustafayev, Səyyad Bayramov, Hüseynqulu Əliyev, Əbülfəz Axundov kimi teatr rəssamları, o cümlədən teatrla mütəmadi şəkildə əməkdaşlıq edən Ənvər Qazıyev, Mircəlil Seyidov, Sabir Qədimov və başqa naxçıvanlı rəssamların yaradıcılığında milli səhnəqrafiyamızın ənənələri davam etdirilmişdir.

Müxtəlif xarakterli tamaşalarda təsadüf edilən fərqli tərtibat nümunələri Naxçıvan teatrı səhnəqrafiyasının geniş sənət imkanlarını nümayiş etdirirdi. Bunun bir səbəbi teatra göstərilən dövlət qayğısından irəli gəlir. Səhnəyə qoyulan hər bir tamaşanın ərsəyə gəlməsində zəhməti olan sənətçilərin əməyinin layiqincə qiymətləndirilməsi, fəxri adların, təqaüdlərin verilməsi, yubileylərin keçirilməsi, o cümlədən 2012-ci ildə teatrın binası əsaslı yenidən qurmadan sonra istifadəyə verilməsi və s. kimi dövlət qayğısı teatrın, o cümlədən onun ayrılmaz hisəsi olan teatr rəssamlığı işinin güclənməsinə böyük təsir göstərmişdir.

Teatr rəssamlığının tarixi inkişaf yolu bu gün də yaradıcılıq axtarışlarından usanmayan "yolçu"ların əldə etdiyi nailiyyətlərlə zəngindir. Bu yaradıcı insanlar uğurlu nəticələr əldə etmək, üçün uzun illəri əhatə edən yaradıcılıq ənənələrinə sadiq qalmaqla yanaşı, həm də Azərbaycanın və dünya səhnəqrafiyasının son nailiyyətlərini, göstəricilərini diqqətlə izləyir, müasirlik və sənətkarlıq mövqeyindən çıxış etməklə uğurlu inkişaf yolunu seçirlər.

## ƏDƏBİYYAT


1. Əfəndiyev Timurçin. Çağdaş teatr prosesləri: zaman müstəvisində baxış (teatr və rəssamlıq), 525-ci qəzet 10.03.2014.
2. Həbibbəyli İ. Naxçıvan ədəbi-ictimai mühitdə Şərq və Qərb, AMEA-nın Xəbərləri, Hümanitar elmlər seriyası. 2004, N3-4,s.10.
3. Vəzirov C. və Həbibbəyli İ. Tarixi mövzu və müasirlik, Şərq qapısı, 26 oktyabr 1983-cü il
4.Qəhrəmov Əli. Naxçıvan teatrının salnaməsi(1883-2008), Əcəmi, 2010,735s


## ABSTRACT


**Habiba Allahverdiyeva**


**DEVELOPMENTAL CHARACTERISTICS OF NAKHCHIVAN THEATER ART AND NATIONAL TEMATICS IN THE AUTOMY YEARS**


Nakhchivan Autonomous Republic that passed difficult and glorious way was created 95 years ago. Scenography of Nakhchivan was formed and developed during this period. After Bakhruz Kengerly, the founder of the theater painting in Nakhchivan A.Gaziyev, S.

Gazıyev, N.Nagiyev, M.Gasimov, E.Huseynov, Y.Mammadov, S.Mustafayev, M.Seyidov, A.Safarov, H.Aliyev, A.Akhundov, S.Bayramov workedas a theater artist, in whose creativity realism has always kept its power. After the independence was gained in our country a new stage began at the Nakhchivan Musical Drama Theater, as well as in the theater painting, as each field of culture.


## РЕЗЮМЕ


**Габиба Аллахвердиева**


**ОСОБЕННОСТИ НАХЧЫВАНСКОГО РАЗВИТИЯ АВТОНОМИИ ТЕАТРАЛЬНОКОГО ИСКУСТВА В ГОДЫ АВТОНОМИИ И НАЦИОНАЛЬНАЯ ТЕМАТИКЕ**


Прошло 95 лет с момента создания Нахчыванской Автономной Республики, прошедшей через трудный и славный путь. В этот период Нахчыванская сценография, развиваяс, сформировалас

После Бахруза Кенгерли, который является основоположником театрального художничества в Нахчыване, здесь работали такие театральные художники, kak А.Газиев, Ш.Газиев, Н.Нагиев, М. Гасымов, Э. Гусейнов, Ю. Мамедов, М. Сеидов, А. Сафаров, Г. Алиева, А.Ахундова, С.Байрамова в чьих творчествах реализм всегда сохранил свою силу. После завоевания независимости в нашей стране, во всех отраслях культуры, и в Нахчыванском госмуздрамтеатре, в том числе и в театральном художничестве начался новый этап.

**KÖNÜL SALMANOVA**
*Naxçıvan Dövlət Universiteti*
*konulsalmanova999@gmail.com*

# VƏTƏNDAŞ CƏMİYYƏTİ VƏ HÜQUQİ DÖVLƏTDƏ DÜNYAGÖRÜŞÜ ŞƏXSİYYƏTİN FƏALİYYƏTİNİN İSTİQAMƏTİNİ MÜƏYYƏNLƏŞDİRƏN AMİL KİMİ

**Açar sözlər:** *müasir, şəxsiyyət, dəyər, fəaliyyət, seçim, dünyagörüşü*
**Keys words:** *modern, personality, value, action, choice, outlook*
**Ключевые слова:** *современность, личность, ценность, действие, выбор, мировоззрение*

Şəxsiyyətin mahiyyəti, cəmiyyətdə yeri və rolu, fəallığı, mədəniyyəti və şüurluluq səviyyəsi ilə bağlı məsələlər bütün dövrlərdə fəlsəfi fikrin diqqət mərkəzində durur. İctimai həyatın bütün sferalarında əsaslı dəyişikliklər, sosial institutların fəaliyyətində, ictimai şüurda, insanların dünyagörüşü və düşüncəsində prinsipial yeniləşmələr ilə müşayiət olunur. Bütün bu transformasiya prosesləri hər bir insanın, fərdin və şəxsiyyətin sosial statusu, rolu və davranışı problemləri ilə ayrılmaz sürətdə əlaqədardır. Şəxsiyyət sistemində fəaliyyətin həlledici rolu aşağıdakı ilə izah olunur. Subyekt kimi götürülən şəxsiyyət öz işi və əməlləri ilə yanaşı və onlardan kənarda deyil, məhz onların özündə çıxış edir. Subyekt fəaliyyətini müəyyənləşdirməklə, həm də öz-özünü müəyyənləşdirir. Şəxsiyyət ilə onun fəaliyyətinin yönəldiyi predmetlər həm praktiki, həm də mənəvi xarakterə malikdir. Yəni bir tərəfdən şəxsiyyətin fəaliyyətinin predmetləri idrakın obyekti kimi çıxış edir, digər tərəfdən isə onlar obyektiv reallığın dərk olunması səviyyəsinin, insanın maddi və mənəvi qabiliyyətlərinin inkişaf göstəricisidir (4, s.50-51).

Müasir şəxsiyyətin izahında normativ aksioloji baxış böyük əhəmiyyət kəsb edir. Bu baxış ilk olaraq şəxsiyyətin həyat fəaliyyətinin müxtəlif tərəflərini ümumi qəbul olunmuş normalar və dəyərlər mövqeyindən qiymətləndirir, digər tərəfdən göstərir ki, mədəniyyət sistemində yaradılan müsbət insan obrazı real həyatda ona uyğun şəxsiyyət tipini formalaşdırmağın mühüm vasitəsidir. Müasir şəxsiyyətin çox mühüm keyfiyyətini onun tərəfindən dəyərlərin yenidən mənalandırılması prosesinin həyata keçirilməsi təşkil edir. Dəyərlər sisteminin də dəyər oriyentasiyasındakı dəyişikliklərin böyük rolu bundadır ki, insanın daxili aləmi məhz onların vasitəsilə bütövlükdə cəmiyyət ilə, habelə, buradakı ayrı-ayrı sosial qruplar ilə əlaqələr yaradır. Müasir dövrdə baş verən bir sıra proseslər, xüsusilə də bazar münasibətlərinin və azad sahibkarlığın formalaşması gedişində şəxsiyyətin dəyərlər sistemində çox ciddi dəyişikliklər baş verir. E.From şəxsiyyətin yeni–"bazar" tipinin formalaşdığını qeyd edir. Belə şəxsiyyət üçün gəlir əldə etmək, uğurlu sövdələşmələrə daxil olmaq məqsədi ön plana keçir. Nəticədə şəxsiyyətin ənənəvi mənəvi dəyərlərinin təsir dairəsi zəifləyir, onların yerini maddi mülahizələri ifadə edən dəyərlər tutur ( 7, s.27).

Şəxsiyyətin sözün geniş mənasında anlaşılan mənəviliyi, daxili dünyası onun bütün həyatı ərzində qərarlaşır. Bu prosesin ümumi istiqamətlərindən birini fərdi şəxsi dəyərlərin yerini tədricən ümumbəşəri və ümummədəni dəyərlərə verməsi təşkil edir. Müasir cəmiyyət hər bir insandan öz həyat yolunu düzgün müəyyənləşdirməyi və hərəkətləti üçün şəxsi, məsuliyyət hissi tələb edir. Əgər onun dəqiq müəyyən olunmuş həyat planı yoxdursa, onda şəxsiyyətin nəzərdə tutduğu perspektivi özünün əsas funksiyasından, yəni sosial prosesləri uzaqgörənliklə qiymətləndirmək əsasında öz davranışlarını məqsədyönlü tənzim etmək funksiyasından məhrum olur. Şəxsiyyətin öz perspektivini düzgün müəyyənləşdirmək qabiliyyəti indi həmişəkindən daha vacibdir. Çünki şəxsiyyətin perspektivliyi insanın təkcə öz gələcəyini irəlicədən görmək qabiliyyəti deyildir, o həm də indidən gələcəyə hazırlıq deməkdir (4, s.144-145).

İnsan həyata gəldiyi və fəaliyyətə başladığı gündən müəyyən dəyərlər sistemi, sosial normalar, adət-ənənələr ilə qarşılaşır. Şəxsiyyətin dünyagörüşündə oynadığı rola görə əsas yeri məqsəd - dəyərlər tutur. Mütləq dəyərlər (həqiqət, humanizm, xeyirxahlıq, gözəllik, ədalət, vicdan və s.) öz mahiyyətinə görə insan-dünya əlaqələri sisteminin fundamental moduslarıdır. Şəxsiyyət həyat fəaliyyəti prosesində müəyyən bəzi baza dəyərlər sistemi əldə edir. Həmin sistemin əsas ünsürləri həyat, ölüm, sevgi, azadlıq, mənəvi borc, xoşbəxtlik, həyatın mənası kimi aksioloji funksiyalarda ifadə olunur. Müasir dövrdə dəyərlərin şəxsiyyətin ictimai fəaliyyətində çox mühüm dünyagörüşü və tərbiyəvi əhəmiyyəti bundadır ki, onlar insanların yaradıcı potensialını, fəallığını artırmağın, tam dolğunluğu ilə hərəkətə gətirməyin və davranışını tənzimləməyin həlledici amillərindəndir.

Müasir şəxsiyyət tipinin, onun daxilən motivləşmiş düzgün davranış xəttinin formalaşmasında dəyər şüuru və dünyagörüşü dialektik vəhdətdə çıxış edir. Şəxsiyyətin görüş dairəsi genişləndikcə, burada yeni biliklər paradiqması yarandıqca, həyat təcrübəsi artdıqca onun yeni təşəkkül tapan dəyərlərə yiyələnməsi və bunlara obyektiv qiymətverici qabiliyyəti daha da inkişaf edir. Dünyagörüşü inkişaf edib təkmilləşdikcə,

buna müvafiq olaraq şəxsiyyətin dəyərlər sistemi və dəyərlər seçimi də yeniləşir. Hazırki dövrdə dinamik dəyişən ictimai varlığın mənasını düzgün anlamaq və humanistləşməyə meyil etmək xüsusi əhəmiyyətə malikdir. Dünyagörüşün şəxsiyyətin dəyərlər seçiminə və dəyər oriyentasiyasına güclü təsiri hər şeydən əvvəl öz əksini bunda tapır. Çünki dəyərlər və dəyər oriyentasiyası dünyagörüşün mühüm tərkib hissəsidir, onun başlıca komponentlərindəndir. Bunu ictimai-tarixi təcrübə də təsdiq edir. İctimai-tarixi təcrübədə dünyagörüşü və dəyərlər sistemi həmişə dialektik vəhdətdə və təsirdə olmuşdur. Dünyagörüşü şəxsiyyətin həyatın mənasını düzgün dərk etməsində, düzgün həyat mövqeyi seçməsində, əqidəsinin formalaşmasında, yeni fəaliyyət proqramının işlənib hazırlanmasında və reallaşdırılmasında həmişə yaxından iştirak etmişdir.

Dünyagörüşü şəxsiyyətin fəaliyyət yönümünün müəyyən edilməsində və onun dəyərlər baxımından mənalandırılmasında, qiymətləndirilməsində mühüm vasitədir. Dünyagörüşü fəal praktiki xarakter daşıyır, müxtəlif mövqelər, baxışlar arasında necə seçim etməyin, oriyentasiya götürməyin yollarını, üsullarını göstərir. İnsanların qarşılarına qoyduqları məqsədə nail olmaqları üçün müvafiq proqram lazımdır. Bu cür proqram hər bir dünyagörüşün, o cümlədən elmi dünyagörüşün mahiyyəti kimi çıxış edir. Sözügedən proqramın işlənib hazırlanmasında və həyata keçirilməsində insanın dünyagörüşü və dəyər şüuru fəal iştirak edir. Dünyagörüşdə keçmişin obrazları və gələcəyin layihələri ifadə olunur, bu və ya digər həyat, düşüncə tərzi, davranış normaları təqdir və yaxud mühakimə olunur. Burada dünyagörüşün hər üç komponenti-biliklər, dəyərlər və fəaliyyət proqramları qarşılıqlı vəhdətdə və təsirdə olur. Onu da nəzərə almaq lazımdır ki, yuxarıda göstərilən komponentlər mahiyyət etibarilə əksliklərdir. Belə ki, idrak təbii və sosial aləmi obyektiv dərk etməyə və həqiqəti aşkar etməyə yönəlir.

Müstəqil Azərbaycan dövlətində plüralizm və demokratiya cəmiyyətin hər bir üzvünün siyasi mədəniyyətinin, hüquqi düşüncəsinin və sosial məsuliyyətli davranışının zəruri şərti kimi çıxış edir. Hüquqi dövlət şəxsiyyətin cəmiyyətdə vəziyyəti üçün çox mühüm əhəmiyyətə malikdir. Hüquqi dövlət konsepsiyasının əsasında xalqın öz sosial və siyasi quruluşunu azad surətdə seçmək prinsipi dayanır. Hüquqi dövlətdə hakimiyyətin bütün qolları qanunla məhdudlaşdırılır. Demokratik hüquqi dövlətdə şəxsiyyətin fəaliyyəti qanunla qadağan olunmayan hər şeyə icazə verilir prinsipinə əsaslanır. Şəxsiyyətin azad dəyərlər seçimi etməsi hüququnun Azərbaycan dövləti tərəfindən qəbul olunması və ona təminat yaradılması demokratiyanın ən zəruri əlamətlərindən biridir. Demokratiya bu hüququ hər cür qəsdlərdən, özbaşınalıqdan qoruyur. Hazırda Azərbaycan cəmiyyətinin demokratikləşdirilməsi hər bir insan qarşısında demokratiyanı və onun prinsiplərini dərindən mənimsəmək, ölkəmizdə qərarlaşan sosial normalara, dəyərlərə müvafiq olaraq azad fəaliyyət göstərmək, şəxsi və ictimai mənafeləri üzvü şəkildə əlaqələndirmək və başqa vəzifələr qoyur. Müstəqil Azərbaycan dövlətində ictimai həyatın bütün sahələrində baş verən radikal dəyişikliklər, yeniləşmələr şəraitində hər bir konkret situasiyada dəyərlər seçimi ilə bağlı qarşıya çıxan alternativlər, mümkün variantlar getdikcə genişlənir, qanunla qadağan olunmayan hər şeyə icazə verilir. İstənilən hər bir şəraitdə şəxsiyyətin iki və daha çox mümkün variantlar arasında dəyərlər seçimi etmək imkanı vardır. Onlardan hər hansı biri üzərində seçim etmək, ona müvafiq qərar qəbul etmək və qəbul olunan qərarı məsuliyyət hissi ilə həyata keçirmək hazırda şəxsiyyətin daxili yetkinlik səviyyəsindən, subyektiv keyfiyyətlərindən daha çox asılıdır.

Müasir şəxsiyyət bir tərəfdən, əvvəllər olduğundan daha çox dərəcədə Qərb və Şərq sivilizasiyalarının dəyərlərini seçmək kimi dilemma qarşısında qalır. Hazırda ölkəmizdə şəxsiyyət və cəmiyyətin inkişafı həmin sivilizasiyaların hər birinə xas olan mütərəqqi, insanın inkişafına kömək edən dəyərləri seçmək və onları xalqımızın tarixi, milli dəyərləri ilə ayrılmaz şəkildə əlaqələndirməyi tələb edir. Bu o deməkdir ki, Azərbaycan cəmiyyətində demokratiyanın, şəxsiyyətin inkişafı milli özünüdərkə və ümumbəşəri dəyərlərə əsaslanır, şəxsiyyətin milli təfəkkürü təbii və sosial gerçəkliyi adekvat dərk etməyə, iradəsi ilə onu dəyişdirməyə kömək edir. Müasir dövrdə dəyərlərin yenidən qiymətləndirilməsi və mənalandırılması çoxtərfli, çoxşaxəli prosesdir. Buna görə də onun yalnız pozitiv istiqamətdə getdiyini düşünmək düzgün olmazdı. Bundan əlavə, ictimai və fərdi həyatda baş verən yeniləşmələr şəxsiyyətin şüurunda aksioloji baxımdan öz əksini tapdıqda müəyyən təhriflərə, yanlışlıqlara, səhvlərə, düzgün olmayan dəyərlər seçimi etməyə də yol verə bilər. Bununla əlaqədar onu da qeyd etmək lazımdır ki, təkcə gənclər deyil, hətta yaşlı adamlar arasında da öz həyatının mənasını, nəyə görə yaşadığını dərk etməyən şəxslərə də rast gəlmək olar. Həyatının mənasını, nəyə görə yaşadığını dərk etməyən, ictimai və şəxsi mənafeyi düzgün əlaqələndirə bilməyən bu cür adamlar cəmiyyətinin və şəxsiyyətinin inkişafına kömək etməyən dəyərlərə üstünlük verirlər. Ekoloji böhran da insanın mahiyyəti ilə deyil, bəşəriyyətin buraxdığı səhvlər, düzgün olmayan dəyərlər seçimi ilə bağlıdır. Bunun nəticəsində təkcə təbiətə deyil, insanın mahiyyətinə də əhəmiyyətli zərər yetirilmişdir.

İnformasiya cəmiyyətində xidmət sahələrinin artması və genişlənməsi insana yaradıcı fəaliyyətlə məşğul olmaqla yanaşı, əylənmək və asan yolla qazanc əldə etmək imkanı da yaratmışdır. Lakin, sonuncu halı şişirtmək və dəyərlər seçimində başlıca meyar hesab etmək yolverilməzdir. Çünki müasir dövrdə elm və texnikanın nailiyyətləri, iqtisadiyyatın və ictimai həyatın digər sahələrinin dinamik inkişafı, bəşəriyyətin topladığı təcrübə sübut edir ki, şəxsiyyətin əməyə yaradıcı, azad münasibəti, yüksək ali dəyərlərə səmtləşməsi müəyyənedici rol oynayır.

Şəxsiyyətin öz fəaliyyətində dəyərlər seçimi etməsi və onlara müvafiq olaraq hərəkət etməsi son

dərəcə mürəkkəb və çoxtərəfli prosesdir. Yuxarıda qeyd etdiyimiz kimi, şəxsiyyətin fəaliyyəti, azad dəyərlər seçimi ona kənardan göstərilən təsir və məcburiyyət nəticəsində deyil, subyektiv keyfiyyətləri, iradəsi, istəyi və iqtisadi dildə desək, daxili resursları ilə həyata keçirilir. Lakin bu heç də o demək deyil ki, şəxsiyyət hər bir situasiyada öz iradəsi, istəyi üzrə fəaliyyət göstərir. Məsələ burasındadır ki, şəxsiyyətin azad dəyərlər seçimi etməsinin mənbəyi təkcə onun özündə deyil, həm də onu əhatə edən ətraf aləmdə, fəaliyyət göstərdiyi konkret tarixi şəraitdə, təbii və sosial reallıqdadır. Əslində şəxsiyyətin fəaliyyəti həmişə xarici təsir və obyektiv amillərlə şərtlənir, obyektiv və subyektiv amillərin birgə təsiri altında baş verir. Məhz buna görə də obyektiv və subyektiv amilləri yalnız elmi abstraksiya səviyyəsində bir-birindən ayırmaq və nisbi müstəqil tərəflər kimi təhlil etmək olar.

Şəxsiyyətin dəyərlər seçimi prosesində obyektiv şərait, ictimai həyat, yəni ictimai zərurət, ictimai münasibət sistemi, sosial mühit, cəmiyyətin və dövlət hakimiyyətinin təşkilinin xarakteri fərdi həyata hərtərfli təsir göstərir. Fərd tərəfindən mənimsənilən ictimai münasibətlər onun daxili aləmini, subyektivliyini təşkil edir, onlar fərdin dəyər orientasiyasına, seçim motivlərinə, ustanovkalarına, dünyagörüşünə nüfuz edərək onun fəaliyyətini, davranışını müəyyən edir.

İnsan fəaliyyətinə təsir göstərən obyektiv amillərə dəyərlərin universal və onun cəmiyyətdə əldə olunan səviyyəsini ifadə edən xarici şərait, ictimai münasibətlər sistemi, ictimai zərurət, sosial mühüt, şəxsiyyətin fəaliyyətini tənzimləyən normalar, imperativlər, adət-ənənələr daxildir. Burada başlıca yeri ictimai varlığın obyektiv amilləri (coğrafi mühit, iqlim şəraiti, ekoloji situasiya), iqtisadi şərtlər (maddi nemətlər istehsalı, istehsal vərdişləri və s.), sosial birliklərin azadlıqlarının (siyasi, hüquqi, iqtisadi və başqa azadlıqlar) formaları tutur. Məhz bu determinatlar dəyərlər seçimi edən subyektlərin maddi nemətlər istehsalından, təbii və ictimai-tarixi şəraitdən asılılığı səviyyəsini müəyyən edir.

Müstəqil Azərbaycan cəmiyyətinin tərəqqisi insanların ictimai şüurunu, qlobal planetar dünya görüşünü kamilləşdirmiş, onların seçim imkanlarını xeyli artırmışdır. Belə bir cəmiyyətdə yaşayan insan, hər kəs xoşbəxt gələcək üçün öz töhfəsini verə bilər. Yalnız azad olan fəaliyyət yaradıcı fəaliyyət ola bilər. Hər iki anlayış təkcə qarşılıqlı əlaqədə deyil, həm də demək olar ki, eyniyyət təşkil edir. Əgər fəaliyyət hərəkətdə olan subyektin iradə və arzusu ilə determinasiya olunursa, onda o azad fəaliyyətdir, əgər fəaliyyət subyektin iradə və istəyindən asılı deyilsə, onda həmin fəaliyyət azad fəaliyyət deyildir. Cəmiyyət insana dəyərlər seçimi imkanı vermirsə, onda o susmalı və özünü qul hesab etməlidir. Azad seçimin mənşəyi təkcə insanın özündə deyil, həm də ətraf aləmdədir. Daxili azadlıq özündə dərketmə, seçim, iradə azadlığını və məsuliyyəti əhatə edir. Şəxsiyyətin həyatının mənası anlayışı azad dəyərlər seçim anlayışı ilə sıx əlaqədardır. Həyatın mənası anlayışı çox mühüm inteqrasiyaedici aksioloji funksiyanı yerinə yetirir. Azad dəyərlər seçimi müstəqil cərəyan edən məna axtarışları prosesini əks etdirir, iradə isə subyekt-obyekt münasibətlərinin müəyyən olunmasında vasitəçi rolunu oynayır. Daha dəqiq desək, dəyərlər seçimi və iradə insanın fikir və davranışını müəyyən edir. Dəyərlər seçimi insanın məninin və daxili özgürlüyünün yeganə forması kimi çıxış edir (6, s.77). Məhz buna görə də həyatın mənası dedikdə sosial birliyin və ya ayrıca insan şüurunun elə bir üstünlük təşkil edən istiqaməti başa düşülür ki, o şəxsiyyətin və yaxud sosial birliyin fəaliyyətində təzahür edir və dəyər kəsb edir. Şəxsiyyətin həyatın mənası axtarışı prosesində ən mühüm və mürəkkəb vəzifələrdən biri onun obyektiv sosial vəziyyəti dərk etməsi və qiymətləndirməsidir. Bu baxımdan şəxsiyyətin bu və ya digər dəyərlərə orientasiya etməsi prosesi qiymətvermə ilə ayrılmaz əlaqədədir. Qiymətverən şəxs qiymətləndirdiyi obyektin faydalı və ya zərərli, doğru və ya yalan, zəruri və ya lazımsız olması haqqında fikir yürüdür. Seçim aktı hər şeydən əvvəl, insanın ictimai fəaliyətinin müxtəlif sahələrində, növlərində konkret məşğulluğunun seçimidir. İctimai fəaliyyətin konkret növləri insanın qabiliyyətinin inkişafına yol açır, dərin biliklərin mənimsənilməsinə şərait yaradır. Şəxsiyyətin ictimai fəaliyyəti, dünyagörüşü genişləndikcə, onun dəyərlər seçimi imkanları da genişlənir, ümumi fəallıq səviyyəsi yüksəlir. Bu baxımdan dəyərlər seçimi aktı şəxsiyyətin məqsədi, mənafeyi, ictimai tələbatı, davranış motivləri, dəyər orientasiyası və digər sosial-psixoloji amillər ilə şərtlənir. İctimai fəaliyyətin bütün tərəfləri, şəxsiyyətin şüur və iradəsi seçim motivləri və məqsədi ilə tənzimlənir. Lakin, insan şüurlu və məqsədyönlü sosial mövcudat olduğuna görə yalnız obyektiv, xarici amillərin təsiri altında dəyərlər seçimi etmir. O, yaradıcı fəaliyyətini subyektiv xassə və keyfiyyətlərini, daxili resurslarını nəzərə almaqla qurur. Şəxsiyyətin fəaliyyət prosesində seçdiyi və əldə rəhbər tutduğu dəyərlər, bir tərəfdən obyektiv təbii və sosial amillər, digər tərəfdən onun malik olduğu daxili fərdi göstəriciləri, şəxsi təcrübəsi, fəal həyat mövqeyi, məqsədyönlülüyü, motivlərinin məzmunu, həyat proqramı və planları ilə şərtlənir. Bu mənada obyektiv amillərin şəxsiyyətin fəaliyyətinə, dəyərlər seçiminə təsiri onun özünün şəxsi daxili həyatı, subyektiv dünyası prizmasından keçərək baş verir. Deməli, obyektiv amillər şəxsiyyətin fəaliyyətinin və dəyərlər seçiminin ümumi əsaslarını müəyyən edir. Konkret situasiyada isə çox şey şəxsiyyətin malik olduğu subyektiv keyfiyyətlərdən asılıdır. Bu baxımdan belə bir fikirlə razılaşırıq ki, xarici obyektiv amillərin rolu şişirdildikdə və mütləqləşdirildikdə insanın fəallığı və yaradıcılığı, həyat mövqeyi, iradəsi, xarakteri, dünyagörüşü və digər keyfiyyətlərinin rolu kölgədə qalır. Şəxsiyyətin dəyərlər seçimi təkcə onun bilikləri, ağılı və zəkasından asılı deyildir. Bu prosesdə insanın hissləri, yaşantıları və iradəsi də çox fəal iştirak edir (1, s.136).

Şəxsiyyətin fəal həyat mövqeyi, şəxsi təcrübəsi, geniş dünyagörüşü ona cəmiyyətdə fəaliyyət göstərən dəyərləri, sosial normaları, prinsipləri mexaniki deyil, öz əqidəsinə, mənafeyinə, ictimai tələbatlarına, məqsəd və həyat planlarına müvafiq olaraq mənimsəmək imkanı verir. İnsanın fəaliyyətində elə dəyişikliklər, hadisələr baş verir ki, onlar müəyyən müddətdən sonra onun dünyagörüşünün, emosiyalarının, hisslərinin, yaşantılarının, başqa sözlə deyilsə, daxili həyatının, subyektiv dünyasının obyektinə çevrilirlər. Sosial subyekt tarixi inkişaf prosesində, ictimai və şəxsi həyatda təkmilləşir və dəyərlər seçimində daha çox müstəqillik əldə edir. Müasir şəxsiyyətin formalaşmaqda olan yeni dünyagörüşü demokratik, açıq cəmiyyət, müstəqillik, azadlıq, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prinsiplərini, ümumbəşəri dəyərlərin tələblərini əsas götürür. Dəyərlər konkret fərdlər, sosial birliklər tərəfindən onların xeyir və şər haqqında təsəvvürlərinə və müasir dövrün reallıqlarına müvafiq olaraq işlənib hazırlanır.

Professor Y.Rüstəmov haqlı olaraq yazır ki, aksiologiya mənanı müəyyənləşdirən elə prinsipləri öyrənir ki, onların vasitəsilə idrak sahəsindəki həqiqət ilə yalanı, siyasət sahəsində ədalət və ədalətsizliyi, etika sahəsində xeyir və şəri, estetika sahəsində gözəlliklə eybəcərliyi fərqləndirmək mümkün olur (2, s. 26).

Müasir Azərbaycan cəmiyyətində qərarlaşmış bazar iqtisadiyyatı, demokratikləşmə prosesləri, açıq cəmiyyətin əsaslarının yaradılması, sosial - siyasi, iqtisadi, mədəni həyat formalarının keyfiyyətcə dəyişməsi şəraitində şəxsiyyətin düşüncə, təfəkkür tərzi, dəyər şüuru və dünyagörüşü də dəyişir, onun informasiya cəmiyyətinin tələblərinə müvafiq olaraq dəyər oriyentasiyası, qiymətverici qabiliyyəti və həyat mövqeyi formalaşır. Şəxsiyyətin yeni ictimai münasibətlərə sosial adaptasiyası baş verir. Bu o deməkdir ki, şəxsiyyət demokratik ictimai quruluşun yeni prinsiplərinə uyğunlaşır, köhnə dəyərlərdən imtina edərək yeni dəyərləri mənimsəyir, öz davranışının stereotiplərini sözügedən prinsiplərə müvafiq olaraq dəyişmək imkanı əldə edir, öz şəxsi mənafeyini ictimai mənafe ilə əlaqələndirmək qabiliyyətinə yiyələnir (5, s. 147). Şəxsiyyət həyatın mənasını, dəyişən dünyanın yeni mənzərəsini və insan qarşısında qoyduğu tələbləri düzgün müəyyən etdikdə onun yeni ictimai münasibətlərə sosial adaptasiyası uğurlu olur. Məhz buna görə də şəxsiyyətin sosial inkişafı və qlobal plüralist dünyagörüşünün formalaşması hər bir cəmiyyətin başlıca oriyentirlərindən biri olmalıdır.

İnsanın həyatda davranış xətti seçimini onun cəmiyyətə və özünün özünə münasibətini müəyyən edən fəaliyyət proqramıdır. Dünyagörüşü şəxsiyyətin fəaliyyətinin nəinki məzmunu, həm də onun dəyişdirici, səmtləşdirici istiqamətini müəyyən edir. Məhz buna görə də insan fəaliyyətinin strukturunda dünyagörüşün rolu yalnız xüsusi yer tutması ilə deyil, həm də onun inkişafına yaradıcı xarakter verməsindədir. Hətta elmi biliklər də dünyagörüşə bilavasitə deyil, transformasiya şəklində, yəni hər bir konkret şəxsiyyətin tələbatı, mənafeyi, dəyər oriyentasiyası, subyektiv qiymətverici qabiliyyəti və s. formada daxil olur.

## ƏDƏBİYYAT


1. Qılıcov İ.S. Fəaliyyət və dəyərlər seçimi, Bakı, 2005, 371 səh.
2. Rüstəmov Y. Fəlsəfənin əsasları, Bakı, 2004, 499 səh.
3. Rzayev M. Müasir şəxsiyyət (sosial-fəlsəfi təhlil), Naxçıvan, 2015, 326 səh.
4. Мурадов Ш.М., Гезалова А.К., Эфендиев. Глобализация, демографическое развитие и трудовая активность населения в Азербайджане, Баку, «Элм», 2007, 264 с.
5. Пелипенко А.А., Яковенко И.Т. Культура kak система. «Человеk», 1997, №5, 71-79 с.
6. Фром Э. Психоанализ и этиkа, М., Наyka, 1993.



## ABSTRACT

**Salmanova K.M.**

**CIVIL SOCIETY AND THE LEQAL STATE THE WORLDVIEW IS LIKE A DETERMINING FACTOR FOR THE IDENTITY OF THE PERSON**

The article states that the objective of the process of choosing the values of personality is the fact that the nature of the social life, ie the social necessity, the social attitudes, the social environment, the nature of the society and the state power have a profound impact on individual life.İt also states that modern society requires from everyone a sense of personal responsibility for correct identification and behavior. The worldview has always taken an active part in identifying the meaning of life, choosing the right way of life, formulating his convictions, developing and implementing the new program of action.



## РЕЗЮМЕ

**Салманова К.М.**

**В ГОСУДАРСТВЕННОМ И ПРАВОВОМ ГОСУДАРСТВЕ МИРОВОЗЗРЕНИЕ КАК ОПРЕДЕЛЯЮЩИЙ ФАКТОР ЛИЧНОСТИ ЧЕЛОВЕКА**

В статье утверждается, что целью процесса выбора ценностей личности является тот факт, что характер социальной жизни, то есть социальная необходимость, социальные установки, социальная среда, природа общества и государственная власть, оказывают глубокое влияние на жизнь человека.

В нем также говорится, что современное общество требует от каждого человека чувства личной ответственности за правильную идентификацию и поведение. Мировоззрение всегда принимало активное участие в определении смысла жизни, выборе правильного образа жизни, формулировании своих убеждений, разработке и реализации новой программы действий.

**PÜSTƏ ƏHMƏDOVA**
*Naxçıvan Dövlət Universiteti*
*pusteehmedova@yahoo.com*

# MUXTARİYYƏT DÖVRÜ NAXÇIVAN ƏDƏBİ MÜHİTİNDƏ İMADƏDDİN NƏSİMİ OBRAZI

**Açar sözlər:** *Azərbaycan ədəbiyyatı, Naxçıvan ədəbi mühiti, İmadəddin Nəsimi, bədii obraz*
**Key words:** *Azerbaijan literature, Nakhchivan Literary Environment, Imadeddin Nasimi, literary image*
**Ключевые слова:** *Азербайджанская литература, Нахчыванская литературная среда, Имадеддин Насими, художественный образ*

İmadəddin Nəsimi (1369-1417) qədim tarixə malik Azərbaycan ədəbiyyatının ən məşhur nümayəndələrindən biri olmaqla söz sənətimizin ideya - bədii yüksəlişində mühüm rol oynamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd olunması haqqında" 15 noyabr 2018-ci il tarixli Sərəncamında göstərildiyi kimi: "İmadəddin Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır. O, Şərqin zəngin mədəni - mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir" (1).

Mütəfəkkir şair İmadəddin Nəsimi haqqında indiyədək dəyərli araşdırmalar aparıldığı kimi, çoxsaylı şeirlər, həmçinin poemalar, romanlar və pyeslər də qələmə alınmışdır. Rəsul Rzanın "Son gecə", Nəbi Xəzrinin "Mənim babam baxan dağlar", Söhrab Tahirin "Karvan gedir", Musa Yaqubun "Şirvan alverçisi və Nəsimi", Ələkbər Salahzadənin "Od heykəli" poemaları, İsa Hüseynovun "Məhşər", Mahmud İsmayılın "İki od arasında" romanları, Bəxtiyar Vahabzadənin "Fəryad" mənzum dramı daha böyük maraq doğurur.

Muxtariyyət dövrü Naxçıvan ədəbi mühitinin ayrı-ayrı nümayəndələri də müxtəlif vaxtlarda İmadəddin Nəsimi haqqında bir sıra diqqətəlayiq əsərlər yazmışlar. Bu baxımdan ən irihəcmli nümunə şair - dramaturq Əkbər Məftunun "Nəsimi" adlı mənzum dramıdır. Bizə bəlli olduğu qədər bu pyes ümumən Azərbaycan ədəbiyyatında Nəsimiyə həsr olunmuş ilk dramatik əsərdir. Öncə Ə.Məftun barədə qısa məlumat verək.

Unudulmuş ədib Əkbər Məftun (Əkbərov Əkbər Qurban oğlu) 1912-ci ildə Ordubad şəhərində dünyaya göz açmışdır. Naxçıvan şəhərində təhsil almış, 1930 - cu ildə isə pedaqoji texnikumu bitirərək dörd il ərzində Nehrəm, Dırnıs, Əndəmic kəndlərində müəllimlik etmişdir. 1934-1938-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) dil və ədəbiyyat fakültəsində oxumuş, sonra Bakıda mətbuat və maarif sahəsində çalışmışdır. 1941-1942-ci illərdə ordu sıralarında döyüşmüş, tərxis olunduqdan sonra doğma yurdu Ordubadda maarif, mədəniyyət, mətbuat sistemində fəaliyyətini davam etdirmişdir (1942-1959-cu illər). Ə.Məftun sonra Bakıya köçmüş, nəşriyyatlarda işləmiş, 1969-1985-ci illərdə universitetdə dosent kimi çalışmışdır. Qocaman ədib 1990-cı ildə Bakıda dünyasını dəyişmiş, Ordubadda dəfn olunmuşdur (7, s.236).

1943-cü ildən Yazıçılar İttifaqının üzvü olan Əkbər Məftun həm şair, həm dramaturq, həm də ədəbiyyatşünas kimi fəaliyyət göstərmiş, bir sıra əsərlər yazmışdır. Onun böyük ədibimiz Məmməd Səid Ordubadinin poeziyasına həsr olunmuş namizədlik (fəlsəfə doktorluğu) dissertasiyası (1968-ci il) və onun əsasında çap etdirdiyi monoqrafiya (1987) səmərəli tədqiqatın nəticəsidir. 1935-ci ildə "Ədəbiyyat qəzeti"ndə çıxmış "Təyyarəçi" şeiri ilə ədəbi mühitə qədəm qoyan Ə.Məftunun bir sıra bədii əsərləri müxtəlif vaxtlarda Naxçıvanda və Bakıda dövri mətbuatda dərc olunmuş, həmçinin "Kiçik heykəltəraş" (1937), "Şeirlər" (1959), "Mənim baharım" (1972), "Şəfa bulağı" (1980) kimi kitablarında toplanmışdır.

Əkbər Məftun dramaturgiya sahəsində "Vətən qızı", "Sevənlər", "Saray", "Şahin" və s. nümunələr qələmə almışdır ki, bunların sırasında tarixi mövzuda yazdığı iki pərdəli "Nəsimi" mənzum pyesi xüsusi yer tutur. Müəllif "Nəsimi" əsərini 1946-cı ildə Ordubadda yazmışdır. Pyes müəllifin 1959-cu ildə çapdan çıxmış "Şeirlər" kitabında oxuculara çatdırılmışdır.

Bu mənzum dramda mütəfəkkir şair İmadəddin Nəsiminin bütün ömür yolu yox, onun həyatının Hələbdə keçən son mərhələsinin müəyyən bir məqamı diqqət mərkəzinə çəkilmişdir. Pyesin həcmcə nisbətən kiçik olan ilk pərdəsində biz Nəsimi obrazını görmürük. Lakin, dialoqlar şairin təqdimatına zəmin hazırlayır. Hələb Müftisinin öz iqamətgahında Zahidlə mükalimələrindən anlaşılır ki, hürufilərin ərəb ellərində də böyük təsiri vardır. Nəsimi tərəfdarlarının, hürufilik təriqətinə tapınanların sayı gündən-günə artmaqdadır. Bu isə hakim dairələri qorxuya salır. Yüksək vəzifə sahibləri və dini rəhbərlər nə yolla olursa olsun, hürufiliyin yayılmasının qarşısını almaq istəyirlər. Müftinin aşağıdakı sözləri də bundan soraq verir:

*Müfti (hirsli)*

...Artıq ağızları bağlamaq çətin,
Başqadır, görürəm dərdi millətin.
Deyirlər, şairin hər sözü qandır...
Şahin şəhpəri var hər kəlməsində,
Min qəzəb duyulur coşqun səsində.
Sarayın hörməti düşəcək, yəqin,
Onunla bacarmaz nə dövlət, nə din. (9, s.69-70)

Dialoqun davamında Müfti əsas təhlükə kimi Nəsiminin adını məxsusi vurğulayır:

...Fəzlullah öldüsə, Nəsimi sağdır,
Onun hər kəlməsi qəlbimə dağdır.
Gərək susdurulsun şairin səsi! (9, s.71)

O da məlum olur ki, hürufi ruhlu şeirlər oxuyan bir gənc həbsə alınmışdır. İşgəncələrə baxmayaraq o, şeirin əsl müəllifinin kim olduğunu bildirmir. Zindandakı oğlunun taleyindən narahat olan ana Müftinin iqamətgahına gələrək xahiş edir ki, övladını azad edib əvəzində onu cəzalandırsınlar. Fədakar ana hətta oğlunun xilası üçün ölümə getməyə də hazırdır. Lakin, Müfti onun xahişini rədd edərək saraydan qovdurur. Həbsə alınmış gənc hürufi isə ağır işgəncələrə mətanətlə sinə gərir, əqidəsindən dönmür, ustadı Nəsimini də ələ vermir. Oxuduğu şeirin müəllifinin kimliyi barədə sualı belə cavablandırır:

Öyrənmək istəsən, qəlbimi dindir:
Onun məftunuyam uşaqlığımdan,
Onun qiymətini bilməz hər insan! (9, s.74).

Belə olduqda Müfti buyruq verir ki, gənc hürufini edam etsinlər. Pyesin ik pərdəsi burada tamamlanır.

Mənzum dramın ikinci pərdəsində hadisələr Hələbdə edam meydanında baş verir. Din mübəlliğləri həbsə alınmış hürufini kafirlikdə ittiham edərək onu dar ağacının yanına gətirirlər. Bu məqamda Nəsimi özünü çatdırır. Şagirdinin qətlə yetirilməsinə razı olmayan mütəfəkkir şair deyir:

*Nəsimi (məğrur bir halda dar ağacının yanına gələrək, onlara hiddətlə)*

Müqəssir burdadır, buraxın onu,
Mənəm "tapdalayan" haqqı, qanunu!...
Adım Nəsimidir, yerim fələklər!
Qəzəl mənimkidir, ondan əl çəkin,
Nədir bir fəqirə bu qəzəb, bu kin? (9, s.81)

Əkbər Məftunun "Nəsimi" pyesindən müfəssəl söz açarkən ədəbiyyatşünas Həsənəli Eyvazlı yazır: "Nəsimi tarixi şəxsiyyətdir, şairdir. Əkbər Məftun da Nəsimini məğrur, əqidəsindən dönməyən, inandığını və duyduğunu yazan bir şair - təriqətçi kimi təqdim etməyə çalışmışdır. İstər Müfti ilə, istər Zahidlə, istərsə də Şeyxlə Nəsiminin dialoqu şairin daxili aləminin açılmasına xidmət edir" (6, s.66). Doğrudan da, bu mükalimələr Nəsimi obrazının mənəvi qüdrət və əzəmətini aşkarlayan bədii vasitələr kimi maraq doğurur. Din mübəlliğləri Nəsimiyə istehza, həm də hədə ilə deyirlər ki, sən Azərbaycanın Şirvan elindən canını qurtarmaq üçün qaçaraq Hələbə gəlmisən. Amma burada sənə xilas yoxdur, dinsizliyinə görə cəzanı alacaqsan. Nəsiminin cavabı onun yenilməzliyini bir daha diqqətə çatdırır:

*Nəsimi*

Məni qorxutmayır nə dar, nə zindan,
Mənəm dünyaları qurub yaradan! (9, s.82)

Son misranın mahiyyətində hürufiliyin "Ənəl həqq" (Haqq mənəm, yaxud Haqq məndədir) prinsipinin ifadə olunması da diqqəti çəkir. Vətəndən dərbədər düşməsinin səbəblərini isə Nəsimi belə izah edir: "Yox! Yox! Dərbədərəm təriqət üstə!.." (9, s.82). Edam meydanındakı mükalimələrdə Nəsiminin xarakterindəki qüdrət və əzəmət poetik ümumiləşdirmə vasitəsi ilə dolğun şəkildə üzə çıxır:

Vüqarlı dağları duman, qar alır!
Çox zaman başından əsir küləklər,
Yarır sinəsini odlar, şimşəklər...
Daraşır qoynuna ölüm ruzgarı,
Lakin, o dağların solmayır barı.
Bahar günəşinin selini görcək,
Açılır qoynunda min əlvan çiçək!.. (9, s.83).

Həqiqət, mənəvi kamillik və ədalət prinsipləri əsasında formalaşmış əqidəsini aşkar bəyan edən Nəsimi öz ustadı Fəzlullah Nəimini də bu məqamda ehtiramla xatırlayır, onun mənəvi ölümsüzlüyünü vurğulayır:

Xeyir! Məhv olmadı, o, indi sağdır,
Əməli, arzusu yaşayacaqdır!..
O, sönməz günəşdir mənim yolumda,

Onunla duyuram qüvvət qolumda!...
Ölsə də, vuruşdu məslək namına!
Onun dağlar qədər min cəlalı var,
O gedən yollara günəş nur saçar! (9, s.85)

Beləcə, böyük şair Nəsimi də müəllimi Nəimi kimi öz əqidəsi yolunda mətanətlə ölümə gedir. Nəsiminin edam səhnəsinin təsvirində Ə.Məftun qaynaqlardakı müxtəlif tarixi məlumatlara, eləcə də qeydə alınmış rəvayətlərə istinad etmişdir. Son tədqiqatlarda göstərildiyi kimi: "İlkin qaynaq və müasir araşdırmalarda Nəsiminin Hələbə gəlişi, həbsi və edamı daha çox məşhur rəvayət əsasında təsvir olunmuşdur (bir gəncin Nəsiminin şeirini meydanda oxuması, şairin irəli çıxaraq onu xilas etməsi və s." (2, s.216). Nəsimi haqqında rəvayətlərin birində deyilir ki, edam zamanı dərisi soyulan şairin rəngi saralır. Ruhanilər ona istehza edirlər ki, sən deyirdin, Həqqəm. Həqqsənsə, rəngin niyə saralır. Nəsimi belə cavab verir:

-Mən əbədiyyət üfüqlərində doğan eşq günəşiyəm. Günəş batanda rəngi saralar. (bax: 4, s.222; 11, s.327; 3, s.28-29 və s.). Ə.Məftun pyesdə şairin həmin sözlərini belə nəzərə çatdırır:

*Nəsimi*

Mən eşq üfüqündə günəşəm, bəli,
Sönməz kainatda haqqın məşəli!
Odur, bax, günəşi yerin, göylərin
Yalnız batan zaman saralar, bilin! (9, s.87-88)

Bu epizod pyesdə İmadəddin Nəsiminin mənəvi ömrünün əbədiyyəti kimi mənalandırılmışdır. Burada bir məsələyə də toxunmağa ehtiyac duyuruq. Bir sıra orta əsr qaynaqlarında və yazıya alınmış rəvayətlərdə İ.Nəsiminin diri - diri dərisinin soyulmasından söz açılır. Akademik Ziya Bünyadov 1980-ci ildə dərc etdirdiyi "Nəsiminin məhkəməsi və qətli" məqaləsində daha mötəbər sayılan mənbələrə (Əbuzərr Əhməd əl - Hələbinin "Künuz üz zəhəb" əsəri və s.) istinadən bu nəticəyə gəlmişdir ki, Sultan əl-Müəyyədin əmrinə görə, şair öldürülmüş, bundan sonra dərisi soyulmuşdur. "Nəsiminin diri - diri dərisinin soyulması sonralar xalq tərəfindən yaranmış bir əfsanədir və geniş kütlənin ona olan hüsn - rəğbətinin rəmzidir" (5).

Əkbər Məftunun pyesində Nəsiminin həbsə alınmış şagirdi də azərbaycanlı kimi verilmişdir. Bir maraqlı məqam da odur ki, Hələbin din və hakimiyyət nümayəndələri Nəsimiyə bir başqa ərəb şəhərində əsrlər öncə edam olunmuş Azərbaycan qəhrəmanı Babəkin aqibətini də istehza ilə xatırladırlar. Bu epizodda Nəsimi Babəkin şəxsiyyət və mübarizəsinə ehtiramını vurğulamaqla layiqli ənənələrin davamçısı kimi çixiş edir. Ümumən pyesdə bu epizod yaxşı düşünülmüşdür. Dramaturji konfliktin və obrazların təqdimindəki bəzi məhdud cəhətlərinə baxmayaraq, Əkbər Məftunun "Nəsimi" mənzum dramı böyük şairin bədii sürətini yaradan ilk pyes kimi özünəməxsus əhəmiyyət daşıyır.

Muxtariyyət dövrü Naxçıvan ədəbi mühitinin bir sıra digər nümayəndələri də İmadəddin Nəsiminin adını böyük əqidə mücahidi və ustad sənətkar kimi ehtiramla xatırlamış, bəzi şairlər isə ona ayrıca şeir həsr etmişlər. Bəzi nümunələrə nəzər salaq. Tanınmış şair Hüseyn Razinin (1924-1998) "Nəiminin məzarı başında", ("Şərq qapısı" qəzeti, 12 sentyabr 1976), "Nəimini düşünərkən" ("Bakı" qəzeti, 23 iyun 1976) şeirlərində Nəsiminin də mənsub olduğu hürufi təriqəti nümayəndələrinin tale yoluna, təliminə poetik ehtiram öz ifadəsini tapmışdır.

Hüseyn Razinin "Fikirlərin üsyanı" məqaləsi də mövzumuz baxımından maraq doğurur. Həmin resenziya ustad sənətkar Bəxtiyar Vahabzadənin Nəsimiyə həsr olunmuş "Fəryad" mənzum dramının Azərbaycan Dövlət Akademik Dram Teatrı tərəfindən Naxçıvan tamaşaçılarına göstərilməsi ilə əlaqədar yazılmışdır. H.Razi əsərin səhnə təcəssümü, rejissor işi, aktyor oyunu və s. barədə söz açaraq dəyərləndirmələr aparmış, qənaətlərini belə ümumiləşdirmişdir: "Teatr ...fikirlərin üsyanını ön plana çəkməklə müasirlik mövqeyindən düşündürən bir tamaşa yaratmışdır" (10).

Naxçıvan Yazıçılar Birliyinin sədri, tanınmış şair Asim Yadigarın da şeirlərində İmadəddin Nəsimiyə ehtiram özünün bədii ifadəsini tapmışdır. Məsələn; şair "Əlincə" şeirində Nəimi, Nəsimi adlarının əbədiyyətini yaşadan qayaları belə təsvir edir:

Heykəl kimi yonulan sərt qayalar
Qılıncların zərbəsindən qopubdur.
Bu daşlara Nəiminin kəlamı,
Nəsiminin qəzəlləri hopubdur. (12, s.62)

A.Yadigarın mütəfəkkir şair İmadəddin Nəsiminin "Sığmazam" rədifli qəzəlinə təxmis yazmasını da xatırlatmaq yerinə düşər. Bəllidir ki, poetik struktur baxımından müxəmməs formalı belə nümunələrdə hər bəndin 4-cü və 5-ci misraları başqa şairin şeirindən götürülür. Ona uyğun ilk üç misranı isə təxmis müəllifi qələmə alır. A.Yadigarın ustad şairin "Sığmazam" qəzəlinə təxmisi sadəcə nəzirə, ədəbi təsirlənmə faktı deyil. Bütövlükdə Nəsimi sənətinə və şəxsiyyətinə verilən bədii qiymətdir. Akademik İsa Həbibbəyli A.Yadigarın "Seçilmiş əsərləri"ndə ön söz kimi verilmiş "Vətəndaşlıq mövqeyi, plyus lirizm" adlı məqaləsində bu barədəki elmi

qənaətlərini belə ümumiləşdirmişdir: “Asim Yadigarın orta əsr Azərbaycan poeziyasının qüdrətli yaradıcılarından olan İmadəddin Nəsimiyə ithaf etdiyi və onun “Məndə sığar iki cahan, mən bu cahana sığmazam” misrası ilə başlanan məşhur şeirinə təxmis olaraq yazdığı şeirdə böyük mütəfəkkirin sənəti, əqidəsi və taleyi haqqında mötəbər sözlər ifadə olunmuşdur” (12, s.13). Təxmisin ilk bəndini xatırladırıq:

Mən zamandan ucadayam, vaxta, zamana sığmazam,
Şəkər dilim, bal sözümlə pətəyə, şana sığmazam.
Ruhum cövlan edir göydə, deyir bir canə sığmazam,
“Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,
Gövhəri-laməkan mənəm, kövnü məkanə sığmazam”. (12, s.168)

Naxçıvan ədəbi mühitinin tanınmış nümayəndələrindən olan Muxtar Qasımzadənin “Nəsimi” şeiri də poetik qayənin dolğun bədii təcəssümü ilə səciyyələnir. Uzaq Hələbdə, qürbət eldə məslək yolunda qurban gedən Nəsimini M.Qasımzadə belə təqdim edir:

Şərin üzünə qayıtdı deyə,
Şərqi oyatdı deyə, -soydular.
Dönmədi məsləkindən, diləyindən.
Onsuz da soya bilmədilər
Əqidəsini ürəyindən...

Şeirdə İmadəddin Nəsiminin mənəvi ölümsüzlüyü, sənəti və şəxsiyyəti ilə əbədiyyət qazanması belə poetikləşdirilib:

Çəkildi həqiqət göylərinə günəş kimi.
Əsrləri nurlada-nurlada
Qovuşdu əbədiyyətə Nəsimi. (8, s.76-77)

Deyilənlər göstərir ki, muxtariyyət dövrü Naxçıvan ədəbi mühitində mütəfəkkir şairimiz İmadəddin Nəsimi barədə bir sıra diqqətəlayiq əsərlər qələmə alınmışdır. Belə nümunələrdə şairlər mütəfəkkir ədib barədə düşüncələrini, onun sənətinə və şəxsiyyətinə ehtiramlarını dolğun bədii vasitələrlə ifadə etmişlər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında 15 noyabr 2018-ci il tarixli Sərəncamı, Azərbaycan qəzeti, 2018, 16 noyabr
2. Azərbaycan ədəbiyyatı tarixi, 6 cilddə, 3-cü cild, Bakı, Elm, 2009, 736 s.
3. Azərbaycan yazıçılarının həyatından dəqiqələr (tərtib ed. K.Məmmədov), Bakı, Gənclik, 1979, 304 s.
4. Babayev Y.M. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər), Bakı, Elm və təhsil, 2014, 760 s.
5. Bünyadov Z. Nəsiminin məhkəməsi və qətli, Ədəbiyyat və incəsənət qəzeti, 1980, 19 sentyabr
6. Eyvazlı H.C. Tarixi dramlarda ədəbi şəxsiyyət obrazı, Naxçıvan: Məktəb, 2009, 186 s.
7. Əhmədov T.Ə. XX əsr Azərbaycan yazıçıları (ensiklopedik məlumat kitabı), Bakı, Nurlar NPM, 2004, 984 s.
8. Qasımzadə M.Ə. Nuhçıxandan gəlirəm, Naxçıvan: Əcəmi NPB, 2013, 248 s.
9. Məftun Ə.Q. Şeirlər, Bakı, Azərnəşr, 1959, 96 s.
10.Razi H. Fikirlərin üsyanı, Sovet Naxçıvanı qəzeti, 1986, 25 iyun
11. Səfərli Ə.Q., Yusifli X.H. Azərbaycan ədəbiyyatı tarixi, Bakı, Ozan, 2008, 696 s.
12.Yadigar A. Seçilmiş əsərləri, 4 cilddə, 1-ci cild. Naxçıvan: Əcəmi NPB, 2016, 360 s.



**ABSTRACT**

**THE PERFECT PERIOD NAKHCHIVAN EDUCATION**
**THE MESSENGER OF IMMEDILED OBRAZI**

During autonomy many literary works dedicated to literary personalities were written in Nakhchivan literary environment. Some of them are about the famous poet Imadeddin Nasimi (1369-1417). The article analyzes Nasimi poems about Nasimi living in Nakhchivan. The poems of Huseyn Razi, Asem Yadigar, Mukhtar Gasimzade are considered. Akbar Maftun's "Nasimi" drama is investigated, the ideas and features of the work are analyzed.



**РЕЗЮМЕ**

**ИДЕАЛЬНЫЙ ПЕРИОД НАХЧЫВАНСКОГО ОБРАЗОВАНИЯ**
**ПОСЛАННИК НЕМЕДЛЕННОГО ОБРАЗИ**

Во время автономии многие литературные произведения, посвященные литературным деятелям, были написаны в литературной среде Нахчывана. Некоторые из них о знаменитом поэте Имадеддине Насими (1369-1417). В статье анализируются стихи Насими о Насими, живущих в Нахчыване. Рассматриваются стихи Гусейна Рази, Асема Ядигара, Мухтара Гасымзаде. Исследована драма Акбара Мафтуна «Насими», проанализированы идеи и особенности произведения.

**PƏRVİN ABDULLABƏYOVA**
*Naxçıvan Dövlət Universiteti*

## NAXÇIVAN FOLKLORUNUN DİLİNDƏ RƏNGLƏRİN ÜSLUB KEYFİYYƏTLƏRİ

**Açar sözlər**: *rəng, dil, üslub, Naxçıvan folkloru, bədiilik*
**Keywords:** *coloronyms, style, language, Nakhchivan folklore, artistry*
**Ключевые слова:** *цветообозначения, язык, стиль, Нахчыванский фольклор, художественность*

Estetik və bədii zövqün yaranmasında rənglərin böyük rolu vardır. İnsan həyatının bir parçasına çevrilən rənglər dildə də müstəsna əhəmiyyətə malikdir. Bu mənada, Naxçıvan folklor örnəklərinin dili rənglərin maraqlı üslub məqamları ilə səciyyəvidir. Demək olar ki, folklor janrlarının hamısında rənglərlə qarşılaşmaq mümkündür.

Naxçıvan ağız ədəbiyyatında Xızır peyğəmbərlə bağlı bir örnəkdə yaşıl rəngin aktiv mövqeyi ilə rastlaşırıq (3, 65). Rəvayətə görə Xızır peyğəmbər dirilik suyu axtarakən adamların əlinə ölü balıq verir və bu vasitə ilə abi - kövsər suyunu əldə etmək istəyir. Belə ki, həmin balıqlar yalnız abi - kövsər suyuna salındıqda dirilməli idilər. Adamlardan biri suyu görəndə əlindəki balıqla onu yoxlayır və məlum olur ki, axtardığını tapmışdır. O, sudan doyunca içir və başına tökür. Sonra bir qabı həmin su ilə doldurub Xızır peyğəmbərə gətirmək istəyir. Adam suyu ardıc ağacının altına qoyub Xızır peyğəmbəri çağırmağa gedir. Bu zaman göyərçinlər gəlib suyu içir, sudan bir qədər ağacın dibinə tökülür və ona görə də həmin ağac həmişə yaşıl qalır. Su içilərkən ətrafa sıçrayır və onun damcılarından “dovşan alması” adlanan bir kolun üzərinə də düşür. Rəvayətə görə o zamandan həmin kol yay - qış yaşıl olur.

Yaşıl rəng sevilən, rəssamlıqda, geyim və bəzək mədəniyyətində, o cümlədən bədii dildə tez-tez işlənən rənglərdəndir. Yaşıl təbiətin və cavanlığın rəmzidir. Onun insana müsbət təsirləri çoxdur. Yaşıl rəngin insanın görmə qabiliyyətini çoxaltması, sinirləri sakitləşdirməsi haqqında təsəvvürlər vardır. Əsəbləri gərgin olan insanların televiziya verilişlərindən əvvəl yaşıl otaqlara alınması təcrübəsi bir sıra dünya ölkələrində sınaqdan keçirilmişdir. Bədii dildə bu rəng şairlərin çoxunun ilham mənbəyinə çevrilmişdir. “Muğan” poemasında S.Vurğun təbiətin gözəlliklərindən, yamyaşıl geyinən dağlardan ilham aldığını poetik dil ilə ifadə etmişdir.

Naxçıvan folklorunda rəng məhdudiyyəti yoxdur. Müxtəlif janrlarda söylənən ağız nümunələrində rənglərin çoxu işlənir. Musa peyğəmbərlə bağlı bir rəvayətdə də yaşıl rəngin adı çəkilir. Lakin, burada yaşıl rəng sarı rənglə əlaqədə verilir. Rəvayətə görə, gözləri ağrıyan Musa peyğəmbər sağalmaq üçün Tanrıdan əlac istəyir. Tanrıdan vəhy gəlir: “Ya Musa, get filan dağın güney tərəfində daş, qaya yaratmışam. Onun yanında ot var. İrəngi yaşıl, çiçəyi sarı. O otu qopar, yu, təmizlə, qurusun. Döy onu, süz, suyunu saldır gözlərinə” (3, 79).

Ədəbiyyatın hər iki növündə rənglər üslub keyfiyyəti yaradan vasitə kimi diqqəti çəkir. Dini inanclara görə, mələklər həmişə yaşıl paltar geyər və yaşıl bağda yaşayarlar. Bu fikir yazılı ədəbiyyatda N.Gəncəvinin yaradıcılığında da öz əksini tapmışdır. Şair “Yeddi gözəl” poemasının “Bəhramın düşənbə günü yaşıl günbədə getməsi və üçüncü iqlim padşahı qızının hekayə söyləməsi” hissəsində yazır:

Elə ki düşənbə gəldi ortaya,
Şahın yaşıl rəngi yüksəldi aya,
Yaşıl çıraq kimi parlaq göründü,
Cənnət mələyitək yaşıl büründü (2, 168-169).

Diqqətədəyər faklardan biridir ki, dildə yaşıl rəngin gənclik bildirməsi məqamları çoxdur. Aşıq Qurbani qoşmalarından birində yaşılı qırmızı rənglə bağlı işlətmişdir: “Al, yaşıl geyinib durma qarşıda, Yayın bədnəzərdən göz dəyər sənə”. Naxçıvan folklor örnəklərində yaşılın həm tək, həm də başqa rənglərlə bərabər işlənməsi məqamları vardır. Bu anlamda, aşağıdakı ağı diqqəti çəkir:

Dağlar başı al olar,
Yaşıl olar, al olar.
Balası ölən ananın
Dili məgər lal olar? (3, 261).

Naxçıvan folklor örnəklərinin dilində yaşıl rəngin toy - bayram ifadə etməsi hallarına da rast gəlmək olar. Aşağıdakı layla bu fikri təsdiq edir:

Laylay desəm onunnan,
Yaşıl geysəm toyunnan.

Hər quzudan bir sürü,
Qurban desəm onunnan (3, 280).

Ədəbi - bədii dilin bütün tarixi mərhələrində rənglərə həmişə münasibət göstərilib, onların maraqlı üslub çalarlarından istifadə edilib. Bu mənada, Naxçıvan folkloru da rənglərlə zəngindir.

Naxçıvan folklorunda sarı rəngin də müəyyən mövqeyi vardır. Bu baxımdan, xalq oyunlarından biri olan "Günəşbanu oyunu" xarakterikdir (3, 139-140). Bu oyunda qalın kağızın üzü sarı rənglə boyanır, ona qara qaş çəkilir, iplərdən saç düzəldirdilər. Yəni günəşi təsvir edirdilər və bir nəfər də günəşi oynadaraq deyirdi:

Ay sarı, sarı gəlin,
Elimin varı gəlin (3, 139).

"Günəşbanu oyunu"nda sarı rəngin pozitiv mənası daha qabarıqdır və o, günəşin rəmzi kimi başa düşülür. "Sarı gəlin" adlanan günəş "elin varı" hesab olunur. Ona görə ki, günəşsiz heç bir məhsul əldə etmək mümkün deyildir. Günəşi hamı sevir, lakin hər kəs gözünü günəşdən qorumağa çalışır. Bu, sarı rəngin çoxçalarlı olduğunu göstərir. Belə ki, bütün rənglər kimi sarının da mənfi çalarları vardır. Naxçıvan folkloruna aid aşağıdakı örnəkdə sarının həsrət mənası bildirməsi verilmişdir:

Eləmi, sarı qaldı,
Günüm ağ, sarı qaldı.
Yolunu gözləməydən
Gözümdə sarı qaldı (3, 255).

Türk xalqlarının təsəvvüründə rənglərin müxtəlif təsirləri mövcuddur. "Sarı rəng qədim türklərdə, əsasən, pis, zərərli, ruhların daşıyıcılarının, xəstəliklərin, bomboş çöl və səhraların, uzun, soyuq qış günlərinin və s. simvolu sayılmışdır" (1, 14 ). Aşağıdakı bayatıda da buna bənzər məna özünü göstərir:

Gün getdi, sarı qaldı,
Günün avsarı qaldı.
Yoluna göz dikməydən
Gözümdə sarı qaldı (3, 261).

El arasında "gözləməkdən gözümün kökü saraldı" adlı frazeoloji ifadə də məlumdur. Bədii dildə sarı rəngin dərd - kədər, təəssüf bildirməsi məqamları az deyil. Bu baxımdan, aşağıdakı örnək maraqlıdır:

Bağçamızda sarı gül,
Yarı reyhan, yarı gül.
Tez açılıb gec soldun,
Olmuyayadın barı, gül (3, 262).

Araşdırmalar işlənmə aktivliyinə görə birinci sırada ağ və qara rəngin dayandığını göstərir. Naxçıvan ağız ədəbiyyatında adında "qara" sözü olan bir sıra örnəklərə rast gəlirik. "Qara daş" ziyarətgahı, "Qarağac ocağı" (3, 87), "Qara daş ocağı" (3, 88) adlı nümunələrdə də bu rəng fəal mövqeyi ilə seçilir. Sözügedən folklor nümunələrində qara rəngin həm müsbət, həm də mənfi mənaları özünü göstərir. Aşağıdakı örnəkdə "qara torpaq" söz birləşməsi ölümü ifadə edir:

Oğlannar girdi bağa,
Çiyni dəydi yarpağa.
Fələyin qaydasıdı,
Aparır qara torpağa (3, 245-246).

"Bağrım yandı, qaraldı" ifadəsi də dərd - kədərlə bağlıdır. Bu baxımdan, aşağıdakı örnək diqqəti çəkir:

Dərdlilər, yaralılar,
Ay bağrı qaralılar.
Qoy dərdli dərdin desin,
Ağlasın yaralılar (3, 258).

Maraqlıdır ki, Naxçıvanda yaranan tapmacalarda da qara rəngdən istifadə edilib. Açması "qatır" olan aşağıdakı tapmacada qara rəng qırmızı rənglə bərabər işlənib:

Əzizim, qara nədi?
Qaş üstə qara nədi?
Gönü göy, əti qırmızı,
Sümüyü, de görüm, qara nədi (3, 238).

Naxçıvan folkloruna aid inancların birində deyilir: "Qara pişiyi əvə qoymazdar. Qorxu gətirir əvə" (3, 121).

Naxçıvan folklorunda qaranın çalarlarından da istifadə edilib. Məsələn; "əsmər" sözündə qaralıq mənası vardır. Bu söz "qaraşın", "buğdayı" mənasını verir. Örnəklərdən birində deyilir ki, Şah Abbas nişanlısını qaçırıb bir qarının evinə gətirir. Qarının Şah Abbasa gözü düşür. O, Şah Abbasın nişanlısına deyir:

Sən neynirsən əsmər oğlan sevəsən?
Əsmər oğlan mənimdir (3, 98).

Naxçıvan folklorunda ağ rəngdən də istifadə olunmuşdur. Rəvayətlərdən biri "Ağziyarət" adlanır. Deyilənə görə, bu ziyarətgahın ətrafı tamamilə ağlıqdır. Əsərdə deyilir: "Belə rəvayət eliyillər ki,... gəlin, qız düşməndən qaçanda gəliplər o döşdə baxıplar ki, artıx bunnar çatıllar. Bırda artıx onnarı tutacaxdılar ki, onnar Allahtalıya yalvarıllar ki, bizi daş elə, ancax bınnara əsir eləmə" (3, 88). Beləliklə, qız - gəlin duadan

sonra ağ daşa dönür. Əslində, "daş" deyəndə insan təsəvvüründə "qara" rəng canlanır. Halbuki daşların içərisində ağ daşlar da var.

Naxçıvan folklorunda əhvalatların birində - "Qardaşlar, ay qardaşlar" adlı örnəkdə aşağıdakı nəzm örnəyi ilə qarşılaşırıq:

Köynəyin ağ saxlaram,
Yuyaram, ağ saxlaram (3, 113).

"Ağ" təmizlik, müqəddəslik, məsumluq rəmzidir. Dünyanın çox yerində gəlinlik paltarlarının rəngi kimi tanınır. Bəzi ölkələrdə ölümü təmsil etsə də, ölümdən sonrakı həyatın başlanğıcı hesab edilir. Mübahisələrdən uzaq və sərbəst olmağı sevən insanlar ağ rəngə üstünlük verirlər. Naxçıvan folklorunda qırmızı rənglə bağlı deyimlərə, ümumiyyətlə, müxtəlif önümunələrə rast gəlirik. Əvvəllər el adətlərinə görə, Gəlinlərə qırmızı paltar geyindirər, başına qırmızı yaylıq örtərdilər lki, qırımızı günə qarşı getsinlər. Çünki qırmızının bir mənası sevinc və şadlıqdır. "Xınayaxdı" mərasimi də bununla bağlıdır. Döyülüb dəmlənmiş xına otu barmaqlara qırmızı rəng verir ki, bu, toy simvolu kimi tanınır. Naxçıvan folklorunda haxıştalardan biri belədir:

O tayda quzu gördüm,
Tükü qırmızı gördüm.
Açdım cənnət qapısın,
Sevdiyim qızı gördüm (3, 273).

Naxçıvan folklorunda məzmçunu qəmli olan başqa bir bayatıda – ağıda qırmızı şadlıq ifadə etmir:

Burdan keçdi bir quzu,
Dırnaqları qırmızı.
Burda bir mağmın ölüb,
Nə oğlu var, nə qızı (3, 255).

Naxçıvanda yaranan tapmacalardan birində qara və qırmızı rəng təmasda verilir: O nədi, qara - qara qaramət, içi qırmızı qiyamət, yaş vurdum, quru çıxdı (3, 235). Burada qarala-qarala yanan və qıpqırmızı qızaran təndir, yaş vurulib quru çıxarılan isə çörəkdir. Aşağıdakı açması "diş" olan başqa bir tapmacada isə qırmızı rəng ağ rənglə təmasdadır: Qırmızı tifar üstündə ağca qayalar (3, 237).

Naxçıvan folklorunda elə örnəklər vardır ki, onların məzmununda rəng bildirən söz olmasa bda, rəngləri yada salan leksik-qrammatik vahidlər vardır. Məsələn; aşağıdakı nümunədə "toy paltarı" dedikdə qırmızı - yəni şadlıq, sevinc ifadə edən rəng, "kəfən" dedikdə isə "ağ" rəng başa düşülür:

Toy paltarı istədim,
Kəfənə bükülmüşəm (3, 244).

Bundan başqa, Naxçıvan folklorunda göy, abı, ala kimi rənglərlə bağlı örnəklər vardır.

Rəng məsələsində təbiətin bizə verdiyi töhfələr çoxdur. Təbiətdə gözəl bir uyğunluq ifadə edən rənglər bədii dilimizdə də semantik bolluğu ilə üslub keyfiyyətlərinin çoxalmasına imkan yaradır. Bu baxımdan, Naxçıvan folkloru maraqlı qaynaqlardan biridir.

## ƏDƏBİYYAT


1. Mədətoğlu A. Türklərdə rənglər və rəng anlayışı/ "Türküstan" qəzeti, 24-fevral-02 mart 2013-cü il, s. 14.
2. Nizami Gəncəvi, Yeddi gözəl, Bakı, Lider, 2004, 336 s.
3. Şərur folklor örnəkləri, Naxçıvan, Əcəmi, 2018, 328 s.


## РЕЗЮМЕ


**Парвин Абдуллабекова**


**СТИЛИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ЦВЕТООБОЗНАЧЕНИЙ В ЯЗЫКЕ НАХЧЫВАНСКОГО ФОЛЬКЛОРА**


В статье речьидёт о стилистических особенностях цветообозначений, употребляющихся в художественном языке. Исследование проводится на основе конкретных фактов и примеров из Нахчыванского фольклора. Выявляются значения, смысловые нюансы и особенности употребления цветообозначений в фольклорных образцах, относящихся k различным жанрам. В статье также даются интересные и оригинальные факты и сведения о часто теупотребления и преобладания конкретного цветообозначения в Нахчыванском фольклоре. Научно-теоретические положения статьи обосновываются языковыми и стилистическими фактами.


## ABSTRACT


**Parvin Abdullabeyova**


**THE STYLISTIC PECULIARITIES OF COLORONYMS IN THE LANGUAGE OF NAKHCHIVAN FOLKLORE**


The article deals with the stylistic peculiarities used in the artistic language. The research is carried out on the basis of the concrete facts and examples from Hakhchivan folklore.The semantics, shades of meaning and specific features of use of coloronyms in the folklore samples related to the different genres are revealed. The article also contains the interesting and originalin formation about the frequency of use and prevalence of the concrete coloronym in Nakhchivan folklore. The scientific-theoretical provisions of the article are justified by the language and stylistic facts.

**TOĞRUL CƏFƏRLİ**
*Naxçıvan Dövlət Universiteti*
*ckenedy666@hotmail.com*

## HEYDƏR ƏLİYEV DÜHASI AZƏRBAYCAN RƏSSAMLARININ ƏSƏRLƏRİNDƏ

**Açar sözlər:** *ümummilli lider, rəssamların əsərlərində,, təsviri sənət, rəsm*
**Key words:** *national leader, the art of profession of painting, colour, descriptive art, drawing*
**Ключевые слова:** *национальный лидер, искусство профессии живописи, цвет, изобразительное искусство, рисунок*

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin bədii obrazı müasir təsviri sənətimizin çox maraqlı, aktual, rəngarəng əsərlərlə zəngin olan mövzularındandır. Azərbaycan və dünyanın bir çox rəssamları ulu öndərin bədii – estetik baxımdan mükəmməl portretlərini yaratmışlar. Onların içərisində dünya miqyasında tanınmış, korifey fırça ustalarından tutmuş, incə zövqə və bənzərsiz sənət duyumuna malik həvəskarlara qədər, ulu öndərlə hələ uşaqlıq illərindən yaxın olan qocaman sənətkarlardan ibtidai siniflərdə oxuyan istedadlı məktəblilərə qədər fərqli simalar vardır. Bu rəssamlar həm Azərbaycanı həm də dünyanın digər ölkələrini təmsil edirlər. Heydər Əliyevin portretini rəssamlar yağlı boya və qrafika ilə, müxtəlif bədii texnikalarda və üslublarda işləmişlər. Onun mükəmməl obrazı qrafika sənətinin müxtəlif növlərində yaradılıb, xalçalarda toxunub, spesifik sənət sahələrində canlandırılıb. Ulu öndərin portreti hətta unikal vasitələrlə olduqca maraqlı, bənzərsiz materiallarla, qeyri - adi üsullarla işlənilib. Bu müdrik insanın nurlu çöhrəsi qiymətli daşlarla, muncuqlarla, zərif ipliklərlə, güllərlə, sünbüllərlə, buğda dənələri ilə hətta canlı insanların geniş sahədə müəyyən sıralarda düzülüşü ilə yaradılıb. Dünyada bu qədər əlvan vasitələrlə obrazı yaradılan ikinci bir şəxsiyyət tapmaq çətindir. Bütün bunlar əbədiyaşar, dahi şəxsiyyətə olan intəhasız sevginin, ürəkdən gələn bağlılığın, ümumxalq məhəbbətinin təzahürüdür. Bu təsviri sənət əsərləri ulu öndərin şəxsiyyətinə olan sonsuz məhəbbətin, yaradıcı marağın rəngarəng təzahürləri, sayı bilinməyən nur zərrələridir.

Azərbaycan incəsənətində Heydər Əliyevin obrazını yaradan sənətkarlardan Tahir Salahov, Ömər Eldarov, Oqtay Sadıqzadə, Nikas Safranov, Salavat Şerbakov, Kamil Əliyev, Eldar Mikayılzadə, Hüseynqulu Əliyev, Ülviyyə Həmzəyeva, Telman Abdinov, Həbibə Allahverdiyeva, Cavid İsmayılov, Natiq Əliyev, Akif Əsgərov, İlham Mirzəyev, Həmzə Sadıqov, Tamer Tuğrul, Məmməd İbrahimov və bir çox başqalarının rəsm əsərləri yaddaşlara yazılmışdır. Bu əsərlərdən hər biri bənzərsiz olub, ulu öndərin bədii obrazını yeni - yeni təcəssüm formalarında əks etdirir.

Azərbaycan xalqının ümumilli lideri, zəmanəmizin ən böyük azərbaycanlısı və Azərbaycanşünası, ümummilli lider Heydər Əliyevin bədii surəti müasir incəsənətdə bütöv bir obrazlar qalareyasını təşkil edir. Ulu öndərin müxtəlif rəssamlar tərəfindən işlənmiş portretləri müasir Azərbaycan təsviri incəsənətində yeni üslubun başlanğıcını qoymuşdur. Ulu öndərin rəssamlığın müxtəlif texnikalarında çəkilmiş portretləri digər ölkələrin müasir incəsənətində də müəyyən çəkiyə malikdir.



Ulu öndərin portretini yaratmış rəssamlar içərisində xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının vitse - prezidenti, Dövlət Mükafatı laureatı Tahir Salahovun xüsusi yeri vardır. Ulu öndərə olan dərin hörmət və ehtiram hissləri, şəxsi tanışlıq, Bakıda və Moskvadakı görüşlər rəssama bu dahi şəxsiyyətin obrazını yaratmağa stimul vermişdir.

Tahir Salahovun ulu öndər təsviri olunan, yağlı boya ilə işlənmiş iki portret əsəri daha məşhurdur. Bunlardan biri ulu öndərin Moskvadakı fəaliyyət illərini, digəri isə onun xalqın tələbi ilə yenidən hakimiyyətə gəlişindəndən sonra, müstəqil Azərbaycanın prezidenti olduğu dövrü əks etdirir.

Hər iki əsər Tahir Salahovun yaradıcılığına xas olan canlı, emosional üslub tərzinə, yüksək peşəkarlığa, zəngin, kontrastlı kolorit həllinə malikdir.

Ulu öndərin Moskva dövrünü əks etdirən portret Şəmkir şəhərindəki Heydər Əliyev mərkəzində saxlanılır (5). Əsərin kompozisiyası akademik quruluş tərzinə, düzgün proporsionallığına, simmetriyaya malikdir. Klassik portret janrının canlı nümunəsi olan bu əsər mükəmməl kompozisiya quruluşu, parlaq və təzadlı kolorit həlli ilə

yadda qalır. Heydər Əliyevin əynindəki tünd göy rəngli kostyum onun ağ köynəyi, qırmızı qalstuku, əyləşdiyi yumşaq kreslonun al - qırmızı üzlüyü və arxa planda, pəncərələrdən görünən Kreml ansamblı tikililəri ilə maraqlı, orijinal təzad yaradır. Bu portretin daha dolğun qavranılmasına, canlı təsir bağışlamasına kömək edir.

Portretin ən mühüm mənəvi-psixoloji xüsusiyyətlərindən biri ulu öndərin nəcib, insani xüsusiyyətlərinin qabarıq ifadə olunmasındadır. Heydər Əliyevin bir qədər gülümsər, aydın çöhrəsi, tamaşaçılara yönəlmiş nüfuzedici, eyni zamanda mehriban baxışları onun bir şəxsiyyət kimi humanist təbiətindən xəbər verir. Əsərin kompozisiyası rəsmi xarakter daşısa da, obrazın daxili aləminin təcəssümü onun məhz insani keyfiyyətlərinin üzə çıxarılmasına yardım göstərir.

Portretdə simvolizm xüsusiyyələri güclüdür. Bu simvolizm daha çox xarakterik mənzərələrin, əşyaların kompozisiyaya daxil edilməsində özünü biruzə verir.

Ümumiyyətlə qeyd etməliyik ki, istər ənənəvi, istərsə də müasir portretlərdə xarakterik (simvolik) əşya və elementlərin qabardılması tendensiyası güclüdür. Ulu öndərin portretlərində bu cəhət özünü daha aydın biruzə verir. Onun Moskva dövrünü əks etdirən portretin iriölçülü xarakterik cizgiləri kimi ilk növbədə diqqətimizi arxa plandakı simmetrik pəncərələrdən görünən Kreml tikililəri cəlb edir. Soldakı pəncərədən Srassk qülləsi və Qurultaylar sarayı, sağda isə Böyük Kreml sarayı diqqəti cəlb edir. Moskva Kremlinin ən mühüm görüntüləri portretdə həm də qüvvətli rəmzi məna daşıyır. Tahir Salahov Sovet dövlətçiliyinin simvolları sayılan həmin tikililəri ulu öndərin əhatəsində qruplaşdırmaqla Heydər Əliyevin yenilməz dövlətçilik gücünü, SSRİ-nin ən nəhəng dövlət xadimlərindən biri olduğunu, SSRİ hökumətini idarə etmək qüdrətini və bacarığını rəmzi vasitələrlə ifadə etmişdir.

Həm bədii sənətkarlıq və kompozisiya quruluşu baxımından, həm də ideya - estetik baxımdan bu portret ulu öndər Heydər Əliyevin ən qiymətli portretləri cərgəsində özünə yer tutur.

Tahir Salahovun ulu öndərə həsr etdiyi ikinci qiymətli portret işi onun artıq müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrü əks etdirir (3). Əsər böyük bədii və ideoloji çəkiyə malikdir. Bu iki portreti ideya - bədii kontekstdə müqayisə etdikdə, ulu öndərimizin zəngin həyat və rəhbərlik fəaliyyətinin geniş müstəvidə əks olunan inkişaf dəst - xəttini görə bilərik. Birinci portretdə Heydər Əliyev dünyanın ən güclü dövlətlərindən biri olan Sovetlər ölkəsinin hakimiyyət simvolları çevrəsində, bu nəhəng dövlətin idarəçiliyi məramında əks olunursa, ikinci portretdə onun artıq müstəqil Azərbaycanın ali dövlət hakimiyyətinin canlı simvolu qismində görürük. Ulu öndər Moskvada çalışdığı illərdə qırmızı imperiyanın çökəcəyini, ictimai - siyasi həyatda, mövcud quruluşda köklü dəyişikliklərin olacağını öncədən görüb başa düşür, Azərbaycanın rifahı, qarşıdan gələn müstəqillik dönəmində onun taleyinin uğurlu olması üçün var gücünü sərf edir, Kreml divarları içərisində, olduqca mürəkkəb siyasi şəraitdə durmadan, nəzərə çarpdırmadan Azərbaycanın xeyrinə işlər görürdü. Bu iki əsərin ifadə etdiyi ideya - bədii mahiyyət ulu öndərin surətində yaxın keçmişin taleyüklü məqamlarını gözlərimiz önündə canlandırır. Onun Moskva və Bakı portretləri sanki müstəqilliyə uzanan yolun çətin başlanğıcını və işıqlı sonunu özündə təcəssüm etdirir.



Maraqlıdır ki, ikinci, Bakı portretində ulu öndərin obrazının özü artıq simvola - müstəqil və qüdrətli Azərbaycanın simvoluna çevrilir. Eyni zamanda burada rəmzi xarakterli cəhətlərə, xüsusiyyətlərə rast gəlinir. Bunlardan ilk növbədə ulu öndərin əzəmətli duruşundakı dövlətçilik qətiyyətini sezmək olar. Tahir Salahov kompozisiyanın baxış bucağını orta xətdən yuxarı götürməklə portret janrında az təsadüf olunan rakurs seçmişdir. Bununla rəssam nəinki obrazın zahiri pafosunu azaltmır, əksinə, onun əzəmətli görkəminin daha dolğun təcəssüm olunması üçün maraqlı baxış nöqtəsi əldə etmiş olur. Baxış xəttini bir qədər yuxarıya qaldırmaqla rəssam həm də kompozisiyadakı predmetlərin daha aydın görünməsini təmin edir. Yüksək rakurs geniş iş stolunun üstündəki əşyaları, obrazın arxasındakı kreslonu, kompozisiyanın sağ hissəsindəki xidməti telefon aparatlarını, nəhayət, pəncərədən görünən Bakı mənzərəsini daha aydın və həcmli əks etdirir. Ulu öndərin iş stolu arxasında ayaq üstə dayanması, əlində qələm tutması düşünülmüş simvolik ifadə vasitələri olub mənəvi möhkəmliyi, siyasi sayıqlığı, dövlət idarəçiliyini ifadə edir, eyni zamanda orijinallığı ilə fərqlənir.

Portret özünəməxsus rəng həlli ilə yadda qalır. Birincisi, Moskva dövrü portretindən fərqli olaraq bu portretdə Tahir Salahov kontrast rənglərdən az, ümumi, bərabərləşdirici tonlardan isə çox istifadə etmişdir. Portretin kolorit həllinin əsasında arxa planın və ətrafın açıq - qırmızı sarı və çəhrayı tonları, həmçinin kostyumun tünd rəngi dayanır. Açıq tonlar ulu öndərin əynindəki tünd rəngli kostyumun və bütövlükdə obrazın daha aydın, əzəmətli görünməsini təmin edir. Kompozisiyanın alt hissəsində kostyumun tünd tonları ayaq üstə durmuş obrazın qarşısındakı geniş yazı masasının tünd rənginə qarışaraq dayanıqlı, tutqun koloritin əsasını əmələ gətirir.

Ulu öndərin portretində rast gəldiyimiz şəhər görüntüləri yardımçı bədii element olmaqla özündə maraqlı simvolik səciyyə daşıyır. Onun həm Moskva, həm də Bakı portretlərində şəhər mənzərəsi elementləri işlənilib. Moskva portretində bu, Kreml görüntüləri - hakimiyyət rəmzidir. Bakı portretində isə şəhərimizin mənzərəsinin, Qız qalasının, İçəri şəhər abidələrinin kompakt görünüşü milli vətənpərvərlik, dövlətçilik, azərbaycançılıq ideyalarını ehtiva edir. Ulu öndərin iş otağının pəncərəsindəın görünən Bakı mənzərəsi bu böyük şəxsiyyətlə onun xalqının, vətəninin, torpağının, şəhərinin bağlılığını rəmzi formada əks etdirir. Tahir Salahovun portretdə Qız qalası, İçərişəhər tikililərini əks etdirməsi təsadüfi deyil. Bu, ölkəmizin qədimliyinin, tarixən zəngin dövlətçilik ənənələrinə malik olmasının ifadəsidir.

Şübhəsiz ki, portretin ən mühüm hissəsi ulu öndərin obrazı, onun simasıdır. Rəssam bu simanı yüksək dəqiqliklə əks etdirməklə yanaşı, həm də onun çoxcəhətli idarəçilik və humanist keyfiyyətlərini üz cizgiləri vasitəsilə göstərməyə çalışmışdır. Moskva portretindəki işgüzar, təbəssümlü çöhrə burada daha statik, təmkinli, bir qədər dalğın sima ilə əvəzlənmişdir. Bu cəhət təkcə ulu öndərin yaşının daha müdrik çağlarında olmasının təzahürü deyil. Bu həm də onun öz tarixi missiyasını yerinə yetirilməsindən - müstəqil dövlətimizi qurmasından və möhkəmləndirməsindən doğan bir rahatlığın, arxayınlığın təzahürüdür.

Müasir Azərbaycan rəngkarlığında Heydər Əliyevin ən maraqlı portretlərindən birini Xalq rəssamı Oqtay Sadıqzadə yaratmışdır (4). Qeyd edək ki, rəssamın yaratdığı çoxsaylı rəngkarlıq əsərləri içərisində bu portret xüsusilə seçilir. Portret zahiri təntənəsi, düzgün kompozisiya quruluşu, işıqlı rəng tonları ilə diqqəti cəlb edir.

Məlum olduğu kimi hər bir əsər müəllifinin üslub xüsusiyyətlərini özündə əks etdirir. Tahir Salahovun yaratdığı Heydər Əliyev portretləri onun yaradıcılıq üslubuna xas sənət xüsusiyyələrini - kontrast rəng tonları, kəskin işıq - kölgə oyununu gözlərimiz önündə canlandırır. Oqtay Sadıqzadənin portret yaradıcılığı isə fərqli cəhətlərə malikdir. Burada klassik rəssamlıq prinsipləri, bayraq əhvali - ruhiyyəsi, nisbətən sakit kolorit həlli, rəng tonlarının ehmal keçidi kimi xüsusiyyətlər özünü göstərir. Rəssamın yaradıcılığına xas olan bu cəhətlər ulu öndərin portretində daha aydın nəzərə çarpır. Oqtay Sadıqzadənin ən maraqlı portret işlərindən olan bu əsərdə Heydər Əliyevin bədii baxımdan kamil, böyük sənətkarlıqla yaradılmış sürəti əzəmətli görünüşündən daha çox təmkinli, bir qədər sərbəst pozası ilə diqqəti cəlb edir.



Portretin kompozisiya əsasını klassik ifadə formaları təşkil edir. Rəssam ulu öndəri oturmuş vəziyyətdə, tam ölçüdə təsvir etmişdir. Tahir Salahovun ulu öndərin Moskva dövrünü əks etdirən portretində də obraz oturmuş vəziyyətdə təsvir olunmmuşdur. Lakin, həmin əsərdə Tahir Salahov ulu öndəri öndən təsvir etdiyi halda, Oqtay Sadıqzadə obrazın kompozisiyasını dörddə üç dönüşdə quraraq onu akademik təsvir prinsiplərinə uyğunlaşdırıb. Portretdə ulu öndər geniş kresloda oturaraq sağ ayağını sol ayağının üstünə aşırmışdır. O sol əlini kreslonun dirsəkliyinə, sağ əlini isə yanındakı mizin üstünə qoymuşdur. Akademik sənət formalarına uyğun olaraq rəssam ulu öndəri iş prosesində deyil, sadə və sərbəst pozada təsvir etmişdir.

Portretin məkan həlli maraq doğurur. İnteryer dəbdəbəli, barokko sənətini andıran görünüşə malikdir. Klassizim sənətinə xas olan maraqlı interyer və mebellər əsərdə bayram əhvali - ruhiyyəsini yaradır. Forma və faktura etibarilə Lüdoviq üslubunu xatırladan ağ rəngli kübar mebellər, interyerin bədii tərtibatının bir hissəsi olan antik sütun kompozisiyasının zəngin interyer həllini tamamlayır.

Əsərin kompozisiyası predimetlərin qarşılıqlı mütənasibliyi ilə yadda qalır. Oqtay Sadıqzadə özünə xas olan diqqət və səliqə ilə kompozisiyadakı əşyaları qruplaşdırmışdır. Belə ki, tablonun sol alt hissəsində təsvir olunan, ulu öndərin sağ əlini üstünə qoyduğu miz, sağ üst hissədəki antik sütunla proporsional və kolorit ahəngdarlığı təşkil edir. Eyni zamanda sol üst küncdə bir hissəsi görünən çərçivəli şəkil dioqonal istiqamətdə - alt hissədəki parket xanaları ilə quruluş bənzərliyinə, mütənasibliyə malikdir. Predmetlərin paylaşdırılması ulu öndərin surətinin daha dolğun əks olunması ilə yanaşı, həm də kompozisiyadakı dayanıqlığı artırır.

Portretin rəng həlli də diqqətdən kənarda qalmır. Klassik ənənələrə istinad edən rəssam daha çox soyuq və neytral rənglərdən istifadə etmişdir. Ulu öndərin əynindəki tünd rəngli kostyum üst hissədəki divarın yaşıl - sarı rəngi ilə kolorit harmonikliyinə malikdir. Yeni zamanda oxşar harmonikliyi tablonun alt hissəsində - açıq qəhvəyi rəngli parketdə müşahidə etmək olar. Rəssam tünd rəngli kostyumu yuxarı və aşağı hissələrdəki təxminən bərabər ölçülü, açıq koloritli (yaşıl - sarı və açıq qəhvəyi) səthlərin arasında yerləşdirməklə onu daha da görümlü nəzərə çarpan etmişdir. Antik və klassik motivlər, sərbəst poza ilə yanaşı “sakit” kolorit də portretin elit (kübar) xarakterini müəyyən edir.

Portretin işıq - kölgə quruluşu da maraq doğurur. Oqtay Sadıqzadə işığı sağdan - ulu öndərin üzünü tutduğu tərəfdən verməklə ənənəvi quruluş tərzinə riayət etmiş, eyni zamanda onun simasını, demək olar ki, bütünlüklə işıqlı sahəyə daxil etmişdir. Obrazın üzü və əlləri kompozisiyanın tamamilə işıqlı sahəsindədir. Görünməyən pəncərədən düşən işıq seli obraza doğru yönəlmiş, kompozisiyanın aşağı sağ küncü isə kölgədə qalmışdır. Əks istiqamətdə - yuxarı sol küncdə, ulu öndərin arxasında nisbətən qaranlıq mühit işləməklə rəssam kompozisiyanın işıq - kölgə həllində də proporsional effektə nail olmuşdur. Əsərdə predmetlərlə yanaşı kölgə - işıq effekti də dioqonal istiqamətdə (çəpinə) yönələrək maraqlı görüntü yaradır.



Ulu öndərin yağlı boya ilə işlənmiş portretləri cərgəsində istedadlı rəngkar İlham Mirzəyevin 2014-cü ildə 90X73 ölçüdə çəkdiyi əsəri də xatırlamaq vacibdir. Geniş mövzu dairəsinə, əlvan palitraya malik rəssam portret janrına da müraciət edir. Onun yaratdığı portretlər içərisində ən dəyərlilərindən biri, şübhəsiz ki, Heydər Əliyevin portretidir (2).

Əsərin kompozisiyası sadədir. Ulu öndərin beldən yuxarı verilmiş pozası dörddə üç dönüşə yaxın olub nəzərləri tamaşaçıya dikilmişdir. Üz bədənə nisbətən daha kiçik dönmə bucağına malik olub anfasa yaxınlaşır. Ulu öndərin əynindəki geniş yaxalıqlı, qara rəngli smoking tipli kostyum, boğazındakı “kəpənək” və ona müvafiq kəpənək yaxalıqlı ağ köynək, döş cibində görünən bir ucu yuxarı qatlama ağ yaylıq portreti elit (kübar) tipə aid etməyə imkan verir. Portretin fonu tünd və neytraldır. Bu cəhət diqqətin bilavasitə obraza yönəlməsinə yardım edir. Əsər Heydər Əliyevin tünd neytral fonda işlənmiş azsaylı portretlərindən biridir.

İlham Mirzəyev portreti isti tonlarla işləmişdir. İsti tonlar portretə daxili sabitlik, təmkinlilik xüsusiyyətləri verir. Obrazın üzü açıq rəng tonları ilə işlənərək kompozisiyanın ən işıqlı hissəsini əks etdirir. Ulu öndərin üzündəki mehriban, səmimi təbəssüm portretin kübar xarakterinə uyğundur. Rəssam surətin zahiri görünüşündə, üz ifadəsinin seçilməsində, həmçinin əsərin kolorit həllində akademik normalardan məharətlə istifadə etmişdir.

Portretin texniki xüsusiyyətlərində də akademik rəngkarlıq normaları parlaq təzahür edir. İlham Mirzəyev rəng və tonallıqdan məharətlə yararlanaraq insanda zəngin kolorit təəssüratı yaradan portret ərsəyə gətirib. Portretin zəngin və səlis rəng həlli onu peşəkar tədris normalarına yaxınlaşdırır. İşıq kölgədən qaynaqlanan maraqlı optik effektlər tamaşaçıda zəngin təəssürat yaradır.

İşıq - kölgə oyununun əsas şərtlərindən olan tonallıq və refleks portretdə özünü aydın biruzə verir. Hər iki element əsasən obrazın kostyumunda və fonda nəzərə çarpır. Kostyumun yaxalığındakı rəng keçidi maraqlı tonallıq nümunəsi yaradır. Tonallığın başqa bir nümunəsini obrazın boğazındakı qara “kəpənəyin” rəng həllində müşahidə edirik. Kompozisiyada cüzi yer tutan bu kiçik element mürəkkəb rəng keçidlərinə malikdir. “Kəpənəyin” qatlama forması rəng keçidlərinin təsiri ilə daha dolğun təsir bağışlayır. Burada özünəməxsus rəng refleksi - kölgə düşən səthdə zəif işıqlı səthlər nəzəri cəlb edir. Bütün bunlar müəllifin portret üzərində çox həssaslıqla işləməsinin göstəricisidir. İlham Mirzəyev ilk iri ölçülü rəng yaxmalarını hamarlayaraq ton keçidlərinin kəskinliyini demək olar ki, hər yerdə itirmiş, yalnız kontrastlıq tələb olunan hissələrdə saxlamışdır.



Çox sevindirici haldır ki, müasir təsviri incəsənətimizin yaradıcı insanları içərisində elə gənc rəssamlar da görürük ki, dünya rəssamlıq sənətində öz dəsti xəttləri, özünəməxsus tərzdə çəkilmiş müxtəlif səpkili əsərləri, silsilə portretləri ilə məşhurlaşırlar. Bu gənc rəssamlardan xüsusilə Günay Mehdizadəni qeyd etmək lazımdır. Günay Mehdizadənin portretlər silsiləsi içərisində xüsusilə dahi öndər Heydər Əliyevin portretini göstərmək istərdik ki, bu portretdə gənc rəssam obrazın əhatəli ifadəsini öz tamaşaçısına təlqin edir. Üçrəngli milli bayrağın fonunda görüntüyə gətirilən görkəmli dövlət xadiminin obrazında onun şəxsiyyətinin miqyasına müvafiq qürur hissi və möhtəşəmlik duyulmaqdadır. Portretin fonunda Azərbaycanın qədim və müasir memarlıq abidələrinin təsvirini verməklə rəssam bu əsərə gözəl təbii çalar, emosionallıq gətirməklə yanaşı, onun tamaşaçıya çatdırmaq istədiyi ideya öz həyatını müasir Azərbaycanımızda baş verən abadlıq, quruculuq işlərinə, onun müstəqilliyinin möhkəmləndirilməsi və işıqlı gələcəyi, parlaq sabahları üçün qurban verən dahi öndərin əcdadlarımızın qurub - yaratmaq ənənəsini davam etdirdiyinə işarədir. Burada təsvir olunmuş memarlıq abidələrinə fikir versək görərik ki, göstərilən hər bir

tarixi abidəmiz müqəddəs torpağımızın bir simvolunu, dünyaya göstərdiyi bəşəri dəyərlərimizi özündə ehtiva edir. Məsələn; Alov qülləri və Atəşgah məbədi - Azərbaycanın odlar yurdu olduğunu göstərir ki, bildiyimiz kimi od 4 müqəddəs ünsürdən biridir. Möminə Xatın türbəsi - dünyada qadına göstərilən hörmətin, sevginin, əyani sübutu. Əsl sevgi abidəsi. Qız qalası - müdafiə xarakterli tikilimiz, o abidə ki, tarix boyu bu tipli qalalarda qəhrəman Azərbaycan oğulları öz torpağını qorumaq bahasına daima vuruşmuş, düşmənə boyun əyməmiş, lazım gəlsə canlarını belə fəda etmişlər və ən nəhayət Heydər Əliyev Mərkəzi - xalqımızın milli ideya ətrafında, azərbaycançılıq ideologiyası ətrafında birləşməsini şərtləndirən, azərbaycançılıq məfkurəsinin öyrənilməsi işinə mühüm töhvə verən mənəvi dəyərlərimizin məbədgahlıq simvolu, müstəqil Azərbaycanımızın dövlətçilik məbədi.

İstedadlı rəssam Günay Mehdizadənin yaratdığı ulu öndər Heydər Əliyevin parlaq boyalarla işlənmiş portreti işıqlı yerlikdə qrafik cizgilərlə təsvir olunmuş tikililərin fonunda cəlbedici və yaddaqalandır (1).

Bəli, Azərbaycan təsviri sənətinin görkəmli sənətkarlarının beynəlxalq aləmdə tanınmalarına - onların incəsənətimizə bəxş etdiyi möhtəşəm sənət əsərləri ilə yanaşı, odlar yurdu Azərbaycanımıza Heydər Əliyev kimi sənətə və sənətkara dəyər verən böyük bir dühanın rəhbərlik etməsi zəmin yaradıb. Odur ki, bu böyük dahinin vaxtilə gördüyü bütün xeyirxah əməllər incəsənətimizin daimi inkişafına, bütünlükdə isə Azərbaycanın tanınmasına və təbliğinə xidmət etdiyi üçün ulu öndər, dünyaşöhrətli siyasətçi, ümummilli lider Heydər Əliyev daima qəlblərdə yaşayacaq, illər keçsə belə xalq öz müdrik oğlunu unutmayacaq, onu böyük qürur hissi ilə anacaqdır.

## ƏDƏBİYYAT


1. http://bakipost.az/onun-obrazlar-qalereyasi-ziyadxan-eliyevin-yazisi-fotolar/
2. http://ilhamart.com/foto/360/h-eliyev-90x73-ketan-yagli-boya-2015
3. http://narimanov.cls.az/more/text/44175
4. http://novxanililar.narod.ru/index/oq/0-141
5. http://shamkirheydaraliyevcenter.az/page/isci-hey%C9%99ti/3


## ABSTRACT


In the history of descriptive art highly developed in the light of National Leader Heydar Aliyev's ideas, as well as the works of art reflecting different stages of Great leader's life and activity, independency years are the perfect patterns of Azerbaijani art.


## РЕЗЮМЕ


В свете идей общенационального лидера Гейдара Алиева изобразительное исскуство достик пик своего развития в то же время произведения исскуства отражая разные периоды в нашей истории жизненный и творческий путь великого лидера являются самыми уникальными образцами суверенного Азербайджана

**MEHRİBAN CƏFƏROVA**
*Naxçıvan Dövlət Universiteti*

# MUĞAM TƏDRİSİNİN PROBLEMLƏRİ

**Açar sözlər:** *muğam tədrisi, tədrisin problemləri, mədəniyyət, musiqi elmi, klassik muğam*
**Key words:** *mugham teaching, problems of teaching, culture, musical science, classical mugham*
**Ключевые слова:** *преподавание мугама, проблемы преподавания, культура, музыкальная наука, классический мугам*

Azərbaycanın şifahi ənənəli professional musiqi irsini - bəşəriyyətin şah əsərləri sırasına daxil olunmuş muğam sənətini qoruyub saxlamaq, inkişaf etdirmək müasir dövrdə irəli sürülən ən vacib məsələlərdəndir. Dövlətimiz tərəfindən muğam sənətinə hər tərəfli diqqət və qayğı yetirilir. Həyata keçirilən muğam sənətinin qorunması, inkişafı və təbliği ilə bağlı layihələr çərçivəsində muğam müsabiqələrinin, beynəlxalq muğam festivalının keçirilməsi, muğam ustadlarının yaradıcılığını özündə əks etdirən səsyazıların, albomların nəşri, çoxsaylı muğam konsertlərinin təşkili və s. rəngarəng tədbirlər bu qədim sənətin yaşadılmasına xidmət edir. Bütün bunların əsasında isə ilk növbədə muğamın tədrisi problemi, görkəmli ustad sənətkarlarımızın yaradıcılıq ənənələrinin gənc muğam ifaçılarına ötürülməsi məsələləri durur. Muğamın tədrisi məsələləri bütün dövrlərdə diqqət mərkəzində olmuş, müxtəlif yanaşma tərzi ilə seçilmişdir. Belə ki, qədim dövrlərdən muğam sənəti şifahi ənənələr əsasında ustaddan - şagirdə ötürülmüş, yaddaş vasitəsilə nəsildən - nəslə keçmişdir. Əlbəttə ki, muğam sənətinin tədrisində yazılı vəsaitlərdən istifadə olunmamışdır. Muğam sənətinin tədrisi fərdi qaydada aparılır. İfaçılıq təcrübəsində mövcud olan bütün muğam adları, şöbələrin musiqi materialı, inkişaf xüsusiyyətləri, dəstgah daxilində bir şöbədən - digərinə keçid yolları, muğam və təsniflərin quruluş xüsusiyyətləri və s. muğam ifaçılığı ilə bağlı cəhətlər əyani şəkildə ustad tərəfindən şagirdə mənimsədilir. Bu baxımdan şagirdin musiqi duyumu, hafizəsi, qabiliyyəti və mənimsəmə bacarığı böyük əhəmiyyət kəsb edir. Təbii ki, muğam sənətinin qayda - qanunları pərakəndə şəkildə deyil, nizamlı bir sistemə tabedir və bu sistemin bütövlükdə dərk olunması və mənimsənilməsi vacib şərtdir. Hər bir muğam ifaçısı bu bünövrə əsasında yetişir və özünəməxsus yolla muğam ustadlarının yaratdıqları ənənələri davam etdirir, bu da muğam sənətinin inkişafına, yeni muğam növlərinin və variantlarının yaranmasına təkan verir. Məlumdur ki, Şərq aləmində musiqi sahəsində yazılı mənbələr - Orta əsrlər dövrünün böyük alimlərinin musiqi ilə bağlı risalələri mövcud olmuşdur. Bu risalələrdə öz dövrünün musiqi ifaçılığını əks etdirən muğam adları, onların bədii - estetik mahiyyəti, quruluşu, bir sıra nəzəri məsələlər və musiqi alətləri haqqında məlumat əldə etmək mümkündür. Bütün bunlar müasir dövr ifaçılıq təcrübəsinin nailiyyətlərini cəmləşdirir.

Əsrlərdən bəri dildən - dilə, ağızdan - ağıza keçərək yaşayan Azərbaycan muğamları artıq şifahi musiqi folkloru müstəvisindən professional musiqi əsərləri səviyyəsinə yüksəlmişdir.

Muğamlar inkişaf edərək toy, mərasim nəğrnələrindən ictimai həyatın daha geniş diapazonuna nüfuz edən bədii sənət növünə çevrilmişdir. Həm Azərbaycan bəstəkarları, həm də bir çox əcnəbi bəstəkarlar öz musiqi yaradıcılığında muğamlara istinad etməklə gözəl əsərlər yaratmışlar. «Azərbaycan xalq musiqisinin nəzəri əsasları» kitabının müəllifi, böyük bəstəkar Ü.Hacıbəyov yazırdı: «Mənim bu əsərim Azərbaycan xalq musiqisinin əsas cəhətlərini öyrənmək üçün nəzəri bir vəsait və Azərbaycan məqamları (muğamları) əsasında musiqi yazan bəstəkarlara bir yaradıcılıq köməyidir.

Ü.Hacıbəyov bəstəkar olmaqla bərabər, həm də jurnalist, tənqidçi, yüksək səviyyəli müəllim və metodist idi. Azərbaycanda şifahi musiqi sənətinin professional əsaslar üzərinə keçirilməsində onun çox böyük xidməti olmuşdur.

Bununla belə, muğamların tədrisində vahid metodologiyanın yaranması hələ də öz həllini gözləyən problemlər sırasındadır. Son illərdə tədris proqramına əlaqəli fənnlər daxil edilsə də, hələlik bu məsələ ustad-şagird münasibətindən irəli getməmişdır. Bütün digər xalqlarda şifahi xalq sənətkarlığı adətən məzmunca bəsit və sadə, musiqi quruluşuna görə monoton və monoritmik olur, ona görə də onların dildən - dilə, nəsildən - nəsilə keçməsi asandır və xüsusi təlimə ehtiyac qalmır.

Azərbaycan muğamları isə əksinə, məzmun etibarilə mürəkkəb və dolğun, dərin fəlsəfi mənalı, musiqi tutumuna görə bəmdən - zilə və əksinə gedişli, ədəbi - bədii quruluşuna görə dramatik, ifa tərzinə və üsullarına görə olduqca dinamik və çoxşaxəli musiqi abidələridir. Bütün bu mürəkkəb fəlsəfə şifahi olaraq dildən - dilə ötürülməklə uzun bir tarixi dövrü yaşayaraq təkmilləşmiş və hazırki zəmanəmizə qədər gəlib

çıxmışdır. Muğamların belə mürəkkəb olmasına baxmayaraq onların şifahi olaraq yayılıb yaşamasının bir sirri də ondadır ki, muğamlarda çox böyük improvizasiya imkanları var. Buna görə də onlar nəsildən - nəsilə, xanəndədən xanəndəyə keçdikcə yeniləşir, yeni bir çalar, təzə bir duyum kimi sanki yenidən meydana gəlir. Həmin səbəbdən də muğam tarix qədər qədim olsa da, hər bir ifa qədər təzədir, təravətlidir. Qeyd etməliyik ki, hər bir muğamın öz ümumi məntiqi və fəlsəfəsi ifaçının öz idrak fəlsəfəsi və məntiqi ilə tam şəkildə uyuşduğu halda o, daha yüksək mövqe qazanaraq möhtəşəm sənət əsərinə çevrilir. Hər bir insanın yaşadığımız dünyanın ictimai - əxlaqi dəyərlərini dərk etmə dərəcəsi müxtəlifdir. Sadə dildə desək, hər kəs öz sevincini, kədərini, istək və arzularını yalnız özünəməxsus bir tərzdə ifadə edə bilir. Buna görə də şifahi yayılan muğamlarda ustad - şagird münasibətlərinin qarşılıqlı əlaqəsi zamanı bəzən musiqinin (muğamın) ümumi ruhu fərdiləşir, toponomik və dialekt çalarları qəbul edir.

Azərbaycan muğamları olduqca ciddi musiqi əsərləridir və ifaçıdan yüksək ciddiyyət və öz sənətində səmimiyyət tələb edir. Təsadüfi deyildir ki, muğam qəzəl ədəbiyyatı ilə sıx bağlıdır. Bildiyimiz kimi, qəzəl janrın olduqca ciddi və yüksək məfkurəvi şer növüdür. Qəzəlin hər bir beyti ayrıca bir poetik lirika evidir.

Məqsəd tədris zamanı muğamın ümumi məntiqinin, məzmun və fəlsəfəsinin fundamental cəhətlərinin qorunub saxlanması, onu şifahi pərakəndə təlimdən bitgin professional təlim səviyyəsinə qaldırmaqdır. Həmin məqsədin həyata keçirilməsi üçün muğam tədris edən müəllimlərin qarşısında çox mühüm pedaqoji vəzifələr durur.

1. Ayrı - ayrı muğamların öyrədilməsinə başlamazdan əvvəl muğamlar haqqında ümumi məlumat verməli, onların oxşar və fərqli cəhətlərini göstərməli, muğamların ümumi ictimai - tarixi köklərini və fəlsəfi - məntiqi məzmununu izah etməlidirlər.

2. Muğam musiqisi ilə şeriyyətin vəhdətini aydınlaşdırmalı, qəzəllər, şerlər, qəsidələr və eləcə də muğamlarda oxunan digər şer növlərinin muğamın ümumi ruhuna və onun ayrı-ayrı şöbələrinin musiqi məzmununa uyğun seçilməsi barədə tövsiyyələrini verib izah etməlidir.

3. Əruz vəzninin öyrənilməsinə və klassik şerin əruza münasib düzgün tələffüzünə diqqət yetirməlidir.

4. Ayrı-ayrı muğamların tədrisi zamanı hər bir muğamın musiqi quruluşu, ümumi məzmunu və dramaturgiyası, mənəvi - psixoloji özəlliyi izah edilməlidir.

5. İfa zamanı oxunan qəzəllərin və digər şer növlərinin ədəbiyyat nəzəriyyəsinin tələbinə və müasir Azərbaycan dilinin tələblərinə uyğun səsləndirilməsinə diqqət yetirməli, şivə və dialekt sözlərdən yersiz istifadəyə yol verilməməlidir.

Nəzərə almaq lazımdır ki, muğamların tədrisində vahid metodikanın tətbiqi heç də məcburi olaraq məhdud çərçivəyə sıxışdırmaq məqsədi güdmür. Burada əsas məqsəd öyrətməni müasir sivil tələblər səviyyəsinə qaldırmaqla Azərbaycan muğamlarının ecazkar bədii təsir qüvvəsini, onun milli xüsusiyyətlərini qoruyub mühafizə etmək, klassikadan çağdaşlığa doğru inkişafını daha da artıq səviyyədə təmin etmək və gələcək nəsillərə professional musiqi kimi təqdim etməkdən ibarətdir. Bu isə öz növbəsində təlimedici yüksək bilik və bacarıq, muğama və xalq musiqisinə böyük məhəbbət tələb edir. Muğamları sadə xalq musiqi folklorunun bir nümunəsi kimi təsvir etmək olmaz. Bunu, muğam tərkibinin mürəkkəb dramaturgiyası, musiqi ölçüləri və tutumu, məntiqi məzmunu və musiqinin inkişaf dinamikası qabarıq surətdə göstərir.

Tədqiqatlar göstərmişdir ki, son yüzillikdə Azərbaycanda Qarabağ, Şirvan və Abşeron muğam məktəbləri yaranıb inkişaf etmiş, ölkəmizin hər bir bölgəsi muğamlara yeni çalarlar gətirmiş, onu daha da rənga - rəng etmişdir. Özlüyündə bu iş təqdirə layiqdir. Lakin, muğamlarımızın xarici ölkələrdə, xüsusən Avropa ölkələrində ifası zamanı onların ümummilli dəyərlərini, koloritini lazımi səviyyədə çatdırmaq, Azərbaycanın istedadlı xalqı tərəfindən yaradılmış bu möhtəşəm və misilsiz sənət əsərlərinin sistemli və müəyyən qanunauyğunluğa malik sərvət olmasını göstərmək üçün bütün musuqi, eləcədə muğam tədrisi müəssisələrində vahid bir metodun olması hazırki dövrün tələbidir.

Cəmiyyət inkişaf etdikcə mədəniyyət, dil, musiqi də inkişaf edir, zamanın tələbinə uyğun müəyyən dəyişikliyə uğrayır, yeni - yeni çalarlar qəbul edir. Muğamların tədrisi zamanı bütün bunları nəzərə almaqla bərabər, onların klassik musiqi məzmununun get - gedə itirilməsinə heç cür yol vermək olmaz.

Muğam tədrisində çox incə bir məqam da vardır ki, bu, söz və musiqinin ifa zamanı qarşılıqlı münasibətinin tənzimlənməsidir. Bəzən xanəndə muğamın müəyyən şöbəsinddə həddən artıq ləngiyərək başladığı qəzəlin bütün beytlərini mütləq oxuyub başa çıxmağa cəhd edir. Bu cür hallara yol verilməsi şöbə və ya guşənin yersiz uzadılaraq ümumi dramaturgiyadan kənara çıxmasına gətirir, musiqi monoloqa çevrilir. Bilmək lazımdır ki, muğam hər şeydən əvvəl musiqidir. Muğamın bədii təsir effektində şer, söz, monoloq və ya hər hansı digər element yalnız köməkçi faktor rolu oynaya bilər. Solo tarda hər hansı muğam ifa edilərkən mizrab lirik qəzəl dili ilə deyil, musiqi dili ilə danışır. Hər bir halda muğamın musiqi dili və avazı onun şeriyyət dilindən öndə getməlidir. Çünki burada məqsəd muğamın köməkliyi ilə qəzəlin təsirini daha da artırmaq yox, əksinə, qəzəlin, şerin lirik məzmununu musiqinin emosional təsirinə əlavə etməkdir.

Musiqi tədrisi ilə məşğul olan müəllimlər nəzərə almalıdır ki, hər bir muğam dəstgahı müəyyən süjet ətrafinda cərəyan edən hadisələr cəminin musiqi ifadəsidir. Tar, kaman və xanəndə isə bu musiqi dramının aktyorları, ifaçılarıdır. Hər bir ifaçı oxuduğu və ya çaldığı muğamın daxili dialektikasını kamil surətdə öyrənməli və dinləyici qarşısına öz rolunun mahir ifaçısı kimi çıxmalıdır.

Ümumiyyətlə, muğam dəstgahı ifa edilərkən muğamın daxili məzmunu, dialektikası və dramaturji məziyyətləri nəzərə alınmalıdır. Musiqişünaslıq baxımından muğamların tədrisində əsas - onların lad-intonasiya təsnifatı və ardıcıllığı, məzmun və forma fərqləri, muğam - təsnif əlaqələri, estetik cəhətləri, əxlaqi - tərbiyəvi məziyyətləri, qəzəl seçimi, fəlsəfi - idraki keyfiyyətləri, milli - mənəvi koloriti, ifaçının səhnə mədəniyyəti və s. məsələlər öz əksini tapmalıdır.

Muğam tədrisinin problemləri, göründüyü kimi, çoxşaxəli, elmi dayaqlara əsaslanan nəzəri tədqiqat tələb edir. Dünyada tayı - barəbəri olmayan muğamlarımızın gələcək nəsillərə çatdırılması işini vahid elmi konsepsiya əsasında işlənmiş metodoloji sistemə gətirmək vacibdir.

## ƏDƏBİYYAT

1. Zöhrabov R. Muğam, Bakı, Azərnəşr, 1991.
2. Zöhrabov R. Rast muğam dəstgahının nəzəri əsasları, Bakı, 2002
3. Şuşinski F. Azərbaycan xalq musiqiçiləri, Bakı
4. Həsənova C. Azərbaycan bəstəkarlarının əsərlərində milli ladların təzahürü, Bakı, 2004.
5. Zöhrabov R. Azərbaycan təsnifləri, Azərbaycan xalq musiqisi, Oçerklər, Bakı, Elm, 1981, s. 120-169.
6. Zöhrabov R. Zərbi-muğamlar, Bakı, 2004, s. 406.

## ABSTRACT

## MUGAM TEACHING PROBLEMS

The preservation and development of the oral tradition of musical heritage of Azerbaijan, included in the list of masterpieces of humanity, is one of the most important issues in modern times. On the basis of all this, first of all, the problem of teaching mugam, the transfer of creative traditions of our outstanding artists to young mugam performers. Mugam teaching issues have always been in the focus of attention and selected by different approaches. Since ancient times, the mugam art has been transmitted from master to student on the basis of oral tradition, through memory. Of course, writing materials in mugham art have not been used. Teaching of mugam art is carried out individually.

## РЕЗЮМЕ

## ПРОБЛЕМЫ ПРЕПОДАВАНИЯ МУГАМА

Сохранение и развитие устной традиции музыкального наследия Азербайджана, включенного в список шедевров человечества, является одним из важнейших вопросов современности. На основе всего этого, прежде всего, проблема преподавания мугама, передачи творческих традиций наших выдающихся музыканты молодым исполнителям мугама. Вопросы преподавания мугама всегда находились в центре внимания и выбирались разными подходами. С древних времен искусство мугама передавалось от мастера к ученику на основе устной традиции через память. Конечно, письменные материалы в искусстве мугама не использовались. Преподавание искусства мугама проводится индивидуально.

**AYTƏN QURBANOVA**
*Naxçıvan Dövlət Universiteti*

## NAXÇIVAN ƏDƏBİ MÜHİTİNDƏ HÜSEYN CAVİD OBRAZI

**Açar sözlər:** *Naxçıvan, poeziya, dramaturgiya, nəsr, Hüseyn Cavid*
**Key words:** *Nakhchivan, poetry, drama, prose, Hussein Javid*
**Ключевые слова:** *Нахчыван, поэзия, драматургия, проза, Гусейн Джавид*

Mütəfəkkir şair - dramaturq Hüseyn Cavid (1882-1941) haqqında çoxsaylı bədii əsərlər yazılmışdır ki, onların əhəmiyyətli bir qismi Naxçıvanda yaşayıb fəaliyyət göstərən şair, yazıçı və dramaturqların payına düşür. Ədəbiyyatşünaslıqda vurğulandığı kimi: "XX yüzil Azərbaycan ədəbiyyatında Cavid obrazına dəfələrlə müraciət edilmişdir. Xüsusən müstəqilliyin qazanılmasından sonra, 90-cı illərdə bu mövzuya sıx - sıx müraciət olunduğunu söyləmək olar" (9). Naxçıvanda yaşayan şairlərin Hüseyn Cavidə həsr edilmiş şeirləri daha çoxdur. Onlardan bəzilərinə nəzər salaq. H.Cavidə həsr olunmuş şeirlərin əksəriyyəti ulu öndər Heydər Əliyevin təşəbbüsü və böyük qayğısı ilə dahi sənətkarın cənazəsinin qalıqlarının uzaq Sibirdən Naxçıvana gətirilərək burada dəfn edilməsi və ədibin yüz illik yubileyinin yüksək səviyyədə qeyd olunmasının yaratdığı minnətdarlıq duyğusundan pərvəriş tapmışdır. Belə şeirlərdən biri Hüseyn Razinin "Zirvələrdə dayandı" adlı əsəridir (11, s.98-99). Şeirdə Cavid təxəllüsünün mənasını (əbədi, ölməz) layiqincə doğruldan ədibin həqiqət, məhəbbət və gözəllik aşiqi olması poetik tərzdə ümumiləşdirilmişdir:

Haray çəkdi bir həsrətin odunda,
Bütün haqqa tapınanlar oyandı.
Əbədiyyət qərar tutdu adında,
Gözəllikdi, məhəbbətdi hər andı.

Əliyar Yusiflinin "Bizə qaytardı" şeirində (11,s.103-104) iki aspekt diqqəti çəkir. Şeirin ilk bəndlərində amansız repressiya illərində Cavidə qarşı törədilmiş haqsızlıqlar ümumiləşdirilmiş şəkildə yada salınır və Müşkünaz xanımın Cavid həsrətinə və saysız - hesabsız məşəqqətlərə illər boyu mətanətlə sinə gərməsi təsirli şəkildə təsvir edilir. Əsərin sonunda ulu öndərin qətiyyəti ilə Hüseyn Cavidin cənazəsinin Vətənə gətirilməsi minnətdarlıqla xatırlanmışdır:

Bir böhtan dedilər ulduza, Aya,
Bu böhtan şairi həbsə apardı.
Ancaq bu torpağın qəhrəman oğlu
Cavidi yenidən bizə qaytardı!

1980-ci illərdə Naxçıvan şəhərində Hüseyn Cavidin ev - muzeyi də yaradılmışdı. Şairə Kəmalə Ağayevanın "Cavidin ev - muzeyində" adlı şeiri də bununla əlaqədar qələmə alınmışdır. Vaqif Məmmədovun "Qayıdır" şeiri də (11, s.108) 1982-ci ildə Hüseyn Cavidin nəşinin Naxçıvana gətirilməsinin oyatdığı təəssüratlardan ibarətdir. Sənəti də, şəxsiyyəti də nur kimi parlaq olan, uydurma ittihamlara, şərə qurban gedən, lakin heç vaxt öz məsləkindən dönməyən, uca dağa bənzəyən ulu Cavidə ehtiram V.Məmmədovun bu şeirində də orijinal bədii biçimdə üzə çıxmışdır:

Tufan olar uca dağı başında,
Cavid elə uca dağın tayıdır.
Naxçıvandan getdi cavan yaşında,
Yüz yaşında Naxçıvana qayıdır.

Asim Yadigarın "Ulu Cavid" şeirində isə (12, s.40-41) bir zamanlar haqsız ittihamlara hədəf olan dahi şairin yenilməz şəxsiyyəti, əzəməti diqqət mərkəzinə çəkilmiş, ona qənim kəsilənlərin tarixin dolanbaclarında unudulması, əqidəsindən dönməyən Günəş misallı mütəfəkkir ədibin isə öz sənəti ilə mənəvi ölümsüzlük qazanması vurğulanmışdır:

Necə varsan, elə qaldın - daha ötkəm, daha məğrur,
Əbədiyyət yolçususan, qəlbində od, gözdə qürur.
Əyilməzlik simvolusan, qazancın bu, haqqın budur,
Sənət yolun bir işıqlı kəhkəşandı, ulu Cavid!

Elman Həbibin "37 vəhşəti" şeiri (11, s.100-102) monoloq formasında yazılmaqla repressiya qurbanı olmuş Hüseyn Cavidin dilindən verilmişdir. Müəllif bu üsuldan istifadə edərək stalinizm dönəminin qanlı repressiyalarının iç üzünü açmışdır. Son bənddə isə zamanın, dövrünün fövqündə dayanan Cavidin yenilməz

xarakteri, dəyişməz əqidəsi önə keçir və sənətkar ucalığına ehtiram poetikləşir. Şair Muxtar Qasımzadə isə "Cavidin məqbərəsi önündə düşüncələr" şeirində (10, s.57-58) dahi ədibin sənəti və şəxsiyyəti barədəki düşüncələrini onun "Azər" poemasında və ayrı - ayrı pyeslərində yaratdığı müxtəlif ədəbi qəhrəmanlarını xatırlatmaq əsasında ümumiləşdirmişdir. Cavidin işıq saçan ağ rəngli məqbərəsi son bənddə ağ şama və şairin alışan qəlbinə bənzədilir:

Ana torpaqda yanan məqbərəsi
Dağıdır dərdi - qəmi Cavidimin.
Sanki ağ şamdı onun məqbərəsi
Alışır qəlbi kimi Cavidimin.

Xanəli Kərimlinin Hüseyn Cavidə həsr etdiyi "Ustad" şeiri də (11, s.109-110) dahi sənətkarın məqbərəsi önündə düşüncələr əsasında qurulmuşdur. Bu əsərdə hər şeydən öncə, Cavid şəxsiyyətinin yenilməzliyi, onun yaradıcılığının əbədiyaşar qüdrəti tərənnüm olunmuşdur. Hüseyn Cavidin şərəfinə Naxçıvanda məqbərə ucaldılması da şeirdə diqqət mərkəzinə çəkilmiş, minnətdarlıqla xatırlanmış, ədəbi irsə ehtiram, gələcək nəsillərə ərməğan kimi qiymətləndirilmişdir:

Ustad! Sənin hüsnünə ucaldılan məqbərə
Məsləkin, əqidənin yenilməz qüdrətidir.
Tarixin sınağında əyilməz millətinin
Gələcək nəsillərə böyük əmanətidir!

Şair Elbəyi Sadıqoğlunun (Maqsudovun) "Sən xoş gəlmisən" şeirində (11, s.111-112) Cavid haqqındakı poetik düşüncələr onun əsərlərinin, ədəbi qəhrəmanlarının simvollaşdırılması yolu ilə misralara düzümlənmişdir. Məsələn; ikinci bənddə işlədilən "Yenə yada salıb "Keçmiş günlər"i, "Qızlar bulağı"na sən xoş gəlmisən!" misralarında şairin ilk kitablarından birinin adının məharətlə mətnə qatılması göz qabağındadır. "Qızlar bulağı" isə Naxçıvana işarədir. Aşağıdakı bənd də bu baxımdan xarakterikdir:

Qələmlə "İblis"dən intiqam alıb,
"Topal Teymur"la da çox qılınc çalıb,
"Maral"ı, "Şeyda"nı yadına salıb,
"Azər" ocağına sən xoş gəlmisən!

Azərbaycan dramaturgiyasında Hüseyn Cavidə həsr olunmuş ilk əsər Naxçıvanda yazılıb. Bu, Kəmalə Ağayevanın "Mənim tanrım gözəllikdir, sevgidir" mənzum pyesidir. H.Cavidin cənazəsinin qalıqlarının ulu öndər Heydər Əliyevin təşəbbüsü və böyük səyi ilə 1982-ci ildə uzaq Sibirdən Naxçıvana gətirilməsindən sonra qələmə alınmış bu pyesdə K.Ağayevanın özünün yazdığı hissələrlə Cavidin müxtəlif əsərlərindən seçilmiş parçalar vahid ədəbi məcrada birləşir. Əsərin əvvəlində ayrı - ayrı aktyorların mükaliməsi əsasında Cavid sənətinin ölməzliyi ideyası önə çəkilir:

*I AKTYOR*

Başqa bir aləmdir eşqin diyarı,
Bu, çox düşündürdü o sənətkarı.
İndi könüllərdə gəzir Xumarı,
Şairin məhəbbət sazı ordadır... (8, s.182)

Bundan sonra "Azər" poemasının qəhrəmanının monoloqu pyesdə Cavidin dilindən səsləndirlir. Bu isə Cavidin mənəvi aləmi, ürfani düşüncələri, mükəmməl şəxsiyyətinin ifadəsi kimi üzə çıxır. Pyesdə Cavidin ayrı - ayrı əsərlərindən seçilmiş parçaların timsalında qurulmuş süjet fraqmentləri mütəfəkkir ədibin dövrü, həyatı, mühiti, dünyagörüşü ilə bağlı müxtəlif məqamların dramaturji üslubun imkanları vasitəsilə təqdiminə şərait yaradır. Bütün bu kimi epizodlarda Cavid gördüyü haqsızlıqlara ittiham hökmü kimi səslənən monoloqlarla çıxış edir... Sevdiyi gözəldən laqeydlik və tənə görsə də eşqindən dönməyən tələbə oğlanın gözlərinin kor olması və "Şeyx Sənan"dakı məlum parçanı - "Kor ərəbin mahnısı"nı oxuması da süjetə yeni çalarlar qazandırır. Mənzum pyesin bu səhnəsində Şeyxə xitab edərək gözlərinə şəfa diləyən korlara, o cümlədən tələbə oğlana Şeyxin cavabı bu olur ki, gözlərinizi açıb hər tərəfdə məşəqqət, kədər görəcəksiniz, belə olan halda "görməmək ən böyük səadətdir". Bu fikir də H.Cavidin "Şeyx Sənan" pyesindəndir (2, s.41). Cavidşünas Kamran Əliyevin yazdığı kimi: "Korların görmək eşqi və ümidi dünyanı görməməyin daha böyük məziyyət olması qənaəti ilə əvəzlənir. Beləliklə, Şeyx Sənan möcüzəsi Batinə-duyğu və düşüncəyə yol tapır" (5,s.9). Şeyx Sənanla Xumarın mükaliməsi və Cavidin bu ölməz sevgiyə "Mənim tanrım gözəllikdir, sevgidir" misrası ilə münasibət bildirməsi də maraqlı məqamlardandır.

Cavidin kitablarının nəşri, böyük maraq oyatması və s. məsələlər də pyesdə özünün müfəssəl ifadəsini tapmışdır. "Mənim tanrım gözəllikdir, sevgidir" pyesində H.Cavidin "İblis" faciəsi timsalında qurulmuş dramaturji səhnələr də müəyyən yer tutur. Bunun vasitəsilə Cavidin müharibələrə nifrəti, insanların qəlbində olan şər hisslərə, iblisvari düşüncələrə son qoymaq ideyası özünün müvafiq ifadəsini tapmışdır. K.Ağayevanın əsərində Azərbaycanın sovetləşməsi, yeni cəmiyyət quruculuğu və buna Cavidin münasibəti

onun “Azər” poemasından götürülmüş parçaların köməyi ilə canlandırılmışdır. “Xəyyam” pyesindəki Xəyyam, Sevda, Alp Arslan, Xərabati, Xacə Nizam və digər obrazların mükalimələrindən qurulmuş hissə də diqqəti çəkir. K.Ağayevanın remarka qeydindən anlaşılır ki, tamaşa zamanı Xəyyam rolunu məhz Cavidi ifa edən aktyorun oynaması nəzərdə tutulur. Bu, hər iki sənətkarın tale ortaqlığına işarə kimi düşünülmüşdür. Tarixi dramları tədqiq edən ədəbiyyatşünas Davud Hacıyevin yazdığı kimi, Hüseyn Cavidin “Xəyyam” pyesində “Xəyyamın sözləri Cavidin öz arzusu və diləyi kimi səslənir” (6, s.113). Xəyyam dövründəki qəddarlıqlar, günahsızlara divan tutulması ilə Hüseyn Cavidin yaşadığı 1930-cu illərin repressiya mühitinin dəhşətləri arasında paralellik yaradan K.Ağayeva tarixilik və müasirlik kontekstinin uğurlu bədii həllinə nail olmuşdur. Pyesdə bunun ardınca verilən monoloq və dialoqlar, səhnəarxası səslər də məhz Hüseyn Cavidin ömür yolunun, taleyinin fəlakətli aqibətinə işarə kimi ədəbi müstəvidə yer almışdır:

*VII aktyor*

De, hara apardı o yollar səni?
İtirdi qoynunda o illər səni!

*II aktyor*

Hər an soraqladı bu ellər səni,
Ellərin köksünə dolan Cavidim! (8,s.219)

Pyesin sonrakı bölümlərində vətəndən uzaqlarda məşəqqətli sürgün həyatı yaşayan Cavidin ağrı - acılı düşüncələri ifadə olunub ki, bu zaman onun öz əsərlərinə də istinad edilib. Əsərdə dramatik təqdimat nikbin sonluğa doğru yönəlir. Cavidin bəraət alması, ehtiramla yad olunması, sənəti ilə əbədiyyət qazanması diqqətə çatdırılır.

Naxçıvan ədəbi mühitində Hüseyn Cavidə həsr olunmuş bədii nümunələrdən biri də Həsənəli Eyvazlının yazdığı “Ərtoğrol Cavid, yaxud bir ailənin dramı” adlı əsərdir (4). H. Eyvazlının “Ərtoğrol Cavid, yaxud bir ailənin dramı” adlı iki pərdəli, doqquz şəkilli mənzum faciəsində Cavidlər ailəsinin faciəli taleyi və bu aspektdə Hüseyn Cavidin həyatdan vaxtsız köçmüş istedadlı oğlu Ərtoğrol Cavidin ömür yolunun təqdimi əsas yeri tutur. Müəllifin qeyd etdiyi kimi, müvafiq tarixi dramlarda “ədəbi şəxsiyyətlərin yaradıcılığı ilə bərabər, onların yaşadığı dövrün ictimai - siyasi hadisələri, həyat tərzi və mübarizəsi, sənətkar və vətəndaş mövqeyi və s. məsələlər bu əsərlərin süjet xəttini təşkil edir” (3,s.16). H.Eyvazlının adı çəkilən əsəri də bu baxımdan diqqəti çəkir. H.Eyvazlı bu pyesdə süjetin inkişafı boyunca mövzunun xarakterinə, dramaturji situasiyalara uyğun olaraq H.Cavidin əsərlərindən, o cümlədən “İblis” və “Səyavuş”dan bəzi parçaları da əsərə daxil etmiş, onların ideya - bədii baxımdan əsərlə üzvi surətdə bağlanmasına da nail olmuşdur.

Pyesin ilk şəklində Cavid ailəsinin həyatından bir fraqment verilir. Hələ ki, ailə qayğısızdır, şən günlərini yaşayır. Lakin, Moskvaya səfərdən yenicə dönmüş ədib Abdulla Şaiqin dostu Hüseyn Cavidi görmək üçün onlara gəlməsi və edilən söhbətlər artıq repressiyanın addım səslərinin eşidildiyini göstərir. 2-ci şəkildə Cavidin oğlu Ərtoğrolun tələbə yoldaşı Nigara olan saf hisslərindən söz açılır. 3-cü şəkildə isə Mişkinaz, Cavid və Üzeyir bəy Hacıbəylinin təlaşlı mükalimələri verilir. Aydın olur ki, yığıncaq keçirilmiş, orada Cavid, Müşfiq və digərləri əsassız tənqid edilmişlər. Özünə qarşı uydurma böhtanları təkzib edən Cavid Üzeyir bəyə deyir:

Axı neyləmişəm mən bu zəliyə,
Məni damğalayır, “pantürkist” deyə.
Mən türkəm, danımmı türk olduğumu,
Türkün mayasından yoğrulduğumu.
“Peyğəmbər”i yazdım, “islamçı” oldum,
“Topal Teymur” ilə “pantürkist” oldum.
“Şeyx Sənan”la nəyəm, “İblis”lə nəyəm?
İstədim, bunları duram söyləyəm (4, s.21).

Bu səhnələrdə Cavidin “İblis” əsərindən bəzi fraqmentlərin, xüsusən İblisin monoloqundan parçaların dialoqlara qatılması otuz yeddinci ilin repressiya, şər, böhtan mühitinin xarakterini, insanın - insana qənim kəsilməsini mənalandırmağa yönəlmişdir. Özünün də başı üzərində qara buludların sıxlaşdığını anlayan Cavid başına bir iş gələrsə, ailəsinə diqqət göstərməyi dostu Abdulla Şaiqdən xahiş edir. Faciənin 4-cü şəkilində Ərtoğrolla Üzeyir bəyin söhbətindən bəlli olur ki, artıq Cavid də həbsə alınıb.Üzeyir bəy dostunun oğluna təsəlli verir. Növbəti epizodlarda məhbus Cavidin Dövlət Təhlükəsizlik Komitəsində sorğu-suala tutulduğunu, uydurma böhtanlara məruz qaldığını görürük. Onu pantürkistlikdə gizli təşkilat qurmaqda. xarici dövlətlə əlaqədə, xalqın əleyhinə işləməkdə ittiham edirlər. Cavid onların saxta ittihamları önündə əyilmir, qətiyyətlə çıxış edir. Dahi şairin həbsə alınaraq sürgünə göndərilməsindən sonra onun ailəsi bəlalara düçar olur. Ağır günlərdə Üzeyir bəylə müğənni Bülbül bu ailəyə yardım əli uzadırlar. Cavidin oğlunu işə düzəldirlər. Ərtoğrol müharibə illərində əsgərliyə çağırılır, lakin vərəm xəstəliyinə tutulur. Bir müddət

Tiflisdə müalicə olunduqdan sonra Naxçıvana gətirilir və 1943-cü ildə dünyasını dəyişir. Bütün bunlar pyesdə müvafiq təqdimini tapmışdır.

Əsərin axırıncı şəkilində isə illər sonra, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Cavidin məzarının Sibirdən Naxçıvana gətirilməsi, son nəticədə ailənin bütün üzvlərinin - Hüseyn Cavidin, həyat yoldaşı Mişkinaz xanımın, oğlu Ərtoğrolun və qızı Turanın Naxçıvanda Cavidlər məqbərəsində uyuması, torpaqda qovuşması nəzərə çatdırılır ki, bu epizodlarda həmin şəxslərin xəyali iştirakını görürük. Mənzum faciənin sonunda məqbərə önündə dayanmış Cavidin dili ilə ədəbiyyatın, mədəniyyətin böyük hamisi olan ulu öndərə minnətdarlıq ifadə olunur:

O böyük insanın böyük ürəyi
Bizə məhəbbətlə qurdu sarayı.
Məni o gətirdi Sibirdən bura,
Əzablı, qırx illik qəbirdən bura.
Qovuşduq illərin həsrətliləri,
Seçdik əbədilik məkan bu yeri... (4, s.69)

Uzun illər Naxçıvan Yazıçılar Birliyinə rəhbərlik etmiş xalq yazıçısı, bir sıra tarixi romanlar müəllifi Hüseyn İbrahimovun repressiya qurbanı olmuş Hüseyn Cavidin faciəli taleyinə həsr edilmiş “Böhtan” romanı (7) mütəfəkkir ədib haqqında ilk romandır. Hüseyn İbrahimov bu romanı yazmağa hələ 1956-1957-ci illərdən başlamış, uzunmüddətli fasilədən sonra, 1986-1989-cu illərdə yenidən əsər üzərində işləyərək tamamlamışdır. Əsərdə müasirlik və tarixilik, sənətkar və zaman probleminin bədii təcəssümü kimi məsələlər diqqəti çəkir. Əsərin ideya - bədii məziyyətləri, tematikası, problematikası, obrazlar aləmi, süjet-kompozisiya xüsusiyyətləri, üslub özəllikləri və s. tarixi nəsrin əsas prinsiplərinə uyğundur. Mütəfəkkir ədibimizin böhtanlara mətanətlə sinə gərən yenilməz xarakterinin, faciə ilə tamamlanan ömür yolunun tarixi romanda epik təqdimi də ayrıca vurğulanmalıdır. Romanda tarixi gerçəkliklərlə müəllif təxəyyülünün bəhrəsi olan səhifələr bir - biri ilə vəhdətdədir. Bu cəhəti romanın kitab halında nəşrinə yazdığı ön sözdə H.İbrahimov özü də nəzərə çatdırmışdır: “Mən şair-dramaturqun (Hüseyn Cavidin – A.A.) zəngin və orijinal ədəbi irsini dəfələrlə araşdırandan, onunla bir yerdə sürgün həyatı yaşamış şahidlərdən bəzilərinin dediklərini saf - çürük edəndən, onun həbs olunması üçün “düzəldilən” xüsusi qovluqdakı məxfi sənədlərlə tanış olandan sonra “Böhtan” romanının yazmışam. Ancaq etiraf edirəm ki, xatirələrdən, sənədlərdən çox karıma gələn, əlimdən tutan özümün şəxsi mülahizələrim, yazıçı təxəyyülüm olub” (7, s.7). “Böhtan” romanında “Çeşməkli məhbus”, “Ağaclar kəsilib doğranan yerdə”, “Cavidə kim deyərdi ki”, “Ləkələnmişlər və qarayaxılmışlar” və s. kimi fəsillərlə bərabər, ədibin həyat yolunun ayrı - ayrı səhifələrinə dair verilmiş bir neçə nağıl bir - birini tamamlayır. Professor Yavuz Axundlunun yazdığı kimi: “Təbii ki, “nağıl” sözü burada şərti mənada işlənmişdir. Müəllif mümkün qədər xronoloji ardıcıllığa riayət etməyə çalışmış, H.Cavidin həyatının ilk dövrləri ilə məhbəs həyatını paralel surətdə əks etdirmişdir” (1, s.112).

Bütövlükdə Naxçıvan ədəbi mühiti nümayəndələrinin ulu Cavidə həsr olunmuş əsərləri ideya - bədii dolğunluğu ilə səciyyələnir.

**ƏDƏBİYYAT**


1. Axundlu Y.Ədəbi mühit və sənətkar, Bakı: Adiloğlu, 2002, 188 s.
2. Cavid H. Əsərləri, 4 cilddə, 2-ci cild, Bakı: Yazıçı, 1982, 394 s.
3. Eyvazlı H.C. Azərbaycan dramaturgiyasında ədəbi şəxsiyyət məsələləri, Naxçıvan: Məktəb, 2015, 180 s.
4. Eyvazlı H.C. Seçilmiş əsərləri, 1-ci cild. Naxçıvan: Məktəb, 2015, 377 s.
5. Əliyev K.İ. Cavid möcüzəsi, Bakı: Nurlan, 2002, 77 s.
6. Hacıyev D. Azərbaycan ədəbiyyatında tarixi dram, Bakı:Yazıçı, 1983, 159 s.
7. İbrahimov H.M. Böhtan, Bakı: Şərq-Qərb, 1998, 286 s.
8. Kəmalə. Məhsəti (mənzum pyeslər), Bakı: Yazıçı ədəbi nəşrlər evi, 2001, 416 s.
9. Qasımbəyli Y. XX əsr Azərbaycan poeziyasında Cavid. Ədalət qəzeti, 2012, 23 oktyabr
10. Qasımzadə M. Nuhçıxandan gəlirəm, Naxçıvan: Əcəmi NPB, 2013, 248 s.
11. Naxçıvan jurnalı, 2007, № 16, 246 s.
12. Yadigar A. Bir nurlu heykəl yarat, Naxçıvan: Əcəmi, 2014, 248 s.

## ABSTRACT

**Ayten Gurbanova**

**THE CHARACTER OF HUSSEIN CAVID IN NAKHCHIVAN LITERARY ENVIRONMENT**

Hussein Javid's (1882-1941) creativity which has a special place in the history of world culture and is considered unique pearls of world poetry treasure, establishes a new, original period in the development of Azerbaijan poetica-esthetic thought. The interest and need for studying the poet's creativity has increased in the different periods, and his literary personality has been the focus of attention in literature and turned over a literary character. There is a great deal of artistic work on Huseyn Javid in Azerbaijani literature. There have been analysed charakteristic literary works of poets living in Nakhchivan (Hussein Razi, Aliyar Yusifli, Kamale Aghayeva, Elman Habib, Vagif Memmedov Asim Yadigar, Khaneli Karimli, Hassanali Eyvazli, Elbeyi Sadiqoghlu, Mukhtar Gasumzade). Their idealogial-literary features have been clarified.



## РЕЗЮМЕ

**Айтен Курбанова**

**ОБРАЗ ГУСЕЙНА ДЖАВИДА В НАХЧЫВАНСКОЙ ЛИТЕРАТУРНОЙ СРЕДЕ**

Творчество Гусейна Джавида (1882-1941), занимающее униkальное место в истории азербайджансkой литературы, произведения kоторого считаются одним из редkих соkровищ поэзии и драматургии, является одним из новых, оригинальных этапов в развитии азербайджансkих художественно-эстетичесkих идей. В связи с увеличением интереса k изучению творений поэта, идентичность его поэзии создание его в художественного образа стало центром литературного внимания. В азербайджансkой литературе многие авторы писали разные художественные произведения о судьбе Гусейна Джавида. В статье анализириуются хараkтерные художественные произведения литераторов, живуших в Нахчыване (Гусейн Рази, Алияр Юсифли, Кемале Агаева, Елман Габиб, Вагиф Мамедов, Асим Ядигар, Ханели Керимли, Гасанали Эйвазлы, Элбейи Садигоглу, Мухтар Касумзаде и др.). Выявляются их идейно-художественные особенности.

**İSMAYIL MÜRSƏLOV**
*Naxçıvan Dövlət Universiteti*

## MUSİQİ VASİTƏSİLƏ ŞAGİRDLƏRİN ESTETİK TƏRBİYYƏSİNİN İNKİŞAFI

**Açar sözlər:** *Estetik tərbiyyə, məşğələ, musiqi, səs, aşıq*
**Key words:** *Aesthetic bringing up, exercise, music, aşhig, voice*
**Ключевые слова**: *эстетическое воспитание, занятие, музыка, голос, ашуг*

"Azərbaycan xalqının milli mədəniyyətində müstəsna rol oynamış aşıq sənəti tarix boyu müxtəlif adlar daşımış, zəngin və uzun inkişaf yolu keçmişdir. Qədim ozanların - Dədə Qorqud, Dədə Kərəm, Dədə Əmrah, Dədə Qasım (Şirvanlı), Dədə Novruz, Dədə Qərib, Dədə Yediyar kimi ustadların yaratdıqları bədii sözü-nağıl, dastan və qoşmaları qoruyub yaradan, XVI-XVII yüziillikdən etibarən bütün ulu sələflərini təmsil edən aşıq sənəti milli sədləri aşıb, bir çox Şərq ölkələrinə də yayılmış və sevilmişdir. Sələflərinin zəngin qaynaqlarında pərvəriş tapan aşıq sənəti incəsənət və ədəbiyyatıhn bir neçə növünü vahid sənət məcrasında qovuşdurub bütövləşdirilmişdir. Söz qoşmaq və ona musiqi bəstələmək, dastan yaratmaq, bunların sazın müşayiəti ilə ifa etmək, şirin - şirin xallar vurub oxumaq, çalınan havanın ahənginə münasib hərəkət etmək - oynamaq, özündən əvvəlki sərvəti yaddaşına həkk edib saxlamaq və beləcə bir ənənə olaraq bildiklərini şəyirdinə öyrətmək və s. aşıq sənətinin başlıca şərtdir".

Xalqın arzu və düşüncələrini, həyata olan münasibətini, qəhrəmanlıq mübarizəsini tərənnüm edən aşıqların sənəti - sintetik incəsənətidir. Çünki aşıqların yaradıcılığında bir neçə incəsənət növü üzvü şəkildə birləşərək əsil xalq incəsənətini nümayiş etdirir. Aşıqlar musiqi, rəqs, bədii qiraət, xalq teatrı ünsülərini öz yaradıcılıqlarında əks etdirən xalq sənətkarlarıdırlar.

Aşıq sənətinin görkəmli tədqiqatçısı sənətşünas alim Əminə Eldarova yazır:

"Mürəkkəb ifaçılıq və yaradıcılıq əsasları aşıq sənətinə səciyyə verir. Sintetiklik bu sənətin xüsusilə daha qədim inkişaf dövrünə xasdır. O dövrdə üzvi surətdə birləşmiş olan musiqi, şer və teatr ünsürləri sonralar müstəqil sənət növlərinə çevrilmişdir. Başqa sözlə, aşı - yaradıcı ( dastanlar, yaradan, şer qoşan şair, havalar bəstələyən bəstəkarlar), ifaçı (oxuyan, çalan, dastan, nağıl söyləyən, bir qədər də aktyor və rəqqas) və pedaqoji müdrik məsləhətçi, ustad aşıq sənətini öyrədən, müəllim) əsasları özündə birləşdirən şəxsdir. Beləliklə aşıqları bir-birindən bu cür fərqləndirmək olar:

1.Yaradıcı aşıq. Şer qoşan, dastan yaradan, havasat bəstələyən, oxuyan, çalan, müəyyən dərəcədə rəqs edən.

2. İfaçı aşıq. Çalan, oxuyan və müəyyən dərəcədə rəqs edən. Bu qrupa daxil olanlar adətən şer qoşmur, özlərindən əvvəlki və öz dövrələrinin məşhur aşıqları tərəfindən yaradılan şer və havacatı ifa edib yayılır.

3. Aşıq - şair. Bunlar o aşıqlardır ki, yeni havacat bəstələmir, amma saz çalıb oxumağı və şer qoşmağı bacarırlar. Şagirdlər tərbiyyə edən və yuxarıda göstərilən sifətlərdən bir çoxuna malik olan kamil sənətkarlara ustad aşıqlar deyilir". Aşıq musiqisi haqqında söhbətdə aşıq yaradıcılığı ilə bağlı yuxarıda göstərilən cəhətlər bir qədər də açıqlanır. Ayrı - ayrı aşıqların yaradıcılığı haqqında lazımi məlumat verilir və müvafiq nümunələr səsləndirilir. Təcrübə göstərir ki, aşıq musiqisi folkloru - aşıq sənəti haqqında verilən nəzəri məlumatların konkret nümunələrlə əlaqələndirilməsi şagirdlərin estetik hisslərini inkişaf etdirir. Xalq yaradıcılığının bu mühüm sahəsinə marağını qat - qat artırır.

Musiqi lektoriyasının aşıq sənətinə həsr olunan məşğələsində şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, şer, mahnı, dastan yaradıcılığı ilə yanaşı, instrumental havalar da xüsusi yer tutur. İnstrumental havaların əksəriyyəti saz havaları təşkil edir. Aşıq sənətinin bu cəhətindən danışarkən professor Qara Namazovun çox mühüm bir fikrini də nəzərə çatdırmaq lazımdır. O, aşıq havalarını qədim bir tarixə malik olduğunu göstərərkən maraqlı bir cəhəti də nəzərə çatdırır: "Hər bir yaradıcı ustad bəstələdiyi havanı ilk növbədə məxsus olduğu tayfa, qəbilə, mahal, yer və ümumiyyətlə, Vətən adıyla adlandırılmışdır: "Varsağı", "Şərili", "Ovşarı", "Qaraçı", "Misri", "Naxçıvani", "Göyçə havası", "Borçalı", "Qarabağ qaytarması" və s. Yaradıcı sənətkarlar özlərini əbədiləşdirmək üçün bəstələdikləri havanı öz adlarına bağlamış, yaxud istedadlı şəyird ustadına hörmət əlaməti olaraq onun adıyla bağlı hava bəstələmişdir: "Mansır", "Hüseyni", Cəlili", "Heydəri", "Dilqəm", "Urfanı", "Kürdoğlu", "Məmmədhüseyni", "Məmmədbağırı" və s.

Tarixi və əfsanəvi şəxsiyyətlərin adıyla (Şah Xətai,Koroğlu,Kərəm və s.) bağlı dastanları müşayiət edən havalar, həmçinin aşıqların öz sevgilərinə və ya gördükləri gözəllərə bəstələdikləri nəğmələr ("Qəmərcan", "Sarıqız", "Həcərxanım", "Süsənpəri", "Şəhrabanı" və s.) bu qəbildəndir". Müvafiq aşıq havalarının mənşəyi, yaranması haqqında elmi əsaslara söykənən bu cür məlumatların verilməsi lektoriyanın məşğələlərində iştirak edən IX - XI sinif şagirdlərinin estetik görüşlərinin genişlənməsinə və həmin sənət incilərinin estetik təsiri haqqında fikir - mühakimə yürütmək qabiliyyətlərinin inkişafına zəmin yaradır.

Aşıq sənəti haqqında lektoriyanın məşğələlərində söhbət apararkən şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, bu sənət inciləri əsrlərin arxasından sürülüb gələcək müxtəlif nəsillərdən olan insanların estetik tərbiyyə məktəbi rolunu oynamışdır. Respublikamızın Qazax, Tovuz, Salyan, Şamaxı, Şəmkir, Gədəbəy, Kürdəmir, Qobustan rayonlarındakı orta ümumtəhsil məktəbləri şagirdlərilə aparılan müsahibələr göstərir ki, həmin rayonların ayrı - ayrı məktəblərində təhsil alan şagirdlərin əksəriyyəti aşıq havalarının bəzilərini gözəl bilir, hətta bir neçə aşıq havasını sazda məharətlə ifa edirlər.

Belə bir cəhət də xüsusi maraq doğurur ki, yuxarıda göstərdiyimiz rayonların yaşlı sakinləri belə aşıq yaradıcılığı haqqında müəyyən məlumata yiyələnmişlər. Maraqlı cəhət budur ki, onlar aşıq musiqi nümunələrini, aşıq havalarını bir - birindən fərqləndirirlər. Ayrı - ayrı havaları sazda mükəmməl sala bilirlər.

Görkəmli filoloq - estetik alim akademik Məməd Cəfər Cəfərov bu məsələ ilə əlaqədar yazır:

"Bunun da səbəbi odur ki, bu vətəndaşlar uşaqlıqdan məktəbdə olmasa da həyatda xalq musiqisi ilə, aşıqlarla ünsiyyətdə olmuş, bu havaları ustad aşıqların ifasında dəfələrlə dinlənmiş, mənimsəmiş, özləri də eyni havaları az - çox sazda çalmağı təcrübə etmişlər". Pedaqoji cəhətdən çox mühüm əhəmiyyət kəsb edən bu qənaətdən sonra problemlə bağlı digər cəhətin də üzərində dayanır:

"Deməli musiqini öyrənmək, sevmək, başa düşmək, ondakı gözəlliyi dərk edə bilmək və musiqi əsərləri haqqında estetik mühakimə yürüdə bilmək, ancaq bilavasitə, həm də müntəzəm surətdə musiqi əsərlərini dinləməklə, uşaq yaşlarından musiqi sənəti ilə sıx ünsiyyət yaratmaqla mümkündür".

Dərin həyatı müşahidələr əsasında deyilən bu fikirdə böyük həqiqət var. Aşıq sənəti nümunələri vasitəsilə uşaq və yeniyetmələrin, məktəbi gənclərin estetik tərbiyyəsini inkişaf etdirmək prosesində də həmin fikir, başlıca müddəa əsas götürülməlidir. Buna görə də musiqi lektoriyasında aşıq sənəti nümunələri, ayrı - ayrı janrları haqqında söhbət apararkən şagirdlərdə daha aydın təsəvvür yaradılmalıdır. Şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, aşıq yaradıcılığında - aşıq musiqi folklorunda mövcud olan və estetik təsiri ilə diqqəti cəlb edən nümunələr əsas iki qrupa ayrılır:

**Birinci qrupa:** saz havaları daxildir. Sənətşünasların, musiqi folklorunun tədqiqi ilə məşğul olan alimlərin gəldiyi qənaətə görə saz havaları aşıq musiqisinin ən qədim və ən dəyərli növüdür. Bundan əvvəl qeyd etdiyimiz kimi ən təsirli saz havalarının əksəriyyəti müxtəlif dövrlərdə yaşamış aşıqlar tərəfindən yaradılmışdır. Bu havalar illər, əsrlər bir - birini əvəz etdikcə daha da təkmilləşmişdir. Mütəxəssislərin gəldiyi qənaətə görə hazırda yüzdən çox saz havası mövcuddur. "Misri", "Sərili", "Ovşarı", "Naxçıvani", "Borçalı", "Qarabağ qaytarması", "Cəlili", "Heydəri", "Hüseyni", "Dilqəmi" və digər havalar müxtəlif nəsildən olan insanlarda estetik hiss, həyəcan oyadır.

Saz havalarının oyatdığı hissi - emosional təsir də müxtəlifdir. Onlardan bir qismi insanlarda mərdlik, Mübarizlik və gümrahlıq, sevinc və qəmginlik hissləri oyadır. Aşıq musiqisində xüsusi yer tutan "Koroğlu havalar"nın və bu qəbildən olan "Misri"nin gümrah melodiyası, mərdliyə, mübarizəliyə çağırış ruhu ilə dinləyiciləri estetik cəhətdən həyəcanlandırır, mərdlik, mübarizlik hisslərini qüvvətləndirir.

**İkinci qrupa:** aşıqlar tərəfindən müxtəlif vaxtlarda yaranan mahnılar daxildir. Vətənə, odlar diyarının gözəl güşələrinə, qəhrəman oğul və qızlarının hünərinə həsr edilmiş mahnılar estetik zövq vasitəsi olmaqla, eyni zamanda vətənpərvərlik hisslərini qüvvətləndirir."Yaşa Azərbaycan", "Vətən oğlu", "Ana yurdum" mahnıları, habelə xalq qəhrəmanları Koroğluya, Qaçaq Nəbiyə həsr olunmuş mahnılar daha geniş yayılmışdır. Musiqi lektoriyasında aşıq musiqi sənəti haqqında göstərdiyimiz məzmunda, göstərdiyimiz istiqamətdə söhbətin aparılması ümumtəhsil məktəbi şagirdlərin estetik hisslərinin inkişafına estetik görüşlərinin genişlənməsinə zəmin yaradır.

## ƏDƏBİYYAT


1. Hacıbəyov Ü. Azərbaycan xalq musiqisinin əsasları, Bakı, Yazıçı nəşriyyatı, 1985.
2. Ağayev Ə. Pedaqoji fikrimiz: Dünənimiz, bu günümüz, Bakı, Elm nəşriyyatı, 2000.
3. Musiqi estetik tərbiyyə vasitəsidir, Bakı, 1984
4. Cəfərov M.C. Estetik tərbiyyə, ailə və məktəb, Bakı, Maarif, 1967.
5. Azərbaycan xalq musiqisi, Bakı, Elm, 1981


## РЕЗЮМЕ


**Исмаил Мурсалов**


**ФОРМИРОВАНИЕ ЭСТЕТИЧЕСКОГО ВОСПИТАНИЯ УЧЕНИКОВ ПОСРЕДСТВОМ МУЗЫКИ**


В статье говорится о формировании эстетического воспитания учеников посредством музыки. Говоря об уроках музыкального искусства, эта жемчужина искусства сыграла роль школы эстетического воспитания.


## ABSTRACT


**Ismayil Mursalov**


**DEVELOPMENT OF AESTIC EDUCATION OF STUDENTS BY MUSIC**


In this article talking about aestetic education of students by music. While talking about music art lessons, it is necessary to bring to the attention of the pupils that this pearl of art has played a role of aesthetic education school.

**NİLUFƏR AĞAYEVA**
*AMEA Naxçıvan Bölməsi*
*nuraagaoglu@gmail.com*

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVANDA TƏHSİLİN İNKİŞAFI

**Açar sözlər:** *Heydər Əliyev, Naxçıvan, məktəb, orta ixtisas, ali təhsil müəssisələri*
**Key words:** *Heydar Aliyev, Nakhchivan, schools, secondary specialties, higher education institutions*
**Ключевые слова**: *Гейдар Алиев, Нахчыван, школы, средние специальности, высшие учебные заведения*

Məqalədə Naxçıvan Muxtar Respublikasında müstəqillik illərində təhsil sahəsi haqqında məlumat verilmişdir. Ümumilli lider Heydər Əliyevin və cənab ilham Əliyevin təhsil siyasətlərinin Naxçıvan Muxtar Respublikada uğurla həyata keçirilməsi vurğulanmış, məktəb, orta ixtisas, ali təhsil müəssisələrinin 1990-ci illərin ortalarından günümüzədək necə sürətli inkişafından bəhs olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri cənab Vasif Talıbovun imzaladığı müvafiq sərəncamların təhsilin inkişafında yeni mərhələnin əsasını qoyması haqqında məlumatlar qeyd olunmuşdur.

1990-ci illərdəki hadisələr nəticəsində Azərbaycanın digər bölgələrində olduğu kimi Naxçıvan Muxtar Respublikasında da təhsil sahəsinə dövlət qayğısı tamam unudulmuşdu. Məktəblərin maddi texniki bazaları olduqca aşağı səviyyədə idi. Şagirdlərin əksəriyyəti məktəblərdə təhsillərini yarımçıq dayandırmışdılar. Dərslərdən yayınma halları çoxalmışdı. Təhsilinin o illərdəki (1988-1992-ci illər) ağır, dözülməz vəziyyətini görmüş və yaşamış elm adamları, təhsil işçiləri, ziyalılar, müəllimlər taleyin hökmünə minnətdardırlar ki, elmin, təhsilin, mədəniyyətin böyük himayəçisi, əvəzsiz maarifpərvər Heydər Əliyevin 1993-cü ilin iyununda yenidən Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı ilə bütün sahələrdə olduğu kimi təhsil sahəsində də tənəzzülün, böhranın, dağılmanın qarşısı alındı. Heydər Əliyev tərəfindən belə bir konsepsiya, strateji xətt hazırlanıb həyata keçirilməyə başlandı ki, dövlətin, dövlətçiliyin təməl prinsipləri içərisində milli təhsil müstəsna yer tutur. Dahi lider Heydər Əliyevin milli müstəqillik, milli dövlət quruculuğu strategiyasında belə bir ideya əsaslandırıldı ki, dövlət müstəqilliyinin əbədiliyinin, vətəndaş cəmiyyətinin demokratik inkişafının magistral yolu mütləq və mütləq milli təhsildən keçir, təhsil dövlətin təməl ünsürü, millətin gələcəyidir. Buna görə də o, prioritet sahə olan təhsilə qayğını dövlətin əsas strateji xətti kimi ön plana çəkdi (3,s.380).

1995-ci ildən başlayaraq Naxçıvan Muxtar Respublikanın mədəni inkişafında təhsilin, inkişafı çox yüksək səviyyəyə çatmış, hər bir sahədə çox böyük uğurlar qazanılmışdır. Ali Məclis Sədrinin bu sahələrə çox böyük diqqət yetirməsi, qayğısına qalması, təşkilatçılıq fəaliyyətində bu sahələri prioritet sahə hesab etməsi onların üstün inkişafını təmin etmişdir. Keçən illər ərzində təhsil sahəsində qazanılmış bütün bu nailiyyətlər Naxçıvanın keçdiyi misilsiz inkişaf yoludur. Bu yolun bələdçisi isə dahi lider Heydər Əliyevin idarəetmə məktəbini keçmiş, onun dövlətçilik xəttinin incəliklərini mənimsəmiş, Naxçıvan Muxtar Respublikanın dərindən tanıyan, potensialını və problemlərini yaxşı bilən, təşəbbüskar, coşğun enerjili, aydın proqramlı cənab Vasif Talıbovdur. Ümummilli liderin Naxçıvanla bağlı arzularını yüksək səviyyədə gerçəkləşdirən cənab Vasif Talıbovun səmərəli fəaliyyəti və təşkilatçılıq bacarığı ilə Naxçıvanda təhsil sahəsində mühüm dəyişikliklər baş vermişdir (1, s.159).

Naxçıvan Muxtar Respublikanın rəhbəri cənab Vasif Talıbov diyarı irəli aparmaq, modernləşdirmək üçün məqsədyönlü, irimiqyaslı, ardıcıl təhsil siyasəti aparmışdır. İlk növbədə təhsil müəssisələri üçün yeni binalar tikilməyə başlanılmış, təmir olunmuş və maddi-texniki bazası möhkəmləndirilmişdir. Naxçıvan Muxtar Respublikada yeni məktəblərin tikilməsi, onların texniki və kadr təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya - kommunikasiya texnologiyaları və pulsuz dərsliklərlə təmin edilməsi sahəsində ardıcıl iş aparılmışdır. Müstəqilliyin ilk on ili ərzində Naxçıvan Muxtar Respublikada 36 yeni orta ümumtəhsil məktəbi tikilmiş, 19 məktəb binası isə əsaslı şəkildə yenidən qurulmuşdur. 2000 - 2005-ci illərdə isə tikilən məktəblərin sayı 59, şagird yerlərinin sayı 17 770 nəfər olmuşdur. Sonrakı illərdə məktəb tikintisi davam etdirilmişdir. 180 məktəb binası tikilmiş və əsaslı təmir olunmuşdur. 2003-cü ildə Naxçıvan Muxtar Respublikada 232 gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərirdi ki, bunun da tərkibində 10 ibtidai, 19 əsas, 202 orta təhsil və 1 xüsusi məktəb var idi. Şagirdlərin sayı isə 72179-a çatırdı. Naxçıvan Muxtar Respublikanın ümumtəhsil məktəblərində çalışan müəllimlərin sayı da ilbəil artmışdı. Belə ki, 1990-cı ildə

7200, 2003-cü ildə 8687, 2005-ci ildə isə 8496 nəfər olmuşdur ki, onların da 93 faizi ali təhsilli idi. 1990-cı ilin əvvəllərindən başlayaraq Naxçıvan Muxtar Respublikanın ümumtəhsil məktəbləri sistemində müəyyən dəyişikliklər baş vermiş, liseylər yaradılmışdı. 1992-ci ildə “Xanım qızlar” Liseyi və 1998-ci ildə isə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı Naxçıvan şəhərində fəaliyyətə başlaması məhz cənab Vasif Talıbovun apardığı uğurlu siyasətin nəticəsidir. Naxçıvan Muxtar Respublikamızda təhsilin məzmunca yeniləşdirilməsi və keyfiyyətə nail olunması, təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, təhsil sahəsində müxtəlif proqramların həyata keçirilməsi istiqamətində fəal iş aparılır və nəticədə zəngin biliyə, hərtərəfli intellektual səviyyəyə malik, fiziki və mənəvi cəhətdən sağlam gənclər yetişir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 iyun 2008-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş, “2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı” ölkəmizdə yeni texnologiyalardan istifadə olunmaqla təhsilin informasiya mühitinin yaradılması işində çox mühüm rol oynamaqdadır. Ali Məclis Sədrinin qayğısı ilə ümumtəhsil məktəblərinə 2781 ədəd kompüter verilmişdir. Bu isə 19 şagirdin 1 kompüterlə təmin olunması deməkdir. Kompüterlərin 2193-ü və ya 79 faizi internetə qoşulmuşdur. 197 məktəbdə 208 ədəd elektron lövhədən istifadə edilir. Bunlar Naxçıvan Muxtar Respublikada yeni informasiya texnologiyalarından istifadə olunmaqla təhsilin keyfiyyətinin yüksəldilməsinə dövlət qayğısının parlaq ifadəsidir (4, s.61).

Naxçıvan Muxtar Respublikada aparılan uğurlu siyasət nəticəsində təhsildə keyfiyyət dəyişiklikləri hər il artmaqda davam edir. Orta ümumtəhsil məktəblərinin məzunlarının ali məktəblərə qəbulunda da artım vardır. Əgər 2005-ci ildə ali məktəblərə qəbul 33 faiz idisə, hər keçən il bu faiz göstəricisinin artımının şahidi oluruq. Məktəblərə, məktəblilərə, onların hərtərəfli inkişafına hər cür qayğı göstərilir. Məktəb kitabxanaları zənginləşdirilir, məktəblilər pulsuz dərsliklərlə təmin olunur. 2005-2009-cu illərdə məktəb kitabxanalarına 1 milyon 13 min 539 nüsxə dərslik, 394 adda 539639 ədəd bədii ədəbiyyat, 1450 ədəd Azərbaycan Milli Ensiklopediyasının xüsusi nəşri, 450 ədəd Naxçıvan Abidələri Ensiklopediyası, 15 fənn üzrə 140 adda 74510 ədəd əyani vəsait, 440 ədəd “Naxçıvan xanlığı” kitabı verilmişdir. Naxçıvan Muxtar Respublika rəhbərinin diqqət və qayğısı sayəsində 2005-ci il avqust ayından ümumtəhsil məktəblərinin I-XI sinif şagirdləri dərsliklərlə pulsuz təmin edilmişdir. Sonrakı illərdə də bu iş davam etdirilmişdir. Naxçıvan Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin vahid məktəbli forması ilə təmin olunması Naxçıvan Muxtar Respublika rəhbərliyinin həmişə diqqət mərkəzində olmuşdur. Naxçıvan Muxtar Respublikanın ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri və şagirdləri uyğun formadan istifadə edirlər. Bu da öz növbəsində həm təlimdə, həm də tərbiyədə müsbət rol oynayır (6).

Naxçıvan Muxtar Respublikasında məktəbəqədər tərbiyə müəssisələrinin geniş şəbəkəsi mövcud olmuşdur. 1995-2010-cu illərdə məktəbəqədər müəssisələrin geniş şəbəkəsi yaradılmış, yeni binalar tikilmiş və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikada 44 məktəbdənkənar uşaq müəssisəsi, o cümlədən gənc təbiətçilər, rəsm, idman, şahmat və b. fəaliyyət göstərirdi. Onlarda çoxlu sayda şagird müxtəlif maraq sahələri üzrə qruplara cəlb olunmuşdu. Şahbuz rayonunda Uşaq Yaradıcılıq Mərkəzi, Şahmat Məktəbi, Culfa və Şərur rayonlarında Şahmat məktəbi tikilmiş və müasir avadanlıqlarla təchiz olunmuşdur. Naxçıvan şəhərindəki Şahmat mərkəzində beynəlxalq yarışların keçirilməsi üçün hər cür şərait vardır. 2005-ci ildən başlayaraq Naxçıvan Muxtar Respublikada təhsil yarmarkaları keçirilir. Hər il keçirilən təhsil yarmarkasında çoxsaylı gənc mütəxəssislər işlə təmin olunur. Respublikamızda ümumtəhsil məktəbləri müəllimlərinin həyat səviyyəsi və onların əməyinin qiymətləndirilməsi də dövlətimizin diqqət mərkəzində saxlanılmış və qayğı göstərilmişdir. Son bir neçə ildə təhsil işçilərinin əmək haqları bir neçə dəfə artırılmışdır. Ən qabaqcıl məktəblər və müəllimlər ölkə rəhbəri tərəfindən mükafatlandırılmışdır. (2, s.64).

1996-cı ildən orta ixtisas və ali təhsil müəssisələrinin inkişafına da diqqət artırılmış, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə fikir verilmişdir. Hazırda Naxçıvan Muxtar Respublikada Naxçıvan Tibb Kolleci, Naxçıvan Musiqi Kolleci və Naxçıvan Dövlət Texniki Kolleci fəaliyyət göstərir. Son illərdə Naxçıvan Muxtar Respublikada ali təhsil müəssisələrinin həyatında da ciddi dəyişikliklər baş vermişdir. Ölkə Prezidentinin Sərəncamı ilə Azərbaycan Müəllimlər İnstitutu və bölgələrdə filialları yaradıldı. Naxçıvan Müəllimlər institutu da 13 iyun 2000-ci ildə Azərbaycan Müəllimlər institutunun filialı kimi yaradıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə bu filial 2003-cü ildə müstəqil ali məktəbə çevrildi.

Naxçıvanda fəaliyyət göstərən ali təhsil müəssisələrindən biri də Naxçıvan Universitetidir. "Naxçıvan" Universiteti 1999-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində Dövlət qeydiyyatına alınaraq ali təhsil müəssisəsi kimi fəaliyyətə başlamışdır. Universitet Azərbaycanın paytaxtı Bakı şəhərindən kənarda yerləşən yeganə özəl ali təhsil ocağıdır. Universitetdə 4 fakültə, 10 kafedra, 6 şöbə fəaliyyət göstərir. Hazırda universitetin 1000 nəfərə yaxın tələbəsinin təhsili ilə 81 nəfər müəllim məşğuldur. Onların sırasında AMEA üzvləri, elmlər doktorları, professorlar, dosentlər vardır. 2016-2017-cı tədris ilində universitetdə 14

ixtisas üzrə bakalavr, 4 ixtisas üzrə magistr hazırlığı aparılır. Universitet zəngin maddi-texniki bazaya malikdir. 7 binadan və yardımçı qurğulardan ibarət möhtəşəm universitet şəhərciyi salınmışdır. Arxitektura və pedaqoji baxımından mükəmməl olan tədris korpusları, yüksək zövqlə dizayn edilmiş mühazirə və məşğələ otaqları, kabinə və mərkəzlər mövcuddur. Təlim prosesində ən son modifikasiyalı texnologiyalardan istifadə olunur. Elektron zalları, zəngin kitab fondu olan elmi kitabxana, yaraşıqlı idman kompleksi və konfrans zalı, hər cür şəraitə malik müasir yataqxana həmçinin üçmərtəbəli sosial xidmət mərkəzi fəaliyyət göstərir. Universitet dünyanın 51 ali təhsil müəssisəsi ilə əməkdaşlıq edir. Üç beynəlxalq təhsil təşkilatının üzvüdür. Beynəlxalq proqramlarda və layihələrdə iştirak edir (8).

Naxçıvan Dövlət Universiteti - 1967-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi yaranmış, 1972-ci ildən müstəqil ali təhsil müəssisəsinə çevrilmiş və 1991-ci ildən isə Naxçıvan Dövlət Universiteti adlandırılmışdır. Bu təhsil ocağının əsl inkişaf dövrü 1996-cı ildən sonra baş vermişdir. Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra bu ali təhsil müəssisəsinin həyatında bir canlanma hiss olunmuşdur. 1996-cı ilin oktyabrında prof. İsa Həbibbəylinin universitetin rektoru təyin edilməsi ilə bu ali təhsil müəssisəsinin gələcək uğurları üçün əsas yaradılmışdır. Vasif Talıbovun dəfələrlə dövlət və hökumət nümayəndələri ilə birlikdə universitetə gəlməsi, problemlərlə tanış olması, kollektiv üzvləri ilə görüşməsi, tövsiyyə və tapşırıqlarını verməsi universitetin inkişafını sürətləndirmişdir. Onlarla yeni tədris korpusları, 1600 yerlik əsas korpus, Tibb fakültəsinin yerləşdiyi korpus, Sosial-İdarəetmə və Hüquq fakültəsi, İqtisadiyyat, Olimpiya-İdman Kompleksi, Konservatoriya binası, Memarlıq və Mühəndislik fakültəsi,Təbiətşünaslıq, Beynəlxalq Münasibətlər və Xarici Dillər fakültəsi üçün binalar tikilmiş və ya yenidən qurularaq əsaslı təmir olunmuşdur. Universitetin maddi-texniki bazası möhkəmləndirilmiş, yeni-yeni kabinə və laboratoriyalar, ixtisaslaşdırılmış otaqlar yaradılmışdır. Ümummilli lider Heydər Əliyev 4 dəfə Naxçıvan Dövlət Universitetində olmuşdur. Universitetin yaradılması və inkişafı bilavasitə ulu öndərimizin adı ilə bağlıdır. Möhkəm milli əsaslara malik olan universitet respublikamızda ən qabaqcıl ali təhsil müəssisələrindən birinə çevrilmişdir. Ölkəmizin elmi-pedaqoji ictimaiyyəti Naxçıvan Dövlət Universitetini “klassik universitet”, “Azərbaycanın Oksfordu” adlandırırlar. Naxçıvan Dövlət Universiteti Azərbaycanın dövlət ali məktəbləri ailəsində kampusu olan, şəhərciyə çevrilən tək universitetdir. Universitetin 108 hektarlıq ərazisində tədris korpusu, Elektron Kitabxana, Kliniki xəstəxana, Botanika bağı, Konservatoriya, Olimpiya tipli idman mərkəzi, futbol stadionları, kabel televiziyası və s. yeni nəslin hazırlanmasına uğurla xidmət edir. Avropa universitetlərinə, dünya təhsil sisteminə inteqrasiya olunan Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələri yüksək səviyyədədir, 30-dan çox ali təhsil müəssisəsi ilə əməkdaşlıq protokolu imzalamışdır (7).

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov 14 mart 2015-ci il tarixdə "Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında" Sərəncam imzalayıb. Bu Sərəncamda Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin, ali və orta ixtisas təhsili müəssisələrinin professor və müəllim heyətinin iştirakı ilə Naxçıvan Muxtar Respublikanın ümumtəhsil məktəblərində ayda bir dəfə nümunəvi dərslər təşkil olunması qeyd olunmuşdur (5). Cənab Vasif Talıbovun imzaladığı bu sərəncam orta məktəblərin şagird müəllim kollektivi üçün olduqca əhəmiyyətlidir. İstər hər ay keçirilən nümunəvi dərslər, istərsədə interaktiv dərslər şagirdlərin professor müəllim heyətindən yeni biliklərə yiyələnmələrini təmin edir. Bu dərslərin keçirilməsi şagirdlərin dünyagörüşünün, biliklərinin daha da artmasında mühüm əhəmiyyət daşıyır.

Son illərdə Naxçıvan Muxtar Respublikada təhsil davamlı və müasir tələblər səviyyəsində inkişaf etdirilir. Yeni məktəb binalarının istifadəyə verilməsi, müasir tədris şəraitinin yaradılması tədrisin keyfiyyətini yüksəltmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı müvafiq sərəncamlar bu sahənin inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı sahəsində ardıcıl tədbirlər davamlı olaraq həyata keçirilir, təhsil müəssisələrinin maddi-texniki bazası daha da möhkəmləndirilir. Müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuş məktəblərdə distant və interaktiv təhsilin təşkilinə, elektron vasitələrdən istifadəyə üstünlük verilir. Təhsilə göstərilən dövlət qayğısı Naxçıvan Muxtar Respublikada elmi potensialı da gücləndirmiş, elm, ali və orta ixtisas təhsili müəssisələrində yüksək ixtisaslı professor-müəllim heyəti formalaşmışdır. Ümumiyyətlə Naxçıvan Muxtar Respublikasında təhsil sahəsində həyata keçirilən hər bir siyasət burada yüksək ixtisaslı, milli və bəşəri dəyərləri vəhdətdə daşıyan, geniş dünyagörüşə malik mütəxəssislərin, yeni elmi nəsillərin yetişib formalaşmasına ciddi təkan verir.

**ƏDƏBİYYAT**

1. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər), Naxçıvan: Əcəmi, 2011, 272
2. Həbibbəyli İ, Hacıyev İ, İsmayılov B. İntibahın 15 ili, Naxçıvan: Əcəmi, 2010, 280 s
3. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu, Bakı, Təhsil, 2004, 472 s.
4. Təhsilə davamlı qayğı siyasəti, Azərbaycan qəzeti, 14 sentyabr 2012-ci il
5. Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin Sərəncamı, Şərq qapısı qəzeti, 14 mart 2015-ci il
6. Naxçıvanda təhsilin inkişafına hərtərəfli qayğısı göstərilir, Şərq qapısı, 4 noyabr 2016
**7.** http://nakhchivan.preslib.az/az_c2.html
8. https://nu.edu.az/az/universitet/haqq%C4%B1nda

## ABSTRACT

**Nilufar Aghayeva**

**THE DEVELOPMENT OF EDUCATION IN NAKHCHIVAN DURING INDEPENDENCE YEARS**

The article provides information on education in the Nakhchivan Autonomous Republic during the years of independence. The successful implementation of the educational policies of the national leader Heydar Aliyev and Mr. Ilham Aliyev in the autonomous republic was highlighted, and the rapid development of schools, secondary specialties and higher education institutions from the mid-1990s to the present day. Relevant orders signed by Mr. Vasif Talibov the Chairman of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic, provided information on the foundation of a new stage in the development of education.

## РЕЗЮМЕ

**Нилюфер Агаева**

**РАЗВИТИЕ ОБРАЗОВАНИЯ В НАХЧЫВАНЕ ЗА ГОДЫ НЕЗАВИСИМОСТИ**

В статье представлена информация об образовании в Нахчыванской Автономной Республике за годы независимости. Была отмечена успешная реализация образовательной политики общенационального лидера Гейдара Алиева и г-на Ильхама Алиева в автономной республике, а также быстрое развитие школ, средних специальностей и высших учебных заведений с середины 1990-х годов до наших дней. Соответствующие распоряжения, подписанные Председателем Верховного Собрания Нахчыванской Автономной Республики г-ном Васифом Талибовым, предоставили информацию о фундаменте нового этапа в развитии образования.

**ZEYNAB MEHDİYEVA**
*Naxçıvan Müəllimlər İnstitutu*
*zeynab.zeynalova@yahoo.com*

# HƏYAT BİLGİSİ FƏNNİNİN TƏDRİSİNDƏ SAĞLAM HƏYAT TƏRZİNƏ DAİR BİLİK VƏ BACARIQLARIN NÜMAYİŞ ETDİRİLMƏSİ

**Açar sözlər:** *Həyat bilgisi, bilik, bacarıq, şagird, uşaq, məktəb, məktəbli, sağlam, dərs, maraq, müəllim, sinif, yardım, ibtidai sinif, özünənəzarət, saflıq, düşüncə, dünyagörüş, idman, qidalanma, rejim, təbiət, ətraf mühit, tərbiyə, təlim, cəmiyyət, motivasiya, kamillik, adət-ənənə, mətn, mövzu, dərs, təhlükəsizlik, fəlakət, bazar iqtisadiyyatı, inkişaf etmək, dəyər, istirahət etmək, əzilmə, tibbi yardım, müvəffəqiyyət, formalaşma*

**Keywords:** *Life Science, knowledge, skill, student, child, school, schoolchild, healthy, lesson, curiosity (interest), teacher, classroom, help, elementary class, self-control, cleanliness, thinking, outline, sport, nutrition, mode, nature, environment, education, training, society, motivation, perfection, tradition, text, subject, lesson, safety, catastrophe, market economy, development, value, rest, injury, medical care, success, formation*

**Ключевые слова:** *познание мира, знание, умение, ученик, ребёнок, школа, школьник, здоровый, урок, интерес, учитель, класс, помощь, начальный класс, самоконтроль, чистота, мышление, мировоззрение, спорт, питание, режим, природа, окружающая среда, воспитание, обучение, общество, мотивация, совершенство, традиции и обычаи, текст, тема, урок, безопасность, беда, рыночная экономика, развиваться, ценность, отдыхать, ушиб, медицинская помощь, успех, формирование*

İnsan üçün dünyada hər şeydən əziz həyatdır, həyatda ən əziz şey isə sağlamlıqdır. Sağlamlıq ilk növbədə insanın özündən asılıdır. Sağlam düşüncəli yeni nəslin yetişdirilməsi ilə bağlı dahi öndər Heydər Əliyev gözəl demişdir: "Biz bugün yaşayarkən, müstəqil dövlətimizi qurarkən gələcək nəslimiz barədə düşünməliyik ki, bizdən sonra gələn nəsillər bizim dövrümüzdəki nəsildən daha sağlam olsun" (1, s. 223).

Həyat tərzi insanın adət-ənənələrinə, cəmiyyətdə normalara əsaslanan bir davranış sistemidir. Sağlam həyat tərzinin formalaşmasında insan sağlamlığının formalaşmasına təsir edən amillər əsas yerlərdən birini tutur.

İnsan yarandığı gündən təbiəti sevməli, onu qorumalı, ətraf mühitə qarşı həssas və diqqətli olmalıdır. Təbiətlə cəmiyyət arasındakı tarazlığı qorumalıdır. Təbiətin qorunması gələcək nəsillərin sağlamlığının qorunmasıdır. İnsanların təbiətə qayğısız münasibəti, tələb olunan qaydaları gözləməməsi ekoloji təhlükələrin artmasına gətirib çıxarır. Ətraf mühitin təmizliyinin keşiyində durmasaq, onu qorumasaq bir çox xəstəliklər meydana gələr ki, bu da insan həyatı üçün böyük bir fəlakətə çevrilər.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi 22 may 2006-cı ildə, Həyati Bacarıqlara Əsaslanan Təhsil üzrə Milli Konsepsiya təsdiq etmişdir (2, s. 5). Konsepsiya Azərbaycanda aparılan islahatlar əsasında gənc nəslin sağlam həyat tərzi və yaşama bacarıqlarını formalaşdıran, müxtəlif sahələr üzrə bilik və bacarıqlar əldə etməsinə xidmət edən bir sənəd kimi keyfiyyətli təhsili inkişaf etdirmək üçün hüquqi, iqtisadi və təşkilati şəraitin yaradılmasında mühüm rol oynayır.

Ümumi orta təhsil səviyyəsində ibtidai təhsil səviyyəsi üzrə müəyyən olunmuş bacarıqlar daha da təkmilləşdirilməklə şagirdlərdə təbiət və cəmiyyət hadisələri timsalında qanunauyğunluqların mahiyyəti haqqında ətraflı təsəvvür formalaşdırılır, reproduktiv sağlamlıq, insan hüquqları, mənəvi kamillik, əxlaqi yetkinlik, vicdan azadlığı, sağlam həyat tərzi, təbii fəlakət və qəzalardan qorunmaq yolları barədə məlumatlar dərinləşdirilir, onlarda saflıq, düzlük, əqidəlilik, dözümlülük, tolerantlıq kimi əxlaqi keyfiyyətlərin, iqtisadi təfəkkür və planlı fəaliyyət bacarıqlarının yaradılması təmin olunur.

Ulu öndərimiz Heydər Əliyev bu məsələ haqqında da öz fikirlərini bildirmişdi: "Mən inanıram ki, müstəqil Azərbaycanda, cəmiyyətimizdə sağlam həyat tərzi get-gedə özünə üstün yer tutur. Bizim cəmiyyətimizdə sağlam həyat tərzi təkcə gənc nəsil üçün deyil, hər bir insan üçün vacibdir. Bu insanın şəxsi sağlamlığıdır, bu, hər bir insanın ömrünün uzadılmasıdır, hər bir insanın nəslinin sağlam olmasıdır. Sağlam həyat tərzi də insanlarda uşaqlıq çağından başlayır. Əgər biz gənc nəslin hamısını sağlam həyat tərzinə yönəltsək, onları fiziki və əqli cəhətdən sağlam böyüdə biləcək, onda cəmiyyətimizdə də sağlam həyat tərzi

hökm sürəcək və müstəqil Azərbaycanın gələcəyini təmin edən insanlar daha da sağlam, daha da güclü olacaqdır" (3, s. 60).

İbtidai siniflərdə Həyat bilgisi dərslərində şagirdlərdə sağlam həyat tərzinin formalaşdırılması, təhlükəsizlik və ilk tibbi yardım qaydalarına riayət etmək bacarıqları aşılanır. Bu da uşaqlarda zərərli vərdişlərin insan həyatı üçün təhlükə olduğunu və ağır nəticələr verdiyini konkret nümunələr əsasında şərh edir, sağlam həyat tərzi keçirdiyini gündəlik fəaliyyətdə nümayiş etdirməklə, onlarda bilik və bacarıqları formalaşdırır.

Birinci siniflər üçün nəzərdə tutulmuş Həyat bilgisi dərsliyində "Mənim sağlamlığım" mövzusunun tədrisində sağlam və sağlam olmayan həyat tərzi haqqında anlayışlar şagirdlərə aşılanır. Müəllim motivasiyanı aşağıdakı şəkildə quraraq şagirdlərdə sual ətrafında düşünmə bacarığı yaradır.




Şagirdlər sual ətrafında yazılan sözlərin köməyi ilə sağlamlıq anlayışını müəyyənləşdirir və sağlam olmanın başqa xüsusiyyətlərini də müzakirəyə əlavə edirlər. Müəllim dərslik və başqa məlumatlardan istifadə edərək şagirdlərə sağlamlıq haqqında, sağlam olmanın ən mühüm xüsusiyyətləri haqqında məlumat verir və onlara evin, həyətin, sinfin, havanın, suyun təmiz saxlanmasının vacibliyini izah edir. Eyni zamanda ətraf mühitin çirklənməsinin planetimizə və həyatımıza təsirini əks etdirən bir interaktiv təlimin təşkilində ekoloji tərbiyənin ən mühüm aspektlərinə də nəzər salır. Şagirdlərə izah edir ki, çirklənmə problemləri qlobal məqsədlərlə birbaşa bağlıdır.

İlk növbədə sağlamlığı qorumaq üçün şəxsi gigiyena qaydalarına əməl edilməlidir. Səhər yuxudan duran kimi əl-üz yuyulmalı, sağlam olmaq üçün bədən təmiz saxlanmalı, bayırdan evə gəldikdə yeməkdən əvvəl və ya hər hansı bir iş gördükdən sonra mütləq əllər yuyulmalıdır. Təmiz əllər sağlam həyat deməkdir, təmiz bədən rahatlıq nümunəsidir.

Ümumiyyətlə, sağlamlığın qorunması və təmin olunması, sağlam həyat tərzinə dair bacarıqların formalaşması ibtidai sinif şagirdləri üçün böyük əhəmiyyət kəsb edir. Sağlam həyat tərzinə dair bacarıqların formalaşması ibtidai sinif şagirdlərində özünütəşkiletmə, özünənəzarət və özünütənzimləmə kimi şəxsi keyfiyyətlərin mənimsənilməsində müstəsna rol oynayır.

Qeyd etdiyimiz kimi, Həyat bilgisi fənninin tədrisində mənəviyyat, sağlamlıq (fiziki, psixi və reproduktiv), həyat fəaliyyətinin təhlükəsizliyi, fövqəladə hallar və təbii fəlakətlər zamanı düzgün davranış qaydaları, ekoloji tərbiyə məsələləri üzrə bilik və bacarıqlar şagirdlərdə formalaşdırılır. Bu fənnin tədrisində sağlamlığın mühafizəsi və sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirilməklə yanaşı, eyni zamanda həyat və sağlamlıq üçün təhlükə törədən mənbə və obyektlər tanınır, fövqəladə hallar barəsində ilkin təsəvvürlər formalaşdırılır. Sağlam həyat tərzinə haqqında mülahizələr, gün rejimi, yoluxucu xəstəliklərdən qorunma yolları, nəqliyyat vasitələrinin təhlükəsizlik vasitələrindən istifadə və başqa bu kimi anlayışlar fənn daxili mövzuların tədrisi zamanı şagirdlərə mənimsədilir.

Şagirdlərə yoluxucu xəstəliklərdən qorunmağın yollarını öyrədən zaman bir sıra profilaktik tədbirlərin həyata keçirilməsinin əhəmiyyəti haqqında da şagirdləri məlumatlandırmaq lazımdır. Düzgün qidalanma, təmizlik, idman və vaxtında edilən peyvəndlərin faydaları haqqında məlumatlar verilməlidir. Xəstəliklərdən, məsələn; qripdən özünü və başqalarını qorumağın əhəmiyyəti haqqında bir sıra tədbirlərin həyata keçirilməsi vurğulanmalıdır:

a) əlləri tez-tez sabunla yumaq;
b) asqıranda və öskürəndə ağız - burunu salfetlə örtmək;
c) istifadə edilən salfeti dərhal zibil qabına atmaq;
d) valideynlərin tövsiyyəsinə əməl etmək;
e) xəstə halda görüşərkən qucaqlaşmaq və əl sıxmaqdan qaçmaq;
f) həkim müalicə yazmışsa, onun tapşırıqlarına əməl etmək.

Ümumtəhsil məktəblərinin ibtidai siniflərində tədris olunan Həyat bilgisi sağlamlıqla bağlı düzgün seçimlərin edilməsini təşviq və təbliğ edən əsas fənlərdən biridir. Sağlamlığın təşviqi, xəstəliklərdən qorunmaq, gün rejiminə əməl etmək, təhlükələrdən qorunmağı bacarmaq, düzgün qidalanmaq ibtidai sinif

şagirdlərinin gündəlik həyatının əhəmiyyətli dərəcədə yaxşılaşması ilə yanaşı sağlamlığın qorunmasına düzgün yanaşmanın formalaşmasına da yardım edir. Bu fənn ibtidai sinif şagirdlərinin sağlamlığa dair məlumatlarla maarifləndirməsinə və müvafiq bacarıqlara yiyələnməsinə imkan verir. Sağlam həyat tərzini təşkil edən davranışların şahidi və iştirakçısı olmaq isə onların bu bacarıqlarını daha da möhkəmləndirir. Məsələn; təklif edilən sağlam qidalar və ya yeməklər arasında seçim edərkən uşaqlar sağlam qidalanma barədə öyrənməklə yanaşı, onlar istehlakçı kimi digər mühüm bacarıqlara, o cümlədən, qida məhsullarının becərilməsi, yığılması, hazırlanması və bişirilməsinə də yiyələməlidir.

Həyat bilgisi fənninin tədrisi zamanı sağlam həyat tərzi üzrə bacarıqların formalaşdırılması işinin təşkili əsasən sistemli şəkildə həyata keçirilir. Şagirdlərin müvəffəqiyyətini artıran dəqiq bacarıqları öyrənmək, yeni hərəkətlərə ehtiyacın yaranması üçün ibtidai məktəb ən əlverişli dövrdür. Şagirdlərin təlim zamanı ilk və ikinci sinifdə əldə etdikləri bacarıqları müqayisə etməklə, birinci sinif şagirdlərin qazandıqları bacarıqların onların sağlam həyat tərzində formalaşmasına imkan verir.

Sağlam həyat tərzinə dair bacarıqların formalaşması şagirdlərin bir bioloji struktur kimi düşünmə imkanlarını artırmağı tələb edir. Şagirdin özünü və hərəkətlərini əks etdirən, öz daxili dünyasını dərk etməsinə səbəb olan düşüncələr şagirdlərin sağlamlığının artırılması üçün fəaliyyətin əsasını seçməyə və seçimin nəticələrini qiymətləndirməyə imkan verir. Düşüncənin köməyi ilə isə şagirdlər biliklərini və təcrübələrini bir - biri ilə əlaqələndirir.

Həyat bilgisi fənninin tədrisində şagirdlərin sağlam həyat tərzinin komponentlərinə şüurlu şəxsi münasibəti daxil etmək üçün aşağıdakılar əlavə edilməlidir:

1) sağlam həyat tərzinin formalaşmasında zəruri olan bilik və bacarıqlara sahib olmaq üçün şagirdlərin motivasiyasını artırmaq üsulları tətbiq olunmalıdır. Şagirdlər üçün vacib olan motivlərin aktuallaşması özünübilmə, özünü təsdiqləmə, özünü inkişaf etdirmək, onların qabiliyyətlərini, davranışlarını və özlərinin həyat tərzini təhlil edərək düşünməyə və yenidən düşünməyə, özləri haqqında refleksiv məlumatları genişləndirməyə imkan verir.

2) fəaliyyət, davamlılıq və ardıcıllıq prinsiplərinə əsaslanmaqla metodik normalara riayət etmək, sağlamlığın qorunması və möhkəmləndirilməsi məsələsində şagirdlərin sağlam həyat tərzi baxımından duyğu və dəyər münasibətlərinin aktuallaşdırmaq, sağlam həyat tərzini təmin etməkdə şagirdlərin təcrübəsini zənginləşdirən inkişaf etməkdə olan mühiti yaratmaq.

Həyat bilgisi dərslərində reallaşan fənn kurikulumunun məzmun standartlarında sağlam həyat tərzinə dair imkanlara geniş yer verilmişdir. Fənn kurikulumunda "Sağlamlıq və təhlükəsizlik" məzmun xəttinə əsasən dərslikdə sağlam həyat tərzinə dair mövzular verilmişdir. Bu materiallar vasitəsilə şagirdlər sağlamlığın qorunması ilə bağlı öz hüquq və vəzifələrini tanıyır, ətraf mühitdə orqaniz üçün zərərli olan amillər haqqında məlumatlara malik olur, sağlamlığın özünün tərəfindən qorunmasının vacibliyini dərk edirlər.

Sağlam bədən sağlam düşüncənin məhsulu kimi bəşər övladı üçün ən böyük mirasdır. Sağlam düşüncə də insan sağlamlığının keşikçisi olmalıdır. Bu gün cəmiyyətdə baş verən bir çox hadisələrin, məsələn; istehsalatın sürətlə artımı, bazar iqtisadiyyatının genişlənməsi, dünyada baş verən bir çox qlobal hadisələr insan sağlamlığına da öz mənfi təsiri göstərmişdir. Qidaların keyfiyyətsiz istehsalı, havanın, suyun çirklənməsi bir çox yoluxucu xəstəliklərin artmasına səbəb olmuşdur. Xüsusən də kiçik yaşlı uşaqlar məhz bu kimi zərərli həyat şəraitində öz sağlamlıqlarını itirirlər. elə bu səbəbdən də uşaqların sağlamlıq haqqında maarifləndirilməsi ən mühüm məsələ kimi məktəblərin üzərinə düşür. Bu baxımdan, I-IV sinif Həyat bilgisi dərsliklərində sağlamlıq haqqında mövzulara geniş yer verilmiş, anoloji mövzuda olan mətnlər çox dolğun və ətraflı şəkildə şagirdlərə təqdim olunmuşdur.

Dərslərdə bu kimi praktik işlərin təşkili şagirdlərdə dərsə daha çox maraq oyatmaqla yanaşı, onların bu sahəyə daha da həvəsli olmalarında müsbət əhəmiyyət kəsb edir. Şagirdlərin bilik və bacarıqlarının inkişaf etdirilməsinə də şərait yaradır.

Göründüyü kimi, ümumtəhsil məktəblərdə tədris olunan Həyat bilgisi fənninin şagirdlərin sağlam həyat tərzi şəraitində bilik və bacarıqların əldə edilməsi işində imkanları genişdir. Həyat bilgisi fənninin sağlamlıq üzrə imkanların genişliyi və əhatəliliyi hər şeydən əvvəl ondan ibarətdir ki, bu prosesdə şagird fövqəladə şəraitdə, məsələn; zəhərlənmə, yanıq, donvurma, əzilmə, sınıq, qanaxma, elektrik zədələnmələri və s. hallarda ilk tibbi yardım və qarşılıqlı yardım bacarıqlarına yiyələnirlər.

## ƏDƏBİYYAT


1. Əliyev H.Ə. və müstəqil Azərbaycan gəncliyi, Bakı, Qapp Poliqraf Korporasiyası, 2013
2. Həyati bacarıqlara əsaslanan təhsil üzrə milli konsepsiya, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı, Universal Servic MMC, 2007
3. Quliyev D.Q. Azərbaycanın idman tarixində Heydər Əliyev mərhələləri, (1969-1982, 1993-2003)Bakı: Təknur, 2013



## ABSTRACT

### DEMONSTRATION OF KNOWLEDGE AND SKILLS RELATED TO A HEALTHY LIFESTYLE WHILE TEACHING THE SUBJECT OF LIFE SCIENCE

The article discusses the development of students' knowledge and skills in a healthy lifestyle when teaching the subject of Life Science. Content standards for the content of the curriculum of life are generally focused on the standards of a healthy lifestyle. Methods were used to motivate students to acquire the skills and knowledge necessary to build a healthy lifestyle. Students were provided with information about the importance of preventing infectious diseases, as well as providing detailed information about nutrition, cleanliness, sport and the benefits of the vaccine on time. The implementation of a number of measures on the significance of diseases such as influenza for self-defense and others was emphasized. Ideas for the development of students' knowledge and skills are also highlighted in the article.



## РЕЗЮМЕ

### ДЕМОНСТРАЦИЯ ЗНАНИЙ И УМЕНИЙ О ЗДОРОВОМ ОБРАЗЕ ЖИЗНИ В ПРЕПОДАВАНИИ ПРЕДМЕТА «ПОЗНАНИЕ МИРА»

В статье отражено формирование у учащихся знаний и умений о здоровом образе жизни в процессе обучения предмета «Познание мира». В содержательных стандартах предметного kурриkулума, осуществляемого на уроkе «Познание мира», широkое место заняли возможности для здорового образа жизни. Для формирования здорового образа жизни и для усвоения необходимых умений и знаний внедряются методы усиления мотивации у учащихся. Шkольниkам даются советы о предотвращении инфеkционных заболеваний, для чего следуют соблюдать ряд профилаkтичесkих мероприятий, в том числе, правильное питание, гигиена, спорт и своевременно сделанные прививkи. К примеру, kak следует беречь себя от заражения гриппом и не заражать других. В статье таkже освещены советы о развитии у шkольниkов знаний и опыта в вышеназванных вопросах.

**NƏZAKƏT RƏSUL QIZI**
*"Naxçıvan" Universitetı*

## NAXÇIVANDA PEDAQOJİ KADRLARIN HAZIRLANMASINDA İSMAYIL ƏLİYEVİN ROLU

**Açar sözlər:** *müəllim, pedaqoji fəaliyyət, tələbə, şəxsiyyət, alim, fəaliyyət*
**Key words:** *teacher, educational activities, personality, scientist, activities*
**Ключевые слова:** *учитель, образовательная деятельность, личность, ученый, деятельность*

1№-li məktəbin məzunu olan, həm ali təhsilinin, həm də fəaliyyətinin 44 ili Naxçıvan Dövlət Universiteti ilə bağlı olan, 20 il "Naxcıvan" Universitetınə rəhbərlik edən, ali məktəbimizdə özünün elmi - pedaqoji kamilliyi, yüksək mənəvi keyfiyyətləri ilə tanınan görkəmli pedaqoq və alimlərdən biri də İsmayıl İsrafil oğlu Əliyevdir. O, nəinki Naxçıvan ziyalıları arasında, hətta Azərbaycanda sayılıb - seçilən professorlardandır.

Zaman - zaman müəllim haqqında müdrik sözlər, gözəl kəlamlar deyənlər çox olmuşdur. **Ü**mummilli lider Heydər Əliyev demişdir: **"**Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq". M.K.Atatürk isə müəllimi bir şama bənzədirdi o, özünü əridərək başqalarına işıq verər, deyərdi. Adolf Disterveq görə isə pis müəllim şagirdinə həqiqəti çatdırır, yaxşı müəllim isə onu tapmağı öyrədir. Atalar sözlərindən birində deyilir ki, müəllim bir memar, ya mühəndisdir ki, insanların düşüncələrini, ağlını düzəldir və s.

Müəllim şagirdlərinin yaxın dostu, sirdaşı, qayğıkeşi,düşünəni, onların bu günü və gələcəyi üçün narahat olanı, addımlarını düzgün atmaları naminə yol göstərəni, bələdçisidir. Müəllim təkcə özünün deyil, həm də hər bir tələbənin sevinci, kədəri, problemlərini, yəni taleyini yaşayır. Müəllim gözünün nurunu, qəlbinin odunu, ürəyinin sevgisini, illərinin zəhmətini tələbələrinə verir.

Bizə düz yol göstərən,
Sənsən, əziz müəllim,
Arzusuna qovuşmaz.
Sözündən çıxsa hər kim.

Müəllim sözü müqəddəs deyil, müqəddəs olan müəllimlikdir. Yəni müqəddəs olanlar öz vəzifələrini layiqincə yerinə yetirən insanlardır.

Əsl müəllim siması kimi tanınan ziyalılardan biri də İsmayıl İsrafil oğlu Əliyevdir.O, 1950-ci ildə Babək rayonunun Təzəkənd kəndində anadan olmuşdur. 1957-ci ildə Naxçıvan şəhər 1 №-li orta məktəbin I sinfinə daxil olmuş, 1967-ci ildə həmin məktəbin X sinfini bitirmişdir. 1968-ci ilin sentyabr ayınadək həmin məktəbdə laborant vəzifəsində işləmişdir. Həmin ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan Filialının Azərbaycan dili və ədəbiyyat ixtisasına daxil olmuşdur. O, tələbəlik illərində öz yüksək əxlaqi keyfiyyətləri və çalışqanlığı ilə yoldaşlarından seçilirdi.

Məhz bu çalışqanlığı sayəsində 1972-ci ildə ali təhsilini fərqlənmə diplomu ilə bitirmişdir. 1972-73-cü illərdə 32 №-li Texniki - peşə məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi işləmiş, 1973-cü ilin mart ayından Naxçıvan Dövlət Pedaqoji İnstitutunun (indiki Naxçıvan Dövlət Universiteti) pedaqogika kafedrasında əvvəlcə pedaqoji təcrübə üzrə inspektor, sonradan assistent, müəllim, baş müəllim, dosent, kafedra müdiri, tarix-filologiya fakültəsində dekan müavini vəzifəsində işləmişdir. 1988-ci ildə "İbtidai siniflərdə dərs prosesində şagirdlərin müstəqil işlərinin səmərəliliyinin artırılması şərtləri" mövzusunda namizədlik, 2003-cü ildə "Orta ümumtəhsil məktəblərində təlim - tərbiyənin keyfiyyətinin yüksəldilməsinə etnopedaqoji materiallardan istifadənin təsiri" adlı doktorluq dissertasiyalarını müdafiə etmişdir. 2005-ci ildən Naxçıvan Dövlət Universitetinin pedaqogika və psixologiya kafedrasının professorudur. Hal - hazırda "Naxçıvan" Universitetinin rektorudur.

İsmayıl Əliyev fəaliyyət göstərdiyi müddətdə minlərlə pedaqoji kadrların hazırlanmasında, onlarla alimlərin yetişməsində çox böyük rolu olmuşdur. 1983 - cü ildə dərc etdirdiyi "II kurs qiyabiçi tələbələr üçün pedaqogikadan yoxlama işlərinə aid tapşırıq" adlı metodik tövsiyə, 2009-cu ildə "Azərbaycan etnopedaqogikası" və 2002-ci ildə "İbtidai təhsilin pedaqogikası" adlı dərs vəsaitləri, 1989 - cu ildə "Keçmiş biliklərə istinad edərək yeni mövzunun öyrənilməsini təmin edən tapşırıqlar üzərində işin təşkili",1992-ci

ildə “Tədris prosesində diyarşünaslıq materialları vasitəsilə məktəblilərdə mənəvi keyfiyyətlərin formalaşdırılması”, 2006-cı ildə “Pedaqoji məsələlər”, 2006-cı ildə “Pedaqogikadan praktikum”, 2009-cu ildə “Ali məktəblərdə təhsilin kredit sistemi üzrə təşkili təcrübəsindən” adlı metodik vəsaitləri, 2005-ci ildə “Etnopedaqogika” 2015- ci ildə “Təhsil sistemində monitorinq və qiymətləndirmə” və 2015-ci ildə “XIX əsr Azərbaycan məktəbi” adlı tədris proqramları, 1995-ci ildə “Etnopedaqoji materialların tərbiyəvi əhəmiyyəti”, 1997-ci ildə “Təlim-tərbiyə işlərində etnopedaqoji materiallardan istifadə”, 2004-cü ildə “Ümumtəhsil məktəblərində etnopedaqoji materiallardan istifadənin nəzəri və əməli məsələləri” 2007-ci ildə “İbtidai siniflərdə dərs zamanı şagirdlərin müstəqil işlərinin səmərəlilik şərtləri” adlı kitablarının, eyni zamanda 60-a yaxın elmi məqalənin müəllifidir.16-dan artıq dissertantın opponenti olmuşdur. İsmayıl Əliyev gənclərin həm müəllim kimi, həm də alim kimi formalaşmasında böyük rol oynamışdır. 12-dən artıq kitaba rəy vermiş və redaktorluq etmişdir. 3 nəfərin pedaqogika elmləri üzrə fəlsəfə doktoru elmi adını almaq üçün yazdığı dissertasiya işinə rəhbərlik etmişdir. Mənim də bir pedaqoq, alim kimi formalaşmağımda İsmayıl Əliyevin böyük rolu olmuşdur.

Onun dediyi dərslərdən heç doymazdıq. Dərslərimiz o qədər canlı, o qədər həyəcanlı keçirdi ki, dəqiqələrin bir - biri ilə necə ötüşdüyünün fərqinə varmırdıq. Bizə elə gəlirdi ki, pedaqogika dərslərimiz yalnız başlanğıcdan və sondan ibarətdir. Lakin, bu başlanğıcla sonun arasındakı biz tələbələrə çox qısa görünən zaman məsafəsinə elə böyük məna sığırdı ki, indi də biz öz pedaqogika müəllimimizi xatırlayanda sanki yenə də həmin dərslərdə olduğumuzu hiss edirik.

Müəllimimiz pedaqogika dərslərini yalnız bu elmin sirlərini özündə ehtiva edən terminoloji ifadələr, təriflər və cümlələrlə deyil, həm də gündəlik fəaliyyətimizdə yer alan nümunələrlə həyati şəkildə elə izah edirdi ki, biz həmin dərsləri sadəcə dinləmir, həm də yaşayırdıq. Çünki bu dərslərdə biz öz ixtisasını dərindən bilən, öz tələbələrinə tədris etdiyi fənni sevə - sevə öyrədən əsl pedaqoqu, pedaqogika elminin sirlərinə yüksək səviyyədə bələd olan, bu elmin ən son nailiyyətlərini tələbələrlə bölüşən gözəl alimi, eyni zamanda milli mənəviyyat mücəssəməsi olan, öz əxlaqi keyfiyyətləri ilə tələbələr üçün nümunəyə çevrilən bir şəxsiyyəti görürdük.

Onun həyat yoluna nəzər salanda böyük rus pedaqoqu K.D.Uşinskinin aşağıdakı sözləri yadıma düşür: “Əgər biz həkimlərə öz sağlamlığımızı etibar ediriksə, pedaqoqlara uşaqlarımızın əxlaqını, ağlını, ruhunu və bütün bunlarla yanaşı öz vətənimizin gələcəyini etibar edirik”. Necə də doğru və uzaqgörənliklə deyilmiş qiymətli fikirlərdir. Yaxşı həkimlərimiz olmazsa, insanların sağlamlığında problemlər yaranar, onda naəlac qalıb başqa ölkələrə gedərlər. Cəmiyyətin, hər bir ölkənin uğurları isə elm və təhsillə əldə olunur. Yaxşı müəllimlərimiz olmazsa gələcək nəsillər, əhali savadsız olar.

İsmayıl Əliyev yalnız öz ölkəmizdə deyil, həm də ölkəmizin hüdudlarından kənarda da bir mütəxəssis alim kimi tanınmışdır. Məhz buna görə də 2002-ci ildə ABŞ Bioqrafiya İnstitutu tərəfindən ilin adamı seçilmişdir.

Belə dəyərli professorlarımızın həyatı tədqiq olunmalı, gənc nəslin tərbiyəsində hər zaman nümunə gətirilməlidir.


**ABSTRACT**

**Nazakat Yusifova**

**THE ROLE OF ISMAYIL ALIYEV IN THE PREPARATION OF PEDAGOGICAL CADRES IN NAKHCHIVAN**

Having 44 years activity in Nakhchivan State University, Ismayil Israfil oğlu Aliyev is an outstanding educator and one of the scientists known for his high pedagogical perfection, high morality. Not only among the Nakhchivan intellectuals but also one of the well known professor in Azerbaijan. In this Article the pedagogical activity of I.I.Aliyev have been researched.



**РЕЗЮМЕ**

**Назакат Юсифова**

**РОЛЬ ИСМАИЛА АЛИЕВА В ПОДГОТОВКЕ ПЕДАГОГИЧЕСКИХ КАДРОВ В НАХЧЫВАНЕ**

Исмаил Исрафил оглы Алиев, 44 года деятельности которого связана с Нахчыванским Государственным Университетом, является известным педагогом и ученым, который отличается в нашем высшем учебном заведении своей научно-педагогической зрелостью и высокими моральными качествами . Он известен как уважаемый профессор не только среди Нахчыванской интелигенции, а так же во всем Азербайджане. В статье была проанализирована педагогическая деятельность И. Алиева.

**AYGÜN RÜSTƏMOVA**
*"Naxçıvan" Universitetin*
*aygun-rustemova@inbox.ru*

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN ALDIĞI QİYMƏTİN TƏLİMƏ ADAPTASİYADA ROLU

Kiçik məktəbyaşı uşağın psixomotor, sosial - emosional, eyni zamanda nitqinin inkişafına səbəb olan önəmli dövrlərdən biridir. Uşağın təlimə adaptasiyası onun yalnız yeni bir mühitə, fəaliyyətə uyğunlaşması deyil, həm də psixoloji və sosial qabiliyyətlərinin inkişafı kimi başa düşülür. R.E.Slavin kiçikyaşlı məktəblilərin təlimə adaptasiyasının onun xarakterindən, bacarıqlarından, təlim materiallarının xüsusiyyətlərindən və müəllimin davranışıdan asılı olduğunu qeyd edir.

Məktəbin ilk ili uşağın həyatının son dərəcə çətin və həlledici dövrüdür. Elə buna görə də, təlim fəaliyyətinə başladıqları ilk günlərdən şagirdlərin müəyyən narahatlıqları olur. Məs: özlərini ifadə edə bilməmək, müəllimə fikirlərini çatdıra bilməmək, qarşılarına qoyulan tələbləri yerinə yetirə bilməmək və.s. Amma məktəblilərin ən böyük qorxusu bilik əldə edə bilməmələridir. Təlim onlar üçün çox çətin fəaliyyət olaraq dəyərləndirilir. Nəticədə kiçikyaşlı məktəblilərdə yaxşı oxuya bilmələrinə dair şübhə yaranır ki, buda öyrənmə fəaliyyətinə müsbət münasibətin yaranmasına maneə olur. Yadda saxlamaq lazımdır ki, uşaq məktəbə öyrənmənin nə düzgün, nədə səhv tərzlərini mənimsəmiş halda gəlmir. O, bunlara məktəbdə alışır(2,s.260). Uşaqların təlim fəaliyyətinə adaptasiyası, onların məktəbli olaraq üzərlərinə düşən vəzifələri yerinə yetirmələri ilə bağlıdır. Kiçikyaşlı məktəblilərin təlimə adaptasiyası uşaqların öz daxili – psixoloji imkanlarından necə istifadə etmələrindən asıldır. Belə ki, təlimə ilk qədəmlərini qoyan məktəbli ilə 3-4 –cü siniflərdə oxuyan məktəblilərin təlimə adaptasiyası eyni səviyyədə ola bilməz. Hər yaşa məxsus olan uşağın inkişafının sosial vəziyyəti özünəmxsus xüsusiyyətlərə malik olub, onun psixoloji rifahı üçün böyük əhəmiyyət kəsb edir.

Uşağın məktəbəqədər təlimdən məktəb təliminə keçidi asanlıqla baş vermir. 6 yaşdan sonra şagirdin əsas fəaliyyəti təlim olur, şagird ciddi tənzimlənən təlim fəaliyyətinin təsiri nəticəsində öyrənməyin qanunauyğunluqlarını, məkan və zaman münasibətlərini mənimsəyərək özünü bir növ təlimin vacib subyekti olaraq görür. Əgər məktəbəqədər yaşlı uşaq məktəb həyatı haqqında "yaşlıların həyatına daxilolma" kimi düşünürdüsə, bu həyatın çətinlikləri ilə üzləşdikdə onların bir çoxunda tərəddütlər əmələ gəlir. Ona görə də birinci sinif, şagirdlərin həyatında böhranlı mərhələlərdən biri hesab edilir (3,s.123). Məktəblilərin fərqlənən xüsusiyyəti ondan ibarətdir ki, onun təhsili məcburidir. İctimai əhəmiyyətə məxsus olan fəaliyyətdir. Bunun üçün o, məktəb, müəllim, ailə qarşısında məsuliyyət daşıyır. Şagirdin həyatı bütün məktəblilər üçün vahid ciddi olan qaydalara tabe edilməlidir. Onun əsas məzmunu bütün uşaqlar üçün ümumi olan bilikləri mənimsəməkdən ibarətdir (4,s.72).

Adaptasiya müddətində kiçikyaşlı şagird təlimin əsaslarını öyrənir. Bu zaman onun düşüncə və qabiliyyəti, psixi inkişafı üçün əlverişli şərait yaranır. K.Robinson şagirdlərin təlimə adaptasiyasının ən yaxşı yolunu müəllimin öz öyrətmə potensialını zənginləşdirmək, eyni zamanda uşaqlara dəstəkləyici və bilgiləndirici nöqteyi - nəzərdən yanaşmalı olduğunu qeyd edir. Digər bir tədqiqatda isə Manlana, M.C. Opdenakker və R. Boosker uşaqların təlimə adaptasiyasının mərkəzi fiquru olaraq müəllimi, onun davranışını və uşaqları oxumağa motivasiya edə bilmə bacarığını götürürlər. Ümumiyyətlə təlimə adaptasiyada müəllimin əsas rolu kiçikyaşlı məktəblilərin bilik və bacarıqlarını kəşf etmək və onların uğurlu uyğunlaşmasını təmin etməkdir(5).

Təlimə başlayan uşaqlar heç də tamamilə passiv olmurlar. Belə ki, onlar daima hansısa fəaliyyətlə məşğul olurlar. Məs; digər sinif yoldaşlarını müşahidə edir, tənəffüsdə oyunlar oynayır, eyni zamanda yaxşı oxumağa çalışırlar. Bəzən məktəblilər oxumağı sadəcə istəyirlər. Bunun üçün hər hansı bir səy göstərmirlər. Baxmayarq ki, o məktəbə yeni biliklər öyrənmək istəyi ilə gəlmişdi. Məktəblilərin biliklərə olan marağı öyrənməyə olan münasibəti ilə yaxından bağlıdır. Digər tərəfdən, şagirdlər xüsusilə, 1-2-ci siniflərdə zamanlarını, vaxtlarını tənzimləməkdə çətinlik çəkirlər. Onlar televizor seyr etməyi, oyun oynamağı sabahkı dərsə hazırlaşmaqdan üstün tuturlar. Ona görə də vaxtlarının az hissəsini dərslərinə ayırırlar. Onlar verilən tapşırığı tək yerinə yetirməkdən çəkindiklərindən və ya çətinlik çəkmək istəmədiklərindən böyüklərin köməyinə ehtiyac duyurlar.

Psixoloqlar M.C. Opdenakker, Manlana və P. Den Brok (2012) kiçikyaşlı məktəblilərin təlim fəaliyyətinə adaptasiyasına ailə mühitinin, həmyaşıdlarının (sinif yoldaşlarının), eyni zamanda aldıqları

qiymətin təsir göstərdiyini qeyd edirlər(6). Öyrənmə fəaliyyətinə müsbət münasibətin və şəxsi inkişafın formalaşmasında şagirdin aldığı qiymətin böyük rolu vardır. Lövhə, çanta məktəb forması kimi alınan qiymətdə təlim fəaliyyətinə adaptasiyanın əsas atributlarıdır. Əksəriyyət şagirdlər, xüsusilə I siniflər müəllimin verdiyi qiyməti çox dəyərli hədiyyə olaraq qəbul edirlər və hətta uşaqların heç biri qiymət almadan oxumaq istəmirlər. Zamanla uşaqlar qiymətin fərqli yəni - "5", "4", "3","2" kimi növləri ilə də tanış olurlar. Elə buna görə də tədricən şagirdlər qiymət üçün yox, yaxşı qiymət üçün oxuyurlar. Hətta onlara görə "2" "3" alan həmyaşıdları "pis şagirdlərdir" və heç bir zaman onlara bənzəmək istəmirlər. Bu yanaşma tərzi tədricən 4-cü sinfin sonlarında aradan qalxmağa başlayır. Şagird aldığı qiymətlə öz biliyini intellektual imkanlarını, sinifdəki yerini yoldaşları ilə müqayisə edir. Ş.A.Amonaşvili qeyd edirdi ki, ibtidai siniflərdə olan uşaqların 78%-i(5 istisna olmaqla) yüksək qiymətlərə layiq olduqlarını və müəllimin onların qiymətini aşağı saldığını düşünürlər. Digərləri isə öz uğursuluqlarına alışır, tədricən güclərinə inamlarını itirir və aldıqları qiymətə biganə yanaşırlar. Müəllim tərəfindən verilən qiymət kiçikyaşlı məktəblinin dərsdə göstərdiyi aktivliyi, müəllimin suallarına verdiyi cavaba əsasən aparılır. Şagirdin aldığı qiymət onların təlimə adaptasiyasına müsbət təsir göstərərək, eyni zamanda özünəhörmətin mənfi və ya müsbət istiqamətdə formalaşmasına da təsir göstərir. Kiçik məktəbyaşı dövründə alınan qiymətin əsas dəyəri, onlara sinifdə daha yüksək mövqe tutmalarına, yoldaşlarının yanında daha nüfuzlu və əlaçı olmalarına imkan yaradır. Digər tərəfdən aldıqları yaxşı qiymətlə müəllimi özlərindən razı salmaq ehtiyacı duyurlar. Beləliklə, alınan qiymət şagirdin təlimə uğurlu adaptasiyasını təmin etməklə, oxumağa, öyrənməyə müsbət münasibətin yaranmasına və gələcəkdəki ilkin peşə seçiminin edilməsinə kömək edir. Bununla belə, kiçikyaşlı məktəblilərin heç də hamısı alınan qiymətin obyektiv mahiyyətini dərk edə bilmirlər. Hətta aldıqları aşağı qiymətə görə müəllimi günahkar hesab edirlər. Onlar düşünürlər ki, əslində yaxşı oxumuşdular, sadəcə müəllim haqsızlıq etdi. Çünki müəllim onu sevmir. Belə ki, onlardan çox azı müəllim tərəfindən verilən qiymətin birbaşa bilikləri ilə əlaqəli olduğunu dərk edirlər.

Qiymət vasitəsi ilə müəlim kiçikyaşlı məktəblilərin biliyi haqqında fikirlərini ifadə edir. Qiymət məktəblinin təlim fəaliyyətinə adaptasiyası zamanı uğur və uğursuzluğu haqqında məlumat verir. Əgər şagird yüksək qiymət alırsa, deməк ki, müəllim dərsi lazımi səviyyədə izah edib. Elə buna görə də, müəllimin verdiyi qiymət təlimə adaptasiyanın əsas məqsədi sayılır. Əgər kiçikyaşlı məktəbli üzərinə düşən vəzifəni yerinə yetirmir və aşağı qiymətlər alırsa deməк ki, onun təlim fəaliyyətinə marağı yoxdur. Maraq olmadıqda isə şagird dezadaptasiya ilə qarşı - qarşıya qalır. Maraq emosional təsirə malik olub, dərin və mənalı hisslərlə əlaqədar fəaliyyətə gəlir. Təlim maraqları seçici xarakter daşıyır. Yalnız kiçikyaşlı məktəblilərdə təlimə ümumi maraq nəzərə çarpır. İbtidai məktəbyaşının axırlarında bu və ya digər fənnə maraq qüvvətlənir(1,s.69).

Şagirdin aldığı qiymət onun aktiv fəaliyyət göstərməsini təmin etməklə təlimə uğurlu adaptasiyasının əsas vasitələrindən sayılır. Çünki müəllimin verdiyi qiymət kiçikyaşlı şagirdin həyatının bütün sahələrinə təsir göstərərək, onun başqaları ilə əlaqələrini tənzimləməklə, gələcək üçün planlar hazırlamasına təkan verir. Ancaq hər yaş qrupu üçün müəllimin verdiyi qiymətin təsiri fərqli olur. Məs; kiçik məktəbyaşında uşaqlarda yaranan özünüqiymətləndirmə müəllimin onlara verdiyi qiymət əsasında formalaşır. Buna valideyn tərəfindən verilən şifahi və müəllim tərəfindən verilən yazılı qiymətləndirmə daxildir. Amma yeniyetməlik dövründə isə tapşırığa görə verilən qiymət öz önəmini itirir və onların sinifdəki nüfuzu xarakterik xüsusiyyətlərinə əsaslanır.

Şagirdin qüvvə və qabiliyyətini düzgün qiymətləndirmədikdə təlimdə geri qalma halları baş verir. Şagirdin qabiliyyətini qiymətləndirmədə iki cür səhvə yol verilir.

1. Şagirdin qabiliyyəti həddən artıq qiymətləndirilir. Bu şagirddə arxayınçılıq, lovğalıq yaradır və o tədricən geri qalmağa başlayır.
2. Şagirdin qabiliyyəti heç qiymətləndirilmir (2,s.262). Aparılan tədqiqatlar göstərir ki, bəzən uşağın göstərdiyi yüksək fəaliyyətin qarşılığı olaraq aldığı aşağı qiymət onun şəxsiyyətinin formalaşmasında travmatik izlərlə təsir göstərir. Qeyd etmək lazımdır ki, müəllimin uşaqlara qarşı istehza ilə yanaşması, onlara aşağı qiymət yazmaqla, hədə - qorxu gəlməsi, bacarıq və qabiliyyətinə görə onu başqaları ilə müqayisə etməsi şagirdin təlim fəaliyyətinə adaptasiyasına mənfi təsir göstərir. Nəticədə, kiçikyaşlı məktəblidə belə bir düşüncə formalaşır ki, daha yaxşı oxuya bilməz. Hətta sinfin əlaçısı olmaq onun heç ağlından belə keçmir. Bəzən isə yaxşı oxuyan sinif yoldaşlarına həsəd aparır, onların yerində olmaq istəyirlər. Bu hiss zamanla paxıllıq və aqressivliklə əvəz olunur. Onların sinfin əlaçılarını gözləri götürmür.

Verilən qeyri - adekvat qiymət uşağın öyrənmə istəyini azaldır. Belə ki, onlar alınan hər aşağı qiymət sayəsində özlərini lazımsız, dəyərsiz hiss edirlər. Onlarda mükəmməllik arzusu zamanla gərginliklə, gərginlik isə biganəlilik ilə əvəz olunur və əksinə aldıqları yüksək qiymətlə özlərini nümunəvi, yaxşı oxuyan olaraq görürlər. Amma bəzən belə uşaqlarda özünü adekvat qiymətləndirmə özünüyüksək qiymətləndirmə ilə əvəz edilir.

Kiçikyaşlı məktəblilərin aldığı qiymət həmçinin onun valideynləri ilə münasibətinə də əsaslı şəkildə təsir göstərir. Məsələn; "5"-dən aşağı qiymət aldıqda valideynlər uşağın biliyinin aşağı olduğunu düşünür, amma bunun aradan qaldırılmasına əksəriyyəti cəhd göstərmirlər. Bəzən böyüklər kiçikyaşlı məktəblilərin təlimə adaptaspiya dövründə yaşadıqları problemləri başa düşməkdə çətinlik çəkirlər. Ən əsası isə uşaqların etdikləri hər səhvdə "Niyə sən bunu belə etdin" sualını verməloridir. Çünki onlar özlərinin yaşadıqları problemləri uşaqların problemləri ilə müqayisə edir və belə nəticəyə gəlirlər ki, məktəblilərin adaptasiya dövründə yaşadıqları çətinliklər şişirdilir. Elə buna görə də, bu zaman ən məntiqli və düzgün seçim kimi uşaqların narahatlıqlarını dinləməmək lazımdır. Elə buna görə də, məktəbli təlim fəaliyyətində uğursuzluqla qarşılaşır və buna görə də cəzalandırılırsa, o valideynləri ilə mövcud əlaqələri qorumaq və sinif yoldaşları ilə münaqişələrin qarşısını almaq üçün vasitələr axtarır. Bu vasitələrdən biri yalan danışmaqdır. Məs; Əgər o, verilən tapşırığı yaxşı öyrənməyibsə müəllliminə yalan danışır. "Kitabım yox idi, yaxud xəstə idim, oxuya bilmədim". Bu yalanlar evdədə davam edir. Valideynin "Buğun neçə aldın" sualına "gündəliyim evdə qalmışdı" və ya "Müəllim məni dərsə çıxarmadı" kimi cavablar verirlər. Bu zaman belə sual yaranır ki, onda kiçikyaşlı məktəblilərə aşağı qiymət yazılmasın. Çünki aşağı qiymət onların öyrənmə istəyini azaldır. Təbii ki, bu heç də düzgün fikir deyil. Sadəcə müəllimin qiymətləndirməsi obyektiv əsaslarla aparılmalıdır. K.S Kazmierzakində qeyd etdiyi kimi (1994) verilən qeyri - obyektiv qiymət şagirdlərdə diqqət dağınıqlığı yaratdığı üçün onlar müəllimin izahını unudur və ya izahı tam başa düşmürlər. Nəzərə almaq lazımdır ki, mənfi qiymətləndirmə cəza metodu deyil, şagirdi öyrənmə fəaliyyətinə istiqamətləndirmək üçün bir vasitədir.

**ƏDƏBİYYAT**


1. A.Məmədov. Təlimin psixoloji əsasları, Bakı, 1993
2. Ə.Qədirov. Yaş psixologiyası, Bakı, 2002
3. L.Əmrahlı. L.Əliyeva, Təlim fəaliyyəti və psixi inkişaf, Bakı, 2014
4. M. Mehdizadə. Uşaq psixologiyası, Bakı,1988
5. M-C. Opdenakker, R. Maulana, ve P. den Brok, (2012). Teacher–student interpersonal relationships and academic motivation within one school year: Developmental changes and linkage, School Effectiveness and School Improvement, 23(1), 95-119. doi:10.1080/09243453.2011.619198
6. R. Maulana; M-C. Opdenakker,. R. Bosker,. (2013), Teacher–student interpersonal relationships do change and affect academic motivation: A multilevel growth curve modelling. British Jour

**TEHRANƏ XUDAVERDİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*salmanova001@gmail.com*

# NAXÇIVAN NAĞIL TƏHKİYƏSİNDƏ ZAMAN VƏ MƏKAN

Qədim Azərbaycan torpağı olan Naxçıvan Yer kürəsində həyatın başlandığı ilk insan məskənlərindən biri kimi zəngin tarixə və mədəniyyətə malikdir. Bu diyarı qədim filosof və mütəfəkkirlər təkcə Şərqin deyil, həm də Qərbin Günəşi adlandırmışlar.

Şifahi xalq yaradıcılığı, Azərbaycan ədəbiyyatının önəmli sahələrindən biri kimi xalqımızın tarixi yaddaşının canlı salnaməsidir. Tarixi keçmişimizi, mənəvi dəyərlərimizi özündə yaşadan şifahi xalq yaradıcılığı müəyyən zaman və məkan daxilində baş verən ictimai-siyasi hadisələrin ifadə olunmasında və mənəvi mədəniyyətimizin əsasının qoyulmasında və formalaşmasında mühüm rol oynayır. Şifahi xalq yaradıcılığı milli mənsubiyyətin əsas göstəricisi olmaqla xalqın özünü tanımasında və tanıtmasında əsas amillərdən biridir.

Azərbaycan şifahi xalq ədəbiyyatı da bu baxımdan özünəməxsus əhəmiyyətə və dəyərə malikdir. Azərbaycan folklorundakı bütün nümunələr, eləcə də öz zənginliyi ilə seçilən nağıllar bu missiyanın həyata keçirilməsində əvəzsizdir. Hər bir nağıl folklor tariximizdə yaşanan hadisənin maddi ifadəsidir. Naxçıvandan toplanmış nağıllarda ifadə olunan ideyalar min illərlə davam edən mənəvi saflaşma prosesində xalqın mənəvi dəyərlərinin formalaşmasına təkan verir.

Naxçıvanda toplanmış nağıllarda xalqın həyatı və məişəti, dünyagörüşü və inancları, arzu və xəyalları əks olunur. Bu bölgədə toplanmış sehrli nağıllar insanların mifik təsəvvürlərini əks etdirir və bu nağıllarda sehrli qüvvələr – uçan xalça, sehrli papaq, sehrli tütək, divlər, yeddibaşlı əjdahalar, əfsanəvi quşlar və s. mifik zaman və məkan daxilində qəhrəmanın öz məqsədinə çatmasına kömək edir. Bu nağıllarda süjet əfsanəvi məkan və zaman daxilində xəyali səltənət və ölkələrdə baş verməklə yanaşı, həqiqi dünya – kəndlər, şəhərlər, təbiət, göllər, meşələr, dağlar əks olunmasının şahidi oluruq.

Naxçıvanda toplanmış məişət nağılları daha çox inandırıcı, real hadisələrdən bəhs edir və bu nağıllarda qəhrəman şər qüvvələrlə mübarizədə sehrli qüvvələrin köməyilə deyil, öz diribaşlığı və bacarığı sayəsində qalib gəlir. “Gül sənavara neylədi, sənavar gülə neylədi” nağılında padşah oğlu Məlik Cümşüd öz bacarığı və dərrakəsi sayəsində bütün çətinliklərin öhdəsindən gəlir, müəyyən zaman keçdikdən, müxtəlif yerlərdə başına gələn çoxlu hadisələrdən sonra qardaşı Məlik Məhəmmədin köməyi ilə xilas olur. Bu nağılda təsvir olunan zaman qavramına diqqət yetirdikdə bu anlayışın nisbi xarakter daşıması qənaətinə gəlirik. Çünki digər nağıllarda olduğu kimi, bu nağılda da hadisələrin məkanı kimi zamanı da nisbidir. Belə ki, nağıl söyləyicisi Məlik Cümşüdün başına gələn qəzavü - qədəri nəql etdikdən sonra, atasının və qardaşlarının onun haqqındakı narahatlıqlarını dilə gətitir, yəni burada zaman ardıcıllığı yoxdur. Simurq quşunun insanın yaxşılığına qarşı onu dünyanın bir ucundan başqa ucuna qanadları üstündə aparması, aslan isə ürəyi rəhmli nağıl qəhrəmanına öz balalarını verməklə onun müvəffəqiyyətinə səbəb olması kimi epizodlarda fikrimizcə nağılçının məkanla bağlı öz gələcək arzusu (uçan nəqliyyat vasitəsi) ifadə olunmuşdur **(2, s. 148).**

Naxçıvanda toplanmış nağılları oxuyarkən diqqətimizi çəkən digər maraqlı cəhət bu bölgədəki tarixi nağıllarda şahlar və vəzirlər həmişə zalım, zülmkar kimi göstərilməməsidir, əksinə, hökmdarların hərəkətləri, etdikləri xeyir işlər dinləyicidə böyük maraq yaradır. Məsələn; Mahmud şah və Əhməd vəzir nağılında olduöu kimi (3, s 14).

Nağıllar onları yaratmış olan insan cəmiyyəti qədər qədimdir. Nağıllardakı süjet müxtəlifliyi ən qədim zamanlardan sinifli cəmiyyət təşəkkül etmədən çox - çox əvvəl yaranması fikrini ortaya çıxarır. Məhz buna görə də nağıllardakı zamanın və məkanın nisbiliyi heç də bu nağılları maraqsız etmir, əksinə onlara marağı artırır. Bu cür nağıllar onu yaradan, öz mühitində bəsləyən və yaşadan hər hansı bir elmin totemik təsəvvürlərini və ya qədim insanın təbiətə və özünə qarşı fikir, duyğu və xəyallarının ifadə edir və onlarda cərəyan edən hadisələr dinamik zaman müstəvisində baş verir. Fikrimizcə hekayənin əksinə olaraq, nağıllardakı nisbi, mifik zaman və məkan anlayışları bu nağıllarda təsvir edilən hadisənin gerçək, həqiqi olmasını sübut etməyə lüzum olmamasından irəli gəlir.

Naxçıvanda toplanmış nağıllarda hər bir nağılçı alışdığı ifadəni saxlamaqla öz yerli şivəsini də, yerli ənənələrini də, etiqadlarını və görüşlərini də nağıla aşılayır. Digər nağıllarda olduğu kimi “Hazaran dastan bülbülü nağılında da geniş məzmun və məna vardır **(1, s.275)**. Bu nağıl haqqında H.Zeynallı yazır: “...Naxçıvandan toplanmış “Hazaran dastan” nağılını götürək. Nağılın süjeti belədir: Padşah misilsiz bir bağ

salır. Bu bağı bəzəmək üçün "Hazaran dastan" – bülbül lazım olduğunu bir dərviş ona söyləyir. Şahın iki böyük oğlu bülbül üçün gedir. Lakin, bülbülün sahibəsinin əlinə düşdükdə onun qulu olub qalırlar. Şahın üçüncü oğlu bir çox əngəllərə üstün gəldikdən sonra bülbül yiyəsi cadugər qızın bağına çatır, "Hazaran dastan"ı qəfəsilə götürüb tilsimi sındırır və atasının yanına dönür. Cadugər qız bülbülü aparan qəhrəmanı arayır, iki qardaşın yalan söyləyərək qəhrəmanlığı özlərinə isnad verdiklərini açır. Və əsl qəhrəmanın kim olduğu meydana çıxır. Sonra üçüncü şahzadə Hazaran dastan gülünü də gətirir. "Bu nağılda həm dinamik, həm də statik zaman diqqəti cəlb edir (1, səh 11).

Bu bölgədən toplanmış nağıllarda atasına qulaq asan oğul, qız, ögey ana ilə qız və ya öz qardaşının düşməninə vurulmuş bacı ilə qardaş haqqında olan nağıllar da maraq doğurur. Bacıların paxıllığını təsvir edən "Kiçik qızın nağılı" na diqqət yetirək. Kiçik qızın öz ağlı sayəsində sağ qalmasını təsvir edən bu nağılda da nisbi zaman və məkan qavramı ideyası hökm sürür.(3,s138). "Daşbəyin nağılı"nda isə hadisələr Qarasan adlı məmləkətdə baş verir. Əfsanəvi qəhrəman olan Daşbəyin öz əfsanəvi qılıncı ilə yeddi başı birdən yerə sərməsi, öz məmləkətinin insanlarını xilas etməsi üçün göy daşı dəsdər daşında döydükdən sonra yeddi gün qaranlıqda saxlamaqla Nargül nənəsinin o döyülmüş unu camaatın ağzına səpməklə bu elin bərəkətinin özünə qayıtdığını və bu göy daşın duz olduğunu oxuyuruq. Dağa çıxan Daşbəy sonda daşdan bu sirdən onu agah etməsini istədikdə, daşdan gələn səda bu dağın ona duz dağı olaraq verildiyini və hüdüdsuz zaman müstəvisində ondan yararlanacaqları fikrini söyləyir. Duzdağ haqqında öyrənilən bu nağılda Duzdağ təkcə bitməz-tükənməz təbii sərvət kimi deyil, həm də əzəmətlilik simvolu bir məkan kimi təsvir edilmişdir.

"Odunçu qızı" nağılın qəhrəmanı adəti üzrə müəyyən məkanlarda müəyyən çətinliklərlə üzləşir. Digər nağıllarda olduğu kimi burada da divlərin sarayları, mülkləri bir - birinə yaxın olur və hər zaman divin bacısı uzaqda yaşadığı əvvəlki bacısından daha sərt, daha qüvvətli və daha ziyankardır və divlərin ifritə anaları oğlanlarına qarşı da öz pisliklərini etməkdən əsla çəkinmirlər**.** Digər nağıllarda olduğu kimi, bu nağılda da zaman və məkan nisbi xarakter daşıyır **(3, s136).**

Beləliklə, buradan bu qənaətə gəlmək olur ki, Azərbaycan nağılları kimi, Naxçıvan nağılları da xalqın dünyagörüşünü əks etməsi və mənəvi dəyərlərin qorunması nöqteyi nəzərindən özünəməxsus əhəmiyyətə malikdir. Bu nağıllar onda ifadə olunan fikir və ideyanı oxucuya və ya dinləyiciyə catdırmaq baxımından daha fəal olmaqla yanaşı, həm də xalqın mənəvi aləmini, dünyaya baxışını özünəməxsus zaman və məkan müstəvisində düzgün şəkildə ifadə etmək baxımından böyük dəyər kəsb etməkdədir. Naxçıvan ərazisindən toplanmış nağıl örnəkləri üzərində araşdırma onu söyləməyə imkan verir ki, bu nümunələr, onlarda mövcud olan ənənədən gələn bəzi maraqlı elementlərin daha güclü olması baxımından əhəmiyyətlidir. Nağıllardakı həyatın mövcud zaman və məkan kontekstində böyük tərbiyəvi əhəmiyyəti də onların dəyərliliyini artırır.

## ƏDƏBİYYAT

1. Azərbaycan nağılları, Beş cilddə.I cild. Bakı, Şərq-Qərb, 2005, 360s.
2. Azərbaycan folkloru antologiyası, (Naxçıvan folkloru) II cild
3. Azərbaycan folkloru antologiyası, (Naxçıvan folkloru) III cild
4. Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru, Bakı, Sabah, 1994, 388 s.

## ABSTRACT

**Tehrane Khudaverdiyeva**

**TIME AND PLACE IN NAKHCHIVAN TALE RETELLING**

The article reflects the ideas given in the tales, explains the time and space of the tales collected in Nakhchivan, an integral part of Azerbaijan.Tales collected in Nakhchivan are based on Azerbaijan people's moral values in terms of reflecting people's interests. Investigating fairy tales in a certain time and place in terms of delivering ideas in tales to the reader or listener suggests that they are more readable and more important. The article deals with the study of time and place in the tales collected in Nakhchivan and their significance in the formation of moral values.

## РЕЗЮМЕ

**Техране Худавердиева**

**ВРЕМЯ И МЕСТО ПЕРЕСКАЗА В НАХЧЫВАНСКОЙ СКАЗКЕ**

Статья отражает идеи, изложенные в сkазkах, объясняет время и пространство сkазоk, собранных в Нахчыване, неотъемлемой части Азербайджана. Рассkазы, собранные в Нахчыване, основаны на моральных ценностях азербайджансkого народа с точки зрения отражения интересов людей. Изучение сkазоk в определенное время и в определенном месте с точки зрения передачи идей в сkазkах читателю или слушателю позволяет предположить, что они более читабельны и важнее. Статья посвящена изучению времени и места в сkазkах, собранных в Нахчыване, и их значению в формировании нравственных ценностей.

# III BÖLMƏ
# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TƏBİƏTŞÜNASLIQ VƏ TİBB ELMİNİN İNKİŞAFI

**DAŞQIN QƏNBƏROV**
*Naxçıvan Dövlət Universiteti*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASINDA YAYILAN *ASRAGALUS* CİNSİNƏ AİD OLAN NÖVLƏRİNDƏ ENDEMİZMİN TƏHLİLİ

**Açar sözlər:** *astragalus, endem, flora, fəsilə, cins, növ*
**Key words:** *astragalus, endemic, flora, family, genus, species*
**Ключевые слова:** *астрагалус, эндем, флора, семейство, род, вид*

Endemlər məhdud areala malik növ, cins, fəsilə və başqa taksonomik vahidlərdir və hər hansı floranın spesifik tərkib hissəsidir. Eyni zamanda endemlər yer kürəsinin genetik ehtiyatlarını təşkil edir. Endem bitkilərin təyini və öyrənilməsi həmin ərazinin bitki örtüyünün qiymətləndirilməsi, tarixi inkişafı və təkamülünü müəyyənləşdirməyə imkan verir. Eyni zamanda hər hansı ərazi endemizminin öyrənilməsi həmin ərazinin tarixi inkişaf prosesində fiziki - coğrafi şəraitini də dərindən öyrənməyə təkan verir. Buna görə də endemlərin öyrənilməsi genetik ehtiyyatların mühafizəsi nöqteyi nəzərdən çox qiymətlidir. Endemlər aborigen floranın elementi, planetimizin genetik ehtiyyatları kimi son yüzilliklərdə biologiyanın əsas problematik obyekti olmuşdur. Endem bitkilər əsasən dar areallarla xarakterizə olunurlar. Bu arealların sərhədləri təbii - tarixi və fiziki - coğrafi şərtlərlə təyin olunur. Endem növlərin bəziləri geniş yayılma arealına malikdirlər, bəzi növlər isə edifikatorlar kimi fitosenozların formalaşmasında özünü göstərməkdədir. Ərazi endemlərinin əksəriyyəti çox nadir tapılan bitkilərdir. Endemizmin yaranmasında coğrafi təcridlər, iqlim - torpaq şəraiti və digər amillər əsas rol oynayır.

Azərbaycanın ilk endem növünü 1800-cü ildə P.S Pallas təsvir etmişdir. 1809-1819-cu illərdə M. Biberşteyn, 1881-ci ildə K.A.Meyer 9 endem növünün təsvirini vermişdir. XIX-XX əsrlərdə Azərbaycanın endem növlərinin öyrənilməsində A.Regel, A.Federov, A.Qrossqeym, V.Lipskiy, L.Prilipko, V.Hacıyev C.Musayev, Ə.Ş.İbrahimov, T.H.Talıbov, A.M.Əsgərov və s. tədqiqatçıların böyük əməyi olmuşdur (1, 2, 4 və s.).

1973-cü ildə F.Q.Axundov doktorluq dissertasiya işində Azərbaycanda ali bitkilərin 40 fəsilə və 108 cins üzrə 240 endem növünün olmasını müəyyən etmişdir (7, 8).

2003-ci ildə T.H. Talıbov "Naxçıvan MR-in flora biomüxtəlifliyinin endemik növləri" adlı məqaləsində Naxçıvan MR-da *Astragalus* cinsinə aid 9 endem növünün olduğunu qeyd etmişdir (5).

2005-ci ildə S.H.Musayev öz tədqiqatlarına və ədəbiyyat materiallarına istinad edərək Azərbaycanın ali bitkilər florasında 39 fəsilənin 116 cinsinə aid 262 endem bitki növünün olmasını qeyd etmişdir (4).

2011-ci ildə A.M.Əsgərov Azərbaycan florasının endemləri adlı məqaləsində *Astragalus badamliensis* Chalilov, *A.chalilovii* Grossh., *A.conspicuus* Boriss., *A.karakuschensis* Gontsch., *A.montis-aquillae* Grossh., *A.szovitsii* Fisch.et C.A.Mey. gəvən növlərinin endem olmasını qeyd etmişdir (1, 2).

T.H.Talıbovun tədqiqatlarına əsasən Naxçıvan MR-in *Astragalus* L. cinsinə aid 4 növün, *Astragalus insidiosa* (Boriss.) Podlech, *A.badamliensis* Chalilov, *A.prilipkoanus* Grossh., *A.schachbuzensis* Rzazade) endem olması aşkar olunmuşdur (4).

Aşağıda bəzi növlər haqqında məlumat verilir.

*A.insidiosa* Azərbaycan endemləri arasında Kiçik Asiya qrupu elementinə daxildir. Bu növ Naxçıvan MR-in yüksək dağ qurşaqlarında yayılmışdır. *Astragalus schachbuzensis* Azərbaycan endemləri arasında Şimali İran elementinə daxildir. Bu növ Naxçıvan MR-in orta dağ qurşaqlarında yayılmışdır.

*A.prilipkoanus* Azərbaycan endemləri arasında Şimali İran elementinə daxildir. Azərbaycanın və Naxçıvan MR-in "Qırmızı kitabına" daxil edilmişdir. Bu növ Naxçıvan MR-in orta dağ qurşaqlarında yayılmışdır.

*Astragalus badamliensis* Azərbaycan endemləri arasında Qafqaz qrupu elementinə daxildir. Bu növ Naxçıvan MR-in aşağı bəzən isə orta dağ qurşaqlarında yayılmışdır. Bu növ R.M.Nuriyev tərəfindən 6 iyul 1972- ci tarixdə Şahbuz rayonunun Badamlı kəndinin yaxınlığında, daşlı - otluqlu ərazidən toplanmış və Ə.X. Xəlilov tərəfindən yeni növ kimi təsvir edilmişdir. Azərbaycan və Naxçıvan Muxtar Respublikasının "Qırmızı Kitab"ına daxil edilmişdir (5). (Şəkil 1).



Şəkil 1. *Astragalus badamliensis* Chalilov

Tədqiqatlara və son ədəbiyyat araşdırmalarına görə gəvən növlərinin endemliyi aşağıdakı cədvəldə öz əksini tapmışdır (8).

Cədvəl 1

Gəvən növlərinin endemizmi

| /S | Növlərin adı | Katoqoriyalar və kriterilər | AR | AZ | GE | İR | RU | TU |
|---|---|---|---|---|---|---|---|---|
| 1. | *Astragalus axundovii* Grossh. ex. Fed. | NE | + | + | | + | | |
| 2. | *A.alexandrii* Charedze | DD | | + | | | | |
| 3. | *A.candolleonus* Boiss. | LC | + | + | | | | |
| 4. | A.*chalilovii* Grossh., | VU D2 | | + | | | | |
| 5. | *A.choicus* Bunge | NE | | | | + | | |
| 6. | *A.conspicuus* Boriss., | NT | + | + | | | | |
| 7. | *A.erivanensis* Bornm. Et Woronov | VU B1ab (iii)+2ab(iii) | + | + | | | | |
| 8. | *A.euoplus* Trautv. | EN B1ab (iii)+2ab(iii) | + | + | | | | |
| 9. | A.fabaceus M. Bieb. | NE | + | | | + | + | |
| 10. | *A.flavrubens*(Al. Theod., Fed. & Rzazade) Podlech | DD | | + | | | | |
| 11. | *A.gezeldarensis* Grossh. | DD | | + | | | | |
| 12. | *A.goktschaicus* Grossh. | NE | + | + | + | + | | + |
| 13. | *A.hajastanus* Grossh. | LC | + | + | | | | |
| 14. | *A.karakuschensis* Gontsch., | EN B1ab(i,ii,iii)+2ab(i,ii,iii) | + | + | | | | |
| 15. | *A.karyaginii* Boriss. | EN B1ab(i,ii,iii)+2ab(i,ii,iii) | + | + | | | | |
| 16. | *A. kochianus* Sosn**.** | NE | + | + | | | | |
| 17. | *A.goktschaicus* Grossh. | NE | + | + | + | + | | + |
| 18. | *A.lunatus* Pall. | NE | | + | | + | + | |
| 19. | *A.meyeri* Boiss. | NE | + | + | | + | | + |
| 20. | *A.montis-aguilis* Grossh. | EN B1ab(i,ii,iii)+2ab(i,ii,iii) | + | + | | | | |
| 21 | *A.nachitschevanicus* Rzazade | CRB1ab(i,ii,iii)c(i)+2ab(i.ii,iii)c(i) | | + | | | | |
| 22. | *A.parodoxus* Bunge | NE | + | + | | + | | + |
| 23. | *A.pineterium* Boiss. | NE | | | | + | | |
| 24. | *A.regelii* Trautv. | NT | | + | | | | |
| 25. | *A.schachbuzensis* Rzazade | CR B2ab(v) | | + | | | | |
| 26. | *A.sevangensis* Grossh. | NE | + | + | | | | |
| 27. | *A.shelkovnikovi* Grossh. | EN B2ab(iii) | + | + | | | | |
| 28. | *A.szovitsii* Fisch.et C.A.Mey | LC | + | + | | + | | + |
| 29. | *A.takhtadzhjanii* Grossh. | NE | + | + | + | + | | |
| 30. | *A.uranoilimneus* Boiss. | LC | + | + | | + | | + |
| 31. | *A.vedicus* Takht. | NT | + | + | | | | |
| 32. | *A.viridis* Bunge | NE | + | + | | + | | + |
| 33. | *A.polyphyllus* Bunge | NT | | + | | | + | |
| 34. | *A.prilipkoanus* Grossh., | NE | + | + | | + | | |

Beləliklə, endemlərin tədqiqinin inzibati ərazi regionları üzrə aparılması onların mühafizəsi üçün tədbirlərin işlənib həyata keçirilməsi daha məqsədəuyğun hesab edilir.

## ƏDƏBİYYAT


1. Əsgərov A.M. Azərbaycan florasının endemləri, Az EA Xəbərləri, biol.e.b. 2011, № 3-4.
2. Əsgərov A.M. Azərbaycan Florasının Subendemləri, AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), 2014, cild 69, №1, səh. 81-91.
3. Musayev S. Azərbaycan florasının endemik növlərinin təftişi. Azərb.MEA xəbərləri, Biol.e.s., 2005, №12.
4. Talıbov T.N. Naxçıvan MR flora biomüxtəlifliyinin endemik bitkiləri // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, 2003, №10, s. 55-61
5. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitabı (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər), Naxçıvan: 2010, 677 s.
6. Ахундов Г.Ф., Гогина Е.Е., Прилипко Л.И. Узкоэндемные и редкие виды природной флоры Нахичеванской АССР // Бюлл. ГБС, 1978, вып. 107, с. 54-62
7. Ахундов Д.Ф. Эндемы флора Азербайджана: Автореф. дис. … докт. биол. наук. Из-во Элм, Баку, 1973, 44 с.
8. Red list of the endemic plants of the Caucasus. Missouri Botanical Garden Press, Saint Louis, 2013


## ABSTRACT


**D.Ganbarov**


**STUDY OF THE ENDEMISM OF SPECIES OF ACCESSORIES OF THE GENUS *ASTRAGALUS* DISTRIBUTED IN THE FLORA OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**


The article presents information on analyzes of endemism of species belonging to the genus Astragalus, common in the flora of the Nakhchivan Autonomous Republic. Endemic plants are characterized mainly with narrow ranges. The boundaries of these areas are determined by natural-historical and physic-geographical conditions. Distribution of some endemic species possess wide ranges. Some species in the formation of phytocenoses involved as edificatory. Most of the territorial endems have rarely found plants. With the emergence of endemism, mainly the most important role is played by geographic isolation and soil-climatic conditions.


## РЕЗЮМЕ


**Д.Ганбаров**


**ИССЛЕДОВАНИЕ ЭНДЕМИЗМЫ ВИДОВ ПРИНЕДЛЕЖАЩИЙ РОДА *ASTRAGALUS,* РАСПРОСТРАНЕННЫХ В ФЛОРЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ**


В статье, представлено информации о анализы эндемизмы видов принадлежащий рода *Astragalus,* распространенных в флоре Нахчыванской Автономной Республики. Эндемный растений характеризуются в основном с узкими ареалами. Границы этих ареалов определяется с естественно-историческими и физико-географическими условиями. Распространение некоторых эндемных видов обладають широких ареалов. Некоторые виды при формировании фитоценозов участвует kak эдификаторов. Большинство териториальные эндемы имееет редко обнаруженный растений. При зарождении эндемизма в основном важнейший роль играют, географические изоляция и почвенно-климатическая условия.

**MƏTLƏB İBRAHİMOV**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA YENİDOĞULMUŞ UŞAQLARDA ANADANGƏLMƏ İNKİŞAF QÜSURLARI VƏ AİQ MONİTORİNQ SİSTEMİNİN ƏSASLARI

Naxçıvan MR - da yeni doğulmuş uşaqların ölümünün səbəbini aydınlaşdırmaq üçün anadangəlmə inkişaf qüsurlarının təsadüflərini təhlil etmişik. Bu zaman məlum oldu ki, 1990-1999-cu illərdə 78713 diri doğulan uşağın 168-də anadangəlmə inkişaf qüsurları müəyyənləşdirilərək 1000 diri doğulmuşa göstərici 2,13 təşkil etmişdir. 2000-2009-cu illər 57048 diri doğulan uşaqların isə 184-də anadangəlmə inkişaf qüsuru aydınlaşdırılaraq, 1000 diri doğulmuşa rastgəlmə göstəricisi 3,23 hadisə təşkil etmişdir.




XX əsrin sonunda, XXI əsrin əvvəllərində diri doğulan uşaqların anadangəlmə inkişaf qüsurlarının təsadüflərinin dinamikası

| Illər | Diri doğulub | AİQ müəyyənləşdirilib | 1000 diri yenidoğulmuşlarda AİQ göstəriciləri |
|---|---|---|---|
| 1990-1999 | 78713 | 168 | 2,13 |
| 2000-2009 | 57048 | 184 | 3,23 |

Araşdırmalardan belə məlum olur ki, keçən əsrin son on illəri ilə müasir əsrin ilk on ilini müqayisə etdikdə anadangəlmə inkişaf qüsuru ilə doğulan uşaqların sayı artmışdır. Belə vəziyyət mövcud ədəbiyyatda tədqiqatçıların əldə etdiyi məlumatlarla, yəni son zamanlar anadangəlmə inkişaf qüsurları ilə doğulan uşaqların sayının artması ilə uyğun gəlir.

Son on ildə (2000-2009) anadangəlmə inkişaf qüsurunun yenidoğulmuş uşağın taleyində rolunu aydınlaşdırmaq məqsədi ilə təhlil aparmışıq. Göründüyü kimi, körpələrin ölüm strukturunda anadangəlmə inkişaf qüsurlarından ölənlərin faizini yoxladıqda maraqlı məlumat alındı. Əgər 2000-ci ildə körpələrin ölüm strukturunda anadangəlmə inkişaf qüsurlarından ölənlər 2% təşkil edirdisə, 2008-2009-cu illərdə bu rəqəm 4,3% olmuşdu. Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə diri yeni doğulmuşların ölümünün əksər səbəbi anadangəlmə inkişaf qüsurlarıdır. Elmi məlumatına görə, anadangəlmə inkişaf qüsuru hər 10000 diri doğulmuş uşağa 21,04 hadisədir. Perinatal dövrdə uşaq ölümünün 17,09% anadangəlmə qüsurların payına düşür.




Deməli, anadangəlmə inkişaf qüsurları perinatal dövr uşaq ölümünün əsas səbəblərindəndir. Rast gəlməsi də ildən - ilə artır. Ona görə də uşaqlarda anadangəlmə inkişaf qüsurları müasir dövrün ən aktual problemlərindəndir və dünya alimlərinin, tədqiqatçılarının diqqətini özünə cəlb edir, onların dürüst hesabatının aparılması və nəzarətə götürərək monitorinq sisteminin təşkil edilməsi, profilaktik tədbirlərin həyata keçirilməsi yenidoğulmuş uşaqların ölümünün azalmasına səbəb olacaq.

Ümumdünya Səhiyyə Təşkilatının inkişaf etməkdə olan ölkələrdə monitorinq sistemi ilə apardığı müayinələr sübut edir ki, profilaktik tədbirləri həyata keçirməklə AİQ-lə doğulanların sayını 10% endirmək olar.

Yenidoğulmuşlarda anadangəlmə qüsurların inkişaf etmə səbəblərinin qarşısını almaq üçün prenatal infeksiyanın profilaktikası, ümumiyyətlə qadınların və xüsusi ilə hamilə qadınların, dərman maddələrinin nəzarətsiz qəbulu, uşağın valideynlərinin spirtli içkilərə, siqaret çəkməyə aludəliyinin, kimyəvi maddələrlə təmasda olmasının qarşısını almaq, həyat şəraitinin yaxşılaşdırılması kimi tədbirlər aiddir. Ginekoloji sahədə isə tibbi-genetik məsləhətxanaların hər ərazidə geniş tətbiq olunması zəruri məsələdir.

**Anadangəlmə inkişaf qüsurlarının monitorinqi**

Anadangəlmə inkişaf qüsurlarının monitorinqi çox böyük praktiki əhəmiyyət kəsb edir. Onun vasitəsilə anadangəlmə inkişaf qüsurlarının profilaktikası aparılır, erkən diaqnozu qoyulur, AİQ-lə doğulmuş uşaqlar xüsusi nəzarətə götürülür. Aparılan tədbirlərin əsas mahiyyəti perinatal dövrdə yenidoğulmuşların xəstələnməsinin qarşısını almaq və ölümünün azalmasından ibarətdir.

Hal-hazırda yenidoğulmuşların Beynəlxalq Qeydiyyat Mərkəzinin (İCDMC) tərkibinə 30-a yaxın ölkə daxildir. Bu ölkələrin hərəsi özünəməxsus xüsusiyyətə malikdir.

Lakin, hər biri öz ölkəsində yenidoğulmuşlarda AİQ-in monitorinqini inkişaf etdirir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, monitorinq sistemini tətbiq etmək və təkmilləşdirməklə yeni doğulmuş uşaqlarda anadangəlmə inkişaf qüsurları hadisələrini azaltmaq mümkündür. Bütün bunları nəzərə alaraq bir sıra ölkələrdə monitorinq təşkil olunmasını və nəticəsini göstərməyi məqsədəuyğun hesab etdik.

Əhali arasında anadangəlmə inkişaf qüsurlarını müəyyənləşdirmək, nəzarətə götürmək və profilaktik iş aparmaq üçün 1974-cü ildə Mərkəzləşmiş Beynəlxalq Monitorinq Təşkilatı təşkil olundu. Bir neçə il bu təşkilat fəaliyyət göstərəndən sonra 1992-ci ildə Anadangəlmə İnkişaf Qüsurunun Beynəlxalq Monitorinq Mərkəzi kimi (İCBDMC) Romada yerləşdi. Bu mərkəz anadangəlmə inkişaf qüsurlarının hesabatı, nəzarəti və onu əmələ gətirən risk amillərinin öyrənilməsi və profilaktikası ilə məşğul olur [116].

Bu Beynəlxalq Mərkəzin 20-dən çox ölkə həqiqi üzvü olaraq hər ölkənin milli xüsusiyyətlərini nəzərə almaqla 40-dan çox geniş masştablı proyekt tərtib etdilər. Proyektin həyata keçirilməsi, hesabatın, nəzarətin və profilaktik tədbirlər aparılması nəticəsində bu ölkələrdə yeni doğulmuşlar arasında ölüm və anadangəlmə inkişaf qüsurları xeyli azalmışdır [İCBDMC, 2003].

Anadangəlmə inkişaf qüsurlarının monitorinqi aparılan yerlərdə bir sıra irəliləyişlər, faydalı nəticələr əldə olunub:

1. Aparılan profilaktik tədbirlər uşaqların xəstələnməsinin və ölümünün azalmasına səbəb olur.
2. Prenatal diaqnostikanı yaxşılaşdırmaqla anadangəlmə inkişaf qüsuru ilə doğulan uşaqların sayı xeyli azalır.

3. Epidemioloji müayinə aparmağın böyük üstünlükləri var. Bu tədbir vasitəsilə ərazidə olan xəstəlikləri, onların yayılma dərəcəsi, anadangəlmə inkişaf qüsurlarının nə dərəcədə tez təsadüf olunması, müxtəlif amillərin təsiri öyrənilərək qarşısını almaq tədbirləri qoyulur.
4. Epidemioloji müayinə aparmağın nəticəsində əhaliyə tibbi - genetik köməklik edir.
5. Anadangəlmə inkişaf qüsurlarının qeydiyyatı, nəzarəti əhalinin sağlamlaşdırılmasını yaxşılaşdırır.

Beləliklə, anadangəlmə inkişaf anomaliyalarının monitorinqinin böyük əhəmiyyəti var. Hər bir ərazidə, ölkədə monitorinq aparılmalı və profilaktik tədbirlər işlənilməlidir ki, həm əhali sağlamlaşsın, həm də gələcəkdə nəsil qüsursuz doğulub böyüsün.

Apardığımız araşdırmalar göstərir ki, Naxçıvan MR-da bir yaşa qədər uşaq ölümü strukturunda yeni doğulmuşların ölümünün xüsusi çəkisi böyükdür. Yeni doğulmuş uşaqların ölümünə anadangəlmə inkişaf qüsuru əsas səbəblərdəndir. Özü də anadangəlmə inkişaf qüsurlarının rastgəlmə hadisələri ildən ilə artır. Bunları və anadangəlmə inkişaf qüsurlarının klinik formalarını nəzərə alaraq, profilaktika üsullarını təkmilləşdirərək təcrübi təbabətə tətbiq etməliyik. Bu problemi dərindən öyrənmək üçün gələcəkdə daha yüksək səviyyədə elmi tədqiqatların davam etdirilməsi məqsədəuyğundur.

**ƏDƏBİYYAT**


1. Альбицкий В,Ю. с соавт, - «Репродуктивное здоровья и поведение женщин Росии», Казань, 2001, с. 165-231.
2. Баранов А.А. - «В большинстве стран растет детская смертность», Педиатрия и неанотолгия, 2004, Медковност. с. 2-3
3. Arnold Christianson-Medical Genetics Develo- pinq Counties, 2005, PP. 230-232
4. Sheikha Salim A1 Arrayed-Epidemiology of con- genital abnormalities in Bahrain, Eastrain Mediterranean health journal, V.l. 1975, PP. 248-252
5. Krikunova N.İ., Minaicheva L.İ. et al «Epidemioloq of Congenital malformations in Gorno-Altaisk, Altai Republic, Russia», PMİD, (15523853), 2004, Aug. 40 (8)- PP 1134-44
6. Nelson C.T., G.L.Demmler (197) - «Sytomeqalovirus infection in the preqnant mot- her, fetus and newborn infvnt», Clin Perinatal. 1997, 24 (1) - PP. 151-160


**ABSTRACT**


It was investigated in the perinatal age with the retrospective (1990-1999$^{th}$ years) analysis and prospective (2000-2009$^{th}$ years) observation way, with the purpose of the detection of the frequency, form and risks of occurrence of the congenital malformation in the newborns, with the purpose of preparation of their prophylactics scheme in Nakhchivan Autonomous Republic during 20 years.

It has been determined that, the number of the newborns with the congenital malformation was increased with age. All multiple forms of the congenital malformation with CM 30,4±3,4% are met. Though the sequestrate, congenital malformation of the cardiovascular system – 19,0±2,9% is in the second place for the frequency of occurrence, the sequestrate, congenital malformation of the gastrointestinal tract – 17,9±2,8% and it is possible to come across with the sequestrate, congenital malformation – 10,3±2,2% from the total amount of CM.


**РЕЗЮМЕ**


Детей и выявления влияния факторов риска, разработаны схемы их профилактики в Нахичеванской Автономной Республике в течение 20 лет путем ретроспективного (1990-1999 гг.) анализа и проспективного (2000-2009 гг.) наблюдения в перинатальном возрасте проведены исследования.

Установлено, что с годами увеличивается число новорожденных с врожденными пороками развития. Наиболее часто встречаются множественные формы врожденных пороков развития, которые составляют 30,4±3,4% всех ВПР. На втором месте по частоте встречаемости составляют изолированные врожденные пороки сердечно сосудистой системы – 19,0±2,9%, на третьем месте встречаются изолированные врожденные пороки желудочно-кишечного тракта 17,9±2,8% и центральной нервной системы 10,3±2,2% от общего количества ВПР.

**NÜSRƏT HƏSƏNOV**
*Naxçıvan Dövlət Universiteti*

# MUXTARİYYAT İLLƏRİNDƏ NAXÇIVAN SƏHİYYƏSİ (1988- 2018 İLLƏR)

"Naxçıvanın Muxtariyyatı Azərbaycanın XX əsrdə əldə etdiyi
böyük tarixi naliyyətdir, biz bunu qoruyub saxlamalıyıq"
**Heydər Əliyev**
*Azərbaycan xalqının ümummilli lideri*

**Açar sözlər:** *Muxtar, səhiyyə, sosial siyasət*
**Keywords:** *Autonomy, health, social policy*
**Ключевые слова:** *автономия, здоровье, социальная политика*

Azərbaycanın qədim və zəngin tarixinə, mədəniyyətinə və çoxəsirlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. 95 il əvvəl Naxçıvanın Muxtariyyatı təşkil olunmuşdur. Bir əsrə yaxın bir dövrdə Respublikamızın səhiyyəsi böyük inkişaf yolu keçərək bu dövrlərdə Naxçıvanın səhiyyəsi böyük uğurlar və nəaliyyətlər əldə etmişdir. Muxtariyyat illərində böyük inkişaf yolu keçən səhiyyənin maddi - texniki və tədris bazası genişləndirilmişdir[ 6,7,8,9, 12,14].

1920 - ci ilin oktyabrında Naxçıvanda ilk səhiyyə şöbəsi təşkil edilmişdir. Sonralar bu şöbə səhiyyə komissarlığına çevrilmişdir. 1920-1924-cü illərdə Naxçıvanda tibb müəsissələrinin açılmasına başlanmışdır. Naxçıvan şəhərində xəstəxana, şəhər ambulatoriyası, Ordubad şəhərində həkim məntəqəsi, Çənnəb, Culfa, Əbrəqunus, Cəhri, Qıvraq və Baş Noraşendə (indiki Cəlilkənd) feldşer məntəqələri işə başlamışdır. 1950 - 1960-cı illərdə muxtar respublikada səhiyyə ocaqlarının sayı sürətlə artmağa başlamışdır. 1970 - 1990-cı illərdə Naxçıvan səhiyyəsi inkişaf etmişdir [6,14].

Hər bir cəmiyyətdə səhiyyə, təbabət cəmiyyətin ictimai - siyasi həyatı ilə sıx surətdə bağlıdır. Hər bir insanın həyatı, onun sağlamlığı cəmiyyətin və Dövlətin diqqət mərkəzindədir. Sağlamlıq nikbin əhval ruhiyənin, insan səadətinin mənbələrindən biridir. İnsanın sağlamlığı ümumbəşəri əhəmiyyət kəsb edir. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra yaşadığımız demokratik Azərbaycan cəmiyyətində və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında çoxpartiyalı sistemdə, siyasi pülüralizm şəraitində, mövcud vətəndaş cəmiyyətində və ictimai siyasi proseslərin hər bir dövründə respublikanın səhiyyəsi dəyişilmiş və müəyyən inkişaf mərhələsində özünün yeni inkişaf yoluna keçmişdir. Müstəqil Dövlətimizin qurucusu və yaradıcısı, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Azərbaycanın Milli müstəqilliyi onun milli sərvəti olduğu kimi, onun hər bir vətəndaşının sağlamlığının qorunması isə Milli sərvətlərimiz üzərində sahibkarlığın təminatçısıdır". Hələ 1969-cu ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə gələndən sonra Nax MSSR-səhiyyə sahəsində sürətli inkişafın əsası qoyulmuşdur. Lakin 1988-ci illərin yarsından başlayaraq baxımsızlıq ucbatından səhiyyədə ciddi geriləmə başlamışdır. Səhiyyənin maddi texniki bazası dağıdılaraq çox aşağı səviyyəyə düşmüşdür.

Naxçıvanın səhiyyəsi ağır və çətin vəziyyətdə olduğu dövrdə Heydər Əliyevin B. Klintona məktubu ilə əlaqədar olaraq (1993 4 fevral) ABŞ-ın Bakıdakı səfiri R.Mayls Naxçıvanda iki günlük səfərdə olmuşdur. Naxçıvan Muxtar Respublikanın ehtiyacları öyrənilmiş, hümanitar yardımın çatdırılması mexanizmi müzakirə olunmuşdur. Heydər Əliyevin ABŞ prezidenti B. Klintona məktubundan sonra Ağ evin Naxçıvana təcili olaraq hümanitar yardımı başlanmışdır. Saat 16:30-da birbaşa ABŞ-dan uçan "Boinq" təyyarəsi Naxçıvan aeroportuna enmiş və bir milyon ABŞ dolları dəyərində hümanitar yardım gətirilmişdir [13 ]. Daha sonra (1993 - cü il 21 mart) Fransadan Naxçıvana təyyarə ilə 37 ton hümanitar yardım göndərilmişdir. Bununla da respublikanın səhiyəsi ağır və çətin vəziyyətdən çıxmışdır. Bu illərdə Naxçıvanın səhiyyəsində baxımsızlıq aradan qaldırılmış və səhiyyə yenidən dirçəlməyə başlamışdır.

Bəşər sivilizasiyasının ən qədim mərkəzlərindən sayılan Naxçıvan Muxtar Respublikası ölkəmizin müstəqillik əldə etdikdən sonrakı dövründə ağır, çətin və həm də böyük inkişaf yolu keçmişdir. Naxçıvan Muxtariyyatının qorunub saxlanması, Kars müqaviləsinin gündəmə gətirilərək blokada şəraitində olan Naxçıvanın erməni hücumlarından və işğalından azad edilməsi, demokratikləşmə prosesinin sürətləndirilməsi, sosial–iqtisadi, mədəni quruculuq və səhiyyə sahəsində çoxşaxəli tədbirlərin həyata

keçirilməsi Heydər Əliyevin Naxçıvanda üçillik fəaliyyətinin (22 iyul 1990 - 9 iyun 1993) tarixi, siyasi, mədəni və fəlsəfi mahiyyətini özündə əks etdirir [15].

Cəmiyyətimizin bütün sahələrində - istər ictimai siyasi sabitliyin təmin olunması, Azərbaycanın dövlət müstəqilliyinin qorunması və inkişaf etdirilməsi, ordunun yaradılması, demokratik hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşdırılması, elm, təhsil, mədəniyyət və.s sahələrdə olduğu kimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasətinin əsas fəaliyyət istiqamətlərindən biri də insanlara qayğı, insanların əmək və ictimai fəallığını artırmaq, insanlara sağlam həyat tərzi aşılamaq üçün fəal və məqsədyönlü sosial siyasi islahatların həyata keçirilməsi və sosial siyasətin əsas sahələrindən olan əhalinin sağlamlığının qorunması olmuşdur.

Ölkə vətəndaşlarının fiziki sağlamlığının qorunması, onların fəal həyat müddətinin uzadılmasını zəruri hesab edərək yüksək ixtisaslı tibbi xidmətin bütün növlərinə şərait yaratmağı, şəhər və kənd sakinlərinin səhiyyə tələbatlarının tamamilə ödənilməsini ən vacib və əhəmiyyətli məsələ kimi qiymətləndirmişdir. Azərbaycan xalqının ümummilli lideri hər zaman Ana və uşaqlara dövlər qayğısının artırılması, uşaqların sağlamlığının qorunması, ana və uşaqların mühafizəsi üçün tibb müəssisələrinin daha da inkişaf etdirilməsi, onları müasir tibbi aparatlar və avadanlıqlar, müalicə və sanitar gigiyenik vasitələr ilə tam təmin etməyi, səhiyyədə bazar iqtisadiyatına uyğun islahatların aparılması, bu sahədə özəl təşəbbüslərə geniş yer verilməsi, mülkiyyət çoxnövlülüyünə şərait yaradılmasını günün vacib məsələsi hesab etmişdir.

1994 - cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qayğısı və təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisində qərar verilmiş Azərbaycan Qızıl aypara Cəmiyyəti Respublikada yeganə rəsmi hümanitar təşkilat kimi tanınmışdır və bu təşkilat özünün iş qüvvəsi ilə respublikanın səhiyyə orqanlarına kömək edir.

Azərbaycan Respublikasının 1995 - ci ildə qəbul olunmuş Konstitusiyası müstəqil Azərbaycanın ilk Konstitusiyası idi. Müstəqil dövlətin yeni Konstitusiyasının layihəsinin hazırlanmasının təşəbbüskarı 1994 - cü ilin ortalarında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev olmuşdur. Dünyada çox az Konstitusiya tapılar ki, onun maddələrinin üçdə bir hissəsi insan hüquqlarına və onların təminatlarına həsr edilsin. Azərbaycan Respublikası Konstitusiyasının 158 maddəsindən 48-i insan hüquqlarına həsr edilib. 1995 - ci ilin 12 noyabr tarixdə referendium yolu ilə Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilərkən konstitusiynın 41 maddəsində hər bir insanın sağlamlığın qorunması və tibbi yardım almaq hüququ, dövlətin müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görmək, sanitar epidemioloji sağlamlığa təminat vermək, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaratmaq, insanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslərin qanun əsasında məsuliyətə cəlb edilməsi məsələləri təsbit edilmişdir [1].

Alkoqolizm, narkomaniya, tabakomaniyaya qarşı mübarizə və müalicə tədbirlərinin genişləndirilməsi məqsədi ilə 1996 - cı ilin 26 avqust tarixdə Ulu Öndərimiz Heydər Əliyevin "Narkomaniya və narkotika dövriyyəsinə qarşı tədbirlər haqqında" imzaladığı Fərmana əsasən [4] ölkəmizdə 2000 - ci ilədək narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixontrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Ümummilli Proqram hazırlanmış, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmışdır [5]. Bu sərəncama uygun olaraq Ali Məclisin Sədri Vasif Talıbov təqribən eyni vaxtda (30 avqust 1996) sərəncam imzalamışdır. Bu sərəncamlar əhalinin sağlamlığının qorunması istiqamətində atılmış ən yüksək dəyərə malik və heç zaman aktuallığını itirməyən sosial siyasi addımdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1997 - ci ilin 25 iyul tarixli fərmanı ilə tədbiq edilməyə başlamış "Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının qanunu" hər bir insanın fiziki və ruhi sağlamlığının mühafizəsinə, fəal uzunömürlülüyün artırılması, tibbi yardımla təminatına yönəldilmiş siyasi, iqtisadi, hüquqi, elmi, tibbi və sanitar gigiyena xarakterli tədbirlərin məcmuəsindən ibarət olub, vətəndaşlarla dövlət orqanları, eləcə də dövlət və qeyri dövlət səhiyyə sistemlərinin subyektləri arasında yaranan münasibətləri tənzimləyir. Bu sənəddə keçmiş ittifaqdakı qanunvericilikdən fərqli olaraq ilk dəfə dövlət səhiyyə sistemi ilə yanaşı mülkiyyətin müxtəlif növlərinə əsaslanan səhiyyənin digər formalarının - qeyri dövlət səhiyyə sisteminin və şəxsi tibbi fəaliyyətin inkişafı üçün zəmin yaradılmışdır. Qanunda ödənişli tibbi xidmətin inkişafı, vətəndaşlara tibbi sığortanın təşkili, xalq təbabəti ilə müalicə, qeyri ənənəvi təbabətlə məşğul olmaq kimi məsələlər öz həllini tapmışdır [2].

Hazırda həkimlik fəaliyyətində bu qanunun hər bir müddəası müqəddəs tutularaq hər bir həkim bu qanundan irəli gələn bütün vəzifələri layiqincə yerinə yetirməyə, vicdanla çalışmağa, bütün qüvvə və bacarığından istifadə edərək əhaliyə yüksək səviyyədə tibbi xidmət göstərmək üçün səylər göstərirlər.

Ulu öndərin respublikada"Səhiyyə sahəsində İslahatlar üzrə Dövlət Komissiyasının yaradılması barədə" 13 mart 1998 - ci il tarixli sərəncamı səhiyyənin bütün sahələrini əhatə edən islahatların daha geniş miqyasda və sürətlə aparılması üçün böyük şərait yaratmışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həkimlik peşəsinə yüksək qiymət verərək demişdir: "Cəmiyyətdə həkim peşəsi ən mötəbər peşədir. Özünü həkimlik, təbiblik peşəsinə həsr edən insanlar xoşbəxt insanlardır. Çünki cəmiyyətin onlara böyük ehtiyacları vardır. Eyni zamanda həkimlər hər yerdə mehribanlıq, sülh, əminamanlıq yaradan insanlardırlar".

Ətraf mühütün çirklənməsinin qarşısının almaq üşün qlobal ekoloji proqramların həyata keçirilməsində yaxından iştirak etməyi təxirəsalınmaz, birinci dərəcəli dövlət işi hesab edərək 23 may 2001 - ci il tarıxdə Heydər Əliyev Ekologiya və təbii sərvətlər Nazirliyini yaratmışdır.

Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin ilk Səhiyyə Nazirliyinin 1918 - ci il 17 iyun tarixdə yaradılmasını nəzərə alaraq azərbaycan vətəndaşlarına, xüsusilə tibb işçilərinə yüksək diqqət və qayğının nəticəsi olaraq 2001 - ci il 17 iyun tarixdə tibb işçilərinin peşə bayramının keçirilməsi ilə əlaqədar sərəncam (4 iyin 2001 –ci il) imzalamışdır.

Respublikamızda Naxçıvan Muxtar Respublikası Dövlət univerisitetinin nəzdində Tibb fakültəsinin yaradılması tibbi elmi təhsilin inkişafı, tibbi kadro potensialının gücləndirilməsi məqsədi ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvanlılara ən böyük töhvəsidir. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin keçdiyi yol tibbin tarixi ənənələrinə söykənən, Naxçıvan Muxtar Respublikasında tibbi elmi təhsilin yeni, müasir inkişafını təqdim edir.

Əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial siyasətin bir hissəsi kimi səhiyyə sahəsində ölkəmizdə geniş islahatlar davam etdirilərək tədricən tibbi sığorta sisteminə keçilmiş, əhaliyə göstərilən səhiyyə xidmətinin həcmi genişləndirilmiş və keyfiyyəti yaxşılaşdırılmışdır. Dünya standartlarına cavab verən ixtisaslaşmış tibbi mərkəzlər yaradılmış, xəstəxanalar, müalicə diaqnostika mərkəzləri tikilərək əhalinin istifadəsinə verilmişdi. Əhalinin dərman və tibbi təyinatlı məlumatlarla təmin olunması sahəsində təsirli tədbirlərin görülməsi əczaçılıq sənayesinin inkişafına diqqətin artırılması, müasir əczaçılıq sənayesinin yaradılmasına başlanılmışdır. Uşaq ölümü hallarının azaldılması proqramı həyata keçirilməsi, əhalinin orta ömür müddətinin uzaldılması üçün mövcud imkanları səfərbər etmək, tibbi kadrların ixtisasının artırılması üçün maliyyə yardımların göstərmək. Əhalinin sağlamlığı monitorinqinin gücləndirilməsi məqsədi ilə məlumat - informasiya sisteminin təkmilləşdirilmişdir. Əhalinin sağlamlığının qorunmasının müvəffəqiyyətli həllini istiqamətində bir çox dövlət proqramları qəbul edilmişdir [3,6].

2004 - cü ildə yaradılmış Heydər Əliyev fondu səhiyyə müəssisələrinə böyük dəstək olmuşdur. Azərbaycan Respublikasının Birinci vitse - prezidenti· Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO - nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə şəkərli diabet, xroniki böyrək çatışmazlığı, dağınıq skleroz, hemofiliya və talasemiya kimi qan xəstəlikləri üzrə dövlət proqramları qəbul olunmuşdur. Talasemiya müalicə diaqnostik mərkəzi yaradılmışdır. Dövlət proqramlarına uyğun olaraq bu qəbildən olan xəstələrin respublikamızda qeydiyyatı müayinəsi, diaqnostikası və müalicəsi, profilaktik tədbirlər və dərman prepratları ilə təminatı yüksək səviyədə həyata keçirilir [6].

Muxtariyyatın son 30 ili ərzində Naxçıvan Muxtar Respublikasında Heydər Əliyevin siyəsətinə sədaqətin nümunəsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun yorulmaz və işgüzar fəaliyyəti nəticəsində əhaliyə tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, əhalinin sağlamlığının qorunmasının müvəfəqiyyətli həlli istiqamətində çox böyük işlər görülmüşdür. 16 dekabr 1995 - ci ildə Naxçıvan MR-nin Ali Məclisinin keçirilmiş sessiyasında özünün fəaliyyət proqramını ifadə edərkən Vasif Talıbov demişdir: "Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyev dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm" [12]. 1995 - ci ildə Naxçıvan MR-sı Ali Məclisinə sədr seçiləndən sonra özünü mükəmməl siyasi təcrübəsi, yetgin diplomatik düşüncə tərzi və cəsarətli siyasi mövqeyi ilə təsdiqləmiş, keçilmiş məsuliyyətli və şərəfli yolun böyük dərslərini Heydər Əliyevdən alan Dövlət xadimi, Cənab Ali Məclisin Sədri Vasif Talıbov Heydər Əliyev dövlətçilik məktəbinin Naxçıvan modelini yaratmışdır(12). Heydər Əliyev idarəçilik məktəbinin və siyasi kursunun ən layiqli nümayəndələrindən biri kimi Naxçıvan MR Ali vəzifəli şəxsi Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublikada bütün sahələrdə - sənayedə, kənd təsərrüfatında, tikintidə, nəqliyyatda, qlobal quruculuq işləri həyata keçirilmişdir. Elm, təhsil, səhiyyə sahəsində böyük islahatlat həyata keçirmişdir [ 6,7,8,9,12,15].

Naxçıvan MR-sı ərazisində əhalinin sağlamlığının qorunması və yaxşılaşdırılması istiqamətində Cənab Ali Məclisin Sədri Vasif Talıbovun təşəbbüsü ilə Dövlət səhhiyə sistemi ilə yanaşı, mülkiyyət çoxnövlülüyünə əsaslanan səhiyyənin digər formaları - qeyri dövlət səhiyyə sistemi, şəxsi tibbi fəaliyyət, xalq təbabəti, ənənəvi təbabətin inkişaf etdirilməsi üçün geniş imkanlar yaradılmış və islahatlar həyata keçirilmişdir. Səhiyyə obyektləri təmir olunmuş, yeniləri tikilmiş, əlillərin reabilitasiya mərkəzləri yaradılmışdır. Xəstələrin vaxtında müayinəsi, diaqnostikası və müalicəsi üçün respublika səhiyyəsi müasir müayinə və müalicə üçün dünyada mövcud olan ən müasir tibbi texnika və avadanlıqlarla (kompüter

tomoqrafiya (KT), Maqnit Rezonans Tomoqrafiya(MRT), Elektroensefaloqrafiya (EEQ), Elektromioqrafiya(EMQ), Ultrasəslə Müayinə (USM), Mammoqrafiya (MQR), Ürəyin tac damarlarını angioqrafiyası, EXO - kardioqrafiya, Rentgen aparatı, Hemodializ, Analizatorlar və .s) ilə təchiz edilmişdir. Respublikamızda yumşaq və rahat təcili yardım maşınları əhalinin xidmətindədir(hüsen).

Artıq respublikamızda ən müasir tibbi avadanlıqlardan istifadə edilərək xəstələrin vaxtında müayinəsi, diaqnostikası və müalicəsi üçün geniş istifadə edilir. Xəstəxanalarımıza mütəxəsislər dəvət olunaraq ən müasir cərrahiyyə əməliyyatları, açıq ürək, neyrocərrahiyə əməliyyatları, göz əməliyyatları və.s icra olunması üçün bütün imkanlar mövcuddur.

Ana və uşaqların sağlamlığının qorunması üçün Uşaq xəstəxanası təmir edilmiş, respublikada Doğum Mərkəzi, Uşaq Bərpa Mərkəzi və Körpələr Evi salınmış və ən yüksək Dünya standartları səviyyəsində ən müasir avadanlıqlar ilə təmin edilmişdir. Gigiyena Epidemiologiya Mərkəzinə (GEM) bina tikilmiş və laboratoriya şəraiti yaxşılaşdırılmışdır. Ruhi və Ağciyər xəstəlikləri dispanseri tikilmiş, ağciyər xəstəlikəri dispanserinə avtolaboratoriya verilmişdir. İnsanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktorların aradan qaldırılması üçün ciddi tədbirlər həyata keçirilmişdir(hüsen).

Respublikanın rayon və kəndlərində müasir səviyyədə sağlamlıq mərkəzləri, həkim ambulatoriyalar(HA), feldşer məntəqələri(FM), kənd sahə xəstəxanaları(KSX) tikilib istifadəyə verilmişdir və maddi texniki bazası möhkəmləndirilmişdir. Lazım olan dərmanlar, müasir avadanlıqlar, mal və materiallar ilə təmin olunmuşdur. “KOMBİ” istilik sistemi ilə qızdırılır.

Kütləvi idman tədbirlərinin keçirilməsi, idmanın inkişaf etdirilməsi, sağlamlıq mərkəzlərinin artırılması, məktəblərdə tibbi kabinetlərin yaradılmsı, uşaqların və yeniyetmələrin sağlamlığının effektifliyinin artırılması istiqamətində böyük işlər görülmüşdür.

Dünyada baş verən elmi, tibbi texniki tərəqinin ən qabaqcıl nəaliyyətlərinin mənimsənilməsi və tətbiqi istiqamətində qarşıya qoyulmuş vəzifələr üçün səylər gücləndirilmiş və böyük uğurlar əldə edilmişdir. Əhali arasında fərdi qaydada insanların sağlamlığına olan münasibətin dəyişilməsi və bu fikirin formalaşması istiqamətində geniş maarifləndirmə işləri görülmüşdür. Respublikamızda aparılan profilaktik tədbirlərin nəticəsində xüsusi təhlikəli infeksion xəstəliklərin qarşısı alınmışdır. Naxçıvan Muxtar Respublikası ərazisində əhalinin sağlamlığının qorunması və yaxşılaşdırılması istiqamətində tibb müəssisələri şəbəkəsinin genişləndirilməsi ilə yanaşı icbari tibbi siğortanın tətbiqi respublikamızda insanların sağlamlığının daha da yaxşılaşmasına, səhiyyə sistemində çalışan mütəxəsislərin sosial rifah halının artmasına, səhiyyəyə ayrılan vəsatin yüksəlməsinə, hər kəsin sağlamlığının qorunması və tibbi yardım almaq imkanlarının genişləndirilməsinə səbəb olacaqdır. Publik hüquqi şəxs haqqında Naxçıvan MR-sı qanunu ilə (publik hüquqi şəxs yaradılması) səhiyyə xidmətinin keyfiyyəti yüksəltmişdir. “Naxçıvan MR-da dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan MR-nin Ali Məclisi Sədrinin 15 iyul 2011-ci il tarixli Fərmanına uyğun olaraq, səhiyyə sistemində elektron xidmətlərin göstərilməsinə başlanmış, nümunəvi tibbi informasiya sistemi qurulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018 –ci il 09 oktyabr tarixli 291-05/S nömrəli Sərəncamı ilə Naxçıvan MR – da uşaqların icbari dispanserizasiyasını keçirilməsinə dair 2018- 2022 –ci illər üçn Dövlət Proqramı təsdiq edilmişdir. Bu son illər ərzində Naxçıvan MR-da səhiyyə sistemində uşaqların sağlamlığının qorunması ilə bağlı həyata keçirilən tədbirlərin nəticəsi olaraq uşaqlara tibbi yardım göstərən tibb müəssisələrinin maddi texniki bazasının yaxşılaşdırılması, onların müasir tibbi texnika və avadanlıqlarla təchiz edilməsi, yeni tibbi texnologiyaların tətbiqi, tibbi kadrların peşə səviyyəsinin artırılmasl və əhali arasında geniş maarifləndirmə işinin aparılması istiqamətində mühüm addımlar atılmışdır. Həyata keçirilən tədbirlər uşaqlar arasında xəstələnmənin, sağlamlıq imkanları məhdudluğunun və ölümün səviyyəsinin azaldılmasına imkan verir [11].

Ali Məclis Sədrinin diqqət və qayğısı nəticəsində universitetin tibb fakültəsində böyük quruculuq işləri aparılıb, tədris müasir tələblər səviyyəsində qurulub, yeni fakültələr və ixtisaslar açılıb. NDU-nun Tibb fakültəsinin nəzdində xəstəxana yaradılmışdır. Bu gün universitetin tibb fakültəsi ölkəmizdə ixtisaslı kadrlara olan tələbatın ödənilməsi sahəsində səmərəli fəaliyyət göstərir, dövlətçilik təfəkkürü və Azərbaycançılıq düşüncələri ilə zənginləşmiş, Vətəninə, xalqına, millətinə bağlı yeni məzunlar nəsli yetişmişdir. Universitet muxtar respublikada ali tibbi təhsil sisteminin inkişafı ilə yanaşı, milli şüurun formalaşmasında, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində tibbi kadrların hazırlanmasında mühüm xidmətlər göstərmiş, burada peşəkar milli tibbi kadrlar hazırlanmışdır. Artıq Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin məzunları Azərbaycanın, Naxçıvan Muxtar Respublikasında milli səhiyyəmizin inkişafında müxtəlif sahələrdə çalışır, səhiyyənin inkişafına öz töhfələrini verirlər. Səhiyyə müəssisələrinin tibbi kadrlara olan tələbatının ödənilməsi üçün ardıcıl tədbirlər görülür. Naxçıvan Dövlət Universitetində Tibb fakültəsi üçün korpusun, Naxçıvan Tibb Kollecinin müasir tələblər səviyyəsində yenidən qurulması, ixtisasların sayının artırılması səhiyyə müəssisələrinin ixtisaslı tibbi kadrlarla təminatına imkan verir. Tibb

mütəxəsislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir. Təvrübi tibbi və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyasının aparılması, səhiyyə işçilərinin müasir elmi biliklərinin artırılması üçün müxtəlif profilli elmi - praktik seminar və konfransların təşkili diqqət mərkəzində saxlanılır.

İnanırıq ki, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Tibb Kollecinin və Səhiyyə Nazirliyinin çoxminli tibbi kollektivi, professor müəllim heyəti bundan sonra da Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda tibbi elmi təhsilin və səhiyyənin müasir inkişaf ilə, tibbi xidmətin beynəlxalq səviyyədə tətbiqində var gücü ilə çalışacaq, yüksək ixtisaslı kadr potensialı ilə insanların sağlamlğının qorunmasına öz tövhəsini verəcəkdir.

Naxçıvanda tibbi elmi təhsilin inkişafı və əhalinin sağlamlığının qorunması sahəsində əldə edilən bütün nailiyyətlər Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Məhz onun yeritdiyi böyük siyasətin nəticəsində tibbi elmi təhsil və səhiyyə sahəsində həyata keçirilən islahatlar xalqın elminə, sağlamlığına dövlət səviyyəsində göstərilən müstəsna qayğı və diqqətin əsl mənada parlaq nümunələri sayıla bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiya tərəfindən hazırlanmış, 1995 - ci il noyabrın 12 - də ümumxalq səsverməsində (referendumda) qəbul edilmişdir. 1995-ci il noyabrın 27 - dən qüvvəyə minmişdir.
2. Əhalinin sağlamlığını qorunması haqqında Azərbaycan Respublikasının Qanunu, Milli Məclis tərəfindən qəbul edilmiş, 1997 - ci ilin iyunun 26 - da Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən imzalanmış və ölkənin dövlət başçısının 1997 - ci il 25 iyul tarixli Fərmanı ilə təsdiq edilməyə başlamışdır, Bakı,“ Göytütk”-1997
3. Güləliyev Əziz “Azərbaycan Respublikasının Prezidentliyinə Namizəd Əliyev İlham Heydər oglunun Seçki Proqramı”, “Şərq - Qərb” ASC - nin mətbəəsində çap olunmuşdur, Bakı, Aşıq Ələsgər küçəsi,17. Sharq.qarb@ gmail.com
4. Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 26 avqust 1996 - cı il [Mətn] //Azərbaycan.- 1996.- 27 avqust.- S.1.
5. Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Dövlət komissiyasının bəzi məsələləri haqqında: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 17 iyun 1999 - cu il [Mətn] //Azərbaycan - 1999.- 18 iyun - S.1
6. Hüseyn Əsgərov., Süleyman Cəfərov. Naxçıvan səhiyyəsinin təşəkkülü, inkişaf və tərəqqisi, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Elmi - Tibbi Şurasının 12 fevral 2014 - cü il tarixli (protokol №2) qərarı ilə çap olunmuşdur.
7. Naxçıvan Muxtar Respublikasının 2005 - cı ildə sosial - iqtisadi inkişafının qısa xülasəsi, Naxçıvan – 2006
8. Naxçıvan Muxtar Respublikasının 2006 - cı ildə sosial - iqtisadi inkişafının xülasəsi, Naxçıvan – 2007
9. Naxçıvan Muxtar Respublikasının 2016 - cı ildə sosial - iqtisadi inkişafının xülasəsi, Naxçıvan – 2017
10. Naxçıvan Muxtar Respublikasının1997 - ci ildə sosial –iqtisadi inkişafı haqqında, “Əcəmi” Nəşriyyat - Poliqrafiya Birliyi, Naxçıvan – 1998
11. “Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018 - 2022-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında”,Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 9 oktyabr 2018 - ci il tarixli № 291-05/S Sərəncamı
12. İsa Həbibbəyli NDU rektoru, akademik., İsmayıl Hacıyev AMEA Naxçıvan Bölməsinin sədri, akademik., Bəxtiyar İsmayılov Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri, “İntibahın 15 ili”, Əcəmi,2010. səh 73 - 78
13. Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Məsləhətçi və buraxılışa məsul., Tərtib edəni Əli Həsənov. Q10(08) Qayıdış 1990 – 1993, Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr.- Bakı, Azərbaycan nəşriyyatı, 2008 - 840 s. səh 756- 761
14. Tofiq Cəfərov, Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafı, Bakı 1999, Səh 15-17. Səh 66-80. Səh 85-92
15. Zəhmət Şahverdiyev Naxçıvan Muxtar Respublikası 1991 - 2001-ci illərdə, Bakı: Qismət, 2002. 310s

**ABSTRACT**

This article analyzes Nakhchivan's health covering 1988 - 1998 autonomy. Active and purposeful social political reforms to protect the health of the population, to care for people, to increase people's labor and social activity, and to lead them to a healthy lifestyle, which is one of the main areas of social policy of the Azerbaijani people's national leader Heydar Aliyev, and the policy of President Ilham Aliyev and Nakhchivan Autonomous Republic Ceremony of consistent development of Vasif Talibov, President of the Heydar Aliyev Foundation and Mehriban Aliyeva's health care institutions was highlighted

**РЕЗЮМЕ**

В этой статье анализируется состояние здоровья Нахчывана, охватывающее автономию 1988-1998 гг. Активные и целенаправленные общественно-политические реформы, направленные на охрану здоровья населения, заботу о людях, повышение трудовой и социальной активности людей и приведение их к здоровому образу жизни, что является одним из основных направлений социальной политики общенационального лидера азербайджанского народа Гейдара Алиева, а также политики президента Ильхама Алиева и Нахчыванской Автономной Республики Васифа Талибова. Была отмечена церемония последовательного развития президента Фонда Гейдара Алиева и учреждений здравоохранения имени Мехрибан ханум

**ELSEVƏR ƏSƏDOV**
**MÜRSƏL SEYIDOV**
*Naxçıvan Dövlət Universiteti*
asadoves@mail.ru

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ƏRAZİSİNDƏ BAL ARISI (*APIS MELLFERA L.*) TƏRƏFİNDƏN İSTEHSAL OLUNAN BALLARIN BİTKİ MƏNBƏLƏRİ

Bal arıları həyat fəaliyyəti dövrü öz qidalarını bitkilərin çiçəklərində istehsal olunana nektardan əldə edirlər. Nektar balın əsas xammalı olub, bitkilərin çiçəklərinin nektarlıqlarında ifraz olunur. Nekratla yanaşı arılar çiçəklərin tozcuqlarını toplayaraq inkişaf etməkdə olan arı nəslinin zülali qidaya olan tələbatını ödəyirlər. Bu baxımdan arılar nektar və tozcuq toplamaq üçün çoxlu sayda bitkin çiçəyinə qonurlar. Arılar çiçəklərdən nektar sorarkən çiçəyin tozcuqları onun topladığı bala da qarışır. Buna görə də arıların əldə etdiyi bal məhsulunun tərkibində mütləq onun əldə olunduğu bitkinin çiçəyinin tozcuqları mövcud olur. Balın tərkibindəki çiçək tozcuqlarının miqdarı və müxtəlifliyi onun bitki mənbələri və keyfiyyəti haqqında məlumat verməyə əsas verir (3;4;5;6).

Arıların istehsal etdikləri balın tərkibi və keyfiyyəti, bitki mənbələrinin çoxluğundan və müxtəlifliyindən çox asılıdır (2). Arılar arıxananın yerləşdiyi ərazinin orta hesabla 5 $km^2$-lik çevrəsində olan çiçəkli bitkilərə bağlı olaraq bal və güləm istehsal edirlər. Bu vəziyyət də gün ərzində əldə olunan balın tərkibinə müxtəlif bitkilərə məxsus nektarın və tozcuğun daxil olmasına səbəb olur. Bitki növlərinin çiçəkləmə vaxtları və müddətləri bir-birindən fərqlənir. Eyni zamanda yaz, yay və payızda çiçəkləyən saysız hesabsız çiçəkli bitki növləri vardır. Hətta eyni növə daxil olan bitkilərin çiçəkləmə vaxtları düzənlikdən yüksəkliyə doğru qalxdıqca dəyişiklik göstərir (1; 8). Bu arıxanaların çiçəkli bitkilərin bol olduğu yerlərə daşınmasına, yəni köçəri arıçılığa səbəb olur. Buna görə də yüksək məhsuldarlıq üçün arıçılıq həyata keçirilən floranın çox yaxşı tanınması, çiçəkləmə və nektar axımının başlanma zamanı və müddətinin məlum olması mühüm əhəmiyyət daşıyır (7).

Apardığımız tədqiqatın əsas məqsədi qədimdən bu günədək öz adı ilə məşhur olan Naxçıvan ballarının tozcuq nümunələri və daha çox müraciət etdiyi dominant bitkiləri müəyyənləşdirmək olmuşdur. Bu məqsədlə Naxçıvan Muxtar Respublikasının müxtəlif təbii-coğrafi zonalarından bal nümunələri əldə olunmuş, onların tərkibindəki çiçək tozcuqlarına görə bitki mənbələrinin müəyyənləşdirilməsi üçün tədqiqatlar aparılmışdır.

Naxçıvan Muxtar Respublikasi şəraitində bal arısı (*Apis mellifera L.*)
tərəfindən istehsal olunan balların bitki mənbələri

| Fəsilə | Cins | Növ | Başlıcan balverən bitki cinsləri | Rast gəlmə | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | Düzənlik | Dağətəyi | Dağlıq | Hər yerdə |
| Zirinckimilər (*Berberidaceae Juss.*) | 2 | 5 | Zirinc (*Berberis* L.) | | + | + | |
| Qırxbuğumkimilər (*Polygonaceae Juss.*) | 10 | 34 | Dəvəqıran (*Atraphaxis* L.), Qırxbuğum (*Polygonum* L.), Əvəlik (*Rumex* L.), | + | + | + | + |
| Qurşunçiçəyikimilər (*Plumbaginaceae Juss.*) | 3 | 13 | Tıs-tıs (*Acontholimon* Boiss.) | | + | + | |
| Dazıkimilər (*Hypericaceae Juss.* ) | 1 | 9 | Dazı (*Hypericum* L.) | | + | + | |
| Gördəvərkimilər (*Ericaceae Juss.*) | 1 | 1 | Gördəvər (*Ledum* L.) | | + | + | |
| Balqabaqkimilər (*Cucurbitaceae Juss.*) | 8 | 9 | Qarpız (*Citrullus* L.), Xiyar (*Cucumis* L.), Qovun (*Melo* Mill.), Balqabaq (*Cucurbita* L.) | + | + | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Kələmkimilər (*Brassicaceae Burnett*) | 66 | 165 | Vəzərək (*Barbarea* R.Br.), Kələm (*Brassica* L.), Köhrənotu (*Camelina* Cranz.), Quşəppəyi (*Capsella* Medik.), İsitməotu (*Erysimum* L.), Rəngotu (*İsatis* L), Şüvərən (*Sisymbrium* L), Yarğanotu (*Thlaspi* L.), Xardal (*Sinapis* L.), Şalğam (*Rapistrum* Crantz.), Turpca (*Raphanus* L.) | + | + | + | + |
| Əsərəkkimilər (*Resedaceae DC.ex S.F.Gray*) | 1 | 4 | Rezeda (*Reseda* L.) | | + | | |
| Çobanqarğısıkimilər (*Cistaceae Juss.*) | 2 | 6 | Çobanqarğısı (*Helianthemum* Mill.) | | + | | |
| Əməköməcikimilər (*Malvaceae Juss.*) | 7 | 18 | Kəndirotu (*Abutilon* Hill), Gülxətmi (*Alcea* L.), Bəlğəmotu (*Althaea* L.), Meşə əməköməcisi (*Malva* L.) | + | + | + | |
| Tutkimilər (*Moraceae Link.*) | 2 | 4 | Tut (*Morus* L.), Əncir (*Ficus* L.) | + | + | | |
| Doqquzdonkimilər (*Caprifoliaceae Adans.*) | 1 | 5 | Doqquzdon (*Lonicera* L.) | + | + | + | |
| Yulğunkimilər (*Tanaricaceae Link.*) | 2 | 6 | Yulğun (*Tamarix* L.) | + | + | | |
| Tərəkimilər (*Chenopodiaceae (Vent.*) | 30 | 76 | Tərə (*Chenopodium* L.) | + | + | | |
| Sarmaşıqkimilər (*Convolvulaceae Juss.*) | 3 | 9 | Sarmaşıq (*Convolvulus* L. ) | + | + | | |
| Qaymaqçiçəkkimilər (*Ranunculaceae Adans.*) | 15 | 57 | Qara çörəkotu (*Nigella* L.), Ağəsmə (*Clematis* L.), Xoruzgülü (*Adonis* L.) | + | + | | |
| Süddüyənkimilər (*Euphorbiaceae Juss.*) | 4 | 25 | Süddüyən (*Euphorbia* L.) | | + | + | |
| Gülçiçəyikimilər (*Rosaceae Adans.*) | 30 | 153 | Badam (*Amygdalus* L.), Ərik (*Armeniaca* Mill.), Şaftalı (*Persica* Mill.), Alça (*Prunus* L. ), Albalı (*Cerasus* Mill.), Yemişan (*Crataegus* L.), Dovşanalması (*Cotoneaster* Medik.), Heyva (*Cydonia* Mill.), Alma (*Malus* Mill.), Meşə gilası (*Padus* Mill.), Qaytarma (*Potentilla* L.), Armud (*Pyrus* L.), İtburnu (*Rosa* L.), Topulqa (*Spiraea* L.), Böyürtkən (*Rubus* L.), Quşarmudu (*Sorbus* L.), Şaxduran (*Alchemilla* L.), Quşqonmaz (*Filipendula* Mill.), Meşə albalısı (*Padellus* Vass.) | + | + | + | + |
| Narkimilər (*Punicaceae Horan.*) | 1 | 1 | Nar (*Punica* L.) | + | | | |
| Paxlakimilər (*Fabaceae Lindl.*) | 46 | 258 | Akasiya (*Acacia* Hill.), Gəvən (*Astragalus* L), Biyan (*Glycyrrhiza* L.), Gülülcə (*Lathyrus* L.), Qarayonca (*Medicago* L.), Esparset (*Onobrychis* Hill.), Ağ akasiya (*Robinia* L.), Güldəfnə (*Trigonella* L.), Lərgə (*Vicia* L.), Çəpişotu (*Galega* L.), Qurdotu (*Lotus* L.), Yonca (*Trifolium* L.), Sekurigera (*Securigera* Dc.), Xəşəmbül (*Melilotus* Hill.) | + | + | + | + |
| Ağcaqayınkimilər (*Aceraceae Juss.*) | 1 | 10 | Ağcaqayın (*Acer* L.) | | + | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Sədokimilər (*Rutaceae Juss.*) | 3 | 8 | Sədovər (*Haplophyllum* Adr. Juss.) | + | + | | |
| Murdarçakimilər (*Rhamnaceae Juss.*) | 4 | 6 | Murdarça (*Rhamnus* L.), Qaratikan (*Paliurus* Hill.) | + | + | + | |
| İydəkimilər (*Elaeagnaceae Adans.*) | 2 | 4 | İydə (*Elaeagnus* L.) | + | + | | |
| Fırçaotukimilər (*Dipsaceae Juss.*) | 5 | 16 | Qantəpər (Cephalaria Schrad.ex Roem & Scxhult.), Fırçaoru (Dipsacus L.), Skabioza (Scabiosa L.) | | + | + | |
| Asterkimilər (*Asteraceae Dumort.*) | 89 | 337 | Sığırgözü (*Anthemis* L.), Atpıtrağı (*Arctium* L.), Yatıqqanqal (*Bidens* L.), Güləvər (*Centaurea* L.), Kasnı (*Cichorium* L.), Qanqal (*Cirsium* Hill.), Günəbaxan (*Helianthus* L.), Solmazçiçək (*Helichrysum* Mill.), Birəotu (*Pyrethrum* Zinn.), Yemlik (*Tragopogon* L.), Dəvədabanı (*Tussilago* L.), Pıtraq (*Xanthium* L.), Zəncirotu (*Taraxacum* Wigg.), Göyək (*Echium* L.), Toppuztikan (*Echinops* L.), Andız (*İnula* L. ), Boymadərən (*Achillea* L.), Güləvəri (*Centaurea* L.), Şeytanqanqalı (*Carduus* L.), Yovşan (*Artemisia* L.), Ulaxqanqalı (*Carthamus* L.), Zımbırtikanı (*Eryngium* L.), Tayaotu (*Crepis* L.), Şeytanqanqalı (*Carduus* L.), Şingillə (*Chondrilla* L.), Ziyilsəbət (*Lapsana* L.), Gülümbahar (*Calendula* L.), Südləmə (*Lactuca* L.), | + | + | + | + |
| Sümürgənçiçəklikimilər (*Boraginaceae Adans.*) | 25 | 60 | Əyriçiçək (*Lycopsis* L.), Onosma (*Onosma* L.), Xəndəkotu (*Symphytum* L.), Göyək (*Echium* L.), Anxuza (*Anchusa* L.), köpəkdiliotu (*Cynoglossum* L.), Qovotu (*Cerinthe* L.), Unutma (*Myosotis* L.) | + | + | | |
| Zeytunkimilər (*Oleaceae* L.) | 4 | 8 | Göyrüş (Fraxinus excelsior), Adi yasəmən (Syringa vuigaris, | + | + | | |
| Keçiqulağıkimilər (*Scrophulariaceae Juss.*) | 18 | 88 | Sığırquyruğu (Verbascum L.), Bulaqotu (Veronica L.), Qaraşəngi (Scrophularia L.), Yuvaotu (Pedicularis L.), Qarabuğda (Melampyrum L.) | + | + | | |
| Bağayarpağıkimilər (*Plantaginaceae Juss.*) | 1 | 7 | Bağayarpağı (*Plantago* L.), | + | + | + | + |
| Ağlarotkimilər (*Lytrhaceae J.St.-Hill*) | 1 | 1 | Ağlarot (*Lythrum* L.), | + | + | | |
| Dalamazkimilər (*Lamiaceae Lindl.*) | 30 | 128 | Çilədağı (*Eremostachys* Bunge), Dalamaz (*Lamium* L.), Qaraqınıq (*Origanum* L), Sürvə (*Salvia* L), Başlıqotu (*Scutellaria* L.), Poruq (*Stáchys* L.), Kəklikotu (*Thymus* L), Dağnanəsi (*Ziziphopa* L.), Boğazotu (*Prunélla* L.), Yarpız (*Méntha* L), Pişiknanəsi (*Nepeta* L.), Flomoides (*Phlomoídes* Moench.), Güləsovu (*Marrubium* L.), Şirquyruğu (*Leonurus* L.), Odotu (*Phlomis* L.), Sığırdili (dirçək) (*Ajuga* L.), Kalafagülü (*Ballota* L.), Məryəmnoxudu (*Teucrium* L.), İyəvər (*Clinopodium* L.). | + | + | + | + |
| Süsənkimilər (*İridaceae Juss.*) | 3 | 23 | Zəfəran (Crocus L. )-Ç (Or.) | | + | + | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Kərəvuzkimilər (*Apiaceae Lindl.*) | 57 | 107 | Dişəvər (*Anthriscus* Pers.), Cacıx (*Chaerophyllum* L.), Zirə (*Carum* L.), Kök (*Daucus* L.), Zımbıqtikanı (*Eringium* L.), Baldırğan (*Heracleum* L.), Keşniş (*Coriandrum* L.), İlankölgəsi (*Ferula* L.), Qazayağı (*Falcaria* Fabr.), dağ keşnişi (*Bifora* Hoffm.) Öküzboğan (*Bupleurum* L.) | + | + | | | |
| Asfodelinakimilər (*Asphodelaceae*) | 2 | 3 | Çiriş (*Eremurus* Bieb.) | | + | + | | |

Naxçıvan MR - sı ərazisində aparılan fenoloji müşahidələr və polinoloji analizlər yerli şəraitdə istehsal olunan balların poliflor bal olduğunu göstərir və aşkar edilən tozcuq çeşidlərinə əsasən nektar qaynaqlarının müxtəlifliyinin çox olduğunu göstərir. Balverən bitkilərin yayılma intensivliyi daha çox orta dağlıq zona üstünlük təşkil etməkdədir. Fəsilələr üzrə təhlil edildikdə balverən bitki qaynaqları içərisində daha çox *Kələmkimilər, Tərəkimilər, Gülçiçəklikimilər, Paxlalıkimilər, Asterkimilər, Sümürgənçiçəklikimilər, Keçiqulağıkimilər, Dalamazkimilər, Kərəvüzkimilər* fəsilələrinə daxil olan bitkilərin dominantlıq təşkil etdiyi görünür. Muxtar Respublika ərazisində balverən bitkilər arasında tərkibi bioloji fəal maddələrlə zəngin, farmakoloji əhəmiyyətli bitkilərin zənginliyi nəzərdən qaçmır. Bu baxımdan *Asterkimilər, Dalamazkimilər, Əməköməcikimilər* və *Fırçaotukimilər* fəsilələrinin bitkiləri daha çox diqqəti cəlb edir. Aparılan fenoloji müşahidələr, əsas nektar gəliri dövrü arıların bu bitkilərin çiçəklərinə daha çox qonduğunu göstərir. Xüsusilə orta dağlıq və dağlıq zonanın bitki örtüyündə bu bitki fəsilələrinə aid bitkilərin zənginliyi və onların çiçəkləmə dövrünün əsas nakter gəliri dövrü ilə eyni vaxta düşməsi, istehsal olunan ballarda bu bitkilərə aid tozcuqların zəngin olmasına səbəb olur. Qeyd edilən bitkilərin tərkibində olan tibbi əhəmiyyətli birləşmələr istehsal olunan balların tərkibinə keçməsinə səbəb olur.

Aparılan fenoloji müşahidələr əməköməncikimilər fəsiləsinin gülxətmi (*Alcea* L.), bəlğəmotu (*Althaea* L.), əməköməci (*Malva* L.); gülçiçəklikimilər fəsiləsinin itburnu (*Rosa* L.), topulqa (*Spiraea* L.), böyürtkən (*Rubus* L.); paxlalıkimilər fəailəsinin gəvən (*Astragalus* L.); fırçaotukimilər fəsiləsinin qantəpər (*Cephalaria* Schrad.ex Roem & Scxhult.); asterkimilər fəsiləsinin kasnı (*Cichorium* L.), qanqal (*Cirsium* Hill), solmazçiçək (*Helichrysum* Mill.), dəvədabanı (*Tussilago* L.), andız (*İnula* L.), boymadərən (*Achillea* L.); bağayarpağıkimilər fəsiləsinin bağayarpağı (*Plantago* L.); dalamazkimilər fəsiləsinin çilədağı (*Eremostachys* Bunge), dalamaz (*Lamium L.*), qaraqınıq (*Origanum* L.), kəklikotu (*Thymus* L.), yarpız (*Mentha* L.); asfodelinakimilər fəsiləsinin çiriş (*Eremurus* Bieb.) və digər fəsilələrə daxil olan bitki növlərinə aid çiçək tozcuqlarının istehsal olunan balların tərkibində müəyyən edilməsi, Naxçıvan balının tərkibinin qiymətli birləşmələrlə zənginliyi və tibbi əhəmiyyəti haqda fikir yürütməyə tutarlı əsas verir.

Mühüm bal verən bitki növlərinin araşdırılması zamanı muxtar respublikanın florasında balverən birki növlərinin yayılma sahələrinin düzənlikdən dağlıq zonaya doğru yüksələn xətt boyunca artımı nüşahidə olunur. Nektarlı bitkilər içərisində növ sayına görə dominantlıq təşkil edən *Asterkimilər* 89 cinsə daxil olan 337 balverən bitki növü ilə ilk sıranı təşkil edir. Aşağı və orta dağlıq zonalarda fəsilənin atpıtrağı (*Arctium* L), yatıqqanqal (*Bidens* L), günəbaxan (*Helianthus* L), solmazçiçək (*Helichrysum* Mill), dəvədabanı (*Tussilago* L), girdəbaş toppuztikan (*Echinops sphaerocephalus* L.), adi qanqal (*Cirsium vulgare* (Savi)Ten.), adi boymadərən (*Achilléa millefólium* L.), əkin güləvəri (*Centaurea cyanus* L.), acı yovşan (*Artemísia absínthium* L.), çöl qanqalı (*Cirsium arvense* (L.) Scop.) orta dərəcəli nektarlı bitkilərə daxil olsalar da ballarının yüksək keyfiyyətli olmasına görə mühüm əhəmiyyət daşıyırlar.

Dalamazkimilər fəsiləsi 30 cinsə daxil olan 128 nektarlı bitki növü ilə təmsil olunur. Bu fəsiləyə daxil olan iriyarpaq çilədağı (*Eremostachys macrophylla* Auch.), ağ dalamaz (*Lámium album* L.), adi qaraqınıq (*Origanum vulgare* L.), qırçınlı sürvə (*Salvia verticillata* L.), dərman poruğu (*Stáchys officinalis* Trevis.), təpəlik kəklikotu (*Thymus collinus* Bieb.), kəklikotuvari dağnanəsi (*Ziziphopa serpyllacea* Bieb.), adi boğazotu (*Prunélla vulgáris* L.) su yarpızı (*Méntha aguatica* L.), pişik pişiknanəsi (*Népeta catária* L.), adi şirquyruğu (*Leonurus cardiaca* L.) kimi mühüm ballı bitkilər yerli şəraitdə istehsal olunan balların tərkibində mühüm üstünlük təşkil edirlər. Xüsusilə təpəlik kəklikotu, adi şirquyruğu, su yarpızı, pişik pişiknanəsi növləri fəsilənin daha çox miqdarda nektar verən bitki növləridir.

Yerli florada paxlakimilər fəsiləsi 46 cinsə daxil olan 256 balverən bitki növü ilə təmsil olunur. Fəsilənin dərinyarpaq gəvən (*Astragalus glycyphyllos* L.), meşə gülülcəsi (*Lathyrus sylvestris* L.), əkin qarayoncası (*Medicago sativa* L.), buynuzlu qurdotu (*Lotus corniculatus* L.), çəmən yoncası (*Trifolium pratense* L.), başıtüklü yonca (*Trifolium trichocephalum* Biel.), dərman xəşəmbülü (*Melilotus officinalis* L. kimi növləri daha çox nektarvermə qabiliyyətinə malik olub, yüksək keyfiyyətli bal istehsalında əhəmiyyətli rola malikdirlər.

Təbii ki, balverən bitkilərin çoxluğuna baxmayaraq bitkilərin nektarvermə qabiliyyətləri bir-birindən fərqlidir. Bu baxımdan muxtar respublikanın yabanı və mədəni florasında yayılmış balverən bitkilərin səmərələliyini müəyyən etmək üçün onlar bal vermə potensiallarına görə 3 qrupda qruplaşdırılmışdır. Bitkilərin balvermə potensialı həmin bitkilərin 1 hektarından toplanan balın miqdarı ilə müəyyən edilir. Birinci qrup bitkilərə 1 hektarından 50 kq-a qədər bal toplanılan, 2-ci qrupa 1 hektarından 50-200 kq bal toplanılan və 3 qrupa 1 hektarından 200 kq-dan artıq bal toplanılan bitkilər daxil edilmişdir. Yüksək məhsuldarlığa malik, bioloji aktiv maddələrlə zəngin balverən bitkilər muxtar respublikanın aşağı, orta və yüksək dağ qurşaqlarında müxtəlif bitki formasiyalarının tərkibində və bəzən də özləri geniş əraziləri əhatə edən formasiyalar yaradırlar. Bu bitkilər müxtəlif fəsilələrə daxil olmaqla botaniki cəhətdən də bir-birindən fərqlənirlər. Xüsusilə, *Lamiaceae* fəsiləsinin *Lamium amplexicaule, Salvia officinalis, Thymus collinus, Lamium album, Nepeta cataria, Mentha aguatica, Leonurus cardiaca, Marrubium vulgare* və s.; *Asteraceae* fəsiləsinin (*Echium vulgare, Cirsium arvense, Onopordum bracteatum, Centaurea depressa, Taraxacum afficinale* və s.); Fabaceae fəsiləsinin *Trifolium pratense, Onobbrychis sp, Vicia eleqans, Melilotus officinalis* və s. növləri bal vermə potensialına görə çoxluq təşkil edirlər. Digər fəsilələrə daxil olan (*Salix alba, Epilobium sp, Paliurus spina-christi, Acer compestre, Elaeagnus angustifolia* və s.) bəzi növlər saylarının az olmasına baxmayaraq yayılmalarına görə geniş əraziləri əhatə edirlər.

Muxtar respublika ərazisində yayılan balverən bitkilərin bal vermə potensialına təsir edən ekoloji amillərin ən yüksək səviyyədə olması, balverən bitkilərin səmərəliliyinin artmasına səbəb olur. Əsasən aşağı, orta və yüksək dağlıq qurşaqlarda yayılan bu bitkilərin bioloji aktiv maddələrlə zəngin, qiymətli dərman bitkiləri olduqları nəzərə alınarsa və bu bitkilərdən arılar vasitəsi ilə toplanan məhsullar arasında müxtəlif bitkilərə məxsus nektar və tozcuğun olması nəticəsində Naxçıvan balının bioloji fəal maddələrin zənginliyi və yüksək keyfiyyətli olmasını əks etdirir.

**ƏDƏBİYYAT**


1. Aydın Əsgərov, Azərbaycanın bitkilər aləmi, Bakı, 2016, s. 444.
2. Bijev, B., 1958. Rıkovodstvo Za Uprajneniya Po *Pçelarstvo*. 27-34. Sofya
3. Costa, MC., Decolatti, N., Godoy, F., 1995. Polen analysis of honeys from the north of San Luis province (Argentina), Kutziana. 24:133-143
4. Çakir, H., 1990. Balikesir Yöresi Ballarinda Polen Analizi, U.Ü.Fen bilimeri Enstitüsü, Y. Lisans Tezi, 77s, Bursa
5. Çakir H., Tümen Gülendam, 1992. Balikesir Yöresi Ballarindaki Dominant ve sekonder Polenler, U.Ü. Fen Bilimleri Enstitüsü Biyoloji Egitimi A.B.D. Bilimsel Raporlar Serisi: 16.
6. Gemici, Y., 1991. İzmir Yöresi Ballarinda Polen Analizi, Doga Tr. J. of Botany 15, 291-296
7. Genç, F., 1990. Arı Ailelerinin Nektar Akımına Hazırlanması, *Tavukçuluk*. Sayı 67, 36-43. Ankara
8. Türkiyenin Nektarlı Bitkileri Polenleri ve Balları Yayınevi: Palme Yayınevi S.S.ı: 352, Basım Yılı: 2008, Basım: 1
9. Vale, AF., Andrada, AC., Aramayo, EM., Lamberto, SA., 1995. Polen analysis of honeys from southwest Buenos Aires Province, Argentina, Investigacion-Agraria, Produccion-y-Protection Vegetales. 10:3, 375-383
10. Jhansi, P., ve Ramanujam, C.G.K. 1987. Polen analysis of extracted and squeezed honey of Hyderabad. Geophytoloji, 17(2): 237-240


**ABSTRACT**


**Elsevar Asadov**
**Mursal Seidov**


**HERB SOURCES OF PRODUCED HONEY BY HONEY-BEE (APIS MELLIFERA L.) IN THE REGION OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**


Phenological observations and polynomial analysis conducted in Nakhchivan Autonomous Republic show that honey produced in local conditions are polypropylene honey and show a number of diversities of nectar sources according to the revealed sorts of pollens. Spreading intensity of melliferous herbs prevails much more in the mid-highlands.

As a result of phenology and polynomial research it was determined that 165 species within to 66 types of the family Brassicaceae Burnett, 153 species within to 30 types of the family Rosaceae Adans., 258 species within to 46 types of the family Fabaceae Lindl., 60 species within to 25 types of the family Boraginaceae Adans., 337 species within to 89 types of the family Asteraceae Dumort., 88 species within to 18 types of the family Scrophulariaceae Juss., 128 species within to 30 types of the family Lamiaceae

Lindl., 107 species within to 57 types of the family Apiaceae Lindl. melliferous herbs organize the main nectar sources of honey produced by the honey bee (Apis Mullifera L.) in Nakhchivan Autonomous Republic conditions. These herbs are generalized to medium and large quantities melliferous herb group due to nectar potential.


**РЕЗЮМЕ**

**Эльсевар Асадов**
**Мурсал Сеидов**

**ИСТОЧНИКИ РАСТЕНИЙ МЕДА ПРОИЗВОДИМОЙ МЕДОНОСНОЙ ПЧЕЛОЙ ( *APIS MELLIFERA L.*) В ТЕРРИТОРИИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ**

Разнообразие источников нектара основано на анализе разновидностей смазок. В интенсивностях распространения сотовых растений преобладают более умеренные средние горные зоны. В результате фенологических и полинологических исследований определено полифлорность медов и выявлено что, основными нектарными источниками меда, производимого медоносной пчелой (*Apis Mullifera* L.) в Нахчыванской Автономной Республике являются виды из нижеуказанных семейств:

*Brassicaceae Burnett. (Капустные)*- 165 видов относящихся к 66 родам, *Rosaceae Adans*. (Розоцветные)- 30 родов и 153 видов, *Fabaceae Lindl*. (Бобовые) - 46 родов 258 видов, *Boraginaceae Adans*. (Бурачниковые) 25 родов и 60 видов, *Asteraceae Dumort*. 89 родов и 337 видов, *Scrophulariaceae Juss*. 18 родов и 88 видов, *Lamiaceae Lindl*. (Губоцветные) 30 родов и 128 видов, Apiaceae Lindl. 57 родов и 107 видов. По нектарным потенциалам эти растения относятся к экологическим группам средним и большим количеством медоносных растений.

**FƏRİDƏ SƏFƏROVA**
*safarova 05@mail.ru*
*Naxçıvan Dövlət Univesiteti*

# NAXÇIVAN MR FLORASININ *SCROPHULARIACEAE* JUSS. -- KEÇİQULAĞIKİMİLƏR FƏSİLƏSİNİN ZƏHƏRLİ NÖVLƏRİ.

**Açar sözlər:** *Keçiqulağıkimilər fəsiləsi, Üskükotu, Qarabuğda, Çınqıllıqotu*
**Key words:** Scrophulariaceae Juss**.,** Digitalis L.Melampyrum L.Rhinanthus L
**Ключевые слова:** Scrophulariaceae Juss**.,** Digitalis L.Melampyrum L.Rhinanthus L

Fəsilənin Yer kürəsində 210 cinsi və 3000 - dən çox növü, Azərbaycan florasında isə 23 cinsdə təmsil olunmuş 160 növünə rast gəlinir. Naxçıvan MR-nin florasında 18 cinsə daxil olan 88 növü vardır ki, bunlardan da 6 cinsə daxil olan 13 növündə zəhərli birləşmələr aşkar edilmişdi [1,s.188-192; 5,s.146-150]. Fəsilənin cinslərinin yarıdan çoxu çəmən, çöl və savanna bitkilərinin yarımparazitləridir. Onlarda fotosintez prosesi gedir, lakin suyu və qidalı maddələri yapışdıqları bitkinin – sahib bitkinin köklərindən alırlar. Onlardan bir çoxu, məsələn; Çınqılotu (*Rhinanthus*) və Çatılotu (*Euphrasiya*) çinsinin nümayəndələri çəməndə məhsuldarlığı çox aşağı salır, fakültativ parazitliklə obliqat parazitlik arasında bütün keçidləri müşahidə etmək olur. Bu baxımdan keçiqulağıkimilər fəsiləsi maraqlı tədqiqat obyektidir.

Bu fəsiləyə aid olan bitkilərin çiçəkləri adətən müntəzəm, bəzən isə qeyri - müntəzəmdir. Kasacığı 4-5 dərin bölümlü olub, bəzən 2 yarpaqlıdır. Tacı 4-5 dilimlidir, adətən 2 dodaqlıdır, yuxarı dodağı 2, aşağı dodağı isə 3 bölümlüdür. Erkəkciyi 4, nadir halda 2 və ya 5-dir. Yumurtalıq yuxarıdır, adətən 2, bəzən isə bir yuvalıdır. Sütuncuğu sadə olub, tam kənarlı və ya ikidilimli ağızcığa malikdir. Meyvəsi qutucuqdur. Toxumu çoxsaylıdır. Nümayəndələri ot, bəzən kol və ya ağac bitkiləridir.

Genus: *Digitalis* L. – Üskükotu cinsinin Naxçıvan MR-də bir növü *Digitalis ferruginea* L. - Paslı üskükotu yayılıb. Bitki hündürlüyü 60 - 150 sm olan çoxillik zəhərli ot bitkisidir. Gövdəsi tək və budaqlanmayandır. Çiçək qrupu uzun sümbülvari çılpaq salxımdan ibarətdir. Çiçəyin tac yarpaqları zəng şəklində olub, iki dodaqlıdır. Üst dodaq böyük və sallanandır. Tac yarpaqları pas rəngində olduğundan paslı üskükotu adlanır. İyul - avqust aylarında çiçək açır. Çiçəyin salxımları üzərində çoxlu yarpaq olur. Yarpaqlar tünd yaşıl rəngdə olub, lent şəklindədir. Gövdə döşəməsində rozet şəklində və gövdə üzərində isə ardıcıl olaraq düzülmüşdür. Meyvələri qutucuqdur. *Digitalis ferruginea* L. - Paslı üskükotunun tərkibində ürəyə daha çox təsir edən glikozitlər olduğu üçün insan və heyvanlara mənfi təsir göstərir. Məsələn; 40 qr təzə, 10 qr quru yarpağın alınmasıyla insanlarda ölümlə nəticələnən zəhərlənmələr baş verir. Yarpaqları təbii dərman istehsalında istifadə edilir. Çox zəhərli olduğuna görə çayını qətiyyən içmək olmaz. Tarixdə ilk dəfə V yüzillikdə İrlandiyalılar tərəfindən şəfa məqsədi ilə istifadə edilməyə başlanmış və ilk təcrübələri William Withering 1785-ci ildən əvvəl bədəninin su toplamasına qarşı, sonrada ürək narahatlıqlarına qarşı istifadə edilmiş və onu digər araşdırmalar izləmişdir. Bir çox ölkələrdə mədəni bitki kimi yetişdirilməkdədir. Tərkibində Cardeolid glikozitler 50,5-1,5 arasında olub ən əhəmiyyətliləri; αvə β-asetildigitoxin, α/β-asetildigoxin, α/β-asetilgitaloxin,α/β-asetilgitoxin, lanotoxid A, B, C,D və E,digoxin, gitoxin, gitaloxin, glikodifucasid, gluko-verodoxin, glucolanaloxin vardır. Bunlardan ən yüksək dərəcədə lanatosid C maddəsidir ki, bundan da sintetik yollarla digoxin, α-asetildigoksin, β-asetildigoksin və β-metildigoksin əldə edilər [5,s.146-150; 3, s.131-133].

Genus: *Melampyrum* L. – Qarabuğda cinsinin Azərbaycanda və Naxçıvan MR-də 3 növü var. Bunlardan hər üçü *M. arvense* L. - Çöl q., *M. caucasicum* Bunge - Qafqaz q., *M. chlorostachyum* Beauverd - Yaşılsümbül qarabuğdası otlaqların zəhərli, yarımparazit bitkilərdir.

*Melampyrumcaucasicum* Bunge - Qafqaz qarabuğdası, birillik, üzəri sıx qısa tükcüklü bitkidir. Gövdəsi düz, sadə və şaxəli, 20-40 sm hündürlüyündədir. Yarpaqları qarşı - qarşıya düzülür və adətən saplaqsız olur, lansetvari və tam kənarlıdır. Çiçək qrupu çox sıx sümbülvaridir. Çiçəkaltı yarpaqları çox iri, ovalvari, yaşıl və ya qırmızımtıl rənglidir. Kasacığın aşağı hissədən çılpaq, yuxarı hissədən uzun ağ tükcüklərlə örtülüdür. Kasacığın dişləri bizvaridir. Tacı 2 - 3 sm uzunluğunda açıq sarı və ya tund - qırmızı rəngdədir. Qutucuğu uzunsov - ellips şəklindədir. Orta və yuxarı dağ çəmənlərində və zibilli yerlərdə bitir.

*Melampyrum arvense* L. - Çöl qarabuğdası 15-50 sm hündürlüyündə üzəri sıx tükcüklü birillik bitkidir. Yarpaqları saplaqsız və lansetvaridir. Çiçəkqrupu çox sıx və slindir şəklindədir. Çiçəkaltlıqları adətən tünd - qırmızı və ya ağımtıldır, yastıdır, uzunsov- yumurtavaridir, aşağı hissəsində daraq şəkili əmələ

gətirib. Tacı tünd - qırmızı və ağamtıl - sarıdır. Kasacığın dişləri biz şəklində və tacın borucuğuna bərabərdir. Qutucuğu uzunsov və düzdür. İyun - iyul aylarında çiçəkləyir, iyul - avqust aylarında isə toxumlayır.

Qarabuğda növlərinin başlıca olaraq toxumu zəhərlidir. Ümumiyyətlə qarabuğdanın təsiredici maddəsi qlikozid xarakterli şiddətli zəhər olan pinantin və dultsit hesab olunur. Qarabuğda növləri otlaqlarda adətən heyvanlar tərəfindən yeyilmir. Tədqiqatımıza əsasən yaş halda Qafqaz qarabuğdasının çiçəyi, yarpağı və gövdəsində kifayət qədər alkolid var. Quruduqda isə onun tərkibində alkaloidin miqdarı qismən azalır. Bitkinin hər iki növü otlaqlarda yeyilmir, zəhərli və zərərli alaq otu hesab olunur [3, s.134-135].

Genus: *Pedicularis* L. - Yuvaotunun Azərbaycanda 6 növü, Naxçıvanda isə 5 növü bitir. Bu növlərin hamısı tərkibində alkaloid daşıyır. *Pedicularis caucasica* Bieb. - Qafqaz yuvaotu 5 - 15 sm hündürlüyündə çoxillik bitkidir. Gövdələri tək - tək və ya 2 - 3 olmaqla düzduran və ya əyilib - qalxandır. Kökyanı yarpaqları saplaqlı və dəstəvaridir. Çiçəkləri çiçək qrupu təşkil edir. Kasacığı 9 - 11 mm uzunluğunda silindirvari, üzəri uzun tükcüklü və dişvari bölümlüdür. Tacı 17 - 20 mm uzunluğunda, sarımtıl ağ və ya açıq bənövşəyi rənglidir. Qutucuğu uzunsov neştərvari, 8 – 12 mm uzunluğundadır. İyun - avqust aylarında çiçəkləyir və toxumlayır. Naxçıvan MR - də əsasən alp çəmənlərində bitir, Qafqaz yuvaotundan başqa *P. condensata* Bieb. - Yığcam y., *P. crassirostris* Bunge - Şişburun y., *P. sibthorpii* Boiss. - Sibtorp y., *P. wilhelmsiana* Fisch. ex Bieb. - Vilhelm yuvaotu növləri də yayılmışdır. Onların hamısı çoxillik yarımparazit bitkilərdir. Köklərinin ucundakı adətən bir - iki sorucu kökləri (qaustorin) ilə sahib bitkinin kökünə yapışıb və qida maddələrini ondan alır.

Yuvaotu növlərinə zəhərlilik başlanğıcı verən toxumunun tərkibində olan pinantin qlikozididir. L.M. Kleçetoviç və A. M. Vilnerin fikrincə yuvaotu növləri aşındırıcı xüsusiyyətə malikdir və yeyilməsi nəticəsində heyvanların sidiyində qan olur, mədə və bağırsağında qan axma və qusma baş verir. Yuvaotu növləri qoyunlar üçün daha təhlükəlidir. Adətən yuvaotu növlərini heyvanlar otlaqda və biçilmiş ot halında yemirlər. Yığcam və sibtrob yuvaotu təhlil edilərək çiçəkləmə və toxumlama fazasında kök və gövdəsində çox miqdarda, yarpaq, çiçək və toxumunda isə az miqdarda alkaloid olur, quruduqda isə yarpaq, çiçək və toxumunda alkaloidlər olmur. Yığcam yuvaotunda yaş halda çiçəkləmə və toxumlama fazalarında, yalnız toxumundan başqa bütün hissələrində alkaloid olur. Quruduqda isə kökündən başqa bütün hissələrində alkaloidlərin miqdarı azalır. Bitkinin növlərindən xalq arasında sidikqovucu və baytarlıqda parazitləri qırmaq üçün dərman kimi istifadə olunur [5,s.146-150].

Genus: *Rhinanthus* L. – Çınqıllıqotu cinsinin Naxçıvan MR-də 2 növü *Rhinanthus vernalis* (N. Zing.) Schischk. - Yaz çınqıllıqotu və *Rh. minor* L. - Kiçik çınqıllıqotu bitir.

*Rhinanthus vernalis* (N. Zing.) Schischk. - Yaz çınqıllıqotu 15-50sm hündürlüyündə birillik bitkidir. Gövdəsi düzduran, buğumaraları uzanmış, üzəri zəif tükcüklüdür. Yarpaqları buğumlardan qısadır, qarşı-qarşıya düzülür, saplaqsızdır. Yarpaq ayaları uzunsov – neştərvaridir. Ucu bir qədər nazikdir. Kasacığı çılpaq, üçkünclü dişli, 13-15mm uzunluğundadır. Tacın uzunluğu 15-20mm uzunluğunda və açıq sarı rəngdədir. Qutucuğu və toxumu ovalvaridir. İyul - avqust aylarında çiçəkləyir və toxumlayır. Naxıçıvan MR-in dağ çəmənlərində və meşə kənarlarında bitir. Çınqıllıqotu növlərinin tərkibində, xüsusilə toxumunda, pinantin qlükozidi olmasını göstərirlər, alkaloidin olmasına dair müxtəlif rəylər var. A. P. Orexov, S. S. Norkina və N.A. Paxareva çınqıllıqotu növlərinin tərkibində alkaloidlər olmasını qeyd edirlər. Azərbaycan şəraitində aparılan tədqiqatlar (B.M. Pobedina, V.Ş. Quliyev) isə onun tərkibində alkaloidlərin olmamasını göstərir. Azərbaycanın yay otlaqlarında çınqıllıqotu növləri heyvanlar tərəfindən körpə ikən az miqdarda yeyilir. Çiçəklədikdən sonra isə kobudlaşır və heyvanlar tərəfindən qətiyyən yeyilmir. Ot tərkibində onun çox miqdarda qarışığı mal - qara üçün təhlükəli olması göstərilir, heyvanların zəhərlənməsi baş verə bilər. Çınqıllıqotu toxumunun məhlulundan parazitləri qırmaq üçün istifadə edilir [30, s.135-136].

Genus: *Scrophularia* L. - Qaraşəngi cinsinin növləri kəskin pis qoxulu, tərkibində saponinli birləşmələr olan çoxillik, ot bitkisidir. Naxçıvan MR-də 15 növü var, onlardan *Scrophularia nodosa* L. - Buğumlu qaraşəngi zəhərlidir.

O, 40-120 sm hündürlüyündə üst tərəfləri az çəngəlləşən, gövdəsi tünd yaşıl rəngli dördbucaqlı və tüksüzdür. Yarpaqları qarşılıqlı bir sonrakı ilə çarpaz oval və ya uzun yumurta şəklində, kənarları kəsikli, tünd yaşıl rəngli, yarpaq saplaqları olduqca qısa alt yarpaqları 10-20 sm uzunluğunda 5-10 sm enində olub və yuxarıya doğru yarpaqları kiçilir. Çiçəkləri bitkinin uc hissəsindəki budaqlarının üzərinə salxım kimi düzülmüş, ağzı açıq tacları qəhvəyi rəngində və tacları qıvrılan qıfşəkillidir. Kökləri qara rəngli olub, düyünlənmiş kürəşəkillidir. Bu səbəblə buğumlu qaraşəngi deyilir. Nəmli kolluqlarda və kölgə yerlərdə yetişir[3, s.133-134].

Genus: *Verbascum* L.(Celsia L.) - Keçiqulağı, Sığırquyruğu cinsinin Azərbaycanda 25, Naxçıvanda isə 21 növü var[1, s.91-92]. Bunlardan *Verbascumpyramidatum* Bieb. - Piramidvari keçiqulağı zəhərlidir. Bu bitkilərin toxumları zəhərli, gövdəsi və yarpaqları tükcüklərlə əhatə olunduğundan otlaqlarda, istərsə də ota qarışıq halında heyvanlar tərəfindən yeyilmir. Daha çox əkilməmiş yerlərdə və yol kənarlarında yayılır. *Verbascumpyramidatum* Bieb. - Piramidvari keçiqulağı növü ikiillik ot bitkisi olub, gövdəsinin hündürlüyü

50 - 150 sm, düzqalxan, silindrik, bütünlüklə sıxyarpaqlı, yumşaq, bozumtul və ya sarımtıl tükcüklü olub, bəzən gövdənin zirvəsi budaqlanır. Kökətrafı yarpaqları saplaqlıdır. Yarpaqlarının uzunluğu 15-25(35) sm, eni isə 4-10 sm, uzunsov - ellipsşəkilli, küt və iridir. Gövdənin aşağı yarpaqları qısa saplaqlı və ya oturaq, uzunsov və ya tərsyumurtavari-uzunsovdur. Gövdənin orta yarpaqları oturaq, yumurtavari, iti, əsası demək olar ki, ürəkvaridir. Gövdənin yuxarı yarpaqları enli yumurtavari və itiucludur. Çiçəkləri sıx, sünbüləbənzər fırçalı olub, bəzən yanlardan budaqlanır. Çiçəkləri 4-8 ədəd olmaqla, dəstəlidir. Aşağı çiçəkləri ürəkvari əsasa malik, enli yumurtavari və ya yumurtavari - üçbucağabənzərdir. Kasacığı demək olar ki, bölümlü, yumurtavari – neştərvari və ya neştərvari, kəskin və ya qısa itiucludur. Çiçək tacı sarı rəngli 35-55 mm diametrli, yastı, xaricdən ulduzabənzər sapabənzər tükcüklərdən ibarətdir. İki ön erkəkcikləri çılpaq, üç arxada yerləşən sarımtıl əmziyəbənzər tükcüklərdən ibarətdir. Gövdənin əsası azacıq tüklü olub, yuxarı hissəsi qalınlaşmışdır. Qutucuğu enli ellipsvari-yumurtavari, 5-8 mm uzunluğunda, zirvəsi tikanlıdır. Çiçəkləri uçucu yağ və glikozitlər daşıyır. Meyvələri yumru olub, çox toxumludur. Yarpaqları saponin, efir yağı, piylər, sərbəst turşular (alma və fosfat), selik, sarı piqment, sirkə turşusu, kalium və digər duzlar daşıdığından taclarını toplayıb, kölgədə qurudub tərlədici, bəlğəm sökdürücü, sidik artırıcı, sinə yumşaldıcı və qəbizedici olaraq xalq təbabətində istifadə edilir. Bunlar balıqlar üçün zəhərli olub, balıq ovlamada istifadə edilir[3, s130-131].

## ƏDƏBİYYAT


1. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri, Naxçıvan: Əcəmi NPB, 2008, 364 s.
2. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikası florasının Qırmızı Kitabı, c. II, Naxçıvan: Əcəmi, 2010, 677 s.
3. Quliyev Ə.M., Quliyev V.Ş. Azərbaycan yaylaqlarının zəhərli və zərərli bitkiləri və onlarla mübarizə tədbirləri, Bakı: Azərnəşr, 1961, 184 s.
4. Quliyev Ə.M., Quliyev V.Ş. Azərbaycanın yay otlaqları və onları yaxşılaşdırma yolları, Bakı: Azərnəşr, 1962, 165 s.
5. Talıbov T.H.,Səfərova F.A. Naxçıvan Muxtar Respublikası florasının zəhərli bitkiləri, Naxçıvan: NPB, 2017, 232 s.


## ABSTRACT


**Farida Safarova**


**İN THE FLORA OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC *TOXICA* SPECIES OF FAMILIES *SCROPHULARIACEAE* JUSS**


In the world families *Scrophulariaceae* Juss. represented in the type of 210 genus 3000 species, of the flora Azerbaijan come across 23 genus 160 species. İn the flora Nakhchivan Autonomous Republic 18 genera 88 species, of the 6 genera 13 species compounds were which is toxic found. More than half of the breed grass, steppe and savanna are half parasite of plants. It is the process of photosynthesis in plants, but buy water and nutrients, the roots of the plant they are clinging.


## РЕЗЮМЕ


**Фарида Сафарова**


**ТОКСИКЕСКИЙ ВИДОВ *SCROPHULARIACEAE* JUSS. НА ФЛОРЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСРУВЛИКА**


На Земле семейстство *Scrophulariaceae* Juss. 210 рода и более 3000 видов, в Азербайджанской флоре распространяется 23 роде 160 вида. В флоре Нахчыванской АР 18 родов 88 видов, из которых 6 роде 13 вида были обнаружены ядовитые соединения. Более половины семейстство *Scrophulariaceae* Juss. паразиты саванна, луговых и степных растений. В них идет процесс фотосинтеза, но воду и питательные вещества получают церляется из коренъ растения.

**AKİF MƏRDANLI**
*akifmerdanli@mail.ru*
**TOFİQ ƏLİYEV**
*tofiqeliyev@mail.ru*
**FƏRMAN XUDAVERDİYEV**
*fermanxudaverdiyev@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

## SUYUN XASSƏLƏRİ VƏ ONUN BİTKİ HÜCEYRƏSİNƏ DAXİL OLMASI

Miqdarına görə bitki hüceyrəsinin kimyəvi komponentlərindən biri də sudur. Orqanizmdə biokimyəvi reaksiyaların getməsi üçün mühit, həm də fotosintez prosesində substrat rolunu oynayır. Bitkilərin orqanlarında (xüsusən toxumlarda) suyun miqdarı azaldıqda maddələr mübadiləsi çox zəifləyir. Hüceyrələrdə suyun miqdarı onun tipindən və fizioloji vəziyyətindən asılı olaraq sabit olmayıb dəyşilir.

Su bitki orqanizmində yerinə yetirdiyi proseslərdən biri də həll olunan maddələri bir hüceyrədən digər hüceyrəyə keçirir bir sözlə daxili mühit yaradır, eləcə də orqanizmdə temperaturu tənzimləyir. Bitkilərin orqanlarının turqor vəziyyətini saxlanması təmin edir. Eləcə də su yüksək dərəcədə istilik tutumu və istilik keçiriciliyinə malikdir. Bu baxmından böyük su tuturlarda su bitkilərinin yaşaması üçün əlverişli şərait yaranır.

Suyun mühüm fizioloji xassələrindən biri də onun elektromaqnit spektrinin görünən sahəsi üçün tam şəffaf olmasıdır. Bunun nəticəsi olaraq günəş şüaları yarpaqlardakı xloroplastlara eləcə də okeanların aşağı təbəqələrində yaşayan bitkilərə asanlıqla çatır. Bitki hüceyrələrində su, oksigen və hidrogen mənbəyi rolunu oynayır. Həm də energetik reaksiyalarda xüsusən ATF-nin əmələ gəlməsində də iştirak edir.

Suyun fizioloji cəhətdən ən mühüm xassələrindən biri də onun qazları həll etməsidir.

Bitkilərdə su sərbəst və birləşmiş formada olur. Protoplazmanın hidrofil kolloidləri və osmotik aktiv maddələr tərəfindən saxlanan suya birləşmiş su deyilir. Bu su forması protoplazmanın hidrofil kolloidlərinin strukturunu möhkəmləndirir.

Birləşmiş su həlledicilik qabiliyyətini itirdiyinə görə bitkidə çevrilmə və hərəkət kimi proseslərdə iştirak etmir.

Sərbəst su isə bitkinin bütün həyati proseslərinin getməsində iştirak edən əsas mühiti təşkil edir. Suyun bitkilərdə bü cur qruplara ayrılması nisbi xarakter daşıyır.

Bitki qocaldıqca onun toxumalarında suyun miqdarının azalmasına səbəb olur. Bunun nəticəsi olaraq bitkinin müxtəlif yaşıl yarpaqlarında suyun miqdarı eyni səviyyədə qalmır. Ot bitkilərində su xüsusən orqanları turqor vəziyyətində saxlayır. Bitkidə suyun normal miqdarı azaldıqda onun struktur formasının pozulması müşahidə edilir.

Bitkilər tərəfindən torpaqdan suyun udulması, əsasən osmos təzyiqi vasitəsilə həyata keçirilir.

Bu və ya digər məhsulun osmos təzyiqi (P), onda həll olan hissəciklərin qatılığının (S) funksiyasıdır. Qeyri-elektrolitlər üçün osmotik təzyiqi aşağıdakı formula ilə hesablamaq olar.

$$P=S\cdot T\cdot \text{ və ya } P= C\cdot 22{,}4 \ (0^{o}\ C\ (0^{o}\ S \text{ temperaturda})$$

burada: S- həll olmuş maddənin qatlığı - mol\l

T - mütləq temperatur

R - qaz sabiti - 0,082 l.atm. dərəcə $mol^{-1}$

Osmotik təzyiqlə suyun vakuola daxil olması nəticəsində, hüceyrənin daxilində hidrostatik təzyiq yaranır. Belə təzyiqə turqor (P) təzyiqi deyilir. Bu təzyiq sitoplazmanı hüceyrə qılafına sıxır və qılafın gərilməsinə səbəb olur. Dartılmış hüceyrə qılafı da əks təzyiq (W) göstərir. Turqor təzyiqi əks təzyiqə bərabər olduğundan P= W yazmaq olar. Turqor təzyiqi = qılafın təzyiqi.

Suyun osmos təzyiqi vasitəsilə vakuola daxil olması üçün lazım gələn təzyiq, osmos təzyiqlə, turqor təzyiqinin fərqinə bərabərdir. Bu fərqə sorucu qüvvə deyilir.

$$S = \Pi - P$$

Potensial osmotik təzyiq (Π) hüceyrənin sorucu qüvvəsindən (S) az olduqda xarici məhluldan su vakuola daxil olur, əksinə böyük olduqda isə su vakuoldan xarici mühitə çıxır. Bu hadisədən toxumaların sorucu qüvvəsini təyin etmək üçün istifadə edilir.

Toxumaların tərkibinə daxil olan hüceyrələrdə sorucu qüvvə, ətrafdakı hüceyrələrin təzyiqi nəticəsində azalır (xarici təzyiq A).

$$S = \Pi - (P + A)$$

Xarici təzyiqin toxumaların gərilməsi zamanı əyani nümayiş etdirmək olar.

Bitki hüceyrəsi tərəfindən suyun udulmasına termodinamiki izah edilən zaman (Yw) «sorucu qüvvə» anlayışı, «suyun potensialı» anlayışı ilə əvəz olunur.

Suyun hər hansı yerdəki, məsələn; vakuoldakı kimyəvi potensialı ilə (mw) normal atmosfer təzyiqində təmiz suyun kimyəvi potensialı (mol) arasındakı fərqi göstərir. Buna baxmayaraq mw və Pow kəmiyyətlərinin mütləq qiymətləri məlum deyil. Ancaq onların fərqini (mw - mol) təyin etmək mümüküндür. Fərq mənfi olur.

Aydındır ki, kimyəvi potensial erq×mol-1-lə ölçülür. Suyun potensialını təzyiq vahidləri ilə ifadə etmək üçün (dina×sm-2 erq×sm-3, belə ki, 1 dina erq sm1) potensi-allar fərqini, suyun potensial molyar həcminə (mol×sm-3-ə ölçülür) bölmək lazımdır.

$$Yw = \frac{mw - mow}{Vw}$$

Bu formada parsial molyar həcm (Vw) sabit hesab olunur. Lakin Yw isə həmişə mənfi qiymət alır.

Hüceyrənin həyat fəaliyyəti onu əhatə edən mühit və qonşu hüceyrələrlə əlaqəsindən asılıdır. Təcrübələrin nəticələri göstərir ki, hüceyrələrin maddələri udması və ya xarici mühitə çıxarması prosesində diffuziya və osmos mühüm rol oynayır. Dispersiya olunmuş maddənin dispers sistemin bir hissəsindən digər hissəsinə hərəkət etməsinə diffuziya deyilir. Diffuziya qaz və ya maye molekullarının xaotik hərəkəti olmayıb, bir sıra amillərin təsiri ilə müəyyən olunan istiqamətli hərəkətdir.

Diffuziyanın hərəkəti diffuziya edən molekulların aktivliyindən məhlulların konsentrasiyasından asılıdır.

Hər hansı maddənin diffuziya sürəti onunla bir məhlulda olan başqa birləşmələrin kimyəvi tərkibindən və xassələrindən asılıdır.

Diffuziya olunan maddələrin qarşısına yarımkeçirici bir pərdə qoyularsa diffuziyanın sürəti xeyli azalır. Həll olunan maddələrin pərdədən diffuziyasına osmos deyilir. Osmosun sürəti pərdədəki məsamələrin diametrindən asılı olacaqdır. Məsamənin diametri nə qədər kiçik olarsa, osmosun sürəti bir o qədər azalar.

Məlumdur ki, bir-birinə diffuziya edən maddələrin konsentrasiyası bərabərləşənə və yarımkeçirici pərdədə müvazinət əmələ gələnə kimi məhlul pərdəyə müəyyən təzyiq göstərəcəkdir. Bu prosesdə əmələ gələn təzyiqə osmos təzyiqi deyilir. Məhlulların osmos təzyiqini ölçmək üçün işlədilən cihaz osmometr adlanır.

Qatılığı hüceyrə şirəsinin qatılığına bərabər olan məhlula izometrik məhlul, qatılığı hüceyrə şirəsinin qatılığından artıq olan məhlula hipertonik məhlul, qatılığı hüceyrə şirəsinin qatılığından az olan məhlula isə hipotonik məhlul deyilir.

Həll olunmuş maddənin yarımkeçirici pərdədən hüceyrənin daxilinə diffuziya etməsinə endoosmos, hüceyrə şirəsinin qılafdan xaricə diffuziya etməsinə ekzoosmos deyilir.

Pfeffer məhlulların osmos təzyiqini ölçmək üçün çöküntü kolloid pərdəsindən istifadə etmişdir. Çöküntü pərdələrindən ən çox kolloid halında olan dəmir-sianid-mis öyrənilmişdir. O tam yarımkeçirici olduğundan osmometr üçün ən əlverişli maddə sayılır.

Osmometr hazırlamaq üçün Pfeffer məsaməli çini silindr götürərək, ona mis sulfat məhlulu doldurduqdan sonra sarı qan duzunun məhluluna salır. Silindrin daxilindən mis sulfat, xaricdən isə sarı qan duzu məhlulu qarşı-qarşıya diffuziya edərək divarların məsamələrində dəmir-sianid-mis çöküntüsü əmələ gətirir. Məsamələri bu yarımkeçirici kolloid çöküntüsü ilə ödolmuş silindrdən osmosetr hazırlanır. Bunun üçün həmin silind probka vasitəsilə civə manometri ilə birləşdirilir.

Osmos təzyiqi təyin ediləcək məhlul silindrə tökülür və silindirn ağzı qapanaraq suya salınır. Suyun silindrə endoosmos nəticəsində daxildə əmələ gələn hidrostatik təzyiq civə sütununun manometrlə yuxarı qalxan civə sütunu da məhlulun osmos təzyiqini göstərir.

Pfefferin tərəfindən hazırlanmış osmometr öz quruluşu etibarı ilə hüceyrəyə oxşadığından bir sıra tədqiqatçılar onu süni hüceyrə adlandırırlar. Burada hüceyrənin qılafını silind, protoplazmasını dəmir-mis-sianid kolloidi, hüceyrə şirəsini isə məhlul əvəz edir.

Təbiidir ki, süni hüceyrəni canlı bitki hüceyrəsi ilə eyniləşdirmək olmaz.

Məhlulların osmos təzyiqini təyin etmək üçün, qazlarda olduğu kimi Klapeyron tənliyindən PV = RT istifadə edilir.

Burada P- məhlulun osmos təzyiqini, V - 1 qram-molekula maddənin həll olduğu mayenin həcmini, T - mütləq temperaturanı, R - isə qaz və məhlulları üçün eyni konstantı (0,082) ifadə edir. Bu tənliyə görə maddənin litrində 1 qram-molekulası olan məhlulun 20ºS -də təzyiqi 22,4 atmosferə bərabər olur. Bu tənliklə istənilən məhlulun osmos təzyiqini təyin etmək olar. Lakin, bu tənlik yalnız zəif məhlulların osmos təzyiqini düzgün təyin edir.

Hüceyrənin daxili möhtəviyyatının qılafa təzyiqi nəticəsində qılaf dartılaraq əks təzyiq göstərir. Belə halda hüceyrələr gərginləşir və bir-birinə bərk yapışır ki, bu da bitkinin orqanlarına möhkəmlik verir.

Bitki hüceyrələrinin belə gərginləşmiş vəziyyətinə hüceyrənin turqor halı deyilir. Turqor bitkinin həyatında mühüm rol oynayır. Belə halda bitkinin orqanları şax vəziyyətdə durur. Həyati proseslər normal gedir, mühit amillərinin mənfi təsirinə qarşı orqanlar davam gətirir.

Hüceyrə şirəsinin qatılığı onu əhatə edən mühitin qatılığından az olarsa o zaman hüceyrənin daxilində olan su xaricə çıxır. Nəticədə hüceyrənin protoplastı qılafdan aralanır. Hüceyrənin bu vəziyyətinə onun plazmoliz halı deyilir.

Əgər hüceyrəni əhatə edən mühitdəki məhlulun qatılığı yenidən zəifləyərsə bu zaman əks proses gedəcəkdir. Onda endoosmos baş verir. Bu halda da proto-plazma yenidən öz həcmini genişləndirərək hüceyrə divarlarına doğru yaxınlaşacaqdır. Buna deplazmoliz halı deylir. Nəticədə turqor halı yaranır.

Bitkilərin müxtəlif ekoloji qruplarında osmos təzyiqinin qiyməti eyni olmur.
Təcrübələrlə təsdiq edilmişdir ki, su bitkilərində osmos təzyiqi 1-3, quru bitkilərin çoxunda 10-15 atmosfer səviyyəsindcə olur. Şəkərlər, üzvi turşular və maddələrlə zəngin olan meyvələrdə osmos təzyiqi 20 atmosferə, bəzilərində isə 40 atmosferə qədər dəyişilə bilir.

Ən yüksək osmos təzyiqi quraqlıq və şoran yerlərdə bitən bitkilərdə qeydə alınmışdır. Onlarda osmos təzyiqi 60-80 atmosferə, bəzi hallarda isə 100 atmosferə çatır.

Maddələr mübadiləsinin gedişindən asılı olaraq osmos təzyiqi sabit qalmayaraq dəyişilir.

## ƏDƏBİYYAT


1. Лебедев С.И. Физиолог Растений Изд. Колос, 1982
2. Нобель П. Физиолог Растительной клетки,Изд. Мир М., 1973
3. Эдуккина Н.И. Физиолог растений, М., Просвещение,1980
4. Həsənov T.H. Bitki hüceyrəsinin fiziologiyası, Bakı, 1986
5. Rubin B.A. Bitki fiziologiyası kursu, Bakı, 1965
6. Qazıyev T.İ. Bitki fiziologiyası, Bakı, 1974
7. Qasımov N.A.,Bitki fiziologiyası, Bakı, 2008


## ABSTRACT


**A. Mardanli, T. Eliyev, F. Chudaverdiyev**


### THE PROPERTY OF WATER AND ITS ENTRY INTO THE PLANT CELL


By quantity, water is one of the important chemical components of a plant cell. Water participates in the process of transporting solutes from one terminal to another, creates an intra-membrane environment and regulates the temperature of the plant.

One of the most important physiological properties of water is the dissolution of gaseous substances in it. B. In a growing organism, water meets in a free and interconnected form.
The combined water lost the ability to dissolve the substance. Therefore, it participates in the processes of transformation and movement of substances in the plant. Free water is the basic environment in which all life processes of a plant occur.


## РЕЗЮМЕ


**А. Марданлы, Т. Алиев, Ф. Худавердиев**


### СВОЙСТВО ВОДЫ И ПОСТУПЛЕНИЕ ЕЕ В РАСТИТЕЛЪНУЮ КЛЕТКУ


По kоличеству вода являемся одним из важных химичесkих kомпонентов растителъной kлетkи. Вода участвует в процессе транспортировсkи растворимых веществ с одной kлемkи в другую, создает внутриkлемогную среду и регулируем температуру растения.

Одним из важнейиих физиологичесkих свойств воды является расстворение в нем газообразных веществ. В.растителъном организме вода встречаетае в свободной и соединенной форме. Соединенная вода потеряла способностъ растворитъ в себе вещества. Потому она участвуеь в процессах превращения и движение веществ в растении. Свободноя вода состаявляст основную среду в kоторой происходит все жизненные процессы растения.

**AYSEL HEYDƏROVA**
*Naxçıvan Dövlət Universiteti*
*aysel8888@gmail.com*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DARIDAĞ MASSİVİ BİTKİLİYİNİN ÖYRƏNİLMƏSİ TARİXİ

**Açar sözlər:** *Naxçıvan florasının tarixi, Qafqazda botaniki tədqiqatlar, Naxçıvanın bitki örtüyü*
**Key words:** *History of Nakhchivan flora, botanical researches in the Caucasus, plant cover of Nakhchivan*
**Ключевые слова:** *История Нахчыванской флоры, ботанические исследования на Кафказе, растительный покров Нахчывана*

Azərbaycanda flora və bitki örtüyünün öyrənilməsi o qədərdə qədim tarixə malik deyildir. İlk vaxtlar Qafqazın bu maraqlı regionuna tək-tək tədqiqatçılar gəlmişlər. Ayrı-ayrı təbiətşünaslar Qafqazın çətin relyef şəraitində yerləşən və hələ öyrənilməyən zəngin təbiətinə səyahət etmişlər.

Azərbaycanda bitki örtüyünün öyrənilməsi və botanika elminin inkişafında akademik A.A.Qrosheymin xüsusi rolu olmuşdur. (1888-1946) (5). 1915-ci ildə ilk dəfə olaraq A.A. Qrosheymin Arazdəyən və Sədərək çölünün bitki örtüyü haqqında materialı dərc olunur. Naxçıvan Muxtar Respublikasının bitki örtüyünü öyrənmək üçün A.A. Qrosheym 1923 və 1926-cı illərdə əraziyə təkrar gələrək buranın zəngin bitki aləmini öyrənməyə başlayır. Toplanılan materiallar Qafqaz florasının yazılmasında böyük əhəmiyyət daşımışdır.1924-1947-ci illərdə Azərbaycanda bütün botanika tədqiqatları əslində A.A.Qrosheymin adı ilə bağlıdır. Bu dövr ərzində botanika tədqiqatları onun rəhbərliyi altında, bilavasitə onun və ya onun şagirdlərinin iştirakı ilə yerinə yetirilmişdir. 1936-cı ildə A.A.Qrosheymin «Qafqaz florasının təhlili» adlı kapital monoqrafiyası nəşr olunur (4).

Azərbaycanın rayonlaşdırılması ilə məşğul olan komissiyanın tapşırığı ilə 1925-ci ildə ilk dəfə olaraq Naxçıvan MR-in torpaqları professor S.A.Zaxarov tərəfindən tədqiq edilir. S.A.Zaxarov yerli torpaqların xüsusiyyətlərini və tədqiq edilmiş sahələrin suvarma mənbələrini müəyyənləşdirir. Həmin ildə Naxçıvan MR-in torpaqlarını öyrənməklə məşğul olan professor respublikanı, əsasən, üç torpaq zonasına ayırır:

1. Arazboyu düzənlikdə yerləşən açıq rəngli torpaqlar.
2. Orta dağlıq hissədəki qonur torpaqlar.
3. Yüksək dağlıq hissədəki şabalıdı torpaqlar.

Professor hər bir torpaq zonasının xüsusiyyətlərini izah etməklə, hər bir zonada hansı kənd təsərrüfatı bitkilərini inkişaf etdirmək haqqında məsləhətlər də vermişdir(2).

Naxçıvan Muxtar Respublikanın özünəməxsus iqlimə malik olması burada eyni tipli bitki zonasının Böyük və Kiçik Qafqazın eyni tipli bitki zonasına nisbətən daha yüksəkdə yerləşməsinə səbəb olmuşdur. Professor L.İ.Prilipko Naxçıvan MR-in ərazisi üzrə iki şaquli zonallıq qurşağının mövcud olmasını göstərir. Birinci qurşaq Naxçıvan Muxtar Respublikanın şimal-şərq və cənub-qərb hissəsi üçün xarakterik olub, yovşanlı yarımsəhraları, friqanə, dağ-bozqır, qariqa və çəmən-bozqır sahəsini, onların keçid senozlarını, nəhayət yüksək dağ bozqırlarını; ikinci qurşaq isə yovşanlı yarımsəhraları, friqanəni, çəmən-kolluğu və meşə senozlarını, sonra isə subalp və alp bitkilərini əhatə edir. İkinci qurşaq respublikanın qismən rütubətli mərkəz hissəsi üçün səciyyəvidir.

Naxçıvan MR-sı üçün meşəsiz birinci şaquli qurşaq daha xarakterikdir. Çünki həmin qurşağın əhatə etdiyi geniş sahələr iqlimin kontinentalllığı və rütubətin çatışmaması nəticəsində çəmənkolluq senozlarından və meşələrdən məhrum olub, kserofit çəmənbozqır və qariqa senozları ilə daha zəngindir ki, bu da ümumiyyətlə, Naxçıvan Muxtar Respublika üçün səciyyəvidir.

1925-ci ildə A.A.Qrossheym Naxçıvanın bitki örtüyünü öyrənmək məqsədilə Naxçıvan şəhəri və Duzdağ ətrafında, sonra Nehrəm kəndi ərazisində tədqiqat aparır. O, Culfadan Dərəşam və Darıdağ istiqamətində tədqiqat işləri apararaq, səyahətini Culfa— Ordubad—Şimali İrana doğru davam etdirir. Naxçıvan MR-in dağlıq ölkə olması bitki örtüyünün də aydın nəzərə çarpan zonalara ayrılmasına səbəb olmuşdur.

Naxçıvan MR-in ərazisi flora cəhətdən xeyli zəngindir. Burada 3000-dən artıq ali bitki növünə rast gəlmək olur. Bu zənginlik birinci növbədə Naxçıvan Muxtar Respublika florasının Aralıq dənizi və Asiya, o

cümlədən İran florası ilə sıx əlaqədar olmasından irəli gəlir. Bunun başqa səbəbi isə ərazidə şaquli zonallığın mövcud olmasıdır.

1930-cu ildən sonra Naxçıvan MR-in təbii şəraitinin öyrənilməsinə daha böyük əhəmiyyət verilir və bu məqsəd üçün bir sıra ekspedisiyalar təşkil edilir. Naxçıvan Muxtar Respublikanın bitki aləmi ilə daha dərindən tanış olub, yeni efirli və kauçuklu bitkiləri aşkara çıxarmaq məqsədilə 1931-ci ildə Naxçıvan MR-ə iki ekspedisiya göndərilir.

1933-cü ildən Naxçıvan Muxtar Respublikanın təbiətini öyrənməyə olan maraq daha da artır, onun kompleks şəkildə öyrənilməsi məsələsi zəruri hal alır. Naxçıvan MR yerli orqanlarının təşəbbüsü ilə SSRİ Elmlər Akademiyasının İstehsal Qüvvələrini Öyrənən Şurası buraya botaniklərdən və geoloqlardan ibarət dəstələr göndərir. Kompleks ekspedisiyanın birinci botaniklər dəstəsi İ.Qaryaginin başçılığı ilə avqust ayında Ordubad rayonunda, ikinci dəstə isə İ.Hacıyevin başçılığı ilə Culfa rayonunun yuxarı hissəsində yem ehtiyatları, həmçinin efirli bitkilərin axtarışı ilə məşğul olur. Hər iki dəstənin işinin yekunları SSRİ EA Azərbaycan filialının əsərlərində dərc edilmişdir. 1933-cü ildə Naxçıvan MR-in florasının öyrənilməsi sahəsində daha bir sıra mühüm tədbirlər görülür ki, bu sahədə A.A.Qrossheym, T.S.Heydman, L.İ.Prilipko, İ.Hacıyev və başqaları böyük fəaliyyət göstərirlər. Həmin il T.S.Heydman “Naxçıvan MSSR Ordubad rayonunun kserofit bitkilərinin xarakteristikası”(6), L.İ.Prilipkonun “Naxçıvan MSSR-in faydalı bitkiləri haqqında məlumat”(3), A.A.Qrossheymin “Qafqaz florasının yeni növləri” və s. kimi qiymətli məqalələri nəşr olunur. 1934-cü ildə Naxçıvan MR-ə SSRİ EA Azərbaycan filialının dörd ekspedisiyası göndərilir. L.İ.Prilipkonun başçılıq etdiyi birinci geobotanik dəstə may və iyun aylarında respublikanın düzənlik, dağətəyi və dağlıq zonalarının bitki münasibətlərini öyrənir. Bu sahələrin bitkilərinə xüsusi diqqət yetirir. A.A.Qrossheymin başçılıq etdiyi digər bir dəstə Şahbuzda yerləşərək ətraf yerlərin florasını öyrənməklə məşğul olur.

Naxçıvan MR-də olan yabanı bitkilərin toxumlarını toplamaq məqsədilə 1935-1937-ci illərdə buraya botanika institutunun ekspedisiyaları göndərilir. İnstitutun əməkdaşları H.A.Quliyevin başçılığı ilə respublikada müxtəlif marşrutlar üzrə toxum toplamaqla məşğul olurlar. Beləliklə, Naxçıvan MR-in bitki aləmi əsasən, 1931 -1937-ci illərdə öyrənilir. 1939-cu ildə S.A.Zaxarovun “Naxçıvan MSSR-in torpaqları” adlı əsəri çapdan çıxır. S.A.Zaxarovun marşrutlar üzrə apardığı tədqiqat işlərinə, həmçinin B.A.Ambokadze və İ.A.Çxenkilinin və A.S.Preobrajenskinin tədqiqatlarına əsasən Naxçıvan MR-in torpaqlarının tiplərini, torpaq əmələ gətirən amilləri müəyyənləşdirir və onların geniş təsvirini, ayrı-ayrı torpaq tiplərinin analizini, mexaniki tərəflərini elmi sürətdə izah edir.

1989-cu ildən sonra Naxçıvan MR Ermənistanın təcavüzkar müharibəsi nəticəsində blokada şəraitində olduğundan, bu regiona başqa yerlərdən heç bir ekspedisiya göndərilməmişdir. Ardıcıl elmi-tədqiqat işləri 1998-ci ilə kimi Ə.Ş. İbrahimov, 1998-2002-ci illərdən isə Ə.Ş. İbrahimov və T.H. Talıbov tərəfindən davam etdirilmişdir. Bu dövrdə aparılmış birgə tədqiqatlar zamanı Naxçıvan MR-in flora spektri işlənib hazırlamış və nəşr olunmuşdur (1).

Beləliklə, son taksonomik, nomenklatur dəyişikliklər və əlavələr nəzərə alınmış, eyni zamanda mədəni floraya aid olan 300-ə qədər növ müstəsna olmaqla ərazi florası üçün T.H.Talıbov və Ə.Ş. İbrahimov tərəfindən 170 fəsilə, 874 cins, 2835 növ müəyyənləşdirilmişdir.

## ƏDƏBİYYAT

1. Tariyel Talıbov, Əliyar İbrahimov Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri, Naxçıvan - 2008, s. 9-18.
2. Səfərəli Babayev, Naxçıvan Muxtar Respublikasının coğrafiyası, Bakı elm-1999, s. 23-33, 65-84
3. Прилипко Л.И. сведения о полезных растениях Нахчеванской АССР.Тр. Аз ФАН СССР, 1936, вып. XXYI, с. 163-173
4. Гроссгейм А.А. Анализ флоры Кавказа, АзФАН СССР, 1939, 230 с.
5. Qrossheym A.A. Azərbaycan florası, Bakı, Azərnəşr, Cild I, 1934, 266 s.; Cild II, 1935, 220 s.; Cild III, 1936, 222 s.
6. Гейдеман Т.С. К характерике скально-ксерофитной растительности Ордубадского р-на Нахчеванской АССР / Тр. Бот. ин. Аз.ФАН СССР, Т.2, 1936, с. 5-22.

**ABSTRACT**

**Aysel Heydarova**

**HISTORY OF STUDY OF DARIDAGH MASSIF PLANTS OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**

Learning flora and plant cover in Azerbaijan has not so ancient history. In fact all botanical investigations in 1924-1947 years in Azerbaijan is connected with name of A.A.Grosheim. During this period, botanical investigations have been made under his guidance and with participating of his students with assignment of commision which of the regional regionalization of Azerbaijan at first time in 1925 the land of Nakchivan A.R. investigated by S.A.Zakharov. In 1925, A.A.Grosheim with the purpose of learning the plant cover of Nakchivan investigates in Nakchivan city and around Duzdagh later in the Nehram village. He investigates in direction Deresham and Daridagh from Julfa and continued his trip to Julfa Ordubad-North Iran. The consecutive science investigations till 1988 by A.Sh.Ibragimov but from 1998-2002 years be continued by A.Sh.Ibragimov and T.H.Talibov.

**РЕЗЮМЕ**

**Айсель Гейдарова**

**ИСТОРИЯ ИССЛЕДОВАНИЯ МАССИВНОГО РАСТЕНИЯ ДАРЫДАГА НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ**

Узучение флоры и растительного покровав Азербаиджане не емеет древнюю историю. Все ботаничеѕкие исследования в Азербаиджане в 1924-1147 годах связано с именем. А.А. Гроссгеймин. Поручением kомисии занимающейся регионализацисй Азербайджана впервые в 1925 году земли Нахчыванской Автономной Республиkи были расследованы со стороны профессора Захарова. С целью изучения растительного покрова Нахчывана в 1925 году А.А. Гроссгейм сделал расследование в городе Нахчыван и вокруг Дуздаг далее в сем Нехрам. Он сделав расследовония с Джулфа Дерешам и Дарыдаг продалжил свою поездку до Джулфа -Ордубад и Северный Иран. Последовотельное научное расследование до 1998 года со стораны А.Ш.Ибрагимова и в 1998-2002 годов были продолжены со стороны А.Ш.Ибрагимова и Т.Х.Талыбова.

**YASİN BABAYEV**
*yasinbabayev@rambler.ru*
**PƏRVİN QULİYEV**
*pervin.quliyev.85@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

# DARIDAĞ TERMAL SUYUNUN ENERJİSİNDƏN DAHA GENİŞ İSTİFADƏ İMKANLARI HAQQINDA

**Açar sözlər:** *darıdağ termal suyu, geotermal enerji, istilik nasosları, termoelektrik qurğular*
**Key words:** *darıdag thermal water, geothermal enerji, heat pumps, thermoelectric installations*
**Ключевые слова**: *дарыдагская термальная вода, геотермальная энергия, тепловые насосы, термоэлектрические установки*

**Enerji problemləri-Qlobal problemlərdəndir.**

Cəmiyyətin inkişafının müxtəlif mərhələlərində elmi-texniki tərəqqinin müxtəlif istiqamətlərindən qoyulan problemlərin sosial cəhətdən vaciblik dərəcəsinə görə ən əhəmiyyətliləri fərqləndirilir və üstün istiqamətlər adlandırılır. Bunlar milli, regional və ümumbəşəri olmaqla 3 yerə bölünür. Göstərilən üstün istiqamətlər inkişaf tempinin yüksəkliyi, kadrların və maddi ehtiyatların daha çox cəmləşdirilməsi ilə xarakterizə olunurlar. Ümumbəşəri üstün istiqamətlər (qlobal problemlər) müasir dövrdə bəşəriyyət üçün xarakter olan problemləri əhatə edir. Aclıq, su, təbii ehtiyatların tükənməyə başlaması, ekoloji, energetik, miqrasiya, kəskin iqlim dəyişkənliyi, qlobal istiləşmə buraya aiddir. Bu problemlərin fərqləndirici xüsusiyyətləri aşağıdakılardır [1].

1. Bu və ya digər konkret tarixi formada hər yerdə əməkdaşlıq.
2. Uyğun sosial-siyasi tədbirlər olmadan onları yalnız texniki vasitələrlə həyata keçirməyin qeyri-mümkünlüyü.
3. Əməkdaşlıq və kooperasiya olmadan ayrı-ayrı ölkələrin gücü ilə həmin problemləri həll etməyin qeyri-mümkünlüyü.

İnsanların gündəlik fəaliyyəti və bütün emal, istehsal prosesləri üçün müəyyən enerji sərf edilməsi zəruridir. Əsas enerji mənbələri yanacağın yanma enerjisi (istilik) və elektrik enerjisidir. Bu göstərilən enerji mənbələrindən başqa nüvə çevrilmələri enerjisi, günəş, külək, dəniz və okeanların dalğa enerjisi, qabarma-çökmə, zəlzələ, vulkan enerjisi, termal su enerjisi və s. dən prinsipcə istifadə etmək mümkündür. Göstərilən enerji mənbələri yer kürəsini təsəvvürə gəlməyən müddətə enerji ilə təmin edə bilər. Lakin, dünyanın bir sıra ölkə və bölgələrində energetik problemlər qalmaqda və kəskinləşməkdədir. Deməli, əsas məsələ enerji mənbələrinin mövcudluğu deyil, enerji ehtiyatlarını istehlakçıya çatdıran, ucuz başa gələn, effektli və sərfəli üsullar, yollar müəyyən etməkdir.

Elmi-texniki tərəqqinin hazırki vəziyyətində dünya üzrə enerji daşıyıcılarına olan tələbat əsasən üzvi yanacaqlar olan daş kömür, neft və təbii qaz, oduncaq, istilik (İES), su elektrik stansiyaları (SES) və nüvə enerjisi (AES-lər) hesabına ödənilir. Lakin, çoxsaylı tədqiqat işləri nəticəsində məlum olmuşdur ki, üzvi yanacaq növləri 2020-25-ci illər üçün dünya energetikasının tələbatını qismən ödəyə bilər. Enerjidən istifadənin qalan hissəsi yalnız başqa enerji mənbələri - qeyri-ənənvi və bərpa olunan enerji növləri hesabına ödənilməlidir [2].

**Bərpa olunan enerji mənbələri** – o mənbələrdir ki, əhatə olunan mühitdə daim mövcud olur, yaxud dövri olaraq yaranır. Bərpa olunan enerji mənbələri insanların məqsədyönlü fəaliyyəti nəticəsində yaradılmır və bu bərpa olunan enerji mənbələrinin bərpa olunmayanlardan fərqləndirici və üstün xüsusiyyətidir.

**Bərpa olunmayan enerji mənbələri** –o mənbələrdir ki, bunlar maddə və materialların təbii ehtiyatından ibarətdir və bu mənbələrdən insanlar enerji istehsalı üçün istifadə edirlər. Buraya nüvə yanacağı, daş kömür, yanar şistlər, neft, qaz və s. aiddir. Bərpa olunan enerji mənbələrindən fərqli olaraq bərpa olunmayan enerji mənbələri təbiətdə birləşmə halında olur və insanların məqsədyönlü fəaliyyəti nəticəsində istifadə üçün yararlı hala salınırlar.

BMT Baş Assembleyasının təlimatına əsasən (1978-ci il) qeyri-ənənəvi və bərpa olunan enerji mənbələrinə günəş, külək, geotermal, dəniz və okeanların dalğa, qabarma-çökmə enerjiləri, torf, ağac kömürü, biokütlə enerjisi, su axınlarının enerjisi aiddir. Lakin, bərpa olunan və olunmayan enerji mənbələri arasında müddət amili nəzərə alınmaqla mütləq mənada sərhəd yoxdur. XX əsrin 90-cı illərindən başlayaraq

qeyri-ənənəvi və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində dünya üzrə dəyərli tədqiqat işləri və tədbirləri həyata keçirilir və artıq böyük uğurlar qazanılmışdır. Bərpa olunan enerji mənbələri bərpa olunmayanlara nəzərən bəşəriyyətin qarşısında duran 3 qlobal problemin (energetik, ərzaq, ekoloji) həllində əsaslı rol oynadığına görə böyük üstünlüklərə malikdir.

"Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramına" (2004-cü il) və "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramına" uyğun olaraq Naxçıvan Muxtar Respublikada bu sahədə təqdirəlayiq işlər görülmüş və görülməkdədir. Belə ki, hələ 2015-ci ildə Babək rayonunun Xal-xal kəndi yaxınlığında 20 meqavat gücündə Günəş elektrik stansiyası quraşdırılaraq istifadəyə verilmişdir. Məqsəd Naxçıvan Muxtar Respublikanın elektrik enerjisi tələbatının alternativ enerji mənbələri hesabına ödənilməsini təmin etmək və enerji təhlükəsizliyini daha da möhkəmləndirməkdən ibarətdir. Naxçıvan Muxtar Respublika ərazisində günəşli saatların orta illik qiymətinin 2600-2800 saat təşkil etməsi kifayət dərəcədə məhsuldarlığı təmin etmişdir. Regionda həm günəş, həm də istilik və hidroenerji potensialına əsaslanan su elektrik stansiyaları sayəsində etibarlı enerji infrastrukturu yaradılmışdır. İndi Naxçıvanda istehsal edilən elektrik enerjisinin tələbatdan artıq hissəsinin xarici ölkələrə ixrac olunması məhz göstərilən tədbirlər nəticəsində mümkün olmuşdur.

**Geotermal energetika** alternativ (bərpa olunan) energetikanın ən perspektivli inkişaf istiqamətlərindən biri hesab olunur. Belə enerji növü külək enerjisinə nisbətən 2 dəfə, günəş enerjisinə nisbətən isə 8-10 dəfə ucuz başa gəldiyindən iri həcmli maliyyə vəsaiti tələb etmir. Azərbaycan Respublikasının ərazisi geotermal enerji ehtiyatları ilə zəngindir. Bunlar Böyük və Kiçik Qafqaz dağları, Abşeron yarımadası, Talış dağ-yamac zonası, Kür çökəkliyi, Xəzəryanı-Quba ərazisi, Naxçıvan MR-də bəzi ərazi hissələri və s. kimi geniş sahələri əhatə edir. Lakin, Naxçıvan MR-sı geotermik nöqteyi nəzərdən nisbətən az tədqiq olunmuşdur [6]. Sirab, Nəhəcir, Culfa, Şahbuz bölgələrindəki müalicə əhəmiyyətli su quyularını dərinləşdirməklə yerin səthinə yüksək temperaturlu su çıxarmaq mümkündür. Bu cəhətdən Darıdağın, tərkibində stibium olan arsenli suyu xüsusi əhəmiyyət kəsb edir. Darıdağda 665 metr dərinlikdə quyudan yer səthinə çıxan suyun temperaturu $52^0$C, debiti 2850 $m^3$/sutka, minerallaşması isə 21,4 q/l-dir. Suyun tərkibində arsenin yüksək miqdarı (20%-ə qədər) və stibiumun mövcudluğu Darıdağ ərazisindəki arsen-stibium yataqları ilə birbaşa əlaqədardır [3,4].

Məlumdur ki, geotermal enerji yer kürəsinin daxili istilik enerjisi olub ən perspektivli alternativ enerji növlərindəndir. Yerin təkində yığılan bu enerji yer səthinə vulkanlar, termal sular və istiliyin konduktiv daşınması yolu ilə nəql edilir. Termal sulardan istifadə suyun istilik tutumunun yüksəkliyinə görə geotermal enerji alınmasının ən effektli üsullarından biri hesab olunur.

İstilik daşıyıcılarının temperaturuna görə geotermal sular şərti olaraq 3 yerə bölünür: yüksək temperaturlu (90-$300^0$C) orta temperaturlu (80-$140^0$C), aşağı temperaturlu (30-$90^0$C) sular. Üçüncü tip sulara 1-ci və 2-cidən fərqli olaraq dünyanın bütün ölkə və regionlarında rast gəlinir və bunların ehtiyatı fövqəladə dərəcədə böyükdür. Darıdağ termal suyunun da aid olduğu belə sular vasitəsilə istilik təhcizatı istilik nasosları vasitəsilə yerinə yetirilir, ilkin istilik mənbəyi kimi aşağı potensiallı (temperaturu $55^0$C-yə qədər olan) termal sulardan və yer qabığının üst təbəqəsinin petrotermal enerjisindən (süxurların termal enerjisindən) istifadə edilir. Adətən süxurların istiliyindən istifadə zamanı 300 metrə qədər dərinlikdəki şaquli quyulardan, yaxud müəyyən dərinlikdə üfqi olaraq yerləşdirilən süxur istilik dəyişdiricilərindən istifadə olunur.

Bir qayda olaraq, termal su mənbələri üçün su çıxan quyunun dərinliyi artdıqca suyun da temperaturu yüksəlir. Hesablamalar göstərmişdir ki, termal suyun mövcudluğu zonalarında orta hesabla hər 33 metr dərinliyə suyun $1^0$C temperatur artımı müvafiq gəlir. Yəni, 3000-4000 metr dərinlikdə su qaynayır. Çünki 3500:33=$106^0$C. Lakin, bəzən geotermik pillə (yer qabığı dərinliyinin artması ilə termal su temperaturunun yüksəlməsi) 2-3 metr/$^0$C kimi göstərilir. 2010-cu ildən sonra dünya üzrə geotermal sistemlərin istilik təhcizatında məcmu istilik gücü 2005-ci ilə nəzərən 3 dəfə artaraq 28000 MVt olmuşdur və bu proses davam edir, Türkiyə Respublikası bu sahədə ilk beşliyə düşür.

**DTS-nin enerjisindən daha geniş istifadə imkanları.**

Fikirimizcə, geoloq, fizik, kimyaçı alimlərin və alternativ (bərpa olunan) energetika mütəxəsislərin ciddi tədqiqatlar aparması yolu ilə Darıdağ termal suyunun (DTS) enerjisindən daha geniş istifadə üçün imkanlar vardır. Hazırda Darıdağ zonasında DTS-dən istifadəyə əsaslanan Balneoloji müalicəxana və Darıdağ karbon qazı zavodu fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublika rəhbərliyinin diqqət və qayğısı sayəsində uğurla inkişaf edir, yerli əhaliyə, qonaqlara xidmət səviyyəsi artırılır, maye karbon qazı və quru buz istehlakçıları faydalanır. Təbiətin Naxçıvan torpağına bəxş etdiyi DTS enerjisindən aşağıdakı istiqamətlər üzrə istifadə mümkünlüyünü nəzərdən keçirək:

1. **DTS** aşağı temperaturlu ($52^0C$) termal sudur. DTS quyusunu dərinləşdirməklə suyun çıxış temperaturunu yüksəltmək olar. Lakin, bu zaman suyun minerallaşması da artır. Digər tərəfdən quyunu dərinləşdirmək, yaxud yeni, daha dərin quyu proyektləşdirmək və inşa etmək mövcud Balneoloji müalicəxananın unikallığına xətər yetirə bilər.

2. **DTS**-nin çıxış təzyiqinin artırılması. Su borularının diametrini tədricən azaltmaqla suyun təzyiqini SES-lərdəki kimi o dərəcədə artırmaq ki, müvafiq turbin pərlərini fırlada bilsin və elektrik enerjisi generasiya olunsun.

3. **Termal suların** enerjisindən istifadəyə əsaslanan geotermal sistemlərdə ilkin istilik mənbəyi kimi aşağı potensiallı (temperaturu $55^0C$-yə qədər olan) sulardan və yer qabığının üst təbəqəsinin enerjisindən uğurla istifadə olunur. Belə sistemlər dünya təcrübəsində geniş vüsət almışdır. Dünya üzrə geotermal istilik sistemlərinin ümumi gücünün 57%-i istilik nasosları sistemlərinin payına düşür. Almaniyada bu pay 79% təşkil edir. Darıdağ termal suyu məkanı quru, çılpaq dağ süxurları olan ərazi hissəsində yerləşdiyindən burada, qeyd olunan istilik nasoslarının, yəni süxur istilik dəyişdiricilərinin proyektləşdirilməsi və quraşdırılması, bununla da termal su temperaturunun yüksəldilməsi müəyyən səmərə vermiş olardı.

4. Müəyyən qapalı mühitdə yarımkeçirici termoelementlərdən istifadə etməklə istilik, yaxud soyuqluq yaradılması. Belə termoelementlərin işi, fransız fizikinin şərəfinə adlandırılan Peltye effektinə (hadisəsinə) əsaslanır. Belə ki, ABA tipli elektron və deşik keçiriciliyinə malik müxtəlif yarımkeçiricilərdən və sabit cərəyan mənbəyindən ibarət olan qapalı dövrədən cərəyan keçdikdə Coul istiliyinə əlavə olaraq bitişmə (kontakt) yerlərinin birində qızma, digərində isə soyuma baş verir. Nəticədə kontakt yerlərində $T_1$ və $T_2$ temperaturları yaranır. Müəyyən edilmişdir ki, cərəyanın istiqamətini dəyişdikdə qızma yeri soyuma yerinə, soyuma yeri isə qızma yerinə çevrilir və əksinə. Miqdari qanunauyğunluq ondan ibarətdir ki, kontaktlarda ayrılan və udulan istilik miqdarı (Q) dövrədən keçən cərəyan şiddəti (İ) və onun axma müddəti (t) ilə düz mütənasibdir [5]:

$$Q = P \bullet \dot{I} \bullet t \qquad (1)$$

P - Peltye əmsalı ədədi qiymətcə qapalı dövrədən sabit elektrik cərəyanı keçdikdə kontaktlarda ayrılan, yaxud udulan istilik enerjisi miqdarına bərabərdir. Sonradan müəyyən edilmişdir ki, Peltye əmsalı ilə termo-e.h.q. əmsalı ($\alpha$) arasında:

$P = \alpha \bullet T$ (2) asılılığı mövcuddur.

Burada, T-mütləq temperaturu göstərir.

Qızdırıcı və soyuducu termoelektrik qurğularda effektivlik $Z = \frac{\alpha^2 \sigma}{æ}$ (3) ifadəsi ilə müəyyən olunur.

Burada, $\sigma$ elektrik keçiriciliyi, æ istilik keçiriciliyidir. Metallarda $\alpha$-kiçik, $\sigma$ və æ böyük qiymətlər aldığından, belə qurğularda yarımkeçiricilərdən istifadə olunur ki, effektivlik (Z) mümkün qədər yüksək olsun. (1) ifadəsinə görə qapalı mühit üçün cərəyan şiddətini tənzimləməklə müəyyən hədd daxilində müxtəlif qızma, yaxud soyuma dərəcəsinə nail olmaq mümkündür. Sabit cərəyan tətbiq olunduğundan cərəyanın istiqamətini dəyişməklə stasionar rejimdə mövsümi iqlim şəraiti seçmək olar.

Darıdağ termal suyu müalicəxanasında və ətraf köməkçi binalarda, həmçinin yaxınlıqdakı karbon qazı zavodunda təklif olunan yarımkeçirici termoelementlərin kontakt yerlərini, xarici mühitdə bir halda axar su ilə soyutmaq (otaqlarda istilik yaratmaq üçün), ikinci halda qızdırmaq (otaqları soyutmaq üçün) lazım gəlir. Qızdırma məqsədi ilə Darıdağ termal suyundan istifadə əlverişli hesab edilir. Regionda kontinental iqlim şəraitini nəzərə alaraq kontakt yerlərini soyutmaq üçün sutqa ərzində, soyuq aylarda özbaşına soyuyaraq minerallardan təmizlənmiş sudan həmçinin istifadə oluna bilər.

Termoelektrik qızdırıcı və soyuducu qurğuların üstünlüklərinə onların yığcamlığı və heç bir hərəkətdə olan və tərpənən hissəyə malik olmaması, iqtisadi cəhətdən sərfəli və gigiyenik olması misal göstərilə bilər [5].

## ƏDƏBİYYAT


1. Babayev Y.N., Rüstəmov A.A., Nəcəfquliyev N.A. İstehsal sahələrinin texnologiyası və sənaye ekologiyası, Dərslik, Bakı: Elm, 2002, 336 s.
2. Məmmədov S.Z., Babayev N.Ə. Alternativ enerji mənbələri, Gəncə: ADAU, 2011, 292 s.
3. Rzayev B. Naxçıvan Muxtar Respublikasının mineral sərvətləri və onların istifadə perspektivləri. Naxçıvan: Əcəmi, 2003, 87 s.
4. Асадова А.В., Михтаров А.Ш. Ресурсы геотермальной энергии по республике Азербайджан// Мониторинг. Наука и Технологии, Махачгала, 2013, вып. № 3, с.24-28
5. Неменов Л.Л., Соминский М.С., Основы физики и техники полупроводников. Л.: Наука, 1975, 395 с.
6. Тагиев И.И., Ибрагимова И.Ш., Бабаев А.М. Ресурсы минеральных и термальных вод Азербайджана. Баку: Чашыоглу, 2001, 168 с.

**ABSTRACT**

**Yasin Babayev**
**Parvin Guliyev**

**ABOUT OPPORTUNITIES THE WIDER USE OF ENERGY OF DARIDAG THERMAL WATER**

Due to the renewable energy and source of natural carbon dioxide, the widespread use of Dardug thermal water has been explored. İt has been shown that it is advantageous to direct the petrothermal energy of the top layer of the crust by applying thermal pumps to increase thermal water energy. Relief of the DTS space and the climatic conditions of the region.

**РЕЗЮМЕ**

**Ясин Бабаев**
**Парвин Гулиев**

**О ВОЗМОЖНОСТЬЯХ БОЛЕЕ ШИРОКОГО ИСПОЛЬЗОВАНИЯ ЭНЕРГИИ ДАРЫДАГСКОЙ ТЕРМАЛЬНОЙ ВОДЫ**

Рассмотрены возможности более широkого использования энергии Дарыдагсkой термальной воды, kak природного источниkа углеkислого газа и возобновляемого энергоносителя. Поkазано, что применением тепловых насосов, петротермальную энергию верхних слоев земной kоры целесообразно направить на увеличение энергии ДТВ, что благоприятно сочетается kлиматом региона и рельефом местности.

**ENZALƏ NOVRUZOVA**
*Naxçıvan Dövlət Universiteti*
*enovruzova_32@mail.ru*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASINA DAXİL OLAN *CARYOPHYLLACEAE* JUSS. – QƏRƏNFİLKİMİLƏR FƏSİLƏSİ BİTKİLƏRİNİN ÖYRƏNİLMƏ TARİXİ

**Açar sözlər**: *Naxçıvan Muxtar Respublikası, Caryophyllaceae* Juss., *öyrənilmə tarixi, tədqiqi vəziyyəti, təkamülü*

**Key words:** *Nakhchivan Autonomous Republic, Caryophyllaceae Juss., studying history, research condition, evolution*

**Ключевые слова:** *Нахчыванской Автономной Республике, Caryophyllaceae* Juss., *история изучения, степень изученности, эволюционный процесс*

Naxçıvan Muxtar Respublikası özünün kəskin kontinental iqlimi, özünəməxsus təbiəti ilə Azərbaycanın digər regionlarından fərqlənir. Naxçıvan Muxtar Respublika özünün zəngin flora və bitki örtüyünə malikdir. Naxçıvan MR-in flora və bitki örtüyünün öyrənilmə tarixi qədim zamanlara təsadüf edir. Ərazidəki bitki müxtəlifliyi hələ qədim zamanlardan tədqiqatçı təbiətşünasların, botaniklərin, əczaçıların və paleobotaniklərin diqqətini cəlb etmişdir. Bitkilərin öyrənilməsi uzun sürən təkamül prosesində təbii - tarixi, ekoloji və antropogen faktorların birgə təsiri sayəsində yaranıb inkişaf etmişdir. Naxçıvan Muxtar Respublikası florasına daxil olan ən qədim bitki fəsilələrindən biri də Qərənfilkimilər fəsiləsi bitkiləridir. Fəsiləyə daxil olan növlər dekorativ, dərman və s. əhəmiyyətə malik olan bitkilərdir.

Həyat formalarına görə Qərənfilkimilər adətən ot bitkiləridir lakin, kolcuq və bəzən kol formalarına da rast gəlinir. Fəiləyə daxil olan növlərdə çiçək sərbəst ləçəklidir. Kasa yarpaqcıqlarının və ləçəklərinin hər biri 5, nadir hallarda 4 ədəddir. Kasacıq sərbəst və ya bitişmişdir. Ləçəkləri bütövdür, dırnaqcıqlıdır, ikibölümlü və ya çoxbölümlü lövhəlidir, bəzən isə onlar olmur. Yumurtalıq 5-2 meyvə yarpaqcıqlıdır, yuxarı yumurtalıqlıdır, biryuvalıdır və ya qaidəsində 3-5 yuvalıdır və sərbəst sütuncuqludur. Meyvəsi yuxarıda 3-10 qapaqcıqlarla və ya dişciklərlə açılan çoxtoxumlu və ya aztoxumlu qutucuqdur, bəzən meyvəsi birtoxumlu fındıqcadır. Tamkənarlı, sadə, qarşı-qarşıya düzülmüş yarpaqlı və çiçək altlığı olmayan dixazi çiçək qruplu ot bitkiləridir.

Qərənfilkimilər fəsiləsinin iki növü bitkilər aləmində ən yüksək göstəriciyə malik olur. Bu Antarktikanın çiçəkli bitkisi olan *Colobanthus quitensis* və Himalay dağında 6 min metr dəniz səviyyəsindən hündürlükdə rast olunan *Stellaria decumbes* növüdür.

Bauhin, Tournefort, Buxbaum və başqa botaniklərin əsərlərində Qərənfilkimilər fəsiləsinə daxil olan bir sıra növlərin adları qeyd olunmasına baxmayaraq, fəsilə nümayəndələrinin elmi əsaslarla öyrənilməsi K.Linney tərəfindən aparılmışdır [11, s. 214-356; 12, s. 122-217; 13, s. 427-538]. Erkəkcik və dişiciyin sütüncuğuna görə o, Qərənfilkimilərə daxil olan növləri bir neçə siniflər arasında bölüşdürmüşdür. İlk fəsilənin bir takson kimi təbii səciyyəsi Fransız botaniki Antuan Loran Jusse tərəfindən işlənilmişdir. A.L.Jusse təsnifatda digər əlamətlərlə yanaşı çiçəkyanlığının formasını da əsas götürmüşdür. Daha sonra Oqustin Pirama Dekandol Qərənfilkimilər fəsiləsinə daxil olan növləri iki “sıra”ya *Caryophylleae* Juss. və *Paronychieae* A.St.-Hill. bölmüşdür. Bu fəsilə *Alsinoideae, Silenoideae* və *Paronychioideae* yarımfəsillərinə ayrılmışdır. Angiosperm Phylogeny Group (APG III) sisteminə əsasən bu fəsilənin 81 cinsə daxil olan 2625 növü qeyd edilmişdir.

Naxçıvan Muxtar Respublikası florasında *Caryophyllaceae* fəsiləsinə daxil olan cins və növlərin taksonomik tərkibi “Azərbaycan florası” [1,s.85-139], “Флора Кавказа” [6, s. 179-298], “Флора Азербайджана” [9,s. 273-388], “Флора СССР” [10, s. 386-870], Черепанов С.К. [12, s.303-342], “Конспект флоры Кавказа” [8, s.142-217] və daha sonra T.H. Talıbov və Ə.Ş. İbrahimov [2, s. 3-8; 3, s.32-38; 7, s. 135-142] tərəfindən işlənilmişdir. Belə ki, T.H. Talıbov, Ə.Ş. İbrahimovun “Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər)” adlı əsərində Qərənfilkimilər fəsiləsinin 32 cinsə daxil olan 109 növü göstərilmişdir [4, s. 91-97]. Daha sonra T.H. Talıbovun floranın öyrənilməsi ilə bağlı apardığı geniş tədqiqatlar nəticəsində Naxçıvan Naxçıvan Muxtar Respublikası florasında Qərənfilkimilər fəsiləsinin 30 cinsə daxil olan 125 növünü qeyd etmişdir [5, s. 63-72]. Lakin, fəsilənin taksanomiyasının, fitosenologiyasının, bəzi bioloji fəal maddələrinin və əhəmiyyətli xüsusiyyətlərinin tamamilə öyrənilməməsini əsas götürərək 2018– ci ildən başlayaraq tərəfimizdən elmi - tədqiqat işi aparılır.

**Nəticə**: Aparılan tədqiqatlar nəticəsində Naxçıvan Muxtar Respublikası ərazisində yayılan Qərənfilkimilər fəsiləsinə daxil olan bitkilərin öyrənilmə tarixi araşdırılmış, fəsiləsinin ərazi üzrə tədqiqi vəziyyəti öyrənilmişdir. Məlum olmuşdur ki, Naxçıvan Muxtar Respublikası ərazisində *Caryophyllaceae* Juss. fəsiləsinə daxil olan bitkilər haqda XIX əsrin əvvəllərindən öyrənilməyə başlanılsa da fəsilə nümayəndələri çox zəif tədqiq edilmişdir. 2018-ci ildən aparılan tədqiqatlar nəticəsində ərazidə yayılan Qərənfilkimilər fəsiləsinin növ tərkibi və yayılma əraziləri planlı şəkildə öyrənilməyə başlanılmışdır.

Ədəbiyyat məlumatlarında bir çox növün qonşu regionlarda olduğunu və Naxçıvan MR-sı ərazisində də rast olma imkanını nəzərə alaraq həmin növlərin uyğun biotoplarda axtarışı vacibdir. Yeni növlərin müəyyən edilməsi və mövcud növlərin isə yeni yayılma ərazilərinin araşdırılması üzərə tədqiqat işi davam etdirilir.

## ƏDƏBİYYAT


1. Qrossheym A.A. Azərbaycan florası, Bakı: Azərnəşr, Kənd təsərrüfatı şöbəsi, Cild 2,1936, 543 s.
2. Talıbov T.H. Dövlət Universitetlərinin biologiya ixtisası üçün "Ali bitkilər sistematikası" üzrə proqram, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07 noyabr 2002- ci il tarixli 1034 saylı əmri ilə təsdiq edilmişdir, Naxçıvan: Qeyrət, 2002, 8 s.
3. Talıbov T.H. Naxçıvan Muxtar Respublikası florasında *Caryophyllaceae* Juss. fəsiləsi bitkiləri. AMEA Naxçıvan Bölməsi, Xəbərlər (Təbiət və texniki elmlər seriyası.) Naxçıvan: Tusi, № 4(9), 2007, s. 32- 38
4. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər), Naxçıvan: Əcəmi, 2008, 364 s.
5. Talıbov T.H. Naxçıvan Muxtar Respublikası florasının Qərənfilkimilər - *Caryophyllaceae* Juss. fəsiləsi bitkilərinin tədqiqi vəziyyəti və nadir növləri, AMEA Naxçıvan Bölməsi, Xəbərlər, Təbiət və texniki elmlər seriyası, Naxçıvan, Tusi, 2017, № 2, Cild 13, s.63-72
6. Гроссгейм А.А. Флора Кавказа. Баку: Изд. АН Азерб. ССР, Т. 3, 1945, 321 с.
7. Ибрагимов А.Ш. Растительность Нахчыванской Автономной Республики и ее народно-хозяйственное значение. Баку: Элм, 2005, 236 с.
8. Конспект флоры Кавказа. Ред. Г.Л. Кудряшова, И.В. Таганова, М.- СПб. Товарищество научных изданий КМК, 2012, т. 1-3(2), 623 с. (142 - 217)
9. Флора Азербайджана. Баку: Изд. АН Азерб. ССР, 1952, т. 3, 407 с.
10. Флора Армении. Ереван: Из.-во АН Арм. ССР, т. 2, 1956, 521 с.
11. Betham G., Hooker J. D. Genera plantarum ad exemplaria imprimis in herbariis kewensibus servata definita. London, 1862-1867. Vol. 1 1040 p.
12. Linnaeus C. Species plantarum exhibentes plantas rite cognitas, ad genera relatas, cum differentiis specificis, nominibus trivialibus, synonimis selectis, locis natalibus, secundum systema sexuale digestas. Ed 1. Holmiae, 1753. T.1, 560 p.
13. Tournefort J. P. Institutiones rei herbariae. Paris. 1700. T. 1. 697 p.



## ABSTRACT

**Enzala Novruzova**

### THE STUDYING HISTORY OF CARYOPHYLLACEAE JUSS. PLANTS INCLUDING IN THE FLORA OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The article provides information about studying history of plants of Carnations family including in Nakhchivan Autonomous Republic flora and their research position were investigated. The article also provides informtion about evolution history of Carnations. According to literature data 125 species including in 30 genus were shown in the flora of the Nakhchivan Autonomous Republic. However, taking into account that many species are in the neighboring regions and come across in the area of Nakhchivan Autonomous Republic, the research is ongoing for suitable biotopes of the same species, determining of new species and investigating of new spreading areas of available species.



## РЕЗЮМЕ

**Энзала Новрузова**

### ИСТОРИЯ ИЗУЧЕНИЯ РАСТЕНИЙ СЕМЕЙСТВА CARYOPHYLLACEAE JUSS - ГВОЗДИЧНЫЕ, ВХОДЯЩЕГО В СОСТАВ ФЛОРЫ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В статье освещены сведения об истории изучения растений семейства Гвоздичные, входящего в состав флоры Нахчыванской Автономной Республики, исследована степень их изученности. В статье также отмечены сведения об эволюционной истории гвоздичных. На основе литературных сведений для флоры Нахчыванской АР указаны 125 видов из 30 родов, включённых в состав семейства. Учитывая нахождение многих видов в соседних регионах, продолжаются поисковые работы по выявлению этих видов в соответствующих биотопах, определению новых видов и уточнению новых территорий распространения существующих видов.

**NAMİQ ABBASOV**
*AMEA Naxçıvan Bölməsi, Bioresurslar İnstitutu*
*namiq-araz@mail.ru*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ YAY OTLAQLARINDA QURDOTU (*LOTUS* L.) CİNSİNƏ DAXİL OLAN NÖVLƏR VƏ ONLARIN İSTİFADƏ PERSPEKTİVLƏRİ

**Açar sözlər**: *flora, qurdotu, yay otlaqlari, məhsuldarliq, biomorfoloji*
**Key words:** *flora, lotus, summer pastures, productivity*
**Ключевые слова:** *флора, лядвенец, летние пастбища, производительность*

**Material və metodlar:** Paxlalı bitkilər qidalılığına, mal-qara tərəfindən yaxşı yeyilməsinə və digər təsərrüfat göstəricilərinə görə qiymətli yem bitkiləri hesab olunurlar. Otluqda paxlalı bitkilərin bolluğu onların otlaq keyfiyyətini və məhsuldarlığını yüksəldir. Bu cəhətdən *Lotus* L.- Qurdotu cinsinə mənsub olan bitki növləri də diqqəti cəlb edir. Qurdotu növləri ərazidə sayca az olmasına baxmayaraq, müxtəlif fitosenozlarda üstünlük təşkil edirlər. Ə.Ş. İbrahimovun məlumatına görə *Lotus gebelia* Vent. növləri subasar çəmənlətdə, subalp və alp zonalarında qurdotuluq formasiyası – Loteta əmələ gətirir ki, onlar da çoxsaylı assosiasiya, makro və mikro bitki qruplaşmaları ilə təmsil olunurlar [5]. *Lotus corniculatus* L. növünün əmələ gətirdiyi belə fitosenozlar parlaq qızılı-sarı fon ilə diqqəti cəlb edir. Ekoloji şəraitdən, antropogen amillərin komplekis təsirindən asılı olaraq onların növ tərkibi, quruluşu və məhsuldarlığı dəyişir. Belə ki, istər mədəni, istərsə də yabanı bitki biomüxtəlifliyi daim təbii tarixi, ekoloji və antropogen təsirlərə məruz qalır. Təbiətin bu sərvətlərindən insanlar heç də həmişə səmərəli istifadə etmir. Nəticədə eroziya prosesi güclənir, çəmənlərin, otlaqların flora tərkibi dəyişir, ilkin bitki örtüyü məhv olur, əvəzində az əhəmiyyətli olan ikinci dərəcəli bitkilər inkişaf edir. Belə fitosenozlarda təsərrüfat əhəmiyyətinə görə qiymətli hesab olunan yem, qida, dərman, bal verən, efir yağlı və s. növlər azalır. Onların yerini mal-qara tərəfindən yeyilməyən zərərli, zəhərli və alaq bitkiləri tutur. Buna görə də apardığımız tədqiqatda qarşıya qoyduğumuz məqsəd Naxçıvan MR-nin ərazisində yayılan qurdotu növlərinin arealının, növ tərkibinin müəyyən edilməsi, bolluğunun, həyatiliyinin bioekoloji, fitosenoloji xüsusiyyətlərinin öyrənilməsi təşkil etmişdir. Tədqiqat prosesində ümumi qəbul olunmuş floristik və geobotaniki üsullardan, bu sahədə çalışmış alimlərin (A.A. Qrossheym, L.İ. Prilipko, V.C. Hacıyevin, Ə.Ş. İbrahimov və s.) əsərlərindən və metodiki göstərişlərindən istifadə edilmişdir [1, 8-162; 2, s. 101-116; 4, s. 225-230]. Son taksonomik əlavə və dəyişikliklər "Конспект флора Кавказа" 1 və 2 cildlərinə, S.K. Çerepanova (1995), T.H. Talıbov və Ə.Ş. İbrahimova uyğun aparılmışdır [3, s. 134-146; 9, s. 435-504]. Növlərin təsvirində Qafqaz və Azərbaycan floralarının V cildinə istinad olunmuşdur [8, s. 310-313].

**Müzakirələr:** Yüksək dağlıq qurşağın bitkiliyində paxlalı bitkilər geniş yayılmışdır. Onlar alp və subalp çəmənlərinin bərpa olunmasında, müxtəlif fitosenozların təşkilində mühüm rol oynayırlar. Burada 50-yə qədər paxlalı bitki növünə rast gəlinir ki, bunların da əksəriyyəti çoxillik (95%), az miqdarı isə ikillik və birillik (5%) ot bitkiləridir. Yay otlaqlarının yem balansında paxlalı bitkilərin rolu çox böyükdür [7, s. 163-173]. Çəmən fitosenozlarında taxıllar fəsiləsindən olan bitkilər edifikator rolunu daşıdığı halda, paxlalılar özlərini bu fitosenozların dominantı, komponenti və çox az hallarda isə edifikatoru kimi aparırlar. Məsələn; buynuzlu qurdotu, qafqaz q., münbit çəmənlərdə, qobeliya q. isə qumlu yamaclarda, eroziyaya məruz qalmış yarğanlarda daha geniş yayılmaqla, özlərini fitosenozların edifikatoru kimi göstərirlər.

Paxlalı bitkilərin əksəriyyəti heyvandarlığın inkişafında böyük rol oynayırlar. Məhz buna görə də paxlalı bitkilər yem cəhətdən xüsusi əhəmiyyət kəsb edirlər. Yay otlaq və biçənəklərinin yem balansının və yem keyfiyyətinin artırılmasında xüsusilə diqqət cəlb edən cinslərdən biri də paxlalılar fəsiləsinə daxil olan qurdotu cinsinin növləridir.

2009-2012-ci illərdə aparılan tədqiqatlar nəticəsində Naxçıvan MR-in yay otlaqlarında olan *Lotus* cinsinin yem əhəmiyyətli növlərinin hündürlük qurşaqları üzrə yayılması, çiçəkləmə və çiçəkləməyə qədərki fazalarda müxtəlif kənd təsərrüfatı heyvanları tərəfindən yeyilmə dərəcəsi öyrənilmişdir.

Bu cinsin Avropada və Asiyada yayılmış 100-ə qədər növündən, Qafqazda 12, Azərbaycanda 6, Naxçıvan MR-də isə 4 növü mövcuddur. Cinsə daxil olan növlərin əksəriyyəti otlaq və biçənəklərin ən

əhəmiyyətli yem bitkilərindən sayılırlar. *Lotus corniculatus* növü geniş yayılmışdır və kulturaya keçirilmişdir. L. *gebelia* növü isə daha çox bəzək əhəmiyyətlidir. Qurdotu cinsinin demək olar ki, bütün növləri yaxşı bal verən bitki hesab olunurlar.

*Lotus corniculatus* L. - Buynuzlu qurdotu çoxillik, 10-50 sm hündürlükdə, gövdəsi sürünən, yaxud yuxarı qalxan, çılpaq, çoxbudaqlı ot bitkisidir. Aşağı yarpaqları yumurtavari və ya neştərşəkillidir, çəpdir. Yuxarı yarpaqları isə əsasından pazşəkilli olub, tərsinə yumurtavari, yaxud neştərşəkildir. Çiçəkqrupları 5 çiçəkdən təşkil olunmuş çətir şəklindədir və uzun nazik çiçək saplaqları üzərində yerləşmişdir, yarpaqlarından bir neçə dəfə uzundur. Kasacığı borucuğunun ölçüsündədir və bizvari dişciklərə malikdir. Tacı 11-14 mm uzunluqdadır, sarıdır. Paxlaları silindirşəkilli, düz, çılpaqdır, 15-25 mm uzunluqdadır. Toxumları xırda kürəşəklindədir, rəngi qonurdur. May-iyun aylarında çiçək açır, iyun-avqust aylarında isə meyvə verir. Qərbi-palearktik coğrafi areal tipinə məxsusdur. Avropadan təsvir edilmişdir. Ədəbiyyat məlumatlarında bu növün yuxarı dağ qurşağına qədər yayıldığı göstərilir. Lakin, onun düzən sahələrdən başlayaraq yuxarı dağ qurşağının subalp və alp çəmənlərində də yayıldığını aşkar etmişik. Rütubətli çəmənlərdə, dərələrdə, çayların kənarında, kolluqlarda rast gəlinir. Bitkiliyin tərkibində əksər hallarda dominantlıq edir. Az hallarda təmiz cəngəllik əmələ gətirir, bəzən isə otluqda komponent kimi iştirak edir. Biçənəklərdə, xüsusilə rütubətli subasar çəmənlərdə daha gur inkişaf edir. Məhsuldarlıq 40-45 sentner arasında dəyişir. Belə çəmənlərdə 25-30 çiçəkli bitki növü qeyd olunmuşdur (cəd. 1).

Cədvəl 1.

Buynuzlu qurdotunun üstün olduğu taxıllı-paxlalı-müxtəlifotlu subasar çəmənlərin quruluşu və növ tərkibi

| № | Növlərin adı | Bolluq | Hündürlük sm-lə | Fenofaza | Yarus |
|---|---|---|---|---|---|
| 1. | *Poa nemoralis* L. | 2-1 | 30-80 | meyvə | II |
| 2. | *Aconogonon alpinum* (All,)Schur. | 2-3 | 95-100 | çiçək | I |
| 3. | *Phleum phleoides* (L.) Karst. | 2-1 | 40-60 | meyvə | II |
| 4. | *Myosotis alpestris* F.W. Schmidt | 15-20 | 12-20 | meyvə | III |
| 5. | *Solenanthus circinnatus* Ledeb. | 2-1 | 60-75 | çiçək | II |
| 6. | *Tragopogon coloratus* C.A. Mey. | 1 | 10-50 | çiçək | II |
| 7. | *Origanum vulgare* L. | 2-1 | 30-70 | çiçək | I |
| 8. | *Potentilla recta* L. | 3 | 15-20 | meyvə | IV |
| 9. | *Papaver orientale* L. | 2-3 | 60-85 | meyvə | I |
| 10. | *Filipendula vulgaris* Moench | 4 | 35-40 | çiçək | III |
| 11. | *Trifolium pratense* L. | 3-2 | 130-150 | çiçək | I |
| 12. | *T. medium* L. | 2-3 | 15-35 | meyvə | III |
| 13. | *Allium cardiostemon* Fisch. et C.A.Mey. | 2 | 20-50 | çiçək | II |
| 14. | *Muscari caucasicum* (Griseb.) Baker | 3 | 15-30 | meyvə | IV |
| 15. | *Ornithogalum brachystachys* C. Koch | 2-3 | 15-25 | meyvə | IV |
| 16. | *Inula helenium* L. | 3-4 | 120 -150 | çiçək | I |
| 17. | *Inula aspera* Poir. | 2 | 20-60 | çiçək | II |
| 18. | *Chrysaspis spadicea* (L.) Greene | 4-5 | 20-40 | çiçək | II |
| 19. | *Medicago caerulea* Less, | 2-1 | 42-48 | çiçək | II |
| 20. | *Trisetum flavescens* (L.) Beauv. | 3 | 35-75 | çiçək | I |
| 21. | *Amoria bordzilovskyi* (Grossh.)Roskov. | 2-3 | 30 - 35 | çiçək | II |
| 22. | *Helichrysum plicatum* DC. və s. | 3-4 | 10-45 | meyvə | III |

Buynuzlu qurdotu soyuğa, küləyə davamlı, eləcə də rütubətsevən bitkidir. Tərkibində 22% protein vardır. Kimyəvi tərkibinə görə çox yaxşı yem bikisi hesab olunur. Çəmən və otlaqlarda başqa bitkilərlə yaxşı məhsul verdiyinə görə mədəni halda becərilir. Təmiz halda az məhsul verir. Çiçəkləyənə qədər heyvanlar tərəfindən yaxşı yeyilir. Çiçəklədikdən sonra tərkibində olan sionogen qlükozidinin toplanması hesabına acı dad verir və elə buna görə də bu fazada heyvanlar tərəfindən yaxşı yeyilmir. Yetişməmiş meyvələri insanlar tərəfindən yeyilir. Çiçəkləmə fazasında ən yaxşı balverən bitki hesab olunur. Xalq təbabətində böyrək xəstəliklərinin müalicəsində çox yaxşı dərman bitkilərindən biri hesab olunur. Elə buna görə də el arasında "böyrəkotu" kimi tanınır. Həmçinin yuxarı tənəffüs yollarının xəstəliyində, quduzluqda dərman kimi istifadə olunur. Çiçəklərindən sarı rəng alınır ki, bundan da boyaqçılıq sənayesində istifadə olunur.

*Lotus caucasicus* Kuprian. ex. Juz. çoxillik bitkidir. Gövdələri çoxsaydadır, sıx tükcüklüdür, dikqalxan, yaxud şaxəlıdir, 20-50 (60) sm hündürlükdədir. Yarpaqcıqları yumurtavari və ya tərsinə yumurtaşəkillidir, çiçək oxları yarpaqlarından uzun olub, 3-8 çiçəklidir. Kasacığı uzun kirpikciklərlə örtülmüşdür, 6-8 mm uzunluqdadır, borucuğu ölçüsündə olan iti neştərvari dişcikləri vardır. Tacı 16-20 mm uzunluqda olub, açıq-sarıdır. Paxlası çılpaqdır, silindirikdir, uzunluğu 30-35 mm, eni isə 2-3 mm-dir və sivriucludur. İyun-iyul aylarında çiçək açır, iyul-avqust aylarında meyvə verir. Qafqaz - Kiçik Asiya coğrafi areal tipinə daxildir. Azərbaycanın hər yerinə yayılmışdır. Nadir hallarda düzənliklərdə rast gəlinir. Yuxari dağ qurşağına qədər çəmənlərdə, qayalarda, səpintilərdə rast gəlindiyi göstərilir. Lakin onun yuxari dağ qurşağında geniş yayıldığını öyrənmişik. Ön Qafqazdan təsvir olunmuşdur. Yay otlaqlarında bitkiliyin tərkibində əksər hallarda dominantlıq edir. Məhsuldarlıq 25-30 sentner arasında dəyişir.

Kimyəvi tərkibinə görə Qafqaz qurdotu ən qidalı yem bitkilərindən hesab olunur. Bu bitkinin tərkibində 11-12% proteinin, 5%-ə qədər yağ, az miqdarda sellüloza və artıq miqdarda isə karbohidratlar vardır. Heyvanlar tərəfindən orta dərəcədə yeyilir. Bir sıra müəlliflərin verdiyi məlumatlara görə təzə çiçəkləmə dövründə çıçəklərində zəhərli maddələr toplanır. Qafqazda cavan paxlaları bişmiş halda yeyilir. Çəmənlərdə kulturaya keçirilməsi məsləhətdir.

*Lotus tenius* Waldst. et Kit. ex Willd. - Nazik qurdotu 20-60 sm hündürlükdə çoxillik bitkidir. Çoxlu sayda dikqalxan, güclü şaxələnmiş, göyümtül rəngə çalan gövdələri vardır. Yarpaqcıqları neştərşəkilli, və ya neştərvari - xəttidir, itiucludur, uzunluğu 7-14 mm, eni isə 2-4 mm-dir, çoxtoxumludur. Çiçəkləri 3-4 ədəd olmaqla, yarpaqlarından qismən uzun olan çiçək oxları üzərində yerləşən çətir çiçək qruplarında toplanmışdır. Kasacığı 4-5 mm uzunluqdadır, çılpaqdır, borucuğunun ölçüsünə bərabər xətti dişcikləri vardır. Tacı sarıdır, çiçək açan zaman və quruduqda isə göyümtül rəngdə olur. Paxlası xətti olub, silindirikdir, çılpaqdır, uzunluğu 25-30 mm, eni isə 2-3 mm, xromosom dəsti 2 n=12. Toxumları xırdadır, qabarıqdır. May-iyun çiçək açır, iyul-avqust aylarında meyvə verir. Aralıq dənizi-İran-Turan coğrafi areal tipinə daxildir.

Naxçıvan MR-in düzənlik, orta və yuxarı dağ qurşaqlarında az miqdarda rast gəlinir. Rütubətli çəmən və qumluqlarda, meşə talalarında, çay kənarlarında bitir. Yaşıl kütləsi yem kimi istifadə olunur, çəmən yoncası və qara yonca ilə müqayisədə daha yumşaqdır, həmçinin karbohidratlarla daha zəngindir. Buynuzlu qurdotu ilə müqayisədə az məhsuldardır, lakin şoran torpaqlarda yaxşı inkişaf edir. Elə bu xüsusiyyətinə görə duzadavamlı bitki kimi kulturaya keçirilməsi üçün öyrənilməsi məsləhətdir. Yayıldığı çəmənlərdə məhsuldarlıq 18-22 sentnerə çatır. Otluğun növ tərkibində 16-20 bitki növü iştirak edir (cəd. 2).

Cədvəl 2.

Nazik qurdotunun üstün olduğu mezofil subalp çəmənlərinin quruluşu və növ tərkibi

| № | Növlərin adı | Bolluq | Hündürlük sm-lə | Fenofaza | Yarus |
|---|---|---|---|---|---|
| 1. | *Poa nemoralis* L. | 2-1 | 30-80 | meyvə | II |
| 2. | *Aconogonon alpinum* (All,)Schur. | 2-3 | 95-100 | çiçək | I |
| 3. | *Trisetum flavescens* (L.) Beauv. | 3 | 35-75 | çiçək | I |
| 4. | *Amoria bordzilovskyi*(Grossh.) Rosk. | 2-3 | 30 - 35 | çiçək | II |
| 5. | *Helichrysum plicatum* DC. | 3-4 | 10-45 | meyvə | III |
| 6. | *Phleum phleoides* (L.) Karst. | 2-1 | 40-60 | meyvə | II |
| 7. | *Myosotis alpestris* F.W. Schmidt | 15-20 | 12-20 | meyvə | III |
| 8. | *Solenanthus circinnatus* Ledeb. | 2-1 | 60-75 | çiçək | II |
| 9. | *Papaver orientale* L. | 2-3 | 60-85 | meyvə | I |
| 10. | *Filipendula vulgaris* Moench | 4 | 35-40 | çiçək | III |
| 11. | *Trifolium pratense* L. | 3-2 | 130-150 | çiçək | I |
| 12. | *T. medium* L. | 2-3 | 15-35 | meyvə | III |
| 13. | *Allium cardiostemon* Fisch. et C.A. Mey. | 2 | 20-50 | çiçək | II |
| 14. | *Muscari caucasicum* (Griseb.) Baker | 3 | 15-30 | meyvə | IV |
| 15. | *Ornithogalum brachystachys* C. Koch | 2-3 | 15-25 | meyvə | IV |
| 16. | *Inula helenium* L. | 3-4 | 120 -150 | çiçək | I |

*Lotus gebelia* Vent. çoxillik, çılpaq, güclü şaxələnən bitkidir. Gövdəsi çoxsaylıdır, 30-40 (45) sm hündürlükdədir, dikqalxan, yaxud azacıq qalxandır, əyridir. Yarpaqcıqları itiuclu olub, tərsinə yumurtaşəkilli-pazvaridir. Çiçəkoxları bir qədər və ya 2 dəfə yarpaqlarından uzundur, 1-3 çiçəklidir. Kasacığı çılpaq və ya tükcüklüdür, adətən borucuğunun ölçüsündə olan neştərvari dişcikləri vardır. Tacı açıq çəhrayıdır, enli yelkən və qanadları vardır. Paxlaları toxumları arasında azca sıxılmışdır, uzunluğu 20-30 mm, eni isə 3-4 mm-dir, çılpaqdır, çoxtoxumludur. Toxumları açıq qonur rəgdədir, qabarıqdır. May-iyun aylarında çiçək açır, iyun-avqust aylarında isə meyvə verir. Aşağı, orta və yuxarı dağ qurşaqlarında rast gəlinir. Quru, daşlı yamaclarda bitir. Yem əhəmiyyəti aşağıdır. Ancaq yaxşı bəzək əhəmiyyətli bitkidir. Yarpaqlarında 60 mq%-ə qədər C vitamini vardır. Ön Asiya coğrafi areal tipinə daxildir**.** Qulu, qumlu-

çınqıllı, yumşaq torpaqlı maili yamaclarda kiçik talalar əkinində sıx bitərək fon yaradır. Bəzən də seyrək yayılır. Yem keyfiyyəti aşağıdır və kafi yeyilir. Naxçıvan MR-in ərazisində yayılmış qurdotu növlərinin mal-qara tərəfindən yeyilmə dərəcəsi göstərilmişdir (Cəd. 3).

Cədvəl 3

Yay otlaqlarında olan *Lotus L* növlərin hündürlük qurşaqları üzrə paylanması və müxtəlif fazalarda yeyilmə dərəcəsi

| № | Növlərin adı | Orta dağlıq | Yuxarı dağlıq | Subalp | Alp | Feno-faza | Yeyilmə dərəcəsi |
|---|---|---|---|---|---|---|---|
| 1. | *L. tenius* Waldst.et Kit.ex Will. | + | + | + | - | ç/q | kafi |
| 2. | *L. caucasicus* Kuprian.ex. Juz | + | + | + | + | ç/q | kafi |
| 3. | *L. gebelia* Vent | + | + | - | - | ç/q | qeyri-kafi |
| 4. | *L. corniculatus* L. | + | + | + | + | ç/q | kafi |

**Nəticə:** Beləliklə, apardığımız floristik və geobotaniki tədqiqatlar nəticəcində məlum olmuşdur ki, Naxçıvan MR ərazisində *Lotus* cinsinin 4 növü: *Lotus corniculatus* L., *Lotus caucasicus* Kuprian. ex. Juz., *Lotus tenius* Waldst. et Kit. ex Willd., *Lotus gebelia* Vent. yayılmışdır. Onların müasir vəziyyətinin, bioekoloji və fitoseniloji xüsusiyyətlərinin ətraflı öyrənilməsi ilə aşkar olunmuşdur ki, qurdotu növləri ədəbiyyat mənbələrində göstərildiyindən fərqli olaraq, regionun yüksəkdağ ərazilərindəki yay otlaqlarında geniş yayılmaqla heyvandarlığın yem balansında mühüm rola malikdirlər.

## ƏDƏBİYYAT


1. Azərbaycanın biçənək və otlaqlarının yem bitkiləri, Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1969, c. II, 162 s.
2. Hacıyev V.C., Prilipko L.İ. Naxçıvançay hövzəsinin yüksək dağ bitki örtüyünün xarakteristikası // Naxçıvan MSSR-in florası, bitki örtüyü və faydalı bitkiləri, Bakı: Elm, 1981. s. 101- 116
3. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri, Naxçıvan: Əcəmi, 2008, 364 s.
4. Гроссгейм А.А. Флора Кавказа. М.-Л.: Изд-во АН СССР, 1952, т. V, 744 с.
5. Ибрагимов А.Ш. Растительность Нахчыванской Автономной Республики, ее производительность и ботанико-географическое районирование. Автореферат дисс. на соиск. уч. степ. доктора биол. наук. Баку, 2007, 44 с.
6. Ларин И.В. Пастбищеоборот. Система использования пастбищ и ухода за ними. М.-Л.: Сельхозгиз, 1960, с. 387
7. Прилипко Л.И. Сведения о полезных растениях Нах. АССР. / Тр. Аз ФАН СССР, вып. XXVI, 1936, с. 163-173
8. Флора Азербайджана. Баку: Изд-во АН Азерб. ССР, 1954, т. V, 579 с.
9. Черепанов С.К. Сосудистые растения России и сопредельных государств (в пределах бывшего СССР). С.- Петербург: Мир и семья-95, 1995, 990 с.


## ABSTRACT


**Namig Abbasov**


### SPECIES OF THE GENUS *LOTUS* L. ON THE SUMMER PASTURES OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC AND THEIR PROSPECTS OF USE


The paper presents data on the forage species of the genus *Lotus* L. the results of research conducted during 2009-2012 on the summer pastures of the Nakhchivan Autonomous Republic. Installed geobotanical distribution of species on the summer pastures on the high-altitude zones, the degree of eating their animals at different stages of flowering. Also studied biomorphological, ecological and geographical, features of species.


## РЕЗЮМЕ


**Намиг Аббасов**


### ВИДЫ РОДА *LOTUS* L. НА ЛЕТНИХ ПАСТБИЩАХ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ И ИХ ПЕРСПЕКТИВЫ ИСПОЛЬЗОВАНИЯ


В статье отражены данные о кормовых видах растений рода *Lotus* L. на основе результатов исследований проведенных в течение 2009-2012 годов на летних пастбищах Нахчыванской АР. Установлены геоботаническое распространение видов на летних пастбищах по высотным поясам, степень поедания их животными на разных фазах цветения. Также изучены биоморфологические, биоэкологические и фитоценологические особенности видов.

**SURƏ RƏHİMOVA**
*AMEA Naxçıvan Bölməsi*
*sura_rahimova@hotmail.com*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ƏRAZİSİNDƏ YAYILMIŞ *CAPPARIS SPINOSA* L. NÖVÜNÜN KAROTİNOİDLƏRİ

**Açar sözlər:** *Capparis spinosa L., bitki, karotinoid, spektr, biokimyəvi tədqiqat*
**Key words:** *Capparis spinosa, plant, carotinoid, spectr, biochemical research*
**Ключевые слова:** *Capparis spinosa L., растение, каротиноид, спектр, биохимические исследований*

Son onilliklərdə təbiəti çirkləndirən təbii proseslərin intensivləşməsi, anormal iqlim dəyişmələri, insanın təbiətə müxtəlif müdaxilələri, radiasiya və maqnit şüalandırıcı cihazların artması, ekoloji təmiz qida məhsullarının azalması, ətraf mühitin müxtəlif mutagen, kanserogen, radioaktiv maddələrlə çirklənməsi nəticəsində stressli vəziyyət yaranır, orqanizmdə metabolik proseslərin normal gedişi pozulur, hüceyrə və toxumalar zədələnir, immun sistem zəifləyir. Bu bir çox xəstəliklərin, xüsusilə ürək-damar, əsəb, həzm sistemi xəstəliklərinin, xərçəng, şəkərli diabet, hepatit, parkinson və digər xəstəliklərin sürətlə inkişafına səbəb olur. Ədəbiyyat məlumatlarına əsasən aparılmış tibbi tədqiqatlarla müəyyən edilmişdir ki, bu xəstəliklərin qarşısının alınması və müalicəsində antioksidant, antimutagen xassəyə malik bioloji fəal maddələr ən effektli vasitədir. Tədqiqatçılar arasında belə bir möhkəm inam yaranmışdır ki, bitki mənşəli karotinoidlər məhz belə xassəyə malik olub, insan sağlamlığının qorunmasında olduqca önəmlidir [7, s. 274].

Qədim zamanlardan insanlar bitkilərdən müxtəlif məqsədlər üçün əvvəlcə qida, sonralar isə tibbi, kosmetik və digər məqsədlər üçün istifadə etmişlər. Hazırki dövrdə əczaçılıq bazarında bitki mənşəli preparatların artması meyili müşahidə edilir. Ona görə də karotinoidlərlə zəngin olan xammal mənbələrinin aşkar edilməsi, onlardan bioloji fəal qida əlavələri və tibbi preparatlar alınması müasir dövrdə olduqca aktualdır [8, s. 251].

Karotinoidlər yaşıl yarpaqların əsas piqmentləridir və qeyri-polyar həlledicilərdə, yağda həll olan, bitki və heyvani məhsullara sarıdan qırmızıya qədər rəng verən birləşmələrdir. Bu birləşmələrin təbiətdə təxminən 100 milyonadək fərqli rəngi vardır. Karotinoidlər yalnız bitkilər tərəfindən sintez olunur və heyvani toxumalara yalnız yem olaraq istifadə olunan zaman qarışır. Karotinoidlərin bitkilərdəki əsas vəzifəsi işığı adsorbsiya etmək və bitkini işığa həssaslıqdan qorumaqdır. Bu birləşmələrin iki əsas tipi vardır, karotinlər və oksigenləşmiş karotinlər (ksantofillər). Karotinoidlər 40 karbon atomundan əmələ gəlir [1, s. 142].

Karotinoidlər zəncirin uclarında halqa qrupu əmələ gətirib-gətirməməsinə görə tsiklik (halqalı) və atsiklik (halqasız) karotinoidlərə ayrılırlar. Karotinoidlər bitki toxumalarında sərbəst halda (kristal və amorf) və ya yağlı mühitdə həll olmuş halda olurlar. Yağ turşuları ilə efirləşmiş və ya şəkər və proteinlərlə kompleks birləşmələr əmələ gətirmiş halda da ola bilərlər. Qaynama nöqtələri yüksək olub, 130-220$^{o}$C arasında dəyişilir. Karotinoidlərdən ən önəmlisi narıncı rəngli β-karotin və likopindir. Sarı rəngli karotinoidlər ksantofillərdir. Yaşıl yarpaqlarda olan bəzi ksantofillər kriptoksantin, lutein, zeaksantin, violaksantin və neoksantindir. Bu piqmentlərin xlorofilin işığı adsorbsiya etmədiyi dalğa uzunluğunda işığı adsorbsiya etmək və günəş işığı altında xlorofil molekullarını oksigenin zərərli təsirlərindən qorumaq kimi vəzifələri vardır [7, s. 275; 8, 253].

Qidalanma üçün vacib birləşmə olan β-karotin orqanizmdə A vitamininə çevrildiyi üçün provitamin olaraq da tanınır. Tibbdən başqa karotinoidlər qida məhsullarının boyanması və bioloji dəyərlərinin artırılması üçün də geniş tətbiq olunur. Karotinoidlər qan damarlarının (xüsusən kapillyarların) möhkəmliyini və elastikliyini artırmaq, aterosklerozda, hipertonik xəstəlikdə, şüalanma zədələnmələrində, toksikozda profilaktik və müalicəvi təsir göstərmək qabiliyyətinə malikdirlər [3, s. 122; 9, s. 5].

Bitkilər aləmində *Capparaceae* Juss. fəsiləsinin nümayəndələri mühüm yer tuturlar. Bu fəsilənin nümayəndələri əksərən tropik və subtropik ölkələrdə yayılmış ot və kol bitkiləridir. Fəsilə bitkiləri yarımsəhralarda böyük sahədə efemer bitkilərlə müstəqil qruplar əmələ gətirirlər. Çay vadiləri boyunca, çınqıllı-daşlı ərazilərdə, gilli-çınqıllı yamaclarda, sıldırımlarda, köhnə tikililərdə yayılmışlar. Azərbaycanda aran və dağətəyi rayonlarda, çöllərdə, çayların kənarlarında, əkilməyən sahələrdə, Naxçıvan MR-sı ərazisin düzənlik və dağlıq sahələrində, çay vadilərində, daşlı-çınqıllı ərazilərdə, qayalıqlarda və qumlu yerlərdə yayılmışlar [2, s. 110; 9, s. 4].

Capparis L. cinsinə daxil olan Capparis spinosa L. növünün biokimyəvi tərkibinin öyrənilməsinə dünyanın bir çox ölkələrindən olan tədqiqatçılar tərəfindən 1960-cı illərdən başlansa da, Azərbaycanda 2005-ci ildən öyrənilməyə başlanılmışdır [4, s. 15]. Bu tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, bitki fenollu birləşmələrdən flavonoidlər və fenol turşuları, üzvi turşular, karotinoidlər, kükürdlü qlükozidlər, saponinlər, fitosterollar, tokoferollar, mineral maddə və digər birləşmələrlə olduqca zəngindir [5, s. 246; 6, s. 114].

**Material metodika:** Karotinoidlərin miqdarı və keyfiyyət tərkibi yeni toplanmış və spirtdə fiksə edilmiş meyvələrdə təyin olunmuşdur. Meyvələrdən karotinoid cəmi mümkün qədər tam şəkildə n-heksanla ekstraksiya edilmişdir. Həlledici vakuum altında qovulmuş, qalıq qələvi ilə sabunlaşdırılmış (saponifikasiya edilmiş) və karotinoidlər n-heksanla ayrılmışdır. Qələvinin qalığını kənarlaşdırmaq üçün heksanlı çıxarışlar su ilə işlənmiş, susuz natrium sulfatla ($Na_2SO_4$) qurudulmuş (susuzlaşdırılmış) və vakuumda həllediciدən azad edilmişdir. Karotinoid qalığı tərkibində 0,01% pikrinin natrium duzu olan 2 ml yeni qovulmuş asetonda həll edilmiş və tədqiq edilmişdir [6, s. 115].

Ümumiyyətlə, 1 q bitki materialı 100 ml həlledici vasitəsilə 4-5 dəfə ekstraksiya olunmuş və ümumi həcmi 100 ml-ə çatdırılmışdır. Ekstrakt fotokalorimetrdə 451 mm dalğa uzunluğunda ölçülmüşdür. Alınan qiymətlər metodikaya uyğun olaraq düstur vasitəsilə hesablanmışdır.

*Capparis spinosa* L. növünün meyvələrində karotinoidlərin miqdari və keyfiyyət tərkibi xromato-spektrometrik metodlarla aparılmışdır. Spektral analizlər Hitachi U-2900 UV-VIS spektrofotometr, xromatoqrafik analizlər isə sütun 60108-712 HYPERSEP SI, 10G/75ml/10PKG və DC-fertigfolien ALUGRAM SİL G/UV254 incə təbəqə vasitəsilə aparılmışdır.

**Təhlil və müzakirə:** Bir sıra bitki növləri tərkiblərində kardiotonik təsirə malik maddələr saxladığından böyük əhəmiyyətə malikdirlər. Bu isə onların bioloji fəal maddələrinin, o cümlədən karotinoidlərinin hərtərəfli tədqiqini zəruri edir. Naxçıvan MR -sı ərazisində yayılan *Capparis spinosa* L. növünün keyfiyyət tərkibi və kəmiyyət göstəriciləri haqqında məlumatlar azdır. Buna görə də həmin növün meyvələrinin karotinoidlərinin keyfiyyət tərkibi və kəmiyyət göstəriciləri haqqında məlumatlar əldə etmək məqsədi ilə tədqiqatlar aparıldı. Tədqiqatın nəticəsi göstərdi ki, *Capparis spinosa* L. meyvələri karotinoidlərlə olduqca zəngindir (Şəkil 1).

Məlum olduğu kimi karotinoidlər yüksək aktivliyə malikdirlər. Onların keyfiyyət tərkibinin ksantofil və karotinə əsasən tədqiqi zamanı müəyyən edilmişdir ki, tədqiq edilən *Capparis spinosa* növünün meyvələrində β karotinin miqdarı 50-60% təşkil edir. Karotinoidlərin qalan hissəsi isə A vitamin fəallığı daha zəif olan ksantofillərdən ibarətdir.

Meyvələrdən karotinoid cəmi tam şəkildə n-heksanla ekstraksiya olunmuşdur. Karotinoidlərin miqdarını müəyyən etmək üçün karotinoid cəmindən götürülmüş ekstrakta FEK fotokolorimetrdə 451 nm dalğa uzunluğunda (göy filtr) baxılmışdır. Petroleyin efiri: aseton: xloroform 3:1:1 nisbətində həlledici sistemi tətbiq edilmiş kağız xromatoqrafiyadan istifadə edilmişdir. α- karotinin Rf qiyməti 0,98, β- karotinin isə Rf qiyməti isə - 0,96 olmuşdur (Cədvəl 1).

Cədvəl 1

| Bitki nümunəsi (q) | Həcm (ml) | β-karotin miqdarı (mq%-lə) |
|---|---|---|
| 1,0690 | 50 | 21,75 |
| 1,0600 | 100 | 25,83 |
| 1,0068 | 100 | 25,41 |
| 1,0865 | 100 | 23,16 |

Bitki nümunəsi müxtəlif çəkidə 4 təkrarda götürülmüş və β-karotin miqdarı mq%-lə hesablanmışdır. Karotinoidlərin miqdarı 21,7- 25,8 mq% arasında dəyişilmişdir.




Şəkil 1. Karotinoidlərin UB spektri

Son zamanlar ksantofillərin də bioloji aktivliyə malik olması sübut olunmuşdur. Bitki nümunəsi müxtəlif çəkidə 4 təkrarda götürülmüş və müəyyən edilmişdir ki, β-karotinin miqdarı 21,7-25,8 mq% arasında dəyişilir.

*Capparis spinosa* L. meyvələrində karotinoidlərin miqdarı quşarmudu, çaytikanı, itburnu kimi digər giləmeyvələrlə müqayisədə o qədər də yüksək deyildir. Lakin, qurudulmuş halda sarı və sarı-narıncı rəngli lətə malik olan *Capparis spinosa* L. növünün meyvələrində karotinoidlər nisbətən yüksək miqdarlarda toplanır. Belə ki, tədqiq olunan *Capparis spinosa* L. növünün meyvələrində karotinoidlərin miqdarı 15,41-22,42 mq% arasında dəyişilir. Ən çox karotinoidlər tədqiq edilən intensiv sarı rəngdə ləti olan yetişmiş meyvələrdə, ən az karotinoidlər isə açıq-sarı və sarı rəngli meyvələrdə olduğu müəyyən edilmişdir. Sarı-narıncı rəngdə olan yetişmiş meyvələrdə karotinoidlər orta səviyyədə toplanırlar. Karotinoid cəmində komponent tərkibini müəyyən etmək üçün kağız xromatoqrafiya və nazik təbəqə xromatoqrafiya üsullarından istifadə edilmişdir. Karotinoidlərin tədqiqi zamanı həm kağız xromatoqrafiya, həm də nazik təbəqə xromatoqrafiyası üçün butanol: sirkə turşusu: su (4:1:5 nisbətində) və petroleyin efiri: aseton: xloroform (3:1:1 nisbətində) həlledici sistemləri istifadə edilmişdir. 2-ci sistemin bu birləşmələrin ayrılmasında daha çox təsirə malik olduğu müəyyən edilmişdir.

**Nəticə:** Alınan nəticələrə əsasən müəyyən olunmuşdur ki, *Capparis spinosa* L. - tikanlı kəvər növünün meyvələri karotinoidlərlə zəngindir. Kəvər meyvələrində karotinoidlər cəmində β-karotin, likopin, sis - likopin, kriptoksantin, neoksantin olduğu müəyyən edilmişdir. *Capparis spinosa* L. növü meyvələrinin karotinoidlərinin keyfiyyət tərkibi və kəmiyyətcə miqdarı üzrə alınan məlumatlar növün statusunun müəyyən edilməsi üzrə sistematik tədqiqatlarda əlavə kimyəvi əlamət kimi istifadə edilə bilər. Karotinoidlərin kəmiyyətcə miqdarlarının kifayət qədər çox olması isə həmin növlərin karotinoid konsentratlarının alınması üçün potensial xammal mənbələrinin olmasını sübut edir.

## ƏDƏBİYYAT


2. Rəhimova S.Ə. *Capparis herbacea* L. (çöl kəvəri) növünün meyvə və yarpaqlarının xlorofil və karotinoidləri / Aqrar elmin inkişafı, ərzaq təhlükəsizliyi və ətraf mühitin mühafizəsində beynəlxalq əməkdaşlıq, 8-ci beynəlxalq elmi praktik konfrans, I cild, Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə şəhəri, 2016, s. 141-145
3. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublika florasının taksonomik spektri (ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər), Naxçıvan: Əcəmi, 2008, 364 s.
4. Atilla A. Yeniden keşf edilen lezzet: Kapari (*Capparis* sp.) // Selçuk Üniversitesi, Konya, 1996, v. 21, No 2, s. 119-128
5. Новрузов Э.Н. Каротиноид содержащие растения флоры Азербайджана // Изв. НАН Азербайджана, сер. биол. наук, 2005, № 5-6, с. 13-32
6. Новрузов Э.Н. Пигменты репродуктивных органов растений и их значение. Баку: Элм, 2010, 310 с.
7. Новрузов Э.Н., Асланов С.М., Мамедов С.Ш., Шамсизаде Л.А. Исследование каротиноидов методом ТСХ / Тезисы докл. V Закавказской конференции. по адсорбции и хроматографии, Баку: 1982, с. 114-115
8. Anatoly A. G., Yoav Z., Olga B. Chivkunova and Mark N. Merzlyak Assessing Carotenoid Content in Plant Leaves with Reflectance Spectroscopy // School of Natural Resource Sciences, University of Nebraska -Lincoln, 2002, v. 75, No 3, pp. 272-281
9. Lila M.A. Plant pigments and human health // Plant pigments and their manipulation. Ann. Plant Rev./ Ed. Davies K. CRC Press LLC, 2004, pp. 248-274
10. Talibov T., Rahimova S. Distribution zones, biomorphologic and therapeutic features of species included in *Capparaceae* Juss. family in the flora of Nakhchivan Autonomous Republic of Azerbaijan // International Journal of Botany Studies, 2017, v. 2, No 2, pp. 4-6


## ABSTRACT


**Sura Rahimova**


**THE CAROTINOIDS OF *CAPPARIS SPINOSA* L. SPECIES SPREADING IN THE AREA OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**


Five individual carotenoids were allocated from fruits of *Capparis spinosa* L. species. On the basis of data of a chromatography and spectroscopy, their comparison with data of authentic exemplars, the allocated carotenoids were identified as β-carotene, lycopene, sis-lycopene, neoxanthine and cryptoxanthine. Chromatospectral analyses showed that the main part of the sum of carotenoids are made by β caroten (60,3%), then lycopene (20,9%).


## РЕЗЮМЕ


**Сура Рагимова**


**КАРОТИНОИДЫ ВИДА *CAPPARIS SPINOSA* L. РАСПРОСТРАНЕННЫХ НА ТЕРРИТОРИИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ**


Из плодов *Capparis spinosa* L. былоо выделено 5 индивидуальных каротиноидов. На основании данных хроматографии и спектроскопии, сравнение их с данными аутентичных образцов, выделенные каротиноиды идентифицированы как β-каротин, ликопин, цис-ликопин, неоксантин и криптоксантин. Хроматоспектроскопические анализы показали, что основную часть суммы каротиноидов составляет β-каротин (60,3 %), затем ликопин (20,9%).

**ƏNVƏR İBRAHİMOV**
*enver_ibrahimov@mail.ru*
*AMEA Naxçıvan Bölməsi*
***ƏLİ QURBANOV***
*Naxçıvan Dövlət Universiteti*
*eli qurbanov57@mail.ru*
**HƏMİDƏ SEYİDOVA**
*hemide_seyidova@mail.ru*
*AMEA Naxçıvan Bölməsi*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ƏRAZİSİNDƏ YAYILAN *PRUNUS* L. CINSİNƏ DAXİL OLAN NÖVLƏRİN TƏDQİQİ, TƏBİİ EHTİYATI VƏ SƏMƏRƏLİ İSTİFADƏ YOLLARI

**Açar sözlər:** *Prunus L., növ tərkibi, yayılma zonası, təbii ehtiyat*
**Key words:** *Prunus* L., *species composition, distribution zones, natural reserve*
**Ключевые слова:** *Prunus L., видовой состав, зоны распространения,природный запас*

Cəmiyyətin müasir mərhələdə inkişafı, elmi - texniki tərəqqinin ətraf mühitə əsaslı təsir etdiyi bir dövrdə əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi üçün təbii bitki ehtiyatlarının elmi əsaslarla kompleks öyrənilməsinin təşkili və onlardan istifadə edilməsi dövrün əsas məsələlərindən biridir. Müasir dövrdə əhalinin maddi rifah halını daha da yaxşılaşdırmaq, onların artan tələbatını maksimum dərəcədə ödəmək üçün təbii sərvətlərdən səmərəli və məqsədyönlü istifadə olunması daim diqqət mərkəzindədir. Hər bir ölkənin iqtisadi yüksəlişi, digər faktorlarla bərabər onun təbii ehtiyatlarının hərtərəfli öyrənilməsi və səmərəli istifadəsindən də asılıdır. Naxçıvan Muxtar Respublika ərazisində yabanı meyvə bitkiləri təbii sərvət olmaqla, həm də ehtiyat qida mənbəyidir. Bu bitkilərin çoxu qədim zamanlardan başlayaraq bu günə qədər insanların qidasında xüsusi yer tutmuşdur. Hazırda əhali bu təbii sərvətlərdən çox az miqdarda istifadə edir, yüz tonlarla məhsullar isə istifadəsiz qalır.

Naxçıvan Muxtar Respublikasının zəngin bitki örtüyü içərisində alça - gavalı (*Prunus* L.) cinsinin yabanı və mədəni növləri əhəmiyyətinə görə önəmli yerlərdən birini tutur. Son dövrlərdə nəşr olunan ədəbiyyat mənbələrində (5, s. 89-104; 6, s. 82-92; 7, s. 69- 77; 18, s. 78-83) *Prunus* L. cinsinə daxil olan növlərin sistematik tərkibi haqqında məlumatların verilməsinə baxmayaraq, onların təbii ehtiyatı və istifadə perspektivləri tam araşdırılmamış olaraq qalmaqdadır. "Лесная растительность Азербайджана" (17, s. 280-311, 465) kitabında alçanın bir- *Prunus divaricata* Ledeb., "Флора Кавказа" (13, s. 126-128, 134-137) və Флора Азербайджана" (19, s.177-181, 190-195) əsərlərinin 5-ci cildində *Prunus* L. cinsinin *P. domestica* L., *P. divaricata* Ledeb., *P. divaricata* Ledeb. var. *nairica* Kov. və *P. divaricata* Ledeb. var. *nachitschevanica* Kov., "Azərbaycanın ağac və kolları" (1, s.105-110, 114-120) kitabının 3-cü cildində isə *Prunus spinosa* L., *P. divaricata* Ledeb., P. *divaricata* Ledeb. var. *nairica* Kov., *P. divaricata* Ledeb. var. *nachitschevanica* Kov., *P. domestica* L. növ və variasiyalarının yayılması haqqında məlumat verilmişdir.

M.S.Məmmədov, K.S.Əsədov və F.M.Məmmədovun "Dendrologiya" (3, s. 264-275) kitabında Azərbaycan florasında *Prunus* L. cinsinin 5 növ 2 variasiyasının *Prunus domestica* L., *P. spinosa* L., *P. divaricata* Ledeb., *P. divaricata* Ledeb. var. *nairica* Kov., *P. divaricata* Ledeb. var. *nachitschevanica* Kov., *P. caspica* Koval. et Ekim., *P. iranica* Kov. yayıldığı qeyd edilmişdir.

E.M. Qurbanov (14, s 98, 228) Naxçıvançay hövzəsinin bitkiliyini öyrənərkən tədqiqat ərazisində iki növ alçanın (*Prunus domestica* L., *P. divaricata* Ledeb.) yayıldığını göstərmişdir.

A.M. Əsgərov (2, s.75-78) Azərbaycan florasında *Prunus* L. cinsinə daxil olan *Prunus spinosa* L., *P. divaricata* Ledeb., *P. divaricata* Ledeb. ssp. *caspica* Brovicz (*P. caspica* Koval. et Ekim. nom. invalid), *P. domestica* L., *P. iranica* Kov., *P. pisardii* Carrière, var. *P. nachichevanica* Kudr. (*Prunus cerasifera* ssp. *nachichevanica* Kovalev nom. invalid) növlərinin yayıldığını göstərmişdir. S.K.Çerepanovun (20, s.441, 451) kitabında da sistematik taksonların dəqiqləşdirilməsi zamanı *P. nachichevanica* Kudr. növü sərbəst növ olaraq qeyd edilmişdir.

Ə.Ş. İbrahimov (15, s.79, 126) isə Naxçıvan Muxtar Respublika florasının bitkiliyi və onun xalq təsərrüfatı əhəmiyyətini öyrənərkən ərazidə yayılan *Prunus* L. cinsinə daxil olan növlər haqqında da məlumat vermişdir. *Prunus* L. cinsinə daxil olan növlər ilə əlaqədar məlumatlara T.H. Talıbov və Ə.Ş.

İbrahimovun (9, s.128, 130) "Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri" kitabında da geniş verilmişdir.

Bununla əlaqədar son məlumatlar T.H. Talıbov və Ə.M. İbrahimov (5, s. 89-104; 7, s. 69- 77; 18, s. 78-83) tərəfindən aparılan araşdırmalar zamanı digər bitkilərlə yanaşı alça və albalının da növ tərkibi dəqiqləşdirilmiş və istifadə imkanları müəyyənləşdirilmişdir. Müəlliflər tərəfindən aparılan araşdırmalar zamanı Naxçıvan Muxtar Respublika ərazisində *Prunus* L. cinsinin *P. divaricata* Ledeb., *P. spinosa* L., *P. nachichevanica* Kudr., *P. domestica* L., növlərinin yayıldığı müəyyən olunmuşdur. Bu növlər əsasən orta və nisbətən yuxarı dağlıq qurşaqların daşlı - çınqıllı yamaclarında, seyrək meşəliklərdə, tala və meşə kənarlarında, çay vadilərində, tək-tək və ya qrup halında kol və ağac şəklində yayılmışdır.

Son illər Naxçıvan Muxtar Respublika ərazisində iqlim və antropogen amillərin təsiri nəticəsində təbiətdə bir sıra qiymətli növlərin də məhv olma təhlükəsinin yarandıgı müəyyənləşdirilmişdir. T.Məmmədov, E.O.İsgəndər və T.H.Talıbov tərəfindən aparılan araşdırmalar nəticəsində *Prunus divaricata* Ledeb. növünün nadir və nəsli kəsilməkdə olduğu nəzərə alınaraq, qorunması yolları göstərilmişdir (4, s. 303-304).

**Tədqiqatın metodikası:** Naxçıvan Muxtar Respublikasının bütün botaniki-coğrafi zonalarından çöl tədqiqatları zamanı toplanılan herbari materiallarının işlənilməsində klassik və müasir - botaniki floristik, sistematik metodlardan istifadə edilmişdir. *Prunus* L. cinsinə daxil olan növlərin biomorfoloji xüsusiyyətlərinin təsvirində "Azərbaycanın ağac və kolları" (1), "Флора Кавказа" (13), "Флора Азербайджана" (19), təbii ehtiyatın müəyyənləşdirilməsində isə N.A.Borisova, A.İ.Şreterin (12), A.V. Kalininanın (16) metodikasından istifadə edilmişdir. Sistematik taksonların dəqiqləşdirilməsində S.K.Çerepanovun (20) aparılmış, areallarının müəyyən edilməsində isə "Ареалы деревьев и кустарников СССР" (11) kitabından istifadə edilmişdir.

**Eksperimental hissə:** Ekspedisiyalar zamanı alça-gavalı (*Prunus* L.) cinsinə daxil olan növlərin biomorfoloji və botaniki xüsusiyyətləri öyrənilmiş, təbii ehtiyatı müəyyənləşdirilmiş, istifadə imkanları araşdırılmış və genetik fondu toplanılmışdır. Beləliklə, aparılan tədqiqat işlərinin nəticələrinə və ədəbiyyat məlumatlarına əsaslanaraq, Naxçıvan Muxtar Respublika ərazisində yayılmış alça-gavalı (*Prunus* L.) cinsinə daxil olan növlərin sistematik tərkibi aşağıdakı kimi olmuşdur.

**1. Cins: *Prunus* L.- Alça- gavalı**

Yer kürəsində əsasən mülayim iqlimli ölkələrdə yayılmışdır. Qafqazda və Azərbaycanda 5, Naxçıvan Muxtar Respublikası ərazisində isə 3 növü (bir yabanı, 3 mədəni) yayılmışdır. Azərbaycanda alça-gavalının göyçə sultanı, mələs alça, payız mələsi, Rəcəbli qara alça, şabran alça, Talibi alça, xanbəyi alça və s. şortları bağlarda, həyətyanı sahələrdə əkilib becərilir.

**1. P. divaricata Ledeb. - Alça gavalı.** Hündürlüyü 10-15 m-ə çatan ağac və ya koldur. Budaqları tikanlıdır. Tumurcuqları qonur rəngdədir və uzunluğu 1-1,5 mm-dir. Çiçək tumurcuqları konus şəkilli olub, yumurtavaridir. Yarpaqları üstdən çılpaq, altdan orta damar boyu tükcüklüdür. Çiçəkləri yarpaqlanmadan qabaq açılır. Çiçək saplağı çılpaqdır və uzunluğu 1-2,2 sm-dir. Kasa yarpaqcıqlarının ucu aşağı əyilmiş dişvari çıxıntılı, ləçəkləri 5-10 mm uzunluğundadır və ağdır. Yumurtalığı və sütuncuğu çılpaqdır. Meyvəsi sarı-bənövşəyi və ya qırmızı rəngdə olub, diametri 3 sm-dir. Çəyirdəyi oval formalıdır. Aprel-may aylarında çiçək açır, iyul-avqust aylarında isə meyvə verir.

Ordubad rayonunun Gilançay, Vənənd, Dırnıs, Culfa rayonunun Əbrəqunus, Kırna, Göydərə, Əlincə, Kəngərli rayonunun Qarabağlar, Babək rayonunun Vayxır, Xalxal, Şahbuz rayonunun Qarababa, Külüs və s. kəndləri ətrafında, meşələrdə, kolluqlarda, talalarda, dağ yamaclarında, çay dərələrində yayılmışdır. Mezofitdir. Şərqi Aralıq dənizi coğrafi areal tipinə daxildir.




**2. P. spinosa L. - Göyəm gavalı.** Çox da böyük olmayan ağacdır. Budaqlarının üzəri tikanlıdır. Cavan zoğları sarımtıl-qonur, sonra isə çılpaq və parlaq olur. Gövdədə qabıqları tünd bozumtul-qonur rəngdədir və zəif qatlıdır. Tumurcuqları 1-2 mm uzunluqdadır və yumurtavaridir. Yarpaqları ellipsvarı, tərs

yumurtavari, oturaq hissəsi pazşəkilli, kənarı sivri və dairəvi mişardişlidir. Cavan yarpaqları qısa tükcüklü, yetkin yarpaqları isə çılpaqdır. Çiçəkləri tək-tək yerləşir və yarpaqlamadan əvvəl açılır. Çiçək saplaqları qısa olub, çılpaq və ya tükcüklüdür. Kasa yarpaqcıqlarının kənarı kirpikciklidir, ləçəkləri ağ rəngə çalır. Meyvəsi düz dayanan saplaqlarda olur, qaradır, diametri 1-1,5 sm-dir. Aprel-may aylarında çiçək açır, iyul-avqust aylarında isə meyvə verir.




Şahbuz rzyonunun Biçənək, Ağbulaq, Ordubad rayonunun Xurs, Kotam, Culfa rayonunun Milax, Ərəfsə və s. kəndləri ətrafında meşələrdə, meşə talalarında əkilərək yayılmışdır. Mezofitdir. Avropa - Aralıq dənizi coğrafi areal tipinə daxildir.

**3. P. nachichevanica Kudr.- Naxçıvan göyəmi.** 3-5 m hündürlüyündə, tikansız ağacdır. Meyvəsi çəhrayı-yaşılımtıl və ya açıq qırmızıdır. Çəyirdəyi yastıdır, enli iti tillidir, əsası kəsilmiş formadadır.




Yabanı halda Şahbuz rayonunun Biçənək kəndi ətraf ərazilərində meçələrdə rast gəlinir. Qiymətli qida bitkisidir. Meyvələri təzə və qurudulmuş halda yeyilir. Mezofitdir.

Naxçıvan göyəmi gavalı, ərik, şaftalı və başqa çəyirdəkli meyvə cinsləri üçün yaxşı calaqaltıdır.

**4. P. domestica L. - Adi gavalı.** Hündürlüyü 10-12 m olan enli və ya ensiz yumurtavari çətirli ağacdır. Budaqları tikansız və ya azca tikanlıdır.




Cavan zoğları qırmızımtıl-qəhvəyi və ya yaşılımtıl-sarı rəngdədir, çılpaqdır. Yarpaqları üstdən çılpaq, altdan tükcüklüdür və ellipsvaridir. Ləçəklərinin uzunluğu 9-11mm olub, ağ rəngə çalır. Meyvələri müxtəlif formalıdır, hər iki tərəfi basıqdır. Çəyirdəyi qabarcıqlı və ya azca kələ-kötür olub, enli oval şəklindədir. Aprel-may aylarında çiçək açır, iyul-avqust aylarında isə meyvə verir.Qiymətli qida bitkisidir. Naxçıvan Muxtar Respublikasının bütün rayonlarında düzənlikdən başlamış yuxarı dağ qurşağına qədər əkilib-becərilir. Mezofitdir.

2018- ci ildə apardığımız tədqiqatlar zamanı əsas məsələlərdən biri də ərazidə yayılan alça - gavalı növünün təbii ehtiyatının hesablanması və istifadə imkanlarının araşdırılması olmuşdur. Bununla əlaqədar olaraq tibbi və sənaye əhəmiyyəti olan *Prunus divaricata* Ledeb. növünün təbii ehtiyatı müəyyənləşdirilmişdir (10, s. 227-228). Təbii ehtiyatın təyini N.A.Borisova və A.İ.Şreterin (12) tərtib etdiyi metodikaya əsasən aparılmışdır. Bunun üçün tədqiqat aparılan rayonda və hər bir məntəqədə üç təkrarlı 25

və 100 $m^2$ sahəyəyə malik hesablama sahələri müəyyənləşdirilmişdir. Meyvələrin məhsuldarlığı 10 seçilmiş ağac üzərində təyin olunmuşdur. Seçilmiş ağacların meyvələri çəkilmiş və orta məhsuldarlığı hesablanılmışdır. Həmçinin, ağac və kolların sahəsi və sahə vahidinə düşən bütün növlərin sayı müəyyən edilmişdir. Alınmış nəticələrə görə təbii ehtiyat hesablanmışdır (Cədvəl).

Cədvəl

Alça - gavalı (*Prunus divaricata* Ledeb. ) növünün rayonlar üzrə təbii ehtiyatı

| Rayonlar | 1 ha-da ağacların sayı (ədəd) | 1 ağacda meyvənin orta çəki, kq. | Ümumi sahə, ha | Məhsul-darlıq, 1 ha/ kq | Təbii ehtiyatı, t | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | Bioloji ehtiyatı | İstismar ehtiyatı | İllik tədarük həcmi |
| Sədərək | 31 | 15 | 56 | 465 | 26,04 | 10,42 | 1,56 |
| Şərur | 37 | 18 | 113 | 666 | 75,26 | 30,10 | 4,52 |
| Kəngərli | 34 | 21 | 63 | 714 | 44,98 | 17,99 | 2,70 |
| Şahbuz | 75 | 19 | 146 | 1425 | 208,05 | 83,22 | 12,48 |
| Babək | 27 | 22 | 47 | 594 | 27,92 | 11,17 | 1,68 |
| Culfa | 73 | 26 | 131 | 1898 | 248,64 | 99,46 | 14,92 |
| Ordubad | 81 | 19 | 157 | 1539 | 241,62 | 96,65 | 14,50 |
| Cəmi: | | | 713 | | 872,51 | 349,00 | 52,35 |

Ümumiyyətlə, meyvələrin toplanılması zamanı ərazinin mütləq hündürlüyündən asılı olaraq yetişmə dövründəki böyük fərqlilik nəzərə alınmalıdır. Orta dağlıq qurşaqda meyvələrin toplanılmasının ən əlverişli dövrü sentyabrın ikinci yarısı və yüksək dağlıqda isə oktyabrın birinci yarısı hesab edilməlidir. *Prunus* L. cinsinə daxil olan növlər həmçinin nektar və çiçək tozu verən bitkiləridir (8, 290-293). Onlardan *Prunus divaricata* Ledeb., *P. domestica* L. növləri Naxçıvan "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri" kitabına salınmış və istifadə yolları göstərilmişdir (10, s. 195-196, 227-231). Alca-gavalının meyvəsi təzə halda yeyilir, təzə və qurudulmuş halda xörəklərdə istifadə olunur, mürəbbə, cem, "lavaşa" hazırlanır və konservləşdirilir. Naxçıvan Muxtar Respublikanın flora biomüxtəlifliyində alça-gavalı (*Prunus* L.) cinsinə daxil olan növlərin həm də meşə ekosisteminin formalaşmasında subdominant bitkilər kimi müstəsna əhəmiyyəti vardır.

## ƏDƏBİYYAT


1. Azərbaycanın ağac və kolları, III c., Bakı: Elm, 1964, 221 s.
2. Əsgərov A.M. Azərbaycanın ali bitkiləri.Azərbaycan florasının konspekti, Bakı, Elm, 2005,II c.,248 s.
3. Məmmədov M.S., Əsədov K.S., Məmmədov F.M. Dendrologiya. Bakı: Gənclik, 2014, 484 s.
4. Məmmədov T.S., İsgəndər E.O., Talıbov T.H. Azərbaycan nadir ağac və kol bitkiləri, Bakı, Elm, 2016, 380 s.
5. İbrahimov Ə.M. Naxçıvan Muxtar Respublikası ərazisində yayılan ağac və kolların tədqiqi vəziyyəti (Yabanı, mədəni və introduksiya olunmuşlar) // AMEA Naxçıvan bölməsinin xəbərləri, təbiət və texniki elmlər seriyası, 2012, № 4, s. 89- 104
6. İbrahimov Ə.M. Naxçıvan Muxtar Respublikasinin meşə ekosistemi (İcmal) // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, Təbiət və texniki elmlər seriyası, 2015, № 4, s. 82-92
7. Talıbov T.H., İbrahimov Ə.M. Naxçıvan Muxtar Respublikasının dendroflorası // AMEA Naxçıvan bölməsinin xəbərləri, təbiət və texniki elmlər seriyası, 2013, № 4, s. 69- 77
8. Talıbov T.H., İbrahimov Ə.M. Naxçıvan Muxtar Respublikası florasının nektar və çiçək tozu verən bitkiləri / Arıçılığın inkişafına dair Azərbaycan Türkiyə elmi – tədqiqat əməkdaşlığı" toplantısı II və ARKTN-nin Aqrar Elm Mərkəzinin gənc alimlər Şurasının II Beynəlxalq konfransı. 09-11 iyun 2015, Gəncə, 2015, s. 290-293
9. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər). Naxçıvan: Əcəmi, 2008, 364 s.
10. Talıbov T.H., Ə.Ş.İbrahimov, Ə.M.İbrahimov, A.H.İsmayılov, R.Ə.Ələkbərov, V.B.Quliyev, Ə.K.Qurbanov. Naxçıvan Muxtar Respublikasının rəsmi dərman bitkiləri. Naxçıvan: Əcəmi Nəşriyyat - Poliqrafiya Birliyi, 2014, 466 s.
11. Ареалы деревьев и кустарников СССР. Л.: Наука, 1980, Т.2, с. 68- 77
12. Борисова Н.А., Шретер А.И. К методике учета и картирования ресурсов лекарственных растений. Растителные ресурсы, Л:. Наука 1966, Т.2, вып. 2, с.271-277.
13. Гроссгейм А.А. Флора Кавказа. М.-Л.:Изд-во АН СССР,1950, т.V,44-58 с.

14. Гурбанов Э.М. Растительный мир бассейна р. Нахичеванчая. Баку: Изд-во БДУ, 1996, 248 с.
15. Ибрагимов А.Ш. Растительность Нахчыванской Автономной Республики и ее народно-хозяйственное значение. Баку: Элм, 2005, 236 с.
16. Калинина А.В. Метод составления таблиц для оценки урожая плодов дикорастущих плодовых лесов. АН СССР, Растительные ресурсы, 1977, т. XIII, вып. 1, с. 132-140
17. Прилипко Л.И. Лесная растительность Азербайджана. Баку:АН Азерб. ССР, 1954, 488с.
18. Талыбов Т.Г., Ибрагимов А.М. Хозяйственно-полезные древесные растения Нахчыванской Автономной Республики Азербайджана и перспективы их использования // Hortus botanikus, Международный электронный журнал ботанического садов, 2015, № XX, с. 78-83.
19. Флора Азербайджана. Баку: Изд-во АН Азерб. ССР, 1953, т.V, 78-90 с.
20. Черепанов С.К. Сосудистые растения России и сопредельных государств (в пределах бывшего СССР). С-Петербург: Мир и семья-95, 1995, 992 с.

## ABSTRACT

**Anvar Ibrahimov**
**Ali Gurbanov**
**Hamida Seyidova**

### STUDY OF SPECIES OF GENUS *PRUNUS* L., DISTRIBUTED ON THE TERRITORY OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC, THEIR NATURAL RESERVE, WAYS OF RATIONAL USE

Based on the results of many years of research conducted in the territory of the Nakhchivan Autonomous Republic and literature data the species composition of the genuses *Prunus* L. Has been identified, and the distribution zones were specified. It has been established that at present in the flora of the Nakhchivan AR 4 species of the genus *Prunus* L are distributed - *P. divaricata* Ledeb., *P. spinosa* L., *P. nachichevanica* Kudr., *P. domestica* L. Of these, *Prunus divaricata* Ledeb. and *P. domestica* L. are included in the book "Medicinal Plants of the Nakhchivan Autonomous Republic" and indicates the ways of use. Considering the medical and industrial importance of *Prunus divaricata* Ledeb. its natural reserve has been calculated, usage prospects have been established. It has been found that harvesting the harvest of *Prunus divaricata* Ledeb. on the territory of the Nakhchivan AR it is advisable to carry out on the middle belt in the second half of September, and on the high-mountain belt in the first half of October.

## РЕЗЮМЕ

**Анвар Ибрагимов**
**Али Гурбанов**
**Гамида Сейидова**

### ИССЛЕДОВАНИЕ ВИДОВ РОДОВ *PRUNUS* L. РАСПРОСТРАНЕННЫХ НА ТЕРРИТОРИИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ, ИХ ПРИРОДНЫЙ ЗАПАС, ПУТИ РАЦИОНАЛЬНОГО ИСПОЛЬЗОВАНИЯ

Основываясь на результаты многолетних исследований, проведенных на территории Нахчыванской АР и литературные данные установлен видовой состав родов *Prunus* L., уточнены зоны распространения. Выявлено, что в настоящее время во флоре Нахчыванской АР распространены 4 вида рода *Prunus* L. - *P. divaricata* Ledeb., *P. spinosa* L., *P. nachichevanica* Kudr., *P. domestica* L.. Из них *Prunus divaricata* Ledeb. и *P. domestica* L. включены в книгу «Лекарственные растения Нахчыванской Автономной Республики» и указаны пути применения. Учитывая медицинское и промышленное значение *Prunus divaricata* Ledeb. рассчитан его природный запас, установлены перспективы использования. Выяснено, что заготовку урожая *Prunus divaricata* Ledeb. на территории Нахчыванской АР целесообразно проводить на средней полосе во второй половине сентября, а на высокогорной в первой половине октября.

**MƏMMƏD HÜSEYNƏLİYEV**
*AMEA Naxçıvan Bölməsi*
mamedhuss@mail.ru

# MİLLİ ORNAMEHTLƏRİ ÖZÜNDƏ ƏKS ETDİRƏN YENİ SİMMETRİYA ELEMENTLƏRİ VƏ ONLARIN TƏTBİQİ

**Açar sözlər:** *"Buta", "Qoç", "Quş", milli ornament, M.K.Eşer, "Kərtənkələlər", simmetriya elementi, tesselyasiya*

**Key words:** *"Buta", "Sheep", "Bird", a national ornament, M.C.Escher, "Lizards" symmetry element, tessellation*

**Ключевые слова:** *«Бута», «Баран» «Птица», национальный орнамент, М.К.Эшер, «Ящерицы», элемент симметрии, тесселяция*

Hər bir xalqın milli dəyərləri özündə həmin xalqın tarixini əks etdirməklə, həm də bu xalqın müəyyən mənada böyüklüyünün göstəricisidir. Milli ideologiya, tarix, dil, mədəniyyət və incəsənət, ədəbiyyat, özünüdərk, bir sözlə, milli olan bütün keyfiyyətlərimiz dəyərlər sisteminə aiddir.

Ümummilli lider milli dəyərlərə çox yüksək qiymət verirdi: "Milli dəyərlər daim qorunmalı, yaşadılmalıdır, milli dəyərlər bizim varlığımızın əsasıdır. Milli dəyərlər insanın kamilləşməsi, şəxsiyyətin formalaşması üçün milli mentalitetdən qida alaraq zaman-zaman bütün əxlaqi keyfiyyətləri özündə toplayaraq cəmiyyətə vəsiqə alır. Hər xalqın öz adət-ənənəsi var, öz milli dəyərləri var. Biz öz milli dəyərlərimiz, adət-ənənələrimizlə fəxr edirik".

Milli ornamentlər bəzən sərbəst halda, çox hallarda isə milli dəyərlərimizdə öz əksini tapmış xüsusi qrafik təsvirlər, şəkillər və ya heykəllərdir.

Milli ornamentlərimizin zənginliyinin əsası XII əsrdə qoyulmuşdur və sənətşünasların fikrincə dahi Nizami poeziyada hansı zirvəni fəth edə bilmişdirsə, Naxçıvan memarlıq məktəbi də məhz həmin dövrdə öz sahəsində ən yüksək zirvəyə qalxmışdır.

Naxçıvanda ən geniş yayılmış milli ornamentlər siyahısına yəqin ki, ilk növbədə qoç, buta, dəvə, quş və s. təsvirləri aid etmək olar.

Qoç min illərdir ki, qədim türklərdə kişilik və igidlik mücəssəməsi kimi səciyyələnir. Dastanlarımızda və qəhrəmanlıq salnamələrində sərkərdələr, türk oğulları, igidlər qoça bənzədilirdilər. Bundan başqa, qoçun fiziki göstəricilərinə əsaslanaraq deyə bilərik ki, maddi-mədəniyyət nümunələrində qoç elementləri həm də gücü, hakimiyyəti, mərdliyi və dəyanəti rəmzləşdirir, bolluq, bərəkət rəmzi hesab olunur.

Naxçıvan şəhərində "Əcəmi" seyrangahında yerləşən muzeydə Naxçıvan Muxtar Respublikasının ərazisindən tapılmış, müxtəlif dövrlərə aid qoç heykəllər, daş kitabələr və müxtəlif daş fiqurlardan ibarət 169 maddi-mədəniyyət nümunəsi mühafizə olunur və nümayiş etdirilir ki, onların da böyük bir qismini qoç heykəlləri təşkil edir. Qoç heykəlləri arasında elələri vardır ki, onların yaşı min ildən artıqdır.

Azərbaycanın milli ornamentində ən çox yayılmış element – yuxarı ucu ensiz və əyilmiş olan badamvari naxışlı "buta"dır. Odun dili formasında təsvir edilən, Azərbaycanda daha qədimdən xoşbəxtlik, əmin-amanlıq, firavanlıq rəmzi olan buta, eyni zamanda, hərəkət, inkişaf və enerji simvoludur. Burada onu qeyd etmək yerinə düşər ki, loqotipə xüsusi önəm verən "Azpetrol" uzun müddət davam edən seçimdən sonra əvvəllər istifadə etdiyi loqotiplərdən imtina edərək, 2004-cü ildən özünün mənsubiyyətini, məqsəd və məramını qabarıq şəkildə çatdıra bilən "buta" loqosu üzərində dayanmağı lazım bilmişdir. Azərbaycanda keçirilən Avropa Oyunlarının loqosuna beş element daxil edilmişdir: od, su, ölkənin milli meyvəsi - nar, Feniks quşu və ya Azərbaycan təfsirində - Simurq və milli ornament elementi olan "buta".

Xalça və parça rəsmlərində dekor elementi kimi "buta"ya tez-tez rast gəlmək olar.

Biz çox vaxt deyirik: milli dəyərlərimizi öyrənək, qoruyaq, inkişaf etdirək. Lakin, heç vaxt demirik ki, milli dəyər yaradaq. Doğrudan da belə yanaşma absurd olardı, çünki milli dəyər ən azından xalqın tarixindən keçib gəlməlidir. Doğrudur, bəzən sənətkar elə sənət əsərləri yarada bilər ki, bu əsərlər onun sağlığında belə milli dəyər səviyyəsinə yüksələ bilər. Lakin, milli dəyərlərimizi və onun bir komponenti olan milli ornamentlərimizi modern səviyyədə, yeni səpkidə təqdim etmək olar, onların məzmununu ümumbəşəri dəyərlərlə zənginləşdirmək olar və beləliklə də onlara ikinci bir həyat vermək olar.

Yollarımıza döşənmiş səki daşlarına baxanda istər istəməz insanın ağlından belə bir fikir keçir. Primitiv (dördbucaqlı, altıbucaqlı, rombşəkilli və s.) elementlərdən ibarət olan bu fiqurlar müstəvini kəsilməz olaraq doldursalar da özlərində heç bir məzmun əks elətdirmirlər.

Bu halda istər istəməz düşünürsən ki, nə yaxşı olardı bu fiqurlar özlərində milli ornamentlərimizi əks elətdirərdilər. Yuxarıda adları çəkilən primitiv fiqurlarda döşəndikləri sahəni tam olaraq doldura bilmə xassələri vardır və əgər hər hansı bir milli ornamentdən bu məqsədlə istifadə etmək məsələsi qarşıya qoyularsa ilk növbədə həmin ornament bu xassəyə cavab verməlidir. Bu isə məsələyə elmi yanaşma tələb edir, simmetriya elementləri ilə milli ornamentlərimizin sintezi problemləri ortaya çıxır.

Simmetriya məsələsinin ixtisasından asılı olmayaraq hər bir tədqiqatçının maraq dairəsində olması təbiidir. Bu bir tarixi faktdır ki, Lui Paster (bioloq) bütün ömrü boyunca öz elmi yaradıcılığını başladığı mövzuya qayıtmaq istəmişdir. Amma buna heç cürə nail ola bilməmişdir. Bu mövzu həm də Pyer Küri (fizik) üçün əlçatmaz olaraq qaldı. Radioaktivliyi bir kənara qoyaraq o bu mövzu ilə məşğul olmaq istəyirdi. Lakin o da buna "vaxt tapmadı".

Hər iki alimin məşğul olmaq istədikləri sahə təbiətdəki simmetriya idi və hər ikisi yaxşı başa düşürdü ki, simmetriya mövzusuna girişmək sonsuz fəzalarda üzməyə bənzəyir, buna isə ömür kifayət etməz.

Bu mövzu o qədər çoxtərəflidir ki, alimlər yalnız öz ixtisaslarına yaxın olan çox kiçik bir sahə seçərək simmetriya ilə bir xobbi kimi məşğul olurlar. Burada hər kəsə yer vardır. Riyaziyyatçılar və fiziklər, bioloqlar və həkimlər, kristalloqraflar və incəsənət adamları, mühəndislər və filosoflar, astronomlar və seleksiyaçılar simmetriyanın sirlərini öyrənməyə çalışırlar.

Bu problem haqqında düşünərkən Holland rəssamı M.K.Eşerin ( M.K.Escher) "Kərtənkələlər" əsəri köməyimizə çatdı. Şəkil 1-də göstərilən ornament rəssamın Grafiek en Tekhningen (Zwolla, Hollandiya, 1959) albomundan (albom dəfələrlə çap olunmuşdur) götürülmüşdür. Bu əsəri rəssamın şah əsəri hesab etmək olar. Təsadüfi deyildir ki, görkəmli alman riyaziyyatçısı German Veyl özünün məşhur "Simmetriya" kitabının üzqabığının bəzədilməsində Eşerin məhz bu əsərini seçmişdir [1].

"Kərtənkələlər" əsəri altı müxtəlif istiqamətdə yönəlmiş, üç rənglə işlənmiş, müstəvini kəsilməz olaraq dolduran, periodik təkrar olunan və tamamilə bir - birinin eyni olan kərtənkələ fiqurlarından ibarətdir (şəkil 1).



Şəkil 1. Holland rəssamı Eşerin (M.K.Escher) "Kərtənkələlər" əsəri.

Belə əsərləri ərsəyə gətirmək ən əsası ona görə çətindir ki, burada rəssam tam sərbəst deyil. Fiqurun hər hansı bir kənarında çəkilən kontur onun digər bir kənarında da çəkilmiş olur. Belə məhdudiyyətlər şəraitində hər hansı bir fiqurun çəkilməsi (xüsusilə qarşıya müəyyən bir fiqurun çəkilməsi məqsədi qoyularsa) demək olar ki, qeyri-mümkündür.

Eşerin "Kərtənkələlər" əsərinin simmetriyasının sirri nədir? Onun qurulma texnologiyası nəyə əsaslanır?

Bütün bu suallara "Bir simmetriya məsələsi və onun qurulma texnologiyası" məqaləsində cavab verilmiş [2], elmi araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, burada translyasiya elementi bir düzgün altıbucaqlı və ona bitişik iki bərabərtərəfli üçbucaqdan ibarətdir.

Bu mürəkkəb fiqurun (başı, quyruğu və dörd ayağı) yerləşdiyi müstəvini tam doldurması bizdə öz milli ornamentlərimiz üçün belə bir xüsusiyyəti ortaya çıxarmaq marağı yaratdı.

Eşerin "Kərtənkələlər" əsərinin simmetriyasının və onun qurulma texnologiyasının sirrini açdıqdan sonra bu simmetriya əsasında milli ornamentlərimiz olan "Qoç", "Buta", "Quş" və s. kimi fiqurlardan ibarət olan tesselyasiyalar (tesselyasiya–ingiliscə tessellation, tərcüməsi mozaika mənasını verir. Tesselyasiyada şəkil müstəvisini boş yer qalmamaq və yamaq vurulmamaq şərtilə fraqmentlərə ayırmaq mümkün olur) işləyib ortaya çıxarmaq mümkün olmuşdur.

Şəkil 2-də "Qoç" [3] fiqurundan ibarət tesselyasiya (*a*) və Naxçıvan şəhərində bu fiqurların döşəndikləri sahədən bir fraqment (*b*) göstərilmişdir.



*a*)



*b*)

Şəkil 2. "Qoç" fiqurundan ibarət tesselyasiya (*a*) və Naxçıvan şəhərində bu fiqurların döşəndikləri sahədən fraqment (*b*).

Şəkildən göründüyü kimi altı müxtəlif istiqamətdə, altı rənglə rənglənmiş, tamamilə bir - birinin eyni olan qoç fiqurları rəsm müstəvisini kəsilməz olaraq doldurur və periodik təkrar olunurlar. Bu bir daha onu sübut etmişdir ki, Eşerin "Kərtənkələlər" əsərinin simmetriyasının sirri nəinki düzgün başa düşülmüş, hətta ondan yaradıcı şəkildə istifadə olunaraq milli dəyər elementimiz olan qoç fiqurlarından ibarət gözəl bir ornament işlənmişdir. Bunlardan "Qoç" fiqurlu səki daşı artıq Naxçıvan şəhərinin müxtəlif yerlərində səkilərin döşənilməsində istifadə olunur.

Qeyd olunduğu kimi bu simmetriyanın tələbləri çərçivəsində qabaqcadan nəzərdə tutulmuş hər hansı bir fiqurun çəkilməsi (qurulması) ümumiyyətlə qeyri - mümkün məsələdir. "Buta" fiqurunu işləyərkən biz məhz bu halla rastlaşmış olduq. Belə ki, qurulma texnologiyasına əməl olunmaqla alınan buta fiqurları arasında ortaya çıxan kiçik boşluqları heç cürə aradan qaldırmaq mümkün olmadı. Bununla belə gözəl bir ornament ortaya çıxdı [4].



Şəkil 3. "Buta" fiqurundan ibarət tesselyasiya.

Ümumiyyətlə, M.K.Eşerin "Kərtənkələlər" əsərində istifadə etdiyi simmetriya əsasında "Quş" [5] və milli ornamentlərimiz olan "Qoç", "Dəvə"[6] və "Buta" kimi fiqurlardan ibarət olan tesselyasiyalar işləyib ortaya çıxarmaq mümkün olmuşdur.

Şəkil 4-də yerləşdiyi müstəvini kəsilməz olaraq dolduran, bir - birinin eyni olan quş fiqurlarından ibarət elementlərdən təşkil olunmuş ornament təsvir olunmuşdur.



Şəkil 3. “Quş” fiqurundan ibarət tesselyasiya.

Yuxarıda adları çəkilən ornamentlər səki daşları şəklində parkların, səkilərin döşənməsində, tikilən binaların divarlarının işlənməsində, xalçaçılıqda, mozaika işlərində və s. istifadə oluna bilər.

## ƏDƏBİYYAT


1. Вейл Г. Симметрия, М.Наука, 1968, 190 с.
2. Hüseynəliyev M.H. Bir simmetriya məsələsi və onun qurulma texnologiyası // AMEA Naxçıvan Bölməsi, XƏBƏRLƏR, 2008, №4, s. 183-190.
3. Hüseynəliyev M.H. PATENT. Sənaye nümunəsi “QOÇ” səki daşı, S 2013 0016, 03.10.2013
4. Hüseynəliyev M.H. PATENT. Sənaye nümunəsi, “Buta” səki daşı, S 2015 0008, 25.05.2015
5. Hüseynəliyev M.H., Hüseynəliyev H.M. PATENT. Sənaye nümunəsi, “Quş” səki daşı, S 2016 0021, 20.07.2016
6. Hüseynəliyev M.H., Hüseynəliyev H.M. PATENT. Sənaye nümunəsi “Dəvə fiqurlu səki daşı”. S 2016 0007, 05.12.2017



## ABSTRACT

**Mammad Huseynaliyev**

### AT NATIONAL ORNAMENTS DISPLAYED IN THE SELF NEW ELEMENTS OF SYMMETRY AND THEIR USE

In the national ornaments such-as "Buta", "Sheep", "Bird", etc. presented in a new kind- as elements tessellation, developed on the basis of symmetry used in the "Lizards" of the Dutch artist M.K.Escher. On the basis of this synthesis are exactly the same and repetitive figures "Buta", "Sheep", "bird", etc. orientated in six directions do not leave empty spaces in the picture plane. These patterns can be used for parks and pavements paving as paving stones at facing buildings, carpet weaving, and in the case mosaic et all.



## РЕЗЮМЕ

**Мамед Гусейналиев**

### НАЦИОНАЛЬНЫЕ ОРНАМЕНТЫ ОТОБРАЖАЮЩИЕ В СЕБЕ НОВЫЕ ЭЛЕМЕНТЫ СИММЕТРИИ И ИХ ПРИМЕНЕНИЕ

В работе национальные орнаменты такие-как «Бута», «Баран» «Птица» и т.д. представляются в новом качестве- в качестве элементов тесселяции, разработанных на основе симметрии, использованные в работе «Ящерицы» Голландского художника Эшера (M.K.Escher). На основе такого синтеза совершенно одинаковые и периодически повторяющиеся фигуры «Бута», «Баран», «Птица» и т.д. ориентированные в шести направлениях не оставляют пустых мест в плоскости рисунка. Эти орнаменты могут быть использованы при мощении тротуаров и парков в качестве тротуарных камней, при облицовке зданий, в ковроткачестве, в мозаичном деле и т. д.

**İLKİN VƏLİBƏYOV**
*AMEA Naxçıvan Bölməsi*
*ilkin.velibeyov1980@gmail.com*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SEYSMİK TARİXİ

**Açar sözlər:** Zəlzələ, tektonik rejim, zəlzələ ocağı, intensivlik, seysmiklik, qırılma, dislokasiya, dağıntı

**Key word:** Earthquake, tectonic regime, earthquake central, intensity, seismicity, fracture, dislocation, debris

**Ключовые слова:** Землетрясение, тектонический режим, центральное землетрясение, интенсивность, сейсмичность, разрушение, дислокация, мусор

Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikasının seysmikliyi az tədqiq olunmuşdur. Bir çox hallarda burada müşahidə olunan zəlzələlərin yerli mənşəli olması və ya onların əraziyə qonşu olan İran, Ermənistan və Türkiyə ərazilərində yerləşən ocaqlardan baş verməsi tam aydın şəkildə öyrənilməmişdir. Azərbaycan ərazisində və həmçinin onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ərazisində baş verən güclü zəlzələlər haqqında öyrənilmiş məlumatlar əsasən təsviri xarakteri daşıyır və buna səbəb kimi 1930 - cu illərə qədərki dövrdə zəlzələlərin əsas xarakteristikalarını səciyyələndirən parametrlərin və makroseysmik şkalanın hələ seysmologiya elminə daxil olmaması kimi göstərilir. Əldə olunmuş məlumatlar sübut edir ki, tədqiq olunan ərazinin tektonik aktivliyi bir sıra hadisələr əsasında özünün konkret ifadəsini o cümlədən müasir yenmə və qalxma vilayətlərinin bir - birinə bağlandığı xəttə aid olan zəlzələ ocaqlarının məhdudlaşmasında tapır. Ərazinin (həm də bütün Kiçik Qafqazın) müasir relyefinin formalaşmasında əsas rolu qalxmalar oynayır hansı ki, müasir dağəmələ gəlmə prosesləri bu qalxmalarla əlaqələndirilir və zəlzələlərin yaranmasında mühüm amil kimi iştirak edir.

Azərbaycan tarixində baş verən ən güclü təkanlar haqqında məlumat 427-ci ilə təsadüf edir və ərazi üçün zəlzələlərin yaşı V əsrdən hesablanır. Bu zəlzələ Gəncə şəhərində baş vermiş, maqnitudası M≈6,7 qiymətləndirilmiş və episentrdə zəlzələnin intensivliyi 9 bala çatmışdır. Naxçıvan Muxtar Respublikası üçün məlum olan və qeydə alınan təkan üçün ilkin tarix IV.906-cı ilə təsadüf edir və Qıvraq zəlzələsi kimi adlandırılır, zəlzələnin maqnitudası M≈6,2-6,5 olaraq qiymətləndirilir. Bu zəlzələnin episentri Zəngəzur Mahalının şimal qərbində yerləşmişdir. Bu zəlzələ təxminən 170 km radiusunda hiss edilmişdir. Zəlzələ ərazidə güclü dağıntılar törətmiş lakin insan təlafatı haqqında dolğun məlumatlara mənbələrdə rast gəlinmir. Zəlzələnin intensivliyi Naxçıvan Muxtar Respublikası və ona qonşu regionlarda zəlzələnin yayılma qanunauyğunluğuna görə hiposentr səviyyəsinin yer səthinə yaxın yerləşməsi bu zəlzələnin episentrə yaxın yerləşən ərazilərində 8 bal intensivliyində olunması ehtimalını yaradır.




Naxçıvan Muxtar Respublikasının geoloji - tektonik və seysmodinamik şəraiti onu göstərir ki, region seysmoaktiv zonalardan sayılır və burada zaman - zaman çoxsaylı zəlzələlər müşahidə olunmuşdur. Müasir tektonik hərəkətlərlə, tədqiq olunan ərazidə xüsusi intensivlikdə gedən arid - denudasiya, eroziya, qravitasiya proseslərinin nəticələri haqqında mühakimə yürütməyə imkan verir. Həmçinin Araz çayının həm sol, həm də

sağ sahilində aydın ifadə olunmuş relyefin təzadlığı, müasir tektonik hərəkətlərin intensivliyini göstərir. Bu intensivliyin əsaslı göstəricilərindən biri tədqiq olunan ərazinin yüksək seysmikliyinin olmasıdır. N.V.Malinovskinin məlumatlarına görə (1939) zəlzələlərin ocaqları əsasən Ortaaraz depressiyasında cəmləşmişdir. N.V.Malinovski, E.İ.Byusun məlumatlarından istifadə edərək zəlzələlərin maksimum intensivliyi və təkrarlanmasının cədvəlini həyata keçirmişdir.

| Məntəqənin adı | Coğrafi En dairəsi | Coğrafi uzunluq dairəsi | Maksimum intensivlik balla | Ən güclü zəlzələlərin baş verdiyi il | 100 il ərzində baş verən zəlzələlərin sayı |
|---|---|---|---|---|---|
| Naxçıvan | $39^0 12^\text{ı}$ | $45^0 25^\text{ı}$ | 8 | 1840 | 21-40 |
| Qıvraq | $39^0 24^\text{ı}$ | $45^0 07^\text{ı}$ | 7 | 1841 | 3-5 |
| Dərəşam bərəsi | $39^0 00^\text{ı}$ | $45^0 27^\text{ı}$ | 7 | 1851 | 1-2 |
| Ordubad | $38^0 55^\text{ı}$ | $46^0 02^\text{ı}$ | 6 | 1879 | 6-10 |
| Aşağı Əylis | $38^0 57^\text{ı}$ | $45^0 59^\text{ı}$ | 4-5 | 1881 | 1-2 |
| Cəlilkənd | $39^0 34^\text{ı}$ | $45^0 01^\text{ı}$ | 5 | 1903 | 1-2 |
| Xanlıqlar | $39^0 30^\text{ı}$ | $45^0 02^\text{ı}$ | - | 1903 | 1-2 |
| Daşarx | $39^0 21^\text{ı}$ | $45^0 25^\text{ı}$ | - | 1904 | 3-5 |
| Təzəkənd | $39^0 25^\text{ı}$ | $45^0 03^\text{ı}$ | 6 | 1909 | 1-2 |
| Nəzərzabad | $39^0 19^\text{ı}$ | $45^0 26^\text{ı}$ | - | 1909 | 1-2 |
| Nehrəm | $39^0 07^\text{ı}$ | $45^0 28^\text{ı}$ | 6 | 1909 | 1-2 |
| Əlincə | $39^0 26^\text{ı}$ | $45^0 36^\text{ı}$ | 5 | 1913 | 1-2 |
| Culfa | $38^0 59^\text{ı}$ | $45^0 35^\text{ı}$ | 5-6 | 1913 | 6-10 |
| Dərvişlər | $39^0 31^\text{ı}$ | $45^0 00^\text{ı}$ | 6 | 1927 | 1-2 |

Cədvəl məlumatları əsasında, Naxçıvan, Culfa, Ordubad daha çox seysmikliyi ilə seçilən rayonlardır. Belə ki, 100 il ərzində (1840-1940) Naxçıvan şəhərində 30 - a yaxın zəlzələ qeyd olunmuşdur ki, onlardan 8-i 6-8 bal gücündə olmuşdur. Zəlzələlərin Naxçıvan ocağının vəziyyətini Malinovski tektonik hərəkətlərin pozulması ilə izah edir. Bu pozulmalar Arazın orta axınının sinklinal əyilməsini məhdudlaşdırırsa cavan vulkan massivlərinin çıxışlarına səbəb olur və Araz əyilməsinin qərb kənar hissəsinə aid olan zəlzələlərin daha az aktiv ocaqları Baş Noraşen indiki Cəlilkənd və ona yaxın ərazilərdə yerləşməsi ilə izah olunur. Tədqiq olunan ərazinin seysmikliyi haqqında bir çox məlumatlar, eləcə də Naxçıvan Muxtar Respublikasının seysmikliyi haqqında Z.Z.Sultanovun, V.P.Kuznetsovun (1972), M.Q.Ağabəyovun, R.A.Ağamirzəyevin (1984) məlumatları Malinovski və Byusun əvvəlki fikirlərini təsdiq edir. Onlar bu ərazidə yüksək seysmikliyin (8 bal) olduğunu müəyyən edərək, onun əsasında seysmikliyi 9 bal olan 4 sahəni ayırmışlar. Xüsusilə də Araz depressiyası zonasında dislokasiyalar öz intensivliyi ilə seçilir. Burada orogenik hərəkətlər mezazoydan başlayaraq kaynazoyda davam etmiş, hətta miosenə qədər dövrdə baş vermişdir. Bir çox hallarda ən yeni çöküntülər depressiyanın daha dərin hissələrin də öz mürəkkəb strukturunu gizlətmişdir. Naxçıvan Muxtar Respublikanın müəyyən edilmiş əsas geoloji əlamətləri və mürəkkəb tektonikası ərazinin əhəmiyyətli dərəcədə seysmik dayanaqsızlığın olmasını güman etməyə imkan verir. Xüsusən də bu dayanıqsızlıq (dəyişkənlik) nisbətən cavan dislokasiya xəttlərinin köhnə parçalanma xəttlərilə görüşdüyü yerlərdə baş verir. Məhz həmin kəsişmə nöqtələri zəlzələlərin əsas ocaq mənbələrini yaradır[1, s.109].

İstər Ermənistanın istərsə də, İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasına bitişik olan rayonları respublikadakı zəlzələ ocaqlarının aktivləşməsində mühüm oynayır. Ermənistandakı bütün güclü zəlzələlər Naxçıvan Muxtar Respublikasının demək olar ki, bütün rayonlarında böyük silkələnmələrə səbəb olur. Çox qədim zamanlarda təqribən 1000 il bundan qabaq Arazın axını boyunca bütün rayonlar seysmik rejiminə görə öz aktivliyi ilə seçilmişdir. Xroniklərin sözlərinə görə indiki Ermənistan ərazisi bir çox seysmik dağıntılara məruz qalmışdır. 1840-cı ildə güclü Maku - Ağrı zəlzələsi baş vermişdir. Şübhəsiz ki, bütün bu böyük zəlzələlər həm də Naxçıvan Muxtar Respublikasının ərazisində hiss olunmalı idi. A.İ.Mixalevski Naxçıvan Muxtar Respublikasını Mərkəzi Naxçıvan olmaqla ümumi bir seysmik ocağa ayırır və o bu ocağı ayrı - ayrı yarım ocaqlar şəklində göstərmir. E.İ.Byusun məlumatlarından istifadə edərək Naxçıvan Muxtar Respublikasının bəzi məntəqələr üçün maksimum intensivliyin və təkrarlanmasının cədvəlini tərtib edilmiş ən güclü seysmik məntəqələr Naxçıvan, Culfa, Ordubad kimi göstərilmişdir. Digər yaşayış yerlərində zəlzələlər az təkrar olunur, baxmayaraq ki, onlar birinci məntəqələrə olduqca yaxın yerləşirlər. Müqayisəli seysmik dayanıqsızlığı müəyyən etmək üçün seymik statistikanın məlumatları seysmotektonik materiallara əsaslandırılmalıdır. N.B.Malinovskinin məlumatlarında Naxçıvan Muxtar Respublikası ərazisində təqribən 1840-1940 - cı illər ərzində dağıdıcı zəlzələlərin sayı cəmi 6 olaraq götürülür. Onları xronoloji qaydada göstərək;

1840-cı il 2 iyul dağıdıcı Maku - Ağrı zəlzələsi Naxçıvan Muxtar Respublikası ayrı - ayrı məntəqələrində əsasən Şərur rayonu ərazisində 8 bala yaxın

1840-cı il 7 dekabr episentri İran ərazisinin Naxçıvan və ona yaxın yaşayış məntəqələrdə 7 bal intensivliyində

1841-ci il 17 mayda Qıvraq ərazisində 7 bal intensivliyində

1846-cı il 11 yanvar Naxçıvanda 7 bal intensivliyində

1851-ci il 13 apreldə Dərəşamda 7 bal intensivliyində

1931-ci il 27 aprel Zəngəzur zəlzələsi - əsasən Ordubadda 8 bal hətta 9 bala yaxın hiss olunub.

Bununla qeyd etmək olar ki, 1840-1931-ci illərdə daha güclü zəlzələ ocaqları Naxçıvan Muxtar Respublikası hüdudlarından kənarda baş vermişdir. İndiki əraziyə malik olan Naxçıvan Muxtar Respublikası ərazisində yerli zəlzələ ocaqlarından generasiya olunan seysmik titrəyişin intensivliyi 7 balı keçməmişdir. 2 iyul 1840-cı il Maku - Ağrı zəlzələsini( qısaca Ağrı zəlzələsi) Vaqner belə təsvir edirdi. Ağrı zəlzələsi olduqca geniş ərazilərə yayılmış və müstəsna gücə malik olmuşdur. İlk saat müddətində torpağın dalğavari şəkildə titrəyişi və nəticədə Şərur və Naxçıvanda güclü dağıntılarla, həm də bu zəlzələ püskürmə ilə müşayiət olunurdu. Vaqner yazırdı: Akuridən 6 verst yuxarıda çatlar əmələ gəldi. Bu çatlardan qaz və buxar şəklində çıxan, uğultu ilə bərabər göyə tullanan daşların də səsi eşidilirdi. Lakin, lavaların meydana gəlməsi və axması müşahidə olunmurdu[5, s.36].Maqnitudası M ≈7.2 təxmin edilən bu zəlzələ Maku və Ağrıdağ bölgəsini yerlə bir etmış, bu zəlzələnin aftoşokları 8 aya qədər sürmüşdür[6, s.58].

Güclü Ağrı zəlzələsi Naxçıvan və Dağlıq Qarabağda seysmik ocaqların oyanmasına səbəb olmuşdur. Zəlzələ nəticəsində Naxçıvanda təxminən 13 çeşmə bir müddət tamamilə qurumuş, əvvəlki təmiz və şirin sulu bulaqların dadı dəyişilmiş və onlarla bulanıq südə bənzər sular meydana çıxmışdır. Bəzi bulaqlarda isə suyun miqdarı artmışdır[7, s.20].

M.Vaqner zəlzələnin yaranmasına püskürmənin səbəb olduğunu hesab edir, su axınlarından çıxan buxar və qazlar özlərinin müstəsna qüvvətlərilə güclü zəlzələ yaratdığını söyləyirdi. N.B. Malinovskiy Ağrı zəlzələsini daha düzgün şəkildə izah etmiş zəlzələnin vulkanik yox tektonik zəlzələ olduğunu qeyd etmişdir. Dislokasiya hadisələri Ağrı rayonunda səthi çatların əmələ gəlməsinə və püskürməyə səbəb olmuşdur. Bunu zəlzələnin əhatə etdiyi nəhəng sahə sübut edir. Vulkan püskürməsinin səbəb olduğu titrəyiş tez bir zamanda sönməli idi. Lakin Ermənistanın, Naxçıvan Muxtar Respublikasının, Türkiyə və İranın bir sıra şəhərləri bu zəlzələnin dağıdıcı gücünə məruz qalmışdır. Lakin, Ağrı rayonunda baş verən vulkan püskürməsinin təsiri sanki bu tektonik tipli zəlzələnin təbiətini pərdələmişdir. Sarsılmış ərazinin o qədər böyük olmasını xəritədən görmək olar və 8 ballıq izoseystlərlə əhatə olunan geniş dislokasiya sahəsinin nə qədər nəhəng olmasını və əsas Ağrı ocağının hərəkətinə qonşu olan bir sıra ocaqların o cümlədən Naxçıvan ocağının cavab verməsi öz təsdiqini tapır.




2 iyul 1840 Vedi zəlzələsi. Tərtib edən N.V.Malinovski

Təəsüff ki, bu zəlzələ haqqında məlumatlar azdır, zəlzələ ocağının yaxınlığında və ondan kifayət qədər uzaqlıqda hansı nəticələrin alındığı haqqında tam təsəvvür yaratmaq olmur. Bu zəlzələ Vedi rayonu yaxınlığında 9 bal, Maku, Bəyazit və Naxçıvanda isə 8 bal gücündə olmuşdur. Axura, Aralıq, Başkənd ərazilərindən uzaqlışdıqca zəlzələnin gücü bir bal yenir. Daha sonra Sirboğana tərəf getdikcə daha bir bal aşağı düşür. Bu zəlzələ Şuşada özünün əhəmiyətli dərəcədə gücünü göstərmişdir, hələki burada onun intensivliyi 7 bal olmuşdur. Zəlzələ həmçinin Talışda, Xəzər dənizində, eləcə də ocaqdan olduqca uzaq olan Tbilisidə qeyd olunmuşdur. Bütün bu məlumatlar silkələnmələrin zəif sürətlə sönməsini göstərir.

Qafqaz regionunda Şamaxı, Qori və Zəngəzur zəlzələlərində bu qiymətlər alınmışdır;

6-10 km 9-8 ballarda, 10-15 km 8-7 ballarda, 20-22 km 7-6 ballarda və 30 km 6-5 ballarda

Hazırki halda sönmənin kiçik sürətə malik olması iki vəziyyətlə izah oluna bilər. Birincisi - Naxçıvan, Şuşa və Lənkərana Ağrı zəlzələsinin böyük təsiri onunla izah olunur ki, yerli ocaqlar Naxçıvan qrabeni, Şuşa parçalanması və Lənkaran parçalanması üzrə Ağrı zəlzələsinə sərbəst hərəkətlərlə təsir etmiş, nəticədə zəlzələnin yayılması pilləli xarakter almış seysmik sakitliyin ara məkanlarında mövcud olmuşdur.

İkincisi - zəlzələnin ocağı daha böyük dərinliyə malik olmaqla onun dağıdıcı təsiri daha lokal olmuş və ocağın dərinliyi nəticəsində sönmə dərəcəsi olduqca az olmuşdur. Hər iki səbəbin eyni zamanda mövcud ola biləməsi də ehtimal olunur.

İkinci dəhşətli zəlzələ 1931-ci il 27 aprel tarixdə Naxçıvan Muxtar Respublikasının qeyd olunmuşdur. Bu zəlzələ böyük dağıdıcı gücə malik olaraq, əsasən Naxçıvan Muxtar Respublikasının şərq yarım hissəsini dağıtmışdır[8, s.41].

Naxçıvanın qərb rayonlarında və özündə isə nisbətən zəif hiss olmuşdur. Bu zəlzələ seysmoloji institutunun xüsusi ekspedisiyası ilə yaxşı tədqiq olunmuşdur .Birinci Qorşkov tərəfindən iri miqyasda, ikinci isə Çşoxerom tərəfindən kiçik miqyaslı bəzi əlavə və dəyişikliklər nəzərə alınmaqla xəritələr tərtib ounmuşdur.




27 aprel 1931 ci il zəlzələsi. Tərtib edən Q.P.Qorşkov




27 aprel 1931-ci il zəlzələsi Tərtib edən V.O.Çşoxerom

27.04.1931-ci ildə baş verən zəlzələ Naxçıvan Muxtar Respublikasının bəzi rayonlarında (Nəsirvaz, Xurst, Nürgüt) 9 bala çatmışdır. Bu zəlzələnin tədqiq edən Q.P.Qorşkov göstərmişdir ki, onlar yuxarıda adları çəkilən kəndlərdə torpağın səthində çoxlu miqdarda deformasiyalara - çatlara, çökmələrə, sürüşmələrə rast gəlmişlər. Bir çox kəndlər tamamilə xarabalığa çevrilmişdir. Bu qismən oradakı evlərin tikildiyi materialdan asılı olmuşdur. Həmçinin torpaq altı layların xarakterində evlərin seysmik davamlılığına böyük təsir göstərmişdir.

Qeyd etmək lazımdır ki, silkələnmələrin olduqca sürətlə sönməsi və izoseystlərin qapadığı ərazilər, xüsusən də qərb istiqamətində, ocaqların dərinliyinin nisbətən az olmasından xəbər verir. Lakin, sürətli sönmələr yalnız yüksək ballara aiddir, aşağı ballar isə (məs; 5 bal) olduqca geniş sahələri əhatə edir. Təkcə onu deməkdir ki, 1931-ci il 27 aprel tarixində baş vermiş Zəngəzur zəlzələsi 100 min $km^2$ sahədə hiss edilmişdir[6, s.20].

Qorşkov bu zəlzələnin geoloji - geomorfoloji səbəbini son “miosen qalxmasının əsas tektonik xəttinə aid edilən Konqur - Alangöz silsiləsinin qranodiorit massivinin tərpənişində görür.Bir çox yüz illiklər ərzində öz sükutluğu ilə seçilən qranit massivlər birdən - birə öz həyat fəaliyyətlərini bərpa etmir. Qeyd etmək vacibdir ki, tektonik cəhətdən Naxçıvan Muxtar Respublikasının seysmik aktivliyi özünü hələ tam şəkildə bərpa etməmişdir və biz burada 1931-ci il Zəngəzur zəlzələsinə oxşar zəlzələnin təkrar olunacağını gözləyə bilərik və nəticə olaraq 1968-ci il iyun ayının 9-da baş verən zəlzələ buna bariz nümunədir.

Naxçıvan Muxtar Respublikası ərazisində zəlzələlərin instrumental tədqiqat dövrü keçən əsrin 50 - ci illərinə təsadüf edir. İnstumental tədqiqatların başlandığı dövrdən maqnitudası M>4-dən böyük olan 100 - dən artıq zəlzələ Naxçıvan və ona yaxın seysmoaktiv zonalarda generasiya olunmuşdur. 1905-2015 –ci illər ərzində Naxçıvan Muxtar Respublikası ərazisinə birbaşa təsir edən 48 zəlzələ əsasında tərtib olunmuş episentr xəritəsində güclü zəlzələ ocaqlarının yerləşməsi göstərilmişdir.




Naxçıvan Muxtar Respublikası ərazisində quraşdırılan onlayn rejimdə işləyən telemetrik stansiyalar son dövrlərin müasir tələblərinə cavab verən ABŞ - ın "Kinemetrik" şirkətinin istehsalı olan cihazlarlarla təchiz edilmişdir. Bu cihazlar bizə imkan verir ki, Naxçıvan Muxtar Respublikası və ona bitişik regionlarda (radiusu=500km) baş verən zəlzələlərin ocaq parametrlərinin təyini üçün dəqiq informasıya mənbəyidir. Həmçinin onu qeyd etmək lazımdır ki, bu cihazların köməyi ilə itirilmədən zəlzələlərin qeydiyatının aparılması gələcəkdə Naxçıvan Muxtar Respublikasının seysmik rayonlaşdırmasında əhəmiyyətli dərəcədə rol oynayacaq.

## ƏDƏBİYYAT


1. М.А.Абасов Рельеф Среднеараксинской Депрессии Смежных Гор БАКУ "ЭЛМ"-1989
2. А.И.Михалевский - Землетрясения Кавказа и их связь с дислокацией края Баку, 1926
3. Е.И.Бюс-Очерк сейсмичности ЗСФСР.Материалы к общей схеме использования водных ресурсов Кура-Аракс.басссейна, Тифлис.1930.
4. Е.И.Бюс- К вопросу о сейсмическом райоировании ЗСФСР.Тр.Закавк.минст. сооруж. Тифлис.1931
5. Н.В.Малиновский "сейсмичностъ нахичеванской асср" издателъство азфан Баку-1939
6. T.Malekzadeh " İranın kuzeybatısı (Azərbaycan) və doğu Anadolu depremselliğinin incelenmesi və karşılaştırması"Ankara-2007, s.58
7. Г.П.Горшков - Геологические условия зангезурского землетрясения 27 апреля 1931 г.Тр.Сейсмол.инст.1933.
8. В.В.Богачев-Геологический очерк Азербайджана .Материалы по районированию АзССР, т.1,в.3.1936
9. Мушкетов-Орлов-Каталог землетрясений в АзССР.Зап. РГО, т XXVI
10. Н.В.Малиновский -Каталог землетрясений в АзССР .Тр.АзОЗФАН, т.X,1935 г.


## ABSTRACT

**Ilkin Valibayov**

**SEISMIC HISTORY OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**

The article has been studied the mechanism of impact on the territory of earthquakes occurring in the Nakhchivan Autonomous Republic and nearby regions. Based on the data of Malinkovski and Byus, the table was prepared based on the maximum intensity and repetition of earthquakes. The Vedi and Zangezur earthquakes caused serious damage to the Nakhchivan Autonomous Republic, and the isoseists earthquakes closed large areas. The intensity of seismic vibrations generated by local earthquakes in the territory of the Nakhchivan Autonomous Republic did not exceed 7 points.

## РЕЗЮМЕ

**Илькин Велибеков**

**СЕЙСМИЧЕСКАЯ ИСТОРИЯ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ**

В статье рассматривается механизм воздействия на территорию землетрясений, происходящих в Нахчыванской Автономной Республике и ближайших регионах. По данным Малиновского и Бьюса была подготовлена таблица на основе максимальной интенсивности и повторности землетрясений. Землетрясения в Веди и Зангезуре нанесли серьезный ущерб Нахчыванской Автономной Республике, и изосейсты землетрясения замкнулибольшие территории. Интенсивность сейсмических колебаний, генерируемых локальными землетрясениями на территории Нахчыванской Автономной Республики, не превысила 7 баллов.

**RAMİZ ƏLƏKBƏROV**
*AMEA Naxçıvan Bölməsi, Bioresurslar İnstitutu*
*ramiz_alakbarli@mail.ru*

# AZƏRBAYCANIN NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASINDA YAYILAN *SIDERITIS BALANSAE* BOISS. - BALANS DƏMRƏYİ NÖVÜNÜN FİTOKİMYƏVİ ANALİZ NƏTİCƏLƏRİ VƏ İSTİFADƏ PERSPEKTİVLƏRİ

**Açar sözlər:** *flavonollar, flavanonlar, xalkonlar, xromotoqrafiya, spektr*
**Key words:** *flavonols, flavonones, chalcones, temporalography, spectrum*
**Ключевые слова:** *флавонолы, флавононы, халконы, храмотография, спектр*

Qlobal ərzaq təhlükəsizliyinə nail olmaq bəşəriyyətin ən böyük problemlərindən biri olub, insanları ən azı həyat şəraiti və qida məhsulları ilə təmin etməkdir. Belə məsələlərin aktuallığı elmi - tədqiqat işlərinin genişlənməsini və bunun üçün böyük elmi araşdırmalar aparılmasını tələb edir. Məhz bu baxımdan insanlar digər sahələrlə yanaşı, elmi - texniki tərəqqinin bəhrəsindən istifadə etməsi məcburiyyətindədir. Müxtəlif yanaşmalarla araşdırmaların nəticələrinə əsasən əczaçılıq sənayesində dərman bitkilərindən alınan maddələrin, kimyəvi yolla sintez edilən maddələrdən üstünlüyü sübut edilmişdir. Fəsiləyə daxil olan növlərin müasir vəziyyətini tədqiq etmək, ekoloji və antropogen transformasiyaları müəyyənləşdirməklə çatışmamazlıqları aradan qaldırmaq, istər nəzəri və istərsə də təcrübi baxımdan mühüm əhəmiyyətə malikdir [3, s. 133; 6, s.196].

Naxçıvan Muxtar Respublika florasında Dalamazkimilər - *Lamiaceae* Lindl. fəsiləsinə daxil olan növlərin tərkibində bir çox bioloji aktiv maddələr vardır ki, bu maddələr xalq təsərrüfatının ayrı - ayrı sahələrində, xüsusən qənnadı, alkoqolsuz içkilər, əczaçılıq və digər sahələrdə istifadə edilir. Bu bitkilərin tərkibində orqanizmdə olan sərbəst radikalları zərərsizləşdirən antioksidantlar mövcuddur. Bu antioksidantlar orqanizmdəki sərbəst radikalların oksidləşdirici zərərli təsirlərindən qoruyurlar.

Genus: Sideritis L. - Dəmrək

*Sideritis balansae* Boiss. - Balans dəmrəyi

Birillik açıq-yaşıl bitkidir. Gövdəsi nazik, düzqalxan, sadə, bəzən budaqlanan uzun tüklü olmaqla, 4-15 sm hündürlükdədir. Yarpaqları 1,5 mm-ə qədər uzunluqda 5(8) mm enində, ellipsvari və ya uzunsov, zirvəsi küt, kənarları bütöv kənarlı, hər iki tərəfi sıx tüklü, alt yarpaqları enli, yumurtavari, uzun saplaqlı, hamaşçiçəkləri 4-6 çiçəkli olmaqla, sünbül çiçək qrupunda toplanır. Kasacığı 5-10 mm, boruşəkilli, yuxarı hissədən dartılmış, seyrək tüklü, dişcikləri demək olar ki, borucuğa bərabər, yumurtavari - neştərşəkilli, itiuclu sonluqludur. Üst dodağı dişcikləri alt dodağı dişciklərindən qısadır. Çiçək tacı narıncı - purpur olmaqla, kasacığa bərabər və ya bir az ondan uzundur. Fındıqcıq meyvələri 1-1,5 mm, tərs yumurtavari, küt pərli və hamar olub, qonur-çəhrayı rənglidir. May - iyun aylarında çiçəkləyir və meyvə verir [4, s. 92; 5, s.238; 11, s. 826; 13, s 253].

*Yayılması:* Daşlı-xırlı yerlərdə, bozqırlarda, əhəngli və daşlı torpaqlarda yayılır (şək. 1).



Şəkil.1. *Sideritis balansae* Boiss. - Balans dəmrəyi

*Fitokimyəvi tərkibi:* Tərkibində iridoidlər: 8-asetil harpahid, flavonoidlər: toxumlarında 30.3% piyli yağlar və hidrolizat turşuları: palmitin, stearin, olein, linol və linolein olur [7, s. 378; 8, s.126; 12, s.157-158].

*İstifadəsi:* Kiçik Asiya və Yunanıstan ölkələrində qızdırma və şişəleyhinə istifadə edilir. Tərkibindəki flavonoidlər hipotenziv təsirə malikdir. *Yerüstü orqanları* təngnəfəslik və qusma əleyhinə təsirlidir. *Yarpaq* və *çiçəklərinin* çayı surroqat olmaqla, limon iylidir. Azərbaycanda *çiçəklərindən* ağciyər xəstəliklərində istifadə edilir. Dekorativ bitkidir [14, s. 447; 6, s.195].

Material və metodlar

Tədqiq edilən *Sideritis* L. cinsinə daxil olan *Sideritis balansae* Boiss. - Balans dəmrəyi növünün tərkibindəki bioloji aktiv maddələrin ətraflı şəkildə tədqiqi, gələcəkdə onun tərkibindəki maddələrdən əsasən elmi təbabətdə istifadə olunması olduqca aktual hesab edilir. Məhz bu baxımdan bu növlər E.A. Вулф metodundan istifadə etməklə öyrənilmişdir. Əvvəlcə bu növlərin botaniki xüsusiyyətləri haqqında qısa məlumat verək [7, s. 33; 9, s. 648].

Nəticələr və onların müzakirəsi

*Sideritis balansae* Boiss. - Balans dəmrəyi növünün toplanılmış nümunələri standart metodlara istinad edilməklə qurudulmuş, laboratoriya şəraitində tədqiqat üçün hazırlanmışdır. Müxtəlif polyarlıqda olan həlledicilər heksan və etanol vasitəsilə 3 saat müddətində ekstraktsiya edilərək onların spektrləri Hitachi U-2900 UV-VIS spektrofotometr vasitəsilə çəkilmiş, xromotoqrafik analizlər isə DC-fertigfolien ALUGRAM SİL G/UV 254 incə təbəqə vasitəsilə aparılmışdır (şək. 2). İncə təbəqə xromotoqrafiya üçün həlledici sistemi butanol: sirkə turşusu: su 4:1:5 və petroleyin efiri: aseton: xloroform 3:1:1 həcm nisbətində götürülməklə, metodikaya uyğun olaraq təhlil edildi (şək. 2) [2, s. 233; 10, s. 125; 15, s.88-89].




Şəkil 2. *Sideritis balansae* Boiss. - Balans dəmrəyi növünün heksan ekstraktının UB spektri

*Sideritis balansae* Boiss. növün yarpaqlarının etanol ekstraktının incə təbəqə xromotoqrafiyası aparılmış və Rf qiymətlərinə əsasən tərkibindəki maddələr təyin edilmişdir. Yarpaqlarla birlikdə gövdə ekstraktlarının spektral və xromotoqrafik analizi nəticəsində alınan qiymətlər əsasında ekstraktların tərkibinin hansı qrup birləşmələrdən ibarət olduğu müəyyənləşdirilmişdir.

*Nəticə* Nazik təbəqə xromotoqrafiya zamanı saf halda ayrılan hissə götürülərək etanolda həll edildi və maddələrin spektrləri Hitachi U-2900 UV-VIS spektrofotometr vasitəsilə 200-700 nm dalğa uzunluğunda çəkildi. 222.0-329.5 nm (MeOH $\lambda_{max}$. nm) dalğa uzunluğunda alınan spektrlərin flavonoidlər - apigenin, akasetin, flavanollar - galangin, kempferol, fasetin, herbasetin, flavononlar - pinosembrin, afrormosin, hesperetin, xalkonlar - dihidroksixalkon, 412.5-664.5 nm dalğa uzunluğu 3-qlikozod, 7-qlikozod, 3,5-qlikozod, 3,7-qlikozodləri, antosianidin və antisianinlər üçün xarakterik olduğu təyin edildi.

## ƏDƏBİYYAT


1. Dəmirov İ.A., Manafov Ə.B., İslamova N.A. Farmakoqnoziya, Bakı, 1984, 263 s.
2. Ələkbərov R.Ə. Naxçıvan Muxtar Respublikası florasında yayılan Dalamazkimilər (*Lamiaceae* Lindl.) fəsiləsinin *Ziziphora* L. cinsinə daxil olan növlərin müalicəvi xüsusiyyətləri // Naxçıvan Bölməsinin Xəbərləri, Təbiət və texniki elmlər seriyası, 2013, №4, s. 132-138
3. Mehdiyeva N.P. Azərbaycanın dərman florasının biomüxtəlifliyi, Bakı, “Letterpress”, 2011, s. 188
4. Səyyarə İbadullayeva, Ramiz Ələkbərov Dərman bitkiləri (*Etnobotanika* və *Fitoterapiya*) Medicial plants

(*Ethnobotany* and *Phytoterapya*) Təhsil, Elm, Bakı, 2013, 331 s.
5. Talıbov T.H., İbrahimov Ə.Ş.Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər), Naxçıvan: Əcəmi, 2008, 364 s.
6. Вулф Е.А., Малаеев О.Ф. Мировые ресурсы полезных растений, Л.: Наука, 1969, 405с.
7. Гаммерман А.Ф. Дикорастущие лекарственные растение СССР. Москва: Мед., 1976, 288 с.
8. Гроссгейм А. А. Флора Кавказа, Т.VII, Ленинград, Изд-ва Наука,1967, 894 с.
9. Задорожный А.М., Кошкин А.Г., Соколов С.Я., Шредер А.И. Справочник по лекарственным растениям. М.: 1992, 167 с.
10.Ибадуллаева С.Д., Алекперов Р.А., Гасымов Г.З. *Thymus hyemalis* Lange (*Lamiaceae* Lindl.) - Новый вид для флоры Азербайджана // Ботанический журнал Санкт-Петербург, 2014, №7, т. 99, с. 825-827
11.Мельников, Д. Г. О таксономическом статусе рода *Acinos* (*Lamiaceae*) // Ботанический журнал.- 2016.- Т. 101, № 1.- 294 с.
12.Вулф Е.А., Малаеев О.Ф. Мировые ресурсы полезных растений. Л.: Наука, 1969, 405с.
13.Флора Азербайджана, Баку, Издв-во АН Азерб. ССР, 1957, т. 7, с. 253-254
14.Флора СССР. Т.2I. [Губоцветные (вторая часть)]. М.-Л., 1954, 697 с.
15.Химический анализ лекарственных растений / Под ред. Н.И. Гринкевича, Л.Н. Сафронович. М.: Высш. шк.,1983, 174с.

## ABSTRACT

**Ramiz Alakbarov**

**RESULTS OF ANALYSIS OF PHYTOCHEMICAL COMPOSITION AND PROSPECTS OF USE OF DAMRAQ *SIDERITIS BALANSAE* BOISS., DISTRIBUTED IN THE FLORA OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC OF AZERBAIJAN**

The article contains extensive information about the bio morphological and Eco geographic features, the results of phytochemical analysis, useful properties, the possibilities of using motherwort in the folk and scientific medicine of the motherwort of the *Lamiaceae* Lindl. Flora of the Nakhchivan Autonomous Republic, and provides information on its distribution in the world, Azerbaijan and various high-altitude belts of the autonomous republic. A thin film of ethanol extract of the leaves and stems of *Sideritis balansae* Boiss.was stored on a thin film, and the substances contained in them were determined by the values of Rf. According to the values obtained as a result of spectral and temporal graphic analyzes, compounds containing extracts were detected. In thin film chromatography, the purely separated part was dissolved in ethanol, and the spectra of the substances were recorded at a wavelength of 200-700 nm using a Hitachi U-2900 UV-VIS spectrophotometer. It was determined that spectra with a wavelength of 222.0-329.5 (MeOH λ max. nm) are characteristic of flavonoids and waves with a length of 412.5-664.5 nm for flavonols, flavonones and chaconnes.

## РЕЗЮМЕ

**Рамиз Алекперов**

**РЕЗУЛЬТАТЫ АНАЛИЗА ФИТОХИМИЧЕСКОГО СОСТАВА И ПЕРСПЕКТИВЫ ИСПОЛЬЗОВАНИЯ ДАМРАК *SIDERITIS BALANSAE* BOISS., РАСПРОСТРАНЕННОГО ВО ФЛОРЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ АЗЕРБАЙДЖАНА**

В статье приведены обширные сведения о биоморфологических и эко географических особенностях, результатах фитохимического анализа, полезных свойствах, возможностях использования в народной и научной медицине пустырника сердечного семейства Яснотковые (*Lamiaceae* Lindl.) флоры Нахчыванской Автономной Республики, изложены сведения об его распространении в мире, Азербайджане и разных высотных поясах автономной республики. Проведена храмотография на тонкой пленке этанолового экстракта листьев и стеблей *Sideritis balansae* Boiss., и по значениям Rf определены содержащиеся в них вещества. По значениям, полученным в результате спектрального и храматографического анализов выявлены соединения, содержащие в составе экстрактов. При тонкой пленочной хроматографии чисто отделенную часть растворены, в этаноле и спектры веществ снимались при длине волны 200-700 нм через спектрофотометр «Hitachi U-2900 UV-VIS». Определено, что спектры с длиной волны 222.0-329.5 (MeOH $\lambda_{max}$. nm) характерны для флавоноидов, а волны с длиной 412.5-664.5 нм для флавонолов, флавонов и халконов.

**VARİS QULİYEV**
*AMEA Naxçıvan Bölməsi, Bioresueslar İnstitutu*
*varisquliyev @mail.ru*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ABORİGEN ÜZÜM SORTU – QOÇ ÜZÜMÜ

**Açar sözlər**: *üzüm, aborigen, sort, salxım, gilə, toxum, şəkərlilik, turşuluq*
**Key words:** *grape, aborigen, variety, cluster, berry, seed, sugar, acidity*
**Ключевая слова:** *абориген, сорт, грозди, ягод, семян сахаристость, кислотность*

Naxçıvan Muxtar Respublikası üzüm bitkisi üçün əlverişli təbii iqlim şəraitinə malik olduğuna görə ərazidə yayılan yabanı üzüm növündən çoxlu sortlar yaradılmışdır. Hələ eramızdan əvvəl V minillikdə ərazidə yaşayan insanların təsərrüfat fəaliyyətinin əsas formaları olan ovçuluq, balıqçılıqla yanaşı, meşə və dağlıq ərazilərdə yayılan yabanı meyvə, giləmeyvə, o cümlədən yabanı üzüm-*Vitis sylvestris* L. növünün məhsulundan istifadə etməklə, həm də onu yaşadıqları ərazilərin yaxınlığında əkərək mədəniləşdirməklə məhsulundan mütəmadi olaraq istifadə etmişlər[1, s. 23-30].

**Material və metodika.** Tədqiqat işinin gedişində material olaraq Naxçıvan MR-sı ərazisində xalq seleksiyası yolu ilə yaradılan qiymətli sortlardan biri də Qoç üzümündən istifadə edilmişdir. Qoç üzümü Naxçıvan MR-sı ərazisində azyayılan aborigen üzüm sortlarından biridir. Hazırda Babək rayonu ərazisində həyətyanı sahələrindəki üzüm bağlarında tənəklərinə rast gəlinir. Bioresurslar İnstitutunun "Üzüm genofondu" kolleksiya bağında qorunub saxlanılır. Botaniki əlamətlərinə və aqrobioloji xüsusiyyətlərinə görə Şərq şərab üzüm sortları ekoloji - coğrafi qrupuna (*Convar orientalis subconvar caspica* Negr.) ekoloji-coğrafi yarımqrupuna aiddir. Sinonimi yoxdur[1, s.271-272 ].

Tədqiqat işinin gedişində üzüm sortlarının aqrobioloji [3; 4; 5] və ampeloqrafik metodlarından istifadə olunmuşdur [2, 113-147; 6; 7].

**Eksperimental hissə.** Tədqiqatın gedişində Naxçıvan MR - ərazisində yayılan üzüm sortlarının genofondu araşdırılmış, azyayılan, nadir sortlar müəyyənləşdirilmiş, ampeloqrafik təsvirləri aparılmışdır. Aşağıda bu sortlardan biri olan Qoç üzümü sortunun botaniki, aqrobioloji və ampelo - deskriptor xüsusiyyətləri verilmişdir.

*Botaniki təsviri*

*Tənək:* Tənəkləri güclü inkişafetmə xüsusiyyətinə malikdir. Yazda tumurcuqların ən azı 87,3%-dən yeni zoğlar inkişaf edir. Tənəklərdə məhsuldar zoğlar isə orta hesabla 65,5% təşkil edir.

*Birillik zoğ:* Birillik zoğların inkişafı güclüdür və orta uzunluğu 205,0 sm-dir. Birillik çubuqlarda buğumaraları sarımtıl - qəhvəyi rəngdə olmaqla, üzərində tünd rəngli ləkə və qısa zolaqlar olur. Buğumları isə qəhvəyi rənglidir.

*Yaşıl zoğ:* Yeni inkişaf edən yaşıl zoğların tacı və 3-5 yarpaqların alt səthində, damarlar arasında ağ torabənzər tükcüklər müşahidə edilmir. İnkişaf etməkdə olan birillik zoğların uc hissəsi açıq yaşıl, yoğunlaşmış nahiyələri isə yaşımtıl - mavi rənglidir.

*Yarpaq:* Tənəklərdə orta yarusda yerləşən yarpaqları dairəvi, bəzən eninə oval formada olmaqla, diametri 18,0-19,0 sm, yarpaq indeksi 0,96, sahəsi 195,64 $sm^2$, orta damarın uzunluğu isə 9,5 sm-dir. Səthi yaşıl rəngli, üzəri hamar olmaqla, əsasən beşpənçəlidir. Yarpağın kənarları azca yuxarı yönəlir. Yarpaqların alt səthində damarların üzəri çılpaqdır. Yarpaqların yuxarı yan kəsiyi dayaz və ya orta dərinlikdədir, enli və ensiz liraşəkillidir. Aşağı yan kəsiyi isə orta dərinlikdə, ensiz liraşəkilli olur. Bəzən pəncələri azca qapanır. Yarpaqlarda pəncələrin ucundakı dişciyi iridir, ucu küt, enli oturacaqlıdır. Kənar dişcikləri isə müxtəlif uzunluqda, iri, küt mişardişli formada olurlar. Xəzan dövrü yarpaqları saralır.

*Saplaq:* Bozumtul - ağ rəngli saplağı əsasən yarpağın əsas damarına bərabər olur. Saplağın uzunluğu 9,0 - 10,0 sm-ə bərabərdir. Saplaq oyuğu əsasən qapalıdır.

*Çiçək:* Çiçəkləri iki cinslidir. Erkəkcikləri çox yaxşı inkişaf etmişdir. Tozcuqları iridir, yumurtalığı kürə formalıdır, ağızcığı enlidir. Tozcuqların fertilliyi yüksək, 96,5%-ə çatır.

*Salxım:* Salxımları konusvari formada, cəlbedici əmtəə görünüşünə malikdirlər. Salxımların uzunluğu 17,0-18,5 sm, eni isə 9,0-11,5 sm-dir. Gilələri orta sıxlıqda yerləşir. Darağın çəkisi 3,4 q olmaqla, salxımın 0,90%-ni təşkil edir. Salxım saplağı 5-6 sm-dir.

*Gilə:* Gilələri iri olmaqla, kürəşəkillidir, bəzən girdə oval formada, diametri 21,0 mm-ə qədərdir. Gilələri göyümtül - ağ rənglidir, üzəri zəif mum qatı ilə örtülüdür. Gilələri sulu - şirəli, şirəsi rəngsiz, qabığı qalın, gilə saplağı uzundur. Gilələri saplağından çətinliklə qopur. Hər gilədə 2-3 ədəd toxum vardır.

*Toxum:* Toxumları orta irilikdə olmaqla, çəkisi 0,9 mq-dır, uzunsov formada, qəhvəyi rənglidir. Üst nahiyədə xalaza eninə basıq olmaqla, dairəvi formalıdır, küt ucu künbəzə bənzəyir.

*Aqrobioloji və texnoloji xüsusiyyətləri*

*Vegetasiya dövrü:* Orta gec yetişən sortdur. Tənəklərdə şirə axını mart ayının axırı, aprel ayının əvvəllərində başlayır. Tumurcuqların açılması aprel ayının ikinci ongünlüyündə, çiçəkləmə iyun ayının birinci ongünlüyündə başlayır. Salxımları isə sentyabr ayının ortalarında tam fizioloji yetişkənliyə çatır. Salxımları uzun müddət xarab olmadan tənəklərdə qalır. Tumurcuqların açılmasından məhsulun tam yetişməsinə qədər olan vegetasiya dövrü 150-160 gün davam edir. Tam yetişkənlik üçün 3450- 3465$^0$C aktiv temperatur sərf olunur (Cədvəl 1).

Əsas fenoloji fazaların gedişi. Cədvəl 1.

| İllər | Tumurcuqların açılması | | Çiçəkləmə | | Gilələrin yetişməsi | | Tumurcuqların açılmasından, gün | | Xəzan |
|---|---|---|---|---|---|---|---|---|---|
| | kütləvi | davametmə müddəti, gün | kütləvi | davametmə müddəti, gün | kütləvi | davametmə müddəti, gün | çiçəkləməyə qədər | gilələrin yetişməsinə qədər | |
| 2006 | 16.04 | 4 | 15.06 | 8 | 21.09 | 34 | 65 | 160 | 17.11 |
| 2008 | 09.04 | 3 | 09.06 | 9 | 14.09 | 27 | 57 | 155 | 12.11 |
| 2009 | 09.04 | 3 | 09.06 | 9 | 14.09 | 27 | 57 | 155 | 12.11 |
| 2010 | 13.04 | 4 | 12.06 | 9 | 17.09 | 29 | 60 | 157 | 14.11 |
| 2013 | 15.04 | 5 | 10.06 | 8 | 13.09 | 28 | 58 | 156 | 15.11 |
| 0216 | 13.04 | 4 | 11.06 | 8 | 10.09 | 26 | 52 | 160 | 12.11 |

*Məhsuldarlıq:* Orta məhsuldar sortdur. Tum və şpaler sistemində becərildikdə yüksək məhsul verir. Tum becərilmə sistemində 75-85 bar yükündə hər tənəkdən 8,0-10,0 kq məhsul toplanılır. Şpaler becərilmə sistemində isə 65-75 bar yükündə bir tənəkdən 6,0-7,5 kq məhsul toplamaq mümkündür. Məhsuldarlıq əmsalı kolda 0,65, barlı zoğlarda 1,0-dır. Zoğlardan məhsuldarlıq 420,0 q olmuşdur. Texniki yetişmə dövrü şirədə şəkərliliyi 17,0 q/100 sm$^3$, turşuluğu isə 5,0- 6,0 q/dm$^3$ olmuşdur. Salxımları nəqliyyatla daşınmağa dözümlüdür (Cədvəl 2).

Əsas məhsuldarlıq göstəriciləri (2006-2016-cı illər üzrə orta göstərici). Cədvəl 2.

| salxımın orta çəkisi, q | salxımda gilələrin sayı, ədəd | 100 gilənin çəkisi, q | Gilədə, % | | ümumi şirə çıxımı, %-lə | Şirədə | | Məhsuldarlıq əmsalı | | koldan məhsuldarlıq, kq |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | qabıq | toxum | | şəkərliliyi, q/100 sm$^3$ | turşuluğu, q/dm3 | kolda | barlı zoğlarda | |
| 420,0 | 105,2 | 450,0 | 10,5 | 4,2 | 78,0 | 17,0 | 6,2 | 0,65 | 1,0 | 6,5 |

*Xəstəliklərə, ziyanvericilərə və şaxtaya dözümlülüyü:* Yarpaqlarda və salxımlarda göbələk xəstəliklərindən mildiuya 2-3 bal, oidiuma 0-1 bal yoluxma qeydə alınmışdır. Boz çürüməyə yoluxma 1,0%, inkişafetmə intensivliyi 3,0% olmuşdur. Tənəkləri mənfi 19$^0$C -qədər şaxtalara dözümlüdür.

*Kolda mumyetişmə:* Tənəklərdə mumyetişmə iyul ayının ortalarında başlayır. Xəzan dövrü çubuqlarda mumyetişmə 92,0%-ə çatır və 5 balla qiymətləndirilmişdir.

*İstifadə edilən məhsullarının xüsusiyyəti:* Universal istiqamətli sort olmaqla, həm süfrə, həm də texniki məqsədlər üçün istifadə olunur. Təzə halda yeyilməklə, ondan müxtəlif şirələr, mürəbbə hazırlanır.

*Klon və variasiyaları:* Yoxdur.

*Ampelo-deskriptor xüsusiyyətləri:* Sortun ampelo - deskriptor xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş metodika əsasında öyrənilmişdir (Cədvəl 3).

Qoç üzümü sortununun ampelo - deskriptor xüsusiyyətləri. Cədvəl 3.

| Morfoloji əlamətləri | | İrsi əlamətlərin təzahürü | |
|---|---|---|---|
| Şifrə | Adları | Kod | Forması |
| 004 | tac üzərində ağ torabənzər tükcüklər | 3 | zəif |
| 053 | yeni yarpaqlarda ağ torabənzər tükcüklər | 1 | yoxdur |
| 065 | yarpağın səthinin sahəsi | 5 | orta irilikdə |
| 067 | yarpağın forması | 4 | dairəvi |
| 068 | yarpaq pəncələrinin sayı | 4 | beşpəncəli |
| 069 | yaşıl zoğlarda ilk 3-5 yarpaqların səthinin rəngi | 5 | yaşıl |
| 074 | yarpağın yandan görünüşü | 3 | kənarları yuxarı yönəlir |
| 075 | yarpaq səthindəki qabarcıqlar | 3 | zəif |
| 076 | yarpaq kənarlarındakı dişciklərin forması | 3 | hər iki tərəfi maili |
| 079 | saplaq oyuğunun forması | 5 | qapalı |
| 082 | yuxarı yan kəsiyin forması | 3 | pəncələri azca qapanır |
| 084 | yarpaqların alt səthində ağ t tükcüklər | 1 | yoxdur |
| 085 | yarpaqların alt səthində ağ qılçıqlar | 1 | yoxdur |
| 093 | saplağın əsas damarın uzunluğuna nisbəti | 5 | bərabərdir |
| 151 | çiçək tipi | 5 | funksional dişi cinsli |
| 202 | salxımın ölçüsü (uzunluğu + eni) | 5 | orta irilikdə |
| 204 | salxımda gilələrin sıxlığı | 5 | orta sıxlıqda |
| 206 | salxım saplağının uzunluğu | 7 | uzun |
| 207 | salxım saplağının odunlaşması | 5 | orta dərəcədə odunlaşır |
| 220 | gilələrin ölçüsü (eni :uzunluğu) | 5 | orta (14 - 18 mm) |
| 228 | gilədə qabığın qalınlığı | 7 | qalın |
| 230 | gilədə lətli hissənin rəngi | 2 | rəngli |
| 232 | lətli hissənin sululuq xassəsi | 2 | sulu-şirəli |
| 234 | lətli hissənin bərkliyi | 2 | bərk |
| 236 | gilələrin dad xüsusiyyəti | 1 | fərqlənmir |
| 238 | salxımlarda meyvə saplağının uzunluğu | 5 | orta (5-12 mm) |
| 241 | gilələrdə toxumların cücərməyə yararlılığı | 3 | yararlı |
| 243 | toxumun kütləsi | 5 | orta (40 mq-qədər) |
| 304 | gilələrin tam fizioloji yetişmə dövrü | 9 | ən gec yetişən |
| 452 | yarpaqlarda mildiu xəstəliyinə qarşı dözümlülük | 5 | orta dözümlü |
| 453 | salxımlarda mildiu xəstəliyinə qarşı dözümlülük | 5 | orta dözümlü |
| 455 | yarpaqlarda oidium xəstəliyinə qarşı dözümlülük | 7 | dözümlü |
| 456 | salxımlarda oidium xəstəliyinə qarşı dözümlülük | 7 | dözümlü |
| 458 | yarpaqlarda boz çürümə xəstəliyinə dözümlülük | 7 | dözümlü |
| 459 | salxımlarda boz çürümə xəstəliyinə dözümlülük | 7 | dözümlü |
| 504 | bir hektardan məhsuldarlıq, t/ha | 9 | çox yüksək, 17 t/ha və çox |
| 505 | şirədə şəkərlilik, q/100 sm$^3$ | 5 | orta, 18-20 q/100 sm$^3$ |
| 506 | şirədə turşuluq, q/dm$^3$ | 5 | orta, 7-9 q/dm$^3$ |
| 604 | çubuqların mumyetişmə dərəcəsi, % | 9 | çox yüksək |
| 629 | məhsulun tam yetişməsinə qədər vegetasiya müddəti | 8 | çox gec yetişən,165-dən çox |
| 630 | tənəklərdə tumurcuqların cücərmə dərəcəsi | 9 | çox yüksək |
| 631 | şaxtalara dözümlülüyü | 7 | nisbətən yüksək |
| 632 | yüksək temperatura dözümlülüyü | 7 | yüksək |

## ƏDƏBİYYAT

1. Quliyev V.M. Naxçıvan Muxtar Respublikasının üzüm genofondu və seleksiyası, Bakı, Müəllim, 2017, 290 s.
2. Quliyev.V.M. və b. Azərbaycan ampeloqrafiyası, I cild, Bakı, Müəllim,2017,840 s.
3. Quliyev.V.M. Naxçıvan Muxtar Respublikasında üzümün genofondunun tətbiqi, qiymətləndirilməsi və seleksiyası. Kənd təsərrüfatı elm. dok.dis. avtoref, Bakı, 2012, 46 s.
4. Quliyev.V.M. Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası, Naxçıvan, Əcəmi, 2012, 584 s.
5. Лазаревский М.Л. Изучение сортов винограда, Ростов на Дону, 1995, 150 с.
6. Caracteres ampelographiques. Code des caracteres descriptifs des varietes et especes de *Vitis*. Paris: Dedon, 1984, 135 p.
7. Codes des caracteres descriptifs des varietes et especes re *Vitis*. OIV. 2001. http://www.oiv.int/fr



## ABSTRACT

**Varis Guliyev**

**THE ABORIGENS VARIETIES – KOCH UZUM OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**

Vine varietal composition of Nakhchivan Autonomous Republic has long been considered to be rich. Local gardeners and breeders on the basis of wild vine V.Sylvestris, which is widely spread in Nakhchivan land cultivated, many valuable and rare grape varieties. One such variety is Koch uzum. The article presents the results of research and bio morphological economic and technical indicators varieties.



## РЕЗЮМЕ

**Варис Кулиев**

**АБОРИГЕННЫЙ ВИНОГРАДНЫЙ СОРТ – КОЧ УЗЮМ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ**

Сортовой состав винограда Нахчыванской Автономной Республики с давних времён считается богатым. Местные садоводы и селекционеры на основе дикорастущего винограда V.Sylvestris, который широко распространилась в Нахчыванской земле, выращивали, много ценных и редких виноградных сортов. Один из таких сортов является Коч узюм. В статье излагается полученные результаты исследований биоморфологических и хозяйственно-технических показателей сорта.

**ƏLİYAR İBRAHİMOV**
**FATMAXANIM NƏBİYEVA**
*AMEA Naxçıvan Bölməsi*
*aliyaribragimov@mail.ru*
**MUSA CABBAROV**
*Bakı Dövlət Universiteti*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DAĞ - KSEROFİT BİTKİLİYİNDƏ YAYILMIŞ QIRTICLARIN (TAXILLARIN) HƏYAT FORMALARI VƏ EKOLOJİ QURUPLARI

**Açar sözlər:** *fəsilə, cins, növ, flora, həyat forması, ekoloji qrup, kserofit, mezofit,endemik, nadir, yem*
**Key words:** *family, genus, species, life form, ecological group, xerophyte, mesophyte, endemic, rare, forage*
**Ключевые слова:** *семейства, род, вид, флора, жизненная форма, экологическая группа, ксерофиты, мезофиты, эндемический, редкий, корм*

Məqalədə Naxçıvan Muxtar Respublikasının dağ - kserofit bitkiliyində yayılmış qırtıcların (taxılların) həyat formaları, ekoloji, bioloji qrupları və bitkiliyin formalaşmasında rolu barədə məlumat verilir. Çoxillik tədqiqatlarda regionun florasında 96 cinsdə cəmlənmiş 321 qırtıc növünün olduğu müəyyən edilmişdir. Dağ kserofit bitkiliyində onların 199 növü yayılmışdır. Aparılmış təhlil nəticəsində məlum olmuşdur ki, qırtıcların həyat formasında çoxillik, ekoloji qruplarına görə kserofit və mezofit növlər üstünlük təşkil edirlər. Qırtıcların 123 növü çoxillik, 76 növü birillikdir. Kserofitlər 130 növlə bitkiliyin quru, əlverişsiz ekoloji şəraitə müvafiq olaraq birinci yerdə dururlar. 63 mezofit qırtıclardan 46-sı mezokserofit, 4-ü psixromezokserofit, 6-sı psammomezokserofit, 1-i hiqromezofit, 5-i halohiqromezofit yarımqruplara ayrılır. Elytrigia heidemaniae Tzvel., Bromus tzvelevii S.G. Mussajev, Koeleria bitczenachica (Tzvel.) Tzvel., K. albovii Domin., Agrostis marschalliana Seredin, Stipa issaevii S.G. Mussajev & Sadychov и S. karjaginii S.G. Mussajev & Sadychov növləri Naxçıvanın endemik bitkilərdir. 8 növ isə Triticum boeoticum Boiss., Triticum monococcum L., Triticum araraticum Jakubz., Secale vavilovii Grossh., Bromus tzvelevii S.G.Mussajev, Scleropoa rigida (L.) Griseb., Stipa issaevii S.G.Mussajev və Sadychov, Stipa karjaginii S.G.Mussajev və Sadychov Naxçıvan Muxtar Respublikasının "Qırmızı Kitabı"na düşmüşdür.
Qırtıclar otlaqların, biçənəklərin yem dəyərini artırır və yem bazasının möhkəmləndirilməsində mühüm rol oynayırlar.

Naxçıvan Muxtar Respublikası tipik dağlıq ölkədir. Zəngin florası və bitki örtüyü vardır. Buradakı mövcud mühit şəraiti bitkilərin həyat formalarını, bioloji və ekoloji qruplarını formalaşdırmışdır. Dağ-kserofit florasında qırtıclar işığa münasibətinə görə: işıqsevən, kölgəsevən və kölgəyədavamlı; rütubətə münasibətinə görə: kserofi, mezofit, hiqrofit, hidrofit; qida maddələrinə münasibətinə görə: evtrof, oliqotrof, açidofil, neyrofil, bazofil, indifferent bioloji və ekoloji qruplar əmələ gətirir [1, 5, 9, 13].

Qırtıckimilər - Poaceae Barnhart. çiçəkli bitkilərin ən böyük fəsilələrindən biridir. Bu fəsiləyə 4500-dən çox növ daxil edilir. Onların nümunələrinə yer kürəsinin hər yerində təsadüf olunur [10, s. 248-377; 13]. Çoxillik floristik və geobotaniki tədqiqatlar zamanı Naxçıvan MR-sı ərazisində 96 cinsə yığılmış 321 qırtıc növünün olduğu müəyyən edilmişdir [6, s. 62-83; 8, s. 103-165; 11, s. 28-314; 12, s. 107-347;]. Qırtıckimilər, təkcə 89 cins və 337 növlə təmsil olunan Asterkimilər - Asteraceae Dumort fəsiləsindən geri qalır.

Fəsiləyə mənsub olan cinslər növ sayına görə eyni deyildir. Elə cinslər vardır ki, onlarla növə malik olub, bitkiliyin formalaşmasında və inkişafında əhəmiyyətli rol oynayırlar [3, s. 12-23; 4, s. 68-70; 9]. Belə cinslərə: Qırtıc - Poa L., Şiyav - Stipa L., Dəlicəotu - Bromopsis Fourr., Yumşaqsüpürgə - Calamagrostis Adans, Tonqalotu - Bromus L. misal ola bilər (şəkil).

Qırtıcılara mənsub olan bitki növləri əsasən birillik, ikiillik, çoxillik otlardan ibarətdir.

Bəzi fərqlənmələr müstəsna olmaqla, daha çox ümumi əlamətlərə malikdirlər. Belə ki, hamısının kökü saçaqlı kök sisteminə aiddir. Bəzi növlərdə kökümsovlar və ya sürünən köklər inkişaf edir.

Gövdələri formasına görə girdədir, küləş adlanır, düyün və düyün aralarına bölünür, düyün aralarında gövdənin içərisi boşdur. Qarğıdalıda bundan fərqli olaraq, düyün arasının içərisi yumşaq toxuma ilə doludur.

  

Stipa lessingiana Trin. & Calamagrostis epigeios (L.) Poa bulbosa

Gövdələri ancaq aşağı hissəsində budaqlanır. Yarpaqları aya və qın hissədən ibarətdir, xətvaridir, parallel damarlanır. Qın qaidəsində düyünə bitişir və ondan yuxarı düyün arasını əhatə edir. Qırtıclarda qın adətən bir tərəfindən açıqdır. Ayanın qına keçən hissəsində pərdəşəkilli dilcik adlanan çıxıntı olur. Elə növlər də vardır ki, onlarda dilcik əvəzinə tükcüklər əmələ gəlir. Bir çox növlərdə isə məsələn; arpada olduğu kimi dilciyin hər iki tərəfində ayanın qaidəsi çıxıntı kimi uzanır və bunlara qulaqcıq deyilir. Bitkilərin yaşayışında, mühitə uyğunlaşmasında həyat formalarının, bioloji və ekoloji qrupların əhəmiyyəti son dərəcə böyükdür (cədvəl).

Cədvəl

Dağ-kserofit bitkiliyində yayilmış qırtıcların həyat formaları və ekoloji qrupları

| № | Qırtıcların adı | Həyat formaları | Ekoloji qrupları |
|---|---|---|---|
| 1. | Brachipodium pinnatum (L.) Beauv. | Çoxillik | Kserofit |
| 2. | B. rupestre (Host) Roem. & Schult. | Çoxillik | Mezokserofit |
| 3. | Elymus caninus (L.) L. | Çoxillik | Kserofit |
| 4. | E. caucasicus (C.Koch) Tzvel. | Çoxillik | Kserofit |
| 5. | Elytrigia heidemaniae Tzvel. | Çoxillik | Kserofit |
| 6. | E. caespitosa (C.Koch) Nevski | Çoxillik | Kserofit |
| 7. | E. turcica P.E.McGuire a нах. | Çoxillik | Kserofit |
| 8. | E. intermedia (Host) Nevski | Çoxillik | Kserofit |
| 9. | E. trichophora (Link) Nevski - | Çoxillik | Kserofit |
| 10. | E. pulcherrima (Grossh.) Nevski | Çoxillik | Mezokserofit |
| 11. | E. repens (L.) Nevski | Çoxillik | Halomezokserofit |
| 12. | E. elongatiformis (Drob.) Nevski | Çoxillik | Kserofit |
| 13. | Agropyron pectinatum (Bieb.) Beauv. | Çoxillik | Kserofit |
| 14. | A.imbricatum Roem. et Schult. | Çoxillik | Kserofit |
| 15. | Eremopyrum orientale (L.) Jaub. & Spach. | Birillik | Mezokserofit |
| 16. | E. bonaepartis (Spreng.) Nevski | Birillik | Kserofit |
| 17. | E. distans (C.Koch) Nevski | Birillik | Kserofit |
| 18. | E. triticeum (Gaertn.) Nevski | Birillik | Kserofit |
| 19. | Heteranthelium piliferum (Banks & Soland.) Hochst. | Birillik | Kserofit |
| 20. | Aegilops cylindrica Host | Birillik | Kserofit |
| 21. | A. tauschii Coss. | Birillik | Kserofit |
| 22. | A.triuncialis L. | Birillik | Kserofit |
| 23. | A. biuncialis Vis. | Birillik | Kserofit |
| 24. | A.columnaris Zhuk | Birillik | Kserofit |
| 25. | A. ovata L. | Birillik | Kserofit |
| 26. | A.umbellulata Zhuk. | Birillik | Kserofit |
| 27. | Triticum boeoticum Boiss. | Birillik | Kserofit |
| 28. | T. monococcum L.. | Birillik | Mezokserofit |
| 29. | T. araraticum Jakubz. | Birillik | Kserofit |
| 30. | T. dicoccon (Schrank) Schuebl. | Birillik | Kserofit |
| 31. | T. turgidum L | Birillik | Kserofit |
| 32. | T.vavilovii Jakubz. | Birillik | Kserofit |
| 33. | T. turanicum Jakubz. | Birillik | Kserofit |

| | | | |
|---|---|---|---|
| 34. | T. spelta L. | Birillik | Kserofit |
| 35. | T. carthlicum Nevski | Birillik | Kserofit |
| 36. | T. compactum Host | Birillik | Mezokserofit |
| 37. | Secale montanum Guss. | Çoxillik | Mezokserofit |
| 38. | S. vavilovii Grossh. | Çoxillik | Mezokserofit |
| 39. | S. afganicum (Vav.) Tzvel. | Birillik | Kserofit |
| 40. | Hordeum violaceum Boiss. & Huet. | Çoxillik | Mezokserofit |
| 41. | H. glaucum Steud. | Birillik | Kserofit |
| 42. | H. marinum L. | Çoxillik | Mezokserofit |
| 43. | H. leporinum Link. | Birillik | Kserofit |
| 44. | H. geniculatum All. | Birillik | Mezokserofit |
| 45. | H. bulbosum L. | Çoxillik | Mezokserofit |
| 46. | H. spontaneum C. Koch | Birillik | Mezokserofit |
| 47. | Taeniatherum crinitum (Schreb.) Nevski | Birillik | Kserofit |
| 48. | Henrardia persica (Boiss.) C.E.Hubb. | Birillik | Kserofit |
| 49. | H.glabriculumis (Nevski) Ovcz. | Birillik | Kserofit |
| 50. | Bromus arvensis L. | Birillik | Kserofit |
| 51. | B. squarrosusL. | Birillik | Kserofit |
| 52. | B. briziformis Fisch. & C.A.Mey | Birillik | Kserofit |
| 53. | B. pseudodanthoniae Drob. | Birillik | Kserofit |
| 54. | B. danthoniaeTrin. | Birillik | Kserofit |
| 55. | B.tzvelevii S.G. Mussajev | Birillik | Kserofit |
| 56. | Bromopsis biebersteinii (Roem. &Schult.) Holub. | Çoxillik | Kserofit |
| 57. | B. variegata (Bieb.) Holub | Çoxillik | Kserofit |
| 58. | B. villosula (Steud.) Holub | Çoxillik | Kserofit |
| 59. | B. riparia (Rehm.) Holub | Çoxillik | Kserofit |
| 60. | B. schelkovnikovii (Tzvel.) Holub | Çoxillik | Kserofit |
| 61. | B. woronowii (Tzvel.) Czer. | Çoxillik | Kserofit |
| 62. | B. tomentella (Boiss.) Holub | Çoxillik | Kserofit |
| 63. | B. nachiczevanica (Tzvel.) Holub | Çoxillik | Kserofit |
| 64. | B.cappadocica (Boiss. et Bal.) Holub | Çoxillik | Kserofit |
| 65. | Anisantha serilis (L.) Nevski | Birillik | Kserofit |
| 66. | Boissiera sguarrosa (Soland.) Nevski | Birillik | Kserofit |
| 67. | Avena persica Steud. | Birillik | Kserofit |
| 68. | A. fatua L. | Birillik | Kserofit |
| 69. | A. sativaL. | Birillik | Kserofit |
| 70. | A. barbata Pott ex Link | Birillik | Kserofit |
| 71. | A. eriantha Durieu | Birillik | Mezokserofit |
| 72. | Avenula armeniaca (Schischk.) Holub | Çoxillik | Mezokserofit |
| 73. | Arrhenatherum kotschyi Boiss. | Çoxillik | Kserofit |
| 74. | A.elatius (L.) J. et C.Presl | Çoxillik | Mezokserofit |
| 75. | Gaudinopsis macra (Stev. Ex Bieb.) Eig. | Birillik | Kserofit |
| 76. | Anthoxanthum odoratum L. | Çoxillik | Mezokserofit |
| 77. | A. alpinum A. et D. Löve | Çoxillik | Mezokserofit |
| 78. | Trisetum rigidum (Bieb.) Roem. et Schult. | Çoxillik | Mezokserofit |
| 79. | Trisetaria loeflingiana (L.) Raunero | Birillik | Psixromezokserofit |
| 80. | Rostraria cristata (L.) Tzvel. | Birillik | Kserofit |
| 81. | Koeleria cristata (L.) Pers. | Çoxillik | Kserofit |
| 82. | K. kurdica Ujhelyi | Çoxillik | Kserofit |
| 83. | K. bitczenachica (Tzvel.)Tzvel. | Çoxillik | Kserofit |
| 84. | K. albovii Domin | Çoxillik | Kserofit |
| 85. | Avenula flexuosa (L.) Drej. | Birillik | Kserofit |

| | | | |
|---|---|---|---|
| 86. | A.elegantissima Schur. | Birillik | Kserofit |
| 87. | Milium transcaucasicum Tzvel. | Çoxillik | Kserofit |
| 88. | Calamagrostis epigeios (L.) Roth. | Çoxillik | Kserofit |
| 89. | Apera interrupta (L.) Beauv. | Birillik | Mezokserofit |
| 90. | Agrostis transcaspica Litv. | Çoxillik | Kserofit |
| 91. | A.olimpica (Boiss.) Bor | Çoxillik | Kserofit |
| 92. | A.lazica Bal. | Çoxillik | Kserofit |
| 93. | A. marschalliana Seredin | Çoxillik | Kserofit |
| 94. | Polypogon fugax Nees ex Steud. | Çoxillik | Psixromezokserofit |
| 95. | P. monspeliensis (L.) Desf. | Birillik | Psammokserofit |
| 96. | P. maritimus Willd | Birillik | Mezokserofit |
| 97. | Schedonorus pratensis (Huds.) Beauv. | Birillik | Higromezofit |
| 98. | S.arundunaceaSchreb. | Çoxillik | Psammokserofit |
| 99. | Lolium rigidum Gaud. | Çoxillik | Psammokserofit |
| 100. | Drymochloa drymeja (Mert. et Koch) Holub | Çoxillik | Mezokserofit |
| 101. | Festuca sclerophylla Boiss. ex Bisch. | Çoxillik | Psixromezokserofit |
| 102. | F.karabaghensis S.G.Mussajev | Çoxillik | Mezokserofit |
| 103. | F.chalcophaea V.Krecz. et Bobr. | Çoxillik | Kserofit |
| 104. | F.valesiaca Gaudin. | Çoxillik | Kserofit |
| 105. | F. brunnescens (Tzvel.) Galushko | Çoxillik | Mezokserofit |
| 106. | F. skvortsovii E.Alexeev | Çoxillik | Mezokserofit |
| 107. | F.polychroa (Trautv.) Roshev | Çoxillik | Psixromezokserofit |
| 108. | Vulpia ciliata Dumort. | Birillik | Psammokserofit |
| 109. | V. persica (Boiss. & Buhse) V.Krecz. et Bobr. | Birillik | Kserofit |
| 110. | V. hirtiglumis Boiss. et Hausskn | Birillik | Kserofit |
| 111. | Nardurus maritimus (L.) Murb. | Birillik | Kserofit |
| 112. | Loliolum subulatum (Banks & Soland.) Eig | Birillik | Kserofit |
| 113. | Scleropoa rigida (L.) Griseb. | Birillik | Kserofit |
| 114. | Cutandia rigescens (Grossh.) Tzvel. | Birillik | Kserofit |
| 115. | Poa alpina L. | Çoxillik | Psixromezokserofit |
| 116. | P. bulbosa L. | Çoxillik | Kserofit |
| 117. | P. sinaica Steud. | Çoxillik | Kserofit |
| 118. | P. densa Troitzky | Çoxillik | Kserofit |
| 119. | P. pratensis L. | Çoxillik | Mezokserofit |
| 120. | P. iberica Fisch. & C.A.Mey. | Çoxillik | Mezokserofit |
| 121. | P. meyeri Trin. ex Roshev. | Çoxillik | Kserofit |
| 122. | P. palustris L. | Çoxillik | Mezokserofit |
| 123. | P. araratica Trautv | Çoxillik | Mezokserofit |
| 124. | P. compressa L | Çoxillik | Mezokserofit |
| 125. | Eremopoa multiradiata (Trautv.) Roshev | Birillik | Kserofit |
| 126. | E.persica (Trin.) Roshev | Birillik | Kserofit |
| 127. | E.songarica (Schrenk) Roshev. | Birillik | Kserofit |
| 128. | E. oxyglumis (Boiss.) Roshev. | Birillik | Mezokserofit |
| 129. | Catabrosella humilis (Bieb.) Tzvel. | Birillik | Mezokserofit |
| 130. | C. parviflora (Boiss.& Buhse)Tzvel. ex Czopan. | Birillik | Mezokserofit |
| 131. | Colpodium versicolor (Stev.) Schmalh | Çoxillik | Mezokserofit |
| 132. | Zingeria trichopoda (Boiss.) P.A.Smirn. | Çoxillik | Mezokserofit |
| 133. | Puccinellia gigantea (Grossh.) Grossh | Çoxillik | Mezokserofit |
| 134. | P. bulbosa (Grossh.) Grossh. | Çoxillik | Halokserofit |
| 135. | P. distans (Jacq.) Parl. | Çoxillik | Kserofit |
| 136. | Sclerochloa dura (L.) Beauv | Birillik | Kserofit |
| 137. | S. woronowii (Hack.) Tzvel. ex Bor | Birillik | Halokserofit |

| | | | |
|---|---|---|---|
| 138. | Dactylis hispanica Roth. | Çoxillik | Kserofit |
| 139. | Cynosurus echinatus L. | Birillik | Kserofit |
| 140. | Briza elatior Sibth. & Smith. | Çoxillik | Kserofit |
| 141. | B.elatior Sibth. ett Smith. | Çoxillik | Kserofit |
| 142. | Parapholis incurva (L.) C. E.Hubb. | Birillik | Kserofit |
| 143. | Sesleria phleoides Stev. ex Roem. & Schult. | Çoxillik | Kserofit |
| 144. | Echinaria capitata (L.) Desf. | Birillik | Kserofit |
| 145. | Phalaroides arundinacea (L.) Rausch. | Çoxillik | Mezokserofit |
| 146. | P. brachystachys Link. | Birillik | Kserofit |
| 147. | Phleum phleoides (L.) Karst. | Birillik | Kserofit |
| 148. | P.paniculatum Huds. | Çoxillik | Mezokserofit |
| 149. | P. orientalis Boiss. | Birillik | Kserofit |
| 150. | P. pratense L. | Çoxillik | Mezokserofit |
| 151. | Alopecurus textilis Boiss. | Çoxillik | Kserofit |
| 152. | A. tiflisiensis (G. Westb.) Grossh. | Birillik | Kserofit |
| 153. | A.aucheri Boiss. | Çoxillik | Kserofit |
| 154. | A.arundinaceus Poir. | Çoxillik | Kserofit |
| 155. | A.armenus (C.Koch) Grossh. | Çoxillik | Kserofit |
| 156. | Melica transsilvanica Schur . | Çoxillik | Kserofit |
| 157. | M. taurica C.Koch | Çoxillik | Mezokserofit |
| 158. | M. jacquemontii Decne. | Çoxillik | Mezokserofit |
| 159. | M. hohenackeri Boiss. | Çoxillik | Mezokserofit |
| 160. | M. schischkinii J. lljinsk. | Çoxillik | Mezokserofit |
| 161. | M. ianaequiglumis Boiss. | Çoxillik | Kserofit |
| 162. | M. atropatana Schischk. | Çoxillik | Kserofit |
| 163. | Achnatherum caragana (Trin.) Nevski | Çoxillik | Mezokserofit |
| 164. | A.ordubadense Tzvel. | Çoxillik | Mezokserofit |
| 165. | Stipa transcaucasica Grossh. | Çoxillik | Kserofit |
| 166. | S. holosericea Trin. & Rupr. | Çoxillik | Kserofit |
| 167. | S. arabica Trin. & Rupr. | Çoxillik | Kserofit |
| 168. | S.caspica C.Kpch | Çoxillik | Kserofit |
| 169. | S.prilipkoana Grossh. | Çoxillik | Kserofit |
| 170. | S. hohenackeriana Trin. & Rupr. | Çoxillik | Kserofit |
| 171. | S. ehrenbergiana Trin. & Rupr. | Çoxillik | Kserofit |
| 172. | S. barbata Desf. | Çoxillik | Kserofit |
| 173. | S. lessingiana Trin. & Rupr. | Çoxillik | Kserofit |
| 174. | S. pulcherrima C.Koch | Çoxillik | Kserofit |
| 175. | S.araxensis Grossh. | Çoxillik | Kserofit |
| 176. | S.lejophella P.Smirn. | Çoxillik | Kserofit |
| 177. | S.nachiczevanica Mussajev et Sadechov | Çoxillik | Kserofit |
| 178. | S. issaevii S.G.Mussajev & Sadychov | Çoxillik | Kserofit |
| 179. | S. karjaginii S.G.Mussajev & Sadychov | Çoxillik | Kserofit |
| 180. | S. capillata L. | Çoxillik | Kserofit |
| 181. | S. gaubae Bor | Çoxillik | Kserofit |
| 182. | S. caucasica Schmalh. | Çoxillik | Kserofit |
| 183. | Piptatherum holciforme (Bieb.) Roem. & Schult. | Çoxillik | Kserofit |
| 184. | P. molinioides Boiss. | Çoxillik | Kserofit |
| 185. | Aristida heymannii Regel. | Birillik | Psammokserofit |
| 186. | Stipogrostis plumosa (L.) Munro. Ex T.Anders. | Birillik | Mezokserofit |
| 187. | S. szovitsiana (Trin. & Rupr.) S.G.Mussajev | Çoxillik | Kserofit |
| 188. | Aeluropus littoralis (Gouan) Parl. | Çoxillik | Halokserofit |

| | | | |
|---|---|---|---|
| 189. | A. repens (Desf.) Parl. | Çoxillik | Halokserofit |
| 190. | A.pungens (Bieb.) C.Koch | Çoxillik | Halokserofit |
| 191. | Cleistogenes serotina (L.) Keng . | Çoxillik | Kserofit |
| 192. | Eragrostis minor Host. | Birillik | Kserofit |
| 193. | Chrysopogon gryllus (L.) Trin. | Çoxillik | Kserofit |
| 194. | Bothriochloa ischaemum (L.) Keng. | Çoxillik | Mezokserofit |
| 195. | B.caucasica (Trin.) C.T.Hubb. | Çoxillik | Mezokserofit |
| 196. | Arthraxon hispidus (Thunb.) Makino | Çoxillik | Kserofit |
| 197. | Cutandia rigescens (Grossh.)Tzvel | Çoxillik | Kserofit |
| 198. | Rhizocephalus orientalis Boiss. | Çoxillik | Kserofit |
| 199. | Boriskellera arundinacea (L.) Terechov | Çoxillik | Mezokserofit |

Cədvəldə verilmiş 199 qırtıc növünün həyat formaları və ekoloji qrupları təhlil olunmuşdur. Alınan nəticələrə görə, onların 76 növü (38,19%) birillik, 123 növü (61,81%) çoxillik həyat formasına malikdir. Tədqiq olunan qırtıcların 130 növü (63,33%) kserofit, 63 növü (31,66%) isə mezofit ekoloji qrupununu təşkil edir. Şəraitdən asılı olaraq mezofitlər: 46 növ (73,02%) mezokserofit, 1 növ (1,59%) halokseromezofit, 4 növ (6,35%) psixromezofit, 6 növ (9,52%) psammomezokserofit, 1 növ (1,59%) hiqromezofit, 5 növ (7,94 %) halokserofit yarımqruplara ayrılırlar. Öyrənilən qırtıcların 7 növü (3,52%): Elytrigia heidemaniae Tzvel., Bromus tzvelevii S.G. Mussajev, Koeleria bitczenachica (Tzvel.) Tzvel., K. albovii Domin., Agrostis marschalliana Seredin, Stipa issaevii S.G. Mussajev & Sadychov, S. karjaginii S.G. Mussajev & Sadychov dağ-kserofit bitkiliyində (friqanoid) rast gələnən Naxçıvanın endemik bitkilərdir [2, s. 33-35; 11].

Triticum boeoticum Boiss., Triticum monococcum L., Triticum araraticum Jakubz., Secale vavilovii Grossh., Bromus tzvelevii S.G.Mussajev, Scleropoa rigida (L.) Griseb., Stipa issaevii S.G.Mussajev və Sadychov, Stipa karjaginii S.G.Mussajev və Sadychov - növləri isə Naxçıvan Muxtar Respublikasının "Qırmızı Kitabı"na düşmüşdür.

## ƏDƏBİYYAT


1. Babayev S.Y. Naxçıvan Muxtar Respublikasının coğrafiyası, Bakı, Elm, 1999, 226 s.
2. İbrahimov Ə.Ş., Cabbarov M.T., Nəbiyeva Naxçıvan Muxtar Respublikasının nadir, endemik qırtıckimiləri və onların mühafizəsi // AMEA Botanika İnstitutu və Azərbaycan Botaniklər Cəmiyyətinin akad. V.C. Hacıyevin 90 illiyinə həsr edilmiş "Botaniki tədqiqatlarda yeni çağırışlar" - konfrans materialları, 20-21 iyun. Bakı, 2018, s.33-35
3. İbrahimov Ə.Ş., Talıbov T.H. Naxçıvan Muxtar Respublikasının təbii bitki ehtiyatları və onlardan səmərəli istifadə yolları // Azərb. Resp. Dövlət Elm və Texnika Komitəsi, Elm və Texnika Yenilikləri, Bakı, 2000, № 1(4), s. 12-23
4. İbrahimov Ə.Ş. Naxçıvan MR-in yabanı qida bitkiləri // Naxçıvan Regional Elm Mərkəzinin əsərləri, 2001, s. 68-70
5. Nəbiyeva F.X. Arid ərazilərin florası və səhralaşma (Kür-Araz ovalığı, Arazboyu düzənliklər, Naxçıvan: Tusi nəşr., 2010, 240 s.
6. TalıbovT.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər), Naxçıvan, Əcəmi, 2008, 350 s.
7. Talibov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitabı (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər), Naxçıvan, Əcəmi, 2010, 660 s.
8. Гроссгейм А.А. Флора Кавказа, Баку, Издательство АзФАН, 1939, 402 с.
9. Ибрагимов А.Ш. Растительность Нахчыванской Автономной Республики и ее народнохозяйственное значение, Баку, Элм, 2005, 230 с.
10. Конспект флоры Кавказа, Том II. Издательство Санкт-Петербургского университета, 2006, 465 с.
11. Мусаев С.Г. Злаки Азербайджана, Баку, Элм,199, 420 с.
12. Флора Азербайджана.Т.I. Баку, Издательство АН Азерб.ССР, 1950, 369 с.
13. Цвелев Н.Н. Злаки СССР. - Л.: Наука, 1976, 788 с.
14. А.Ш.Ибрагимов, Ф.Х. Набиева, М.Т. Джаббаров

## ABSTRACT

## THE LIFE FORMS AND ECOLOGİCAL GROUPS OF GRAIN (CEREALS) DISTRIBUTED IN MOUNTAIN-XEROPHYTE VEGETATION OF NAKHCHIVANAUTONOMOUS REPUBLIC

This article presents information about life forms (cereals) and ecological biological groups and role of formation on vegetation spread in the mountain-xerophytic vegetation of Nakhchivan Autonomous Republic. It was found that in the region there are 321 species of cereals, concentrated in 96 genera. In the xerophytic vegetation, there have been spread 199 species. As a result of the research, it turned out that perennials predominate in the life form of cereals and xerophytic and mesophytic species predominate in ecological groups. 123 species are perennial, 76 species are annual. Xerophytic species are in the first place by 130 species in the dry, disadvantaged ecological condition of the plant. From 63 mesophytic cereals 46 are mesoxerophyt, 4 are psychromesophyte, 6 are psammomesophyte, 1 are hygromesophyte, 5 halohigromesophyte subgroups. Elytrigia heidemaniae Tzvel., Bromus tzvelevii S.G. Mussajev, Koeleria bitczenachica (Tzvel.) Tzvel., K. albovii Domin., Agrostis marschalliana Seredin, Stipa issaevii S.G. Mussajev & Sadychov и S. karjaginii S.G. Mussajev & Sadychov species are endemic plants of Nakhchivan and 8 species Triticum boeoticum Boiss., Triticum monococcum L., Triticum araraticum Jakubz., Secale vavilovii Grossh., Bromus tzvelevii S.G.Mussajev, Scleropoa rigida (L.) Griseb., Stipa issaevii S.G.Mussajev & Sadychov, Stipa karjaginii S.G.Mussajev & Sadychov have been included in the Red Book of the Nakhchivan Autonomous Republic.

Cereals increase the value of pastures, forage crops and play an important role in strengthening the food supply.



## РЕЗЮМЕ

## ЖИЗНЕННЫЕ ФОРМЫ И ЭКОЛОГИЧЕСКИЕ ГРУППЫ МЯТЛИКОВ (ЗЛАКИ) РАСПРОСТРАНЕННЫЕ НАГОРНО-КСЕРОФИТНОЙ РАСТИТЕЛЬНОСТИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В представленной статье приведены сведения о жизненных формах мятликов (зерновых), экологических группах мятликов распространенные на горно-ксерофитном растительности Нахчыванской Автономной Республики. Было установлено, что в региона насчитывается более 331 вид мятликов, сосредоточенных в 96 родов. В нагорно-ксерофитным растительности распространены 199 видов. В результате проведенных исследований выяснилось, что в жизненной форме мятликов с 123 (61,81%) преобладают многолетники, однолетники 76 (38,19%) занимает второе место, а в экологических группах 130 (63,33%) первое место занимает ксерофиты. Остальные 63 (31,66%) видов мезофиты. Из них 4 (73,02%) мезоксероаиты, 1(1,59%) галоксерофит, 4 (73,02%) психромезофиты, 6 (9,52%) псаммомезоксерофиты, 1(1,59%) гигромезофиты и 5 (7,94%) галоксерофиты. Установлено что, Elytrigia heidemaniae Tzvel., Bromus tzvelevii S.G. Mussajev, Koeleria bitczenachica (Tzvel.) Tzvel., K. albovii Domin., Agrostis marschalliana Seredin, Stipa issaevii S.G. Mussajev & Sadychov и S. karjaginii S.G. Mussajev & Sadychov являются эндемичными растениями Нахчывана, а 8 видов: Triticum boeoticum Boiss., Triticum monococcum L., Triticum araraticum Jakubz., Secale vavilovii Grossh., Bromus tzvelevii S.G.Mussajev, Scleropoa rigida (L.) Griseb., Stipa issaevii S.G.Mussajev & Sadychov, Stipa karjaginii S.G.Mussajev & Sadychov занесены в Красную книгу Нахчыванской Автономной Республики.

Мятлики увеличивают кормовые ценность пастбищ и играют важную роль в укреплении кормовые базы.

**ƏLİ QURBANOV**
*eli.qurbanov57@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*
**NİGAR BABABƏYLİ**
*ninaba@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*
**GÜLTƏKİN SÜLEYMANOVA**
*gulyasadiq 9897@mail/com*
*AMEA Naxçıvan bölməsi*

## ORTA ARAZBOYUNDA SƏHRA LANDŞAFTININ TURİZM-REKREASİYA İMKANLARINA DAİR

**Açar sözlər:** *səhra, rekreasiya potensialı,iqlim, rütubət, bitki aləmi, mineral sular*
**Key words:** *recreation potential, desert, climate, flora, mineral water*
**Ключевые слова:** *рекреационный потенциал, пустыня, климат, растительный мир, минеральные воды*

Bəşəriyyətin və coğrafi tədqiqatların müasir problemlərindən biri səhralaşma prosesi və səhraların digər landşaft kompleksləri hesabına genişlənməsidir. Yer kürəsində qlobal istiləşmə zonal landşaftın aparıcı komponentləri olan istilik və rütubətin qarşılıqlı əlaqə və münasibətlərində baş verən dəyişikliklər, eyni zamanda, komplekslər daxili ekoloji tarazlığın pozulmasına regionlarda səhralaşmanın sürətlənməsinə səbəb olmuşdur.

Səhralaşmanın başlıca səbəbi olan iqlim ünsürləri və onun əsas indiqatorları sayılan biosenozların dəyişməsi prosesin dinamikasını izləməyə və bu sahədə proqnozlaşmalar aparmağa imkan verirmişdir.

Arazboyunun bitki aləminin tədqiqi ilə bir çox botaniklər, eləcə də landşaftşünaslar D.İ.Sosnovski, A.A.Qrossqeym, A.L.Taxtaçanyan, L.İ.Prilepko, A.Q. Doluxanov, H.Saracoğlu, R.İzbrak, S.Y.Babayev, T.H.Talıbov və başqaları məşğul olmuş, müvafiq təhlillər, analizlər və rayonlaşmalar aparmışlar (9,3). Göstərilən tədqiqatçıların əksəriyyəti landşaftın ayrı - ayrı komponentlərini əsas tutaraq regionda, o cümlədən Arazboyunda səhraların olmamasını iddia edikləri halda, bəziləri ayrı - ayrı təbii faktorlara əsaslanaraq fraqment şəkilli səhra areallarının olduğunu göstərirlər. Lakin, tədqiqatçıların heç biri problemin həllinə kompleks yanaşmadıqlarından və onların tədqiqat obyektləri məhdud əraziləri əhatə etdiyi üçün əhəmiyyətli nəticələr əldə edə bilməmiş, səhranın mövcudluğunu yalnız onu səciyyələndirən hər hansı bir təbii komponentin olması əsasında irəli sürmüşlər.

Arazboyu düzənliklərin iqlim şəraitini - kontinentallıq əmsalını, mümkün buxarlanmanın miqdarını, atmosferin rütubətlənmə əmsalı və eləcə də landşaft komplekslərini təhlil edərək B.Ə. Budaqov və N.S. Bababəyli burada tipik gilli səhra landşaftının olmasını iddia edirlər (9,s. 13).

Daha sonralar E.K.Əlizadə, S.Y. Quliyeva və N.S.Bababətli ərazidə landşaftların tipoloji təsnifatını verərkən bu fikri bir daha təsdiq etmişdir (10, s. 412-421).

Orta Araz fiziki coğrafi vilayətində otlaqlarda olan fitosenozların orta illik məhsuldarlığına dair topladığımız məlumatlardan məlum olmuşdur ki, qiymət şkalasında ən yüksəkdə yarımsəhralara məxsus yovşanlı - efemerli fitosenoz və səhralar üçün səciyyəvi olan şoranotu və yovşan durur.

Yazdan payızın sonuna qədər inkişafını sürdürən yovşanlı yarımsəhra bitkiləri içərisində ətirli yovşan xüsusilə geniş yayilmış hakim növ olduğu halda, səhra landşaftında hakim olan şoranotu və digər elementlər yalnız yaz aylarında yağıntıların düşməsi ilə əlaqədar vegetasiyanı davam etdirir və iyulun əvvəllərində tamamilə quruyurlar. Bu bitkilər bəzi yerlərdə seyrək mozaik kompleks yaratdığı halda, bəzi yerlərdə isə məsələn; Duzdağ platosunun bəzi yerlərində heç bir bitkiyə rast gəlinmir( 4, s. 335), (şəkil1).



Şəkil. 1.Bitkidən məhrumtipik səhra landşaftı ( foto N.S.Bababəylinindir).

Ərazidə səhra landşaftı kompleksi daxilində çayların gətirmə konusları üzərində yarımsəhra kol bitkilərinə, xüsusilə karvanqıran, dəvəqarnı, qınqırğa və bəzən də yulğuna rast gəlinir (1, s. 76).

Ərazinin səhra landşaftı əsasən Arazboyu maili düzənliyini əhatə edir. Bu səhraları genetik tipinə görə gilli, gilli şoranlı, bəzi yerlərdə isə tipik takırlardan ibarətdir ( şəkil.2).

Dərəşam- Gülüstan alçaq dağlıq massivi isə tipik daşlı səhra tipinə aiddir. İqlimi qışı soyuq yayı isti və quraq keçən səhra quru çöl iqlimidir. İyulda havanın orta temperaturu 25-27$^{o}$C, isti yay günlərində bəzən 43$^{o}$- yə çatır. Bu da iqlimin yay istirahəti üçün komfortluğunu azaltdığı halda onun bolnoloji əhəmiyyətini artırmış olur. Əksər tədqiqatçılar hava temperturunun rekreasiya komfortluğunun yuxarı həddini 20-22$^{o}$C götürürlər (11, s. 104,138).

Yağıntıların illik miqdarı 240-260 mm-ə çatır və bu da rekreasiya üçün əlverişli sayılmaqdadır. Ümumi buludluluğun illik kəmiyyəti 5 baldır. Buludluluğun yüksək həddi yaz fəslinə təsadüf edir(11.s.99).



Şəkil.2. Gilli səhrada şoranlı takır **(** foto N.S. Bababəylinindir).

Günəşli saatların illik miqdarı 2700-ə, bəzi illərdə 2900 saata, o cümlədən soyuq dövrdə 800-ə, isti dövrdə1480-ə, yayda 860-a, qışda isə 400 saata çatır. Günəşli günlərin miqdarı səhra landşaftında ən yüksək olub, hündürlüyə doğru digər landşaft tiplərində tədricən azalır. Yalnız ilin soyuq dövründə 1500-1700 m hündürlüyə qədər alçaq dağlığın quru çöl, meşə - çöl və arid meşə landşaftlarında artma müşahidə edilir. Daha sonra günəşli saatların miqdarı yenidən azalır və yüksək dağlıqda buna səbəb orta dağlıq ərazidə qışın nisbətən çox buludlu və qarlı keçməsi, yüksək dağlıqda isə yağıntı verən topa buludların bu hündürlük həddinə çatması ilə əlaqədardır.

Səhra landşaftı daxilində ümumi günəş radiasiyasının illik miqdarı 150-160 kkal sm$^{2}$-il təşkil edir (11 s. 42). Qeyd etmək lazımdır ki, göstərilən kəmiyyət ekvatorial qurşaqda olduğu qədərdir. Günəşli saatların miqdarının və günəş radiasiyasının səviyyəsinin illik cəminin və il ərzində aylar üzrə dəyişməsinin təhlili göstərir ki, Arazboyu landşaftının helioehtiyatı kifayət qədərdir.

Yuxarıda göstərildiyi kimi səhra landşaftı daxilində bitki örtüyü zəif inkişaf etmiş və əsasən müxtəlif otlardan, yovşan, gəngiz, efemerlər və bəzi yerlərdəarealları çox kiçik olan ağac və kolluqlardan ibarətdir. Rekresiya əhəmiyyətli təbii kiçik meşəliklərdə, çayların subasarlarında tuqaylara rast gəlinir.

Səhra landşaftı səth suları ilə zəif təmin olunsa da yeraltı su ehtiyatı ilə zəngindir. Gətirmə konuslarının yüksək filtirasiya qabiliyyəti olan suxurları bol yeraltı şirin su ehtiyatının yaranmasına səbəb olmuşdur.

Səhra landşaftında yay bol günəş radiasiyası, isti keçdiyinə yeraltı sular ilə yaxşı təmin olduğuna görə yay aylarında (iyul - avqust) rekreasiya - iqlim profilli istirahət - sağlamlıq ocaqlarının yaradılması

məqsədə uyğun və əlverişlidir. Araz çayı sahillərini, Darıdağ, Gülüstan, Vayxır mineral su bulaqlarını, Vayxır, Arpaçay, Araz su anbarlarını, Duzdağ balneoloji mərkəzini, Dərəşam mağarasını, Bulaqbaşı göllərini ərazinin rekreasiya potensialını artıran əlavə mənbələr kimi qeyd etmək lazımdır.

**Səhra landşaftının rekreasiya potensialının qiymətləndirilməsi.** *Cədvəl*

| Landşaft tipinin adı | Təbii rekreasiya ehtiyatının növləri | | | | | | | | | İnkişaf etdirilməsi mümkün olan rekr. fəaliyyəti, |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Iqlim | Su ehtiyatı | Mineral bulaqlar | Relyefin parçala ması | Landşaft Estetikliyi | Meşəlik | Ekzotik təbiət abidələri | Hidroloji obyektlər | Heyvan aləmin zəngini | |
| Səhra | + + + + | + + | + + + + + | + + | + + | _ | + + + | + + | + + | Qismən ailəvi istirahət,su hövzələrinə yaxın çimərliklər |

+Rekreasiya potensiali zəngin komponent

Rekreasiya potensiali zəif komponent

Cədvəldəki beş bal sistemi ilə aparılan müqayisədən göründüyü kimi ərazidə su obyektləri, mineral bulaqlar, ekzotik təbiət abidələr, iqlim, relyef rekreasiya potensialı zəngin olan landşaft komponenti kimi qiymətləndirilmişdir. Ərazi əsasən gətirmə konuslarından ibarər olduğundan yeraltı sularda filtirasiya güclü gedir. Əhali tərəfindən bu sular kəhrizlər vasitəsilə səthə çıxarılaraq müxtəlif məqsədlər üçün istifadə edilir. Kəhrizləri həm bir su mənbəyi, həm də bir memarlıq abidəsi kimi turizm cəhətdən qiymətləndirmək olar.

Orta Arazbəyi düzənlikdə bir çox mineral bulaqlara rast gəlinir. Bu bulaqlardan Darıdağ, Gülüstan, Bahasu, Dəhnə, Şərur və s.göstərmək olar ki, bu bulaqların hər biri müxtəlif mineraloji tərkibə malikdir. Bunlardan tərkibində zəif turşular olan Dərəşam hidrokarbonatlı mineral su mənbəyini xüsusi qeyd etmək lazımdır. Bu suda böyrək və öd yollarında formalaşan daşları tökmək üçün istifadə edilmişdir. Darıdağ termal suyunun tərkibində olan mərgümüş (arsen) bir çox xəstəliklərin müalicəsində tətbiq edilir.

Ekzotik təbiət abidələrinə Darıdağda, Dərəşamda və onun ətrafında daha çox rast gəlinir (şəkil 3).



Şəkil 3.Yovşanlı daşlı səhra landşaftı (foto N.S.Bababəylinindir).

Dərəşam mağarası bu ərazi üçün ən maraqlı turizm sahəsinə çevrilə bilər. Mineral bulaqlarla birlikdə Dərəşam mağarasına maraqlı bir marşrut təşkil etmək turizm cəhətdən çox səmərəli ola bilir. Mağarada olan göl və bu göldə yaşayan gözləri mutasiya olan kor balıqlar olduqca maraqlıdır. Burada çox saylı ekzotik qayalar ərazinin rekreasiya potensialını daha da artırır.

Günəşli saatların miqdarının çoxluğu, düzənliyi kəsib keçən çay yataqlarında formalaşan tuqay meşələri və bəzi relyef formaları ərazidə turizmin inkişafı üçün əsasola bilər. Eyni zamanda Araz çayı sahillərində əhalinin günəş vannası qəbul etməsi və istirahəti üçün çimərliklərin yaranması daha məqsədəuyğundur.

Landşaft estetikliyi və heyvanlar aləminin zənginliyi ərazi üçün rekreasiya potensialı cəhətdən nisbətən zəngin komponentdir. Yaradılmış yasaqlıqlar bəzi heyvanların xüsusilə bezuar keçilərinin və muflonların sürətlə artıb çoxalmasına səbəb olmuşdur.

Müvafiq təşkilat və nazirliklərin, Arazboyu düzənliyin yuxarıda göstərilən turizm - rekreasiya potensialın nəzərə alaraq onlardan Naxçıvan Muxtar Respublikada turizmin inkişaf etdirilməsində istifadə etmələrini məqsədəuyğun hesab edirik.

Əlverişli iqlim ehtiyatlarını nəzərə alaraq burada iqlim bolnoloji mərkəzinin yaradılması olduqca əhəmiyyətlidir. Dünyanın bir çox yerlərində bu cür mərkəzlər mövcuddur. Qeyd etmək lazımdır ki, rekreasiya potensialı Arazboyu səhralarddan daha aşağı olan Türkmənstanın səhrada yerləşən Baxardin və Bayraməli mərkəzlərinə müalicə məqsədi ilə hər il minlərlə turist gəlməkdədir.

Ərazidə yerləşən "Araz su qavşağı" su anbarından çimərlik, eləcə də avarçəkmə, baydarka və digər su idman növlərinin inkişafında istifadə oluna bilər.

## ƏDƏBİYYAT


1. Babayev S. Y. Naxçıvan Muxtar Respublikasının coğrafiyası, Elmi, Bakı, 1999. s. 298
2. S.Y.Babayev Qədim diyarın təbiəti, Bakı, 1970. 211s.
3. N.S.Bababəyli. Yuxarı və Orta Arazboyunda səhra landşaftı, Azərbaycan Coğrafiya Cəmiyyətinin, AMEA Coğrafiya İnstitunun əsərləri XV cild, Bakı, 2010 s.126-128
4. Naxçıvan Muxtar Respublikasının bitki örtüyü, Naxçıvan Muxtar Respublikasının Coğrafiyası, I cild, Naxçıvan, 2016 s. 332- 352
5. N.S.Bababəyli, G.Süleymanova, Orta Araz təbii vilayətinin landşaft komplekslərinin ekoloji şəraitinə dair, Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, IX cild, Bakı, 2004, s.155-160
6. N.S.Bababəyli. Orta Araz təbii vilayəti düzənlik landşaftı kompleksində səhralaşma problemi Azərbaycanda elmin inkişafı və regional problemlər, AMEA NB, Elmi konfransın materialları, Bakı, 2005, s.548-553
7. N.S.Bababəyli. Arazboyunda landşaftın deqratasiya problemləri, Naxçıvan: Tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri, Beynəlxalq simpoziu-mun materialları, Naxçıvan, 2006, s.377-383
8. N.S.Bababəyli. F.İmat. Orta Araz hövzəsində səhra, yarımsəhra və quru çöl Landşaft komplekslərinin rekreasiya potensialı, AMEA NB xəbərləri, № 2. Naxçıvan, 2010, s.277-281
9. B.Ə.Budaqov, N.S.Bababəyli Arazboyunda səhra landşaftı, Kiçik biznes və sahibkarlıq fəaliyyətinin inkişaf problemləri, Məqalələr toplusu, Bakı, 2004, s. 9 - 13
10. Səhra landşaft kompleksləri, Naxçıvan Muxtar Respublikasının Coğrafiyası. I cild. Naxçıvan, 2016. s.384-390
11. Mirzəyev P.S. Naxçıvan MSSR-in Aqroiqlim səciyyəsi, Dissertasiya işi, Bakı-1965. 319 s


## ABSTRACT


**Ali Gurbanov**
**Nigar Bababeyli**
**Gultekin Suleymanova**


### ABOUT TOURISTIK - REKREATION POSSIBILITIES OF DESERT LANDSCAPES OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC


In the article is characterized desert landscape of the plain of Araz in Nakhchivan Autonomous Republic at the same time is estimated touristic-recreation potential. At the time of estimate are indicated some elements of landscape,as climate, moisture content of air, relief, flora and fauna etc. Are given some advice to develop tourism


## РЕЗЮМЕ


**Али Гурбанов**
**Нигар Бабабейли**
**Гюлтекин Сулейманова**


### ОБ ТУРИСТИЧЕСКО - РЕКРЕАЦИОННЫХ ВАЗМОЖНОСТЯХ ПУСТЫННЫХ ЛАНДШАФТОВ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУВЛИКИ


В статье характеризуется пустынный ландшафт Приараксинской низменности Нахчыванской Автономной Республики. Одновременно оценивается туристическо – рекреационный потенциал, во время оценки указываются отдельные компоненты ландшафта, такие kak климат, влажность воздуха, рельеф, растительный и животный мир и т.д. Выдаются советы с целью развития туризма.

**NAZİM BABABƏYLİ**
*Naxçıvan Dövlət Universiteti*
*n.bababeyli@nu.edu.az*
**QİYAS QURBANOV**
*AMEA Naxçıvan Bölməsi*
*qiyas.qurbanov92@gmail.com*
**ƏNNAĞI ƏSGƏROV**
*Naxçıvan Dövlət Universiteti*
*askerov_a1970@mail.ru*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ƏRAZİSİNDƏ CAZİBƏ, SU-CAZİBƏ PROSESLƏRİNİN AEROKOSMİK METODLARLA TƏDQİQİNƏ DAİR

**Açar sözlər:** *cazibə, su - cazibə prosesləri, sürüşmə, uçqun yamacı, sel axını, ufantı, məsafəli metod*
**Key words:** *gravitation, water-gravitation processes, landslip, rockfallstope, mountain waste, mud flow, remote sensing*
**Ключевые слова:** *гравитация,водно-гравитационные процессы, оползень, обвальный склон, селевой поток, осыпь, дистанционный метод*

Su - cazibə proseslərinin yaranmasında çoxlu amil iştirak etdiyindən onların, xüsusi ilə uçqunların qabaqcadan xəbər verilməsi olduqca çətindir. Bu sahədə həm Azərbaycan, həm də xarici ölkələrdə böyük tədqiqat işləri aparılır. Ancaq bunlara baxmayaraq proseslərin proqnozu məsələsi hələ də öz həllini tapmamışdır. Son zamanlar müəyyən qədər aerokosmik metodlar vasitəsilə su - cazibə hadisələrinin dinamikası və əmələ gəlmə şəraiti ilə AMAKA-nın Naxçıvan şöbəsinin əməkdaşları məşğul olmuşlar (1, 2, 3.).

Proseslərin aerokosmik üsullarla öyrənilməsi əsasən iki mərhələdə aparılır. Əvvəlcə tədqiqat sahəsinin müxtəlif informasiya vasitələri ilə təsviri alınır, sonra isə bu təsvirlər müasir texniki cihazların köməyi ilə deşifrə olunur.

Ərazinin aerokosmik tədqiqində, yəni onun təsvirinin alınmasında çoxzonalı foto, spektral, infraqırmızı (İQ), radiolokasion (RL) üsullardan istifadə olunur. Kosmik tədqiqatların əsas üstün cəhəti ondan ibarətdir ki, obyektlərin coğrafi mövqeyi və burada baş verən proseslər operativ olaraq müəyyən edilir. Alınan fotoşəkillərin tədqiqi zamanı prosesi yaradan və sürtünmə qüvvəsini azaldan dayanıqlığını itirmiş yamacları asanlıqla qeydə almaq olur.

Ərazinin məsafədən tədqiqi zamanı əldə edilən çoxzonalı spektrozonal şəkillər daha geniş məlumat imkanlarına malikdir. Yerin məsafədən öyrənilməsinin ikinci mərhələsi aerofotoşəkillərin deşifrələnməsidir. Qeyd etmək lazımdır ki, qrunt və süxurlar özünəməxsus morfoloji əlamətlərə malikdir. Qruntun səthinə xas olan bu əlamətlərin indiqasiyası çox vaxt aşağı qatlar ilə sıx əlaqədardır. Ancaq aerokosmik informasiya vasitələri ilə alınan təsvirlərdə biz qruntun alt qatlarının xüsusiyyətlərini bilavasitə görə bilmir, yalnız onun səthinin geomorfoloji xüsusiyyətlərini ayırd edə bilirik. Odur ki, yer səthi quruluşunu və onun bir sıra gözə çarpan əlamətlərini aerokosmik şəkillərdə müşahidə etməklə biz, nəinki süxurların genetik tipini, yatım şəraitini, rəngini, bitkilərlə örtülmə əmsalını və s. ayıra bilirik, hətta, təcrübə sahələri üçün əlimizdə olan yerüstü müşahidələrimizin əsasında müxtəlif genetik xüsusiyyətlərə malik süxur tiplərini də müəyyən edə bilərik.

Son zamanlar istər cazibə və su - cazibəistərsə də, digər geoloji - geomorfoloji obyektlərin deşifrə olunması məsələlərində əsasən üç üsuldan istifadə edilir.

Birinci ən əsas və geniş yayılan vizual üsuldur. Bu üsulla tədqiqatçının təcrübəsinə əsaslanaraq obyektin bilavasitə və dolayı deşifrə əlamətləri müəyyənləşdirilir. Məsələn; meşə ərazisində nəzərə çarpan açıq həmcins tona malik bitkisiz sahə burada sürüşmə prosesinin baş verdiyini göstərməkdədir.

İkinci üsul vizual - instrumental üsuludur. Bu üsulun tətbiqində tədqiqatçının təcrübi keyfiyyətləri əsas götürülməklə deşifrə işləri müasir tipli yeni cihazların köməyi ilə aparılır və bu vizual müşahidə zamanı, ortaya çıxan səhvlərin aradan qaldırılmasına kömək edir.

Üçüncü üsul çəkilişlərin analizi və təhlili kompüterlər və digər texniki vasitələrin köməyi ilə keçirilir (10, s. 20-21).

Aerokosmik üsullarla cazibə və su - cazibə proseslərinin öyrənilməsinin Naxçıvan Muxtar Respublika üçün böyük əhəmiyyəti vardır. Çünki müşahidə apardığımız su - cazibə ocaqlarının böyük əksəriyyəti çətin keçilən orta və yüksək dağlıq qurşaqda yerləşir. Burada isə eroziyanın və su - cazibə proseslərini yaradan

başqa təbii dağıdıcı prosesləri ənənəvi üsulla öyrənmək çətindir. Məhz buna görə də respublikamızda təbii dağıdıcı proseslərin bu üsulla öyrənilməsi əsas məsələlərdən biri kimi qarşıda durmaqdadır.

Müxtəlif diapazonda çəkilmiş spektral şəkillərin köməyi ilə müxtəlif dərəcədə eroziyaya məruz qalmış əraziləri asanlıqla ayırd edilmiş və onun xəritə - sxemini hazırlamaq mümkün olmuşdur. Bu şəkillərdə süxurların eroziya dərəcəsini biruzə verən ən mühüm amillərdən biri olan rütübətlənmə şəraiti və yamacların meyilliliyini öyrənmək olduqca asandır. Bitki örtüyü zəif inkişaf etmiş sahələr aerofoto şəkillərdə asanlıqla nəzərə çarpır. Belə sahələrdə yamacın dayanıqlığını itirən eroziya prosesi intensiv gedir. Şiddətli eroziyaya məruz qalmış yamaclar aerokosmik şəkillərdə ətraf eroziyanın inkişaf etmədiyi sahələrə nisbətən olduqca açıq rəngdə görünür. Bu eroziyaya məruz qalmış sahələr rütubət dəyişməsi, bitki örtüyünün daha zəif inkişaf etməsi bununla əlaqədar çəkilişlərə tünd rəng verən humus çatışmamazlığı ilə izah olunur. Bəzi müəlliflər bitki örtüyünün sürüşmə prosesini artırdığını iddia edirlər (7, s. 53). Belə ki, bitki aerallarının sıxlığı xüsusi ilə ağacların biokütləsi yamacda ağırlıq qüvvəsini artırmaqla sürüşmə prosesini gücləndirmiş olur. Yağan gur yağışlar nəticəsində eroziyaya məruz qalan çökmə mənşəli yumuşaq süxurlar yuyulub gedir və ana süxur səthə çıxır. Müəyyən olunmuşdur ki, eroziyaya məruz qalmış torpaqlara nisbətən şiddətli dərəcədə yuyulmuş torpaqlarda humusun, azotun, fosforun və başqa elementlərin, həmçinin rütubətin miqdarı 3-4 dəfəyə qədər azala bilir. Bəzən yuyulma dərəcəsindən asılı olaraq adlarını çəkdiyimiz elementlərin miqdarı torpaqda yox dərəcəsinə qədər enir. Belə sahələr aerokosmik şəkillərdə süxurların şüanı əks etdirmə qabiliyyətindən asılı olaraq aydın surətdə seçilir. Müxtəlif vaxtlarda çəkilmiş aerofotoşəkillər ərazilərdə cazibə, su - cazibə proses və formalarının yerləşdiyi sahələrin müəyyən olunmasına daha yaxşı imkanlar yaradır. Dağlıq və xüsusi ilə çətin keçilən sahələrdə yamacların vəziyyəti haqda ənənəvi üsulla tədqiqat aparmaq mümkün olmadığına görə belə sahələrin öyrənilməsində aerokosmik tədqiqatlar tətbiq edilir. Çay hövzələrində yamaclar dinamikasını və bu ərazilərdə sürüşmələrin inkişaf sürətini təyin etmək üçün aerofotoşəkillərin dəqiq cihazlar vasitəsi ilə deşifrələnməsi lazımdır. Bu zaman aerokosmik tədqiqatlar təbii mühit və burada gedən bir sıra proseslər haqqındakı bəzi fikirlərimizi dəyişdirmiş, onları daha da dürüstləşdirmiş və lazımi düzəlişlər verməyə imkan yaratmışdır.

Nəzərə almaq lazımdır ki, kosmik informasiya vasitələri ilə həmçinin atmosferdə müşahidə edilən su-cazibə və cazibə proseslərini aktivləşdirən bir sıra proseslə, sel, ildırım, ifrat rütubətlənmə, yağıntı və s. vaxtında qeydə alınmaqla bunların yaradacağı fəlakətin qarşısını almaq mümkün olur. Beləliklə tədqiqat obyektlərində baş verən bir sıra mühüm dəyişikliklər, bitki örtüyünün məhv olması, su çatışmazlığı, şaxta və ya quraqlıq nəticəsində baş verən dəyişikliklər müxtəlif məqsədli aerofotoşəkillər vasitəsi ilə müəyyən etmək mümkün olmuşdur. Bununla da baş verə biləcək təbii dağıdıcı proseslərin əvvəlcədən ocağı müəyyən olunmuş və bunların sahələri müəyyənləşdirilmişdir. Bu obyektlərə kosmosdan nəzarət etməklə alınan bir neçə aerofotoşəkilləri müqayisə etməklə təhlükəli obyektlər nəzarətə götürülmüşdür. Müqayisəli aerofotoşəkillərin analizi zamanı uçqun hadisəsi baş verəcək ərazilərdə ocaqlar müəyyən edilərək ağırlıq prosesinin artmasına təsir edən amillər, xüsusi ilə quruntun rütubətlənmə və süxurların yatım şəraiti, yamacların meyilliyi müəyyən edilmiş və bununla yanaşı daimi aerokosmik müşahidələr nəticəsində qar örtüyü onda olan su ehtiyatı da müəyyənləşdirmişdir. Nəticələrin dəqiqliyi üçün bəzi yerlərdə yerüstü müşahidələr və fotoçəkilişlər aparılmışdır (Şək.2-5).

Təbii komponetlərin kompleks tədqiqi və təhlili uçqun və ufantı ocaqları haqda qabaqcadan dəqiq və müxtəsər məlumatlar verilməsinə imkan yaratmışdır. Məlumatların əldə olunması həm yaşayış məntəqələrində əhali üçün, həmdə kənd təsərrüfatı sahələrinə vurulacaq ziyanın qarşısını almağa imkan vermiş olur ki, bu da hadisə baş verməmişdən əvvəl əhali köçürülməli və kənd təsərrüfatı obyektlərində təhlükəsizlik tədbirləri görülməsinə şərait yaradır. Bu məlumatların müəyyən edilməsinin əhəmiyyəti bir də ondan ibarətdir ki, əhalinin əsas məskunlaşdığı fövqəladə təhlükəli yerlərdə evlər tikilərkən təbii - dağıdıcı proseslərinin nə dərəcədə dağıdıcı qüvvəyə malik olması və hansı ərazilərdə baş verəcəyi nəzərə alınmasından ibarətdir.

Aerokosmik şəkillərin vizual, instrumental və indikasiya əlamətlərinə görə təhlili nəticəsində, qədim və müasir sürüşmə, daş uçqunları, ufantı prosesləri relyefi dəyişən digər dağıdıcı və s. bu kimi dinamik proseslər dəqiq müəyyən olunmuşdur.

S.Y.Babayev Naxçıvan Muxtar Respublika ərazisində uçqun və ufantıların Ordubadçay, Gilançay, Əlincəçayın yuxarı axarlarında daha geniş yayıldığını göstərir (9, s. 42). Onun fikirincə uçqun, ufantı və eləcə də sürüşmə materiallar sel ocaqlarının əsas mənbəyinə çevrilir.

Cazibə və su cazibə proseslərinin Naxçıvan Muxtar Respublika ərazisində coğrafi yayılma ehtimalını müəyyən etmək üçün eyni zamanda kosmik şəkillər əsasında Nazim Bababəyli və Cercis Lkiəlin hazırladığı hipsometrik xəritədən istifadə edilmişdir.




**Şək.1. Cazibə və su cazibə proseslərinin aktivlik dərəcəsinə görə rayonlaşdırılması** (N.Bababəyli və C.İkielə görə)

I-aktiv qurşaq; II-nisbətən aktiv qurşaq; III-nisbətən zəif qurşaq; IV-zəif qurşaq; V-proseslərin müşahidə edilmədiyi qurşaq

Aerokosmik materiallar və hipsometrik xəritə əsasında aktivlik dərəcəsinə görə cazibə və su cazibə prosesləri müvafiq olaraq 5 rayona ayrılmışdır.

Xəritənin təhlili göstərir ki, uçqun və ufantı proseslərinin ən çox baş vermə ehtimalı Zəngəzurda, inzibati rayonlar içərisində isə Ordubad və Culfa rayonları ərazisidir.

Dərəşam-Gülüstan massivində, Şurut-Qaradərə çay hövzələrinin orta hissəsində, İlandağ (2415,8 m), Nəhəcir (1807,3 m), Əlincə (1821,4 m), Berdik (2053,6 m), Əshabi-Kəf (1665,9 m), Qarayoxuş (1071,7 m), Dikdaş (1411 m), Ağqaya (1758,5 m), Qaraulxana (1706,4 m), Ağsal (1928 m), Ardıc (2034,4 m), Qapıcıq (3905,2 m), Ağdağ (3497 m), Dəvəboynu (3563 m), Qazangöldağ (3829,2 m), Dəmirli (3368,2 m), Gədik aşırımı (2563 m), Camaldağın (3204,5 m) ətəklərində sahə vahidinə görə uçqunlar ən aktiv, Küküdağ (3120 m), Salvartı (3161,8 m), Sarıdağ (1986,9 m), Sarmın (Keçili) (2295,4 m), Anabadgədik (2081,1 m), Tirkeş (1409,2 m), Qaraultəpə (1442,7 m), Çaxmaqlı (1060,6 m), Qaraquş (2600,5 m), Günnüt (1982 m), Ərdağlı (2230,4 m), Əyridağ (3124 m), Sarıdağ (1725 m), Ələngəzdağ (2369,9 m),Gülümgülüm (2187,3 m), Darğamalik (2196 m), Qılıncyurd (2455,2 m) və Keçəldağ (3118,9 m) zirvələrinin, Biçənək (2346,9 m), Dağdağan (2958,5 m) aşırımlarının ətəkləri aktiv, Zəngəzurun Arazboyu hissəsi, Duzdağ massivi (1153,8 m), Qabıllı (2125,7 m), Tənənəm (1007,5 m), Billava (1560,9 m), Qaraburun (945,6 m), Dəhnə (1154,2 m) passiv və nəhayət Arazboyu prolüvial düzənliklər isə sürüşmə, uçqun və ufantıların müşahidə edilmədiyi rayona daxildir.

Sürüşmələrin ən aktiv yayıldığı qurşaq bütövlükdə Naxçıvançay hövzəsinin yuxarı hissəsini, Batabat massivini, Biçənək meşəsini, Küküçayın orta axarını, Keçili, Zirnel yaşayış məskənlərini əhatə edir. Burada həm qletçer və həm də delyapsiv sürüşmələr geniş yayılmışdır. Duzdağ massivi, Darıdağ, Çalxanqala tirəsi nisbətən zəif sürüşmə sahəsidir.





**Şək.2. Uçqun ehtimalı yüksək olan dik yamac** (Qaraquş dağı)

**Şək.3. Sahəvi sürüşmə** (Şahbuz rayonu Keçili kəndi)





**Şək.4. Asılı yamac** (Vənəndçay vadisi)

**Şək.5. Uçqun materialları** (Pəzməri şəlaləsi)

**ƏDƏBİYYAT**


1. Bababəyli N., Əzizov B. Stereofotoqrafiya sürüşmələri öyrənir, Elm və həyat. № 4, 1987, s. 2-3.
2. Bababəyli N., Əliyev M. Sürüşmə axınların dinamikasının spektrometrik tədqiqinə dair, Azərbaycan Coğrafiya cəmiyyətinin altıncı qurultayı, Qurultayın materialları, Bakı, 1990, s.74.
3. Бабабейли. Н., Иманов Н., Исрафилов Ш. К использованию аэрокосмической информации о лесном покрове при исследовании оползневых и селевых явлений на территории Большого Кавказа. Аэрокосмические методы исследования лесов. Красноярсk, 1984, с. 103-104.
4. Бабабейли. Н., Иманов Н. Изучение некоторых геоморфологических характеристик оползней с помощью многозональных космических снимков, Материалы Всесоюз.конф. НПО Космических исследований. Баку, 1984. с. 26-28.
5. Бабабейли. Н., Иманов Н., Алиев М. Результаты исследований оползень-потоков на ЮВ части Б.Кавказа на основе анализа данных о спектральной яркости, Тезисы докладов. Съезд Географического Общества Азерб. ССР. Баку, 1985, с. 202-203.
6. Бабабейли. Н., Исмаилов Дж., Кулиева С. Дистанционные определения оползней и обвалов в условиях СВ склона Большог Кавказа. Труды научной конференции МУ, посвященной 10-летию создания НПО Космических исследований. ВИНИТИ, 1986, с. 40-44.

7. Бабабейли. Н., Исмаилов Дж.,Ахундова З. О дистанционном изучении сkлоновых процессов в условиях высоkогорья. Труды научной kонференции МУ, посвященной 10-летию создания НПО kосмичесkих исследований. ВИНИТИ, 1986, с. 51-55.
8. Бабабейли. Н., Исрафилов Ш., Исмаилов Дж. Дистанционные исследования разрушительных водно-гравитационных процессов юго-восточного сkлона Большого Kавkаза, Эkспресс-информация. Геодезия, аэро-съемkа, kартография. Содержание выпусkа X и XI Всесоюзной научно-техничесkой kонференции молодых специалистов Госцентра «Природа». № 9-10, Мосkва, 1987, с. 26-27.
9. Babayev. S.Y Naxçıvan Muxtar Respublikasının coğrafiyası, Bakı, Elm, 1999, 198s.
10. Кронберт.П. Дистанционное изучение Земли, Москва, «Мир», 1988. 350 с.
11. Fotolar N.S.Bababəylinindir

**ABSTRACT**

**Nazim Bababeyli**
**Giyas Gurbanov**
**Annagi Asgarov**

**ABOUT INVESTIGATION BY AEROSPACE METHODS OF GRAVITATION AND WATER-GRAVITATPION PROCESSES ON THE TERRITORY OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**

İn the article are shown types of gravitation and water-gravitation processes, patterns of their geographical distribution and location on the territory of Autonomous Republic. Was explained the research methodology by aerospace methods of relief forms created by the processes.

**РЕЗЮМЕ**

**Назим Бабабейли**
**Гияс Гурбанов**
**Аннаги Аскеров**

**ОБ ИССЛЕДОВАНИИ АЭРОКОСМИЧЕСКИМИ МЕТОДАМИ ГРАВИТАЦИОННЫХ И ВОДНО-ГРАВИТАЦИОННЫХ ПРОЦЕССОВ НА ТЕРРИТОРИИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ**

В статье уkазаны виды гравитационных и водно-гравитационных процессов, заkономерности их географичесkого распространения и поясного расположения на территории Автономной Республиkи. Объяснена методиkа исследования аэроkосмичесkими средствами рельефных форм созданных этими процессами.

# MÜNDƏRİCAT

## PLENAR İCLAS

1. **Saleh Məhərrəmov.** Naxçıvanda ali təhsilin inkişafi........................................................................................ 3
2. **İsmayıl Hacıyev.** Naxçıvanın muxtariyyətləşməsi..................................................................................... 7
3. **Xəzər Hüseynov, Seyran Hüseynli.** Naxçıvan Muxtar Respublikasının səhiyyəsi (1945-1960-cı illər)..14

## I BÖLMƏ. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İCTİMAİ-SİYASİ VƏ SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ

4. **Seymur Talıbov.** Naxçıvan Muxtar Respublikasının geosiyasi vəziyyəti və enerji təhlükəsizliyinin hüquqi əsasları........................................................................................................ 18
5. **Zəhmət Şahverdiyev.** Naxçıvanın muxtariyyəti tarixi naliyyətdir (Nax.MSSR-1995)........................ 23
6. **Sevinc Abbasova.** Naxçıvan Muxtar Respublikasında qadınların sosial-iqtisadi tərəqqisi.................... 26
7. **İsmayıl Zeynalov, Bəsrət Zeynalov.** Naxçıvan Muxtar Respublikasında elm və təhsil sahəsində görülən işlərin xronoloji təhlili (2001-2012-ci illər)........................................................... 33
8. **Rafiq Rəhimov, Nadir Hüseynbəyli.** 28 aprel işğalından sonra Naxçıvan ziyalılarına qarşı tətbiq edilən siyasi avantüra........................................................................................................ 39
9. **Məmməd Rzayev, Abbas Əhmədov.** Heydər Əliyev və milli həmrəylik fəlsəfəsi............................. 45
10. **Ağarza Rüstəmov.** Naxçıvan Muxtar Respublikasında aqrar sektorun davamlı inkişafı və ərzaq təhlükəsizliyi məsələləri........................................................................................................ 50
11. **Teymur Abbasov.** Naxçıvan Muxtar Respublikasında aqrar bazarın inkişafı və aqrar sektorun resurs potensialının formalaşdırılmasının əsas istiqamətləri.............................................................. 52
12. **Qərib Allahverdiyev.** XX əsrin sonlarında Naxçıvanda gedən ictimai-siyasi proseslər ümummilli oyanışın və dirçəlişin başlanğıcı kimi........................................................................................ 57
13. **Ceyhun Mahmudov.** Naxçıvan Muxtar Respublikasının tarazlı inkişafının təmin edilməsində aqrar sahənin rolu........................................................................................................ 62
14. **Əşrəf Ələkbərov.** Naxçıvan Muxtar Respublikasında əhalinin etibarlı ərzaq məhsulları ilə təminatında aqrar islahatların rolu........................................................................................................ 68
15. **Şamxal Məmmədov.** XIX-XX yüzillikdə Rusiyanın Cənubi Qafqaz siyasətində erməni amili və Naxçıvanda miqrasiya prosesləri........................................................................................72
16. **Мехти Багиров, Самиддин Касумов.** Семейные хозяйства-одно из приоритетных направлений развития аграрного сектора Нахчыванской Автономной Республики на современном этапе.......76
17. **Məmməd Əliyev**, **Nərmin Orucova**. Gənclərin vətənpərvərlik tərbiyəsində muzeylərin rolu.............84
18. **Fəxrəddin Cəfərov.** Naxçıvan muxtariyyəti və inzibati ərazisi tarixindən........................................... 87
19. **Rəsul Bağırov.** Qədim Naxçıvanın qala şəhərləri əhalisinin iqtisadiyyatı........................................... 91
20. **Ələkbər Cabbarlı.** Naxçıvana erməni təcavüzü və muxtariyyət statusunun qazanılması............. 95
21. **Nuriyyə İbrahimova.** Milli iqtisadi inkişafda regional sahibkarlığın rolu.......................................... 99
22. **Zenfira Seyidova.** Muzey və ekskursiya iş...................................................................................... 104
23. **Ülkər Həsənzadə.** Naxçıvan Muxtar Respublikasının turizm bazarının fəaliyyət mexanizmi........... 108
24. **Məhsəti Məmmədova.** Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir............................................... 111
25. **Zaur Əliyev.** Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının davamlı inkişaf yolunu aydınladan ümummilli lider Heydər Əliyevin töhfələri.......................................................................... 113
26. **Əbdülhüseyn Zamanov.** İxracyönümlü istehsal iqtisadiyyatın şaxələndirilməsi istiqamətlərindən biri kimi........................................................................................................ 117
27. **Elman Cəfərli.** Naxçıvanın muxtariyyət statusu və Azərbaycanın unitar dövlətçilik prinsipi.............119
28. **Yaşar Rəhimov.** Muxtariyyət ərəfəsində Naxçıvanda sosial-iqtisadi vəziyyət (1914-1922-ci illər)........................................................................................................ 123
29. **Eltun İbrahimov**. Muxtar respublikada aqrar təsərrüfatın mövcud və gələcək imkanları........................ 128
30. **Vüsal Novruzov.** Ölkəmizdə iqtisadi artımın xüsusiyyətləri........................................................... 131
31. **Toğrul Xəlilov**. Müstəqillik dövründə Naxçıvanda arxeoloji tədqiqatlar........................................... 134
32. **Pakizə Babayeva.** Naxçıvan muxtariyyəti əbədidir............................................................................. 138

## II BÖLMƏ. NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TƏHSİL VƏ ƏDƏBİ MÜHİT


33. **Sədaqət Həsənova.** Çağdaş Naxçıvan ədəbi mühitində söz-ifadə yaradıcılığı məsələləri................. 141
34. **Hüseyn Həşimli.** Unudulmuş tərcüməçi.........................................................................................146
35. **Əsgər Qədimov.** Aşıq Nabatın həyatı və yaradıcılıq yolu................................................................ 150
36. **Yusif Hüseynov.** Naxçıvanda milli şüurun oyanışında ”Molla Nəsrəddin” jurnalının və mollanəsrəddinçilərin rolu........................................................................................................ 155
37. **Sevinc Orucova.** Müstəqillik illərində Naxçıvanda ümumi təhsilin inkişafı...................................... 159
38. **Novruzəli Rəhimov, Abbas Əhmədov, Bağır Babayev.** Hüseyn Cavid iblis-insan qarşıdurmasında insanın və dünyanın gələcək taleyi haqqında........................................................................ 162
39. **Mirhəsən Eminov.** Naxçıvan Muxtar Respublikasının tam orta məktəblərində şəxsiyyətyönümlü təhsilin tətbiqinin səmərəli yolları............................................................................................ 167
40. **Surə Seyid.** “Şərq qapısı” qəzeti və Naxçıvan ədəbi mühiti............................................................ 171
41. **Elbrus Vəliyev.** Vaqif Məmmədovun şeirlərində morfoloji yolla söz yaradıcılığı............................ 175
42. **Гусейн Адыгезалов**. Нахчыванская тема в Русской литературе: история и современность. 179
43. **Mehriban Quliyeva.** XX əsrin əvvəlləri Naxçıvan ədəbi mühiti nümayəndələrinin yaradıcılığında bədii dil mənzərəsi.................................................................................................. 185
44. **Sədaqət Nemətova**. Naxçıvanda kitabxana işinin tarixi.................................................................. 190
45. **Nəzakət İsmayılova.** Naxçıvan regionunda mədrəsə təhsili, xalq maarif müəssisələri və tərbiyə sistemi............................................................................................................................ 193
46. **Şərəbanı Məmmədova.** Naxçıvanlı yazıçı və şairlərinin yaradıcılığında Heydər Əliyev obrazı.......... 198
47. **Taleh Xəlilov.** Muxtariyyət dövründə Naxçıvanda müəllim kadrlarının hazırlığı............................ 202
48. **Solmaz Cabbarova.** Məktəblə ailənin əlaqə formaları və onların uşaqların tərbiyəsi işində əhəmiyyəti....... 206
49. **Həbibə Allahverdiyeva.** Muxtariyyət illərində Naxçıvan teatr rəssamlığının inkişaf xüsusiyyətləri və milli tematika..............................................................................................................................209
50. **Könül Salmanova.** Vətəndaş cəmiyyəti və hüquqi dövlətdə dünyagörüşü şəxsiyyətin fəaliyyətinin istiqamətini müəyyənləşdirən amil kimi......................................................................................... 213
51. **Püstə Əhmədova.** Muxtariyyət dövrü Naxçıvan ədəbi mühitində İmadəddin Nəsimi obrazı.....................217
52. **Pərvin Abdullabəyova.** Naxçıvan folklorunun dilində rənglərin üslub keyfiyyətləri..................... 221
53. **Toğrul Cəfərli.** Heydər Əliyev dühası Azərbaycan rəssamlarının əsərlərində.................................. 224
54. **Mehriban Cəfərova.** Muğam tədrisinin problemləri........................................................................229
55. **Aytən Qurbanova.** Naxçıvan ədəbi mühitində Hüseyn Cavid obrazı............................................ 232
56. **İsmayıl Mürsəlov.** Musiqi vasitəsilə şagirdlərdə estetik tərbiyənin inkişafı...................................... 237
57. **Nilüfər Ağayeva.** Müstəqillik illərində Naxçıvanda təhsilin inkişafı.............................................. 239
58. **Zeynab Mehdiyeva.** Həyat bilgisi fənninin tədrisində sağlam həyat tərzinə dair bilik və bacarıqların nümayiş etdirilməsi.................................................................................................. 243
59. **Nəzakət Yusifova.** Naxçıvanda pedaqoji kadrların hazırlanmasında İsmayıl Əliyevin rolu ......................... 247
60. **Aygün Rüstəmova.** Kiçikyaşlı məktəblilərin aldığı qiymətin təlimə adaptasiyada rolu.............................249
61. **Tehranə Xudaverdiyeva.** Naxçıvan nağıl təhkiyəsində zaman və məkan.......................................... 252


## III BÖLMƏ. NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TƏBİƏTŞÜNASLIQ VƏ TİBB ELMİNİN İNKİŞAFI


62. **Daşqın Qənbərov.** Naxçıvan Muxtar Respublikası florasında yayılan *Asragalus* cinsinə aid olan növlərində endemizmin təhlili.......................................................................................... 254
63. **Mətləb İbrahimov.** Naxçıvan Muxtar Respublikasında yenidoğulmuş uşaqlarda anadangəlmə inkişaf qüsurları və AİQ monitorinq sisteminin əsasları........................................................................ 257
64. **Nüsrət Həsənov.** Muxtariyyat illərində Naxçıvan Səhiyyəsi (1988- 2018 illər)............................ 260
65. **Elsevər Əsədov, Mürsəl Seyidov.** Naxçıvan Muxtar Respublikası ərazisində bal arısı (Apis Mellfera l.) tərəfindən istehsal olunan balların bitki mənbələri............................................... 266
66. **Fəridə Səfərova.** Naxçıvan MR florasının scrophulariaceae juss. -keçiqulağıkimilər fəsiləsinin zəhərli növləri................................................................................................................272
67. **Akif Mərdanlı, Tofiq Əliyev, Fərman Xudaverdiyev.** Suyun xassələri və onun bitki hüceyrəsinə daxil olması..............................................................................................................................275
68. **Aysel Heydərova.** Naxçıvan Muxtar Respublikasının Darıdağ massivi bitkiliyinin öyrənilməsi tarixi.....278

69. **Yasin Babayev, Pərvin Quliyev.** Darıdağ termal suyunun enerjisindən daha geniş istifadə imkanları haqqında....281
70. **Enzalə Novruzova.** Naxçıvan Muxtar Respublikası florasına daxil olan *Caryophyllaceae Juss.* – qərənfilkimilər fəsiləsi bitkilərinin öyrənilmə tarixi.... 285
71. **Namiq Abbasov**. Naxçıvan Muxtar Respublikasının yay otlaqlarında qurdotu (*Lotus* L.) cinsinə daxil olan növlər və onların istifadə perspektivləri.... 287
72. **Surə Rəhimova**. Naxçıvan Muxtar Respublikası ərazisində yayılmış *Capparis spinosa L.* Növünün karotinoidləri.... 291
73. **Ənvər İbrahimov, Həmidə Seyidova, Əli Qurbanov.** Naxçıvan Muxtar Respublikası ərazisində yayılan *Prunus* l. cinsinə daxil olan növlərin tədqiqi, təbii ehtiyatı və səmərəli istifadə yolları.... 294
74. **Məmməd Hüseynəliyev**. Milli ornamentləri özündə əks etdirən yeni simmetriya elementləri və onların tətbiqi.... 299
75. **İlkin Vəlibəyov.** Naxçıvan Muxtar Respublikasının seysmik tarixi.... 303
76. **Ramiz Ələkbərov.** Azərbaycanın Naxçıvan Muxtar Respublikası florasında yayılan *Sideritis balansae* Boiss. - balans dəmrəyi növünün fitokimyəvi analiz nəticələri və istifadə perspektivləri.... 308
77. **Varis Quliyev.** Naxçıvan Muxtar Respublikasının aborigen üzüm sortu – qoç üzümü....311
78. **Əliyar İbrahimov, Fatmaxanım Nəbiyeva, Musa Cabbarov.** Naxçıvan Muxtar Respublikasının dağ-kserofit bitkiliyində yayılmış qırtıcların (taxılların) həyat formaları və ekoloji qurupları.... 315
79. **Əli Qurbanov**, **Nigar Bababəyli**, **Gültəkin Süleymanova**. Orta Arazboyunda səhra landşaftinin turizm-rekreasiya imkanlarına dair....322
80. **Nazim Bababəyli, Ənnağı Əsgərov, Qiyas Qurbanov.** Naxçıvan Muxtar Respublikası ərazisində cazibə, su-cazibə proseslərinin aerokosmik metodlarla tədqiqinə dair.... 326